# الأَدَبُ المُفْرَد

لِلإِمَام الحَافِظ أَبِي عَبْدِ الله

مُحَمَّدِ بْنِ إِسْمَاعِيل بْنِ إِبْرَاهِيمَ البُخَارِي

(١٩٤-٢٥٦ هـ)

المترجم: علي خان موساييف

المجلد الأول

**قَالَ الله تَعالى:**

﴿ لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ
لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا ﴾

**Uca Allah ﷿ buyurur:**
**“Allahın rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.”**

İmam hafiz Əbu Abdullah
Muhəmməd ibn İsmail
ibn İbrahim əl-Buxari
(194-256 h)

# Peyğəmbərin ﷺ əxlaqı

(əl-Ədəbul-Mufrad və onun şərhi)

Ərəb dilindən tərcümə edən
Əlixan Musayev

Birinci cild

Redaksiya heyəti

Ə. Z. Musayev
M. N. Qarayev
A. X. Salehli
S. Z. Səfərbəyov
F. H. Bağırova
R. M. Ağayev
G. İ. Musayeva

Kompüter tərtibatı

M. N. Qarayev
E. Q. Rüstəmov

Bu kitab Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət
Komitəsinin razılığı ilə
çap edilmişdir.
(DK-550/B 12.11.2013)

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

## Mərhəmətli və Rəhmli Allahın adı ilə!

## Müqəddimə

Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ﴾

**“Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”[1]**

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمُ ٱلَّذِى خَلَقَكُم مِّن نَّفۡسٖ وَٰحِدَةٖ وَخَلَقَ مِنۡهَا زَوۡجَهَا وَبَثَّ مِنۡهُمَا رِجَالٗا كَثِيرٗا وَنِسَآءٗۚ وَٱتَّقُواْ ٱللَّهَ ٱلَّذِى
تَسَآءَلُونَ بِهِۦ وَٱلۡأَرۡحَامَۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيۡكُمۡ رَقِيبٗا﴾

**“Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.”[2]**

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَقُولُواْ قَوۡلٗا سَدِيدٗا ٧٠ يُصۡلِحۡ لَكُمۡ أَعۡمَٰلَكُمۡ وَيَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡۗ وَمَن يُطِعِ ٱللَّهَ
وَرَسُولَهُۥ فَقَدۡ فَازَ فَوۡزًا عَظِيمًا ٧١﴾

---

[1] “Ali-İmran” surəsi, 102.

[2] “ən-Nisa” surəsi, 1.

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar."**[3]

Bizi müsəlman kimi yaradan, doğru yola yönəldərək bizə hidayət verən, Peyğəmbərimizin ﷺ sünnəsini yaşamaqda bizə kömək edən, aləmlərin Rəbbi, haqq-hesab gününün Hökmdarı olan Uca Allaha şükürlər və həmd-sənalar olsun!

Əlimizdə olan bu kitab şəriət ədəbi və İslam əxlaqı, üstəlik, Peyğəmbərimizin ﷺ bu əvəzolunmaz xüsusiyyətləri nə cür təbliğ və tətbiq etdiyi barədə danışan möhtəşəm bir kitabdır. Bu, İslam aləmində "Hədis elmində möminlərin əmiri" ləqəbi ilə tanınmış hafiz Əbu Abdullah Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxarinin "əl-Ədəbul-Mufrad" adlı kitabıdır. "Mufrad" kəlməsi ərəbcə "əfrədə" ( أَفْرَدَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. "Mufrad" kəlməsi dilimizə – fərdi, ayrıca, tək və s. kimi tərcümə olunur. Ədəb deyildikdə isə əxlaq qaydalarına riayət, əxlaq və hərəkətdə, danışıqda nəzakət və incəlik nəzərdə tutulur. Alimlər İslam ədəbinin üç qismə bölündüyünü demişlər: Allah ilə, Onun Peyğəmbəri ﷺ ilə və bir də Allahın qulları ilə ədəblə davranmaq. Bunların ən əzəmətlisi isə, əlbəttə ki, Allah qarşısında ədəbli olmaqdır. Allah qarşısında ədəbli olmaq deyildikdə, Ondan utanmaq, aşkarda da, gizlində də Ondan layiqincə qorxmaq, ciddiyyət və əzmkarlıqla Ona itaət etmək və Onun qadağan etdiyi şeylərdən uzaq durmaq nəzərdə tutulur. Peyğəmbərlə ﷺ ədəblə davranmaq deyildikdə isə onun əmr və qadağalarını tərəddüdsüz qəbul etmək, heç bir bəndənin sözünü onun sözündən, etdiyini də onun etdiyindən üstün tutmamaq, İslama aid işlərdə onu örnək götürmək və yalnız onun yolunu tutub getmək nəzərdə tutulur. Bəndələrlə ədəblə davranmaq deyildikdə isə onların hər biri ilə onun özünə layiq tərzdə davranmaq, onun haqqını ödəmək qəsd edilir. Bu xüsusda varid olmuş hədislərin birində Salman əl-Farisi رضي الله عنه öz səhabə qardaşı Əbu Dərdaya رضي الله عنه "Rəbbinin sənin üzərində haqqı vardır, nəfsinin sənin üzərində haqqı vardır, ailənin sənin üzərində haqqı vardır. Elə isə, hər bir haqq sahibinə haqqını ver"–

[3] "əl-Əhzab" surəsi, 70-71.

demiş, sonra da Peyğəmbər ﷺ onun sözünü təsdiqləyib: "Salman doğru söylədi"– demişdir."[4] Demək, hər bir müsəlman öz öhdəsinə düşən vəzifələri yerinə yetirməklə ilk əvvəl Allahın və Onun Rəsulunun ﷺ, sonra da daha haqlı olanların haqqını ödəməlidir. Qeyd etmək lazımdır ki, ən xeyirli müsəlmanlardan olmaq, habelə, bu dünyada və Axirətdə uğur qazanmaq və səadətə qovuşmaq üçün gözəl əxlaq sahibi olmaq gərəkdir. Peyğəmbər ﷺ gözəl əxlaqın məziyyəti barədə belə buyurmuşdur: "Sizin ən xeyirliniz əxlaqı ən gözəl olanlarınızdır!"[5] Digər hədisdə o, demişdir: min adam öz gözəl əxlaqı ilə *gündüzləri* oruc tutub, *gecələri* namaz qılan kimsənin dərəcəsinə yüksəlir."[6] Başqa bir hədisdə o belə buyurmuşdur: "Sizin mənə ən sevimli və Qiyamət günü məclisinə görə mənə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır."[7] Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kimə mülayim olmaq nəsib edilmişsə, ona dünya və Axirət xeyri bəxş edilmişdir. Qohumlarla əlaqə saxlamaq, gözəl əxlaqlı olmaq və qonşuya yaxşılıq etmək məmləkətləri dirçəldir və ömürləri uzadır."[8] Xüsusilə, qeyd etmək lazımdır ki, gözəl əxlaq insanı Cənnətə aparan əsas amillərdən biridir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "İnsanların Cənnətə girməyinə ən çox səbəb olan amil, Allah qorxusu və gözəl əxlaqdır..."[9] Hərçənd, əxlaq barədə bir çox hədislər varid olmuşdur, lakin bunların ən əsası dördüdür. Maliki məzhəbindən olmuş və "balaca Malik" kimi tanınmış imam İbn Əbu Zeyd əl-Qeyrəvani demişdir: "Əxlaq ədəbləri və onun tutqacları dörd hədisə söykənir: *birincisi,* Peyğəmbərin ﷺ: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" hədisi, *ikincisi,* onun: "Müsəlmanın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" hədisi, *üçüncüsü,* ondan nəsihət istəyən kimsəyə: "Qəzəblənmə"– deyə nəsihət etməsi və *dördüncüsü,* onun:

---

[4] "Səhih əl-Buxari", 1968.

[5] "Səhih əl-Buxari", 3559.

[6] "Səhih ət-Tərğib vət-Tərhib", 2643.

[7] "Sunən ət-Tirmizi", 1/363; "Silsilətul-Əhadisis-Səhihə", 791.

[8] "Musnəd Əhməd", 6/159; "Silsilətul-Əhadisis-Səhihə", 519.

[9] "Sunən ət-Tirmizi", 1/361; "Sunən İbn Macə", 4246; "Musnəd Əhməd", 2/291, 392 və 442; "Silsilətul-Əhadisis-Səhihə", 2/706.

"Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz" hədisidir."[10] Xətib əl-Bəğdadi Peyğəmbərin ﷺ yolunu gedən möminlərin əxlaqı barədə danışarkən demişdir: "Peyğəmbərin ﷺ hədislərini öyrənən kimsələrə vacibdir ki, insanların ən ədəblisi, ən təvazökarı, ən düzdanışanı və ən dindarı olsunlar, habelə, yüngüllük etməsinlər və hər şeyə görə qəzəblənməsinlər. Həmçinin, onlar Rəsulullahın ﷺ gözəl əxlaqını və ədəbini özündə cəm edən rəvayətləri, onun əhli-beytindən və səhabələrindən olmuş əməlisaleh sələflərin həyat yolunu özündə əks etdirən, habelə, mühəddislərin həyat tərzindən danışan xəbərləri, üstəlik, keçmiş nəslin əvəzsiz xidmətlərini davamlı araşdırıb öyrənməlidirlər ki, ən gözəl və ən yaxşı əxlaqa əməl etsinlər, ən rəzil və ən pis əxlaqdan uzaq olsunlar."[11]

İmam Buxarinin bu kitaba "əl-Ədəbul-Mufrad" adını verməkdə qayəsi, onu özünün "Səhih"indəki "Ədəb" kitabından fərqləndirmək olmuşdur. Xüsusilə, qeyd etmək lazımdır ki, imam Buxari öz "Səhih"indəki "Ədəb kitabından" fərqli olaraq bu kitabda İslam ədəbi və əxlaqı ilə bağlı daha çox hədislər varid etmişdir. "əl-Ədəbul-Mufrad"əsəri ədəb və əxlaq mövzusunda yazılmış ən əhatəli və ən dəyərli kitablardan hesab edilir. Biz bu kitabı öyrənməklə şəriətin bizə buyurduğu İslam ədəbini və Rəsulullahın ﷺ bizə təbliğ etdiyi ən ali əxlaqı öyrənmiş olacağıq. Rəsulullah ﷺ Allahın ən sevimli dostu, Onun sonuncu peyğəmbəri və bütün bəşəriyyətə göndərdiyi elçisi, habelə, ən abid, ən əxlaqlı, ən həlim, Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan bir insan olmuşdur. Allah sübhanəhu və təalə onu ən gözəl əxlaq sahibi etmişdir. Uca Allah buyurur:

﴿ لَّقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ ٱللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُوا۟ ٱللَّهَ وَٱلْيَوْمَ ٱلْـَٔاخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرًا ﴾

**"Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."[12]**

---

[10] "Şərhun-Nəvəvi", 67-ci hədisin şərhi" və "Camiul-Ulum vəl-Hikəm", 12-ci hədisin şərhi.

[11] "əl-Cami liəxlaqir-Ravi və Ədabis-Sami", 1/6.

[12] "əl-Əhzab" surəsi, 21.

Digər ayədə Allah sübhanəhu və təalə onun böyük əxlaq sahibi olduğunu xəbər verir:

﴿ وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ ﴾

**"Həqiqətən, sən böyük əxlaq sahibisən!"[13]**

Aişədən ﵂ Rəsulullahın ﷺ əxlaqı barədə soruşulduqda o, demişdir: "Onun əxlaqı Quran idi."[14]

Odur ki, hər kim gözəl əxlaq sahibi olmaq istəyirsə, Peyğəmbərin ﷺ həyat tərzinə nəzər salmalı, onun necə insan olduğunu oxuyub-öyrənməli və öyrəndiklərinə əməl etməlidir.

Gəlin iki böyük alimin bu xüsusda dediklərinə nəzər salaq:

- Sufyan ibn Uyeynə demişdir: "Rəsulullah ﷺ *bəşəriyyət üçün* ən böyük meyardır. Bütün işlər onunla – onun əxlaqı, həyat tərzi və tutduğu yolla müqayisə edilir. Bu meyara müvafiq olan işlər haqq, ona müxalif olanlar isə batil sayılır."[15]

- İbn Qeyyim öz kitabında peyğəmbərlər haqqında danışarkən demişdir: "Onlar ən düzgün meyardırlar. O meyar ki, deyilən sözlər, görülən işlər və hər cür əxlaq, onların dedikləri sözlərlə, etdikləri əməllərlə və əxlaqları ilə müqayisə edilməlidir. Onların yolunu tutub getdikdə, doğru yolda olanlarla zəlalətə düşənləri ayırd etmək olur. *Hər bir kəsin* onlardan olan asılılığı, bədənin öz ruhuna, gözün öz nuruna və ruhun öz həyatına olan asılılığından daha böyükdür. Odur ki, asılılıq və ehtiyac hər nə cür olursa olsun, insanın peyğəmbərlərdən asılılığı və onlara olan ehtiyacı daha çoxdur... Və madam ki, insanın bu dünyada və Axirətdəki səadəti, Peyğəmbərin ﷺ yolunu tutub getməkdən asılıdır, onda, özünə yazığı gələn, habelə, uğur qazanmaq və səadətə qovuşmaq istəyən hər kəs Peyğəmbərin ﷺ tutduğu yolu, yaşadığı həyat tərzini və digər işlərini araşdırıb öyrənməlidir ki, bunun sayəsində cahillərdən uzaq olsun, Peyğəmbərin ﷺ

---

[13] "əl-Qələm" surəsi, 4.

[14] "Musnəd İmam Əhməd", 25855.

[15] "əl-Cami li Əxlaqir-Ravi və Ədab əs-Sami", 1/9.

ardıcıllarının, onun tərəfdarlarının və onun firqəsinin[16] cərgəsinə qoşulsun."[17]

Biləsiniz, Allah kimə Peyğəmbərin ﷺ yolunu tutub getməyi və hər cəhətdən ona oxşamağı nəsib etmişsə, demək, o kimsəyə böyük nemət bəxş etmişdir. Odur ki, bizə bu kitabı açıqlamağı müvəffəq edən Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirəm ki, bizi, Peyğəmbərin ﷺ yolunu tutub gedənlərdən və ona sadiq qalanlardan etsin, habelə, Qiyamət günü bizlərə Peyğəmbərlə ﷺ birlikdə onun hovuzunun başında və Allahın kölgəsi altında həşr olunmağı və nəhayət, onunla birlikdə Cənnətdə olmağı nəsib etsin!

Əlimizdəki bu kitab söhbət açdığımız mövzuda yazılmış ən əzəmətli və ən faydalı kitablardan sayılır. İmam Buxari bu kitabda mövzuya aid əsas hədisləri varid etmiş və onları yüksək səviyyədə tərtib etmişdir. Bu kitab nə uzun və yorucu, nə də ki, qısa və faydasızdır. Əksinə, orta həcmli və əhatəli bir kitabdır.

İmam Buxari bu kitabı fəsillərə bölmüş və bu fəsillərin hər birində fəslin ünvanına aid kifayət qədər hədislər rəvayət etmişdir. O, bu kitabı altı yüz qırx dörd fəsilə bölmüş və bu fəsillərdə min üç yüz iyirmi iki hədis rəvayət etmişdir. İlk əvvəl valideynlərin qayğısına qalmaq barədə, sonra qohumlarla əlaqə saxlamaq, uşaqlara – ələlxüsus da qız uşaqlarına yaxşı baxmaq, ailənin qeydinə qalmaq, kölələrin haqqını tapdamamaq, habelə, qonşu ilə gözəl rəftar etmək, yetimə himayədarlıq etmək və digər insanlarla gözəl davranmaq barədə hədislər rəvayət etmişdir.

Allahdan istəyirəm ki, bizlərə Peyğəmbəri ﷺ doğru-düzgün tanımağı, onun yolunu tutub getməyi, onu hamıdan çox sevməyi, onunla birlikdə həşr olunmağı və Cənnətdə onun yanında olmağı nəsib etsin! Bunun üçün onu səmimi-qəlbdən sevmək gərəkdir. Bu xüsusda İbn Qeyyim gözəl sözlər söyləmişdir: "İnsan sevdiyi kimsəni nə qədər çox yada salarsa, xatirələrində onu nə qədər çox canlandırarsa, onu sevməyə təhrik edən yaxşı əməllərini və göstərdiyi qayğını nə qədər çox xatırlayarsa ona olan sevgisi qat-qat

---

[16] Burada firqə deyildikdə, haqq yolda olan firqə nəzərdə tutulur. Bu xüsusda "əl-Maidə" surəsinin 56-cı ayəsində deyilir: **"Kim Allahı, Onun rəsulunu və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki,* qələbə çalanlar da məhz Allahın firqəsidir."**

[17] "Zadul-Məad", 1/69.

artar, onun üçün bir az da çox darıxar və tam qəlbi ilə ona bağlanar. Onu yad etməkdən vaz keçəcəyi və yaxşı işlərini yada salmayacağı təqdirdə isə qəlbində ona olan sevgisi azalar. Və heç bir kimsə üçün məhbubunu görməkdən daha əziz və onun yaxşılıqlarını yada salmaqdan daha sevimli bir şey yoxdur. Bütün bunlar onun qəlbində artdığı zaman dili ilə məhbubunu mədh edib tərifləyər və onun yaxşı əməllərini yad edər. Beləliklə də, bu, qəlbində olan məhəbbətin ya artmasına, ya da azalmasına səbəb olar."[1]

Ənəs رضي الله عنه rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ soruşdu ki: "Qiyamət nə zaman qopacaq?" Peyğəmbər ﷺ soruşdu: "Sən Qiyamətə nə hazırlamısan?" Adam dedi: "Heç bir şey hazırlamamışam. Mən, sadəcə, Allahı və Onun rəsulunu sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" Ənəs dedi: "Biz Peyğəmbərin ﷺ "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" sözünə sevindiyimiz qədər heç bir şeyə sevinməmişdik."[2]
dik."[2]

Hər kəs Peyğəmbəri ﷺ sevdiyini iddia edə bilər, lakin hər kəsə onu həqiqi mənada sevmək və onunla birlikdə Cənnətdə olmaq nəsib ediləcəkmi?! Peyğəmbərə ﷺ olan sevginin həqiqi olduğunu sübuta yetirmək üçün isə bu nəsihətlərə əməl etmək gərəkdir:

- Peyğəmbərin ﷺ yolunu tutub getmək;
- onun verdiyi hökmləri tərəddüdsüz qəbul etmək;
- onu tez-tez yad etmək, adı çəkiləndə salavat gətirmək;
- onun gətirdiyi dini hər yerdə yaymaq;
- onunla görüşməyi arzulamaq;
- onun sevdiyi kimsələri sevmək;
- onun nifrət etdiyi kimsələrə nifrət etmək.

Müsəlman olmaq istəyən hər kəs şəhadət kəlməsini – "Lə ilahə illəllah, Muhəmmədən Rəsulullah" sözünü dili ilə tələffüz etməli, onu qəlbən qəbul etməli və onun tələblərini yerinə yetirməlidir.

"Muhəmmədun rəsulullah" şəhadətinin tələblərini yerinə yetirmək deyildikdə, onun əmrlərinə riayət etmək, qadağan etdiyi əməllərdən isə çəkinmək nəzərdə tutulur. Yəni, Uca Allaha yalnız Onun rəsulunun ﷺ öyrət-

---

[1] "Cəla əl-Əfham fi Fədlis-Səlati alə Muhəmmədin Xeyril-Ənam", 1/447.

[2] "Səhih əl-Buxari", 3688.

diyi qaydada ibadət etmək, ona ehtiram göstərmək, onu sevmək, ona tabe olmaq, onun yolunu tutub getmək. Habelə, əqidəyə və ibadətə aid hər növ küfrə və azğınlığa aparan bidətlərdən uzaq olmaq gərəkdir. Belə ki, bidətin yaxşısı olmur. Hər bir bidət zəlalət hesab olunur. Həmçinin, həm əqidə məsələlərində, həm fiqhi məsələlərdə, həm də fəzilətli əməllərdə "səhih" və ya "həsən" olmasından asılı olmayaraq hər növ məqbul hədisə riayət etmək, habelə, sabit olmadığı üçün "zəif" və "uydurma" hədisləri inkar etmək də buna aiddir. "Muhəmmədun rəsulullah" şəhadətinin özündə ehtiva etdiyi məsələlər aşağıdakılardır:

**1 – Peyğəmbərə ﷺ iman gətirmək.**

Uca Allah buyurur: **"Elə isə, Allaha və Onun rəsuluna – yazıb-oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz."**[1] O, həmçinin, buyurur: **"Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdarlıq edən *elçi* kimi göndərmişik. *Biz belə etdik* ki, siz Allaha və Onun rəsuluna iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz *Allahı* tərifləyəsiniz."**[2]

İman gətirməliyik ki, o, filosof, dahi, islahatçı, sehrbaz və şair deyil, məhz Allah tərəfindən seçilmiş bir elçidir. Uca Allah buyurur: **"Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər."**[3] O, həmçinin, buyurur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir."**[4] Başqa bir ayədə O, buyurur: **"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər."**[5]

Onun sonuncu peyğəmbər olmasına, habelə, ondan sonra peyğəmbərlik iddiasında olmanın küfr və zəlalət olmasına iman gətirmək də ona

---

[1] əl-Əraf, 158.

[2] əl-Fəth, 8-9.

[3] əl-Fəth, 29.

[4] əl-Əhzab, 40.

[5] Ali İmran, 144.

tabeçilikdən hesab olunur. Uca Allah buyurur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur."**[1]

Şəfaət hədisində deyilir: "Günahkarlar gəlib deyəcəklər: Ey Muhəmməd! Sən həm Allahın rəsulu, həm də peyğəmbərlərin sonuncususan. Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır. (Elə isə,) Rəbbinin yanında bizdən ötrü havadarlıq et! Məgər sən bizim nə vəziyyətdə olduğumuzu görmürsənmi?!"[2]

Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mənim və əvvəlki peyğəmbərlərin məsəli, gözəl və heyrətamiz bir ev tikmiş, lakin kərpicinin birini qoymamış bir kimsənin məsəlinə bənzəyir. Camaat bu evin yan-yörəsindən keçir, ona təəccüb edir və deyirlər: "Nə üçün bura bir kərpic qoyulmayıb?" Sonra Peyğəmbər ﷺ davam edib dedi: "O kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam."[3]

- Həmçinin, Peyğəmbərin ﷺ bütün bəşəriyyətə, həm ərəblərə, həm də əcəmlərə, bütün irq və millətlərə göndərilməsinə iman gətirmək də ona tabeçilikdən sayılır. Uca Allah buyurur: **"Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən *bir peyğəmbər* kimi göndərdik."**[4] **O,** həmçinin, buyurur: **"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik."**[5]

Peyğəmbər ﷺ demişdir: "Mənə beş *xislət* verilib ki, bunlar məndən əvvəl heç bir kəsə verilməmişdir: "...və bir də hər bir peyğəmbər yalnız öz qövmünə göndərilərdi, mən isə bütün insanlara göndərilmişəm."[6]

- Həmçinin, iman gətirməliyik ki, Muhəmməd ﷺ cinlərə də peyğəmbər göndərilmişdir. Uca Allah bu xüsusda buyurur: **"De: "Mənə vəhy olundu ki, cinlərdən bir dəstə *Quranı* dinlədikdən sonra *öz tayfalarına qayıdıb* dedilər: "Həqiqətən, biz heyrətamiz bir Quran dinlədik! O, doğru**

---

[1] əl-Əhzab, 40.
[2] Səhih əl-Buxari, 4712.
[3] Səhih əl-Buxari, 3535.
[4] Səba, 28.
[5] əl-Ənbiya, 107.
[6] Səhih əl-Buxari, 335.

**yola yönəldir. Biz ona inandıq və *bundan sonra* əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq."**[1]

**2 – Peyğəmbəri ﷺ təsdiqləmək.**

Quran və Sünnədə varid olmuş hər bir dəlilə, onların arasında fərq qoymadan onlara iman gətirərək Peyğəmbəri ﷺ təsdiqləmək gərəkdir. Bu xüsusda Uca Allah buyurur: **"O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir."**[2] O, həmçinin, buyurur: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin."**[3] Digər bir ayədə O, buyurur: **"İman gətirib yaxşı işlər görənlərin, öz Rəbbindən gerçək həqiqət kimi Muhəmmədə nazil edilənə inananların isə *Allah* günahlarından keçmiş və onların vəziyyətini yaxşılaşdırmışdır."**[4] O, həmçinin, buyurur: **"Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən."**[5] Yenə bir ayədə O, buyurur: **"Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın."**[6]

Bu ayələrdən aydın olur ki, Quranı hədislərdən ayırmaq olmaz. Bunun küfr olması xüsusunda isə Uca Allah buyurur: **"Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir."**[7]

**3- Peyğəmbərə ﷺ mütləq şəkildə itaət etmək.**

Yəni ona Uca Allahın buyurduğu kimi itaət olunmalı, ona qarşı asilik göstərilməməlidir. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha və Onun rəsuluna itaət edin, həm də özünüzdən olan rəhbərlərə *şəriətə uyğun şəkildə itaət edin.*"**[8] Göründüyü kimi bu ayədə Allaha və Onun rəsu-

---

[1] əl-Cin, 1-2.
[2] ən-Nəcm, 3- 4.
[3] əl-Həşr, 7.
[4] Muhəmməd, 2.
[5] ən-Nəhl, 44.
[6] əl-Əhzab,34.
[7] əl-Bəqərə, 85.
[8] ən-Nisa, 59.

luna itaət əlahiddə qeyd olunmuş, əmr sahiblərinə itaət isə onların Allah və Onun rəsuluna itaət edəcəkləri təqdirdə buyurulur.

Həmçinin, Uca Allah buyurur: **"Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar."**[1]

Hədislərin birində isə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Eləcə də, kim əmirə itaət etsə, mənə itaət etmiş olar, kim əmirə asi olsa, mənə asi olmuş olar."[2]

Digər ayədə Allah Peyğəmbərə ﷺ itaətin hidayət olduğunu bəyan edərək buyurur: **"Əgər ona itaət etsəniz, doğru yola yönəlmiş olarsınız."**[3]

Uca Allah Peyğəmbərə ﷺ itaət etməyi əmr etmiş, onun əmrlərinə müxalif olmağı isə qadağan edərək bunu edən şəxsi şiddətli bir əzabla yaxalayacağını vəd etmişdir. O, buyurur: **"Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik."**[4] O, həmçinin, buyurur: **"Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir."**[5] Başqa bir ayədə O, buyurur: **"Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar."**[6] Digər bir ayədə O, buyurur: **"Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim!"**[7] Yenə bir ayədə buyurur: **"Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allaha ibadət edəydik, Onun rəsuluna itaətkar olaydıq!"**[8]

**4 – Peyğəmbərə ﷺ tabe olmaq.**

---

[1] ən-Nisa, 80.
[2] Səhih əl-Buxari, 2957.
[3] ən-Nur, 54.
[4] ən-Nisa, 64.
[5] ən-Nisa, 115.
[6] ən-nur, 63.
[7] əl-Furqan, 27.
[8] əl-Əhzab, 66.

Bu da yalnız onun yolunu tutub getməklə, sünnəsini izləməklə, onun buyurduqları ilə Allaha yaxınlaşmaqla, onun gətirdiklərinə sonradan heç bir əlavələr etmədən, buyurduqları ilə kifayətlənməklə mümkündür.

Uca Allah buyurur: **"Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz."**[1] O, həmçinin, buyurur: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir."**[2] O, həmçinin, buyurur: **"Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və *Onun* rəsuluna müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır."**[3] O, həmçinin, buyurur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz."**[4]

Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Sizlərə Allahdan qorxmağı, habelə, (əmiriniz) həbəşi bir kölə olsa belə onu eşidib itaət etmənizi tövsiyə edirəm. Sizlərdən yaşayanlarınız bir çox ixtilafların şahidi olacaqdır. Mənim və doğru yolda olan raşidi xəlifələrimin yolunu tutub gedin və həmin yoldan arxa dişlərinizlə yapışın. Yeniliklərdən isə çəkinin, çünki hər bir yenilik bidət, hər bir bidət isə zəlalətdir."[5] O, həmçinin, demişdir: "Hər kim bizim dinimizə zidd olan bir əməl edərsə, bu əməl rədd edilər"[6] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mənim yolumdan çıxan kimsələr məndən deyildirlər."[7]

Abdullah İbn Ömər ﷺ demişdir: "İnsanlar bidətləri *dinə əlavə edilmiş yenilikləri* yaxşı əməl hesab etsələr belə, hər bir bidət zəlalətdir."[8]

Abdullah ibn Məsud ﷺ isə belə demişdir: "*Sunnəyə* tabe olun, bidət etməyin. Bu sizə yetər."[1] O, həmçinin, demişdir: "Sünnə sayılan əməllərdə

---

[1] əl-Əraf, 158.

[2] Ali İmran, 31.

[3] ən-Nisa, 59.

[4] əl-Ənam, 153.

[5] Mocəmul-Kəbir, 18/248/623; Silsilətul-Əhadisis-Səhihə, 2735.

[6] Səhih Mulim, 1718.

[7] Səhih əl-Buxari, 5063.

[8] Bu əsəri əl-Lalakai, (126), İbn Batta (205) rəvayət etmiş və şeyx Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (6/526) onun "səhih" olduğunu demişdir.

orta yol tutmaq, dindən olmayan yeniliklərdə canfəşanlıq göstərməkdən xeyirlidir."[2]

Ömər ibn Əbdüləziz demişdir: "Sizlərə Allahdan qorxmağı və Onun əmrləri ilə kifayətlənməyi tövsiyə edirəm. Həmçinin, Peyğəmbərin ﷺ əmrlərinə tabe olmağı və ondan sonra insanların etdiyi yenilikləri tərk etməyi tövsiyə edirəm."[3]

**5 – Peyğəmbəri ﷺ sevmək.**

Özünü mömin sayan hər kəs Muhəmməd peyğəmbəri ﷺ öz valideynlərindən, övladlarından, mal-dövlətindən, ticarətdən, hətta özündən belə çox sevməlidir. Bu xüsusda Uca Allah buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun rəsulundan və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz."**[4]

Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynindən və övladından çox istəməyincə, iman gətirmiş olmaz."[5] Başqa bir hədisdə o, demişdir: "Kimdə (bu) üç xislət olsa, imanın şirinliyini dadmış olar: Allahı və Onun rəsulunu ﷺ başqalarından daha çox sevmək..."[6]

**6- Həddi aşmadan Peyğəmbərin ﷺ hörmətini saxlamaq.**

Uca Allah bu xüsusda buyurur: **"*Biz belə etdik* ki, siz Allaha və Onun rəsuluna iman gətirəsiniz, ona kömək edəsiniz, onun hörmətini saxlayasınız və gecə-gündüz *Allahı* tərifləyəsiniz."**[7] O, həmçinin, buyurur: **"Ey**

---

[1] Sunən əd-Darimi, 205; Şoəbul-İman, 2024; Şərhus-Sunnə, 1/214; əl-İbanətul-Kubra, 174; Mənasikul-Həcc vəl-Umrə (əl-Albani), səh: 44.

[2] Mustədrək, 352; Sunən əl-Beyhəqi əl-Kubra, 4522; Silslətul-Əhadisis-Səhihə, 5/11.

[3] Hilyətul-Ovliya, 5/338; əl-İbanətul-Kubra, 163.

[4] ət-Tövbə, 24.

[5] Səhih əl-Buxari, 14.

[6] Səhih əl-Buxari, 16.

[7] əl-Fəth, 9.

**iman gətirənlər!** ***Heç bir şeydə*** **Allahı və Onun rəsulunu qabaqlamayın. Allahdan qorxun! Həqiqətən, Allah Eşidəndir, Biləndir."**[1] O, həmçinin, buyurur: **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər."**[2] O, həmçinin, buyurur: **"Peyğəmbəri, öz aranızda bir-birinizi çağırdığınız kimi çağırmayın."**[3]

Urva ibn Məsud Hüdeybiyyə günü Peyğəmbərin ﷺ yanına gedib onunla danışıq apardıqdan sonra öz qövmünün yanına qayıdıb onlara belə demişdir: "Ay camaat! Allaha and olsun ki, mən bir nümayəndə kimi çox padşahların Qeysərin, Xosrovun, Nəcaşinin və başqalarının hüzurunda olmuşam və padşahların tərəfdarlarının onlara necə təzim etdiklərini də görmüşəm. Lakin Muhəmmədin ﷺ səhabələrinin ona təzim etdikləri kimi heç bir padşaha təzim olunduğunu görməmişəm. Allaha and olsun ki, Peyğəmbərin ﷺ ağzından çıxan hər bir tüpürcək onlardan birinin ovucuna düşsə, bu tüpürcəyi üzünə və bədəninə sürtürlər. Onlara bir şey əmr etdikdə dərhal onu yerinə yetirirlər. Dəstəmaz aldığı sudan əldə etmək üçün öz aralarında mübarizə aparırlar. Onun yanında danışarkən səslərini qaldırmırlar və hörmət əlaməti olaraq onun üzünə baxmırlar! Həqiqətən, o sizə xeyir, əmin-amanlıq və islah olunmağınızı təklif edir. Onun təklifini qəbul edin!"[4]

**7 – Peyğəmbərin ﷺ təbliğ etdiyi Quran və Sünnəyə hörmət bəsləmək.**

Abdullah ibn Abbas رضي الله عنهما Urva ibn Zubeyrlə رضي الله عنه Təməttu həcci barəsində mübahisə edərkən ona belə demişdir: "Peyğəmbər ﷺ Təməttu həcci etmişdir."(Yəni səhabələrə Təməttu həcci etməyi buyurmuşdur.) Urva dedi: Əbu Bəkr və Ömər bunu qadağan edir. İbn Abbas رضي الله عنه dedi: "Qorxuram ki, Allah göydən başınıza daş yağdırsın, sənə deyirəm Peyğəmbər ﷺ belə demişdir, sən isə deyirsən, Əbu Bəkr və Ömər belə deyir!"[5]

---

[1] əl-Hucurat, 1.

[2] əl-Hucurat, 2.

[3] ən-Nur, 63.

[4] Səhih əl-Buxari, 2731.

[5] Musnəd Əhməd, 1/337.

Rəvayət olunur ki, Abdullah ibn Məsud ﷛ bir dəfə: "Peyğəmbər ﷺ belə demişdir..."– dedi, sonra onu kədər bürüdü və alnından tər axmağa başladı. Sonra davam edib dedi: "Bu hədis ya Peyğəmbərin ﷺ dediyi kimi, ya ondan bir az artıq, ya da bir az əksikdir."[1]

İmam Əbu Hənifə ﷬ demişdir: "Əgər hədis səhihdirsə, o mənim məzhəbimdir."[2]

İmam Malik ibn Ənəs ﷬ demişdir: "Bu qəbrin sahibi istisna olmaqla hər kəsin bəzi sözləri qəbul edilir, digərləri isə rədd olunur."[3] Qəbrin sahibi deyildikdə Peyğəmbər ﷺ nəzərdə tutulur.

İmam Şafii ﷬ isə demişdir: "Əgər hədis səhihdirsə, o mənim məzhəbimdir."[4] O həmçinin, demişdir: "Görəsəniz ki mənim sözüm Peyğəmbərin ﷺ sözünə müxalifdir, mənim sözümü divara çırpın."[5]

İmam Əhməd ibn Hənbəl ﷬ öz tələbəsinə demişdir: "Mənə təqlid etmə. Habelə, nə Malikə, nə Şafiiyə, nə Əvzaiyə, nə də Sovriyə təqlid et! *Sən dinini* onların götürdüyü mənbədən götür!"[6] O, həmçinin, demişdir: "*Mömin* adam Peyğəmbərdən ﷺ və onun səhabələrindən varid olmuş dəlillərə tabe olmalıdı."[7]

Abdurrəhman ibn Mehdi ﷬ Peyğəmbərin ﷺ hədisini oxuduqda yanındakılara sakit olmağı əmr edər və belə deyərdi: Səsinizi Peyğəmbərin ﷺ səsindən yüksəyə qaldırmayın. Beləcə o, Peyğəmbərin hədisi oxunduğu zaman susmağın, onun sözünü canlı eşidən vaxt olduğu kimi vacibliyi qənaətində idi.[8]

Rəvayət olunur ki, bir dəfə Əbu Hazim ﷬ hədis danışarkən Malik ibn Ənəs onun yanından keçdi və onun hədis danışdığını görüb dayanmadan tez oradan uzaqlaşdı. Sonra o, dedi: "Baxdım ki, oturmağa yer yoxdur və

---

[1] əd-Dəvətus-Sələfiyyə, 1/17.
[2] Haşiyətu İbn Abidin, 1/63.
[3] Muvatta, 1/132; Silsilətul-Əhadisis-Səhihə, 1/207.
[4] ən-Nəvəvi, 1/63; əd-Durar əs-Sunniyya, 1/123; Sifətu Salətun-Nəbi, səh: 50.
[5] Hilyətul-Ovliya, 9/107.
[6] İlamul-Muvaqqiin, 2/302.
[7] Məsailul-İmam Əhməd, səh: 276-277.
[8] Şərh İbn Bəttal, 1/208.

elə buna görə də, ayaq üstə olduğum halda Peyğəmbərin ﷺ hədisini dinləmək istəmədim. Ümumiyyətlə İmam Malik رحمه الله hədis danışmaq istədikdə qüsl alıb ətirlənər, sonra da ən gözəl libasını geyinərdi. Yalnız bundan sonra çıxıb hədis danışardı.

**8 – Peyğəmbərə ﷺ nəsihət etmək.**

Uca Allah buyurur: **"Allaha və Onun Rəsuluna sadiq qalacaqları təqdirdə acizlərə, xəstələrə və *döyüşdə* vuruşmağa vəsait tapa bilməyənlərə *evdə qalmaqda* heç bir günah yoxdur. Yaxşı işlər görənləri danlamağa əsas da yoxdur. Allah Bağışlayandır, Rəhmlidir."**[1]

Bir zaman Peyğəmbər ﷺ öz səhabələrinə: "Din nəsihətdir"– demiş və onlar: "Kimin üçün, ya Rəsulullah?"– deyə soruşduqda, o belə buyurmuşdur: "Allah üçün, Onun Kitabı üçün, Onun rəsulu üçün, habelə, müsəlmanların rəhbərləri və bütün müsəlmanlar üçün.[2]"[1]

---

[1] ət-Tövbə, 91.

[2] İbn Həcər demişdir: "Hədisdə "Allah üçün *nəsihət*" deyildikdə Onu layiqincə vəsf etmək, aşkarda da, gizlində də Ona boyun əymək, Onun razılığını qazanmaq üçün buyuruqlarını yerinə yetirmək, qəzəbindən qurtulmaq üçün qadağan etdiyi şeylərdən çəkinmək, asilik edənləri Onun yoluna qaytarmaq uğrunda mübarizə aparmaq nəzərdə tutulur. Sövri, Abdul-Aziz ibn Rufeydən, o da Əlinin sirdaşı olmuş Əbu Sumamədən rəvayət etmişdir ki, *bir dəfə* həvarilər *Məryəm oğlu* İsadan عليه السلام: "Ey Allahın ruhu! Kimdir Allaha nəsihət edən?"– deyə soruşdular. İsa عليه السلام *onlara* belə cavab verdi: "Allahın haqqını öz haqqından üstün tutan kimsə!"

"Allahın Kitabı üçün *nəsihət*" deyildikdə onu öyrənmək və *başqalarına* öyrətmək, oxuduqda təcvidlə oxumaq, yazdıqda düzgün şəkildə yazmaq, ayələrinin mənasını başa düşməyə səy göstərmək, ayələrdə keçən qayda-qanunları qorumaq, əhkamları yerinə yetirmək və onları təhrif edənlərin cavabını vermək qəsd edilir.

"Allahın Rəsulu üçün *nəsihət*" deyildikdə, Rəsulullaha ﷺ sayğı göstərmək, hər zaman ona *və onun dininin yayılmasına* kömək etmək, sünnəsini öyrənib *başqalarına* öyrətməklə onu yaşatmaq, sözdə və əməldə onun yolunu tutub getmək, onu və ardınca gedənləri sevmək nəzərdə tutulur.

"Müsəlmanların rəhbərləri üçün *nəsihət*" deyildikdə idarəçilikdə onlara dəstək vermək, bixəbər olduqları məsələlərdən onları agah etmək, səhvlərini gördükdə onlara yaltaqlanmamaq, əksinə, bu səhvi hikmətlə onlara başa salmaq, onların *şəriətə müvafiq olan* bir sözünü iki eləməmək, onları camaata sevdirmək və gözəl tərzdə onları zülm etmək-

**9 – Peyğəmbər ﷺ sağ ikən onun özünə, vəfatından sonra isə onun dininə, şəriətinə və sünnəsinə yardım etmək.**

Uca Allah buyurur: **"Əgər siz *Peyğəmbərə* kömək etməsəniz, *bilin ki,* Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq *Məkkədən* çıxartdılar. O iki nəfər mağarada olarkən *onlardan* biri öz yoldaşına** *Əbu Bəkrə* **dedi: "Qəm yemə, Allah bizimlədir!" *Bundan sonra* Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı."**[2] O, həmçinin, buyurur: **"Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır."**[3] Başqa bir ayədə buyurur: **"Bir zaman Allah peyğəmbərlərdən: "Sizə Kitab və hikmət verdikdən sonra, özünüzdəkini təsdiqləyən bir elçi gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz"– deyə əhd almış və: "Razısınızmı və Mənim bu əhdimi qəbul edirsinizmi?"– demişdi. Onlar: "Razıyıq!"– demişdilər. *Allah da*: "Şahid olun, Mən də sizinlə bərabər şahid olanlardanam"– demişdir."**[4]

**10 – Peyğəmbərə ﷺ salavat demək.**

---

dən çəkindirmək qəsd edilir. Qeyd etmək lazımdır ki, rəhbərlər deyildikdə bura alimlər də aid edilir və onlara nəsihət etmək deyildikdə elmlərinə ehtiram göstərmək, onların yaxşı əməlləri barədə danışmaq və barələrində yaxşı zənn etmək nəzərdə tutulur.

"Bütün müsəlmanlar üçün *nəsihət*" deyildikdə isə, onlara mərhəmət etmək, onlara yaxşılıq etməyə səy göstərmək, fayda verəcək şeyləri onlara öyrətmək, onlara əziyyət verməmək, özünə istədiyini onlar üçün də istəmək və özünə rəva bilmədiyini onlara da rəva bilməmək qəsd edilir.

Hədisdən belə nəticə çıxır ki, *yaxşı* əməl din adlandırıla bilər. Çünki Peyğəmbər ﷺ öyüd-nəsihət verməyi din adlandırmışdır..." ("Fəth əl-Bari", 1/89).

[1] Səhih Muslim, 55.

[2] ət-Tövbə, 40.

[3] əl-Əraf, 157.

[4] Ali İmran, 81.

Uca Allah buyurur: "**Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib kamil ədəb-ərkanla salamlayın.**"[1]

Salavat xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim mənə bir salavat oxuyarsa, Allah ona bunun sayəsində onunu yetirər."[2] digər hədisdə o, demişdir: "Xəsis o kimsədir ki, mənim adım çəkildikdə mənə salavat gətirməz."[3] Rəvayət edilir ki, Abdur-Rəhman ibn Əbu Leyla demişdir: "*Bir dəfə* Kəb ibn Ucra mənə rast gəldi və dedi: "Sənə hədiyyə verimmi?! *Bir gün* Peyğəmbər ﷺ bizim yanımıza gəldi və biz *ondan*: "*Ya Rəsulullah,* Biz sənə salamı necə verməyi bilirik. Bəs salavatı sənə necə gətirək?"– deyə soruşduq. Peyğəmbər ﷺ buyurdu: "Deyin: "Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə innəkə həmidun məcid! (Allahım, İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım, İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!)"[4]

Əziz müsəlmanlar! Bu kitabı tərcümə etməkdə məqsədimiz İslam əxlaqının nə dərəcədə gözəl olduğunu, habelə, hamıdan çox sevdiyimiz Peyğəmbərimizin ﷺ bu böyük əxlaqa sahibi olduğunu xalqa tanıtmaqdır. Siz də bu kitabı oxuyub öyrəndikdən sonra Allah rizasını qazanmaq üçün öyrəndiklərinizi insanlara təbliğ edin ki, Peyğəmbərin ﷺ "Kim xeyirxah bir iş görməyə yol göstərərsə, ona həmin əməli edənin savabının misli *qədər savab* yazılar!"[5] dediyi kimsələrdən olasınız. Həmin kimsələrdən olmaq üçün isə gecə-gündüz Allaha yalvarıb bizləri onlardan etməsini istəməli-

---

[1] əl-Əhzab, 56.
[2] Səhih Muslim, 849.
[3] Şoəbul-İman, 1466; Fədlus-Səlati alən-Nəbi, 35.
[4] Səhih Buxari, 6357; Səhih Muslim, 908.
[5] "Səhih Muslim", 1094.

yik. Bir zaman Peyğəmbər ﷺ Muaz ibn Cəbələ ؓ belə buyurmuşdur: "Ey Muaz, sənə hər namazın sonunda bu duanı oxumağı nəsihət edirəm:

(( اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ وَشُكْرِكَ وَحُسْنِ عِبَادَتِكَ ))

**"Allahummə, əinni alə zikrikə və şukrikə və husni ibadətikə![1]"[2]**

Diqqət edin, görün İbrahim ؑ öz qövmünə nə deyir: **"Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım."[3]**

Habelə, Quranda Cənnət əhli belə vəsf edilir: **"İman gətirib yaxşı əməl edənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyirik. Biz onların köksləindəki kin-küdurəti çıxaracağıq. Onların *ayaqları* altından çaylar axacaq. Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik..."[4]** Səhabələr də həmçinin, deyərdilər:

*Olmasaydın, ey Allah, düz yola gəlməzdik biz,*
*Nə sədəqə verərdik, nə namaz qılardıq biz.*[5]

Doğru yolda olmaq, ələlxüsus da gözəl əxlaq sahibi olmaq üçün isə bu yola yönəltməyə qadir olan Allaha üz tutmaq gərəkdir. Odur ki, ən kamil əxlaq sahibi, habelə, əxlaq nümunəsi sayılan Peyğəmbərimiz ﷺ Rəbbinə dua edib deyərdi:

(( اللَّهُمَّ اهْدِنِي لأَحْسَنِ الأَخْلاَقِ، لاَ يَهْدِي لأَحْسَنِهَا إِلاَّ أَنْتَ،
وَاصْرِفْ عَنِّي سَيِّئَهَا، لاَ يَصْرِفُ عَنِّي سَيِّئَهَا إِلاَّ أَنْتَ ))

**"Allahumməhdini li əhsənil-əxlaqi lə yəhdi li əhsənihə illə ənt, vəsrif anni seyyiəhə lə yəsrifu anni seyyiəhə illə ənt![1]"[2]**

---

[1] Tərcüməsi: Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!

[2] "Səhih İbn Hibban", 2021; "Səhih əl-Ədəbul-Mufrad", 534.

[3] "əl-Ənam" surəsi, 77.

[4] "əl-Əraf" surəsi, 42-43.

[5] "Səhih əl-Buxari", 4196.

Həmçinin, deyərdi:

(( اللَّهُمَّ أَحْسَنْتَ خَلْقِي فَأَحْسِنْ خُلُقِي ))

**"Allahummə əhsəntə xalqi, fə əhsin xuluqi![3]"[4]**

Həmçinin, deyərdi:

(( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ مُنْكَرَاتِ الأَخْلاقِ وَالأَعْمَالِ وَالأَهْوَاءِ ))

**"Allahummə inni əuzu bikə min munkəratil-əxlaqi vəl-ə'mali vəl-əhva![5]"[6]**

Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirəm ki, bizləri Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin!

Həmçinin, onu da qeyd etmək istəyirəm ki:

– İmam Əbu Abdullah əl-Buxarinin ﷺ tərtib etdiyi bu möhtəşəm kitab yalnız hədis mətnlərindən ibarətdir. Bu mətnləri tərcümə edərkən onlardan hər birinin isnadını müxtəsər olaraq ancaq isnadın sonunda keçən ravini zikr etməklə kifayətlənmişəm ki, kitab uzun və yorucu olmasın. Ərəbcəsində bu isnadları tam şəkildə nəql etməkdə məqsədim isə, hədislərin əsaslı olduğunu, habelə, bu dinin – yəni İslam dininin digər dinlərdən üstün olduğunu bir daha sübuta yetirməkdir.[7] Belə ki, hər bir hədisi isnadla rəvayət etmək onun əsaslı olduğuna dəlalət edir.

---

[1] Tərcüməsi: Allahım, mənə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!

[2] "Səhih Muslim", 1/534.

[3] Tərcüməsi: Allahım, Sən məni gözəl biçimdə yaratdın. Əxlaqımı da gözəl et!

[4] "Musnəd Əhməd", 1/403; "Səhih Tərğib vət-Tərhib", 2657.

[5] Tərcüməsi: Allahım, pis əxlaqdan, yaramaz əməllərdən və pis fikirlərdən Sənə sığınıram!

[6] "Səhih ət-Tirmizi", 3/184.

[7] Muhəmməd ibn Sirin demişdir: "Bu hədislər dindir. Elə isə, dininizi kimdən öyrəndiyinizə diqqət edin." Bu əsəri Muslim öz "Səhih"inin müqəddiməsində (26) rəvayət etmişdir. Digər əsərdə İbn Sirin demişdir: "*Müsəlmanlar* isnad barəsində sual verməzdilər. Ara qarışdıqdan sonra isə onlar: "Ravilərinizin adlarını bizə söyləyin"– deməyə başladılar. Beləcə, sünnə əhlinə diqqət yetirilər və onların hədisləri qəbul edilər, habelə,

– Habelə, bu hədisləri başa düşmək üçün onların şərhinə ehtiyac duyulduğundan onları şərh etmək qərarına gəldim və bu işdə, hədisləri şərh edən bir çox kitablara – ələlxüsus da Nəvəvinin ﵀ "Şərh Səhih Muslim" İbn Həcərin ﵀ "Fəthul-Bari", Mubarəkfurinin ﵀ "Tohfətul-Əhvəzi" adlı kitablarına, habelə, Abdur-Rəzzaq əl-Bədrin bu xüsusda söylədiyi mühazirələrə müraciət etdim, sonra da bu kitaba etdiyim əlavələri aşağıdakı üslubda tərtib etdim:

– Haşiyələrdə İmam Əbu Abdullah əl-Buxarinin ﵀ bu kitabda nəql etdiyi hədislərin hər birinin hansı hədis kitablarında – xüsusən də məşhur "yeddi kitab"ın[1] hansı birində varid olduğunu qeyd etmişəm. Habelə, Buxari və Muslimin "Səhih"lərindən başqa, digər hədis kitablarında varid olmuş bu hədislərin hökmünü, yəni onların "səhih", yaxud "həsən" və ya "zəif" olduğunu da qeyd etmişəm və həmin qeydləri "bu əsrin mühəddisi" sayılan şeyx Muhəmməd Nasirəddin əl-Albaninin hədis kitablarından əldə etmişəm. Üstəlik, bu kitabda varid olmuş, lakin isnadı "zəif" olan hədislərin bir çoxunun mətninin "səhih" olduğunu digər səhih hədislərlə isbat etmişəm.

– Həmçinin, bu kitabdakı hədisləri rəvayət etmiş səhabələr barədə qısa da olsa, məlumat vermişəm və onların fəzilətinə dair bir çox hədislər nəql etmişəm ki, insanlar onların necə şəxsiyyətlər olduqlarını tanısınlar.

– Haşiyələrdə hədislərin mənbəsini qeyd edərkən "bu hədisi Buxari və ya Muslim rəvayət etmişdir" dedikdə, onların məşhur "Səhih"ləri, "bu hədisi Əbu Davud, yaxud Nəsai, yaxud Tirmizi, yaxud İbn Macə rəvayət etmişdir" dedikdə, onların məşhur "Sunən" əsərləri və nəhayət, "bu hədisi Əhməd rəvayət etmişdir" dedikdə, İmam Əhməd ibn Hənbəlin məşhur "Musnəd" əsərini qəsd etmişəm.

---

bidət əhlinə diqqət yetirilər və onların hədisləri rədd edilərdi" (Muslimin müqəddiməsi, 27). Bu xüsusda Abdullah ibn Mübarək demişdir: "İsnad dindəndir və əgər isnad olmasaydı, əlbəttə ki, hər kəs istədiyi sözü danışardı" (Muslimin Müqəddiməsi, 32).

[1] Burada "yeddi kitab" deyildikdə, Buxari və Muslimin "Səhih"ləri, Əbu Davudun, Tirmizinin, Nəsainin və İbn Macənin "Sunən" əsərləri və nəhayət, İmam Əhmədin "Musnəd" əsəri nəzərdə tutulur.

– Bu kitaba şərhdən əlavə, İmam Buxarinin tərcümeyi-halını, habelə, bəzi hədis terminlərinin izahlı lüğətini və bir də kitabda keçən hədislərdəki İslam əxlaqının xülasəsini əlavə etmişəm. Ayrı-ayrı hədislərdə varid olmuş bu İslam əxlaqını bir yerə cəm edib onların xülasəsini qeyd etməkdə məqsədim, oxucunun işini asanlaşdırmaqdır.

Sonda Qüdrətli Allahdan bu risaləni onu oxuyanlar üçün faydalı etməsini, üstəlik, hamımızın əxlaqını Qurani-Kərimdə buyurulanlara uyğun, həm də Peyğəmbərimizin ﷺ əxlaqı kimi gözəl etməsini diləyirəm.

*Ə. Musayev*
*01.01.2014*

## İmam Buxarinin tərcümeyi-halı

**❋ Adı, kunyəsi, mənsubiyyəti və doğulduğu yer:**

İmam, mühəddis, hədis elmində möminlərin əmiri Əbu Abdullah Muhəmməd ibn İsmail ibn İbrahim ibn əl-Muğira ibn Bərdizbəh əl-Cu'finin mövlası əl-Buxari. Diqqət edin, əgər sadəcə əl-Cu'fi deyilsəydi, Buxarinin cufili olduğu güman edilər və beləliklə də, onun nəsəbi yanlış başa düşülərdi. Lakin ərəbcə "əl-Cu'fi mövlahum" yəni cufinin mövlası deyilməklə Cu'finin yaxını olduğu aydın olur. Belə ki, Muhəmməd ibn İsmailin ata babası Muğira o dövrdə Buxaranın əmiri olmuş Yəman əl-Cu'finin əli ilə İslam dinini qəbul etmişdir. Elə bu səbəbdən də, o, Yəman əl-Cu'finin mövlası hesab edilir. Odur ki, İmam Buxarinin tərcümeyi-halında Cu'finin mövlası – yəni yaxını deyilir.

Muhəmməd ibn İsmail əl-Buxari hicrətin 194-cü ilində şəvval ayının on biri cümə günü, Xərtənk adlı, Buxara şəhərinə yaxın bir kənddə dünyaya gəlmişdir. O, atasını tez itirmiş və erkən uşaqlıq çağında gözləri tutulmuşdur. Bir müddət sonra anası yuxusunda İbrahim peyğəmbəri عليه السلام görmüş və ondan bu sözləri eşitmişdir: "Ey filankəs, sənin çoxsaylı dualarına görə Allah sənin oğluna görmə qabiliyyətini qaytardı."

Hələ uşaq ikən Allah ona hədisləri yadda saxlamaq istedadı bəxş etdi. Əbu Cəfər Muhəmməd ibn Əbu Hatim əl-Bərrak demişdir: "Bir dəfə mən Əbu Abdullah əl-Buxaridən soruşdum: "Sən hədisləri necə öyrənməyə başlamısan?" O, belə cavab verdi: "Yaşım on və ya ondan da az olarkən mən yenicə oxumağı öyrənməyə başlayanda hədislərin yadda saxlanılmasının zəruriliyi fikri mənə təlqin edilmişdi. Sonra mən məktəbi tərk etdim və gah bu və gah da başqa bir müəllimin yanında oxumağa başladım. On altı yaşım tamam olanda mən artıq ibn Mübarəkin və Vəkinin kitablarını və onların rəylərini əzbər bilirdim. Sonra anam və qardaşımla birlikdə Məkkəyə getdim və hədisləri toplamaq məqsədilə orada yaşamağa başladıq. On səkkiz yaşım olduqda isə səhabələr və onların ardıcılları və onların fikir və rəyləri haqqında məlumatları toplayıb kitab halına saldım."

İmam əl-Buxari özünü tamamilə elmə və ibadətə həsr etmişdir. O, tez-tez belə deyərdi: "Mən həyatım boyu heç kimdən bir dirhəmlik də olsa bir

şey satın almamışam və heç kimə bir dirhəmlik də belə olsa bir şey satmamışam." Bir dəfə ondan soruşurlar ki, bəs çörəyi necə almışdır? Bu suala əl-Buxari belə cavab vermişdir: "Mən bunu kiməsə tapşırardım, onlar da mənim üçün alardılar."

İmam əl-Buxari hədsiz utancaqlıqla, cəsarəti, əliaçıqlığı, möminliyi, bu dünyanın nemətlərindən uzaq durması və Axirətə can atması ilə fərqlənərdi. O, demişdir: "Həqiqətən, mən istərdim ki, Uca Allahla görüşərkən heç kim məni danlamasın."

İmam əl-Buxari şəxsi ləyaqət və məğrurluq hissinə malik idi. Bir dəfə bir hökmdar uşaqlarına dərs vermək üçün onun dalınca adam göndərir, lakin Buxari ona xəbər göndərir ki, elm axtaranlar bilənlərin yanına özləri gəlməlidir və hökmdarın yanına getməkdən imtina edir.

O, gündüzlər tez-tez oruc tutar, gecələr namaz qılar və, xüsusilə mübarək Ramazan ayında çoxlu Quran oxuyardı. Əbu Bəkr əl-Bəğdadi rəvayət edir ki, Məsih bin Səid demişdir: "Ramazanın birinci gecəsi girən kimi Muhəmməd bin İsmail əl-Buxarinin dostları onun yanında yığışardı və o, onlarla birlikdə namaz qılar, hər rükətdə Qurandan iyirmi ayə oxuyaraq onu tamam başa çatdırardı."

Bundan başqa, imam əl-Buxari Quranı hər gün iftardan qabaq tam oxuyub qurtarar və deyərdi: "Quran oxunub qurtardıqdan sonra edilən dua cavabsız qalmır."

Bir dəfə, o, namaz qılarkən, eşşəkarısı onu on yeddi dəfə çalmışdı. Namazı bitirdikdən sonra, o, dedi: "Baxın görün namaz vaxtı məni narahat edən nə idi?" Adamlar baxdıqda məlum oldu ki, onun bədənində eşşəkarısının sancmasından on yeddi iz qalmışdır, lakin o, buna baxmayaraq, namazını kəsməmişdir.

**❁ Elm öyrənmək üçün getdiyi məmləkətlər:**

Allahın ona hələ uşaqlıq çağlarında gözəl yaddaş verməsi gözə çarpırdı. Xaşid bin İsmail aşağıdakıları nəql etmişdir: "Bəsrədə Əbu Abdullah Muhəmməd bin İsmail əl-Buxari, hələ gənc ikən, bizimlə birlikdə hədis biliciləri olan müxtəlif şeyxlərin görüşünə gedərdi və heç vaxt qeydlər aparmazdı. Bir neçə gün sonra biz ona deməyə başladıq ki: "Sən bizimlə müx-

təlif şeyxlərin görüşünə gedirsən, amma heç nə qeyd etmirsən, niyə belə edirsən?" On altı gündən sonra o bizə dedi: "Siz, həqiqətən, çox danışır və mənə irad tutursunuz! Göstərin mənə, nə yazmısınız". Biz də on beş mindən çox hədis qeyd etdiyimiz vərəqlərimizi çıxartdıq, o isə bunların hamısını əzbərdən deməyə başladı və biz isə onun yaddaşına əsasən oxuduqları ilə öz qeydlərimizdə düzəlişlər etdik. Sonra o soruşdu: "Siz indidəmi hesab edirsiniz ki, mən müxtəlif şeyxlərə zarafat xatirinə baş çəkir və vaxtımı hədər yerə sərf edirəm?"– və bundan sonra bizə məlum oldu ki, yaddaşda heç kim onu ötüb keçə bilməz."

Buxari hələ gənc ikən hədis dinləmək istəyən bəsrəlilər, istədiklərinə nail olana qədər onun ardınca düşər, onu hər hansı bir yolun üstündə oturdar və ətrafına minlərlə dinləyici yığışardı, onların əksəriyyəti onun, o zaman bığsız gənc olmasına baxmayaraq, dediklərini yazardılar.

Buxarinin gözəl yaddaşa malik olması və mütləq dəqiqliklə fərqlənməsinə bir sübut da onun bir dəfə Səmərqəndə gələrkən dörd yüz nəfər hədis bilicisi ilə görüşməsidir. Onlar öz aralarında Şamdan və İraqdan olan hədislərin isnadını və rəvayətçilərin adlarını qarışdıraraq, bəzi hədislərin isnadını başqalarının mətninə qatdılar və bunların hamısını əl-Buxariyə oxudular. O isə hansı isnadın əslində hansı mətnə aid olduğunu bir-bir göstərdi və onları müvafiq qaydada düzdü və orada olanlardan heç kim heç bir isnadda və ya mətndə bir yanlışlıq tapa bilmədi. Belə bir şey Bağdadda da olmuşdu. Xəbər verilir ki, o, kitabı bir dəfə oxuduqda, onun məzmununu əzbərləyirdi, belə xəbərlər çoxdur.

Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari elm öyrənmək üçün bir çox ölkələrə – Şam, Misir, Bəsrə, Bağdad, Kufə, Dəməşq, Hicaz (Məkkə, Mədinə), Bəlx, Xorasan, Nisabur və s. səfər etmişdir.

### ❆ Ən məşhur şeyxləri:

Buxari getdiyi müxtəlif ölkələrdə görüşdüyü mindən çox şeyxdən eşitdiyi hədisləri rəvayət etmişdir. Burada onun şeyxləri şagirdlərinin nəinki hamısı haqqında danışmaq, hətta onların sadəcə olaraq adlarını çəkmək belə mümkün deyil. Ona görə, biz onlardan ən məşhur olanları xatırlamağa məcbur olacağıq. Buxarinin ən məşhur şeyxləri sırasına Həmməd bin

Şakir, Tahir bin Məhlid, imam Əhməd bin Hənbəl, Əli ibn Mədini, Məkki ibn İbrahim əl-Bəlxi, Abdullah bin Musa əl-Əbsi, Əbu Bəkr əl-Humeydi, İbrahim bin Makil, Əbu Təlhə bin Əli əl-Baradi ən-Nəsəfi, İbrahim bin əl-Munzir, Adəm bin İyas, Abdan bin Osman əl-Mərvəzi, Əbu Asim əş-Şeybani və Yəhya bin Məin.

**❁ Tələbələri:**

Onun tələbələrinin sayı olduqca çoxdur. Fərabri demişdir: "Buxarinin "Səhih" əsərini onun özündən doxsan min nəfər eşitmişdir." Onlardan bəziləri aşağıdakılardır:

Muslim ibn Həccac, Əbu İsa Tirmizi, Mərvəzi, Nəsai, Abdullah ibn əl-Munir, əl-Musnədi, İbn Quteybə, İshaq əs-Sərmari və başqaları.

**❁ İslam alimlərinin İmam Buxari haqqında rəyləri:**

İmam əl-Buxarinin müasirləri olmuş alimlərin böyük əksəriyyəti onu tərifləmişlər. Demək kifayətdir ki, hədis elmi sahəsində o, möminlərin əmiri ləqəbinə layiq görülmüşdür ki, bu heç kim tərəfindən inkar edilməmişdir. Bir dəfə İmam Müslim İmam Buxarinin alnından öpərək ona demişdir: "Ey müəllimlərin müəllimi, mühəddislərin ağası və hədis qüsurlarının həkimi, icazə ver başından öpüm" və bundan sonra, görüşə[1] görə günahların bağışlanması haqqında hədisə dair bir sual vermişdi və Buxari də ona bu hədisin qüsurlarını göstərmişdi. O izah edib qurtardıqdan sonra, Müslim ona demişdi: "Ancaq paxıl adamlar sənə nifrət edə bilər! Şahidlik edirəm ki, bu dünyada sənə bənzəri olan yoxdur!"

Bundər demişdir: "Ən yaxşı mühəddis dörd nəfərdir: Reyli Əbu Zura, Nisaburlu Müslim, Səmərqəndli əd-Darimi və Buxaralı əl-Buxari."

İmam Əhməd demişdir: "Xorasanda hələ onun bənzəri olmamışdır."

---

[1] Burada keçirilən görüş zamanı Allahın adının çəkilməməsi və danışıqların boş danışıqlar olması nəzərdə tutulur. Rəvayət edilir ki, möminlərin anası Aişə ﵂ demişdir: "Allahın rəsulu ﷺ kiminləsə görüşəndə, ya Quran oxuyar, ya da namaz qılardı, axırda isə o, mütləq deyərdi: "Şükr Sənə, ey Allahım, həmd olsun Sənə, şahidlik edirəm ki, Səndən başqa ilah yoxdur, Səndən bağışlanma diləyirəm və Sənə tövbə edirəm (Subhanəkə, Allahummə və bihəmdikə, əşhədu ən lə ilahə illə Əntə, əstəğfirukə və ətubu iləykə)."

Əli ibn Mədini demişdir: "Buxari heç vaxt özünə bənzərinə rast gəlməmişdir."

İshaq bin Rahuyə demişdir: "Əgər o Həsənin[2] zamanında yaşasa idi, insanların onun hədislərinə, onun biliklərinə, onun fiqhi bilməsinə hökmən ehtiyacı olardı."

Əbülabbas əd-Dələvi rəvayət etmişdir ki, Bağdad camaatının Buxariyə məktubunda belə sözlər yazılmışdı: "Sən onlarla olduqca xeyir müsəlmanları tərk etməz. Səndən sonra yaxşısı tapılmaz, sənin yerin həmişə hiss olunacaq."

Əbu Hatim ər-Razi demişdir: "Həqiqətən, o, Bağdada gələnlərin ən bilicisi idi."

İbn Xuzeymə demişdir: "Göy qübbəsi altında Allahın Rəsulunun ﷺ hədisləri haqqında Buxaridən daha məlumatlı nə bir adam, nə də daha çox hədis yadda saxlayan görmüşəm."

Tirmizi demişdir: "Mən nə İraqda, nə də Xorasanda tarixi Muhəmməd ibn İsmaildən daha yaxşı bilən, hədislərin və onların isnadlarının qüsurlarını araşdıran daha üstün olanını görmədim."

Nəsai demişdir: "O, inanılmaz dərəcədə zəkalı bir mühəddisdir. İslam tarixində ilk səhih kitab yazan da odur."

İbn Kəsir demişdir: "O, bir dəfə kitaba baxmaqla onu əzbərləyərdi."

İbn Mücahid demişdir: "Muhəmməd ibn Səlləmin yanında idim. O mənə dedi: Bir az əvvəl gəlmiş olsaydın, sənə yetmiş min hədis əzbər bilən uşağı göstərərdim."

Quteybə ibn Səid demişdir: "Fəqihlərlə, zahidlərlə və abidlərlə oldum, lakin Məhəmməd ibn İsmail kimisini görmədim. O, öz zamanında Ömər (Allah ondan razı olsun) kimi idi."

Bəzi alimlər onun barəsində belə demişlər: "Buxari Allahın yer üzərində yeriyən ayətlərindəndir."

**❋ Vəfatı:**

İmam Buxari hicrətin 256-cı ilində Buxaradan Səmərqəndə gedərkən vəfat etmişdir.

---

[2] Söhbət böyük tabiinlərdən olmuş əl-Həsən əl-Bəsridən (728 – 842 h) gedir.

❁ **Buxarinin yazdığı əsərlərdən bəziləri:**

- "əs-Səhih". Kitabın tam adı: "əl-Cami əs-Səhih əl-Musnəd min Hədisi Rasulilləhi sallallahu aleyhi və səlləmə va Sunənihi və Əyyamih."
- "Əsamis-Səhabə"
- "ət-Tarixul-Kəbir"
- "ət-Tarixul-Ovsat"
- "ət-Tarixus-Sağir"
- "Qadayəs-Sahəbə vət-Tabiin"
- "əl-İləl"
- "əl-Kunə"
- "Birrul-Valideyn"
- "əl-Məbsut"
- "ət-Təfsirul-Kəbir"
- "əl-Musnədul-Kəbir"
- "Cuzu Raful-Yədeyn fis-Saləti"
- "Cuzul-Qiraəti Xalfəl-İmam"
- "Xalqu Əfalil-İbad"

***İmam Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxariyə Allah rəhmət etsin və onu əsərlərinə görə mükafatlandırsın!***

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

*Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

قال الحافظ أبو عبد الله محمد بن إسماعيل بن إبراهيم البخاري:

## ١ – بَابُ قَوْلِهِ تَعَالَى: ﴿ وَوَصَّيْنَا الإِنْسَانَ بِوَالِدَيْهِ حُسْنًا ﴾

## Hafiz Əbu Abdullah Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxari demişdir:[3]

## 1-ci fəsil. Uca Allahın “Biz insana valideynləri ilə gözəl davranmağı[4] buyurduq” ayəsi[5]

١ – أَخْبَرَنَا أَبُو نَصْرٍ أَحْمَدُ بْنُ مُحَمَّدِ بْنِ الْحَسَنِ بْنِ حَامِدِ بْنِ هَارُونَ بْنِ عَبْدِ الْجَبَّارِ الْبُخَارِيُّ الْمَعْرُوفُ بِابْنِ النَّيَازِكِيِّ قِرَاءَةً عَلَيْهِ فَأَقَرَّ بِهِ قَدِمَ عَلَيْنَا حَاجًا فِي صَفَرَ سَنَةَ سَبْعِينَ وَثَلَاثِمِئَةٍ، قَالَ: أَخْبَرَنَا أَبُو الْخَيْرِ أَحْمَدُ بْنُ مُحَمَّدِ بْنِ الْجَلِيلِ بْنِ خَالِدِ بْنِ حُرَيْثٍ الْبُخَارِيُّ الْكَرْمَانِيُّ الْعَبْقَسِيُّ الْبَزَّارُ سَنَةَ اثْنَتَيْنِ وَعِشْرِينَ وَثَلَاثُمِئَةٍ، قَالَ: حَدَّثَنَا أَبُو عَبْدِ اللَّهِ مُحَمَّدُ بْنُ إِسْمَاعِيلَ بْنِ إِبْرَاهِيمَ بْنِ الْمُغِيرَةِ بْنِ

---

[3] İmam Buxari öz kitabını bu ünvanla başlamaqla sanki onu oxuyan adama demək istəyir ki, “Ey şəriət ədəblərini öyrənmək istəyən, İslamın ali əxlaqına yiyələnməyə can atan müsəlman, bil ki, bu ədəb və əxlaqla davranılmağa ən çox layiq olan kimsə valideynlərdir.”

[4] Uca Allah bu ayədə “gözəl davranmaq” deyəndə, insana, ümumiyyətlə, hər bir işdə, hər bir halda və hər zaman valideyni ilə gözəl rəftar etməyi əmr edir. Hətta bir çox ayələrədə Öz haqqı ilə yanaşı, valideyn haqqını ödəməyi buyurur. Məsələn: **“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin!**” (ən-Nisa, 36), yaxud: **“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur”** (əl-İsra, 23), və ya: **“Mənə və valideynlərinə şükür et!”** (Loğman, 14).

[5] Ayənin tamamı belədir: **“Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etsələr, onlara güzəştə getmə. Dönüşünüz Mənə olacaq, Mən də bütün etdikləriniz barədə sizə xəbər verəcəyəm”** (əl-Ənkəbut, 8). Bu ayə Səd ibn Vəqqas ﷺ barədə nazil olmuşdur (Bu kitabda keçən 24-cü hədisə bax).

الأَحْنَفِ الْجُعْفِيُّ البُخَارِيُّ قال: حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: الْوَلِيدُ بْنُ الْعَيْزَارِ أَخْبَرَنِي قَالَ: سَمِعْتُ أَبَا عَمْرٍو الشَّيْبَانِيَّ، يَقُولُ: حَدَّثَنَا صَاحِبُ هَذِهِ الدَّارِ، وَأَوْمَأَ بِيَدِهِ إِلَى دَارِ عَبْدِ اللَّهِ، أَنَّهُ قَالَ: سَأَلْتُ النَّبِيَّ ﷺ: أَيُّ الْعَمَلِ أَحَبُّ إِلَى اللَّهِ عَزَّ وَجَلَّ؟ قَالَ: ((الصَّلاَةُ عَلَى وَقْتِهَا))، قُلْتُ: ثُمَّ أَيٌّ؟ قَالَ: ((ثُمَّ بِرُّ الْوَالِدَيْنِ))، قُلْتُ: ثُمَّ أَيٌّ؟ قَالَ: ((ثُمَّ الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ))، قَالَ: حَدَّثَنِي بِهِنَّ، وَلَوِ اسْتَزَدْتُهُ لَزَادَنِي.

**(1)** ........ Vəlid ibn Ayzar demişdir: "(Bir gün) Əbu Amr əş-Şeybani əli ilə Abdullahın[6] evini göstərib dedi: "Bu evin sahibi[7] bizə belə rəvayət etmişdir: "Mən Peyğəmbərdən ﷺ soruşdum: "Allahın ﷻ ən çox sevdiyi[8] *əməl*

---

[6] Burada Abdullah deyildikdə, məşhur səhabə Abdullah ibn Məsud ibn Ğafil ibn Həbib əl-Huzəli ﷺ nəzərdə tutulur. Gənc yaşlarında İslam dinini qəbul etmiş və iki dəfə hicrət etmiş mühacirlərdən, müsəlmançılığı ilk əvvəl qəbul etmiş altı nəfərin altıncısı, özü də çox arıq, bəstədoy, mülayim, həm də iradəsi möhkəm bir adam olmuşdur. Peyğəmbərdən ﷺ sonra Məkkədə Quranı ilk dəfə ucadan oxuyan səhabədir. Abdullah ibn Məsud ﷺ Quranı ən yaxşı bilənlərdən idi. O, demişdir: "Allahın Kitabından nazil olmuş elə bir ayə yoxdur ki, mən onun harada və nə səbəbdən nazil olduğunu bilməyim." Xeysəmə rəvayət edir ki, bir dəfə mən Abdullah ibn Amr ibn əl-Asın yanında ikən o, Abdullah ibn Məsudu yada saldı və dedi: "Mən Peyğəmbərin ﷺ "Quranı dörd nəfərdən öyrənin: Abdullah ibn Məsuddan, Əbu Huzeyfənin azad etdiyi köləsi Salimdən, Ubeyy ibn Kəbdən və Muaz ibn Cəbəldən" dediyini eşitdiyim gündən bəri Abdullahı sevirəm. Abdullah ibn Məsud ﷺ hicrətin 32-ci ilində Mədinə şəhərində vəfat etmiş və Bəqi qəbiristanlığında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ, 87-ci tərcümeyi-hal).

[7] Bu, dəlildir ki, hədisi danışan ravinin adını zikr etmədən, sadəcə işarə etməklə onu tanıtmaq caizdir.

[8] Burada səhabə Allahın sevdiyi ən fəzilətli əməllər barədə soruşur. Deməkk, Allah fəzilətli əməlləri sevir. Bu da, Allahın feli sifətlərindəndir. Allahın hər hansı bir əməli və ya bir kimsəni sevməsi Qurani Kərimdə də öz təsdiqini tapmışdır. Uca Allah buyurur: **"Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir"** (əl-Bəqərə, 195); digər ayədə buyurur: **"Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da"** (əl-Bəqərə, 222); başqa bir ayədə buyurur: **"Həqiqətən, Allah müttəqiləri sevir"** (ət-Tovbə, 4). Allahın sevgisini qazanmaq üçün isə Peyğəmbərin ﷺ yolunu tutub getmək lazımdır. Bu xüsusda, Uca Allah buyurur: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir"** (Ali-İmran, 31). Üstəlik, bu sevgini Allahın Özündən diləmək gərəkdir. Peyğəmbər ﷺ dua edib deyərdi: "**Allahummə, inni əs-əlukə hubbəkə və hubbə mən yuhibbukə və hubbə aməlin yuqarribuni ilə hubbikə!** (Allahım, Sənin məhəbbətini və Səni sevənin məhəbbətini qazanmağı, Sənin məhəbbətinə yaxınlaşdıracaq hər bir əməli sevməyi Səndən diləyirəm!)"

hansı əməldir?" O, buyurdu: "Namazı öz vaxtında[1] qılmaq." Mən dedim: "Sonra hansıdır?" O, buyurdu: "Valideynlərin qayğısına qalmaq.[2]" Mən dedim: "Sonra hansıdır?" O, buyurdu: "Allah yolunda[3] cihad etmək.[4]"

(Abdullah ibn Məsud ؓ) dedi: "Bunları mənə Peyğəmbər ﷺ söylədi. Əgər yenə soruşsaydım,[1] əlavə edərdi."[2]

---

(Musnəd Əhməd 5/243). Habelə, bu sevgiyə nail olmaq üçün Peyğəmbərin ﷺ "Dünyaya könül bağlama, Allah səni sevsin..." (Sunən İbn Macə, 4102) nəsihətini yerinə yetirmək lazımdır. Hədisdən o da aydın olur ki, Allah namaz qılmayanları, valideynin üzünə ağ olanları və Allah yolunda olan cihadı tərk edənləri sevmir.

[1] Bu, dəlildir ki, gündəlik qılınan beş namazın hər biri öz vaxtında qılınmalıdır. Bu xüsusda, Uca Allah buyurur: **"Namazı *lazımi qaydada* qılın. Çünki namaz *qılmaq* möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir"** (ən-Nisa, 103); başqa bir ayədə O, buyurur: **"Namazları və *günortadan sonrakı* orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun"** (əl-Bəqərə, 238). İbn Kəsir bu ayəni təfsir edərkən demişdir: "Uca Allah bu ayədə *müsəlmanlara* namazları öz vaxtında qılmağı, habelə, onları doğru-düzgün yerinə yetirməyi əmr edir. Buxari və Muslimin "Səhih" əsərlərində də bu öz təsdiqini tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ İbn Məsudun ؓ "Ən fəzilətli *əməl* hansı əməldir?" sualına belə cavab vermişdir: "Namazı öz vaxtında qılmaq" (İbn Kəsirin təfsiri).

[2] Diqqət edin! Ayələrdə olduğu kimi, bu hədisdə də valideyn haqqı Allahın haqqı ilə ilə yanaşı zikr edilir. Bu da, valideyn haqqının nə dərəcədə vacib olduğunu bildirir.

[3] Bu, dəlildir ki, ancaq ixlasla, Allahın Kəlməsini ucaltmaq məqsədilə yerinə yetirilən yetirilən cihad əsl cihad sayılır. Bu xüsusda varid olmuş hədisdə Əbu Musa ؓ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Allah yolunda vuruşmaq nə deməkdir? Axı bizlərdən kimisi qəzəbinə görə, kimisi də namusuna görə vuruşur." Peyğəmbər ﷺ buyurdu: "Hər kim Allahın Kəlməsini ucaltmaq üçün vuruşarsa, Allah ﷻ yolunda vuruşmuş olar" (Səhih əl-Buxari, 123); digər rəvayətdə Əbu Musa ؓ demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "*İnsanlardan* kimisi qənimət əldə etmək üçün, kimisi ad-san qazanmaq üçün, kimisi də özünü göstərmək üçün vuruşur. Bunlardan hansı biri Allah yolunda *vuruşmaq* sayılır?" Peyğəmbər ﷺ buyurdu: "Kim, Allahın Sözü *hər şeydən* uca olsun deyə vuruşarsa, o, Allah yolunda *vuruşmuş* olar" (Səhih əl-Buxari, 2810). Bu hədislər dəlildir ki, Allah yolunda cihad etmək Allahın sevdiyi ən əfzəl əməllərdən sayılır (Sunən Əbu Davud, 3462; Silsilətul-Əhadisis-Səhihə, 1/15; Səhih əl-Cami, 423).

[4] Hədisdəki bu tərtib, yəni cihadın valideyn haqqını ödəməkdən sonra gəlməsi o deməkdir ki, cihada getmək üçün ata-ananın izni olmalıdır. Abdullah ibn Amrın ﵄ rəvayət etdiyi hədisdə deyilir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib cihada getmək istədiyini ona bildirdi. Peyğəmbər ﷺ ondan: "Valideynlərin sağdırmı?"– deyə soruşdu. O "Bəli!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: "Elə isə, onlar üçün çalış!" (əl-Ədəbul-Mufrad, 20).

**٢**– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا يَعْلَى بْنُ عَطَاءٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ قَالَ: ((رِضَا الرَّبِّ فِي رِضَا الْوَالِدِ، وَسَخَطُ الرَّبِّ فِي سَخَطِ الْوَالِدِ)).

**(2)** ........ Abdullah ibn Ömər[3] ﷺ demişdir: "Rəbbin razılığı valideynin razılığına görə, qəzəbi də valideynin qəzəbinə görədir![4]"[5]

---

[1] İbn Məsudun ﷺ bu sözündən aydın olur ki, onun Peyğəmbərə ﷺ bundan artıq sual verməməsinin səbəbi olmuşdur. Buradakı rəvayətdə həmin səbəb açıqlanmasa da, imam Muslimin "Səhih"ində o, nəyə görə daha çox sual vermədiyini açıqlayıb demişdir: "Mən Peyğəmbəri ﷺ yormaq istəmədiyim üçün ona bundan artıq sual vermədim" (Səhih Muslim, 252). Bu, dəlildir ki, elm almaq istəyən kimsə alimə ehtiramla yanaşmalı, həddini aşmamalı və öz sualları ilə qarşısındakı alimi bezdirməməlidir. Həmçinin, İbn Məsudun ﷺ "əlavə edərdi" sözü o deməkdir ki, bu üç əməldən başqa daha fəzilətli əməllər də vardır. Məsələn, Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbərdən ﷺ soruşdular: "Hansı əməl ən əfzəl *əməl* sayılır?" Dedi: "Allaha və Onun rəsuluna iman gətirmək." Soruşdular: "Sonra hansıdır?" Dedi: "Allah yolunda cihad etmək." *Yenə* soruşdular: "Sonra hansıdır?" Dedi: "Qəbul olunmuş həcc" (Səhih əl-Buxari, 26; Səhih Muslim, 248).

[2] Bu hədisi Buxari (5970), Muslim (139), Tirmizi (2019), Nəsai (1580) və Əhməd (1/410) rəvayət etmişdir.

[3] Əbu Abdur-Rəhman Abdullah ibn Ömər ibn Xattab əl-Ədəvi əl-Qurəşi ﷺ Rəsulullahın ﷺ azyaşlı səhabələrindəndir. Uşaq ikən İslamı qəbul etmiş, sonra da atası ilə birgə Mədinəyə hicrət etmişdir. Xəndək döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir. Rəsulullahdan ﷺ 2630 hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 45-ci tərcümeyi-hal). İbn Ömər ﷺ bacısı Həfsədən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ona belə demişdir: "Həqiqətən də, Abdullah əməlisaleh bir adamdır" (Səhih əl-Buxari, 3740-3741).

[4] Burada "razılığına görə" deyildikdə, mütləq şəkildə razılıq, habelə, "qəzəbinə görə" deyildikdə, mütləq şəkildə qəzəblənmə nəzərdə tutulmur. Ola bilər ki, valideyn adama asiliyi əmr etsin və adam ona asi olaraq Allahın buyuruğunu yerinə yetirsin və nəticədə Allahı razı salıb, valideyni qəzəbləndirsin. Belə hallar müstəsnadır. Bu xüsusda, Uca Allah buyurur: **"Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün *səni məcbur etməyə* cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran. Mənə üz tutanların yolu ilə get! Sonra isə dönüşünüz Mənə olacaq, Mən də nə etdikləriniz barədə sizə xəbər verəcəyəm"** (Loğman, 15).

[5] Burada bu hədisin mətni "movquf" isnadla, yəni yalnız səhabəyə (Abdullah ibn Ömərə ﷺ) istinad edilərək rəvayət edilmiş olsa da, imam Tirmizinin "Sunən" əsərində (2020) həmin hədis Abdullah ibn Amr ibn Asdan ﷺ "mərfu" isnadla, yəni Peyğəmbərə ﷺ istinad edilərək rəvayət olunmuşdur. Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində olan bu rəvayətin "həsən", Tirmizinin rəvayətinin isə "səhih"

olduğunu demişdir (Səhih əl-Cami, 3506; Silsilətul-Əhadisis-Səhihə, 516; Səhih Tərğib vət-Tərhib, 2501 və 2503).

## ٢- بَابُ بِرِّ الأُمِّ

## 2-ci fəsil. Ananın qayğısına qalmaq[1]

٣- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ بَهْزِ بْنِ حَكِيمٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، قَالَ، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، مَنْ أَبَرُّ؟ قَالَ: ((أُمَّكَ))، قُلْتُ: مَنْ أَبَرُّ؟ قَالَ: ((أُمَّكَ))، قُلْتُ: مَنْ أَبَرُّ؟ قَالَ: ((أُمَّكَ))، قُلْتُ: مَنْ أَبَرُّ؟ قَالَ: ((أَبَاكَ، ثُمَّ الأَقْرَبَ فَالأَقْرَبَ)).

**(3)** ........ Bəhz ibn Həkim atasından, o da babasından[2] belə rəvayət etmişdir:[3] "Mən (Peyğəmbərdən ﷺ) soruşdum: "Ya Rəsulullah, mən kimə qayğı göstərməliyəm?"[4] Dedi: "Anana!" (Yenə) soruşdum: "Kimə qayğı göstərməliyəm?" Dedi: "Anana!" (Yenə) soruşdum: "Kimə qayğı göstərməliyəm?" Dedi: "Anana!"[5] (Yenə) soruşdum: "Kimə qayğı göstərməliyəm?" Dedi: "Atana, sonra da ən yaxın və ən yaxın olanlara."

---

[1] İmam Buxari fəslə belə ad verməklə bu xüsusda ananın hamıdan üstün olduğunu bildirmək istəmişdir. Burada "qayğı" deyildikdə, ananın rifahı üçün göstərilən diqqət, onun fikrini çəkmək, dərdinə qalmaq, onunla gözəl rəftar etmək və başqa bu kimi xeyirxahlıqlar nəzərdə tutulur.

[2] Bəhz ibn Həkimin babası – Muaviyə ibn Heydə əl-Quşeyri əl-Bəsri ﵁ Peyğəmbərin ﷺ səhabəsidir (İkmal Təhzib əl-Kəmal, 4635-ci tərcümeyi-hal).

[3] Bu hədisi Əbu Davud, (5141), Tirmizi (2018) və Əhməd (1/410) rəvayət etmişdir. (Bu hədis "həsən"dir. Bax: Səhih əl-Cami, 1399.) Hədisin isnadı "həsən" olsa da, mətni səhih hesab edilir. (Bax: Səhih əl-Buxari, 5971 və Səhih Muslim, 2548).

[4] Səhabənin bu cür sual verməsi, habelə, əvvəlki fəsildə İbn Məsudun ﵁ "Allahın ən çox sevdiyi əməl hansı əməldir?" sualı və ümumiyyətlə, səhabələrin Peyğəmbərdən ﷺ ən əfzəl olanlar barədə soruşması onların xeyirxah işlərdə daim öndə getmək istədiklərindən xəbər verir. Uca Allah onların bu xüsusiyyəti barədə belə buyurur: **"Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər – məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər"** (əl-Muminun, 57-61).

[5] Peyğəmbərin ﷺ anaya olan qayğını üç kərə təkrar etməsi, bu xüsusda ananın atadan üstün olmasını göstərir. Övladın dünyaya gəlməsi və böyüyüb boya-başa çatması üçün, əlbəttə ki, ana hamıdan çox əziyyət çəkir. Nə ata, nə də başqa birisi ananın çəkdiyi əziyyəti çəkə bilməz. Bu xüsusda, Uca Allah buyurur: **"Biz insana ata-anasının qayğısına**

٤ – حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ جَعْفَرِ بْنِ أَبِي كَثِيرٍ قَالَ: أَخْبَرَنِي زَيْدُ بْنُ أَسْلَمَ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّهُ أَتَاهُ رَجُلٌ فَقَالَ: إِنِّي خَطَبْتُ امْرَأَةً، فَأَبَتْ أَنْ تَنْكِحَنِي، وَخَطَبَهَا غَيْرِي، فَأَحَبَّتْ أَنْ تَنْكِحَهُ، فَغِرْتُ عَلَيْهَا فَقَتَلْتُهَا، فَهَلْ لِي مِنْ تَوْبَةٍ؟ قَالَ: أُمُّكَ حَيَّةٌ؟ قَالَ: لاَ، قَالَ: تُبْ إِلَى اللهِ عَزَّ وَجَلَّ، وَتَقَرَّبْ إِلَيْهِ مَا اسْتَطَعْتَ.

فَذَهَبْتُ فَسَأَلْتُ ابْنَ عَبَّاسٍ: لِمَ سَأَلْتَهُ عَنْ حَيَاةِ أُمِّهِ؟ فَقَالَ: إِنِّي لاَ أَعْلَمُ عَمَلاً أَقْرَبَ إِلَى اللهِ عَزَّ وَجَلَّ مِنْ بِرِّ الْوَالِدَةِ.

**(4)** ........ Əta ibn Yəsar rəvayət edir ki, bir nəfər İbn Abbasın[1] رضي الله عنهما yanına gəlib dedi: "Mən bir qadına elçi göndərdim, o isə mənə ərə gəlməkdən imtina etdi. Lakin başqa birisi ona elçi göndərdi və o, həmin adama ərə getməyə razılıq verdi. Mən də qısqanclıq[2] üzündən o qadını öldürdüm. Hər-

---

**qalmağı əmr etdik. Anası onu *bətnində* gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur"** (Loğman, 14); digər ayədə buyurur: **"Biz insana ata-anasının qayğısına qalmağı tövsiyə etdik. Anası onu *bətnində* əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun *bətndə* daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir"** (əl-Əhqaf, 15). Ayələrə diqqətlə nəzər salsaq, onların bu fəsildəki hədislə olan bağlılığını görə bilərik. Belə ki, hədisdə Peyğəmbər ﷺ anaya olan qayğını üç dəfə təkrar edir, bu ayələrdə də ananın öz övladına çəkdiyi üç ən böyük əziyyət xüsusilə vurğulanır: onu bətnində daşıması, sonra dünyaya gətirməsi və nəhayət, əmizdirməsi. Bu ayələr insana keçmişini xatırlatmaqla onu öz anasının qeydinə qalmağa təşviq edir.

[1] Əbul-Abbas Abdullah ibn Abbas ibn Abdul-Muttəlib əl-Haşimi رضي الله عنهما hicrətdən az əvvəl dünyaya gəlmiş və nəhayət, Məkkənin fəthindən sonra ata-anası ilə birgə Mədinəyə hicrət etmişdir. Təqribən otuz ay Peyğəmbərin ﷺ səhabəsi olmuşdur. Hicrətin 68-ci ilində yetmiş bir yaşında vəfat etmişdir. O, müfəssirlərin imamı və ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Peyğəmbərdən ﷺ 1660 hədis rəvayət etmişdir. (Siyər Əlam ən-Nubələ, 51-ci tərcümeyi-hal). Peyğəmbər ﷺ onu bağrına basıb: "Allahım, ona hikmət öyrət!", digər rəvayətdə "Allahım, ona Quranı öyrət!"– demişdir (Səhih əl-Buxari, 3756). Bir başqa rəvayətdə İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ ayaqyoluna girdi və mən onun üçün su qoydum. *Ayaqyolundan çıxdıqdan sonra* Peyğəmbər ﷺ: "Bunu kim qoydu?"– deyə soruşdu. Ona *bu haqda* xəbər verildikdə o, dedi: "Allahım, dini başa düşməyi ona müyəssər et!" (Səhih əl-Buxari, 143).

[2] Belə qısqanclıq şəriətə zidd olan əməllərdən hesab edilir. Haqsız yerə kimsənin canına qıymaq isə haram buyurulmuşdur.

gah tövbə etsəm, qəbul olarmı?"[1] İbn Abbas soruşdu: "Anan sağdırmı?"[2] O: "Xeyr!"– deyə cavab verdi. İbn Abbas dedi: "Allaha ﷻ tövbə et və bacardığın qədər Ona yaxınlaş![3]"

---

[1] Bu, dəlildir ki, günahın böyüklüyündən asılı olmayaraq, hər bir insan Allahın mərhəmətindən ümidini üzməməlidir. Bu xüsusda, Uca Allah belə buyurur: **"Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın mərhəmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"** (əz-Zumər, 53). Həmçinin, bu rəvayətdən açıq-aydın görünür ki, Uca Allah bu adamı İbn Abbas kimi alimdən tövbə barədə soruşmağa müvəffəq etmişdir. Belə günaha görə tövbə etmək hər adama nəsib olmur. Yer üzündə neçə-neçə insanlar var ki, haqsız yerə başqalarının canına qəsd edir, sonra səmimi-qəlbdən tövbə etmək ona nəsib olmur. Halbuki, əgər tövbə etsələr, Allahın Başığlayan və Rəhmli olduğunu görərlər. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "İsrail oğullarından birisi doxsan doqquz adam öldürmüşdü. Bundan sonra o, bir rahibin yanına gəlib *günahını etiraf etdi* və ondan: "Tövbə *etsəm, qəbul* olarmı?"- deyə soruşdu. Rahib: "Xeyr!"- dedikdə bu adam onu da öldürdü. Sonra o, *sualına cavab tapmaq üçün* soruşmağına davam etdi. *Axırda elmli* bir adam ona: "(Tövbə et, sonra) filan kəndə get!"– dedi. Yolda ölüm onu haqladı və o, ölərkən sinəsini həmin kəndə doğru çevirdi. Bu vaxt rəhmət mələkləri ilə əzab mələkləri ona görə öz aralarında çəkişməyə başladılar. Allah yerin bu tərəfinə: "Yaxınlaş!", o tərəfinə isə: "Uzaqlaş"– deyə vəhy etdi. Sonra da *mələklərə*: "Bunların arasındakı məsafəni ölçün!"– deyə buyurdu. *Məsafə ölçüldükdən sonra* bu adamın o kəndə bir qarış daha yaxın olduğu bəlli oldu və *Allah* onu bağışladı" (Səhih əl-Buxari, 3470). Odur ki, bilmədiklərinizi bilənlərdən soruşun.

[2] İbn Abbasın رضي الله عنهما bu sözü o deməkdir ki, ananın qayğısına qalmaq kimi xeyirxah əməllər böyük günahların silinməsi üçün kəffarə hesab olunur. İbn Abbasın bu cür hökm verməsi tam sünnəyə uyğundur. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mən böyük bir günaha batmışam. Əgər tövbə etsəm, qəbul olarmı?" Peyğəmbər ﷺ ondan: "Anan varmı?"– deyə soruşdu. Adam: "Xeyr!"– deyə cavab verdi. Peyğəmbər ﷺ ondan: "Xalan varmı?"– deyə soruşdu. O: "Bəli"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ ona: "Onun qeydinə qal"– deyə buyurdu. (Sunən ət-Tirmizi, 2027; Səhih Tərğib vət-Tərhib, 2504). Demək, xala, ananı əvəz edir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Xala, ana yerindədir!" (Səhih əl-Buxari, 2699).

[3] Tövbə etdikdən sonra yaxşı işlər görmək günahların silinməsi üçün kəffarə sayılır. Bu xüsusda, Uca Allah buyurur: **"Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır"** (Hud, 114); başqa bir ayədə Allah buyurur: **"Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər."** (əl-Furqan, 70). Həmçinin, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın" (Sunən ət-Tirmizi, 1987).

(Əta ibn Yəsar demişdir): "Mən gedib[1] İbn Abbasdan soruşdum: "Nə üçün sən ondan anasının sağ olub-olmadığını soruşdun?" İbn Abbas dedi: "Çünki mən Allah ﷻ yanında ana qayğısını çəkməkdən daha yaxın bir əməl bilmirəm."[2]

[1] Əta ibn Yəsarın bu hərəkəti, onun necə əxlaq sahibi olduğundan xəbər verir. Diqqət edin, adam İbn Abbasın رضي الله عنهما sözünü yarımçıq kəsib həmin vaxt ona sual vermir, əksinə, bir müddət keçdikdən sonra ona yaxınlaşıb məsələyə aydınlıq gətirməsini xahiş edir.

[2] Şeyx Albani bu hədisin "səhih" olduğunu demişdir. (Bax: Səhih əl-Ədəbul-Mufrad, 4; Silsilətul-Əhadisis-Səhihə, 2799).

## ٣- بَابُ بِرِّ الأَبِ

## 3-cü fəsil. Atanın qayğısına qalmaq[1]

٥- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا وُهَيْبُ بْنُ خَالِدٍ، عَنِ ابْنِ شُبْرُمَةَ قَالَ: سَمِعْتُ أَبَا زُرْعَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قِيلَ: يَا رَسُولَ اللَّهِ ﷺ، مَنْ أَبَرُّ؟ قَالَ: ((أُمَّكَ))، قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: ((أُمَّكَ))، قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: ((أُمَّكَ))، قَالَ: ثُمَّ مَنْ؟ قَالَ: ((أَبَاكَ)).

**(5)** ........ Əbu Hureyrə[2] ﷺ rəvayət edir ki, (bir nəfər Peyğəmbərdən ﷺ) soruşdu: “Ya Rəsulullah, mən kimə qayğı göstərməliyəm?” O, dedi: “Anana!” (Yenə) soruşdu: “Sonra kimə?” O, dedi: “Anana!” (Bir daha) soruşdu: “Sonra kimə?” O, dedi: “Anana!” (Dördüncü dəfə): “Sonra kimə?”– deyə soruşduqda, o: “Atana!”– dedi.[3]

---

[1] İmam Buxari fəslə belə ad verməklə, ananın haqqından sonra ata haqqının vacib olduğunu bildirir.

[2] Əbu Hureyrə Abdur-Rəhman (və ya Abdullah) ibn Saxr əd-Dovsi əl-Yəmani ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Əbu Hureyrə “pişikciyəz atası” deməkdir. Əgər biz onun adı ilə ləqəbini müqayisə etsək, görərik ki, Abdur-Rəhman, yəni ər-Rəhmanın qulu, Allahın ən çox sevdiyi adlardan biridir, Əbu Hureyrə isə əcaib-qəraib bir ləqəbdir. Lakin buna rəğmən, Allah subhanəhu və təalə onu insanlara məhz bu ləqəblə tanıtmış və onu insanlara sevdirmişdır. Peyğəmbər ﷺ onun üçün belə dua etmişdir: “Allahım, bu iki qulunu: Əbu Hureyrəni və onun anasını insanlara sevdir!” (əl-Ədəbul-Mufrad, 34). Əbu Hureyrə hicrətin 7-ci ilində, Muhərrəm ayında, Xeybərin fəthindən əvvəl İslam dinini qəbul etmiş və müsəlman olduğu gündən Peyğəmbər ﷺ vəfat etdiyi günədək – yəni hicrətin 11-ci ilinin rəbiyəl-əvvəl ayınadək onun yanından ayrılmamışdır. Bu səhabə Peyğəmbərdən ﷺ 5374 hədis rəvayət etmişdir. Cəmi üç il iki ay Peyğəmbərin ﷺ yanında dərs almış səhabənin hamıdan çox hədis rəvayət etməsi, əlbəttə ki, möcüzədir, özü də Peyğəmbərin ﷺ möcüzəsi. Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, *bir dəfə* mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: “Ya Rəsulullah! Mən səndən çoxlu hədislər eşidirəm, lakin onları yadda saxlaya bilmirəm.” Peyğəmbər ﷺ: “Paltarının ətəyini aç!”– deyə buyurdu. Mən paltarımın ətəyini açdıqda Peyğəmbər ﷺ əlləri ilə *sanki nəsə* ovuclayıb *paltarımın ətəyinə* atdı və: “Ətəyini yığ”– dedi. Mən onu yığdım və bundan sonra heç bir şey unutmadım” (Səhih əl-Buxari, 119). Əbu Hureyrə ﷺ hicrətin 59-cu ilində vəfat etmişdir.

[3] Bu hədisi Buxari (5971) və Muslim (2548) rəvayət etmişdir.

٦– حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا يَحْيَى بْنُ أَيُّوبَ قَالَ: حَدَّثَنَا أَبُو زُرْعَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَتَى رَجُلٌ نَبِيَّ اللَّهِ ﷺ فَقَالَ: مَا تَأْمُرُنِي؟ فَقَالَ: ((بِرَّ أُمَّكَ))، ثُمَّ عَادَ، فَقَالَ: ((بِرَّ أُمَّكَ))، ثُمَّ عَادَ، فَقَالَ: ((بِرَّ أُمَّكَ))، ثُمَّ عَادَ، فَقَالَ: ((بِرَّ أُمَّكَ))، ثُمَّ عَادَ الرَّابِعَةَ، فَقَالَ: ((بِرَّ أَبَاكَ)).

**(6)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir nəfər Allahın peyğəmbərinin ﷺ yanına gəlib dedi: "Mənə nə əmr edirsən?" (Peyğəmbər ﷺ ona): "Ananın qayğısına qal!"– deyə buyurudu. Adam (sualını) təkrar etdi. (Peyğəmbər ﷺ yenə): "Ananın qayğısına qal!"– deyə buyurudu. Adam (sualını) təkrar etdi. (Peyğəmbər ﷺ yenə): "Ananın qayğısına qal!"– deyə buyurudu. Adam (sualını) təkrar etdi. (Peyğəmbər ﷺ yenə): "Ananın qayğısına qal!"– deyə buyurudu. Adam (sualını) dördüncü dəfə təkrar etdikdən sonra, (Peyğəmbər ﷺ onun sonuncu sualına): "Atanın qayğısına qal!"– deyə cavab verdi.[1]

---

[1] Bu hədisi Əhməd (2/402) rəvayət etmiş və şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٤- بَابُ بِرِّ وَالِدَيْهِ وَإِنْ ظَلَمَا

## 4-cü fəsil. Validеynlər zülm etsələr[1] belə onların qayğısına qalmaq

٧- حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادٌ هُوَ ابْنُ سَلَمَةَ، عَنْ سُلَيْمَانَ التَّيْمِيِّ، عَنْ سَعِيدٍ الْقَيْسِيِّ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: ((مَا مِنْ مُسْلِمٍ لَهُ وَالِدَانِ مُسْلِمَانِ يُصْبِحُ إِلَيْهِمَا مُحْتَسِبًا، إِلاَّ فَتَحَ اللَّهُ بَابَيْنِ يَعْنِي: مِنَ الْجَنَّةِ وَإِنْ كَانَ وَاحِدًا فَوَاحِدٌ، وَإِنْ أَغْضَبَ أَحَدَهُمَا لَمْ يَرْضَ اللَّهُ عَنْهُ حَتَّى يَرْضَى عَنْهُ))، قِيلَ: وَإِنْ ظَلَمَاهُ؟ قَالَ: ((وَإِنْ ظَلَمَاهُ)).

**(7)** ........ İbn Abbas ﭭ demişdir: “Hər səhər savab qazanmaq məqsədi ilə müsəlman validеynlərinə yaxşılıq edən elə bir müsəlman yoxdur ki, Allah (ona) Cənnətdən iki qapı, yaxud onlardan biri sağdırsa, bir qapı açmasın. Və əgər onlardan birini qəzəbləndirsə, validеyni ondan razı qalmayınca, Allah da ondan razı qalmaz.[2]”

Soruşdular: “Validеynləri ona zülm etsələr belə?!” O, dedi: “Validеynləri ona zülm etsələr belə!”[3]

---

[1] Ən böyük zülm şirkdir. Lakin ən böyük zülmü edən müşrik validеynin belə, qayğısına qalmaq vacibdir. Bu xüsusda, Uca Allah buyurur: **“Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün *səni məcbur etməyə* cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran.”** (Loğman, 15).

[2] Allahın razılığının, validеynin razılığına bağlı olması isə 2-ci hədisdə öz təsdiqini tapmışdır.

[3] Bu hədisi Abdur-Rəzzaq (Musənnəf, 11/135) və Beyhəqi (Şoəbul-İman, 6/206) rəvayət etmişdir. Hədisin isnadında keçən Səid əl-Qeysi “məchul” ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində onun “zəif” olduğunu bildirmişdir.

## ٥- بَابُ لِينِ الْكَلاَمِ لِوَالِدَيْهِ

## 5-ci fəsil. Validenlərlə mülayim danışmaq[1]

٨- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا زِيَادُ بْنُ مِخْرَاقٍ قَالَ: حَدَّثَنِي طَيْسَلَةُ بْنُ مَيَّاسٍ قَالَ: كُنْتُ مَعَ النَّجَدَاتِ، فَأَصَبْتُ ذُنُوبًا لاَ أَرَاهَا إِلاَّ مِنَ الْكَبَائِرِ، فَذَكَرْتُ ذَلِكَ لاِبْنِ عُمَرَ قَالَ: مَا هِيَ؟ قُلْتُ: كَذَا وَكَذَا، قَالَ: لَيْسَتْ هَذِهِ مِنَ الْكَبَائِرِ، هُنَّ تِسْعٌ: الإِشْرَاكُ بِاللَّهِ، وَقَتْلُ نَسَمَةٍ، وَالْفِرَارُ مِنَ الزَّحْفِ، وَقَذْفُ الْمُحْصَنَةِ، وَأَكْلُ الرِّبَا، وَأَكْلُ مَالِ الْيَتِيمِ، وَإِلْحَادٌ فِي الْمَسْجِدِ، وَالَّذِي يَسْتَسْخِرُ، وَبُكَاءُ الْوَالِدَيْنِ مِنَ الْعُقُوقِ. قَالَ لِي ابْنُ عُمَرَ: أَتَفْرَقُ النَّارَ، وَتُحِبُّ أَنْ تَدْخُلَ الْجَنَّةَ؟ قُلْتُ: إِي وَاللَّهِ، قَالَ: أَحَيٌّ وَالِدَاكَ؟ قُلْتُ: عِنْدِي أُمِّي، قَالَ: فَوَاللَّهِ لَوْ أَلَنْتَ لَهَا الْكَلاَمَ، وَأَطْعَمْتَهَا الطَّعَامَ، لَتَدْخُلَنَّ الْجَنَّةَ مَا اجْتَنَبْتَ الْكَبَائِرَ.

**(8)** ........ Teysələ ibn Meyyas belə rəvayət etmişdir: "(Bir zaman) mən nəcədatla[2] həmfikir idim. Nəhayət, bir gün böyük günahlardan hesab etdi-

---

[1] Burada "mülayim danışmaq" deyildikdə, onların üstünə qışqırmamaq, onlar üçün dua etmək, onlara xoş söz demək və s. nəzərdə tutulur. Buna peyğəmbərlərin atası sayılan İbrahimi ﷺ misal çəkmək olar. Uca Allah buyurur: **"Kitabda İbrahimi də xatırla! Həqiqətən, o, sadiq insan və peyğəmbər idi. Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm mənə gəlmişdir. Arxamca gəl ki, səni doğru yola yönəldim. Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan Mərhəmətli *Allaha* çox asi oldu. Atacan! Qorxuram ki, Mərhəmətli *Allahdan* sənə bir əzab toxunsun və beləcə, şeytana yoldaş olasan"** (Məryəm, 41-45). Habelə, onun oğlu İsmail peyğəmbəri də misal çəkmək olar: **"O, böyüyüb *atası ilə* bərabər çalışmaq həddinə çatdıqda *İbrahim* dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör nə düşünürsən!" O, dedi: "Atacan! Sənə buyurulanı yerinə yetir. Allah qoysa, mənim səbirlilərdən olduğumu görəcəksən"** (əs-Saffat, 102). Həmçinin, Yusufu ﷺ da misal çəkmək olar: **"Bir zaman Yusuf atasına dedi: "Atacan! Mən *yuxuda* on bir ulduz, günəş və ay gördüm. Onların mənə səcdə etdiyini gördüm"** (Yusuf, 4).

[2] Nəcədat – xəvariclərdən olmuş Nəcdə ibn Amir əl-Hərurinin havadarlarıdır. Xəvaric, ərəbcə xərəcə ( خَرَجَ ) felindən əmələ gəlmiş xarici sözünün cəmidir. Xərəcə: xaric olmaq, xarici isə xaric olan deməkdir. "Xarici" deyildikdə, müsəlman camaatından ayrılıb, özünə dəstə yaradan və ya yaranmış belə bir dəstəyə qoşulan, dəlil-sübutsuz olaraq bö-

yim (bəzi) günah işləri gördüm, sonra da bunu (Abdullah) ibn Ömərə ﷺ bildirdim.[1] İbn Ömər: "Nədir onlar?"– deyə soruşdu. Mən: "Filan, filan (əməllərdir)" – deyə cavab verdim. İbn Ömər dedi: "Bunlar ki böyük günahlardan deyil. Böyük günahlar doqquzdur:[2] Allaha şərik qoşmaq,[3] adam

---

yük günah sahibini kafir sayan və şəriətə zidd olan digər əxlaqları özündə cəm edən fasiqlər nəzərdə tutulur. Bu firqə – müsəlmanlar arasında meydana gəlmiş ilk firqədir. Onlar Allahın razı qaldığı, Cənnətlə müjdələnmiş, İslam üçün canından və malından keçmiş, ölənədək Peyğəmbərə ﷺ sadiq olmuş Osman ﷺ və Əli ﷺ kimi iki böyük səhabəni kafir sayıb şəhid etmişlər. Ümumiyyətlə, bidət əhli ya Nəcədat, İbadilər, Əzariqələr kimi firqə başçısına, ya Xəvariclər kimi bidətin özünə, ya da Hərurilər kimi məkana mənsub edilir. Bunlar böyük günah işlətmiş müsəlmanları kafir hesab edən və onların qanını halal sayan firqədir. Peyğəmbər ﷺ Xəvaricləri vəsf edərkən demişdir: "Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcəklər", "Onlar Allahın Kitabını məlahətli səslə oxuyacaq, lakin oxuduqları xirtdəklərindən o yana keçməyəcəkdir. Ox öz ovunu dəlib keçdiyi kimi onlar da İslamdan çıxacaqlar", "Onlar bütpərəstləri qoyub müsəlmanları öldürəcəklər" (Səhih əl-Buxari, 3611, 4351 və 6880).

[1] Belə vəziyyətdə alimə müraciət etməyin özü böyük müvəffəqiyyətdir. Belə ki, xəvariclər hər zaman olduğu kimi həmin dövrdə də öz ardıcıllarını elm əhlinə müraciət etməkdən çəkindirirdilər. Buna Xəvariclərin İbn Abbas ﷺ barədə dediklərini misal çəkmək olar. İbn Abbas ﷺ onlara: "Mən Rəsulullahı ﷺ görmüş, habelə, Quran ayələrinin nazil olduğunu müşahidə etmiş səhabələri təmsil edirəm" deyəndə, onlar öz havadarlarına dedilər: "Bu adamdan uzaq olun, onunla münaqişə etməyin! Çünki o, Qureyşdəndir. Qureyşlilər barədə isə Allah Quranda belə buyurur: **"Doğrusu, onlar höcətləşən adamlardır."** Diqqət edin, bidət əhli müşriklər barədə nazil olmuş ayəni necə möminlərə aid edirlər. Halbuki, Uca Allah həmin ayədə müşrikləri məzəmmət edib buyurur: **"Onlar dedilər: "Bizim məbudlarımız yaxşıdır, yoxsa O?" Onlar bunu sənə yalnız höcət etmək üçün dedilər. Doğrusu, onlar höcətləşən adamlardır"** (əz-Zuxruf, 58). Teysələnin bu məsələdə İbn Ömərə ﷺ müraciət etməsi isə Allahın ona hidayət verməsi və onu haqq yola yönəltməsi deməkdir.

[2] Burada İbn Ömər ﷺ böyük günahların sayının doqquz olduğunu qəsd etmir, sadəcə Teysələyə bu günahlardan doqquzunu sadalayır. Belə ki, başqa rəvayətlərdə Peyğəmbər ﷺ sehrin, yalan danışmağın, yalandan şahidlik etməyin, valideyni lənətləməyin, qəbrin üstündə məscid tikməyin və başqa bu kimi günahların böyük günahlardan olduğunu xəbər vermişdir. Odur ki, İbn Abbasdan ﷺ "Böyük günahlar yeddidirmi?"– deyə soruşulduqda, o: "Yetmişə yaxındır"– demişdir (Nəvəvinin şərhi).

[3] Allaha şərik qoşmaq günahların ən böyüyüdür. Yeganə günahdır ki, Allah onu sahibinə bağışlamır. Bu xüsusda, Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur"** (ən-Nisa, 48).

öldürmək,[1] döyüş meydanından qaçmaq,[2] ismətli qadına böhtan atmaq,[3] sələm yemək,[4] yetimin malını yemək,[5] məsciddə günah iş görmək, (dini) məsxərəyə qoymaq[6] və valideynlərin üzünə ağ olub onları ağlatmaq."

---

[1] Burada "adam öldürmək" deyildikdə, haqsız yerə başqasının canına qəsd etmək nəzərdə tutulur. Çünki başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək" (Səhih əl-Buxari, 2766). Haqlı olaraq qisas almaq isə günaha aid edilmir. Abdullah ibn Məsudun ؓ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına və mənim Allahın rəsulu olmağıma şəhadət gətirən müsəlmanın qanını *axıtmaq* halal deyildir. Yalnız üç hal istisnadır: cana can (qisas alınmalı), zina etmiş evli (kişi və ya qadın daşqalaq edilməli) və dinindən dönüb camaatdan uzaqlaşan (mürtəd edam olunmalıdır)" (Səhih əl-Buxari, 6878). Bu xüsusda, Uca Allah buyurur: **"Qisasda sizin üçün həyat (əmin-amanlıq) vardır, ey ağıl sahibləri! Bəlkə *Allahdan* qorxasınız"** (əl-Bəqərə, 179).

[2] Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Kafirlərlə döyüş meydanında qarşılaşsanız, arxanızı onlara çevirməyin. Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir"** (əl-Ənfal, 15-16).

[3] Digər rəvayətdə deyilir: "*zinadan* bixəbər olan namuslu, ismətli mömin qadınları *zinada* ittiham etmək" (Səhih əl-Buxari, 2766). Bu günahı edən kimsənin həm lənətə, həm də böyük bir əzaba düçar olacağı barədə Uca Allah Öz Kitabında belə buyurur: **"*Murdar əməldən* xəbəri olmayan ismətli mömin qadınları *zinada* günahlandıranlar dünyada və axirətdə lənətə düçar olarlar. Onları böyük bir əzab gözləyir – o gün ki, dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. O gün Allah onlara özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın Haqq olduğunu biləcəklər"** (ən-Nur, 23-25).

[4] Burada "sələm yemək" deyildikdə, sələmə aid hər iş buna aid edilir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Sələm yeyənə, yedirdənə, ona şahidlik edənlərə və onu yazanlara Allah lənət etmişdir!" (Musnəd İmam Əhməd, 1/393; Səhih əl-Cami, 5089). Sələm yeyənlərin pis aqibəti barədə Quranda belə xəbər verilir: **"Sələm yeyənlər *qəbirlərindən* şeytan toxunub dəli eləmiş kimsənin qalxdığı kimi qalxarlar. Bu onların: "Alış-veriş də sələmçilik kimidir!"– demələrinə görədir. Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir. Hər kim özünə Rəbbindən xəbərdarlıq gəldikdən sonra *sələmçiliyə* son qoyarsa, olub-keçənlər ona bağışlanar və onun işi Allaha qalar. *Sələmçiliyə* qayıdanlar isə Od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar"** (əl-Bəqərə, 275).

[5] Bu xüsusda, Uca Allah buyurur: **"Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır"** (ən-Nisa, 2); digər ayədə O, buyurur: **"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan Oda girəcəklər"** (ən-Nisa, 10).

[6] Dini məsxərəyə qoymağın küfr olduğu barədə Quranda belə buyurulur: **"Onlardan *nə üçün istehza etdiklərini* soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşır-**

(Sonra) İbn Ömər məndən: "Cəhənnəm odundan qorxursanmı, Cənnətə girmək istəyirsənmi?[1]"– deyə soruşdu. Mən: "Bəli, vallahi ki, (istəyirəm)"– deyə cavab verdim. O, soruşdu: "Valideynlərin sağdırmı?" Dedim: "Yalnız anam yanımdadır." O, dedi: "Vallahi, əgər onunla mülayim danışsan və ona yemək-içmək versən, üstəlik böyük günahlardan çəkinsən,[2] mütləq Cənnətə girəcəksən."[3]

---

**dıq!" De: "Allaha, Onun ayələrinə və Onun rəsuluna istehzamı edirsiniz? Üzrxahlıq etməyin! Siz iman gətirdikdən sonra artıq kafir oldunuz"** (ət-Tovbə, 65-66).

[1] Burada İbn Ömər ﷻ qorxu ilə ümidi cəm edir. Bu da, peyğəmbərlərin və onların davamçılarının üslubudur. Quranda onlar belə vəsf olunurlar: **"İnsanlar tək bir ümmət idi. Allah *onlara* müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versinlər"** (əl-Bəqərə, 213); "**Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər**" (əs-Səcdə, 16). Başqa bir ayədə Uca Allah buyurur: **"Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır"** (əl-Hicr, 49-50).

[2] Bu xüsusda, Uca Allah buyurur: **"Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçər və sizi şərəfli bir keçidə – *Cənnətə* daxil edərik"** (ən-Nisa, 31). Demək, böyük günahlardan təmizlənmək üçün valideynin qayğısına qalmaq kifayət etmir, əlbəttə ki, günahların bağışlanması üçün tövbə etmək gərəkdir. Bu xüsusda, Uca Allah buyurur: **"Möminlər *mallarını* xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar. Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir! Kim tövbə edib yaxşı iş görərsə, o, doğrudan da Allaha tərəf qayıtmış olar"** (əl-Furqan, 67-71); başqa bir ayədə O, buyurur: **"Onların arxasınca namazı buraxıb, şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar. Ancaq *Allaha* tövbə edib iman gətirənlər və saleh əməllər edənlərdən başqa! Onlar Cənnətə daxil olacaq və heç bir haqsızlığa məruz qalmayacaqlar"** (Məryəm, 59-60).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Buna bənzər digər bir hədisdə rəvayət edilir ki, Yezid əl-Fəqir demişdir: "Xəvariclərin fikirlərindən bir fikir qəlbimi coşdurmuşdu. *O zaman* biz həcc etmək, sonra da insanları xəvaricliyə dəvət etmək məqsədilə bir dəstə adamla bərabər yola düşdük. Nəhayət, gəlib Mədinəyə çatdıq. Baxdıq ki, Cabir ibn Abdullah bir dirəyin yanında oturub camaata Peyğəmbərdən ﷺ hədis danışır. Bu əsnada o, cəhənnəm-

٩– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ قَالَ: ﴿وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ﴾، قَالَ : لاَ تَمْتَنِعْ مِنْ شَيْءٍ أَحَبَّاهُ.

**(9)** ........ Urva[1] (Uca Allahın)

﴿ وَٱخۡفِضۡ لَهُمَا جَنَاحَ ٱلذُّلِّ مِنَ ٱلرَّحۡمَةِ ﴾

**"Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al"**[2] – ayəsini izah edib demişdir:[3] "Onların istədiyinə mane olma!"[4]

---

likləri zikr etdi (yəni tövhid əhlindən Cəhənnəmə düşənlərin nə vaxtsa oradan çıxacaqlarını xəbər verdi). Onda mən ona dedim: "Ey Rəsulullahın səhabəsi! Bu nə *hədisdir* danışırsan?! Axı, Allah buyurur: **"Sən Oda saldığın kəsi rüsvay edərsən..."** (Ali-İmran, 192) və **"Hər dəfə onlar oddan çıxmaq istədikdə, yenidən ora qaytarılacaqlar"** (əs-Səcdə, 20). *Buna əsasən* bu danışdıqlarınız nədir?!" *Cabir məndən*: "Sən Quran oxuyursanmı?"– deyə soruşdu. Mən: "Bəli!"– deyə cavab verdim. Yenə soruşdu: "Muhəmmədin ﷺ məqamı – yəni Allahın onu çatdıracağı yer – barəsində eşitmisənmi?" Mən: "Bəli!"– deyə cavab verdim. Dedi: "Bu, Muhəmmədin ﷺ həmin tariflənən məqamıdır ki, Allah onun vasitəsilə *Cəhənnəmdən* çıxaracaqlarını çıxaracaq." Sonra Cabir *(Cəhənəmmin üstündən keçən)* körpünün harada yerləşdiyini və insanların onun üstündən nə cür keçəcəklərini vəsf etdi. Bunları yadda saxlamamış olduğumdan qorxuram. Ancaq onu deyə bilərəm ki, o bunları söyləmişdir: "Bir qrup adam *bir müddət* Cəhənnəmdə qaldıqdan sonra oradan çıxacaqdır. Onlar sanki simsim çubuqları kimi *qaralmış halda* çıxacaqlar. Sonra Cənnət çaylarından birinə daxil olub orada yuyunacaq və oradan kağız kimi *ağappaq* çıxacaqlar." Sonra biz *həcc ziyarətindən* geri döndük və *səhv fikirdə olanlara* dedik: "Vay sizin halınıza! Yoxsa o şeyxin Peyğəmbərin ﷺ adından yalan danışdığını güman edirsiniz?!" Beləliklə, biz *xəvariclikdən* vaz keçdik. Vallahi, aramızda bir nəfərdən başqa, xəvaric fikirlərində qalan olmamışdı" (Səhih Muslim, 473).

[1] Əbu Abdullah Urva ibn Zubeyr əl-Qurəşi əl-Mədəni hicrətin 23-cü ilində dünyaya gəlmişdir. Yeddi böyük tabiindən biridir ("Siyər Əlam ən-Nubələ", 168-ci tərcümeyi-hal).

[2] "əl-İsra" surəsi, 24.

[3] Təfsir alimləri bu cür təfsiri "ayəni onun mənalarından bəzisi ilə izah etmə" adlandırırlar. Yəni bu ayədən valideynlərə aid başqa nəticələr də çıxarmaq olar.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٦- بَابُ جَزَاءِ الْوَالِدَيْنِ

## 6-cı fəsil. Validеynlərə etdiklərinin əvəzini vermək

١٠- حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَجْزِي وَلَدٌ وَالِدَهُ، إِلاَّ أَنْ يَجِدَهُ مَمْلُوكًا فَيَشْتَرِيَهُ فَيُعْتِقَهُ)).

**(10)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Övlad valideyninin ona etdiklərinin əvəzini verə bilməz. Yalnız valideynini kölə ikən alıb azad etməsi müstəsnadır.[1]"[2]

١١- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي بُرْدَةَ قَالَ: سَمِعْتُ أَبِي يُحَدِّثُ، أَنَّهُ شَهِدَ ابْنَ عُمَرَ وَرَجُلٌ يَمَانِيٌّ يَطُوفُ بِالْبَيْتِ، حَمَلَ أُمَّهُ وَرَاءَ ظَهْرِهِ، يَقُولُ:

إِنِّي لَهَا بَعِيرُهَا الْمُذَلَّلُ    إِنْ أُذْعِرَتْ رِكَابُهَا لَمْ أُذْعَرِ

ثُمَّ قَالَ: يَا ابْنَ عُمَرَ أَتُرَانِي جَزَيْتُهَا؟ قَالَ: لاَ، وَلاَ بِزَفْرَةٍ وَاحِدَةٍ، ثُمَّ طَافَ ابْنُ عُمَرَ، فَأَتَى الْمَقَامَ فَصَلَّى رَكْعَتَيْنِ، ثُمَّ قَالَ: يَا ابْنَ أَبِي مُوسَى، إِنَّ كُلَّ رَكْعَتَيْنِ تُكَفِّرَانِ مَا أَمَامَهُمَا.

**(11)** ........ Əbu Burdə ﷺ rəvayət edir ki, (bir gün) mən İbn Ömərlə bir yerdə ikən yəmənli bir kişinin öz anasını kürəyində daşıyaraq, Kəbəni təvaf etdiyinin və belə dediyinin şahidi oldum:

*Doğrusu, anamın müti dəvəsiyəm,*
*Dəvə yorulsa da, yorulan deyiləm.*

(Təvaf əsnasında) kişi (ona yaxınlaşıb) dedi:[3] "Ey İbn Ömər, de görüm, anamın mənə elədiklərinin əvəzini verdimmi?"[4] İbn Ömər dedi: "Xeyr! (Bu elədiyin, heç doğuş zamanı olan) bir iniltini belə əvəz etmir."

---

[1] Bu hədis dəlildir ki, övlad valideyninə nə qədər yaxşılıq etsə də, valideynin ona elədiklərinin əvəzini verə bilməz. Yalnız kölə edilmiş valideynini azad etməklə, onun çəkdiyi əziyyətin əvəzini vermiş olur.

[2] Bu hədisi Muslim (3872), Əbu Davud (5137), Tirmizi (2030), İbn Macə (3959) və Əhməd (2/230) rəvayət etmişdir.

[3] Bu, dəlildir ki, təvaf əsnasında danışmaq caizdir.

[4] Burada həmin adam anasına yaxşılıq etməyə və beləliklə də vaxtı ilə anasının ona etdiyi yaxşılıqların əvəzini çıxmağa çalışır. Və ona elə gəlir ki, belə etməklə anasının etdiyi yaxşılıqların əvəzini çıxmış olar.

Sonra İbn Ömər təvafına davam etdi. (Kəbəni təvaf edib bitirən kimi) İbrahim məqamına gəlib, iki rükət namaz qıldı,[1] sonra dedi: "Ey İbn Əbu Musa,[2] həqiqətən, (qıldığın) hər iki rükət namaz onlardan öncəki (günahları) silir.[3]"[4]

١٢– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي خَالِدُ بْنُ يَزِيدَ، عَنْ سَعِيدِ ابْنِ أَبِي هِلاَلٍ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي مُرَّةَ مَوْلَى عَقِيلٍ، أَنَّ أَبَا هُرَيْرَةَ كَانَ يَسْتَخْلِفُهُ مَرْوَانُ، وَكَانَ يَكُونُ بِذِي الْحُلَيْفَةِ، فَكَانَتْ أُمُّهُ فِي بَيْتٍ وَهُوَ فِي آخَرَ. قَالَ: فَإِذَا أَرَادَ أَنْ يَخْرُجَ وَقَفَ عَلَى بَابِهَا فَقَالَ: ((السَّلاَمُ عَلَيْكِ يَا أُمَّتَاهُ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ))، فَتَقُولُ: ((وَعَلَيْكَ السَّلاَمُ يَا بُنَيَّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ))، فَيَقُولُ: ((رَحِمَكِ اللَّهُ كَمَا رَبَّيْتِنِي صَغِيرًا))، فَتَقُولُ: ((رَحِمَكَ اللَّهُ كَمَا بَرَرْتَنِي كَبِيرًا))، ثُمَّ إِذَا أَرَادَ أَنْ يَدْخُلَ صَنَعَ مِثْلَهُ.

**(12)** ........ Əqilin azad etdiyi köləsi Əbu Murra rəvayət edir ki, Mərvan[5] (bəzən) Əbu Hureyrəni ﷺ başçı təyin edərdi. O zaman Əbu Hureyrə zul-Huleyfədə[6] ikən, anası bir evdə, özü isə ayrı bir evdə qalırdı. Əbu Hureyrə (evindən) çıxdığı zaman anasının qapısı önündə dayanıb deyərdi: "Sənə

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **"İbrahimin dayandığı yeri namazgah edin!"** (əl-Bəqərə, 125).

[2] Əbu Burdə məşhur səhabə Əbu Musa əl-Əşarinin ﷺ oğludur.

[3] Namazın günahlar üçün kəffarə olması barədə bir çox hədislər varid olmuşdur. Həmin hədislərdən birində Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib *naməhrəm* bir qadını öpdüyünü ona xəbər verdi *və bunun nə dərəcədə günah olduğunu öyrənmək istədi.* Uca Allah da bu ayəni nazil etdi: **"Gündüzün iki başında *əvvəlində və axırında* və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır"** (Hud, 114). Adam soruşdu: "Ya Rəsulullah, bu *hökm* yalnız mənə aiddir?" Peyğəmbər ﷺ buyurdu: "Bu, ümmətimdən olan hər kəsə aiddir!" (Səhih əl-Buxari, 526).

[4] Bu əsəri Beyhəqi "Şoəbul-İman" əsərində (7550) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[5] Mərvan ibn Həkəm miladi təqvimi ilə 661-ci ildə Mədinənin əmiri təyin edilmişdir.

[6] Bu, Mədinə şəhərinin on kilometrliyində yerləşən yerdir. Zul-Huleyfə Mədinə istiqamətindən həcc və ya ümrə ziyarətinə gedən insanların miqatı – ziyarət üçün niyyət edəcəkləri yerdir.

salam olsun, anacan! Allahın mərhəməti və Onun bərəkəti (sənə yetişsin!)" Anası da *ona*: "Sənə də salam olsun, ay oğul! Allahın mərhəməti və Onun bərəkəti (sənə də yetişsin!)"– deyərdi.[1] Sonra o deyərdi: "Məni körpəliyimdən tərbiyə edib bəslədiyin kimi, Allah da sənə rəhm etsin!"[2] Anası da *ona*: "Sən mənə qocalığımda qayğı göstərdiyin kimi, Allah da sənə rəhm etsin!"– deyərdi. Sonra (Əbu Hureyrə) evinə qayıtdıqda bunları eynilə təkrar edərdi.[3]

**١٣–** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَطَاءِ بْنِ السَّائِبِ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ يُبَايِعُهُ عَلَى الْهِجْرَةِ، وَتَرَكَ أَبَوَيْهِ يَبْكِيَانِ، فَقَالَ: ((ارْجِعْ إِلَيْهِمَا، وَأَضْحِكْهُمَا كَمَا أَبْكَيْتَهُمَا)).

---

[1] Salam vermək xüsusunda Uca Allah buyurur: **"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"** (ən-Nisa, 86). Həmçinin, hədislərin birində Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah Adəmi boyu altmış ərəş uzunluğunda yaratdı. Sonra buyurdu: "Get oradakı mələklərə salam ver və dinlə, gör, sənin salamını necə alacaqlar. Çünki bu həm sənin, həm də sənin zürriyyətinin salamıdır." *Adəm* onlara: "Əssəlamu aleykum!"– dedi. Onlar da: "Əssəlamu aleykə və rahmətullah!"– deyib, buna "və rahmətullah" kəlməsini əlavə etdilər..." (Səhih əl-Buxari, 3326); digər bir hədisdə İmran ibn Husayn ﷺ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib: "Əssəlamu aleykum!"– dedi. Peyğəmbər ﷺ: "*Bu adam* on *savab qazandı*!"– dedi. Sonra başqa birisi gəlib: "Əssəlamu aleykum və rahmətullah!"– dedi. Peyğəmbər ﷺ: "*Bu adam* iyirmi *savab qazandı*!"– dedi. Sonra da başqa birisi gəlib: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu!"– dedi. Peyğəmbər ﷺ: "*Bu adam* otuz *savab qazandı*!"– dedi (Sunən Əbu Davud, 5195; Sunən ət-Tirmizi, 2689; Səhih Tərğib vət-Tərhib, 2710).

[2] Əbu Hureyrənin ﷺ bu sözü Quranda öz təsdiqini tapmışdır: **"Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək, təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!"– de"** (əl-İsra, 23-24).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadında keçən Səid ibn Əbu Hilal "sonradan hafizəsi qarışmış" ravilərdəndir. Lakin qeyd etmək lazımdır ki, 14-cü rəvayət bu rəvayətin mətnini qüvvətləndirir.

**(13)** ........ Abdullah ibn Amr[1] ﷻ demişdir:[2] “Bir nəfər ata-anasını gözüyaşlı qoyub, Peyğəmbərin ﷺ yanına hicrət etdi ki, *cihada getmək üçün*[3] ona beyət[4] etsin. Peyğəmbər ﷺ buyurdu: “Valideynlərinin yanına qayıt![5] Onları necə ağlatmısansa, eləcə də, güldür.”

---

[1] Əbu Abdur-Rəhman Abdullah ibn Amr ibn As əs-Səhmi əl-Qurəşi ﷻ Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir. (Siyər Əlam ən-Nubələ, 117-ci tərcümeyi-hal).

[2] Bu hədisi Əbu Davud (2528), Nəsai (4180), Əhməd (2/204) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] İmam İbn Macənin “Sunən” əsərində nəql etdiyi hədisdə deyilir ki, həmin adam Peyğəmbərin ﷺ yanına gəlib demişdir: “Ya Rəsulullah, gəlmişəm Allahın Üzünü diləyərək axirəti qazanmaq məqsədilə səninlə birlikdə cihad edim...” (Səhih İbn Macə, 2242).

[4] Peyğəmbərin ﷺ dəvətini qəbul edərək ona tabe və sadiq olma.

[5] Diqqət edin, burada Peyğəmbər ﷺ uzaq bir yol qət etmiş, Allah rizasını qazanmaq üçün hicrət etmiş və nəhayət, Allah yolunda cihada çıxmaq istəyən kimsəni geri qaytarır. Digər bir hədisdə rəvayət edilir ki, Cəhamə ﷻ Peyğəmbərin ﷺ yanına gəlib deyir: “Ya Rəsulullah, mən Allah yolunda vuruşmaq istəyirəm. Gəlmişəm, səndən məsləhət alım.” Peyğəmbər ﷺ ondan: “Anan sağdırmı?”– deyə soruşur. Cəhamə: “Bəli!”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ ona belə buyurur: “Onun yanında qal. Çünki Cənnət onun ayağı altındadır” (Sunən ən-Nəsai, 2/54; Səhih Tərğib vət-Tərhib, 2485). Bu hədislər valideyn haqqının nə dərəcədə böyük olduğunu bir daha sübuta yetirir. Demək, valideynləri sevindirmək, onların xətrinə dəyməmək vacib əməllərdəndir. Lakin xüsusilə vurğulamaq lazımdır ki, bu hökm xəlifə tərəfindən təyin olunmuş “fardu-ayn” sayılan cihada aid deyil. Xəttabi bu hədisi izah edərkən demişdir: “Əgər söhbət “fardu-kifayə” sayılan cihaddan (müsəlmanların bəzisinə vacib buyurulmuş döyüşdən) gedirsə, əlbəttə ki, belə bir cihada getmək istəyən müsəlman öz valideynindən izin almalıdır. Təyin olunmuş cihad üçün isə izin almaq gərək deyil” (Məalim əs-Sunən, 706-cı hədisin şərhi). Bu xüsusda, Uca Allah buyurur: **“Ey iman gətirənlər! Sizə nə olub ki, “Allah yolunda döyüşə çıxın!”– deyildikdə, yerinizdə qaxılıb qalırsınız? Olmaya, axirətdən daha çox dünya həyatından razısınız? Halbuki, dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir”** (ət-Tovbə, 38); digər ayədə O, buyurur: **“*Sizə* yüngül *gəlsə də*, ağır *gəlsə də*, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir”** (ət-Tovbə, 41). Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “Əgər sizi cihada çağırsalar, tələsin!” (Səhih əl-Buxari, 1834). Bu fəsildəki hədisdən o da aydın olur ki, adam elm almaq, alış-verişlə məşğul olmaq və s. bu kimi xeyir əldə etmək üçün səfərə çıxmaq istədiyi zaman valideynləri ilə məsləhətləşməli, onlardan izin almalıdır. Məşhur hədis alimi Bundər ﷻ demişdir: “Mən elm almaq üçün səfərə çıxmaq istədim, lakin anam buna razılıq vermədi. Mən anama itaət etdim, (əvəzində) Allah mənə bu elmi əta etdi” (Siyər Əlam ən-Nubələ, 1/145).

**١٤–** وحَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ شَيْبَةَ قَالَ: أَخْبَرَنِي ابْنُ أَبِي الْفُدَيْكِ قَالَ: حَدَّثَنِي مُوسَى، عَنْ أَبِي حَازِمٍ، أَنَّ أَبَا مُرَّةَ، مَوْلَى أُمِّ هَانِئٍ ابْنَةِ أَبِي طَالِبٍ أَخْبَرَهُ، أَنَّهُ رَكِبَ مَعَ أَبِي هُرَيْرَةَ إِلَى أَرْضِهِ بِالْعَقِيقِ فَإِذَا دَخَلَ أَرْضَهُ صَاحَ بِأَعْلَى صَوْتِهِ: ((عَلَيْكِ السَّلَامُ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ يَا أُمَّتَاهُ))، تَقُولُ: ((وَعَلَيْكَ السَّلَامُ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ))، يَقُولُ: ((رَحِمَكِ اللهُ رَبَّيْتِنِي صَغِيرًا))، فَتَقُولُ: ((يَا بُنَيَّ، وَأَنْتَ فَجَزَاكَ اللهُ خَيْرًا وَرَضِيَ عَنْكَ كَمَا بَرَرْتَنِي كَبِيرًا)).

قَالَ مُوسَى: كَانَ اسْمُ أَبِي هُرَيْرَةَ : عَبْدَ اللهِ بْنَ عَمْرٍو.

**(14)** ........ Ummu Hani bint Abu Talibin[1] ﷺ mövlası Əbu Murra rəvayət etmişdir ki, (bir dəfə) o, Əbu Hureyrə ilə birgə onun Əqiq vadisindəki[2] yaşadığı yerə gəldi. Əbu Hureyrə yaşadığı yerə gəlib çatdıqda uca səslə çağırıb dedi: “Sənə salam olsun, anacan! Allahın mərhəməti və Onun bərəkəti (sənə yetişsin!)” Anası da ona: “Sənə də salam olsun, Allahın mərhəməti və Onun bərəkəti (sənə də yetişsin!)”– deyə cavab verdi. Sonra o, dedi: “Məni körpəliyimdən tərbiyə edib bəslədiyin kimi, Allah da sənə rəhm etsin!” Anası da belə cavab verdi: “Oğlum, sən mənə qocalığın ən düşkün çağında qayğı göstərdiyin kimi, Allah da səni xeyirlə mükafatlandırsın və səndən razı qalsın!”

Musa[3] dedi: “Əbu Hureyrənin adı Abdullah ibn Amr idi.”[4]

---

[1] Ummu Hani bint Əbu Talib ibn Abdul-Muttəlib əl-Haşimiyyə əl-Məkkiyyə ﷺ Peyğəmbərin ﷺ əmisi qızı, həm də Əli və Cəfərin ﷺ doğma bacılarıdır. Ummu Hani onun kunyəsidir (yəni Haninin anası). Hani də onun dörd övladından birinin adıdır. Adı isə Faxitə və ya Hinddir. Ummu Hani ﷺ İslam dinini Məkkənin fəthi günü qəbul etmişdir (Siyər Əlam ən-Nubələ, 56-cı tərcümeyi-hal).

[2] Burada “Əqiq vadisi” deyildikdə, zul-Huleyfə nəzərdə tutulur. Bu xüsusda rəvayət edilmiş hədisdə Ömər ibn Xattab ﷺ demişdir: “Mən Peyğəmbərin ﷺ Əqiq vadisində belə dediyini eşitdim: “Bu gecə Rəbbimdən bir elçi mənim yanıma gəlib dedi: “Bu mübarək vadidə namaz qıl və: “Ümrətən fi həccətin” (ümrə ilə bərabər həcc ziyarətini yerinə yetirməyi niyyət etdim) de!” (Səhih əl-Buxari, 1534); digər bir hədisdə isə İbn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ zul-Huleyfədəki vadidə dayanarkən, yuxuda ona: “Sən mübarək vadidəsən”– deyilmişdir” (Səhih əl-Buxari, 1535).

[3] Bu, hədisin isnadında keçən ravilərindən biridir.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən” olduğunu demişdir.

## ٧– بَابُ عُقُوقِ الْوَالِدَيْنِ

## 7-ci fəsil. Validеynlərin üzünə ağ olmaq

١٥– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ قَالَ: حَدَّثَنَا الْجُرَيْرِيُّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي بَكْرَةَ، عَنْ أَبِيهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَلاَ أُنَبِّئُكُمْ بِأَكْبَرِ الْكَبَائِرِ؟)) ثَلاَثًا، قَالُوا: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: ((الإِشْرَاكُ بِاللَّهِ، وَعُقُوقُ الْوَالِدَيْنِ)) وَجَلَسَ وَكَانَ مُتَّكِئًا ((أَلاَ وَقَوْلُ الزُّورِ))، مَا زَالَ يُكَرِّرُهَا حَتَّى قُلْتُ: لَيْتَهُ سَكَتَ.

**(15)** ........ Əbu Bəkrə[1] ﷛ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ (səhabələrindən): "Sizə böyük günahların ən böyüyü[3] barədə xəbər verimmi?"[1]– deyə üç

---

[1] Əbu Bəkrə Nufey ibn Haris əs-Səqəfi ət-Taifi ﷛ Peyğəmbərin ﷺ səhabəsidir. (Siyər Əlam ən-Nubələ 3-cü cild, 1-ci tərcümeyi-hal).

[2] Bu hədisi Buxari (6521), Muslim (87), Tirmizi (1902) və Əhməd (5/36) rəvayət etmişdir.

[3] İbn Abbas ﵄ demişdir: "Böyük günah deyildikdə o günahlar qəsd edilir ki, Allah onları edənlərin Cəhənnəmə düşəcəyini xəbər vermiş, yaxud onlara qəzəbi tutmuş, yaxud onları lənətləmiş, yaxud da onlara əzab vermişdir" ("Təfsir ət-Təbəri", 5/27; "Təfsir əl-Qurtubi", 5/159; "Nəvəvi", 2/271). İbn Teymiyyə ﬀ İbn Abbasın ﵄ bu sözünü əsas götürərək böyük günaha belə tərif vermişdir: "*Bəndəni* Allahın lənətinə məruz qoyan, yaxud Onun qəzəbinə düçar edən, yaxud Cəhənnəm oduna sürükləyən, yaxud da dünyada ikən cəzaya məhkum edilməsinə səbəb olan hər bir günah" ("Məcmuə Fətavə", 11/650-651). İslam alimləri bu günahları beş qismə bölmüşlər:

- o gühah ki, Peyğəmbər ﷺ onu edənə lənət oxumuşdur. Məsələn, müsəlmanın malını mənimsəmək, ölü üçün vay-şivən salıb ağlamaq, rüşvət vermək, rüşvət almaq və s;

- və ya o günah ki, şəriət tərəfindən onu edənə bu dünyada cəza təyin edilmişdir. Məsələn, zina etmək, şərab içmək, oğurluq etmək və s;

- və ya o günah ki, onu edənə axirət günü şiddətli cəza veriləcəkdir. Məsələn, sələm yemək, zəkat verməmək və s;

- və ya o günah ki, imanın aradan qalxmasına gətirib çıxarır. Məsələn, "biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, iman etmiş olmaz" kimi və s;

- ya da o günah ki, onu edən Cənnətə girməyəcəkdir. Məsələn, "dedi-qodu yayan Cənnətə girməz!" kimi və s. (Məcmuə Fətavə, 11/657).

Bu hədisdə Peyğəmbərin ﷺ "böyük günahlar" sözündən aydın olur ki, günahların kiçiyi də vardır. Deməli, günahlar iki qismə bölünür: böyük və kiçik günahlar. Uca Allah bu xüsusda buyurur: ***"Hər kəsin* kitabı *qarşısına* qoyulacaq və sən günahkarların orada *yazılmış* olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu ne-**

kərə soruşdu. Səhabələr: "Bəli, ya Rəsulullah!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: "Allaha şərik qoşmaq[2] və valideynlərin üzünə ağ olmaqdır." (Bunu deyəndə) o, söykənmişdi,[3] sonra qalxıb oturdu və: "Yalan söz danışmaqdır"[4]– dedi. O bunu dalbadal o qədər təkrar etdi ki, biz (bir-birimizə): "Nə olaydı, susaydı!"[1]– dedik."

---

**cə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!"** (əl-Kəhf, 49); başqa bir ayədə O, buyurur: **"Onların etdiyi hər şey *əməllərinin yazıldığı* kitablarındadır. Hər bir kiçik və böyük *əməl* yazılmışdır"** (əl-Qəmər, 52-53).

[1] Hər bir müsəlman böyük günahları öyrənməlidir ki, onlardan çəkinə bilsin. Yoxsa, bəziləri özləri də bilmədən böyük bir günaha batır, hətta bəzən küfrə yol verir və bu əməlin onlara savab qazandıracağını güman edirlər. Lakin özləri də hiss etmədən əməllərini puç edirlər. Uca Allah beləələri barədə buyurur: **"De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik"** (əl-Kəhf, 103-105). Qədimdə alimlər deyərdilər: "Nədən çəkinəcəyini bilməyən kəs, günahlardan necə çəkinə bilər?" Deməк, günahdan çəkinmək üçün nəyin günah olduğunu bilmək gərəkdir. İndiyədək alimlər böyük günahlardan bəhs edən neçə-neçə əsərlər yazmışlar ki, bunların ən dəyərlisi İmam Zəhəbinin "Böyük günahlar" kitabıdır.

[2] Allaha şərik qoşmaq ən böyük günahdır. Bu xüsusda Quranda deyilir: **"Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** (Loğman, 13); **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmişdir və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır"** (əl-Maidə, 72). Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allaha şərik qoşub ölərsə, Cəhənnəmə girər" (Səhih əl-Buxari, 1238).

[3] Bu, dəlildir ki, söykənmiş halda nəsihət etmək, hədis danışmaq olar.

[4] İmam Muslim "Səhih"ində (259) Əbu Bəkrədən ﷺ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ "yalandan şahidlik etməkdir, yaxud yalan danışmaqdır"– demişdir. İmam Zəhəbi öz kitabında bu günahı açıqlayarkən demişdir: "Yalan sözdən çəkinmək xüsusunda Uca Allah belə buyurur: **"Elə isə, murdar bütlərdən uzaq olun, yalan sözlərdən də çəkinin"** (əl-Həcc, 30). Yalan yerə şahidlik edən şəxs böyük günahlar etmiş olur: birincisi, yalan danışır və iftira yaxır. Uca Allah buyurur: **"Həqiqətən, Allah həddi aşanı, yalançını doğru yola yönəltməz"** (Ğafir, 28); ikincisi, yalandan şahidlik etdiyi şəxsə qarşı zülm etmiş olur; üçüncüsü, yalandan lehinə şahidlik etdiyi şəxsə haram mal verməklə Cəhənnəmə getməsini təmin edir; dördüncüsü: Allahın haram buyurduğu əməli mübah saymaqla, əleyhinə şahidlik etdiyi adamı malından, qanından və namusundan ayırmış olur (Böyük günahlar, 16-cı günah). Yalan danışmağın pis aqibəti barədə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Doğruluq *adamı* yaxşı işlər görməyə yönəldir. Yaxşı işlər isə *adamı* Cənnətə aparır. Həqiqətən, adam o qədər doğru danışır ki, nəhayət, *Allah yanında* doğruda-

**١٦**- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا جَرِيرٌ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ وَرَّادٍ، كَاتِبِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ، قَالَ: كَتَبَ مُعَاوِيَةُ إِلَى الْمُغِيرَةِ: اكْتُبْ إِلَيَّ بِمَا سَمِعْتَ مِنْ رَسُولِ اللَّهِ ﷺ. قَالَ وَرَّادٌ: فَأَمْلَى عَلَيَّ وَكَتَبْتُ بِيَدَيَّ: إِنِّي سَمِعْتُهُ يَنْهَى عَنْ كَثْرَةِ السُّؤَالِ، وَإِضَاعَةِ الْمَالِ، وَعَنْ قِيلَ وَقَالَ.

**(16)** ........ Muğira ibn Şobənin[2] katibi Vərrad rəvayət edir ki, Muaviyə[3] Muğiraya belə bir məktub yazdı:[4] "Mənə Peyğəmbərdən ﷺ eşitdiyin hədislərdən (birini) yaz." Vərrad dedi: "Muğira mənə diktə etdi, mən də bu əllərimlə yazdım: "Həqiqətən, mən onun[5] çox sual verməyi,[6] var-dövləti israf etməyi[7] və söz gəzdirməyi[8] qadağan etdiyini eşitdim."

---

nışan sayılır. Yalan isə *adamı* günah işlərə yönəldir. Günah işlər də *adamı* Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışır ki, axırda Allah yanında yalançı sayılır" (Səhih əl-Buxari, 6094).

[1] Onlar Peyğəmbərin ﷺ halına acıdıqlarından, o həyəcanlanmasın deyə, belə dedilər.

[2] Əbu İsa Muğira ibn Şobə ibn Əbu Amir ؓ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 50-ci ilində yetmiş yaşında vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 7-ci tərcümeyi-hal).

[3] Əbu Abdur-Rəhman Muaviyə ibn Əbu Sufyan ibn Saxr ibn Hərb əl-Əməvi əl-Qurəşi Peyğəmbərin ﷺ məşhur səhabəsidir. (Siyər Əlam ən-Nubələ, 25-ci tərcümeyi-hal).

[4] Bu hədisi Buxari (2408), Muslim (3238) və Əhməd (4/250) rəvayət etmişdir. İmam Buxari bu hədisi başqa fəsildə tam şəkildə rəvayət etmişdir. Hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah sizlərə anaların üzünə ağ olmağı, qız uşaqlarını diri-diri yerə gömməyi, *yaxşılıq etməkdən* boyun qaçırmağı və "ver"– deyərək, *haqqınız olmayan bir şeyi* tələb etməyi qadağan etmişdir. Habelə, söz gəzdirməyinizi, çox sual verməyinizi və var-dövləti israf etməyinizi xoşlamır" (297-ci və 460-cı hədisə bax).

[5] Burada Muğira ibn Şobə ؓ Peyğəmbəri ﷺ nəzərdə tutur.

[6] Burada "qadağan edilmişdir" deyildikdə, heç bir zərurət olmadan yersiz sual vermək nəzərdə tutulur. Haqqı öyrənmək məqsədilə sual verməkdə isə heç bir qəbahət yoxdur. Uca Allah buyurur: **"Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun"** ("ən-Nəhl" surəsi, 43).

[7] Uca Allah bu xüsusda buyurur: **"Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, *Allah* israf edənləri sevmir"** (əl-Əraf, 31); digər ayədə O, buyurur: **"Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin *malını* lazım olmayan yerə sərf etmə. Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur"** (əl-İsra, 26-27).

[8] Söz gəzdirməyin pis aqibəti barədə varid olmuş hədisdə İbn Abbas ؆ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Mədinə bostanlarından birinin yanından keçərkən qəbirlərində əzab çəkən iki adamın səsini eşitdi. Peyğəmbər ﷺ: "*Bunlar* əzab çəkirlər..."– dedi. Sonra *bunun səbəbini bildirib* dedi: "Bəli, bunlardan biri sidikdən qorunmazdı, digəri isə söz gəzdirərdi..." (Səhih əl-Buxari, 216).

## ٨- بَابُ لَعَنَ اللَّهُ مَنْ لَعَنَ وَالِدَيْهِ

## 8-ci fəsil. Validеynlərinə lənət oxuyana Allah lənət edər

١٧- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنِ الْقَاسِمِ بْنِ أَبِي بَزَّةَ، عَنْ أَبِي الطُّفَيْلِ قَالَ: سُئِلَ عَلِيٌّ: هَلْ خَصَّكُمُ النَّبِيُّ ﷺ بِشَيْءٍ لَمْ يَخُصَّ بِهِ النَّاسَ كَافَّةً؟ قَالَ: مَا خَصَّنَا رَسُولُ اللَّهِ ﷺ بِشَيْءٍ لَمْ يَخُصَّ بِهِ النَّاسَ، إِلاَّ مَا فِي قِرَابِ سَيْفِي، ثُمَّ أَخْرَجَ صَحِيفَةً، فَإِذَا فِيهَا مَكْتُوبٌ: ((لَعَنَ اللَّهُ مَنْ ذَبَحَ لِغَيْرِ اللَّهِ، لَعَنَ اللَّهُ مَنْ سَرَقَ مَنَارَ الأَرْضِ، لَعَنَ اللَّهُ مَنْ لَعَنَ وَالِدَيْهِ، لَعَنَ اللَّهُ مَنْ آوَى مُحْدِثًا)).

**(17)** ........ Əbu Tufeyl demişdir: [1] "Əlidən[2] ﷛ soruşdular: "Peyğəmbər ﷺ sizə[3] məxsusi olaraq, elə bir şey ayırıb-veribmi ki, onu başqa

[1] Bu hədisi Buxari (2408), Muslim (5241) və Əhməd (1/152) rəvayət etmişdir.

[2] Əbu Turab, yaxud Əbu Sibteyn, yaxud da Əbul-Həsən, Əli ibn Əbu Talib ibn Abdul-Muttəlib ﷛ fil ilindən otuz il sonra – yəni Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il əvvəl dünyaya gəlmiş, İslam dinini ilk əvvəl qəbul etmiş səhabələrdəndir. O, Peyğəmbərin ﷺ həm əmisi oğlu, həm kürəkəni, həm də ən əziz və reyhan qoxulu nəvələri – Həsən və Hüseynin ﷛ atasıdır. Əli ibn Əbu Talib ﷛, Təbuk döyüşü istisna olmaqla, Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş və ələlxüsus da ağac altında ona beyət gətirənlərdən olmuşdur. Təbuk döyüşündə isə Peyğəmbər ﷺ onu öz yerinə – Mədinəyə xəlifə təyin etmişdir. Səd ibn Əbu Vəqqas ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ Təbuka yola düşərkən Əlini öz yerinə başçı təyin etdi. Onda Əli dedi: "Doğrudanmı, sən məni uşaqların və qadınların yanında qoyub getmək istəyirsən?!" Peyğəmbər ﷺ buyurdu: "İstəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?! Fəqət məndən sonra peyğəmbər gəlməyəcək" (Səhih əl-Buxari, 4416). Əli ibn Əbu Talib ﷛ sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə, Cənnətin səbirsizliklə gözlədiyi üç nəfərdən biridir. Əli ibn Əbu Talib ﷛ Rəsulullahın ﷺ dördüncü xəlifəsi olmuşdur. Hicrətin 35-ci ilində, zilhiccə ayının 18-i, cümə günü xilafətə gəlmiş, 4 il 9 ay möminlərə layiqincə əmirlik etmiş və nəhayət, hicrətin 40-cı ilində, ramazan ayının 17-si cümə günü, Kufə şəhərində Abdur-Rəhman ibn Mülcim əl-Muradi tərəfindən vurulmuş və üç gündən sonra altmış üç yaşında şəhid olmuşdur. Oğlanları Həsən və Hüseyn, habelə, Cəfərin oğlu Abdullah onu yuyub kəfənləmiş, Həsən onun cənazə namazını qıldırmış və bundan sonra onu dəfn etmişlər.

[3] Burada "sizə" deyildikdə, Peyğəmbərin ﷺ əhli-beyti nəzərdə tutulur.

insanlara vermiş olmasın?"[1] O, dedi: "Peyğəmbər ﷺ başqa insanlara deyil, yalnız bizə məxsusi olaraq elə bir şey qoymamışdır. Yalnız qılıncımın qınındakı istisnadır." Sonra o (qılıncının qınından) bir vərəq çıxartdı. Orada yazılmışdı: "Allahdan başqasına qurban kəsənə[2] Allah lənət eləsin! Yer üzündəki sərhədləri oğurlayana[3] Allah lənət eləsin! Validеynlərinə lənət oxuyana Allah lənət eləsin![4] Cinayətkara sığınacaq verənə[1] Allah lənət eləsin!"

---

[1] İmam Muslimin rəvayətində Əli ibn Əbu Talibin ﷺ bu suala qəzəbləndiyi xəbər verilir (Səhih, 3657).

[2] Peyğəmbərin ﷺ sadaladığı bu dörd günahın dördü də böyük günahlardandır. Diqqət edin, burada Peyğəmbər ﷺ bu günahların hamısına birdən deyil, əksinə, hər birinə ayrıca lənət oxuyur. Bu üslub həmin günahların nə dərəcədə ağır olduğundan xəbər verir. Allahdan qeyrisi üçün qurban kəsmək, yəni Allaha şərik qoşmaq isə bu günahların ən ağırıdır. Qurban kəsmək ibadətdir, ibadət isə yalnız Allah üçün olmalıdır. Uca Allah buyurur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm"** (əl-Ənam, 162-163); həmçinin, O, buyurur: **"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!"** (əl-Kovsər, 2). Deməк, Allahdan qeyrisi üçün qurban kəsmiş adam müşrik sayılır, Allah ona lənət edir və əgər tövbə etməyib ölərsə, əbədi Cəhənnəm əhlindən olur. Allahdan başqasının adı ilə qurban kəsmiş adam iki yöndən Allaha şərik qoşmuş olur. Birincisi, "bismilləh" əvəzinə "filankəsin adı ilə" deyib həmin filankəsdən mədəd diləməklə, ikincisi də bu ibadəti Allahdan qeyrisinə yönəltməklə ibadətin özündə Allaha şərik qoşmuş olur. Hərçənd, bu insanların bir çoxu namaz qılır, özlərini müsəlman sayır, gün ərzində qıldığı namazlarda ən azı on yeddi kərə "biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik" deyə Allaha müraciət edir, lakin əməllərində Allaha şərik qoşmaqla özlərini məhv edirlər. Uca Allah Ona şərik qoşan zalımlar barədə buyurur: **"Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmişdir və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır"** (əl-Maidə, 72).

[3] Burada "sərhədləri oğurlamaq" deyildikdə, ərazilərə qoyulmuş hüdudları dəyişdirmək, haqsızcasına başqa birisinin torpağını zəbt etmək nəzərdə tutulur. Bu xüsusda rəvayət edilmiş hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim *başqasının* torpağını haqsızcasına zəbt etsə, Qiyamət günü torpağın yeddi qatı onun boynuna keçər" (Səhih əl-Buxari, 2453).

[4] Bu hədis valideynə lənət oxumağın böyük günahlardan və valideynin üzünə ağ olmaqdan hesab olunduğuna dəlalət edir. İstər birbaşa valideyni lənətləmək olsun,

istərsə də kiminsə valideyninə lənət oxuyub öz valideyninə lənət oxutdurma olsun, hər ikisi böyük günahlardan sayılır. Fəqət birincisinin günahı ikincisindən daha ağırdır. Burada "lənət" deyildikdə, Allahın mərhəmətindən qovulmaq və ondan məhrum olmaq nəzərdə tutulur. Burada "valideynlərinə lənət oxuyan" deyildikdə, ya birbaşa onları lənətləmək, ya da onların lənətlənməsinə səbəbkar olmaq nəzərdə tutulur. Abdullah ibn Amr ibn As ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Adamın öz valideynlərinə lənət oxuması ən böyük günahlardandır." Səhabələr ondan: "Ya Rəsulullah, adam öz valideyninə necə lənət oxuya bilər ki?!" deyə soruşduqda, o, belə cavab vermişdir: "Birisinin atasını lənətləyir, o da qayıdıb onun atasını lənətləyir, habelə, birisinin anasını lənətləyir, o da qayıdıb onun anasını lənətləyir" (Sunən Əbu Davud, 5141; Səhih əl-Cami, 2214).

[1] Bu hədisdə keçən "muhdis" (cinayətkar) kəlməsi, fəthə ilə, yəni "muhdəs" kimi də rəvayət edilmişdir. Bu da, "bidət" mənasını ifadə edir, yəni "bidətə dəstək verənə Allah lənət eləsin!" Demək, cinayətkarın tərəfini saxlamaq və ona yardım etmək, yaxud bidəti dəstəkləmək böyük günahlardan hesab olunur. Bidət xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizlərə eşidib itaət etməyi tövsiyə edirəm! Məndən sonra yaşayanlarınız bir çox ixtilaflar görəcəklər. Belə olduğu təqdirdə mənim və raşidi xəlifələrimin yolundan arxa dişlərinizlə yapışın və *sonradan dinə əlavə edilmiş* yeniliklərdən çəkinin. Çünki hər bir bidət, zəlalətdir" (Musnəd İmam Əhməd, 4/126; Silsilətul-Əhadisis-Səhihə, 2735).

## ٩– بَابُ يَبِرُّ وَالِدَيْهِ مَا لَمْ يَكُنْ مَعْصِيَةً

## 9-cu fəsil. Günah işlərdən başqa (hər bir işdə) valideynlərin qayğısına qalmaq

١٨– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ الْخَطَّابِ بْنِ عُبَيْدِ اللَّهِ بْنِ أَبِي بَكْرَةَ الْبَصْرِيُّ لَقِيتُهُ بِالرَّمْلَةِ قَالَ: حَدَّثَنِي رَاشِدٌ أَبُو مُحَمَّدٍ، عَنْ شَهْرِ بْنِ حَوْشَبٍ، عَنْ أُمِّ الدَّرْدَاءِ، عَنْ أَبِي الدَّرْدَاءِ قَالَ: أَوْصَانِي رَسُولُ اللَّهِ ﷺ بِتِسْعٍ: ((لاَ تُشْرِكْ بِاللَّهِ شَيْئًا، وَإِنْ قُطِّعْتَ أَوْ حُرِّقْتَ، وَلاَ تَتْرُكَنَّ الصَّلاَةَ الْمَكْتُوبَةَ مُتَعَمِّدًا، وَمَنْ تَرَكَهَا مُتَعَمِّدًا بَرِئَتْ مِنْهُ الذِّمَّةُ، وَلاَ تَشْرَبَنَّ الْخَمْرَ، فَإِنَّهَا مِفْتَاحُ كُلِّ شَرٍّ، وَأَطِعْ وَالِدَيْكَ، وَإِنْ أَمَرَاكَ أَنْ تَخْرُجَ مِنْ دُنْيَاكَ فَاخْرُجْ لَهُمَا، وَلاَ تُنَازِعَنَّ وُلاَةَ الأَمْرِ وَإِنْ رَأَيْتَ أَنَّكَ أَنْتَ، وَلاَ تَفْرُرْ مِنَ الزَّحْفِ، وَإِنْ هَلَكْتَ وَفَرَّ أَصْحَابُكَ، وَأَنْفِقْ مِنْ طَوْلِكَ عَلَى أَهْلِكَ، وَلاَ تَرْفَعْ عَصَاكَ عَنْ أَهْلِكَ، وَأَخِفْهُمْ فِي اللَّهِ عَزَّ وَجَلَّ)).

**(18)** ........ Əbu Dərda[1] ﷺ demişdir: "Rəsulullah ﷺ mənə doqquz şeyi tövsiyə etmişdir: "Tikə-tikə edilsən, yaxud yandırılsan belə, heç nəyi Allaha şərik qoşma.[2] Bilərəkdən, vacib namazları tərk etmə. Belə ki, bilərəkdən onu tərk edən kimsə (xata-bəladan) qorunmaz.[3] Şərab içmə. Çünki o, hər

---

[1] Əbu Dərda Uveymir ibn Zeyd ibn Qeys əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Vaxtı ilə Dəməşqin qazısı olmuşdur. (Siyər Əlam ən-Nubələ, 68-ci tərcümeyi-hal).

[2] Burada Peyğəmbər ﷺ daha əfzəl olanı bildirir. Belə ki, məcburiyyət qarşısında dildə Allaha şərik qoşub qəlbi imanla dolu olan kimsəni Allah bağışlayır. Necə ki, Ammar ibn Yasiri ﷺ bağışlamışdır. Bu xüsusda, Uca Allah buyurur: **"Qəlbi imanla sabit qaldığı halda *haqqı danmağa* məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır"** (ən-Nəhl, 106).

[3] Namaz qılmayanların Cəhənnəm oduna giriftar olacaqları barədə Quranda belə buyurulur: **"Möminlər Cənnət bağlarında bir-birilərindən soruşacaqlar – günahkarlar barəsində. Sizi Səqərə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik. *Batil sözlər* danışanlarla birlikdə biz də danışardıq, və Haqq-hesab gününü yalan hesab edərdik – *ölüm* yəqinliyi bizə gələnə qədər"** (əl-Muddəssir, 40-47) Həmçinin, hədisdə Peyğəmbər ﷺ namazı tərk edən kimsənin küfr və şirk etdiyini xəbər verib demişdir: "Şübhəsiz ki, insanla şirk və küfr arasında namazı tərk etmək du-

bir şər əməlin açarıdır.[1] Valideynlərinə itaət et! Əgər sənə dünya işlərindən əl çəkməyi əmr etsələr, onlara görə (bundan) əl çək.[1] Özünün haqq oldu-

---

rur" (Səhih Muslim, 246). Namazın vacibliyini inkar edərək onu tərk edən kimsə müsəlmanların yekdil fikrinə əsasən kafir sayılır. Yalnız İslam dinindən yenicə xəbər tutmuş və müsəlmanlara qaynayıb-qarışmayan, beləliklə də, namazın vacib buyurulduğundan bixəbər olan kimsələr istisnadır. Namaz qılmağın vacib olduğunu bildiyi halda səhlənkarlığı üzündən namazı tərk edən kimsəyə gəlincə, alimlər onun kafir olub-olmaması barəsində ixtilaf etmişlər. İmam Malik və Şafii, habelə, qədim və müasir alimlərdən bir çoxları, tənbəlliyi üzündən namazı tərk edən kimsəni kafir saymamış, əksinə, onun fasiq olduğunu demişlər. Onların rəyinə görə, beləsindən tövbə etməsi tələb olunmalıdır. Və əgər tövbə edərsə əfv edilməli, əks halda isə evli zinakarın cəzalandırıldığı kimi cəzalandırılmalıdır. Raşidi xəlifələr və digər səhabələr ﷺ, Abdullah ibn Mübarək, Əhməd ibn Hənbəl, İshaq ibn Rahuyə və bəzi şafiilər isə tənbəlliyi üzündən namazı tərk edən kimsənin belə kafir olduğunu və İslam ümmətindən xaric olduğunu söyləmişlər.

[1] Şübhəsiz ki, şərab içmək şeytana xas murdar əməllərdəndir. Həqiqətən, şeytan sərxoşedici içki vasitəsilə müsəlmanların arasına ədavət və kin salmaq, onları Allahı yad etməkdən və namazdan ayırmaq istəyir. Bu hədisdə Peyğəmbər ﷺ şərabın hər bir şər əməlin açarı olduğunu bildirir, digər bir hədisdə o, şərabın murdar əməllərin anası olduğunu xəbər verir. İbn Abbasın ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Şərab içmək murdar əməllərin anası, həm də böyük günahlardan biridir. Onu içən adam (sərxoş olduqdan sonra) anası ilə də, xalası ilə də, bibisi ilə də zina edər" (Mocəmul-Kəbir, 11372; Sunən əd-Daraqutni, 4671; Silsilətul-Əhadisis-Səhihə, 1853; Səhih əl-Cami, 3345). Bu xüsusda varid olmuş ibrətamiz bir rəvayətdə Osman ibn Əffan ﷺ demişdir: "Şərabdan uzaq olun, çünki şərab içmək murdar əməllərin anası sayılır. Bir zaman pozğun bir qadın öz kənizini könlünə yatan bir kişinin yanına göndərir ki, gəlib onlara şahidlik etsin. Kişi kənizlə birgə o qadının yanına gəlir. Nəhayət o, evə daxil olduqdan sonra kəniz bütün qapıları kilidləyir. Həmin qadının yanında bir uşaq və bir badya şərab olur. Qadın ona: "Səni bura şahidlik etmək üçün çağırmamışam. Çağırmışam ki, mənimlə yaxınlıq edəsən və ya bu şərabdan içəsən, ya da bu uşağı öldürəsən. Dediyimi eləməsən, hay-küy salıb səni biabır edərəm. Kişi ona: "Bu şərabdan mənim üçün bir bardaq süz"– dedi. Qadın ona bir bardaq şərab süzdü. Kişi (onu içdikdən sonra): "Yenə süz"– dedi. Kişi şərabdan o qədər içdi ki, axırda həm o qadınla zina etdi, həm də həmin uşağı öldürdü. Odur ki, şərabdan uzaq olun!..." (Sunən ən-Nəsai, 5666; Əhadis əl-Muxtara, 320). Hədislərin birində Peyğəmbər ﷺ şərab içməyin pis aqibətini belə vəsf etmişdir: "Şərab içmək murdar əməllərin anasıdır. Allah onu içən kimsənin qırx gün ərzində qıldığı namazını qəbul etməz və əgər o, içkili halda ölərsə, cahil kimi ölmüş sayılar" (Mocəmul-Əvsat, 3810; Silsilətul-Əhadisis-Səhihə, 1854); başqa bir hədisdə isə şəraba yaxın duran kimsənin Allahın mərhəmətindən məhrum olduğunu xəbər verib demişdir: "Allah sərxoşedici içkiyə, onu düzəldənə və dü-

ğunu bilsən belə, ixtiyar sahibləri ilə mübahisə etmə.[2] Həlak olacağını yəqin etsən belə, yoldaşların döyüş meydanından qaçmış olsa da sən qaçma.[3] Varından öz ailənə xərclə,[4] dəyənəyini onların üzərindən qaldırma[5] və onları Allahla ﷻ qorxut.[6]"[7]

---

zəltdirənə, onu içənə, onu daşıyana və daşıtdırana, onu satana və alana, onu süzənə və süzdürənə lənət eləsin!" (Musnəd İmam Əhməd, 1/316; Mustədrək, 4/145; Silsilətul-Əhadisis-Səhihə, 839).

[1] Hədisdən açıq-aydın başa düşülür ki, bu yalnız dünya işlərinə aiddir. Allahın və Onun Rəsulunun ﷺ əmrinə zidd olan işlərdə isə onlara itaət etmək qadağandır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allaha asi olaraq məxluqa itaət etmək olmaz" (Musnəd İmam Əhməd, 5/66; Silsilətul-Əhadisis-Səhihə, 179).

[2] Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha və Rəsuluna itaət edin, həm də özünüzdən olan rəhbərlərə *şəriətə uyğun şəkildə itaət edin*"** (ən-Nisa, 59). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Üzərinizdə hökmranlıq edən kəs saçı kişmişə bənzər həbəşi olsa belə, *əmrlərini* eşidib ona itaət edin" (Səhih əl-Buxari, 693).

[3] Döyüş meydanından qaçmaq yeddi böyük günahdan biridir. Yalnız iki hal istisnadır ki, belə hallarda düşmənə arxa çevirmək caizdir: daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilmək və ya başqa bir dəstəyə qoşulmaq ("əl-Ənfal" surəsinin 15-ci və 16-cı ayələrinə bax).

[4] Bu xüsusda, Uca Allah buyurur: "**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi *nemətdən* artıq yük qoymaz**" (ət-Talaq, 7).

[5] Bu, dəlildir ki, özbaşınalıq edən zövcəni və övladı tərbiyə etmək məqsədi ilə döymək olar. Bu xüsusda, Uca Allah buyurur: **"Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və onları döyün! Əgər sizə itaət etsələr, onlara *əziyyət vermək üçün başqa* yol axtarmayın"** (ən-Nisa, 34). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Övladlarınız yeddi yaşına çatdıqları zaman onların yatağını ayırın, on yaşlarına çatdıqda isə namazı öyrətmək məqsədi ilə onları vurun" (Sunən əd-Daraqutni, 898; Səhih əl-Cami, 418). Lakin qeyd etmək lazımdır ki, bu məqamda həddi aşmaq, yəni onları çox bərk döymək və ya qadağan olunmuş tərzdə vurmaq olmaz.

[6] İnsanı Allahla qorxutmaq ən mühüm tərbiyə üslubudur. Valideynlərin çoxu isə bundan qafildir. Halbuki, valideyn övladını ilk əvvəl Allahın əzabı ilə qorxutmalıdır. Loğmanın öz oğluna etdiyi nəsihətə nəzər salın: **"Oğlum! *Gördüyün iş* bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər"** (Loğman, 16).

[7] Bu hədisin isnadında keçən Şəhr ibn Hovşəb "çoxlu xətalara yol vermiş səduq" ravidir. Lakin Muhəmməd Nasirəddin əl-Albani bu isnadı qüvvətləndirən digər isnadlara əsaslanaraq "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu bildirmişdir.

١٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَطَاءِ بْنِ السَّائِبِ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ عَمْرٍو قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: ((جِئْتُ أُبَايِعُكَ عَلَى الْهِجْرَةِ، وَتَرَكْتُ أَبَوَيَّ يَبْكِيَانِ؟ قَالَ: ارْجِعْ إِلَيْهِمَا فَأَضْحِكْهُمَا كَمَا أَبْكَيْتَهُمَا)).

**(19)** ........ Abdullah ibn Amr ﵄ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mən ata-anamı gözüyaşlı qoyub *sənin yanına* hicrət etmişəm ki, *cihad etmək üçün* sənə beyət edim." Peyğəmbər ﷺ dedi: "Valideynlərinin yanına qayıt! Necə onları ağlatmısansa, eləcə də, onları güldür."[1]

٢٠- حَدَّثَنَا عَلِيُّ بْنُ الْجَعْدِ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ قَالَ: سَمِعْتُ أَبَا الْعَبَّاسِ الأَعْمَى، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ يُرِيدُ الْجِهَادَ، فَقَالَ: أَحَيٌّ وَالِدَاكَ؟ فَقَالَ: نَعَمْ، فَقَالَ: ((فَفِيهِمَا فَجَاهِدْ)).

**(20)** ........ Abdullah ibn Amr ﵄ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib cihada getmək istədiyini ona bildirdi. Peyğəmbər ﷺ soruşdu: "Valideynlərin sağdırmı?" O: "Bəli!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: "Elə isə, onlar üçün çalış![2]"[3]

---

[1] 13-cü hədisin şərhinə bax. Həmin hədis bu fəsilə də aid olduğundan İmam Buxari onu təkrar varid etmişdir. Burada həmin adamın valideynlərinin ondan onların yanında qalmağı tələb etməsi, dünyəvi işlərə aid olduğu üçün, üstəlik, onun bu növ cihadı tərk etməsi Allaha qarşı asilik sayılmadığına görə Rəsulullah ﷺ ona valideynlərinin qayğısına qalmağı və bu işdə onlara itaət etməyi buyurur.

[2] Burada Peyğəmbərin ﷺ həmin adama cihada getməsinə izn verməməsi, valideyn haqqının cihaddan üstün olduğunu bir daha sübuta yetirir. Peyğəmbərin ﷺ "Elə isə, onlar üçün çalış!" sözünə diqqət yetirsək, bunun mənasını öyrənsək, başa düşərik ki, valideynin qayğısına qalmaq, daim onların xidmətində durmaq əsl mənada cihad sayılır. İslam alimləri bunu nəfsə qarşı olan cihada aid edirlər. Nəfsin sənə valideynlərinin üzünə ağ olmağı əmr etsə də, sən çalışırsan ki, onların xətrinə dəyməyəsən, onlara "uf" belə deməyəsən, onların hər nazına səbir edəsən, beləliklə də həqiqi mənada cihad etmiş sayılırsan. Bu xüsusda, Uca Allah buyurur: **"Uğrumuzda cihad edənləri mütləq Öz yolumuza yönəldəcəyik. Şübhəsiz ki, Allah yaxşı iş görənlərlədir"** (əl-Ənkəbut, 69). İbn Atiyyə demişdir: "Bu, Məkkə ayəsidir, düşmənə qarşı olan cihad vacib buyrulmamışdan əvvəl nazil olmuşdur. Demək, bu, Allahın rizasını qazanmaq üçün və Onun dininin yayılması uğrunda aparılan ümumi cihada aid edilir." İbrahim ibn Ədhəm isə bu ayəni belə izah etmişdir: "Bu, bildiklərinə əməl edənlərə aiddir" (Fəthul-Qədir).

[3] Bu hədisi Buxari (3004), Muslim (4623), Əbu Davud (2529), Nəsai (3052), Tirmizi (1772) və Əhməd (2/165) rəvayət etmişdir.

## ١٠- بَابُ مَنْ أَدْرَكَ وَالِدَيْهِ فَلَمْ يَدْخُلِ الْجَنَّةَ

## 10-cu fəsil. Valideynləri qocalanadək onların yanında yaşayan, sonra da Cənnətə daxil olmayan kimsə

٢١- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلَالٍ قَالَ: حَدَّثَنَا سُهَيْلٌ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((رَغِمَ أَنْفُهُ، رَغِمَ أَنْفُهُ، رَغِمَ أَنْفُهُ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ مَنْ؟ قَالَ: ((مَنْ أَدْرَكَ وَالِدَيْهِ عِنْدَ الْكِبَرِ، أَوْ أَحَدَهُمَا، فَدَخَلَ النَّارَ)).

**(21)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, (bir gün) Peyğəmbər ﷺ: "Zəlil olsun, zəlil olsun, zəlil olsun!"[1]– deyə buyurdu. (Səhabələr ondan): "Kim,[2] ya Rəsulullah?"– deyə soruşdular. O buyurdu: "Valideynləri, yaxud valideynlərindən biri qocalanadək[3] onların yanında yaşayan, sonra da Cəhənnəmə girən kəs.[4]"[5]

---

[1] Peyğəmbərin ﷺ bu sözü üç kərə təkrar etməsi məsələnin ciddiliyindən, valideynlərin üzünə ağ olmağın nə dərəcədə böyük günah olduğundan xəbər verir.

[2] Səhabələrin bu sualı verməkdə məqsədləri bu idi ki, o kimsənin nə üçün zəlil olduğunu bilsinlər, sonra da onun etdiyi günahdan uzaq olsunlar və onun kimi zəlil olmasınlar.

[3] Burada Peyğəmbərin ﷺ qocalığı xüsusilə vurğulaması o deməkdir ki, həmin vaxt valideynin övlad qayğısına, onun köməyinə daha çox ehtiyacı olur.

[4] Hədisdən aydın olur ki, valideyninin üzünə ağ olan və ona qarşı nankorluq edən kimsə Cəhənnəmlik olacaq. Valideynin üzünə ağ olmağa və nankorluğa gəlincə, buna aşağıdakıları misal çəkmək olar:

Nalayiq söz və ya hərəkətlə valideyni kədərləndirmək, üstlərinə qışqırıb onları alçaltmaq, buyruqlarına "uf" deyərək etiraz etmək, yanında qaşqabaqlı dayanmaq, onlara nifrətlə baxmaq, verdikləri şeyi bəyənməmək, dünya işlərində onlara yardım etməmək, onlara iş buyurmaq, onların dediklərinə məhəl qoymamaq, məsləhətlərinin faydasız olduğunu güman etmək, otaqlarına izinsiz daxil olmaq, hüzurlarında tərbiyəsizlik etmək, başqalarının yanında onların paxırını açmaq, onları söymək və ya lənətləmək, gözləri önündə günah işlər görmək, onları günah iş görməyə vadar etmək, onları atıb getmək və ya günlərlə evdən didərgin düşmək, onlardan imkanları çatmadığı bir şeyi tələb etmək, digərlərini, ələlxüsus da arvad-uşağı onlardan çox sevmək, onları vurmaq, onların səhvlərini bağışlamamaq, mal-dövlətdən onlara xərcləməmək, boyunlarına minnət qoymaq, onların malından oğurlamaq, onların ölməyini arzulamaq və s.

[5] Bu hədisi Muslim (6675) rəvayət etmişdir. Həmin rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Valideyninin hər ikisi, yaxud biri qocalanadək onların yanında yaşayan, sonra da Cənnətə girməyən kəs."

## ١١- بَابُ مَنْ بَرَّ وَالِدَيْهِ زَادَ اللَّهُ فِي عُمْرِهِ

## 11-ci fəsil. Kim valideynlərinin qayğısına qalarsa, Allah onun ömrünü uzadar

٢٢- حَدَّثَنَا أَصْبَغُ بْنُ الْفَرَجِ قَالَ: أَخْبَرَنِي ابْنُ وَهْبٍ، عَنْ يَحْيَى بْنِ أَيُّوبَ، عَنْ زَبَّانَ بْنِ فَائِدٍ، عَنْ سَهْلِ بْنِ مُعَاذٍ، عَنْ أَبِيهِ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((مَنْ بَرَّ وَالِدَيْهِ طُوبَى لَهُ، زَادَ اللَّهُ عَزَّ وَجَلَّ فِي عُمْرِهِ)).

**(22)** ........ Səhl ibn Muaz atasından[1] rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Kim valideynlərinin qayğısına qalsa, ona çoxlu xeyir nəsib olar,[2] Allah ﷻ onun ömrünü uzadar.[3]”[4]

---

[1] Burada Peyğəmbərin ﷺ səhabəsi Muaz ibn Ənəs əl-Cuhəni əl-Ənsari ؓ nəzərdə tutulur (İkmal Təhzib əl-Kəmal, 4612-ci tərcümeyi-hal).

[2] Burada “çoxlu xeyir” deyildikdə, Cənnətdəki “Tubə” ağacı, yaxud Cənnətin özü, yaxud da çoxlu savab və xeyir-bərəkət nəzərdə tutulur.

[3] Bu, dəlildir ki, Allah istədiyi zaman Öz bəndəsinin qədərini dəyişdirə bilər. Bu xüsusda, Uca Allah buyurur: **“Hər vaxtın bir yazısı var. Allah *bu yazıdan* istədiyini silər, *istədiyini də* sabit saxlayar. Kitabın anası da Onun yanındadır”** (ər-Rəd, 38-39).

[4] Bu hədisin isnadında keçən Zəbban ibn Faid adlı ravi “zəif” ravidir. Elə bu səbəbdən də, şeyx Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir. Lakin hədisin mənası səhihdir. Bu mənada varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Qədəri yalnız dua dəyişdirir, ömrü də ancaq xeyirxahlıq uzadır” (Sunən ət-Tirmizi, 2/20; Silsilətul-Əhadisis-Səhihə, 154); valideynin qayğısına qalmaq da bu xeyirxahlığa aiddir. Həmçinin, o, demişdir: “Qoy ruzisinin artmasını və ömrünün uzanmasını istəyən kəs qohumları ilə əlaqə saxlasın” (Səhih əl-Buxari, 2067); valideyn isə adama qohumdan da yaxındır.

# ١٢- بَابُ لاَ يَسْتَغْفِرُ لأَبِيهِ الْمُشْرِكِ

## 12-ci fəsil. Müşrik ata üçün bağışlanma diləməmək[1]

٢٣- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا عَلِيُّ بْنُ حُسَيْنٍ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ يَزِيدَ النَّحْوِيِّ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، فِي قَوْلِهِ عَزَّ وَجَلَّ: ﴿إِمَّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُلْ لَهُمَا أُفٍّ﴾ إِلَى قَوْلِهِ: ﴿كَمَا رَبَّيَانِي صَغِيرًا﴾، فَنَسَخَتْهَا الآيَةُ فِي بَرَاءَةَ: ﴿مَا كَانَ لِلنَّبِيِّ وَالَّذِينَ آمَنُوا أَنْ يَسْتَغْفِرُوا لِلْمُشْرِكِينَ وَلَوْ كَانُوا أُولِي قُرْبَى مِنْ بَعْدِ مَا تَبَيَّنَ لَهُمْ أَنَّهُمْ أَصْحَابُ الْجَحِيمِ﴾.

**(23)** ........ İbn Abbas ﷺ demişdir: “Allahın ﷻ **“Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə gözəl rəftar etməyi[2] buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: “Uf!”[3] belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə![4] Onların hər ikisinə rəhm edərək *təvazökarlıq* qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də**

---

[1] Burada “ata” deyildikdə, təkcə ata deyil, digər müşriklər də bu hökmə aid edilir. Bu xüsusda, Uca Allah buyurur: **“Müşriklərin Cəhənnəm sakinləri olduqları onlara bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz”** (ət-Tovbə, 113). Yəni ölüb getmiş müşrik ən əziz adam olsa belə, onun üçün bağışlanma diləmək olmaz. Habelə, həyatda olan müşrik üçün də bağışlanma diləmək olmaz. Çünki Uca Allah belələri barədə buyurur: **“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar”** (ən-Nisa, 48). Belə insanlar üçün yalnız hidayət diləmək olar. Necə ki, Peyğəmbər ﷺ Allahdan iki Ömərdən birinə hidayət verməsini diləmiş və Allah subhanəhu və təalə də Ömər ibn Xattaba ﷺ hidayət vermişdir.

[2] Burada “gözəl rəftar” deyildikdə, istər sözdə, istərsə də əməldə kobudluq etməmək nəzərdə tutulur.

[3] Uca Allah bu ayədə kobud danışığın ən yüngülünü qadağan edir. Odur ki, bundan kobud sözlər də qadağaya aid edilir.

[4] Bəddah ət-Tucibi demişdir: “Mən Səid ibn əl-Museyyibdən soruşdum: “Quranda valideynlər barədə “**onlara xoş söz söylə**” deyilir. Bu nə deməkdir?” İbn əl-Museyyib dedi: “Bu, günahkar kölənin öz zəhmli ağasına dediyi sözə bənzəyir” (Cami li Əhkamil-Quran – Təfsir əl-Qurtubi). Səid ibn əl-Museyyib valideynlə böyük ehtiram və nəvazişlə rəftar etməyi qəsd edir.

**onlara rəhm et!"– de"**[1]– ayəsi[2], Bəraə[3] surəsindəki **"Müşriklərin Cəhənnəm sakinləri olduqları** ***möminlərə*** **bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz"**[4] – ayəsi ilə ləğv edilmişdir.[5]"[6]

---

[1] Belə dua etmək yalnız mömin valideynə aiddir. Müşrik və kafir valideyn üçün isə Allahdan yalnız hidayət diləmək olar.

[2] "əl-İsra" surəsi, 23-24.

[3] Bəraə: ət-Tovbə surəsinin digər adıdır.

[4] "ət-Tovbə" surəsi, 113. Bu ayənin nə vaxt nazil olması barədə Museyyib ibn Həzn ﷺ demişdir: "Əbu Talib ölüm ayağında ikən Peyğəmbər ﷺ onun yanına gəldi və orada Əbu Cəhl ibn Hişamı və Abdullah ibn Əbu Ümeyyə ibn Muğiranı gördü. Peyğəmbər ﷺ Əbu Talibə dedi: "Əmican, "Lə ilahə illəllah" kəlməsini de ki, Allah yanında sənin (dediyinə) şahid olum." Əbu Cəhl və Abdullah ibn Əbu Ümeyyə isə: "Ey Əbu Talib, Abdul-Muttəlibin dinindən üz çevirməkmi istəyirsən?!"– deyə etirazlarını bildirdilər. Peyğəmbər ﷺ tövhid kəlməsini, onlar da öz dediklərini ta o vaxta qədər təkrar etdilər ki, axırda Əbu Talib onlara son sözünü deyib Abdul-Muttəlibin dinində qalacağını bildirdi və "Lə ilahə illəllah" deməkdən imtina etdi. Peyğəmbər ﷺ buyurdu: "Vallahi, mənə qadağan edilənədək sənin üçün bağışlanma diləyəcəyəm." Onda Uca Allah onun barəsində bu ayəni nazil etdi: **"Müşriklərin Cəhənnəm sakinləri olduqları bəlli olduqdan sonra qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz";** həmçinin, bu ayə də nazil oldu: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları da daha yaxşı tanıyır"** (Səhih əl-Buxari, 1360).

[5] Burada "ləğv edilmişdir" deyildikdə, ayənin hamısı nəzərdə tutulmur. Belə ki, valideyn müşrik olsa belə, onlarla gözəl rəftar etmək, onlara: "uf!" deməmək, üstlərinə qışqırmamaq, onlara xoş söz söyləmək və onların hər ikisinə rəhm edərək *təvazökarlıq* qanadının altına almaq övladın borcudur. Rəvayət edilir ki, Əsma bint Əbu Bəkr رضي الله عنها demişdir: "Peyğəmbərin ﷺ zamanında anam müşrik ikən mənim yanıma gəldi. Mən bu məsələ ilə bağlı Peyğəmbərə ﷺ müraciət etdim: "Anam gəlib, ona qayğı göstərməyimi istəyir. Mən onunla əlaqə saxlaya bilərəmmi?" Peyğəmbər ﷺ: "Bəli, onun qayğısına qal"– dedi" (Səhih əl-Buxari, 2620).

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ١٣– بَابُ بِرِّ الْوَالِدِ الْمُشْرِكِ

## 13-cü fəsil. Müşrik valideynin qayğısına qalmaq

٢٤– حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ قَالَ: حَدَّثَنَا سِمَاكٌ، عَنْ مُصْعَبِ بْنِ سَعْدٍ، عَنْ أَبِيهِ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ قَالَ: نَزَلَتْ فِيَّ أَرْبَعُ آيَاتٍ مِنْ كِتَابِ اللَّهِ تَعَالَى: كَانَتْ أُمِّي حَلَفَتْ أَنْ لاَ تَأْكُلَ وَلاَ تَشْرَبَ حَتَّى أُفَارِقَ مُحَمَّدًا ﷺ، فَأَنْزَلَ اللَّهُ عَزَّ وَجَلَّ: ﴿وَإِنْ جَاهَدَاكَ عَلَى أَنْ تُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلاَ تُطِعْهُمَا وَصَاحِبْهُمَا فِي الدُّنْيَا مَعْرُوفًا﴾. وَالثَّانِيَةُ: إِنِّي كُنْتُ أَخَذْتُ سَيْفًا أَعْجَبَنِي، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، هَبْ لِي هَذَا، فَنَزَلَتْ: ﴿يَسْأَلُونَكَ عَنِ الأَنْفَالِ﴾. وَالثَّالِثَةُ: أَنِّي مَرِضْتُ فَأَتَانِي رَسُولُ اللَّهِ ﷺ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنِّي أُرِيدُ أَنْ أَقْسِمَ مَالِي، أَفَأُوصِي بِالنِّصْفِ؟ فَقَالَ: ((لاَ))، فَقُلْتُ: الثُّلُثُ؟ فَسَكَتَ، فَكَانَ الثُّلُثُ بَعْدَهُ جَائِزًا. وَالرَّابِعَةُ: إِنِّي شَرِبْتُ الْخَمْرَ مَعَ قَوْمٍ مِنَ الأَنْصَارِ، فَضَرَبَ رَجُلٌ مِنْهُمْ أَنْفِي بِلَحْيِ جَمَلٍ، فَأَتَيْتُ النَّبِيَّ ﷺ فَأَنْزَلَ عَزَّ وَجَلَّ تَحْرِيمَ الْخَمْرِ.

**(24)** ........ Səd ibn Əbu Vəqqas[1] ؓ demişdir: "Uca Allahın Kitabında mənim barəmdə dörd ayə nazil olmuşdur:

(Birincisi) Anam and içdi ki, mən Muhəmməddən ﷺ ayrılmayınca yeməyəcək, içməyəcəkdir.[2] Allah ﷻ da bu ayəni nazil etdi: **"Əgər onlar bil-**

---

[1] Əbu İshaq Səd ibn Əbu Vəqqas Malik ibn Uheyb əl-Qurəşi əz-Zuhri ؓ Peyğəmbərin ﷺ səhabəsi, Cənnətlə müjdələnmiş on nəfərdən biridir (Siyər Əlam ən-Nubələ, 5-ci tərcümeyi-hal). Onun fəzilətinə dair ikicə hədis desək kifayət edər. Bunlardan birində rəvayət edilir ki, Əli ibn Əbu Talib ؓ demişdir: "Mən Peyğəmbərin ﷺ (Uhud döyüşü əsnasında) Səd ibn Əbu Vəqqasa belə dediyini eşitmişəm: "Oxla vur *onları*, atam-anam sənə fəda olsun!" (Səhih əl-Buxari, 2905). Digər hədisdə deyilir ki, Peyğəmbər ﷺ onun üçün dua edib demişdir: "Allahım, Səd nə zaman Sənə dua etsə, onun duasını qəbul et!" (Səhih Sunən ət-Tirmizi, 3751).

[2] Səd ibn Əbu Vəqqas ؓ müsəlman olduqdan sonra anası onu yanına çağırmış və bu dindən imtina edib babalarının dininə dönməyincə yeməyib, içməyib acından öləcəyini demiş, Səd də ona nəzakətlə: "Anacan"– deyə müraciət edib ona İslam dinindən dönməyəcəyini bildirmişdir. Hədisdən aydın olur ki, Səd ibn Əbu Vəqqas ؓ Allaha asi olan işdə müşrik anasına itaət etməsə də, anasını atıb getmir, dünya işlərində onun qayğısına qalmaqdan imtina etmir.

**mədiyin bir şeyi Mənə şərik qoşmağın üçün *səni məcbur etməyə* cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran."[1]**

İkincisi: (Döyüşlərin birində[2]) mən (qənimətdən) xoşuma gələn bir qılıncı götürüb dedim: "Ya Rəsulullah, bunu mənə bağışla."[3] Həmin vaxt bu ayə nazil oldu: **"Səndən qənimətlər haqqında soruşurlar..."[4]**

Üçüncüsü: Mən xəstələnmişdim. Peyğəmbər ﷺ mənə baş çəkməyə gəldi və mən ondan: "Ya Rəsulullah, mən varımı bölmək istəyirəm. Yarısını vəsiyyət edə bilərəmmi?"– deyə soruşdum. O: "Xeyr!"– deyə cavab verdi. Mən (yenə) soruşdum: "Bəs, üçdə birini?" O, susdu. Bu hadisədən sonra malın üçdə birinin vəsiyyət edilməsinə izin verildi.[5]

Dördüncüsü: (Bir gün) mən ənsarla[6] birgə şərab içdim. (Kefləndikdən sonra) onlardan biri dəvənin alt çənə sümüyü ilə mənim burnuma vurdu.

---

[1] "Loğman" surəsi, 15.

[2] Burada söhbət Bədr döyüşündən gedir.

[3] Başqa rəvayətdə Səd ibn Əbu Vəqqas ﷺ xəbər vermişdir ki, qənimətin bir hissəsi, o cümlədən də həmin qılınc Rəsulullaha ﷺ nəsib olduqdan sonra o bu qılıncı Sədə vermişdir (Sunən ət-Tirmizi, 3359; Səhih ət0-Tirmizi, 2747).

[4] "əl-Ənfal" surəsi, 1.

[5] Digər hədisdə rəvayət edilir ki, Səd ibn Əbu Vəqqas ﷺ demişdir: "Mən vida həcci ilində xəstələnmişdim deyə Peyğəmbər ﷺ *tez-tez* mənə baş çəkirdi. Onda, mən *ona* dedim: "Mənim xəstəliyim çox ağırlaşıb! Mən var-dövlət sahibiyəm, qızımdan başqa da bir varisim yoxdur. Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?" O: "Xeyr!"– deyə buyurdu. Dedim: "Yarısını *verə bilərəmmi*?" O (yenə): "Xeyr"– deyə cavab verdi, sonra da belə buyurdu: "Üçdə birini *verə bilərsən*, amma üçdə biri də çoxdur. Şübhəsiz ki, sənin üçün varislərini zəngin qoyub getməyin, onları kasıb və dilənçi vəziyyətdə qoyub getməyindən daha xeyirlidir. Sən Allahın Üzünü diləyərək xərclədiyin sədəqənin, hətta həyat yoldaşının ağzına qoyduğun *loxmanın* belə əvəzini mütləq alacaqsan." Dedim: "Ya Rəsulullah, mən *burada ölüb* qardaşlarımdan geridəmi qalacağam?" O, dedi: "Sən əsla geridə qalmayacaqsan. Etdiyin *hər bir* yaxşı əməl sayəsində sənin dərəcən və hörmətin mütləq artacaq. Bundan əlavə ola bilsin ki, sən uzun ömür yaşayasan..." (Səhih əl-Buxari, 1295; həmçinin, "əl-Ədəbul-Mufrad" əsərindəki 499-cu və 520-ci hədislərə də bax). Bu hadisədən sonra Səd ibn Vəqqas ﷺ qırx ilə yaxın yaşamışdır. Onu da qeyd etmək lazımdır ki, bu hadisədə ayə yox, sadəcə hökm nazil olmuşdur.

[6] Ənsar – İslamı qəbul etmiş və Mədinədə Muhəmməd Peyğəmbərin ﷺ sədaqətli silahdaşları olmuş yerli sakinləri. Onlar Məkkədən və başqa şəhərlərdən gələn mühacirləri evlərinə qəbul etmiş və onları zəruri əşyalarla təmin etmişlər.

(Ertəsi gün) mən Peyğəmbərin ﷺ yanına gəldim. Elə həmin vaxt Allah ﷻ şərabın haram olması barədə ayə nazil etdi.[1]"[2]

٢٥– حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ عُرْوَةَ قَالَ: أَخْبَرَنِي أَبِي قَالَ: أَخْبَرَتْنِي أَسْمَاءُ بِنْتُ أَبِي بَكْرٍ قَالَتْ: أَتَتْنِي أُمِّي رَاغِبَةً، فِي عَهْدِ النَّبِيِّ ﷺ، فَسَأَلْتُ النَّبِيَّ ﷺ: أَصِلُهَا؟ قَالَ: ((نَعَمْ)). قَالَ ابْنُ عُيَيْنَةَ: فَأَنْزَلَ اللَّهُ عَزَّ وَجَلَّ فِيهَا: ﴿لاَ يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ لَمْ يُقَاتِلُوكُمْ فِي الدِّينِ﴾.

**(25)** Əsma bint Əbu Bəkr رضي الله عنها demişdir:[3] "Peyğəmbərin ﷺ zamanında anam *müşrik ikən* mənim yanıma gəldi.[4] Mən Peyğəmbərdən ﷺ: "Anamla əlaqə saxlaya bilərəmmi?"– deyə soruşdum. O: "Bəli"– deyə cavab verdi."[5]

(Hədisin ravisi) ibn Uyeynə dedi: "Allah ﷻ onun barəsində (bu ayəni)[6] nazil etdi: **"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir.[7] Şübhəsiz ki, Allah insaflı olanları sevir."**

---

[1] "əl-Maidə" surəsi, 90-91.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Buxari (2620), Əbu Davud (1668) və Əhməd (6/344) rəvayət etmişdir.

[4] Başqa rəvayətdə Əsma رضي الله عنها anasının nə üçün gəldiyini xəbər verib demişdir: "Anam *məndən* ona qayğı göstərməyimi istəyir..." (Səhih əl-Buxari 2620).

[5] Bu, dəlildir ki, belə məsələlərdə özbaşına qərar vermək caiz deyil, əksinə, bunun hökmünü şəriəti bilənlərdən soruşmaq gərəkdir. Habelə, Peyğəmbərin ﷺ bu işdə ona rüsxət verməsi, müşrik valideynin qayğısına qalmağın caiz olduğunu bir daha sübuta yetirir.

[6] "əl-Mumtəhənə" surəsi, 8.

[7] Qeyd etmək lazımdır ki, müsəlmanlarla vuruşmayan və onları öz diyarlarından qovub çıxartmayan kimsələrə yaxşılıq etmək və onlarla insafla davranmaq deyildikdə, sadəcə yaxşılıq etmək və onlara qarşı insaflı olmaq nəzərdə tutulur. Belə ki, onları dost tutmağı və onları sevməyi Allah müsəlmanlara qadağan etmişdir. Uca Allah bu xüsusda buyurur: **"Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun rəsuluna düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. *Allah* onları *ağacları* altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan**

**٢٦-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ مُسْلِمٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ قَالَ: سَمِعْتُ ابْنَ عُمَرَ يَقُولُ: رَأَى عُمَرُ ﷺ حُلَّةً سِيَرَاءَ تُبَاعُ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، ابْتَعْ هَذِهِ، فَالْبَسْهَا يَوْمَ الْجُمُعَةِ، وَإِذَا جَاءَكَ الْوُفُودُ، قَالَ: إِنَّمَا يَلْبَسُ هَذِهِ مَنْ لاَ خَلاَقَ لَهُ، فَأُتِيَ النَّبِيُّ ﷺ مِنْهَا بِحُلَلٍ، فَأَرْسَلَ إِلَى عُمَرَ بِحُلَّةٍ، فَقَالَ: كَيْفَ أَلْبَسُهَا وَقَدْ قُلْتَ فِيهَا مَا قُلْتَ؟ قَالَ: ((إِنِّي لَمْ أُعْطِكَهَا لِتَلْبَسَهَا، وَلَكِنْ تَبِيعَهَا أَوْ تَكْسُوهَا، فَأَرْسَلَ بِهَا عُمَرُ إِلَى أَخٍ لَهُ مِنْ أَهْلِ مَكَّةَ قَبْلَ أَنْ يُسْلِمَ)).

**(26)** ........ İbn Ömər ﷺ rəvayət edir ki, (bir dəfə) Ömər ibn Xattab (məscidin qapısının yanında satılan) ipəkdən olan zolaqlı bürüncəyi görüb (Peyğəmbərə ﷺ) dedi: "Ya Rəsulullah, yaxşı olar ki, bu paltarı alasan və onu həm cümə günləri, həm də yanına nümayəndələr gələndə geyəsən." Peyğəmbər ﷺ buyurdu: "Bu paltarı axirətdə heç bir payı olmayan kimsələr geyər!"[1] (Bir müddət) sonra Peyğəmbərə ﷺ belə ipək bürüncəklər gətirdilər və o, bunlardan birini Ömərə göndərdi. Ömər (onun yanına gəlib) dedi: "(Ya Rəsulullah,) mən onu necə geyinə bilərəm ki, sən onun haqqında

---

**razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır"** (əl-Mucadilə, 22); digər ayədə O, buyurur: **"Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır"** (ət-Tovbə, 23).

[1] Burada Peyğəmbər ﷺ ipək geyməyin qadağan olunduğunu bildirmək istəyir. Bu xüsusda varid olmuş hədisdə Bəra ibn Azib ﷺ demişdir: "Peyğəmbər ﷺ bizə yeddi şeyi əmr etdi və yeddi şeyi qadağan etdi. O, bizə cənazənin ardınca getməyi, xəstəni ziyarət etməyi, *məclisə* dəvət edənin dəvətini qəbul etməyi, məzluma yardım etməyi, andı yerinə yetirməyi, verilən salamı almağı və asqırıb ("Əlhəmdulilləh"– deyən) adama rəhmət diləməyi ("Yərhəmukəllah"– deməyi) əmr etdi. Və bizə gümüş qabda (yemək-içməyi), qızıl üzük, ipək, zərxara, ipək qatışığı olan libas və atlas parça *geyməyi* qadağan etdi" (Səhih əl-Buxari, 1239); Hədisdə olan qadağalardan yalnız altısı sadalanmışdır. Lakin imam Buxarinin "Libas" kitabında rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ ipəkdən olan yəhəri də onlara qadağan etmişdir. Qeyd etmək lazımdır ki, hədisdə qadağan olunmuş yeddi şey bu ümmətin kişilərinə aiddir. Qızıl və gümüş qablardan istifadə etmək isə həm kişilərə, həm də qadınlara aiddir. Lakin qeyd etmək lazımdır ki, cümə günləri, habelə, mühüm görüşlərə getdikdə gözəl libas geyinmək caizdir.

dediyini artıq demisən." Peyğəmbər ﷺ buyurdu: "Mən bunu sənə ona görə vermədim ki, sən onu geyəsən. Verdim ki, onu ya satasan, ya da başqasına bağışlayasan." Belə olduqda Ömər onu Məkkədə yaşayan, hələ İslamı qəbul etməmiş qardaşına[1] göndərdi.[2]

---

[1] Bu, Ömərin ؓ anabir qardaşı Osman ibn Həkimdir (İrşad əs-Sari, 2619-cu hədisin şərhi). Ömərin bu bürüncəyi qardaşına göndərməsi və Peyğəmbərin ﷺ buna görə onu qınamaması dəlildir ki, müşrikə hədiyyə vermək olar.

[2] Bu hədisi Buxari (886) və Nəsai (9502) rəvayət etmişdir. Bu hədisin bu fəslə aidiyyəti budur ki, əgər müşrik qardaşla əlaqə saxlamaq və ona əl tutmaq caizdirsə, deməli, valideynin də buna haqqı çatır. Çünki valideyn insana qardaş-bacıdan daha yaxındır.

## ١٤- بَابُ لاَ يَسُبُّ وَالِدَيْهِ

## 14-cü fəsil. Validеynləri söyməmək[1]

٢٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنِي سَعْدُ بْنُ إِبْرَاهِيمَ، عَنْ حُمَيْدِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((مِنَ الْكَبَائِرِ أَنْ يَشْتِمَ الرَّجُلُ وَالِدَيْهِ))، فَقَالُوا: كَيْفَ يَشْتِمُ؟ قَالَ: ((يَشْتِمُ الرَّجُلَ، فَيَشْتُمُ أَبَاهُ وَأُمَّهُ)).

**(27)** ........ Abdullah ibn Amr ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ belə buyurdu: "Adamın öz validеynlərini söyməsi böyük günahlardandır." (Səhabələr) soruşdular: "Heç, (adam da öz validеynini) söyərmi?" Peyğəmbər ﷺ dedi: "Birisini söyür,[2] o da, qayıdıb onun atasını və anasını söyür."[3]

٢٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدٌ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: سَمِعْتُ مُحَمَّدَ بْنَ الْحَارِثِ بْنِ سُفْيَانَ يَزْعُمُ، أَنَّ عُرْوَةَ بْنَ عِيَاضٍ أَخْبَرَهُ، أَنَّهُ سَمِعَ عَبْدَ اللَّهِ بْنَ عَمْرِو بْنِ الْعَاصِ يَقُولُ: مِنَ الْكَبَائِرِ عِنْدَ اللَّهِ تَعَالَى أَنْ يَسْتَسِبَّ الرَّجُلُ لِوَالِدِهِ.

**(28)** ........ Abdullah ibn Amr ibn As ﷺ demişdir: "Adamın öz validеynini söydürməsi[4] Uca Allah yanında böyük günahlardan sayılır."[5]

---

[1] İmam Buxari bu fəsilə belə ad verməklə, validеyni söyməyin və söydürməyin böyük günahlardan hesab edildiyini bildirir. İstər, birbaşa validеyni söymək olsun, istərsə də, kiminsə validеyninə söyüb öz validеynini söydürmək olsun, hər ikisi böyük günahlardan sayılır. Fəqət birincisinin günahı ikincisindən daha ağırdır. Burada "söymək" deyildikdə, nalayiq, pis, ədəbsiz sözlərlə təhqir etmək nəzərdə tutulur.

[2] Başqa rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ səhabələrə belə cavab vermişdir: "Bəli, adam birisinin atasını söyür, o da *qayıdıb* onun atasını söyür, birisinin anasını söyür, o da *qayıdıb* onun anasını söyür" (Səhih Muslim, 263).

[3] Bu hədisi Muslim (263), Tirmizi (2024) və Əhməd (2/164) rəvayət etmişdir.

[4] Söyülən adamın söyən adamın validеynini söyməsi də böyük günahlardandır. (Demək, günah işlərdə səbəbkar olmağın özü də adama günah qazandırır.) Uca Allah "əl-Ənam" surəsinin 108-ci ayəsində belə buyurur: ***"Müşriklərin* Allahdan başqalarına tapındıqlarını söyməyin. Yoxsa onlar da elmsiz olaraq düşməncəsinə Allahı söyərlər"** (Şərh Riyadus-Salihin, 1/391).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

## ١٥– بَابُ عُقُوبَةِ عُقُوقِ الْوَالِدَيْنِ

## 15-ci fəsil. Valideynlərin üzünə ağ olmağın cəzası

**٢٩–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا عُيَيْنَةُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي بَكْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا مِنْ ذَنْبٍ أَجْدَرُ أَنْ يُعَجَّلَ لِصَاحِبِهِ الْعُقُوبَةُ مَعَ مَا يُدَّخَرُ لَهُ، مِنَ الْبَغْيِ وَقَطِيعَةِ الرَّحِمِ)).

**(29)** ........ Əbu Bəkrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Günah sahibinə verilən cəzanın *Axirətə* saxlanılması[1] ilə yanaşı *bu dünyada* tezləşdirilməsi üçün,[2] təcavüz etmək və qohumluq əlaqələrini kəsmək kimi[3] günahdan daha uyğun bir günah yoxdur."[4]

**٣٠–** حَدَّثَنَا الْحَسَنُ بْنُ بِشْرٍ قَالَ: حَدَّثَنَا الْحَكَمُ بْنُ عَبْدِ الْمَلِكِ، عَنْ قَتَادَةَ، عَنِ الْحَسَنِ، عَنْ عِمْرَانَ بْنِ حُصَيْنٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا تَقُولُونَ فِي الزِّنَا، وَشُرْبِ الْخَمْرِ، وَالسَّرِقَةِ؟)) قُلْنَا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: ((هُنَّ الْفَوَاحِشُ، وَفِيهِنَّ الْعُقُوبَةُ، أَلاَ أُنَبِّئُكُمْ بِأَكْبَرِ الْكَبَائِرِ؟ الشِّرْكُ بِاللَّهِ عَزَّ وَجَلَّ، وَعُقُوقُ الْوَالِدَيْنِ)) وَكَانَ مُتَّكِئًا فَاحْتَفَزَ قَالَ: ((وَالزُّورُ)).

---

[1] Yəni Allahın verdiyi cəzanın Axirət gününə saxlanılması.

[2] Burada həmin cəzanın dünyada da ona tezliklə verilməsi nəzərdə tutulur.

[3] Demək, azğınlıq edən və qohumluq əlaqələrini kəsən adam həm bu dünyada, həm də Axirətdə cəzalandırılır. Valideynlərinin üzünə ağ olan kimsə də, habelə. Diqqət edin, Peyğəmbər ﷺ Cənnətə daxil olmaq istəyən kimsəyə nəyi buyurur və hansı vacib əməllərlə yanaşı, qohumluq əlaqəsini saxlamağı xüsusilə vurğulayır, ondan "Mənə Cənnətə girməyimə səbəb olacaq əməl barədə xəbər ver"– deyə soruşan səhabəsinə belə buyurur: "Allaha ibadət et və heç kəsi Ona şərik qoşma, namaz qıl, zəkat ver və qohumluq əlaqələrini saxla!" (Səhih əl-Buxari, 1396); digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Qohumluq əlaqələrini kəsən adam Cənnətə girməz" (Səhih əl-Buxari, 5984); bir başqa hədisdə o, demişdir: "Allah *qohumluq əlaqəsinə dair* belə buyurmuşdur: "Səni birləşdirəni birləşdirərəm, kəsəni isə kəsərəm" (Səhih əl-Buxari, 5989).

[4] Bu hədisi Əbu Davud (2/301-302), Tirmizi (1/83), İbn Macə (2/552), Əhməd (5/36 və 38), İbn Hibban (2039) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(30)** ........ İmran ibn Husayn[1] ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ (bizdən) soruşdu: "Zina, şərab içmək və oğurluq barədə nə deyə bilərsiniz?" Biz dedik: "Allah və Onun rəsulu daha yaxşı bilir!" O buyurdu: "Bunlar murdar əməllərdir, üstəlik, onların cəzası vardır.[2] Sizə böyük günahların ən böyüyü barədə xəbər verimmi? (Bunlar) Allaha ﷻ şərik qoşmaq və valideynlərin üzünə ağ olmaqdır." Sonra söykəndiyi yerdən qalxıb dizi üstə oturdu və əlavə etdi: "Yalan söz danışmaqdır."[3]

---

[1] Əbu Nuceyd İmran ibn Husayn əl-Xuzai ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 105-ci tərcümeyi-hal).

[2] Başqa günahlar kimi bu günahların da cəzası vardır, lakin bu günahların cəzası böyükdür.

[3] Hədisin isnadında keçən Həkəm ibn Abdul-Məlik "zəif" ravi olduğunudan Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu isnadın "zəif" olduğunu bildirmişdir. Lakin hədisin mənası səhihdir və əvvəlki fəsillərdə keçən hədislərdə öz təsdiqini tapmışdır.

## ١٦– بَابُ بُكَاءِ الْوَالِدَيْنِ

## 16-cı fəsil. Valideynlərin ağlaması[1]

٣١– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ زِيَادِ بْنِ مِخْرَاقٍ، عَنْ طَيْسَلَةَ، أَنَّهُ سَمِعَ ابْنَ عُمَرَ يَقُولُ: ((بُكَاءُ الْوَالِدَيْنِ مِنَ الْعُقُوقِ وَالْكَبَائِرِ)).

**(31)** ........ İbn Ömər ﵄ demişdir: "Validеynləri gözüyaşlı qoymaq, onların üzünə ağ olmaq, həm də böyük günahlardan sayılır."[2]

---

[1] İmam Buxari fəsilə belə ad verməklə sanki bu kitabı oxuyan kimsəyə validеyninin ağlamağına səbəbkar olmamağı tövsiyə edir. Əksinə, övlad çalışmalıdır ki, öz validеynlərini həmişə sevindirsin.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir (8-ci hədisin qeydlərinə bax).

# ١٧- بَابُ دَعْوَةِ الْوَالِدَيْنِ

## 17-ci fəsil. Validеynlərin duası[1]

٣٢- حَدَّثَنَا مُعَاذُ بْنُ فَضَالَةَ قَالَ: حَدَّثَنَا هِشَامٌ، عَنْ يَحْيَى هُوَ ابْنُ أَبِي كَثِيرٍ، عَنْ أَبِي جَعْفَرٍ، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ النَّبِيُّ ﷺ: ((ثَلاَثُ دَعَوَاتٍ مُسْتَجَابَاتٌ لَهُنَّ، لاَ شَكَّ فِيهِنَّ: دَعْوَةُ الْمَظْلُومِ، وَدَعْوَةُ الْمُسَافِرِ، وَدَعْوَةُ الْوَالِدِ عَلَى وَلَدِهِ)).

**(32)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Üç (növ) dua vardır ki, onların qəbul olunmasına heç bir şəkk-şübhə yoxdur: məzlumun duası,[2] müsafirin duası[3] və valideynin öz övladının əleyhinə[4] etdiyi dua."[5]

٣٣- حَدَّثَنَا عَيَّاشُ بْنُ الْوَلِيدِ قَالَ: حَدَّثَنَا عَبْدُ الأَعْلَى قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ، عَنْ يَزِيدَ بْنِ عَبْدِ اللَّهِ بْنِ قُسَيْطٍ، عَنْ مُحَمَّدِ بْنِ شُرَحْبِيلَ، أَخِي بَنِي عَبْدِ الدَّارِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: سَمِعْتُ

---

[1] Burada "valideynlərin duası" deyildikdə, övladın istər lehinə, istərsə də əleyhinə olan dua nəzərdə tutulur. Odur ki, övlad hər bir xeyirxah işdə valideynlərinin xeyir-duasına nail olmaq üçün çalışmalı, habelə, onların bədduasına səbəb olacaq əməllərdən çəkinməlidir.

[2] Məzlum barədə varid olmuş digər bir hədisdə deyilir ki, Peyğəmbər ﷺ Muazı ﷺ Yəmənə göndərərkən, ona belə buyurmuşdur: "Məzlumun bədduasından çəkin. Çünki bu dua ilə Allah arasında heç bir pərdə yoxdur" (Səhih əl-Buxari, 1496).

[3] Hədislərin birində Rəsulullah ﷺ uzaq səfərə çıxmış, saçları dağınıq, üst-başı toz-torpaq içində olan, əllərini də göyə uzadıb "Ya Rəbb! Ya Rəbb!" – deyə dua edən kişini misal çəkir (Sunən ət-Tirmizi, 2989; Səhih əl-Cami, 2744). Diqqət edin, bu hədisdə Peyğəmbər ﷺ duanın qəbul olunması üçün səbəb olan dörd amili qeyd edir: uzunmüddətli səfər, təvazökar olmaq, əlləri göyə qaldırmaq və təkrar-təkrar Rəbbinə dua etmək. Demək, uzaq səfərə çıxmaq duanın qəbul olunması üçün səbəbdir, ələlxüsus da həcc və ümrə səfərləri.

[4] Başqa bir hədisdə "Valideynin övladının lehinə etdiyi dua"– rəvayət olunur. Yəni valideynin övladının istər lehinə, istər əleyhinə etdiyi dua qəbul olur.

[5] Bu hədisi Əbu Davud (1536), Nəsai (8293), Tirmizi (2029), İbn Macə (3862), Əhməd (2/258) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən" olduğunu demişdir.

رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَا تَكَلَّمَ مَوْلُودٌ مِنَ النَّاسِ فِي مَهْدٍ إِلاَّ عِيسَى ابْنُ مَرْيَمَ ﷺ، وَصَاحِبُ جُرَيْجٍ))، قِيلَ: يَا نَبِيَّ اللَّهِ، وَمَا صَاحِبُ جُرَيْجٍ؟ قَالَ: ((فَإِنَّ جُرَيْجًا كَانَ رَجُلاً رَاهِبًا فِي صَوْمَعَةٍ لَهُ، وَكَانَ رَاعِيَ بَقَرٍ يَأْوِي إِلَى أَسْفَلِ صَوْمَعَتِهِ، وَكَانَتِ امْرَأَةٌ مِنْ أَهْلِ الْقَرْيَةِ تَخْتَلِفُ إِلَى الرَّاعِي، فَأَتَتْ أُمُّهُ يَوْمًا فَقَالَتْ: يَا جُرَيْجُ، وَهُوَ يُصَلِّي، فَقَالَ فِي نَفْسِهِ وَهُوَ يُصَلِّي: أُمِّي وَصَلاَتِي؟ فَرَأَى أَنْ يُؤْثِرَ صَلاَتَهُ، ثُمَّ صَرَخَتْ بِهِ الثَّانِيَةَ، فَقَالَ فِي نَفْسِهِ: أُمِّي وَصَلاَتِي؟ فَرَأَى أَنْ يُؤْثِرَ صَلاَتَهُ، ثُمَّ صَرَخَتْ بِهِ الثَّالِثَةَ، فَقَالَ: أُمِّي وَصَلاَتِي؟ فَرَأَى أَنْ يُؤْثِرَ صَلاَتَهُ، فَلَمَّا لَمْ يُجِبْهَا قَالَتْ: لاَ أَمَاتَكَ اللَّهُ يَا جُرَيْجُ حَتَّى تَنْظُرَ فِي وَجْهِ الْمُومِسَاتِ، ثُمَّ انْصَرَفَتْ. فَأُتِيَ الْمَلِكُ بِتِلْكَ الْمَرْأَةِ وَلَدَتْ، فَقَالَ: مِمَّنْ؟ قَالَتْ: مِنْ جُرَيْجٍ، قَالَ: أَصَاحِبُ الصَّوْمَعَةِ؟ قَالَتْ: نَعَمْ، قَالَ: اهْدِمُوا صَوْمَعَتَهُ، وَأْتُونِي بِهِ، فَضَرَبُوا صَوْمَعَتَهُ بِالْفُئُوسِ حَتَّى وَقَعَتْ. فَجَعَلُوا يَدَهُ إِلَى عُنُقِهِ بِحَبْلٍ، ثُمَّ انْطُلِقَ بِهِ، فَمُرَّ بِهِ عَلَى الْمُومِسَاتِ، فَرَآهُنَّ فَتَبَسَّمَ، وَهُنَّ يَنْظُرْنَ إِلَيْهِ فِي النَّاسِ، فَقَالَ الْمَلِكُ: مَا تَزْعُمُ هَذِهِ؟ قَالَ: مَا تَزْعُمُ؟ قَالَ: تَزْعُمُ أَنَّ وَلَدَهَا مِنْكَ، قَالَ: أَنْتِ تَزْعُمِينَ؟ قَالَتْ: نَعَمْ، قَالَ: أَيْنَ هَذَا الصَّغِيرُ؟ قَالُوا: هَذا فِي حِجْرِهَا، فَأَقْبَلَ عَلَيْهِ فَقَالَ: مَنْ أَبُوكَ؟ قَالَ: رَاعِي الْبَقَرِ. قَالَ الْمَلِكُ: أَنَجْعَلُ صَوْمَعَتَكَ مِنْ ذَهَبٍ؟ قَالَ: لاَ، قَالَ: مِنْ فِضَّةٍ؟ قَالَ: لاَ، قَالَ: فَمَا نَجْعَلُهَا؟ قَالَ: رُدُّوهَا كَمَا كَانَتْ، قَالَ: فَمَا الَّذِي تَبَسَّمْتَ؟ قَالَ: أَمْرًا عَرَفْتُهُ، أَدْرَكَتْنِي دَعْوَةُ أُمِّي، ثُمَّ أَخْبَرَهُمْ)).

**(33)** ........ Əbu Hureyrə ﵁ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Südəmər körpələrdən beşikdə ikən, ancaq Məryəm oğlu İsa[1] ﷺ və Cureycin dindirdiyi (körpə) danışmışdır."[2] (Səhabələr) soruşdular:

---

[1] Məryəm oğlu İsanın beşikdə ikən danışması barədə Uca Allah belə buyurur: **"*Məryəm* körpəni qucağına alıb öz tayfasının yanına gətirdi. Onlar dedilər: "Ey Məryəm, sən yaramaz bir iş tutdun. Ey Harunun bacısı, atan pis kişi, anan da pozğun deyildi." *Məryəm* körpəyə işarə etdi. Onlar dedilər: "Beşikdə olan körpə ilə necə danışaq?" *Körpə dil açıb* dedi: "Mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də *məni* anama qarşı qayğıkeş *etdi*; məni lovğa və bədbəxt etmədi. Doğulduğum gün də, öləcəyim gün də, yenidən diriləcəyim gün də mənə salam olsun!"** (Məryəm, 27-34).

[2] Buxarinin rəvayətində "beşikdə olan körpələrdən yalnız üçü danışmışdır"– deyilir. Burada ancaq İsrail oğullarından olan körpələr nəzərdə tutulur. Üçüncüsü barədə Pey-

"Ey Allahın peyğəmbəri, Cureycin dindirdiyi (körpə) kimdir?" O, dedi: "Cureyc öz komasında[1] ibadətlə məşğul olan abid bir adam idi. O vaxtlar mal-qara otaran naxırçı onun komasının aşağı tərəfinə gələr, kənd sakinlərindən olan (pozğun) bir qadın da həmin naxırçı ilə yaxınlıq edərdi.[2] Bir gün Cureycin anası gəlib: "Ey Cureyc!"– deyə onu çağırdı. Bu vaxt o namaz qılırdı. Odur ki, namazda ikən öz-özünə: "Anammı, ya namazmı?"– dedi, sonra da namazı (anasına cavab verməkdən) üstün tutdu. Anası ikinci dəfə onu çağırdı. Amma o, yenə öz-özünə: "Anammı, ya namazmı?"– dedi, sonra da namazı üstün tutdu. Anası üçüncü dəfə onu çağırdı. O, yenə öz-özünə: "Anammı, ya namazmı?"– dedi, sonra da namazı üstün tutdu. Anası onun cavab vermədiyini görüb: "Ey Cureyc, pozğun qadınların üzünə baxmayınca, Allah sənin canını almasın!"– dedi, sonra da çıxıb getdi.[3] (Naxırçı ilə yaxınlıq etmiş) o qadını (zinadan doğulmuş) körpəsi ilə birgə padşahın yanına gətirdilər. Padşah soruşdu: "(Uşaq) kimdəndir?" Qadın: "Cureycdəndir!"– deyə cavab verdi. Padşah yenə soruşdu: "Komanın sahibimi?" Qadın: "Bəli!"– deyə cavab verdi. Padşah dedi: "Onun komasını dağıdın, özünü də yanıma gətirin!" (Padşahın adamları) onun komasını baltalayıb, yerlə-yeksan etdilər.

---

ğəmbər ﷺ demişdir: "*O ki qaldı, üçüncü körpəyə,* İsrail oğullarından olan bir qadın öz uşağını əmizdirərkən, yaraşıqlı bir atlı onun yanından keçdi. Uşağın anası *atlını görüb* dedi: "Allahım, mənim oğlumu da bunun kimi et!" Bu vaxt uşaq anasının döşünü buraxıb, atlıya tərəf üz tutdu və dedi: "Allahım, məni onun kimi etmə!" Sonra bir kəniz oradan keçdi və uşağın anası dedi: "Allahım, mənim oğlumu bunun kimi etmə!" Bu vaxt uşaq anasının döşünü buraxıb dedi: "Allahım, məni onun kimi et!" Sonra yenə anasının döşünü əmməyə başladı. Anası dedi: "Niyə belə?" Uşaq dedi: "O atlı qəddar adamlardan biridir. Bu kəniz barəsində isə "O zina edib, oğurluq edib"– deyirlər, halbuki, o, belə bir iş tutmayıb" (Səhih əl-Buxari, 3436; Səhih Muslim, 2550).

[1] Burada "koma" deyildikdə, ayrıca ibadət etmək üçün tikilmiş daxma qəsd edilir.

[2] Buxarinin "Səhih"indəki hədisdə deyilir ki, bir dəfə Cureyc öz komasında ikən həmin pozğun qadın gəlib onu yoldan çıxartmaq istəyir, lakin o imtina edir. Belə olduqda qadın çobanın yanına gedib onunla yaxınlıq edir, sonra da ondan dünyaya uşaq gətirir.

[3] Bu, dəlildir ki, valideyn adamı çağırdığı zaman, hətta namazı belə tərk edib onun çağırışına cavab vermək vacibdir. Bir şərtlə ki, bu, fərz namazı olmasın. Belə ki, zəruri hallar istisna olmaqla, heç bir halda fərz namazından çıxmaq olmaz.

Özünün də əllərini kəndirlə boynuna bağlayıb (padşahın yanına) apardılar. Cureyc zinakar qadınların yanından keçərkən onları görüb gülümsədi.[1] Onlar da camaatın arasından ona baxırdılar. Padşah dedi: "Bilirsən, bu qadın nə iddia edir?" Cureyc soruşdu: "Nə iddia edir ki?" Padşah dedi: "İddia edir ki, uşağı səndəndir." Cureyc (qadından) soruşdu: "Doğrudanmı, sən (belə) iddia edirsən?" Qadın: "Bəli!"– deyə cavab verdi. Cureyc soruşdu: "O körpə haradadır?" Dedilər: "Budur, qadının qucağında!" Cureyc ona yaxınlaşıb soruşdu:[2] "Atan kimdir?" (Körpə): "Naxırçıdır!"– deyə cavab verdi.[3] Padşah (Cureycin təqsiri olmadığını

---

[1] Həmin vaxt Cureyc öz komasının nə səbəbdən dağıdıldığını və nə üçün əl-qolunun kəndirlənib padşahın yanına aparıldığını bilmirdi. Lakin pozğun qadınların bir yerə yığışıb onun üzünə baxdıqlarını gördükdə anasının duasının qəbul olunduğunu başa düşdü.

[2] Digər hədisdə deyilir: "Cureyc dəstəmaz alıb namaz qıldı, sonra da dünyaya gəlmiş körpənin yanına gəlib dedi: "Atan kimdir, ay uşaq?" (Səhih əl-Buxari, 3436). Diqqət edin, Cureyc başına müsibət gəldiyi zaman namaz qıldı. Uca Allah möminlərə belə buyurur: **"Səbir etmək və namaz qılmaqla *Allahdan* kömək diləyin! Həqiqətən, bu, *Allaha* itaət edənlərdən başqa *hamıya* ağır gəlir"** (əl-Bəqərə, 45).

[3] Yenicə dünyaya gəlmiş körpənin dil açıb danışması, əlbəttə ki, möcüzədir. Möminlər iman gətirirlər ki, hər şeyə qadir olan Allah nəinki beşikdəki körpəni, hətta cansız olanları belə danışdırmağa qadirdir. Uca Allah buyurur: **"Yer titrəyib lərzəyə gələcəyi zaman, yer öz yükünü bayıra atacağı və insan: "Ona nə olub?"– deyəcəyi zaman – həmin gün yer öz əhvalatlarını danışacaqdır. Çünki Rəbbin ona vəhy edəcəkdir"** (Zəlzələ, 1-5); həmçinin, O, buyurur: **"Allaha düşmən kəsilənlər Cəhənnəmə *sürüklənib* toplanılacaqları günə qədər *bir yerdə* saxlanacaqlar. Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir. Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şahidlik edirsiniz?"– deyəcəklər. *Dəriləri* deyəcək: "Hər şeyi danışdıran Allah bizi danışdırdı"** (Fussilət, 19-21). Hədisdə isə Peyğəmbər ﷺ demişdir: "*Bir dəfə* Cənnətlə Cəhənnəm höcətləşdi. Cəhənnəm dedi: "Mən *məxsusi olaraq* inadkarlardan və təkəbbürlülərdən ötrü yaradılmışam." Cənnət dedi: "Nəyə görə, mənə ancaq zəif və aciz *görünən* adamlar daxil olmalıdır?" Onda Uca Allah Cənnətə buyurdu: "Sən Mənim rəhmətimsən, Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə rəhm edərəm." Sonra Cəhənnəmə buyurdu: "Sən də Mənim əzabımsan, Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə əzab verirəm." Onların hər biri *kifayət qədər insan və cinlə* doldurulacaq. Cəhənnəm ancaq o zaman dolacaq ki, Allah Öz Ayağını onun üstünə qoyacaq və o: "Yetər, yetər!"– deyəcək. Onda o, artıq dolacaq və

anlayıb) dedi: "Sənə qızıldan koma düzəldəkmi?" O: "Xeyr!"– deyə cavab verdi. Padşah dedi: "Bəs gümüşdən necə?" O, yenə: "Xeyr!"– deyə cavab verdi. Padşah dedi: "Bəs necə edək?" O, dedi: "Onu əvvəlki şəklinə qaytarın!"[1] Padşah soruşdu: "Bəs nə üçün gülümsədin?" Cureyc: "Bildiyim bir şeyə gülümsədim, anamın duası mənə yetişdi"[2]– dedi, sonra da (başına gələni) onlara danışdı."[3]

---

*içindəkiləri* qaplayacaq. Allah ﷻ Öz qullarından heç kəsə zülm etməz. Cənnətə gəlincə, Allah ﷻ onun *dolması* üçün başqa varlıqlar yaradacaq" (Səhih əl-Buxari, 4850).

[1] Cureycin belə cavab verməsi onun nə dərəcədə zahid və abid insan olduğuna dəlalət edir. Belə ki, o, Allahın ona bəxş etdiyi kəramət müqabilində nə qövmünün onu şişirtməyinə, nə də ki bu fəziləti dünya malına dəyişməyə razı olur, əksinə, öz sadəliyində qalmağa üstünlük verir.

[2] Bu, ananın övladına etdiyi duanın qəbul olunmasına dəlalət edir.

[3] Bu hədisi Buxari (3436) və Əhməd (2/307) rəvayət etmişdir.

## ١٨– بَابُ عَرْضِ الإِسْلاَمِ عَلَى الأُمِّ النَّصْرَانِيَّةِ

## 18-ci fəsil. Xristian anaya İslam dinini bəyan etmək[1]

٣٤– حَدَّثَنَا أَبُو الْوَلِيدِ هِشَامُ بْنُ عَبْدِ الْمَلِكِ قَالَ: حَدَّثَنَا عِكْرِمَةُ بْنُ عَمَّارٍ قَالَ: حَدَّثَنِي أَبُو كَثِيرٍ السُّحَيْمِيُّ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: مَا سَمِعَ بِي أَحَدٌ، يَهُودِيٌّ وَلاَ نَصْرَانِيٌّ، إِلاَّ أَحَبَّنِي، إِنَّ أُمِّي كُنْتُ أُرِيدُهَا عَلَى الإِسْلاَمِ فَتَأْبَى، فَقُلْتُ لَهَا، فَأَبَتْ، فَأَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: ادْعُ اللَّهَ لَهَا، فَدَعَا، فَأَتَيْتُهَا، وَقَدْ أَجَافَتْ عَلَيْهَا الْبَابَ، فَقَالَتْ: يَا أَبَا هُرَيْرَةَ، إِنِّي أَسْلَمْتُ، فَأَخْبَرْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: ادْعُ اللَّهَ لِي وَلأُمِّي، فَقَالَ: ((اللَّهُمَّ، عَبْدُكَ أَبُو هُرَيْرَةَ وَأُمُّهُ، أَحِبَّهُمَا إِلَى النَّاسِ)).

**(34)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Mənim barəmdə eşidən elə bir yəhudi, yaxud nəsrani yoxdur ki, məni sevməsin. (Bir zaman) mən anamı İslam dininə dəvət edirdim, o isə, bunu rədd edirdi. Bir gün yenə dəvətimi rədd etdi və mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Anam üçün Allaha dua et."[2] O da dua etdi. Sonra mən anamın yanına qayıtdım. Anam qapını

---

[1] Burada "xristian" deyildikdə təkcə xristian deyil, ümumiyyətlə, müsəlman olmayan valideyn nəzərdə tutulur. Hətta valideyn bidətçi olsa belə, onunla bu cür davranmaq, yəni son nəfəsinədək onu hikmətlə haqqa dəvət etmək və daim onun üçün Allahdan hidayət diləmək gərəkdir. Onu da qedy edək ki, bu fəslin ünvanından və fəsildə keçən hədisdən aydın olur ki, Əbu Hureyrənin ﷺ anası İslamdan əvvəl xristian olmuşdur.

[2] Bu hədisdən aydın başa düşülür ki, Əbu Hureyrə ﷺ anasının müsəlman olması üçün əsas iki şeyə diqqət yetirir – vaxtaşırı olaraq anasını İslama dəvət edir, onun müsəlman olacağına ümid edir və bir də Peyğəmbərdən ﷺ onun üçün dua etməsini xahiş edir. Yəni dəvət və dua. Demək, bir kimsənin, xüsusən də valideynin müsəlman olması üçün təmkinlə dəvət etmək və həmin adamın düz yola gəlməsi üçün Allahdan hidayət diləmək gərəkdir. Çünki hidayət Allahın Əlindədir. Uca Allah bu xüsusda buyurur: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları da daha yaxşı tanıyır"** (əl-Qəsəs, 56). Həqiqətən də, Allah istədiyi bəndəsinə dilədiyi zaman hidayət verir, dilədiyini də istədiyi vaxt haqq yoldan çıxarır. Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bu xüsusda demişdir: "Həqiqətən, içinizdən bir kimsə o qədər yaxşı işlər görə bilər ki, axırda onunla Cənnət arasında bir ərəş məsafə qalar. Lakin əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cəhənnəm əhlinin əməlinə bənzər əməllər edər, *sonra ora daxil olar. Həmçinin,* biriniz o

üzümə bağlamışdı. O: "Ey Əbu Hureyrə, mən müsəlman oldum"– dedi. Mən bunu Peyğəmbərə ﷺ xəbər verdikdən sonra dedim: "Mənim üçün də, anam üçün də Allaha dua et." O da dua edib dedi: "Allahım, qulun Əbu Hureyrəni və onun anasını insanlara sevdir!"[1]

qədər pis işlər görər ki, axırda onunla Cəhənnəm arasında bir ərəş məsafə qalar. Lakin əzəldən yazılmış qədəri onu qabaqlayar və o, Cənnət əhlinin əməlinə bənzər əməllər edər, *sonra ora daxil olar*" (Səhih əl-Buxari, 3208).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir. İmam Muslimin "Səhih"ində (6551) bu hədis daha ətraflı rəvayət edilir. Həmin hədisdə Əbu Hureyrə ﷺ demişdir: "Mən müşrik anamı İslama dəvət edirdim. Yenə bir gün onu *müsəlman olmağa* dəvət etdikdə, Rəsulullah ﷺ barədə xoşagəlməz sözlər dedi. Mən ağlaya-ağlaya Rəsulullahın ﷺ yanına gəlib dedim: "Ya Rəsulullah, mən anamı İslama dəvət edirdim, o da, bunu rədd edirdi. Nəhayət, bu gün onu dəvət etdikdə, sənin barəndə nalayiq sözlər söylədi. Allaha dua et ki, Əbu Hureyrənin anasına hidayət versin." Onda, Rəsulullah ﷺ dua edib dedi: "Allahım, Əbu Hureyrənin anasına hidayət ver!" Mən Allahın peyğəmbərinin ﷺ bu duasına sevinərək dərhal evə qayıtdım. Evin qapısına çatdıqda onun bağlı olduğunu gördüm. Elə bu vaxt anamın ayaq səslərini eşitdim. Mənə: "Yerində dur, ey Əbu Hureyrə!"– dedi. Qulağıma su səsi dəydi. Anam qüsl edib hicabını geydikdən sonra qapını açıb dedi: "Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rəsuluhu." Mən sevincimdən ağlaya-ağlaya Rəsulullahın ﷺ yanına gəlib dedim: "Ya Rəsulullah, sevin, Allah sənin duanı qəbul etdi və Əbu Hureyrənin anasına hidayət verdi." Rəsulullah ﷺ Allaha həmd-sənalar etdi və Ona tariflər dedi. Mən dedim "Ya Rəsulullah, Allaha dua et ki, Əbu Hureyrəni və onun anasını möminlərə, möminləri də bizə sevdirsin!" Rəsulullah ﷺ dua edib dedi: "Allahım, bu qulunu və onun anasını mömin qullarına, möminləri də onlara sevdir!" Odur ki, mənim barəmdə eşidən və məni görən elə bir mömin yoxdur ki, məni sevməsin."

## ١٩ – بَابُ بِرِّ الْوَالِدَيْنِ بَعْدَ مَوْتِهِمَا

## 19-cu fəsil. Valideynlərin vəfatından sonra belə, onların qeydinə qalmaq[1]

٣٥– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ الْغَسِيلِ قَالَ: أَخْبَرَنِي أَسِيْدُ بْنُ عَلِيِّ بْنِ عُبَيْدٍ، عَنْ أَبِيهِ، أَنَّهُ سَمِعَ أَبَا أُسَيْدٍ يُحَدِّثُ الْقَوْمَ قَالَ: كُنَّا عِنْدَ النَّبِيِّ ﷺ فَقَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ، هَلْ بَقِيَ مِنْ بِرِّ أَبَوَيَّ شَيْءٌ بَعْدَ مَوْتِهِمَا أَبَرُّهُمَا؟ قَالَ: ((نَعَمْ، خِصَالٌ أَرْبَعٌ: الدُّعَاءُ لَهُمَا، وَالاِسْتِغْفَارُ لَهُمَا، وَإِنْفَاذُ عَهْدِهِمَا، وَإِكْرَامُ صَدِيقِهِمَا، وَصِلَةُ الرَّحِمِ الَّتِي لاَ رَحِمَ لَكَ إِلاَّ مِنْ قِبَلِهِمَا)).

**(35)** ........ Əbu Useyd[2] ؓ camaata belə rəvayət etmişdir: "Biz Peyğəmbərin ﷺ yanında ikən bir nəfər soruşdu: "Ya Rəsulullah, valideynlərimin vəfatından sonra onlar üçün edə biləcəyim hər hansı bir yaxşılıq qalıbmı?" Peyğəmbər ﷺ buyurdu: "Bəli, dörd xislət (qalıb): onlar üçün dua etmək və onların bağışlanmasını diləmək,[3] onların verdiyi əhdi yerinə yetirmək,[4] on-

---

[1] Bu, o deməkdir ki, ata-ana vəfat etdikdən sonra belə onların qeydinə qalmaq və onların savabının artması üçün xeyirxahlıqlar etmək mümkündür. Bu fəsildəki hədislər də elə buna dəlalət edir.

[2] Malik ibn Rabiə ibn Bədən əs-Saidi əl-Ənsari ؓ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 110-cu tərcümeyi-hal).

[3] Yəni onların günahlarının bağışlanmasını diləmək, Allahın onlardan razı qalmasını və onlara rəhm etməsini, habelə, onların Cəhənnəm əzabından qurtulmasını, Cənnətə daxil olmasını Allahdan istəmək.

[4] Yəni vəsiyyət etsələr, onların vəsiyyətini yerinə yetirmək. Buna İmam Buxarinin rəvayət etdiyi hədisi misal göstərmək olar. Həmin hədisdə Aişə ؓ rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ soruşdu: "Anam qəfil vəfat etdi. Güman edirəm ki, əgər o danışmağa macal tapsaydı, *malından* sədəqə verməyi vəsiyyət edərdi. Əgər mən onun əvəzinə sədəqə versəm, *bundan ona* savab çatarmı?" Peyğəmbər ﷺ: "Bəli!"– deyə cavab verdi (Səhih əl-Buxari, 1388). Lakin qeyd etmək lazımdır ki, əgər validеyn günah sayılan bir işi yerinə yetirməyi vəsiyyət edərsə, bu vəsiyyəti yerinə yetirmək qadağandır. Bu xüsusda, Uca Allah buyurur: **"Kim də vəsiyyət edənin haqsızlıq etməsindən və ya günah işlətməsindən ehtiyat edib *tərəflərin* arasını düzəldərsə, ona heç bir günah olmaz"** (əl-Bəqərə, 182).

ların dostuna yaxşılıq etmək[1] və onlar tərəfdən olan qohumlarla əlaqələri möhkəmləndirmək."[2]

**٣٦-** حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ، عَنْ عَاصِمٍ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: تُرْفَعُ لِلْمَيِّتِ بَعْدَ مَوْتِهِ دَرَجَتُهُ. فَيَقُولُ: أَيْ رَبِّ، أَيُّ شَيْءٍ هَذِهِ؟ فَيُقَالُ: ((وَلَدُكَ اسْتَغْفَرَ لَكَ)).

**(36)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Ölən adamın dərəcəsi onun vəfatından sonra yüksələr[3] və o: "Ey Rəbbim, bu, nəyə görədir?"– deyə soruşar." (Cavabında ona): "Övladın sənin üçün bağışlanma diləmişdir"– deyilər."[4]

**٣٧-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا سَلاَّمُ بْنُ أَبِي مُطِيعٍ، عَنْ غَالِبٍ قَالَ: قَالَ مُحَمَّدُ بْنُ سِيرِينَ: كُنَّا عِنْدَ أَبِي هُرَيْرَةَ لَيْلَةً، فَقَالَ: ((اللَّهُمَّ اغْفِرْ لأَبِي هُرَيْرَةَ، وَلأُمِّي، وَلِمَنِ اسْتَغْفَرَ لَهُمَا)).
قَالَ لِي مُحَمَّدٌ : فَنَحْنُ نَسْتَغْفِرُ لَهُمَا حَتَّى نَدْخُلَ فِي دَعْوَةِ أَبِي هُرَيْرَةَ.

**(37)** ........ Ğalib rəvayət edir ki, Muhəmməd ibn Sirin demişdir: "Bir gecə biz Əbu Hureyrənin yanında ikən, o, dedi: "Allahım, Əbu Hureyrəni, onun anasını[5] və onlar üçün bağışlanma diləyən kimsələri bağışla!"

---

[1] 20-ci fəsildəki hədislərə və onların şərhinə bax. Ümumiyyətlə, dünyasını dəyişmiş adamın dostlarına yaxşılıq etmək Peyğəmbərin ﷺ etdiyi əməllərdəndir. İmam Buxarinin rəvayət etdiyi hədisdə (3818) Aişə ﷺ demişdir: "Mən Xədicəyə ﷺ qısqandığım qədər Peyğəmbərin ﷺ zövcələrindən heç birinə qısqanmamışam. Hərçənd, mən onu heç görməmişdim, lakin Peyğəmbər ﷺ çox tez-tez onu yad edərdi. Olurdu ki, Peyğəmbər ﷺ qoç kəsib onu hissələrə bölər, sonra da onları Xədicənin rəfiqələrinə göndərərdi..."

[2] Bu hədisi Əbu Davud (5142) və Hakim (7260) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisid-Daifə" əsərində (597) bu hədisin "zəif" olduğunu bildirib demişdir: "İsnadı zəifdir. İsnaddakı ravilərin hamısı etibarlı ravilərdir. Yalnız Əbu Əsidin mövlası Əlidən başqa. İbn Hibbandan başqa heç kəs onu etibarlı ravi hesab etməmiş, üstəlik, oğlu Əsiddən başqa heç kəs ondan hədis rəvayət etməmişdir. Odur ki, Zəhəbi onun barəsində "Kim olduğu bilinmir"– demişdir."

[3] Bu, dəlildir ki, övladın valideyni üçün etdiyi dua valideynin günahlarının bağışlanması və savabının artması üçün səbəb olub onun dərəcəsini yüksəldir. Bu da, valideyn üçün dua etməyin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübuta yetirir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[5] Belə dua etməyin böyük savabı vardır. Çünki burada Əbu Hureyrə ﷺ onlar üçün bağışlanma diləyən hər bir müsəlman üçün bağışlanma diləyir. Bu xüsusda isə Rəsulullah ﷺ belə buyurmuşdur: "Kim mömin kişilər və mömin qadınlar üçün *Allahdan* bağışlan-

Muhəmməd (ibn Sirin) mənə dedi: "Biz onlar üçün bağışlanma dilədik ki, Əbu Hureyrənin duası bizə də yetişsin.[1]"[2]

٣٨– حَدَّثَنَا أَبُو الرَّبِيعِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ قَالَ: أَخْبَرَنَا الْعَلاَءُ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا مَاتَ الْعَبْدُ انْقَطَعَ عَنْهُ عَمَلُهُ إِلاَّ مِنْ ثَلاَثٍ: صَدَقَةٍ جَارِيَةٍ، أَوْ عِلْمٍ يُنْتَفَعُ بِهِ، أَوْ وَلَدٍ صَالِحٍ يَدْعُو لَهُ)).

**(38)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bəndə ölən kimi onun bütün əməlləri dayanır. Yalnız üç şeydən başqa: davam-

---

ma diləyərsə, hər bir mömünə görə ona bir savab yazılar" (Mocəm ət-Təbərani, 10970; Səhih əl-Cami, 6026). Deməli, biz hər dəfə "Allahım, mömin kişiləri və mömin qadınları bağışla!"– deyəndə, bu dünyadan köçmüş, habelə, həyatda olan möminlərin sayı qədər bizə savab yazılır. Odur ki, yadınıza düşdükcə deyin: "**Allahummə-ğfir lil-musliminə vəl muslimat, vəl-mumininə vəl-muminat, əl-əhyaə minhum vəl-əmvat** (Allahım, müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və mömin qadınları, onlardan həyatda olanları və ölüb gedənləri bağışla!)" Bəzən Rəsulullah ﷺ bir adam üçün cənazə namazı qılar, lakin savabın çox olması üçün cəm şəklində dua edib deyərdi: "**Allahummə-ğfir liheyyinə və meyyitinə və şahidinə və ğaibinə və səğirinə və kəbirinə və zəkərinə və unsanə. Allahummə, mən əhyəytəhu minnə fə əhyihi aləl-islam və mən təvəffəytəhu minnə fətəvəffəhu aləl-iman** (Allahım! Dirimizi və ölümüzü, burada olanımızı və olmayanımızı, kiçiyimizi və böyüyümüzü, kişimizi və qadınımızı bağışla! Allahım! Bizdən kimi yaşatsan, müsəlman kimi yaşat və kimi öldürsən, mömin kimi öldür!)" (Sunən İbn Macə 1/480; Səhih İbn Macə, 1/251). Həmçinin, möminlər üçün Quran ayəsi vasitəsilə də dua etmək olar. Uca Allah Quranda belə buyurur: ***"Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10).

[1] Burada Muhəmməd ibn Sirin "Biz onlar üçün bağışlanma dilədik ki, Əbu Hureyrənin duası bizə də yetişsin"– deyir. Biz də həmçinin, dua edib deyirik: "Ğəfəra-Allahu li Əbi Hureyrətə və li ummihi, və li cəmiil-musliminə vəl-muslimat, vəl-mumininə vəl-muminat, əl-əhyai minhum vəl-əmvat (Allah Əbu Hureyrəni və onun anasını, habelə, müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və mömin qadınları, onlardan həyatda olanları və ölüb gedənləri bağışlasın!)"

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

lı sədəqə, yaxud fayda verən elm,[1] yaxud da onun üçün dua edən əməli-saleh övlad.[2]"[3]

**٣٩-** حَدَّثَنَا يَسَرَةُ بْنُ صَفْوَانَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ مُسْلِمٍ، عَنْ عَمْرٍو، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَجُلاً قَالَ: يَا رَسُولَ اللَّهِ، إِنَّ أُمِّي تُوُفِّيَتْ وَلَمْ تُوصِ، أَفَيَنْفَعُهَا أَنْ أَتَصَدَّقَ عَنْهَا؟ قَالَ: ((نَعَمْ)).

**(39)** ........ İbn Abbas ﵄ rəvayət edir ki, bir nəfər (Peyğəmbərdən ﷺ): "Ya Rəsulullah, anam vəfat etmiş və heç nə vəsiyyət etməmişdir. Anamın əvəzinə sədəqə verməyim ona fayda verərmi?"[4]– deyə soruşdu. Peyğəmbər ﷺ: "Bəli"[5]– deyə cavab verdi.[6]

---

[1] Burada "davamlı sədəqə" deyildikdə, yol çəkmək, yetimlər üçün ev tikmək, su quyusu qazmaq və s. "Fayda verən elm" deyildikdə isə özündən sonra faydalı elmi yaymaq üçün tələbə və ya kitab yaxud başqa bir vasitə qoyub getmək nəzərdə tutulur.

[2] Demək, insan elə işlər görə bilər ki, ölüb getdikdən sonra belə o əməlinin savabını qazana bilər. Bu da, hər kəsə nəsib olmur. Yalnız Allahın xeyir qazanmağa müvəffəq etdiyi kimsə xeyir qazana bilər. Başda peyğəmbərlər olmaqla əməlisaleh insanlar hər zaman dillər əzbəri olmuşlar. Hər kim xeyirxah işlər görüb dillər əzbəri olmaq istəyirsə, Muhəmməd səllallahu aleyhi və səlləmin yolunu tutub getsin, habelə, İbrahim aleyhissəlam dua etdiyi kimi dua edib buna müvəffəq olmağı diləsin: **"Rabbi həb li hukmən və əlhiqni bis-salihin. Vəc-al li lisanə sidqin fil-axirin. Vəc-alni min vərəsəti cənnətin-Nəim! (Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında *həmişə yad edilim deyə* mənə yaxşı ad qismət elə! Məni Nəim bağının varislərindən et!)"** (əş-Şuəra, 83-85).

[3] Bu hədisi Muslim (4310), Əbu Davud (2880), Tirmizi (1432), Nəsai (3651) və Əhməd (2/372) rəvayət etmişdir.

[4] 378-ci hədisin qeydlərinə bax.

[5] Bu, dəlildir ki, valideynin adından sədəqə vermək onun savablarını artırır və bu əməl onun qeydinə qalmağa aid edilir. Həmçinin, onların yerinə həcc və ümrə ziyarətlərini yerinə yetirmək də bu qəbildəndir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٠- بَابُ بِرِّ مَنْ كَانَ يَصِلُهُ أَبُوهُ

## 20-ci fəsil. Atanın dostluq etdiyi kimsələrlə əlaqə saxlamaq[1]

٤٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ، عَنْ خَالِدِ بْنِ يَزِيدَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنِ ابْنِ عُمَرَ: مَرَّ أَعْرَابِيٌّ فِي سَفَرٍ، فَكَانَ أَبُو الأَعْرَابِيِّ صَدِيقًا لِعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ، فَقَالَ لِلأَعْرَابِيِّ: أَلَسْتَ ابْنَ فُلاَنٍ؟ قَالَ: بَلَى، فَأَمَرَ لَهُ ابْنُ عُمَرَ بِحِمَارٍ كَانَ يَسْتَعْقِبُ، وَنَزَعَ عِمَامَتَهُ عَنْ رَأْسِهِ فَأَعْطَاهُ. فَقَالَ بَعْضُ مَنْ مَعَهُ: أَمَا يَكْفِيهِ دِرْهَمَانِ؟ فَقَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((احْفَظْ وُدَّ أَبِيكَ، لاَ تَقْطَعْهُ، فَيُطْفِئَ اللَّهُ نُورَكَ)).

**(40)** ........ İbn Ömər ﵄ rəvayət edir ki, səfərdə ikən bir bədəvi ərəbə rast gəldi. Bədəvinin atası Ömərin ﵁ dostu olmuşdu. İbn Ömər bədəvidən: "Sən filankəsin oğlu deyilsənmi?"– deyə soruşdu.[2] O: "Bəli"– deyə cavab verdi. Onda İbn Ömər əmr etdi ki, ehtiyat üçün saxlanılan uzunqulağı ona versinlər. Üstəlik, əmmaməsini də başından çıxardıb ona verdi. İbn Ömərin yanında olanlardan bəziləri dedilər: "Ona iki dirhəm bəs etməzdimi?" İbn Ömər dedi: "Peyğəmbər ﷺ demişdir: "Atanın dostu ilə isti münasibət saxla, onunla əlaqəni kəsmə ki, Allah da sənin nurunu söndürməsin."[3]

---

[1] Atanın dostları ilə əlaqə saxlamaq, onların üzünə təbəssüm etmək, onlarla gözəl rəftar etmək, yeri gəldikdə, onlara hədiyyə vermək və başqa bu kimi yaxşılıqları etmək valideynin qayğısına qalmağa aid edilir. Yəni onlara yaxşılıq edən kimsə, atasına yaxşılıq etmiş sayılır. Qeyd etmək lazımdır ki, ananın rəfiqələrinə, habelə, onların övladlarına və digər əqrəbalarına yaxşılıq etmək də buna şamil edilir.

[2] İbn Ömərin ﵄ sualından açıq-aydın görünür ki, o, atasının dostları ilə əlaqə saxlayırmış. Belə ki, adam birisi ilə mütəmadi olaraq əlaqə saxladıqda onun yaxınlarını da tanıyır. İbn Ömərin ﵄, Ömər ibn Xattabın ﵁ dostunun oğlunu tanıması, onun atası ilə əlaqə saxladığına dəlalət edir.

[3] Bu hədisin isnadında keçən Abdullah ibn Saleh "hafizəsi zəif" olan ravidir. Elə bu səbəbdən də, bu hədisin isnadı "zəif" hesab edilir. Lakin bu hadisənin özü "səhih" hədislərdə öz təsdiqini tapmışdır. Belə ki, İmam Muslimin "Səhih"ində (6677) varid olmuş həmin hədisin sonunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Ən gözəl qayğı adamın öz atasının sevdiyi insanlarla isti münasibət saxlamasıdır" (Bax: Silsilətul-Əhadisid-Daifə, 2089).

٤١ – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا حَيْوَةُ قَالَ: حَدَّثَنِي أَبُو عُثْمَانَ الْوَلِيدُ بْنُ أَبِي الْوَلِيدِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنِ ابْنِ عُمَرَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((إِنَّ أَبَرَّ الْبِرِّ أَنْ يَصِلَ الرَّجُلُ أَهْلَ وُدِّ أَبِيهِ)).

**(41)** ........ İbn Ömər ﭭ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ən gözəl qayğı adamın öz atasının sevdiyi insanların ailəsi ilə isti münasibət saxlamasıdır."[1]

---

[1] Bu hədisi Muslim (6677), Əbu Davud (5143), Tirmizi (2025) və Əhməd (2/88 və 91) rəvayət etmişdir. Həmin hədisin əvvəli belədir: Abdullah ibn Dinar rəvayət edir ki, İbn Ömər ﭭ Məkkəyə səfərə çıxarkən özü ilə dəyişək bir uzunqulaq götürər və mindiyi heyvan yorulduqda həmin uzunqulağı minərdi. Başına da əmmamə qoyardı. Bir gün o, uzunqulağın üstündə ikən bir bədəvi onun yanına gəldi. İbn Ömər ondan: "Sən filankəsin oğlu filankəs deyilsənmi?"– deyə soruşdu. O: "Bəli"– deyə cavab verdi. Onda İbn Ömər mindiyi uzunqulağı, üstəlik, başındakı əmmaməsini ona verib dedi: "Bu uzunqulağa min, bunu da başına qoy." İbn Ömərin dostlarından bəzisi dedi: "Allah səni bağışlasın. Mindiyin uzunqulağı, üstəlik, də başındakı əmmaməni bu bədəviyə verdin?!" İbn Ömər dedi: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Atanın dostu ilə isti münasibət saxla, onunla əlaqəni kəsmə ki, Allah da sənin nurunu söndürməsin." (Abdullah ibn Dinar demişdir): "O bədəvinin atası Ömərin dostu olmuşdur."

## ٢١ – بَابُ لاَ تَقْطَعْ مَنْ كَانَ يَصِلُ أَبَاكَ فَيُطْفَأُ نُورُكَ

## 21-ci fəsil. Atanın dostları ilə əlaqəni kəsmə ki, nurun sönməsin

٤٢ – أَخْبَرَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ لاَحِقٍ قَالَ: أَخْبَرَنِي سَعْدُ بْنُ عُبَادَةَ الزُّرَقِيُّ، أَنَّ أَبَاهُ قَالَ: كُنْتُ جَالِسًا فِي مَسْجِدِ الْمَدِينَةِ مَعَ عَمْرِو بْنِ عُثْمَانَ، فَمَرَّ بِنَا عَبْدُ اللَّهِ بْنُ سَلاَّمٍ مُتَّكِئًا عَلَى ابْنِ أَخِيهِ، فَنَفَذَ عَنِ الْمَجْلِسِ، ثُمَّ عَطَفَ عَلَيْهِ، فَرَجَعَ عَلَيْهِمْ فَقَالَ: مَا شِئْتَ عَمْرَو بْنَ عُثْمَانَ؟ مَرَّتَيْنِ أَوْ ثَلاَثًا، فَوَالَّذِي بَعَثَ مُحَمَّدًا ﷺ بِالْحَقِّ، إِنَّهُ لَفِي كِتَابِ اللَّهِ عَزَّ وَجَلَّ، مَرَّتَيْنِ: لاَ تَقْطَعْ مَنْ كَانَ يَصِلُ أَبَاكَ فَيُطْفَأَ بِذَلِكَ نُورُكَ.

**(42)** ........ Ubadə əz-Zurəqi demişdir: "Mən Amr[1] ibn Osmanla birgə Mədinə məscidində oturmuşdum. Bu vaxt Abdullah ibn Səlam qardaşı oğluna söykənmiş halda bizim yanımıza gəldi. Abdullah məclisdən çıxıb getdikdə geriyə döndü və iki, yaxud, üç kərə dedi: "Ey Amr ibn Osman, nə istəyirsən *elə*.[2] Muhəmmədi ﷺ haqq ilə göndərənə and olsun ki, bu, Allahın ﷻ Kitabındadır:[3] "Atanın dostları ilə əlaqəni kəsmə ki, bunun sayəsində sənin nurun sönməsin."[4]

---

[1] Bu Amr, üçüncü raşidi xəlifə Osman ibn Əffanın ؓ oğludur.

[2] Sanki, Abdullah ibn Səlam ؓ Amr ibn Osmanın ona qarşı etinasız yanaşdığını və atasının dostuna isti münasibət göstərmədiyini görüb ona belə deyir.

[3] Abdullah ibn Səlam ؓ burada "Allahın Kitabı" deyəndə Tövratı qəsd edir.

[4] Bu hədisin isnadında keçən Ubadə əz-Zurəqi "məchul", yəni necə ravi və ya kim olduğu bəlli olmayan bir ravidir. Üstəlik, bu rəvayət İsrailiyyətə aid rəvayətlərdəndir. Lakin hədisin mənası "səhih"dir, yəni valideynin yaxınları ilə əlaqə saxlamağın, övladın boynuna düşən vəzifələrdən olması "səhih" hədislərdə öz təsdiqini tapmışdır (Bax: Silsilətul-Əhadisid-Daifə, 2089.)

## ٢٢ - بَابُ الْوُدُّ يُتَوَارَثُ

## 22-ci fəsil. Sevgi irsən (övlada) keçir[1]

٤٣ - حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ مُحَمَّدِ بْنِ فُلَانِ بْنِ طَلْحَةَ، عَنْ أَبِي بَكْرِ بْنِ حَزْمٍ، عَنْ رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ قَالَ: كَفَيْتُكَ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِنَّ الْوُدَّ يُتَوَارَثُ)).

**(43)** ........ Əbu Bəkr ibn Həzm rəvayət edir ki, Peyğəmbərin ﷺ səhabələrindən biri (mənə) belə demişdir: "Rəsulullahın ﷺ bu sözü sənə kifayət edər: "Həqiqətən, sevgi irsən (övlada) keçir."[2]

---

[1] Həqiqətən də, çox vaxt övlad atanın xasiyyətini götürür. Çox vaxt el arasında eşidirsən deyirlər: "Atasının balasıdır." Nəinki gözəl xasiyyət, hətta peyğəmbərliyin irsən keçməsi də həqiqətdir. Bu xüsusda, Uca Allah buyurur: **"Suleyman Davuda *peyğəmbərlikdə* varis oldu"** (ən-Nəml, 16). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "İbrahimin oğlu İshaq, onun oğlu Yaqub, onun da oğlu Yusuf möhtərəm peyğəmbərdir, (özü də) möhtərəm (peyğəmbərin) oğludur, (atası da) möhtərəm (peyğəmbərin) oğludur, (babası da) möhtərəm (peyğəmbərin) oğludur" (Səhih əl-Buxari, 3382). Habelə, alimləri də misal çəkmək olar, onlar da elmdə peyğəmbərlərin varisləridirlər. Peyğəmbər ﷺ demişdir: "Alimlər peyğəmbərlərin varisləridir. Həqiqətən də, peyğəmbərlər özlərindən sonra nə bir dinar, nə də bir dirhəm qoyurlar. Qoyub getdikləri (miras) elmdir." (Sunən Əbu Davud, 3641; Səhih əl-Cami, 6297). Lakin qeyd etmək lazımdır ki, həmişə belə olmur, hərdən övlad naxələf çıxır, atasının tam əksi olur. Buna da Nuh aleyhissəlamın oğlunu misal göstərmək olar (Bax: "Hud" surəsi, 42-47).

[2] Bu hədisin isnadında keçən Muhəmməd ibn Abdur-Rəhman əl-Muleyki "zəif" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun "zəif" olduğunu demişdir.

## ٢٣– بَابُ لاَ يُسَمِّي الرَّجُلُ أَبَاهُ، وَلاَ يَجْلِسُ قَبْلَهُ، وَلاَ يَمْشِي أَمَامَهُ

## 23-cü fəsil. Atanı adı ilə çağırmamaq, ondan qabaq oturmamaq və onun önündə getməmək[1]

٤٤– حَدَّثَنَا أَبُو الرَّبِيعِ، عَنْ إِسْمَاعِيلَ بْنِ زَكَرِيَّا قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ عُرْوَةَ، عَنْ أَبِيهِ، أَوْ غَيْرِهِ أَنَّ أَبَا هُرَيْرَةَ أَبْصَرَ رَجُلَيْنِ، فَقَالَ لأَحَدِهِمَا: مَا هَذَا مِنْكَ؟ فَقَالَ: أَبِي، فَقَالَ: لاَ تُسَمِّهِ بِاسْمِهِ، وَلاَ تَمْشِ أَمَامَهُ، وَلاَ تَجْلِسْ قَبْلَهُ.

**(44)** ........ Rəvayət edilir ki, (bir dəfə) Əbu Hureyrə ﵁ iki kişiyə nəzər salıb onlardan birindən: "O sənin nəyindir?"– deyə soruşdu. O da: "Atamdır"– deyə cavab verdi. Əbu Hureyrə dedi: "Onu adı ilə çağırma,[2] onun önündə getmə[3] və ondan qabaq oturma."[4]

---

[1] Bütün bunlar valideynə göstərilən qayğıya aiddir.

[2] Valideyn müşrik, kafir olsa belə onu adı ilə, yaxud "ağsaqqal!", "ay kişi!", "ay arvad!" və başqa bu kimi müraciətlərlə çağırmaq şəriətə müvafiq deyil.

[3] Yalnız zəruri halda, yəni məsələn, zülmət gecədə yolu göstərmək məqsədilə və s. hallarda onun önündə getmək caizdir (853-cü hədisə bax).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٤- بَابٌ هَلْ يُكَنِّي أَبَاهُ

## 24-cü fəsil. Atanı kunyə[1] ilə çağırmaq olarmı?

٤٥- حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ شَيْبَةَ قَالَ: أَخْبَرَنِي يُونُسُ بْنُ يَحْيَى بْنِ نُبَاتَةَ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ مَوْهَبٍ، عَنْ شَهْرِ بْنِ حَوْشَبٍ قَالَ: خَرَجْنَا مَعَ ابْنِ عُمَرَ، فَقَالَ لَهُ سَالِمٌ: الصَّلاَةَ يَا أَبَا عَبْدِ الرَّحْمَنِ.

**(45)** ........ Şəhr ibn Hovşəb rəvayət edir ki, biz İbn Ömərlə ﷺ birgə səfərə çıxdıq. (Bu əsnada) Salim[2] ona dedi: "Namaz (vaxtıdır), ey Əbu Abdur-Rəhman!"[3]

٤٦- قَالَ أَبُو عَبْدِ اللَّهِ يَعْنِي: الْبُخَارِيَّ: حَدَّثَنَا أَصْحَابُنَا، عَنْ وَكِيعٍ، عَنْ سُفْيَانَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: لَكِنْ أَبُو حَفْصٍ عُمَرُ قَضَى.

**(46)** ........ İbn Ömər رضي الله عنهما demişdir: "Lakin Əbu Həfs – Ömər belə hökm vermişdir."[4]

---

[1] Kunyə: ismin əvvəlinə "əbu (ata)" yaxud "ummu (ana)" sözlərindən birini qoşmaqla əmələ gələn ləqəb və ya ayamadır. Bu fəsildəki hədislər valideyni öz kunyəsi ilə çağırmağın caiz olduğuna dəlalət edir.

[2] Bu Salim Abdullah ibn Ömərin oğludur.

[3] Bu hədisin isnadında keçən ravi – Şəhr ibn Hovşəb "çoxlu xətalara yol vermiş səduq" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٥- بَابُ وُجُوبِ صِلَةِ الرَّحِمِ

## 25-ci fəsil. Qohumlarla əlaqə saxlamağın vacibliyi[1]

٤٧- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا ضَمْضَمُ بْنُ عَمْرٍو الْحَنَفِيُّ قَالَ: حَدَّثَنَا كُلَيْبُ ابْنُ مَنْفَعَةَ قَالَ: قَالَ جَدِّي: يَا رَسُولَ اللَّهِ، مَنْ أَبَرُّ؟ قَالَ: ((أُمَّكَ وَأَبَاكَ، وَأُخْتَكَ وَأَخَاكَ، وَمَوْلاَكَ الَّذِي يَلِي ذَاكَ، حَقٌّ وَاجِبٌ، وَرَحِمٌ مَوْصُولَةٌ)).

**(47)** ........ Kuleyb ibn Mənfəa rəvayət edir ki, babam (Peyğəmbərdən ﷺ) soruşdu: "Ya Rəsulullah, mən ən çox kimə qayğı göstərməliyəm?" O, dedi: "Anana, atana, bacına, qardaşına və yaxın olan əqrabaya. (Budur) vacib haqq və qohumluq əlaqəsi!"[2]

٤٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ مُوسَى بْنِ طَلْحَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: لَمَّا نَزَلَتْ هَذِهِ الآيَةُ: ﴿وَأَنْذِرْ عَشِيرَتَكَ الأَقْرَبِينَ﴾ قَامَ النَّبِيُّ ﷺ فَنَادَى: ((يَا بَنِي كَعْبِ بْنِ لُؤَيٍّ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ، يَا بَنِي عَبْدِ مَنَافٍ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ، يَا بَنِي هَاشِمٍ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ، يَا بَنِي عَبْدِ الْمُطَّلِبِ، أَنْقِذُوا أَنْفُسَكُمْ مِنَ النَّارِ، يَا فَاطِمَةُ بِنْتَ مُحَمَّدٍ، أَنْقِذِي نَفْسَكِ مِنَ النَّارِ، فَإِنِّي لاَ أَمْلِكُ لَكِ مِنَ اللَّهِ شَيْئًا، غَيْرَ أَنَّ لَكُمْ رَحِمًا سَأَبُلُّهُمَا بِبِلاَلِهَا)).

---

[1] Burada qohumlarla əlaqə saxlamaq deyildikdə, ata və ya ana tərəfdən olan qohumları ziyarət etmək, onlara salam vermək, xəstələrinə baş çəkmək və s. yaxşılıqlar etmək nəzərdə tutulur. Uca Allah buyurur: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız"** (ən-Nəhl, 90); digər ayədə O, buyurur: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir"** (ən-Nisa, 36).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin bu kitabdakı 3-cü və 60-cı hədislər bu hədisin mənasının "səhih" olduğuna dəlalət edir.

**(48)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, **"Ən yaxın qohumlarını qorxut!"**[1] – ayəsi nazil olduqda, Peyğəmbər ﷺ (qohumlarını yanına çağırdı və Səfa dağına) qalxıb uca səslə buyurdu: "Ey Kəb ibn Luey oğulları,[2] canınızı Oddan qurtarın. Ey Abdumənaf oğulları, canınızı Oddan qurtarın. Ey Haşim oğulları, canınızı Oddan qurtarın. Ey Abdulmuttalib oğulları, canınızı Oddan qurtarın.[3] Ey Muhəmmədin qızı Fatimə, canını Oddan qurtar. Çün-

---

[1] "əş-Şuəra" surəsi, 214. Bu ayə qohumlarla əlaqə saxlamağın, ələlxüsus da onları haqq yola dəvət etməyin vacibliyinə dəlalət edir.

[2] Digər hədisdə: "Peyğəmbər ﷺ gah ümumiləşdirərək, gah da xüsusiləşdirərək belə buyurdu..."– deyilir (Səhih Muslim, 501). Yəni Peyğəmbər ﷺ qureyşliləri əvvəlcə ümumi şəkildə, sonra da Ey Fatimə!", digər rəvayətlərdə də: "Ey Abdulmuttəlibin qızı Safiyyə!", "Ey Abdulmuttəlibin oğlu Abbas!" – deyə müraciət edib onları adbaad çağırır.

[3] Kəb ibn Luey, Abdumənaf, Haşim və Abdulmuttəlib oğulları Peyğəmbərin ﷺ ata tərəfdən olan qohumlarıdır. Digər hədisdə Peyğəmbərin ﷺ onlara "Mən sizi Allahın *əzabından* qurtara bilməyəcəyəm" dediyi rəvayət edilir (Səhih əl-Buxari, 2753). Peyğəmbər ﷺ demək istəyir ki, hər kəs öz əməlinə görə özü cavab verəcək. Üstəlik, heç kəs, hətta peyğəmbərlər belə müşrik və kafir olan kimsəni Allahın əzabından qurtara bilməz. Odur ki, Peyğəmbər ﷺ demişdir: "Kimin əməli onu alçaldarsa, nəsəbi onu ucalda bilməz" (Səhih Muslim, 7028). Bu xüsusda, Uca Allah belə buyurur: **"Allah kafirlərə Nuhun arvadı ilə Lutun arvadını misal çəkdi. Onlar Bizim əməlisaleh qullarımızdan iki qulun nikahı altında idilər. Onlar ərlərinə xəyanət etdilər və bunlar onları Allahdan heç cür xilas edə bilmədilər. Onlara: "Girənlərlə birgə ikiniz də Oda girin!"– deyildi"** (ət-Təhrim, 10); digər ayədə O, buyurur: **"Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar. *O gün* məhz tərəziləri ağır gələnlər nicat tapacaqlar. Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır. *Onlar* Cəhənnəmdə əbədi qalacaqlar"** (əl-Muminun, 101-103); həmçinin O, buyurur: **"Qulaqbatırıcı bir səs gələndə – o gün insan öz qardaşından, anasından, atasından, arvadından və övladlarından qaçacaq. O gün onlardan hər birinin yetərincə işi olacaqdır"** (Əbəsə, 33-37). Odur ki, özünü müsəlman sayan kər kəs öz ibadətini və itaətini ixlasla, rəğbət və qorxu içində ancaq Tək Allaha yönəltməlidir. Əbu Hureyrə ﷺ rəvayət edir ki, mən Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, Qiyamət günü sənin şəfaətin sayəsində ən böyük səadətə çatan kəslər kimlər olacaq?"– deyə soruşdum. Rəsulullah ﷺ dedi: "Ey Əbu Hureyrə, mən sənin hədis öyrənməyə olan hərisliyini görüb düşünürdüm ki, səndən əvvəl heç kəs bu hədis barəsində məndən soruşmayacaq. Qiyamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə çatanlar, səmimi-qəlblə "La ilahə illəllah"– deyən kimsələr olacaq" (Səhih əl-Buxari, 99).

ki mən səni Allahın əzabından qorumağa qadir deyiləm. Sadəcə olaraq, məni sizə bağlayan qohumluq əlaqələri vardır ki, mən bu əlaqələri qoruyub saxlayacağam.[1]"[2]

[1] Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ belə demişdir: "Mən sizi (əzabla) qorxudan bir peyğəmbərəm! Mənimlə sizin misalınız düşməni görüb, qövmünü qorumaq üçün *düşmənə* göz qoyan və düşmənin onu qabaqlayacağından ehtiyat edib uca səslə *qövmünü səsləyib* "Haydı, canınızı qurtarın!" deyən kimsənin misalına bənzəyir" (Səhih Muslim, 506).

[2] Bu hədisi Buxari (2753), Muslim (501) və Tirmizi (3487) rəvayət etmişdir.

## ٢٦- بَابُ صِلَةِ الرَّحِمِ

## 26-cı fəsil. Qohumlarla əlaqə saxlamaq

٤٩- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عُثْمَانَ بْنِ عَبْدِ اللَّهِ بْنِ مَوْهِبٍ قَالَ: سَمِعْتُ مُوسَى بْنَ طَلْحَةَ يَذْكُرُ، عَنْ أَبِي أَيُّوبِ الأَنْصَارِيِّ، أَنَّ أَعْرَابِيًّا عَرَضَ عَلَى النَّبِيِّ ﷺ فِي مَسِيرِهِ، فَقَالَ: أَخْبِرْنِي مَا يُقَرِّبُنِي مِنَ الْجَنَّةِ، وَيُبَاعِدُنِي مِنَ النَّارِ؟ قَالَ: ((تَعْبُدُ اللَّهَ وَلاَ تُشْرِكْ بِهِ شَيْئًا، وَتُقِيمُ الصَّلاَةَ، وَتُؤْتِي الزَّكَاةَ، وَتَصِلُ الرَّحِمَ)).

**(49)** ........ Əbu Əyyub əl-Ənsari[1] ﷺ rəvayət edir ki, "Peyğəmbər ﷺ səfərdə ikən bir bədəvi onun qarşısına çıxdı və: "(Ya Rəsulullah,) məni Cənnətə yaxınlaşdıracaq və Oddan uzaqlaşdıracaq əməl barədə mənə xəbər ver"– dedi. Peyğəmbər ﷺ də (ona) belə buyurdu: "Gərək Allaha ibadət edəsən və heç bir şeyi Ona şərik qoşmayasan, namaz qılasan, zəkat verəsən və qohum-əqrəba ilə əlaqə saxlayasan![2]"[3]

٥٠- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنْ مُعَاوِيَةَ بْنِ أَبِي مُزَرِّدٍ، عَنْ سَعِيدِ بْنِ يَسَارٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((خَلَقَ اللَّهُ عَزَّ وَجَلَّ الْخَلْقَ، فَلَمَّا فَرَغَ مِنْهُ قَامَتِ الرَّحِمُ، فَقَالَ: مَهْ، قَالَتْ: هَذَا مَقَامُ الْعَائِذِ بِكَ مِنَ الْقَطِيعَةِ، قَالَ: أَلاَ تَرْضَيْنَ أَنْ أَصِلَ مَنْ وَصَلَكِ، وَأَقْطَعَ مَنْ قَطَعَكِ؟ قَالَتْ: بَلَى يَا رَبِّ، قَالَ: فَذَلِكِ لَكِ)).

---

[1] Əbu Əyyub Xalid ibn Zeyd ibn Kuleyb əl-Xəzrəci ən-Nəccari ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. İkinci Əqəbə beyətində Peyğəmbərə ﷺ beyət etmiş, Bədrdə və digər döyüşlərdə,ələlxüsus da Konstantinopola olan yürüşdə iştirak etmişdir. Peyğəmbər ﷺ Mədinəyə gəldiyi zaman möminlərin anası Sovdə üçün hücrə və bir də məscid tikilənədək Əbu Əyyub əl-Ənsarinin ﷺ evində qalmışdır. Əbu Əyyub ﷺ hicrətin 52-ci ilində vəfat etmiş və Konstantinopol qalasının yanında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ, 83-cü tərcümeyi-hal).

[2] İmkan daxilində qohum-əqrəbaya yaxşılıq etmək, onlara əl tutmaq, qarşılaşdıqda onlara salam vermək, onları ziyarət etmək və başqa bu kimi haqlarını ödəmək hər bir müsəlmanın borcudur.

[3] Bu hədisi Buxari (1396) və Muslim (104) rəvayət etmişdir.

ثُمَّ قَالَ أَبُو هُرَيْرَةَ: اقْرَؤُوا إِنْ شِئْتُمْ: ﴿فَهَلْ عَسَيْتُمْ إِنْ تَوَلَّيْتُمْ أَنْ تُفْسِدُوا فِي الأَرْضِ وَتُقَطِّعُوا أَرْحَامَكُمْ﴾.

**(50)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah ﷿ məxluqatı yaratdı və yaradılışı başa çatdırdıqdan sonra qohumluq əlaqəsi ayağa qalxdı. Allah (ona): "Nə istəyirsən?"– deyə buyurdu. O, dedi: "Bu, qohumluq əlaqələrini kəsməkdən Sənə sığınanın məqamıdır."[1] Allah buyurdu: "(Qohumluq) əlaqəsini saxlayan kimsə ilə əlaqə saxlamağıma, habelə, səni kəsəni də kəsməyimə razı deyilsənmi?!"[2] O: "Əlbəttə (razıyam), ya Rəbb!"– dedi. *Allah* buyurdu: "Sənin üçün məhz belə olacaq!"

Sonra Əbu Hureyrə ﵁ dedi: "İstəyirsinizsə bu ayəni[3] oxuyun: **"Əgər *haqdan* üz çevirsəniz, ola bilsin ki, yer üzündə fitnə-fəsad törədəsiniz və qohumluq əlaqələrini kəsəsiniz."**[4]

---

[1] Burada qohumluq əlaqəsinin ayağa qalxması və Allahla danışması həqiqi mənada başa düşülür. Belə ki, hər şeyə Qadir olan Allah qohumluq əlaqəsini danışdırmağa qadirdir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "*Qiyamət günü* ölüm ağlı-qaralı, buynuzlu qoç şəklində gətiriləcək. Sonra carçı: "Ey Cənnət əhli!"– deyə çağıracaq. Cənnət əhli başlarını qaldırıb ona tərəf baxacaqlar. Carçı: "Bunu tanıyırsınızmı?"– deyə soruşacaq. Onlar: "Bəli, bu ölümdür!"– deyə cavab verəcəklər. Çünki onların hamısı ölümü görmüşlər. Sonra carçı: "Ey Cəhənnəm əhli!"– deyə səsləyəcək. Cəhənnəm əhli başlarını qaldırıb ona tərəf baxacaqlar. Carçı: "Bunu tanıyırsınızmı?"– deyə soruşacaq. Onlar: "Bəli, bu ölümdür!"– deyə cavab verəcəklər. Çünki onların hamısı ölümü görmüşlər. Bundan sonra ölümün *başını* kəsəcəklər. Sonra *onlara* deyiləcək: "Ey Cənnət əhli, siz əbədi yaşayacaq və heç vaxt ölməyəcəksiniz! Ey Cəhənnəm əhli, siz də əbədi yaşayacaq və heç vaxt ölməyəcəksiniz!" (Səhih əl-Buxari, 4730). Həmçinin, qəbirə qoyulmuş insanın sorğu-sual edildikdən sonra yaxşı və ya pis əməllərinin insan şəklində onun yanına gəlməsi Allahın hər şeyə qadir olduğunu bir daha sübuta yetirir.

[2] Bu, dəlildir ki, yaxşılığın əvəzi yaxşılıq, pisliyin cəzası isə pislikdir. Bu xüsusda, Uca Allah buyurur: **"Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?"** (ər-Rəhman, 60); həmçinin, O, buyurur: **"Pis işlər görənlərə isə pisliyin cəzası onun misli qədər verilər"** (Yunus, 27).

[3] "Muhəmməd" surəsi, 22.

[4] Bu hədisi Buxari (4830), Muslim (6682) və Əhməd (2/330) rəvayət etmişdir.

٥١- حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي سَعْدٍ، عَنْ مُحَمَّدِ بْنِ أَبِي مُوسَى، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: ﴿وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ﴾، قَالَ: بَدَأَ فَأَمَرَهُ بِأَوْجَبِ الْحُقُوقِ، وَدَلَّهُ عَلَى أَفْضَلِ الأَعْمَالِ إِذَا كَانَ عِنْدَهُ شَيْءٌ فَقَالَ: ﴿وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ﴾، وَعَلَّمَهُ إِذَا لَمْ يَكُنْ عِنْدَهُ شَيْءٌ كَيْفَ يَقُولُ، فَقَالَ: ﴿وَإِمَّا تُعْرِضَنَّ عَنْهُمُ ابْتِغَاءَ رَحْمَةٍ مِنْ رَبِّكَ تَرْجُوهَا فَقُلْ لَهُمْ قَوْلاً مَيْسُورًا﴾ عِدَةً حَسَنَةً كَأَنَّهُ قَدْ كَانَ، وَلَعَلَّهُ أَنْ يَكُونَ إِنْ شَاءَ اللَّهُ، ﴿وَلاَ تَجْعَلْ يَدَكَ مَغْلُولَةً إِلَى عُنُقِكَ﴾ لاَ تُعْطِي شَيْئًا، ﴿وَلاَ تَبْسُطْهَا كُلَّ الْبَسْطِ﴾ تُعْطِي مَا عِنْدَكَ، ﴿فَتَقْعُدَ مَلُومًا﴾ يَلُومُكَ مَنْ يَأْتِيكَ بَعْدُ، وَلاَ يَجِدُ عِنْدَكَ شَيْئًا ﴿مَحْسُورًا﴾، قَالَ: قَدْ حَسَّرَكَ مَنْ قَدْ أَعْطَيْتَهُ.

**(51)** ........ İbn Abbas ﵄: **“Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver...”**[1] – ayəsini belə izah etmişdir: “Uca Allah mömin adam ilk əvvəl ən vacib haqları ödəməyi buyurur, üstəlik imkanlı adamı ən fəzilətli əməlləri yerinə yetirməyə yönəldib buyurur: **“Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver.”** Heç bir şeyi olmayana isə nə deyəcəyini öyrədib buyurur: **“Əgər sən Rəbbindən dilədiyin mərhəməti umaraq onların üzünə baxmırsansa** (imkanın olmadığı üçün onlara bir şey verə bilmirsənsə)**, onda onlara xoş söz de”,**[2] yəni gözəl vəd ver, sanki belə bir şey olub və ola bilsin ki, Allah istəsə olacaq da.[3] **“Əlini nə qoynunda**

---

[1] “əl-İsra” surəsi, 26.

[2] “əl-İsra” surəsi, 28.

[3] Demək, adam qohum-əqrəbaya, yoxsula və müsafirə imkan daxilində əl tutmalı, imkanı olmazsa, heç olmasa onlara xoş söz deməlidir. Gözəl söz deməyin özü də bir yaxşılıq hesab edilir. Yaxşılıq etmək xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: “Hər bir müsəlman sədəqə verməlidir.” *Səhabələr* soruşdular: “Ey Allahın peyğəmbəri! *Sədəqə verməyə bir şey* tapmasa necə?” Peyğəmbər ﷺ buyurdu: “Öz əlləri ilə işləyib qazansın və *bu qazancından* həm özü faydalansın, həm də *başqalarına* sədəqə versin.” *Səhabələr* soruşdular: “*Bunu* edə bilməsə necə?” Peyğəmbər ﷺ buyurdu: “Ehtiyacı olan çarəsiz adama kömək etsin.” *Səhabələr* soruşdular: “*Bunu da* edə bilməsə necə?” Peyğəmbər ﷺ buyurdu: “Yaxşı işlər görsün və şər əməllərdən çəkinsin. Həqiqətən də, bu onun üçün sədəqə olar” (Səhih əl-Buxari, 1445); başqa bir hədisdə isə o belə buyurmuşdur: “Heç olmasa, yarım xurma

**gizlət",**[1] nə xəsislik et, **"nə də əlini büsbütün aç",**[2] nə də əlində olanın hamısını ver, **"yoxsa qınanmış və peşman vəziyyətdə qalarsan"**[3] yəni, beləliklə, yanına gəlib səndən bir şey ala bilməyən kəs səni qınayar, çox alan isə səni peşman edər."[4]

---

*sədəqə* ilə özünüzü Oddan qoruyun. Bunu tapmasanız, onda gözəl söz danışmaqla *özünüzü Oddan qoruyun*" (Səhih əl-Buxari, 1413).

[1] "əl-İsra" surəsi, 29.

[2] Əvvəlki ayə.

[3] Əvvəlki ayə.

[4] Bu hədisin isnadında keçən Əbu Səd Səid ibn Mərzəban "mudəllis" ravi olduğundan, habelə, Muhəmməd ibn Əbu Musanın kim olduğu bilinmədiyindən, bu isnad "zəif" hesab edilir. Odur ki, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٢٧- بَابُ فَضْلِ صِلَةِ الرَّحِمِ

## 27-ci fəsil. Qohumlarla əlaqə saxlamağın fəziləti

٥٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي حَازِمٍ، عَنِ الْعَلاَءِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: أَتَى رَجُلٌ النَّبِيَّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنَّ لِي قَرَابَةً أَصِلُهُمْ وَيَقْطَعُونَ، وَأُحْسِنُ إِلَيْهِمْ وَيُسِيئُونَ، وَيَجْهَلُونَ عَلَيَّ وَأَحْلُمُ عَنْهُمْ، قَالَ: ((لَئِنْ كَانَ كَمَا تَقُولُ كَأَنَّمَا تُسِفُّهُمُ الْمَلَّ، وَلاَ يَزَالُ مَعَكَ مِنَ اللَّهِ ظَهِيرٌ عَلَيْهِمْ مَا دُمْتَ عَلَى ذَلِكَ)).

**(52)** ........ Əbu Hureyrə ﷺ demişdi: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mənim qohumlarım var. Mən onlarla əlaqə saxlayır, onlar isə (mənimlə) əlaqəni kəsirlər, mən onlara yaxşılıq edir, onlar isə (mənə) pislik edirlər, onlar mənimlə kobud rəftar edir, mən isə onlarla mülayim danışıram." Peyğəmbər ﷺ dedi: "Əgər dediyin kimidirsə, onda, sanki, sən onlara isti kül yedirdirsən. Bu rəftarın davam etdikcə, sənin yanında Allah tərəfindən onlara qarşı bir köməkçi olar.[1]"[2]

٥٣- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي أَخِي، عَنْ سُلَيْمَانَ بْنِ بِلاَلٍ، عَنْ مُحَمَّدِ بْنِ أَبِي عَتِيقٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، أَنَّ أَبَا الرَّدَّادِ اللَّيْثِيَّ أَخْبَرَهُ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: ((أَنَا الرَّحْمَنُ، وَأَنَا خَلَقْتُ الرَّحِمَ، وَاشْتَقَقْتُ لَهَا مِنَ اسْمِي، فَمَنْ وَصَلَهَا وَصَلْتُهُ، وَمَنْ قَطَعَهَا بَتَتُّهُ)).

---

[1] Yəni sən bu gözəl rəftarınla savab qazanır, onlar isə günaha batırlar. Beləliklə də, sən onları utandırmış və sənin yanında başıaşağı etmiş olursan (Nəvəvinin şərhi). Demək, qohum əlaqəni kəssə də, pislik etsə də, kobud rəftar etsə də, onlarla əlaqə saxlamaq yalnız insanın özünə fayda verər və onlar bu yaramaz əxlaqları ilə mömin adama heç bir zərər yetirə bilməzlər. Bu, dəlildir ki, qohumlarla əlaqə saxlayan mömini Allah qoruyar.

[2] Bu hədisi Muslim (6689) və Əhməd (2/484) rəvayət etmişdir.

**(53)** ........ Abdur-Rəhman ibn Auf[1] ﷺ rəvayət edir ki, mən Peyğəmbərin belə dediyini eşitdim: "Allah ﷻ belə buyurur:[2] "Mən ər-Rəhmanam![3] Mən rəhmi yaratdım[4] və Öz adımdan ona ad verdim. Kim onu birləşdirsə, Mən onu birləşdirər,[5] kim də onu kəssə, Mən onu kəsərəm.[6]"[7]

**٥٤-** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عُثْمَانَ بْنِ الْمُغِيرَةِ، عَنْ أَبِي الْعَنْبَسِ قَالَ: دَخَلْتُ عَلَى عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو فِي الْوَهْطِ يَعْنِي أَرْضًا لَهُ بِالطَّائِفِ، فَقَالَ: عَطَفَ لَنَا النَّبِيُّ ﷺ إِصْبَعَهُ فَقَالَ: ((الرَّحِمُ شَجْنَةٌ مِنَ الرَّحْمَنِ، مَنْ يَصِلْهَا يَصِلْهُ، وَمَنْ يَقْطَعْهَا يَقْطَعْهُ، لَهَا لِسَانٌ طَلْقٌ ذَلْقٌ يَوْمَ الْقِيَامَةِ)).

---

[1] Abdur-Rəhman ibn Auf ibn Abd Auf əl-Qurəşi əz-Zuhri ﷺ Peyğəmbərin ﷺ səhabəsi, Cənnətlə müjdələnmiş on nəfərdən biridir. Bu səhabə Ömər ibn Xattab ﷺ tərəfindən xəlifəliyə namizəd seçilmiş altı nəfərdən biri, habelə, İslamı ilk əvvəl qəbul etmiş səkkiz nəfərdən biridir. Abdur-Rəhman ibn Auf iki dəfə Həbəşistana, sonra da Mədinəyə hicrət etmiş səhabələrdəndir. Onun fəziləti barədə varid olmuş hədisdə Ummu Bəkr bint Misvər rəvayət edir ki, Abdur-Rəhman ibn Auf öz bağını qırx min dinara satıb pulunu Aişəyə göndərdi ki, bunu Peyğəmbərin ﷺ zövcələri arasında bölüşdürsün. Aişə məndən: "Bunu kim göndərib?"– deyə soruşdu. Dedim: "Abdur-Rəhman ibn Auf." Aişə dedi: "Peyğəmbər ﷺ demişdir: "Məndən sonra ancaq səbirli olanlar sizin qeydinizə qalacaq. Allah Aufun oğluna Cənnətdəki Səlsəbil bulağından içirtsin!" (Sunən ət-Tirmizi, 4115; Mustədrək, 3/312; Silsilətul-Əhadisis-Səhihə, 1594) Abdur-Rəhman ibn Auf Osmanın xilafəti dövründə hicrətin 32-ci ilində 75 yaşında vəfat etmiş və Osman onun cənazə namazını qıldırdıqdan sonra, onu Bəqi qəbiristanlığında dəfn etmişlər (Siyər Əlam ən-Nubələ, 4-cü tərcümeyi-hal).

[2] Bu, ləfzi və mənası ilə nazil olmuş qüdsi hədislərdəndir.

[3] "Ər-Rəhman" – Allahın mərhəmətli olduğuna dəlalət edən gözəl adlarından biridir. Bu hədisdə Uca Allah Özü-Özünü tərif edir. Yeri gəlmişkən, qeyd edək ki, bu ad yalnız Allaha məxsusdur və onu Allahdan başqasına qoymaq olmaz.

[4] Burada ərəbcə "rəhm" deyildikdə, qohumluq əlaqəsi nəzərdə tutulur.

[5] Yəni, hər kim qohumluq əlaqələrini möhkəmləndirsə, Allah onu Öz rəhmətimə qovuşdurar.

[6] Allahın Öz adından ona ad verməsi, habelə, qohumluq əlaqəsini saxlayana rəhm etməsi və onu kəsəni cəzalandırması, bu əlaqələri qoruyub saxlamağın nə dərəcədə mühüm və nə qədər vacib olmasına dəlalət edir.

[7] Bu hədisi Tirmizi (2031), Əhməd (1/191) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(54)** ........ Əbul Ənbəs demişdir: "Mən Abdullah ibn Amrın ərazisinə – onun Taifdəki yerinə gəldim. O, dedi: "Peyğəmbər ﷺ barmağı ilə bizə işarə edib demişdir: "Rəhm ər-Rəhmandan bir şəcnədir.[1] Kim onu birləşdirsə, (Allah) onu birləşdirər. Kim də onu kəssə, (Allah) onu kəsər. Qiyamət günü onun fəsahətli, bəlağətli dili olacaqdır.[2]"[3]

**٥٥–** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ، عَنْ مُعَاوِيَةَ بْنِ أَبِي مُزَرِّدٍ، عَنْ يَزِيدَ بْنِ رُومَانَ، عَنْ عُرْوَةَ بْنِ الزُّبَيْرِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((الرَّحِمُ شَجْنَةٌ مِنَ اللَّهِ، مَنْ وَصَلَهَا وَصَلَهُ اللَّهُ، وَمَنْ قَطَعَهَا قَطَعَهُ اللَّهُ)).

**(55)** ........ Aişə[4] رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Rəhm Allahdan bir şəcnədir. Kim onu birləşdirsə, Allah onu birləşdirər. Kim də onu kəssə, Allah onu kəsər."[5]

---

[1] Yəni rəhm sözü Allahın "ər-Rəhman" adından götürülmüşdür. Ərəbcə "şəcnə", yaxud "şicnə", yaxud da "şucnə" bir-birinə keçmiş budaqlar deməkdir. Demək, qohumluq əlaqəsi Allahın mərhəməti ilə bağlı olan rəhmət əlamətlərindəndir (Tohfətul-Əhvəzi).

[2] Qiyamət günü bu rəhm öz haqqını tələb edəcək, yəni onu qoruyub saxlayanların mükafatlandırılmasını, onu kəsənlərin isə cəzalandırılmasını tələb edəcək.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Aişə رضي الله عنها bint Əbu Bəkr Abdullah ibn Əbu Quhafə Osman ibn Amir ət-Teymiyyə, Rəsulullahın ﷺ zövcəsi, möminlərin anası, bu ümmətin qadınları arasında İslam dinini ən yaxşı bilən qadın və ən çox hədis rəvayət edən səhabələrdəndir. Peyğəmbərdən ﷺ 2210 hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan yüz yetmiş dörd hədis, ayrı-ayrılıqda Buxari əlli dörd, Muslim isə altmış doqquz hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 19-cu tərcümeyi-hal). Onun fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Bunlardan bir neçəsini qeyd edək; (bir dəfə) Peyğəmbər ﷺ Aişədən: "Sən həm bu dünyada, həm də Axirətdə mənim zövcəm olmağa razısanmı?"– deyə soruşdu. Aişə: "Əlbəttə, *razıyam*!"– deyə cavab verdi. Onda Peyğəmbər ﷺ buyurdu: "Dünyada da, Axirətdə də sən mənim zövcəmsən!" (Mustədrək, 4/10; Silsilətul-Əhadisis-Səhihə, 1142); digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kişilərdən bir çoxları kamilliyə çatmışdır. Qadınlardan isə yalnız Fironun həyat yoldaşı Asiya və İmranın qızı Məryəm kamilliyə çatmışdır. Aişənin digər qadınlardan üstünlüyü isə ətli şorbanın başqa yeməklərdən üstünlüyü kimidir" (Səhih əl-Buxari, 3411). Həmçinin, onun barəsində nazil olmuş bəraət ayələri (ən-Nur surəsi, 11-22) onun nə dərəcədə fəzilətli qadın olduğuna dəlalət edir.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٨- بَابُ صِلَةِ الرَّحِمِ تَزِيدُ فِي الْعُمْرِ

## 28-ci fəsil. Qohumluq əlaqələrini möhkəmləndirmək ömrü uzadır[1]

٥٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي عَقِيلٌ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي أَنَسُ بْنُ مَالِكٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((مَنْ أَحَبَّ أَنْ يُبْسَطَ لَهُ فِي رِزْقِهِ، وَأَنْ يُنْسَأَ لَهُ فِي أَثَرِهِ، فَلْيَصِلْ رَحِمَهُ)).

**(56)** ........ Ənəs ibn Malik[2] ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Qoy, ruzisinin çoxalmasını və əcəlinin yubadılmasını[3] istəyən kimsə qohumluq əlaqələrini möhkəmləndirsin.”[4]

---

[1] Fəslin ünvanından aydın olur ki, qohumluq əlaqələrini saxlamaq insana Axirətdə fayda verdiyi kimi, bu dünyada da, ona fayda verir.

[2] Əbu Həmzə Ənəs ibn Malik ibn ən-Nədr əl-Ənsari əl-Xəzrəci ﵁ Peyğəmbərin ﷺ həm xidmətçisi, həm qadın tərəfdən qohumu, həm də ən çox hədis rəvayət edən səhabələrindəndir. Dəfələrlə Peyğəmbərlə ﷺ birlikdə döyüşlərdə iştirak etmiş və xüsusən də, ağac altında ona beyət gətirənlərdən olmuşdur. Hicrətdən on il əvvəl dünyaya gəlmiş, uşaq ikən İslamı qəbul etmiş və düz on il Peyğəmbərə ﷺ xidmət etmişdir. Nəhayət, hicrətin 93-cü ilində yüz üç yaşında vəfat etmişdir. Peyğəmbərdən ﷺ iki min iki yüz səksən altı hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 62-ci tərcümeyi-hal).

[3] Burada “ruzisinin çoxalması” deyildikdə, malının xeyir-bərəkətinin artması, “əcəlinin yubadılması” deyildikdə isə, ömrünün uzadılması nəzərdə tutulur. Qüdrətli Allah qohumluq əlaqəsini kəsməyən kimsənin qədərini dəyişdirib, ömrünü həqiqi mənada uzadır. Bu hədisdə qohumluq əlaqəsini kəsməməyin ömrün uzadılmasına səbəb olduğu xəbər verilir. Habelə, digər hədislərdə başqa əməllərin də ömrün uzanmasına səbəb olduğu xəbər verilir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Kimə mülayim olmaq nəsib edilmişsə, ona dünya və Axirət xeyri bəxş edilmişdir. Qohumlarla əlaqə saxlamaq, gözəl əxlaqlı olmaq və qonşuya yaxşılıq etmək məmləkətləri dirçəldir və ömürləri uzadır” (Musnəd Əhməd, 6/159; Silsilətul-Əhadisis-Səhihə, 519). Deməli, gözəl əxlaqlı olmaq və qonşuya yaxşılıq etmək də həmçinin, ömrü uzadır.

[4] Bu hədisi Buxari (2067) və Muslim (6688) rəvayət etmişdir.

٥٧- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ مَعْنٍ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَنْ سَرَّهُ أَنْ يُبْسَطَ لَهُ فِي رِزْقِهِ، وَأَنْ يُنْسَأَ لَهُ فِي أَثَرِهِ، فَلْيَصِلْ رَحِمَهُ)).

**(57)** ........ Əbu Hureyrə ﵁ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: "Qoy ruzisinin çoxalmasını və əcəlinin yubadılmasını arzulayan kəs qohumluq əlaqələrini möhkəmləndirsin."[1]

[1] Bu hədisi Buxari (5985) rəvayət etmişdir.

## ٢٩ – بَابُ مَنْ وَصَلَ رَحِمَهُ أَحَبَّهُ أَهْلُهُ

## 29-cu fəsil. Kim qohumluq əlaqələrini möhkəmləndirsə, əhli[1] onu sevər

٥٨ – حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ مَغْرَاءَ، عَنِ ابْنِ عُمَرَ قَالَ: ((مَنِ اتَّقَى رَبَّهُ، وَوَصَلَ رَحِمَهُ، نُسِّئَ فِي أَجَلِهِ، وَثَرَى مَالُهُ، وَأَحَبَّهُ أَهْلُهُ)).

**(58)** ........ İbn Ömər ﷺ demişdir: "Rəbbindən qorxan və qohumluq əlaqələrini möhkəmləndirən kimsənin əcəli yubadılar, var-dövləti artar və əhli onu sevər."[2]

٥٩ – حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ أَبِي إِسْحَاقَ قَالَ: حَدَّثَنِي مَغْرَاءُ أَبُو مُخَارِقٍ هُوَ الْعَبْدِيُّ، قَالَ ابْنُ عُمَرَ: ((مَنِ اتَّقَى رَبَّهُ، وَوَصَلَ رَحِمَهُ، أُنْسِئَ لَهُ فِي عُمُرِهِ، وَثَرَى مَالُهُ، وَأَحَبَّهُ أَهْلُهُ)).

**(59)** ........ İbn Ömər ﷺ demişdir: "Rəbbindən qorxan və qohumluq əlaqələrini möhkəmləndirən kimsənin ömrü uzanar, var-dövləti artar və əhli onu sevər.[3]"[4]

---

[1] Kitabın bəzi nüsxələrində bu fəslin ünvanında "Allah onu sevər" deyilir.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu rəvayətin "həsən" olduğunu demişdir.

[3] Burada əhli-əyalının onu sevməsi, Allahın onu sevməsi deməkdir. Belə ki, Allah Öz mömin bəndəsini sevdiyi zaman yer əhlinə də onu sevdirir. Bu xüsusda, Uca Allah buyurur: **"İman gətirib yaxşı işlər görənlər üçün Mərhəmətli *Allah qəlblərdə* bir sevgi yaradacaq"** (Məryəm, 96); Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Allah bir qulunu sevdiyi zaman Cəbrailə: "Allah filankəsi sevir, sən də onu sev!"– deyə buyurur, Cəbrail də *həmin adamı* sevir. Sonra Cəbrail göy əhlinə xitab edib: "Allah filankəsi sevir, siz də onu sevin!"– deyir, göy əhli də onu sevir. Daha sonra yer üzündəkilər də ona rəğbət bəsləməyə başlayırlar" (Səhih əl-Buxari, 3209).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu rəvayətin "həsən" olduğunu demişdir. Qeyd edək ki, hər iki əsəri qüvvətləndirən "səhih" hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qohumlarınızla əlaqə saxlamaq üçün əsil-nəsəbinizi öyrənin. Çünki qohumlarla əlaqə saxlamaq, *adama* əhli-əyalının sevgisini qazandıran, var-dövlətini artıran və ömrünü uzadan *bir səbəbdir* (Sunən ət-Tirmizi, 1/357-358; Mustədrək, 4/161; Musnəd İmam Əhməd, 2/374; Silsilətul-Əhadisis-Səhihə, 276).

# ٣٠- بَابُ بِرِّ الأَقْرَبِ فَالأَقْرَبِ

## 30-cu fəsil. Ən yaxın və ən yaxın olanların qeydinə qalmaq

٦٠- حَدَّثَنَا حَيْوَةُ بْنُ شُرَيْحٍ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ، عَنْ بَحِيرٍ، عَنْ خَالِدِ بْنِ مَعْدَانَ، عَنِ الْمِقْدَامِ بْنِ مَعْدِي كَرِبَ، أَنَّهُ سَمِعَ رَسُولَ اللّٰهِ ﷺ يَقُولُ: ((إِنَّ اللّٰهَ يُوصِيكُمْ بِأُمَّهَاتِكُمْ، ثُمَّ يُوصِيكُمْ بِأُمَّهَاتِكُمْ، ثُمَّ يُوصِيكُمْ بِآبَائِكُمْ، ثُمَّ يُوصِيكُمْ بِالأَقْرَبِ فَالأَقْرَبِ)).

**(60)** ........ Miqdam ibn Mə'dikərib[1] ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Həqiqətən, Allah sizə analarınızın qeydinə qalmağı, sonra *yenə* analarınızın qeydinə qalmağı, sonra atalarınızın qeydinə qalmağı, sonra da ən yaxın və ən yaxın olanların qeydinə qalmağı buyurur."[2]

٦١- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ، قَالَ: حَدَّثَنَا الْخَزْرَجُ بْنُ عُثْمَانَ أَبُو الْخَطَّابِ السَّعْدِيُّ قَالَ: أَخْبَرَنَا أَبُو أَيُّوبَ سُلَيْمَانُ مَوْلَى عُثْمَانَ بْنِ عَفَّانَ قَالَ: جَاءَنَا أَبُو هُرَيْرَةَ عَشِيَّةَ الْخَمِيسِ لَيْلَةَ الْجُمُعَةِ فَقَالَ: أُحَرِّجُ عَلَى كُلِّ قَاطِعِ رَحِمٍ لَمَا قَامَ مِنْ عِنْدِنَا، فَلَمْ يَقُمْ أَحَدٌ حَتَّى قَالَ ثَلاَثًا، فَأَتَى فَتًى عَمَّةً لَهُ قَدْ صَرَمَهَا مُنْذُ سَنَتَيْنِ، فَدَخَلَ عَلَيْهَا، فَقَالَتْ لَهُ: يَا ابْنَ أَخِي، مَا جَاءَ بِكَ؟ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ كَذَا وَكَذَا، قَالَتْ: ارْجِعْ إِلَيْهِ فَسَلْهُ: لِمَ قَالَ ذَاكَ؟ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((إِنَّ أَعْمَالَ بَنِي آدَمَ تُعْرَضُ عَلَى اللّٰهِ تَبَارَكَ وَتَعَالَى عَشِيَّةَ كُلِّ خَمِيسٍ لَيْلَةَ الْجُمُعَةِ، فَلاَ يَقْبَلُ عَمَلَ قَاطِعِ رَحِمٍ)).

**(61)** ........ Osman ibn Əffanın mövlası[3] Əbu Əyyub Suleyman rəvayət edir ki, Əbu Hureyrə cümə axşamından cüməyə keçən gecə yanımıza gəlib dedi: "*Aranızda* qohumluq əlaqələrini kəsən adam varsa, qoy, ayağa qalxsın,

---

[1] Əbu Yəhya Miqdam ibn Mə'dikərib ibn Amr ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (İkmal Təhzib əl-Kəmal, 4725-ci tərcümeyi-hal).

[2] Bu hədisi İbn Macə (3661), Əhməd (4/131 və 132), Hakim (4/151) rəvayət etmiş və şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] 39-cu fəslin qeydlərinə bax.

onu tənbeh edəcəyəm."[1] O, bunu üç dəfə təkrar etdi, lakin heç kəs yerindən tərpənmədi. Sonra bir cavan iki ildən bəri əlaqələrini kəsdiyi bibisinin yanına gəldi[2] və bibisi (ondan): "Qardaşoğlu, səni bura gətirən nədir?"– deyə soruşdu. O, dedi: "Mən Əbu Hureyrənin belə-belə dediyini eşitdim." Bibisi dedi: "Onun yanına qayıt və ondan nəyə görə belə dediyini soruş." (O, bunun səbəbini Əbu Hureyrədən soruşduqda) o, dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Adəm oğullarının əməlləri hər cümə axşamından cüməyə keçən gecə Uca və Ulu Allaha ərz edilir. (Həmin vaxt Uca Allah) qohumluq əlaqələrini kəsən kimsənin əməllərini qəbul etmir."[3]

**٦٢-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عِمْرَانَ بْنِ أَبِي لَيْلَى قَالَ: حَدَّثَنَا أَيُّوبُ بْنُ جَابِرٍ الْحَنَفِيُّ، عَنْ آدَمَ بْنِ عَلِيٍّ، عَنِ ابْنِ عُمَرَ: ((مَا أَنْفَقَ الرَّجُلُ عَلَى نَفْسِهِ وَأَهْلِهِ يَحْتَسِبُهَا إِلاَّ آجَرَهُ اللَّهُ تَعَالَى فِيهَا، وَابْدَأْ بِمَنْ تَعُولُ، فَإِنْ كَانَ فَضْلاً فَالأَقْرَبَ الأَقْرَبَ، وَإِنْ كَانَ فَضْلاً فَنَاوِلْ)).

**(62)** ........ İbn Ömər رضي الله عنهما demişdir: "Savab qazanmaq məqsədilə malından özünə və ailəsinə xərcləyən elə bir adam yoxdur ki, bu əmələ görə Uca Allah onu mükafatlandırmasın. Elə isə, baxmağın vacib olan kimsələrdən[4] başla. Malından artıq qalarsa, onu ən yaxın və ən yaxın olanlara (xərclə). Yenə artıq qalarsa, onu dilədiyinə ver."[5]

---

[1] Əbu Hureyrənin رضي الله عنه bu hərəkəti, münasib vaxtda münasib söz deməyin məqsədəuyğun olduğuna dəlalət edir.

[2] Bu, elm əhli ilə oturub-durmağın səmərəsidir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Yaxşı dostla pis dostun məsəli ətir satanla körük vuranın məsəlinə bənzəyir. Ətir satana gəlincə, ya o sənə ətir bağışlar, ya sən ondan ətir alarsan, ya da ondan gözəl iy gəldiyini duyarsan. Körük vurana gəldikdə isə ya o sənin paltarını yandırar, ya da ondan pis iy gəldiyini duyarsan" (Səhih əl-Buxari, 5534). Allah kimə xeyir nəsib etmək istəyirsə ona əməlisaleh insanlarla dost olmağa müvəffəq edir.

[3] Bu hədisi Əhməd (2/484) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih Tərğib vət-Tərhib" əsərində (2538) onun "həsən" olduğunu demişdir.

[4] Burada insanın özü, ata-anası və digər ailə üzvləri nəzərdə tutulur.

[5] Bu hədisin isnadında keçən Muhəmməd ibn İmran "zəif" ravidir və elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Lakin bu hədisin mətni "səhih"dir. Onun "səhih" olması Buxarinin bu kitabda nəql etdiyi 196-cı və 197-ci hədislərdə öz təsdiqini tapmışdır.

## ٣١- بَابٌ لا تَنْزِلُ الرَّحْمَةُ عَلَى قَوْمٍ فِيهِمْ قَاطِعُ رَحِمٍ

## 31-ci fəsil. Aralarında qohumluq əlaqəsini kəsən bir kimsə olan camaata rəhmət nazil olmur

٦٣- حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ مُوسَى قَالَ: أَخْبَرَنَا سُلَيْمَانُ أَبُو إِدَامٍ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ أَبِي أَوْفَى يَقُولُ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ الرَّحْمَةَ لاَ تَنْزِلُ عَلَى قَوْمٍ فِيهِمْ قَاطِعُ رَحِمٍ)).

**(63)** ........ Abdullah ibn Əbi Aufə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Aralarında qohumluq əlaqələrini kəsən bir kimsə olan camaata rəhmət nazil olmaz."[1]

---

[1] Bu hədisin isnadında keçən Əbu İdam Suleyman ibn Zeyd əl-Muharibi "mətruk" (hədisi tərk edilmiş) ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad", həmçinin, "Silsilətul-Əhadisid-Daifə" əsərində (1456) bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadının "səhih" olacağı təqdirdə, Bu, o deməkdir ki, bilərəkdən qohumluq əlaqəsini kəsən adamla oturub-duran, onun bu günahına göz yuman və bunu ona inkar etməyən kimsələrə rəhmət nazil olmur (Feydul-Qədir).

## ٣٢- بَابُ إِثْمِ قَاطِعِ الرَّحِمِ

## 32-ci fəsil. Qohumluq əlaqələrini kəsənin günahı

٦٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي عَقِيلٌ، عَنِ ابْنِ شِهَابٍ، أَخْبَرَنِي مُحَمَّدُ بْنُ جُبَيْرِ بْنِ مُطْعِمٍ، أَنَّ جُبَيْرَ بْنَ مُطْعِمٍ أَخْبَرَهُ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((لاَ يَدْخُلُ الْجَنَّةَ قَاطِعُ رَحِمٍ)).

**(64)** ........ Cubeyr ibn Mutim[1] ﷺ rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Qohumluq əlaqələrini kəsən kimsə Cənnətə daxil olmaz.[2]"[3]

٦٥- حَدَّثَنَا حَجَّاجُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: أَخْبَرَنِي مُحَمَّدُ بْنُ عَبْدِ الْجَبَّارِ قَالَ: سَمِعْتُ مُحَمَّدَ بْنَ كَعْبٍ، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ يُحَدِّثُ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((إِنَّ الرَّحِمَ شَجْنَةٌ مِنَ الرَّحْمَنِ، تَقُولُ: يَا رَبِّ، إِنِّي ظُلِمْتُ، يَا رَبِّ، إِنِّي قُطِعْتُ، يَا رَبِّ، إِنِّي إِنِّي، يَا رَبِّ، يَا رَبِّ. فَيُجِيبُهَا: أَلاَ تَرْضَيْنَ أَنْ أَقْطَعَ مَنْ قَطَعَكِ، وَأَصِلَ مَنْ وَصَلَكِ؟))

---

[1] Əbu Muhəmməd Cubeyr ibn Mutim ibn Adiy əl-Qurəşi ən-Nofəli ﷺ, Peyğəmbərin ﷺ həm əmisi oğlu, həm də səhabəsidir (Siyər Əlam ən-Nubələ, 18-ci tərcümeyi-hal).

[2] Nəvəvi demişdir: "Hədisdə keçən "Cənnətə daxil olmaz" sözü iki cür izah edilə bilər:

– birincisi budur ki, bu söz qohumlarla əlaqəni kəsməyin haram olduğunu bilə-bilə belə yaramaz əməli halal sayan kimsəyə aiddir. Allahın və Onun peyğəmbərinin ﷺ haram buyurduğunu halal sayan adam isə kafir sayılır və beləsi Cənnətə əsla girməyəcək.

– ikincisi də budur ki, o kəs Cənnətin qapıları açıldığı zaman oraya ilk əvvəl daxil olacaq kimsələrlə birgə daxil olmayacaq, əksinə, bir müddət məhşərdə saxlanılacaq. Bundan sonra o, ya cəzalandırılacaq, ya da Allah ona rəhm edəcək və beləliklə də o, Cənnətə daxil olacaq.

Haqq yolu tutub gedənlərin bu etiqadda olduğuna görə biz hədisi bu şəkildə izah etdik. Əvvəldə qeyd etmişdik ki, haqq əhlinin etiqadına görə günah işlər görmüş və tövhid üzərində dünyasını dəyişmiş hər kəs Uca Allahın istəyi altındadır. İstər onu bağışlar və Cənnətə daxil edər, istərsə də, əvvəlcə cəzalandırar, sonra Cənnətə daxil edər" (Şərh Səhih Muslim).

[3] Bu hədisi Buxari (5984), Muslim (6685) və Əbu Davud (1698) rəvayət etmişdir.

**(65)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Rəhm ər-Rəhmandan bir şəcnədir.[1] O deyəcək: "Ey Rəbbim! Mənə zülm edildi. Ey Rəbbim! Məni kəsdilər. Ey Rəbbim! Mənə..., mənə... Ey Rəbbim, ey Rəbbim!"[2] Rəbbi də ona belə buyuracaq: "*Qohumluq* əlaqəsini kəsən kimsəni kəsməyimə, əlaqə saxlayan kimsə ilə də əlaqə saxladığıma razı deyilsənmi?!"[3]

**٦٦–** حَدَّثَنَا آدَمُ بْنُ أَبِي إِيَاسٍ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ سَمْعَانَ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَتَعَوَّذُ مِنْ إِمَارَةِ الصِّبْيَانِ وَالسُّفَهَاءِ. فَقَالَ سَعِيدُ بْنُ سَمْعَانَ: فَأَخْبَرَنِي ابْنُ حَسَنَةَ الْجُهَنِيُّ أَنَّهُ قَالَ لأَبِي هُرَيْرَةَ: مَا آيَةُ ذَلِكَ؟ قَالَ: ((أَنْ تُقْطَعَ الأَرْحَامُ، وَيُطَاعَ الْمُغْوِي، وَيُعْصَى الْمُرْشِدُ)).

**(66)** ........ Səid ibn Səman demişdir: "Mən Əbu Hureyrənin balacaların və səfehlərin hökmranlığından Allaha sığındığını[4] eşitdim. İbn Həsənə əl-Cuhəni mənə xəbər verdi ki, o, Əbu Hureyrədən: "Bunun əlaməti nədir?"– deyə soruşduqda, Əbu Hureyrə ona belə cavab verdi: "(Həmin vaxt) qohumluq əlaqələri kəsiləcək, azğınlığa aparan adama itaət ediləcək və doğru yol göstərəni saymayacaqlar."[5]

---

[1] 54-cü və 55-ci hədisin qeydlərinə bax.

[2] Hədisdə keçən "mənə..., mənə... Ey Rəbbim, ey Rəbbim!" cümləsinin xəbəri zikr edilməmişdir. Burada Peyğəmbər ﷺ qohumluq əlaqəsinin özünə qarşı edilmiş digər haqsızlıqlardan da şikayət edəcəyini xəbər verir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[4] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Yetmişin əvvəllərindən və balacaların hökmranlığından Allaha sığının" (Musnəd Əhməd, 2/326, 355 və 448; Musənnəf ibn Əbu Şeybə, 19082; Musnəd əl-Bəzzar, 3358; Silsilətul-Əhadisis-Səhihə, 3191); digər hədisdə rəvayət edilir ki, Əbu Hureyrə ﷺ belə demişdir: "Mən doğru danışan və doğruluğu təsdiq edilmiş Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Mənim ümmətim Qureyşdən olan bir neçə yeniyetmənin əlində məhv olacaq." (Sonra Əbu Hureyrə Mərvan ibn Həkəmə dedi): "İstəyirsənsə, onların adlarını *sənə* verim: *bu,* filankəsin oğulları və filankəsin oğullarıdır" (Səhih əl-Buxari, 3605). Odur ki, Əbu Hureyrə ﷺ onlardan Allaha sığınıb deyərdi: "Əuzu billahi min imaratis-sibyani vəs-sufəha!"

[5] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində Səid ibn Səmanın bilavasitə Əbu Hureyrədən eşitdiyinin "səhih", İbn Həsənə əl-Cuhəninin dediklərinin isə "zəif" olduğunu demişdir. Belə ki, İbn Həsənə əl-Cuhəni "məchul" ravidir.

## ٣٣– بَابُ عُقُوبَةِ قَاطِعِ الرَّحِمِ فِي الدُّنْيَا

## 33-cü fəsil. Qohumluq əlaqələrini kəsənin dünyadakı aqibəti

٦٧– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا عُيَيْنَةُ بْنُ عَبْدِ الرَّحْمَنِ قَالَ: سَمِعْتُ أَبِي يُحَدِّثُ، عَنْ أَبِي بَكْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا مِنْ ذَنْبٍ أَحْرَى أَنْ يُعَجِّلَ اللَّهُ لِصَاحِبِهِ الْعُقُوبَةَ فِي الدُّنْيَا، مَعَ مَا يَدَّخِرُ لَهُ فِي الآخِرَةِ، مِنْ قَطِيعَةِ الرَّحِمِ وَالْبَغْيِ)).

**(67)** ........ Əbu Bəkrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Günah sahibinə verilən cəzanın *Axirətə* saxlanılması ilə yanaşı *bu dünyada da* tezləşdirilməsi üçün, azğınlıq etmək və qohumluq əlaqələrini kəsmək kimi günahdan daha uyğun bir günah yoxdur."[1]

---

[1] 29-cu hədisin qeydlərinə bax.

## ٣٤- بَابُ لَيْسَ الْوَاصِلُ بِالْمُكَافِئِ

## 34-cü fəsil. Qarşılığını vermək məqsədi ilə qohumluq əlaqəsini saxlayan kəs əlaqə saxlayan adam sayıla bilməz

**٦٨-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، وَالْحَسَنِ بْنِ عَمْرٍو، وَفِطْرٍ، عَنْ مُجَاهِدٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ سُفْيَانُ: لَمْ يَرْفَعْهُ الأَعْمَشُ إِلَى النَّبِيِّ ﷺ، وَرَفَعَهُ الْحَسَنُ وَفِطْرٌ عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ الْوَاصِلُ بِالْمُكَافِئِ، وَلَكِنَّ الْوَاصِلَ الَّذِي إِذَا قُطِعَتْ رَحِمُهُ وَصَلَهَا)).

**(68)** ........ Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Qarşılığını vermək məqsədi ilə qohumluq əlaqəsini saxlayan kəs əlaqə saxlayan adam sayıla bilməz. Lakin həqiqi əlaqə saxlayan adam o kimsədir ki, qohumu onunla əlaqələri kəssə belə onunla yenidən əlaqə qursun.[1]”[2]

---

[1] Burada “qarşılığını vermək məqsədi ilə qohumluq əlaqələrini saxlayan kəs” deyildikdə, Allah rizasını qazanmaq məqsədi ilə yox, məhz əvəz-əvəz etmək üçün qohumlarla əlaqə saxlayan adam nəzərdə tutulur. Yəni yalnız qohumları onu ziyarət etdiyi təqdirdə, o, onları ziyarət edər. Həqiqi əlaqə saxlayan adam o kimsədir ki, qohumları ilə əlaqə saxlamaqda məqsədi Allahın əmrini yerinə yetirmək və Onun razılığını qazanmaq olsun. Bu mövzuda varid olmuş hədislərdən belə nəticə çıxır ki, insanlar qohumluq əlaqəsini saxlamaq xüsusunda üç qismə bölünürlər: Allah rizasını qazanmaq üçün qohumları ilə əlaqə saxlayan kəslər, əvəzini vermək məqsədi ilə əlaqə saxlayan kəslər və bir də qohumluq əlaqəsini kəsən adamlar.

[2] Bu hədisi Buxari (5991), Əbu Davud (1697) və Tirmizi (2032) rəvayət etmişdir.

## ٣٥- بَابُ فَضْلِ مَنْ يَصِلُ ذَا الرَّحِمِ الظَّالِمِ

## 35-ci fəsil. Zalım qohumla əlaqə saxlamağın fəziləti

٦٩- حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ طَلْحَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْسَجَةَ، عَنِ الْبَرَاءِ قَالَ: جَاءَ أَعْرَابِيٌّ فَقَالَ: يَا نَبِيَّ اللَّهِ، عَلِّمْنِي عَمَلاً يُدْخِلُنِي الْجَنَّةَ، قَالَ: ((لَئِنْ كُنْتَ أَقْصَرْتَ الْخُطْبَةَ لَقَدْ أَعْرَضْتَ الْمَسْأَلَةَ، أَعْتِقِ النَّسَمَةَ، وَفُكَّ الرَّقَبَةَ)) قَالَ: أَوَ لَيْسَتَا وَاحِدًا؟ قَالَ: ((لاَ، عِتْقُ النَّسَمَةِ أَنْ تَعْتِقَ النَّسَمَةَ، وَفَكُّ الرَّقَبَةِ أَنْ تُعِينَ عَلَى الرَّقَبَةِ، وَالْمَنِيحَةُ الرَّغُوبُ، وَالْفَيْءُ عَلَى ذِي الرَّحِمِ، فَإِنْ لَمْ تُطِقْ ذَلِكَ، فَأْمُرْ بِالْمَعْرُوفِ، وَانْهَ عَنِ الْمُنْكَرِ، فَإِنْ لَمْ تُطِقْ ذَلِكَ، فَكُفَّ لِسَانَكَ إِلاَّ مِنْ خَيْرٍ)).

**(69)** ........ Bəra[1] ﷺ rəvayət edir ki, bir bədəvi gəlib (Peyğəmbərə ﷺ) dedi: "Ey Allahın peyğəmbəri, mənə elə bir əməl öyrət ki, o, məni Cənnətə daxil etsin." Peyğəmbər ﷺ buyurdu: "Müraciəti qısa etsən də, məsələni genişləndirmiş oldun.[2] Kölə azad et, yaxud kimsəni köləlikdən azad et." Bədəvi dedi: "Məgər, ikisi də bir şey deyilmi?" Peyğəmbər ﷺ buyurdu: "Xeyr, kölə azad etmək onu azad etməyin, kimsəni köləlikdən azad etmək isə kölənin azad edilməsinə köməklik göstərməyindir.[3] *Həmçinin,* məhsuldar heyvanı[4]

---

[1] Əbu Umarə Bəra ibn Azib ibn Haris əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ məşhur səhabələrindəndir. Peyğəmbərlə ﷺ birlikdə bir çox döyüşlərdə iştirak etmişdir (Siyər Əlam ən-Nubələ, 39-cu tərcümeyi-hal).

[2] Səhabənin verdiyi sual qısa olsa da çox mənalar əhatə edir və çox şey tələb edirdi.

[3] Burada "onu azad etməyin" deyildikdə, adamın heç kəsə ortaq olmadan ancaq öz vəsaiti sayəsində kölə azad etməsi, "azad edilməsinə köməklik göstərməyin" deyildikdə isə köləni azad etmək istəyən ortaqlarla birgə onu azad etməsi nəzərdə tutulur. Hər ikisi Cənnətə girmək üçün səbəbdir. Bu xüsusda varid olmuş digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim bir müsəlmanı köləlikdən azad edərsə, azad edilmiş adamın hər bir əzasına görə Allah azad edən kimsənin bir əzasını Cəhənnəm odundan xilas edər" (Səhih əl-Buxari, 2517).

[4] Burada "məhsuldar heyvan" deyildikdə, bol süd verən, yaxud yunu çox olan qoyun, dəvə və başqa bu kimi ev heyvanları nəzərdə tutulur. Deməli, belə heyvanı müvəqqəti

istifadəyə ver, qənimətdən qohuma xərclə.[1] Bunları bacarmasan, (insanlara) yaxşı işlər görməyi əmr et və (onları) pis işlərdən çəkindir.[2] Bunu da bacarmasan, onda heç olmasa dilini saxla, ancaq xeyir söylə.[3]"[4]

---

olaraq ehtiyacı olan bir kimsəyə vermək Cənnətə aparan səbəblərdəndir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Qırx yaxşılıq var ki, bunların ən üstünü ehtiyacı olan kimsəyə *müvəqqəti olaraq südündən istifadə etmək üçün* sağmal keçi verməkdir. Hər kim savabını *Allahdan* umaraq və vəd olunanı təsdiq edərək bu yaxşılıqlardan birini yerinə yetirsə, Allah bunun sayəsində onu Cənnətə daxil edər" (Səhih əl-Buxari, 2631).

[1] Bu hədisdə "qohum" sözü ümumi şəkildə varid olmuşdur, lakin İmam Əhmədin "Musnəd" əsərində (4/299) eynimənalı hədisdə "qənimətdən zalım qohuma xərclə" deyilir və beləliklə də, bu ləfz fəslin ünvanına dəlalət edir.

[2] Yəni, kölə azad etməyə, yaxud onun köləlikdən azad edilməsinə köməklik göstərməyə, habelə, məhsuldar heyvanı istifadəyə verməyə və ya qənimətdən qohuma xərcləməyə imkanı olmayan kəs Cənnətə girmək üçün insanlara yaxşı işlər görməyi əmr etməli və onları pis işlərdən çəkindirməlidir. Lakin xüsusi ilə qeyd etmək lazımdır ki, bu, yalnız yaxşı işlər görüb pis işlərdən çəkinən möminə fayda verər. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qiyamət günü bir nəfər gətirilib Cəhənnəm oduna atılacaq. Onun bağırsaqları atəşin içinə töküləcək və o, dəyirmanın ətrafında fırlanan uzunqulaq kimi fırlanacaq. Cəhənnəm sakinləri onun başına yığışıb deyəcəklər: "Ey filankəs, niyə bu kökə düşmüsən? Məgər sən bizə yaxşı işlər görməyi buyurub, pis əməlləri qadağan etmirdinmi?!" O deyəcək: "Mən sizə yaxşı işlər görməyi buyururdum, lakin özüm buna əməl etmirdim, sizə pis əməlləri qadağan edirdim, amma özüm o işləri görürdüm" (Səhih əl-Buxari, 3267).

[3] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim mənə iki çənəsi arasındakını və iki budu arasındakını qoruyacağına zəmanət verərsə, mən onun Cənnətə girəcəyinə zəmanət verərəm" (Səhih əl-Buxari, 6474); həmçinin o, demişdir: "Kim sussa, nicat tapar" (Sunən ət-Tirmizi, 2/82; Musnəd İmam Əhməd, 2/159, 177; Silsilətul-Əhaddisis-Səhihə, 536). Burada dili saxlamaq və susmaq deyildikdə, mütləq şəkildə susmaq nəzərdə tutulmur. Belə ki, yeri gələndə xeyir söyləmək müstəsnadır. Peyğəmbər ﷺ də belə edərdi, o, çox vaxt susar və ancaq lazım gəldikdə danışardı, həmçinin, səhabələrinə də belə etməyi nəsihət edib deyərdi: "Kim Allaha və Axirət gününə inanırsa ya xeyir danışsın, ya da sussun" (Səhih əl-Buxari, 6018).

[4] Bu hədisi Əhməd (4/299) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٦- بَابُ مَنْ وَصَلَ رَحِمَهُ فِي الْجَاهِلِيَّةِ ثُمَّ أَسْلَمَ

## 36-cı fəsil. Cahiliyyət dövründə qohumları ilə əlaqə saxlayan, sonra da müsəlman olan kəs

٧٠- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي عُرْوَةُ بْنُ الزُّبَيْرِ، أَنَّ حَكِيمَ بْنَ حِزَامٍ أَخْبَرَهُ، أَنَّهُ قَالَ لِلنَّبِيِّ ﷺ: أَرَأَيْتَ أُمُورًا كُنْتُ أَتَحَنَّثُ بِهَا فِي الْجَاهِلِيَّةِ، مِنْ صِلَةٍ، وَعَتَاقَةٍ، وَصَدَقَةٍ، فَهَلْ لِي فِيهَا أَجْرٌ؟ قَالَ حَكِيمٌ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَسْلَمْتَ عَلَى مَا سَلَفَ مِنْ خَيْرٍ)).

**(70)** ........ Həkim ibn Hizam[1] demişdir: “(Mən Peyğəmbərdən ﷺ) soruşdum: “(Ya Rəsulullah,)[2] de görüm, cahiliyyət dövründə qohumluq əlaqələrini möhkəmləndirmək, qul azad etmək və sədəqə vermək kimi gördüyüm yaxşı işlərə görə mənə savab yazılırmı?” Rəsulullah ﷺ buyurdu: “Sən olub keçən yaxşılıqlarla bərabər müsəlman oldun![3]”[4]

---

[1] Əbu Xalid Həkim ibn Hizam ibn Xuveylid əl-Qurəşi əl-Əsədi ؓ, Peyğəmbərin ﷺ səhabəsi, habelə, Xədicənin ؓ qardaşı oğludur. Məkkənin fəthi günü İslam dinini qəbul etmiş, Huneyn və Taifdəki döyüşlərdə iştirak etmişdir. Fil ilindən on üç il əvvəl dünyaya gəlmiş və nəhayət, hicrətin 54-cü ilində yüz iyirmi yaşında vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 18-ci tərcümeyi hal).

[2] Mötərizələr arasında olan əlavələr İmam Buxarinin “Səhih”ində nəql edilmişdir.

[3] Səhabə müşrik olduğu dövrdə etdiyi yaxşılıqların puç olub-olmadığını öyrənmək istəyir. Çünki Uca Allah Quranda buyurur: **“Əgər *Allaha* şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan”** (əz-Zumər, 65). Peyğəmbər ﷺ də ona Allahın mərhəmətinin nə dərəcədə geniş olduğunu, İslamı qəbul etdiyinə görə günahlarının silindiyini, üstəlik, kafir olduğu vaxt etdiyi yaxşılıqların savabını alacağını xəbər verir.

[4] Bu hədisi Buxari (1436) və Əhməd (3/402) rəvayət etmişdir.

## ٣٧- بَابُ صِلَةِ ذِي الرَّحِمِ الْمُشْرِكِ وَالْهَدِيَّة

## 37-ci fəsil. Müşrik qohumla əlaqə saxlamaq və ona hədiyyə vermək[1]

٧١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا عَبْدَةُ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، رَأَى عُمَرُ حُلَّةً سِيَرَاءَ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، لَوِ اشْتَرَيْتَ هَذِهِ، فَلَبِسْتَهَا يَوْمَ الْجُمُعَةِ، وَلِلْوُفُودِ إِذَا أَتَوْكَ، فَقَالَ: ((يَا عُمَرُ، إِنَّمَا يَلْبَسُ هَذِهِ مَنْ لاَ خَلاَقَ لَهُ))، ثُمَّ أُهْدِيَ لِلنَّبِيِّ ﷺ مِنْهَا حُلَلٌ، فَأَهْدَى إِلَى عُمَرَ مِنْهَا حُلَّةً، فَجَاءَ عُمَرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، بَعَثْتَ إِلَيَّ هَذِهِ، وَقَدْ سَمِعْتُكَ قُلْتَ فِيهَا مَا قُلْتَ، قَالَ: ((إِنِّي لَمْ أُهْدِهَا لَكَ لِتَلْبَسَهَا، إِنَّمَا أَهْدَيْتُهَا إِلَيْكَ لِتَبِيعَهَا أَوْ لِتَكْسُوَهَا))، فَأَهْدَاهَا عُمَرُ لأَخٍ لَهُ مِنْ أُمِّهِ مُشْرِكٍ.

**(71)** ........ İbn Ömər ﷺ rəvayət edir ki, (bir dəfə) Ömər ibn Xattab (məscidin qapısının yanında satılan) ipəkdən olan zolaqlı bürüncəyi görüb dedi: "Ya Rəsulullah, yaxşı olar ki, bu paltarı alasan və onu həm cümə günləri, həm də yanına nümayəndələr gələndə geyəsən." Peyğəmbər ﷺ buyurdu: "Ey Ömər, bu paltarı *axirətdə* heç bir payı olmayan kimsələr geyər!" (Bir müddət) sonra Peyğəmbərə ﷺ belə ipək bürüncəklər hədiyyə verdilər və o, bunlardan birini Ömərə hədiyyə göndərdi. Ömər Rəsulullahın ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, bunu mənə göndərmisən, fəqət onun haqqında dediyini artıq demisən." Peyğəmbər ﷺ buyurdu: "Mən bunu sənə ona görə vermədim ki, sən onu geyəsən. Verdim ki, onu ya satasan, ya da başqasına bağışlayasan." Belə olduqda, Ömər onu anabir müşrik qardaşına hədiyyə verdi.[2]

---

[1] İmam Buxarinin bu fəsildə nəql etdiyi hədis müşrik qohumla əlaqə saxlamağın vacibliyinə dəlalət edir. Məqsəd də onu sevmək və onun etdiyi günahlara göz yummaq yox, əksinə, onun kafir olduğuna nifrət etmək, günahlarını bəyan etmək, habelə, İslam əxlaqını ona göstərmək və onu doğru yola dəvət etmək olmalıdır. Və əgər müşrik qohum-əqrəba ilə əlaqə saxlamaq bu dərəcədə əhəmiyyətlidirsə, onda mömin qohumlarla əlaqə saxlamaq daha məsuliyyətli işdir.

[2] 26-cı hədisin qeydlərinə bax.

## ٣٨- بَابٌ تَعَلَّمُوا مِنْ أَنْسَابِكُمْ مَا تَصِلُونَ بِهِ أَرْحَامَكُمْ

## 38-ci fəsil. Qohumlarınızla əlaqə saxlamaq üçün əsil-nəsəbinizi öyrənin[1]

٧٢- حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا عَتَّابُ بْنُ بَشِيرٍ، عَنْ إِسْحَاقَ بْنِ رَاشِدٍ، عَنِ الزُّهْرِيِّ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ جُبَيْرِ بْنِ مُطْعِمٍ، أَنَّ جُبَيْرَ بْنَ مُطْعِمٍ أَخْبَرَهُ، أَنَّهُ سَمِعَ عُمَرَ بْنَ الْخَطَّابِ ﷺ يَقُولُ عَلَى الْمِنْبَرِ: ((تَعَلَّمُوا أَنْسَابَكُمْ، ثُمَّ صِلُوا أَرْحَامَكُمْ، وَاللَّهِ إِنَّهُ لَيَكُونُ بَيْنَ الرَّجُلِ وَبَيْنَ أَخِيهِ الشَّيْءُ، وَلَوْ يَعْلَمُ الَّذِي بَيْنَهُ وَبَيْنَهُ مِنْ دَاخِلَةِ الرَّحِمِ، لَأَوْزَعَهُ ذَلِكَ عَنِ انْتِهَاكِهِ)).

**(72)** ........ Cubeyr ibn Mutim ﷺ rəvayət edir ki, mən Ömərin minbərdə ikən belə dediyini eşitdim: "Əsil-nəsəbinizi öyrənin,[2] sonra da qohumlarınızla əlaqə saxlayın! Vallahi, hər kəsin öz qardaşı ilə arasında inciklik ola bilər. Və əgər qardaşından inciyən kimsə aralarındakı qohumluq əlaqəsinin mahiyyətini bilsə, bu (bilgi) onu əlaqələri kəsməməyə təhrik edər."[3]

٧٣- حَدَّثَنَا أَحْمَدُ بْنُ يَعْقُوبَ قَالَ: أَخْبَرَنَا إِسْحَاقُ بْنُ سَعِيدِ بْنِ عَمْرٍو، أَنَّهُ سَمِعَ أَبَاهُ يُحَدِّثُ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّهُ قَالَ: ((احْفَظُوا أَنْسَابَكُمْ، تَصِلُوا أَرْحَامَكُمْ، فَإِنَّهُ لاَ بُعْدَ بِالرَّحِمِ إِذَا قَرُبَتْ، وَإِنْ كَانَتْ بَعِيدَةً، وَلاَ قُرْبَ بِهَا إِذَا بَعُدَتْ، وَإِنْ كَانَتْ قَرِيبَةً، وَكُلُّ رَحِمٍ آتِيَةٌ يَوْمَ الْقِيَامَةِ أَمَامَ صَاحِبِهَا، تَشْهَدُ لَهُ بِصِلَةٍ إِنْ كَانَ وَصَلَهَا، وَعَلَيْهِ بِقَطِيعَةٍ إِنْ كَانَ قَطَعَهَا)).

---

[1] Demək, qohumları ilə əlaqə saxlamaq istəyən kəs öz əsil-nəsəbini – əmilərini, dayılarını, bibilərini, xalalarını və digər qohum-əqrəbasını tanımalıdır. Qohumlarını tanımayan adam onlarla necə əlaqə saxlaya bilər?!

[2] Burada Ömər ibn Xattab ﷺ Peyğəmbərin ﷺ vaxtı ilə öz ümmətinə etdiyi nəsihəti müsəlmanların yadına salır. Bir zaman Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qohumlarınızla əlaqə saxlamaq üçün əsil-nəsəbinizi öyrənin. Çünki qohumlarla əlaqə saxlamaq, *adama* əhli-əyalının sevgisini qazandıran, var-dövlətini artıran və ömrünü uzadan *bir səbəbdir*. (Sunən ət-Tirmizi, 1/357-358; Mustədrək, 4/161; Musnəd İmam Əhməd, 2/374; Silsilətul-Əhadisis-Səhihə, 276).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

**(73)** ........ İbn Abbas ﷺ demişdir: "Əsil-nəsəbinizi qoruyun ki, qohumlarınızla əlaqələri möhkəmləndirəsiniz. Çünki qohum nə qədər uzaqda olsa da, sən onunla əlaqə saxlasan, uzaq sayılmaz, həmçinin, qohum nə qədər yaxında olsa da, sən onunla əlaqəni kəssən, yaxın sayılmaz. Qiyamət günü hər bir qohumluq əlaqəsi öz sahibinin önünə gələcək və əgər bu adam qohumluq əlaqələrini saxlamışsa, onun lehinə, bu əlaqələri kəsmişsə, onun əleyhinə şahidlik edəcək.[1]"[2]

---

[1] 50-ci və 54-cü hədislərə və onların qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demiş, üstəlik, başqa hədis kitablarında İbn Abbasın ﷺ: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim:.." deyərək, bu hədisi rəvayət etdiyini bildirmişdir. Həmin hədis "mərfu" isnadla Beyhəqinin "Şoəbul-İman" əsərində (7570) öz təsdiqini tapmışdır.

## ٣٩- بَابٌ: هَلْ يَقُولُ الْمَوْلَى: ((إِنِّي مِنْ فُلانٍ؟))

## 39-cu fəsil. Mövla:[1] "Mən filankəslərdənəm!"– deyə bilərmi?

٧٤- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنَا وَائِلُ بْنُ دَاوُدَ اللَّيْثِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي حَبِيبٍ قَالَ: قَالَ لِي عَبْدُ اللَّهِ بْنُ عُمَرَ: مِمَّنْ أَنْتَ؟ قُلْتُ: مِنْ تَيْمِ تَمِيمٍ، قَالَ: مِنْ أَنْفُسِهِمْ أَوْ مِنْ مَوَالِيهِمْ؟ قُلْتُ: مِنْ مَوَالِيهِمْ، قَالَ: فَهَلاَّ قُلْتَ: مِنْ مَوَالِيهِمْ إِذًا؟

**(74)** ........ Abdur-Rəhman ibn Əbu Həbib demişdir: "Abdullah ibn Ömər məndən: "Kimlərdənsən?"– deyə soruşdu. Mən: "Teymu Təmim qövmündənəm"– deyə cavab verdim. O soruşdu: "Onlardansan, ya onların mövlasısan?" Mən: "Mövlasıyam"– deyə cavab verdim. Onda, İbn Ömər dedi: "Bəs, niyə demirsən ki, "Onların mövlasıyam?!"[2]

---

[1] "Mövla" sözü ərəbcə (وَلِيَ) dost olmaq, yaxın olmaq felindən əmələ gəlmiş isimdir. Həmçinin "vəli", yəni dost yaxud "vəla", yəni dostluq sözləri də bu feldən əmələ gəlmiş isimlərdir. Bəzən köləlikdən azad edilmək, bəzən İslama dəvət olunmaq, bəzən qarşılıqlı olaraq əhd bağlamaq və başqa bu kimi səbəblər dost olmağa rəvac verir. Yəni adamın azad etdiyi kölə, yaxud İslama dəvət etdiyi şəxs, yaxud hər hansı bir işdə əlbir olacaqlarına dair əhd bağladığı kimsə onun mövlası hesab edilir. İmam Buxarinin bu fəsildə varid etdiyi əsər, belə deməyin, yəni kimin mövlası olduğunu bildirməklə nəsəbini bəlli etməyin zəruri olduğuna dəlalət edir. Və əgər biz İmam Buxarinin tərcümeyi-halına nəzər salsaq, onun nəsəbinin belə yazıldığını görə bilərik: Muhəmməd ibn İsmail ibn İbrahim ibn Muğira əl-Buxari Cufinin mövlası. Diqqət edin, əgər sadəcə əl-Cufi deyilsəydi, Buxarinin cufili olduğu güman edilər və beləliklə də, onun nəsəbi yanlış başa düşülərdi. Lakin ərəbcə "əl-Cufi mövlahum", yəni cufinin mövlası deyilməklə Cufinin yaxını olduğu aydın olur. Belə ki, Muhəmməd ibn İsmailin ata babası Muğira o dövrdə Buxaranın əmiri olmuş Yəman əl-Cufinin əli ilə İslam dinini qəbul etmişdir. Elə bu səbəbdən də, o, Yəman əl-Cufinin mövlası hesab edilir. Odur ki, İmam Buxarinin tərcümeyi-halında Cufinin mövlası, yəni yaxını deyilir.

[2] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Həbib "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

# ٤٠- بَابُ مَوْلَى الْقَوْمِ مِنْ أَنْفُسِهِمْ

## 40-cı fəsil. Qövmün mövlası onlardandır[1]

٧٥- حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عُثْمَانَ قَالَ: أَخْبَرَنِي إِسْمَاعِيلُ بْنُ عُبَيْدٍ، عَنْ أَبِيهِ عُبَيْدٍ، عَنْ رِفَاعَةَ بْنِ رَافِعٍ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ لِعُمَرَ ﷺ: ((اجْمَعْ لِي قَوْمَكَ))، فَجَمَعَهُمْ، فَلَمَّا حَضَرُوا بَابَ النَّبِيِّ ﷺ دَخَلَ عَلَيْهِ عُمَرُ فَقَالَ: قَدْ جَمَعْتُ لَكَ قَوْمِي، فَسَمِعَ ذَلِكَ الأَنْصَارُ فَقَالُوا: قَدْ نَزَلَ فِي قُرَيْشٍ الْوَحْيُ، فَجَاءَ الْمُسْتَمِعُ وَالنَّاظِرُ مَا يُقَالُ لَهُمْ، فَخَرَجَ النَّبِيُّ ﷺ، فَقَامَ بَيْنَ أَظْهُرِهِمْ فَقَالَ: ((هَلْ فِيكُمْ مِنْ غَيْرِكُمْ؟)) قَالُوا: نَعَمْ، فِينَا حَلِيفُنَا وَابْنُ أُخْتِنَا وَمَوَالِينَا، قَالَ النَّبِيُّ ﷺ: ((حَلِيفُنَا مِنَّا، وَابْنُ أُخْتِنَا مِنَّا، وَمَوَالِينَا مِنَّا، وَأَنْتُمْ تَسْمَعُونَ: إِنَّ أَوْلِيَائِي مِنْكُمُ الْمُتَّقُونَ، فَإِنْ كُنْتُمْ أُولَئِكَ فَذَاكَ، وَإِلاَّ فَانْظُرُوا، لاَ يَأْتِي النَّاسُ بِالأَعْمَالِ يَوْمَ الْقِيَامَةِ، وَتَأْتُونَ بِالأَثْقَالِ، فَيُعْرَضَ عَنْكُمْ))، ثُمَّ نَادَى فَقَالَ: ((يَا أَيُّهَا النَّاسُ))، وَرَفَعَ يَدَيْهِ يَضَعُهُمَا عَلَى رُءُوسِ

---

[1] İmam Buxari bu fəsilə belə ad verməklə hər hansı bir qövmün mövlasının nəsəbcə onlardan olduğunu yox, sadəcə onun o qövmə nə qədər yaxın və nə qədər əziz olmasını bəyan edir. Belə ki, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Vəla (dostluq) nəsəb doğmalığına bənzər bir doğmalıqdır. O, nə satılar, nə də hədiyyə edilər" (Sunən əd-Darimi, 3159; Səhih İbn Hibban, 4950; Mustədrək, 7990; Səhih əl-Cami, 7157). Burada Peyğəmbər ﷺ demək istəyir ki, hər hansı bir qövmün mövlası onlara nə qədər əziz olsa da, onu atasından başqasına mənsub etmək olmaz. Belə ki, nəsəbi dəyişmək küfr hesab edilir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim bilərəkdən doğma atasının deyil, başqa birisinin oğlu olduğunu iddia edərsə, küfr etmiş olar. Kim özünün heç bir qohumluq əlaqəsi olmadığı bir qəbiləyə mənsub olduğunu iddia edərsə, qoy Cəhənnəmdəki yerini tutsun" (Səhih əl-Buxari, 3508); digər bir hədisdə o, demişdir: "Ən böyük iftira, adamın öz atasına yox, başqa birisinə mənsub olduğunu iddia etməsi, habelə, *yuxuda* görmədiyi bir şeyi gördüyünü danışması və Peyğəmbərin ﷺ demədiyi bir sözü onun adından rəvayət etməsidir" (Səhih əl-Buxari, 3509). Lakin buna rəğmən, adam sevdiyi kimsənin – onu atasından qeyrisinə mənsub etməmək şərtilə – özünə yaxın olduğunu deyə bilər. Buna Peyğəmbərin ﷺ oğulluğa götürdüyü Zeyd ibn Harisəni misal çəkmək olar. Bir zaman Peyğəmbər ﷺ ona belə demişdir: "Sən ey Zeyd, mənim qardaşım və *köləlikdən* azad edilmiş sirdaşımsan! Sən məndənsən və qövmüm arasında mənə əziz olan kimsələrdənsən!" (Musnəd Əhməd, 5/204; Silsilətul-Əhadisis-Səhihə, 1150).

قُرَيْشٍ، ((أَيُّهَا النَّاسُ، إِنَّ قُرَيْشًا أَهْلُ أَمَانَةٍ، مَنْ بَغَى بِهِمْ))، قَالَ زُهَيْرٌ: أَظُنُّهُ قَالَ: الْعَوَاثِرَ، ((كَبَّهُ اللَّهُ لِمِنْخِرَيْهِ))، يَقُولُ ذَلِكَ ثَلاَثَ مَرَّاتٍ.

**(75)** ........ Rifa'a ibn Rafi' ﷺ rəvayət edir ki, (bir gün) Peyğəmbər ﷺ Ömərə dedi: "Qövmünü[1] mənim üçün bir yerə yığ!" Ömər onları bir yerə yığdı. Onlar Peyğəmbərin ﷺ qapısının yanına gəldikdə, Ömər onun hücrəsinə daxil olub dedi: "Qövmümü sənin üçün *bir yerə* yığdım." Ənsar bundan xəbər tutduqda: "Qureyş barədə vəhy nazil oldu"– dedilər. (Peyğəmbərin ﷺ) onlara nə söyləyəcəcyini dinləmək və (bu yığıncağa) baxmaq istəyənlər oraya gəldilər. Peyğəmbər ﷺ bayıra çıxdı və onların arasında durub soruşdu: "Aranızda sizdən başqası[2] varmı?" Onlar dedilər: "Bəli, müttəfiqlərimiz, bacımız uşaqları və mövlalarımız aramızdadırlar."[3] Peyğəmbər ﷺ buyurdu: "Müttəfiqlərimiz də bizdəndir, bacımız uşaqları da bizdəndir, mövlalarımız da bizdəndir.[4] Eşidin! Şübhəsiz ki, mənim dostlarım aranızdakı müttəqilərdir.[5] Əgər onlardansınızsa, çox yaxşı (elə bizim istədiyimiz də

---

[1] Yəni qureyşliləri.

[2] Burada Peyğəmbər ﷺ nəsəbcə qureyşli olmayanları qəsd edir.

[3] Hədisdə "müttəfiq" deyildikdə, yaxşı işlər görməkdə bir-birinə kömək edəcəklərinə dair öz aralarında əhd bağlamış kimsələr nəzərdə tutulur. Qureyşlilər demək istəyir ki, bu müttəfiqlər nəsəbcə qureyşli olmasalar da bağladıqları əhd sayəsində qureyşlilərin yaxınları hesab olunduqları üçün onlarla birgə oraya toplaşmışlar. "Bacımız uşaqları" sözünə gəlincə, bunu ayırd etmək gərəkdir. Yəni əgər adamın bacısı uşağı onun əmiləri tərəfdən olan kişidəndirsə, onda bu uşaq nəsəbcə həmin adamın qövmünə mənsub edilir, yox əgər uşaq yad kişidəndirsə, onda o, bacı oğlu olduğuna görə nə qədər əziz və yaxın olsa da həmin qövmə deyil, atasına mənsub edilir. Burada da qureyşlilər "aramızda bacımız uşaqları var" deməklə, onları özlərinə doğma hesab edirlər. O ki qaldı "mövlalarımız" kəlməsinə, çox güman ki, burada azad edilmiş kölələr nəzərdə tutulur.

[4] Burada Peyğəmbər ﷺ onların nəsəbcə deyil, dostluq baxımından qureyşlilərə yaxın olduğunu bildirir.

[5] Bu, dəlildir ki, adamın kafir qohumu nəsəbcə ona yaxın olsa da həqiqi mənada onun dostu sayıla bilməz. Belə ki, həqiqi dost ancaq müttəqilərdir. Bu xüsusda, Uca Allah buyurur: **"O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər"** (əz-Zuxruf, 67); digər ayədə O, buyurur: **"Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun rəsuluna düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə – dostluq etsinlər"** (əl-Mucadilə, 22).

budur).[1] Əks təqdirdə isə baxın (aqibətiniz necə olacaq). Elə olmasın ki, Qiyamət günü insanlar etdikləri (yaxşı) əməllərlə gəldikləri zaman siz günahlarla gələsiniz, sonra da sizdən üz döndərilsin."[2] Sonra o, uca səslə çağırıb dedi: "Ey insanlar!" Sonra əllərini qureyşlilərin başı üzərinə qaldırıb üç kərə dedi: "Ey insanlar, həqiqətən, qureyşlilər etibarlı insanlardır. Kim onlara qarşı həddi aşarsa, (yaxud ayaqlarının altını qazarsa,[3]) Allah onu zəlil edər.[4]"[5]

---

Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Atamın qohum-əqrəbası mənim dostum sayıla bilməz. Mənim dostlarım ancaq Allah və əməlisaleh möminlərdir" (Səhih əl-Buxari, 5990).

[1] Yəni tələb olunan da məhz budur.

[2] Bu, dəlildir ki, Allah onların üzünə baxmayacaq. Uca Allah buyurur: **"Həqiqətən də, Allah ilə olan, əhdlərini və andlarını ucuz qiymətə satan kəslər üçün axirətdə heç bir pay yoxdur. Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır"** (Ali-İmran, 77).

[3] Bu, Buxarinin şeyxinin şeyxi olmuş Zuheyrin şəkkidir.

[4] Peyğəmbərin ﷺ bu sözləri açıq-aydın qureyşlilərin fəzilətli insanlar olduğuna dəlalət edir. Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bu *idarəçilik* işi qureyşlilərin arasında qalacaq. Onlar bu dini yaşadacaqları müddət ərzində kim onlara qarşı çıxsa Allah onu zəlil edər" (Səhih əl-Buxari, 3500)

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٤١– بَابُ مَنْ عَالَ جَارِيَتَيْنِ أَوْ وَاحِدَةً

## 41-ci fəsil. İki, yaxud bir qız uşağına baxan kimsə

٧٦– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا حَرْمَلَةُ بْنُ عِمْرَانَ أَبُو حَفْصٍ التُّجِيبِيُّ، عَنْ أَبِي عُشَّانَةَ الْمَعَافِرِيِّ، عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَنْ كَانَ لَهُ ثَلَاثُ بَنَاتٍ، وَصَبَرَ عَلَيْهِنَّ، وَكَسَاهُنَّ مِنْ جِدَتِهِ، كُنَّ لَهُ حِجَابًا مِنَ النَّارِ)).

**(76)** ........ Uqbə ibn Amir ﷺ rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Kimin üç qızı[1] olsa, səbir edib[2] onları böyütsə və malından onlara xərcləsə,[3] o qızlar onu Oddan qoruyan bir sipər olar."[4]

٧٧– حَدَّثَنَا الْفَضْلُ بْنُ دُكَيْنٍ قَالَ: حَدَّثَنَا فِطْرٌ، عَنْ شُرَحْبِيلَ قَالَ: سَمِعْتُ ابْنَ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا مِنْ مُسْلِمٍ تُدْرِكُهُ ابْنَتَانِ، فَيُحْسِنُ صُحْبَتَهُمَا، إِلاَّ أَدْخَلَتَاهُ الْجَنَّةَ)).

**(77)** ........ İbn Abbas ﷺ rəvayət edir ki,[5] Peyğəmbər ﷺ demişdir: "Elə bir müsəlman yoxdur ki, onun iki qızı olsun, onlara yaxşılıq etsin və qızlar da onun Cənnətə girməyinə səbəb olmasın.[6]"

---

[1] Burada "üç" deyildikdə, ancaq üç qız uşağı nəzərdə tutulmur. Belə ki, övladın sayı nə qədər çox olarsa, savab da bir o qədər çox olar. Həmçinin, qız uşaqlarının sayı üçdən az olsa belə, bu hökmə aid edilər. İmam Buxarinin bu fəsildə nəql etdiyi növbəti hədislər buna dəlalət edir.

[2] Peyğəmbərin ﷺ bu sözü övlad tərbiyə etməyin nə dərəcədə çətin olduğundan xəbər verir. Deməli, övladı düzgün tərbiyə edib böyütmək üçün səbir etmək gərəkdir.

[3] Yəni Cəhənnəmdən qurtulmaq üçün maldan övlada xərcləmək şərtdir. Bu da, valideynin boynuna düşən övlad haqlarından biridir.

[4] Bu hədisi İbn Macə (3669), Əhməd (4/154) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad və Silsilətul-Əhadisis-Səhihə (294)" əsərlərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[5] Bu hədisi İbn Macə (2/391), Əhməd (2104 və 3424), İbn Hibban (2043), Hakim (7351) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən li-ğeyrihi" olduğunu demişdir (Bu kitabın sonundakı "Hədis terminlərinin izahlı lüğəti"nə bax).

[6] Xüsusilə qeyd etmək lazımdır ki, qız uşaqlarını böyüdən kimsənin özü mömin olmasa, övladına yaxşı baxmaqla yanaşı, ona Allaha və Onun Rəsuluna ﷺ itaət etməyi öy-

**٧٨-** حَدَّثَنَا أَبُو النُّعْمَانِ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ زَيْدٍ قَالَ: حَدَّثَنِي عَلِيُّ بْنُ زَيْدٍ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ، أَنَّ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ حَدَّثَهُمْ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ كَانَ لَهُ ثَلَاثُ بَنَاتٍ، يُؤْوِيهِنَّ، وَيَكْفِيهِنَّ، وَيَرْحَمُهُنَّ، فَقَدْ وَجَبَتْ لَهُ الْجَنَّةُ الْبَتَّةَ))، فَقَالَ رَجُلٌ مِنْ بَعْضِ الْقَوْمِ: وَثِنْتَيْنِ، يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((وَثِنْتَيْنِ)).

**(78)** ........ Cabir ibn Abdullah[1] رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kimin üç qızı olsa, *sonra o* bu qızları himayə etsə, onların qayğısına qalsa və onlara rəhm etsə, Cənnətə daxil olmaq ona mütləq vacib olar.” Camaatın arasında olan bir adam soruşdu: “Ya Rəsulullah, iki qızı olana da?” O, dedi: “İki qızı olana da!”[2]

---

rətməsə, əksinə, fasiq bir övlad yetişdirərsə, bu onun Cənnətə yox, Cəhənnəmə düşməyinə səbəb ola bilər. Belə ki, Cənnətə düşmək üçün hər şeydən əvvəl Allahın mərhəmətini qazanmaq gərəkdir.

[1] Əbu Abdur-Rəhman Cabir ibn Abdullah ibn Amr ibn Həram əl-Ənsari əl-Xəzrəci əl-Mədəni رضي الله عنه Peyğəmbərin ﷺ ən nümunəvi səhabələrindəndir. İkinci Əqəbə beyətində, habelə, ağac altında Peyğəmbərə ﷺ beyət gətirənlərdən olmuşdur. Peyğəmbərlə ﷺ birlikdə on doqquz döyüşdə iştirak etmişdir. Həmçinin, öz zamanında Mədinənin müftisi olmuşdur. Nəhayət, hicrətin 78-ci ilində doxsan dörd yaşında vəfat etmişdir. Peyğəmbərdən ﷺ min beş yüz qırx hədis rəvayət etmişdir. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir (Siyər Əlam ən-Nubələ, 38-ci tərcümeyi-hal).

[2] Bu hədisi Əhməd (3/303), Əbu Nueym (3/14) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “həsən” olduğunu demişdir. İmam Əhmədin rəvayət etdiyi bu hədisin tamamında deyilir: “Səhabələrdən bəzisi düşünürdü ki, əgər ona: “(Ya Rəsulullah,) bir qızı olana da?”– desəydilər, o: “Bir qızı olana da!”– deyərdi (2679).

## ٤٢ – بَابُ مَنْ عَالَ ثَلاَثَ أَخَوَاتٍ

## 42-ci fəsil. Üç bacıya baxan[1] kimsə

٧٩– حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ سَعِيدِ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ مُكْمِلٍ، عَنْ أَيُّوبَ بْنِ بَشِيرٍ الْمُعَاوِيِّ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَكُونُ لأَحَدٍ ثَلاَثُ بَنَاتٍ، أَوْ ثَلاَثُ أَخَوَاتٍ، فَيُحْسِنُ إِلَيْهِنَّ، إِلاَّ دَخَلَ الْجَنَّةَ)).

**(79)** ........ Əbu Səid əl-Xudri[2] ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Elə bir kimsə yoxdur ki, onun üç qızı və ya üç bacısı olsun, onlara yaxşılıq etsin və Cənnətə daxil olmasın."[3]

---

[1] Əvvəlki fəsildəki hədislərə diqqətlə nəzər salsaq görərik ki, qız uşağına, habelə, bacıya "baxmaq" deyildikdə, onlara himayə etmək, onların qayğısına qalmaq, onlara yaxşılıq etmək, var-dövlətdən onlara xərcləmək, səbir edib onları böyütmək və onlara rəhm etmək qəsd edilir. Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ orta barmağıyla şəhadət barmağını yan-yana azacıq aralı tutub demişdir: "Üç qızı və ya üç bacısı olan kimsə Allahdan qorxub onların qeydinə qalsa, Cənnətdə mənə (bu cür) yaxın olar" (Musnəd Əbu Yə'la, 1/170; Sisilətul-Əhadisis-Səhihə, 295).

[2] Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri ؓ ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Peyğəmbərdən ﷺ min yüz yetmiş hədis rəvayət etmişdir. Böyük fəqihlərdən və əlalxüsus da Mədinənin müftisi olmuşdur. Xəndək döyüşündə və Rizvan beyətində (yəni ağac altında olan beyətdə) iştirak etmişdir. Hicrətin 74-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 28-ci tərcümeyi-hal).

[3] Bu hədisi Tirmizi (2036), Əhməd (3/42) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən" olduğunu demişdir.

## ٤٣- بَابُ فَضْلِ مَنْ عَالَ ابْنَتَهُ الْمَرْدُودَةَ

## 43-cü fəsil. Himayəsində qalmış qızına[1] baxan kimsənin fəziləti

٨٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُوسَى بْنُ عُلَيٍّ، عَنْ أَبِيهِ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ لِسُرَاقَةَ بْنِ جُعْشُمٍ: ((أَلَا أَدُلُّكَ عَلَى أَعْظَمِ الصَّدَقَةِ، أَوْ مِنْ أَعْظَمِ الصَّدَقَةِ؟)) قَالَ: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: ((ابْنَتُكَ مَرْدُودَةً إِلَيْكَ، لَيْسَ لَهَا كَاسِبٌ غَيْرُكَ)).

**(80)** ........ Musa ibn Uley atasından rəvayət edir ki, Peyğəmbər ﷺ Suraqa ibn Cu'şuma dedi: "Ən böyük sədəqəni (yaxud ən böyük sədəqələrdən birini) sənə göstərimmi?" O, dedi: "Bəli, ya Rəsulullah!" Peyğəmbər ﷺ buyurdu: "(Bu,) qızının sənin himayəndə qalması və səndən başqa onun qayğısını çəkənin olmamasıdır."[2]

٨١- حَدَّثَنَا بِشْرٌ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا مُوسَى قَالَ: سَمِعْتُ أَبِي، عَنْ سُرَاقَةَ بْنِ جُعْشُمٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((يَا سُرَاقَةُ)) مِثْلَهُ.

**(81)** Bizə Bişr rəvayət etmişdir ki, Abdullah onlara belə xəbər vermişdir: "Musa bizə: "Mən atamın Suraqa ibn Cu'şumdan belə rəvayət etdiyini eşitdim: "Rəsulullah ﷺ: (ona): "Ey Suraqa!" deyə buyurdu..."– dedi (və əvvəlki) hədisin eynisini rəvayət etdi.

---

[1] Burada söhbət kişinin boşadığı qadın tərəfindən özünə qaytarılmış, yaxud zövcəsi vəfat etdikdən sonra himayəsində qalmış qızından gedir. Diqqət yetirsək görərik ki, bu fəsildəki hədislər əvvəlki fəsillərə aiddir. İmam Buxari bu hədisləri ayrıca fəsildə varid etməklə bildirmək istəyir ki, atanın öz himayəsində qalmış qız uşağına baxması ataya daha çox savab qazandırır.

[2] Bu hədisi İbn Macə (3667), Əhməd (4/175) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir. Çünki Musanın atası Uley Suraqanı görməmişdir. Hədis istilahında buna "munqəti" (isnadında bağlılıq olmayan hədis) deyilir. Lakin qeyd etmək lazımdır ki, əvvəlki fəsildəki hədislər, habelə, bu fəsildəki növbəti hədislər bu hədisin mənasını qüvvətləndirir.

٨٢- حَدَّثَنَا حَيْوَةُ بْنُ شُرَيْحٍ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ، عَنْ بَحِيرٍ، عَنْ خَالِدٍ، عَنِ الْمِقْدَامِ بْنِ مَعْدِي كَرِبَ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَا أَطْعَمْتَ نَفْسَكَ فَهُوَ لَكَ صَدَقَةٌ، وَمَا أَطْعَمْتَ وَلَدَكَ فَهُوَ لَكَ صَدَقَةٌ، وَمَا أَطْعَمْتَ زَوْجَكَ فَهُوَ لَكَ صَدَقَةٌ، وَمَا أَطْعَمْتَ خَادِمَكَ فَهُوَ لَكَ صَدَقَةٌ)).

**(82)** ........ Miqdam ibn Mə'dikərib ﷺ rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: “Özün nə yesən, bu, sənin üçün sədəqə sayılar.[1] Övladına nə yedirtsən,[2] o da sənin üçün sədəqə sayılar. Zövcənə nə yedirtsən, o da sənin üçün sədəqə sayılar. Xidmətçinə nə yedirtsən, o da sənin üçün sədəqə sayılar.”[3]

---

[1] Allahın mərhəmətindəndir ki, adamın öz övladına, həyat yoldaşına, xidmətçisinə, hətta özünə belə xərclədiyi malı onun üçün sədəqə sayılır. Lakin xüsusilə vurğulamaq lazımdır ki, bu yaxşılıqları ancaq Allah rizası üçün etdikdə savab qazanmaq olar. Bu xüsusda, Peyğəmbər ﷺ Səd ibn Əbu Vəqqasa ﷺ belə demişdir: “Sən Allahın Üzünü diləyərək xərclədiyin sədəqənin, hətta həyat yoldaşının ağzına qoyduğun loxmanın belə əvəzini mütləq alacaqsan” (Səhih əl-Buxari, 1295). Deməк, bütün bunlar ancaq möminə aiddir. Kafirin isə bütün əməlləri puç olur. Bu xüsusda, Uca Allah buyurur: **“De: “Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik.” Kafir olduqlarına, ayələrimi və elçilərimi lağlağıya qoyduqlarına görə onların cəzası Cəhənnəmdir”** (əl-Kəhf, 103-105).

[2] Hədisin bu yeri fəslin ünvanına aid olan hissəsidir. Belə ki, Peyğəmbərin ﷺ “övladına nə yedirtsən” sözü atanın himayəsində qalmış qız uşağına da şamil edilir.

[3] Bu hədisi Əhməd (4/131) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٤٤- بَابُ مَنْ كَرِهَ أَنْ يَتَمَنَّى مَوْتَ الْبَنَاتِ

## 44-cü fəsil. Qız uşaqlarının ölümünü arzulamağı məkruh sayan[1] kimsə

٨٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي شَيْبَةَ قَالَ: حَدَّثَنَا ابْنُ مَهْدِيٍّ، عَنْ سُفْيَانَ، عَنْ عُثْمَانَ بْنِ الْحَارِثِ أَبِي الرَّوَّاعِ، عَنِ ابْنِ عُمَرَ: أَنَّ رَجُلاً كَانَ عِنْدَهُ، وَلَهُ بَنَاتٌ فَتَمَنَّى مَوْتَهُنَّ، فَغَضِبَ ابْنُ عُمَرَ فَقَالَ: ((أَنْتَ تَرْزُقُهُنَّ؟))

**(83)** ........ Əbu Rəvva rəvayət edir ki, bir kişi İbn Ömərin yanında öz qızlarına ölüm arzuladı. İbn Ömər qəzəblənib dedi: "Onlara ruzini sənmi verirsən?![2]"[3]

---

[1] Burada "məkruh" deyildikdə, haram mənasında olan məkruhluq nəzərdə tutulur. Yəni qız uşağının ölməsini təmənna etmək haramdır. Bu da, cahiliyyət dövründə yaşayanlara xas olan xüsusiyyətlərdəndir. Belə cahillər Quranda belə vəsf olunurlar: **"Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. *Bilmir nə etsin,* körpəni rüsvayçılıq içində saxlasın, yoxsa onu torpağa gömsün? Onların verdikləri qərar necə də pisdir! Yaramaz sifət axirətə inanmayanlara məxsusdur"** (ən-Nəhl, 58-60). Mömin isə Allahın bu ayəsinə iman gətirir: **"Allah istədiyini yaradır; kimisinə qız uşaqları, kimisinə də oğlan uşaqları bəxş edir. Yaxud hər ikisindən – oğlan və qız uşaqları verir, istədiyini də sonsuz edir"** (əş-Şura, 49-50).

[2] Bu xüsusda, Uca Allah buyurur: **"De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, *öldürülməsini* haram buyurduğu şəxsi haqsız yerə öldürməyin"** (əl-İsra, 31).

[3] Bu hədisin isnadında keçən Əbu Rəvvah "məchul" ravidir. Elə bu səbəbdən də, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٤٥ – بَابٌ الْوَلَدُ مَبْخَلَةٌ مَجْبَنَةٌ

## 45-ci fəsil. Övlad xəsislik və qorxaqlıq üçün bir bəhanədir[1]

٨٤– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: كَتَبَ إِلَيَّ هِشَامٌ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ أَبُو بَكْرٍ ﵁ يَوْمًا: ((وَاللَّهِ مَا عَلَى وَجْهِ الأَرْضِ رَجُلٌ أَحَبَّ إِلَيَّ مِنْ عُمَرَ، فَلَمَّا خَرَجَ رَجَعَ فَقَالَ: كَيْفَ حَلَفْتُ أَيْ بُنَيَّةُ؟ فَقُلْتُ لَهُ، فَقَالَ: أَعَزُّ عَلَيَّ، وَالْوَلَدُ أَلْوَطُ)).

**(84)** ........ Aişə ﵂ demişdir: "Bir gün Əbu Bəkr dedi: "Vallahi ki,[2] yer üzündə mənim üçün Ömərdən daha sevimli bir adam yoxdur.[3]" Sonra o çıxıb getmək istədikdə geri qayıtdı və (məndən): "Qızım, mən necə and iç-

---

[1] Burada övlad deyildikdə, əvvəlki fəsillərdən fərqli olaraq həm qız, həm də oğlan uşaqları nəzərdə tutulur. İmam Buxarinin bu fəsilə verdiyi ad, səhih hədislərin birində sözbəsöz varid olmuşdur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Övlad xəsislik və qorxaqlıq üçün bir bəhanədir" (Sunən İbn Macə, 3666; Musnəd İmam Əhməd, 4/172; Mustədrək, 3/335; Səhih əl-Cami, 1989). Burada "xəsislik və qorxaqlıq üçün bir bəhanədir" deyildikdə, atanın öz malından Allah yolunda xərcləməyib, övladı üçün yığması, habelə, övladına görə Allah yolunda olan cihada getməməsi nəzərdə tutulur.

[2] Burada Əbu Bəkr ﵁ and içməklə Öməri ﵁ nə dərəcədə çox istədiyini bildirir, üstəlik, öz andı ilə digər müsəlmanları da bu möhtərəm səhabəni sevməyə təşviq edir.

[3] Qətiyyətlə demək olar ki, Əbu Bəkr ﵁ bu sözü Peyğəmbərin ﷺ vəfatından sonra demiş, həm də Peyğəmbəri ﷺ istisna edərək, hamıdan çox Ömər ibn Xattabı ﵁ sevdiyini qəsd etmişdir. Belə ki, mömin adam Peyğəmbəri ﷺ özündən, valideynindən, övladından və bütün insanlardan çox sevməyincə, həqiqi mömin sayıla bilməz. Onu da qeyd edək ki, peyğəmbərlər istisna olmaqla müsəlmanların ən fəzilətlisi – Əbu Bəkr əs-Siddiq ﵁, sonra Ömər ibn Xattab ﵁, sonra Osman ibn Əffan ﵁, sonra Əli ibn Əbu Talib ﵁, sonra Cənnətlə müjdələnmiş on nəfərin qalanı və Peyğəmbərin ﷺ digər səhabələridir. Habelə, onlardan sonra gələnlər də xeyirli insanlardan hesab olunurlar. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Ən xeyirli insanlar mənim dövrümdə yaşayan *səhabələrim*, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir" (Səhih əl-Buxari, 2652). Əbu Bəkr ﵁ və Öməri ﵁ gəlincə, Peyğəmbər ﷺ ayrıca bir hədisdə onları tərif edib demişdir: "Peyğəmbərlər və elçilər istisna olmaqla yaşlılar arasında Əbu Bəkr və Ömər Cənnət əhlinin ən hörmətli sakinləridir" (Sunən ət-Tirmizi, 4/310; Sunən İbn Macə, 1/49; Səhih əl-Cami, 51; Silsilətul-Əhadisis-Səhihə, 824).

dim?"– deyə soruşdu. Mən də ona (dediyini) təkrar etdim. Onda o, dedi: "Övlad daha əziz və daha şirin olur."[1]

٨٥– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مَهْدِيُّ بْنُ مَيْمُونٍ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي يَعْقُوبَ، عَنِ ابْنِ أَبِي نُعْمٍ قَالَ: كُنْتُ شَاهِدًا ابْنَ عُمَرَ إِذْ سَأَلَهُ رَجُلٌ عَنْ دَمِ الْبَعُوضَةِ؟ فَقَالَ: مِمَّنْ أَنْتَ؟ فَقَالَ: مِنْ أَهْلِ الْعِرَاقِ، فَقَالَ: انْظُرُوا إِلَى هَذَا، يَسْأَلُنِي عَنْ دَمِ الْبَعُوضَةِ، وَقَدْ قَتَلُوا ابْنَ النَّبِيِّ ﷺ، سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((هُمَا رَيْحَانَيَّ مِنَ الدُّنْيَا)).

**(85)** ........ İbn Əbu Num demişdir: "Mən İbn Ömərin yanında ikən bir nəfər ondan ağcaqanadın qanı barədə soruşdu.[2] İbn Ömər (ondan): "Sən kimlərdənsən?"– deyə soruşdu.[3] Adam: "Mən İraq əhlindənəm"– deyə cavab verdi. Onda İbn Ömər (yanındakılara) dedi: "Buna bir baxın, məndən ağcaqanadın qanı barədə soruşur. Halbuki, onlar Peyğəmbərin ﷺ öldürmüşlər. Mən Peyğəmbərin ﷺ (Həsən və Hüseyn barədə) belə dediyini eşitmişəm: "Onlar mənim dünyadakı iki reyhanımdır![5]"[6]

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[2] Burada o, ihramda ikən ağcaqanad öldürməyin hökmünü öyrənmək istəyir.

[3] Burada meydana sual çıxır ki, nə üçün İbn Ömər رضي الله عنهما ona birbaşa cavab vermədi? Cavabı budur ki, bəzən sualın məğzindən həmin məsələnin fitnələr yayılmış bir diyara aid olduğunu, habelə, sual verən adamın danışıq üslubundan təqribən onun nə məqsəd güddüyünü anlamaq olur. Belə olduğu təqdirdə sual verən adamın haradan və ya kimlərdən olduğunu soruşmaq caizdir. Burada da İbn Ömər رضي الله عنهما onun nəyə görə belə sual verdiyini təxmin edir deyə, ondan haralı olduğunu soruşur.

[4] İbn Ömər رضي الله عنهما burada Huseyn ibn Əli ibn Əbu Talibi رضي الله عنهما qəsd edir.

[5] Məlumdur ki, reyhan bitkisindən gözəl iy gəlir və adam onu iyləməkdən həzz alır. Eləcə də, Peyğəmbər ﷺ bu uşaqları qucaqlayıb bağrına basar və onları xoşiyli bir bitki kimi əzizləyərdi. Ümumiyyətlə, övladı əzizləmək məqsədilə qucaqlayıb iyləmək caizdir. Bu xüsusda varid olmuş hədisdə deyilir ki, Peyğəmbər ﷺ can üstə olan körpə oğlu İbrahimi qucağına alıb öpmüş və onu iyləmişdir (Səhih əl-Buxari, 1303).

[6] Bu hədisi Buxari (3753) rəvayət etmişdir.

## ٤٦- بَابُ حَمْلِ الصَّبِيِّ عَلَى الْعَاتِقِ

## 46-cı fəsil. Körpəni çiynində oturtmaq

٨٦- حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَدِيِّ بْنِ ثَابِتٍ قَالَ: سَمِعْتُ الْبَرَاءَ يَقُولُ: رَأَيْتُ النَّبِيَّ ﷺ وَالْحَسَنُ ﷺ عَلَى عَاتِقِهِ، وَهُوَ يَقُولُ: ((اللَّهُمَّ، إِنِّي أُحِبُّهُ فَأَحِبَّهُ)).

**(86)** ........ Bəra ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ Həsəni[1] ﷺ çiynində oturdub belə dediyini eşitmişəm: "Allahım, mən onu sevirəm, Sən də onu sev![2]"[3]

---

[1] Əbu Muhəmməd Həsən ibn Əli ibn Əbu Talib əl-Haşimi əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ nəvəsi, qızı Fatimənin ﷺ oğlu, Cənnətlə müjdələnmiş, malı və canı ilə İslam dininə xidmət etmiş ən məşhur səhabələrdəndir. Hicrətin üçüncü ilində ramazan ayının ortalarında Mədinə şəhərində dünyaya gəlmişdir. Həsən ﷺ Peyğəmbərə ﷺ ən çox oxşayan səhabələrdəndir. Həsənin ﷺ müsəlman ümməti üçün etdiyi ən böyük xeyirxahlıq onların arasında baş verə biləcək böyük bir qırğının qabağını almaq olmuşdur ki, bunun barəsində də Peyğəmbər ﷺ əvvəlcədən xəbər verib belə buyurmuşdur: "Mənim bu oğlum çox hörmətli şəxsiyyətdir. *Vaxt gələcək* o, müsəlmanlardan iki böyük dəstənin arasını düzəldəcəkdir" (Səhih əl-Buxari, 2704).

[2] Peyğəmbərin ﷺ bu sözü Allahın bu möhtərəm səhabəni sevdiyinə dəlalət edir. Digər bir hədisdə Peyğəmbərin ﷺ həm Həsən üçün, həm də onun qardaşı üçün belə dua etdiyi varid olmuşdur. Bəra ibn Azib ﷺ rəvayət etmişdir ki, bir gün Peyğəmbər ﷺ Həsən və Huseynə baxıb dedi: "Allahım, mən onları sevirəm, Sən də onları sev!" (Sunən ət-Tirmizi, 3782; Silsilətul-Əhadisis-Səhihə, 2789). Əlbəttə, hər bir mömin Həsən və Huseyni, onların ata-anasını, habelə, əhli-beytdən olanların hamısını və ümumiyyətlə, Peyğəmbərin ﷺ səhabələrini sevməlidir. Lakin qeyd etmək lazımdır ki, bu sevgi ifrat dərəcədə olmamalıdır, yəni Peyğəmbərin ﷺ sevdiyi insanları sevən mömin onları Allaha tay tutmamalı, Allaha məxsus olan sifətləri onlara aid etməməli və ibadətə aid əməlləri onlara yönəltməməlidir. Nəinki onları, heç peyğəmbərləri və mələkləri belə ifrat dərəcədə sevmək olmaz. Bu xüsusda, Uca Allah buyurur: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür"** (əl-Bəqərə, 165); Peyğəmbər ﷺ də belə buyurmuşdur: "Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi siz də məni şişirtməyin! Mən, sadəcə, Allahın quluyam. Elə isə, *mənə*: "Allahın qulu və rəsulu!"– deyin" (Səhih əl-Buxari, 3445); həmçinin, o buyurmuşdur: "Ey insanlar, dində ifrata varmaqdan çəkinin! Həqiqətən də, sizdən əvvəlkiləri məhz dində ifrata varmaqları məhv etmişdir" (Sunən İbn Macə, 3029; Silsilətul-Əhadisis-Səhihə, 1283).

[3] Bu hədisi Buxari (3749), Muslim (2422), Tirmizi (3783) və Əhməd (4/292) rəvayət etmişdir.

## ٤٧- بَابٌ الْوَلَدُ قُرَّةُ الْعَيْنِ

## 47-ci fəsil. Övlad (ata-ananın) göz bəbəyidir[1]

٨٧- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا صَفْوَانُ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ جُبَيْرِ بْنِ نُفَيْرٍ، عَنْ أَبِيهِ قَالَ: جَلَسْنَا إِلَى الْمِقْدَادِ بْنِ الأَسْوَدِ يَوْمًا، فَمَرَّ بِهِ رَجُلٌ فَقَالَ: طُوبَى لِهَاتَيْنِ الْعَيْنَيْنِ اللَّتَيْنِ رَأَتَا رَسُولَ اللَّهِ ﷺ، وَاللَّهِ لَوَدِدْنَا أَنَّا رَأَيْنَا مَا رَأَيْتَ، وَشَهِدْنَا مَا شَهِدْتَ. فَاسْتُغْضِبَ، فَجَعَلْتُ أَعْجَبُ، مَا قَالَ إِلاَّ خَيْرًا، ثُمَّ أَقْبَلَ عَلَيْهِ فَقَالَ: مَا يَحْمِلُ الرَّجُلَ عَلَى أَنْ يَتَمَنَّى مُحْضَرًا غَيَّبَهُ اللَّهُ عَنْهُ؟ لاَ يَدْرِي لَوْ شَهِدَهُ كَيْفَ يَكُونُ فِيهِ؟ وَاللَّهِ، لَقَدْ حَضَرَ رَسُولَ اللَّهِ ﷺ أَقْوَامٌ كَبَّهُمُ اللَّهُ عَلَى مَنَاخِرِهِمْ فِي جَهَنَّمَ، لَمْ يُجِيبُوهُ وَلَمْ يُصَدِّقُوهُ، أَوَلاَ تَحْمَدُونَ اللَّهَ عَزَّ وَجَلَّ إِذْ أَخْرَجَكُمْ لاَ تَعْرِفُونَ إِلاَّ رَبَّكُمْ، فَتُصَدِّقُونَ بِمَا جَاءَ بِهِ نَبِيُّكُمْ ﷺ، قَدْ كُفِيتُمُ الْبَلاَءَ بِغَيْرِكُمْ، وَاللَّهِ لَقَدْ بُعِثَ النَّبِيُّ ﷺ عَلَى أَشَدِّ حَالٍ بُعِثَ عَلَيْهَا نَبِيٌّ قَطُّ، فِي فَتْرَةٍ وَجَاهِلِيَّةٍ، مَا يَرَوْنَ أَنَّ دِينًا أَفْضَلَ مِنْ عِبَادَةِ الأَوْثَانِ، فَجَاءَ بِفُرْقَانٍ فَرَّقَ بِهِ بَيْنَ الْحَقِّ وَالْبَاطِلِ، وَفَرَّقَ بِهِ بَيْنَ الْوَالِدِ وَوَلَدِهِ، حَتَّى إِنْ كَانَ الرَّجُلُ لَيَرَى وَالِدَهُ أَوْ وَلَدَهُ أَوْ أَخَاهُ كَافِرًا، وَقَدْ فَتَحَ اللَّهُ قُفْلَ قَلْبِهِ بِالإِيمَانِ، وَيَعْلَمُ أَنَّهُ إِنْ هَلَكَ دَخَلَ النَّارَ، فَلاَ تَقَرُّ عَيْنُهُ، وَهُوَ يَعْلَمُ أَنَّ حَبِيبَهُ فِي النَّارِ، وَأَنَّهَا لَلَّتِي قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: ﴿وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ﴾.

**(87)** ........ Cubeyr ibn Nufeyr demişdir “Bir gün biz Miqdad ibn Əsvədin[2] ﵁ yanında oturmuşduq. Bu vaxt bir nəfər onun yanına gəlib dedi:

---

[1] İmam Buxari bu fəsilə belə ünvan qoymaqla övladın valideyn üçün nə qədər əziz olduğunu bildirmək istəmişdir. Bu xüsusda Həsən əl-Bəsri demişdir: “Vallahi, müsəlman üçün Allaha itaət edən övlad olduqca əzizdir” (Təfsir İbn Kəsir). Və əgər mömin adam könlünün şad olmasını istəyirsə, qoy Allahdan özü üçün əməlisaleh övladlar diləsin.

[2] Miqdad ibn Amr ibn Sələbə əl-Qudai əl-Kindi ﵁ İslamı ilk əvvəl qəbul edən səhabələrdəndir. Miqdad, Əsvəd ibn Abduyəğusun evində böyüyüb boya-başa çatdığına və

"Rəsulullahı ﷺ görmüş bu iki gözün xoş halına! Vallahi, biz də sən görəni görmək, şahid olduğuna şahid olmaq istərdik."[1] (Bu sözlər) Miqdadı qəzəbləndirdi. Mən (onun qəzəblənməsinə) təəccübləndim. Axı, bu adam xeyirdən başqa bir söz söyləmədi![2] Miqdad üzünü ona tutub dedi: "Adamı Allahın göstərmədiyini görmək arzusunda olmağa vadar edən nədir?![3] O, heç bilmir ki, onu görsəydi, ona qarşı münasibəti necə olardı?[4] Vallahi ki,

---

onun tərbiyəsini gördüyünə görə ona Miqdad ibn Əsvəd deyirlər. Hicrətin 33-cü ilində vəfat etmiş, Osman ibn Əffan ؓ onun cənazə namazını qıldırmış və nəhayət, Bəqi qəbiristanlığında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ, 81-ci tərcümeyi-hal). Onun fəzilətli səhabə olduğunu xəbər verən hədislərin birində Abdullah ibn Məsud ؓ demişdir: "Mən Miqdad ibn Əsvədin elə bir hərəkətinin şahidi oldum ki, hər şeydən çox onun yerində olmağı arzu etdim. Peyğəmbər ﷺ müşriklərin əleyhinə dua edərkən *Miqdad* onun yanına gəlib dedi: "Biz Musanın həmqəbilələri kimi demirik: **"Sən və sənin Rəbbin gedin, *onlarla* vuruşun..."** (əl-Maidə, 24) Əksinə, biz sənin həm sağında, həm solunda, həm önündə, həm də arxa tərəfində *düşmənlə* vuruşacağıq." (Bu sözdən sonra) mən Peyğəmbərin ﷺ üzünün nur saçdığını və onun sevindiyini gördüm" (Səhih əl-Buxari, 3952).

[1] Burada o adam səhabənin Peyğəmbəri ﷺ gördüyünə qibtə edir. Həqiqətən də, səhabələr qibtə olunası insanlardır. Allah onlara Peyğəmbəri ﷺ görməyi, onun dediklərini eşidib ona itaət etməyi, bu dini bilavasitə onun özündən öyrənməyi və onunla çiyin-çiyinə Allah yolunda bu dəvəti yaymağı nəsib etmişdir. Bu adam da həmçinin, təmənna edir ki, kaş onlar kimi Peyğəmbəri ﷺ görmüş olardı. Lakin Allah bunu ancaq səhabələrə nəsib etmişdir. Heç kəs savab baxımından onlara tay ola bilməz. Peyğəmbər ﷺ onların barəsində belə buyurmuşdur: "Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz" (Səhih əl-Buxari, 3673).

[2] Bu, dəlildir ki, adam Peyğəmbərə ﷺ olan məhəbbətindən dolayı özü də bilmədən yanlış bir söz danışa bilər yaxud şəriətə zidd olan bir hərəkətə yol verə bilər. Bu məqamda alimlərin yeri açıq-aydın görünür. Belə ki, alim adam nə vaxt nə danışacağını və harada nə hərəkət edəcəyini yaxşı bilir.

[3] Demək, olub-keçmiş bir şeyi təmənna etmək, "kaş belə olaydı" və ya "belə olsaydı, belə olardı" demək qadağandır.

[4] Yəni onun dövründə yaşasaydı, Allah bilir, mömin olardı, yoxsa kafir.

bir çoxları Rəsulullahı ﷺ görmüşlər, lakin Allah onları üzləri üstə sürükləyib Cəhənnəmə atacaqdır. Onlar nə Rəsulullahın ﷺ dəvətini qəbul etmiş, nə də onun gətirdiyini təsdiqləmişlər.[1] Niyə Allahın ﷻ sizi yalnız Rəbbinizi tanıyan və Peyğəmbərinizin ﷺ gətirdiyini təsdiqləyən bir ümmət olaraq *insanlar arasına* çıxartdığına[2] şükür etmirsiniz?! Yetər ki, bəla sizdən qeyrilərinə gəlmişdir.[3] Vallahi, Peyğəmbər ﷺ heç bir peyğəmbərin göndərilmədiyi elə bir cahiliyyət dövründə göndərilmişdir ki, həmin vaxt bütlərə ibadət etməyi dindən üstün tuturdular.[4] Həmin dövrdə Peyğəmbər ﷺ haqqı

---

[1] Məgər Əbu Cəhl, Utbə ibn Rəbiyə, Şeybə ibn Rəbiyə, Vəlid ibn Utbə, Umeyyə ibn Xələf, Uqbə ibn Əbu Muayt və digər müşriklər Peyğəmbəri ﷺ görməmişdilər?! Lakin Allah onlara müsəlman olmağı nəsib etmədi, müşrik olduqları halda öldülər və Cəhənnəmlik oldular. Bəziləri də Peyğəmbərə ﷺ iman gətirdiklərini zahirən göstərib daxilən ona küfr etdiklərinə görə münafiq oldular. Quranda onlar belə vəsf olunurlar: **"Onlara: "Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur!"– deyildikdə, təkəbbür göstərir və deyirdilər: "Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?"** (əs-Saffat, 35-36); başqa bir ayədə deyilir: **"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın rəsulusan!"– deyirlər. Allah da bilir ki, sən Onun rəsulusan. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar"** (əl-Munafiqun, 1). Deməli, nə kafirlərə, nə müşriklərə, nə də münafiqlərə Peyğəmbəri ﷺ görmələri fayda verməmişdir.

[2] Uca Allah buyurur: **"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; *onlara* yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz"** (Ali-İmran, 110).

[3] Miqdad ؓ ona İslam ailəsində dünyaya gəldiyini, müsəlmanlar arasında böyüyüb boya-başa çatmasını və Peyğəmbərin ﷺ dövründəki təzyiqlər kimi təzyiqlərə məruz qalmadığını yadına salıb buna görə Rəbbinə həmd-sənalar etməyi tövsiyə edir.

[4] İyad ibn Himar əl-Mucaşii rəvayət edir ki, bir gün Rəsulullah ﷺ öz xütbəsində belə buyurdu: "Rəbbim bu gün mənə öyrətdiklərindən bilmədiklərinizi sizə öyrətməyi mənə əmr etdi. O, belə buyurdu: **"Quluma bəxş etdiyim malın hamısı halaldır. Mən Öz qullarımın hamısını hənif** (Tək Allahı qəbul edən insanlar) olaraq **yaratdım. Sonra şeytanlar qullarımın yanına gəlib onları öz dinlərindən uzaqlaşdırdılar, Mənim onlara**

batildən ayırd edən Furqanı[1] gətirdi. Onun sayəsində valideyni övladdan ayırdı.[2] Hətta valideynini, övladını və qardaşını kafir sayanlar var idi. Allah

---

**halal buyurduğum nemətləri onlara haram etdilər və onlar haqqında heç bir dəlil-sübut nazil olmayan ilahları Mənə şərik qoşmağı əmr etdilər.**

Allah yer əhlinə nəzər saldı və Kitab əhlindən (TəkAllahlıq etiqadında) qalmış kimsələr istisna olmaqla (yer üzündəkilərin) ərəbinə də, əcəminə də qəzəbi tutdu."

Uca Allah buyurdu: **"Mən səni, həm sənin özünü imtahan etmək, həm də sənin vasitənlə** (qullarımı) **imtahana çəkmək üçün göndərdim və sənə su ilə silinməz** (yəni qəlblərdə hifz olunan**) Kitab nazil etdim..."** (Səhih Muslim, 7386). Demək, Muhəmmədə ﷺ peyğəmbərlik verildiyi zaman yer üzündəki insanlar azğınlıq içində olmuş və bütpərəstliyi Allahın dinindən üstün tutmuşlar. Cəfər ibn Əbu Talibin ؓ Nəcaşiyə dediyini buna misal çəkmək olar. O, demişdir: "Biz cəhalət içində yaşayır, bütlərə ibadət edir, ölü heyvan əti yeyirdik, pozğun işlərlə məşğul olur, qohumluq bağlarını qırır və qonşuya pislik edirdik. Aramızdakı güclülər zəiflərimizin haqqını tapdalayırdılar. Nəhayət, Allah bizə öz içimizdən, əsli-nəsəbini tanıdığımız, düzdanışan, əmanətə xəyanət etməyən və iffətli bir adamı peyğəmbər göndərdi. O, bizi Tək Allaha ibadət edib heç bir şeyi Ona şərik qoşmamağa, bütlərdən uzaq olmağa çağırdı. O, bizə düzdanışmağı, əmanəti yiyəsinə qaytarmağı, qohumluq əlaqələrini möhkəmləndirməyi, qonşuya yaxşılıq etməyi və nahaq yerə qan tökməməyi əmr etdi, həmçinin, pozğunluq etməyi, yetimin malını yeməyi və yalan danışmağı bizə qadağan etdi. Biz ona iman gətirdik, onun dediklərini təsdiqlədik, halal buyurduğunu halal və haram buyurduğunu haram qəbul etdik. Elə buna görə, qövmümüz bizimlə düşmən oldu, bizi dinimizdən döndərib dədə-babalarının dininə qaytarsınlar deyə, bizə işgəncələr verməyə başladılar. Onlar bizə zülm etməyə başladıqda biz sənin ölkənə təşrif buyuruduq, padşahlar arasında səni seçdik, sənin bizə zülm etməyəcəyinə, bizi öz himayən altına alacağına ümid etdik, ey hökmdar!" (Siyər Əlam ən-Nubələ, 1/432).

[1] Burada "Furqan" deyildikdə, Quran və tövhid nəzərdə tutulur. Bu xüsusda, Uca Allah buyurur: **"Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı nazil edən *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır!"** (əl-Furqan, 1).

[2] Yəni valideyn müsəlman, övlad isə kafir, yaxud əksinə olduğu halda onlardan biri haqq yolda, digəri isə zəlalətdə olur və beləliklə də, biri digərinə nifrət edir, habelə, son nəticədə onlardan biri Cənnətə, digəri isə Cəhənnəmə gedir və nəhayət, biri-birindən ayrı düşürlər.

beləsinin qəlbindəki qıfılı imanla açmışdı. O başa düşürdü ki, əgər (sevdiyi adam) bu halda ölərsə Cəhənnəm oduna girər. Odur ki, sevdiyi kimsənin Oda girəcəyini bildiyi halda onun könlü şad ola bilməzdi.[1] Bu da, Allahın ﷻ dediyi[2] kimsələrdir: **"Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et."**[3]

---

[1] Yəni adam özü müsəlman olsa da övladının və digər yaxınlarının kafir olması onu çox kədərləndirərdi.

[2] "əl-Furqan" surəsi, 74. Səhabələrin belə dua etməsi o deməkdir ki, mömin adam yaxınları üçün, o cümlədən də zövcəsi və övladı üçün Allahdan hidayət diləməli, onların dinsiz olduqlarına göz yummamalıdır. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan Oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə *heç vaxt* asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır"** (ət-Təhrim, 6).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٨- بَابُ مَنْ دَعَا لِصَاحِبِهِ أَنْ أَكْثِرْ مَالَهُ وَوَلَدَهُ

## 48-ci fəsil. Dostunun mal-dövləti və övladı çoxalsın deyə, onun üçün dua etmək

٨٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ يَوْمًا، وَمَا هُوَ إِلاَّ أَنَا وَأُمِّي وَأُمُّ حَرَامٍ خَالَتِي، إِذْ دَخَلَ عَلَيْنَا فَقَالَ لَنَا: ((أَلاَ أُصَلِّي بِكُمْ؟)) وَذَاكَ فِي غَيْرِ وَقْتِ صَلاَةٍ، فَقَالَ رَجُلٌ مِنَ الْقَوْمِ: فَأَيْنَ جَعَلَ أَنَسًا مِنْهُ؟ فَقَالَ: جَعَلَهُ عَنْ يَمِينِهِ؟ ثُمَّ صَلَّى بِنَا، ثُمَّ دَعَا لَنَا أَهْلَ الْبَيْتِ بِكُلِّ خَيْرٍ مِنْ خَيْرِ الدُّنْيَا وَالآخِرَةِ، فَقَالَتْ أُمِّي: يَا رَسُولَ اللَّهِ، خُوَيْدِمُكَ، ادْعُ اللَّهَ لَهُ، فَدَعَا لِي بِكُلِّ خَيْرٍ، كَانَ فِي آخِرِ دُعَائِهِ أَنْ قَالَ: ((اللَّهُمَّ أَكْثِرْ مَالَهُ وَوَلَدَهُ، وَبَارِكْ لَهُ)).

**(88)** ........ Ənəs ibn Malik ﷺ demişdir:[1] "Bir gün mən anamla və xalam Ummu Həramla birgə Peyğəmbərin ﷺ yanına getdik. O bizim yanımıza gəlib dedi: "Sizə namaz qıldırımmı?" Peyğəmbər ﷺ bunu deyərkən namaz vaxtı deyildi."[2]

Camaat arasında olanlardan biri soruşdu: "O, (namazda) Ənəsi hansı tərəfində saxladı?" Ənəs dedi: "Onu sağ tərəfində saxladı."[3] Ənəs (davam edib) dedi: "Peyğəmbər ﷺ bizə namaz qıldırdı, sonra da (Allahdan) bizim üçün, yəni ev əhli üçün dünya və Axirətdə olan hər cür xeyirdən dilədi. Onda, Anam dedi: "Ya Rəsulullah, (bu) balaca xidmətçin üçün də Allaha dua et!" O da, mənim üçün hər cür xeyirdən dilədi və duasının sonunda belə dedi: "Allahım, onun varını və övladını artır, ona bərəkət ver![4]"

---

[1] Bu hədisi (Buxari 1982) Muslim (1533), Tirmizi (4200) və Əhməd (3/193 və 248) rəvayət etmişdir.

[2] Yəni fərz namazının vaxtı deyildi, Peyğəmbər ﷺ onlara nafilə namazı qıldırmışdır.

[3] Bu, dəlildir ki, iki kişi namaz qılarkən namazı qıldıran imam sol tərəfdə durmalıdır.

[4] Bu hədis dəlildir ki, adam öz yaxını üçün belə dua edə bilər. Həmçinin, bu kitabda "səhih" isnadla varid olmuş 653-cü hədisdə deyilir ki, Peyğəmbər ﷺ onun üçün belə dua

etmişdir: "Allahım, ona mal-dövlət və övlad bəxş et, ona xeyir-bərəkət ver, onun ömrünü uzat və onu bağışla!" Burada Peyğəmbər ﷺ onun mal-dövlətinin və övladlarının artması, üstəlik, ömrünün uzanması və günahlarının bağışlanması üçün dua edir. Digər bir hədisdə rəvayət edilir ki, bu hadisədən uzun illər keçdikdən sonra Ənəs ؓ demişdir: "Həqiqətən də, bu gün mən ənsarın ən varlı adamlarındanam. Qızım Umeynə mənə xəbər vermişdir ki, Həccacın Bəsrədə hakimiyyətə gəldiyi dövrədək mənim nəslimdən yüz iyirmidən çox adam dəfn edilmişdir" (Səhih əl-Buxari, 1982); həmçinin, bu kitabdakı 653-cü hədisin sonunda Ənəs ؓ demişdir: "*Nəslimdən* yüz üç adam dəfn etmişəm. Ağaclarım ildə iki dəfə bar verir. Ömrüm də o qədər uzanıbdır ki, artıq insanlardan utanıram. Bağışlanmağıma da ümid edirəm."

## ٤٩ – بَابُ الْوَالِدَاتُ رَحِيمَاتٌ

## 49-cu fəsil. Analar rəhmlidirlər[1]

٨٩– حَدَّثَنَا مُسْلِمُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا ابْنُ فَضَالَةَ قَالَ: حَدَّثَنَا بَكْرُ بْنُ عَبْدِ اللَّهِ الْمُزَنِيُّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ: جَاءَتِ امْرَأَةٌ إِلَى عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، فَأَعْطَتْهَا عَائِشَةُ ثَلَاثَ تَمَرَاتٍ، فَأَعْطَتْ كُلَّ صَبِيٍّ لَهَا تَمْرَةً، وَأَمْسَكَتْ لِنَفْسِهَا تَمْرَةً، فَأَكَلَ الصِّبْيَانُ التَّمْرَتَيْنِ وَنَظَرَا إِلَى أُمِّهِمَا، فَعَمَدَتْ إِلَى التَّمْرَةِ فَشَقَّتْهَا، فَأَعْطَتْ كُلَّ صَبِيٍّ نِصْفَ تَمْرَةٍ، فَجَاءَ النَّبِيُّ ﷺ فَأَخْبَرَتْهُ عَائِشَةُ فَقَالَ: ((وَمَا يُعْجِبُكَ مِنْ ذَلِكَ؟ لَقَدْ رَحِمَهَا اللَّهُ بِرَحْمَتِهَا صَبِيَّيْهَا)).

**(89)** ........ Ənəs ibn Malik ﵁ demişdir: "Bir qadın Aişənin ﵂ yanına gəldi və Aişə ona üç ədəd xurma verdi. O da körpələrinin hərəsinə bir xurma verdi. Birini də özünə saxladı. Körpələr xurmaları yedikdən sonra analarının üzünə baxdılar. Anaları (saxladığı) bir xurmanı iki yerə bölüb hər birinə xurmanın bir yarısını verdi.[2] (Bir qədər sonra) Peyğəmbər ﷺ gəldi və Aişə ona bu haqda xəbər verdi. O, dedi: "Səni təəccübləndirən nədir? O qadın körpələrinə rəhm etdiyinə görə Allah da ona rəhm etdi.[3]"[4]

---

[1] Ananın övladına olan mərhəməti barədə varid olmuş hədislərin birində rəvayət edilir ki, *bir dəfə döyüşdə götürülmüş* əsirləri Peyğəmbərin ﷺ yanına gətirdilər. Əsirlər arasında olan bir qadın döşündən süd sağıb *körpələrə* içirdirdi. Əsirlər arasında körpə uşaq tapan kimi onu qucağına alıb əmizdirirdi." Onda Peyğəmbər ﷺ bizdən soruşdu: "Sizcə bu qadın öz körpəsini oda atarmı?" Biz dedik: "Əgər bu ixtiyar onun əlində olsa, xeyr, *atmaz*." Peyğəmbər ﷺ dedi: "Allahın Öz qullarına olan mərhəməti bu qadının körpəsinə olan mərhəmətindən *qat-qat* çoxdur" (Səhih əl-Buxari, 5999).

[2] Burada ananın ac ola-ola özünə saxladığı xurmanı körpələrinə verməsi onun nə dərəcədə rəhmli olduğuna dəlalət edir.

[3] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Rəhm edənlərə Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki *Allah* sizə rəhm etsin" (Sunən Əbu Davud, 4941; Sunən ət-Tirmizi, 1/350; Musnəd İmam Əhməd, 2/160; Silsilətul-Əhadisis-Səhihə, 925).

[4] Bu hədisi Əbu Nueym "Hilyətul-Övliya" əsərində (2/230) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٥٠- بَابُ قُبْلَةِ الصِّبْيَانِ

## 50-ci fəsil. Körpələri öpmək[1]

٩٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ هِشَامٍ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ رضي الله عنها قَالَتْ: جَاءَ أَعْرَابِيٌّ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: أَتُقَبِّلُونَ صِبْيَانَكُمْ؟ فَمَا نُقَبِّلُهُمْ، فَقَالَ النَّبِيُّ ﷺ: ((أَوَ أَمْلِكُ لَكَ أَنْ نَزَعَ اللَّهُ مِنْ قَلْبِكَ الرَّحْمَةَ؟))

**(90)** ........ Aişə ﷺ rəvayət edir ki, bir bədəvi ərəb Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Siz uşaqlarınızı öpürsünüz?! Biz onları öpmürük.[2]" Peyğəmbər ﷺ dedi: "Əgər Allah sənin qəlbindən mərhəmət hissini götürübsə (buna) mən nə edə bilərəm?![3]"[4]

---

[1] Uşağı öpmək ona rəhm etməyə və onu sevindirməyə aiddir. Odur ki, Peyğəmbərimizin ﷺ uşaqları öpməsi bir çox hədislərdə öz təsdiqini tapmışdır. Hətta hədislərin birində o belə buyurmuşdur: "Kiçiyimizə rəhm etməyən və böyüyümüzün hörmətini saxlamayan kimsə bizdən deyildir" (əl-Ədəbul-Mufrad, 358). Əvvəlki hədislərdə Peyğəmbərimizin ﷺ oğlu İbrahimi öpdüyünü də demişdik.

[2] Bu bədəvinin həmqəbilələri uşaqları öpmürdülər və onları öpməyi özlərinə sığışdırmırdılar, bunu özlərinə ar bilirdilər deyə, Peyğəmbərin ﷺ uşağı öpməsi ona qəribə gəlir.

[3] Yəni "əgər Allah bu mərhəməti sənin qəlbindən götürmüşsə, mən onu sənə qaytara bilmərəm." Deməк, qəlbdə mərhəmət hissinin olması, habelə, hidayət vermək, doğru yola yönəltmək və s. bu kimi işlər yalnız Allaha aiddir. Peyğəmbərin ﷺ ona bu cür etiraz etməsi bu əməlin pis bir əməl olduğuna dəlalət edir. Və əgər hədisə diqqət yetirsək, insanın zahiri ilə batini arasında olan əlaqəni açıq-aydın görə bilərik. Belə ki, onun uşağı öpməməsi qəlbində mərhəmət hissinin olmamasına dəlalət edir. Çünki valideynin övladı öpməsi ona rəhm etməsi deməkdir, onun mərhəmət əlamətidir. Xüsusilə qeyd etmək lazımdır ki, bu mərhəmət hissi övladların hamısına qarşı eyni olmalıdır. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin ﷺ yanında ikən oğlu onun yanına gəldi. Kişi uşağı öpdükdən sonra onu qucağında oturtdu. Sonra qızı onun yanına gəldi. Kişi onu öpmədən yanında oturtdu. Onda Peyğəmbər ﷺ buyurdu: "Niyə onların hər ikisi ilə eyni rəftar etmirsən?!" (Musnəd əl-Bəzzar, 2/378; Silsilətul-Əhadisis-Səhihə, 2883, 2994, 3098).

[4] Bu hədisi Buxari (5998) rəvayət etmişdir.

**٩١-** حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: حَدَّثَنَا أَبُو سَلَمَةَ بْنُ عَبْدِ الرَّحْمَنِ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: قَبَّلَ رَسُولُ اللَّهِ ﷺ حَسَنَ بْنَ عَلِيٍّ وَعِنْدَهُ الأَقْرَعُ بْنُ حَابِسٍ التَّمِيمِيُّ جَالِسٌ، فَقَالَ الأَقْرَعُ: إِنَّ لِي عَشَرَةً مِنَ الْوَلَدِ مَا قَبَّلْتُ مِنْهُمْ أَحَدًا، فَنَظَرَ إِلَيْهِ رَسُولُ اللَّهِ ﷺ ثُمَّ قَالَ: ((مَنْ لا يَرْحَمُ لا يُرْحَمُ)).

**(91)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ Həsən ibn Əlini öpdü. Bu vaxt Əqra ibn Habis[1] onun yanında oturmuşdu. Əqra dedi: “Mənim on övladım var, onlardan heç birini öpməmişəm.” Peyğəmbər ﷺ ona baxıb dedi: “Rəhm etməyən kimsəyə rəhm edilməz.[2]”[3]

---

[1] Əqra ibn Habis ibn Zeyd رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir (Mocəmus-Səhabə, 1/193).

[2] Yəni Allahın qullarına rəhm etməyən kimsəyə Allah rəhm etməz. Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Rəhm edənlərə Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki *Allah* sizə rəhm etsin” (Sunən Əbu Davud, 4941; Sunən ət-Tirmizi, 1/350; Musnəd İmam Əhməd, 2/160; Silsilətul-Əhadisis-Səhihə, 925). Bu hədis dəlildir ki, övladı və ya övladın övladını öpmək mərhəmət əlamətlərindəndir.

[3] Bu hədisi Buxari (6013), Muslim (6170), Tirmizi (2035), Əbu Davud (5218) və Əhməd (2/241) rəvayət etmişdir.

## ٥١- بَابُ أَدَبِ الْوَالِدِ وَبِرِّهِ لِوَلَدِهِ

## 51-ci fəsil. Valideynin övladla ədəblə davranması[1] və onun qayğısına qalması

٩٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا الْوَلِيدُ بْنُ مُسْلِمٍ، عَنِ الْوَلِيدِ بْنِ نُمَيْرِ بْنِ أَوْسٍ، أَنَّهُ سَمِعَ أَبَاهُ يَقُولُ: كَانُوا يَقُولُونَ: الصَّلَاحُ مِنَ اللَّهِ، وَالْأَدَبُ مِنَ الآبَاءِ.

**(92)** ........ Numeyr ibn Ovs ﷺ rəvayət edir ki, onlar belə deyərdilər: "İslah olunmaq Allahdan, tərbiyə edilmək isə valideynlərdəndir."[2]

---

[1] Burada "ədəblə davranması" deyildikdə, övladın gözəl tərzdə tərbiyə edilməsi nəzərdə turulur. Əli ibn Əbu Talib Uca Allahın **"Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan Oddan qoruyun!"** (ət-Təhrim, 6) ayəsini izah edərkən demişdir: "Onlara *gözəl* tərbiyə verin" (Təfsir İbn Kəsir). Valideyn öz övladının səadətə qovuşmağını istəyirsə, onu Allahın və Onun Rəsulunun ﷺ buyruqlarına uyğun tərzdə tərbiyə etməlidir.

[2] Bu hədisin isnadında keçən Vəlid ibn Numeyr "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin qeyd edək ki, hədisin mətninin mənası "səhih"dir. Belə ki, insanı islah edən Allahdır, yəni Allah kimə islah olunmağı müvəffəq edərsə, yalnız o kimsə islah oluna bilər. Odur ki, Peyğəmbər ﷺ dua edib deyərdi: "Allahummə rahmətəkə ərcu, fələ təkilni ilə nəfsi tarfətə aynin, və əslih li şə'ni kulləhu, lə ilahə illə ənt (Allahım! Sənin mərhəmətini diləyirəm! Məni bir göz qırpımı belə başlı-başına buraxma! Bütün işlərimi yoluna qoy! Səndən başqa məbud yoxdur!)" (Sunən Əbu Davud, 4/324; Musnəd İmam Əhməd, 5/42; Səhih Əbu Davud, 3/959); həmçinin, o, dua edib deyərdi: "Allahummə əslih li diniyəlləzi huva ismətu əmri və əslih li dunyayəlləti fiyhə məaşi və əslih li axirətiyəlləti fiyhə məadi vəc'alil-həyatə ziyadətən li fi kulli xeyr vəc'alil-movtə rahətən li min kulli şər (Allahım, ismətli olan dinimi, içində yaşadığım dünyamı və qayıdacaq axirətimi islah et! Xeyirli işlər üçün ömrümü artır, ölümümü isə şər əməllərdən qurtarmaq üçün rahatlıq vasitəsi et!)" (Səhih Muslim, 6841). Bu xüsusda, Uca Allah buyurur: **"Bu işin sənə aidiyyəti yoxdur.** ***Allah*** **ya onların tövbəsini qəbul edər, ya da onlara əzab verər. Çünki onlar zalımdırlar"** (Ali-İmran, 128); başqa bir ayədə O, buyurur: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəl-**

٩٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ الأَعْلَى بْنُ عَبْدِ الأَعْلَى الْقُرَشِيُّ، عَنْ دَاوُدَ بْنِ أَبِي هِنْدَ، عَنْ عَامِرٍ، أَنَّ النُّعْمَانَ بْنَ بَشِيرٍ حَدَّثَهُ، أَنَّ أَبَاهُ انْطَلَقَ بِهِ إِلَى رَسُولِ اللَّهِ ﷺ يَحْمِلُهُ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنِّي أُشْهِدُكَ أَنِّي قَدْ نَحَلْتُ النُّعْمَانَ كَذَا وَكَذَا، فَقَالَ: ((أَكُلَّ وَلَدِكَ نَحَلْتَ؟)) قَالَ: لاَ، قَالَ: ((فَأَشْهِدْ غَيْرِي))، ثُمَّ قَالَ: ((أَلَيْسَ يَسُرُّكَ أَنْ يَكُونُوا فِي الْبِرِّ سَوَاءً؟)) قَالَ: بَلَى، قَالَ: ((فَلاَ إِذًا)).

قَالَ أَبُو عَبْدِ اللَّهِ الْبُخَارِيُّ: لَيْسَ الشَّهَادَةُ مِنَ النَّبِيِّ ﷺ رُخْصَةً.

**(93)** ........ Noman ibn Bəşir[1] ﷛ rəvayət edir ki, (bir gün) atası onu Rəsulullahın ﷺ yanına gətirib[2] dedi: “Ya Rəsulullah, mən filan və filan şeyi Nomənə pay verdiyimə sənin şahid olmağını istəyirəm.” Rəsulullah ﷺ soruşdu: “Övladlarının hamısına (bu qədər) pay verdinmi?”[3] O: “Xeyr!”– deyə

---

**dir”** (əl-Qəsəs, 56); digər bir ayədə O, buyurur: **“Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir”** (Yusuf, 103). Tərbiyə barədə varid olmuş hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: “Qamçınızı əhli-əyalınızın gördüyü yerdən asın! Şübhəsiz ki, bu, onları tərbiyələndirəcəkdir” (Mocəm ət-Təbərani, 3/92; Silsilətul-Əhadisis-Səhihə, 1447; Səhih əl-Cami, 4022).

[1] Əbu Abdullah Nomən ibn Bəşir ibn Səd əl-Ənsari əl-Xəzrəci ﵄ Peyğəmbərin ﷺ azyaşlı səhabəsi, həm də Abdullah ibn Rəvahənin ﷛ bacısı oğludur. Kufə, sonra Dəməşq, sonra da Homs şəhərlərinin valisi olmuşdur. Peyğəmbərdən ﷺ yüz on dörd hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 66-cı tərcümeyi-hal).

[2] Bəşirin ﷛, oğlunu Peyğəmbərin ﷺ yanına gətirməsinin səbəbi Buxarinin “Səhih”indəki (2587) rəvayətdə açıqlanmışdır. Həmin hədisdə rəvayət edilir ki, Nomən ibn Bəşir minbərdə ikən demişdir: “*Bir dəfə* atam mənə bir hədiyyə verdi. Lakin *anam* Amra bint Rəvaha *ona*: “Sən Peyğəmbəri ﷺ şahidlik etməyə çağırmayınca mən buna razılıq verən deyiləm”– dedi. Onda atam Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Mən Amra bint Rəvahadan olan oğluma hədiyyə verdim. Lakin *yoldaşım* məndən səni buna şahid tutmağımı istədi, ya Rəsulullah.” Peyğəmbər ﷺ soruşdu: “O biri övladlarına da bu cür hədiyyə verdinmi?” *Atam*: “Xeyr!”– deyə cavab verdi. Onda Peyğəmbər ﷺ buyurdu: “Allahdan qorxun və övladlarınıza (olan münasibətdə) ədalətli olun!” Bundan sonra *atam* qayıdıb hədiyyəsini geri götürdü.”

[3] Bundan belə nəticə çıxır ki, müfti hər hansı bir məsələdə dəqiq fitva vermək üçün həmin məsələni ətraflı öyrənməlidir.

cavab verdi. Peyğəmbər ﷺ buyurdu: "Elə isə, başqasını şahid çağır!"[1] Sonra dedi: "Məgər onların hamısının (sənə) eyni qayğı göstərməsi səni sevindirməzmi?"[2] Atam: "Əlbəttə, (sevindirər)"– dedi. Onda Peyğəmbər ﷺ buyurdu: "Elə isə, belə etmə!"[3]

Əbu Abdullah əl-Buxari demişdir: "Peyğəmbərin ﷺ şahidliyi heç də rüsxət demək deyil."[4]

---

[1] Başqa bir rəvayətdə Peyğəmbər ﷺ ona: "Mən haqsızlığa şahidlik etmirəm"– demişdir (Sunən ən-Nəsai, 3681; Səhih əl-Cami, 2512).

[2] Yəni "İstəryərsənmi ki, onların sənə qarşı olan münasibəti fərqli olsun, bəzisi sənə qayğı göstərsin, digərləri isə sənin üzünə ağ olsun?!"

[3] Bu hədisi Buxari (2587), Muslim (4272), İbn Macə (2375) və Əhməd (4/269) rəvayət etmişdir.

[4] Yəni əgər Peyğəmbər ﷺ ona şahidlik etmiş olsaydı belə bu onun üçün rüsxət sayılmazdı.

## ٥٢- بَابُ بِرِّ الأَبِ لِوَلَدِهِ

## 52-ci fəsil. Atanın övlada qayğı göstərməsi[1]

٩٤- حَدَّثَنَا ابْنُ مَخْلَدٍ، عَنْ عِيسَى بْنِ يُونُسَ، عَنِ الْوَصَّافِيِّ، عَنْ مُحَارِبِ بْنِ دِثَارٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: ((إِنَّمَا سَمَّاهُمُ اللهُ أَبْرَارًا، لأَنَّهُمْ بَرُّوا الآبَاءَ وَالأَبْنَاءَ، كَمَا أَنَّ لِوَالِدِكَ عَلَيْكَ حَقًّا، كَذَلِكَ لِوَلَدِكَ عَلَيْكَ حَقٌّ)).

**(94)** ........ İbn Ömər ﵄ demişdir: "Allah onları qayğıkeş adlandırır.[2] Çünki onlar atalara və övladlara qayğı göstərmişlər. Valideynin haqqı sənin üzərinə düşdüyü kimi övladın da haqqı sənin üzərinə düşür."[3]

---

[1] Burada "övlada qayğı göstərmək" deyildikdə, onu əzizləmək, ona mərhəmət göstərmək, onu öpmək, varından ona xərcləmək, övladlar arasında ədalətlə rəftar etmək və s. nəzərdə tutulur.

[2] Ərəbcə "əbrar və ya barr" (qayğıkeş, itaətkar) kəlməsi Qurani Kərimdə bir çox ayələrdə nazil olmuşdur. Məsələn Yəhya barədə deyilir: **"O, ata-anasına qarşı qayğıkeş idi"** (Məryəm, 14); yaxud İsa barədə deyilir: **"*Allah məni* anama qarşı qayğıkeş *etdi*"** (Məryəm, 32); başqa bir ayədə deyilir: **"Həqiqətən, itaətkarlar nemət içində olacaqlar"** (əl-İnfitar, 13); həmçinin, Uca Allah qayğıkeş və itaətkar insanları belə vəsf edir: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır"** (əl-Bəqərə, 177).

[3] Bu hədisin isnadında keçən Ubeydullah ibn Vəlid əl-Vəssafi "zəif" ravidir. Elə bu səbəbdən də, Heysəmi "Məcməuz-Zəvaid" əsərində (8/146) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu isnadın "zəif" olduğunu demişdir. Lakin hədisin mənası "səhih" olduğu Quran və Sünnədə neçə-neçə ayə və hədislərdə öz təsdiqini tapmışdır.

## ٥٣- بَابُ مَنْ لا يَرْحَمُ لا يُرْحَمُ

## 53-cü fəsil. Rəhm etməyən kimsəyə rəhm edilməz[1]

٩٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلاءِ قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ هِشَامٍ، عَنْ شَيْبَانَ، عَنْ فِرَاسٍ، عَنْ عَطِيَّةَ، عَنْ أَبِي سَعِيدٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لاَ يَرْحَمُ لاَ يُرْحَمُ)).

**(95)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Rəhm etməyən kimsəyə rəhm edilməz."[2]

٩٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الأَعْمَشِ، عَنْ زَيْدِ بْنِ وَهْبٍ، وَأَبِي ظَبْيَانَ، عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ يَرْحَمُ اللَّهُ مَنْ لا يَرْحَمِ النَّاسَ)).

**(96)** ........ Cərir ibn Abdullah[3] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlara rəhm etməyən kimsəyə Allah rəhm etməz."[4]

٩٧- وَعَنْ عَبْدَةَ، عَنِ ابْنِ أَبِي خَالِدٍ، عَنْ قَيْسٍ، عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ لاَ يَرْحَمُ النَّاسَ لا يَرْحَمْهُ اللَّهُ)).

**(97)** ........ Cərir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim insanlara rəhm etməzsə, Allah da ona rəhm etməz.[5]"[6]

---

[1] Rəhmli olmaq müsəlman əxlaqındandır. Peyğəmbərimizin ﷺ bu sözü ilk əvvəl onun özünə aiddir. Yəni o, bu mövzuda bütün bəşəriyyətə bir nümunə olmuşdur. Uca Allah Quranda onu belə vəsf edir: **"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"** (əl-Ənbiya, 107); digər ayədə O, buyurur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"** (ət-Tovbə,128).

[2] Bu hədisin isnadı "zəif" olsa da mətni "səhih"dir (91-ci hədisin qeydlərinə bax).

[3] Əbu Amr Cərir ibn Abdullah ibn Cabir ibn Malik əl-Bəcəli ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Cərir ﷺ hicrətin 54-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 108-ci tərcümeyi-hal).

[4] Bu hədisi Buxari (6828) və Əhməd (4/357) rəvayət etmişdir.

[5] Hədisin əks anlamından aydın olur ki, insanlara rəhm edən kimsəyə Allah rəhm edər.

[6] Bu hədisi Buxari (6828), Muslim (6172) Tirmizi (2047) və Əhməd (4/360; 362) rəvayət etmişdir.

**٩٨**- وَعَنْ عَبْدَةَ، عَنْ هِشَامٍ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ قَالَتْ: أَتَى النَّبِيَّ ﷺ نَاسٌ مِنَ الأَعْرَابِ، فَقَالَ لَهُ رَجُلٌ مِنْهُمْ: يَا رَسُولَ اللَّهِ، أَتُقَبِّلُونَ الصِّبْيَانَ، فَوَاللَّهِ مَا نُقَبِّلُهُمْ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَوَ أَمْلِكُ إِنْ كَانَ اللَّهُ عَزَّ وَجَلَّ نَزَعَ مِنْ قَلْبِكَ الرَّحْمَةَ؟)).

**(98)** ........ Aişə ﵂ demişdir: “(Bir gün) bir neçə bədəvi Peyğəmbərin ﷺ yanına gəldi və onlardan biri dedi: “Ya Rəsulullah, siz uşaqları öpürsünüz?! Vallahi, biz onları öpmürük.” Peyğəmbər ﷺ dedi: “Əgər Allah ﷻ sənin qəlbindən mərhəmət hissini götürübsə, (buna) mən nə edə bilərəm?!”[1]

**٩٩**- حَدَّثَنَا أَبُو النُّعْمَانِ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ عَاصِمٍ، عَنْ أَبِي عُثْمَانَ، أَنَّ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ اسْتَعْمَلَ رَجُلاً، فَقَالَ الْعَامِلُ: إِنَّ لِي كَذَا وَكَذَا مِنَ الْوَلَدِ، مَا قَبَّلْتُ وَاحِدًا مِنْهُمْ، فَزَعَمَ عُمَرُ، أَوْ قَالَ عُمَرُ: ((إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ لاَ يَرْحَمُ مِنْ عِبَادِهِ إِلاَّ أَبَرَّهُمْ)).

**(99)** ........ Əbu Osman rəvayət edir ki, (bir dəfə) Ömər ﵁ bir kişiyə iş tapşırdı. Həmin adam dedi: “Mənim filan qədər övladım var, amma mən onlardan heç birini öpməmişəm.” Ömər dedi: “Allah ﷻ Öz qullarından yalnız qayğıkeş olanlara rəhm edir.[2]”[3]

---

[1] 90-cı hədisin qeydlərinə bax.

[2] Bu, dəlildir ki, övladı öpmək ona göstərilən qayğıya aiddir.

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən” olduğunu demişdir.

## ٥٤- بَابُ الرَّحْمَةُ مِئَةُ جُزْءٍ

## 54-cü fəsil. Rəhmət yüz hissədir

١٠٠- حَدَّثَنَا الْحَكَمُ بْنُ نَافِعٍ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنَا سَعِيدُ بْنُ الْمُسَيِّبِ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((جَعَلَ اللَّهُ عَزَّ وَجَلَّ الرَّحْمَةَ مِئَةَ جُزْءٍ، فَأَمْسَكَ عِنْدَهُ تِسْعَةً وَتِسْعِينَ، وَأَنْزَلَ فِي الأَرْضِ جُزْءًا وَاحِدًا، فَمِنْ ذَلِكَ الْجُزْءِ يَتَرَاحَمُ الْخَلْقُ، حَتَّى تَرْفَعَ الْفَرَسُ حَافِرَهَا عَنْ وَلَدِهَا، خَشْيَةَ أَنْ تُصِيبَهُ)).

**(100)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Allah ﷻ rəhməti yüz hissədən ibarət etdi.[1] Doxsan doqquzunu Özündə saxladı, bir hissəsini isə yer üzünə endirdi. Məhz onun sayəsində yaradılanlar bir-birinə rəhm edirlər.[2] Hətta, at öz balasını tapdalamasın deyə, ayaqlarını yuxarı qaldırır."[3]

---

[1] Ərəbcə rəhmət sözü Allaha aid edildikdə, yəni Quran və Sünnədə "Allahın rəhməti" deyildikdə, ya Allahın uca sifəti, ya da bu sifətin əsəri qəsd edilir. Cümlə quruluşundan bu sifətin hansı qismə dəlalət etdiyi bəlli olur. Məsələn, Uca Allahın **"Allahın əmri gələcəkdir. Odur ki, onun tez gəlməsini istəməyin"** ayəsindəki (ən-Nəhl, 1) "əmr" kəlməsi ikinci qismə aiddir, yəni əmr olunan – əzab gələcəkdir. Onun: **"Yaratmaq da, əmr etmək də Ona məxsusdur"** ayəsindəki (əl-Əraf, 54) "əmr" kəlməsi isə birinci qismə aiddir. Eləcə də, hədisdə (Səhih əl-Buxari, 4850) Allahın Cənnətə: "Sən Mənim rəhmətimsən, Mən sənin vasitənlə qullarımdan dilədiyim kimsəyə rəhm edərəm" sözündəki "rəhmət" kəlməsi ikinci qismə aiddir.

[2] Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allahın yüz rəhməti var. Allah bunlardan birini cinlərin, insanların, heyvanların və həşəratların arasına nazil etmişdir. Bu rəhmət sayəsində onlar bir-birinin halına acıyır və bir-birinə rəhm edirlər. Hətta, vəhşi heyvan öz balasına rəhm edir. Allah bu rəhmətlərin doxsan doqquzunu Özündə saxlamışdır ki, Qiyamət günü bununla Öz qullarına rəhm etsin" (Səhih Muslim, 7150).

[3] Bu hədisi Buxari (6000) rəvayət etmişdir.

## ٥٥- بَابُ الْوَصَاةِ بِالْجَارِ

## 55-ci fəsil. Qonşuya yaxşılıq etmək barədə tövsiyə

١٠١- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ قَالَ: أَخْبَرَنِي أَبُو بَكْرِ بْنُ مُحَمَّدٍ، عَنْ عَمْرَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا زَالَ جِبْرِيلُ ﷺ يُوصِينِي بِالْجَارِ حَتَّى ظَنَنْتُ أَنَّهُ سَيُوَرِّثُهُ)).

**(101)** ........ Aişə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Cəbrail ﷺ qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, hətta ona da mirasdan pay düşəcəyini güman etdim.[1]"[2]

١٠٢- حَدَّثَنَا صَدَقَةُ قَالَ: أَخْبَرَنَا ابْنُ عُيَيْنَةَ، عَنْ عَمْرٍو، عَنْ نَافِعِ بْنِ جُبَيْرٍ، عَنْ أَبِي شُرَيْحٍ الْخُزَاعِيِّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيُحْسِنْ إِلَى جَارِهِ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ)).

**(102)** ........ Əbu Şureyh əl-Xuzai[3] ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və Axirət gününə iman gətirirsə,[1] qonşusuna yaxşılıq

---

[1] Cəbrailin ؑ vaxtaşırı Peyğəmbərə ﷺ qonşuya yaxşılıq etmək barədə tövsiyə etməsi Cəbrailin ؑ bu hökmü qanuniləşdirməsi demək deyildir. O, sadəcə vəhyi nazil edən mələkdir. Belə ki, şəriətdə nəyi etmək və nəyi etməmək barədə qərarı yalnız Müdrik Allah verir. Cəbrailin ؑ bu tövsiyəni Peyğəmbərə ﷺ təkrar-təkrar xatırlatması qonşu haqqının nə dərəcədə vacib olduğundan xəbər verir. Qazı İyad demişdir: "İslam ayinlərini yerinə yetirən hər kəsə qonşusuna və qonağına yaxşılıq etməsi gərəkdir. Qonşunun haqlarını ödəmək və bu hüquqları qorumaq müsəlmanın borcudur. Bu xüsusda, Uca Allah belə buyurur: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir"** ("ən-Nisa" surəsi, 36).

[2] Bu hədisi Buxari (6014), Muslim (6854), Əbu Davud (5152), Tirmizi (2068), İbn Macə (3673) və Əhməd (2/85; 160; 259) rəvayət etmişdir.

[3] Əbu Şureyh Xuveylid ibn Amr əl-Xuzai ؓ Peyğəmbərin ﷺ səhabəsidir. Məkkənin fəthi günü İslamı qəbul etmişdir. Hicrətin 68-ci ilində vəfat etmişdir.

etsin.[2] Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağına ehtiram göstərsin.[3] Kim Allaha və Axirət gününə iman gətirirsə,[4] (ya) xeyir söyləsin, ya da sussun.[5]"[6]

---

[1] Burada Peyğəmbərin ﷺ hər nəsihətinin əvvəlində "Kim Allaha və Axirət gününə inanırsa" deməsi əməlin qəlbə bağlı olmasına dəlalət edir. Yəni səmimi-qəlbdən Allaha və Axirət gününə iman gətirən adamın qəlbi həqiqi mənada islah olur və xeyirxah işlər görməyə can atır. Həqiqətən də, əməllərin islah edilməsi üçün qəlbin islah edilməsi gərəkdir. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Diqqət edin! Bədəndə bir ət parçası vardır. Əgər o islah olarsa, bütün bədən islah olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, o *ət parçası* qəlbdir" (Səhih əl-Buxari, 52).

[2] Başqa bir rəvayətdə: "qonşusuna əziyyət verməsin" deyilir (Səhih Muslim, 174). Bu hədislərdən aydın olur ki, qonşu haqqına ümumən iki şey aiddir: qonşuya yaxşılıq etmək və ona əziyyət verməmək. Bu da, bütün yaxşılıqları və pislikləri özündə cəm edir.

[3] 310-cu fəslin qeydlərinə bax.

[4] İmanın tərifi: İmam Əbul-Huseyn Əli ibn Xələf ibn Bəttal əl-Maliki əl-Məğribi "Səhih əl-Buxari"ni şərh edərkən demişdir: "Sələflərdən və xələflərdən (keçmiş və indiki nəsildən) olan əhli-sünnə alimləri ittifaq etmişlər ki, iman həm sözdür, həm də əməldir, həm artır, həm də azalır. İmanın artıb-azalmasına sübut isə Buxarinin *"Səhih" əsərində* dəlil gətirdiyi ayələrdir: **"Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur"** (əl-Fəth, 4); **"Onlar Rəbbinə iman gətirmiş gənclər idi. Biz də onların hidayətini artırdıq"** (əl-Kəhf, 13); **"Allah doğru yolda olanların hidayətini artırar"** (Məryəm, 76); **"Doğru yolla gedənlərə gəldikdə isə *Allah* onlara hidayətini artırar və onları təqvalı olmağa müvəffəq edər"** (Muhəmməd, 17); **"...iman gətirənlərin imanı artsın"** (əl-Muddəssir, 31); **"İman gətirənlərə gəldikdə isə *o surə* onların imanını artırır"** (ət-Tovbə, 124); **"*Bəzi* adamlar** (möminlərə)**: "Camaat sizə qarşı *ordu* toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu onların imanını daha da artırdı..."** (Ali-İmran, 173); **"Bu onların yalnız imanını və itaətini artırdı"** (əl-Əhzab, 22) Nəvəvi, 1/103.

[5] Ömər ibn Abdul-Aziz رحمه الله demişdir: "Kim danışdığı sözün etdiyi əməllərə aid olduğunu hesab edərsə, ancaq özünə aid olan sözləri dilinə gətirər" ("Tarix Dəməşq", 48/117).

[6] Bu hədisi Buxari (6018), Muslim (176) rəvayət etmişdir.

## ٥٦- بَابُ حَقِّ الْجَارِ

## 56-cı fəsil. Qonşunun haqqı

١٠٣- حَدَّثَنَا أَحْمَدُ بْنُ حُمَيْدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُضَيْلٍ، عَنْ مُحَمَّدِ بْنِ سَعْدٍ قَالَ: سَمِعْتُ أَبَا ظَبْيَةَ الْكُلاَعِيَّ قَالَ: سَمِعْتُ الْمِقْدَادَ بْنَ الأَسْوَدِ يَقُولُ: سَأَلَ رَسُولُ اللَّهِ ﷺ أَصْحَابَهُ عَنِ الزِّنَا؟ قَالُوا: حَرَامٌ، حَرَّمَهُ اللَّهُ وَرَسُولُهُ، فَقَالَ: ((لأَنْ يَزْنِيَ الرَّجُلُ بِعَشْرِ نِسْوَةٍ، أَيْسَرُ عَلَيْهِ مِنْ أَنْ يَزْنِيَ بِامْرَأَةِ جَارِهِ))، وَسَأَلَهُمْ عَنِ السَّرِقَةِ؟ قَالُوا: حَرَامٌ، حَرَّمَهَا اللَّهُ عَزَّ وَجَلَّ وَرَسُولُهُ، فَقَالَ: ((لأَنْ يَسْرِقَ مِنْ عَشَرَةِ أَهْلِ أَبْيَاتٍ، أَيْسَرُ عَلَيْهِ مِنْ أَنْ يَسْرِقَ مِنْ بَيْتِ جَارِهِ)).

**(103)** ........ Miqdad ibn Əsvəd rəvayət edir ki,[1] Peyğəmbər ﷺ səhabələrdən zina barədə soruşdu. Onlar dedilər: “Haramdır, bunu Allah və Onun rəsulu haram buyurmuşdur.” O, dedi: “Kişinin on qadınla zina etməsi, (günah baxımından) onun üçün qonşusunun qadını ilə zina etməsindən daha yüngüldür.[2] Peyğəmbər ﷺ onlardan oğurluq barədə soruşdu. Onlar dedilər: “Haramdır, bunu Allah və Onun rəsulu haram buyurmuşdur.” O, dedi: “Kişinin on evdən oğurluq etməsi, (günah baxımından) onun üçün qonşusunun evindən oğurluq etməsindən daha yüngüldür.[3]”

---

[1] Bu hədisi Əhməd (6/8), Təbarani (6/80) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

[2] Burada “qonşusunun qadını” deyildikdə, qonşunun anası, bacısı, qızı və kənizi də buna aid edilir (Feydul-Qədir). Bu günahın olduqca ağır olduğu başqa bir hədisdə də öz təsdiqini tapmışdır. Rəvayət edilir ki, Abdullah ibn Məsud رضي الله عنه demişdir: “*Bir dəfə* mən Peyğəmbərdən ﷺ soruşdum: “Hansı günah Allah yanında ən böyük günah sayılır?” O, buyurdu: “Səni yaradan Allaha *başqa birisini* tay tutmaq!” Mən: “Doğrudan da, bu böyük günahdır”– dedim, sonra *yenə* soruşdum: “Bəs sonra hansıdır?” O, dedi: “Övladının səninlə birgə yemək yeyəcəyindən qorxub onu öldürmək!” Mən soruşdum: “Sonra hansıdır?” O, dedi: “Qonşunun zövcəsi ilə zina etmək!” (Səhih əl-Buxari, 4477).

[3] Bu hədisdə Peyğəmbər ﷺ qonşunun arvadı ilə zina etməyin və ya qonşudan oğurluq etməyin, başqa cür desək, qonşunun namusuna və malına toxunmağın nə dərəcədə ağır günah olduğunu bildirir. Başqa bir hədisdə Peyğəmbər ﷺ bu günahların müsəlmana

haram buyrulduğunu xəbər verib demişdir: “Sizin qanınız, malınız və namusunuz, bu ayınız da və bu şəhəriniz də, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır” (Səhih əl-Buxari, 67). Demək, əgər müsəlmanın namusuna toxunmaq və malını oğurlamaq günah sayılırsa, bu günahla yanaşı, həm də bunu qonşuya etmək – yəni qonşunun haqqına girmək, ona əziyyət vermək daha böyük günah hesab edilir. Bu xüsusda İbn Qeyyim demişdir: “Ümumiyyətlə, murdar əməllər fəsad baxımından müxtəlif dərəcələrə bölünür. Aşna saxlamağın şəri, əlbəttə ki, zina etməyin şərindən daha azdır. Habelə, etidyi murdar əməli gizlədənin günahı, onu elan edənin günahından azdır. Beləsinin bağışlanması müəmmalıdır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: “Ümmətimin hamısı əfv ediləcək. Yalnız açıq-aşkar *günah* işlədənlərdən başqa. *Məsələn* birisi gecə bir qələt edir və səhəri gün Allah onun bu qələtini ört-basdır etdiyi halda *dost-aşnasına*: “Ey filankəs, mən bu gecə filan, filan işləri görmüşəm”deyir. Gecə Rəbbi onun *günahının* üstünə örtük çəkir, səhər isə o, Allahın bu örtüyünü açır” (Səhih əl-Buxari, 6069). Həmçinin, əri olmayan qadınla zina etməyin günahı ərli qadınla zina etməkdən daha yüngüldür. Çünki evli qadınla zina etdikdə onun ərinə zülm etmiş və onun ailəsində fəsad törətmiş olur. Bunun isə günahı adi zinanın günahından daha böyükdür. Habelə, qonşunun həyat yoldaşı ilə zina etməyin günahı yad yerdəki qadınla zina etməyin günahından daha böyükdür. Çünki bu əməldə, qonşuya əziyyət vermək, üstəlik Allahın və Onun rəsulunun ﷺ qonşu haqları xüsusundakı əmrinə qarşı asilik vardır. Eləcə də, Allah yolunda vuruşan mücahidin zövcəsi ilə zina etməyin günahı, cihadda iştirak etməyən kimsənin zövcəsi ilə zina etməkdən daha böyükdür” (İğasətul-Ləhfan, 2/143-144).

## ٥٧- بَابٌ يَبْدَأُ بِالْجَارِ

## 57-ci fəsil. Qonşudan başlamaq[1]

١٠٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ مُحَمَّدٍ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عُمَرَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا زَالَ جِبْرِيلُ يُوصِينِي بِالْجَارِ حَتَّى ظَنَنْتُ أَنَّهُ سَيُوَرِّثُهُ)).

**(104)** ........ İbn Ömər ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Cəbrail ﵇ qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, mirasdan ona da pay düşəcəyini güman etdim."[2]

١٠٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ دَاوُدَ بْنِ شَابُورَ، وَأَبِي إِسْمَاعِيلَ، عَنْ مُجَاهِدٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، أَنَّهُ ذُبِحَتْ لَهُ شَاةٌ، فَجَعَلَ يَقُولُ لِغُلَامِهِ: أَهْدَيْتَ لِجَارِنَا الْيَهُودِيِّ؟ أَهْدَيْتَ لِجَارِنَا الْيَهُودِيِّ؟ سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَا زَالَ جِبْرِيلُ يُوصِينِي بِالْجَارِ حَتَّى ظَنَنْتُ أَنَّهُ سَيُوَرِّثُهُ)).

**(105)** ........ Mucahid rəvayət edir ki, Abdullah ibn Amr ﵄ bir qoç kəsdirdi, sonra da xidmətçisindən soruşdu: "(Ətdən) yəhudi qonşumuza pay verdinmi? Yəhudi qonşumuza pay verdinmi?[3] Mən Peyğəmbərin ﷺ belə

---

[1] Yəni yaxşılıq etdikdə qonşudan başlamaq daha münasibdir.

[2] Bu hədisi Əbu Davud (4158), Tirmizi (2/132) Əhməd (2/305), İbn Hibban (1487) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Abdullah ibn Amr ibn Asın ﵄ belə deməsi, səhabənin bu hədisindən düzgün nəticə çıxardığına və qonşuluq haqqının nəinki müsəlmana, hətta qeyri-müsəlmana da aid olduğunu başa düşdüyünə dəlalət edir. İslam alimləri qonşuların üç qismə bölündüyünü və hər birinin özünəməxsus haqları olduğunu demişlər: birincisi, həm müsəlman, həm də qohum olan qonşudur ki, qonşusu üzərində onun üç haqqı vardır: qohumluq haqqı, İslam haqqı və bir də qonşuluq haqqı; ikincisi, qohum olmayan müsəlman qonşudur ki, qonşusu üzərində onun iki haqqı vardır: İslam haqqı və bir də qonşuluq haqqı; üçüncüsü isə qohum olmayan kafir qonşudur ki, qonşusu üzərində onun bircə haqqı vardır: bu da, qonşuluq haqqıdır. Uca Allah qeyri-müsəlmanlarla da ədalətlə davranmağı buyurur:

dediyini eşitmişəm: “Cəbrail qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, mən mirasdan ona da pay düşəcəyini zənn etdim.”[1]

١٠٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ الْوَهَّابِ الثَّقَفِيُّ قَالَ: سَمِعْتُ يَحْيَى بْنَ سَعِيدٍ يَقُولُ: حَدَّثَنِي أَبُو بَكْرٍ، أَنَّ عَمْرَةَ حَدَّثَتْهُ، أَنَّهَا سَمِعَتْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا تَقُولُ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَا زَالَ جِبْرِيلُ يُوصِينِي بِالْجَارِ حَتَّى ظَنَنْتُ أَنَّهُ لَيُوَرِّثُهُ)).

**(106)** ........ Aişə ﵂ rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: “Cəbrail ﵇ qonşu haqqında mənə o qədər tövsiyə etdi ki, mirasdan ona da pay düşəcəyini güman etdim.”[2]

---

**“Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir**” (əl-Mumtəhənə, 8). Çox vaxt bu davranış onların İslam dinini qəbul etməsinə səbəb olur.

[1] Bu əsəri Tirmizi (1943) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[2] 101-ci hədisin qeydlərinə bax.

## ٥٨- بَابٌ يَهْدِي إِلَى أَقْرَبِهِمْ بَابًا

## 58-ci fəsil. Qapısı ən yaxın olan qonşuya hədiyyə vermək

١٠٧- حَدَّثَنَا حَجَّاجُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: أَخْبَرَنِي أَبُو عِمْرَانَ قَالَ: سَمِعْتُ طَلْحَةَ، عَنْ عَائِشَةَ قَالَتْ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنَّ لِي جَارَيْنِ، فَإِلَى أَيِّهِمَا أُهْدِي؟ قَالَ: ((إِلَى أَقْرَبِهِمَا مِنْكِ بَابًا)).

**(107)** ........ Aişə ﵂ demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə ﷺ) dedim: "Ya Rəsulullah, mənim iki qonşum var. Mən hədiyyəni[1] onlardan hansı birinə verim?" O, dedi: "Qapısı ən yaxın olana!"[2]

١٠٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي عِمْرَانَ الْجَوْنِيِّ، عَنْ طَلْحَةَ بْنِ عَبْدِ اللَّهِ، رَجُلٌ مِنْ بَنِي تَيْمِ بْنِ مُرَّةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنَّ لِي جَارَيْنِ، فَإِلَى أَيِّهِمَا أُهْدِي؟ قَالَ: ((أَقْرَبِهِمَا مِنْكِ بَابًا)).

**(108)** ........ Aişə ﵂ demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə ﷺ) dedim: "Ya Rəsulullah, mənim iki qonşum var. Mən hədiyyəni onlardan hansı birinə verim?" O, dedi: "Qapısı ən yaxın olana!"[3]

---

[1] Burada söhbət maddi imkanın məhdud olmasından gedir. Yəni əgər veriləcək hədiyyə cəmi bir dənədirsə, onu yaxın qonşuya vermək lazımdır. Hədiyyənin sayı çox olduğu təqdirdə isə, əlbəttə ki, qapısı ən yaxın olandan başlayaraq digər qonşulara da həmin hədiyyədən vermək daha yaxşıdır. Bu hədisdən belə nəticə çıxır ki, bir işi görməmişdən əvvəl onun caiz olub-olmadığını öyrənmək lazımdır.

[2] Bu hədisi Buxari (2259) və Əhməd (6/239) rəvayət etmişdir.

[3] Bu hədis də "səhih" hədisdir.

## ٥٩- بَابُ الأَدْنَى فَالأَدْنَى مِنَ الْجِيرَانِ

## 59-cu fəsil. Ən yaxın və ən yaxın qonşular[1]

١٠٩- حَدَّثَنَا الْحُسَيْنُ بْنُ حُرَيْثٍ قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ مُوسَى، عَنِ الْوَلِيدِ بْنِ دِينَارٍ، عَنِ الْحَسَنِ، أَنَّهُ سُئِلَ عَنِ الْجَارِ، فَقَالَ: أَرْبَعِينَ دَارًا أَمَامَهُ، وَأَرْبَعِينَ خَلْفَهُ، وَأَرْبَعِينَ عَنْ يَمِينِهِ، وَأَرْبَعِينَ عَنْ يَسَارِهِ.

**(109)** ........ Rəvayət edilir ki, Həsəndən[2] qonşu barədə soruşdular. O, dedi: "Evinin önündəki qırx ev, arxasındakı qırx ev, sağındakı qırx ev və solundakı qırx ev."[3]

١١٠- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا عِكْرِمَةُ بْنُ عَمَّارٍ قَالَ: حَدَّثَنَا عَلْقَمَةُ بْنُ بَجَالَةَ بْنِ زَيْدٍ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ قَالَ: وَلاَ يَبْدَأُ بِجَارِهِ الأَقْصَى قَبْلَ الأَدْنَى، وَلَكِنْ يَبْدَأُ بِالأَدْنَى قَبْلَ الأَقْصَى.

**(110)** ........ Əbu Hureyrə ﷺ demişdir: "(Qonşusuna yaxşılıq etmək istəyən) adam yaxın qonşunu qoyub, uzaq qonşudan başlamamalı, əksinə, uzaq qonşudan əvvəl yaxın qonşudan başlamalıdır."[4]

---

[1] İmam Buxari demək istəyir ki, qonşusuna yaxşılıq etmək istəyən adam yaxın qonşularından başlamalıdır.

[2] Söhbət məşhur İslam alimi Həsən əl-Bəsridən ﷺ gedir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[4] Bu hədisin isnadında keçən Əlqəmə ibn Bəcalə "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin əvvəlki fəsillərdə varid olmuş "səhih" hədislər onun mənasını təsdiqləyir.

# ٦٠- بَابُ مَنْ أَغْلَقَ الْبَابَ عَلَى الْجَارِ

## 60-cı fəsil. Qapını qonşunun üzünə bağlayan kəs

١١١- حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ السَّلاَمِ، عَنْ لَيْثٍ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: لَقَدْ أَتَى عَلَيْنَا زَمَانٌ، أَوْ قَالَ: حِينٌ، وَمَا أَحَدٌ أَحَقُّ بِدِينَارِهِ وَدِرْهَمِهِ مِنْ أَخِيهِ الْمُسْلِمِ، ثُمَّ الآنَ الدِّينَارُ وَالدِّرْهَمُ أَحَبُّ إِلَى أَحَدِنَا مِنْ أَخِيهِ الْمُسْلِمِ، سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((كَمْ مِنْ جَارٍ مُتَعَلِّقٌ بِجَارِهِ يَوْمَ الْقِيَامَةِ يَقُولُ: يَا رَبِّ، هَذَا أَغْلَقَ بَابَهُ دُونِي، فَمَنَعَ مَعْرُوفَهُ)).

**(111)** ........ İbn Ömər ﷻ demişdir: "Vaxt var idi heç kəs özünün dinar və dirhəminə, müsəlman qardaşından daha haqlı olduğunu düşünmürdü.[1] İndi isə aramızdan kimlərəsə dinar və dirhəm müsəlman qardaşından daha əzizdir.[2] Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Neçə-neçə qon-

---

[1] Belə ki, səhabələr özlərinə istədiklərini, hətta bundan da artığını müsəlman qardaşları üçün istəyərdilər. Uca Allah Quranda onları belə vəsf edir: ***"Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"** (əl-Həşr, 9).

[2] Burada İbn Ömər ﷻ müsəlmanların dünya malına aludə olduğunu, könüllərini ona bağladığını xəbər verir. O dövrdəkilər belə zəifləmişlərsə, onlardan sonra gələnlər necə?! Rəvayət edilir ki, Zubeyr ibn Adiy demişdir: "*Bir gün* biz Ənəs ibn Malikin ﷻ yanına gəlib ona Həccacın bizə verdiyi əziyyətlərdən şikayət etdik. Ənəs dedi: "Səbir edin! Çünki siz Rəbbinizə qovuşanadək yaşayacağınız hər sonrakı gün əvvəlkindən daha acınacaqlı olacaq. Mən bunu sizin Peyğəmbərinizdən ﷺ eşitmişəm" (Səhih əl-Buxari, 7068). Həqiqətən də, müsəlmanlar getdikcə dinlərindən uzaq düşüb dinara və dirhəmə o qədər bağlanmışlar ki, nəinki qonşunun haqqını ödəmək, bundan da böyük haqları tapdalamışlar. Bəziləri isə hətta dinarın və dirhəmin quluna çevrilmiş, axırda da həlak olmuşlar. Bir zaman Peyğəmbər ﷺ demişdir: "Vallahi, mən sizin yoxsulluğa məruz qalacağınızdan qorxmuram. Lakin mən sizdən əvvəlkilərə gen-bol həyat nəsib edildiyi kimi, sizə də firavan bir həyat nəsib edilməsindən, bu səbəbdən də, əvvəlkilər tək sizin də bir-birinizlə

şu var ki, Qiyamət günü öz qonşusunun (yaxasından) yapışıb deyəcəkdir: “Ey Rəbbim, bu (adam) öz qapısını mənim üzümə bağlamış və yaxşılıq etməkdən boyun qaçırmışdır.”[1]

rəqabət aparmağınızdan və dünya malının onları məhv etdiyi kimi, sizi də məhv etməsindən qorxuram” (Səhih əl-Buxari, 3158).

[1] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən li-ğeyrihi” olduğunu demişdir.

## ٦١- بَابٌ لا يَشْبَعُ دُونَ جَارِهِ

## 61-ci fəsil. (Adam) qonşusu ac ola-ola öz qarnını doydurmamalıdır

١١٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ أَبِي بَشِيرٍ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ الْمُسَاوِرِ قَالَ: سَمِعْتُ ابْنَ عَبَّاسٍ يُخْبِرُ ابْنَ الزُّبَيْرِ يَقُولُ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((لَيْسَ الْمُؤْمِنُ الَّذِي يَشْبَعُ وَجَارُهُ جَائِعٌ)).

**(112)** ........ Rəvayət edilir ki, (bir dəfə) İbn Abbas ﵄ İbn Zubeyrə ﵄ dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Qonşusu ac ola-ola öz qarnını doyduran kimsə (əsil) mömin sayıla bilməz.[1]"[2]

---

[1] Burada söhbət möminin imanının kamilliyindən, vacib buyurulmuş imanın naqisliyindən gedir. Belə ki, mömin bəndə hər dəfə günah işlətdikdə, imanı bir qədər azalır. Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə *tam şəkildə* iman etmiş olmaz" (Səhih əl-Buxari, 13); digər bir hədisdə o, demişdir: "Zina edən adam zina etdiyi vaxt mömin sayıla bilməz. Oğurluq edən adam oğurluq etdiyi vaxt mömin sayıla bilməz. Şərab içən adam şərab içdiyi vaxt mömin sayıla bilməz" (Səhih Muslim, 202). Bu da, dəlildir ki, iman mömini birdəfəlik tərk etmir. Yalnız açıqaydın küfr edənlər, yəni bu günahları halal sayan kimsələr istisnadır. Belə ki, Allahın və Peyğəmbərinin ﷺ qadağan etidiyi bir şeyi halal sayan hər kəs kafir sayılır. Bu fəsildəki hədisdən belə nəticə çıxır ki, qonşusu ac ola-ola öz qarnını doyduran kimsə haram iş görmüş sayılır.

[2] Bu əsəri Beyhəqi (19452), Təbərani (750) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən li-ğeyrihi" olduğunu demişdir.

# ٦٢- بَابٌ يُكْثِرُ مَاءَ الْمَرَقِ فَيَقْسِمُ فِي الْجِيرَانِ

## 62-ci fəsil. Xörəyin suyunu çox edib qonşulara da pay vermək

١١٣- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ أَبِي عِمْرَانَ الْجَوْنِيِّ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الصَّامِتِ، عَنْ أَبِي ذَرٍّ قَالَ: أَوْصَانِي خَلِيلِي ﷺ بِثَلاَثٍ: ((أَسْمَعُ وَأُطِيعُ وَلَوْ لِعَبْدٍ مُجَدَّعِ الأَطْرَافِ، وَإِذَا صَنَعْتَ مَرَقَةً فَأَكْثِرْ مَاءَهَا، ثُمَّ انْظُرْ أَهْلَ بَيْتٍ مِنْ جِيرَانِكَ، فَأَصِبْهُمْ مِنْهُ بِمَعْرُوفٍ، وَصَلِّ الصَّلاَةَ لِوَقْتِهَا، فَإِنْ وَجَدْتَ الإِمَامَ قَدْ صَلَّى، فَقَدْ أَحْرَزْتَ صَلاَتَكَ، وَإِلاَّ فَهِيَ نَافِلَةٌ)).

**(113)** ........ Abdullah ibn Samit rəvayət edir ki, Əbu Zərr[1] demişdir: əziz dostum[2] mənə üç şeyi tövsiyə etmişdir:

– (Rəhbəriniz) əl və ya ayaq barmağı kəsik bir kölə olsa belə, eşit və itaət et;[3]

– xörək bişirdikdə, onun suyunu çox elə.[4] Sonra qonşularından olan ev əhlinə nəzər sal[5] və xörəkdən onlara da lazımi qədər ver;

---

[1] Əbu Zərr Cundəb ibn Cunadə əl-Ğifari ﵁ Peyğəmbərin ﷺ səhabəsidir. İslam dinini ilk əvvəl qəbul etmiş, Məkkədən Mədinəyə hicrət etmiş və Peyğəmbərlə ﷺ bərabər bir çox döyüşlərdə iştirak etmiş səhabələrdəndir. Osmanın xilafəti dövründə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 10-cu tərcümeyi-hal).

[2] Əbu Zərr ﵁ burada Peyğəmbəri ﷺ qəsd edir.

[3] Yəni üzərinizdə əmirlik edən adam zatıqırıq, bədəsil, dəyərsiz bir kölə olsa belə, onun əmrlərini dinləyib ona itaəət etmək gərəkdir. İslam alimləri ittifaq etmişlər ki, kölə əmir seçilə bilməz. Amma əgər seçilmişsə, ona itaət etmək vacibdır. Lakin qeyd etmək lazımdır ki, bu itaət, yalnız Allahın və Peyğəmbərinin ﷺ əmri ilə üst-üstə düşən əmrlərə aiddir. Çünki Peyğəmbər ﷺ hədislərin birində belə buyurmuşdur: "Allaha asilik etməkdə məxluqa itaət etmək olmaz!" (Sunən ət-Tirmizi, 1707). Bu itaət isə camaatın birliyi və onlardan kimsənin qanının axıdılmaması üçündür.

[4] Peyğəmbər ﷺ ona sadə bir şeyi tövsiyə edir. Belə ki, bunun üçün artıq pul xərcləmək lazım gəlmir, lakin buna baxmayaraq bir çox insanların bunu verməyə əli gəlmir. Burada Peyğəmbər ﷺ səhabəsinə, sadəcə öz qonşusuna diqqət yetirməyi buyurur. Əlbəttə ki, belə etmək qonşular arasında mehribançılıq yaradır.

[5] Burada Peyğəmbər ﷺ Əbu Zərri ﵁ qonşusundan hal-əhval tutmağa təşviq edir.

– (hər) namazı öz vaxtında qıl. İmamın namaz qıldığını görsən (və camaatla birgə bir daha namaz qılsan), bu sənin üçün nafilə sayılar.[1] Bunu etməsən, artıq sən öz namazını yerinə yetirmiş olarsan.[2]

١١٤– حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا أَبُو عَبْدِ الصَّمَدِ الْعَمِّيُّ قَالَ: حَدَّثَنَا أَبُو عِمْرَانَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الصَّامِتِ، عَنْ أَبِي ذَرٍّ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((يَا أَبَا ذَرٍّ، إِذَا طَبَخْتَ مَرَقَةً فَأَكْثِرْ مَاءَ الْمَرَقَةِ، وَتَعَاهَدْ جِيرَانَكَ، أَوِ اقْسِمْ فِي جِيرَانِكَ)).

**(114)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ey Əbu Zərr, xörək bişirəndə onun suyunu çox elə və qonşularını da (yeməyə) çağır, yaxud qonşularınla da bölüş."[3]

---

[1] Yəni əgər onlarla bərabər həmin namazı vaxtında təkrar qılsan, bu namaz sünnə olaraq qəbul edilər və buna görə artıq savab qazanarsan. Bu da, camaatın parçalanmaması üçün səbəbdir. Başqa bir hədisdə Abdullah ibn Samitin artıq belə zamana yetişdiyi xəbər verilir. Həmin hədisdə Əbul-Aliyə əl-Bərra rəvayət edir ki, *bir gün* İbn Ziyad namazı gecikdirdi. Bu vaxt Abdullah ibn Samit yanıma gəldi və mən onun üçün bir kürsü gətirdim. O, kürsüyə əyləşdikdən sonra mən ona İbn Ziyadın nə etdiyini xəbər verdim. Abdullah dodağını çeynədi və mənim buduma vurub dedi: "Sən məndən soruşduğun kimi, mən də Əbu Zərrdən soruşdum. Və mən sənin buduna vurduğum kimi, o da mənim buduma vurub dedi: "Sən məndən soruşduğun kimi, mən də Rəsulullahdan ﷺ soruşdum. Və mən sənin buduna vurduğum kimi, Rəsulullah ﷺ da mənim buduma vurub buyurdu: "Namazı vaxtında qıl! Və əgər *sonradan* onların həmin namazı qıldıqlarını görsən, *onlarla birlikdə* bu namazı qıl və *qətiyyən* demə: "Mən bu namazı qılmışam, bir də *təkrar* qılmayacağam!" (Səhih Muslim 1469). Demək, camaatın parçalanmaması və müsəlman qanının axıdılmaması üçün başçının haqsızlıqlarına səbir edib ona itaət etmək vacibdir. Yalnız Allah və Rəsuluna ﷺ qarşı olan asiliklər istisnadır.

[2] Bu hədisi Əhməd (5/171), İbn Hibban (1718) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٦٣- بَابُ خَيْرِ الْجِيرَانِ

## 63-cü fəsil. Ən xeyirli qonşu[1]

١١٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا حَيْوَةُ قَالَ: أَخْبَرَنَا شُرَحْبِيلُ بْنُ شَرِيكٍ، أَنَّهُ سَمِعَ أَبَا عَبْدِ الرَّحْمَنِ الْحُبُلِيَّ يُحَدِّثُ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ، عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ: ((خَيْرُ الأَصْحَابِ عِنْدَ اللَّهِ تَعَالَى خَيْرُهُمْ لِصَاحِبِهِ، وَخَيْرُ الْجِيرَانِ عِنْدَ اللَّهِ تَعَالَى خَيْرُهُمْ لِجَارِهِ)).

**(115)** ........ Abdullah ibn Amr ibn As رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah yanında dostların ən xeyirlisi öz dostuna yaxşılıq edəni, habelə, Uca Allah yanında qonşuların ən xeyirlisi öz qonşusuna yaxşılıq edənidir.[2]"[3]

---

[1] Yəni savabını Allahdan umaraq qonşuya yaxşılıq edib Allah yanında ən xeyirli qonşulardan sayılmaq. Qonşuların ən xeyirlisi isə öz qonşusuna daha çox yaxşılıq edənidir. Bu xüsusda varid olmuş hədislər adamı qonşusuna yaxşılıq etməyə təşviq edir. Və adam nə qədər çox yaxşılıq edərsə, bir o qədər Allah yanında hörməti artar. Lakin bir şərtlə ki, bütün bunlar Allah rizası üçün olsun. Uca Allah Onun rizasını qazanmaq üçün yaxşılıq edən möminləri Qurani Kərimdə belə vəsf edir: **"Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər** ***və deyərlər*****: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə** ***bunun*** **əvəzini, nə də minnətdarlıq gözləyirik!"** (əl-İnsan, 8-9). Allah yanında ən xeyirli qonşu olmaq üçün mömin adam ilk əvvəl Peyğəmbərin ﷺ hədislərində varid olmuş qonşu haqlarını öyrənməli, sonra da onları gözəl tərzdə həyata keçirməli, onları öz həyatında tətbiq etməlidir.

[2] Bu hədisdən açıq-aydın görünür ki, ən xeyirli dost və ən xeyirli qonşu olmaq üçün dosta və qonşuya yaxşılıq etmək gərəkdir. Bu hədis, həmçinin, bu məfhumun əksinin də eyni cür başa düşülməsinə dəlalət edir. Yəni Allah yanında dostların ən pisi öz dostuna pislik edəni, habelə, qonşuların ən pisi də öz qonşusuna pislik edənidir.

[3] Bu hədisi Tirmizi (1/353), Darimi (2/215), Hakim (4/164), Əhməd (2/168) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٦٤- بَابُ الْجَارِ الصَّالِحِ

## 64-cü fəsil. Əməlisaleh qonşu[1]

١١٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ قَالَ: حَدَّثَنِي خُمَيْلٌ، عَنْ نَافِعِ بْنِ عَبْدِ الْحَارِثِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مِنْ سَعَادَةِ الْمَرْءِ الْمُسْلِمِ: الْمَسْكَنُ الْوَاسِعُ، وَالْجَارُ الصَّالِحُ، وَالْمَرْكَبُ الْهَنِيءُ)).

**(116)** ........ Nafi ibn Abdulharis ﵁ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: “Geniş ev,[3] əməlisaleh qonşu[4] və rahat minik[5] müsəlman kişinin səadətindəndir.”

---

[1] İmam Buxarinin bu fəsildə varid etdiyi hədisdə Peyğəmbər ﷺ üç şeyi müsəlmanın səadətinə aid etmişdir. Digər bir hədisdə isə bunun dörd olduğunu xəbər verib demişdir: “Dörd şey səadətdəndir: əməlisaleh zövcə, geniş ev, əməlisaleh qonşu və rahat minik” (Səhih İbn Hibban, 1232; Silsilətul-Əhadisis-Səhihə, 282; Səhih əl-Cami, 887).

[2] Bu hədisi Əhməd (3/407) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[3] Burada “geniş ev” deyildikdə, insanın rahatçılığını təmin edən genişlik nəzərdə tutulur. Evin ehtiyacdan ziyadə geniş olması, ifrat dərəcədə mərtəbələrlə yüksəldilməsi, içində istifadə olunmayacaq otaqlar tikib, israfa yol verilməsi, əksinə, adamı həlak edir. Hədislərin birində Peyğəmbər ﷺ yataq barədə demişdir: “Yatağın biri kişinin özünün, biri zövcəsinin, üçüncüsü qonağının, dördüncüsü isə şeytanındır” (Səhih Muslim, 5573; Sunən Əbu Davud, 4142; Musnəd İmam Əhməd, 3/324; Səhih Əbu Davud, 9/142). Demək, adamın özü üçün, ailəsi üçün və bir də, qonağı üçün nəzərdə tutduğu yataqlardan əlavə, istifadəsiz saxladığı yataqların hamısı şeytanlar üçündür. Həqiqi mənada şeytan öz balaları ilə birlikdə belə evlərə doluşur.

[4] Əməlisaleh qonşu o qonşudur ki, adam onun pislik etməyəcəyindən əmin olsun. Beləsi barədə Peyğəmbər ﷺ demişdir: “Vallahi, mömin deyil, vallahi, mömin deyil, vallahi, mömin deyil!” Soruşdular: “Kim, ya Rəsulullah?” Dedi: “Qonşusu, şərindən əmin olmayan kimsə!” (Səhih əl-Buxari, 6016). Həqiqətən, əməlisaleh qonşu böyük nemətdir. O qonşu ki, öz gözəl əxlaqı və davranışı ilə adamın həm özünə, həm də ailəsinə təsir edir.

[5] Uca Allahın yaratdığı minik heyvanları, həmçinin, digər minik vasitələri insanın rahatçılığı üçündür. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **“Atları, qatırları və**

**uzunqulaqları sizə həm minik, həm də zinət olsun deyə** ***Allah yaratdı*****. O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradır"** (ən-Nəhl, 8). Mömin adam bu neməti Allah üçün istifadə edir və beləliklə də, səadətə qovuşur. Fasiq insanlar isə bu cür rahat nemətləri Allahın rizasını qazanmağa yox, əksinə, günah işlərə sərf edir, Allahı qəzəbə gətirir və beləliklə də, bədbəxt olurlar. Əvvəldə qeyd etdiyimiz hədisdə bu üçündən əlavə dördüncüsü də – əməlisaleh zövcənin də səadətə aid olduğu zikr edilmişdir. Həmin hədisin sonunda Peyğəmbər ﷺ bu dördünün əksini zikr edib demişdir: "Dörd şey bədbəxtlikdir: pis zövcə, pis qonşu, pis minik və darısqal ev."

## ٦٥- بَابُ الْجَارِ السُّوءِ

## 65-ci fəsil. Pis qonşu

١١٧- حَدَّثَنَا صَدَقَةُ قَالَ: أَخْبَرَنَا سُلَيْمَانُ هُوَ ابْنُ حَيَّانَ، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ مِنْ دُعَاءِ النَّبِيِّ ﷺ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ جَارِ السُّوءِ فِي دَارِ الْمُقَامِ، فَإِنَّ جَارَ الدُّنْيَا يَتَحَوَّلُ)).

**(117)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: "Allahım, sakin olduğum yurddakı pis qonşudan Sənə sığınıram. Dünya qonşusu[1] isə dəyişəndir."[2]

١١٨- حَدَّثَنَا مُخْلَدُ بْنُ مَالِكٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَغْرَاءَ قَالَ: حَدَّثَنَا بُرَيْدُ بْنُ عَبْدِ اللَّهِ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ تَقُومُ السَّاعَةُ حَتَّى يَقْتُلَ الرَّجُلُ جَارَهُ وَأَخَاهُ وَأَبَاهُ)).

---

[1] Hərçənd, bu dua bu kitabda ərəbcə (جَارَ الدُّنْيَا) "dünya qonşusu" ləfzi ilə varid olmuşdur, lakin İmam Nəsainin "Sunən" (5407), Hakimin "Mustədrək" (1/532), Əbu Yə'lanin "Musnəd" (6536) və İbn Əbu Şeybənin "Musənnəf" (25930) əsərlərində bu dua eyni isnadla ərəbcə (جَارَ البَادِيَة) "çöl qonşusu" ləfzi ilə varid olmuşdur. Üstəlik, bu mənanı qüvvətləndirən digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sakin olduğunuz yurddakı qonşunun şərindən Allaha sığının! Səfər qonşusu isə çıxıb getmək istədiyi vaxt çıxıb gedər" (Mustədrək, 1/532; Musnəd İmam Əhməd, 3/346; Silsilətul-Əhadisis-Səhihə, 1443). Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində 3943-cü hədisi izah edərkən bu duadakı (جَارَ الدُّنْيَا) "dünya qonşusu" kəlməsinin "şəzz" (səhih isnadlarla varid olmuş hədislərə zidd olduğunu) demişdir. Demək, pis qonşudan Allaha sığınmaq üçün belə dua etmək lazımdır: "Allahummə, inni əuzu bikə min caris-sui fi daril-muqami, fə innə carəl-badiyəti yətəhəvvəl (Allahım, sakin olduğum yurddakı pis qonşudan Sənə sığınıram. Çöl qonşusu isə dəyişəndir)."

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

**(118)** ........ Əbu Musa[1] ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kişi öz qonşusunu, qardaşını və atasını öldürməyincə, Qiyamət qopmaz.”[2]

---

[1] Əbu Musa Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimi ﷛ Peyğəmbərin ﷺ səhabəsidir. İslam dinini Məkkədə qəbul etmişdir, sonra Həbəşistana hicrət etmiş və nəhayət, Xeybərin fəthindən üç gün sonra Peyğəmbərin ﷺ yanına gəlmişdir. Peyğəmbər ﷺ onu Muaz ibn Cəbəl ilə birgə Yəmənə dəvətə göndərmişdir. Ömərin ﷛ dövründə Bəsrənin, Osmanın ﷛ dövründə isə Kufənin valisi olmuşdur. Əbu Musa hicrətin 42-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 82-ci tərcümeyi-hal). Əbu Musanın ﷛ fəzilətinə dair varid olmuş hədisdə Peyğəmbər ﷺ ona belə demişdir: “Ey Əbu Musa, sənə Davudun səsi kimi məlahətli bir səs bəxş edilmişdir!” (Səhih əl-Buxari, 5048).

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir. Digər hədisdə Əbu Musa ﷛ rəvayət etmişdir ki, (bir dəfə) Peyğəmbər ﷺ (səhabələrinə): “Qiyamətə yaxın hərc olacaq”– dedi. Səhabələr: “Hərc nədir?”– deyə soruşdular. Peyğəmbər ﷺ buyurdu: “Qətl etməkdir. Bu, sizin müşrikləri qətlə yetirməyiniz yox, əksinə, bir-birinizi qətlə yetirməyinizdir. İş o yerə gəlib çatacaq ki, adam öz qonşusunu, öz qardaşını, öz əmisini və əmisi oğlunu qətlə yetirəcək.” Səhabələr soruşdular: “Həmin vaxt biz müsəlmanların ağlı başında olacaq?” Peyğəmbər ﷺ buyurdu: “O dövrdəki ağıllı insanların əksəriyyəti gedəcək, yerinə başıboş insanlar gələcəkdir” (Musnəd İmam Əhməd, 4/391-392; Silsilətul-Əhadisis-Səhihə, 1682).

# ٦٦- بَابٌ لا يُؤْذِي جَارَهُ

## 66-cı fəsil. Qonşuya əziyyət verməmək

١١٩- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا أَبُو يَحْيَى مَوْلَى جَعْدَةَ بْنِ هُبَيْرَةَ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: قِيلَ لِلنَّبِيِّ ﷺ: يَا رَسُولَ اللَّهِ، إِنَّ فُلاَنَةً تَقُومُ اللَّيْلَ وَتَصُومُ النَّهَارَ، وَتَفْعَلُ، وَتَصَّدَّقُ، وَتُؤْذِي جِيرَانَهَا بِلِسَانِهَا؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ خَيْرَ فِيهَا، هِيَ مِنْ أَهْلِ النَّارِ))، قَالُوا: وَفُلاَنَةٌ تُصَلِّي الْمَكْتُوبَةَ، وَتَصَّدَّقُ بِأَثْوَارٍ، وَلاَ تُؤْذِي أَحَدًا؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((هِيَ مِنْ أَهْلِ الْجَنَّةِ)).

**(119)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki,[1] Peyğəmbərə ﷺ dedilər: "Ya Rəsulullah, filan qadın[2] gecəni namaz qılır, gündüzlər oruc tutur, yaxşı işlər görür, sədəqə paylayır, lakin qonşularına dili ilə əziyyət verir.[3]" Rəsulullah ﷺ buyurdu: "O qadında xeyir yoxdur. O, Cəhənnəm əhlindəndir."[4]

---

[1] Bu hədisi İbn Hibban (2054), Hakim (4/166), Əhməd (2/440) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Bu, dəlildir ki, belə məqamlarda günah işlətmiş kimsənin adının zikr olunmasına ehtiyac yoxdur. Əsas məqsəd buna dair hökmü öyrənməkdir.

[3] Burada "dili ilə əziyyət verir" deyildikdə, qonşunun qeybətini etmək, onu söymək, ona lənət oxumaq, ona böhtan atmaq və başqa bu kimi əziyyətlər nəzərdə tutulur.

[4] Diqqət edin, burada Peyğəmbər ﷺ bu qədər xeyirxah işlər müqabilində həmin qadının xeyirsiz olduğunu, üstəlik, Cəhənnəmlik olacağını xəbər verir. Bu da, o deməkdir ki, qonşuya əziyyət vermək adamı Cəhənnəmə sürükləyən amillərdən biridir. Və məlumdur ki, Cəhənnəm oduna girməyə səbəb olan hər bir əməl böyük günahlardan sayılır. Demək, qonşuya əziyyət vermək böyük günahdır (15-ci hədisin qeydlərinə bax). Hərçənd, namaz qılmaq və oruc tutmaq günahları silib aparır, lakin qonşuya əziyyət vermək böyük günah olduğundan bu yaxşılıqlar həmin günahı silə bilmir. Və əgər Allaha bu qədər ibadət edən adam həm xeyirsiz, həm də Cəhənnəm əhlindəndirsə, onda bəs Allaha ibadət etməyən, üstəlik, qonşusuna əziyyət verən kimsənin halı necə olacaq?! Əlbəttə ki, beləsinin aqibəti daha betər olacaqdır.

Onlar dedilər: "Filan qadın da yalnız vacib namazları qılır, yağsız pendirdən sədəqə verir,[1] heç kəsə də əziyyət vermir." Peyğəmbər ﷺ buyurdu: "O, Cənnət əhlindəndir."

١٢٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنِي عُمَارَةُ بْنُ غُرَابٍ، أَنَّ عَمَّةً لَهُ حَدَّثَتْهُ، أَنَّهَا سَأَلَتْ عَائِشَةَ أُمَّ الْمُؤْمِنِينَ رَضِيَ اللَّهُ عَنْهَا، فَقَالَتْ: إِنَّ زَوْجَ إِحْدَانَا يُرِيدُهَا فَتَمْنَعُهُ نَفْسَهَا، إِمَّا أَنْ تَكُونَ غَضْبَى أَوْ لَمْ تَكُنْ نَشِيطَةً، فَهَلْ عَلَيْنَا فِي ذَلِكَ مِنْ حَرَجٍ؟ قَالَتْ: نَعَمْ، إِنَّ مِنْ حَقِّهِ عَلَيْكِ أَنْ لَوْ أَرَادَكِ وَأَنْتِ عَلَى قَتَبٍ لَمْ تَمْنَعِيهِ، قَالَتْ: قُلْتُ لَهَا: إِحْدَانَا تَحِيضُ، وَلَيْسَ لَهَا وَلِزَوْجِهَا إِلاَّ فِرَاشٌ وَاحِدٌ أَوْ لِحَافٌ وَاحِدٌ، فَكَيْفَ تَصْنَعُ؟ قَالَتْ: لِتَشُدَّ عَلَيْهَا إِزَارَهَا ثُمَّ تَنَامُ مَعَهُ، فَلَهُ مَا فَوْقَ ذَلِكَ، مَعَ أَنِّي سَوْفَ أُخْبِرُكِ مَا صَنَعَ النَّبِيُّ ﷺ، إِنَّهُ كَانَ لَيْلَتِي مِنْهُ، فَطَحَنْتُ شَيْئًا مِنْ شَعِيرٍ، فَجَعَلْتُ لَهُ قُرْصًا، فَدَخَلَ فَرَدَّ الْبَابَ، وَدَخَلَ إِلَى الْمَسْجِدِ، وَكَانَ إِذَا أَرَادَ أَنْ يَنَامَ أَغْلَقَ الْبَابَ، وَأَوْكَأَ الْقِرْبَةَ، وَأَكْفَأَ الْقَدَحَ، وَأَطْفَأَ الْمِصْبَاحَ، فَانْتَظَرْتُهُ أَنْ يَنْصَرِفَ فَأُطْعِمُهُ الْقُرْصَ، فَلَمْ يَنْصَرِفْ، حَتَّى غَلَبَنِي النَّوْمُ، وَأَوْجَعَهُ الْبَرْدُ، فَأَتَانِي فَأَقَامَنِي ثُمَّ قَالَ: ((أَدْفِئِينِي أَدْفِئِينِي))، فَقُلْتُ لَهُ: إِنِّي حَائِضٌ، فَقَالَ: ((وَإِنْ، اكْشِفِي عَنْ فَخِذَيْكِ))، فَكَشَفْتُ لَهُ عَنْ فَخِذَيَّ، فَوَضَعَ خَدَّهُ وَرَأْسَهُ عَلَى فَخِذَيَّ حَتَّى دَفِئَ. فَأَقْبَلَتْ شَاةٌ لِجَارِنَا دَاجِنَةٌ فَدَخَلَتْ، ثُمَّ عَمَدَتْ إِلَى الْقُرْصِ فَأَخَذَتْهُ، ثُمَّ أَدْبَرَتْ بِهِ. قَالَتْ: وَقَلِقْتُ عَنْهُ، وَاسْتَيْقَظَ النَّبِيُّ ﷺ فَبَادَرْتُهَا إِلَى الْبَابِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((خُذِي مَا أَدْرَكْتِ مِنْ قُرْصِكِ، وَلاَ تُؤْذِي جَارَكِ فِي شَاتِهِ)).

---

[1] Hədisdən açıq-aydın görünür ki, bu qadın nə gecə namazı qılır, nə nafilə oruclarını tutur, yalnız vacib namazları yerinə yetirir və Allah yolunda elə də çox sədəqə vermir, lakin buna baxmayaraq, Peyğəmbər ﷺ onu Cənnətlə müjdələyir. Budur, qonşuya əziyyət verməməyin mükafatı! Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Altı şeyi (yerinə yetirəcəyinizə dair) mənə zəmanət verin, Cənnətə girəcəyinizə dair sizə zəmanət verim: danışdığınız zaman düz danışın, vəd verdikdə onu yerinə yetirin, sizə əmanət verilərsə, onu yiyəsinə qaytarın, ayıb yerlərinizi *zinadan* qoruyun, gözünüzü *haram buyurulanlardan* çevirin və bir də əlinizlə heç kəsə əziyyət verməyin" (Səhih İbn Hibban, 107; Musnəd İmam Əhməd, 5/323; Mustədrək, 4/358-359; Silsilətul-Əhadisis-Səhihə, 1470).

**(120)** ........ Rəvayət edilir ki, (bir dəfə) Umara ibn Ğurabın bibisi möminlərin anası[1] Aişədən ﵂ soruşdu: "Birimizin əri öz yoldaşı ilə yaxınlıq etmək istədikdə, qadın ya qəzəbli, ya da həvəssiz olduğuna görə ona yaxınlıq vermir. Buna görə bizə günah yazılırmı?" (Aişə) dedi: "Bəli (yazılır), çünki onun sənin üzərinə düşən haqqıdır ki, yəhər[2] üstündə belə səninlə yaxınlıq etmək istəsə, ona mane olmayasan."[3] (Umaranın bibisi) deyir ki, mən yenə ondan soruşdum: "Bizlərdən biri heyz gördüyü zaman – ərlə arvadın da cəmi bir çarpayısı yaxud bir yorğanı varsa – (onda) nə etməlidir?" *Aişə* dedi: "Qoy o qadın ayıb yerini alt paltarı ilə bərk-bərk örtsün, sonra da ərinin yanında yatsın. (Həmin vaxt) əri onunla cinsi əlaqədən başqa istədiyini edə bilər.[4] Bundan başqa, mən sənə Peyğəmbərin ﷺ (belə

---

[1] Uca Allah bu xüsusda buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır"** (əl-Əhzab, 6).

[2] Söhbət dəvənin belinə qoyulan yəhərdən gedir.

[3] Qadın heç bir halda ərinin onunla yaxınlıq etməsindən imtina etməməlidir. Yalnız üzürlü hallar – heyz, nifas və başqa buna bənzər hallar istisnadır. Belə ki, Allah ərlə arvad arasında olan bu ünsiyyəti rahatlıq vasitəsi etmişdir. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **"Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Allahın dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır"** (ər-Rum, 21). Qadın səbəbsiz yerə ərinin onunla yaxınlıq etməsinə mane olduqda isə ərinin haqqını tapdalamış olur. Belə olduğu təqdirdə mələklər ona lənət edir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Kişi öz həyat yoldaşını yatağına çağırdığı zaman qadın *ona* yaxınlıq verməsə və əri *bu səbəbdən* ona qəzəbi tutmuş halda yatsa, mələklər səhərə qədər o qadına lənət oxuyar" (Səhih əl-Buxari, 3237); başqa bir hədisdə o, demişdir: "Biriniz öz zövcəsini yaxınlıq etməyə çağırdığı zaman, qadın təndir başında olsa belə, onun ehtiyacını ödəməlidir" (Sunən ət-Tirmizi, 1193; Sunən ən-Nəsai, 8971; Silsilətul-Əhadisis-Səhihə, 1202).

[4] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "*O halda qadınlarınızla* cinsi əlaqədən başqa istədiyinizi edə bilərsiniz!" (Səhih Muslim, 694); digər bir hədisdə Aişə ﵂ demişdir: "Bizdən birimiz heyz olduğu və Peyğəmbər ﷺ ona toxunmaq istədiyi zaman *heyz görmüş zövcəsinə* fitə bağlamağı əmr edər, sonra da əllərini onun bədəninə toxundurardı (Səhih əl-Buxari, 296); başqa bir hədisdə Ummu Sələmə ﵂ demişdir: "Mən Peyğəmbərlə ﷺ bərabər *üzərində naxışlar olan* bir əbaya bürünüb uzandığım zaman birdən heyz oldum. Mən

vəziyyətdə) nə etdiyini xəbər verəcəyəm. Peyğəmbərlə ﷺ keçirdiyim gecələrin birində mən arpanı üyüdüb, unundan onun üçün kökə bişirdim. Bu əsnada o içəri girdi və qapını bağlayıb məscidə daxil oldu.[1] O, adətən, yatmaq istədikdə, qapını kilidləyər, su tuluğunun ağzını bağlayar, qabların ağzını örtər və çırağı söndürərdi.[2] Mən gözlədim ki, gəlsin, həmin kökəni ona yedirdim. Lakin mən yuxuya gedənədək o gəlmədi.[3] Nəhayət, ona soyuq dəydi. Onda, o gəlib məni oyatdı və: "Məni isit, məni isit!"– dedi. Mən də ona: "Heyzliyəm!"– dedim. O, buyurdu: "Eybi yox, budunun üstünü aç!" Mən budumun üstünü açdım və o, isinənədək üzünü, başını budumun üstünə qoydu. Bu vaxt qonşunun ələ öyrəşmiş qoçu içəri girdi. Sonra yaxınlaşıb kökəni götürdü və dönüb getdi. Mən onu dəf etmək istədikdə, Peyğəmbər ﷺ oyandı. Mən (qalxıb) qapıya tərəf yüyürdükdə, o, dedi: "Kökəni götür, amma qoça görə qonşuna əziyyət vermə!"[4]

١١٨– حَدَّثَنَا سُلَيْمَانُ بْنُ دَاوُدَ أَبُو الرَّبِيعِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا الْعَلاَءُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَدْخُلُ الْجَنَّةَ مَنْ لاَ يَأْمَنُ جَارُهُ بَوَائِقَهُ)).

---

yavaşca qalxıb heyz paltarımı götürdüm. Paltarımı geyindikdən sonra Peyğəmbər ﷺ: "Olmaya, heyz gördün?"– deyə soruşdu. Mən: "Bəli!"– deyə cavab verdim. O, məni yanına çağırdı və mən onunla birlikdə əbaya bürünüb yatdım (Səhih əl-Buxari, 298).

[1] Belə ki, Peyğəmbərin ﷺ hücrəsinin bir qapısı da məscidə açılırdı.

[2] Peyğəmbərin ﷺ bu sünnəsi bir çox "səhih" hədislərdə öz təsdiqini tapmışdır. Həmin hədislərdən birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qapıları kilidləyin, su tuluqlarının ağzını bağlayın, qabların ağzını bağlayın, qab-qacağın üstünü örtün və çıraqları söndürün. Çünki şeytan kilidli qapını, bağlı tuluğu və ağzı bağlı qabı aça bilməz. Bir də ki, siçan insanların evlərini yandıra bilər" (əl-Ədəbul-Mufrad, 1221).

[3] Bu əsnada Peyğəmbər ﷺ namaz qılırdı.

[4] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Ziyad əl-İfriqi "zəif", Umarə ibn Ğurab "məchul" və onun bibisi "kimliyi bəlli olmayan" ravilərdir. Elə bu səbəblərdən dolayı, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin hədisdə deyilənlərin bir çoxu səhih hədislərdə öz təsdiqini tapmışdır.

**(121)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qonşusu şərindən əmin olmadığı[1] kimsə Cənnətə daxil olmaz."[2]

---

[1] Bu, dəlildir ki, qonşusu şərindən əmin olmayan kimsə böyük günah sahibidir və Cəhənnəmlikdir. Böyük günah sahibinin Cəhənnəmdə əbədi qalıb-qalmayacağı barədə isə artıq danışmışıq (64-cü hədisin qeydlərinə bax). Burada "şərindən əmin olmayan" deyildikdə, şərindən ehtiyat etmək nəzərdə tutulur. Bu xüsusda varid olmuş digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizə mömin barədə xəbər verimmi?! *Mömin* o kəsdir ki, insanlar onun, onların malına və canına xətər toxundurmayacağından əmin olsunlar. Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa insanlara zərər dəyməsin. Mücahid o kəsdir ki, Allaha itaətdə öz nəfsi ilə cihad etsin. Mühacir o kəsdir ki, xətaları və günahları tərk etsin" (Musnəd İmam Əhməd, 6/21; Silsilətul-Əhadisis-Səhihə, 549).

[2] Bu hədisi Buxari (6016) və Muslim (172) rəvayət etmişdir.

## ٦٧- بَابٌ لاَ تَحْقِرَنَّ جَارَةٌ لِجَارَتِهَا وَلَوْ فِرْسِنُ شَاةٍ

## 67-ci fəsil. Qadın öz qadın qonşusuna qoç dırnağı verməyi özü üçün əskiklik hesab etməməlidir

١٢٢- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ عَمْرِو بْنِ مُعَاذٍ الأَشْهَلِيِّ، عَنْ جَدَّتِهِ، أَنَّهَا قَالَتْ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: ((يَا نِسَاءَ الْمُؤْمِنَاتِ، لاَ تَحْقِرَنَّ امْرَأَةٌ مِنْكُنَّ لِجَارَتِهَا، وَلَوْ كُرَاعُ شَاةٍ مُحَرَّقٍ)).

**(122)** ........ Amr ibn Muaz əl-Əşhəlinin nənəsi[1] ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ mənə belə buyurdu: "Ey mömin qadınlar! Heç biriniz qadın qonşusuna qızarmış qoç ayağı[2] verməyi özünə ar bilməsin."[3]

---

[1] Bu qadının adı Həvvadır (Təkmil fil-Cərh vət-Tədil, 4/178).

[2] Yəni veriləcək hədiyyənin həcmi və ya dəyəri az olsa da, onu qonşuya verib onunla isti münasibət qurmaq gərəkdir. Çünki Allah yolunda edilən yaxşılığın savabı qat-qat artır. Bu xüsusda, Peyğəmbər ﷺ buyurmuşdur: "Allah yalnız təmiz və halal olan (sədəqəni) qəbul edər. (Mömin) adamın təmiz və halal maldan verdiyi elə bir sədəqə yoxdur ki, Mərhəmətli Allah onu sağ Əli ilə götürməsin. Hətta bir xurma olsa belə, birinizin öz daylağını böyütdüyü kimi, bu sədəqə də Mərhəmətli Allahın Əlinin içində artıb dağdan böyük olar" (Səhih Muslim, 2389). Həmçinin Allah yolunda verilən sədəqənin miqdarı və dəyəri az olsa belə, Allah üçün olan əməl mömininin Cəhənnəm odundan qurtulmasına səbəb olur. Peyğəmbər ﷺ Qiyamət günündən danışarkən demişdir: "Sonra Allah Öz quluna buyuracaq: "Mən sənə mal-dövlət verməmişdimmi?" O: "Vermişdin"– deyəcək. Sonra Allah buyuracaq: "Mən sənə peyğəmbər göndərməmişdimmi?" O: "Göndərmişdin"– deyəcək. Bundan sonra həmin adam əvvəlcə sağına, sonra da soluna baxacaq, lakin oddan başqa bir şey görməyəcək. Elə isə, heç olmasa yarım xurma *sədəqə* ilə özünüzü Oddan qoruyun. Bunu tapmasanız, onda gözəl söz danışmaqla *canınızı qurtarın*" (Səhih əl-Buxari, 1413). Bu hədislər mömini davamlı olaraq sədəqə verməyə təşviq edir. Nə çox mömin insanlar var ki, filan qədər var-dövlətim olsa, filan qədər sədəqə verərəm deyir, Allah ona var-dövlət əta etdikdə isə nəinki sədəqə, heç vacib buyurulmuş zəkatı vermək yadına düşmür.

[3] Bu hədisi Malik (1698), Əhməd (4/64; 5/377; 6/434), Darimi (1714) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**١٢٣–** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ قَالَ: حَدَّثَنَا سَعِيدٌ الْمَقْبُرِيُّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ: قَالَ النَّبِيُّ ﷺ: ((يَا نِسَاءَ الْمُسْلِمَاتِ، يَا نِسَاءَ الْمُسْلِمَاتِ، لاَ تَحْقِرَنَّ جَارَةٌ لِجَارَتِهَا وَلَوْ فِرْسِنُ شَاةٍ)).

**(123)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ey müsəlman qadınlar, ey müsəlman qadınlar! Sizdən heç biriniz qadın qonşusuna qoç dırnağı[1] verməyi özünə ar bilməsin."[2]

---

[1] Hər iki hədisdə Peyğəmbər ﷺ hər bir möminə öz qonşusuna hədiyyə verib, onunla isti münasibət qurmağı buyurur. Mömin adam nəinki hədiyyə verməklə, hətta verilən bu növ hədiyyəni qəbul etməklə qonşusu ilə gözəl münasibət qurmalıdır. Qonşu qonşuya hədiyyə verdikdə, hədiyyəni götürən tərəf naşükür adam deyilsə, hədiyyənin dəyərli və ya dəyərsiz olduğuna baxmır, o saat öz-özünə: "Qonşum mənə diqqət yetirdi, məni saydı, yemək hazırladıqda, məni də yada saldı"– deyə düşünür və beləliklə də, qonşular arasında isti münasibət yaranır. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Məni qoyun ayağı yeməyə dəvət etsələr gedərəm; mənə qoyun ayağı hədiyyə etsələr qəbul edərəm" (Səhih əl-Buxari, 2568).

[2] Bu hədis də əvvəlki hədis kimi "səhih"dir.

## ٦٨- بَابُ شِكَايَةِ الْجَارِ

## 68-ci fəsil. Qonşunun şikayəti[1]

١٢٤- حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا صَفْوَانُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَجْلاَنَ قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ، إِنَّ لِي جَارًا يُؤْذِينِي، فَقَالَ: ((انْطَلِقْ فَأَخْرِجْ مَتَاعَكَ إِلَى الطَّرِيقِ))، فَانْطَلَقَ فَأَخْرَجَ مَتَاعَهُ، فَاجْتَمَعَ النَّاسُ عَلَيْهِ، فَقَالُوا: مَا شَأْنُكَ؟ قَالَ: لِي جَارٌ يُؤْذِينِي، فَذَكَرْتُ لِلنَّبِيِّ ﷺ، فَقَالَ: ((انْطَلِقْ فَأَخْرِجْ مَتَاعَكَ إِلَى الطَّرِيقِ))، فَجَعَلُوا يَقُولُونَ: اللَّهُمَّ الْعَنْهُ، اللَّهُمَّ أَخْزِهِ. فَبَلَغَهُ، فَأَتَاهُ فَقَالَ: ارْجِعْ إِلَى مَنْزِلِكَ، فَوَاللَّهِ لاَ أُوْذِيكَ.

**(124)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir nəfər (Peyğəmbərə ﷺ): “Ya Rəsulullah, mənim bir qonşum var, mənə əziyyət verir”[2]– dedi. O, buyurdu: “Get evindəki əşyaları yola çıxart!” Adam gedib evindəki əşyaları bayıra çıxartdı. Camaat onun başına toplaşıb: “Sənə nə olub?”– deyə soruşdu. Adam dedi: “Qonşum mənə əziyyət verir. Mən bunu Peyğəmbərə ﷺ dedim, o da (mənə): “Get evindəki əşyaları yola çıxart!”– deyə buyurdu. Onda camaat: “Ey Allah, ona lənət et! Ey Allah, onu rüsvay et!”– dedi. Bu xəbər qonşusuna çatdıqda, onun yanına gəlib dedi: “Qayıt evinə. Vallahi, daha sənə əziyyət verməyəcəyəm.”[3]

١٢٥- حَدَّثَنَا عَلِيُّ بْنُ حَكِيمٍ الأَوْدِيُّ قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ أَبِي عُمَرَ، عَنْ أَبِي جُحَيْفَةَ قَالَ: شَكَا رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ جَارَهُ، فَقَالَ: ((احْمِلْ مَتَاعَكَ فَضَعْهُ عَلَى الطَّرِيقِ))، فَمَنْ مَرَّ بِهِ يَلْعَنُهُ،

---

[1] Burada “qonşunun şikayəti” deyildikdə, adamın öz qonşusu barədə səlahiyyətli şəxslərə şikayət etməsi nəzərdə tutulur.

[2] Hədisdən açıq-aydın görünür ki, səhabə pisliyə pisliklə cavab vermək istəmir, əziyyətə məruz qaldığı halda belə, nə edəcəyini Peyğəmbərdən ﷺ soruşur. Bu, dəlildir ki, adam hər bir işdə bilmədiyini bilənlərdən soruşmalı, ələlxüsus da şəriətə aid işlərdə özbaşına qərar verməməlidir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən-səhih” olduğunu demişdir.

فَجعَلَ كُلُّ مَنْ مَرَّ بِهِ يَلْعنُهُ، فَجاءَ إِلَى النَّبِيِّ ﷺ فَقالَ: مَا لَقِيتُ مِنَ النَّاسِ؟ فَقَالَ: ((إِنَّ لَعْنَةَ اللّٰهِ فَوْقَ لَعْنَتِهِمْ))، ثُمَّ قَالَ لِلَّذِي شَكَا: كُفِيتَ أَوْ نَحْوَهُ.

**(125)** ........ Əbu Cuheyfə[1] ﷺ demişdir: "Bir nəfər Peyğəmbərə ﷺ qonşusundan şikayət etdi. O da, ona belə buyurdu: "Evindəki əşyaları çıxart, qoy yola! Onun yanından keçən hər kəs ona lənət oxuyacaq." Elə ki, onun yanından keçən hər kəs ona lənət oxumağa başladı, adam Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mən camaatın filan söz dediyini eşitdim." Peyğəmbər ﷺ buyurdu: "Şübhəsiz ki, Allahın lənəti onların lənətindən daha üstündür." Sonra da şikayətçiyə: "Bu sənə yetər", yaxud buna bənzər bir söz dedi."[2]

**١٢٦–** حَدَّثَنَا مَخْلَدُ بْنُ مَالِكٍ قَالَ: حَدَّثَنَا أَبُو زُهَيْرٍ عَبْدُ الرَّحْمَنِ بْنُ مَغْرَاءَ قَالَ: حَدَّثَنَا الْفَضْلُ يَعْنِي ابْنَ مُبَشِّرٍ قَالَ: سَمِعْتُ جَابِرًا يَقُولُ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ يَسْتَعْدِيهِ عَلَى جَارِهِ، فَبَيْنَا هُوَ قَاعِدٌ بَيْنَ الرُّكْنِ وَالْمَقَامِ إِذْ أَقْبَلَ النَّبِيُّ ﷺ، وَرَآهُ الرَّجُلُ وَهُوَ مُقَاوِمٌ رَجُلاً عَلَيْهِ ثِيَابٌ بَيَاضٌ عِنْدَ الْمَقَامِ حَيْثُ يُصَلُّونَ عَلَى الْجَنَائِزِ، فَأَقْبَلَ النَّبِيُّ ﷺ فَقَالَ: بِأَبِي أَنْتَ وَأُمِّي يَا رَسُولَ اللّٰهِ، مَنِ الرَّجُلُ الَّذِي رَأَيْتُ مَعَكَ مُقَاوِمَكَ عَلَيْهِ ثِيَابٌ بِيضٌ؟ قَالَ: أَقَدْ رَأَيْتَهُ؟ قَالَ: نَعَمْ، قَالَ: ((رَأَيْتَ خَيْرًا كَثِيرًا، ذَاكَ جِبْرِيلُ ﷺ رَسُولُ رَبِّي، مَا زَالَ يُوصِينِي بِالْجَارِ حَتَّى ظَنَنْتُ أَنَّهُ جَاعِلٌ لَهُ مِيرَاثًا)).

**(126)** ........ Cabir ﷺ rəvayət edir ki, bir nəfər qonşusundan şikayət etmək üçün Peyğəmbərin ﷺ yanına gəldi. O, rüknlə məqam[3] arasında oturub *gözləyərkən* Peyğəmbər ﷺ *oraya* gəldi. Həmin adam Peyğəmbəri ﷺ məqamın yanında, cənazə namazı qılınan yerdə, ağ paltarlı bir kişi ilə üzbəüz dayandığını gördü. Sonra da onun yanına gəlib dedi: "Atam-anam sənə qurban, ya Rəsulullah! Sənin yanında gördüyüm, səninlə üzbəüz duran o ağ paltarlı kişi kim idi?" Peyğəmbər ﷺ soruşdu: "Sən onu gördünmü?"

---

[1] Əbu Cuheyfə Vəhb ibn Abdullah əs-Suvai ﷺ Rəsulullahın ﷺ azyaşlı səhabələrindən, İbn Abbasın yaşıdlarındandır (Siyər Əlam ən-Nubələ, 44-cü tərcümeyi-hal).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin də "həsən-səhih" olduğunu demişdir.

[3] Yəni Kəbənin küncü ilə İbrahim aleyhissəlamın məqamı arasında.

Adam: "Bəli!"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Sən çoxlu xeyir gördün. O, Rəbbimin rəsulu Cəbrail ﷺ idi. Cəbrail qonşu haqqında mənə o qədər nəsihət etdi ki, mirasdan ona da pay düşəcəyini güman etdim."[1]

[1] Bu hədisin isnadında keçən Fədl ibn Mubəşşir "zəif" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, axırındakı "o mənə qonşu haqqında o qədər nəsihət etdi ki, ona da mirasdan pay düşəcəyini zənn etdim" cümləsi "səhih"dir (101, 104, 105 və 106-cı hədislərə və onların qeydlərinə bax). Üstəlik, bu hadisənin bənzəri İmam Əhmədin nəql etdiyi rəvayətdə öz təsdiqini tapmışdır. Ənsardan olan bir səhabə rəvayət edir ki, bir dəfə mən əhli-əyalımla birgə Rəsulullahın ﷺ yanına getdim. Həmin vaxt o, bir kişi ilə üzbəüz durub söhbət edirdi. Mən bu söhbətin şəxsi söhbət olduğunu güman etdim və bir kənarda oturub *gözlədim*. Rəsulullahın ﷺ *söhbəti* o qədər uzandı ki, mən onun bu qədər uzun-uzadı ayaq üstə durmağına acıdım. Rəsulullah ﷺ söhbətini bitirdikdən (və həmin adam çıxıb getdikdən) sonra mən ona yaxınlaşıb dedim: "Ya Rəsulullah, bu adam söhbəti o qədər uzatdı ki, mən sənin bu qədər uzun-uzadı ayaq üstə durmağına acıdım." Rəsulullah ﷺ soruşdu: "Bilirsənmi o kim idi?" Mən: "Xeyr, (bilmirəm)"– deyə cavab verdim. Onda Rəsulullah ﷺ dedi: "*Bu,* Cəbrail idi. O mənə qonşu haqqında o qədər nəsihət etdi ki, ona da mirasdan pay düşəcəyini güman etdim. Və əgər sən Cəbrailə salam versəydin, o sənin salamını alardı" (Musnəd, 5/32; Səhih Tərğib vət-Tərhib, 2572).

## ٦٩- بَابُ مَنْ آذَى جَارَهُ حَتَّى يَخْرُجَ

## 69-cu fəsil. Qonşusu (mənzilini) tərk edənədək ona əziyyət verən kəs

١٢٧- حَدَّثَنَا عِصَامُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا أَرْطَاةُ بْنُ الْمُنْذِرِ قَالَ: سَمِعْتُ، يَعْنِي أَبَا عَامِرٍ الْحِمْصِيَّ، قَالَ: كَانَ ثَوْبَانُ يَقُولُ: ((مَا مِنْ رَجُلَيْنِ يَتَصَارَمَانِ فَوْقَ ثَلاَثَةِ أَيَّامٍ، فَيَهْلَكُ أَحَدُهُمَا، فَمَاتَا وَهُمَا عَلَى ذَلِكَ مِنَ الْمُصَارَمَةِ، إِلاَّ هَلَكَا جَمِيعًا، وَمَا مِنْ جَارٍ يَظْلِمُ جَارَهُ وَيَقْهَرُهُ، حَتَّى يَحْمِلَهُ ذَلِكَ عَلَى أَنْ يَخْرُجَ مِنْ مَنْزِلِهِ، إِلاَّ هَلَكَ)).

**(127)** ........ Sovban[1] ﷛ demişdir: "Üç gündən artıq bir-birindən əlaqəni kəsən elə iki nəfər yoxdur ki, ikisindən biri həlak olmasın. Və əgər beləcə küsülü halda ölsələr, hər ikisi həlak olar.[2] Qonşusuna əziyyət verən, onu alçaldan, beləliklə də, onu öz evindən çıxardan elə bir adam yoxdur ki, həlak olmasın.[3]"[4]

---

[1] Əbu Abdur-Rəhman Sovbən ibn Bucdud ﷛ Peyğəmbərin ﷺ səhabəsidir (Dəlilul-Falihin, 2/415).

[2] Növbəti fəsillərdəki 397, 398, 399, 402, 406, 407, 414 və 985 nömrəli hədislərə bax. O hədislərdə Peyğəmbər ﷺ küsülülüyün müsəlmana halal olmadığını, belə müsəlmanın haqdan sapdığını və nəhayət, Cənnətə girməyəcəyini xəbər vermişdir. Əlbəttə ki, burada söhbət salamı səbəbsiz yerə kəsməkdən gedir. Belə ki, lazım gəldikdə Peyğəmbər ﷺ günah işlətmiş səhabəsindən salamı kəsərdi. Buna Kəb ibn Malikin ﷛ hekayəsini misal çəkmək olar. Peyğəmbər ﷺ səhabələri ilə birlikdə ona və ondan başqa iki səhabəyə əlli gün, yəni barələrində tövbə ayələri nazil olanadək salam verməmişdir.

[3] Bu hədisdə qonşusuna əziyyət verib evindən çıxaran kimsənin həlak olduğu xəbər verilir. Bundan əvvəlki fəsildəki hədislərdə isə Peyğəmbərin ﷺ qonşusuna əziyyət verib evindən çıxaran kimsənin əməlinə nifrət etməsi, bu əməl sahibinə qarşı tədbir görməsi, bu işdə məzlumu dəstəkləməsi, üstəlik, insanların həmin zalıma bəddua edib lənət oxumaları və Peyğəmbərin ﷺ ona: "Şübhəsiz ki, Allahın lənəti onların lənətindən daha üstündür"– dediyi rəvayət edilir. Bütün bunlar qonşuya əziyyət verib evindən didərgin salmağın nə dərəcədə böyük günah olduğuna dəlalət edir.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٧٠- بَابُ جَارِ الْيَهُودِيِّ

## 70-ci fəsil. Yəhudi qonşu

١٢٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا بَشِيرُ بْنُ سُلَيْمَانَ، عَنْ مُجَاهِدٍ قَالَ: كُنْتُ عِنْدَ عَبْدِ اللَّهِ ابْنِ عَمْرٍو، وَغُلاَمُهُ يَسْلُخُ شَاةً، فَقَالَ: يَا غُلاَمُ، إِذَا فَرَغْتَ فَابْدَأْ بِجَارِنَا الْيَهُودِيِّ، فَقَالَ رَجُلٌ مِنَ الْقَوْمِ: الْيَهُودِيُّ أَصْلَحَكَ اللَّهُ؟ قَالَ: إِنِّي سَمِعْتُ النَّبِيَّ ﷺ يُوصِي بِالْجَارِ، حَتَّى خَشِينَا أَوْ رُئِينَا أَنَّهُ سَيُوَرِّثُهُ.

**(128)** ........ Mucahid demişdir: "Mən Abdullah ibn Amrın yanında ikən onun xidmətçisi (qurban kəsilmiş) qoçun dərisini soyurdu. Abdullah dedi: "Ay uşaq, (qoçu) soyub qurtardıqdan sonra (ətdən) ilk əvvəl yəhudi qonşumuza verərsən?" Camaatın arasından bir nəfər dedi: "Yəhudiyə?! Allah səni islah eləsin!" Abdullah dedi: "Peyğəmbər ﷺ qonşu haqqında bizə o qədər tövsiyə etdi ki, qorxduq və ya güman etdik ki, ona mirasdan pay düşəcək."[1]

---

[1] Bu hədisi Beyhəqi "Şoəbul-İman" əsərində (9117) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu hədis barədə əvvəldə danışmışdıq (105-ci hədisin qeydlərinə bax).

## ٧١- بَابُ الْكَرَمِ

## 71-ci fəsil. Hörmətli olmaq

١٢٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا عَبْدَةُ ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: سُئِلَ رَسُولُ اللَّهِ ﷺ: أَيُّ النَّاسِ أَكْرَمُ؟ قَالَ: ((أَكْرَمُهُمْ عِنْدَ اللَّهِ أَتْقَاهُمْ))، قَالُوا: لَيْسَ عَنْ هَذَا نَسْأَلُكَ، قَالَ: ((فَأَكْرَمُ النَّاسِ يُوسُفُ نَبِيُّ اللَّهِ ابْنُ نَبِيِّ اللَّهِ ابْنُ نَبِيِّ اللَّهِ ابْنُ خَلِيلِ اللَّهِ))، قَالُوا: لَيْسَ عَنْ هَذَا نَسْأَلُكَ، قَالَ: ((فَعَنْ مَعَادِنِ الْعَرَبِ تَسْأَلُونِي؟)) قَالُوا: نَعَمْ، قَالَ: ((فَخِيَارُكُمْ فِي الْجَاهِلِيَّةِ خِيَارُكُمْ فِي الإِسْلاَمِ إِذَا فَقِهُوا)).

**(129)** ........ Əbu Hureyrə ﷺ demişdir: “(Bir dəfə səhabələr) Rəsulullahdan ﷺ soruşdular: “İnsanların ən hörmətlisi kimdir?” O, dedi: “Onların ən hörmətlisi Allahdan ən çox qorxanıdır.”[1] (Səhabələr) dedilər: “Biz səndən bu haqda soruşmuruq.” O, dedi: “Allahın sevimli dostu *İbrahimin* oğlu *İshaq* peyğəmbərin oğlu *Yaqub* peyğəmbərin oğlu Yusuf peyğəmbərdir.” Onlar dedilər: “Biz səndən bu haqda soruşmuruq.” O, dedi: “Yəqin ki, siz məndən ərəblərin əcdadı barədə soruşursunuz?”[2] Onlar: “Bəli!”– dedilər.

---

[1] Bu xüsusda, Uca Allah buyurur: “**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır**” (əl-Hucurat, 13). Tabiinlərdən olmuş Talq ibn Həbib “təqva” (qorxmaq) kəlməsinə belə tərif vermişdir: “Təqva: Allahın nuru üzərində (Kitab və Sünnəyə uyğun), savabını da Allahdan umaraq, Allaha itaət etmək və Allahın nuru üzərində, Allahın əzabından qorxaraq Allaha asi olan işlərdən çəkinmək” (Musənnəf ibn Əbu Şeybə, 30993). Ayə və hədisdən aydın olur ki, insanların ən hörmətlilərindən olmaq üçün adamın zahiri yox, daxili, yəni qəlbi düzəlməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Allah sizin nə qiyafənizə, nə də ki var-dövlətinizə baxır, lakin O sizin qəlbinizə və əməllərinzə baxır” (Səhih Muslim, 4651).

[2] Burada Peyğəmbərin ﷺ hər üç cavabı ən hörmətli olanlara aiddir. Lakin səhabələri maraqlandıran şey bu cavabların üçüncüsü idi.

Onda, o belə buyurdu: “(Biləsiniz ki,) cahiliyyət dövründə xeyirli olanlarınız, əgər şəriəti anlasalar,[1] İslamda da xeyirli olacaqlar.”[2]

---

[1] Bu, dəlildir ki, adam Peyğəmbərin ﷺ nəslindən olsa belə, İslam dinini qəbul edib ona əməl etməyincə Allah yanında ən hörmətlilərdən sayıla bilməz. Sayılsaydı, Peyğəmbərin ﷺ əmisi Əbu Ləhəb sayılardı. Lakin kafir olduğu üçün Allah onun Cəhənnəm əhlindən olduğunu o hələ həyatda ikən Peyğəmbərə ﷺ xəbər vermişdir. Deməli, insanlar arasında xeyirxah əməl sahibi kimi hörmət qazanmış kafirin və cahilin Allah yanında hörməti ola bilməz. Allah yanında hörmətli olmaq üçün müsəlman olmaq və bu dində deyilənlərə riayət etmək gərəkdir. Qeyd edək ki, adamın Allaha və Peyğəmbərə ﷺ olan itaəti artdıqca təqvası artır, təqva artdıqca da Allah yanında olan hörməti artır. Bu dini olduğu kimi başa düşmək isə hər adama nəsib olmur. Yalnız Allahın xeyir nəsib etmək istədiyi kimsə bu dini düzgün başa düşə bilər. Allahın istədiyi kimsələrdən olmaq üçün isə Qurandakı bu ayəyə əməl etmək gərəkdir: **“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”** (Ali-İmran, 31).

[2] Bu hədisi Buxari (3353), Muslim (3611) və Əhməd (2/431) rəvayət etmişdir.

## ٧٢- بَابُ الإِحْسَانِ إِلَى الْبَرِّ وَالْفَاجِرِ

## 72-ci fəsil. Həm itaətkara, həm də günahkara yaxşılıq etmək[1]

١٣٠- حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنَا سَالِمُ بْنُ أَبِي حَفْصَةَ، عَنْ مُنْذِرٍ الثَّوْرِيِّ، عَنْ مُحَمَّدِ بْنِ عَلِيِّ بْنِ الْحَنَفِيَّةِ فِي قَوْلِهِ: ﴿هَلْ جَزَاءُ الإِحْسَانِ إِلاَّ الإِحْسَانُ﴾، قَالَ: هِيَ مُسْجَلَةٌ لِلْبَرِّ وَالْفَاجِرِ.

قَالَ أَبُو عَبْدِ اللَّهِ: قَالَ أَبُو عُبَيْدٍ: مُسْجَلَةٌ مُرْسَلَةٌ.

**(130)** ........ Muhəmməd ibn Əli – İbnul-Hənəfiyyə:[2] **"Yaxşılığın əvəzi ancaq yaxşılıq deyilmi?"**[3] ayəsini izah edib demişdir: "Ayə həm itaətkar, həm də günahkar üçün yazılmışdır.[4]"

Əbu Abdullah dedi: "Əbu Ubeydə demişdir: "Yazılmışdır, yəni göndərilmişdir."[5]

---

[1] Nəinki insanlara, hətta heyvanlarla belə yaxşılıq etmək müsəlman əxlaqındandır. Əbu Hureyrənin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "*Bir dəfə* bir adam yolla gedərkən bərk susadı və bir quyuya enib su içdi. Sonra quyudan bayıra çıxdıqda bir itin susuzluqdan ləhlədiyini və yaş torpaq yaladığını görüb *öz-özünə*: "Mən susadığım kimi, bu *it də* susamışdır"– dedi və *quyuya enib* ayaqqabısını su ilə doldurdu. Sonra ayaqqabısını dişləri ilə tutub quyudan çıxdı və itə su verdi. Allah da ona *bunun* əvəzini verdi və onu bağışladı." *Səhabələr* dedilər: "Ya Rəsulullah, məgər heyvanlara *etdiyimiz yaxşılıqlara* görə də bizə savab yazılır?" O buyurdu: "Hər bir canlıya *göstərdiyin qayğıya* görə savab vardır" (Səhih əl-Buxari, 2363).

[2] Bu Muhəmməd, Əli ibn Əbu Talibin ﵁ Həsən və Hüseyndən ﵄ sonra ən fəzilətli oğlu sayılır. O, Muhəmməd ibnul-Hənəfiyyə kimi tanınmışdır. Hənəfiyyə onun anasıdır. Adı Xovlə bint Cəfərdir. Bu qadın Əbu Bəkrin xilafəti dövründə Bəni-Hənifə qəbiləsindən cariyə götürülmüş və Əli ibn Əbu Talibə ﵁ nəsib olmuşdur (Siyər Əlam ən-Nubələ, 36-cı tərcümeyi-hal).

[3] "ər-Rəhman" surəsi, 60.

[4] Yəni bu "yaxşılıq" bütün insanlara şamil edilir. Allaha müti olan adama yaxşılıq etdikdə onunla isti münasibət qurursan və öz hərəkətinlə onu da xeyirxah işlər görməyə təhrik edirsən. Günahkar adama yaxşılıq etdikdə isə onun qəlbini İslama isinişdirmiş olursan, yaxud onun şərindən qorunmuş olursan.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

# ٧٣- بَابُ فَضْلِ مَنْ يَعُولُ يَتِيمًا

## 73-cü fəsil. Yetimə baxan kimsənin fəziləti

١٣١- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ ثَوْرِ بْنِ زَيْدٍ، عَنْ أَبِي الْغَيْثِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ: ((السَّاعِي عَلَى الأَرْمَلَةِ وَالْمَسَاكِينِ كَالْمُجَاهِدِ فِي سَبِيلِ اللَّهِ، وَكَالَّذِي يَصُومُ النَّهَارَ وَيَقُومُ اللَّيْلَ)).

**(131)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Dul qadınlara [1] və kasıblara əl tutan kimsə Allah yolunda vuruşan mücahidə, həmçinin, gündüzlər oruc tutub, gecələr namaz qılan kimsəyə bənzəyir."[2]

---

[1] Burada söhbət əri ölmüş yaxud ərindən boşanmış və heç bir himayədarı olmayan qadından gedir. Və əgər bu qadının yanında övladı varsa, ona baxan adam onun övladına da baxmış olur. Bundan da İmam Buxarinin nə üçün bu fəsildə bu hədisi nəql etdiyi aydın olur. Dul qadına və kasıba qayğı göstərmək barədə varid olmuş digər hədisdə Abdullah ibn Əbu Əufə ﷺ demişdir: "Rəsulullah ﷺ çox vaxt zikr edər, boş sözlər danışmaz, namazı uzadar, xütbəni isə qısa edər, üstəlik, dul qadınlara və kasıblara baş çəkib, onların ehtiyaclarını ödəməyi özünə ar bilməzdi" (Sunən ən-Nəsai, 1425; Səhih əl-Cami, 5005).

[2] Bu hədisi Buxari (5353), Muslim (7659), Tirmizi (2096), İbn Macə (2140) və Əhməd (2/361) rəvayət etmişdir.

## ٧٤- بَابُ فَضْلِ مَنْ يَعُولُ يَتِيمًا لَهُ

## 74-cü fəsil. Öz yetiminə baxan kimsənin fəziləti[1]

١٣٢- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ أَبِي بَكْرٍ، أَنَّ عُرْوَةَ بْنَ الزُّبَيْرِ أَخْبَرَهُ، أَنَّ عَائِشَةَ زَوْجَ النَّبِيِّ ﷺ قَالَتْ: جَاءَتْنِي امْرَأَةٌ مَعَهَا ابْنَتَانِ لَهَا، فَسَأَلَتْنِي فَلَمْ تَجِدْ عِنْدِي إِلاَّ تَمْرَةً وَاحِدَةً، فَأَعْطَيْتُهَا، فَقَسَمَتْهَا بَيْنَ ابْنَتَيْهَا، ثُمَّ قَامَتْ فَخَرَجَتْ، فَدَخَلَ النَّبِيُّ ﷺ فَحَدَّثْتُهُ، فَقَالَ: ((مَنْ يَلِي مِنْ هَذِهِ الْبَنَاتِ شَيْئًا، فَأَحْسَنَ إِلَيْهِنَّ، كُنَّ لَهُ سِتْرًا مِنَ النَّارِ)).

**(132)** ........ Peyğəmbərin ﷺ zövcəsi Aişə رضي الله عنها demişdir: "Bir qadın[2] iki qızı ilə birgə yanıma gəlib məndən *yeməyə bir şey* istədi. Məndə bircə dənə xurma var idi. Mən xurmanı ona verdim, o da, onu iki yerə bölüb qızlarının hər birinə yarısını verdi, *özü isə ondan yemədi*. Qadın durub getdikdən *bir qədər* sonra Peyğəmbər ﷺ içəri daxil oldu. Mən bu hadisəni ona danışdıqda, o, belə buyurdu: "Kim qız uşaqlarına[3] böyüklük edib, onların qayğısına qalsa, bu qızlar onu Cəhənnəm odundan qoruyan bir sipər olar."[4]

---

[1] Bu fəslin ünvanına ancaq "öz" əvəzliyi əlavə edilmişdir. Bu da, o deməkdir ki, öz yetiminə baxmaq başqasının yetiminə baxmaqdan daha əfzəldir, savabı da daha çoxdur. Belə ki, doğmalarının yetiminə baxan adam həm yetimə baxmağın, həm də qohuma yaxşılıq etməyin savabını qazanır. Deməli, əri ölmüş qadın öz yetiminə baxarsa, ikiqat savab qazanmış olur.

[2] İmam Buxarinin bu fəsildə bu hədisi nəql etməsi onun fiqhindən (hədisləri düzgün başa düşməsindən) xəbər verir. O, fəsilə belə ünvan qoymaqla hədisdə zikr olunan qadının dul qadın olduğunu demək istəyir.

[3] Peyğəmbərin ﷺ bu sözü xüsusi mənada başa düşülməməlidir. Belə ki, yetim istər qız uşağı olsun, istərsə oğlan uşağı, onlardan hər birinin qayğısına qalmaq mömin adamı Cəhənnəm odundan qoruyur. Sadəcə olaraq, qız uşağının qayğıya daha çox ehtiyacı olur.

[4] Bu hədisi Buxari (1418) rəvayət etmişdir.

## ٧٥- بَابُ فَضْلِ مَنْ يَعُولُ يَتِيمًا مِنْ أَبَوَيْهِ

## 75-ci fəsil. Hər iki valideynini itirmiş yetimə baxan kimsənin fəziləti

١٣٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ صَفْوَانَ قَالَ: حَدَّثَتْنِي أُنَيْسَةُ، عَنْ أُمِّ سَعِيدٍ بِنْتِ مُرَّةَ الْفِهْرِيِّ، عَنْ أَبِيهَا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَنَا وَكَافِلُ الْيَتِيمِ فِي الْجَنَّةِ كَهَاتَيْنِ، أَوْ كَهَذِهِ مِنْ هَذِهِ))، شَكَّ سُفْيَانُ فِي الْوُسْطَى وَالَّتِي تَلِي الإِبْهَامَ.

**(133)** ........ Ummu Səid bint Murra əl-Fihri atasından رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Mən və yetimin hamisi Cənnətdə bu iki barmaq kimi və ya bunların nisbətinə bənzər olacağıq.[1]”

---

[1] Yetimin hamisinin Cənnətdə Peyğəmbərə ﷺ yaxın olması onunla bir yerdə və onun mərtəbəsində olması demək deyil. Belə ki, Peyğəmbərin ﷺ Cənnətdəki yeri digərlərindən üstün olacaqdır. Bu xüsusda rəvayət edilmiş hədisdə Səmura ibn Cundəb رضي الله عنه demişdir: “Peyğəmbər ﷺ *çox vaxt sübh* namazını qıldıqdan sonra üzünü bizə tərəf çevirib: “Sizlərdən kim bu gecə yuxu görüb?”– deyə soruşardı. Yuxu görən adam öz yuxusunu danışar, o da, ona: “Allahın istədiyi oldu!”– deyərdi. Bir gün yenə soruşdu: “Sizlərdən bu gecə yuxu görən olubmu?” Biz: “Xeyr!”– deyə cavab verdik. Dedi: “Mən isə bu gecə yuxuda iki nəfər gördüm. Onlar mənim yanıma gəldilər və əlimdən tutub müqəddəs torpağa (Şama) apardılar. Bir də gördüm ki, bir nəfər yerdə oturub, başqa birisi də əlində dəmir qarmaq *onun başı üstündə* dayanıb. O, qarmağı oturan adamın orduna soxub onun ağzının bir tərəfini qafasına qədər cırır, sonra da bu qaydada onun ağzının digər tərəfini cırırdı. *Bu əsnada* ağzının *əvvəl* cırılan tərəfi sağalır və o, təzədən həmin tərəfi cırırdı. Mən: “Bu nədir?”– deyə soruşdum. O iki nəfər *mənə*: “Get!”– dedi. Biz yolumuza davam etdik. Nəhayət, arxası üstə yerə uzanmış bir nəfərin yanına gəldik. Onun başı üstündə başqa birisi dayanmışdı, əlində də böyük bir daş var idi. O, bu daşla uzanmış adamın başını əzirdi. Daşı *hər dəfə* onun başına vurduqda, daş yumbalanıb gedirdi. Gedib daşı götürüb uzanan adamın yanına qayıdanadək onun başı bitişərək əvvəlki halına qayıdırdı. Adam gəlib yenə onun başını əzirdi. Mən: “Bu kimdir?”– deyə soruşdum. *Mənə*: “Get!”– dedilər. Biz yolumuza davam etdik. Nəhayət, gəlib təndirə bənzər, üstü dar, altı geniş bir oyuğa çatdıq. Bu oyuğun altında atəş alovlanırdı. Alov hər dəfə *günahkarlara* yaxınlaşdıqda, onlar yuxarı qalxırdılar, hətta, az qalırdı ki, oradan bayıra çıxsınlar, alov səngidikdə isə geri çəkilirdilər. Orada lüt kişi və qadınlar var idi. Mən: “Bunlar kimdir?”– deyə soruşdum. *Mənə*:

Sufyan[1] (bunu deyərkən) orta barmağı ilə işarə barmağını birləşdirdi.[2]

١٣٤– حَدَّثَنَا عَمْرُو بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا هُشَيْمٌ قَالَ: أَخْبَرَنَا مَنْصُورٌ، عَنِ الْحَسَنِ، أَنَّ يَتِيمًا كَانَ يَحْضُرُ طَعَامَ ابْنِ عُمَرَ، فَدَعَا بِطَعَامٍ ذَاتَ يَوْمٍ، فَطَلَبَ يَتِيمَهُ فَلَمْ يَجِدْهُ، فَجَاءَ بَعْدَمَا فَرَغَ ابْنُ عُمَرَ، فَدَعَا لَهُ ابْنُ عُمَرَ بِطَعَامٍ، لَمْ يَكُنْ عِنْدَهُمْ، فَجَاءَهُ بِسَوِيقٍ وَعَسَلٍ، فَقَالَ: دُونَكَ هَذَا، فَوَاللَّهِ مَا غُبِنْتَ، يَقُولُ الْحَسَنُ: وَابْنُ عُمَرَ وَاللَّهِ مَا غُبِنَ.

---

"Get!"– dedilər. Biz yolumuza davam etdik. Nəhayət, gəlib *suyu* qandan olan bir çaya çatdıq. Çayın ortasında bir nəfər durmuşdu. Kənarında isə başqa birisi dayanmışdı, qarşısında da çoxlu daşlar var idi. Çayın içindəki adam sahilə çıxmaq istədikdə, sahildəki adam daşla onun ağzından vurur və o, öz yerinə qayıdırdı. Beləcə, o hər dəfə sahilə çıxmaq istədikdə sahildəki adam daşla onun ağzından vurur və o, öz yerinə qayıdırdı. Mən: "Bu nədir?"– deyə soruşdum. *Mənə*: "Get!"– dedilər. Biz yolumuza davam etdik. Nəhayət, yaşıl bir bağa çatdıq. Bağda böyük bir ağac var idi; ağacın dibində də ixtiyar bir qoca və bir dəstə uşaq. Bir nəfər də ağacın yanında oturub qarşısındakı odu alovlandırırdı. Sonra *yoldaşlarım* məni ağaca qaldırdılar və məni elə bir evə daxil etdilər ki, indiyədək bundan gözəlini görməmişdim. Orada qocalar, cavanlar, qadınlar və uşaqlar var idi. Sonra məni oradan çıxardıb bir az da yuxarı qaldırdılar və əvvəlkindən daha gözəl və daha yaxşı bir evə daxil etdilər. Orada qocalar və cavanlar var idi. Mən *o iki nəfərə* dedim: "Bu gecə siz məni çox gəzdirdiniz. İndi isə gördüklərim barədə mənə xəbər verin." Onlar dedilər: "Bəli, ağzı cırılan adama gəlincə, o, bir yalançıdır. *Dünyada ikən* o, yalan danışardı və onun bu yalanı hər tərəfə yayılardı. Qiyamət gününədək onun ağzı beləcə cırılacaq. Başı əzilən adam isə o kimsədir ki, Allah ona Quranı öyrətmiş, lakin o gecələr (namaza) yatıb qalmış, gündüzlər isə Qurandakılara əməl etməmişdir. Qiyamət gününədək onun başı beləcə əziləcək. Dəlikdə gördüyün adamlar zinakarlardır. Çayın içində gördüklərin isə sələm yeyənlərdir. Ağacın dibindəki ixtiyar qoca İbrahim, ətrafındakı uşaqlar isə insanların övladlarıdır. Odu alovlandıran isə Cəhənnəmin gözətçisi – Malikdir. Daxil olduğun birinci ev bütün möminlərin evi, bu gördüyün ev isə şəhidlərin evidir. Mən Cəbrailəm, bu da, Mikaildir. Qaldır başını." Mən yuxarı baxıb başım üzərində buluda bənzər bir şey gördüm. Onlar: "Bu sənin mənzilindir"– dedilər. Mən dedim: "Qoyun mən öz mənzilimə daxil olum!" Onlar dedilər: "Sənin hələ tamamlamadığın ömrün qalıb. Əgər ömrünü tamamlamış olsaydın, mənzilinə girərdin" (Səhih əl-Buxari, 1386).

[1] Sufyan ibn Uyeynə bu hədisin ravilərindən biridir, Buxarinin şeyxinin şeyxidir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(134)** ........ Həsən (əl-Bəsri) rəvayət edir ki, yetim bir oğlan İbn Ömərlə birgə yemək yeyərdi. Bir gün İbn Ömər yemək gətizdirib yetimi də çağırtdırdı, lakin onu tapmadı. İbn Ömər yeməyi yeyib qurtardıqdan sonra yetim gəlib çıxdı. İbn Ömər onun üçün yemək gətirməyi buyurdu. Lakin evdə yemək qalmamışdı. İbn Ömər ona sıyıq və bal verib dedi: "Bu sənin üçün azdır. Ancaq vallahi ki, səni aldatmayıblar." Həsən dedi: "Vallahi ki, İbn Ömər də aldanmadı."[1]

**١٣٥-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عَبْدِ الْوَهَّابِ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي حَازِمٍ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: سَمِعْتُ سَهْلَ بْنَ سَعْدٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَنَا وَكَافِلُ الْيَتِيمِ فِي الْجَنَّةِ هَكَذَا))، وَقَالَ بِإِصْبَعَيْهِ السَّبَّابَةِ وَالْوُسْطَى.

**(135)** ........ Səhl ibn Səd[2] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ orta barmağı ilə işarə barmağını birləşdirib dedi: "Mən və yetimin hamisi Cənnətdə bu cür olacağıq."[3]

**١٣٦-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا الْعَلاَءُ بْنُ خَالِدِ بْنِ وَرْدَانَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ حَفْصٍ، أَنَّ عَبْدَ اللَّهِ كَانَ لاَ يَأْكُلُ طَعَامًا إِلاَّ وَعَلَى خِوَانِهِ يَتِيمٌ.

**(136)** ........ Əbu Bəkr ibn Həfs rəvayət edir ki, Abdullah (ibn Ömər) yemək yedikdə, həmişə süfrəsinin başında yetim[4] olardı.[5]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Lakin İbn Ömərin süfrəsinin başında həmişə yetimin olması 136-cı hədisdə öz təsdiqini tapmışdır.

[2] Əbul-Abbas Səhl ibn Səd ibn Malik əl-Ənsari əl-Xəzrəci əs-Saidi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 91-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 72-ci tərcümeyi-hal).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Səhabənin yetimlə bir yerdə yemək yeməsi onun nə dərəcədə təvazökar olduğuna, habelə, yetimlə yemək yeməyin xeyirxah əməllərdən olmasına dəlalət edir.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٧٦- بَابٌ خَيْرُ بَيْتٍ بَيْتٌ فِيهِ يَتِيمٌ يُحْسَنُ إِلَيْهِ

## 76-cı fəsil. Ən xeyirli ev, içində yetimə yaxşılıq edilən evdir[1]

١٣٧- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عُثْمَانَ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ، قَالَ: أَخْبَرَنَا سَعِيدُ بْنُ أَبِي أَيُّوبَ، عَنْ يَحْيَى بْنِ أَبِي سُلَيْمَانَ، عَنِ ابْنِ أَبِي عَتَّابٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((خَيْرُ بَيْتٍ فِي الْمُسْلِمِينَ بَيْتٌ فِيهِ يَتِيمٌ يُحْسَنُ إِلَيْهِ، وَشَرُّ بَيْتٍ فِي الْمُسْلِمِينَ بَيْتٌ فِيهِ يَتِيمٌ يُسَاءُ إِلَيْهِ، أَنَا وَكَافِلُ الْيَتِيمِ فِي الْجَنَّةِ كَهَاتَيْنِ يُشِيرُ بِإِصْبَعَيْهِ)).

**(137)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlmanların ən xeyirli evi, içində yetim olub, ona yaxşılıq edilən evdir. Müsəlmanların ən şərli evi isə, içində yetim olub, ona pislik edilən evdir. Mən və yetimin hamisi Cənnətdə bu iki barmaq kimi olacağıq."[2]

---

[1] Hər kəsə evindəki yetimin qayğısına qalmaq nəsib olmur, Allah kimə bu xeyiri nəsib etmək istəyirsə, onu bu xeyirxah əməli görməyə müvəffəq edir. Neçə-neçə ailələr olub ki, Allahdan qorxub yetimin haqqını ödəyib, Allah da onlara xeyir-bərəkət əta edib. Hətta elə ailələr də olub ki, axırda həmin yetim ona himayədarlıq edən adama o adamın doğma övladından daha çox qayğı göstərib. Bu da, yetimə baxan adamın həm bu dünyada, həm də Axirətdə xeyrə nail olduğuna dəlalət edir. Lakin insanların bəzisi öz himayəsinə götürdüyü yetimin haqqına girir, haqsızcasına onun malını yeyir və ona laqeyd yanaşır. Odur ki, Uca Allah belələrini əzabla qorxudaraq buyurur: **"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan Oda girəcəklər"** (ən-Nisa, 10).

[2] Bu hədisi İbn Macə (3679) rəvayət etmişdir. Hədisin isnadında keçən Yəhya ibn Əbu Suleyman "mətruk" (hədisi rədd edilmiş) ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, hədisin son cümləsi "səhih"dir.

## ٧٧- بَابٌ كُنْ لِلْيَتِيمِ كَالأَبِ الرَّحِيمِ

## 77-ci fəsil. Yetimə rəhmli ata kimi ol

١٣٨- حَدَّثَنَا عَمْرُو بْنُ عَبَّاسٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ قَالَ: سَمِعْتُ عَبْدَ الرَّحْمَنِ بْنَ أَبْزَى قَالَ: قَالَ دَاوُدُ: ((كُنْ لِلْيَتِيمِ كَالأَبِ الرَّحِيمِ، وَاعْلَمْ أَنَّكَ كَمَا تَزْرَعُ كَذَلِكَ تَحْصُدُ، مَا أَقْبَحَ الْفَقْرَ بَعْدَ الْغِنَى، وَأَكْثَرُ مِنْ ذَلِكَ، أَوْ أَقْبَحُ مِنْ ذَلِكَ، الضَّلاَلَةُ بَعْدَ الْهُدَى، وَإِذَا وَعَدْتَ صَاحِبَكَ فَأَنْجِزْ لَهُ مَا وَعَدْتَهُ، فَإِنْ لاَ تَفْعَلْ يُورِثُ بَيْنَكَ وَبَيْنَهُ عَدَاوَةٌ، وَتَعَوَّذْ بِاللَّهِ مِنْ صَاحِبٍ إِنْ ذَكَرْتَ لَمْ يُعِنْكَ، وَإِنْ نَسِيتَ لَمْ يُذَكِّرْكَ)).

**(138)** ........ Abdur-Rəhman ibn Əbzə rəvayət edir ki,[1] Davud ﷺ demişdir: "Yetimə rəhmli ata kimi ol![2] Bil ki, nə əkərsən, onu da biçərsən![3] Zən-

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Yəni öz övladınla nə cür davranırsansa, himayənə götürdüyün yetimlə də elə davranmalısan. Abdur-Rəhman əs-Sədi Uca Allahın **"Elə isə, yetimə xor baxma!"** (əd-Duha, 9) ayəsini izah edərkən demişdir: "Yəni ölüb getdikdən sonra övladınla nə cür davranılmasını istəyirsənsə, baxdığın yetimlə də o cür davran" (Təfsir əs-Sədi).

[3] Davud aleyhissəlam demək istəyir ki, hər kəs bu dünyada etdiyi əməllərin əvəzini – yaxşısının mükafatını, pisinin isə cəzasını Axirətdə alacaqdır. Peyğəmbərin ﷺ öz Rəbbindən rəvayət etdiyi: "Ey qullarım, şübhəsiz ki, Mən zülmü Özümə haram etdim, onu sizlərin də arasında haram etmişəm, odur ki, bir-birinizə zülm etməyin..." qüdsi hədisin sonunda Uca Allah belə buyurur: "Ey qullarım, bunlar sizin əməllərinizdir. Mən onları hesaba alacaq, sonra da sizə onların əvəzini verəcəyəm. Kim xeyir tapsa, Allaha həmd etsin, kim də xeyirdən başqa bir şey taparsa, ancaq özünü qınasın" (Səhih Muslim, 2577). Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər bir insan səhər (evindən çıxıb iş dalınca gedər və) nəfsini satar; kimisi onu azad edər, kimisi də onu məhv edər" (Səhih Muslim, 534). Bilin ki, hər bir əməl sahibi etdiyi əməllər sayəsində ya nəfsini azad etmiş, ya da onu məhv etmiş olur. Allaha və Onun rəsuluna itaət etməklə nəfsini azad etmiş və şeytandan canını qurtarmış, əks halda isə nəfsini həlaka uğratmış olur. Diqqət edin! Hər bir müsəlman səhər yuxudan oyandıqda ilk əvvəl: "Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. *Ölüb dirildikdən sonra isə* qayıdış Onadır", "Bədənimə salamatlıq verən, ruhumu mənə

gin olduqdan sonra kasıblamaq necə də pisdir! Doğru yolda olduqdan sonra zəlalətə düşmək isə bundan da betər, bundan da pisdir.[1] Dostuna vəd verdikdə, ona verdiyin vədi yerinə yetir. Əgər, belə etməsən, bu, sizin aranıza ədavət salacaq.[2] Yadına düşən işdə sənə yardım etməyən və unutduğun işi sənin yadına salmayan dostdan Allaha sığın![3]"

---

qaytaran və mənə Onu yad etməyə izin verən Allaha həmd olsun!", "Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir. Allah pak və müqəddəsdir. Həmd Allahadır. Allahdan başqa məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Uca və Böyük Allahdadır! Ey Rəbbim, məni bağışla!"– deyə dua edir, sonra qalxıb "Bismillah"– deyib dəstəmaz alır, sonra da "Allahu Əkbər"– deyib namaza başlayır və beləliklə də səhərini xeyir-bərəkətlə açır. Peyğəmbərimizin ﷺ bu xüsusda söylədiyi gözəl bir hədisə nəzər salın. O, demişdir: "Sizlərdən biri yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər düyün vurduqca: "Gecə uzundur, yat!"– *deyir*. Əgər o kimsə oyanıb Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də, o adam səhər gümrah və əhvali-ruhiyyəsi yaxşı olduğu halda yuxudan oyanar. Əks halda isə o, əhvali-ruhiyyəsi çox pis, özü də əzgin halda yuxudan oyanar" (Səhih əl-Buxari, 1142).

[1] Davud aleyhissəlam burada əvvəlcə insana xoş gəlməyən müflisliyi xatırladır ki, bundan sonra deyəcəyinin nə dərəcədə pis olduğu barədə təsəvvür yaratsın.

[2] Vəd verdikdə onu yerinə yetirmək imanın əlamətlərindəndir, həmçinin, insanlar arasında mehribançılıq yaradan səbəblərdəndir. Ümumiyyətlə, vədə xilaf çıxmaq münafiqin əlamətlərindən biridir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar; vəd verdiyi zaman *vədinə* xilaf çıxar; ona əmanət verildiyi zaman xəyanət edər" (Səhih əl-Buxari, 33; Səhih Muslim, 211).

[3] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah hər hansı bir başçıya xeyir nəsib etmək istədiyi zaman sədaqətli bir vəziri ona dost edər. O, yaxşılıq etməyi unutduğu zaman vəzir bunu onun yadına salar, yadına düşdükdə isə ona kömək edər. Allah ona xeyir nəsib etmək istəmədikdə isə pis bir vəziri ona dost edər. O, yaxşılıq etməyi unutduğu zaman vəzir bunu onun yadına salmaz, yadına düşdükdə isə ona kömək etməz" (Sunən Əbu Davud, 2932; Səhih əl-Cami, 302). Bu hədislər müsəlmanı yaxşılığı yada salan və yaxşı işlərdə adama kömək edən insanla dostluq etməyə, yaxşılığı yada salmayan və yaxşı işlərdə adama kömək etməyən insanla dostluq etməməyə təşviq edir. Pis dostdan uzaq olmaq üçün isə Davud aleyhissəlamın nəsihətinə uyğun olaraq: "Allahummə, əizni min sahibin izə zəkərtu ləm yuinni və in nəsiytu ləm yuzəkkirni (Allahım, yadıma düşən işdə

**١٣٩–** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمْزَةُ بْنُ نُجَيحٍ أَبُو عُمَارَةَ قَالَ: سَمِعْتُ الْحَسَنَ يَقُولُ: لَقَدْ عَهِدْتُ الْمُسْلِمِينَ، وَإِنَّ الرَّجُلَ مِنْهُمْ لَيُصْبِحُ فَيَقُولُ: يَا أَهْلِيَهْ، يَا أَهْلِيَهْ، يَتِيمَكُمْ يَتِيمَكُمْ، يَا أَهْلِيَهْ، يَا أَهْلِيَهْ، مِسْكِينَكُمْ مِسْكِينَكُمْ، يَا أَهْلِيَهْ، يَا أَهْلِيَهْ، جَارَكُمْ جَارَكُمْ، وَأُسْرِعَ بِخِيَارِكُمْ وَأَنْتُمْ كُلَّ يَوْمٍ تَرْذُلُونَ. وَسَمِعْتُهُ يَقُولُ: وَإِذَا شِئْتَ رَأَيْتَهُ فَاسِقًا يَتَعَمَّقُ بِثَلاَثِينَ أَلْفًا إِلَى النَّارِ مَا لَهُ قَاتَلَهُ اللَّهُ؟ بَاعَ خَلاَقَهُ مِنَ اللَّهِ بِثَمَنِ عَنْزٍ، وَإِنْ شِئْتَ رَأَيْتَهُ مُضَيِّعًا مُرِيدًا فِي سَبِيلِ الشَّيْطَانِ، لاَ وَاعِظَ لَهُ مِنْ نَفْسِهِ وَلاَ مِنَ النَّاسِ.

**(139)** ........ Əbu Umarə demişdir: “Mən Həsənin[1] belə dediyini eşitdim: “Mən müsəlmanların elə bir dövrünü görmüşəm ki, (o dövrdə) onlar: “Ey yaxınlarım, ey yaxınlarım, yetiminizə yaxşı baxın, yetiminizə yaxşı baxın. Ey yaxınlarım, ey yaxınlarım, kasıbınıza əl tutun, kasıbınıza əl tutun. Ey yaxınlarım, ey yaxınlarım, qonşunuza yaxşılıq edin, qonşunuza yaxşılıq edin”– deyərdilər. Sizin ən xeyirliləriniz artıq keçib getmişlər.[2] Siz isə günü-gündən rəzil olursunuz.[3]” Həsən, həmçinin, demişdir: “İstəsən, otuz minlə Oda çağıran fasiqi görə bilərsən.[4] Ona nə olub ki, (belə edir), Allah onu öldürsün! O, Allahın ona verdiyi nəsibini çox ucuz qiymətə satdı. İstəsən,

---

mənə yardım etməyən və unutduğum işi mənim yadıma salmayan dostdan Sənə sığınıram)!”– deyə dua etmək gərəkdir. Peyğəmbər ﷺ də pis dostdan Allaha sığınıb deyərdi: “Allahummə inni əuzu bikə min yəumis-sui və min leylətis-sui və min saətis-sui və min sahibis-sui və min caris-sui fi daril-muqamə (Allahım, pis gündən, pis gecədən, pis vaxtdan, pis dostdan və yaşadığım yerdəki pis qonşudan Sənə sığınıram)!” (Səhih əl-Cami, 1/411).

[1] Burada “Həsən” deyildikdə, Həsən əl-Bəsri nəzərdə tutulur.

[2] Həsən əl-Bəsri səhabələri qəsd edir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Ən xeyirli insanlar mənim dövrümdə yaşayan (səhabələrimdir), sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir” (Səhih əl-Buxari, 2652).

[3] 111-ci hədisin qeydlərinə bax.

[4] Beləələri barədə Uca Allah buyurur: **“Qoy, onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları *yük* necə də pisdir!”** (ən-Nəhl, 25).

şeytanın yolunu seçmiş və azmış bir kimsəni də görə bilərsən. O, nə özü-özünə nəsihət edər, nə də ki, camaatdan kimsə ona öyüd-nəsihət verər."[1]

**١٤٠**– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا سَلاَّمُ بْنُ أَبِي مُطِيعٍ، عَنْ أَسْمَاءَ بْنِ عُبَيْدٍ قَالَ: قُلْتُ لابْنِ سِيرِينَ: عِنْدِي يَتِيمٌ، قَالَ: اصْنَعْ بِهِ مَا تَصْنَعُ بِوَلَدِكَ، اضْرِبْهُ مَا تَضْرِبُ وَلَدَكَ.

**(140)** ........ Əsma ibn Ubeyd demişdir: "Mən İbn Sirindən: "Evimdə bir yetim var. (Onunla necə davranım)?"– deyə soruşdum. O, dedi: "Övladına nə (yaxşılıq) edirsənsə, ona da (o yaxşılığı) et, övladını nəyə görə vurursansa, onu da (ona görə) vur![2]"[3]

---

[1] Bu hədisin isnadında keçən Həmzə ibn Nuceyh Əbu Umarə "hədisində səhlənkar" olan ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[2] Bundan belə naticə çıxır ki, hər bir himayəçi himayəsində olan yetimə öz övladına baxdığı kimi baxmalıdır.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٧٨- بَابُ فَضْلِ الْمَرْأَةِ إِذَا تَصَبَّرَتْ عَلَى وَلَدِهَا وَلَمْ تَتَزَوَّجْ

## 78-ci fəsil. Ərə getməyib (səbir edərək) övladına baxan qadının fəziləti

١٤١- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ نَهَّاسِ بْنِ قَهْمٍ ، عَنْ شَدَّادٍ أَبِي عَمَّارٍ، عَنْ عَوْفِ بْنِ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَنَا وَامْرَأَةٌ سَفْعَاءُ الْخَدَّيْنِ، امْرَأَةٌ آمَتْ مِنْ زَوْجِهَا فَصَبَرَتْ عَلَى وَلَدِهَا، كَهَاتَيْنِ فِي الْجَنَّةِ)).

**(141)** ........ Auf ibn Malik[1] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Mən və dul qaldıqdan sonra ərə getməyib uşağına baxan,[2] (məşəqqətdən) yanaqları qaralmış qadın Cənnətdə bu iki barmaq kimi (yaxın) olacağıq.”[3]

---

[1] Əbu Abdur-Rəhman Auf ibn Malik əl-Əşcəi əl-Ğətəfani ﷺ Peyğəmbərin ﷺ məşhur səhabələrindən biridir. Məkkənin fəthində, Mutə döyüşündə və Konstantinopola olan yürüşdə iştirak etmişdir. Hicrətin 73-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 101-ci tərcümeyi-hal).

[2] Bu hədisdə ibrət qadının ərə gedib-getməməsində yox, onun yetim qalmış övladına baxmasındadır. Belə ki, əvvəlki “səhih” hədislərdə Peyğəmbər ﷺ yetimə baxan kimsənin Cənnətdə ona yaxın olduğunu xəbər vermişdir.

[3] Bu hədisi Əbu Davud (5149) və Əhməd (6/29) rəvayət etmişdir. İbn Həcər bu hədisin isnadında keçən Nəhhas ibn Qəhmin “zəif” ravi olduğunu demişdir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani hədisin isnadını “zəif” hesab etmişdir (Silsilətul-Əhadisid-Daifə, 1122). Şueyb əl-Ərnaut bu hədisin isnadının “zəif”, mətninin isə “həsən li-ğeyrihi” olduğunu demişdir (Musnəd İmam Əhməd, 6/29). Bu hədisin mənasını qüvvətləndirən hədislərin birində rəvayət edilir ki, Abdullah ibn Məsudun ﷺ zövcəsi Zeynəb ﷺ demişdir: “Mən məsciddə ikən Peyğəmbəri ﷺ gördüm. O, buyurdu: “*Ey qadınlar,* heç olmasa zinət əşyalarınızdan sədəqə verin!” (Ravi Amr ibn əl-Haris dedi:) “Zeynəb sədəqəni *əri* Abdullaha və *əvvəlki ərindən olan* yetimlərə payladı. Sonra da Abdullaha dedi: “Rəsulullahdan ﷺ soruş *görək,* sənə və evimdəki yetimlərə verdiyim sədəqə *zəkat kimi* qəbul olunurmu?” Abdullah: “Özün Rəsulullahdan ﷺ soruş”– dedi. *Zeynəb dedi:* “Mən Peyğəmbərin ﷺ yanına getdim və qapının ağzında mənim kimi sual verməK istəyən

ənsardan olan bir qadına rast gəldim. *Bir qədər* sonra Bilal bizim yanımıza gəldi. Hər birimiz *ona eyni sualı verib* dedik: "Rəsulullahdan ﷺ soruş *görək*, ərimə və evimdəki yetimlərə verdiyim sədəqə *zəkat kimi* qəbul olunurmu?" Sonra *Bilala*: "Bizim kim olduğumuzu ona bildirmə"– dedik. Bilal içəri daxil olub *bu haqda* Peyğəmbərdən ﷺ soruşduqda o: "Kimdir onlar?"– deyə soruşdu. Bilal: "Zeynəbdir"– dedi. Peyğəmbər ﷺ: "Hansı Zeynəbdir?"– deyə soruşdu. Bilal: "Abdullahın zövcəsidir"– dedi. Peyğəmbər ﷺ buyurdu: "Bəli, *qəbuldur* və o, buna görə ikiqat savab – həm qohumluğun savabını, həm də sədəqənin savabını qazanır" (Səhih əl-Buxari, 1466).

## ٧٩- بَابُ أَدَبِ الْيَتِيمِ

## 79-cu fəsil. Yetimə tərbiyə vermək

١٤٢- حَدَّثَنَا مُسْلِمٌ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ شُمَيْسَةَ الْعَتَكِيَّةِ قَالَتْ: ذُكِرَ أَدَبُ الْيَتِيمِ عِنْدَ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، فَقَالَتْ: ((إِنِّي لَأَضْرِبُ الْيَتِيمَ حَتَّى يَنْبَسِطَ)).

**(142)** ........ Şümeysə əl-Ətəkiyyə demişdir: "(Bir dəfə) Aişənin yanında yetimi tərbiyələndirmək barədə söhbət açıldı.[1] Onda o, dedi: "Mən yetimi elə vururam ki,[2] (o bundan) razı qalır."[3]

---

[1] Diqqət edin, əvvəlki müsəlmanlar yetimlə rəftar etmək xüsusunda günaha batmasınlar deyə, bu məsələni öz məclislərində müzakirə edərdilər. Bu da, onların Allahdan qorxan insanlar olduğunu bir daha sübuta yetirir.

[2] Burada Aişə ﵂ demək istəyir ki, yetim sözə baxmadıqda və onu vurmaqdan başqa çarə qalmadıqda, onu yavaşca vurmaq olar. Deməli, yetimi tənbeh etmək üçün əvvəlcə onu vurmaq yox, başa salmaq və ona düzgün istiqamət vermək lazımdır.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٨٠- بَابُ فَضْلِ مَنْ مَاتَ لَهُ الْوَلَدُ

## 80-cı fəsil. Övladı ölmüş kimsənin fəziləti

١٤٣- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنِ ابْنِ الْمُسَيِّبِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَمُوتُ لأَحَدٍ مِنَ الْمُسْلِمِينَ ثَلاَثَةٌ مِنَ الْوَلَدِ، فَتَمَسَّهُ النَّارُ، إِلاَّ تَحِلَّةَ الْقَسَمِ)).

**(143)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Üç övladı ölmüş müsəlmana[1] Cəhənnəm odu toxunmaz. Yalnız (Allahın) verdiyi söz[2] istisnadır."[3]

١٤٤- حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصِ بْنِ غِيَاثٍ قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ طَلْقِ بْنِ مُعَاوِيَةَ، عَنْ أَبِي زُرْعَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ امْرَأَةً أَتَتِ النَّبِيَّ ﷺ بِصَبِيٍّ فَقَالَتِ: ادْعُ لَهُ، فَقَدْ دَفَنْتُ ثَلاَثَةً، فَقَالَ: ((احْتَظَرْتِ بِحِظَارٍ شَدِيدٍ مِنَ النَّارِ)).

**(144)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, bir qadın öz körpəsini Peyğəmbərin ﷺ yanına gətirib dedi: "Onun üçün dua et, (ya Rəsulullah)! Mən artıq üçünü dəfn etmişəm." O, dedi: "Sən möhkəm bir hasarla Cəhənnəm odundan qorundun.[4]"[5]

---

[1] Söhbət bu itkiyə səbir edib savabını Allahdan uman müsəlmandan gedir.

[2] Burada Peyğəmbər ﷺ Cəhənnəm odunun üstündən keçməyi qəsd edir. Başqa bir rəvayətdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ Həfsənin yanında ikən buyurdu: "İnşallah ağac altında beyət edənlərdən heç biri Cəhənnəm oduna girməyəcəkdir!" Həfsə: "Ola bilməz, ya Rəsulullah!"– deyə təəccüb etdikdə, Peyğəmbər ﷺ onu qınadı. Onda Həfsə ona bu ayəni oxudu: **"İçinizdən hər kəs oraya varid olacaqdır."** Peyğəmbər ﷺ (buna aydınlıq gətirmək üçün) dedi: "Uca Allah buyurur: **"Sonra Biz müttəqiləri *Oddan* xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik"** (Səhih əl-Muslim, 6560). Hədisdə zikr olunan ayələr "Məryəm" surəsinin 71-72-ci ayələridir.

[3] Bu hədisi Buxari (6656), Muslim (6865), Tirmizi (1080), Nəsai (2003), İbn Macə (1603) və Əhməd (2/473) rəvayət etmişdir.

[4] Peyğəmbər ﷺ bu qadına müjdə verir ki, övlad itkisinə səbir edib, bunun savabını Allahdan umduğuna görə Allah onu Cənnətə daxil edər.

[5] Bu hədisi Muslim (2636) və Əhməd (2/419) rəvayət etmişdir.

١٤٥– حَدَّثَنَا عَيَّاشٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الأَعْلَى قَالَ: حَدَّثَنَا سَعِيدٌ الْجُرَيْرِيُّ، عَنْ خَالِدٍ الْعَبْسِيِّ قَالَ: مَاتَ ابْنٌ لِي، فَوَجَدْتُ عَلَيْهِ وَجَدًا شَدِيدًا، فَقُلْتُ: يَا أَبَا هُرَيْرَةَ، مَا سَمِعْتَ مِنَ النَّبِيِّ ﷺ شَيْئًا تُسَخِّي بِهِ أَنْفُسَنَا عَنْ مَوْتَانَا؟ قَالَ: سَمِعْتُ مِنَ النَّبِيِّ ﷺ يَقُولُ: ((صِغَارُكُمْ دَعَامِيصُ الْجَنَّةِ)).

**(145)** ........ Xalid əl-Absi demişdir: "Mənim övladım öldükdə mən buna çox kədərləndim. (Sonra Əbu Hureyrənin yanına gəlib) dedim: "Ey Əbu Hureyrə, Peyğəmbərdən ﷺ ölülərimizə dair elə bir şey eşitmisənmi ki, onunla bizə təskinlik verəsən?" O, dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Uşaqlarınız Cənnətin bataqlıq cücüləridirlər.[1]"[2]

١٤٦– حَدَّثَنَا عَيَّاشٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الأَعْلَى قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ إِبْرَاهِيمَ بْنِ الْحَارِثِ، عَنْ مَحْمُودِ بْنِ لَبِيدٍ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ أَنَّهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَنْ مَاتَ لَهُ ثَلاَثَةٌ مِنَ الْوَلَدِ فَاحْتَسَبَهُمْ دَخَلَ الْجَنَّةَ))، قُلْنَا: يَا رَسُولَ اللَّهِ، وَاثْنَانِ؟ قَالَ: ((وَاثْنَانِ))، قُلْتُ لِجَابِرٍ: وَاللَّهِ، أَرَى لَوْ قُلْتُمْ وَاحِدٌ لَقَالَ. قَالَ: وَأَنَا أَظُنُّهُ وَاللَّهِ.

**(146)** ........ Mahmud ibn Ləbid rəvayət edir ki, Cabir ibn Abdullah demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Kimin üç uşağı vəfat etsə və o, *bu itkiyə* səbir edib, savabını *Allahdan* umarsa,[3] Cənnətə daxil olar." Biz dedik: "Ya Rəsulullah, bəs, ikisi necə?" O, dedi: "İkisi olsa da!"

---

[1] Yəni cücülər bataqlığı tərk etmədikləri kimi, onlar da Cənnəti tərk edən deyillər.

[2] Bu hədisi Muslim (8/41) və Əhməd (2/488; 510) rəvayət etmişdir. İmam Muslimin "Səhih"indəki (2635) hədisdə rəvayət edilir ki, Əbu Həssan demişdir: "Mən Əbu Hureyrədən soruşdum: "Mənim iki övladım vəfat etdi. Sən bizə Rəsulullahdan ﷺ elə bir hədis danışa bilərsənmi ki, onunla bizə təsəlli verəsən?!" O: "Bəli!" deyib Peyğəmbərin ﷺ belə dediyini rəvayət etdi: "Uşaqlarınız Cənnətin bataqlıq cücüləridirlər. Onlardan (hər) biri (Qiyamət günü) valideyni ilə, yaxud onların hər ikisi ilə qarşılaşacaq, sonra da onun libasının ətəyindən yaxud əlindən tutacaq və Allah onu valideynləri ilə birgə Cənnətə daxil edəcək."

[3] Bu, dəlildir ki, adam əzizinin itkisinə səbir etməklə yanaşı bunun savabını Allahdan diləməlidir. Nə çox kafir insanlar vardır ki, onlar da övlad itkisinə səbir edir, lakin kafir

(Mahmud ibn Ləbid dedi:) “Mən Cabirdən soruşdum: “Vallahi, güman edirəm ki, əgər siz birini[1] desəydiniz, ona da (“hə”) deyərdi.” Cabir dedi: “Vallahi ki, mən də belə güman edirəm.”[2]

١٤٧– حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا حَفْصُ بْنُ غِيَاثٍ قَالَ: سَمِعْتُ طَلْقَ بْنَ مُعَاوِيَةَ، هُوَ جَدُّهُ، قَالَ: سَمِعْتُ أَبَا زُرْعَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ امْرَأَةً أَتَتِ النَّبِيَّ ﷺ بِصَبِيٍّ فَقَالَتِ: ادْعُ اللَّهَ لَهُ، فَقَدْ دَفَنْتُ ثَلاَثَةً، فَقَالَ: ((احْتَظَرْتِ بِحِظَارٍ شَدِيدٍ مِنَ النَّارِ)).

**(147)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir qadın öz körpəsini Peyğəmbərin ﷺ yanına gətirib dedi: “Onun üçün dua et, (ya Rəsulullah)! Mən artıq üçünü dəfn etmişəm.” O, dedi: “Sən möhkəm bir hasarla Cəhənnəm odundan qorundun.”[3]

---

olduqlarına və bu itkinin savabını Allahdan ummadıqlarına görə Cəhənnəmlik olurlar. Mömin isə bu kainatda hər bir işin Allahın qəza və qədəri ilə baş verdiyinə iman gətirir, başına gələn hər bir müsibətə səbir etdiyinin əvəzini Allahdan diləyir. Uca Allah Öz Kitabında belələri barədə bu cür buyurur: **“Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: “Biz Allaha məxsusuq və Ona da qayıdacağıq!”– deyirlər. Onlara öz Rəbbi tərəfindən tariflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır”** (əl-Bəqərə, 155-157).

[1] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Bəh-bəh, tərəzidə ağır gələcək nə gözəl beş xislət: Lə ilahə illəllah, subhanəllah, əlhəmdulilləh, Allahu Əkbər (zikrləri) və bir də müsəlmanın vəfat etmiş əməlisaleh övladı. (O övlad ki, valideyni onun ölümünə səbir etməyin) əvəzini Allahdan umur” (İbn Səd, 7/433; İbn Hibban, 2328; Silsilətul-Əhadisis-Səhihə, 1204; Səhih əl-Cami, 2817). Diqqət edin, burada Peyğəmbərin ﷺ, vəfat etmiş övladın ölümünə səbir etməyi Allahın ən çox sevdiyi və ən xeyirli kəlmələrlə eyni cümlədə qeyd etməsi bu əməlin, həqiqətən də, əzəmətli bir əməl və savabının da olduqca böyük olduğuna dəlalət edir.

[2] Bu hədisi Əhməd (3/306) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən” olduğunu demişdir.

[3] Bu, 144-cü hədisin eynisidir. Sadəcə olaraq İmam Buxari bu hədisi ayrı-ayrı şeyxlərindən rəvayət etmişdir. Birincisini “Amr ibn Həfs ibn Ğiyas öz atasından...”, digərini isə “Əli ibn Abdullah Həfs ibn Ğiyasdan...” isnadı ilə rəvayət etmişdir.

**١٤٨-** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنَا سُهَيْلُ بْنُ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ: جَاءَتِ امْرَأَةٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَتْ: يَا رَسُولَ اللَّهِ، إِنَّا لاَ نَقْدِرُ عَلَيْكَ فِي مَجْلِسِكَ، فَوَاعِدْنَا يَوْمًا نَأْتِكَ فِيهِ، فَقَالَ: ((مَوْعِدُكُنَّ بَيْتُ فُلاَنٍ))، فَجَاءَهُنَّ لِذَلِكَ الْوَعْدِ، وَكَانَ فِيمَا حَدَّثَهُنَّ: ((مَا مِنْكُنَّ امْرَأَةٌ يَمُوتُ لَهَا ثَلاَثَةٌ مِنَ الْوَلَدِ، فَتَحْتَسِبَهُمْ، إِلاَّ دَخَلَتِ الْجَنَّةَ))، فَقَالَتِ امْرَأَةٌ: أَوِ اثْنَانِ؟ قَالَ: ((أَوَ اثْنَانِ)).

كَانَ سُهَيْلٌ يَتَشَدَّدُ فِي الْحَدِيثِ وَيَحْفَظُ، وَلَمْ يَكُنْ أَحَدٌ يَقْدِرُ أَنْ يَكْتُبَ عِنْدَهُ.

**(148)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir qadın Rəsulullahın ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah, biz məclisdə sənə yaxınlaşa bilmirik. Bizə də bir gün ayır ki, o gün sənin yanına gələk.”[1] O buyurdu: “Sizə vəd edilən yer filankəsin evidir.” Qadınlar *özləri üçün ayrılmış gündə* vəd edilən yerə gəldilər. Peyğəmbər ﷺ onlara dedi: “Sizlərdən hər kimin üç uşağı vəfat etsə və o, *bu itkiyə* səbir edib, savabını *Allahdan* umarsa, mütləq Cənnətə daxil olar.” *Qadınlardan* biri dedi: “Bəs, ikisi necə?” O, dedi: “İkisi olsa da!”[2]

Suheyl[3] hədislərə etina ilə yanaşar və onları qoruyardı. Heç kəs onun yanında hədis yaza bilmirdi.

**١٤٩-** حَدَّثَنَا حَرَمِيُّ بْنُ حَفْصٍ، وَمُوسَى بْنُ إِسْمَاعِيلَ، قَالاَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا عُثْمَانُ بْنُ حَكِيمٍ قَالَ: حَدَّثَنِي عَمْرُو بْنُ عَامِرٍ الأَنْصَارِيُّ قَالَ: حَدَّثَتْنِي أُمُّ سُلَيْمٍ قَالَتْ: كُنْتُ عِنْدَ النَّبِيِّ ﷺ فَقَالَ: ((يَا أُمَّ سُلَيْمٍ مَا مِنْ مُسْلِمَيْنِ يَمُوتُ لَهُمَا ثَلاَثَةُ أَوْلاَدٍ، إِلاَّ أَدْخَلَهُمَا اللَّهُ الْجَنَّةَ بِفَضْلِ رَحْمَتِهِ إِيَّاهُمْ))، قُلْتُ: وَاثْنَانِ؟ قَالَ: ((وَاثْنَانِ)).

---

[1] Peyğəmbərin ﷺ məclisində kişilər onun başına yığıldığına görə qadınlar ona yaxınlaşıb suallarını verə bilmirdilər deyə, bu qadın Peyğəmbərdən ﷺ onlar üçün də vaxt ayırmağı xahiş edir. Bu da səhabə qadınların dini öyrənib başa düşməyə həris olduqlarından xəbər verir. Peyğəmbərin ﷺ onlar üçün ayrıca gün təyin etməsi dəlildir ki, qadınlar da İslam dinində zəruri olan məsələləri öyrənməlidirlər.

[2] 146-cı hədisin qeydlərinə bax.

[3] Suheyl ibn Əbu Saleh bu hədisi nəql edən ravilərdən biridir.

**(149)** ........ Ummu Suleym[1] ﵂ demişdir: "(Bir gün) mən Peyğəmbərin ﷺ yanında ikən o, dedi: "Ey Ummu Suleym, üç uşağı vəfat etmiş elə müsəlman cütlük[2] yoxdur ki, Allah onları uşaqlara olan mərhəmətinin lütfü[3] sayəsində Cənnətə daxil etməsin." Mən dedim: "Bəs ikisi necə?" O, dedi: "İkisi olsa da!"[4]

**١٥٠–** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ قَالَ: قَرَأْتُ عَلَى الْفُضَيْلِ: عَنْ أَبِي حُرَيْزٍ، أَنَّ الْحَسَنَ حَدَّثَهُ بِوَاسِطَ، أَنَّ صَعْصَعَةَ بْنَ مُعَاوِيَةَ حَدَّثَهُ، أَنَّهُ لَقِيَ أَبَا ذَرٍّ مُتَوَشِّحًا قِرْبَةً، قَالَ: مَا لَكَ مِنَ الْوَلَدِ يَا أَبَا ذَرٍّ؟ قَالَ: أَلاَ أُحَدِّثُكَ؟ قُلْتُ: بَلَى، قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَا مِنْ مُسْلِمٍ يَمُوتُ لَهُ ثَلاَثَةٌ مِنَ الْوَلَدِ لَمْ يَبْلُغُوا الْحِنْثَ، إِلاَّ أَدْخَلَهُ اللَّهُ الْجَنَّةَ بِفَضْلِ رَحْمَتِهِ إِيَّاهُمْ، وَمَا مِنْ رَجُلٍ أَعْتَقَ مُسْلِمًا إِلاَّ جَعَلَ اللَّهُ عَزَّ وَجَلَّ كُلَّ عُضْوٍ مِنْهُ، فِكَاكَهُ لِكُلِّ عُضْوٍ مِنْهُ)).

---

[1] Ummu Suleym Rumeysə bint Milhan ibn Xalid əl-Ənsariyyə ﵂. Bu qadın Rəsulullahın ﷺ xidməçisi Ənəs ibn Malikin ﵁ anasıdır. Ənsarın ən fəzilətli qadınlarındandır. Uhud və Huneyn döyüşlərində iştirak etmişdir. Yoldaşı Malik ibn Nədr vəfat etdikdən sonra, İslamı qəbul etmək şərtilə Əbu Talhə Zeyd ibn Səhl əl-Ənsariyə ﵁ ərə getmişdir. Yəni mehr olaraq Əbu Talhədən müsəlman olmağı tələb etmişdir. İmam Zəhəbi bu qadının başqa adlarının: Ğumeysa, Rumeysa, Uneyfə və Səhlə olduğunu da nəql etmişdir. Peyğəmbər ﷺ onu məhz Ğumeysa adı ilə müjdələmişdir (Siyər Əlam ən-Nubələ, 55-ci tərcümeyi-hal). Ənəs ibn Malik ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "Cənnətə daxil oldum və qarşımda ayaq səsləri eşitdim. Mən: "Bu nə ayaq səsidir?"– deyə soruşdum. *Mənə*: "Bu, Ğumeysa bint Milhandır"– deyildi" (Əhməd, 3/125; "Səhih əl-Cami", 3368).

[2] Burada "cütlük" deyildikdə, uşağın valindeynləri nəzərdə tutulur.

[3] Bu, dəlildir ki, mömin adam yalnız Allahın mərhəməti sayəsində Cənnətə girə bilər. Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Bu uşaqlar Cənnətin qapısına yaxınlaşdıqda onlara: "Cənnətə daxil olun!"– deyiləcək. Onlar da: "Qoy, valideynlərimiz də gəlsinlər"– deyəcəklər. Onda, onlara belə buyurulacaq: "Siz də, valideynləriniz də, Allahın mərhəməti sayəsində Cənnətə daxil olun!" (Sunən ən-Nəsai, 2004; Əhkamul-Cənaiz, səh: 16).

[4] Bu hədisi Nəsai (2004), İbn Macə (1605), Əhməd (2/510) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2260) onun "səhih" olduğunu demişdir.

**(150)** ........ Sa'saə ibn Muaviyə demişdir: “(Bir gün) mən Əbu Zərrə rast gəldim. O, xəz kürkə bürünmüşdü. Mən soruşdum: “Ey Əbu Zərr, övlad barədə nə deyə bilərsən?” O, dedi: “Sənə hədis danışımmı?” Mən: “Bəli!”– deyə cavab verdim. O, dedi: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Həddi-büluğa çatmamış üç uşağı ölən elə bir müsəlman yoxdur ki, Allah onu uşaqlara olan mərhəmətinin[1] lütfü sayəsində Cənnətə daxil etməsin. Eləcə də, müsəlmanı köləlikdən azad edən elə bir adam[2] yoxdur ki, Allah ﷻ o kölənin hər bir əzasının müqabilində onun bir əzasını (Cəhənnəm əzabından) xilas etməsin.”[3]

**١٥١–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي الأَسْوَدِ قَالَ: حَدَّثَنَا زَكَرِيَّا بْنُ عُمَارَةَ الأَنْصَارِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ صُهَيْبٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ مَاتَ لَهُ ثَلاَثَةٌ لَمْ يَبْلُغُوا الْحِنْثَ، أَدْخَلَهُ اللَّهُ وَإِيَّاهُمْ بِفَضْلِ رَحْمَتِهِ الْجَنَّةَ)).

**(151)** ........ Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Həddi-büluğa çatmamış üç uşağı vəfat etmiş elə bir kimsə yoxdur ki, Allah onu, uşaqlara olan mərhəmətinin lütfü sayəsində, Cənnətə salmasın.”[4]

---

[1] Burada “mərhəməti” deyildikdə, valideynin yox, məhz Allahın mərhəməti qəsd edilir. 149-cu hədisin qeydlərinə bax.

[2] Burada “adam” deyildikdə, ancaq müsəlman olan kimsə nəzərdə tutulur. Belə ki, kafir adamın küfrü onun bütün əməllərini puç edir.

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[4] Bu hədis də əvvəlki hədislər kimi “səhih”dir.

## ٨١- بَابُ مَنْ مَاتَ لَهُ سِقْطٌ

## 81-ci fəsil. Övladı ana bətnində ölmüş kimsə

١٥٢- حَدَّثَنَا إِسْحَاقُ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا صَدَقَةُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ أَبِي مَرْيَمَ، عَنْ أُمِّهِ، عَنْ سَهْلِ بْنِ الْحَنْظَلِيَّةِ، وَكَانَ لاَ يُولَدُ لَهُ، فَقَالَ: لأَنْ يُولَدَ لِي فِي الإِسْلاَمِ وَلَدٌ سِقْطٌ فَأَحْتَسِبَهُ، أَحَبُّ إِلَيَّ مِنْ أَنْ يَكُونَ لِيَ الدُّنْيَا جَمِيعًا وَمَا فِيهَا. وَكَانَ ابْنُ الْحَنْظَلِيَّةِ مِمَّنْ بَايَعَ تَحْتَ الشَّجَرَةِ.

**(152)** ........ Yezid ibn Əbu Məryəm anasından rəvayət edir ki, Səhl ibn Hənzəliyyənin[1] uşağı olmurdu. O, dedi: "İslamda ikən, yarımçıq doğulmuş uşağıma görə səbir edib, əvəzini (Allahdan) ummağım mənim üçün bütün dünya və onun içindəkilərdən daha sevimlidir." İbn Hənzəliyyə ağac altında beyət edənlərdən idi.[2]

١٥٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا أَبُو مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا الأَعْمَشُ، عَنْ إِبْرَاهِيمَ التَّيْمِيِّ، عَنِ الْحَارِثِ بْنِ سُوَيْدٍ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَيُّكُمْ مَالُ وَارِثِهِ أَحَبُّ إِلَيْهِ مِنْ مَالِهِ؟)) قَالُوا: يَا رَسُولَ اللَّهِ، مَا مِنَّا مِنْ أَحَدٍ إِلاَّ مَالُهُ أَحَبُّ إِلَيْهِ مِنْ مَالِ وَارِثِهِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((اعْلَمُوا أَنَّهُ لَيْسَ مِنْكُمْ أَحَدٌ إِلاَّ مَالُ وَارِثِهِ أَحَبُّ إِلَيْهِ مِنْ مَالِهِ، مَالُكَ مَا قَدَّمْتَ، وَمَالُ وَارِثِكَ مَا أَخَّرْتَ)).

**(153)** ........ Abdullah (ibn Məsud) ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ soruşdu: "Hansı birinizə varisinin malı öz malından daha sevimlidir?"[3] (Səhabələr) dedilər: "Ya Rəsulullah, aramızda elə bir kimsə yoxdur ki, öz malı ona varisinin malından daha sevimli olmasın." Peyğəmbər ﷺ

---

[1] Bu, Səhl ibn Rəbi ibn Amr ibn Adiy ibn Hənzəliyyə ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hənzəliyyə isə Bənu-Hənzələ qəbiləsindən olan qadındır.

[2] Hədisin isnadında keçən Yezid ibn Əbu Məryəmin anası "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[3] Peyğəmbər ﷺ səhabələrinə tez-tez belə suallar verərdi ki, onların cavabını açıqlasın və daha dolğun cavab versin.

buyurdu: “Bilin ki, sizlərdən elə bir kimsə yoxdur ki, varisinin malı ona öz malından daha sevimli olmasın. Qabaqcadan[1] xərclədiyin (hər bir şey) sənin öz malın, sonraya saxladığın isə sənin varisinin malıdır.[2]”[3]

**١٥٤–** قَالَ: وَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا تَعُدُّونَ فِيكُمُ الرَّقُوبَ؟)) قَالُوا: الرَّقُوبُ الَّذِي لاَ يُولَدُ لَهُ، قَالَ: ((لاَ، وَلَكِنَّ الرَّقُوبَ الَّذِي لَمْ يُقَدِّمْ مِنْ وَلَدِهِ شَيْئًا)).

**(154)** ........ Peyğəmbər ﷺ dedi: “Aranızda kimi sonsuz hesab edirsiniz?” *Səhabələr* dedilər: “Sonsuz o kəsdir ki, onun uşağı olmur.” O, dedi: “Xeyr, sonsuz o kəsdir ki, övladı sayəsində[4] (Axirəti üçün) əvvəlcədən tədarük görmür.”[5]

**١٥٥–** قَالَ: وَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا تَعُدُّونَ فِيكُمُ الصُّرَعَةَ؟)) قَالُوا: هُوَ الَّذِي لاَ تَصْرَعُهُ الرِّجَالُ ، فَقَالَ: ((لاَ، وَلَكِنَّ الصُّرَعَةَ الَّذِي يَمْلِكُ نَفْسَهُ عِنْدَ الْغَضَبِ)).

**(155)** ........ Peyğəmbər ﷺ dedi: “Aranızda kimi pəhləvan sayırsınız?” *Səhabələr* dedilər: “Pəhləvan o kəsdir ki, kişilər onu yıxa bilmir.” O, dedi: “Xeyr, pəhləvan o kəsdir ki, qəzəbləndikdə, özünü ələ ala bilir.[6]”[7]

---

[1] Yəni bu həyatda ikən.

[2] Hər kəs Allah yolunda xərclədiyinin əvəzini Qiyamət günü artıqlaması ilə alacaq, bu mal-dövlət axırda yenə onun özünə qismət olacaq, yığıb saxladığı isə gec-tez varislərə nəsib olacaqdır. Aişə رضي الله عنها rəvayət etmişdir ki, *bir dəfə onlar* bir qoç kasıb *Allah yolunda* payladılar. Sonra Peyğəmbər ﷺ gəlib: “*Bizə* nə qaldı?”– deyə soruşdu. Aişə رضي الله عنها də ona: “Bizə kürəyi qaldı”– deyə cavab verdi. Onda Peyğəmbər ﷺ buyurdu: “*Xeyr, bizə* payladığımız qaldı” (Səhih Sunən ət-Tirmizi, 2470; Səhih Tərğib vət-Tərhib, 859).

[3] Bu hədisi Buxari (6442), Nəsai (3554) və Əhməd (1/382) rəvayət etmişdir.

[4] Ola bilsin ki, bu uzun hədisin bu cümləsi fəslin ünvanına aiddir.

[5] Bu, əvvəlki hədisin davamıdır və isnadı “səhih”dir.

[6] Qəzəbləndikdə nəfsi cilovlamağın yolunu Peyğəmbər ﷺ bizə öyrətmişdir. Hədislərin birində o, belə buyurmuşdur: “Qoy sizlərdən biri qəzəbləndiyi zaman sussun!” (Səhih əl-Cami, 693); o həmçinin, demişdir: “Qoy sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın” (Səhih əl-Cami, 694).

[7] Bu, əvvəlki hədisin davamıdır və isnadı “səhih”dir.

## ٨٢- بَابُ حُسْنِ الْمَلَكَةِ

## 82-ci fəsil. Kölələrlə yaxşı rəftar etmək[1]

١٥٦- حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ الْفَضْلِ قَالَ: حَدَّثَنَا نُعَيْمُ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ أَبِي طَالِبٍ، أَنَّ النَّبِيَّ ﷺ لَمَّا ثَقُلَ قَالَ: ((يَا عَلِيُّ، ائْتِنِي بِطَبَقٍ أَكْتُبْ فِيهِ مَا لاَ تَضِلُّ أُمَّتِي بَعْدِي))، فَخَشِيتُ أَنْ يَسْبِقَنِي فَقُلْتُ: إِنِّي لأَحْفَظُ مِنْ ذِرَاعَيِ الصَّحِيفَةِ، وَكَانَ رَأْسُهُ بَيْنَ ذِرَاعِي وَعَضُدِي، فَجَعَلَ يُوصِي بِالصَّلاَةِ وَالزَّكَاةِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ، وَقَالَ كَذَاكَ حَتَّى فَاضَتْ نَفْسُهُ، وَأَمَرَهُ بِشَهَادَةِ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، مَنْ شَهِدَ بِهِمَا حُرِّمَ عَلَى النَّارِ.

**(156)** ........ Əli ibn Əbu Talib ﷺ rəvayət edir ki, Peyğəmbərin ﷺ (ölüm-qabağı) vəziyyəti ağırlaşarkən o buyurdu: "Ey Əli, bir lövhə[2] gətir, ona bəzi şeylər yazım ki, ümmətim məndən sonra zəlalətə düşməsin." Mən qorxdum ki, o, məni qabaqlasın.[3] Odur ki, dedim: "Mən onu əzbərləyib yadda saxlayaram."[4] Onun başı mənim dirsəyimlə çiynimin arasında idi.[5] O

---

[1] Kölə və kənizlərlə gözəl rəftar etmək barədə Uca Allah buyurur: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz *kölə və kənizlərə* yaxşılıq edin!"** (ən-Nisa, 36).

[2] Burada "lövhə" deyildikdə, qoyunun kürək sümüyü qəsd edilir. Belə ki, o dövrdə bu sümükdən üzərində yazı yazmaq üçün istifadə edərdilər. İmam Muslimin rəvayət etdiyi hədisdə Səid ibn Cubeyr rəvayət edir ki, bir gün İbn Abbas ﷺ: "Cümə axşamı, nə bilirsən cümə axşamı nədir?!"– dedi və ağlamağa başladı. Mən onun yanaqlarında mirvari tək göz yaşları axdığını gördüm. O (Rəsulullahın ﷺ vəfat etdiyi günü və onun belə buyurduğunu yada salıb) dedi: "Mənə kürək sümüyü və mürəkkəb gətirin, sizə *bəzi* tövsiyələr yazacağam ki, məndən sonra heç vaxt zəlalətə düşməyəsiniz" (Səhih Muslim, 4321).

[3] Əli ibn Əbu Talib ﷺ lövhəni gedib gətirənədək Peyğəmbərin ﷺ vəfat edəcəyindən ehtiyat edirdi.

[4] Bu hədisin ərəbcəsində keçən (ذِرَاعَيِ الصَّحِيفَةِ) sözü yanlış ifadədir. Ola bilsin ki, bu yanlışlıq kitabı köçürənlərin səhvidir. Əslində isə İmam Əhmədin "Musnəd" əsərində (1/90) varid olduğu kimi cümlənin bu yerində (وَأَعِي) sözü, yəni "yadda saxlayaram" olmalıdır.

[5] Bu cümlə İmam Buxarinin "Səhih"ində varid olmuş hədisə ziddir. Həmin hədisdə rəvayət edilir ki, Aişə ﷺ demişdir: "Peyğəmbər ﷺ mənim yanımda qaldığı gün başı qucağımda ikən vəfat etdi və mənim evimdə dəfn edildi" (Səhih əl-Buxari, 1389).

edənədək, namaz qılmağı, zəkat verməyi və kölələrə yaxşı baxmağı tövsiyə etdi.[1] Nəhayət, o vəfat etdi. (Peyğəmbər ﷺ) Allahdan başqa *haqq* məbud olmadığına və Muhəmmədin Onun qulu və elçisi olduğuna şahidlik etməyi də buyurdu. Kim bunlara şahidlik etsə, Cəhənnəm odu ona haram olar.[2]"[3]

١٥٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَابِقٍ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي وَائِلٍ، عَنْ عَبْدِ اللَّهِ عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَجِيبُوا الدَّاعِيَ، وَلاَ تَرُدُّوا الْهَدِيَّةَ، وَلاَ تَضْرِبُوا الْمُسْلِمِينَ)).

**(157)** ........ Abdullah (ibn Məsud) رضي الله عنه rəvayət edir ki,[4] Peyğəmbər ﷺ belə buyurmuşdur: "Dəvət edənin çağırışını qəbul edin,[5] hədiyyəni qaytarmayın[6] və müsəlmanları[7] vurmayın!"

---

[1] Peyğəmbərin ﷺ namaz qılmağı və kölələrə yaxşı baxmağı vəsiyyət etməsinə gəlincə, bunlar digər "səhih" hədislərdə öz təsdiqini tapmışdır. Bu kitabdakı 158-ci hədisə bax. Peyğəmbərin ﷺ bu vəsiyyətini Ummu Sələmə رضي الله عنها və Ənəs ibn Malik رضي الله عنه də rəvayət etmişdir (Musnəd İmam Əhməd, 6/290; 311; Mustədrək, 4388; Səhih İbn Hibban, 6571; Mişkatul-Məsabih, 3356; İrvaul-Ğəlil, 2178). Bu hədislərdə Peyğəmbərin ﷺ ölüm ayağında ikən namazla yanaşı, kölələrə yaxşı baxmağı vəsiyyət etməsi, kölə ilə gözəl rəftar etməyin nə dərəcədə mühüm, həm də məsuliyyətli bir iş olduğuna dəlalət edir. Peyğəmbərin ﷺ zəkat verməyi vəsiyyət etməsinə gəldikdə isə xüsusilə qeyd etmək lazımdır ki, bu əlavə "səhih" rəvayətlərə ziddir.

[2] Bu son cümlə neçə-neçə "səhih" hədislərdə öz təsdiqini tapmışdır.

[3] Hədisin isnadında keçən Nueym ibn Yezid adlı ravi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[4] Bu hədisi İmam Əhməd (1/404) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[5] Ümumiyyətlə, dəvət edənin çağırışını qəbul etmək müstəhəbdir. Yalnız, toya dəvət müstəsnadır. Odur ki, toya dəvət edildikdə, üzürlü hallar istisna olmaqla, bu dəvəti rədd etmək olmaz. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Biriniz toya dəvət edildiyi zaman qoy bu dəvəti qəbul etsin" (Səhih əl-Buxari, 5173).

[6] Verilən hədiyyəni götürmək arada olan ülvi-məhəbbəti artırır. Lakin qeyd etmək lazımdır ki, bəzi hallarda hədiyyəni götürmək şəriətə zidd hesab edilir. Buna rüşvət almağı misal çəkmək olar. Rüşvət hədiyyə adlansa da, haram sayılır və onu hədiyyə sayıb, qəbul etmək qadağandır. Belə ki, Peyğəmbər ﷺ rüşvət verənə də, rüşvət alana da lənət etmişdir (Səhih İbn Macə, 2313).

[7] Burada söhbət kölələrdən gedir. Lakin xüsusilə qeyd etmək lazımdır ki, cinayət etmiş köləni vurmaq müstəsnadır. Yəni zina etmiş yaxud şərab içmiş və ya başqa cinayəti

**١٥٨–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ فُضَيْلٍ، عَنْ مُغِيرَةَ، عَنْ أُمِّ مُوسَى، عَنْ عَلِيٍّ قَالَ: كَانَ آخِرُ كَلاَمِ النَّبِيِّ ﷺ: ((الصَّلاَةَ، الصَّلاَةَ، اتَّقُوا اللَّهَ فِيمَا مَلَكَتْ أَيْمَانُكُمْ)).

**(158)** ........ Əli ﷛ demişdir: "Peyğəmbərin ﷺ axır sözü bu olmuşdur: "Namaz (qılın), namaz (qılın)! Kölələrinizə görə Allahdan qorxun!"[1]

---

törətmiş kölə şəriət qanunlarına uyğun cəzalanmalıdır. Bu xüsusda varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Kəniz zina edərsə və bu işin üstü açılarsa, qoy, *ağası* ona *əlli* çubuq vursun və onu təhqir etməsin. Əgər *bir də* zina edərsə, *yenə* ona *əlli* çubuq vursun və onu təhqir etməsin. Üçüncü dəfə zina edərsə, *əvəzində* tükdən əyrilmiş ip *almış* olsa belə, onu satsın" (Səhih əl-Buxari, 2152). Həmçinin, onları tənbeh etmək məqsədilə yavaşca vurmaq da müstəsnadır (170-ci və 171-ci hədislərə bax).

[1] Bu hədisi Əbu Davud (5156), Əhməd (1/78) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ٨٣- بَابُ سُوءِ الْمَلَكَةِ

## 83-cü fəsil. Kölələrlə pis rəftar etmək

١٥٩- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ بْنُ صَالِحٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ جُبَيْرِ ابْنِ نُفَيْرٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي الدَّرْدَاءِ، أَنَّهُ كَانَ يَقُولُ لِلنَّاسِ: ((نَحْنُ أَعْرَفُ بِكُمْ مِنَ الْبَيَاطِرَةِ بِالدَّوَابِّ، قَدْ عَرَفْنَا خِيَارَكُمْ مِنْ شِرَارِكُمْ. أَمَّا خِيَارُكُمْ: الَّذِي يُرْجَى خَيْرُهُ، وَيُؤْمَنُ شَرُّهُ. وَأَمَّا شِرَارُكُمْ: فَالَّذِي لاَ يُرْجَى خَيْرُهُ، وَلاَ يُؤْمَنُ شَرُّهُ، وَلاَ يُعْتَقُ مُحَرَّرُهُ)).

**(159)** ........ Cubeyr ibn Nufeyr rəvayət edir ki, Əbu Dərda ﷺ insanlara deyərdi: "Biz sizi baytar həkimlərin heyvanları tanıdıqlarından da yaxşı tanıyırıq. Yaxşınızı da tanıyırıq, pisinizi də. Yaxşınız o kəsdir ki, ondan yaxşılıq umulur və şər əməllər gözlənilmir. Pisiniz də o kəsdir ki, ondan yaxşılıq umulmur, (üstəlik,) şər əməllər gözlənilir[1] və o, azad etdiyi köləni sərbəst buraxmır.[2]"[3]

---

[1] Bu söz Peyğəmbərin ﷺ sözüdür. Bir gün Peyğəmbər ﷺ səhabələrindən: "Sizə ən yaxşınız barədə xəbər verimmi?"– deyə soruşmuş və səhabələri ona: "Bəli" deyə cavab verdikdə, o belə buyurmuşdur: "Yaxşınız o kəsdir ki, ondan yaxşılıq umulur və şər əməllər gözlənilmir. Pisiniz də o kəsdir ki, ondan yaxşılıq umulmur, *üstəlik,* şər əməllər gözlənilir" (Sunən ət-Tirmizi, 2432; Səhih əl-Cami, 2603). İnsanların bir qisminin yaxşı, bir qisminin də pis olduğu barədə digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İnsanlar arasında elələri vardır ki, onlar xeyir *qapılarını* açan və şər *qapılarını* bağlayan açardırlar. Onların arasında elələri də vardır ki, onlar şər *qapılarını* açan və xeyir *qapılarını* bağlayan açardırlar. Xeyir qapılarının açarları əlində olan kimsənin xoş halına! Şər qapılarının açarları əlində olan kimsənin də vay halına!" (Sunən İbn Macə, 237; Silsilətul-Əhadisis-Səhihə, 1332). Bu hədislər özünə yaxşı dost seçmək istəyən hər kəsə gözəl qayda verir.

[2] Yəni köləni azad etdikdən sonra onlardan istifadə edir və bu kölə onları qoyub getmək istədikdə, yalandan özlərinin köləsi olduğunu iddia edirlər.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

١٦٠- حَدَّثَنَا عِصَامُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا حَرِيزُ بْنُ عُثْمَانَ، عَنِ ابْنِ هَانِئٍ، عَنْ أَبِي أُمَامَةَ، سَمِعْتُهُ يَقُولُ: ((الْكَنُودُ، الَّذِي يَمْنَعُ رِفْدَهُ، وَيَنْزِلُ وَحْدَهُ، وَيَضْرِبُ عَبْدَهُ)).

**(160)** ........ İbn Hani demişdir: "Mən Əbu Umamənin[1] belə dediyini eşitmişəm: "Nankor o kəsdir ki, yaxınlarına əngəl törədir, (hər şeyi) özü üçün edir[2] və kələsini vurur."[3]

١٦١- حَدَّثَنَا حَجَّاجُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ عَلِيِّ بْنِ زَيْدٍ ، عَنْ سَعِيدِ ابْنِ الْمُسَيِّبِ، وَحَمَّادٍ، عَنْ حَبِيبٍ، وَحُمَيْدٍ، عَنِ الْحَسَنِ أَنَّ رَجُلاً أَمَرَ غُلاَمًا لَهُ أَنْ يَسْنُوَ عَلَى بَعِيرٍ لَهُ، فَنَامَ الْغُلاَمُ، فَجَاءَ بِشُعْلَةٍ مِنْ نَارٍ فَأَلْقَاهَا فِي وَجْهِهِ، فَتَرَدَّى الْغُلاَمُ فِي بِئْرٍ، فَلَمَّا أَصْبَحَ أَتَى عُمَرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ، فَرَأَى الَّذِي فِي وَجْهِهِ، فَأَعْتَقَهُ.

**(161)** ........ Həsən rəvayət edir ki, bir nəfər öz kələsinə (quyudan) su çıxarıb dəvəsinə yükləməyi əmr etdi. Kölə isə (bu işi görməyib uzanıb) yatdı. (Bunu görən) ağası od gətirib kölənin üzünü yandırdı və kölə qalxıb quyuya yıxıldı. Səhər-səhər kölə, Ömər ibn Xattabın ﷺ yanına gəldi. Ömər kölənin üzündəki yanığı görüb, onu azad etdi."[4]

---

[1] Əbu Umamə əl-Bahili ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 52-ci tərcümeyi-hal).

[2] Yəni nankor adam xəsisliyi və xudbinliyi üzündən öz qohumlarını belə yaxına buraxmır və ancaq öz mənafeyini güdür.

[3] Bu əsəri rəvayət edən İbn Hani "kimliyi bəlli olmayan" ravidir. Elə bu səbəbdən də, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[4] Bu əsəri rəvayət edən Həsən əl-Bəsri Ömər ibn Xattabı ﷺ görmədiyi üçün Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٨٤- بَابُ بَيْعِ الْخَادِمِ مِنَ الأَعْرَابِ

## 84-cü fəsil. Bədəvi xadimi satmaq

١٦٢- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنِ ابْنِ عَمْرَةَ، عَنْ عَمْرَةَ، أَنَّ عَائِشَةَ رضي الله عنها دَبَّرَتْ أَمَةً لَهَا، فَاشْتَكَتْ عَائِشَةُ، فَسَأَلَ بَنُو أَخِيهَا طَبِيبًا مِنَ الزُّطِّ، فَقَالَ: إِنَّكُمْ تُخْبِرُونِي عَنِ امْرَأَةٍ مَسْحُورَةٍ، سَحَرَتْهَا أَمَةٌ لَهَا، فَأُخْبِرَتْ عَائِشَةُ، قَالَتْ: سَحَرْتِينِي؟ فَقَالَتْ: نَعَمْ، فَقَالَتْ: وَلِمَ؟ لاَ تَنْجِيْنَ أَبَدًا، ثُمَّ قَالَتْ: بِيعُوهَا مِنْ شَرِّ الْعَرَبِ مَلَكَةً.

**(162)** ........ Amra rəvayət edir ki, Aişə رضي الله عنها öz kənizinə: “Mən vəfat edəcəyim gün sən azad ediləcəksən”– demişdi. (Bir müddət) sonra Aişə xəstələndi. Onda Aişə qardaşı oğullarından xahiş etdi ki, ona zutlardan[1] həkim çağırsınlar. Həkim (onları dinlədikdən sonra) dedi: “Barəsində mənə xəbər verdiyiniz qadına öz kənizi tərəfindən sehr edilib.” Onlar bunu Aişəyə xəbər verdikdə, o (kənizdən): “Sən mənə sehr eləmisən?”[2]– deyə soruşdu.

---

[1] Zutlar: Sudandakı və ya Hindistandakı tayfalardan biri.

[2] Aişənin رضي الله عنها bu sözü, yəni həkimin sözünə inanmayıb məsələni dəqiqləşdirməsi dəlildir ki, belə məsələdə nəinki kahinə, heç həkimə belə inanmaq olmaz. O ki qaldı kahinə, ona nəinki inanmaq, onun yanına getmək belə qadağandır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Kim falçının və ya kahinin yanına gəlib onun dediklərinə inanarsa, Muhəmmədə nazil olana küfr etmiş olar” (Səhih əl-Cami, 5939).

Kahinlik və falçılıq sadəcə qeybdən xəbər vermə iddiasıdır. Qeyd etmək lazımdır ki, bu yalnız iddia ola bilər. Belə ki, qeybdən xəbər vermənin iki yolu var:

a) halal: bu ancaq peyğəmbərlərə məxsus olub, özü də mütləq şəkildə deyil, qismən. Uca Allah buyurur: **“De: “Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm. Mən yalnız mənə vəhy olunana tabe oluram”** (əl-Ənam, 50); **“Qeybin açarları Allahın yanındadır, Onları yalnız O bilir”** (əl-Ənam, 59); “**De: “Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm. Əgər qeybi bilsəydim, əlbəttə, *özüm üçün* xeyir artırardım və mənə pislik toxunmazdı. Mən, sadəcə, iman gətirən bir qövm üçün qorxudan və müjdələyənəm”** (əl-Əraf, 188).

Kəniz: "Bəli!"– deyə cavab verdi. Aişə dedi: "Nə üçün (belə etdin)?! Axı sən heç vaxt nicat tapmayacaqsan."[1] Sonra da (xidmətçilərinə) "Bədəvilərin şərindən uzaq olmaq üçün onu kölə kimi satın"– dedi.[2]

---

b) haram: kahinlərin, falabaxanların və başqa bunlar kimi qeyb xəbərlərinə girişən kimsələrin şeytanlarla dost olub onların səmavi xəbərlərdən oğurladığı sözləri onlardan eşidib insanlara bildirmək.

[1] İmam Əhmədin rəvayətində deyilir ki, kəniz onun sualına belə cavab verdi: "İstəyirdim öləsən ki, mən azad olum." Sehrlə məşğul olan kimsənin nicat tapmayacağı barədə isə Quranda belə buyurulur: **"Onların qurduqları, sadəcə sehrbaz hiyləsidir. Sehrbaz isə hara gedirsə-getsin, uğur qazanmaz"** (Ta ha, 69).

[2] Bu əsəri Əhməd (6/40), Daraqutni (Sunən, 4312), Hakim (Mustədrək, 7516) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٨٥- بَابُ الْعَفْوِ عَنِ الْخَادِمِ

## 85-ci fəsil. Xidmətçini əfv etmək[1]

١٦٣- حَدَّثَنَا حَجَّاجٌ، قَالَ: حَدَّثَنَا حَمَّادٌ، هُوَ ابْنُ سَلَمَةَ، قَالَ: أَخْبَرَنَا أَبُو غَالِبٍ، عَنْ أَبِي أُمَامَةَ، قَالَ: أَقْبَلَ النَّبِيُّ ﷺ مَعَهُ غُلامَانِ، فَوَهَبَ أَحَدُهُمَا لِعَلِيٍّ صَلَوَاتُ اللهِ عَلَيْهِ، وَقَالَ: ((لاَ تَضْرِبْهُ، فَإِنِّي نُهِيتُ عَنْ ضَرْبِ أَهْلِ الصَّلاَةِ، وَإِنِّي رَأَيْتُهُ يُصَلِّي مُنْذُ أَقْبَلْنَا))، وَأَعْطَى أَبَا ذَرٍّ غُلاَمًا، وَقَالَ: ((اسْتَوْصِ بِهِ مَعْرُوفًا)) فَأَعْتَقَهُ، فَقَالَ: ((مَا فَعَلَ؟)) قَالَ: أَمَرْتَنِي أَنْ أَسْتَوْصِيَ بِهِ خَيْرًا فَأَعْتَقْتُهُ.

**(163)** ........ Əbu Umamə ﷺ rəvayət edir ki, (bir gün) Peyğəmbər ﷺ iki kölə ilə birgə yanımıza gəldi. O, kölələrdən birini Əliyə verib dedi: "Onu vurma! Çünki namaz qılanları vurmaq mənə qadağan edildi.[2] Mən bu

---

[1] Əfv etmək Allahdan qorxan möminin sifətlərindəndir. Uca Allah Öz Kitabında onları belə vəsf edir: **"O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da *mallarından Allah yolunda* xərcləyir, qəzəblərini boğur və insanları əfv edirlər. Allah yaxşı iş görənləri sevir"** (Ali-İmran, 134). Xidmətçini əfv etmək xüsusunda varid olmuş hədisdə Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, biz xidmətçini nə qədər əfv edə bilərik?" Peyğəmbər ﷺ susdu. Adam yenə soruşdu. Peyğəmbər ﷺ yenə cavab vermədi. Adam üçüncü dəfə *eyni sualı* verdikdə, Peyğəmbər ﷺ buyurdu: "Hər gün onları yetmiş dəfə əfv edin!" (Sunən Əbu Davud, 5164; Silsilətul-Əhadisis-Səhihə, 488).

[2] Allahın Öz Peyğəmbərinə ﷺ namaz qılan kimsəni vurmağı qadağan etməsi, namaz qılanların Allah yanında hörmətli olmalarına dəlalət edir. Hədislərin birində, xüsusən, fəcr namazına dair Rəsulullah ﷺ belə buyurmuşdur: "Hər kim sübh namazını qılsa, Allahın zimməti altında olar. Allah Öz zimmətinin tərk edildiyinə görə sizdən heç bir şey tələb etməz" (Səhih Muslim, 1493). Yəni sübh namazını tərk etmək və bu namaza səhlənkar yanaşmaqla Allahla aranızda olan əhdi pozmayın ki, buna görə Cəhənnəmə giriftar olunmayasınız. Bu hədisdə zimmət deyildikdə, bir kimsənin mühafizə olunmasını təmin edən zəmanət və təminat nəzərdə tutulur. Bu mühafizə barədə İmam Buxarinin "Səhih"ində daha ətraflı məlumat verilir. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim bizim qıldığımız namazı qılır, üzünü qibləmizə tərəf çevirir və kəsdiyimiz qurbandan yeyirsə, o, Allahın və Rəsulunun ﷺ mühafizəsi altında olan müsəlmandır. Belə kimsələrin haqqına girməklə

köləni tanıdığım gündən bəri onun namaz qıldığını görmüşəm.” Sonra o, digər köləni Əbu Zərrə verib dedi: “Onunla yaxşı rəftar et!” Əbu Zərr də onu azad etdi.[1] Sonra Peyğəmbər ﷺ soruşdu: “Nə oldu?” Əbu Zərr dedi: “Mənə onunla yaxşı rəftar etməyi buyurdun, mən də onu azad etdim.”[2]

**١٦٤**– حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ، عَنْ أَنَسٍ قَالَ: قَدِمَ النَّبِيُّ ﷺ الْمَدِينَةَ وَلَيْسَ لَهُ خَادِمٌ، فَأَخَذَ أَبُو طَلْحَةَ بِيَدِي، فَانْطَلَقَ بِي حَتَّى أَدْخَلَنِي عَلَى النَّبِيِّ ﷺ، فَقَالَ: يَا نَبِيَّ اللَّهِ، إِنَّ أَنَسًا غُلاَمٌ كَيِّسٌ لَبِيبٌ، فَلْيَخْدُمْكَ. قَالَ: فَخَدَمْتُهُ فِي السَّفَرِ وَالْحَضَرِ، مَقْدَمَهُ الْمَدِينَةَ حَتَّى تُوُفِّيَ ﷺ، مَا قَالَ لِي لِشَيْءٍ صَنَعْتُ: لِمَ صَنَعْتَ هَذَا هَكَذَا؟ وَلاَ قَالَ لِي لِشَيْءٍ لَمْ أَصْنَعْهُ: أَلاَ صَنَعْتَ هَذَا هَكَذَا؟

**(164)** ........ Ənəs ؓ demişdir: “Peyğəmbər ﷺ Mədinəyə gəldikdə onun xidmətçisi yox idi. Odur ki, Əbu Talhə[3] əlimdən tutub məni Peyğəmbərin ﷺ yanına apardı. Nəhayət, biz onun yanına daxil olduqda, Əbu Talhə dedi: “Ey Allahın Peyğəmbəri! Həqiqətən, Ənəs həm diribaş, həm də ağıllı uşaqdır.[4] Qoy o sənə xidmət etsin!”

---

Allaha (və Rəsuluna ﷺ) xəyanət etməyin” (Səhih əl-Buxari, 391); digər hədisdə Peyğəmbər ﷺ sübh namazını qılan kimsənin gün batanadək mühafizə olunduğunu bildirib demişdir: “Kim sübh namazını qılsa, axşamadək Allahın mühafizəsi altında olar” (Mocəm əl-Kəbir, 13032; Səhih əl-Cami, 6343). Lakin xüsusi ilə qeyd etmək lazımdır ki, bu hökmün cinayət etmiş möminə heç bir aidiyyəti yoxdur. Belə ki, cinayətkar adam namaz qılan olsa belə, etdiyi cinayətə görə cəzalandırılmalıdır.

[1] Diqqət edin, burada Peyğəmbər ﷺ Əbu Zərrə ؓ bu köləyə nə cür yaxşılıq edəcəyini müəyyən etmir, ümumi şəkildə ona yaxşı baxmağı buyurur. Əbu Zərr ؓ də yaxşılıqlar arasından ən yaxşısını seçir və dərhal onu azad edir. Belə ki, bu dünyada kölə üçün azad olunmaqdan daha böyük yaxşılıq yoxdur (256-cı hədisə də bax).

[2] Bu hədisi Əhməd (5/250) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

[3] Əbu Talhə Zeyd ibn Səhl əl-Ənsari ən-Nəccari əl-Xəzrəci ؓ Ənəsin ؓ atalığıdır.

[4] Bu, dəlildir ki, məsləhət bildikdə tərifəlayiq adamı tərifləmək olar.

(Ənəs dedi): “Peyğəmbər ﷺ Mədinəyə gəldiyi gündən vəfat edənədək istər səfərdə, istərsə də evdə mən onun xidmətində durdum.[1] O, heç vaxt mənə etdiyim bir işə: “Niyə bunu belə etmisən?”, yaxud etmədiyim bir işə: “Niyə bunu belə etməmisən?”[2]– demədi.”[3]

---

[1] Başqa bir hədisdə Ənəs ibn Malik ؓ Peyğəmbərə ﷺ neçə il xidmət etdiyini xəbər verib demişdir: “Mən on il Rəsulullaha ﷺ xidmət etdim...” (Səhih əl-Buxari, 5691, Səhih Muslim, 2330).

[2] Peyğəmbərin ﷺ öz xidmətçisinə heç vaxt “niyə bunu etmisən” və ya “niyə bunu etməmisən” deyə ona etiraz etməməsi, habelə, bəzi hədislərdə varid olduğu kimi heç vaxt ona “uf” deməməsi onun necə böyük əxlaq sahibi olduğunu bir daha sübuta yetirir. Uca Allah onu belə tərif edir: **“Həqiqətən də, sən böyük əxlaq sahibisən!”** (əl-Qələm, 4); digər ayədə O, buyurur: **“Allahın rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir”** (əl-Əhzab, 21).

[3] Bu hədisi Buxari (6037), Muslim (6153) və Əhməd (4/305) rəvayət etmişdir.

## ٨٦- بَابُ إِذَا سَرَقَ الْعَبْدُ

## 86-cı fəsil. Kölə oğurluq edərsə, (nə etməli?)

١٦٥- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا سَرَقَ الْمَمْلُوكُ بِعْهُ وَلَوْ بِنَشٍّ)) قَالَ أَبُو عَبْدِ اللَّهِ: النَّشُّ: عِشْرُونَ. وَالنَّوَاةُ: خَمْسَةٌ. وَالْأُوقِيَّةُ: أَرْبَعُونَ.

**(165)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kölə oğurluq etsə, onu bir nəşşə olsa belə, sat!"[1]

Əbu Abdullah (əl-Buxari) demişdir: "Nəşş" iyirmi dirhəmə, "nəva" beş dirhəmə və "ovqiyyə" qırx dirhəmə bərabərdir."[2]

---

[1] Oğurluq etmiş kölə nəyə görə satılmalıdır? Birincisi ona görə ki, o köləni alan adam onu bu eyiblə almış olsun və onu öz nəzarəti altında saxlasın (89-cu fəsildəki hədislərə və onların qeydlərinə bax). İkincisi də ona görə ki, adamın günah işlətdiyi yerdən köçüb getməsi ona özünü islah etməsinə və bir daha o pis əmələ qayıtmamasına kömək edir. Necə ki, məşhur hədisdə bir nəfər yüz adam öldürür və islah olunmaq üçün alimə müraciət edir, ondan: "Tövbə etsəm, qəbul olarmı?"– deyə soruşur, alim də ona: "Əlbəttə, qəbul olar. Sən filan diyara get. Orada Allaha ibadət edən bir camaat var, onlarla birgə Allaha ibadət et!..."– deyir (Səhih əl-Buxari, 3470).

[2] Bu hədisi Əbu Davud (4412), Nəsai (7473) Əhməd (2/337) rəvayət etmişdir. Hədisin isnadında keçən Amr ibn Əbu Sələmə "çoxlu xətalara yol vermiş səduq" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, Aişədən ﷺ rəvayət edilmiş 162 nömrəli hədis bu hədisin mənasını təsdiq edir. Yəni sehr etmiş yaxud oğurluq etmiş və ya başqa bu kimi günahlar işlətmiş köləni satmaq gərəkdir.

## ٨٧- بَابُ الْخَادِمِ يُذْنِبُ

## 87-ci fəsil. Günah işlətmiş xidmətçi

١٦٦- حَدَّثَنَا أَحْمَدُ بْنُ مُحَمَّدٍ، حَدَّثَنَا دَاوُدُ بْنُ عَبْدِ الرَّحْمَنِ قَالَ: سَمِعْتُ إِسْمَاعِيلَ، عَنْ عَاصِمِ بْنِ لَقِيطِ بْنِ صَبِرَةَ، عَنْ أَبِيهِ قَالَ: انْتَهَيْتُ إِلَى النَّبِيِّ ﷺ، وَدَفَعَ الرَّاعِي فِي الْمُرَاحِ سَخْلَةً، فَقَالَ النَّبِيُّ ﷺ: ((لاَ تَحْسِبَنَّ))، وَلَمْ يَقُلْ: ((لاَ تَحْسَبَنَّ إِنَّ لَنَا غَنَمًا مِئَةً لاَ نُرِيدُ أَنْ تَزِيدَ، فَإِذَا جَاءَ الرَّاعِي بِسَخْلَةٍ ذَبَحْنَا مَكَانَهَا شَاةً))، فَكَانَ فِيمَا قَالَ: ((لاَ تَضْرِبْ ظَعِينَتَكَ كَضَرْبِكَ أَمَتَكَ، وَإِذَا اسْتَنْشَقْتَ فَبَالِغْ، إِلاَّ أَنْ تَكُونَ صَائِمًا)).

**(166)** ........ Ləqit ibn Səbirə ﷺ demişdir: "(Bir dəfə) mən Peyğəmbərin ﷺ yanına gəldim və (bu vaxt) çoban tövləyə bir quzu gətirdi. Peyğəmbər ﷺ dedi:[1] "Elə hesab etmə ki, (bunu sənə görə kəsirik). Bizim yüz qoyunumuz var və biz istəmirik ki, onların sayı artsın. Elə ki çoban bir quzu gətirir,[2]

---

[1] İmam Əbu Davudun rəvayət etdiyi hədisdə Ləqit ibn Səbirə ﷺ demişdir: "Mən Muntəfiq qəbiləsinin nümayəndələri ilə birgə Rəsulullahın ﷺ yanına getdim. Biz Rəsulullahın ﷺ evinə gəldikdə onu evdə tapmadıq və bizi möminlərin anası Aişə ﷺ qarşıladı. O, *xidmətçilərə* bizə yemək hazırlamağı buyurdu. Sonra bizə bir qab xurma gətirdilər. Çox keçmədən Rəsulullah ﷺ gəldi və *bizdən*: "Sizə yemək verdilərmi?"– deyə soruşdu. Biz: "Bəli, ya Rəsulullah!"– deyə cavab verdik. Elə bu vaxt çoban Rəsulullahın ﷺ qoyunlarını tövləyə gətirdi. Onların arasında bir quzu mələyirdi. Rəsulullah ﷺ çobandan soruşdu: "Nə gətirmisən, ey filankəs?" O, dedi: "Dişi quzu balası." Onda Rəsulullah ﷺ buyurdu: "Elə isə, bizim üçün bu quzunun yerinə bir qoyun kəs. Sonra Peyğəmbər ﷺ *mənə* dedi: "Elə güman etmə ki, bunu sənə görə kəsirik. Bizim yüz qoyunumuz var və biz istəmirik ki, onların sayı artsın. Elə ki çoban bir quzu gətirir, biz onun əvəzinə bir qoç kəsirik." Mən dedim: "Ya Rəsulullah, mənim zövcəm acıdil qadındır." Buyurdu ki: "Elə isə, onu boşa!" Dedim: "Ya Rəsulullah! Axı o mənim həyat yoldaşımdır və mənim ondan övladım var." O, buyurdu: "Elə isə, ona nəsihət et! Əgər sənin üçün onda xeyir varsa, sənə itaət edəcək. Bir də ki, həyat yoldaşını, kənizini vurduğun kimi vurma." Mən dedim: "Ya Rəsulullah, mənə dəstəmaz barədə xəbər ver." O buyurdu: "Dəstəmazı kamil şəkildə al, barmaqlarının arasını da yu və bir də burnunu yuduqda – oruc tutduğunuz vaxt istisna olmaqla – suyu (buruna) çox al" (Sunən Əbu Davud, 142).

[2] Yəni qoyunlar bala verdikcə Peyğəmbər ﷺ hər balanın əvəzinə bir qoç kəsərmiş.

biz onun əvəzinə bir qoç kəsirik."[1] O, həmçinin, buyurdu: "Həyat yoldaşını, kənizini vurduğun kimi vurma.[2] (Dəstəmaz əsnasında) burnunu yuduqda – oruc tutduğunuz vaxt istisna olmaqla, suyu (buruna) çox al."[3]

---

[1] Rəsulullahın ﷺ qoyunlarının sayı artan kimi o, hər quzunun yerinə bir qoyun kəsərdi ki, qoyunların sayı yüzdən artıq olmasın. Yəni belə etmək onun adəti idi. Burada da bu artım Ləqit ibn Səbirənin gəlişi ilə üst-üstə düşür. Üstəlik, möminlərin anası qonaqlara kifayət qədər xurma və yemək vermişdi. Rəsulullah ﷺ Ləqitə bunu deməklə bildirmək istəyir ki, bu qoyunu onların gəlişinə görə yox, sadəcə öz adətinə görə kəsdirir. Hərçənd, o, bu qoyunun ətindən qonaqlara da yemək verir, lakin bunu deyir ki, qonaqlar özlərini rahat hiss etsinlər, onlara görə qoyun kəsildiyini düşünüb sıxılmasınlar. Hədisə diqqət yetirsək Rəsulullahın ﷺ necə böyük əxlaq sahibi olduğunu açıq-aydın görə bilərik. O, həm qonaqlar üçün qoyun kəsdirir, həm də elə edir ki, onlar özlərini onun evində rahat hiss etsinlər – səllallahu aleyhi və alə alihi və səlləm!

[2] Qeyd etmək lazımdır ki, özbaşınalıq edən qadını dərhal vurmaq sünnəyə ziddir. Belə qadına əvvəlcə nəsihət edilməlidir. Nəsihətə qulaq asmadığı təqdirdə isə onu vurmaq olar. Bu xüsusda, Uca Allah buyurur: **"Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və onları döyün! Əgər sizə itaət etsələr, onlara *əziyyət vermək üçün başqa* yol axtarmayın"** (ən-Nisa, 34). Vuranda da adam gərək həddi aşmasın. Eləcə də, Peyğəmbərin ﷺ: "Həyat yoldaşını, kənizini vurduğun kimi vurma" sözü o demək deyil ki, kənizi həddən ziyadə bərk vurmaq olar. Xeyr, bu, sadəcə müqayisə üçün belə deyilmişdir. Yəni həyat yoldaşına nisbətdə kəniz bir qədər sərt tənbeh edilir. Yeri gəlmişkən, qeyd edək ki, hədisin bu yeri fəslin ünvanına aidiyyəti olan hissəsidir. Bu da, günah işlətmiş xidmətçini cəzalandırmağın caiz olduğuna dəlalət edir.

[3] Bu hədisi Əbu Davud (142) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٨٨- بَابُ مَنْ خَتَمَ عَلَى خَادِمِهِ مَخَافَةَ سُوءِ الظَّنِّ

## 88-ci fəsil. Pis zənnə qapılmamaq üçün xidmətçisini yoxlayan[1] kimsə

١٦٧- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا أَبُو خَلْدَةَ، عَنْ أَبِي الْعَالِيَةِ قَالَ: كُنَّا نُؤْمَرُ أَنْ نَخْتِمَ عَلَى الْخَادِمِ، وَنَكِيلَ، وَنَعُدَّهَا، كَرَاهِيَةَ أَنْ يَتَعَوَّدُوا خُلُقَ سُوءٍ، أَوْ يَظُنَّ أَحَدُنَا ظَنَّ سُوءٍ.

**(167)** ........ Əbul-Aliyə[2] demişdir: "Xidmətçilər pis əxlaqa vərdiş etməsinlər, yaxud aramızda heç kəs *onlar barədə* pis zənnə qapılmasın deyə, onları yoxlamaq, *əllərindəkini* çəkmək və *ya* saymaq bizə əmr edilərdi.[3]"[4]

---

[1] Burada "yoxlamaq" deyildikdə, bir şeyin varlığı-yoxluğu yaxud düzgünlüyü, həqiqi vəziyyəti barədə yəqinlik hasil etmək üçün onu gözdən keçirmək, araşdırmaq nəzərdə tutulur. Əlbəttə ki, daim öz işlərinə nəzarət edən kimsənin işləri avand olar. Xidmətçini yoxlamağın isə iki faydası vardır: birincisi yoxlanılana, ikincisi isə yoxlayana aiddir. Xidmətçiyə aid olan tərəfi budur ki, bu yoxlama onu günaha batmaqdan çəkindirir. Belə ki, yoxlanılacağını bilən xidmətçi heç vaxt cürət edib harama əl atmaz. Bu, dəlildir ki, adam əlinin altında olan işçilərini daim nəzarət altında saxlaya bilər. Bunun yoxlayan kəs üçün isə faydası budur ki, o, xidmətçilər barədə pis zənnə düşüb günah qazanmır.

[2] Əbul-Aliyə Rəfi ibn Mihran ibn Yərbu ər-Riyahi əl-Bəsri. O, Peyğəmbərin ﷺ dövründə yaşamış, lakin İslam dinini Əbu Bəkr əs-Siddiqin ؓ xilafəti zamanı qəbul etmişdir. Əbu Amr Dani demişdir: "Əbul-Aliyə Quranı Ubeyy ibn Kəbə, Zeyd ibn Sabitə və İbn Abbasa oxumuşdur." Əbul-Aliyə, zamanının müfəssirlərindən olmuşdur. Əbu Bəkr ibn Əbu Davud demişdir: "Səhabələrdən sonra Quranı ən yaxşı bilən kimsə Əbul-Aliyədir" (Siyər Əlam ən-Nubələ, 85-ci tərcümeyi hal).

[3] Əbul-Aliyə "bizə (filan şey) əmr edilərdi" deyəndə, səhabələrin onlara əmr etdiyini nəzərdə tutur.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٨٩– بَابُ مَنْ عَدَّ عَلَى خَادِمِهِ مَخَافَةَ الظَّنِّ

## 89-cu fəsil. Pis zənnə qapılmamaq üçün xidmətçisinə (verdiklərini) sayan kimsə

١٦٨– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ حَارِثَةَ بْنِ مُضَرِّبٍ، عَنْ سَلْمَانَ قَالَ: إِنِّي لَأَعُدُّ الْعُرَاقَ عَلَى خَادِمِي مَخَافَةَ الظَّنِّ.

**(168)** ........ Salman[1] ﷺ demişdir: "Mən pis zənnə qapılmaqdan qorxduğum üçün xidmətçimin qabağındakı ətsiz sümükləri sayıram."[2]

١٦٩– حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: أَنْبَأَنَا أَبُو إِسْحَاقَ قَالَ: سَمِعْتُ حَارِثَةَ بْنَ مُضَرِّبٍ قَالَ: سَمِعْتُ سَلْمَانَ: إِنِّي لَأَعُدُّ الْعُرَاقَ خَشْيَةَ الظَّنِّ.

**(169)** ........ Salman ﷺ demişdir: "Mən pis zənnə qapılmaqdan qorxduğum üçün ətsiz sümükləri sayıram."[3]

---

[1] Salman Farisi ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsi, ikiqat savab qazanan möminlərdəndir. Uca Allah belələri barədə buyurur: **"*Qurandan* əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara *Quran* oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!"– deyirlər. Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir"** (əl-Qəsəs, 52-54). Peyğəmbər ﷺ demişdir: "Üç sinif insan vardır ki, onlar ikiqat savab qazanır: Əvvəlcə öz peyğəmbərinə, sonra da Muhəmmədə ﷺ iman gətirmiş Kitab əhli ikiqat savab qazanır. Həm Allahın, həm də ağasının haqqını ödəyən kölə *ikiqat savab qazanır*. Kənizinə yaxşı təlim-tərbiyə keçən, sonra onu azad edib onunla evlənən kişi ikiqat savab qazanır" (əl-Ədəbul-Mufrad, 203). Salmandan kimin oğlu olduğunu soruşduqda, atasının adını deməz, sadəcə "mən Salman ibn İslamam"– deyərək özünün İslam dininə mənsub olduğunu bildirərdi (Siyər Əlam ən-Nubələ, 1/495). Salman Farisinin fəzilətinə dair ikicə hədis qeyd etsək kifayət edər: Əbu Hureyrə ﷺ demişdir: "*Bir dəfə* biz Peyğəmbərin ﷺ yanında ikən ona "əl-Cumuə" surəsi nazil oldu: ***"Allah səni* hələ *müsəlmanlara* qoşulmamış, başqalarına da *elçi göndərmişdir..."*** Mən soruşdum: "Kimdir onlar, ya Rəsulullah?" O, mənə cavab vermədi. Mən sualımı üç dəfə təkrar etdim. Həmin vaxt Salman Farisi bizim aramızda idi. Peyğəmbər ﷺ əlini Salmanın *ayağının üstünə* qoyub dedi: "Hərgah iman Süreyya ulduzunun yanında olsaydı, bu adamlar ora da gedib çıxardılar" (Səhih əl-Buxari, 4897). Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Cənnət üç nəfər üçün darıxır: "Əli *ibn Əbu Talib*, Ammar *ibn Yasir* və Salman *Farisi*" (Mustədrək, 3/148; "Səhih əl-Cami", 1/331).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Bu əsər də əvvəlki kimi "səhih"dir.

## ٩٠- بَابُ أَدَبِ الْخَادِمِ

## 90-cı fəsil. Xidmətçiyə tərbiyə vermək

**١٧٠-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي مَخْرَمَةُ بْنُ بُكَيْرٍ، عَنْ أَبِيهِ قَالَ: سَمِعْتُ يَزِيدَ بْنَ عَبْدِ اللَّهِ بْنِ قُسَيْطٍ قَالَ: أَرْسَلَ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ غُلَامًا لَهُ بِذَهَبٍ أَوْ بِوَرِقٍ، فَصَرَفَهُ، فَأَنْظَرَ بِالصَّرْفِ، فَرَجَعَ إِلَيْهِ فَجَلَدَهُ جَلْدًا وَجِيعًا وَقَالَ: اذْهَبْ، فَخُذِ الَّذِي لِي، وَلَا تَصْرِفْهُ.

**(170)** ........ Yezid ibn Abdullah ibn Quseyt demişdir: "Abdullah ibn Ömər öz köləsinə qızıl, yaxud gümüş verib, onu (sərrafın[1] yanına) göndərdi. O da bu pulu dəyişdi, amma nisyə alver etdi.[2] Sonra ibn Ömərin yanına qayıtdı. İbn Ömər (köləsinin nisyə alver etdiyindən xəbər tutduqda) qamçı ilə onu əməllicə qamçıladı,[3] sonra dedi: "Qayıt, mənim pulumu geri götür və belə alver etmə."[4]

**١٧١-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: أَخْبَرَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الْأَعْمَشِ، عَنْ إِبْرَاهِيمَ التَّيْمِيِّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي مَسْعُودٍ قَالَ: كُنْتُ أَضْرِبُ غُلَامًا لِي، فَسَمِعْتُ مِنْ خَلْفِي صَوْتًا: ((اعْلَمْ أَبَا مَسْعُودٍ،

---

[1] Pul dəyişməklə məşğul olan adam.

[2] Belə alverin qadağan olması barədə neçə-neçə hədislər varid olmuşdur. Rəvayət edilir ki, *bir dəfə* Malik ibn Ovs yüz dinarı *dirhəmə* dəyişmək istəyirdi. *Malik ibn Ovs* dedi: "Təlhə ibn Ubeydullah məni yanına çağırdı və biz qiymət danışdıqdan sonra o, pulu *dəyişməyə* razılıq verdi. O, qızılı götürüb əlində o üz-bu üzə çevirdi, sonra dedi: "Xəzinədarım Ğabədən qayıdanadək *gözləməli olacaqsan*!" Bunu eşidən Ömər dedi: "Vallahi, *pulunu* almayınca ondan ayrılmamalısan. *Axı* Peyğəmbər ﷺ demişdir: "Qızılı qızıla dəyişmək sələmdir. Yalnız *onun eyni miqdarda və əlbəəl dəyişdirilməsi* istisnadır" (Səhih əl-Buxari, 2174).

[3] İbn Ömərin bu hərəkəti dəlildir ki, günah işlətmiş xidmətçini tərbiyə etmək məqsədilə cəzalandırmaq olar.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

لَلَّهُ أَقْدَرُ عَلَيْكَ مِنْكَ عَلَيْهِ))، فَالْتَفَتُّ فَإِذَا هُوَ رَسُولُ اللَّهِ ﷺ، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، فَهُوَ حُرٌّ لِوَجْهِ اللَّهِ، فَقَالَ: ((أَمَا لَوْ لَمْ تَفْعَلْ لَمَسَّتْكَ النَّارُ أَوْ لَلَفَحَتْكَ النَّارُ)).

**(171)** ........ Əbu Məsud[1] ﷺ demişdir:[2] "(Bir dəfə) mən öz kölələmi vurarkən arxa tərəfimdən səs eşitdim:[3] "Ey Əbu Məsud, bil ki, sən bu köləyə cəza verməyə qadir olduğundan daha çox Allah səni cəzalandırmağa qadirdir."[4] Mən arxaya dönüb baxdım[5] ki, bu, Rəsulullahdır ﷺ. Mən dedim: "Ya Rəsulullah, Allahın Üzü xatirinə o azaddır."[6] Peyğəmbər ﷺ buyurdu: "Əgər sən belə etməsəydin, Cəhənnəm odu sənə toxunardı[7] yaxud səni yandırardı."

---

[1] Əbu Məsud Uqbə ibn Amr ibn Sələbə əl-Bədri ﷺ Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir. Hicrətin 40-cı ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 103-cü tərcümeyi-hal).

[2] Bu hədisi Muslim (4396), Əbu Davud (5159) və Əhməd (5/274) rəvayət etmişdir.

[3] Əbu Məsudun ﷺ öz başına gələni danışması, Peyğəmbərin ﷺ onu qınadığını gizlətməməsi bu səhabənin necə təvazökar olduğundan xəbər verir.

[4] Peyğəmbərin ﷺ onu Allah ilə qorxutması ən gözəl dəvət üslubuna aiddir.

[5] İmam Muslimin "Səhih"indəki eyni hədisdə Əbu Məsud ﷺ deyir ki: "(onun heybətindən) əlimdəki qamçı yerə düşdü."

[6] Diqqət edin, Əbu Məsud ﷺ Peyğəmbərin ﷺ nə demək istədiyini başa düşür, nəsihətini qəbul edir və vurduğu köləni tərəddüd etmədən dərhal azad edir. İmam Muslimin nəql etdiyi bu hədisdə Əbu Məsud ﷺ demişdir: "Mən bir daha köləni vurmayacağam."

[7] Aişə ﷺ rəvayət edir ki, bir nəfər gəlib Peyğəmbərin ﷺ qarşısında oturdu və dedi: "Ya Rəsulullah, mənim kölələrim var. Onlar mənə yalan danışır, mənə xəyanət edir və mənə asi olurlar. Mən də onları həm söyürəm, həm də döyürəm. (Allahın hüzurunda) onlara görə mənim halım necə olacaq?" Peyğəmbər ﷺ buyurdu: "Onların sənə etdikləri xəyanət, asilik və danışdıqları yalan, habelə, sənin onlara verdiyin cəza haqq-hesab ediləcək. Əgər sənin onlara verdiyin cəza onların günahları qədər olarsa, bərabərlik olar – bu nə sənin lehinə, nə də əleyhinə olar (nə savab qazanarsan, nə də cəzalandırılarsan). Və əgər onlara verdiyin cəza onların günahlarından az olarsa, onda bu sənin üçün bir üstünlük olar. Yox əgər onlara verdiyin cəza onların günahlarından çox olarsa, bu çoxluq qədər səndən qisaslarını alarlar." Bunu eşidəndə həmin adam kənara çəkilib ağlamağa başladı. Peyğəmbər ﷺ ona dedi: "Məgər sən Allahın Kitabındakı bu ayəni oxumursan: **"Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir**

**şeydə ədalətsizlik edilməyəcəkdir.** ***Görülmüş iş*** **bir xardal dənəsi mislində olsa belə, onu gətirib** ***tərəziyə*** **qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik"** (əl-Ənbiya 47). Onda həmin adam dedi: "Vallahi, ya Rəsulullah, mən həm özüm üçün, həm də onlar üçün onları azad etməkdən daha xeyirli bir şey görmürəm. Şahid olun ki, onların hamısı azaddır" (Sunən ət-Tirmizi, 3165; Musnəd İmam Əhməd, 6/280; Səhih Tərğib vət-Tərhib, 2290); digər hədisdə Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "*Qiyamət günü* hər kəsə öz haqqı çatacaq, hətta buynuzsuz qoç buynuzlu qoçdan qisas alacaqdır" (əl-Ədəbul-Mufrad, 183).

## ٩١- بَابٌ لاَ تَقُلْ: ((قَبَّحَ اللَّهُ وَجْهَهُ))

## 91-ci fəsil. "Allah onun üzünü qəbih eləsin!"[1]– demə

١٧٢- حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ تَقُولُوا: قَبَّحَ اللَّهُ وَجْهَهُ)).

**(172)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "(Heç kəsə) "Allah onun üzünü qəbih eləsin!"– deməyin."[2]

١٧٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: لاَ تَقُولَنَّ: قَبَّحَ اللَّهُ وَجْهَكَ وَوَجْهَ مَنْ أَشْبَهَ وَجْهَكَ، فَإِنَّ اللَّهَ عَزَّ وَجَلَّ خَلَقَ آدَمَ ﷺ عَلَى صُورَتِهِ.

**(173)** ........ Əbu Hureyrə ﷺ demişdir:[3] (Heç kəsə): "Allah sənin üzünü və sənin üzünə oxşar üzü qəbih eləsin!"[4]– deməyin. Çünki Allah ﷻ Adəmi ﷺ öz surətində[5] yaratmışdır."

---

[1] Bu, nifrət, danlaq, məzəmmət ifadəsidir. Burada "qəbih" deyildikdə, çirkin, yaraşıqsız, kifir qəsd edilir və bu həm hissi, həm də mənəvi mənada işlənir. Allah insanı gözəl biçimdə yaratmışdır. Bu xüsusda Quranda belə buyurulur: **"Biz insanı ən gözəl surətdə yaratdıq!"** (ət-Tin, 4); **"Allah *onu* yaradıb kamil bir görkəmə saldı"** (əl-Qiyamə, 38). Odur ki, insana bu cür müraciət etmək olmaz.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir. Əbu Hureyrənin ﷺ dediyi bu söz Peyğəmbərin ﷺ sözüdür. İmam Əhməd öz "Musnəd" əsərində (2/251, 431) "həsən" isnadla Yəhyadan, o da, İbn Aclandan, o da, Səiddən, o da, Əbu Hureyrədən ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Biriniz vurduğu zaman qoy üzə vurmasın və: "Allah sənin üzünü və sənin üzünə oxşar üzü qəbih eləsin!"– deməsin. Çünki Allah Adəmi öz surətində yaratmışdır" (Silsilətul-Əhadisi-Səhihə, 862).

[4] Bəzən adam adamı təhqir etdikdə onun özünü söyməklə ürəyi soyumur, odur ki, onun ata-anasını da yaxud ailəsini də yaxud nəslini də və ya millətini də buna əlavə edir. Bütün bunlar şeytan əməlindəndir və belə demək qadağandır.

[5] İslam alimləri bu cümlədə işlənən "öz" bitişən əvəzliyinin kimə aid olduğu barədə ixtilaf etmişlər. Bəziləri bu əvəzliyin Allahın Özünə aid edildiyini demiş və bu

fikri Təbəranin “Mocəmul-Kəbir” (2/206) əsərində varid olmuş hədisi ilə əsaslandırmışlar. Həmin hədisdə deyilir ki: “Allah Adəmi ər-Rəhmanın surətində yaratmışdır.” Və bunu belə izah etmişlər ki, burada surət deyildikdə tam mənada onun surətinin Allahın surətinə bənzəməsi qəsd edilmir. Sadəcə eşitmək və görmək baxımından bənzətmə nəzərdə tutulur. Allahın bu sifətləri kamil, Adəmə aid olanı isə naqisdir. Bu xüsusda, Uca Allah buyurur: **“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir”** (əş-Şura, 11). Onu da qeyd etmişlər ki, hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Cənnətə girəcək ilk zümrədə olan kimsələrin siması on dörd gecəlik ay kimi olacaq” (Səhih əl-Buxari, 3245). Burada da həmçinin, cənnətliklərin simasının gözəl və parlaq olması nəzərdə tutulur. Digər alimlər isə bu hədisdə keçən bitişən əvəzliyin Adəmə aid olduğunu demiş və bunu Buxari (6227) və Muslimin (8/149) “Səhih”lərində Əbu Hureyrədən ﵁ rəvayət edilmiş hədislə əsaslandırmışlar. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: “Allah Adəmi öz surətində, boyu da altmış ərəş uzunluğunda yaratmışdır.” Yəni Adəmin özünə layiq surətdə. Həmçinin, bu alimlər: “Allah Adəmi ər-Rəhmanın surətində yaratmışdır” hədisinin “səhih” olmadığını, isnadında dörd “illə” (yəni zəiflik) olduğunu qeyd etmişlər. Birincisi, hədisin isnadında Sovrinin Aməşə müxalif olmasıdır. Belə ki, o: “İbn Ömər rəvayət etdi” demədən bu hədisi “mursəl” isnadla rəvayət etmişdir. İkincisi, Aməş “mudəllis”dir və o, öz rəvayətində bu hədisi Həbib ibn Əbu Sabitdən eşitdiyini zikr etməmişdir. Üçüncüsü, Həbib ibn Əbu Sabit də həmçinin, “mudəllis”dir və onun da bu hədisi Ətadan eşitdiyi məlum deyil. Dördüncüsü isə budur ki, Cərir ibn Abdulhəmid “etibarlı” ravi olsa da, Zəhəbi “Mizan” kitabında Beyhəqinin: “Cəririn hafizəsi ömrünün axırında dəyişmişdir” dediyini zikr etmişdir. Hərçənd, bu isnadla rəvayət edilmiş hədisdə Cərir “ər-Rəhmanın surətində” deyir, lakin İbn Əbu Asimin rəvayətində (518) “ər-Rəhman” kəlməsini qeyd etmədən, sadəcə “öz surətində” deyə rəvayət etmişdir. Bu da, onun hafizəsinin dəyişdiyindən xəbər verir (Silsilətul-Əhadisid-Daifə, 1175 və 1176). Şeyxul-İslam İbn Teymiyyənin, Zəhəbinin və İbn Hibbanın bu hədisə “səhih” demələri isə doğru deyil. Onlar öz kitablarında yalnız Buxari və Muslimin “Səhih”lərindəki ləfzin “səhih” olduğunu demişlər (Movsuatul-Albani fil-Əqidə).

## ٩٢- بَابٌ لِيَجْتَنِبِ الْوَجْهَ فِي الضَّرْبِ

## 92-ci fəsil. Vurduqda üzə vurmaqdan çəkinmək

١٧٤- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلَالٍ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ عَجْلَانَ قَالَ: أَخْبَرَنِي أَبِي، وَسَعِيدٌ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا ضَرَبَ أَحَدُكُمْ خَادِمَهُ فَلْيَجْتَنِبِ الْوَجْهَ)).

**(174)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qoy sizlərdən biri öz xidmətçisini vurduğu zaman[1] üzünə vurmasın!"[2]

١٧٥- حَدَّثَنَا خَالِدٌ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: مَرَّ النَّبِيُّ ﷺ بِدَابَّةٍ قَدْ وُسِمَ يُدَخِّنُ مِنْخَرَاهُ، قَالَ النَّبِيُّ ﷺ: ((لَعَنَ اللَّهُ مَنْ فَعَلَ هَذَا، لَا يَسِمَنَّ أَحَدٌ الْوَجْهَ وَلَا يَضْرِبَنَّهُ)).

**(175)** ........ Cabir ﷛ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ, üzünə damğa vurulmuş və damğasının yeri tüstülənən[3] bir heyvanın yanından keçərkən dedi: "Bunu edənə Allah lənət eləsin! Heç kəs üzü damğalamasın və üzə vurmasın."[4]

---

[1] Bu, dəlildir ki, adam yeri gəldikdə və məsləhət bildikdə öz xidmətçisini vura bilər. Lakin bunun şərtləri vardır və bu şərtlərdən biri də Peyğəmbərin ﷺ bu hədisdə dediyi: "üzünə vurmasın" sözüdür. Çünki üzə vurmaq adamı şikəst edə bilər. Peyğəmbərin ﷺ bu hədisdə xüsusilə üzü qeyd etməsi ona görədir ki, qəzəbli adam çox vaxt tənbeh etmək istədiyi adamın üzünə vurur. Şəriət isə bunu qadağan edir. Nəinki insanın, hətta, heyvanın belə üzünə vurmaq qadağandır.

[2] Bu hədisi Əhməd (2/244), habelə, oxşar ləfzlə Buxari (2559) və Muslim (6822) rəvayət etmişdir.

[3] Söhbət yenicə damğalanmış və damğasının yeri soyumamış heyvandan gedir.

[4] Bu hədisi Əhməd (3/323) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

# ٩٣- بَابُ مَنْ لَطَمَ عَبْدَهُ فَلْيُعْتِقْهُ مِنْ غَيْرِ إِيجَابٍ

## 93-cü fəsil. Kim köləsinin üzünə vurubsa, qoy könüllü olaraq onu azad etsin[1]

١٧٦- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا حُصَيْنٌ قَالَ: سَمِعْتُ هِلاَلَ بْنَ يَسَافٍ يَقُولُ: كُنَّا نَبِيعُ الْبَزَّ فِي دَارِ سُوَيْدِ بْنِ مُقَرِّنٍ، فَخَرَجَتْ جَارِيَةٌ فَقَالَتْ لِرَجُلٍ شَيْئًا، فَلَطَمَهَا ذَلِكَ الرَّجُلُ، فَقَالَ لَهُ سُوَيْدُ بْنُ مُقَرِّنٍ: أَلَطَمْتَ وَجْهَهَا؟ لَقَدْ رَأَيْتُنِي سَابِعَ سَبْعَةٍ وَمَا لَنَا إِلاَّ خَادِمٌ، فَلَطَمَهَا بَعْضُنَا، فَأَمَرَهُ النَّبِيُّ ﷺ أَنْ يُعْتِقَهَا.

**(176)** ........ Hilal ibn Yəsaf demişdir: "Biz Suveyd ibn Muqərrinin ﷺ evində bez satırdıq. Bu vaxt kəniz bayıra çıxıb bir kişiyə nə isə dedi, o da, onun üzünə vurdu. Suveyd ibn Muqərrin həmin adama dedi: "Sən onun üzünə vurdun?![2] Biz yeddi nəfər idik və bizim bircə xadiməmiz var idi.[3] (Bir gün) bizdən birimiz onun üzünə vurdu və Peyğəmbər ﷺ ona bu qadını azad etməyi əmr etdi.[4]"[5]

١٧٧- حَدَّثَنَا عَمْرُو بْنُ عَوْنٍ، وَمُسَدَّدٌ، قَالاَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ فِرَاسٍ، عَنْ أَبِي صَالِحٍ، عَنْ زَاذَانَ، عَنِ ابْنِ عُمَرَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنْ لَطَمَ عَبْدَهُ أَوْ ضَرَبَهُ حَدًّا لَمْ يَأْتِهِ، فَكَفَّارَتُهُ عِتْقُهُ)).

---

[1] İmam Buxari demək istəyir ki, köləni vurduqdan sonra bu günahı yumaq üçün onu azad etmək müstəhəb sayılan əməllərdəndir.

[2] Burada Suveyd ibn Muqərrin ﷺ həmin adamı qınayaraq, ona etirazını bildirir.

[3] Bu o demək deyil ki, Suveyd ibn Muqərrin ﷺ İslamı ilk qəbul etmiş yeddi nəfərdən biri idi. Səhabə sadəcə demək istəyir ki, onun tayfasının yeddi üzvü, bunların da cəmi bir xidmətçisi var imiş.

[4] Peyğəmbərin ﷺ "əmr etdi" sözü üzünə vurulmuş xidmətçini azad etməyin vacib olduğuna dəlalət etmir. Bəzən "əmr etdi", "əmr olundu" və başqa bu kimi ifadələr digər hədislər sayəsində müstəhəbliyə yozulur (178-ci hədisə bax).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(177)** ........ İbn Ömər ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Köləsinin üzünə vuran, yaxud etmədiyi bir günaha görə onu döyən kimsənin kəffarəsi[1] onu azad etməkdir!"[2]

**١٧٨-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ سُفْيَانَ قَالَ: حَدَّثَنِي سَلَمَةُ بْنُ كُهَيْلٍ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ بْنُ سُوَيْدِ بْنِ مُقَرِّنٍ قَالَ: لَطَمْتُ مَوْلًى لَنَا فَفَرَّ، فَدَعَانِي أَبِي فَقَالَ لَهُ: اقْتَصَّ، كُنَّا وَلَدَ مُقَرِّنٍ سَبْعَةً، لَنَا خَادِمٌ، فَلَطَمَهَا أَحَدُنَا، فَذُكِرَ ذَلِكَ لِلنَّبِيِّ ﷺ فَقَالَ: ((مُرْهُمْ فَلْيُعْتِقُوهَا))، فَقِيلَ لِلنَّبِيِّ ﷺ: لَيْسَ لَهُمْ خَادِمٌ غَيْرَهَا، قَالَ: ((فَلْيَسْتَخْدِمُوهَا فَإِذَا اسْتَغْنَوْا خَلُّوا سَبِيلَهَا)).

**(178)** ........ Muaviyə ibn Suveyd ibn Muqərrin demişdir: "(Bir dəfə) mən köləmizin üzünə vurdum və o qaçdı. Atam məni (də, onu da) yanına çağırdı. Sonra ona dedi: "(Bundan) qisasını al![3] (Bir vaxt) biz Muqərrin oğulları yeddi (qardaş) idik və bizim bir xidmətçimiz var idi. Bizdən birimiz onun üzünə vurdu. Bu haqda Peyğəmbərə ﷺ xəbər verildikdə, o, belə buyurdu: "De, onu azad etsinlər!" Peyğəmbərə ﷺ: "Onların bu qadından başqa xidmətçisi yoxdur"– dedilər. Onda o buyurdu: "Elə isə, qoy, onu işlətsinlər.[4] Nə vaxt onlara lazım olmasa, onu azad etsinlər."[5]

**١٧٩-** حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ قَالَ لِي مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ: مَا اسْمُكَ؟ فَقُلْتُ: شُعْبَةُ قَالَ: حَدَّثَنِي أَبُو شُعْبَةَ، عَنْ سُوَيْدِ بْنِ مُقَرِّنٍ الْمُزَنِيِّ، وَرَأَى رَجُلاً لَطَمَ غُلاَمَهُ، فَقَالَ:

---

[1] Kəffarə: günahların bağışlanılması üçün şəriətin buyurduğu qaydada verilən cəza yaxud deyilən söz və ya verilən sədəqə.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Yəni "o, səni vurduğu kimi, sən də onu vur."

[4] Bu, dəlildir ki, üzünə vurulmuş köləni azad etmək vacib deyil. İmam Nəvəvi "Muslimin "Səhih"inin şərhin"də alimlərin bu xüsusda, yəni üzünə vurulmuş kölənin azad edilməsinin müstəhəb olduğu barədə – ittifaq etdiklərini xəbər vermişdir.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

أَمَا عَلِمْتَ أَنَّ الصُّورَةَ مُحَرَّمَةٌ؟ رَأَيْتُنِي وَإِنِّي سَابِعُ سَبْعَةِ إِخْوَةٍ ، عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ، مَا لَنَا إِلاَّ خَادِمٌ، فَلَطَمَهُ أَحَدُنَا، فَأَمَرَنَا النَّبِيُّ ﷺ أَنْ نُعْتِقَهُ.

**(179)** ........ Əbu Şobə rəvayət edir ki, *bir dəfə* Suveyd ibn Muqərrin əl-Muzəni bir nəfərin öz köləsinin üzünə vurduğunu görüb dedi: "Məgər, bilmirsən ki, üzə vurmaq haramdır? Peyğəmbərin ﷺ dövründə mən yeddi qardaşdan biri idim və bizim bir xidmətçimiz var idi. *Bir gün* bizdən birimiz onun üzünə vurdu və Peyğəmbər ﷺ bizə onu azad etməyi buyurdu."[1]

**١٨٠–** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ قَالَ: حَدَّثَنَا فِرَاسٌ، عَنْ أَبِي صَالِحٍ، عَنْ زَاذَانَ أَبِي عُمَرَ قَالَ: كُنَّا عِنْدَ ابْنِ عُمَرَ، فَدَعَا بِغُلاَمٍ لَهُ كَانَ ضَرَبَهُ فَكَشَفَ عَنْ ظَهْرِهِ فَقَالَ: أَيُوجِعُكَ؟ قَالَ: لاَ، فَأَعْتَقَهُ، ثُمَّ رَفَعَ عُودًا مِنَ الأَرْضِ فَقَالَ: مَالِي فِيهِ مِنَ الأَجْرِ مَا يَزِنُ هَذَا الْعُودَ ، فَقُلْتُ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ، لِمَ تَقُولُ هَذَا؟ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ أَوْ قَالَ: ((مَنْ ضَرَبَ مَمْلُوكَهُ حَدًّا لَمْ يَأْتِهِ، أَوْ لَطَمَ وَجْهَهُ، فَكَفَّارَتُهُ أَنْ يُعْتِقَهُ)).

**(180)** ........ Əbu Ömər Zazan demişdir: "Biz İbn Ömərin yanında ikən o vurduğu köləsini yanına çağırdı və onun kürəyini açıb: "Səni ağrıdırmı?"– deyə soruşdu.[2] Kölə: "Xeyr!"– deyə cavab verdi. İbn Ömər onu azad etdi. Sonra yerdən bir ağac parçası götürüb dedi: "Görəsən onu azad etməyimdə mənim üçün bu ağac parçası qədər savab varmı?" Mən dedim: "Ey Əbu Abdur-Rəhman, niyə belə deyirsən?" O, dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Köləsini etmədiyi bir günaha görə döyən, yaxud onun üzünə vuran kimsənin kəffarəsi onu azad etməsidir!"[3]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Səhabənin bu hərəkəti onun nə dərəcədə təvazökar olduğundan xəbər verir.

[3] 177-ci hədisə bax.

# ٩٤- بَابُ قِصَاصِ الْعَبْدِ

## 94-cü fəsil. Kölənin qisası

١٨١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ، وَقَبِيصَةُ، قَالاَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ، عَنْ مَيْمُونِ بْنِ أَبِي شَبِيبٍ، عَنْ عَمَّارِ بْنِ يَاسِرٍ قَالَ: لاَ يَضْرِبُ أَحَدٌ عَبْدًا لَهُ وَهُوَ ظَالِمٌ لَهُ إِلاَّ أُقِيدَ مِنْهُ يَوْمَ الْقِيَامَةِ.

**(181)** ........ Ammar ibn Yasir ﷺ demişdir: "Köləsini haqsız yerə vuran elə bir kimsə yoxdur ki, Qiyamət günü ondan qisas alınmasın![1]"[2]

١٨٢- حَدَّثَنَا أَبُو عُمَرَ حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنِي أَبُو جَعْفَرٍ قَالَ: سَمِعْتُ أَبَا لَيْلَى قَالَ: خَرَجَ سَلْمَانُ فَإِذَا عَلَفُ دَابَّتِهِ يَتَسَاقَطُ مِنَ الآرِيِّ، فَقَالَ لِخَادِمِهِ: لَوْلاَ أَنِّي أَخَافُ الْقِصَاصَ لأَوْجَعْتُكَ.

---

[1] Qisas xüsusunda Peyğəmbər ﷺ demişdir: "(Qiyamət günü) möminlər Oddan xilas olduqdan sonra Cənnətlə Cəhənnəm arasındakı körpünün o biri başında dayandırılacaq və dünyada (bir-birinə qarşı) etdikləri haqsızlıqlara görə bir-birinin haqqını ödəyəcəklər. Nəhayət, onlar təmizləndikdən və (günahlardan) azad olduqdan sonra onlara Cənnətə daxil olmağa izin veriləcək" (Səhih əl-Buxari, 2440); başqa bir hədisdə rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrindən: "Bilirsiniz müflis kimdir?"– deyə soruşdu. Onlar: "Müflis, ya Rəsulullah, nə bir dirhəmi, nə də bir malı olan kimsələrimizdir"– deyə cavab verdilər. Onda Rəsulullah ﷺ dedi: "Ümmətimin müflisləri o kəslərdir ki, onlar Qiyamət günü namazla, orucla və zəkatla, habelə, birisini söymüş, birisinə böhtan atmış, birisinin malını yemiş, birisinin qanını tökmüş, birisini də vurmuş olduğu halda *Allahın hüzuruna* gələcək və *zülm etdiyi* bu adamlar ondan qisas alaraq onun savablarından götürəcəklər. Əgər, ondan tam olaraq qisas alınmadan öncə savabları qurtararsa, həmin adamların günahlarından götürülüb, onun günahları üzərinə əlavə edilər, sonra da bu adam Cəhənnəm oduna atılar" (Sunən ət-Tirmizi, 2418; Səhih Tərğib vət-Tərhib, 2843).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(182)** ........ Əbu Leyla demişdir: "(Bir dəfə) Salman *əl-Farisi* bayıra çıxdı və öz heyvanı üçün yığılmış otun ot tayasından yerə dağıldığını görüb köləsinə dedi: "Əgər qisasdan qorxmasaydım, səni vurardım![1]"[2]

**١٨٣-** حَدَّثَنَا أَبُو الرَّبِيعِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا الْعَلَاءُ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَتُؤَدُّنَّ الْحُقُوقَ إِلَى أَهْلِهَا، حَتَّى يُقَادَ لِلشَّاةِ الْجَمَّاءِ مِنَ الشَّاةِ الْقَرْنَاءِ)).

**(183)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Qiyamət günü) hər kəsin haqqı özünə qaytarılacaq, hətta buynuzsuz qoç buynuzlu qoçdan qisas alacaqdır.[3]"[4]

**١٨٤-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ الْجُعْفِيُّ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ قَالَ: حَدَّثَنِي دَاوُدُ بْنُ أَبِي عَبْدِ اللَّهِ مَوْلَى بَنِي هَاشِمٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَتْنِي جَدَّتِي، عَنْ أُمِّ سَلَمَةَ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ فِي بَيْتِهَا، فَدَعَا وَصِيفَةً لَهُ أَوْ لَهَا فَأَبْطَأَتْ، فَاسْتَبَانَ الْغَضَبُ فِي وَجْهِهِ، فَقَامَتْ أُمُّ سَلَمَةَ إِلَى الْحِجَابِ، فَوَجَدَتِ الْوَصِيفَةَ تَلْعَبُ، وَمَعَهُ سِوَاكٌ، فَقَالَ: ((لَوْلَا خَشْيَةُ الْقَوَدِ يَوْمَ الْقِيَامَةِ، لَأَوْجَعْتُكِ بِهَذَا السِّوَاكِ)). زَادَ مُحَمَّدُ بْنُ الْهَيْثَمِ: تَلْعَبُ بِبَهْمَةٍ. قَالَ: فَلَمَّا أَتَيْتُ بِهَا النَّبِيَّ ﷺ قُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنَّهَا لَتَحْلِفُ مَا سَمِعَتْكَ، قَالَتْ: وَفِي يَدِهِ سِوَاكٌ.

**(184)** ........ Ummu Sələmə رضي الله عنها rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ onun evində ikən öz kənizini və ya onun kənizini yanına çağırdı. Kəniz yubandıqda, Peyğəmbərin ﷺ üzünü qəzəb hissi bürüdü. Ummu Sələmə

---

[1] Salman əl-Farisi köləsinin asilik etdiyini ona bildirsə də, onu vurmaqdan ehtiyat edir. Ehtiyat edir ki, birdən onu həddən ziyadə bərk vurar və beləliklə də, onun haqqına girmiş olar (171-ci hədisin qeydlərinə bax).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Heyvanın heyvandan qisas alması onları cəzalandırmaq üçün yox, Allahın adilliyini bir daha sübuta yetirmək üçün olacaq. Bu qisasdan sonra Allah onları torpağa döndərəcək. Başqa bir hədisdə rəvayət edilir ki, Əbu Zərr ﷺ demişdir: "(Bir dəfə) Rəsulullah ﷺ buynuzlaşan iki qoçu görüb mənə dedi: "Ey Əbu Zərr, bilirsən bunlar niyə buynuzlaşır?" Mən: "Xeyr, (bilmirəm)"– dedim. Rəsulullah ﷺ buyurdu: "Lakin Allah bilir və O, (Qiyamət günü) onların arasında hökm verəcəkdir" (Musnəd İmam Əhməd,5/162; Silsilətul-Əhadisis-Səhihə, 1588-ci hədisin izahı.)

[4] Bu hədisi Muslim (8/18-19), Tirmizi (2/68) və Əhməd (2/235; 323) rəvayət etmişdir.

qalxıb otağa keçdikdə, kənizin oynadığını gördü. Peyğəmbərin ﷺ əlində misvak[1] var idi. O, dedi: "Qiyamət günü olan qisasdan qorxmasaydım, bu misvakla səni vurardım."

Muhəmməd ibn Heysəm əlavə edib demişdir: "Kəniz heyvanla oynayırdı. Ummu Sələmə onu Peyğəmbərin ﷺ yanına gətirib dedi: "Ya Rəsulullah, o and içir ki, sənin çağırışını eşitməyib." Peyğəmbərin ﷺ əlində misvak var idi."[2]

**١٨٥**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ بِلاَلٍ قَالَ: حَدَّثَنَا عِمْرَانُ، عَنْ قَتَادَةَ، عَنْ زُرَارَةَ بْنِ أَوْفَى، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ ضَرَبَ ضَرْبًا اقْتُصَّ مِنْهُ يَوْمَ الْقِيَامَةِ)).

**(185)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim (bir adama) bir zərbə vursa,[3] Qiyamət günü ondan qisas alınar."[4]

**١٨٦**– حَدَّثَنَا خَلِيفَةُ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ رَجَاءٍ قَالَ: حَدَّثَنَا أَبُو الْعَوَّامِ، عَنْ قَتَادَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ شَقِيقٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ ضَرَبَ ضَرْبًا ظُلْمًا اقْتُصَّ مِنْهُ يَوْمَ الْقِيَامَةِ)).

**(186)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu: "Kim zülm[5] edərək bir zərbə vursa, Qiyamət günü ondan qisas alınar."[6]

---

[1] Misvak: ərak ağacından dişləri təmizləmək üçün düzəldilmiş təbii fırça.

[2] Bu hədisi İbn Səd (Təbəqat, 1/382), İbn Əbu Dunya (Əhval, 2/99), Əbu Yə'la (Musnəd, 4/1640; 1648; 1652), Təbərani (Mocəm əl-Kəbir, 23/375) və Əbu Nueym (Hilyə 8/378) rəvayət etmişdir. Hədisin isnadında keçən Davud ibn Əbu Abdullah və Abdur-Rəhman ibn Muhəmmədin nənəsi "məchul" ravilərdir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[3] Növbəti rəvayətdə "zülm" sözü əlavə edilmişdir. Yəni adam bir kimsəni haqsız yerə vurarsa, Qiyamət günü ondan qisas alınar. Həmçinin, qeyd edək ki, burada "vurmaq" kəlməsi mütləq şəkildə işlənilir. Yəni vurulan adam istər azad insan olsun, istərsə kölə, Qiyamət günü öz haqqını alacaq.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[5] Burada "zülm" edərək kəlməsinin əks anlamından belə nəticə çıxır ki, birisini haqlı yerə vuran adamdan qisas alınmayacaq.

[6] Bu hədis də əvvəlki kimi "səhih"dir.

# ٩٥- بَابٌ اكْسُوهُمْ مِمَّا تَلْبَسُونَ

## 95-ci fəsil. Özünüz nə geyirsinizsə, kölə və kənizlərinizə də ondan geyindirin

١٨٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبَّادٍ قَالَ: حَدَّثَنَا حَاتِمُ بْنُ إِسْمَاعِيلَ، عَنْ يَعْقُوبَ بْنِ مُجَاهِدٍ أَبِي حَزْرَةَ، عَنْ عُبَادَةَ بْنِ الْوَلِيدِ بْنِ عُبَادَةَ بْنِ الصَّامِتِ قَالَ: خَرَجْتُ أَنَا وَأَبِي نَطْلُبُ الْعِلْمَ فِي هَذَا الْحَيِّ فِي الأَنْصَارِ، قَبْلَ أَنْ يَهْلِكُوا، فَكَانَ أَوَّلَ مَنْ لَقِينَا أَبُو الْيَسَرِ صَاحِبُ النَّبِيِّ ﷺ وَمَعَهُ غُلاَمٌ لَهُ، وَعَلَى أَبِي الْيَسَرِ بُرْدَةٌ وَمَعَافِرِيٌّ، وَعَلَى غُلاَمِهِ بُرْدَةٌ وَمَعَافِرِيٌّ، فَقُلْتُ لَهُ: يَا عَمِّي، لَوْ أَخَذْتَ بُرْدَةَ غُلاَمِكَ وَأَعْطَيْتَهُ مَعَافِرِيَّكَ، أَوْ أَخَذْتَ مَعَافِرِيَّهُ وَأَعْطَيْتَهُ بُرْدَتَكَ، كَانَتْ عَلَيْكَ حُلَّةٌ أَوْ عَلَيْهِ حُلَّةٌ، فَمَسَحَ رَأْسِي وَقَالَ: اللَّهُمَّ بَارِكْ فِيهِ، يَا ابْنَ أَخِي، بَصَرُ عَيْنَيَّ هَاتَيْنِ، وَسَمْعُ أُذُنَيَّ هَاتَيْنِ، وَوَعَاهُ قَلْبِي وَأَشَارَ إِلَى نِيَاطِ قَلْبِهِ النَّبِيَّ ﷺ يَقُولُ: ((أَطْعِمُوهُمْ مِمَّا تَأْكُلُونَ، وَاكْسُوهُمْ مِمَّا تَلْبَسُونَ)) وَكَانَ أَنْ أُعْطِيَهُ مِنْ مَتَاعِ الدُّنْيَا أَهْوَنُ عَلَيَّ مِنْ أَنْ يَأْخُذَ مِنْ حَسَنَاتِي يَوْمَ الْقِيَامَةِ.

**(187)** ........ Ubadə ibn Vəlid[1] demişdir: “Mən atamla birgə elm almaq üçün ənsarın qaldığı yerə gəldik.[2] İlk rastlaşdığımız adam Peyğəmbərin ﷺ səhabəsi Əbul-Yəsar[3] oldu. Köləsi də onun yanında idi. Əbul-Yəsarın da,

---

[1] Ubadə ibn Vəlid məşhur səhabə Ubadə ibn Samitin ؓ nəvəsidir.

[2] Övladın valideynlə birgə elm öyrənmək üçün yola çıxması necə də gözəldir!

[3] Əbul-Yəsar Kəb ibn Amr əl-Ənsari əs-Suləmi əl-Mədəni ؓ Peyğəmbərin ﷺ səhabəsidir. Bədr döyüşündə müşriklərin bayrağını əllərindən alan, habelə, Abbası ؓ əsir götürən səhabədir. Hicrətin 55-ci ilində Mədinədə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 109-cu tərcümeyi-hal). Əbul-Yəsar ؓ rəvayət edir ki, bir qadın xurma almaq üçün yanıma gəldi və mən: “Evdə bunlardan da yaxşı xurmalarım var”– deyib onu evə dəvət etdim. O, mənimlə birgə içəri daxil oldu. Sonra onun boynuna sarılıb onu öpdüm. Sonra Əbu Bəkrin yanına gəlib bu barədə ona xəbər verdim. Əbu Bəkr dedi: “Eybini gizlət, tövbə et və bu barədə heç kəsə xəbər vermə!” Mən dözməyib Ömərin yanına getdim və bu haqda ondan soruşdum. O da mənə Əbu Bəkrin dediklərini dedi. Mən yenə də dözməyib, Peyğəmbərin ﷺ yanına getdim. Bu barədə ona xəbər verdikdə, o, dedi: “Allah yolunda cihadda olanın ailəsi ilə bu cür davranırsan?!” Əbul-Yəsar özünün Cəhənnəm əhlindən olduğunu zənn etdi və yenidən müsəlman olmağını təmənna etdi. Peyğəmbər ﷺ

onun köləsinin də əynində bir əba və bir məafir[1] libası var idi. Mən ona dedim: "Əmi, bəlkə kölənin əbasını götürəsən və məafir libasını ona verəsən yaxud kölənin məafir libasını götürəsən və əbanı ona verəsən, beləliklə də, sənin əynində yaxud onun əynində bir cüt geyim olsun." O, mənim başımı sığallayıb dedi: "Allahım, ona bərəkət ver! Qardaş oğlu, Peyğəmbərin ﷺ: "Yediyinizdən onlara da yedirdin, geydiyinizdən onlara da geyindirin!"[2]– dediyini bu gözlərim gördü, bu qulaqlarım eşitdi və – əli ilə qəlbinə işarə edərək, – bu qəlbim dərk etdi. Odur ki, mənim üçün dünya malından ona verməyim, Qiyamət günü onun mənim savabımdan nəyi isə götürməyindən daha asandır.[3]

١٨٨– حَدَّثَنَا سَعِيدُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ مُبَشِّرٍ قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ يُوصِي بِالْمَمْلُوكِينَ خَيْرًا وَيَقُولُ: ((أَطْعِمُوهُمْ مِمَّا تَأْكُلُونَ، وَأَلْبِسُوهُمْ مِنْ لَبُوسِكُمْ، وَلاَ تُعَذِّبُوا خَلْقَ اللَّهِ عَزَّ وَجَلَّ)).

**(188)** ........ Cabir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ kölələrlə yaxşı rəftar etməyi nəsihət edib buyurardı: "Yediyinizdən onlara da yedirdin, geyindiyinizdən onlara da geyindirin və Allahın ﷻ yaratdıqlarına əzab verməyin!"[4]

---

bir müddət gözlədikdən sonra Uca Allah bu ayəni nazil etdi: **"Gündüzün iki başında** ***əvvəlində və axırında*** **və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır"** (Hud, 114). Əbul-Yəsar رضي الله عنه deyir ki, mən Peyğəmbərin ﷺ yanına gəldikdə, o, bu ayələri mənə oxudu və səhabələr: "Ya Rəsulullah, bu ayə yalnız Əbul-Yəsara aiddir, yoxsa bütün insanlara şamil edilir?"– deyə soruşdular. O, dedi: "Əksinə, bu ayə bütün insanlara şamil edilir" (Sunən ət-Tirmizi, 3403; Səhih ət-Tirmizi, 3115).

[1] Məafir: Yəməndə yaşayan qəbilədir.

[2] Ağanın öz köləsini və kənizini yeməklə və geyimlə təmin etməsi vacib, özü yediyi yeməkdən və geyindiyi geyimdən onlara da alması isə müstəhəbdir.

[3] Bu hədisi Muslim (7704) rəvayət etmişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٩٦- بَابُ سِبَابِ الْعَبِيدِ

## 96-cı fəsil. Köləni söymək

١٨٩- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا وَاصِلٌ الأَحْدَبُ قَالَ: سَمِعْتُ الْمَعْرُورَ بْنَ سُوَيْدٍ يَقُولُ: رَأَيْتُ أَبَا ذَرٍّ وَعَلَيْهِ حُلَّةٌ وَعَلَى غُلاَمِهِ حُلَّةٌ، فَسَأَلْنَاهُ عَنْ ذَلِكَ، فَقَالَ: إِنِّي سَابَبْتُ رَجُلاً فَشَكَانِي إِلَى النَّبِيِّ ﷺ، فَقَالَ لِي النَّبِيُّ ﷺ: ((أَعَيَّرْتَهُ بِأُمِّهِ؟)) قُلْتُ: نَعَمْ، ثُمَّ قَالَ: ((إِنَّ إِخْوَانَكُمْ خَوَلُكُمْ، جَعَلَهُمُ اللَّهُ تَحْتَ أَيْدِيكُمْ، فَمَنْ كَانَ أَخُوهُ تَحْتَ يَدِهِ فَلْيُطْعِمْهُ مِمَّا يَأْكُلُ، وَلْيُلْبِسْهُ مِمَّا يَلْبَسُ، وَلاَ تُكَلِّفُوهُمْ مَا يَغْلِبُهُمْ، فَإِنْ كَلَّفْتُمُوهُمْ مَا يَغْلِبُهُمْ فَأَعِينُوهُمْ)).

**(189)** ........ Mərur ibn Suveyd demişdir: “(Bir gün) mən həm Əbu Zərrin, həm də onun kölәsinin əynində eyni libas gördüm. Biz ondan bunun səbəbini soruşduqda, o, dedi: “(Bir dəfə) mən bir adamı söydüm.[1] O da mənim barəmdə Peyğəmbərə ﷺ şikayət etdi. Peyğəmbər ﷺ mənə dedi: “Sən onu anasına görə utandırdın?!” Mən: “Bəli!”– deyə cavab verdim. O, buyurdu: “Kölələriniz sizin qardaşlarınızdır![2] Allah onları sizin tabeçiliyinizə vermişdir. Kimin qardaşı öz tabeçiliyi altında olsa, yediyindən ona da yedirtsin, geyindiyindən ona da geyindirsin! Onları gücləri çatmadığı bir işlə yükləməyin. Hərgah onları gücləri çatmadığı bir işlə yükləsəniz, onda onlara kömək edin.”[3]

---

[1] Buxarinin rəvayətində: “Mən bir adama nalayiq söz deyib onu anasına görə utandırdım” deyilir (Səhih əl-Buxari, 30). Digər bir hədisdə isə: Ona: “Ey zənci oğlu!”– deyə müraciət etdiyi xəbər verilir (Şoəbul-İman, 4772).

[2] Digər rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ ona: “Həqiqətən də, səndə cahiliyyət *əxlaqı* qalmışdır”– demişdir (Səhih əl-Buxari, 30).

[3] Bu hədisi Buxari (30) rəvayət etmişdir.

## ٩٧ – بَابٌ هَلْ يُعِينُ عَبْدَهُ؟

## 97-ci fəsil. Köləyə yardım etmək lazımdırmı?[1]

١٩٠ – حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا أَبُو بِشْرٍ قَالَ: سَمِعْتُ سَلاَّمَ بْنَ عَمْرٍو يُحَدِّثُ، عَنْ رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((أَرِقَّاكُمْ إِخْوَانُكُمْ، فَأَحْسِنُوا إِلَيْهِمْ، اسْتَعِينُوهُمْ عَلَى مَا غَلَبَكُمْ، وَأَعِينُوهُمْ عَلَى مَا غُلِبُوا)).

**(190)** ........ Səhabələrdən biri[2] rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kölələriniz sizin qardaşlarınızdır![3] Onlara yaxşılıq edin,[4] gücünüz yetməyən işlərdə onları köməyə çağırın, habelə, onların gücləri yetmədiyi işlərdə onlara yardım edin."[5]

---

[1] Yəni hər bir müsəlman öz tabeçiliyi altında olan köləsini gücü çatmadığı bir işlə yüklədiyi təqdirdə ona kömək etməlidir.

[2] İsnadda səhabənin adının çəkilməməsi isnada heç bir xələl gətirmir. Ravinin səhabə olması kifayətdir. Belə ki, səhabələrin hamısı adildirlər, yəni rəvayət etdikləri hədislər tərəddüdsüz qəbul edilir.

[3] Burada söhbət mömin kölələrdən gedir. Hədislərin birində Peyğəmbər ﷺ möminlərə qardaş olmağı buyurub demişdir: "Bir-birinizin eyibini axtarmayın, casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!" (Səhih əl-Buxari, 6066).

[4] Digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz və onu ələ verməz. Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər. Kim bir müsəlmanı bir sıxıntıdan qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah da Qiyamət günü onun eyiblərini örtər" (Səhih əl-Buxari, 2442).

[5] Bu hədisin isnadında keçən Səllam ibn Amr "məqbul" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin bu hədisin mətni Buxarinin (30) və Muslimin (4403) "Səhih"lərində rəvayət edilmişdir. Həmin hədisdə yalnız: "gücünüz yetməyən işlərdə onları köməyə çağırın" kəlməsi zikr edilməmişdir. Bu kəlmənin isə mənasını isbat etməyə ehtiyac yoxdur. Belə ki, kölənin işi ağasına kömək etməkdir.

١٩١- حَدَّثَنَا يَحْيَى بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنَا عَمْرٌو، عَنْ أَبِي يُونُسَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّهُ قَالَ: أَعِينُوا الْعَامِلَ مِنْ عَمَلِهِ، فَإِنَّ عَامِلَ اللَّهِ لاَ يَخِيبُ، يَعْنِي: الْخَادِمَ.

**(191)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Xidmətçiyə gördüyü işdə köməklik göstərin. Belə ki, Allahın xidmətçisi[1] ziyana uğramaz."[2]

---

[1] Öz işinə məsuliyyətlə yanaşan və Allahdan qorxub özünə tapşırılmış işi vicdanla yerinə yetirən möminə "Allahın xidmətçisi" demək olar. Bundan da belə nəticə çıxır ki, bu xüsusiyyətləri özündə daşıyan mömin Qiyamət günü uğur qazanar. İşinə etinasız yanaşan, Allahdan qorxmayan, özünə tapşırılmış işi vicdanla yerinə yetirməyib: "Əşşi, müsəlmandır, halallıq verər" deyərək öz-özünə təsəlli verən, işi tapşırmış adama kəf gələn fasiq isə əslində "şeytanın xidmətçisi" hesab edilir. Beləsi öz nəfsinin istəklərinə uyub bu dünyada nə isə qazandığını güman etmiş olsa da, əslində, o, ziyana uğrayar, həm bu dünyada, həm də Axirətdə həlak olar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bizi aldadan adam bizdən deyil. Hiylə qurmaq və kəf gəlmək (adamı) atəşə giriftar edər" (Mocəmul-Kəbir, 8/476; Səhih Tərğib vət-Tərhib, 1768).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٩٨- بَابٌ لاَ يُكَلَّفُ الْعَبْدُ مِنَ الْعَمَلِ مَا لاَ يُطِيقُ

## 98-ci fəsil. Köləni gücü çatmadığı bir işlə yükləməmək

١٩٢- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي أَيُّوبَ قَالَ: حَدَّثَنِي ابْنُ عَجْلاَنَ، عَنْ بُكَيْرِ بْنِ عَبْدِ اللَّهِ، عَنْ عَجْلاَنَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لِلْمَمْلُوكِ طَعَامُهُ وَكِسْوَتُهُ، وَلاَ يُكَلَّفُ مِنَ الْعَمَلِ مَا لاَ يُطِيقُ)).

**(192)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kölənin yeməyini və geyimini təmin etmək lazımdır. Bir də ki, onu gücü çatmadığı bir işlə yükləmək olmaz.[1]"[2]

١٩٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي ابْنُ عَجْلاَنَ، عَنْ بُكَيْرٍ، أَنَّ عَجْلاَنَ أَبَا مُحَمَّدٍ حَدَّثَهُ قُبَيْلَ وَفَاتِهِ، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لِلْمَمْلُوكِ طَعَامُهُ وَكِسْوَتُهُ، وَلاَ يُكَلَّفُ إِلاَّ مَا يُطِيقُ)).

**(193)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kölənin yeməyini və geyimini təmin etmək lazımdır. Və bir də onu yalnız gücü çatdığı qədər yükləmək olar."[3]

١٩٤- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنِ الأَعْمَشِ قَالَ: قَالَ مَعْرُورٌ: مَرَرْنَا بِأَبِي ذَرٍّ وَعَلَيْهِ ثَوْبٌ، وَعَلَى غُلاَمِهِ حُلَّةٌ، فَقُلْنَا: لَوْ أَخَذْتَ هَذَا وَأَعْطَيْتَ هَذَا غَيْرَهُ، كَانَتْ حُلَّةٌ، قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِخْوَانُكُمْ جَعَلَهُمُ اللَّهُ تَحْتَ أَيْدِيكُمْ، فَمَنْ كَانَ أَخُوهُ تَحْتَ يَدِهِ، فَلْيُطْعِمْهُ مِمَّا يَأْكُلُ، وَلْيُلْبِسْهُ مِمَّا يَلْبَسُ، وَلاَ يُكَلِّفْهُ مَا يَغْلِبُهُ، فَإِنْ كَلَّفَهُ مَا يَغْلِبُهُ فَلْيُعِنْهُ عَلَيْهِ)).

---

[1] Ağanın öz köləsini və kənizini yeməklə və geyimlə təmin etməsi vacib, özü yediyi yeməkdən və geyindiyi geyimdən onlara da alması isə müstəhəbdir. O ki qaldı köləni gücü çatmadığı bir işlə yükləməyə, belə etmək mütləq şəkildə qadağandır.

[2] Bu hədisi Muslim (4406) və Əhməd (2/247; 342) rəvayət etmişdir.

[3] Bu hədis də əvvəlki kimi "səhih"dir.

**(194)** ........ Mərur (ibn Suveyd) demişdir: "(Bir dəfə) biz Əbu Zərrin yanından keçdikdə, həm Əbu Zərrin, həm də onun köləsinin əynində eyni libas *olduğunu gördük*. Biz dedik: "Bəlkə bunu özünə götürəsən, onu da kölənə verəsən ki, *hər birinizin əynində* ayrı-ayrı geyimlər olsun." Əbu Zərr dedi: "Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Kölələriniz* sizin qardaşlarınızdır! Allah onları sizin tabeçiliyinizə vermişdir. Kimin qardaşı öz tabeçiliyi altında olsa, yediyindən ona da yedirtsin, geyindiyindən ona da geyindirsin! Onu qüvvəsi çatmadığı bir işlə yükləməsin. Əgər onu qüvvəsi çatmadığı bir işlə yükləsə, qoy onda ona kömək etsin."[1]

---

[1] 189-cu hədisin qeydlərinə bax.

## ٩٩- بَابُ نَفَقَةُ الرَّجُلِ عَلَى عَبْدِهِ وَخَادِمِهِ صَدَقَةٌ

## 99-cu fəsil. Kişinin öz köləsinə və xidmətçisinə xərclədiyi (mal) sədəqədir

١٩٥- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: أَخْبَرَنَا بَقِيَّةُ قَالَ: أَخْبَرَنِي بُحَيرُ بْنُ سَعْدٍ، عَنْ خَالِدِ ابْنِ مَعْدَانَ، عَنِ الْمِقْدَامِ، سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَا أَطْعَمْتَ نَفْسَكَ فَهُوَ صَدَقَةٌ، وَمَا أَطْعَمْتَ وَلَدَكَ وَزَوْجَتَكَ وَخَادِمَكَ فَهُوَ صَدَقَةٌ)).

**(195)** ........ Miqdam ﵁ rəvayət edir ki, mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitdim: "Özün nə yesən *sənin üçün* sədəqədir.[1] Övladına, zövcənə və xidmətçinə nə yedirtsən, o da *sənin üçün* sədəqədir."[2]

١٩٦- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ عَاصِمِ بْنِ بَهْدَلَةَ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((خَيْرُ الصَّدَقَةِ مَا بَقَّى غِنًى، وَالْيَدُ الْعُلْيَا خَيْرٌ مِنَ الْيَدِ السُّفْلَى، وَابْدَأْ بِمَنْ تَعُولُ، تَقُولُ امْرَأَتُكَ: أَنْفِقْ عَلَيَّ أَوْ طَلِّقْنِي، وَيَقُولُ مَمْلُوكُكَ: أَنْفِقْ عَلَيَّ أَوْ بِعْنِي، وَيَقُولُ وَلَدُكَ: إِلَى مَنْ تَكِلُنَا)).

---

[1] Burada "sədəqə" deyildikdə, Allah rizasını qazanmaq üçün Onun yolunda xərclənən mal nəzərdə tutulur. Belə ki, başqa bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Bir müsəlman əvəzini Allahdan umaraq, *malından* ailəsinə bir şey xərcləsə, bu, onun üçün sədəqə sayılar" (Səhih əl-Buxari, 5351). Bütün bunlar Allahın mərhəmətinin genişliyinə dəlalət edir. Adam öz qarnına yemək yeyir, öz ailəsinə baxır və buna görə savab qazanır. Başqa bir hədisdə Peyğəmbər ﷺ Səd ibn Əbu Vəqqasa ﵁ demişdir: "Sən Allahın Üzünü diləyərək, xərclədiyin sədəqənin, hətta həyat yoldaşının ağzına qoyduğun *loxmanın* belə əvəzini mütləq alacaqsan" (Səhih əl-Buxari, 1295). Bunun əks anlamından belə nəticə çıxır ki, əgər adam malından özünə, valideyninə, ailəsinə və xidmətçisinə xərclədiyi zaman niyyəti Allahın razılığını qazanmaq yox, başqa bir şey olarsa, əməli puç olar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə də yalnız niyyət etdiyi şey qalacaqdır" (Səhih əl-Buxari, 1).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(196)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ən xeyirli sədəqə, zəngin ikən verilən (sədəqədir). Verən əl, alan əldən daha xeyirlidir. Elə isə, (malından xərclədikdə) baxmağın vacib olan kimsələrdən[1] başla. Həyat yoldaşın deyər: "Ya (varından) mənə xərclə, ya da məni boşa." Kölən deyər: "Ya (malından) mənə xərclə, ya da məni sat." Övladın deyər: "Bizi kimin öhdəsinə buraxırsan?"[2]

**١٩٧**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ مُحَمَّدِ بْنِ عَجْلَانَ، عَنِ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: أَمَرَ النَّبِيُّ ﷺ بِصَدَقَةٍ، فَقَالَ رَجُلٌ: عِنْدِي دِينَارٌ، قَالَ: ((أَنْفِقْهُ عَلَى نَفْسِكَ))، قَالَ: عِنْدِي آخَرُ، قَالَ: ((أَنْفِقْهُ عَلَى زَوْجَتِكَ)) قَالَ: عِنْدِي آخَرُ، قَالَ: ((أَنْفِقْهُ عَلَى خَادِمِكَ، ثُمَّ أَنْتَ أَبْصَرُ)).

**(197)** ........ Əbu Hureyrə ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ sədəqə verməyi buyurduqda,[3] bir nəfər dedi: "Mənim bir dinarım var." Peyğəmbər ﷺ buyurdu: "Onu özünə xərclə!"[4] Adam dedi: "Məndə biri də var." O,

---

[1] Burada insanın özü, ata-anası və digər ailə üzvləri nəzərdə tutulur.

[2] Qeyd edək ki, bu hədisin əvvəlində "baxmağın vacib olan kimsələrdən başla" sözünədək Peyğəmbərin ﷺ sözləridir. Hədisin bu hissəsini İmam Buxari öz "Səhih"ində (1427) rəvayət etmişdir. Qalan hissəsi "Həyat yoldaşın deyər:.." sözündən hədisin axırınadək isə Peyğəmbərin ﷺ yox, Əbu Hureyrənin ﷺ sözləridir. Nəsainin "Sunən" əsərində (9166) rəvayət edilir ki, Əbu Hureyrə ﷺ Peyğəmbərin ﷺ sözünü rəvayət etdikdən sonra ondan: "Kimə baxmaq lazımdır, ey Əbu Hureyrə?"– deyə soruşdular. O, dedi: "Həyat yoldaşın deyər: "Ya *varından* mənə xərclə, ya da məni boşa..." Muhəmməd Nasirəddin əl-Albani "Səhih Tərğib vət-Tərhib" əsərində (881) bu hədisin "səhih" olduğunu bildirəndən sonra demişdir: "Ola bilsin ki, hədisin: "Həyat yoldaşın deyər: "Ya *varından* mənə xərclə, ya da məni boşa..." hissəsindən axırınadək "mudrəc"dir – yəni Əbu Hureyrənin ﷺ sözləridir.

[3] Bu, dəlildir ki, xalqın başçısı xalqını xeyirxah işlər görməyə təşviq etməli, bunu onların yadına salmalıdır. Yada salmaq, həqiqətən də möminlərə fayda verir. Uca Allah Öz Rəsuluna ﷺ belə buyurur: **"Sən xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir"** (əz-Zariyat, 55).

[4] Əbu Davudun "Sunən" əsərindəki (1961) rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ o adama: "Onu özünə xərclə!" deyəndən sonra növbəti dinarı övladına, sonrakını zövcəsinə, o birisini xidmətçisinə, yerdə qalanlarını da məsləhət bildiyi yerlərə xərcləməyi buyurur.

buyurdu: “Onu da yoldaşına xərclə!” Adam dedi: “Məndə biri də var.” O, buyurdu: “Onu da xidmətçinə xərclə! Sonra da[1] özün məsləhət bildiklərinə xərclə.”[2]

---

[1] Burada Peyğəmbər ﷺ səhabəyə “sonra da” deməklə bildirmək istəyir ki, əgər əlavə dinarı varsa, onu özü bildiyi kimi xərcləsin.

[2] Bu hədisi Əbu Davud (1961), Nəsai (2488), Əhməd (2/251; 471) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir.

## ١٠٠ – بَابٌ إِذَا كَرِهَ أَنْ يَأْكُلَ مَعَ عَبْدِهِ

## 100-cü fəsil. Adam öz köləsi ilə birlikdə yemək yeməyi bəyənmirsə (nə etməli?)[1]

١٩٨ – حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدُ بْنُ زَيْدٍ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي أَبُو الزُّبَيْرِ، أَنَّهُ سَمِعَ رَجُلاً يَسْأَلُ جَابِرًا عَنْ خَادِمِ الرَّجُلِ، إِذَا كَفَاهُ الْمَشَقَّةَ وَالْحَرَّ، أَمَرَ النَّبِيُّ ﷺ أَنْ يَدْعُوهُ؟ قَالَ: نَعَمْ، فَإِنْ كَرِهَ أَحَدُكُمْ أَنْ يَطْعَمَ مَعَهُ فَلْيُطْعِمْهُ أُكْلَةً فِي يَدِهِ.

**(198)** ........ Əbu Zubeyr belə rəvayət etmişdir: “Bir nəfər Cabirdən ؓ kölə barədə soruşdu ki, əgər o, adamın əziyyətini çəkməklə, habelə, onun yeməyini hazırlamaqla işini yarıdırsa, [2] Peyğəmbər ﷺ belə köləni (yeməyə[3]) dəvət etməyi buyurubmu?”[4] Cabir: “Bəli!”– deyə cavab verdi.

---

[1] Qeyd etmək lazımdır ki, yeməyi kölə ilə bir yerdə yemək vacib deyil, müstəhəbdir. Lakin köləsinə təkəbbürlə yanaşan adam, əlbəttə ki, təkəbbürlüyünə görə günah qazanır. İmam Buxari öz “Səhih”ində “Kölə azad etmə” kitabının 8-ci fəslinə belə ünvan qoymuş: “Köləyə qarşı təkəbbür göstərməyin, habelə, ona “qulum və ya kənizim” deməyin bəyənilməməsi”, sonra həmin fəsildə Peyğəmbərin ﷺ belə dediyini varid etmişdir: “Sizlərdən heç kəs *köləyə*: “Rəbbinə yemək ver”, “Rəbbinə dəstəmaz almağa kömək et”, “Rəbbinə su ver”– deməsin; qoy: “mənim ağam”, “mənim himayədarım”– desin. Habelə, heç kəs: “qulum”, “kənizim”– deməsin; qoy: “oğlum”, “qızım”, “ay uşaq”– desin” (Səhih əl-Buxari, 2552). Bu kitabdan təkəbbürlük barədə daha geniş məlumat almaq üçün 548, 552, 554, 557 və 590-cı hədislərə və onların qeydlərinə bax.

[2] Yarıtmaq: görməli olduğu və ya tapşırılmış bir işi qənaətbəxş, kifayətləndirici dərəcədə yerinə yetirmək.

[3] Burada o, ağanın öz köləsini süfrəyə dəvət edib-etməməsini, yəni kölənin də onunla bir süfrə arxasında yemək yeməsinin vacib olub-olmamasını öyrənmək istəyir.

[4] Bundan aydın olur ki, bu ümmətin sələfləri nəinki azad insana, hətta köləyə belə diqqət yetirər, onun əziyyətini qiymətləndirər və bu əziyyət müqabilində ona nə yaxşılıq edəcəyi barədə düşünərdilər. Getdikcə insanlar o qədər azğınlaşmış və o qədər təkəbbürlü olmuşlar ki, nəinki xidmətçiyə, heç öz yaxınlarına – valideynlərinə, həyat yoldaşına və digər əzizlərinə diqqət yetirmir, onların əziyyətinə dəyər vermirlər.

(Sonra da bunu əlavə etdi:) "Əgər onunla bir yerdə çörək yemək istəmirsə, onda, heç olmasa ona öz əlindən yemək versin.[1]"[2]

[1] Cabirin bu sözü ﷺ Peyğəmbərin ﷺ sözüdür. Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Birinizin xidmətçisi ona yemək gətirdiyi zaman əgər onu yanında oturtmasa, qoy, ona bir və ya iki loxma yemək versin" (Səhih əl-Buxari, 2557).

[2] Bu hədisi Əhməd (3/346) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٠١- بَابٌ يُطْعِمُ الْعَبْدَ مِمَّا يَأْكُلُ

## 101-ci fəsil. Öz yediyindən köləyə də yedirtmək

**١٩٩-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مَسْلَمَةَ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ، عَنِ الْفَضْلِ بْنِ مُبَشِّرٍ قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ يُوصِي بِالْمَمْلُوكِينَ خَيْرًا وَيَقُولُ: ((أَطْعِمُوهُمْ مِمَّا تَأْكُلُونَ، وَأَلْبِسُوهُمْ مِنْ لَبُوسِكُمْ، وَلاَ تُعَذِّبُوا خَلْقَ اللَّهِ)).

**(199)** ........ Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ (bizə) kölələrlə yaxşı rəftar etməyi tövsiyə edib deyərdi: "Yediyinizdən onlara da yedirdin, geyindiyinizdən onlara da geyindirin və Allahın yaratdıqlarına əzab verməyin!"[1]

---

[1] 188-ci və 189-cu hədislərin qeydlərinə bax.

## ١٠٢ – بَابُ هَلْ يَجْلِسُ خَادِمُهُ مَعَهُ إِذَا أَكَلَ

## 102-ci fəsil. Adam yemək zamanı xidmətçisini də yanında oturtmalıdırmı?

٢٠٠ – حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ إِسْمَاعِيلَ بْنِ أَبِي خَالِدٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا جَاءَ أَحَدَكُمْ خَادِمُهُ بِطَعَامِهِ فَلْيُجْلِسْهُ، فَإِنْ لَمْ يَقْبَلْ فَلْيُنَاوِلْهُ مِنْهُ)).

**(200)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Sizlərdən birinin xidmətçisi ona yemək gətirdikdə, qoy, onu da süfrəyə dəvət etsin.[1] Dəvəti qəbul etməsə,[2] ona o yeməkdən versin.”[3]

٢٠١ – حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا أَبُو يُونُسَ الْبَصْرِيُّ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ قَالَ: قَالَ أَبُو مَحْذُورَةَ: كُنْتُ جَالِسًا عِنْدَ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ، إِذْ جَاءَ صَفْوَانُ بْنُ أُمَيَّةَ بِجَفْنَةٍ يَحْمِلُهَا نَفَرٌ فِي عَبَاءَةٍ، فَوَضَعُوهَا بَيْنَ يَدَيْ عُمَرَ، فَدَعَا عُمَرُ نَاسًا مَسَاكِينَ وَأَرِقَّاءَ مِنْ أَرِقَّاءِ النَّاسِ حَوْلَهُ، فَأَكَلُوا مَعَهُ، ثُمَّ قَالَ عِنْدَ ذَلِكَ: فَعَلَ اللَّهُ بِقَوْمٍ، أَوْ قَالَ: لَحَا اللَّهُ قَوْمًا يَرْغَبُونَ عَنْ أَرِقَّائِهِمْ أَنْ يَأْكُلُوا مَعَهُمْ، فَقَالَ صَفْوَانُ: أَمَا وَاللَّهِ، مَا نَرْغَبُ عَنْهُمْ، وَلَكِنَّا نَسْتَأْثِرُ عَلَيْهِمْ، لاَ نَجِدُ وَاللَّهِ مِنَ الطَّعَامِ الطَّيِّبِ مَا نَأْكُلُ وَنُطْعِمُهُمْ.

**(201)** ........ Əbu Məhzura demişdir: “(Bir dəfə) mən Ömərin ﷺ yanında ikən Səfvan ibn Umeyyə[4] bir sini yemək gətirdi. Bu sinini bir neçə adam

---

[1] Qeyd edək ki, xidmətçini süfrəyə dəvət etmək müstəhəb əməllərdəndir.

[2] Yəni utandığından, yaxud ağasının yanında yad adamlar olduğundan və s. səbəbdən dolayı, xidmətçi onunla birgə süfrənin qırağına oturmaqdan imtina edərsə, ona süfrədəki yeməkdən versin. Başqa bir hədisdə Peyğəmbər ﷺ bunun səbəbini açıqlayıb demişdir: “Çünki bu yeməyi o hazırlamışdır” (Səhih əl-Buxari, 2557).

[3] Bu hədisi Buxari (2557) rəvayət etmişdir.

[4] Səfvan ibn Umeyyə ibn Xələf əl-Cuməhi əl-Qurəşi əl-Məkki ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Məkkənin fəthindən sonra İslamı qəbul etmişdir. Hicrətin 41-ci ilində vəfat etmişdir (Siyər Əlam ən–Nubələ, 119-cu tərcümeyi-hal).

əbanın içində daşıyırdı.[1] Onlar sinini Ömərin qabağına qoydular. Ömər ətrafdakı miskinləri və kölələri yeməyə dəvət etdi.[2] Beləliklə, onlar da onunla bərabər yemək yedilər. Yemək əsnasında Ömər dedi: "Kölələri ilə birgə süfrə başında oturub yemək yeməyi özlərinə sığışdırmayan kimsələrin Allah üzünü qara eləsin!"[3] Səfvan dedi: "Vallahi ki, biz onlardan üz çevirmirik. Sadəcə, biz özümüzü onlardan üstün tuturuq. Vallahi, bizim yediyimizdən *atrıq* kölələrimizə də yedirə biləcək ləziz yeməyimiz olmur.[4]"[5]

[1] Bu sini olduqca böyük olduğundan Səfvanın ﷺ köməkçiləri onu əbanın ortasına qoymuş və hər biri əbanın bir tərəfindən tutaraq, onu Ömər ibn Xattabın ﷺ yanına gətirmişlər.

[2] Ömərin ﷺ bu hərəkəti onun olduqca təvazökar insan olduğundan xəbər verir.

[3] Səhabə burada öz kölələrinə xor baxan təkəbbürlüləri nəzərdə tutur.

[4] Səfvan ibn Umeyyə ﷺ demək istəyir ki, onlar təkəbbürlükdən yox, başqa səbəblərdən dolayı, öz yedikləri yeməklərdən kölələrinə də yedirdə bilmirlər.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٠٣- بَابٌ إِذَا نَصَحَ الْعَبْدُ لِسَيِّدِهِ

## 103-cü fəsil. Kölə öz ağasına nəsihət etdikdə
(savab qazanırmı?)

٢٠٢- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ نَافِعٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِنَّ الْعَبْدَ إِذَا نَصَحَ لِسَيِّدِهِ، وَأَحْسَنَ عِبَادَةَ رَبِّهِ، لَهُ أَجْرُهُ مَرَّتَيْنِ)).

**(202)** ........ Abdullah ibn Ömər ﵄ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ demişdir: "Əgər kölə öz ağasına nəsihət etsə və Rəbbinə gözəl tərzdə ibadət etsə, ikiqat savab qazanar.[2]"

---

[1] Bu hədisi Buxari (3011), Muslim (4408) və Əbu Davud (5169) rəvayət etmişdir.

[2] Burada "nəsihət" deyildikdə, itaət nəzərdə tutulur. Yəni əgər kölə ağasının haqqını layiqincə ödəsə, onun malını qorusa və ona itaət etsə, buna görə savab qazanar. Əlbəttə ki, Allaha asi olan işlərdə itaət etmək müstəsnadır. Çünki Allaha asi olaraq məxluqa itaət etmək qadağandır. Və əgər bununla yanaşı, Rəbbinə də ibadət edərsə, iki vacibi cəm etmiş, boynuna düşən iki haqqı – Rəbbinin və ağasının haqqını ödəmiş olar, beləliklə də, ikiqat savab qazanar. Bundan aydın olur ki, müsəlmanın ancaq Allaha ibadət etməsi kifayət deyil, o, ibadətlə yanaşı, Allahın rizasını qazanmaq üçün yaxşı əməllər də etməlidir. Bu xüsusda, Uca Allah buyurur: **"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur"** (əl-Mulk, 2). Rəvayət edilir ki, Fudeyl ibn İyad bu ayəni izah edib demişdir: "**Əməl baxımından daha yaxşı olanınız**" yəni daha səmimi və daha doğru olanınız. Ondan: "Daha səmimi və doğru olanı nədir?"– deyə soruşulduqda, o belə cavab vermişdir: "Əgər əməldə səmimiyyət olsa, lakin doğruluq olmazsa, o qəbul olunmaz. Həmçinin, əgər əməldə doğruluq olsa, lakin səmimiyyət olmazsa, o, yenə qəbul olunmaz. Əməl yalnız o təqdirdə qəbul olar ki, onda səmimiyyət və doğruluq olsun. "Səmimi əməl" deyildikdə, Allah üçün yerinə yetirilən əməl, "doğru əməl" deyildikdə isə Sünnəyə uyğun olan əməl nəzərdə tutulur" (Təfsir əl-Bəğəvi; Təfsir əs-Sədi). Beləliklə, aydın olur ki, bu hədisdə "gözəl tərzdə ibadət etsə" deyildikdə, Allah üçün, üstəlik, Sünnəyə müvafiq olan əməllər nəzərdə tutulur. Hədislərin birində Peyğəmbər ﷺ Muaz ibn Cəbələ ﵁ hər namazın sonunda belə dua etməyi nəsihət edir: "Allahummə, əinni alə zikrikə və şukrikə və husni ibadətikə (Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et)!" (Səhih əl-Ədəbul-Mufrad, 534). Diqqət edin, hədisdə "gözəl tərzdə ibadət" deyilir, deməli, gözəl

٢٠٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا الْمُحَارِبِيُّ قَالَ: حَدَّثَنَا صَالِحُ بْنُ حَيٍّ قَالَ: قَالَ رَجُلٌ لِعَامِرٍ الشَّعْبِيِّ: يَا أَبَا عَمْرٍو، إِنَّا نَتَحَدَّثُ عِنْدَنَا أَنَّ الرَّجُلَ إِذَا أَعْتَقَ أُمَّ وَلَدِهِ ثُمَّ تَزَوَّجَهَا كَانَ كَالرَّاكِبِ بَدَنَتَهُ، فَقَالَ عَامِرٌ: حَدَّثَنِي أَبُو بُرْدَةَ، عَنْ أَبِيهِ قَالَ: قَالَ لَهُمْ رَسُولُ اللَّهِ ﷺ: ((ثَلاَثَةٌ لَهُمْ أَجْرَانِ: رَجُلٌ مِنْ أَهْلِ الْكِتَابِ آمَنَ بِنَبِيِّهِ، وَآمَنَ بِمُحَمَّدٍ ﷺ فَلَهُ أَجْرَانِ. وَالْعَبْدُ الْمَمْلُوكُ إِذَا أَدَّى حَقَّ اللَّهِ وَحَقَّ مَوَالِيهِ. وَرَجُلٌ كَانَتْ عِنْدَهُ أَمَةٌ يَطَأُهَا، فَأَدَّبَهَا فَأَحْسَنَ تَأْدِيبَهَا، وَعَلَّمَهَا فَأَحْسَنَ تَعْلِيمَهَا، ثُمَّ أَعْتَقَهَا فَتَزَوَّجَهَا، فَلَهُ أَجْرَانِ))

قَالَ عَامِرٌ: أَعْطَيْنَاكَهَا بِغَيْرِ شَيْءٍ، وَقَدْ كَانَ يُرْكَبُ فِيمَا دُونَهَا إِلَى الْمَدِينَةِ.

**(203)** ........ Saleh ibn Heyy rəvayət edir ki, bir nəfər Amir əş-Şəbiyə[1] dedi: “Ey Əbu Amr, biz tərəflərdə[2] öz kənizini[3] azad edib, sonra onunla evlənən adamı qurbanlıq dəvəsinə minmiş kimsəyə bənzədirlər. Amir dedi: “Əbu Burdə öz atasından[4] mənə rəvayət etmişdir ki, Peyğəmbər ﷺ onlara

---

tərzdə olmayan ibadətlər də vardır. Yəni bayaq dediyimiz iki şərti və ya onlardan birini özündə cəm etməyən ibadətlər. Bu tərzdə ibadət edənlər yaxşı əməl etdiklərini və ibadətlərinin qəbul olunduğunu güman etsələr də, həmin əməl gözəl tərzdə olmadığından puç olub gedir. Bu xüsusda, Uca Allah buyurur: **“De: “Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər”** (əl-Kəhf, 103-105).

[1] Amir ibn Şərahil ibn Abd əş-Şəbi əl-Həmədani. Ömər ibn Xattabın xilafəti ؓ dövründə dünyaya gəlmiş, məşhur tabiinlərdən və əsrinin böyük alimlərdən olmuşdur (Siyər Əlam ən-Nubələ, 113-cü tərcümeyi-hal).

[2] Burada “biz tərəflər” deyildikdə, Xorasan nəzərdə tutulur (Səhih Muslim, 404).

[3] Bu hədisin ərəbcəsində (أُمَّ وَلَدِهِ) “övladının anası” deyilir. Və əgər bu kəlmə olduğu kimi tərcümə edilərsə, bu söz “kişinin zövcəsi” kimi səhv başa düşülə bilər. Odur ki, biz bu sözü digər mənbələrdə olduğu kimi (أَمَتَهُ) “öz kənizini” şəklində tərcümə etmişik (Səhih əl-Buxari, 97; Səhih Muslim, 404).

[4] Əbu Burdə məşhur səhabə Əbu Musa əl-Əşarinin ؓ oğludur. Burada “atasından” deyildikdə, həmin səhabə nəzərdə tutulur. İmam Muslimin “Səhih”ində (404) bu hədisdə “Əbu Burdə ibn Əbu Musa öz atasından mənə rəvayət etmişdir” deyilir.

demişdir: "Üç sinif insan[1] ikiqat savab qazanır: Kitab əhlindən əvvəlcə öz peyğəmbərinə, sonra da Muhəmmədə ﷺ iman gətirmiş[2] kimsə ikiqat savab qazanır; həm Allahın, həm də öz ağasının haqqını ödəyən kölə[3] *ikiqat savab qazanır*; yaxınlıq etdiyi kənizinə gözəl tərbiyə verən və ona gözəl tərzdə elm öyrədən, sonra onu azad edib onunla evlənən kişi ikiqat savab qazanır."

Amir dedi: "Heç bir şey *vermədən* hədisi götür. Vaxtı ilə adam belə bir hədisi öyrənmək üçün Mədinəyə qədər gedərdi.[4]"[5]

---

[1] Bu hədisdə "üç sinif insan" deyildikdə, ancaq bu üç sinif insanın ikiqat savab qazanması qəsd edilmir. Belə ki, başqa sinif insanlar da vardır ki, onlar da yaxşı əməllərinə görə ikiqat savab qazanırlar. Bu xüsusda Quran və Sünnədə kifayət qədər dəlillər vardır. Mubarəkfuri bu hədisi izah edərkən demişdir: "Bir çox alimlər ikiqat savab qazanan insanların sayının iyirmi sinifə çatdığını söyləmişlər. Və əgər hədisləri araşdırsaq daha çoxunu tapmaq olar. Azizi "Siracul-Munir" əsərində (1/189), İbn Həcər "Fəthul-Bari" əsərində (11/38), habelə, Əlqəmi və Suyuti bunların bəzisini zikr etmişdir (Miratul-Məfatih Şərh Mişkatil-Məsabih, 1/57). İmam Suyuti "Mətləul-Bədrəyn fimən yutə Əcruhu Mərrəteyn" adlı kitabında bu sinifə aid olan insanları qələmə almışdır.

[2] İmam Muslimin "Səhih"ində Peyğəmbərin ﷺ: "onun yolunu tutub gedər və onun dediklərini təsdiq edərsə" sözü də rəvayət edilmişdir. Beləlləri barədə Uca Allah buyurur: **"*Qurandan* əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara *Quran* oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!"– deyirlər. Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir"** (əl-Qəsəs, 52-54).

[3] Əks halda isə, o, küfr etmiş olar. Günahın nə dərəcədə böyük olduğuna diqqət edirsinizmi?! Bu xüsusda varid olmuş hədislərdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Ağalarından qaçmış kölə onların yanına qayıdanadək küfr etmiş sayılar", "Hansı bir kölə *ağasından* qaçsa, *İslam* himayəsindən çıxmış olar", "Kölə *ağasından* qaçarsa, onun namazı qəbul olunmaz" (Səhih Muslim, 228, 229 və 230). Burada "küfr etmiş olar" deyildikdə, bu əməlin kafirlərin adətlərindən və cahillərin əxlaqından olması, yaxud o kölənin nankorluq etməsi, yaxud bu əməlin həmin köləni küfrə yönəltməsi, yaxud da ağadan qaçmağı halal sayan kölənin kafir sayılması qəsd edilir (Şərh ən-Nəvəvi).

[4] İmam Şəbi ona müraciət edən adama bu elmin çətinliklə əldə edildiyini bildirməklə onu öyrəndiyi elmin qədrini bilməyə və onu unutmamağa təşviq edir (Şərh ən-Nəvəvi).

[5] Bu hədisi Muslim (404) rəvayət etmişdir.

**٢٠٤-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلاَءِ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ بُرَيْدِ بْنِ عَبْدِ اللَّهِ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الْمَمْلُوكُ الَّذِي يُحْسِنُ عِبَادَةَ رَبِّهِ، وَيُؤَدِّي إِلَى سَيِّدِهِ الَّذِي فُرِضَ عَلَيْهِ مِنَ الطَّاعَةِ وَالنَّصِيحَةِ، لَهُ أَجْرَانِ)).

**(204)** ........ Əbu Musa ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Rəbbinə gözəl tərzdə ibadət edən, üstəlik, özünə vacib buyurulmuş işlərdə ağasına itaət və nəsihət etməklə onun haqqını ödəyən kölə ikiqat savab qazanar."[1]

**٢٠٥-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا أَبُو بُرْدَةَ بْنُ عَبْدِ اللَّهِ بْنِ أَبِي بُرْدَةَ قَالَ: سَمِعْتُ أَبَا بُرْدَةَ يُحَدِّثُ، عَنْ أَبِيهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الْمَمْلُوكُ لَهُ أَجْرَانِ إِذَا أَدَّى حَقَّ اللَّهِ فِي عِبَادَتِهِ، أَوْ قَالَ : فِي حُسْنِ عِبَادَتِهِ، وَحَقَّ مَلِيكِهِ الَّذِي يَمْلِكُهُ)).

**(205)** ........ Əbu Burdə öz atasından rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kölə Allaha (gözəl tərzdə) ibadət etməklə Onun haqqını və bir də onu saxlayan ağasının haqqını ödəyərsə, ikiqat savab qazanar."[2]

---

[1] Bu hədisi Buxari (97) rəvayət etmişdir. Əvvəlki iki hədisin şərhinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

# ١٠٥- بَابٌ الْعَبْدُ رَاعٍ

## 104-cü fəsil. Kölə himayəçidir

٢٠٦- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((كُلُّكُمْ رَاعٍ، وَكُلُّكُمْ مَسْؤولٌ عَنْ رَعِيَّتِهِ، فَالأَمِيرُ الَّذِي عَلَى النَّاسِ رَاعٍ، وَهُوَ مَسْؤولٌ عَنْ رَعِيَّتِهِ، وَالرَّجُلُ رَاعٍ عَلَى أَهْلِ بَيْتِهِ، وَهُوَ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ، وَعَبْدُ الرَّجُلِ رَاعٍ عَلَى مَالِ سَيِّدِهِ، وَهُوَ مَسْؤُولٌ عَنْهُ، أَلاَ كُلُّكُمْ رَاعٍ، وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ)).

**(206)** ........ İbn Ömər ﷻ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir.[1]

---

[1] Bəzi rəvayətlərdə bu cümlə "Diqqət edin!" sözü ilə başlayır. Peyğəmbərin ﷺ öz nəsihətinin əvvəlində: "Diqqət edin!" deməsi, deyəcəyi nəsihətin olduqca əhəmiyyətli olduğunu bildirir. Üstəlik, onun öz nəsihətini bu cümlə ilə başlayıb eyni cümlə ilə də tamamlaması bu nəsihətin olduqca məsuliyyətli bir nəsihət olduğundan xəbər verir. Peyğəmbərimizin ﷺ bu nəsihətindən belə nəticə çıxır ki, cəmiyyətdə olan hər kəs tutduğu vəzifəsinə, habelə, himayəsində olanlara görə məsuliyyət daşıyır. Deməli, Qiyamət günü hər bir himayəçi haqq-hesab ediləcək və himayəsində olanların haqqını ödəyən kimsələrə Cənnət, zalımlara isə Cəhənnəm nəsib olacaqdır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Allahım, ümmətimdən hər hansı bir işi idarə edən və öz tabeçiliyi altında olan kimsələrə əziyyət verən kimsəni əziyyətə məruz qoy, eləcə də, ümmətimdən hər hansı bir işi idarə edən və öz tabeçiliyi altında olan kimsələrlə yumşaq davranan kimsə ilə yumşaq davran" (Səhih Muslim, 4826); digər hədisdə o belə buyurmuşdur: "Müsəlman xalqına başçılıq etmiş bir kimsə xalqını aldatmış olduğu halda ölərsə, Allah Cənnəti ona haram edər" (Səhih əl-Buxari, 7151; Səhih Muslim, 363); başqa bir hədisdə rəvayət edilir ki, Məqil ibn Yəsar xəstə yatarkən Ubeydullah ibn Ziyad ona baş çəkdi. Onda Məqil ona dedi: "Mən sənə bir hədis danışacağam. Əgər ölüm ayağında olmasaydım, bu hədisi sənə danışmazdım. Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Müsəlmanların işlərinə rəhbərlik edən, lakin onlar üçün çalışmayan və onlara yaxşılıq etməyən rəhbər Cənnətə girəcək müsəlmanlarla birgə ora daxil olmaz" (Səhih Muslim, 366). Deməli, hər bir rəhbərin borcudur ki, tabeçiliyində olanlarla mülayim rəftar eləsin, onların haqqını ödəsin, onlara yaxşılıq etsin, onların qayğısına qalsın və onlara qarşı haqsızlığa yol verməsin. Çünki o, buna görə Allahın hüzurunda haqq-hesaba çəkiləcəkdir. Rəvayət edilir ki, bir dəfə Fudeyl ibn İyad bir kişi-

Camaata rəhbərlik edən əmir himayəçidir və o, öz rəiyyətinə cavabdehdir. Kişi öz əhli-beytinin hamisidir və o, öz himayəsində olanlara cavabdehdir.[1] Kölə öz ağasının malını qoruyandır və o, buna cavabdehdir.[2] Diqqət edin! Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir."[3]

---

dən "Neçə yaşın var?"– deyə soruşdu. Kişi: "Altmış"– deyə cavab verdi. Fudeyl dedi: "Altmış ildir ki, sən Rəbbinə tərəf yol gedirsən. Tezliklə Onun hüzuruna çıxacaqsan." Kişi dedi: "Ey Əbu Əli, biz Allaha məxsusuq və Ona da qayıdacağıq!" Fudeyl ondan: "Nə dediyini bilirsənmi?"– deyə soruşdu. Kişi yenə dedi: "Biz Allaha məxsusuq və Ona da qayıdacağıq!" Fudeyl soruşdu: "Bunun mənasını bilirsənmi?" Kişi dedi: "Onu bizə izah elə, ey Əbu Əli!" Fudeyl dedi: "Sənin: "Biz Allaha məxsusuq..." deməyin "mən Allahın quluyam və mən Allahın hüzuruna qayıdacağam" deməkdir. Allahın qulu olduğunu və Onun hüzuruna qayıdacağını dərk edən adam isə Onun hüzurunda dayanacağını yəqin etməlidir. Onun hüzurunda duracağını bilən adam isə sorğu-sual ediləcəyini yəqin bilməlidir. Sorğu-sual ediləcəyini bilən adam isə bu sorğu-suala cavab hazırlamalıdır." Kişi soruşdu: "Bunun əlacı varmı?" Fudeyl dedi: "*Əlbəttə var,* özü də çox asan." Kişi soruşdu: "Nədir o?" Fudeyl dedi: "Ömrünün qalan hissəsini yaxşı işlər görməyə sərf etsən, keçmiş və gələcək günahların bağışlanar. Yox əgər ömrünün qalanını günah işlər görməklə keçirsən, keçmiş və gələcək günahlarına görə cavab verməli olarsan" (Hilyətul-Övliya və Təbəqatul-Əsfiya, 8/113). Fudeyl ibn İyadın son sözü əslində Peyğəmbərin ﷺ sözüdür. Əbu Zərr ◌ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim ömrünün qalan hissəsini yaxşı işlər görməyə sərf etsə, keçmiş və gələcək günahları bağışlanar. Kim də ömrünün qalanını günah işlər görməklə keçirsə, keçmiş və gələcək günahlarına görə cavab verər" (Mocəmul-Ovsat, 7/413/6802; Tarix Diməşq, 18/377; Silsilətul-Əhadisis-Səhihə, 3389).

[1] Yəni kişi öz ailəsinin qayğısına qalmalı, onları yemək-içmək, geyim və sairə lazımi şeylərlə təmin etməli, onların tərbiyəsi ilə məşğul olmalı və s. öhdəsinə düşənləri yerinə yetirməlidir. İmam Buxari öz "Səhih"ində hədisin bu yerinə Peyğəmbərin ﷺ: "Qadın ərinin evində himayəçidir və o, öz himayəsində olanlara cavabdehdir" sözünü də əlavə etmişdir. Yəni qadın, ərinin haqqını ödəməli, uşaqlarına yaxşı baxmalı, ərinin malını və sirrini qorumalı və s. öz öhdəsinə düşən əməlləri yerinə yetirməlidir.

[2] Rəvayətlərin birində: "Xidmətçi öz ağasının malını qoruyandır..." deyilir ki, bu da, daha geniş mənanı əhatə edir. Yəni "xidmətçi" deyildikdə, buna həm ağasına xidmət edən kölə, həm də kiminsə əlinin altında muzdla işləyən azad adam nəzərdə tutulur.

[3] Bu hədisi Buxari (893), Muslim (4828), Əbu Davud (2928), Tirmizi (1705) və Əhməd (2/5; 54; 111; 121) rəvayət etmişdir.

**٢٠٧-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي مَخْرَمَةُ بْنُ بُكَيْرٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ سَعْدٍ مَوْلَى عَائِشَةَ زَوْجِ النَّبِيِّ ﷺ، قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: ((الْعَبْدُ إِذَا أَطَاعَ سَيِّدَه، فَقَدْ أَطَاعَ اللَّهَ عَزَّ وَجَلَّ، فَإِذَا عَصَى سَيِّدَهُ فَقَدْ عَصَى اللَّهَ عَزَّ وَجَلَّ)).

**(207)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Kölə öz ağasına itaət etsə, Allaha ﷻ itaət etmiş olar, ağasına asi olsa, Allaha ﷻ asi olmuş olar."[1]

[1] Hədisin isnadında keçən Abdullah ibn Səd "məqbul" ravidir. Odur ki, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, mənası səhihdir. Belə ki, əvvəlki hədislərdə bizə kölənin ağaya itaət etməsinin vacib olduğu aydın olmuşdu. Deməli, Allahın vacib buyurduğunu yerinə yetirməyən kimsə Ona asi olmuş hesab edilir.

# ١٠٥- بَابُ مَنْ أَحَبَّ أَنْ يَكُونَ عَبْدًا

## 105-ci fəsil. Kölə olmağı arzulayan kimsə

٢٠٨- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ بْنُ بِلَالٍ، عَنْ يُونُسَ، عَنِ الزُّهْرِيِّ، عَنْ سَعِيدِ ابْنِ الْمُسَيِّبِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((الْعَبْدُ الْمُسْلِمُ إِذَا أَدَّى حَقَّ اللَّهِ وَحَقَّ سَيِّدِهِ، لَهُ أَجْرَانِ))، وَالَّذِي نَفْسُ أَبِي هُرَيْرَةَ بِيَدِهِ، لَوْلَا الْجِهَادُ فِي سَبِيلِ اللَّهِ، وَالْحَجُّ، وَبِرُّ أُمِّي، لَأَحْبَبْتُ أَنْ أَمُوتَ مَمْلُوكًا.

**(208)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlman kölə həm Allahın haqqını, həm də ağasının haqqını ödəsə, ikiqat savab qazanar." Əbu Hureyrənin canı Əlində Olan *Allaha* and olsun ki, əgər Allah yolunda cihad, həcc ziyarəti[1] və anamın qayğısını çəkmək olmasaydı,[2] kölə olaraq ölmək istəyərdim."[3]

---

[1] Burada Əbu Hureyrə ﷺ "həcc ziyarəti" dedikdə, nafilə həccini qəsd edir. Belə ki, vacib buyurulan həcc ziyarətini o, artıq Peyğəmbərlə ﷺ birlikdə yerinə yetirmişdi.

[2] Əbu Hureyrə ﷺ demək istəyir ki, əgər kölə olsaydı, bu vacib əməlləri edə bilməzdi. Belə ki, kölə ağasının izni olmadan nə cihada gedə bilər, nə həcc ziyarətini yerinə yetirə bilər, nə də ki, anasının qayğısına qala bilər. Bir də ki, səhabə, sadəcə ikiqat savaba nail olmaq üçün bu cür təmənna edir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ١٠٦- بَابٌ لا يَقُولُ: ((عَبْدِي))

## 106-cı fəsil. (Ağa öz köləsinə) "Qulum!" deməməlidir[1]

٢٠٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي ابْنُ أَبِي حَازِمٍ، عَنِ الْعَلاَءِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَقُلْ أَحَدُكُمْ: عَبْدِي، أَمَتِي، كُلُّكُمْ عَبِيدُ اللَّهِ، وَكُلُّ نِسَائِكُمْ إِمَاءُ اللَّهِ، وَلْيَقُلْ: غُلاَمِي، جَارِيَتِي، وَفَتَايَ، وَفَتَاتِي)).

**(209)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən heç kəs: "Qulum!", "kənizim!" deməsin. Hamınız Allahın qullarısınız, eləcə də, qadınlarınızın hamısı Allahın kənizləridir.[2] Qoy desin: "Bala!", "cariyəm!", "oğlum!", "qızım![3]"[4]

---

[1] Adamın öz köləsinə "qulum" və cariyəsinə "kənizim" deməsi Allaha qarşı ədəbsizlik sayılır. Üstəlik, bu söz adamı şirkə aparıb çıxara bilər, qəlbində batil inanc yarada bilər deyə, şəriət adama əvvəlcədən bunun qarşısını almağı buyurur. İslam dini insanı tövhidə – Tək Allaha ibadət edib Ona heç kəsi şərik qoşmamağa çağırır. Və bu yolda tövhidə xələl gətirən, habelə, şirkə rəvac verən hər bir sözdən və əməldən uzaq durmaq gərəkdir.

[2] "Qulum" və "kənizim" ifadələri yalnız Allaha məxsusdur. Peyğəmbər ﷺ dua edərkən bəzən öz Rəbbinə: "Allahım, Mən Sənin qulunam, qulunun oğluyam, kənizinin oğluyam! Kəkilim (məni idarə etmək) Sənin əlindədir..." yaxud "Allahım! Sənin qulun, Sənin kənizinin oğlu Sənin mərhəmətinə möhtacdır..."– deyə müraciət edərdi.

[3] Yəni qoy ağa və ya xanım öz köləsinə "bala" yaxud "oğlum", kənizinə də "qızım" və ya "cariyəm" deyə müraciət etsin. Bu hədisdən belə nəticə çıxır ki, insanları doğru yola dəvət edən adam onların səhvə yol verdiklərini gördüyü zaman onların səhvini bəyan etməklə yanaşı, həmin məsələyə dair doğru olanı da onlara bildirməlidir. Bu üslub neçə-neçə ayədə də öz əksini tapmışdır. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! *Peyğəmbərə:* "Bizə qayğı göstər!"– deməyin; "Bizə nəzər yetir!"– deyin və *Allahın əmrini* eşidin! Kafirləri ağrılı-acılı bir əzab gözləyir"** (əl-Bəqərə, 104).

[4] Bu hədisi Muslim (7/46-47) və Əhməd (2/496) rəvayət etmişdir.

## ١٠٧ – بَابٌ هَلْ يَقُولُ: ((سَيِّدِي؟))

## 107-ci fəsil. (Kölə): "Seyidim!"[1] deyə bilərmi?

٢١٠ – حَدَّثَنَا حَجَّاجُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ أَيُّوبَ، وَحَبِيبٍ، وَهِشَامٍ، عَنْ مُحَمَّدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَقُولَنَّ أَحَدُكُمْ: عَبْدِي وَأَمَتِي، وَلاَ يَقُولَنَّ الْمَمْلُوكُ: رَبِّي وَرَبَّتِي، وَلْيَقُلْ: فَتَايَ وَفَتَاتِي، وَسَيِّدِي وَسَيِّدَتِي، كُلُّكُمْ مَمْلُوكُونَ، وَالرَّبُّ اللَّهُ ﷻ)).

---

[1] İmam Buxarinin bu fəslə belə ünvan qoyması həmin fəsildə nəql etdiyi hədislərlə bağlıdır. Belə ki, hədislərin birində Peyğəmbər ﷺ köləyə öz ağasına "rəbbim" yox, "seyidim (ağam) və ya seyidətim (xanım)" deməyi buyurur, digərində isə ona "seyid" deyənlərə bunu qadağan edib, "əs-Seyyid Allahdır" deyir. Əvvəla qeyd edək ki, ərəbcə "seyyid" (سَادَ يَسُودُ) felindən əmələ gəlmiş isimdir, rəbb, ağa, cənab və möhtərəm mənalarını ifadə edir. Elə bu səbəbdən də, bu sözün işlədilməsinin hansı halda caiz, hansı halda qadağan olunması məqsədə bağlıdır. Diqqət edin, birinci hədisdə Peyğəmbər ﷺ köləyə sadəcə hörmət mənasında öz ağasına bu cür müraciət etməyi buyurur, lakin ikinci hədisdə müraciət, özündə təzim olduğunu və müraciət olunanın şişirdildiyini görəndə belə deməyi qadağan etmişdir. Demək, bu sözü hörmət mənasında, nisbi ağalığı və böyüklüyü qəsd edərək işlətmək caizdir. Quranda Uca Allah buyurur: **"İkisi də qapının yanında qadının seyidi ilə rastlaşdı"** (Yusuf, 25). Yəni qadın əri ilə, Yusuf da ağası ilə rastlaşdı. Hədislərin birində Peyğəmbər ﷺ Səd ibn Muazın məscidə yaxınlaşdığını görüb ənsara belə buyurur: "Qalxın seyidinizi – *böyüyünüzü qarşılayın*!" (Səhih əl-Buxari, 4121); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü mən insanların seyidi (ən hörmətlisi) olacağam" (Səhih əl-Buxari, 4712); digər bir hədisdə o, nəvəsi Həsəni رضي الله عنه qəsd edərək demişdir: "Mənim bu oğlum seyiddir *çox hörmətli şəxsiyyətdir*. *Vaxt gələcək* o, müsəlmanlardan iki böyük dəstənin arasını düzəldəcəkdir" (Səhih əl-Buxari, 2704). Lakin mütləq olaraq, əsl mənada ağalığı qəsd edərək kimsəyə, hətta Peyğəmbərimizə ﷺ belə "seyid" deyə müraciət etmək olmaz. Çünki mütləq seyidlik, yəni kamil şəkildə ağalıq, hökmranlıq, idarə etmə, bu uca və ali sifət, yalnız və yalnız Allaha məxsusdur. Bu da fəsildə keçən ikinci hədisdə öz təsdiqini tapmışdır. Bu məsələ eyni ilə hörmətli adam üçün ayağa qalxmaq məsələsinə bənzəyir. Yəni hörmət üçün ayağa qalxmaq caiz, şəxsiyyəti uca tutmaq və onu əzəmətləşdirmək məqsədi ilə ayağa qalxmaq isə qadağandır.

**(210)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Sizlərdən heç kəs: “Qulum!”, “kənizim!” deməsin. Kölə də: “Rəbbim!”[1] deməsin. Qoy: “Oğlum!”, “qızım!”, “ağam!” “xanım!” desin.[2] Hamınız qulsunuz,[3] Rəbb isə yalnız Allahdır ﷻ.[4]

**٢١١**– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْفَضْلِ قَالَ: حَدَّثَنَا أَبُو مَسْلَمَةَ، عَنْ أَبِي نَضْرَةَ، عَنْ مُطَرِّفٍ قَالَ: قَالَ أَبِي: انْطَلَقْتُ فِي وَفْدِ بَنِي عَامِرٍ إِلَى النَّبِيِّ ﷺ، فَقَالُوا: أَنْتَ سَيِّدُنَا، قَالَ: ((السَّيِّدُ اللَّهُ))، قَالُوا: وَأَفْضَلُنَا فَضْلاً، وَأَعْظَمُنَا طَوْلاً، قَالَ: فَقَالَ: ((قُولُوا بِقَوْلِكُمْ، وَلاَ يَسْتَجْرِيَنَّكُمُ الشَّيْطَانُ)).

---

[1] Kölənin öz ağasına “rəbbim” deməsi adamı şirkə aparıb çıxarar və qəlbində batil inanc yaradar deyə, şəriət bu kəlməni işlətməyi qadağan edir. Əvvəlki fəsildə qeyd etdiyimiz kimi İslam dini bizə tövhidə xələl gətirən, habelə, şirkə rəvac verən hər bir sözdən və əməldən uzaq durmağı buyurur. Qeyd edək ki, ərəbcə “rəbb” sözü ilah, malik, sahib, yiyə, idarə edən, hökmran mənalarını ifadə edir və mütləq şəkildə ancaq və ancaq Allaha aid edilir. Uca Allah buyurur: **“Həmd olsun aləmlərin Rəbbi Allaha”** (əl-Fatihə, 4), **“*Allah* göylərin, yerin və onların arasında olanların Rəbbidir!”** (Məryəm, 65; Sad, 66), **“Göylərdə və yerdə nə varsa, Ona məxsusdur”** (əl-Bəqərə, 116; 255; ən-Nisa, 171; əş-Şura, 4), **“Göylərdə və yerdə böyüklük yalnız Ona məxsusdur”** (əl-Casiyə, 37), **“Göylərin və yerin hökmranlığı Ona məxsusdur”** (əl-Fəth,14). Kölənin öz ağasına “rəbb” deyə müraciət etməsi həm də onun mükəlləf və tabeçilikdə olduğuna görə qadağan edilmişdir. Lakin ev, mal, heyvan kimi mükəlləf olmayan şeylərə izafə edilərək bu kəlməni işlətmək caizdir. Məsələn: rabbud-dar (evin yiyəsi), rabbul-ibil (dəvənin sahibi), rabbul-mal (malın sahibi) və s. demək olar. Yeri gəlmişkən qeyd edək ki, iki halda “Rəbb” kəlməsini məxluqa aid etmək qadağandır. Birincisi, kəlmənin əvvəlinə müəyyənliyi bildirən (ال) artiklini qoyaraq işələtmək, yəni (الرَّبُّ) “ər-Rəbb” demək. İkincisi isə yuxarıda keçən hədislərdə qeyd edilmiş mənada işlətməkdir.

[2] Yəni ağa öz köləsinə və kənizinə “oğlum”, “qızım”, kölə və ya kəniz də öz ağasına “ağam” yaxud “xanım” deyə müraciət etməlidir.

[3] Peyğəmbər ﷺ insanların hamısının Allahın qulu olduğunu bildirməklə ağanın da öz köləsinə “qulum”, habelə, kölənin öz ağasına “rəbbim” deyə müraciət etməsinin nəyə görə qadağan edildiyini xəbər verir. Çünki həqiqi mənada bütün işləri idarə edən, ruzi verən, yaradan və öldürən aləmlərin Rəbbi olan Allahdır.

[4] Bu hədisi Əbu Davud (4977), Əhməd (2/423) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

**(211)** ........ Abdullah ibn Şixxir[1] ﷺ demişdir: "Mən Amir oğullarından bir dəstə ilə birgə Peyğəmbərin ﷺ yanına gəldim. Onlar (Peyğəmbərə ﷺ): "Sən bizim seyidimizsən!" O isə: "əs-Seyyid Allahdır!"[2]– dedi. Onlar dedilər: "Sən həm fəzilət, [3] həm də əliaçıqlıq [4] baxımından bizdən

---

[1] Abdullah ibn Şixxir ibn Auf ibn Həriş əl-Amiri əl-Hərişi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Mərifətus-Səhabə, 3/1682; əl-İsabə, 4746-cı tərcümeyi-hal).

[2] "əs-Seyyid" Uca Allahın adlarından biridir. Bu ad neçə-neçə mənalar ifadə edir və mütləq şəkildə işlənənlərin hamısı Allaha aid edilir. Yeri gəlmişkən qeyd edək ki, Allah adları bəzən bir mənanı, bəzən də bir neçə mənanı ifadə edir. Məsələn, əl-Aliim (Bilən), əs-Səmi' (Eşidən), əl-Bəsir (Görən), ər-Rəhim (Rəhmli), əl-Ğəfur (Bağışlayan) və başqa bu kimi adlar yalnız bir mənanı ifadə edir. Lakin əl-Həmid (Tərifəlayiq), əl-Məcid (Şan-şöhrətli), əs-Saməd (Möhtac olmayan) və başqa bu kimi adlar neçə-neçə mənalar ifadə edir. Burada "əs-Seyyid" deyildikdə, işləri yoluna qoyan, idarə edən, ram edən, hökm verən, ağalıq edən və bütün bunları kamil şəkildə edən, əzəməti böyük olan, istədiyinə ruzi verən, istədiyindən də onu alan, göylərin və yerin səltənəti Əlində olan Allah qəsd edilir. Muhəmməd səllallahu aleyhi və səlləm isə sadəcə Allahın quludur. Uca Allah Quranda Öz quluna belə buyurur: **"De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkündən verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir *yalnız* Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən"** (Ali-İmran, 26); başqa bir ayədə O, buyurur: **"De: "Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm"** (əl-Ənam, 50); digər bir ayədə O, buyurur: **"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Lakin Allah istədiyini doğru yola yönəldir"** (əl-Qəsəs, 56). Hədislərin birində Peyğəmbər ﷺ öz əziz övladına belə buyurur: "Ey Muhəmmədin qızı Fatimə, mən səni Allahın *əzabından* qurtara bilməyəcəyəm" (Səhih əl-Buxari, 2753); digər hədisdə o belə buyurmuşdur: "Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən, sadəcə, Allahın quluyam. Elə isə, *mənə*: "Allahın qulu və rəsulu!"– deyin" (Səhih əl-Buxari, 3445).

[3] Məlumdur ki, Allah yanında insanların ən hörmətlisi Ondan ən çox qorxanıdır. Bu xüsusda da Peyğəmbər ﷺ belə buyurmuşdur: "Şübhəsiz ki, aranızda *Allahdan* ən çox qorxanınız və Allahı ən yaxşı tanıyanınız mənəm!" (Səhih əl-Buxari, 20).

[4] Burada "əliaçıq" deyildikdə, səxavətli olmaq nəzərdə tutulur. İbn Abbas ﷺ rəvayət etmişdir ki, Rəsulullah ﷺ insanların ən səxavətlisi idi. Ramazan ayında Cəbrail ilə görüşdüyü zaman isə daha səxavətli olardı. Cəbrail Ramazan ayının hər gecəsində Peyğəm-

üstünsən!" O, buyurdu: "Sözünüzü deyin! Qoy şeytan sizi öz havadarlarına çevirməsin.[1]"[2]

bər ﷺ ilə görüşər, onunla birgə Quranı oxuyub təkrar edərdi. Odur ki, (bu günlərdə) Rəsulullah ﷺ xeyirxah işlər görməkdə sərbəst əsən küləkdən daha comərd olardı" (Səhih əl-Buxari, 6). İstər təqva, istər əliaçıqlılıq, istərsə digər xeyirxah işlərdə Rəsulullah ﷺ bu ümmətə nümunədir.

[1] Yəni dininizin sizə buyurduğu sözləri deyin və ifrata varmayın. Hədislərin birində Ənəs ibn Malik rəvayət edir ki, bir dəfə bir nəfər Peyğəmbərə ﷺ dedi: "Ey Muhəmməd! Ey seyidimiz və seyidimizin oğlu, xeyirlimiz və xeyirlimizin oğlu!" Onda Peyğəmbər ﷺ belə buyurdu: "Ey insanlar, Allahdan qorxun! Şeytan sizi öz yoluna çəkməsin. Mən Abdullahın oğlu Muhəmmədəm, Allahın qulu və rəsuluyam. Vallahi, mən istəmirəm ki, siz məni Allahın məni yüksəltdiyi məqamdan daha yüksək tutasınız" (Musnəd İmam Əhməd, 3/153, 241 və 249; Silsilətul-Əhadisis-Səhihə, 1097).

[2] Bu hədisi Əbu Davud (4806), Əhməd (4/25-26) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ١٠٨- بَابُ الرَّجُلُ رَاعٍ فِي أَهْلِهِ

## 108-ci fəsil. Kişi öz ailəsinin hamisidir

٢١٢- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ أَيُّوبَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((كُلُّكُمْ رَاعٍ، وَكُلُّكُمْ مَسْؤولٌ عَنْ رَعِيَّتِهِ، فَالأَمِيرُ رَاعٍ وَهُوَ مَسْؤُولٌ، وَالرَّجُلُ رَاعٍ عَلَى أَهْلِهِ وَهُوَ مَسْؤُولٌ، وَالْمَرْأَةُ رَاعِيَةٌ عَلَى بَيْتِ زَوْجِهَا وَهِيَ مَسْؤُولَةٌ، أَلاَ وَكُلُّكُمْ رَاعٍ، وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ)).

**(212)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir. Əmir himayəçidir və o, (öz rəiyyətinə) cavabdehdir. Kişi öz ailəsinin hamisidir və o, (öz himayəsində olanlara) cavabdehdir. Qadın ərinin evində himayəçidir və o, (öz himayəsində olanlara) cavabdehdir. Diqqət edin! Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir.”[1]

٢١٣- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ أَبِي قِلاَبَةَ، عَنْ أَبِي سُلَيْمَانَ مَالِكِ بْنِ الْحُوَيْرِثِ قَالَ: أَتَيْنَا النَّبِيَّ ﷺ وَنَحْنُ شَبَبَةٌ مُتَقَارِبُونَ، فَأَقَمْنَا عِنْدَهُ عِشْرِينَ لَيْلَةً، فَظَنَّ أَنَّا اشْتَهَيْنَا أَهْلِينَا، فَسَأَلَنَا عَنْ مَنْ تَرَكْنَا فِي أَهْلِينَا؟ فَأَخْبَرْنَاهُ، وَكَانَ رَفِيقًا رَحِيمًا، فَقَالَ: ((ارْجِعُوا إِلَى أَهْلِيكُمْ فَعَلِّمُوهُمْ وَمُرُوهُمْ، وَصَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي، فَإِذَا حَضَرَتِ الصَّلاَةُ، فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ، وَلْيَؤُمَّكُمْ أَكْبَرُكُمْ)).

**(213)** ........ Əbu Suleyman Malik ibn Huveyris رضي الله عنه demişdir: “(Bir dəfə) biz[2] Peyğəmbərin ﷺ yanına gəldik. O vaxt biz həmyaşıd cavanlar[3] idik. Biz

---

[1] Bu hədisi Buxari (893), Muslim (4828), Əbu Davud (2928) və Əhməd (2/54) rəvayət etmişdir (206-cı hədisin qeydlərinə bax).

[2] Digər rəvayətdə deyilir: “Mən qəbiləmizdən olan bir neçə adamla birlikdə Peyğəmbərin ﷺ yanına gəldim” (Səhih əl-Buxari, 628).

[3] İmam Muslimin rəvayətində “savadda eyni olan cavanlar idik” deyilir. Əlbəttə ki, cavan ikən elm öyrənmək daha yaxşıdır. Cavanlığı xeyirxah işlərə sərf etmək barədə Pey-

iyirmi gecə onun yanında qaldıq.[1] Nəhayət, bizim ailələrimiz üçün darıxdığımızı görüb bizdən onların yanında kimi qoyub gəldiyimizi xəbər aldı." Biz (vəziyyətimizi) ona bildirdik. Peyğəmbər ﷺ mülayim və rəhmli adam idi. Odur ki, o, buyurdu: "Ailənizin yanına qayıdın! (Bu dini) onlara öyrədin və onlara (yaxşı işlər görməyi) əmr edin. Mənim namaz qıldığımı necə gördünüzsə, elə də namaz qılın.[2] Namaz vaxtı yetişdiyi zaman, qoy biriniz[3] sizin üçün azan versin və ən yaşlınız[4] sizə namaz qıldırsın."[5]

---

ğəmbər ﷺ belə buyurmuşdur: "Beş şey gələnədək beş şeydən istifadə et: ölənədək həyatından, xəstələnənədək sağlamlığından, məşğul olanadək boş vaxtından, qocalanadək cavanlığından və bir də kasıblayanadək var-dövlətindən" (Səhih əl-Cami, 1077).

[1] Onlar Peyğəmbərin ﷺ yanında qalırlar ki, öz gözləri ilə onun nə cür namaz qıldığını görsünlər, necə Quran oxuduğunu eşitsinlər və bunları onun özündən öyrənsinlər. Bu cavanlar həmin vaxt təqribən iyirmi gün onunla birlikdə namaz qılmışlar.

[2] Bu əmr təkcə bu iyirmi gəncə deyil, bütün ümmətə şamil edilir. Peyğəmbəri ﷺ görənlərə gördükləri kimi, görməyənlərə isə görənlərdən eşidib öyrəndikləri kimi namaz qılmaq vacibdir. Başda səhabələr olmaqla bu ümmətin sələfləri bu şərəfli dini nəsildən-nəsilə öyrədə-öyrədə zamanəmizə gətirib çıxarmışlar.

[3] Diqqət edin, Peyğəmbər ﷺ onlara namazı qıldırmaq üçün ən yaşlılarının imam durmasını buyurur, lakin azan vermək üçün heç bir şərt qoymur. Bu da, namazı qıldıran imamın məqamının o birilərindən daha üstün olduğuna dəlalət edir.

[4] Digər hədisdə Peyğəmbər ﷺ səhabələrinə namaz qılmağı öyrədərkən belə buyurmuşdur: "Namaz vaxtı yetişdikdə, qoy biriniz azan versin və Qurandan ən çox (ayə) biləniniz sizə namaz qıldırsın" (Səhih əl-Buxari, 4302); başqa bir hədisdə "Quranı bilənlərinizin səviyyəsi eyni olarsa, Sünnəni daha yaxşı biləniniz sizə namaz qıldırsın" deyilir (Sunən Əbu Davud, 584; Sunən ət-Tirmizi, 235; Səhih əl-Cami, 8011). Bəs nə üçün Peyğəmbər ﷺ bu cavanlara əvvəlki şərtləri buyurmadı? Çünki onların Quran və Sünnə xüsusundakı savadları eyni idi.

[5] Bu hədisi Buxari (628), Muslim (1567), Nəsai (635), Darimi (1288), Daraqutni (1068) və İbn Hibban (1872) rəvayət etmişdir.

## ١٠٩- بَابُ الْمَرْأَةُ رَاعِيَةٌ

## 109-cu fəsil. Qadın himayəçidir[1]

**٢١٤-** حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبُ بْنُ أَبِي حَمْزَةَ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي سَالِمٌ، عَنِ ابْنِ عُمَرَ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((كُلُّكُمْ رَاعٍ، وَكُلُّكُمْ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ، الإِمَامُ رَاعٍ وَهُوَ مَسْؤُولٌ عَنْ رَعِيَّتِهِ، وَالرَّجُلُ رَاعٍ فِي أَهْلِهِ، وَالْمَرْأَةُ رَاعِيَةٌ فِي بَيْتِ زَوْجِهَا، وَالْخَادِمُ فِي مَالِ سَيِّدِهِ))، سَمِعْتُ هَؤُلَاءِ عَنِ النَّبِيِّ ﷺ، وَأَحْسَبُ النَّبِيَّ ﷺ قَالَ: ((وَالرَّجُلُ فِي مَالِ أَبِيهِ)).

**(214)** ........ İbn Ömər ﷺ rəvayət etmişdir ki, o, Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişdir: “Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir. İmam himayəçidir və o, öz rəiyyətinə cavabdehdir. Kişi öz ailəsinin hamisidir. Qadın ərinin evində himayəçidir. Kölə öz ağasının malını qoruyandır.” Mən bunları Peyğəmbərdən ﷺ eşitdim. Deyəsən, Peyğəmbər ﷺ həmçinin: “Kişi öz atasının malına nəzarət edəndir[2]”– demişdir.”[3]

---

[1] Hər bir qadın himayəsində olanlar barədə Qiyamət günü sorğu-sual olunacaq. Peyğəmbərin ﷺ “qadın himayəçidir” sözü, qadına yerinə yetirməsi vacib olan bütün öhdəlikləri əhatə edir. Hər bir qadın öz öhdəsinə düşən öhdəlikləri, savabını Allahdan umaraq yerinə yetirməlidir. Çünki o, Qiyamət günü bunlara görə cavab verəcək. Uca Allah ondan ərinin malını qoruyub-qorumadığı, onu israf edib-etmədiyi, yataqda ərinin haqqını ödəyib-ödəmədiyi, ona xəyanət edib-etmədiyi, onun xidmətində durub-durmadığı, ona itaət edib-etmədiyi, onunla xoş rəftar edib-etmədiyi, uşaqlarına tərbiyə verib-vermədiyi və başqa bu kimi öhdəlikləri yerinə yetirib-yetirmədiyi barədə mütləq sorğu-sual edəcək. Və əgər bu haqları layiqincə yerinə yetirərsə, Cənnəti qazanar, əks təqdirdə isə, Cəhənnəmlik olar.

[2] Bu himayəçilik övlada aiddir. Yəni övlad valideynin malına görə cavabdehdir. Övlad valideyninin malını qorumalı, onu lazımsız yerlərə sərf etməməli, bu mal vasitəsilə haram işlər görməməli, əksinə, onun artması və xeyirxah işlərə sərf edilməsi yolunda valideyninə arxa olmalıdır.

[3] 206-cı və 212-ci hədislərin qeydlərinə bax.

## ١١٠- بَابٌ مَنْ صُنِعَ إِلَيْهِ مَعْرُوفٌ فَلْيُكَافِئْهُ

## 110-cu fəsil. Kimə yaxşılıq edilmişsə, qoy onun əvəzini versin[1]

٢١٥- حَدَّثَنَا سَعِيدُ بْنُ عُفَيْرٍ قَالَ: حَدَّثَنِي يَحْيَى بْنُ أَيُّوبَ، عَنْ عُمَارَةَ بْنِ غَزِيَّةَ، عَنْ شُرَحْبِيلَ مَوْلَى الأَنْصَارِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ الأَنْصَارِيِّ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((مَنْ صُنِعَ إِلَيْهِ مَعْرُوفٌ فَلْيُجْزِئْهُ، فَإِنْ لَمْ يَجِدْ مَا يُجْزِئُهُ فَلْيُثْنِ عَلَيْهِ، فَإِنَّهُ إِذَا أَثْنَى عَلَيْهِ فَقَدْ شَكَرَهُ، وَإِنْ كَتَمَهُ فَقَدْ كَفَرَهُ، وَمَنْ تَحَلَّى بِمَا لَمْ يُعْطَ، فَكَأَنَّمَا لَبِسَ ثَوْبَيْ زُورٍ)).

**(215)** ........ Cabir ibn Abdullah əl-Ənsari ﷺ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: "Kimə yaxşılıq edilmişsə, qoy, onun əvəzini versin. Əvəz verməyə bir şey tapa bilməsə, qoy, ona yaxşılıq etmiş adamı tərifləsin.[3] Çünki o, həmin adamı təriflədiyi zaman ona təşəkkür etmiş olar, bunu etmədikdə isə, ona qarşı nankorluq etmiş olar.[4] Kim də verilməyən bir şeyi geyinərsə, sanki bir cüt böhtan libası geymiş olar.[5]"

---

[1] Hər bir müsəlman özünə edilmiş yaxşılğa yaxşılıqla cavab verməli, hətta o yaxşılığı edən kimsə kafir olsa belə, onun əvəzini verməlidir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Burada "tərifləsin" deyildikdə, həm yaxşılıq edən kimsəni tərifləmək, həm də onun üçün dua etmək, Allahdan xeyir-bərəkət diləmək nəzərdə tutulur. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim özünə yaxşılıq etmiş adama: "Cəzakəllahu xeyran (Allah səni xeyirlə mükafatlandırsın)!"– desə, ən gözəl şəkildə tərif etmiş olar" (Sunən ət-Tirmizi, 2167; Səhih əl-Cami, 6368). Bu hədisdə "Allah səni xeyirlə mükafatlandırsın" deyildikdə, dünyada və Axirətdə olan bütün xeyirlər nəzərdə tutulur. Təəssüflər olsun ki, bəzi müsəlmanlar bu cür xeyirli duanı qoyub, mənasız və xeyirsiz sözlərlə bir-birinə tariflər deyirlər. Yeri gəlmişkən qeyd edək ki, kafir adamın etdiyi yaxşılığın əvəzinə ona "Allah səni xeyirlə mükafatlandırsın!", "Allah səndən razı olsun!" və s. buna bənzər dualar demək olmaz. Kafirə yalnız Allahdan hidayət diləmək olar.

[4] Bundan aydın olur ki, insanlar bu xüsusda iki qismə bölünürlər: yaxşılıq edən kimsəni tərifləyib, onun üçün dua edib, beləliklə də, ona təşəkkür etməklə bu yaxşılığın əvəzini verən qədirbilən insanlar. Və bir də bu yaxşılığın əvəzini verməyən və sahibi üçün dua etməyən nankor adamlar.

[5] Söhbət fəzilət sahibi olmadığı halda özünü fəzilətli insan kimi aparan, məsələn, zındıq ola-ola özünü zahid kimi yaxud fasiq ola-ola özünü müttəqi kimi yaxud cahil ola-

٢١٦– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنِ الأَعْمَشِ، عَنْ مُجَاهِدٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنِ اسْتَعَاذَ بِاللَّهِ فَأَعِيذُوهُ، وَمَنْ سَأَلَ بِاللَّهِ فَأَعْطُوهُ، وَمَنْ أَتَى إِلَيْكُمْ مَعْرُوفًا فَكَافِئُوهُ، فَإِنْ لَمْ تَجِدُوا فَادْعُوا لَهُ، حَتَّى يَعْلَمَ أَنْ قَدْ كَافَأْتُمُوهُ)).

**(216)** ........ İbn Ömər ﷺ rəvayət edir ki,[1] Rəsulullah ﷺ demişdir: “Kim Allahın adı ilə sığınacaq istəsə, ona sığınacaq verin. Kim Allahın adı ilə (yardım) istəsə, ona istədiyini verin.[2] Kim sizə yaxşılıq etsə, ona əvəzini verin. Əgər (əvəzini verməyə bir şey) tapmasanız, onda onun üçün dua edin və elə edin ki, o, sizin[3] (bu yaxşılığın) əvəzini verdiyinizi bilsin.”

---

ola özünü alim kimi yaxud kasıb ola-ola özünü zəngin kimi göstərən lovğa və gopçu adamdan gedir. Burada “bir cüt böhtan libası” deyildikdə, bu lovğa və gopçu adamın eyni vaxtda iki yalanı özündə cəm etməsi nəzərdə tutulur. Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Əldə etmədiyi bir şeyi əldə etdiyini bildirən kimsə bir cüt böhtan libası geymiş adama bənzəyir” (Səhih əl-Buxari, 5219).

[1] Bu hədisi Əbu Davud (1/389; 2/622), Nəsai (1/358), İbn Hibban (2071), Hakim (1/412), Beyhəqi (4/199), Əhməd (2/68, 99) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Silsilətul-Əhadisis-Səhihə” əsərində (1/454) onun “səhih” olduğunu demişdir.

[2] Yəni kimsə sənə: “Səndən Allaha sığınıram” desə, ona sığınacaq ver. Necə ki, Covnün qızı Peyğəmbərin ﷺ evinə gəlin gətirildiyi zaman və Peyğəmbər ﷺ ona yaxınlaşdıqda qız ona: “Mən səndən Allaha sığınıram!”– demiş, Peyğəmbər ﷺ də ona: “Sən Əzəmətli *Allaha* sığındın. Elə isə, get ailənin yanına” deyib onu boşamışdır” (Səhih əl-Buxari, 5254). Həmçinin, kimsə zalımdan qorunmaq üçün Allahın adı ilə sığınacaq istəsə, ona sığınacaq verib onu zalımdan qorumaq lazımdır. Və əgər adam haram iş görmək üçün və ya kimsənin haqqına girmək məqsədilə sığınacaq istəyərsə, bu halda ona sığınacaq vermək qadağandır. Məsələn, adam birisindən öz haqqını tələb etdiyi zaman borclu olan adam: “Səndən Allaha sığınıram” desə, onun bu sözünə görə haqdan imtina etmək olmaz. Habelə, Allahın adı ilə günah iş görmək istəyən bir kimsə: “Allah xatirinə mənə filan qədər pul ver şərab alım”– desə, ona istədiyini vermək olmaz. Demək, Allahın adı ilə sığınacaq istəyən və ya Allahın adı ilə yardım istəyən kimsəyə yalnız şəriətin izin verdiyi işlərdə sığınacaq vermək və ya yardım etmək olar.

[3] Digər rəvayətlərdə deyilir: “...və elə edin ki, siz bu yaxşılığın əvəzini verdiyinizi hiss etdirəsiniz” (Sunən Əbu Davud 1672; Səhih əl-Cami, 6021). Yəni yaxşılıq etmiş adam üçün Allahdan xeyir-bərəkət diləməli və bunu ona eşitdirməlisiniz. Onu da qeyd edək ki, bunların hər ikisini cəm etmək, yəni həm yaxşılıq edən adamın yaxşılığının əvəzini vermək, həm də onun üçün dua etmək caizdir.

## ١١١- بَابٌ مَنْ لَمْ يَجِدِ الْمُكَافَأَةَ فَلْيَدْعُ لَهُ

## 111-ci fəsil. Kim (özünə yaxşılıq etmiş adama) əvəz verməyə bir şey tapmasa, onun üçün dua etsin

٢١٧- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ، أَنَّ الْمُهَاجِرِينَ قَالُوا: يَا رَسُولَ اللهِ، ذَهَبَ الأَنْصَارُ بِالأَجْرِ كُلِّهِ؟ قَالَ: ((لاَ، مَا دَعَوْتُمُ اللهَ لَهُمْ، وَأَثْنَيْتُمْ عَلَيْهِمْ بِهِ)).

**(217)** ........ Ənəs ﷺ rəvayət edir ki, (bir dəfə) mühacirlər (Peyğəmbərə ﷺ): “Ya Rəsulullah! Deyəsən, savabın hamısını ənsar qazanır?”[1] Peyğəmbər ﷺ

---

[1] Mühacirlərin nəyə görə belə sual verdiyi digər mənbələrdə öz əksini tapmışdır. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra *bir dəfə* mühacirlər onun yanına gəlib dedilər: “Ya Rəsulullah, biz ənsar qədər malının çoxundan da, azından da olduqca çox xərcləyən və olduqca əliaçıq olan başqa birisini görməmişik. Onlar bizim qeydimizə qalmış və bizim bütün ehtiyaclarımızı ödəmişlər. Qorxuruq ki, savabın hamısını onlar qazana.” Peyğəmbər ﷺ buyurdu: “Xeyr, nə qədər ki, siz onlar üçün Allaha dua edirsiniz və *yaxşı əməllərinə görə* onları tərifləyirsiniz, *siz də savab qazanırsınız*” (Sunən ət-Tirmizi, 2675; Musnəd İmam Əhməd, 3/200, 204; Səhih Tərğib vət-Tərhib, 977). Ənsarın mühacirləri nə qədər çox istədiyi barədə Quranda belə buyurulur: **“*Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır”** (əl-Həşr, 9). Bu fəsildəki hədisdə mühacirlərin: “Deyəsən, savabın hamısını ənsar qazanır?” sözü onların savab qazanmağa olduqca həris olduğundan xəbər verir. Neçə-neçə hədislərdə səhabələrin savab qazanmağa can atdığı xəbər verilmişdir. Həmin hədislərdən birində Əbu Hureyrə ﷺ demişdir: “Kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: “Varlılar ən yüksək məqamlara və tükənməz nemətlərə nail oldular.” Peyğəmbər ﷺ: “Bu necə ola bilər?”– deyə soruşdu. Dedilər: “Onlar bizim kimi namaz qılır və bizim kimi oruc tuturlar. Üstəlik, onlar sədəqə verir, biz isə verə bilmirik, onlar kölə azad edir, biz isə azad edə bilmirik.” Peyğəmbər ﷺ buyurdu: “Sizə elə bir şey öyrədimmi ki, onu yerinə yetirməklə sizi ötüb

buyurdu: "Xeyr, nə qədər ki, siz onlar üçün Allaha dua edirsiniz və (yaxşı əməllərinə görə) onları tərifləyirsiniz (siz də savab qazanırsınız)."[1]

---

keçənlərə çatasınız, sizdən sonra yaşayanlardan heç kəs sizə çata bilməsin və sizin etdiyinizi edənlər istisna olmaqla, aranızda olan kimsələrin ən xeyirlisi siz olasınız?" Onlar: "Bəli, ya Rəsulullah!"– dedikdə o belə buyurdu: "Hər *vacib* namazdan sonra otuz üç dəfə "Subhanəllah", *otuz üç dəfə* "Əlhəmdulilləh" və *otuz üç dəfə* "Allahu Əkbər" deyin!"

"*Bir müddətdən* sonra kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına qayıdıb dedilər: "Varlı qardaşlarımız bizim dediklərimizi eşitdilər və onlar da bu zikrləri etməyə başladılar. Peyğəmbər ﷺ dedi: "Bu, Allahın lütfüdür, onu istədiyinə verər" (Səhih Muslim, 1347).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

# ١١٢- بَابُ مَنْ لَمْ يَشْكُرِ النَّاسَ

## 112-ci fəsil. İnsanlara təşəkkür etməyən kəs

٢١٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا الرَّبِيعُ بْنُ مُسْلِمٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ زِيَادٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَشْكُرُ اللَّهَ مَنْ لاَ يَشْكُرُ النَّاسَ)).

**(218)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlara təşəkkür etməyən kəs, Allaha da şükür etmiş olmaz.[1]"[2]

٢١٩- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا الرَّبِيعُ بْنُ مُسْلِمٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ زِيَادٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((قَالَ اللَّهُ تَعَالَى لِلنَّفْسِ: اخْرُجِي، قَالَتْ: لاَ أَخْرُجُ إِلاَّ كَارِهَةً)).

---

[1] Qazı İyad demişdir: "İnsan Allaha itaət etdiyi və Onun əmrlərini yerinə yetirdiyi təqdirdə həqiqi mənada Allaha şükür etmiş sayılır. Allahın insana əmr etdiklərindən biri də budur ki, ona yaxşılıq edən kimsəyə təşəkkür etsin. Çünki yaxşılıq edən adam məhz Allahın ona bəxş etdiyi neməti sayəsində yaxşılıq edir. Demək, yaxşılıq edən adama təşəkkür etməyən kimsə, əslində Allahın nemətinə qarşı nankorluq etmiş hesab edilir" (Tohfətul-Əhvəzi, 1877-ci hədisin şərhi). Çünki insanlara verilən nemətlərin hamısı Allaha məxsusdur. Bu xüsüsdə Uca Allah buyurur: **"Sizə verilən nemətlərin hamısı Allahdandır"** (ən-Nəhl, 53); digər ayədə O, buyurur: **"Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz"** (İbrahim, 34). Yaxud, bu hədisi başqa cür izah edib demək olar ki, əlindəki az miqdarda nemətə görə insanlara şükür etməyən kimsə, göylərdə və yerdə olan mülkün Sahibinə də şükür etməz. Aza şükür etməyən adamın çoxa da şükür etməyəcəyi barədə Peyğəmbər ﷺ demişdir: "Allahın nemətləri barədə danışmaq şükür, danışmamaq isə küfrdür. Aza şükür etməyən kəs, çoxa da şükür etməz. Habelə, insanlara təşəkkür etməyən kəs Allaha da şükür etməz..." (Səhih əl-Cami, 3014).

[2] Bu hədisi Əbu Davud (4813), Tirmizi (1954), Əhməd (2/295, 303, 388, 461, 492) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(219)** …….. Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Uca Allah nəfsə:[1] “Çıx!”– deyə buyurdu. O isə: “Mən ancaq könülsüz olaraq çıxacağam”– deyə cavab verdi.[2]

---

[1] Munavi bu hədisi izah edərkən demişdir: “Burada: “nəfs” deyildikdə, mütləq şəkildə bütün nəfslər (yəni ruhlar) nəzərdə tutulur. Nəfs uzun illər içində olduğu bədənə öyrəşdiyinə, meylini ona saldığına və ona bağlandığına görə: “Mən ancaq könülsüz olaraq çıxacağam”– deyir” (Feydul-Qədir Şərh Camius-Səğir).

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

## ١١٣ – بَابُ مَعُونَةِ الرَّجُلِ أَخَاهُ

## 113-ü fəsil. Kişinin öz qardaşınaköməklik etməsi

٢٢٠– حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أُوَيْسٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ عُرْوَةَ، عَنْ أَبِي مُرَاوِحٍ، عَنْ أَبِي ذَرٍّ، عَنِ النَّبِيِّ ﷺ، قِيلَ: أَيُّ الأَعْمَالِ خَيْرٌ؟ قَالَ: ((إِيمَانٌ بِاللَّهِ، وَجِهَادٌ فِي سَبِيلِهِ))، قِيلَ: فَأَيُّ الرِّقَابِ أَفْضَلُ؟ قَالَ: ((أَغْلاَهَا ثَمَنًا، وَأَنْفَسُهَا عِنْدَ أَهْلِهِ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ لَمْ أَسْتَطِعْ بَعْضَ العَمَلِ؟ قَالَ: ((فَتُعِينُ ضَائِعًا، أَوْ تَصْنَعُ لأَخْرَقَ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ ضَعُفْتُ؟ قَالَ: ((تَدَعُ النَّاسَ مِنَ الشَّرِّ ، فَإِنَّهَا صَدَقَةٌ تَصَدَّقُ بِهَا عَلَى نَفْسِكَ)).

**(220)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbərdən ﷺ soruşdular: "Hansı əməl ən xeyirli əməl sayılır?"[1] O, buyurdu: "Allaha iman gətirmək və Onun yolunda cihad etmək!"[2] Yenə soruşdular: "Hansı köləni azad etmək daha fəzilətlidir?" O, buyurdu: "Ən bahalı və sahibi üçün ən dəyərli olanı!"[3] Yenə soruşdular: "Bir de görək, bəzi (yaxşı) əməlləri edə bilmə-

---

[1] Səhabələr çox vaxt Peyğəmbərə ﷺ belə suallar verərdilər ki, ən xeyirli yaxud ən fəzilətli yaxud Allahın ən çox sevdiyi, habelə, Sünnəyə müvafiq olan əməllərin hansı əməllər olduğunu öyrənsinlər və hamıdan əvvəl buna əməl etsinlər. Əməllərin ən xeyirlisi də bu hədisdə qeyd olunduğu kimi Allaha iman gətirmək və Onun yolunda cihad etməkdir. Digər bir hədisdə Peyğəmbər ﷺ səhabələrinin: "İnsanların ən fəzilətlisi kimdir?" sulaına da eyni cavabı verib demişdir: "Allah yolunda malı və canı ilə cihad edən möminDir" (Səhih əl-Buxari, 2786). Bu xüsusda, Uca Allah buyurur: **"Möminlərdən – üzrlülər istisna olmaqla – *evdə* oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri *evdə* oturanlardan dərəcə etibarilə üstün etdi. Allah *onların* hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri *evdə* oturanlardan böyük bir mükafatla üstün etmişdir"** (ən-Nisa, 95); digər ayədə O, buyurur: "**Möminlər ancaq Allaha və Onun rəsuluna iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! *İmanlarında* sadiq olanlar da məhz onlardır**" (əl-Hucurat, 15).

[2] 1-ci hədisin qeydlərinə bax.

[3] Belə köləni azad etmək hər möminin işi deyil. Bunun üçün adamda güclü iman olmalıdır. Belə ki, insanların əksəriyyətinin sevdiyi maldan sədəqə verməyə əli gəlmir. La-

səm,[1] onda necə?" O buyurdu: "Biçarə kimsəyə köməklik göstər və ya işi bacarmayan adamın işini gör!" Yenə soruşdular: "Bunu da bacarmasam, necə? O buyurdu: "İnsanlara pislik etməkdən çəkin. Belə etsən, bu sənin özünə verdiyin bir sədəqə olar."[2]

---

kin Uca Allah buyurur: **"Sevdiyiniz şeylərdən *Allah yolunda* xərcləməyincə xeyrə nail olmayacaqsınız"** (Ali-İmran, 92). Ənəs ibn Malik ﷺ rəvayət edir ki, ənsarın arasında Mədinədə ən çox xurma ağacı olan *səhabə* Əbu Talhə idi. Bunlardan onun ən çox sevdiyi, məscidin qarşı tərəfində yerləşən Beyruhə bağı idi. Peyğəmbər ﷺ tez-tez o bağa gəlib, oradakı dadlı sudan içərdi. Nəhayət, **"Sevdiyiniz şeylərdən *Allah yolunda* xərcləməyincə xeyrə nail olmayacaqsınız..."** ayəsi nazil olduqda Əbu Talhə Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah! Allah təbarəkə və təalə buyurur: **"Sevdiyiniz şeylərdən *Allah yolunda* xərcləməyincə xeyrə nail olmayacaqsınız..."** Mənim də ən çox sevdiyim mal Beyruhə bağımdır. Mən onu Allah yolunda sədəqə verirəm və ümid edirəm ki, Allah yanında bundan da xeyirlisini, Axirət mükafatını tapacağam. Götür onu, Allahın sənə məsləhət gördüyü işlərə sərf et, ya Rəsulullah!" Peyğəmbər ﷺ buyurdu: "Bəh-bəh, bu mal qazanc gətirəcək, mütləq qazanc gətirəcək! Sənin dediyini eşitdim, lakin məsləhət görürəm ki, bunu öz qohum-əqrəbana sərf edəsən." Əbu Talhə: "Belə də edərəm, ya Rəsulullah!"– dedi, sonra da onu qohum-əqrəbasının və əmisi oğullarının arasında paylaşdırdı" (Səhih əl-Buxari, 1461). Demək, sevdiyimiz şeyləri Allah yolunda xərcləsək, vallahi ki, bu bizə mütləq qazanc gətirəcək.

[1] Burada səhabə tənbəllik üzündən yox, imkansızlıq baxımından kölə azad edə bilmədiyini qəsd edir.

[2] Bu hədisi Buxari (2518), Muslim (1/62) və Əhməd (5/150, 171) rəvayət etmişdir.

## ١١٤- بَابُ أَهْلُ الْمَعْرُوفِ فِي الدُّنْيَا أَهْلُ الْمَعْرُوفِ فِي الآخِرَةِ

## 114-cü fəsil. Dünyada yaxşı əməl sahibləri olmuş kəslər, Axirətdə də yaxşı əməl sahibləri olacaqlar[1]

٢٢١- حَدَّثَنَا عَلِيُّ بْنُ أَبِي هَاشِمٍ قَالَ: حَدَّثَنِي نُصَيْرُ بْنُ عُمَرَ بْنِ يَزِيدِ بْنِ قَبِيصَةَ بْنِ يَزِيدٍ الأَسَدِيُّ، عَنْ فُلاَنٍ قَالَ: سَمِعْتُ بُرْمَةَ بْنَ لَيْثِ بْنِ بُرْمَةَ، أَنَّهُ سَمِعَ قَبِيصَةَ بْنَ بُرْمَةَ الأَسَدِيَّ قَالَ: كُنْتُ عِنْدَ النَّبِيِّ ﷺ فَسَمِعْتُهُ يَقُولُ: ((أَهْلُ الْمَعْرُوفِ فِي الدُّنْيَا هُمْ أَهْلُ الْمَعْرُوفِ فِي الآخِرَةِ، وَأَهْلُ الْمُنْكَرِ فِي الدُّنْيَا هُمْ أَهْلُ الْمُنْكَرِ فِي الآخِرَةِ)).

**(221)** ........ Qəbisə ibn Burma əl-Əsədi ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ yanında ikən, onun belə dediyini eşitdim: "Bu dünyada yaxşı əməl sahibləri olmuş kimsələr,[2] Axirətdə də yaxşı əməl sahibləri olacaqlar.[3] Həmçi-

---

[1] Qiyamət günü hər kəs bu dünyada etdiyi əmələ uyğun həşr olunacaq. Yaxşı işlər görən kimsələr əməlisalehlərin zümrəsində, pis işlər görənlər isə asilik etmiş kimsələrin zümrəsində olacaqlar.

[2] Abbas ﷺ demişdir: "Yaxşılıq üç şərtlə tamamlana bilər: vaxtında yerinə yetirilməklə, şişirdilməməklə və bir də gizli saxlanılmaqla." (Feydul-Qədir). Yəni yaxşılıq etmək istəyən kəs onu sonraya saxlamamalı, nə qədər çox yaxşılıq etsə də, bunu az hesab etməli və etdiyi yaxşılığı orada-burada danışıb özünü göstərməməlidir. Əlbəttə ki, bu hədisdə "yaxşılıq etmək" deyildikdə, məhz Allahın rizasını qazanmaq üçün və Peyğəmbərin ﷺ buyurduğu tərzdə yerinə yetirilən hər növ yaxşı əməl nəzərdə tutulur. Belə ki, pis əməldən çəkinməyin özü də yaxşılıq hesab edilir (220-ci, 226-cı və 306-cı hədislərə bax).

[3] Yaxşı əməl sahiblərinin Axirətdə də yaxşı əməl sahibləri olması iki cür izah edilir: birincisi budur ki, Allah onlara dünyada etdikləri yaxşılıqlara görə böyük xeyir və çoxlu nemətlər bəxş edəcək. İkincisi budur ki, onlar bu dünyada insanlara yaxşılıq etdikləri kimi, Axirətdə də onlara yaxşılıq edəcəklər, yəni şəfaətçi olacaqlar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qiyamət günü onlar: "Ey Rəbbimiz! *Bu zavallılar* bizimlə bərabər oruc tutar, namaz qılar və həcc ziyarətini yerinə yetirərdilər"– deyəcəklər. Onda onlara: "Tanıdığınız kimsələri *Oddan* çıxardın, onların vücudu Cəhənnəm oduna haram edilir!"– deyiləcək" (Səhih Muslim, 454). Bu, dəlildir ki, Qiyamət günü Allahın şəfaətçi olmağa izin verdiyi yaxşı əməl sahibləri şəfaətçilik edəcəklər. Şəfaət: birisinin mənfəət

nin, bu dünyada pis əməl sahibləri[1] olmuş kimsələr, Axirətdə də pis əməl sahibləri olacaqlar."[2]

٢٢٢– حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ حَسَّانَ الْعَنْبَرِيُّ قَالَ: حَدَّثَنَا حِبَّانُ بْنُ عَاصِمٍ، وَكَانَ حَرْمَلَةُ أَبَا أُمِّهِ، فَحَدَّثَتْنِي صَفِيَّةُ ابْنَةُ عُلَيْبَةَ، وَدُحَيْبَةُ ابْنَةُ عُلَيْبَةَ، وَكَانَ جَدَّهُمَا حَرْمَلَةُ أَبَا أَبِيهِمَا، أَنَّهُ أَخْبَرَهُمْ، عَنْ حَرْمَلَةَ بْنِ عَبْدِ اللَّهِ، أَنَّهُ خَرَجَ حَتَّى أَتَى النَّبِيَّ ﷺ، فَكَانَ عِنْدَهُ حَتَّى عَرَفَهُ النَّبِيُّ ﷺ، فَلَمَّا ارْتَحَلَ قُلْتُ فِي نَفْسِي: وَاللَّهِ لآتِيَنَّ النَّبِيَّ ﷺ حَتَّى أَزْدَادَ مِنَ الْعِلْمِ، فَجِئْتُ أَمْشِي حَتَّى قُمْتُ بَيْنَ يَدَيْهِ فَقُلْتُ مَا تَأْمُرُنِي أَعْمَلُ؟ قَالَ: ((يَا حَرْمَلَةُ، ائْتِ الْمَعْرُوفَ، وَاجْتَنِبِ الْمُنْكَرَ))، ثُمَّ رَجَعْتُ، حَتَّى جِئْتُ الرَّاحِلَةَ، ثُمَّ أَقْبَلْتُ حَتَّى قُمْتُ مَقَامِي قَرِيبًا مِنْهُ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، مَا تَأْمُرُنِي أَعْمَلُ؟ قَالَ: ((يَا حَرْمَلَةُ، ائْتِ الْمَعْرُوفَ، وَاجْتَنِبِ الْمُنْكَرَ، وَانْظُرْ مَا يُعْجِبُ أُذُنَكَ أَنْ يَقُولَ لَكَ الْقَوْمُ إِذَا قُمْتَ مِنْ عِنْدِهِمْ فَأْتِهِ، وَانْظُرِ الَّذِي تَكْرَهُ أَنْ يَقُولَ لَكَ الْقَوْمُ إِذَا قُمْتَ مِنْ عِنْدِهِمْ فَاجْتَنِبْهُ))، فَلَمَّا رَجَعْتُ تَفَكَّرْتُ، فَإِذَا هُمَا لَمْ يَدَعَا شَيْئًا.

---

əldə etməsi və ya ziyana düşməməsi üçün onunla başqa birisinin arasında vasitəçilik etmək deməkdir. Birincisinə, yəni mənfəət əldə etməyə, Cənnət əhlinin Cənnətə daxil olmasında Peyğəmbərimizin ﷺ onlar üçün şəfaət etməsini misal çəkmək olar. İkincisinə, yəni zərəri dəf etməyə isə Cəhənnəmə girənlərin oradan çıxarılmasında Peyğəmbərimizin ﷺ onlar üçün şəfaət etməsini misal çəkmək olar. Deməli, bu dünyada insanlara yaxşılıq etmiş əməlisaleh möminlər, Axirətdə də əməlisalehlərdən olacaqlar.

[1] Pis əməl sahiblərinin Axirətdə də pis əməl sahibləri olması da iki cür izah edilir: birincisi budur ki, onlar dünyada etdikləri pis əməllərə görə cəzalandırılacaq. İkincisi budur ki, Axirətdə şəfaətçi olmaq onlara nəsib olmayacaq. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Lənət edənlər Qiyamət günü nə şəfaətçi, nə də şahid olacaqlar" (Səhih Muslim, 6775). Deməli, Qiyamət günü hər kəs bu dünyada olduğu halına uyğun həşr olunacaq. Peyğəmbər ﷺ demişdir: "Hər kəs ömrünü nə cür başa vurubsa, elə də həşr olunacaq" (Səhih Muslim, 7413). Bu hədisin mənasını başa düşsəniz, həmişə yaxşı işlər görməyə can atar və pis işlərdən çəkinərsiniz.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih li-ğeyrihi" olduğunu demişdir.

**(222)** ........ Hərmələ ibn Abdullah ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəldim və o, məni tanıyana qədər onun yanında qaldım. O, çıxıb getdikdə, mən öz-özümə dedim: "Vallahi ki, elmim artana qədər mən Peyğəmbərin ﷺ yanına gələcəyəm. Sonra mən gedib onun qarşısında durdum və dedim: "Mənə nə etməyi buyurursan?" O, dedi: "Ey Hərmələ, yaxşılıq et və pislikdən əl çək!" Sonra mən miniyimin yanına qayıtdım. Daha sonra, yenə ona yaxın bir yerdə dayanıb dedim: "Ya Rəsulullah, mənə nə etməyi buyurursan?" O, dedi: "Ey Hərmələ, yaxşılıq et və pislikdən əl çək! Bax, camaatın yanından qalxdığın zaman (etdiyin əmələ görə) onlardan xoşagələn sözlər eşitsən, həmin əməli yerinə yetir, habelə, camaatın yanından qalxdıqda, (etdiyin əmələ görə) onlardan xoşagəlməyən sözlər eşitsən, o əməldən əl çək." Mən geri qayıtdıqda çox düşündüm və anladım ki, bu iki nəsihət (bütün) xeyirləri özündə cəm etmişdir."[1]

---

[1] Bu hədisin isnadında keçən Abdullah ibn Həssan əl-Ənbəri "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisid-Daifə" əsərində (1489) bu hədisin "zəif" olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, hədisin bir hissəsi, xüsusilə də fəslin ünvanına aid olan tərəfi məna baxımından "səhih"dir. Yəni səhabələr bu dini öyrənmək üçün mütəmadi olaraq Peyğəmbərin ﷺ yanına gələr, hətta bəziləri uzun müddət onun yanında qalar – məscidin bir tərəfində və ya yaxınlığında məskunlaşar, ondan nəyin xeyir və nəyin şər olduğunu öyrənərdilər. Peyğəmbər ﷺ də həmişə onlara yaxşılıq etməyi və pis əməllərdən çəkinməyi buyurardı. Bu ümmətin ən gözəl xüsusiyyəti də elə budur. Uca Allah bu xüsusda buyurur: **"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; *onlara* yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz"** (Ali-İmran, 110). İnsanların bir qisminin yaxşı, bir qisminin də pis olduğu barədə isə Peyğəmbər ﷺ demişdir: "İnsanlar arasında elələri vardır ki, onlar xeyir *qapılarını* açan və şər *qapılarını* bağlayan açardırlar. Onların arasında elələri də vardır ki, onlar şər *qapılarını* açan və xeyir *qapılarını* bağlayan açardırlar. Xeyir qapılarının açarları əlində olan kimsənin xoş halına. Şər qapılarının açarları əlində olan kimsənin də vay halına" (Sunən İbn Macə, 237; Silsilətul-Əhadisis-Səhihə, 1332); digər bir hədisdə Peyğəmbər ﷺ səhabələrindən: "Sizə ən yaxşınız barədə xəbər verimmi?"– deyə soruşmuş və səhabələri ona: "Bəli" deyə cavab verdikdə, o belə buyurmuşdur: "Yaxşınız o kəsdir ki, ondan yaxşılıq umulur və şər əməllər gözlənilmir. Pisiniz də o kəsdir ki, ondan yaxşılıq umulmur, *üstəlik,* şər əməllər gözlənilir" (Sunən ət-Tirmizi, 2432; Səhih əl-Cami, 2603). Xüsusilə qeyd etmək lazımdır ki, bu hədislərin insan xatirinə görülən işlərə heç bir aidiyyəti yoxdur. Yəni bu hədisdən elə başa düşülməməlidir ki, adam camaatın xoşuna gələn işləri ye-

**٢٢٣-** حَدَّثَنَا الْحَسَنُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ قَالَ: ذَكَرْتُ لأَبِي حَدِيثَ أَبِي عُثْمَانَ، عَنْ سَلْمَانَ، أَنَّهُ قَالَ: إِنَّ أَهْلَ الْمَعْرُوفِ فِي الدُّنْيَا هُمْ أَهْلُ الْمَعْرُوفِ فِي الآخِرَةِ، فَقَالَ: إِنِّي سَمِعْتُهُ مِنْ أَبِي عُثْمَانَ يُحَدِّثُهُ، عَنْ سَلْمَانَ، فَعَرَفْتُ أَنَّ ذَاكَ كَذَاكَ، فَمَا حَدَّثْتُ بِهِ أَحَدًا قَطُّ.

**(223)** ........ Mutəmir rəvayət edir ki, (bir dəfə) mən atama[1] Əbu Osmanın[2] Salmandan[3] eşitdiyi hədisi danışdım: "Bu dünyada yaxşı əməl sahibləri olmuş kimsələr Axirətdə də yaxşı əməl sahibləri olacaqlar." Mən Əbu Osmanın Salmandan bu hədisi rəvayət etdiyini eşitdim və başa düşdüm ki, bu onun danışdığı kimidir.[4] Bundan sonra mən bu hədisi heç vaxt, heç kəsə danışmadım.[5]"[6]

**(...)-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ، عَنْ عَاصِمٍ، عَنْ أَبِي عُثْمَانَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ مِثْلَهُ.

**(...)** Musa bizə belə rəvayət etmişdir: "Bizə Abdulvahid Asimdən, o da, Əbu Osmandan, o da, Rəsulullahdan ﷺ ..." (əvvəlki hədisin) bənzərini rəvayət etmişdir.

---

rinə yetirməli və onların xoşuna gəlməyən işlərdən çəkinməlidir. Xeyr, mömin adam insanların xoşuna gəlməsə də, öz əməlləri ilə yalnız Allahı razı salmalı və Onu qəzəbə gətirəcək əməllərdən çəkinməlidir.

[1] Mutəmirin atası, Əbu Mutəmir Suleyman ibn Tarxan ət-Teymidir.

[2] Əbu Osman Abdur-Rəhman ibn Məllə ən-Nəhdi səhabə olmasa da, muxədrəmlərə, yəni Peyğəmbərin ﷺ zamanında İslamı qəbul etmiş, lakin onu görməmiş insanlara aiddir.

[3] Söhbət Salman əl-Farisidən gedir.

[4] Bu, o deməkdir ki, Mutəmir bu hədisi əvvəlcə isnadsız olaraq kimlərdənsə eşitmiş, sonra da onu dəqiqləşdirmək üçün atasına danışmışdır. Atası ona bu hədisi Əbu Osmandan eşitdiyini deyəndə isə artıq bu hədisin isnadı olduğunu yəqin etmişdir. Hərçənd, bu isnad yalnız Salman əl-Farisiyə qədər yüksəlir ki, buna hədis istilahında "movquf" deyilir, lakin "movquf" olsa da, isnadda keçən ravilərin hamısı etibarlı ravilərdir. Bundan əlavə, bu söz Peyğəmbərin ﷺ sözüdür (221-ci hədisə bax).

[5] Mutəmir demək istəyir ki, bu hədisi atasından eşidənədək, başqa cür desək, dəqiqləşdirənədək onu heç kəsə danışmamışdır. Dəqiqləşdirdikdən sonra isə artıq isnadla "atamdan, o da, Əbu Osmandan, o da, Salmandan" deyərək, bu hədisi rəvayət etmişdir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

# ١١٥- بَابٌ إِنَّ كُلَّ مَعْرُوفٍ صَدَقَةٌ

## 115-ci fəsil. Hər bir yaxşılıq sədəqədir[1]

**٢٢٤-** حَدَّثَنَا عَلِيُّ بْنُ عَيَّاشٍ قَالَ: حَدَّثَنَا أَبُو غَسَّانَ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ)).

**(224)** ........ Cabir ibn Abdullah ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Hər bir yaxşılıq sədəqədir."[2]

**٢٢٥-** حَدَّثَنَا آدَمُ بْنُ أَبِي إِيَاسٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنِي سَعِيدُ بْنُ أَبِي بُرْدَةَ بْنِ أَبِي مُوسَى، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((عَلَى كُلِّ مُسْلِمٍ صَدَقَةٌ))، قَالُوا: فَإِنْ لَمْ يَجِدْ؟ قَالَ: ((فَيَعْتَمِلُ بِيَدَيْهِ، فَيَنْفَعُ نَفْسَهُ، وَيَتَصَدَّقُ))، قَالُوا: فَإِنْ لَمْ يَسْتَطِعْ، أَوْ لَمْ يَفْعَلْ؟ قَالَ: ((فَيُعِينُ ذَا الْحَاجَةِ الْمَلْهُوفَ))، قَالُوا: فَإِنْ لَمْ يَفْعَلْ؟ قَالَ: ((فَيَأْمُرُ بِالْخَيْرِ، أَوْ يَأْمُرُ بِالْمَعْرُوفِ))، قَالُوا: فَإِنْ لَمْ يَفْعَلْ؟ قَالَ: ((فَيُمْسِكُ عَنِ الشَّرِّ، فَإِنَّهُ لَهُ صَدَقَةٌ)).

**(225)** ........ Əbu Musa ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Hər bir müsəlman sədəqə verməlidir."[3] (Səhabələr) soruşdular: "(Sədəqə ver-

---

[1] Burada "yaxşılıq" deyildikdə, təkcə mal-dövlət ilə olan yaxşılıq yox, ümumiyyətlə, bütün yaxşılıqlar nəzərdə tutulur. Gülərüzlə qardaşını qarşılamaq, deyilən hər yaxşı söz, adamın öz dostuna yardım etməsi, əziyyət verən şeyi yoldan kənar etmək və başqa bu kimi yaxşı əməllərin hamısı sədəqədir (304-cü və 422-ci hədislərə bax). Odur ki, Peyğəmbər ﷺ demişdir: "Varlıya yaxud kasıba etdiyin hər bir yaxşılıq sədəqədir" (Mocəmul-Kəbir, 3/62; Silsilətul-Əhadisis-Səhihə, 2040).

[2] Bu hədisi Buxari (6021), Muslim (2375), Əbu Davud (4947) və Əhməd (4/307) rəvayət etmişdir.

[3] Bu hədisdə qəsd edilən sədəqəni vermək hər bir müsəlmana vacibdir. Buna şükür etmək, namaz qılmaq və digər vaciblər, habelə, müstəhəblər aiddir. Peyğəmbər ﷺ demişdir: "Sizlərdən hər biriniz hər gün əzaları sayəsində sədəqə verə bilər. Hər "Subhanəllah" demək sədəqədir, hər "Əlhəmdulillah" demək sədəqədir, hər "Lə ilahə illəllah" demək sədəqədir, hər "Allahu Əkbər" demək sədəqədir, yaxşı işlər görməyi əmr etmək sədəqə-

məyə bir şey) tapmasa necə?" (Peyğəmbər ﷺ) buyurdu: "Öz əlləri ilə işləyib qazansın və (bu qazancından) həm özü faydalansın, həm də (ehtiyacı olanlara) sədəqə versin." (Səhabələr) soruşdular: "(Buna) imkanı olmasa yaxud (bunu) bacarmasa necə?" (Peyğəmbər ﷺ) buyurdu: "Ehtiyacı olan çarəsiz adama kömək etsin." (Səhabələr) soruşdular: "(Bunu da) edə bilməsə necə?" (Peyğəmbər ﷺ) buyurdu: "Qoy xeyirxah işlər görməyi yaxud yaxşılıq etməyi əmr etsin." (Səhabələr) soruşdular: "(Bunu da) edə bilməsə necə?" (Peyğəmbər ﷺ) buyurdu: "Qoy yaramaz işlərdən əl çəksin. Həqiqətən, bu onun üçün sədəqə sayılır."[1]

**٢٢٦–** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ قَالَ: حَدَّثَنِي أَبِي، أَنَّ أَبَا مُرَاوِحٍ الْغِفَارِيَّ أَخْبَرَهُ، أَنَّ أَبَا ذَرٍّ أَخْبَرَهُ، أَنَّهُ سَأَلَ رَسُولَ اللَّهِ ﷺ: أَيُّ الْعَمَلِ أَفْضَلُ؟ قَالَ: ((إِيمَانٌ بِاللَّهِ، وَجِهَادٌ فِي سَبِيلِهِ))، قَالَ: فَأَيُّ الرِّقَابِ أَفْضَلُ؟ قَالَ: ((أَغْلاَهَا ثَمَنًا، وَأَنْفَسُهَا عِنْدَ أَهْلِهَا))، قَالَ: أَرَأَيْتَ إِنْ لَمْ أَفْعَلْ؟ قَالَ: ((تُعِينُ ضَائِعًا، أَوْ تَصْنَعُ لأَخْرَقَ))، قَالَ: أَرَأَيْتَ إِنْ لَمْ أَفْعَلْ؟ قَالَ: ((تَدَعُ النَّاسَ مِنَ الشَّرِّ، فَإِنَّهَا صَدَقَةٌ تَصَدَّقُ بِهَا عَنْ نَفْسِكَ)).

**(226)** ........ Əbu Zərr ؓ demişdir: "Mən Peyğəmbərdən ﷺ soruşdum: "Hansı əməl ən fəzilətli əməl sayılır?" O, dedi: "Allaha iman gətirmək və Onun yolunda cihad etmək!" Yenə soruşdum: "Hansı köləni azad etmək

---

dir, pis əməllərdən çəkindirmək sədəqədir və duha çağında qılınan iki rükət namaz bütün bunları əvəz edir" (Səhih Muslim, 720). Sədəqə verməyə imkanı olduğu halda onu verməyənlər isə ziyana uğrayar. Rəvayət edilir ki, Əbu Zərr ؓ demişdir: "*Bir dəfə* mən Peyğəmbərin ﷺ yanına gedib *gördüm ki,* o, Kəbənin kölgəsində oturub təkrar-təkrar deyir: "Kəbənin Rəbbinə and olsun ki, onlar ziyana uğrayacaqlar! Kəbənin Rəbbinə and olsun ki, onlar ziyana uğrayacaqlar!" Mən *öz-özümə*: "Mən nə etmişəm? Olmaya, məndə bir nöqsan görüb? Axı mən nə etmişəm?"– dedim, sonra gəlib onun yanında oturdum. O *dayanmadan bu sözləri* təkrar edirdi. Mən narahat olduğumdan özümü saxlaya bilməyib dedim: "Atam-anam sənə qurban, ya Rəsulullah, kimdir onlar?" O buyurdu: "Mal-dövləti çox olanlar! Yalnız belə, belə və belə edənlər (malını Allah yolunda xərcləyənlər) istisnadır" (Səhih əl-Buxari, 6638).

[1] Bu hədisi (Buxari 1445) və Əhməd (4/395) rəvayət etmişdir.

daha fəzilətlidir?” O, dedi: “Ən bahalı və sahibi üçün ən dəyərli olan!” Bir daha soruşdum: “Bəs bunu edə bilməsəm necə?” O buyurdu: “Biçarə kimsəyə köməklik göstər və ya işi bacarmayan adamın işini gör!” Yenə soruşdum: “Bunu da bacarmasam necə? O buyurdu: “İnsanlara pislik etməkdən çəkin. Belə etsən, bu, sənin özünə verdiyin bir sədəqə olar.”[1]

**٢٢٧-** حَدَّثَنَا أَبُو النُّعْمَانِ قَالَ: حَدَّثَنِي مَهْدِيُّ بْنُ مَيْمُونٍ، عَنْ وَاصِلٍ مَوْلَى أَبِي عُيَيْنَةَ، عَنْ يَحْيَى بْنِ عُقَيْلٍ، عَنْ يَحْيَى بْنِ يَعْمُرَ، عَنْ أَبِي الأَسْوَدِ الدِّيلِيِّ، عَنْ أَبِي ذَرٍّ قَالَ: قِيلَ: يَا رَسُولَ اللَّهِ، ذَهَبَ أَهْلُ الدُّثُورِ بِالأُجُورِ، يُصَلُّونَ كَمَا نُصَلِّي، وَيَصُومُونَ كَمَا نَصُومُ، وَيَتَصَدَّقُونَ بِفُضُولِ أَمْوَالِهِمْ، قَالَ: ((أَلَيْسَ قَدْ جَعَلَ اللَّهُ لَكُمْ مَا تَصَدَّقُونَ؟ إِنَّ بِكُلِّ تَسْبِيحَةٍ وَتَحْمِيدَةٍ صَدَقَةً، وَبُضْعُ أَحَدِكُمْ صَدَقَةٌ))، قِيلَ: فِي شَهْوَتِهِ صَدَقَةٌ؟ قَالَ: ((لَوْ وُضِعَ فِي الْحَرَامِ، أَلَيْسَ كَانَ عَلَيْهِ وِزْرٌ؟ ذَلِكَ إِنْ وَضَعَهَا فِي الْحَلاَلِ كَانَ لَهُ أَجْرٌ)).

**(227)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbərə ﷺ dedilər:[2] “Ya Rəsulullah, var-dövlət sahibləri (bizdən çox) savab qazanırlar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və üstəlik, ən gözəl mallarını (Allah yolunda) sədəqə verirlər.”[3] O, dedi: “Məgər Allah sizin üçün sədəqə verəcəyiniz şeylər hazırlamayıb?![4] Həqiqətən, hər bir təsbih və hər bir

---

[1] 220-ci hədisin qeydlərinə bax.

[2] Başqa hədisdə rəvayət edilir ki, kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər:..” (Səhih Muslim, 1347).

[3] Bu, səhabələrin xeyirxah işlərə can atmasına və savab qazanmağa həris olmalarına dəlalət edir.

[4] Burada Peyğəmbər ﷺ səhabələrinə bildirmək istəyir ki, təkcə mal-dövlət deyil, yaxşı əməllər də Allah yolunda verilən sədəqəyə aiddir. Həqiqətən də, Uca Allah savab qazanmaq üçün neçə-neçə qapılar açmışdır. “Lə ilahə illəllah” demək, namaz qılmaq, Quran oxumaq insanlara yaxşı işlər görməyi buyurmaq, onları pis işlər görməkdən çəkindirmək, biçarə adama əl tutmaq və s. buna bənzər əməllərin hamısı sədəqə sayılır. Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ onlara demişdir: “Sizə elə bir şey öyrədimmi ki, onu yerinə yetirməklə sizi ötüb keçənlərə çatasınız, sizdən sonra yaşayanlardan heç kəs sizə çata bilməsin və sizin etdiyinizi edənlər istisna olmaqla, aranızda olan kimsələrin ən xe-

təhmid[1] sədəqədir. Habelə, (həyat yoldaşı ilə) yaxınlıq etməyiniz belə sədəqədir." Soruşdular: "Məgər kişinin şəhvəti də sədəqədir?" O, dedi: "Məgər haram yolla yaxınlıq etsə, buna görə ona günah sayılmazmı?! Demək, halalı ilə[2] yaxınlıq edərsə, savab qazanar."[3]

---

yirlisi siz olasınız?" Onlar: "Bəli, ya Rəsulullah!"– dedikdə, o, belə buyurmuşdur: "Hər *vacib* namazdan sonra otuz üç dəfə "Subhanəllah", *otuz üç dəfə* "Əlhəmdulilləh" və *otuz üç dəfə* "Allahu Əkbər" deyin!" (Səhih Muslim, 1347).

[1] Təsbih – "Subhanəllah!", təhmid isə "Əlhəmdulilləh!"– deməkdir.

[2] Burada "halalı" deyildikdə, kəbinli zövcə yaxud cariyə nəzərdə tutulur. Quranda Uca Allah möminlər barədə belə buyurur: **"O kəslər ki, ayıb yerlərini *həmişə* qoruyurlar; zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar *buna görə heç* qınanmazlar"** (əl-Muminun, 5-6).

[3] Bu hədisi Muslim (3/82) və Əhməd (5/167) rəvayət etmişdir.

## ١١٦- بَابُ إِمَاطَةِ الأَذَى

## 116-cı fəsil. Əziyyət verən şeyi (yoldan) kənar etmək[1]

٢٢٨- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ أَبَانَ بْنِ صَمْعَةَ، عَنْ أَبِي الْوَازِعِ جَابِرٍ، عَنْ أَبِي بَرْزَةَ الأَسْلَمِيِّ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، دُلَّنِي عَلَى عَمَلٍ يُدْخِلُنِي الْجَنَّةَ، قَالَ: ((أَمِطِ الأَذَى عَنْ طَرِيقِ النَّاسِ)).

**(228)** ........ Əbu Bərzə əl-Əsləmi[2] ﵁ demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə) ﷺ dedim: "Ya Rəsulullah! Mənə elə bir əməl öyrət ki, o, məni Cənnətə daxil etsin." O, buyurdu: "Əziyyət verən şeyi insanların yolundan kənar et![3]"[4]

---

[1] İmam Buxarinin "Hər bir yaxşılıq sədəqədir" fəslindən sonra gələn fəsilə belə ad verməsi o deməkdir ki, əziyyət verən şeyi insanların yolundan kənar etmək sədəqədir. Burada "əziyyət verən şey" deyildikdə, gediş-gəlişə əngəl törədən daş, odun, tikan və başqa bu kimi şeylər nəzərdə tutulur.

[2] Əbu Bərzə Nədlə ibn Ubeyd əl-Bərzəi ﵁ İslamı ilk əvvəl qəbul etmiş səhabələrdəndir. Xeybər döyüşündə, Məkkənin fəthində iştirak etmişdir (Siyər Əlam ən-Nubələ, 11-ci tərcümeyi-hal).

[3] Başqa bir hədisdə Peyğəmbər ﷺ bu əməlin imandan olduğunu bildirib demişdir: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunların ən üstünü "Lə ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imanın şöbələrindən biridir" (Səhih Muslim, 153). Əziyyət verən şeyləri yoldan kənarlaşdırıb-kənarlaşdırmamaq xüsusunda insanlar üç sinifə bölünürlər: əziyyət verən şeyləri yola atan insanlar, bu şeyləri görüb onları yoldan kənarlaşdırmayan insanlar və bir də bunları yoldan kənarlaşdıran insanlar. Birinci və ikinci sinifə qəlbində mərhəmət olmayan kimsələr aiddir. Çünki qəlbində mərhəmət olan kimsə insanlara əziyyət verən şeylərə biganə qala bilməz. Üçüncü sinif insanlara gəlincə, onlar da iki qismə bölünürlər: birincisi, bunu Allah rizasını qazanmaq üçün edənlərdir ki, onlar bu əmələ görə savab qazanırlar. İkinci qisim isə bunu özünü göstərmək məqsədilə edənlərdir ki, onlar riyakarlıqlarına görə savab qazanmazlar.

[4] Bu hədisi İmam Əhməd (4/423-424) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**٢٢٩**– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ، عَنْ سُهَيْلٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَرَّ رَجُلٌ مُسْلِمٌ بِشَوْكٍ فِي الطَّرِيقِ، فَقَالَ: لَأُمِيطَنَّ هَذَا الشَّوْكَ، لاَ يَضُرُّ رَجُلاً مُسْلِمًا، فَغُفِرَ لَهُ)).

**(229)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir müsəlman yol üstündəki tikanın yanından keçərkən *öz-özünə*: "Mən bu tikanı kənar edim ki, heç bir müsəlmana əziyyət verməsin"– dedi və *buna görə*[1] onun *günahları* bağışlandı."[2]

**٢٣٠**– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مَهْدِيٌّ، عَنْ وَاصِلٍ، عَنْ يَحْيَى بْنِ عَقِيلٍ، عَنْ يَحْيَى بْنِ يَعْمَرَ، عَنْ أَبِي الأَسْوَدِ الدِّيلِيِّ، عَنْ أَبِي ذَرٍّ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((عُرِضَتْ عَلَيَّ أَعْمَالُ أُمَّتِي، حَسَنُهَا وَسَيِّئُهَا، فَوَجَدْتُ فِي مَحَاسِنِ أَعْمَالِهَا أَنَّ الأَذَى يُمَاطُ عَنِ الطَّرِيقِ، وَوَجَدْتُ فِي مَسَاوِئِ أَعْمَالِهَا: النُّخَاعَةَ فِي الْمَسْجِدِ لاَ تُدْفَنُ)).

**(230)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Ümmətimin əməlləri – yaxşısı da, pisi də mənə göstərildi.[3] (İnsanlara) əziyyət verən bir şeyi yoldan kənarlaşdırmağı onların gözəl əməlləri arasında gördüm. Məscidə düşmüş və basdırılmamış bəlğəmi isə onların pis əməlləri[4] arasında gördüm."[5]

---

[1] Yəni bu adamın ixlaslı olması – bu tikanı məhz Allahın rizasını qazanmaq üçün yoldan kənar etməsi, onun günahlarının bağışlanmasına səbəb olmuşdur.

[2] Bu hədisi İmam Əhməd (2/341) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Peyğəmbər ﷺ demək istəyir ki, Uca Allah ona ümmətinin etdiyi əməllərin hansının yaxşı, hansının da pis olduğunu bəyan etmişdir. Belə ki, yaxşını pisdən ayıran, nəyin haqq və nəyin batil, nəyin halal və nəyin haram, nəyin vacib və nəyin qadağan olduğunu bəyan edən məhz Allahdır.

[4] Burada "pis əməl" deyildikdə, günah iş nəzərdə tutulur. Bu da, məscidə tüpürməyin qadağan olduğuna dəlalət edir. Bu xüsusda Rəsulullah ﷺ demişdir: "Məscidə tüpürmək günahdır, bu günahın kəffarəsi isə onu basdırmaqdır" (Səhih Muslim, 1231). Yeri gəlmişkən qeyd edək ki, bu hökm ancaq döşəməsi torpaqdan olan məscidlərə aiddir. Döşəməsi xalça, palaz və başqa bu kimi şeylər olan məscidlərdə isə bu tüpürcək gözdən itənədək qazınıb silinməlidir.

[5] Bu hədisi Muslim (1233) və Əhməd (5/178-180) rəvayət etmişdir.

## ١١٧- بَابٌ قَوْلُ الْمَعْرُوفِ

## 117-ci fəsil. Məruf[1] söz

٢٣١- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا عَبْدُ الْجَبَّارِ بْنُ الْعَبَّاسِ الْهَمْدَانِيُّ، عَنْ عَدِيِّ بْنِ ثَابِتٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ يَزِيدَ الْخَطْمِيِّ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ)).

**(231)** ........ Abdullah ibn Yezid əl-Xətmi ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Hər bir yaxşılıq sədəqədir."[2]

٢٣٢- حَدَّثَنَا سَعِيدُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا مُبَارَكٌ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أُتِيَ بِالشَّيْءِ يَقُولُ: ((اذْهَبُوا بِهِ إِلَى فُلاَنَةٍ، فَإِنَّهَا كَانَتْ صَدِيقَةَ خَدِيجَةَ. اذْهَبُوا بِهِ إِلَى بَيْتِ فُلاَنَةٍ، فَإِنَّهَا كَانَتْ تُحِبُّ خَدِيجَةَ)).

**(232)** ........ Ənəs ﷺ rəvayət edir ki,[3] Peyğəmbərə ﷺ bir şey gətirildikdə deyərdi: "Aparın bunu filan qadına (verin), çünki o, Xədicənin[4] rəfiqəsi olmuşdur. Aparın bunu filan qadının evinə, çünki o, Xədicəni çox sevərdi."

---

[1] "Məruf" kəlməsi lüğətdə, məlum, hər kəsin bildiyi, bilinən və s. mənalarda işlənir. Bu kəlmənin istilahı mənasına gəlincə, İbn Əsir onu belə izah etmişdir: "Bu, Allaha itaətdən, Ona yaxınlaşmaqdan və insanlara edilən yaxşılıqlardan sayılan hər şeyi özündə cəm edən isimdir. Habelə, Allahın və Peyğəmbərinin ﷺ vacib, yaxud müstəhəb buyurduqlarını yerinə yetirmək, habelə, haram yaxud məkruh buyurduqlarından çəkinmək də buna aiddir" (Nihayətu fi Ğəribil-Hədis vəl-Əsər).

[2] Bu hədis bu kitabda artıq ikinci dəfə zikr olunur. Bundan əlavə bu hədis bu kitabda daha üç kərə zikr edilmişdir (224, 233 və 304 nömrəli hədislər). İmam Buxarinin eyni hədisi dörd dəfə təkrar-təkrar ayrı-ayrı səhabədən varid etməsi hədisdə deyilən bu sözün özündə dərin mənalar ehtiva etdiyini bildirir (115-ci fəslin və bu fəsildəki hədislərin qeydlərinə bax).

[3] Bu hədisi Bəzzar (Musnəd, 1904), Hakim (Mustədrək, 4/175) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[4] Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anası Ummul-Qasim Xədicə bint Xuveylid ibn Əsəd ibn Abduluzza ibn Qusey ibn Kilab əl-Qureşiyyə ﷺ. Bu qadın Peyğəmbərin ﷺ gətirdiyi İslam dininə hamıdan əvvəl iman gətirmişdir. O, həm alicənab, həm ağıllı, həm

hörmətli, həm dindar, həm də ərinisevən bir qadın olmuşdur. Xədicənin (رضي الله عنها) üstünlüyünə dair neçə-neçə "səhih" rəvayətlər varid olmuşdur. Fayda üçün bunlardan bəzisini sizə təqdim edirik:

1. Xədicə (رضي الله عنها), insanlara və cinlərə peyğəmbər göndərilmiş Muhəmməd səllallahu aleyhi və səlləmin həyat yoldaşıdır;

2. Xədicə (رضي الله عنها), möminlərin anasıdır;

3. Xədicə (رضي الله عنها), İslam dinini hamıdan əvvəl qəbul etmişdir;

4. Xədicə (رضي الله عنها), Peyğəmbərin ﷺ ən çox sevdiyi zövcəsidir. Rəvayət edilir ki, Aişə (رضي الله عنها) demişdir: "Mən Xədicəyə qısqandığım qədər Peyğəmbərin ﷺ zövcələrindən heç birinə qısqanmamışam. Hərçənd mən onu heç görməmişdim, lakin Peyğəmbər ﷺ çox tez-tez onu yad edərdi. Olurdu ki, Peyğəmbər ﷺ qoç kəsib onu hissələrə bölürdü, sonra da onları Xədicənin rəfiqələrinə göndərirdi. Hərdən mən ona: "Elə bil yer üzündə Xədicədən başqa qadın yoxdur"– deyərdim, o da cavabında deyərdi: "Xədicə *nəcib bir qadın* idi, üstəlik mənim ondan övladlarım olmuşdur" (Səhih əl-Buxari, 3818).

5. Xədicə (رضي الله عنها), sağlığında ikən Cənnətlə müjdələnmiş səhabələrdəndir; İbn Abbas (رضي الله عنهما) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Cənnətdəki qadınların ən hörmətlisi dörd qadındır: Xuveylidin qızı Xədicə, Muhəmmədin qızı Fatimə, Müzahimin qızı və Fironun həyat yoldaşı Asiyə və bir də İmranın qızı Məryəm" (Musnəd Əhməd, 1/293; Mustədrək, 2/594; Silsilətul-Əhadisis-Səhihə, 1508).

6. Uca Allahın Xədicəni (رضي الله عنها) salamlaması da onun fəzilətlərinə aiddir; rəvayət edilir ki, Əbu Hureyra (رضي الله عنه) demişdir: "*Bir dəfə* Cəbrail Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, bax Xədicə əlində bir qab xörək şirəsi, *bura* gəlir. Sənin yanına gəlib çatanda ona Rəbbindən və məndən salam söylə, üstəlik Cənnətdə *onun üçün* içiboş mirvaridən *hazırlanmış*, içində də nə səs-küy, nə də yorğunluq olan bir ev ilə onu müjdələ!" (Səhih əl-Buxari, 3820).

7. Xədicə (رضي الله عنها), bu ümmətin qadınlarının ən fəzilətlisidir; bu xüsusda rəvayət edilmiş hədisdə Əli ibn Əbu Talib (رضي الله عنه) demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "*Vaxtı ilə dünyada olmuş* qadınların ən xeyirlisi İmranın qızı Məryəmdir. *Bu ümmətin* qadınlarının ən xeyirlisi isə Xədicədir" (Səhih əl-Buxari, 3432).

Bir başqa hədisdə Aişə (رضي الله عنها) demişdir: "Peyğəmbər ﷺ çox tez-tez Xədicəni yad edərdi. Bəzən Peyğəmbər ﷺ qoç kəsib onu hissələrə bölər, sonra da onları Xədicənin rəfiqələrinə göndərərdi" (Səhih əl-Buxari, 3816, 3818, 6014; Səhih Muslim, 6/58, 202, 279). İmam Buxarinin bu hədisi bu fəsildə varid etməsi o deməkdir ki, Peyğəmbərin ﷺ bu sözü "məruf" sözlərə aiddir. Belə sözlər vasitəsilə adam qohumluq bağlarını, dostluq münasibətlərini, qardaşlar arasında olan əlaqələri və digər ictimai münasibətləri düzəldə bilər, beləliklə də, sədəqə vermiş və savab qazanmış olar.

**٢٣٣**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ أَبِي مَالِكٍ الأَشْجَعِيِّ، عَنْ رِبْعِيٍّ، عَنْ حُذَيْفَةَ قَالَ: قَالَ نَبِيُّكُمْ ﷺ: ((كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ)).

**(233)** ........ Rəvayət edilir ki, Huzeyfə[1] ﷺ demişdir: "Peyğəmbəriniz ﷺ belə buyurmuşdur: "Hər bir yaxşılıq sədəqədir."[2]

---

[1] Huzeyfə ibn Yəmən ibn Cabir əl-Əbsi ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. "Sirrin sahibi" ləqəbi ilə tanınmışdır. Peyğəmbər ﷺ münafiqlərin adlarını yalnız ona bildirmişdi. Hicrətin 36-cı ilində, Osman ibn Əffanın ﷺ vəfatından qırx gecə sonra vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 76-cı tərcümeyi-hal). Huzeyfənin fəzilətinə dair rəvayət edilir ki, İbrahim demişdir: "(Bir dəfə) Əlqəmə Şama getdi və məscidə daxil olub: "Allahım, mənə əməlisaleh bir həmsöhbət yetir!"– dedi, sonra da gedib Əbu Dərdanın yanında oturdu. Əbu Dərda *ondan*: "Kimlərdənsən?"– deyə soruşdu. *Əlqəmə*: "Kufəliyəm"– deyə cavab verdi. *Əbu Dərda* soruşdu: "Məgər özündən başqa heç kəsin bilmədiyi sirrin sahibi sizin aranızda deyilmi?" *Bunu deyəndə* o, Huzeyfəni qəsd edirdi. *Əlqəmə*: "Elədir!"– dedi. *Əbu Dərda* soruşdu: "Məgər Allahın Öz peyğəmbərinin ﷺ xahişi ilə *şeytandan* qoruduğu kimsə sizin aranızda deyilmi?!" *Bunu deyəndə* o, Ammarı nəzərdə tuturdu. *Əlqəmə*: "Elədir!"– dedi. *Əbu Dərda* soruşdu: "Məgər misvak daşıyan kimsə *və etibarlı olan birisi* sizin aranızda deyilmi?!" *Bunu deyəndə o, Abdullah ibn Məsudu nəzərdə tuturdu.* O: "Elədir!"– dedi..." (Səhih əl-Buxari, 3743). Bu səhabənin fəzilətinə dair onu da qeyd etmək olar ki, məhz onun təklifindən sonra Osman ibn Əffan ﷺ Qurani Kərimi kitab şəklinə salmışdır.

[2] Bu hədisi Muslim (2375) və Əhməd (5/397) rəvayət etmişdir. İmam Buxari bu fəsildə birini Abdullah ibn Yezid əl-Xətmidən ﷺ, o birini də Huzeyfədən ﷺ nəql edərək eyni hədisi təkrar rəvayət etmişdir. Hər iki rəvayətə diqqət yetirsək görərik ki, Huzeyfə ibn Yəmənin ﷺ rəvayətində: "Peyğəmbəriniz ﷺ belə buyurmuşdur" deyilir. Huzeyfə ﷺ bu üslubu ilə sanki hədisi dinləyənlərin hədisə daha çox diqqət yetirmələrini istəyir.

## ١١٨- بَابُ الْخُرُوجِ إِلَى الْمَبْقَلَةِ، وَحَمْلِ الشَّيْءِ عَلَى عَاتِقِهِ إِلَى أَهْلِهِ بِالزَّبِيلِ

## **118-ci fəsil.** (Kişinin) **bostana gedib ailəsi üçün zənbillə çiynində bir şey gətirməsi**

**٢٣٤-** حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَخْلَدٍ، عَنْ حَمَّادِ بْنِ أُسَامَةَ، عَنْ مِسْعَرٍ قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ قَيْسٍ، عَنْ عَمْرِو بْنِ أَبِي قُرَّةَ الْكِنْدِيِّ قَالَ: عَرَضَ أَبِي عَلَى سَلْمَانَ أُخْتَهُ، فَأَبَى وَتَزَوَّجَ مَوْلَاةً لَهُ، يُقَالُ لَهَا: بُقَيْرَةُ، فَبَلَغَ أَبَا قُرَّةَ أَنَّهُ كَانَ بَيْنَ حُذَيْفَةَ وَسَلْمَانَ شَيْءٌ، فَأَتَاهُ يَطْلُبُهُ، فَأُخْبِرَ أَنَّهُ فِي مَبْقَلَةٍ لَهُ، فَتَوَجَّهَ إِلَيْهِ، فَلَقِيَهُ مَعَهُ زَبِيلٌ فِيهِ بَقْلٌ، قَدْ أَدْخَلَ عَصَاهُ فِي عُرْوَةِ الزَّبِيلِ، وَهُوَ عَلَى عَاتِقِهِ، فَقَالَ: يَا أَبَا عَبْدِ اللَّهِ، مَا كَانَ بَيْنَكَ وَبَيْنَ حُذَيْفَةَ؟ قَالَ: يَقُولُ سَلْمَانُ: ﴿وَكَانَ الإِنْسَانُ عَجُولاً﴾، فَانْطَلَقَا حَتَّى أَتَيَا دَارَ سَلْمَانَ، فَدَخَلَ سَلْمَانُ الدَّارَ فَقَالَ: السَّلَامُ عَلَيْكُمْ، ثُمَّ أَذِنَ لِأَبِي قُرَّةَ، فَدَخَلَ، فَإِذَا نَمَطٌ مَوْضُوعٌ عَلَى بَابٍ، وَعِنْدَ رَأْسِهِ لَبِنَاتٌ، وَإِذَا قُرْطَاطٌ، فَقَالَ: اجْلِسْ عَلَى فِرَاشِ مَوْلَاتِكَ الَّتِي تُمَهِّدُ لِنَفْسِهَا، ثُمَّ أَنْشَأَ يُحَدِّثُهُ فَقَالَ: إِنَّ حُذَيْفَةَ كَانَ يُحَدِّثُ بِأَشْيَاءَ، كَانَ يَقُولُهَا رَسُولُ اللَّهِ ﷺ فِي غَضَبِهِ لِأَقْوَامٍ، فَأُوتَى فَأُسْأَلُ عَنْهَا؟ فَأَقُولُ: حُذَيْفَةُ أَعْلَمُ بِمَا يَقُولُ، وَأَكْرَهُ أَنْ تَكُونَ ضَغَائِنُ بَيْنَ أَقْوَامٍ، فَأُتِيَ حُذَيْفَةُ، فَقِيلَ لَهُ: إِنَّ سَلْمَانَ لَا يُصَدِّقُكَ وَلَا يُكَذِّبُكَ بِمَا تَقُولُ، فَجَاءَنِي حُذَيْفَةُ فَقَالَ: يَا سَلْمَانُ ابْنَ أُمِّ سَلْمَانَ، فَقُلْتُ يَا حُذَيْفَةُ ابْنَ أُمِّ حُذَيْفَةَ، لَتَنْتَهِيَنَّ، أَوْ لَأَكْتُبَنَّ فِيكَ إِلَى عُمَرَ، فَلَمَّا خَوَّفْتُهُ بِعُمَرَ تَرَكَنِي، وَقَدْ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مِنْ وَلَدِ آدَمَ أَنَا، فَأَيُّمَا عَبْدٌ مِنْ أُمَّتِي لَعَنْتُهُ لَعْنَةً، أَوْ سَبَبْتُهُ سَبَّةً، فِي غَيْرِ كُنْهِهِ، فَاجْعَلْهَا عَلَيْهِ صَلَاةً)).

**(234)** ........ Amr ibn Əbu Qurra əl-Kindi rəvayət edir ki,[1] atam öz bacısını Salmana təklif etdi. O isə, bundan imtina edib mövlası[2] Buqeyra ilə ev-

---

[1] Bu hədisi Əhməd (5/439) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[2] Burada söhbət Salman Farisinin ؓ azad etdiyi kənizdən gedir.

ləndi.[1] Sonra Əbu Qurraya xəbər çatdı ki, Salmanla Huzeyfənin arasında inciklik olub. Buna görə Əbu Qurra Salmanı axtarmağa başladı.[2] Salmanın bostanda olduğunu ona xəbər verdilər. Əbu Qurra dərhal ora getdi. Gəlib gördü ki, Salman zənbilin içinə tərəvəz yığıb, əsasını da zənbilin dəstəyinə keçirərək çiyninə atıb gedir. (Əbu Qurra ona yaxınlaşıb) dedi: "Ey Əbu Abdullah, səninlə Huzeyfənin arasında nə baş verib?"[3] Salman dedi: **"Doğrusu, insan tələsəndir"**[4] Hər ikisi gəlib Salmanın evinə çatdılar. Salman evə girib: "Əssəlamu aleykum!"– dedi,[5] sonra da Əbu Qurraya içəri daxil olmağa izin verdi. Əbu Qurra içəri daxil oldu və baxdı ki, qapıya bir

---

[1] Bu, dəlildir ki, adam inandığı bir adama öz bacısı ilə ailə qurmağı təklif edə bilər. Həmçinin, qarşı tərəfin bundan imtina etməsi də caizdir. Necə ki, Ömər ibn Xattab ﷺ öz qızı Həfsəni ﷺ əvvəlcə Əbu Bəkr əs-Siddiqə ﷺ, sonra da Osman ibn Əffana təklif etmiş, onlar da bundan imtina etmişlər (Səhih əl-Buxari, 4005).

[2] Əbu Qurra ﷺ Salman əl-Farisini ﷺ axtarır ki, onunla Huzeyfənin ﷺ arasını düzəltsin. Burada ravi Amr bu hadisəni danışarkən bir söhbətdən başqa söhbətə keçir, yəni atasının öz bacısını səhabəyə təklif etmək məsələsindən onun həmin sahabə ilə başqa bir səhabə arasında olan incikliyi aradan qaldırmaq məsələsinə keçir. Sanki bildirmək istəyir ki, Salman əl-Farisinin ﷺ Əbu Qurranın ﷺ təklifindən imtina etməsi, onların arasında olan qardaşlıq münasibətinə təsir göstərməmişdir. Bu da, səhabələrin bir-birini Allah rizası üçün sevdiklərindən xəbər verir.

[3] Bu, dəlildir ki, iki nəfərin arasını düzəltmək məqsədilə belə sual vermək olar. Bu da, bəyənilən əməllərdəndir. Yox, əgər sualı verməkdə məqsəd onların arasında olan incikliyi öyrənmək, başqa cür desək, casusluq etməkdirsə, onda, belə sual vermək qadağandır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlmanın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" (Sunən ət-Tirmizi, 2319; Səhih əl-Cami, 5911).

[4] "əl-İsra" surəsi, 11. Salman əl-Farisi ﷺ bu ayəni ona oxumaqla, sanki demək istəyir ki, tələsmə, gedək evə, oturaq, hamısını sənə başa salım.

[5] Bu xüsusda, Uca Allah buyurur: **"Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın"** (ən-Nur, 61). Hədislərin birində Ənəs ibn Malik ﷺ demişdir: Peyğəmbər ﷺ mənə belə buyurmuşdur: "Oğlum, ailənin yanına gəldiyin zaman *onlara* salam ver. Bu, həm sənin üçün, həm də ailən üçün bərəkətli olar" (Sunən ət-Tirmizi, 2915; Səhih Tərğib vət-Tərhib, 1608).

palaz asılmış və yuxarı tərəfinə bir neçə kərpic qoyulmuşdur.[1] (Otaqda da) bir palan[2] (və ya xırda-para şeylər) vardır. Əbu Qurra (ona): "Sən mövlanın özü üçün yerə sərdiyi ədyalın üstündə otur!"– dedi. Sonra Salman əhvalatı ona danışıb dedi: "Huzeyfə elə şeylər danışır ki, Rəsulullah ﷺ bunu ancaq bəzi adamlara qəzəbləndikdə deyərdi.[3] Mən isə bu haqda soruşanlara: "Huzeyfə nə danışdığını daha yaxşı bilir!"– demişəm. Mən istəmirdim ki, camaat arasına ədavət düşsün."[4] Onlar da gedib Huzeyfəyə dedilər ki, Salman sənin danışdıqlarını nə təsdiqləyir, nə də təkzib edir.[5] Sonra Huzeyfə mənim yanıma gəlib mənə: "Ey Ummu Salmanın oğlu Salman!"[6]– dedi.[7] Mən də ona belə cavab verdim: "Ey Ummu Huzeyfənin

---

[1] Salman əl-Farisinin ﷺ evinin qapısı taxtadan yox, palazdan imiş və bu palaz yerə düşməsin deyə yuxarı tərəfinə kərpic qoyulmuşdu. O dövrdə qapılara, adətən, örtük asılardı.

[2] Palan: minik üçün istifadə edilən heyvanların belinə qoyulan içi saman yaxud küləş və ya liflə dolu bəsit yəhər.

[3] Salman əl-Farisi ﷺ burada Peyğəmbərin ﷺ qəzəbi tutduğu adamlara bəddua etdiyini nəzərdə tutur.

[4] Camaatın Salman əl-Farisidən ﷺ şəriət məsələsini soruşması, onun öz dövrünün fəqihlərindən olduğuna dəlalət edir. Burada Salman ﷺ o vaxtkı vəziyyəti nəzərə alaraq, belə hədisləri camaata danışmamağı məsləhət görür. Eyni zamanda da o, Huzeyfənin ﷺ rəyinə xor baxmır, sadəcə olaraq, bunları gizli saxlamağı məsləhət bilir.

[5] Burada Salmana ﷺ sual verən adamlar onun: "Huzeyfə nə danışdığını daha yaxşı bilir!" sözünü olduğu kimi Huzeyfəyə ﷺ demək əvəzinə, öz başa düşdükləri kimi: "Salman sənin danışdıqlarını nə təsdiqləyir, nə də təkzib edir" deyir və beləliklə də iki səhabənin arasına inciklik salırlar. Onların məqsədi yaxşı olsa da belə, bu hərəkətləri yaxşı nəticə vermir. Odur ki, belə məsələlərdə iki alimi qabaq-qabağa qoymaq, onların arasını vurmaq məqsədilə arada söz gəzdirmək qadağandır. Əlılxüsus da birinin dediyini öz bildiyi kimi yozub başqasına demək. Qeyd etmək lazımdır ki, iki alimi qarşı-qarşıya qoymaq və onların arasına ədavət salmaq məqsədi ilə birinin sözünü digərinə çatdırmaq, habelə, ikisinin də rəyini öyrəndikdən sonra onları insanların gözündə alçaltmaq üçün nəmmamlıq etmək, yəni söz gəzdirmək qadağandır. Belə fitnəkarlar barədə isə Peyğəmbər ﷺ demişdir: "Söz gəzdirən adam Cənnətə girməz!" (Səhih əl-Buxari, 6056).

[6] Tərcüməsi: Ey Salmanın anasının oğlu Salman!

[7] Səhabənin əxlaqına bir baxın, görün, öz narazılığını necə gözəl tərzdə ifadə edir.

oğlu Huzeyfə![1] Ya, buna son qoyacaqsan, ya da, sənin barəndə Ömərə şikayət yazacağam. Onu Ömərlə hədələdikdə, məni tərk edib getdi." Axı, Rəsulullah ﷺ demişdir:[2] "Mən də Adəm övladıyam![3] *Allahım,* haqsız yerə ümmətimdən kimə lənət oxumuşamsa yaxud kimi söymüşəmsə, bunu onun üçün *xeyirli* dua et![4]"

---

[1] Tərcüməsi: Ey Huzeyfənin anasının oğlu Huzeyfə!

[2] Salman əl-Farisi  Peyğəmbərin ﷺ bu hədisini Əbu Qurraya  danışır ki, öz rəyinin doğru olduğunu əsaslandırsın.

[3] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən də Adəm övladıyam! Hamı qəzəbləndiyi kimi, mən də qəzəblənirəm..." (Sunən Əbu Davud, 4659; Silsilətul-Əhadisis-Səhihə, 1758). Bu xüsusda, Uca Allah buyurur: **"De: "Mən də sizin kimi bir insanam"** (əl-Kəhf, 110; Fussilət, 6).

[4] İmam Muslimin "Səhih"ində: "Bunu onun üçün mərhəmət et!", "...həm kəffarə, həm də Qiyamət günü onu Allaha yaxınlaşdıracaq bir vasitə et!" deyilir (Səhih, 6781; 6787). Ənəs ibn Malik  rəvayət edir ki, anası Ummu Suleym bir yetim qızı himayəyə götürmüşdü. Rəsulullah ﷺ bu yetimi görüb dedi: "Sən həmin o qızcığazsan? Nə böyük qız olmusan! Bundan artıq böyüməyəsən!" Qız ağlaya-ağlaya Ummu Suleymin yanına gəldi və Ummu Suleym ondan: "Qızım, sənə nə olub?"– deyə soruşduqda, qız dedi: "Allahın Peyğəmbəri ﷺ mənə bəddua etdi ki, mən böyüməyim. Deməli, mən böyüməyəcəyəm." Ummu Suleym hicabını geyib, tələsik Rəsulullahın ﷺ yanına gəldi. Rəsulullah ﷺ onun (təngənəfəs gəldiyini görüb): "Sənə nə olub, ey Ummu Suleym?"– deyə soruşdu. Ummu Suleym dedi: "Ey Allahın Peyğəmbəri ﷺ, niyə mənim yetimimə bəddua etmisən?" Rəsulullah ﷺ dedi: "Nə demişəm, ey Ummu Suleym?" Anam dedi: "Qız deyir ki, sən ona: "Görüm səni böyüməyəsən və ömrün artmasın!"– deyə bəddua etmisən. Rəsulullah ﷺ (onun bu sözünə) güldü, sonra dedi: "Ey Ummu Suleym, məgər sən bilmirsən ki, mən öz Rəbbimlə şərt kəsib demişəm: "Mən də bir bəşərəm. Bəşər övladı razı qaldığı kimi mən də razı qalır, qəzəbləndiyi kimi mən də qəzəblənirəm. *Allahım,* ümmətimdən kimin əleyhinə nahaq yerə dua etsəm, bunu onun üçün kəffarə, xeyir-bərəkət və Qiyamət günü onu Allaha yaxınlaşdıracaq bir vasitə et!" (Səhih Muslim, 6792). Demək, Rəsulullahın ﷺ hər bir səhabəsinə etdiyi bəddua onun üçün bir kəffarə, xeyir-bərəkət, mərhəmət və Qiyamət günü onu Allaha yaxınlaşdıracaq bir vasitədir. Odur ki, bir çox İslam alimləri bu bədduaları səhabələrin fəzilətinə aid etmişlər. İmam Muslim öz "Səhih"ində, "Peyğəmbər ﷺ kimə lənət oxumuşsa, kimi söymüşsə, kimə bəddua etmişsə, əgər həmin adam buna layiq deyilsə, bu onun üçün bir xeyir, savab və rəhmət hesab edilmişdir" adlı fəsildə bu hədisin ardından Muaviyə  barədə varid olmuş hədisi nəql etmişdir. Həmin hədisdə Rəsulullah ﷺ:

**٢٣٥-** حَدَّثَنَا ابْنُ أَبِي شَيْبَةَ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ عِيسَى، عَنِ الأَعْمَشِ، عَنْ حَبِيبٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: قَالَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ: اخْرُجُوا بِنَا إِلَى أَرْضِ قَوْمِنَا. فَخَرَجْنَا، فَكُنْتُ أَنَا وَأُبَيُّ بْنُ كَعْبٍ فِي مُؤَخَّرِ النَّاسِ، فَهَاجَتْ سَحَابَةٌ، فَقَالَ أُبَيٌّ: اللَّهُمَّ اصْرِفْ عَنَّا أَذَاهَا. فَلَحِقْنَاهُمْ، وَقَدِ ابْتَلَّتْ رِحَالُهُمْ، فَقَالُوا: مَا أَصَابَكُمُ الَّذِي أَصَابَنَا؟ قُلْتُ: إِنَّهُ دَعَا اللَّهَ عَزَّ وَجَلَّ أَنْ يَصْرِفَ عَنَّا أَذَاهَا، فَقَالَ عُمَرُ: أَلاَ دَعَوْتُمْ لَنَا مَعَكُمْ.

**(235)** ........ İbn Abbas ﷺ rəvayət edir ki, (bir dəfə) Ömər: "Gəlin qövmümüz yaşayan yerə[1] gedək"– dedi və biz hamımız ora getdik. Mən və Ubeyy ibn Kəb camaatdan geri qaldıq. Bu vaxt bir bulud bizə tərəf gəldi. Onda Ubeyy dua edib dedi: "Allahım, onun əziyyətini bizdən uzaq elə!" Sonra biz gedib camaata yetişdik. Onlar *yağışa düşüb* islanmışdılar. Bizdən soruşdular ki, "Bəs siz niyə islanmamısınız?" Dedim ki, "Ubeyy Allaha ﷻ

---

"Allah onun qarnını doydurmasın!"– demişdir (6793). İmam Muslimin hər iki hədisi eyni fəsildə, üstəlik, dalbadal varid etməsi Muaviyə ibn Əbu Sufyanın ﷺ da həmçinin, bu qəbil insanlardan olduğuna dəlalət edir. İmam Nəvəvi bu hədisi izah edərkən demişdir: "Bu, Muaviyənin ﷺ çağırışa gec cavab verdiyinə görə olan cəzasıdır. Muslim bu hədisdən Muaviyənin ﷺ bu bədduaya layiq olmadığını başa düşmüşdür. Odur ki, həmin hədisi bu fəsildə varid etmişdir. Həmçinin, neçə-neçə İslam alimləri bu hədisi Muaviyənin ﷺ üstünlüklərinə aid etmişlər. Çünki, əslində, bu bəddua onun üçün xeyirli bir dua hesab olunur" (Şərh alə Muslim, 2/325) İmam Zəhəbi demişdir: "Olsun ki, bu hədis Muaviyənin ﷺ fəzilətinə aiddir. Çünki Rəsulullah ﷺ demişdir: "Allahım, kimə lənət oxumuşamsa və ya kimi söymüşəmsə, bunu onun üçün xeyir və rəhmət et!" (Siyər Əlam ən-Nubələ, 9/171). Odur ki, hər bir müsəlman səhabələr barədə gözəl zəndə olmalı, onlar barədə yalnız xeyir söyləməli, onlar barədə pis fikirləşməməli, onların xətaları barədə susmalı, əksinə, həmişə Allahdan səhabələr və onlardan sonra gəlib-getmiş möminlər üçün məğfirət diləməlidir. Bu xüsusda, Uca Allah buyurur: **"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10).

[1] Burada söhbət əkin sahəsindən gedir.

dua etdi ki, O, buludun əziyyətini bizdən uzaq eləsin." Ömər dedi: "Bəs, özünüzlə bərabər bizim üçün niyə dua etmədiniz?"[1]

[1] Bu əsəri hədisin isnadında keçən Əmaşın və Həbib ibn Sabitin "mudəllis" ravilər olduğu və bu rəvayəti "ananə" ilə rəvayət etdiyi üçün, habelə, Yəhya ibn İsa "zəif" ravi olduğunan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

# ١١٩- بَابُ الْخُرُوجِ إِلَى الضَّيْعَةِ

## 119-cu fəsil. Məhsuldar yerə[1] getmək

**٢٣٦-** حَدَّثَنَا مُعَاذُ بْنُ فَضَالَةَ قَالَ: حَدَّثَنَا هِشَامٌ الدَّسْتُوَائِيُّ، عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ أَبِي سَلَمَةَ قَالَ: أَتَيْتُ أَبَا سَعِيدٍ الْخُدْرِيَّ، وَكَانَ لِي صَدِيقًا، فَقُلْتُ: أَلاَ تَخْرُجُ بِنَا إِلَى النَّخْلِ؟ فَخَرَجَ، وَعَلَيْهِ خَمِيصَةٌ لَهُ.

**(236)** ........ Əbu Sələmə ﷺ rəvayət edir ki, mən dostum[2] Əbu Səid əl-Xudrinin yanına gəlib dedim: "Bizimlə xurma bağına getmək istəmirsən?" O da, öz yun əbasını geyib bizimlə getdi.[3]

**٢٣٧-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ الْفُضَيْلِ بْنِ غَزْوَانَ، عَنْ مُغِيرَةَ، عَنْ أُمِّ مُوسَى قَالَتْ: سَمِعْتُ عَلِيًّا يَقُولُ: أَمَرَ النَّبِيُّ ﷺ عَبْدَ اللَّهِ بْنَ مَسْعُودٍ أَنْ يَصْعَدَ شَجَرَةً فَيَأْتِيَهُ مِنْهَا

---

[1] Burada "məhsuldar yer" deyildikdə, bağ, bostan, tarla, ferma, əkin sahəsi və başqa bu kimi münbit yerlər, o cümlədən zavod, fabrik, karxana və sairə istehsal müəssisələri də nəzərdə tutulur. Səhabələrin kimisi əkinçiliklə, kimisi maldarlıqla, kimisi istehsalatla, kimisi də ticarətlə məşğul olmaqla ruzi qazanardı. Onların hamısı yalnız halal ruzi qazanmağa çalışar və haramdan uzaq durardılar. Hətta harama gətirib çıxaran yollardan belə çəkinərdilər ki, harama girməsinlər. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Halal da bəllidir, haram da bəllidir. Bu ikisinin arasında şübhəli şeylər vardır. Kim günah olub-olmadığına şübhələndiyi bir şeyi tərk etsə, *günah olduğu* bəlli olan bir şeyi daha qətiyyətlə tərk edər. Kim də günah olub-olmadığına şübhələndiyi bir şeyə cürət edib yaxınlaşsa, *günah olduğu* bəlli olan bir şeyə dalmağa yaxın olar. *Biləsiniz,* günahlar Allahın qoruğudur. Hər kim *qoyunlarını* qoruğun ətrafında otarsa, az qalar ki, qoruğa düşsün" (Səhih əl-Buxari, 2051); digər rəvayətdə deyilir: "Kim şübhəli şeylərdən çəkinsə, dinini və namusunu qorumuş olar. Kim şübhəli şeylərə dalsa, (mal-qarasını) qoruğun kənarında otaran çoban kimi çox keçməz qoruğa düşər. Bilin ki, hər bir hökmdarın qoruğu vardır. Bilin ki, Allahın yer üzündəki qoruğu haram buyurduğu şeylərdir" (Səhih əl-Buxari, 52).

[2] Sələflər həmişə özlərinə ancaq əməlisaleh insanı dost tutardılar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam dostunun dini üzərindədir. Hər biriniz kiminlə dostluq etdiyinə baxsın!" (Sunən Əbu Davud, 2/293; Sunən ət-Tirmizi, 2/278; Silsilətul-Əhadisis-Səhihə, 927).

[3] Bu hədisi Buxari (2016) və Muslim (2829) rəvayət etmişdir.

بِشَيْءٍ، فَنَظَرَ أَصْحَابُهُ إِلَى سَاقِ عَبْدِ اللَّهِ فَضَحِكُوا مِنْ حُمُوشَةِ سَاقَيْهِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا تَضْحَكُونَ؟! لَرِجْلُ عَبْدِ اللَّهِ أَثْقَلُ فِي الْمِيزَانِ مِنْ أُحُدٍ)).

**(237)** ........ Ummu Musa rəvayət edir ki, Əli ﷺ demişdir:[1] "Peyğəmbər ﷺ Abdullah ibn Məsuda ağaca çıxıb[2] ondan budaq qırmağı buyurdu. Səhabələr Abdullahın baldırına baxıb, onun çox nazik olduğuna güldülər. Rəsulullah ﷺ dedi: "Nə gülürsünüz?![3] (Qiyamət günü) Abdullahın ayağı tərəzidə Uhud dağından ağır gələcək.[4]"

---

[1] Bu hədisi İmam Əhməd (1/114) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih li-ğeyrihi" olduğunu demişdir.

[2] Bəzi rəvayətlərdə bu ağacın ərak ağacı olduğu rəvayət edilmişdir. (Musnəd İmam Əhməd, 1/420-421; Təbəqat İbn Səd, 3/155; Silsilətul-Əhadisis-Səhihə, 3192). Peyğəmbər ﷺ Ərak ağacının budağından dişləri təmizləmək üçün təbii fırça – misvak düzəldərdi. Peyğəmbərin ﷺ İbn Məsudu ﷺ sayıb ona bu işi görməyi tapşırması və beləliklə də, onu savab qazanmağa istiqamətləndirməsi, habelə, bu səhabənin dərhal Peyğəmbərin ﷺ əmrini yerinə yetirməsi onun fəzilətli səhabə olduğuna dəlalət edir.

[3] Burada Peyğəmbər ﷺ bu gülüşə etiraz edir. Bu da, dəlildir ki, birisinin xilqətinə gülmək, onu lağa qoymaq qadağandır. Ola bilsin ki, lağa qoyulan adam lağa qoyanlardan daha xeyirli olsun. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları** ***lağa qoymasınlar.*** **Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar"** (əl-Hucurat, 11). Bu hədis, həmçinin, dəlildir ki, adam şəriətə zidd olan bir söz eşitdikdə və ya zidd bir hərəkət gördükdə buna etirazını bildirməlidir. Qeybət məclisləri və s. buna aiddir.

[4] Bu, dəlildir ki, Qiyamət günü insanın özü də tərəzidə çəkiləcəkdir. Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü yekəpər, şişman bir adam gələcək. Allahın hüzurunda *həmin adamın* heç ağcaqanadın qanadı qədər ağırlığı olmayacaq. *Bu ayəni* oxuyun: **"Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik"** (Səhih əl-Buxari, 4729). Qiyamət günü, həmçinin əməllər və əməl kitabları da tərəzidə çəkiləcəkdir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə (vardır ki, bunlar): "Sübhanəllahi və bihəmdihi, subhanəllahiləzim! (Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Böyük Allah pak və müqəddəsdir!)" *kəlmələridir*" (Səhih əl-Buxari, 7563); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir:

"Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona *içində əməlləri yazılmış* doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra qüdrətli və qüvvətli Allah buyuracaq: "Bunlardan birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan gözətçi mələklərim sənə zülm ediblərmi? Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək." Bu vaxt onun qarşısına içində "Əşhədu ən lə iləhə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluhu" yazılmış bir kağız parçası qoyulacaq. O, deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qabağında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq" (Sunən ət-Tirmizi, 2850; Səhih Tərğib vət-Tərhib, 1533).

## ١٢٠– بَابُ الْمُسْلِمِ مِرْآةُ أَخِيهِ

## 120-ci fəsil. Müsəlman öz qardaşının güzgüsüdür

٢٣٨– حَدَّثَنَا أَصْبَغُ قَالَ: أَخْبَرَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي خَالِدُ بْنُ حُمَيْدٍ، عَنْ خَالِدِ بْنِ يَزِيدَ، عَنْ سُلَيْمَانَ بْنِ رَاشِدٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ رَافِعٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: ((الْمُؤْمِنُ مِرْآةُ أَخِيهِ، إِذَا رَأَى فِيهَا عَيْبًا أَصْلَحَهُ)).

**(238)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Mömin öz qardaşının güzgüsüdür. Onda eyib gördüyü zaman onu düzəldər.[1]"[2]

٢٣٩– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ حَمْزَةَ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي حَازِمٍ، عَنْ كَثِيرِ بْنِ زَيْدٍ، عَنِ الْوَلِيدِ بْنِ رَبَاحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ : ((الْمُؤْمِنُ مِرْآةُ أَخِيهِ، وَالْمُؤْمِنُ أَخُو الْمُؤْمِنِ، يَكُفُّ عَلَيْهِ ضَيْعَتَهُ، وَيَحُوطُهُ مِنْ وَرَائِهِ)).

---

[1] Burada "güzgüsüdür" deyildikdə, möminin öz mömin qardaşına nəsihət verməsi nəzərdə tutulur. Və necə ki, adam güzgünün qarşısında durduğu zaman öz eyiblərini görür, eləcə də, mömin qardaşının yanında olarkən qardaşı ona onun nöqsanlarını bildirir. Adam çox vaxt öz nöqsanlarını görmür. Lakin kənardan baxanlar onda olan nöqsanları daim görür və əgər mömindirlərsə, qardaşlarını islah etməyə çalışırlar. Bu xüsusda, hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ: "Möminlər bir bina kimidirlər, bir-birini dəstəkləyirlər"– dedi, sonra da barmaqlarını bir-birinə keçirtdi" (Səhih əl-Buxari, 6027). Qeyd etmək lazımdır ki, mömini islah etdikdə, Sünnədən kənara çıxmaq, kobudluq etmək olmaz. Peyğəmbər ﷺ demişdir: "Allah hər bir işdə mülayim olmağı sevir" (Səhih əl-Buxari, 6024); başqa bir hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ nə söyüş söyən, nə ədəbsizlik edən, nə də lənət oxuyan *bir adam* olmuşdur. Birimizi tənbeh edərkən deyərdi: "Ona nə olub?! Alnı yerə sürtülsün" (Səhih əl-Buxari, 6031). Fasiq adamlar mömin qardaşının eyiblərini istehza ilə, atmacalar atmaqla yada salır, üstəlik, onu gözdən salmaq məqsədilə həmin eyibləri camaat arasında danışır və utanmaz-utanmaz: "Biz qardaşımızı islah etmək istəyirik"– deyirlər. Bu niyyətlə mömin qardaşının eyibini araşdıranların vay halına!

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

**(239)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Mömin öz qardaşının güzgüsüdür. Mömin möminin qardaşıdır.[1] Onu həlak olmağa qoymaz və ona arxa olar.[2]”[3]

**٢٤٠–** حَدَّثَنَا أَحْمَدُ بْنُ عَاصِمٍ قَالَ: حَدَّثَنِي حَيْوَةُ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ، عَنِ ابْنِ ثَوْبَانَ، عَنْ أَبِيهِ، عَنْ مَكْحُولٍ، عَنْ وَقَّاصِ بْنِ رَبِيعَةَ، عَنِ الْمُسْتَوْرِدِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ أَكَلَ بِمُسْلِمٍ أُكْلَةً، فَإِنَّ اللَّهَ يُطْعِمُهُ مِثْلَهَا مِنْ جَهَنَّمَ، وَمَنْ كُسِيَ بِرَجُلٍ مُسْلِمٍ فَإِنَّ اللَّهَ عَزَّ وَجَلَّ يَكْسُوهُ مِنْ جَهَنَّمَ، وَمَنْ قَامَ بِرَجُلٍ مُسْلِمٍ مَقَامَ رِيَاءٍ وَسُمْعَةٍ فَإِنَّ اللَّهَ يَقُومُ بِهِ مَقَامَ رِيَاءٍ وَسُمْعَةٍ يَوْمَ الْقِيَامَةِ)).

**(240)** ........ Mustəvrid[4] ﷺ rəvayət edir ki,[5] Peyğəmbər ﷺ demişdir: “Kim bir müsəlmana (etdiyi haqsızlıq) sayəsində bir qab yemək yesə, Allah ona

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **“Möminlər, həqiqətən də, qardaşdırlar”** (əl-Hucurat, 10). İman qardaşlığı isə həm bu dünyada, həm də Axirətdə möhkəm qalacaq, qırılmaz bir rabitədir. Çünki bu, Allah rizasını qazanmaq üçün qurulmuş bir ünsiyyətdir. Uca Allah buyurur: “**O gün müttəqilərdən başqa, *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər**” (əz-Zufruf, 67).

[2] Burada “ona arxa olar” deyildikdə, möminin hər zaman bacardığı qədər öz mömin qardaşını qoruması, onu müdafiə etməsi və ona zərər vurmaması nəzərdə tutulur. Bunlar hər bir mömindən tələb olunan işlərə aiddir. Bu tələblərin isə sayı iki yox, daha çoxdur. Məsələn, hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz və onu ələ verməz” (Səhih əl-Buxari, 2442); başqa bir hədisdə o, demişdir: “Bir-birinizə həsəd aparmayın, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin, biriniz digərinizin alveri üstündən alver etməsin. Ey Allahın qulları, qardaş olun! Müsəlman müsəlmanın qardaşıdır, ona zülm etməz, onu köməksiz qoymaz və onu alçaltmaz.” Peyğəmbər ﷺ qəlbinə işarə edərək üç kərə: “Təqva, bax buradadır”– deyə təkrar etdi. Sonra o, *davam edib* dedi: “Adamın şər əməl sahibi olması üçün öz müsəlman qardaşını alçaltması kifayət edər. Müsəlmanın qanı da, malı da, namusu da digər müsəlmana haramdır” (Səhih Muslim, 6706).

[3] Bu hədisi Əbu Davud (4918) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

[4] Mustəvrid ibn Şəddad ibn Amr əl-Qurəşi əl-Fəhri ﷺ Peyğəmbər ﷺ səhabəsidir (İkmal Təhzib əl-Kəmal, 4509-cu tərcümeyi-hal).

[5] Bu hədisi Hakim (4/127) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

Cəhənnəmdə onun bənzərini yedirdər. Kim bir müsəlmana (etdiyi haqsızlıq) sayəsində bir libas əldə edib geysə, Allah ﷻ ona Cəhənnəm odundan *paltar* geyindirər.[1] Kim bir müsəlmana (etdiyi haqsızlıq) sayəsində özünü başqasına göstərməyə və şan-şöhrət qazanmağa can atsa,[2] Allah onu Qiyamət günü o riyaya və şan-şöhrətə çatdırar."

---

[1] Yəni hər kim öz müsəlman qardaşına zülm etməklə yaxud onun namusuna toxunmaqla və ya onun düşməninin yanına gedib qardaşının nöqsanını ona danışmaqla bir qarın yemək və ya bir libas əldə edərsə, Allah onu Cəhənnəm oduna giriftar edər. Bu hədis dəlildir ki, müsəlmanın qanı da, malı da, namusu da digər müsəlmana haramdır.

[2] Yəni özünü Allah üçün nəsihət edən bir adam kimi göstərib bir müsəlmanın eyibini camaata danışan, əslində isə niyyəti özünü göstərmək və ad-san qazanmaq olan hər kəsi Allah Qiyamət günü rüsvay edər. Buna kufəlilərdən bəzisinin Səd ibn Əbu Vəqqasa ﷺ böhtan atmasını misal çəkmək olar. Bu xüsusda varid olmuş hədislərdə rəvayət edilir ki, kufəlilərdən bəzisi Ömərə ﷺ Səd ibn Əbu Vəqqasdan ﷺ şikayət etdilər, hətta onun namazı lazımi qaydada qılmadığını belə iddia etdilər. Belə olduqda, Ömər adam göndərib onu yanına çağırtdırdı və dedi: "Ey Əbu İshaq, bunlar iddia edirlər ki, sən namazı lazımi qaydada qılmırsan." Əbu İshaq dedi: "Vallahi ki, mən onlara Peyğəmbərin ﷺ namazını qıldırmışam və bundan *heç bir şey* əskiltməmişəm. İşa namazını qıldıranda ilk iki rükəti uzun, son iki rükəti isə qısa qıldırmışam." Ömər: "Mən elə belə də bilirdim, ey Əbu İshaq!"– dedi, sonra da onunla birlikdə Kufəyə bir və ya iki adam göndərdi ki, gedib kufəlilərdən onun barəsində soruşsunlar. *Kufədə* elə bir məscid qalmadı ki, *göndərilən adam* orada Səd barəsində soruşmasın. Hamı onu təriflədi. Axırda həmin adam Abs oğullarının məscidinə gəldi. Oradakılardan Əbu Sədə ləqəbi ilə tanınan Usamə ibn Qətadə adlı birisi ayağa qalxıb dedi: "Madam ki, and verib bizdən soruşdun, *onda bil ki,* Səd *heç vaxt* döyüşə gedən dəstəyə qoşulmayıb, *qənimətləri* düzgün bölüşdürməyib və şəriət məsələlərində ədalətlə hökm verməyib." Səd dedi: "İndi ki belə oldu, onda vallahi ki, mən də üç şeylə bağlı *Allaha* dua edəcəyəm: "Allahım! Əgər sənin bu qulun yalançıdırsa, üstəlik, bunu özünü göstərmək və ad qazanmaq məqsədi ilə edirsə, onda onun ömrünü uzat, yoxsulluğunu artır və onu bəlalara düçar et!" (Uca Allah Sədin duasını qəbul etdi). Sonralar həmin adamdan *onun halı barədə* soruşanda deyərdi: "Mən başıbəlalı bir qocayam, məni Sədin bədduası tutub." (Hədisin ravisi Abdul-Malik demişdir): "Sonralar mən o adamı gördüm, o qədər qocalmışdı ki, qaşları gözlərinin üstünə düşmüşdü, özü də küçələrdə cariyələrə əl atırdı" (Səhih əl-Buxari, 755). Bu həmin Səddir ﷺ ki, Peyğəmbər ﷺ onun üçün ayrıca dua edib demişdir: "Allahım, Səd nə vaxt Sənə dua etsə, onun duasını qəbul elə!" (Sunən ət-Tirmizi, 4117; Səhih ət-Tirmizi, 2950; Mişkatul-Məsabih, 6116).

## ١٢١ – بَابُ مَا لا يَجُوزُ مِنَ اللَّعِبِ وَالْمُزَاحِ

## 121-ci fəsil. Qadağan olunan oyun və zarafat[1]

---

[1] İmam Buxari demək istəyir ki, şəriətə görə oyun oynamağın və ya zarafat etməyin əsli caiz olsa da, bəzi hallarda bunları etmək qadağandır. Bu xüsusda imam Nəvəvi demişdir: "Alimlər demişlər: "Qadağan olunmuş zarafat, ifrat dərəcədə edilən və davamiyyətli olan zarafatdır. Çünki belə zarafat həddən ziyadə gülməyə və qəlbin sərtləşməsinə səbəb olur, üstəlik, adamı Uca Allahı zikr etməkdən və dinə aid mühüm işləri yerinə yetirməkdən yayındırır. Çox vaxt belə zarafat adamı başqalarına sataşmağa və beləliklə də, onlara əziyyət verməyə təhrik edir, axırda da bu hərəkət ədavətə gətirib çıxarır və son nəticədə heybət də əldən gedir, ciddiyyət də. Bu deyilənlərə yol verməmək şərtilə zarafat etmək isə Rəsulullahın ﷺ etdiyi mübah əməllərdən sayılır. Çünki Rəsulullah ﷺ nadir hallarda – məsləhət bildikdə, üstəlik, zarafat etdiyi adamın könlünü açmaq və dostluq münasibətini artırmaq məqsədilə zarafat edərdi. Bu cür zarafat etmək isə əsla qadağan deyildir. Əksinə, bu cür zarafat bəyənilən Sünnəyə aiddir" (Əzkar, 1/326). Demək, adam zarafat etdikdə, Kitab və Sünnədən qırağa çıxmamalıdır. Yəni zarafat edən adam yalan danışmamalı, öz zarafatı ilə başqalarına əziyyət verməməli və onlara istehza etməməlidir. Hədislərin birində Rəsulullah ﷺ belə buyurmuşdur: "Camaatı güldürmək məqsədilə yalan danışan kimsənin vay halına, vay halına, vay halına!" (Sunən Əbu Davud, 4990; Səhih əl-Cami, 7136); digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən, haqlı olduğu halda belə mübahisədən əl çəkən kimsənin Cənnətin güşəsində bir evi olacağına, habelə, zarafatla olsa belə yalan danışmayan kimsənin Cənnətin ortasında bir evi olacağına və bir də əxlaqı gözəl olan kimsənin Cənnətin ən yüksək təbəqəsində bir evi olacağına zəmanət verirəm" (Sunən Əbu Davud, 4800; Sunən ət-Tirmizi, 2124; Sisilətul-Əhadisis-Səhihə, 273). Odur ki, Peyğəmbər ﷺ bu ümmətə zarafat etdikdə belə düz danışmağı buyurmuş, səhabənin: "Bizimlə zarafat edirsən, ya Rəsulullah?!" sualına Rəsulullah ﷺ belə cavab vermişdir: "Bəli, *zarafat edirəm,* lakin mən haqdan başqa söz danışmıram!" (Şəmailun-Nəbi, 237); Həsən əl-Bəsri rəvayət edir ki, yaşlı bir qadın Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Allaha dua et ki, məni Cənnətlik etsin!" Peyğəmbər ﷺ dedi: "Ey Ummu filankəs, Cənnətə yaşlı qadın girməyəcək!" *Bunu eşidəndə,* qadın ağlaya-ağlaya dönüb getdi. Peyğəmbər ﷺ dedi: "Bu qadına xəbər verin ki, o, yaşlı olduğu halda Cənnətə girməyəcək. Çünki Uca Allah buyurur: **"Biz *Cənnətdəki* qadınları yeni biçimdə yaradacağıq. Onları bakirə qızlar, ərlərini sevən, həmyaşıdlar edəcəyik."** (Şəmaiul-Nəbi, 240). İstər qadın olsun, istərsə kişi, hər bir mömin cavan yaşında Cənnətə girəcək. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Cənnət əhli, bədənlərində tük olmadığı, gözləri də sürməli olduğu halda, habelə, otuz üç yaşlarında, boyları da Adəmin عليه السلام boyuna uyğun – altmış dirsək hündürlüyündə olduqları halda Cənnətə girəcəklər" (Sunən ət-Tirmizi, 2545; Səhih əl-Cami, 8072; Səhih Tərğib vət-Tərhib, 3698). Peyğəmbərin ﷺ zarafat etməsi barədə varid

**٢٤١**– حَدَّثَنَا عَاصِمُ بْنُ عَلِيٍّ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ السَّائِبِ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ، يَعْنِي، يَقُولُ: ((لاَ يَأْخُذُ أَحَدُكُمْ مَتَاعَ صَاحِبِهِ لاَعِبًا وَلاَ جَادًّا، فَإِذَا أَخَذَ أَحَدُكُمْ عَصَا صَاحِبِهِ فَلْيَرُدَّهَا إِلَيْهِ)).

**(241)** ........ Abdullah ibn Saib[1] atasından, o da, öz atasından belə rəvayət etmişdir: "Mən Rəsullahın ﷺ belə buyurduğunu eşitmişəm: "Sizdən biriniz nə zarafatla, nə də ciddi fikirlə öz dostunun əşyasını götürməsin.[2] Əgər biriniz öz dostunun əsasını götürmüşşə, qoy, o əsanı ona qaytarsın."[3]

---

olmuş digər hədisdə Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbərin ﷺ dövründə səhrada yaşayan Zahir adlı bir bədəvi var idi. Bu adam *vaxtaşırı* səhradan Peyğəmbərə ﷺ hədiyyələr gətirər, sonra da *öz işlərini görüb evinə* qayıtmaq istədiyi vaxt Peyğəmbər ﷺ *şəhərdəki şeylərdən* ona hədiyyələr verərdi. Peyğəmbər ﷺ deyərdi: "Zahir bizim səhramız, biz də onun şəhəriyik." Peyğəmbər ﷺ onun xətrini çox istəyirdi. *Hərçənd,* bu adam göyçək deyildi, *lakin onun əxlaqı gözəl idi.* Bir gün o, bazarda öz malını satarkən, Peyğəmbər ﷺ onun yanına gəldi və *yaxınlaşıb* arxa tərəfdən onu qucaqladı. Zahir onu görmürdü. Odur ki, dedi: "Kimdir bu? Burax məni!" Sonra o, *azacıq* arxaya döndü və *arxasındakı adamın* Peyğəmbər ﷺ olduğunu gördü. Peyğəmbəri ﷺ tanıyan kimi kürəyini onun sinəsinə dirədi. Peyğəmbər ﷺ də *yanındakılardan*: "Bu qulu kim alar?"– deyə soruşdu. Zahir dedi: "Ya Rəsulullah, əgər sən məni satası olsan, vallahi ki, mənim satılmaz *və dəyərsiz* bir mal olduğumu görəcəksən." Onda Peyğəmbər ﷺ dedi: "Əksinə, sən, Allah yanında keyfiyyətsiz *adam* deyilsən", yaxud dedi: "Sən, Allah yanında çox dəyərlisən" (Şəmaiul-Nəbi, 239).

[1] Əbu Saib Abdullah ibn Saib ibn Yezid ibn Səid əl-Qurəşi əl-Məxzumi. Zamanında Məkkənin qarilərindən olmuşdur. Mücahid demişdir: "Vaxtı ilə biz başqa şəhərlərin sakinləri yanında öz qarimiz Abdullah ibn Saiblə, fəqihimiz Abdullah ibn Abbasla, müəzzinimiz Əbu Məhzura ilə və qazımız Ubeyd ibn Umeyrlə fəxr edərdik" (Siyər Əlam ən-Nubələ, 59-cu tərcümeyi-hal).

[2] Burada "dostunun əşyasını götürmək" deyildikdə, əşyanı sahibindən izin almadan götürmək nəzərdə tutulur. Belə olduğu təqdirdə, əgər o, bu əşyanı ciddi fikirlə götürərsə, bu oğurluq hesab edilər. Və əgər bunu zarafatla edərsə, dostuna zərər vurmuş olar. Zərəri də budur ki, mal sahibi pis zənnə qapıla bilər, kimisə haqsız yerə ittiham edər, həmin əşya əmanət olarsa, buna görə həyəcan keçirər və ən azı bu əşyanı axtarmaq üçün ömründən nə qədər vaxtını itirər. Odur ki, şəriət belə zarafat etməyi qadağan edir.

[3] Bu hədisi Beyhəqi (Şobəul-İman, 5107), Təyalisi (Musənəd, 1399 ), Təbərani (Mocəmul-Kəbir, 6/272) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ١٢٢- بَابٌ الدَّالُّ عَلَى الْخَيْرِ

## 122-ci fəsil. Yaxşı iş görməyə yol göstərən adam

٢٤٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي عَمْرٍو الشَّيْبَانِيِّ، عَنْ أَبِي مَسْعُودٍ الأَنْصَارِيِّ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: إِنِّي أُبْدِعَ بِي فَاحْمِلْنِي، قَالَ: ((لاَ أَجِدُ، وَلَكِنِ ائْتِ فُلاَنًا، فَلَعَلَّهُ أَنْ يَحْمِلَكَ))، فَأَتَاهُ فَحَمَلَهُ، فَأَتَى النَّبِيَّ ﷺ فَأَخْبَرَهُ، فَقَالَ: ((مَنْ دَلَّ عَلَى خَيْرٍ فَلَهُ مِثْلُ أَجْرِ فَاعِلِهِ)).

**(242)** ........ Əbu Məsud əl-Ənsari ﷛ rəvayət edir ki,[1] bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mənim mindiyim heyvan yorulub. Mənə bir minik verə bilərsənmi?" O buyurdu: "Sənə verməyə heç nəyim yoxdur, lakin filankəsin yanına get, bəlkə[2] o, sənə bir minik verdi." Kişi onun dediyi adamın yanına getdi və o da ona minik verdi. Sonra kişi Peyğəmbərin ﷺ yanına qayıdıb (istədiyinə nail olduğunu) ona xəbər verdi. Peyğəmbər ﷺ buyurdu: "Kim xeyirxah bir iş görməyə yol göstərərsə, ona həmin əməli edənin savabının misli (qədər savab) yazılar![3]"

---

[1] Bu hədisi Muslim (5007), Əbu Davud (5129), Tirmizi (2671) və Əhməd (4/120) rəvayət etmişdir.

[2] Demək, bir adamı xeyirxah bir işə yönəltdikdə, sadəcə təxmin edirsən ki, o, bu işdə xeyir əldə edə bilər.

[3] Bu hədisdən aydın olur ki, İslam ümmətinin indiyədək və hal-hazırda qazandığı, həmçinin indidən ta Qiyamət gününədək qazanacağı savabların misli qədər savab bu ümmətə hidayət yolunu göstərmiş Muhəmmədə ﷺ çatır. Səhabələrə də habelə. Çünki bu dini insanlara məhz onlar çatdırmışlar. Eləcə də, onlardan sonra gələnlər. Hədislərin birində Cərir ibn Abdullah ﷛ rəvayət edir ki, *bir dəfə* bədəvi ərəblər Peyğəmbərin ﷺ yanına gəldilər. Onların əyinlərində yundan əba var idi, zahirlərindən də ehtiyac içində olduqları hiss olunurdu. Peyğəmbər ﷺ onların acınacaqlı vəziyyətdə olduqlarını görəndə səhabələrini onlara köməklik etməyə çağırdı, lakin heç kəs yerindən tərpənmədi. Onda, Peyğəmbərin ﷺ əhvalı dəyişdi. Bu dəmdə ənsardan olan bir kişi balaca bir torbada gümüş pullar gətirdi. Onun ardınca digər səhabələr də əllərindən gələn köməkliyi göstərdilər.

Peyğəmbərin ﷺ üzündə sevinc hissi oyandı və o, belə buyurdu: "Kim İslam dinində gözəl bir Sünnəni oyatsa (insanları buna təşviq etsə), ona bunun savabı və ona əməl edənlərin savabı qədər savab yazılar. Kim də İslam dinində yaramaz bir işin əsasını qoysa (insanları buna təhrik etsə), ona bunun günahı və ona əməl edənlərin günahı qədər günah yazılar" (Səhih Muslim, 6975). Diqqət edin, hədisin sonunda "kim yaramaz bir işin əsasını qoysa", yəni günah işlətsə deyilir. Bu xüsusda varid olmuş digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Haqsız yerə qətlə yetirilmiş elə bir insan yoxdur ki, onun *axıdılmış* qanına görə *qazanılmış günahdan* Adəmin oğluna bir pay çatmış olmasın. Çünki öldürməyin əsasını o qoymuşdur" (əl-Buxari, 3335; Bax: "əl-Maidə" surəsi, 27-32.)

## ١٢٣- بَابٌ الْعَفْوُ وَالصَّفْحُ عَنِ النَّاسِ

## 123-cü fəsil. İnsanları əfv etmək və qınamamaq[1]

٢٤٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عَبْدِ الْوَهَّابِ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ هِشَامِ بْنِ زَيْدٍ، عَنْ أَنَسٍ، أَنَّ يَهُودِيَّةً أَتَتِ النَّبِيَّ ﷺ بِشَاةٍ مَسْمُومَةٍ، فَأَكَلَ مِنْهَا، فَجِيءَ بِهَا، فَقِيلَ: أَلاَ نَقْتُلُهَا؟ قَالَ: ((لاَ))، قَالَ: فَمَا زِلْتُ أَعْرِفُهَا فِي لَهَوَاتِ رَسُولِ اللَّهِ ﷺ.

**(243)** ........ Ənəs ﷺ rəvayət edir ki, *bir dəfə* bir yəhudi qadın Peyğəmbərə ﷺ qoç ətindən hazırlanmış, içinə də zəhər qatılmış yemək gətirdi.[2]

---

[1] Ərəbcə (الصَّفْح) "qınamamaq" kəlməsi daha geniş mənanı ehtiva edir. Burada "qınamamaq" deyildikdə, həm adamın təqsirindən keçmək, həm də onu etdiyi xətaya görə qınamamaq, onu birdəfəlik unutmaq nəzərdə tutulur.

[2] Əbu Hureyrə ﷺ demişdir: "Xeybər fəth edildikdə Peyğəmbərə ﷺ *qızardılmış və ətinə* zəhər qatılmış bir qoyun gətirdilər. *Peyğəmbər ﷺ ətdən yedikdən sonra səhabələrinə*: "Burada yaşayan yəhudilərin hamısını yanıma toplayın!"– deyə buyurdu. Səhabələr yəhudiləri *Peyğəmbərin ﷺ* yanına cəm etdikdə, o, dedi: "Mən sizdən söz soruşmaq istəyirəm. Mənə düzgün cavab verəcəksinizmi?" Onlar: "Bəli!"– dedilər. Peyğəmbər ﷺ onlardan: "Atanız kimdir?"– deyə soruşdu. Onlar: "Filankəsdir"– deyə cavab verdilər. *Peyğəmbər ﷺ onlara*: "Yalan danışdınız, sizin atanız filankəsdir"– dedi. Onlar: "Doğru söylədin"– dedilər. O, *yenə* dedi: "Mən sizdən bir söz soruşsam, mənə düzgün cavab verəcəksinizmi?" Onlar dedilər: "Bəli, ey Əbul-Qasım! Hərgah yalan danışsaq, atamız barəsində yalan danışdığımız *sənə agah olduğu* kimi, bu da, sənə agah olacaq." *Peyğəmbər ﷺ* onlardan: "Kimlər Cəhənnəm oduna düşəcək?"– deyə soruşdu. Onlar dedilər: "Biz orada az bir müddət qalacaq, sonra isə siz bizim yerimizi tutacaqsınız." Peyğəmbər ﷺ dedi: "Orada zəlil və məyus halda durub qalın! Biz əsla sizin yerinizi tutmayacağıq!" Sonra *yenə* soruşdu: "Mən sizə bir sual versəm, mənə düzgün cavab verəcəksinizmi?" Onlar: "Bəli, ey Əbul-Qasım!"– deyə cavab verdilər. *Peyğəmbər ﷺ* soruşdu: "Siz bu qoyunun ətinə zəhər qatmısınızmı?" Onlar: "Bəli!"– dedilər. *Peyğəmbər ﷺ* soruşdu: "Sizi bu işi görməyə nə vadar etdi?" Onlar dedilər: "*Yoxlamaq* istəyirdik görək, əgər yalançısansa, səndən canımız qurtaracaq, yox əgər peyğəmbərsənsə, onda bu zəhərin sənə zərəri dəyməyəcək" (Səhih əl-Buxari, 3169).

Peyğəmbər ﷺ ondan yedi.[1] Sonra *səhabələr* həmin qadını[2] tutub (Peyğəmbərin ﷺ yanına) gətirdilər və: "Onu öldürəkmi?"– deyə soruşdular. Peyğəmbər ﷺ: "Xeyr!"– deyə cavab verdi.[3] Mən *həmin* yeməyin Rəsulullaha ﷺ təsir göstərdiyini görürdüm.[4]"[5]

**٢٤٤–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا هِشَامٌ، عَنْ وَهْبِ بْنِ كَيْسَانَ قَالَ: سَمِعْتُ عَبْدَ اللهِ بْنَ الزُّبَيْرِ يَقُولُ عَلَى الْمِنْبَرِ: ﴿خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ﴾، قَالَ: وَاللَّهِ مَا أَمَرَ بِهَا أَنْ تُؤْخَذَ إِلاَّ مِنْ أَخْلاَقِ النَّاسِ، وَاللَّهِ لآخُذَنَّهَا مِنْهُمْ مَا صَحِبْتُهُمْ.

**(244)** ........ Abdullah ibn əz-Zubeyr رضي الله عنهما minbərdə ikən: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər"**[6]

---

[1] Bu, kafirdən hədiyyə götürməyin caiz olduğuna dəlalət edir. İmam Buxari öz "Səhih"ində "Hədiyyə etməyin fəziləti və buna təşviq etmək kitabında" ayrıca bir fəslə belə bir ünvan qoymuşdur: "Müşriklərdən hədiyyə qəbul etmək."

[2] Adı Zeynəb bint Harisdir.

[3] Həmin vaxt Peyğəmbər ﷺ bu qadını əfv etdi. Əfv etmək xüsusunda Uca Allah buyurur: **"*İsrail oğulları* verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar *Kitabda olan* kəlmələrin yerlərini dəyişdirirlər. Onlar *özlərinə* öyrədilmiş şeylərin bir hissəsini unutdular. İçərilərindən az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görəcəksən. Onları əfv et və *təqsirlərindən* keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevir"** (əl-Maidə, 13).

[4] Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ ölümündən qabaq: "Mən hələ də Xeybərdə yediyim yeməyin ağrısını çəkirəm"– demişdir. (Sunən Əbu Davud, 4512).

[5] Bu hədisi Buxari (2424), Muslim (5834) Əbu Davud (4508) və Əhməd (3/218) rəvayət etmişdir.

[6] **"Sən bağışlama *yolunu* tut",** – yəni insanların xətalarından keçməyə və onların işlərini yüngülləşdirməyə çalış, habelə, onlardan özünə aid olan haqların hamısını tələb etməyə cəhd göstərmə. Çünki nə qədər cəhd etsən də, buna nail olan deyilsən.

**"yaxşı iş görməyi əmr et",** – yəni şəriətin vacib buyurduğu, habelə, insanlar arasında yaxşı əməl sayılan əməlləri buyur, şəriətin qadağan etdiyi, habelə, insanlar arasında yaramaz əməl sayılan əməllərdən çəkindir. Ümumiyyətlə, görülən işlər üç qismə bölünür: Birincisi, qadağan edilməsi vacib olan pis əməllərdir ki, ərəbcə buna (مُنْكَر) "munkər" deyilir. İkincisi, əmr edilməsi vacib olan yaxşı əməllərdir ki, ərəbcə buna (مَعْرُوف) "məruf" deyilir.

ayəsini[1] oxuyub dedi: "Vallahi, Allah bununla insani əxlaq içindən ancaq bu yolu tutmağı əmr etmişdir.[2] Vallahi, insanlar arasında yaşadığım müddətdə mən onlarla bu cür davranacağam."[3]

٢٤٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ فُضَيْلِ بْنِ غَزْوَانَ، عَنْ لَيْثٍ، عَنْ طَاوُسٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((عَلِّمُوا وَيَسِّرُوا وَلاَ تُعَسِّرُوا، وَإِذَا غَضِبَ أَحَدُكُمْ فَلْيَسْكُتْ)).

---

Üçüncüsü isə bu ikisindən heç birinə aid olmayan əməllərdir ki, bunları deməmək daha məsləhətdir. Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" (Səhih əl-Buxari, 6018).

**"və cahillərdən üz döndər",** – yəni sənə sataşan və sənə söz atan adama baş qoşma, onun səviyyəsinə enmə. Cahil deyildikdə, ya oxumamış, savadsız, avam, nadan, heç şeydən xəbəri olmayan, ya da anlamaz, qanmaz və səfeh adam nəzərdə tutulur. Ayədən belə başa düşülür ki, nadan və səfeh adam bizə söz atdığı, sataşdığı və bizə qarşı başqa bu kimi ədəbsizliklər etdiyi təqdirdə, onun səviyyəsinə enməməli, əksinə, onunla İslam əxlaqına uyğun tərzdə rəftar etmək gərəkdir. İslam əxlaqı barədə isə Uca Allah belə buyurur: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar"** (Fussilət, 34) Odur ki, cahil adam bizi özümüzdən çıxarmağa cəhd göstərdiyi və öz yaramaz hərəkəti ilə bizi hirsləndirməyə çalışdığı zaman biz Allahın Kitabını və Rəsulullahın ﷺ Sünnəsini xatırlamalı, nə üçün haqq yolunu tutub getdiyimizi düşünməliyik ki, yolumuzu azmayaq. Çünki bu yolla gedən kimsə barədə Uca Allah belə buyurur: **"Hər kim Mənim doğru yol göstərən *bələdçimin* ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar"** (Ta ha, 123). Allah hamımızı əməlisalehlərdən olmağa müvəffəq etsin!" (Şərh Riyadus-Salihin, 50-ci hədisin şərhi).

[1] "əl-Ə'raf" surəsi, 199.

[2] İmam Buxarinin "Səhih"ində rəvayət edilmiş hədisdə Abdullah ibn Zubeyr رضي الله عنهما demişdir: "Allah Öz peyğəmbərinə ﷺ insani əxlaq içərisindən bağışlanma yolunu tutmağı əmr etmişdir" (Səhih əl-Buxari, 4644).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**(245)** ........ İbn Abbas ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Öyrədin, asanlaşdırın, çətinləşdirməyin![1] Qoy sizlərdən biri qəzəbləndiyi zaman sussun.[2]"[3]

---

[1] Burada Peyğəmbər ﷺ müsəlmanlara İslam dinini insanlara öyrətməyi, lakin onu öyrədərkən insanları əziyyyətə salmamağı, onları həddən artıq yükləməməyi, əksinə, onlara İslam ayinlərinin yerinə yetirilməsinin asan yollarını öyrətməyi buyurur. Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət oyatmayın" (Səhih əl-Buxari, 69). Hədislərin birində Peyğəmbər ﷺ İslam dininin asan bir din olduğunu xəbər verib demişdir: "Həqiqətən, bu din asandır. Dini çətinləşdirən elə bir kimsə yoxdur ki, *din* onu üstələməsin" (Səhih əl-Buxari, 39); digər bir hədisdə rəvayət edilir ki, Aişə ﷺ demişdir: "Peyğəmbərə ﷺ iki şeydən birini seçmək təklif edildikdə – günah işlər istisna olmaqla – həmişə daha asan olanını seçərdi. Günah iş görmək təklif olunduqda isə o, bundan hamıdan çox çəkinərdi" (Səhih əl-Buxari, 3560).

[2] Burada Peyğəmbər ﷺ bizə qəzəbləndiyimiz zaman nəfsimizi cilovlamağın yolunu öyrədir. Həmçinin, hədislərin birində o, belə buyurmuşdur: "Qoy sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın" (Səhih əl-Cami, 694).

[3] Bu hədisi İmam Əhməd (1/239) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih li-ğeyrihi" olduğunu demişdir.

## ١٢٤- بَابٌ الانْبِسَاطُ إِلَى النَّاسِ

## 124-cü fəsil. İnsanların qeydinə qalmaq[1]

٢٤٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سِنَانٍ قَالَ: حَدَّثَنَا فُلَيْحُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا هِلاَلُ بْنُ عَلِيٍّ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ قَالَ: لَقِيتُ عَبْدَ اللَّهِ بْنَ عَمْرِو بْنِ الْعَاصِ فَقُلْتُ: أَخْبِرْنِي عَنْ صِفَةِ رَسُولِ اللَّهِ ﷺ فِي التَّوْرَاةِ، قَالَ: فَقَالَ: أَجَلْ وَاللَّهِ، إِنَّهُ لَمَوْصُوفٌ فِي التَّوْرَاةِ بِبَعْضِ صِفَتِهِ فِي الْقُرْآنِ: ﴿يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا﴾، وَحِرْزًا لِلأُمِّيِّينَ، أَنْتَ عَبْدِي وَرَسُولِي، سَمَّيْتُكَ الْمُتَوَكِّلَ، لَيْسَ بِفَظٍّ وَلاَ غَلِيظٍ، وَلاَ صَخَّابٍ فِي الأَسْوَاقِ، وَلاَ يَدْفَعُ بِالسَّيِّئَةِ السَّيِّئَةَ، وَلَكِنْ يَعْفُو وَيَغْفِرُ، وَلَنْ يَقْبِضَهُ اللَّهُ تَعَالَى حَتَّى يُقِيمَ بِهِ الْمِلَّةَ الْعَوْجَاءَ، بِأَنْ يَقُولُوا: لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَيَفْتَحُ بِهَا أَعْيُنًا عُمْيًا، وَآذَانًا صُمًّا، وَقُلُوبًا غُلْفًا.

**(246)** ........ Əta ibn Yəsar demişdir:[2] "(Bir dəfə) mən Abdullah ibn Amr ibn As ilə rastlaşdım və (ona): "Mənə Rəsulullahın ﷺ Tövratda olan vəsfi barədə xəbər ver"– dedim. O, dedi: "Bəli, vallahi ki, onun Quranda vəsf edilən (bəzi) sifətləri Tövratda da vəsf edilmişdir:

**"Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən olaraq göndərdik."**[3] Həmçinin, səni ümmiləri[4] qoruyan olaraq[5] (göndərdik).

---

[1] Burada "qeydinə qalmaq" deyildikdə, camaata qaynayıb-qarışmaq, onların dərdinə şərik olmaq, imkan daxilində onlara əl tutmaq, onlara nəvaziş göstərmək nəzərdə tutulur.

[2] Bu hədisi Buxari (2125) və Əhməd (2/174) rəvayət etmişdir.

[3] Bax: "əl-Əhzab" surəsi, 45. Bu ayədə "şahid, müjdəçi və xəbərdar edən" deyildikdə, Peyğəmbərin ﷺ Allahın vəhdaniyyətinə və insanların əməllərinə şahid olması, habelə, insanları tövhidə dəvət edib, Cənnətlə müjdələməsi və bir də onları şirkdən çəkindirib Cəhənnəmlə qorxutması nəzərdə tutulur.

[4] Burada "ümmi" deyildikdə, yazıb-oxumağı bacarmayan ərəblər qəsd edilir.

[5] Qüdrətli və əzəmətli Allah Öz peyğəmbərini ﷺ insanları Onun yoluna dəvət etmək, onları pis əməllərdən çəkindirmək və beləliklə də, onları əzabdan qorumaq üçün göndərmişdir. Əlbəttə ki, Allaha və Onun rəsuluna ﷺ itaət edən hər kəs əmin-amanlıqda olar, Allah onu Cəhənnəm odundan xilas edər, üstəlik, onu peyğəmbərlərlə, siddiqlərlə, şəhidlərlə və əməlisaleh möminlərlə birgə Cənnətə daxil edər.

Sən Mənim qulum və rəsulumsan.[1] Mən sənə Mütəvəkkil[2] adını verdim. O *Peyğəmbər* nə kobud, nə daş qəlbli,[3] nə də bazarda qışqır-bağır salan[4] birisidir; pisliyi pisliklə dəf etməz,[5] əksinə, əfv edər və bağışlayar. Uca Allah onun vasitəsilə əyri yolda olan milləti[6] düzəltməyincə[7] – onlar "Lə

---

[1] 211-ci hədisin qeydlərinə bax.

[2] Təvəkkül edən. Təvəkkül xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O, quşa ruzi verdiyi kimi, sizə də ruzi verər. Belə ki, quş səhər-səhər *yuvasından* qarnı ac uçub gedir, axşam isə *ora* tox qayıdır" (Sunən ət-Tirmizi, 2/55; Silsilətul-Əhadisis-Səhihə, 310). İbn Rəcəb bu kəlməni belə izah etmişdir: "Təvəkkül: dünyaya və Axirətə aid hər bir işdə xeyir əldə etmək və ya zərəri dəf etmək üçün səmimi-qəlbdən Allaha etimad etmək və Ondan başqasının nə *ruzi* verməyə, nə *verdiyinin* qarşısını almağa, nə xeyir verməyə, nə də zərər vurmağa qadir olduğuna iman etməkdir." (Camiul-Ulum vəl-Hikəm, 49-cu hədisin şərhi). Qeyd edək ki, Allaha təvəkkül etmək ibadət sayılır. Allahdan qeyrisinə edilən təvəkkül isə üç qismdir: birincisi, Allahdan qeyrisinə, onun qadir olmadığı bir işdə ona təvəkkül etmək. Bu, böyük şirk sayılır. İkincisi, məxluqun qadir olduğu işdə onun xeyir verməyə və ya zərər vurmağa qadir olduğuna etiqad edərək ona təvəkkül etmək. Bu da, kiçik şirk sayılır. Üçüncüsü isə, məxluqun qadir olduğu işdə onun xeyir verməyə və ya zərər vurmağa qadir olduğuna etiqad etmədən ona təvəkkül etmək. Bunu etmək isə günah sayılmır (Cədid fi Şərh Kitab ət-Tövhid, 1/302). Yeri gəlmişkən qeyd edək ki, Allaha təvəkkül etmək dinin yarısı hesab olunur. Bu xüsusda "əl-Fatihə" surəsində belə buyurulur: **"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!"**

[3] Uca Allah Peyğəmbərə ﷺ belə buyurur: **"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar"** (Ali-İmran, 159). Peyğəmbərin ﷺ həyat tərzinə nəzər salsaq, onun necə böyük əxlaq sahibi, olduqca mülayim və ürəyiyuxa adam olduğunu görə bilərik.

[4] Uca Allah bu cür qışqırmağı pisləyib buyurur: **"Yerişində həddi gözlə, *danışanda* səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir"** (Loğman, 19).

[5] Quranda Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur"** (Fussilət, 34-35).

[6] Burada müşriklər və kafirlər nəzərdə tutulur.

[7] Bu hədisdən aydın olur ki, azmış insanların doğru yola gəlməsinə, habelə, kor gözlərin, kar qulaqların və bağlı qəlblərin açılmasına səbəb olmaq üçün adam nə kobud, nə

ilahə illəllah" deməyincə,[1] Uca Allah onu Öz yanına aparmaz; həm də bu tövhid kəlməsi sayəsində kor gözləri, kar qulaqları və bağlı qəlbləri açar."

٢٤٧- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ، عَنْ هِلاَلِ بْنِ أَبِي هِلاَلٍ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: إِنَّ هَذِهِ الآيَةَ الَّتِي فِي الْقُرْآنِ ﴿يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا﴾ فِي التَّوْرَاةِ نَحْوَهُ.

**(247)** ........ Abdullah ibn Amr ﵄ demişdir: "Həqiqətən, Quranda keçən: **"Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən olaraq göndərdik"**[2] ayəsinin bənzəri Tövratda da mövcuddur."[3]

---

daş qəlbli olmalı, pisliyi pisliklə dəf etməməli, əksinə, əfv etməyi və bağışlamağı bacarmalı, ələlxüsus da onları ilk əvvəl "Lə ilahə illəllah" kəlməsinə dəvət etməlidir.

[1] Burada təkcə bu kəlməni tələffüz etmək yox, tələffüz etməklə yanaşı, həm də mənasını dərk etmək nəzərdə tutulur. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Lə ilahə illəllah" deyən və *qəlbən* bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcəkdir" (Səhih Muslim, 273). Odur ki, Peyğəmbər ﷺ Qureyş kafirlərinə: "Lə ilahə illəllah" deməyi buyurduqda onlar bunun nə olduğunu anlamış və təkəbbür göstərərək bundan imtina edib demişlər: **"Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?"** (əs-Saffat, 36). Peyğəmbər ﷺ öz ümmətinə hər namazdan sonra bu zikri etməyi öyrətmişdir: "Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləh. Ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Lə həulə və lə quvvətə illə billəh. Lə ilahə illəllahu, və lə nə'budu illə iyyah. Ləhun-ni'mətu və ləhul-fədlu və ləhus-sənaul-həsən. Lə ilahə illəllahu muxlisinə ləhud-dinə və ləu kərihəl-kafirun." Nədir bu duanın mənası? "Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Qüdrət və güc yalnız Allahdadır! Allahdan başqa məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!" Diqqət edin, burada "Lə ilahə illəllah" kəlməsi üç kərə təkrar edilir və hər dəfə özündən sonra onun mənasını təsdiqləyən cümlələr gəlir. Yəni bu kəlməni deyən adam Allahın Tək və şəriksiz ilah olduğunu qəbul etməli, dini məhz Ona məxsus edərək, yalnız Ona ibadət etməli, yalnız Ona həmd etməli, yalnız Onun hər şeyə qadir olduğuna, bütün nemətlərin və bütün həmdlərin yalnız ona məxsus olduğuna etiqad etməlidir. Deməli, düz yola gəlmək üçün bu kəlməni tələffüz etmək və onun mənasını qəbul etmək vacibdir.

[2] "əl-Əhzab" surəsi, 45.

[3] Bu, əvvəlki hədisin təkrarıdır (isnadı "səhih"dir).

**٢٤٨**- حَدَّثَنَا إِسْحَاقُ بْنُ الْعَلَاءِ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ سَالِمٍ الْأَشْعَرِيُّ، عَنْ مُحَمَّدٍ هُوَ ابْنُ الْوَلِيدِ الزَّبِيدِيُّ، عَنِ ابْنِ جَابِرٍ وَهُوَ يَحْيَى بْنُ جَابِرٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ ابْنِ جُبَيْرِ بْنِ نُفَيْرٍ حَدَّثَهُ، أَنَّ أَبَاهُ حَدَّثَهُ، أَنَّهُ سَمِعَ مُعَاوِيَةَ يَقُولُ: سَمِعْتُ مِنَ النَّبِيِّ ﷺ كَلَامًا نَفَعَنِي اللَّهُ بِهِ، سَمِعْتُهُ يَقُولُ، أَوْ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((إِنَّكَ إِذَا اتَّبَعْتَ الرِّيبَةَ فِي النَّاسِ أَفْسَدْتَهُمْ)) فَإِنِّي لَا أَتَّبِعُ الرِّيبَةَ فِيهِمْ فَأُفْسِدَهُمْ.

**(248)** ........ Muaviyə[1] ﷺ demişdir: "Mən Peyğəmbərdən ﷺ elə bir söz eşitdim ki, Allah o sözlə mənə fayda verdi. Mən Peyğəmbərin ﷺ belə dediyini

---

[1] Muaviyə ibn Əbu Sufyan ﷺ hicrətin 40-cı ilində möminlərin əmiri seçilmişdir. Səhabə demək istəyir ki, Peyğəmbərdən ﷺ eşitdiyi nəsihətə əməl etdiyinə görə Allah ona insanlarla qurduğu ünsiyyətdə, ələlxüsus da idarəçilik dövründə kömək olmuşdur. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ onun üçün belə dua etmişdir: "Allahım, Muaviyəyə Kitabı və hesabı öyrət, onu əzabdan qoru!" (Musnəd İmam Əhməd, 4/127; Musnəd əl-Bəzzar, 2723; Mocəmul-Kəbir, 18/251; Silsilətul-Əhadisis-Səhihə, 3227); başqa bir hədisdə Peyğəmbər ﷺ yenə onun üçün dua edib demişdir: "Allahım, onu doğru yol göstərən kimsələrdən et, onu doğru yolla getməyə və *başqalarını da* doğru yola yönəltməyə müvəffəq et!" (Tarix əl-Buxari, 4/1/327; Sunən ət-Tirmizi, 2/316; Silsilətul-Əhadisis-Səhihə, 1969). Üstəlik, Uca Allah Quranda səhabələrdən razı qaldığını xəbər verib buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin, yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar. *Allah* onlar üçün *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur"** (ət-Tovbə, 100). Həmçinin, Peyğəmbər ﷺ öz səhabələri xüsusunda müsəlman ümmətinə belə tövsiyə etmişdir: "Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta yarısına belə çata bilməz" (Səhih əl-Buxari, 3673). Bu ayə və hədisdən belə nəticə çıxır ki, özünü müsəlman sayan adam Allahın və Onun rəsulunun ﷺ razı qaldığı, sevdiyi və özünə dost tutduğu, peyğəmbərlərdən sonra insanların ən fəzilətlisi sayılan səhabələr barədə pis zənnə qapılmamalı, onların ictihad nəticəsində yol verdiyi və bunun sayəsində savab qazandıqları xətaları müzakirə etməməli, onlara dil uzatmamalı, onlara nifrət etməməli, əksinə, barələrində gözəl zənn etməli, onları sevməli, onların üstünlüklərindən və İslam dini üçün etdikləri əməllərdən danışmalıdır. Bu xüsusda, Uca Allah buyurur: ***"Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və biz-**

**dən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10). Və əgər mömin adam bu dua ilə səmimi-qəlbdən Allaha yalvararsa, Allah onun qəlbində səhabələrə qarşı nifrət və həsədə yer verməz. Fədl ibn İyad rəvayət edir ki, *bir dəfə* Əhməd ibn Hənbəldən soruşdular ki: "Muaviyəyə və Amr ibn əl-Asa dil uzadan adama rafizi demək olarmı?" Əhməd ibn Hənbəl dedi: "Ancaq nəfsində xəbislik olan adam onlara dil uzadar və ancaq qəlbi xəstə olan adam Rəsulullahın ﷺ səhabəsinə nifrət edər" (Tarix Diməşq, 59/210; Bidayə vən-Nihayə, 8/142). Odur ki, Əhməd ibn Hənbəldən Əli ؓ ilə Muaviyə ؓ arasında baş vermiş ixtilaf barədə soruşulduqda o, "əl-Bəqərə" surəsinin 134-cü və 141-cü ayəsini əsas gətirərək deyərdi: **"Onlar bir ümmət idi ki, gəlib getdilər. Onların qazandıqları özlərinə, sizin qazandığınız isə sizə aiddir. Siz onların etdikləri barədə sorğu-sual olunmayacaqsınız"** (İsabə vi Zəbbi anis-Səhabə, 1/337). Əbu Qasim rəvayət edir ki, bir kişi əmim Əbu Zura ər-Razinin yanına gəlib dedi: "Mən Muaviyəyə nifrət edirəm." Əbu Zura: "Nəyə görə?"– deyə soruşdu. Adam: "Çünki o, haqsız yerə Əliyə qarşı vuruşmuşdur"– dedi. Əbu Zura da ona belə cavab verdi: "Muaviyənin Rəbbi, Mərhəmətli Rəbbdir. Muaviyənin rəqibi də alicənab rəqibdir. Bəs sənə nə düşüb ki, onların arasına girirsən?" (Bidayə vən-Nihayə, 8/139; Fəthul-Bari, 13/86). Şəkk yoxdur ki, Əli ibn Əbu Talib ؓ Muaviyədən ؓ daha fəzilətli, xəlifə olmağa daha haqlı idi. Lakin bilməliyik ki, səhabələr arasında baş vermiş istənilən ixtilafda hər iki tərəf – doğru rəydə olan da, səhv fikirdə olan da savab qazanır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Əgər hakim hökm verdiyi zaman ictihad etsə, sonra da verdiyi hökm düz çıxsa, iki savab qazanar. Və əgər hökm verdiyi zaman ictihad etsə, sonra da verdiyi hökm səhv olsa, bir savab qazanar" (Səhih əl-Buxari, 7352; Səhih Muslim, 4584). Səhabəni söyən adam öz boynuna günah yığır və səhabələrin haqqına girdikcə onların yalnız savabını artırır. Rəvayət edilir ki, bir dəfə möminlərin anası Aişəyə ؓ xəbər verdilər ki, bəzi adamlar Peyğəmbərin ﷺ səhabələrini söyür, hətta Əbu Bəkr və Ömərə belə dil uzadırlar. Onda Aişə ؓ onlara belə cavab verdi: "Siz buna təəccüb edirsiniz?! O səhabələrin əməl dəftəri bağlanmış, lakin Allah onların savablarının artmasını istəmişdir" (əl-Fiqhu fi Ahdis-Səhabə, 1/18); həmçinin, rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrindən: "Bilirsiniz müflis kimdir?"– deyə soruşdu. Onlar: "Müflis, ya Rəsulullah, nə bir dirhəmi, nə də bir malı olan kimsələrimizdir"– deyə cavab verdilər. Onda Rəsulullah ﷺ dedi: "Ümmətimin müflisləri o kəslərdir ki, onlar Qiyamət günü namazla, orucla və zəkatla, habelə, birisini söymüş, birisinə böhtan atmış, birisinin malını yemiş, birisinin qanını tökmüş, birisini də vurmuş olduğu halda *Allahın hüzuruna* gələcək və *zülm etdiyi* bu adamlar ondan qisas ala-

eşitdim: "Əgər sən insanların (işinə) şübhə ilə yanaşsan, onların arasında fəsad törədəcəksən."[1] Odur ki, mən onlara şübhə ilə yanaşmıram, beləliklə də aralarında fəsad törətmirəm."[2]

**٢٤٩–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا حَاتِمٌ، عَنْ مُعَاوِيَةَ بْنِ أَبِي مُزَرِّدٍ، عَنْ أَبِيهِ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: سَمِعَ أُذُنَايَ هَاتَانِ، وَبَصُرَ عَيْنَايَ هَاتَانِ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ بِيَدَيْهِ جَمِيعًا بِكَفَّيِ الْحَسَنِ، أَوِ الْحُسَيْنِ وَقَدَمَيهِ عَلَى قَدَمِ رَسُولِ اللَّهِ ﷺ، وَرَسُولُ اللَّهِ ﷺ يَقُولُ: ((ارْقَهْ))، قَالَ: فَرَقِيَ الْغُلَامُ حَتَّى وَضَعَ قَدَمَيْهِ عَلَى صَدْرِ رَسُولِ اللَّهِ ﷺ، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((افْتَحْ فَاكَ))، ثُمَّ قَبَّلَهُ، ثُمَّ قَالَ: ((اللَّهُمَّ أَحِبَّهُ، فَإِنِّي أُحِبُّهُ)).

**(249)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Bu qulaqlarım eşitdi, bu gözlərim gördü ki, Rəsulullah ﷺ əlləri ilə Həsənin, yaxud Hüseynin əllərindən tutub, ayaqlarını da öz ayağının üstünə qoyub: "Qalx!"– dedi. Uşaq yavaş-yavaş qalxıb ayaqlarını Rəsulullahın ﷺ sinəsinə qoydu. Rəsulullah ﷺ (ona): "Ağzını aç!"– dedi, sonra da onu öpüb belə dua etdi: "Allahım, onu sev! Çünki mən onu sevirəm![3]"[1]

---

raq onun savablarından götürəcəklər. Əgər ondan tam olaraq qisas alınmadan öncə savabları qurtararsa, həmin adamların günahlarından götürülüb onun günahları üzərinə əlavə edilər, sonra da bu adam Cəhənnəm oduna atılar" (Sunən ət-Tirmizi, 248; Səhih Tərğib vət-Tərhib, 2843). Etibarlı mühəddislərdən sayılan Əbu Tovbə əl-Hələbi demişdir: "Muaviyə ibn Əbu Sufyan ﷺ Rəsulullahın ﷺ səhabələrinin önündə olan bir örtükdür. Kim bu örtüyü qaldırarsa, onun arxasındakılara da dil uzadar" (Bidayə vən-Nihayə, 8/139).

[1] Burada "insanlara şübhə ilə yanaşmaq" deyildikdə, zənnə qapılaraq onların eyiblərini arayıb-axtarmaq nəzərdə tutulur. Çünki başqa bir hədisdə Peyğəmbər ﷺ Muaviyəyə ﷺ belə buyurmuşdur: "Əgər sən insanların eyiblərini axtarsan, onların arasında fəsad törədəcəksən" (Sunən Əbu Davud, 4888; Səhih əl-Cami, 2295); digər bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Əgər əmir insanlara şübhə ilə yanaşarsa, onların arasında fəsad törədər" (Sunən Əbu Davud, 4889; Musnəd İmam Əhməd, 6/4; Səhih əl-Cami, 1585).

[2] Bu hədisi Əbu Davud (4888, 4889) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Bu hədisdən aydın olur ki, uşaqlara nəvaziş göstərmək də həmçinin, insanların qeydinə qalmağa aiddir. Rəvayət edilir ki, *bir dəfə* Ənəs ibn Malik ﷺ uşaqların yanından ke-

çib onlara salam verdi və dedi: "Peyğəmbər ﷺ uşaqlara salam verərdi" (əl-Ədəbul-Mufrad, 1043); başqa bir hədisdə Ənəs ibn Malik ؓ demişdir: "Rəsulullah ﷺ *hərdən* bizimlə zarafat edərdi. Hətta *bir gün o,* mənim balaca qardaşıma zarafatla dedi: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?" (Səhih əl-Buxari, 6778; Səhih Muslim, 3215; Şəmailun-Nəbi, 236).

[1] Bu hədisin isnadında keçən Əbu Muzərrid "məqbul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir. Lakin qeyd edək ki, Peyğəmbərin ﷺ Həsən və Hüseynə nəvaziş göstərməsi, onları qucağına alıb öpməsi və Allahın onları sevməsi üçün dua etməsi digər "səhih" hədislərdə öz təsdiqini tapmışdır (Bax: əl-Ədəbul-Mufrad, 86, 364, 1152 və 1183).

# ١٢٥– بَابُ التَّبَسُّمِ

## 125-ci fəsil. Gülümsəmək[1]

٢٥٠ | ١– حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ إِسْمَاعِيلَ، عَنْ قَيْسٍ قَالَ: سَمِعْتُ جَرِيرًا يَقُولُ: مَا رَآنِي رَسُولُ اللَّهِ ﷺ مُنْذُ أَسْلَمْتُ إِلاَّ تَبَسَّمَ فِي وَجْهِي.

**(250/1)** ........ Cərir ﷺ demişdir: "Müsəlman olduğum gündən bəri Peyğəmbər ﷺ məni nə vaxt görsəydi, üzümə gülümsəyərdi."[2]

٢٥٠ | ٢– وَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((يَدْخُلُ مِنْ هَذَا الْبَابِ رَجُلٌ مِنْ خَيْرِ ذِي يَمَنٍ، عَلَى وَجْهِهِ مَسْحَةُ مَلَكٍ)) فَدَخَلَ جَرِيرٌ.

**(250/2)** *Bir gün* Rəsulullah ﷺ: "Yəmən əhlinin ən xeyirlilərindən olan, mələksimalı bir kişi[3] bu qapıdan içəri daxil olacaq"– dedi və həmin vaxt Cərir içəri daxil oldu.[4]

---

[1] Burada "gülümsəmək" deyildikdə, səssiz olaraq təbəssüm etmək nəzərdə tutulur. Bu təbəssüm səslə olduqda isə artıq buna gülümsəmək yox, gülmək, lap yüksək səslə olduqda isə buna qəh-qəhə çəkmək deyilir. Qeyd edək ki, savab qazanmaq məqsədilə təbəssüm etmək sədəqədir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Qardaşının üzünə gülümsəməyin sədəqədir" (Sunən ət-Tirmizi, 1/354; Silsilətul-Əhadisis-Səhihə, 572).

[2] Hədisdəki bu cümləni Buxari (2881), Muslim (2475), Tirmizi (3822), İbn Macə (159) və Əhməd (4/358) rəvayət etmişdir.

[3] Bu söz Cərir ibn Abdullah əl-Bəcəlinin ﷺ fəzilətinə dəlalət edir.

[4] Bu, əvvəlki hədisin davamıdır və bu cümləni İmam Əhməd (4/359 və 364) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. İmam Əhmədin "Musnəd" əsərində bu hədisin əvvəlində rəvayət edilir ki, Cərir ibn Abdullah əl-Bəcəli ﷺ demişdir: "Mən Mədinəyə (Peyğəmbərin ﷺ məscidinin yanına) gəlib çatdıqda mindiyim dəvəni yerə çökdürdüm, sonra xurcunlarımı yerbəyer etdim, sonra da əynimə gözəl libas geyib məscidə daxil oldum və baxdım ki, Peyğəmbər ﷺ xütbə söyləyir. Elə bu vaxt oradakıların hamısı mənə tərəf baxdı. Mən yanında oturduğum adamdan soruşdum: "Ey Allah bəndəsi, Rəsulullah ﷺ mənim barəmdə

٢٥١- حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنَا عَمْرُو بْنُ الْحَارِثِ، أَنَّ أَبَا النَّضْرِ حَدَّثَهُ، عَنْ سُلَيْمَانَ بْنِ يَسَارٍ، عَنْ عَائِشَةَ زَوْجِ النَّبِيِّ ﷺ قَالَتْ: مَا رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ ضَاحِكًا قَطُّ حَتَّى أَرَى مِنْهُ لَهَوَاتِهِ، إِنَّمَا كَانَ يَتَبَسَّمُ ﷺ، قَالَتْ: وَكَانَ إِذَا رَأَى غَيْمًا أَوْ رِيحًا عُرِفَ فِي وَجْهِهِ، فَقَالَتْ: يَا رَسُولَ اللَّهِ، إِنَّ النَّاسَ إِذَا رَأَوُا الْغَيْمَ فَرِحُوا، رَجَاءَ أَنْ يَكُونَ فِيهِ الْمَطَرُ، وَأَرَاكَ إِذَا رَأَيْتَهُ عُرِفَتْ فِي وَجْهِكَ الْكَرَاهَةُ؟ فَقَالَ: ((يَا عَائِشَةُ، مَا يُؤْمِنِّي أَنْ يَكُونَ فِيهِ عَذَابٌ؟ عُذِّبَ قَوْمٌ بِالرِّيحِ، وَقَدْ رَأَى قَوْمٌ الْعَذَابَ فَقَالُوا: ﴿هَذَا عَارِضٌ مُمْطِرُنَا﴾)).

**(251)** ........ Peyğəmbərin ﷺ zövcəsi Aişə رضي الله عنها demişdir:[1] “Mən heç vaxt Rəsulullahın ﷺ damağı görününcəyədək güldüyünü görməmişəm. O, sadəcə gülümsəyərdi. Bulud və külək gördükdə isə onun üzünün cizgiləri dəyişərdi.[2] (Bir dəfə) mən dedim: “Ya Rəsulullah! İnsanlar bulud gördükdə sevinir, yağış yağacağına ümid edirlər. Amma baxıram ki, sən onu gördükdə üzündən narahatlıq hiss olunur.” O, dedi: “Ey Aişə, mən necə əmin ola bilərəm ki, o, özü ilə əzab gətirmir? Axı, küləklə əzaba məruz qalmış

---

nə isə dedimi?” O, dedi: “Bəli, o səni olduqca gözəl tərzdə yad etdi. Xütbəsi əsnasında birdən ona nə isə agah oldu və o, belə buyurdu: “İndi bu qapıdan Yəmən əhlinin ən xeyirli və ən gözəl bənizli kişilərindən biri sizin yanınıza daxil olacaq.” Cərir dedi: “Onda mən Allaha həmd etdim.” Şeyx Şueyb əl-Ərnaut bu hədisin “səhih” olduğunu demişdir.

[1] Bu hədisi Buxari (4828), Muslim (2123), Əbu Davud (5098) və Əhməd (6/66) rəvayət etmişdir.

[2] Peyğəmbər ﷺ buluddan və ya küləkdən yox, onunla birgə gələ biləcək əzabdan qorxurdu. Digər hədisdə rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: “Peyğəmbər ﷺ göy üzündə yağmurla yüklənmiş buludları gördükdə *təşviş içində* irəli-geri gedib-gələr, *evə* girib-çıxar və siması dəyişərdi. Yağış yağmağa başladıqda isə sakitləşərdi.” Aişə Peyğəmbərin ﷺ nə hala düşdüyünü Peyğəmbərə ﷺ bildirdikdə, o, demişdir: “Bilmirəm, ola bilsin ki, *Ad* qövmünün başına gəlmiş *müsibət bu ümmətin də* başına gəlsin: “Nəhayət, o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: “Bu, bizə yağış yağdıracaq buluddur!”– dedilər. *Hud dedi:* “Xeyr! Bu sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir!” (Səhih əl-Buxari, 3206).

tayfa gəlib getmişdir.[1] Həmin tayfa əzabı gördükdə: **"Bu, bizə yağış yağdıracaq buluddur!"**[2]– demişdilər."

---

[1] Burada söhbət Ad qövmündən gedir. Quranda deyilir: "**Nəhayət, o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu, bizə yağış yağdıracaq buluddur!"– dedilər. *Hud dedi:* "Xeyr! Bu sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir! O öz Rəbbinin əmri ilə hər şeyi yerlə-yeksan edəcəkdir!" Onlar elə *məhv* oldular ki, evlərindən başqa heç bir şey görünmədi. Biz günahkar adamları belə cəzalandırırıq**" (əl-Əhqaf, 24-25).

[2] "əl-Əhqaf", surəsi, 24.

# ١٢٦- بَابُ الضَّحِكِ

## 126-cı fəsil. Gülmək

٢٥٢- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ دَاوُدَ أَبُو الرَّبِيعِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ زَكَرِيَّا قَالَ: حَدَّثَنَا أَبُو رَجَاءٍ، عَنْ بُرْدٍ، عَنْ مَكْحُولٍ، عَنْ وَاثِلَةَ بْنِ الأَسْقَعِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((أَقِلَّ الضَّحِكَ، فَإِنَّ كَثْرَةَ الضَّحِكِ تُمِيتُ الْقَلْبَ)).

**(252)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Az gül! Çünki çox gülmək qəlbi öldürür.[1]"[2]

٢٥٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ الْحَنَفِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الْحَمِيدِ بْنُ جَعْفَرٍ، عَنْ إِبْرَاهِيمَ بْنِ عَبْدِ اللَّهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ تُكْثِرُوا الضَّحِكَ، فَإِنَّ كَثْرَةَ الضَّحِكِ تُمِيتُ الْقَلْبَ)).

**(253)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Çox gülməyin! Çünki çox gülmək qəlbi öldürür."[3]

٢٥٤- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا الرَّبِيعُ بْنُ مُسْلِمٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ زِيَادٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: خَرَجَ النَّبِيُّ ﷺ عَلَى رَهْطٍ مِنْ أَصْحَابِهِ يَضْحَكُونَ وَيَتَحَدَّثُونَ، فَقَالَ: ((وَالَّذِي نَفْسِي بِيَدِهِ، لَوْ تَعْلَمُونَ مَا أَعْلَمُ لَضَحِكْتُمْ قَلِيلاً، وَلَبَكَيْتُمْ كَثِيرًا))، ثُمَّ انْصَرَفَ وَأَبْكَى الْقَوْمَ، وَأَوْحَى اللَّهُ عَزَّ وَجَلَّ إِلَيْهِ: ((يَا مُحَمَّدُ، لِمَ تُقَنِّطُ عِبَادِي؟))، فَرَجَعَ النَّبِيُّ ﷺ فَقَالَ: ((أَبْشِرُوا، وَسَدِّدُوا، وَقَارِبُوا)).

**(254)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki,[4] (bir dəfə) Peyğəmbərin ﷺ səhabələrindən bir qismi gülüb-danışarkən, o, səhabələrinin yanına gəlib

---

[1] Bu, dəlildir ki, gülmək caiz, çox gülmək isə qadağandır.

[2] Bu hədisi Tirmizi (2/50), Əhməd (2/310) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[3] Bu hədisi İbn Macə (4193) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (506) onun "həsən" olduğunu demişdir.

[4] Bu hədisi Beyhəqi "Şoəbul-İman" əsərində (2/22/1058) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, əgər siz mənim bildiklərimi[1] bilsəydiniz, az gülüb çox ağlayardınız." O, çıxıb getdikdən sonra səhabələr ağladı. Allah ﷻ isə ona belə vəhy etdi: "Ey Muhəmməd! Nə üçün qullarımı ruhdan salırsan?"[2] Peyğəmbər ﷺ geri dönüb dedi: "(Qazandığınız savaba) sevinin, doğru yol tutun[3] və (ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa ona) yaxınlaşın.[4]"

---

[1] Burada Peyğəmbər ﷺ Qiyamət günü baş verəcək dəhşətləri və Cəhənnəmdəki əzabı qəsd edir. Bu xəbərdarlıq isə insanı Allaha daha çox ibadət etməyə təşviq edir. Digər hədisdə deyilir ki, Peyğəmbər ﷺ bunu deyəndə səhabələr üzlərini tutub inilti ilə ağlamağa başladılar (Səhih əl-Buxari, 4621).

[2] Bu, dəlildir ki, insanları Allahın yoluna dəvət edən adam onları həm Allahın əzabı ilə qorxutmalı, həm də Onun mərhəməti ilə müjdələməlidir. Belə ki, mömin adam Allaha təkcə qorxu ilə yox, həm də ümidlə ibadət etməlidir. Bu xüsusda, Uca Allah belə buyurur: "**Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər**" (əs-Səcdə, 16). Bir çox alimlər ibadətdə olan qorxu və ümidi göydə uçan quşun qanadlarına bənzətmiş, ibadətin Sünnəyə müvafiq olması üçün bunların hər ikisinin eyni səviyyədə olmasını tövsiyə etmişlər. Belə ki, ümid qorxudan çox olduğu təqdirdə adam arxayınlaşır, Allahın əzabı yadına düşmür və bu da onu Allahın mərhəmətinə ümid edərək, günah işlər görməyə təhrik edir. Qorxu ümiddən çox olduqda isə adam Allahın mərhəmətindən ümidini kəsir. Bunların birinin digərindən çox olması böyük günahlara aid edilir. Deməli, bunları cəm etmək vacibdir. Uca Allah buyurur: **"Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır"** (əl-Hicr, 49-50).

[3] Burada "doğru yol" deyildikdə, Peyğəmbərin ﷺ yolu nəzərdə tutulur. Ərəbcə buna "Sünnə" deyilir. Yəni, Muhəmməd peyğəmbərin ﷺ dediyi sözlər, etdiyi əməllər və təsdiq etdiyi sözlər və əməllər.

[4] Yəni Sünnəyə tam şəkildə riayət edə bilməsəniz, heç olmasa, buna yaxınlaşın. Peyğəmbərin ﷺ izarının ətəyini buna misal çəkmək olar. Onun izarının ətəyi baldırının yarısına çatırmış. Deməli, libasın ətəyini baldırın yarısına qədər qaldırmaq Sünnədir. Lakin bunu bacarmayan adam, heç olmasa buna yaxınlaşmalı, yəni libasının ətəyini baldırın yarısına qədər qaldırmasa da, onu topuğundan aşağı salıb Sünnəyə müxalif hərəkət etməməlidir. Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç qism insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və

onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları üzücü əzab gözləyir." Əbu Zərr ﷺ dedi: "Peyğəmbər ﷺ *buna dəlalət edən* ayəni ("Ali-İmran" surəsinin 77-ci ayəsini) üç dəfə təkrar oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxdı, özləri də ziyana uğradılar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "*Libasının* ətəyini topuqdan aşağı uzadan, verdiyini başa qaxan və yalandan and içməklə malını satan *kimsələr*" (Səhih Muslim, 293); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Paltarın topuqdan aşağı düşən hissəsinə *görə bu topuqlar* Cəhənnəm odunda yanacaqdır" (Səhih əl-Buxari, 5787). Xüsusilə qeyd edək ki, bu hökm yalnız kişilərə aiddir.

## ١٢٧ – بَابٌ إِذَا أَقْبَلَ أَقْبَلَ جَمِيعًا، وَإِذَا أَدْبَرَ أَدْبَرَ جَمِيعًا

## 127-ci fəsil. Yönəldikdə tam yönəlmək, üz çevirdikdə tam çevrilmək[1]

٢٥٥– حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا أُسَامَةُ بْنُ زَيْدٍ قَالَ: أَخْبَرَنِي مُوسَى بْنُ مُسْلِمٍ مَوْلَى ابْنَةِ قَارِظٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّهُ رُبَّمَا حَدَّثَ عَنِ النَّبِيِّ ﷺ، فَيَقُولُ: ((حَدَّثَنِيهِ أَهْدَبُ الشُّفْرَيْنِ، أَبْيَضُ الْكَشْحَيْنِ، إِذَا أَقْبَلَ أَقْبَلَ جَمِيعًا، وَإِذَا أَدْبَرَ، أَدْبَرَ جَمِيعًا، لَمْ تَرَ عَيْنٌ مِثْلَهُ، وَلَنْ تَرَاهُ)).

**(255)** ........ Əbu Hureyrə ﷺ Peyğəmbərdən ﷺ hədis rəvayət etdikdə bəzən deyərdi: "Bunu mənə kirpikləri sıx və uzun, qabırğalarının altı[2] ağ olan (Peyğəmbərimiz ﷺ) danışdı. O yönəldikdə tam yönələr, üz çevirdikdə tam çevrilərdi.[3] Gözlər onun bənzərini görməmiş[4] və heç görməyəcək də."[5]

---

[1] İmam Buxari bu hərəkətin İslam əxlaqına aid olduğunu və Peyğəmbərin ﷺ insanlarla bu cür davrandığını bildirir.

[2] Burada "qabırğalarının altı" deyildikdə, Peyğəmbərin ﷺ böyrü nəzərdə tutulur.

[3] Yəni birinə tərəf döndüyü zaman tam vücudu ilə dönərdi.

[4] Əbu Hureyrənin ﷺ bu sözü Peyğəmbərin ﷺ olduqca gözəl və yaraşıqlı bir insan olduğundan xəbər verir. Həssan ibn Sabit ﷺ öz şeirində Peyğəmbəri ﷺ tərif edib demişdir:

Gözlərim görməmiş səndən gözəlini,
Qadınlar doğmamış səndən göyçəyini.

(Divan Həssan ibn Sabit, səh: 10).

[5] Bu hədisi İbn Səd "Təbəqat" əsərində (1/415) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

# ١٢٨- بَابٌ الْمُسْتَشَارُ مُؤْتَمَنٌ

## 128-ci fəsil. Məsləhətçi etibar qazanmış adamdır

٢٥٦- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شَيْبَانُ أَبُو مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عُمَيْرٍ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ لأَبِي الْهَيْثَمِ: ((هَلْ لَكَ خَادِمٌ؟)) قَالَ: لاَ، قَالَ: ((فَإِذَا أَتَانَا سَبْيٌ فَأْتِنَا)) فَأُتِيَ النَّبِيُّ ﷺ بِرَأْسَيْنِ لَيْسَ مَعَهُمَا ثَالِثٌ، (فَأَتَاهُ أَبُو الْهَيْثَمِ، قَالَ النَّبِيُّ ﷺ: ((اخْتَرْ مِنْهُمَا))، قَالَ: يَا رَسُولَ اللَّهِ، اخْتَرْ لِي، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ الْمُسْتَشَارَ مُؤْتَمَنٌ، خُذْ هَذَا، فَإِنِّي رَأَيْتُهُ يُصَلِّي، وَاسْتَوْصِ بِهِ خَيْرًا))، فَقَالَتِ امْرَأَتُهُ: مَا أَنْتَ بِبَالِغٍ مَا قَالَ فِيهِ النَّبِيُّ ﷺ إِلاَّ أَنْ تُعْتِقَهُ، قَالَ: فَهُوَ عَتِيقٌ، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ اللَّهَ لَمْ يَبْعَثْ نَبِيًّا وَلاَ خَلِيفَةً، إِلاَّ وَلَهُ بِطَانَتَانِ: بِطَانَةٌ تَأْمُرُهُ بِالْمَعْرُوفِ وَتَنْهَاهُ عَنِ الْمُنْكَرِ، وَبِطَانَةٌ لاَ تَأْلُوهُ خَبَالاً، وَمَنْ يُوقَ بِطَانَةَ السُّوءِ فَقَدْ وُقِيَ)).

**(256)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[1] (bir dəfə) Peyğəmbər ﷺ Əbul-Heysəmdən:[2] "Sənin xidmətçin varmı?"– deyə soruşdu. O: "Xeyr!"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Bizə əsirlər gəldiyi zaman yanıma gələrsiniz!"[3] Nəhayət, Peyğəmbərin ﷺ yanına cəmi iki əsir gətirdilər. (Bun-

---

[1] Bu hədisi Tirmizi (2370), Əbu Davud (5128) rəvayət etmiş və Muhəmməd Nasirəd-din əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" və "Muxtəsər əş-Şəmail" əsərlərində onun "səhih" olduğunu demişdir.

[2] Əbul-Heysəm Malik ibn Teyyihan ibn Malik əl-Ovsi əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 22-ci tərcümeyi-hal).

[3] Peyğəmbərin ﷺ bu sözü, verilən hədiyyənin əvəzinə hədiyyə verməyin müstəhəb olduğuna dəlalət edir. Belə ki, bu rəvayətin əvvəlində Əbul-Heysəmin ﷺ Peyğəmbərə ﷺ yemək-içmək verdiyi xəbər verilir. Rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: "Peyğəmbər ﷺ adətən *evindən* çıxmadığı, habelə, *evində* heç kəsi qəbul etmədiyi bir vaxtda *evdən bayıra* çıxdı. Bu vaxt Əbu Bəkr onun yanına gəldi və Peyğəmbər ﷺ *ondan* soruşdu: "*Bu saatda* səni *bura* gətirən nədir, ey Əbu Bəkr?" O, dedi: "Gəldim ki, Allahın rəsuluna baş çəkim, onun üzünə baxım və ona salam verim." Çox keçmədən Ömər gəldi və Peyğəmbər ﷺ *ona da eyni* sualı verdi: "*Bu saatda* səni *bura* gətirən nədir, ey Ömər?" O, dedi: "Aclıqdır, ya Rəsulullah." Peyğəmbər ﷺ: "Mən də bir az acmışam"– dedi. Sonra onlar Əbul-Heysəm ibn Teyyihan əl-Ənsarinin yanına getdilər. Onun çoxlu xurma ağacı və bir sürü qoyunu var idi, lakin xidmətçisi yox idi. Onlar onu *evdə* tapmadıqlarından, onun övrətindən: "Yoldaşın haradadır?"– deyə soruşdular. Qadın dedi: "Gedib, bizə içməli su gə-

dan xəbər tutan) Əbul-Heysəm Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ *ona*: "Bunlardan birini seç!"– deyə buyurdu. O, dedi: "Ya Rəsulullah, özün mənim üçün *istədiyini* seç." Peyğəmbər ﷺ buyurdu: "Həqiqətən, məsləhət verən kimsə, etibar qazanmış adamdır. Götür bunu, mən onun namaz qıldığını gördüm.[1] Ona yaxşı bax."[2] Onun həyat yoldaşı dedi:[3] "Peyğəmbərin ﷺ ona dair verdiyi tövsiyəsini yerinə yetirmək üçün onu ancaq azad etməlisən."[4] Əbul-Heysəm: "Elə isə, o azaddır!"– dedi. Peyğəmbər ﷺ

---

tirsin." Çox keçmədən Əbul-Heysəm əlində bir tuluq su gəlib çıxdı. O, tuluğu *bir kənara* qoyduqdan sonra Peyğəmbərin ﷺ yanına gəldi və "atam-anam sənə qurban"– deyib onu qucaqladı. Sonra o, qonaqları öz bağına apardı və onlar üçün süfrə açdı. Sonra da xurma ağacına yaxınlaşıb *bir salxım xurma dərdi* və onu gətirib *qonaqların qabağına* qoydu. Peyğəmbər ﷺ *ondan*: "Niyə bizim üçün ancaq yetişmiş tər xurmalardan dərmədin?"– deyə soruşdu. O, dedi: "Ya Rəsulullah, istədim ki, yetişmişini və tam yetişməmişini özünüz seçəsiniz." Beləcə, onlar *xurmadan* yeyib, tuluqdakı sudan içdikdən sonra Peyğəmbər ﷺ dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, siz Qiyamət günü bu nemətlər barədə sorğu-sual olunacaqsınız: sərin kölgə, tər xurma və sərin su." Sonra Əbul-Heysəm gedib onlar üçün yemək hazırlamaq istədikdə, Peyğəmbər ﷺ *ona* dedi: "Süd verən heyvanı kəsməyəsən, ha!" *Beləliklə, Əbul-Heysəm* onlar üçün bir dişi və ya erkək keçi balası kəsdi. *Yeməyi hazırladıqdan* sonra onu gətirib onların qabağına qoydu. Onlar *yeməyi* yedikdən sonra Peyğəmbər ﷺ *ondan*: "Sənin xidmətçin varmı?"– deyə soruşdu..." (Əbu Davud, 5128; Sunən ət-Tirmizi, 2370; Şəmailun-Nəbi, 372).

[1] Bu, namaz qılan adamın fəzilətli və etibarlı bir kimsə olduğuna dəlalət edir.

[2] Bu, o deməkdir ki, birisinə məsləhət verən adam məsələni qısa şəkildə yox, ətraflı olaraq izah etməlidir.

[3] Digər rəvayətdə deyilir ki, "Sonra Əbul-Heysəm həyat yoldaşının yanına gəldi və Rəsulullahın ﷺ dediyini ona xəbər verdi" (Sunən ət-Tirmizi, 2370).

[4] Nə üçün səhabə Peyğəmbərin ﷺ dediyini zövcəsinə xəbər verir? Əlbəttə ki, məşvərət etmək üçün. Səhabənin öz zövcəsindən məsləhət alması, habelə, bu qadının ona verdiyi məsləhət onun ağıllı, fəzilətli və xeyirxah bir qadın olduğuna dəlalət edir. Diqqət edin, burada qadın öz xeyrini düşünmür, ərinin Allahı və Onun rəsulunu ﷺ razı salmağı, beləliklə də, həm onun, həm də özünün savab qazanmasını istəyir. Bir çox qadınlar isə əksinə, ərini günah işlər görməyə yönəldir, nə yolla olursa olsun, öz istəyini həyata keçirməyə çalışır, beləliklə də, həm özü günah qazanır, həm də ərini günaha batırır. Əlbəttə ki, yalnız Allahdan qorxan ağıllı qadın adama ağıllı məsləhət verə bilər. Gəlin bu xüsusda varid olmuş bir hədisə nəzər salaq. Rəvayət edilir ki, Hudeybiyə günü Peyğəmbər ﷺ sülh müqaviləsini bağladıqdan sonra səhabələrinə: "Qalxın, qurbanlarınızı kəsin, başınızı qırxdırın!"– deyə əmr etdi." Peyğəmbər ﷺ bunu üç dəfə təkrar etdi, lakin səhabələrdən

(bu hadisədən xəbər tutduqda) belə buyurdu: "Allahın göndərdiyi elə bir peyğəmbər və elə bir xəlifə olmamışdır ki, onun iki dostu olmasın; yaxşı işlər görməyi ona əmr edib pis işlərdən onu çəkindirən dost və bir də fəsad törətməkdən əl çəkməyən dost.[1] Hər kim pis dostdan özünü qoruyarsa, qorunmuş olar.[2]"

---

heç biri ayağa qalxmadı. Səhabələrin yerlərindən tərpənmədiyini görən Peyğəmbər ﷺ Ummu Sələmənin yanına gəldi və onların bu etinasızlığını ona xəbər verdi. Ummu Sələmə dedi: "Ey Allahın rəsulu, istəyirsən onlar sənin əmrinə tabe olsunlar?! Bayıra çıx, sonra qurbanlıq dəvələrini kəsməyincə və dəlləyini çağırıb başını qırxdırmayınca onlara bir kəlmə belə demə!" Rəsulullah ﷺ bayıra çıxıb qurbanlıq dəvələrini kəsdi, dəlləyini çağırıb başını qırxdırdı və onlara heç bir söz demədi! Bunu görən səhabələr dərhal qalxıb, qurbanlıq dəvələrini kəsdilər və bir-birinin başlarını qırxmağa başladılar. Hətta, iş o yerə çatdı ki, *onun əmrini daha tez yerinə yetirmək üçün baş vermiş dartışma nəticəsində* səhabələr bilmədən az qala bir-birilərini öldürmüşdülər..." (Səhih əl-Buxari, 2732). Bu hədislərdən aydın olur ki, Uca Allah Ummu Sələməni رضي الله عنها Rəsulullah ﷺ üçün, Əbul-Heysəmənin zövcəsini رضي الله عنها də əri Əbul-Heysəmə رضي الله عنه üçün xeyirli dost seçmişdir.

[1] Mubarəkfuri bu hədisi izah edərkən demişdir: "Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah (hər hansı) bir başçıya xeyir nəsib etmək istədiyi zaman sədaqətli bir vəziri ona dost edər. O, (yaxşılıq etməyi) unutduğu zaman vəzir bunu onun yadına salar, yadına düşdükdə isə ona kömək edər. Allah ona xeyir nəsib etmək istəmədikdə isə pis bir vəziri ona dost edər. O, (yaxşılıq etməyi) unutduğu zaman vəzir bunu onun yadına salmaz, yadına düşdükdə isə ona kömək etməz" (Sunən Əbu Davud, 2932; Silsilətul-Əhadisis-Səhihə, 489).

[2] Bu hədisdən aşağıdakı nəticələri çıxarmaq olar:

– bir adamın başqa birisinə taleyindən gileylənərək öz narazılığını bildirmək yox, sadəcə təsəlli tapmaq məqsədilə aclıqdan, xəstəlikdən və başqa bu kimi acılardan əziyyət çəkdiyini xəbər verməyinin caiz olması;

– zəruri halda naməhrəm qadından sadəcə söz soruşmağın caiz olması;

– isti yeməkdən əvvəl meyvə yeməyin müstəhəb olması;

– evə gəlmiş qonaq üçün yemək hazırlananadək ona yüngül yeməklərdən verməyin müstəhəb olması;

– bir kimsənin əməlisaleh bir adam, ələlxüsus da namaz qılan adam olduğunu vurğulayıb onunla gözəl tərzdə davranmağı tövsiyə etməyin müstəhəb sayılması (Tohfətul-Əhvəzi, 2292-ci hədisin şərhi).

## ١٢٩ – بَابُ الْمَشُورَةِ

## 129-cu fəsil. Məşvərət etmək[1]

٢٥٧ – حَدَّثَنَا صَدَقَةُ قَالَ: أَخْبَرَنَا ابْنُ عُيَيْنَةَ، عَنْ عُمَرَ بْنِ حَبِيبٍ، عَنْ عَمْرِو بْنِ دِينَارٍ قَالَ: قَرَأَ ابْنُ عَبَّاسٍ: ((وَشَاوِرْهُمْ فِي بَعْضِ الامْرِ)).

**(257)** ........ Amr ibn Dinar deyir ki, İbn Abbas ﷺ ayəni[2] belə oxudu: "Bəzi[3] görəcəyin işlər barədə onlarla məsləhətləş."[4]

٢٥٨ – حَدَّثَنَا آدَمُ بْنُ أَبِي إِيَاسٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنِ السَّرِيِّ، عَنِ الْحَسَنِ قَالَ: وَاللَّهِ مَا اسْتَشَارَ قَوْمٌ قَطُّ إِلاَّ هُدُوا لأَفْضَلِ مَا بِحَضْرَتِهِمْ، ثُمَّ تَلاَ: ﴿وَأَمْرُهُمْ شُورَى بَيْنَهُمْ﴾.

**(258)** ........ Həsən[5] demişdir:[6] "Vallahi, məşvərət etmiş elə bir camaat yoxdur ki, olduqları vəziyyətdən daha yaxşısına yönəlmiş olmasınlar."[7] Sonra Həsən bu ayəni oxudu: **"İşləri barədə öz aralarında məsləhətləşirlər."[8]**

---

[1] Burada "məşvərət etmək" deyildikdə, hər bir işdə məşvərət etmək nəzərdə tutulmur. Çünki elə sadə və gün kimi aydın olan işlər vardır ki, adam həmin işlərdə özü fərdi şəkildə qərar verə bilər. Aydın olmayan və başa düşülməyən məsələlərin həllini tapmaq, müəmmalı işlərdən baş açmaq üçün isə mömin adam, əlbəttə ki, öz ağlı ilə yanaşı, başqa insanların ağlına da müraciət etməli və bu işlərdə digərləri ilə məsləhətləşməlidir. Məsləhətləşməlidir ki, düzgün qərar verə bilsin. Məşvərət etmək isə adama ancaq fayda verər.

[2] "Ali-İmran" surəsi, 159.

[3] Burada "bəzi" kəlməsi bu ayənin qiraətinə deyil, təfsirinə aiddir. Belə ki, ayənin özündə "bəzi" kəlməsi zikr olunmur. Burada İbn Abbas ﷺ "bəzi" dedikdə, qaranlıq məsələlərdə məşvərət edilməsini qəsd edir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[5] Yəni Həsən əl-Bəsri.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[7] Həmçinin, Qətadə demişdir: "Allah rizası üçün məşvərət etmiş elə bir camaat yoxdur ki, olduqları vəziyyətdən daha yaxşısına yönəlmiş olmasınlar" (Kəlimut-Tayyib, səh: 1/115; Vabilus-Sayyib, 1/157).

[8] "əş-Şura" surəsi, 38.

# ١٣٠- بَابُ إِثْمِ مَنْ أَشَارَ عَلَى أَخِيهِ بِغَيْرِ رُشْدٍ

## 130-cu fəsil. Qardaşını səhv yola yönəldən kimsənin günahı[1]

٢٥٩- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنِي سَعِيدُ بْنُ أَبِي أَيُّوبَ قَالَ: حَدَّثَنِي بَكْرُ بْنُ عَمْرٍو، عَنْ أَبِي عُثْمَانَ مُسْلِمِ بْنِ يَسَارٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((مَنْ تَقَوَّلَ عَلَيَّ مَا لَمْ أَقُلْ، فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ وَمَنِ اسْتَشَارَهُ أَخُوهُ الْمُسْلِمُ، فَأَشَارَ عَلَيْهِ بِغَيْرِ رُشْدٍ فَقَدْ خَانَهُ وَمَنْ أُفْتِيَ فُتْيَا بِغَيْرِ ثَبَتٍ، فَإِثْمُهُ عَلَى مَنْ أَفْتَاهُ)).

---

[1] Bu mövzuda müsəlman ümməti üçün ən təhlükəli bu ümmətin dırnaqarası alimləridir. Bu xüsusda varid olmuş hədisdə Abdullah ibn Amr ibn As ﷺ belə rəvayət etmişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Allah elmi sizə bəxş etdikdən sonra onu *qəlblərinizdən* silib götürməz. Lakin bunu etmək istədikdə, insanlar arasındakı alimləri onların elmi ilə bərabər aradan götürər, axıra isə cahil adamlar qalar. Sonra c*amaat onlardan* fitva soruşar və onlar öz fikirlərini yürüdərək fitva verərlər, beləliklə də, həm özləri zəlalətə düşər, həm də *camaatı* zəlalətə salarlar" (Səhih əl-Buxari, 7307). Belə "alimlər" çox vaxt insanları dünya mənfəəti xatirinə öz xeyirləri üçün haqq yoldan sapdırırlar. Bəzən də, adam sual verən adamı vəziyyətdən çıxarmaq üçün və ya həmin adam ona yaxın adam olduğundan yaxud başqa bu kimi səbəblərdən dolayı ona ağlına gələn fitvanı verir. Halbuki, Uca Allah bunu qadağan edib buyurur: **"De: "Rəbbim həm aşkar, həm də gizli *törədilən* yaramaz əməlləri, *hər cür* günahı, haqsızcasına zülm etməyi, Allahın, haqqında heç bir dəlil nazil etmədiyi bir şeyi Ona şərik qoşmağınızı və bilmədiyiniz şeyləri Allahın əleyhinə söyləməyinizi haram buyurmuşdur"** (əl-Əraf, 33); O, həmçinin, buyurur: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır"** (əl-İsra, 36). Abdullah ibn Məsud ﷺ demişdir: "Verilən hər bir suala cavab verən kimsə məcnundur" (Mocəmul-Kəbir, 8/106/8831). Səhabə demək istəyir ki, insan nə qədər savadlı olursa olsun, hər şeyi bilə bilməz. Hər şeyi bilən yalnız Allahdır. Biz insanlar barədə isə Uca Allah belə buyurur: **"Sizə yalnız az bir bilik verilmişdir"** (əl-İsra, 85).

**(259)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim mənim demədiyim sözü uydurub, mənə aid etsə, qoy, Cəhənnəmdəki yerini tutsun. Müsəlman qardaşı məsləhət istədiyi zaman qardaşına səhv yol göstərən kimsə ona xəyanət etmiş olar.[1] Habelə, kim dəlil-sübutsuz[2] olaraq bir fitva verərsə, bunun günahı fitva verənin hesabına yazılar.[3]"[4]

---

[1] Xəyanət isə münafiqin əlamətlərindəndir. Üstəlik, Peyğəmbər ﷺ demişdir: "Bizi aldadan adam bizdən deyil" (Mocəmul-Kəbir, 8/476; Səhih Tərğib vət-Tərhib, 1768).

[2] Bu, dəlildir ki, fitva vermək üçün dəlil-sübuta əsaslanmaq, Quran və Sünnəyə istinad etmək lazımdır.

[3] Bu hədisdə Rəsulullah ﷺ öz ümmətinə üç şeyi qadağan edir: onun adından yalan danışmağı, müsəlman qardaşına düz istiqamət verməməklə ona xəyanət etməyi və bir də dəlil-sübutsuz danışmağı.

[4] Bu hədisi İshaq ibn Rahuyə "Musnəd" əsərində (334) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ١٣١- بَابُ التَّحَابُّ بَيْنَ النَّاسِ

## 131-ci fəsil. İnsanların bir-birini sevməsi[1]

٢٦٠- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي أَخِي، عَنْ سُلَيْمَانَ بْنِ بِلاَلٍ، عَنْ إِبْرَاهِيمَ ابْنِ أَبِي أُسَيْدٍ، عَنْ جَدِّهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((وَالَّذِي نَفْسِي بِيَدِهِ، لاَ تَدْخُلُوا الْجَنَّةَ حَتَّى تُسْلِمُوا، وَلاَ تُسْلِمُوا حَتَّى تَحَابُّوا، وَأَفْشُوا السَّلاَمَ تَحَابُّوا، وَإِيَّاكُمْ وَالْبُغْضَةَ، فَإِنَّهَا هِيَ الْحَالِقَةُ، لاَ أَقُولُ لَكُمْ: تَحْلِقُ الشَّعْرَ، وَلَكِنْ تَحْلِقُ الدِّينَ)).

**(260)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: "Canım Əlində olan *Allaha* and olsun ki, müsəlman olmayınca,[3] Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevməyincə, müsəlman ola bilməzsiniz. Salamı yayın ki, bir-birinizi sevəsiniz.[4] (Bir-birinizə) nifrət etməkdən çə-

---

[1] Burada söhbət müsəlmanların bir-birini sevməsindən gedir. Belə ki, müsəlman ancaq müsəlmanı sevə bilər. Peyğəmbər ﷺ demişdir: "Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz" (Səhih əl-Buxari, 13).

[2] Bu hədisi Tirmizi (2510), Əhməd (1/167) rəvayət etmişdir. Hədisin isnadında keçən İbrahim ibn Əbu Useydin babası "məchul" ravi olduğundan, bu isnad "zəif" hesab edilir. Lakin digər isnadlarla rəvayət edilmiş bu mənada olan hədislər bu hədisin dərəcəsini qüvvətləndirir. Odur ki, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən li-ğeyrihi" olduğunu demişdir.

[3] Başqa bir rəvayətdə "mömin olmayınca" deyilir (əl-Ədəbul-Mufrad, 980). Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Cənnətə yalnız mömin girəcəkdir" (Səhih əl-Buxari, 4203). Bu, o deməkdir ki, kafirlər əsla Cənnətə girməyəcəklər. Uca Allah onlar barədə belə buyurur: **"Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmayacaq və dəvə iynənin gözündən keçməyincə onlar Cənnətə girməyəcəklər"** (əl-Əraf, 40).

[4] Demək, İslam dininin möhkəmlənməsi və müsəlmanların bir bütöv bədən kimi olması üçün, onların bir-birilərini sevməsi, üstəlik, salamı yaymaları şərtdir. Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "İman gətirməyincə Cənnətə girə bilməzsiniz. Biri-birinizi sevməyincə iman gətirmiş olmazsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə biri-birinizi sevəsiniz? Aranızda salamı yayın" (Səhih Muslim, 194).

kinin![1] Çünki o, dəlləkdir. Mən sizə demirəm ki, o, saç qırxır. Lakin o, dini qırxır.[2]"

(...)– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدٍ قَالَ: حَدَّثَنَا أَنَسُ بْنُ عِيَاضٍ، عَنْ إِبْرَاهِيمَ بْنِ أَبِي أُسَيْدٍ مِثْلَهُ.

**(...)** Muhəmməd ibn Ubeyd demişdir: "Bizə Ənəs ibn İyad, İbrahim ibn Əbu Useyddən bu hədisin bənzərini rəvayət etmişdir."[3]

---

[1] Burada Peyğəmbərin ﷺ müsəlmanlara bir-birinə nifrət etməyi qadağan etməsi, həm nifrətə, həm də qəlbdə nifrət oyadan hər bir səbəbə aiddir. Yəni özünü müsəlman sayan kəs müsəlman qardaşına nifrət oyadan hər bir səbəbdən çəkinməlidir. Müsəlmana həsəd etmək, onunla rəqabət aparmaq, ona arxa çevirmək, ona zülm etmək, onu alçaltmaq, onu lağa qoymaq, onun alveri üstündən alver etmək, malını mənimsəmək və başqa bu kimi yaramaz əməllər bu səbəblərə aiddir. Bəzi şərhçilər bu hədisi izah edərkən demişlər ki, Peyğəmbərin ﷺ "bir-birinizə nifrət etməkdən çəkinin!" sözü bidət etməyin qadağan edilməsinə dəlalət edir. Belə ki, adam bidət etdikdə digərləri ona nifrət edir. Deməli, Sünnəyə riayət etmək, müsəlmanlar arasında sevgi yaradır, onları bir-birinə qardaş edir, bidət etmək isə onları parçalayır və bir-birinə düşmən edir. Nomən ibn Bəşirin رضي الله عنه rəvayət etdiyi hədisi buna misal çəkmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Namaza duranda* cərgələrinizi düzəldin. Yoxsa Allah sizin üzünüzü ayrı-ayrı tərəflərə çevirər (aranıza ədavət salar)" (Səhih əl-Buxari, 717; Səhih Muslim, 978). Odur ki, Peyğəmbərin ﷺ sünnəsinə riayət edənlər "Əhlus-Sünnəti vəl-Cəmaə" (yəni Sünnəyə riayət edib camaat olanlar), Peyğəmbərə ﷺ müxalif olanlar isə "Əhlul-Bidəti vəl-Furqa" (yəni bidət edib firqələrə bölünənlər) adlanırlar.

[2] Teybi bu sözü izah edərkən demişdir: "Ülgüc saçı qırxdığı kimi, nifrət də dini zəiflədir. Həqiqətən də, nifrət *müsəlmanların* dində zəifləmsinə böyük təsir göstərir" (Tohfətul-Əhvəzi). Deməli, müsəlmanlar arasında nifrət artdıqca, müsəlmançılıq da zəifləyir. Bu nifrəti isə yalnız Allahın və Onun peyğəmbərinin ﷺ buyuruqlarını yerinə yetirmək – Quran və Sünnəyə əməl etmək aradan qaldıra bilər. İmam Malik demişdir: "Bu ümmətin əvvəlinciləri nəyin sayəsində islah olmuşlarsa, axırıncıları da yalnız onun sayəsində islah ola bilərlər" (Qaidətul-Cəliyyə, səh: 53-62).

[3] Adətən, mühəddislər hədisin bir və daha çox isnadla varid olduğuna rast gəldikdə, həmin hədisi əvvəlcə tam şəkildə nəql edər, sonra bu hədisin digər isnadını və ya bir neçə isnadını zikr edər və hər isnadın axırında müxtəsər olaraq: "buna yaxın mənada" yaxud "buna bənzər", "bunun eynisini" və s. deyərək istinad edər və hədisin mətnini zikr etməzdilər. Bunu etməkdə məqsəd isə öncəki hədisin mötəbərliyini təsdiq etmək və ya hökmünü qüvvətləndirməklə onu bir dərəcə, yəni "zəif" dərəcəsindən "həsən" yaxud "həsən" dərəcəsindən "səhih" dərəcəsinə yüksəltmək olmuşdur.

# ١٣٢- بَابُ الْأُلْفَةِ

## 132-ci fəsil. Ülfət[1]

**٢٦١-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عَاصِمٍ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ عُفَيْرٍ قَالَ: حَدَّثَنِي ابْنُ وَهْبٍ، عَنْ حَيْوَةَ بْنِ شُرَيْحٍ، عَنْ دَرَّاجٍ، عَنْ عِيسَى بْنِ هِلَالٍ الصَّدَفِيِّ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ رُوحَ الْمُؤْمِنَيْنِ لَيَلْتَقِيَانِ فِي مَسِيرَةِ يَوْمٍ، وَمَا رَأَى أَحَدُهُمَا صَاحِبَهُ)).

**(261)** ........ Abdullah ibn Amr ibn As رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İki möminin ruhu bir günlük məsafədə qarşı-qarşıya gəlir. Halbuki, o möminlər bir-birini görmürlər."[2]

**٢٦٢-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ إِبْرَاهِيمَ بْنِ مَيْسَرَةَ، عَنْ طَاوُسٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: النِّعَمُ تُكْفَرُ، وَالرَّحِمُ تُقْطَعُ، وَلَمْ نَرَ مِثْلَ تَقَارُبِ الْقُلُوبِ.

**(262)** ........ İbn Abbas رضي الله عنهما demişdir: "Nemətlərə nankorluq edilir, qohumluq əlaqələri kəsilir. Biz qəlblərin bir-birinə yaxınlaşmasının bənzərini görməmişik.[3]"[4]

**٢٦٣-** حَدَّثَنَا فَرْوَةُ بْنُ أَبِي الْمِغْرَاءِ قَالَ: حَدَّثَنَا الْقَاسِمُ بْنُ مَالِكٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَوْنٍ، عَنْ عُمَيْرِ بْنِ إِسْحَاقَ قَالَ: كُنَّا نَتَحَدَّثُ: إِنَّ أَوَّلَ مَا يُرْفَعُ مِنَ النَّاسِ الْأُلْفَةُ.

---

[1] Burada "ülfət" deyildikdə, möminlər arasında olan qarşılıqlı, xoş, mehriban münasibət, ünsiyyət, dostluq nəzərdə tutulur.

[2] Bu hədisin isnadında keçən Dərrac adlı ravi "zəif" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisid-Daifə" (1947) əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] İbn Abbas رضي الله عنهما demək istəyir ki, müsəlmanlar Allahın verdiyi nemətlərə, habelə, başqalarının onlara etdiyi yaxşılıqlara nankorluq etməsələr və yaxınları ilə əlaqələri kəsməsələr, aralarında olan mehriban münasibət möhkəmlənər.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**(263)** ........ Umeyr ibn İshaq rəvayət edir ki, biz deyərdik: "İnsanlar arasından götürüləcək ilk xislət[1] ülfət olacaq."[2]

---

[1] Umeyr ibn İshaq burada ülfətin getdikcə azalacağını və müsəlmanlar arasında olan isti münasibətlərin yavaş-yavaş soyuyacağını xəbər verir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

# ١٣٣- بَابُ الْمِزَاحِ

## 133-cü fəsil. Zarafat etmək[1]

**٢٦٤-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ أَبِي قِلاَبَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: أَتَى النَّبِيُّ ﷺ عَلَى بَعْضِ نِسَائِهِ وَمَعَهُنَّ أُمُّ سُلَيْمٍ، فَقَالَ: ((يَا أَنْجَشَةُ، رُوَيْدًا سَوْقَكَ بِالْقَوَارِيرِ)).

قَالَ أَبُو قِلاَبَةَ: فَتَكَلَّمَ النَّبِيُّ ﷺ بِكَلِمَةٍ لَوْ تَكَلَّمَ بِهَا بَعْضُكُمْ لَعِبْتُمُوهَا عَلَيْهِ، قَوْلُهُ: سَوْقَكَ بِالْقَوَارِيرِ.

**(264)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ zövcələrindən bəzilərinin yanına gəldi. Ummu Suleym[2] də onların yanında idi. Peyğəmbər ﷺ dedi: "Ey Əncəşə, asta ol, bərniləri sındırarsan.[3]"

Əbu Qilabə demişdir: "Peyğəmbər ﷺ elə bir söz dedi ki, əgər sizlərdən biriniz bunu desəydi, ona ayib tutardılar." O, (Əncəşəyə): "Bərniləri sındırarsan"– demişdir.[4]

---

[1] İmam Buxarinin "Ülfət" adlı fəslin ardınca varid etdiyi fəsilə belə ad verməsi o deməkdir ki, müsəlmanın öz müsəlman qardaşı ilə zarafat etməsi, onların arasında olan ülfətin artmasına səbəbdir. Lakin qeyd etmək lazımdır ki, yalnız həddi aşmamaq şərtilə zarafat etdikdə qəlblərdə olan məhəbbət artır. Şəriətə zidd olan şit zarafatlar isə pis nəticə verir və əksinə, qardaşlar arasında ədavət yaradır, onların bir-birinə arxa çevirməsinə, bir-birinə nifrət etməsinə, hətta bir-birinə əl qaldırmasına səbəb olur, bəzən də bu zarafat adamı dindən çıxarır.

[2] Ummu Suleym ﷺ Ənəs ibn Malikin ﷺ anasıdır.

[3] Əncəşə ﷺ Peyğəmbərin ﷺ mövlası – azad etdiyi köləsidir. Bərni: ağzı və dibi dar, qarnı isə gen, küpə şəklində şüşə qab. Burada Peyğəmbər ﷺ bərni deməklə, qadının zərifliyini şüşənin zərifliyinə bənzədir. Peyğəmbər ﷺ qadınların yanına gəldikdə Əncəşə də orada idi. Həmin vaxt səhabə dəvələri sürüb aparır və onların daha da zirək tərpənməsi üçün şeir deyirdi. Peyğəmbər ﷺ də dəvələrin həddən ziyadə zirək tərpənib qadınları yerə salmasından ehtiyat etdiyinə görə səhabəyə onlarla asta davranmağı buyurur.

[4] Bu hədisi Buxari (2045), Muslim (6182) və Əhməd (3/186) rəvayət etmişdir.

٢٦٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي ابْنُ عَجْلَانَ، عَنْ أَبِيهِ أَوْ سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالُوا: يَا رَسُولَ اللَّهِ، إِنَّكَ تُدَاعِبُنَا؟ قَالَ: ((إِنِّي لاَ أَقُولُ إِلا حَقًّا)).

**(265)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, (bir dəfə səhabələr Peyğəmbərə ﷺ): "Ya Rəsulullah, sən bizimlə zarafat edirsən?"– dedilər. O buyurdu: "Mən yalnız haqqı deyirəm![1]"[2]

٢٦٦- حَدَّثَنَا صَدَقَةُ قَالَ: أَخْبَرَنَا مُعْتَمِرٌ، عَنْ حَبِيبٍ أَبِي مُحَمَّدٍ، عَنْ بَكْرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: كَانَ أَصْحَابُ النَّبِيِّ ﷺ يَتَبَادَحُونَ بِالْبِطِّيخِ، فَإِذَا كَانَتِ الْحَقَائِقُ كَانُوا هُمُ الرِّجَالَ.

**(266)** ........ Bəkr ibn Abdullah rəvayət edir ki, Peyğəmbərin ﷺ səhabələri bir-birinə qarpız qabığı atardılar. Ciddi işlər görmək lazım gəldikdə isə onlar özlərini əsil kişi kimi aparardılar.[3]"[4]

٢٦٧- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا عُمَرُ بْنُ سَعِيدِ بْنِ أَبِي حُسَيْنٍ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ قَالَ: مَزَحَتْ عَائِشَةُ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ، فَقَالَتْ أُمُّهَا: يَا رَسُولَ اللَّهِ، بَعْضُ دُعَابَاتِ هَذَا الْحَيِّ مِنْ كِنَانَةَ، قَالَ النَّبِيُّ ﷺ: ((بَلْ بَعْضُ مَزْحِنَا هَذَا الْحَيُّ)).

**(267)** ........ İbn Əbi Muleykə rəvayət edir ki, (bir dəfə) Aişə ﷺ Rəsulullahın ﷺ yanında zarafat etdi. Aişənin anası (ona): "Ya Rəsulullah! Bunların

---

[1] Bu hədisdən aydın olur ki, zarafat etmək xüsusunda Sünnəyə riayət etmək istəyən müsəlman zarafat etdikdə həddi aşmamalı, həm də yalan danışmamalıdır. Demək, qaşqabaqlı olmaq və ya yalan danışaraq zarafat etmək Sünnəyə ziddir.

[2] Bu hədisi Tirmizi (1/309), Əhməd (2/360) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu söyləmişdir.

[3] Yəni yeri gəldikdə zarafat edər, yeri gəldikdə də özlərini ciddi aparardılar. Onlar Allah yolunda öndə gedənlərdən olmuşlar. Belə kişilər barədə Uca Allah buyurur: "**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar**" (ən-Nur, 37).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" və "Silsilətul-Əhadisis-Səhihə" (435) əsərlərində bu hədisin "səhih" olduğunu söyləmişdir.

bəzi zarafatları kinanəlilərin zarafatlarındandır." Peyğəmbər ﷺ buyurdu: "Bəli, bu zarafat da elə o zarafatlardandır."[1]

**٢٦٨-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ حَدَّثَنَا خَالِدٌ هُوَ ابْنُ عَبْدِ اللَّهِ، عَنْ حُمَيْدٍ الطَّوِيلِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ يَسْتَحْمِلُهُ، فَقَالَ: ((أَنَا حَامِلُكَ عَلَى وَلَدِ نَاقَةٍ))، قَالَ: يَا رَسُولَ اللَّهِ، وَمَا أَصْنَعُ بِوَلَدِ نَاقَةٍ؟ فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((وَهَلْ تَلِدُ الإِبِلَ إِلاَّ النُّوقُ)).

**(268)** ........ Ənəs ibn Malik ؓ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib ondan bir minik heyvanı istədi və Peyğəmbər ﷺ (ona): "Mən sənə dişi dəvənin balasını verəcəyəm"– dedi. Adam soruşdu: "Ya Rəsulullah, dişi dəvənin balası ilə mən nə edəcəyəm?!" Peyğəmbər ﷺ də ona belə cavab verdi: "Məgər dişi dəvə dəvədən başqa bir heyvan doğur?![2]"[3]

---

[1] Bu, "mursəl" hədisdir. Çünki İbn Əbu Muleykə tabiindir. Bu da, o deməkdir ki, o, bu hadisəni başqasından eşitmişdir. Və elə bu hadisəni danışmış ravinin adını çəkmədiyinə görə hədisin isnadı "mursəl" hesab edilir. Bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu isnadın "zəif" olduğunu demişdir.

[2] Burada Rəsulullah ﷺ demək istəyir ki, onun verəcəyi dəvəni də nə vaxtsa bir dişi dəvə doğmuşdur. Bu dəvə böyüyüb minilməli yaşa çatmış olsa da, o, yenə həmin dişi dəvənin balası sayılır. Demək, Rəsulullah ﷺ ancaq doğru söz söyləyərək zarafat etmişdir.

[3] Bu hədisi Əbu Davud (4998) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ١٣٤- بَابُ الْمِزَاحِ مَعَ الصَّبِيِّ

## 134-cü fəsil. Uşaqla zarafat etmək

٢٦٩- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا أَبُو التَّيَّاحِ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ لَيُخَالِطُنَا، حَتَّى يَقُولَ لأَخٍ لِي صَغِيرٍ: ((يَا أَبَا عُمَيْرٍ، مَا فَعَلَ النُّغَيْرُ؟))

**(269)** ........ Ənəs ibn Malik ﵁ demişdir: "Peyğəmbər ﷺ (hərdən) bizimlə zarafat edərdi. Nəhayət, (bir gün o) mənim balaca qardaşıma dedi: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?[1]"[2]

١/٢٧٠- حَدَّثَنَا ابْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ مُعَاوِيَةَ بْنِ أَبِي مُزَرِّدٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ: أَخَذَ النَّبِيُّ ﷺ بِيَدِ الْحَسَنِ أَوِ الْحُسَيْنِ رَضِيَ اللَّهُ عَنْهُمَا، ثُمَّ وَضَعَ قَدَمَيْهِ عَلَى قَدَمَيْهِ، ثُمَّ قَالَ: ((تَرَقَّ)).

**(270/1)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki: "Peyğəmbər ﷺ Həsənin yaxud Hüseynin əllərindən tutdu, ayaqlarını da öz ayağının üstünə qoyub (ona): "Qalx!"– dedi."[3]

---

[1] Əbu İsa ət-Tirmizi demişdir: "Bu hədisdən belə nəticə çıxır ki, Peyğəmbər ﷺ *səhabələri ilə* zarafat edərmiş. Həmçinin, onun azyaşlı uşağa: "Ey Əbu Umeyr!"– deyə kunyə verməsi *bunun caiz olduğunu bildirir*. Hədis həm də ona dələlət edir ki, uşağa oynamaq üçün quş vermək caizdir. Peyğəmbərin ﷺ ona: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?"– deməsinin səbəbi bu idi ki, uşaq bu quşcuğazla oynayarkən quş ölmüş və uşaq buna görə kədərlənmişdir. Buna görə də, Peyğəmbər ﷺ onunla zarafat edib ona: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?"– demişdir" (Şəmailun-Nəbi, 236). Habelə, İbn Həcər bu hədisi izah edərkən demişdir: "Bu hədisdə çoxlu faydalar vardır. Neçə-neçə əsərlər yazmış, habelə, şafii fəqihlərindən olmuş və İbnul-Qas ləqəbi ilə tanınmış Əbul-Abbas ət-Təbəri ayrıca bir kitabda bu hədisi müxtəlif isnadlarla rəvayət etmiş və bu hədisdən çıxarılmış nəticələri zikr etmişdir. İbnul-Qas həmin kitabın əvvəlində: "Bəzi adamlar mühəddislərin heç bir faydası olmayan hədislər rəvayət etdiklərini söyləmişlər"– demiş və Əbu Umeyrin bu hədisini misal göstərmişdir. Sonra davam edib: "Lakin onlar bilmirlər ki, bu hədisdə şəriət qanunlarına, İslam ədəblərinə və bir çox faydalı məsələlərə dəlalət edən altmış nəticə vardır"– demiş və həmin nəticələri qeyd etmişdir" (10/584).

[2] Bu hədisi Buxari (6778), Muslim (3215), Tirmizi (333), İbn Macə (3320) və Əhməd (3/114-115) rəvayət etmişdir.

[3] 249-cu hədisə və onun qeydlərinə bax.

## ١٣٥- بَابُ حُسْنِ الْخُلُقِ

## 135-ci fəsil. Gözəl əxlaq[1]

٢/٢٧٠- حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الْقَاسِمِ بْنِ أَبِي بَزَّةَ قَالَ: سَمِعْتُ عَطَاءً الْكَيخَارَانِيَّ، عَنْ أُمِّ الدَّرْدَاءِ، عَنْ أَبِي الدَّرْدَاءِ، عَنِ النَّبِيِّ ﷺ: ((مَا مِنْ شَيْءٍ فِي الْمِيزَانِ أَثْقَلُ مِنْ حُسْنِ الْخُلُقِ)).

**(270/2)** ........ Əbu Dərda ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Qiyamət günü qoyulacaq) tərəzidə gözəl əxlaqdan daha ağır gələn[2] bir şey yoxdur."[3]

٢٧١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي وَائِلٍ، عَنْ مَسْرُوقٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: لَمْ يَكُنِ النَّبِيُّ ﷺ فَاحِشًا وَلاَ مُتَفَحِّشًا، وَكَانَ يَقُولُ: ((خِيَارُكُمْ أَحَاسِنُكُمْ أَخْلاَقًا)).

---

[1] Əxlaq deyildikdə, insanın mənəvi keyfiyyətini müəyyən edən, yaşadığı cəmiyyət və onu təşkil edən üzvləri ilə rəftarı və özünü aparma qaydası nəzərdə tutulur. Bu da, özözlüyündə iki qismə bölünür: gözəl əxlaq və pis əxlaq. Peyğəmbərimiz ﷺ Rəbbinə dua edib deyərdi: **"Allahumməhdini li əhsənil-əxlaqi lə yəhdi li əhsənihə illə ənt, vəsrif anni seyyiəhə lə yəsrifu anni seyyiəhə illə ənt!** (Allahım, mənə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!)" (Səhih Muslim, 1/534). Əxlaqın gözəl yaxud pis olması qəlbə bağlıdır. Qəlbi yaxşı olan kimsənin əxlaqı da yaxşı olar, qəlbi pis olan kimsənin əxlaq da pis olar.

[2] 237-ci hədisin qeydlərinə bax. Bu, dəlildir ki, əməllər tərəzidə çəkiləcək. Lakin qeyd etmək lazımdır ki, tərəzidə ən ağır gələcək əməl tövhid – "Lə ilahə illəllah" olacaq. Tövhidsiz gözəl əxlaqın heç bir faydası yoxdur. Bu xüsusda, Uca Allah buyurur: **"Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar"** (əl-İsra, 19); digər ayədə O, buyurur: **"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan"** (əz-Zumər, 65); başqa bir ayədə O, buyurur: **"Biz onların etdikləri əməllərə baxdıqdan sonra onları sovrulmuş toz dənəciklərinə çevirərik"** (əl-Furqan, 23).

[3] Bu hədisi Əbu Davud (2/389), Əhməd (6/446; 448) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(271)** ........ Abdullah ibn Amr ﷛ demişdir: "Peyğəmbər ﷺ ədəbsiz və kobud olmamışdır.[1] O deyərdi: "Sizin ən xeyirliniz[2] əxlaqı ən gözəl olanınızdır!"[3]

٢٧٢– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ الْهَادِ، عَنْ عَمْرِو ابْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((أُخْبِرُكُمْ بِأَحَبِّكُمْ إِلَيَّ، وَأَقْرَبِكُمْ مِنِّي مَجْلِسًا يَوْمَ الْقِيَامَةِ؟)) فَسَكَتَ الْقَوْمُ، فَأَعَادَهَا مَرَّتَيْنِ أَوْ ثَلَاثًا، قَالَ الْقَوْمُ: نَعَمْ يَا رَسُولَ اللَّهِ، قَالَ: ((أَحْسَنُكُمْ خُلُقًا)).

**(272)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir:[4] "Sizlərdən mənə ən sevimli olan və Qiyamət günü mənə ən yaxın yerdə oturan kimsələr barədə sizə xəbər verimmi?" Camaat susdu. O, bunu iki və ya üç kərə təkrar etdi. Camaat: "Bəli, ya Rəsulullah!"– dedikdə, o buyurdu: "Əxlaqı ən gözəl olanınız![5]"

---

[1] Bu da Peyğəmbərin ﷺ əxlaqının kamil olduğuna dəlalət edir. Abdullah ibn Amr ﷛ bu sözlə müsəlmanları Peyğəmbər ﷺ kimi olmağa çağırır.

[2] Burada "sizin" deyildikdə, möminlər nəzərdə tutulur. Belə ki, kafirin gözəl əxlaq sahibi olması ona heç bir fayda verməyəcək. Və "ən xeyirliniz" kəlməsi də dəlildir ki, möminlərin Allah yanında olan dərəcələri fərqlidir, yəni əxlaqına görə onların bir qismi digərlərindən üstündür.

[3] Bu hədisi Buxari (4/121) və Muslim (7/78) rəvayət etmişdir.

[4] Bu hədisi Əhməd (2/189) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (792) onun "səhih" olduğunu demişdir.

[5] Gözəl əxlaq yalnız iki şərtlə qəbul olur: Allah üçün və Peyğəmbərin ﷺ Sünnəsinə müvafiq olduqda. Deməк, Allahın rizasını qazanmaq məqsədilə Peyğəmbərin ﷺ yolunu gedən əxlaqlı mömin Qiyamət günü ədəbsiz, kobud mömindən üstün olacaq. Təəssüflər olsun ki, bəzi müsəlmanlar özünün gözəl dini və nümunəvi Peyğəmbəri ﷺ olduğu halda, özünü qeyri-müsəlmanlara oxşatmağa çalışır. Beləlləri barədə Peyğəmbərimiz ﷺ demişdir: "Kim özünü bir qövmə oxşadarsa, o kimsə onlardan sayılar" (Sunən Əbu Davud, 4031; Səhih əl-Cami, 2831). İndiki müsəlmanlar istər saç düzümlərində, istər geyimlərində, istərsə də başqa işlərdə kafirlərə oxşamağa can atır və bununla da onları razı salacaqlarını güman edirlər. Halbuki, Uca Allah Quranda kafirlərin müsəlmanlardan heç vaxt razı qalmayacaqlarını xəbər verir: **"Sən yəhudilərin və xaçpərəstlərin dininə tabe olma-**

٢٧٣- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ مُحَمَّدِ بْنِ عَجْلَانَ، عَنِ الْقَعْقَاعِ بْنِ حَكِيمٍ، عَنْ أَبِي صَالِحٍ السَّمَّانِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِنَّمَا بُعِثْتُ لِأُتَمِّمَ صَالِحَ الأَخْلاقِ)).

**(273)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu: "Mən ancaq gözəl əxlaqi dəyərləri kamilləşdirmək üçün[1] göndərilmişəm."[2]

٢٧٤- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا أَنَّهَا قَالَتْ: مَا خُيِّرَ رَسُولُ اللَّهِ ﷺ بَيْنَ أَمْرَيْنِ إِلاَّ اخْتَارَ أَيْسَرَهُمَا، مَا لَمْ يَكُنْ إِثْمًا، فَإِذَا كَانَ إِثْمًا كَانَ أَبْعَدَ النَّاسِ مِنْهُ، وَمَا انْتَقَمَ رَسُولُ اللَّهِ ﷺ لِنَفْسِهِ، إِلاَّ أَنْ تُنْتَهَكَ حُرْمَةُ اللَّهِ تَعَالَى، فَيَنْتَقِمَ لِلَّهِ عَزَّ وَجَلَّ بِهَا.

**(274)** ........ Aişə ﵂ deyir ki, Peyğəmbərə ﷺ iki şeydən birini seçmək təklif edildikdə, – günah işlər istisna olmaqla, – həmişə daha asan olanını seçərdi.[3] Təklif olunan həmin şey günah iş olduqda isə o, bundan ha-

---

**yınca, onlar səndən razı qalmayacaqlar. De: "Yalnız Allahın haqq yolu doğru yoldur!" Əgər sənə gələn elmdən sonra onların istəklərinə uysan, səni Allahdan nə bir qoruyan, nə də bir xilas edən olar"** (əl-Bəqərə, 120).

[1] Muhəmməd ﷺ peyğəmbər göndərildiyi zaman cəmiyyətdə həm gözəl, həm də pis əxlaq mövcud idi. Peyğəmbər ﷺ bunlardan gözəl olanı təsdiqləmiş, pis olanını isə qadağan etmişdir. Həmçinin, Muhəmməd ﷺ əvvəlki peyğəmbərlərin gətirdiyi gözəl əxlaqı tamamlamışdır.

[2] Bu hədisi Əhməd (2/318), İbn Səd (Təbəqat, 1/192), Hakim (Mustədrək, 2/613) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (45) onun "səhih" olduğunu demişdir.

[3] Bu xüsusda, Uca Allah buyurur: **"Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir"** (əl-Bəqərə, 185); digər ayədə O, buyurur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"** (ət-Tovbə, 128). Bu dəlillərdən aydın olur ki, dində daha asan olan əməlləri seçmək Allahın və Onun rəsulunun ﷺ bəyəndiyi əməllərə aiddir. Məsələn, həcc ziyarətinə piyada da getmək olar, miniklə də. Lakin miniklə getmək daha asan və daha əfzəldir. Ənəs ﵁ rə-

çox çəkinərdi. Peyğəmbər ﷺ öz nəfsinə görə heç kəsdən intiqam almamışdır.[1] Yalnız Uca Allahın qoyduğu qanunlar pozulduqda, Allaha ﷻ görə intiqam alardı."[2]

٢٧٥– حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ زُبَيْدٍ، عَنْ مُرَّةَ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: إِنَّ اللَّهَ تَعَالَى قَسَمَ بَيْنَكُمْ أَخْلاَقَكُمْ، كَمَا قَسَمَ بَيْنَكُمْ أَرْزَاقَكُمْ، وَإِنَّ اللَّهَ تَعَالَى يُعْطِي الْمَالَ مَنْ أَحَبَّ وَمَنْ لاَ يُحِبُّ، وَلاَ يُعْطِي الإِيمَانَ إِلاَّ مَنْ يُحِبُّ، فَمَنْ ضَنَّ بِالْمَالِ أَنْ يُنْفِقَهُ، وَخَافَ الْعَدُوَّ أَنْ يُجَاهِدَهُ، وَهَابَ اللَّيْلَ أَنْ يُكَابِدَهُ، فَلْيُكْثِرْ مِنْ قَوْلِ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَسُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَاللَّهُ أَكْبَرُ.

**(275)** ........ Abdullah (ibn Məsud) رضي الله عنه demişdir: "Uca Allah ruzini sizin aranızda bölüşdürdüyü kimi, əxlaqı da sizin aranızda bölüşdürmüşdür.[3] Uca Allah mal-dövləti sevdiyinə də verir, sevmədiyinə də.[4] İmanı isə yal-

---

vayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ ixtiyar bir qocanın, öz oğlanlarının qoluna girib getdiyini gördü və: "Ona nə olub?"– deyə soruşdu. *Qocanın* oğlanları dedilər: "O, *Məkkəyə* piyada getməyi nəzir etmişdir." Peyğəmbər ﷺ: "Allah onun öz canına əziyyət verməyinə möhtac deyildir"– dedi və ona miniyə minməyi əmr etdi (Səhih əl-Buxari, 1865).

[1] Bu da Peyğəmbərin ﷺ kamil əxlaq sahibi olduğunu bir daha sübuta yetirir. Belə ki, o, insanların təqsirindən keçər və onlara mərhəmət göstərərdi.

[2] Bu hədisi Buxari (3367), Muslim (2327), Əbu Davud (4785), Nəsai (9163) və Əhməd (2/902) rəvayət etmişdir.

[3] Bu xüsusda, Uca Allah buyurur: **"Biz dünya həyatında onların dolanışıqlarını aralarında bölüşdürdük"** (əz-Zuxruf, 32); digər ayədə O, buyurur: **"Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin"** (Hud, 6). Demək, ruzini Allahdan dilədiyimiz kimi, əxlaqı da Allahdan diləməyimiz gərəkdir. Neçə-neçə hədislərdə Peyğəmbərin ﷺ Allahdan gözəl əxlaq dilədiyi və pis əxlaqdan Allaha sığındığı varid olmuşdur. Çünki bu gözəl nemət Allahın Əlindədir və Allah onu dilədiyinə bəxş edir. Və necə ki, ruzi qazanmaq üçün iki şərtə riayət etmək – Allaha təvəkkül etmək və ruzi dalınca getmək vacibdirsə, eləcə də, gözəl əxlaq sahibi olmaq üçün iki şərtə əməl etmək gərəkdir: birincisi, gözəl əxlaq sahibi olmaq üçün Allaha dua etmək; ikincisi isə gözəl əxlaqa yiyələnməyə səy göstərmək – Allahın və Onun peyğəmbərinin ﷺ buyuruqlarını yerinə yetirmək və qadağan etdiyi əməllərdən çəkinmək.

[4] Bu xüsusda, Uca Allah buyurur: **"Biz hamıya – onlara da, bunlara da Rəbbinin nemətindən veririk. Rəbbinin neməti *heç kəsə* qadağan deyildir. Bax gör *dünyada* onların**

nız sevdiyi adama verir.[1] Kim malını xərcləməyə xəsislik etsə, düşmənlə cihad etməkdən qorxsa, gecə (namazına qalxmağa) tənbəllik edərsə,[2] qoy "Lə iləhə illəllah, subhanəllah, əlhəmdulilləh, Allahu əkbər"– desin.[3]

---

**birini digərindən necə üstün etdik. Axirətdə isə daha böyük dərəcələr və daha böyük üstünlüklər vardır"** (əl-İsra, 20-21).

[1] Bu xüsusda, Uca Allah buyurur: **"Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır"** (əl-Hucurat, 7); digər ayədə O, buyurur: "***Bəziləri*** **müsəlman olduqlarına görə sənə minnət qoyurlar. De: "Müsəlman olmusunuz deyə mənə minnət qoymayın! Əgər doğru danışanlarsınızsa,** ***bilin ki,*** **əslində Allah sizi imana gətirməklə sizə mərhəmət göstərmişdir!"** (əl-Hucurat, 17).

[2] Yəni mömin adam bu ibadətləri yerinə yetirməkdə zəiflik göstərdiyi zaman bu zikrləri yerinə yetirməlidir ki, zikrlər sayəsində onun fəallığı artsın. Bəziləri bu qəbildən olan hədisləri başqa cür başa düşür, düşünür ki, bu zikrləri etmək hədisdə qeyd edilmiş ibadətləri əvəz edir. Yəni əgər adam malını Allah yolunda xərcləməyə xəsislik edirsə, Allah yolunda vuruşmaq istəmirsə, gecə namazını qılmağa tənbəllik edirsə, onda qoy bunları "Lə iləhə illəllah, subhanəllah, əlhəmdulilləh, Allahu əkbər" zikrləri ilə əvəz etsin. Əlbəttə ki, bu yanlış fikirdir. Allahı zikr etmək xüsusunda varid olmuş başqa bir hədisdə Abdullah ibn Busr ﷺ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, İslam ayinlərinin çoxluğu mənə ağır gəlir. Mənə elə bir şey öyrət ki, ondan bərk-bərk yapışım"– demiş, o da ona belə buyurmuşdur: "Çalış dilin daim Allahı zikr etməklə islaq qalsın" (Sunən ət-Tirmizi, 5/458; Səhih əl-Cami, 7700). Məgər bu adam İslam ayinlərini yerinə yetirməmək xüsusunda Peyğəmbərdən ﷺ rüsxət tələb edir? Yoxsa ondan bu ayinləri asanlaşdırmaq üçün ona yol göstərməyini xahiş edir? Əlbəttə ki, ikincisi qəsd edilir. Demək, zikr etmək mömin adamı yaxşı işlər görməyə təşviq edir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2714) bu hədisin "səhih", üstəlik, "mərfu" hökmündə olduğunu demişdir.

# ١٣٦– بَابُ سَخَاوَةِ النَّفْسِ

## 136-cı fəsil. Nəfsin səxavətli olması[1]

٢٧٦– حَدَّثَنَا يَحْيَى بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنِ ابْنِ عَجْلاَنَ، عَنِ الْقَعْقَاعِ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ الْغِنَى عَنْ كَثْرَةِ الْعَرَضِ، وَلَكِنَّ الْغِنَى غِنَى النَّفْسِ)).

**(276)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ buyurdu: "Zənginlik, var-dövlətin çoxluğu ilə bağlı deyil, əsl zənginlik nəfsin zəngin olmasıdır.[3]"

---

[1] Burada "səxavətli olmaq" deyildikdə, təkcə mal-dövlət xərcləmək xüsusunda əliaçıq olmaq yox, bununla yanaşı, hər bir xeyirxah işdə comərdlik göstərmək və genişürəkli olmaq nəzərdə tutulur. Belə ki, İslam dinini insanlara təbliğ etmək, onlarla gözəl əxlaqla rəftar etmək, onlara mərhəmət göstərmək və başqa bu kimi xeyirxahlıqlar da səxavətə aid edilir. Bu gözəl xislətə nail olmaq üçün isə bunu Allahdan diləmək, buna nail olmağa səy göstərmək və bu xüsusda deyilənləri öyrənib bunlara əməl etmək, gündəlik olaraq nəfsi səxavətli olmağa öyrəşdirmək gərəkdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Elmə, yalnız onu öyrənməklə, həlimliyə də, yalnız mülayim davranmaqla yiyələnmək olar. Kim xeyir əldə etməyə səy göstərərsə, ona nail olar. Habelə, kim şər əməldən çəkinərsə, ondan qorunar" (Silsilətul-Əhadisis-Səhihə, 342); başqa bir hədisdə o, demişdir: "Sənə fayda verəcək işlərlə məşğul ol və Allahdan kömək dilə" (Səhih Muslim, 4816). İslam alimləri səxavətli olmaq barədə neçə-neçə faydalı əsərlər yazmışlar. İmam əl-Acurrinin "Ədəbun-Nufus" əsərini misal çəkmək olar. Bu əsər kiçik həcmli olsa da, özündə çox faydalı və nəfsi tərbiyə edəcək hədisləri cəm edir.

[2] Bu hədisi Buxari (6446), Muslim, 2467, Tirmizi (2373), İbn Macə (4127) və Əhməd (2/261) rəvayət etmişdir.

[3] İbn Bəttal demişdir: "Əsl zənginlik, var-dövlətin çoxluğu ilə əlaqədar deyil. Çünki bir çoxlarına Allah var-dövlət bəxş etdikdə, onlar özlərinə verilmiş bu nemətə qane olmur, əksinə, onu artırmağa can atır və bu mal-dövlətin haradan gəldiyinin fərqinə varmırlar. Beləsi var-dövlətə həris olduğundan, əslində kasıba bənzəyir. Çünki əsl zənginlik nəfsin zənginliyidir. Deməк, kim özünə verilən nemətlərə qane olsa, razı qalıb şükür etsə, habelə, mal-dövlətinin artmasına həris olmasa və onun dalınca qaçmasa, əsl zəngin hesab edilər" (Tohfətul-Əhvəzi). Hədislərin birində Əbu Zərr ﵁ rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ mənə dedi: "Ey Əbu Zərr, sən var-dövlətin çox olmasını zənginlikmi hesab

٢٧٧- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، وَسُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: خَدَمْتُ النَّبِيَّ ﷺ عَشْرَ سِنِينَ، فَمَا قَالَ لِي: ((أُفٍّ))، قَطُّ، وَمَا قَالَ لِي لِشَيْءٍ لَمْ أَفْعَلْهُ: ((أَلاَ كُنْتَ فَعَلْتَهُ؟)) وَلاَ لِشَيْءٍ فَعَلْتُهُ: ((لِمَ فَعَلْتَهُ؟))

**(277)** ........ Ənəs رضي الله عنه deyir ki, mən Peyğəmbərə ﷺ on il xidmət etdim. O, mənə heç vaxt: "Uf"– demədi. Yerinə yetirmədiyim bir işə görə: "Bunu yerinə yetirməli deyildinmi?"– demədi. Elədiyim bir işə görə də: "Nə üçün belə etdin?"[1]– demədi.[2]

٢٧٨- حَدَّثَنَا ابْنُ أَبِي الاسْوَدِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنَا سَحَّامَةُ بْنُ عَبْدِ الرَّحْمَنِ بْنِ الأَصَمِّ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ رَحِيمًا، وَكَانَ لاَ يَأْتِيهِ أَحَدٌ إِلاَّ وَعَدَهُ، وَأَنْجَزَ لَهُ إِنْ كَانَ عِنْدَهُ، وَأُقِيمَتِ الصَّلاَةُ، وَجَاءَهُ أَعْرَابِيٌّ فَأَخَذَ بِثَوْبِهِ فَقَالَ: إِنَّمَا بَقِيَ مِنْ حَاجَتِي يَسِيرَةٌ، وَأَخَافُ أَنْسَاهَا، فَقَامَ مَعَهُ حَتَّى فَرَغَ مِنْ حَاجَتِهِ، ثُمَّ أَقْبَلَ فَصَلَّى.

---

edirsən?!" Mən dedim: "Bəli, ya Rəsulullah!" O soruşdu: "Sən var-dövlətin az olmasını kasıblıqmı hesab edirsən?!" Yenə dedim: "Bəli, ya Rəsulullah!" Onda Peyğəmbər ﷺ belə buyurdu: "Əsl zənginlik, qəlbin zənginliyi, kasıblıq isə qəlbin kasıblığıdır" (Səhih İbn Hibban, 85; Səhih Tərğib vət-Tərhib, 827). Qəlbin zəngin olması üçün isə Peyğəmbərimizin ﷺ bizə etdyi nəsihətə riayət etməyimiz gərəkdir. O, demişdir: "Özünüzdən yuxarı səviyyədə olanlara yox, aşağı səviyyədə olanlara baxın! Bu, Allahın sizə bəxş etdiyi nemətə nankorluq etməməniz üçün daha uyğundur" (Səhih Muslim, 7619). Var-dövlətə həris olmağın nə qədər təhlükəli olduğu barədə isə Peyğəmbər ﷺ demişdir: "Vallahi, mən sizin yoxsulluğa məruz qalacağınızdan qorxmuram. Lakin mən sizdən əvvəlkilərə genbol həyat nəsib edildiyi kimi, sizə də firavan bir həyat nəsib edilməsindən, bu səbəbdən də, əvvəlkilər tək sizin də bir-birinizlə rəqabət aparmağınızdan və dünya malının onları məhv etdiyi kimi, sizi də məhv etməsindən qorxuram" (Səhih əl-Buxari, 3158). Bu hədislərdən aydın olur ki, nəfsin səxavətli olması, var-dövlətin çox və ya az olmasından asılı deyil, əksinə, bu, qəlbin zənginliyinə bağlıdır. Belə ki, qəlbi zəngin olan adam Allahın ona verdiyi nemətlərə qane olur.

[1] Peyğəmbərin ﷺ öz xidmətçisinə heç vaxt "Uf" deməməsi yaxud "Bunu yerinə yetirməli deyildinmi?" və ya "Nə üçün belə etdin" deyə ona etiraz etməməsi onun nə dərəcədə böyük əxlaq sahibi, habelə, nəfsinin olduqca zəngin olduğunu bir daha sübuta yetirir.

[2] Bu hədisi Buxari (5691), Muslim (2330), Əbu Davud (4773), Tirmizi (2016) və Əhməd (3/101) rəvayət etmişdir.

**(278)** ........ Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ rəhmli idi.[1] O, (ehtiyacdan dolayı) onun yanına gələn hər kəsə söz verər, sonra da imkan daxilində verdiyi sözə əməl edərdi.[2] (Bir gün) namaza iqamə verildiyi zaman bir bədəvi gəlib onun ətəyindən tutdu[3] və dedi: "Mənim bir az ehtiyacım var, qorxuram yadımdan çıxa." Onda Peyğəmbər ﷺ gedib onun ehtiyacını ödədi, sonra da qayıdıb namazı qıldırdı."[4]

---

[1] Uca Allah onu Quranda belə vəsf edir: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"** (ət-Tovbə, 128). Qəlbin mərhəmətli olması onun zəngin və səxavətli olmasına gətirib çıxarır və belə qəlb sahibi həmişə yaxşılıq etməyə çalışır.

[2] Peyğəmbər ﷺ ehtiyacı olan kimsəni əliboş qaytarmaz, istədiyini ona verər, yaxud ona xoş söz deyərdi. Peyğəmbərin ﷺ olduqca əliaçıq olduğu bir çox hədislərdə öz təsdiqini tapmışdır. Həmin hədislərin birində rəvayət edilir ki, Səhl ﷺ demişdir: "*Bir dəfə* bir qadın Peyğəmbərə ﷺ haşiyələnmiş parçadan *tikilmiş* bir bürüncək gətirdi və ona: "Mən bunu öz əllərimlə toxumuşam və gətirmişəm ki, onu sənə geyindirim"– dedi. Peyğəmbər ﷺ ehtiyac üzündən bürüncəyi götürdü, sonra da onu geyib bizim yanımıza gəldi. Səhabələrdən biri onu tərifləyib: "Nə gözəl bürüncəkdir, onu mənə bağışla!"– dedi. Camaat da ona: "Sən yaxşı iş görmədin. Axı, Peyğəmbər ﷺ onu ehtiyac üzündən geyinmişdi. Sən bilə-bilə ki, o, *heç kəsə* "yox" demir, bunu ondan istədin"– dedi. Onda həmin adam belə cavab verdi: "Vallahi ki, mən bunu ondan geyinmək üçün istəmədim. Mən bu bürüncəyi ondan ona görə istədim ki, bu, mənim kəfənim olsun." Səhl dedi: "(Axırda) həmin bürüncək onun kəfəni oldu" (Səhih əl-Buxari, 1277).

[3] Diqqət edin, iqamə verildiyi zaman, səhabələr cərgəbəcərgə namaza düzüldükləri bir vaxt, bədəvi ərəb Peyğəmbərə ﷺ yaxınlaşır, məscidin içində ondan yardım istəyir, Peyğəmbər ﷺ də ona mərhəmət göstərir, gedib onun ehtiyacını ödəyir. Digər bir hədisdə rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "*Bir dəfə* namaza iqamə verildi, Peyğəmbər ﷺ isə hələ də məscidin bir tərəfində kiminləsə gizli söhbət edirdi. O namaz qılmaq üçün ayağa qalxanda *səhabələrdən* bəziləri artıq yuxulamışdı" (Səhih əl-Buxari, 642) Bu da onun olduqca səxavətli adam olduğunu bir daha sübuta yetirir. Bu xüsusda, Uca Allah buyurur: **"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar"** (Ali-İmran, 159). İndiki müsəlmanların isə bəzisi belə adam görsələr, bəlkə də üstünə qışqırıb onu məsciddən qovarlar.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2094) bu hədisin "həsən" olduğunu demişdir.

**٢٧٩**- حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ ابْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ قَالَ: مَا سُئِلَ النَّبِيُّ ﷺ شَيْئًا فَقَالَ: ((لا)).

**(279)** ........ Cabir ﷺ demişdir: "Peyğəmbərdən ﷺ bir şey istənildikdə, heç vaxt "yox"[1] deməzdi."[2]

**٢٨٠**- حَدَّثَنَا فَرْوَةُ بْنُ أَبِي الْمَغْرَاءِ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ قَالَ: أَخْبَرَنِي الْقَاسِمُ بْنُ مُحَمَّدٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ قَالَ: مَا رَأَيْتُ امْرَأَتَيْنِ أَجْوَدَ مِنْ عَائِشَةَ، وَأَسْمَاءَ، وَجُودُهُمَا مُخْتَلِفٌ، أَمَّا عَائِشَةُ فَكَانَتْ تَجْمَعُ الشَّيْءَ إِلَى الشَّيْءِ، حَتَّى إِذَا كَانَ اجْتَمَعَ عِنْدَهَا قَسَمَتْ، وَأَمَّا أَسْمَاءُ فَكَانَتْ لاَ تُمْسِكُ شَيْئًا لِغَدٍ.

**(280)** ........ Abdullah ibn əz-Zubeyr ﷺ demişdir: "Mən Aişə və Əsmadan daha səxavətli qadın görməmişəm. Onların əliaçıqlığı fərqli idi. Aişə verəcəyi şeyləri əvvəlcə yığar, kifayət qədər yığıldıqdan sonra onu (kasıblara) paylayardı. Əsma isə ertəsi günə heç nə saxlamazdı."[3]

---

[1] Yalnız üzürlü hallarda "yox" deyər, lakin bu kəlməni köməklik göstərməkdən imtina etmək məqsədilə deməz, əksinə, bunu deyərkən üzrxahlıq edər, üstəlik, ehtiyac sahibinə vəziyyətdən çıxmağın yolunu göstərərdi. Necə ki, ondan minik istəyən kimsəyə demişdir: "Sənə verməyə heç nəyim yoxdur, lakin filankəsin yanına get, bəlkə o, sənə bir minik verdi" (242-ci hədisə bax).

[2] Bu hədisi Buxari (5687), Muslim (2311) və Əhməd (3/307) rəvayət etmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

# ١٣٧– بَابُ الشُّحِّ

## 137-ci fəsil. Tamahkarlıq

٢٨١– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ صَفْوَانَ بْنِ أَبِي يَزِيدَ، عَنِ الْقَعْقَاعِ بْنِ اللَّجْلاَجِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ يَجْتَمِعُ غُبَارٌ فِي سَبِيلِ اللَّهِ وَدُخَانُ جَهَنَّمَ فِي جَوْفِ عَبْدٍ أَبَدًا، وَلاَ يَجْتَمِعُ الشُّحُّ وَالإِيمَانُ فِي قَلْبِ عَبْدٍ أَبَدًا)).

**(281)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bir adamın içində, Allah yolunda (cihadda) olan tozanaqla Cəhənnəm tüstüsü heç vaxt birləşə bilməz.[1] Eləcə də, bir bəndənin qəlbində tamahla iman heç vaxt birləşə bilməz.[2]"[3]

٢٨٢– حَدَّثَنَا مُسْلِمٌ قَالَ: حَدَّثَنَا صَدَقَةُ بْنُ مُوسَى هُوَ أَبُو الْمُغِيرَةِ السُّلَمِيُّ قَالَ: حَدَّثَنَا مَالِكُ بْنُ دِينَارٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ غَالِبٍ هُوَ الْحُدَّانِيُّ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((خَصْلَتَانِ لاَ يَجْتَمِعَانِ فِي مُؤْمِنٍ: الْبُخْلُ وَسُوءُ الْخُلُقِ)).

---

[1] Bu hədis Allah yolunda olan cihadın fəzilətinə dəlalət edir. Bundan aydın olur ki, özünü göstərmək və ad-san qazanmaq məqsədilə vuruşan kimsəyə vuruşmağının heç bir faydası olmayacaq. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü üç sinif insan ilk sorğu-suala çəkilənlərdən olacaqdır. Şəhid Allahın hüzuruna gətiriləcək və Allah ona bəxş etdiyi nemətlər haqqında xəbər verdikdən sonra deyəcək: "Bu nemətlərin müqabilində nə etmisən?" O: "Sənin yolunda vuruşub şəhid olmuşam"– deyə cavab verəcək. Allah isə ona belə buyuracaq: "Yalan danışırsan! Sənə "qəhrəman-dır"– desinlər deyə vuruşmusan. Ona da artıq nail olmusan." Sonra əmr olunacaq və onu üzüstə sürükləyib Cəhənnəmə atacaqlar..." (Sunən ət-Tirmizi, 2382).

[2] Tamahkar olmayan mömin barədə Uca Allah belə buyurur: "**Bacardığınız qədər Allahdan qorxun. *Peyğəmbərə* qulaq asıb itaət edin və *malınızdan* öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır**" (ət-Təğabun, 16). Qeyd edək ki, burada söhbət imanın kamilliyindən gedir. Və əgər adam tövhid xüsusunda tamahkarlıq edərsə, yəni Tək Allaha iman gətirməkdən boyun qaçırar və başqa ilahları Ona tay tutarsa, bu tamahkarlıq onun qəlbini qaplayar və o, imandan məhrum olar.

[3] Bu hədisi Əhməd (2/256) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(282)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ buyurdu: "İki xislət var ki, bunlar mömində cəm ola bilməz: xəsislik və pis əxlaq."[1]

**٢٨٣–** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا الأَعْمَشُ، عَنْ مَالِكِ بْنِ الْحَارِثِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ رَبِيعَةَ قَالَ: كُنَّا جُلُوسًا عِنْدَ عَبْدِ اللَّهِ، فَذَكَرُوا رَجُلاً، فَذَكَرُوا مِنْ خُلُقِهِ، فَقَالَ عَبْدُ اللَّهِ: أَرَأَيْتُمْ لَوْ قَطَعْتُمْ رَأْسَهُ أَكُنْتُمْ تَسْتَطِيعُونَ أَنْ تُعِيدُوهُ؟ قَالُوا: لاَ، قَالَ: فَيَدُهُ؟ قَالُوا: لاَ، قَالَ: فَرِجْلُهُ؟ قَالُوا: لاَ، قَالَ: فَإِنَّكُمْ لاَ تَسْتَطِيعُونَ أَنْ تُغَيِّرُوا خُلُقَهُ حَتَّى تُغَيِّرُوا خَلْقَهُ، إِنَّ النُّطْفَةَ لَتَسْتَقِرُّ فِي الرَّحِمِ أَرْبَعِينَ لَيْلَةً، ثُمَّ تَنْحَدِرُ دَمًا، ثُمَّ تَكُونُ عَلَقَةً، ثُمَّ تَكُونُ مُضْغَةً، ثُمَّ يَبْعَثُ اللَّهُ مَلَكًا فَيُكْتَبُ رِزْقَهُ وَخُلُقَهُ، وَشَقِيًّا أَوْ سَعِيدًا.

**(283)** ........ Abdullah ibn Rəbiə demişdir:[2] "(Bir gün) biz Abdullahın[3] yanında ikən (oradakılardan bəziləri) bir nəfər barədə söhbət açıb, onun əxlaqından danışdılar. Abdullah dedi: "Bir deyin görüm, əgər siz onun başını kəssəniz, onu yenidən öz yerinə qaytara bilərsinizmi?" Onlar: "Xeyr!"– deyə cavab verdilər. Abdullah dedi: "Bəs, əlini necə?" Onlar yenə: "Xeyr!"– deyə cavab verdilər. Abdullah dedi: "Bəs, ayağını necə?" Onlar yenə: "Xeyr!"– deyə cavab verdilər. Abdullah dedi: "Siz onun xilqətini dəyişməyincə, əxlaqını dəyişə bilməzsiniz![4] Çünki nütfə ana bətnində qırx gün qaldıqdan sonra qana çevrilir, sonra qan laxtası olur, daha sonra da ət parçasına çevrilir. Sonra Allah bir mələk göndərir. O da onun ruzisini, əxlaqını, bədbəxt və ya xoşbəxt olacağını yazır.[5]"

---

[1] Bu hədisin isnadında keçən Sədəqə ibn Musanın hafizəsi zəif olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[3] Burada "Abdullah"– deyildikdə, məşhur səhabə İbn Məsud nəzərdə tutulur.

[4] İbn Məsud ﷺ demək istəyir ki, əxlaqın düzəlməsi və ya korlanması Allahın iradəsi altındadır. Demək, mömin adam əxlaqının düzəlməsi üçün çalışmalı və onun düzəlməsini Allahdan diləməlidir (275-ci hədisə bax).

[5] İmam Buxarinin "Səhih"indəki hədisdə səhabə "əcəli" sözünü də qeyd etmişdir. Həmin hədisdə Abdullah ibn Məsud ﷺ demişdir: "Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bizə belə bir hədis danışmışdır: "Sizlərdən hər kəs anasının bətnində xəlq edilərkən ilk qırx gün ərzində nütfə halında, sonrakı qırx gündə qan laxtası, daha sonrakı qırx gündə isə ət parçası olur. Sonra Allah *onun yanına* bir mələk göndərir. Bu mələyə dörd şey *yazmaq* əmr edilir və ona: "*Bu uşağın* əməlini, ruzisini, əcəlini, bədbəxt və ya xoşbəxt olacağını yaz!"– deyilir. Sonra ona ruh üfürülür..." (Səhih əl-Buxari, 3208).

## ١٣٨ – بَابُ حُسْنِ الْخُلُقِ إِذَا فَقِهُوا

## 138-ci fəsil. Şəriəti anlayan[1] gözəl əxlaq sahibləri

٢٨٤– حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا الْفُضَيْلُ بْنُ سُلَيْمَانَ النُّمَيْرِيُّ، عَنْ صَالِحِ بْنِ خَوَّاتِ بْنِ صَالِحِ بْنِ خَوَّاتِ بْنِ جُبَيْرٍ، عَنْ مُحَمَّدِ بْنِ يَحْيَى بْنِ حِبَّانَ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ الرَّجُلَ لَيُدْرِكُ بِحُسْنِ خُلُقِهِ دَرَجَةَ الْقَائِمِ بِاللَّيْلِ)).

**(284)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Həqiqətən, adam[2] öz gözəl əxlaqı ilə gecə namaz qılan bir kimsənin dərəcəsinə yüksəlir.[3]"[4]

---

[1] Fəslin ünvanında keçən "fiqh" kəlməsi lüğəti mənada anlama, başa düşmə deməkdir. Bu kəlmənin istilahi mənasına gəldikdə isə bu həm əqidə, həm də əməl baxımından Allahın dinini, habelə, onun hökmlərini anlamaqdır. Qeyd etmək lazımdır ki, fiqh deyildikdə təkcə insanların əməlləri və buna aid əhkamlar nəzərdə tutulmur. Əksinə, buna əqidə ilə bağlı əhkamlar da aid edilir. Hətta bəzi alimlər demişlər: "Əqidə elmi ən böyük fiqhdir!" Bu söz həqiqətdir. Çünki məbuda yalnız Onun vəhdaniyyətini tanımaqla düzgün ibadət etmək olar. Əks təqdirdə, insan tanımadığına necə ibadət edə bilər?! Fiqh: ibadət və digər əhkamlardan bəhs edən elmdir. Bu elm hər bir müsəlmana ibadətləri düzgün yerinə yetirməyə, bununla da dünya və Axirətdə səadətə qovuşmağa kömək edir. Peyğəmbər ﷺ demişdir: "Allah kimə xeyir nəsib etmək istəsə, ona dini başa düşməyi müyəssər edər!" (Səhih əl-Buxari, 71). Müəllif bu fəsilə belə ünvan qoymaqla gözəl əxlaqın və dində fəqih olmağın bir insanda cəm olmasının böyük bir fəzilət olduğunu bildirir. Bu xüsusda insanlar dörd sinifə bölünürlər: İslamı anlayan və əxlaqı gözəl olanlar, İslamı anlayan, lakin əxlaqı pis olanlar, İslamı anlamayan, ancaq əxlaqı gözəl olanlar və bir də əxlaqı gözəl olan, lakin müsəlman olmayanlar.

[2] Başqa bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Mömin adam öz gözəl əxlaqı ilə *gündüz* oruc tutub, *gecə* namaz qılan kimsənin dərəcəsinə yüksəlir" (Səhih ət-Tərğib vət-Tərhib, 2643).

[3] İslam alimləri bunu belə izah etmişlər: "Gecə qalxıb ibadət edən, Allahı zikr edən və Onun kəlamını oxuyan mömin adam savabını Allahdan umaraq öz rahatlığından keçib nəfsi ilə cihad etdiyi kimi, insanlarla gözəl əxlaqla davranan kimsə də həmçinin, insanların fərqli davranışlarına səbir edib öz nəfsi ilə cihad etmiş olur."

[4] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**٢٨٥-** حَدَّثَنَا حَجَّاجُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ مُحَمَّدِ بْنِ زِيَادٍ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: سَمِعْتُ أَبَا الْقَاسِمِ ﷺ يَقُولُ: ((خَيْرُكُمْ إِسْلاَمًا أَحَاسِنُكُمْ أَخْلاَقًا إِذَا فَقُهُوا)).

**(285)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, mən Əbul-Qasimin ﷺ belə dediyini eşitdim: "İslamda sizin ən xeyirliniz[1] (şəriəti) başa düşüb əxlaqı ən gözəl olanınızdır."[2]

**٢٨٦-** حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنِي ثَابِتُ بْنُ عُبَيْدٍ قَالَ: مَا رَأَيْتُ أَحَدًا أَجَلَّ إِذَا جَلَسَ مَعَ الْقَوْمِ، وَلاَ أَفْكَهَ فِي بَيْتِهِ، مِنْ زَيْدِ بْنِ ثَابِتٍ.

**(286)** ........ Sabit ibn Ubeyd demişdir: "Mən camaat yanında özünü ciddi aparan, evində isə zarafatcıl olan Zeyd ibn Sabit[3] kimi ikinci bir adam görməmişəm."[4]

**٢٨٧-** حَدَّثَنَا صَدَقَةُ قَالَ: أَخْبَرَنَا يَزِيدُ بْنُ هَارُونَ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ دَاوُدَ بْنِ حُصَيْنٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: سُئِلَ النَّبِيُّ ﷺ: أَيُّ الأَدْيَانِ أَحَبُّ إِلَى اللَّهِ عَزَّ وَجَلَّ؟ قَالَ: ((الْحَنِيفِيَّةُ السَّمْحَةُ)).

---

[1] Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, möminlər İslamda xeyirli olmaq xüsusunda dərəcə baxımından bir-birindən fərqlənirlər, bir qismi digərilərindən üstündürlər. Bu xüsusda, Uca Allah buyurur: **"Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər"** (Fatir, 32). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "İman altmış və bir neçə şöbədən ibarətdir. Həya da imanın şöbələrindəndir" (Səhih əl-Buxari, 9).

[2] Bu hədisi Əhməd (2/467, 469 və 481) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Zeyd ibn Sabit ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Bu səhabə Peyğəmbərin ﷺ vəhy katiblərindən olmuşdur. Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ zamanında ənsardan olan dörd nəfər Quranı cəm etməklə məşğul idi: Ubeyy *ibn Kəb*, Muaz ibn Cəbəl, Əbu Zeyd və Zeyd ibn Sabit" (Səhih əl-Buxari, 3810).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**(287)** ........ İbn Abbas ﷺ rəvayət etmişdir ki, (bir dəfə) Peyğəmbərdən ﷺ soruşdular: "Allaha ﷻ ən sevimli olan (din)[1] hansı dindir?" O, buyurdu: "Asan[2] və hənif olanıdır![3]"[4]

**٢٨٨–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُوسَى بْنُ عُلَيٍّ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: أَرْبَعُ خِلَالٍ إِذَا أُعْطِيتَهُنَّ فَلَا يَضُرُّكَ مَا عُزِلَ عَنْكَ مِنَ الدُّنْيَا: حُسْنُ خَلِيقَةٍ، وَعَفَافُ طُعْمَةٍ، وَصِدْقُ حَدِيثٍ، وَحِفْظُ أَمَانَةٍ.

**(288)** ........ Abdullah ibn Amr ﷺ demişdir:[5] "Dörd xislət vardır ki, bunlar sənə bəxş edilsə, dünyada itirdiyin şeylər sənə zərər yetirməz: gözəl əxlaqlı olmaq, təmiz ruzi qazanmaq, doğru danışmaq və əmanəti qorumaq.[6]"

---

[1] Burada "din" deyildikdə, dinin xislətlərindən ən sevimlisi nəzərdə tutulur.

[2] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Dininizin ən xeyirli xisləti asan olanıdır" (Səhih əl-Cami, 3309).

[3] Burada "hənif" deyildikdə, şirkdən uzaqlaşıb TəkAllahlığa meyil etmək, tövhidə sarılmaq nəzərdə tutulur. Bu xüsusda, Uca Allah buyurur: **"De: "Həqiqətən, Rəbbim məni doğru yola, həqiqi dinə, hənif İbrahimin dininə yönəltdi. O heç vaxt müşriklərdən olmamışdı"** (əl-Ənam, 161).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən li-ğeyrihi" olduğunu demişdir.

[5] Bu əsəri Əhməd (2/172) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. Bu rəvayət "mövquf" olsa da, əslində bu, Peyğəmbərin ﷺ sözüdür. (Bax: Musnəd, 2/177; Şobəul-İman, 4878; Cami fil-Hədis, 546; Silsilətul-Əhadisis-Səhihə, 733).

[6] Bu hədis ticarət xüsusunda insanların əxlaqını düzəldən, böyük fəsadları aradan qaldıran, insanlar arasında xoş münasibət yaradan çox möhtəşəm bir hədisdir. Bu hədis, alış-verişlə məşğul olub qazanc əldə etmək istəyən hər bir müsəlmanı xeyir-bərəkət əldə etməyə çağırır. Hədisdə qeyd edilmiş dörd xislət ticarət əxlaqının əsası hesab edilir. Bu əsas olmadan ticarətdə xeyir-bərəkət əldə etmək qeyri-mümkündür. Çünki Peyğəmbər ﷺ burada "sənə zərər yetirməz" deyir. Demək, bu xislətlərdən biri olmadığı təqdirdə aparılan ticarət, sahibini ziyana salır. Odur ki, hər bir müsəlman tacir bu hədisi qulağında sırğa etməli və bu xislətləri yerinə yetirməlidir ki, xeyir-bərəkətə nail olsun. Hədisdə keçən birinci xislət – "gözəl əxlaq" bu fəslin ünvanına aiddir. İkincisi, təmiz ruzi qazanmaqdır ki, bunun üçün adam halal qazanc əldə etməyə çalışmalı, üstəlik, haram və şübhəli şeylər-

٢٨٩- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا دَاوُدُ بْنُ يَزِيدَ قَالَ: سَمِعْتُ أَبِي يَقُولُ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ النَّبِيُّ ﷺ: تَدْرُونَ مَا أَكْثَرُ مَا يُدْخِلُ النَّارَ؟ قَالُوا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: ((الأَجْوَفَانِ: الْفَرْجُ وَالْفَمُ، وَأَكْثَرُ مَا يُدْخِلُ الْجَنَّةَ؟ تَقْوَى اللَّهِ وَحُسْنُ الْخُلُقِ)).

**(289)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ *səhabələrindən* soruşdu: "Heç bilirsiniz *adamın* Cəhənnəm oduna giriftar ediləcəyinə ən çox səbəb olan *amil* nədir?" Onlar dedilər: "Allah və Onun rəsulu daha yaxşı bilir!" O, dedi: "İki boşluq: cinsiyyət üzvü və ağız."[1] (Yenə soruşdu): "Bəs Cənnətə girməyinə ən çox səbəb olan *amil* nədir?" (Sonra dedi): "Allah qorxusu və gözəl əxlaq![2]"[3]

---

dən çəkinməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Halal da bəllidir, haram da bəllidir. Bu ikisinin arasında şübhəli şeylər vardır. Kim şübhəli şeylərdən çəkinsə, dinini və namusunu qorumuş olar. Kim şübhəli şeylərə dalsa, *mal-qarasını* qoruğun kənarında otaran çoban kimi çox keçməz qoruğa düşər. Bilin ki, hər bir hökmdarın qoruğu vardır. Bilin ki, Allahın yer üzündəki qoruğu haram buyurduğu şeylərdir" (Səhih əl-Buxari, 52); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Haramla bəslənmiş vücud Cəhənnəm oduna daha layiqdir" (Səhih əl-Cami, 4519). Üçüncüsü, doğru danışmaqdır. Bunun əksi yalan danışmaqdır ki, yalançının da işində bərəkət olmaz və o, axırda Cəhənnəmlik olar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Yalan *adamı* günah işlərə yönəldir. Günah işlər də *adamı* Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışır ki, axırda Allah yanında yalançı sayılır" (Səhih əl-Buxari, 6094). Dördüncü xislət isə əmanəti qorumaqdır.

[1] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim mənə iki çənəsi və iki budu arasındakını qoruyacağına zəmanət verərsə, mən onun Cənnətə girəcəyinə zəmanət verərəm" (Səhih əl-Buxari, 6474).

[2] Hər kim bu iki xisləti özündə cəm edərsə, həm Allaha olan münasibətində, həm də insanlarla olan davranışında özünü islah etmiş olar. Bir zaman Peyğəmbər ﷺ Əbu Zərrə ﷺ belə nəsihət etmişdir: "Harada olursan ol, Allahdan qorx. Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Və bir də insanlarla gözəl əxlaqla davran" (Sunən ət-Tirmizi, 1987).

[3] Bu hədisi Əhməd (2/291), Tirmizi (2004) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

٢٩٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو عَامِرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْجَلِيلِ بْنُ عَطِيَّةَ، عَنْ شَهْرٍ، عَنْ أُمِّ الدَّرْدَاءِ قَالَتْ: قَامَ أَبُو الدَّرْدَاءِ لَيْلَةً يُصَلِّي، فَجَعَلَ يَبْكِي وَيَقُولُ: اللَّهُمَّ أَحْسَنْتَ خَلْقِي فَحَسِّنْ خُلُقِي، حَتَّى أَصْبَحَ، قُلْتُ: يَا أَبَا الدَّرْدَاءِ، مَا كَانَ دُعَاؤُكَ مُنْذُ اللَّيْلَةِ إِلاَّ فِي حُسْنِ الْخُلُقِ؟ فَقَالَ: يَا أُمَّ الدَّرْدَاءِ، إِنَّ الْعَبْدَ الْمُسْلِمَ يَحْسُنُ خُلُقُهُ، حَتَّى يُدْخِلَهُ حُسْنُ خُلُقِهِ الْجَنَّةَ، وَيَسِيءُ خُلُقُهُ، حَتَّى يُدْخِلَهُ سُوءُ خُلُقِهِ النَّارَ، وَالْعَبْدُ الْمُسْلِمُ يُغْفَرُ لَهُ وَهُوَ نَائِمٌ، قُلْتُ: يَا أَبَا الدَّرْدَاءِ، كَيْفَ يُغْفَرُ لَهُ وَهُوَ نَائِمٌ؟ قَالَ: يَقُومُ أَخُوهُ مِنَ اللَّيْلِ فَيَجْتَهِدُ فَيَدْعُو اللَّهَ عَزَّ وَجَلَّ فَيَسْتَجِيبُ لَهُ، وَيَدْعُو لِأَخِيهِ فَيَسْتَجِيبُ لَهُ فِيهِ.

**(290)** ........ Ummu Dərda ﵂ rəvayət edir ki, bir gecə Əbu Dərda namaz qılmaq üçün yuxudan qalxdı və səhərə qədər ağlaya-ağlaya: "Allahım, Sən məni gözəl biçimdə yaratdın, əxlaqımı da gözəl et!"– deyə dua etdi.[1] Mən soruşdum: "Ey Əbu Dərda! *Niyə* bütün gecəni gözəl əxlaq barədə dua etdin?" O, dedi: "Ey Ummu Dərda! Həqiqətən, müsəlman bəndə öz əxlaqını o qədər gözəlləşdirər ki, gözəl əxlaqı onu Cənnətə daxil edər. Habelə, öz əxlaqını o qədər pisləşdirər ki, pis əxlaqı onu Oda salar.[2] Müsəlman bəndənin yatanda belə günahları bağışlanır."[3] Mən soruşdum: "Ey Əbu Dərda! Axı yatanda onun günahları necə bağışlana bilər?" O, dedi: "*Müsəlman* qardaşı gecə vaxtı qalxıb namaz qılar, özü üçün Allaha ﷻ dua edər və duası qəbul olunar. Həmçinin, qardaşı üçün də dua edər və o da qəbul olunar."[4]

---

[1] Hədisin isnadı "zəif" olsa da, Əbu Dərdanın ﵁ etdiyi bu dua "səhih"dir. Bu duanı onlara Peyğəmbər ﷺ öyrətmişdir (Bax: "Musnəd Əhməd", 1/403; "Səhih Tərğib vət-Tərhib", 2657).

[2] Bu mənaya dəlalət edən bir çox hədislər varid olmuşdur (21-ci və 386-cı hədislərə bax).

[3] Əbu Dərda ﵁ demək istəyir ki, əxlaqı gözəl olan müsəlman adam mömin qardaş və bacılarına yaxşılıq etdikcə onlar onun üçün Allahdan bağışlanma diləyir, ələlxüsus da gecə namazlarında onun üçün dua edirlər və beləliklə də, onun günahları bağışlanır.

[4] Bu hədisin isnadında keçən Şəhr "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində hədisin "zəif" olduğunu demişdir.

**٢٩١**- حَدَّثَنَا أَبُو النُّعْمَانِ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ زِيَادِ بْنِ عِلاَقَةَ، عَنْ أُسَامَةَ بْنِ شَرِيكٍ قَالَ: كُنْتُ عِنْدَ النَّبِيِّ ﷺ وَجَاءَتِ الأَعْرَابُ، نَاسٌ كَثِيرٌ مِنْ هَاهُنَا وَهَاهُنَا، فَسَكَتَ النَّاسُ لاَ يَتَكَلَّمُونَ غَيْرَهُمْ، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ، أَعَلَيْنَا حَرَجٌ فِي كَذَا وَكَذَا؟ فِي أَشْيَاءَ مِنْ أُمُورِ النَّاسِ، لاَ بَأْسَ بِهَا، فَقَالَ: ((يَا عِبَادَ اللَّهِ، وَضَعَ اللَّهُ الْحَرَجَ، إِلاَّ امْرَءًا اقْتَرَضَ امْرَءًا ظُلْمًا فَذَاكَ الَّذِي حَرِجَ وَهَلَكَ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ، أَنَتَدَاوَى؟ قَالَ: ((نَعَمْ، يَا عِبَادَ اللَّهِ، تَدَاوَوْا، فَإِنَّ اللَّهَ عَزَّ وَجَلَّ لَمْ يَضَعْ دَاءً إِلاَّ وَضَعَ لَهُ شِفَاءً، غَيْرَ دَاءٍ وَاحِدٍ))، قَالُوا: وَمَا هِيَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((الْهَرَمُ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ، مَا خَيْرُ مَا أُعْطِيَ الإِنْسَانُ؟ قَالَ: ((خُلُقٌ حَسَنٌ)).

**(291)** ........ Usamə ibn Şərik ﷺ belə demişdir: "Mən Peyğəmbərin ﷺ yanında idim.[1] Həmin vaxt hər yandan onun yanına bədəvilər gəldi. Onlardan başqa hamı susmuşdu.[2] Onlar insanların etdikləri qəbahət sayılmayan bəzi işlər[3] barədə soruşub dedilər: "Ya Rəsulullah, filan, filan işləri görməkdə bizə günah varmı?" O, dedi: "Ey Allahın qulları! Allah qəbahət-

---

[1] Burada söhbət həcc ziyarətindən gedir.

[2] Adətən, bədəvilər sual vermək üçün Peyğəmbərin ﷺ yanına gəldikdə, səhabələr sevinər və sakitcə onların verəcəyi sualları dinləyərdilər. Bu xüsusda Ənəs ibn Malik ﷺ demişdir: "Bizə Peyğəmbərdən ﷺ *hər hansı* bir şey haqqında soruşmaq qadağan edilmişdi. *Odur ki,* çöl əhalisindən ağıllı bir adamın gəlib, qulağımız eşidə-eşidə Peyğəmbərə ﷺ sual verməsi bizə xoş gəlirdi" (Səhih Muslim, 102).

[3] Təbəraninin nəql etdiyi rəvayətdə xəbər verilir ki, onlar Peyğəmbərdən ﷺ həccə aid olan əməllər barədə soruşmuşdular. Daha dəqiq desək, Qurban bayramı günü edəcəkləri əməllər – şeytana daş atmaq, qurban kəsmək, saç qırxmaq, Kəbəni təvaf etmək, Səfa və Mərva dağları arasında səy etmək barədə soruşdular. Abdullah ibn Amr ibn As ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ vida həccində ona sual verən insanlar olduğuna görə Mina vadisində dayandı. Bir nəfər onun yanına gəlib dedi: "Bilmədim, qurban kəsməzdən əvvəl saçımı qırxdırdım." Peyğəmbər ﷺ buyurdu: "Eyib etməz, *get, indi* kəs!" Başqa birisi gəlib dedi: "Bilmədim, *şeytana* daş atmazdan əvvəl qurban kəsdim." Peyğəmbər ﷺ buyurdu: "Eybi yoxdur, *get, indi* at!" *Həmin gün* Peyğəmbərdən ﷺ (qurban kəsmək, saç qırxdırmaq, daş atmaq, təvaf etmək kimi həcc ayinlərindən) önə keçirilmiş və ya təxirə salınmış hansı bir şey haqqında soruşdularsa, o, sadəcə "Eybi yoxdur, *get, indi* et"– deyə buyurdu" (Səhih əl-Buxari, 83).

ləri bağışlayır. Yalnız, o adam istisnadır ki, zülm edərək başqa birisinin qeybətini qırar.[1] Həmin adam günah qazanıb həlak olar." Onlar dedilər: "Ya Rəsulullah! Özümüzü müalicə edə bilərikmi?" O, dedi: "Bəli, ey Allahın qulları, özünüzü müalicə edin.[2] Allah ﷻ elə bir xəstəlik verməmişdir ki, onun dərmanını vermiş olmasın. Yalnız bir xəstəlikdən başqa." Onlar soruşdular: "Nədir o, ya Rəsulullah?" O, dedi: "Qocalıqdır."[3] Onlar soruşdu-

---

[1] Başqasının haqqına girməyin haram olması barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Şübhəsiz ki, qanınız da, malınız da, namusunuz da sizə bu şəhərinizdə və bu ayınızda bu gününüzün haram olduğu kimi haramdır. Siz tezliklə Rəbbinizin hüzurunda duracaqsınız. O, sizdən əməlləriniz barədə soruşacaq. Diqqət edin! Məndən sonra azğınlığa düşüb, bir-birinizin boynunu vurmayın! Qoy, burada olanlar *eşitdiklərini* aramızda olmayanlara təbliğ etsinlər. Ola bilər ki, özlərinə təbliğ olunacaq kimsələrin bəzisi *mənim dediklərimi öz qulağı ilə* eşidənlərin bəzisindən daha yaxşı qavrasın" (Səhih əl-Buxari, 67 və 4406). Digər bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ vida həccində müsəlmanın qanının, malının və namusunun digər müsəlmanlara haram olduğunu açıqlayıb demişdir: "Bunlar dörddür: heç kəsi Allaha şərik qoşmayın, Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin, zina etməyin və oğurluq etməyin!" (Səhih əl-Cami, 2640). Başqa bir hədisdə deyilir ki, ziyarət əsnasında o, demişdir: "Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa insanlara zərər dəyməsin. Mömin də o kəsdir ki, insanlar özlərinin qanına və mallarına görə ondan arxayın olsunlar" (Səhih Sunən ət-Tirmizi, 2627).

[2] Bu, dəlildir ki, xəstələndikdə dərman qəbul etmək, habelə, həkimə müraciət etmək, hətta rüqya (Sünnəyə uyğun ovsun) oxumaqla xəstəni müalicə etmək caizdir və bu əməllər Allaha təvəkkül etməyə zidd hesab edilmir.

[3] Hər bir xəstəlik kimi qocalığı da insana verən Allahdır. Bu xüsusda, Uca Allah buyurur: "**Sizi zəif bir şeydən yaradan, zəiflikdən sonra sizə qüvvət verən, qüvvətli olduqdan sonra zəiflik və qocalıq verən Allahdır**" (ər-Rum, 54). Yeri gəlmişkən qeyd edək ki, müsəlmana üz vermiş hər bir xəstəliyin ona faydası vardır. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta, *ayağına* batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah *həmin* müsəlmanın günahlarını bağışlamasın" (Səhih əl-Buxari, 5642). Eləcə də, qocalığın möminə böyük xeyiri vardır. Bu xüsusda da Peyğəmbər ﷺ belə buyurmuşdur: "İnsanların ən xeyirlisi ömrü uzun olub, yaxşı işlər görənidir" (Sunən ət-Tirmizi, 2499; Səhih əl-Cami, 3296). Allah bizə uzun ömür və can sağlığı nəsib etsin, habelə, bizləri ömrümüz boyu yaxşılıqlar etməyə müvəffəq etsin!

lar: “Ya Rəsulullah, insana bəxş edilən ən xeyirli şey nədir?” O, dedi: “Gözəl əxlaqdır.”[1]

**٢٩٢–** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ قَالَ: أَخْبَرَنَا ابْنُ شِهَابٍ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ عَبْدِ اللَّهِ بْنِ عُتْبَةَ، أَنَّ ابْنَ عَبَّاسٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ أَجْوَدَ النَّاسِ بِالْخَيْرِ، وَكَانَ أَجْوَدَ مَا يَكُونُ فِي رَمَضَانَ، حِينَ يَلْقَاهُ جِبْرِيلُ ﷺ، وَكَانَ جِبْرِيلُ يَلْقَاهُ فِي كُلِّ لَيْلَةٍ مِنْ رَمَضَانَ، يَعْرِضُ عَلَيْهِ رَسُولُ اللَّهِ ﷺ الْقُرْآنَ، فَإِذَا لَقِيَهُ جِبْرِيلُ كَانَ رَسُولُ اللَّهِ ﷺ أَجْوَدَ بِالْخَيْرِ مِنَ الرِّيحِ الْمُرْسَلَةِ.

**(292)** ........ İbn Abbas ﷺ demişdir: “Rəsulullah ﷺ xeyirli işlər görməkdə insanların ən səxavətlisi idi.[2] Ramazan ayında Cəbrail ﷺ ilə görüşdüyü zaman isə daha səxavətli olardı. Cəbrail Ramazan ayının hər gecəsində Rəsulullah ﷺ ilə görüşər və Rəsulullah ﷺ Quranı ona oxuyardı. Cəbrail Rəsulullahın ﷺ yanına gəldikdə, Rəsulullah ﷺ xeyirli işlər görməkdə, sərbəst əsən küləkdən daha çevik (və comərd) olardı.[3]”[4]

**٢٩٣–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: أَخْبَرَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الْأَعْمَشِ، عَنْ شَقِيقٍ، عَنْ أَبِي مَسْعُودٍ الْأَنْصَارِيِّ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((حُوسِبَ رَجُلٌ مِمَّنْ كَانَ قَبْلَكُمْ، فَلَمْ يُوجَدْ لَهُ مِنَ الْخَيْرِ إِلَّا أَنَّهُ كَانَ رَجُلًا يُخَالِطُ النَّاسَ وَكَانَ مُوسِرًا، فَكَانَ يَأْمُرُ غِلْمَانَهُ أَنْ يَتَجَاوَزُوا عَنِ الْمُعْسِرِ، قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: فَنَحْنُ أَحَقُّ بِذَلِكَ مِنْهُ، فَتَجَاوَزَ عَنْهُ)).

**(293)** ........ Əbu Məsud əl-Ənsari ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Sizdən əvvəl yaşayan insanlardan birisi haqq-hesaba çəkildi, am-

---

[1] Bu hədisi İbn Macə (3436), Təbərani (Mocəmul-Kəbir, 467) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

[2] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Uca Allah Səxavətlidir və səxavətli olanı sevər” (Sunən ət-Tirmizi, 2799; Səhih əl-Cami, 1744).

[3] Bundan belə nəticə çıxır ki, başqa aylardan fərqli olaraq ramazan ayında Quranı daha çox oxumaq Sünnədir. Hədisdən o da aydın olur ki, xeyirxah insanlarla oturub-durmaq, üstəlik, Quran oxumaq adamı xeyirxah işlər görməyə sövq edir.

[4] Bu hədisi Buxari (1803), Muslim (2308), Nəsai (2095) və Əhməd (1/230-231) rəvayət etmişdir.

ma xeyirli bir iş gördüyü aşkar olunmadı.[1] O, sadəcə insanlarla ünsiyyətdə olan zəngin bir adam olmuşdu. Bu adam öz xidmətçilərinə borcunu ödəyə bilməyən kimsəni bağışlamağı buyurarmış. Allah ﷻ da: **"Biz bu adamı bağışlamağa ondan daha çox layiqik"**– deyib onu bağışladı.[2]"[3]

٢٩٤– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ، عَنِ ابْنِ إِدْرِيسَ قَالَ: سَمِعْتُ أَبِي يُحَدِّثُ عَنْ جَدِّي، عَنْ أَبِي هُرَيْرَةَ: سُئِلَ رَسُولُ اللَّهِ ﷺ: مَا أَكْثَرُ مَا يُدْخِلُ الْجَنَّةَ؟ قَالَ: ((تَقْوَى اللَّهِ، وَحُسْنُ الْخُلُقِ))، قَالَ: وَمَا أَكْثَرُ مَا يُدْخِلُ النَّارَ؟ قَالَ: ((الْأَجْوَفَانِ: الْفَمُ وَالْفَرْجُ)).

**(294)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbərdən ﷺ soruşdular: "Cənnətə girməyə daha çox səbəb olan nədir?" O buyurdu: "Allah qorxusu və gözəl əxlaq!" Yenə soruşdular: "Bəs Cəhənnəm oduna girməyə daha çox səbəb olan nədir?" O buyurdu: "İki boşluq: ağız və cinsiyyət üzvü."[4]

---

[1] Burada "xeyirli iş" deyildikdə, tövhid istisna olmaqla digər xeyirli işlər nəzərdə tutulur. Belə ki, Allahın təkliyini qəbul etməyən kimsənin digər əməlləri də puç olur. Və əgər bu adam tövhid əhli olmasaydı, onun borcunu ödəyə bilməyən kimsəyə borcu bağışlamasının ona heç bir faydası olmazdı.

[2] Bu, dəlildir ki, gözəl əxlaqlı olmaq günahların bağışlanması üçün bir səbəbdir. Bu xüsusda, Uca Allah buyurur: **"Əgər borclu olan adam ağır şərait içindədirsə, onun vəziyyəti düzələnə qədər ona möhlət verin. Bilin ki, borcu bağışlamaq sizin üçün daha xeyirlidir. Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır"** (əl-Bəqərə, 280-281). Bu hədisdən o da aydın olur ki, insan başqalarına necə münasibət göstərirsə, Allah da ona o cür münasibət göstərir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz və onu ələ verməz. Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər. Kim bir müsəlmanı bir sıxıntıdan qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah da Qiyamət günü onun eyiblərini örtər" (Səhih əl-Buxari, 2442).

[3] Bu hədisi Muslim (1561) rəvayət etmişdir.

[4] 289-cu hədisə bax.

**٢٩٥**– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا مَعْنٌ، عَنْ مُعَاوِيَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ جُبَيْرٍ، عَنْ أَبِيهِ، عَنْ نَوَّاسِ بْنِ سَمْعَانَ الأَنْصَارِيِّ، أَنَّهُ سَأَلَ رَسُولَ اللَّهِ ﷺ عَنِ الْبِرِّ وَالإِثْمِ؟ قَالَ: ((الْبِرُّ حُسْنُ الْخُلُقِ، وَالإِثْمُ مَا حَكَّ فِي نَفْسِكَ وَكَرِهْتَ أَنْ يَطَّلِعَ عَلَيْهِ النَّاسُ)).

**(295)** ........ Rəvayət edilir ki, Nəvvas ibn Səman əl-Ənsari ﷺ Rəsulullahdan ﷺ yaxşılıq və bir də günah barədə soruşdu. Rəsulullah ﷺ dedi: "Yaxşılıq gözəl əxlaqdır.[1] Günah isə o şeydir ki, o, sənin qəlbini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsun.[2]"[3]

---

[1] Burada "yaxşılıq" deyildikdə, gözəl əxlaqın yaxşılıqların hamısını yox, bir qismini, hətta çoxunu özündə ehtiva etdiyi nəzərdə tutulur. Peyğəmbərin ﷺ "Həcc Ərəfatdır" sözünü buna misal çəkmək olar. Yəni zilhiccə ayının 9-u Ərəfatda durmaq həccin rüknlərindən biridir.

[2] Bu, günahın tərifidir. Hədisdən açıq-aydın başa düşülür ki, bu iki əlamət əməlin günah olduğuna dəlalət edir. Müsəlman olan adam günah iş görmək istədikdə, qəlbindəki nəsihətçi bu əməlin günah olduğunu onun yadına salır. Hər bir müsəlmanın qəlbindəki nəsihətçi barədə Peyğəmbər ﷺ demişdir: "Allah doğru yola aid bir məsəl çəkdi; bu yolun hər tərəfində bir divar, həmin divarlarda açıq qapılar və bu qapıların üstündə sallanmış pərdələr vardır. Yolun başında dayanmış bir nəfər insanları çağırıb: "Ey insanlar! Hamınız bu yolla gedin və firqələrə bölünməyin!"– deyir. Digər dəvətçi də yolun üstündə dayanıb nəzarət edir. Kimsə o qapılardan birini açmaq istəyəndə ona: "Vay sənin halına! O qapını açma. Əgər sən onu açsan, mütləq ora girəcəksən"– deyir. (Peyğəmbər ﷺ davam edib) dedi: "Burada yol – İslam dinidir; divarlar – Allahın qoyduğu hüdudlar və qayda-qanunlardır, açıq qapılar – Allahın haram buyurduqlarıdır, yolun başında dayanan çağırışçı – Allahın Kitabıdır və nəhayət, yolun üstündə duran nəzarətçi – Allahın hər bir müsəlmanın qəlbində təyin etdiyi nəsihətçidir" (Musnəd İmam Əhməd, 4/182; Səhih əl-Cami, 3887). Lakin qeyd edək ki, bəzən insan o qədər pis əməllər edir və o dərəcədə həyasızlaşır ki, etdiyi əməllərə görə narahat olmur, əksinə, getdikcə azğınlaşır.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

# ١٣٩- بَابُ الْبُخْلِ

## 139-cu fəsil. Xəsislik

**٢٩٦-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي الأَسْوَدِ قَالَ: حَدَّثَنَا حُمَيْدُ بْنُ الأَسْوَدِ، عَنِ الْحَجَّاجِ الصَّوَّافِ قَالَ: حَدَّثَنِي أَبُو الزُّبَيْرِ قَالَ: حَدَّثَنَا جَابِرٌ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ سَيِّدُكُمْ يَا بَنِي سَلِمَةَ؟)) قُلْنَا: جُدُّ بْنُ قَيْسٍ، عَلَى أَنَّا نُبَخِّلُهُ، قَالَ: ((وَأَيُّ دَاءٍ أَدْوَى مِنَ الْبُخْلِ؟ بَلْ سَيِّدُكُمْ عَمْرُو بْنُ الْجَمُوحِ))، وَكَانَ عَمْرٌو عَلَى أَصْنَامِهِمْ فِي الْجَاهِلِيَّةِ، وَكَانَ يُولِمُ عَنْ رَسُولِ اللَّهِ ﷺ إِذَا تَزَوَّجَ.

**(296)** ........ Cabir رضي الله عنه rəvayət edir ki, *bir gün* Rəsulullah ﷺ *bizdən* soruşdu: "Ey Sələmə oğulları,[1] böyüyünüz kimdir?" Biz dedik: "Cudd ibn Qeysdir. Biz onu xəsis hesab edirik."[2] Peyğəmbər ﷺ buyurdu: "Xəsislikdən daha betər xəstəlik ola bilərmi?! Xeyr, sizin böyüyünüz Amr ibn Cəmuhdur."

(Cabir dedi): "Amr cahiliyyət dövründə onların bütləri üzərində nəzarətçi olmuşdur. Həmçinin, Rəsulullah ﷺ evlənərkən Amr onun üçün qonaqlıq verərmiş."[3]

**٢٩٧-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا هُشَيْمٌ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ قَالَ: حَدَّثَنَا وَرَّادٌ كَاتِبُ الْمُغِيرَةِ قَالَ: كَتَبَ مُعَاوِيَةُ إِلَى الْمُغِيرَةِ بْنِ شُعْبَةَ: أَنِ اكْتُبْ إِلَيَّ بِشَيْءٍ سَمِعْتَهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ، فَكَتَبَ إِلَيْهِ الْمُغِيرَةُ: أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَنْهَى عَنْ قِيلَ وَقَالَ، وَإِضَاعَةِ الْمَالِ، وَكَثْرَةِ السُّؤَالِ، وَعَنْ مَنْعٍ وَهَاتِ، وَعُقُوقِ الأُمَّهَاتِ، وَعَنْ وَأْدِ الْبَنَاتِ.

---

[1] Bunlar ənsardan olan bir qəbilədir. İbn Abdul-Bərr "Ənsab" kitabında onların Xəzrəc qəbiləsindən olduğunu demişdir.

[2] Bu, dəlildir ki, məsləhət olduqda kiminsə qeybətini etmək olar. Həmçinin, İmam Buxarinin nəql etdiyi hədisi də buna dəlil göstərmək olar. Həmin hədisdə Aişə رضي الله عنها demişdir: "*Bir dəfə* Muaviyənin anası Hind Peyğəmbərə ﷺ dedi: "*Ərim* Əbu Sufyan xəsis adamdır. Əgər mən onun malından gizlincə götürsəm, mənə günah sayılarmı?" Peyğəmbər ﷺ buyurdu: "Adətən, sənə bəs edəcək qədər özün də götür, oğlanların da *götürsünlər*!" (Səhih əl-Buxari, 2211).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(297)** ........ Muğiranın ﷺ katibi Vərrad deyir ki, Muaviyə Muğira ibn Şobəyə belə bir məktub yazdı: "Mənə Rəsulullahdan ﷺ eşitdiyin hədislərdən birini yaz." Muğira da ona belə yazdı: "Rəsulullah ﷺ dedi-qodu yaymağı, var-dövləti israf etməyi, çox sual verməyi, *yaxşılıq etməkdən* boyun qaçırmağı[1] və "ver"– deyərək *haqqınız olmayan bir şeyi* tələb etməyi, anaların[2] üzünə ağ olmağı və qız uşaqlarını diri-diri yerə gömməyi[3] qadağan edərdi."[4]

**٢٩٨–** حَدَّثَنَا هِشَامُ بْنُ عَبْدِ الْمَلِكِ قَالَ: سَمِعْتُ ابْنَ عُيَيْنَةَ قَالَ: سَمِعْتُ ابْنَ الْمُنْكَدِرِ، سَمِعْتُ جَابِرًا: مَا سُئِلَ النَّبِيُّ ﷺ عَنْ شَيْءٍ قَطُّ فَقَالَ: ((لَا)).

**(298)** ........ Cabir ﷺ demişdir: "Peyğəmbərdən ﷺ bir şey istənildikdə heç vaxt ona "yox"[5] deməzdi."[6]

---

[1] Burada Peyğəmbər ﷺ xəsislik etməyi qadağan edir.

[2] Bu hədisdə "analar" deyildikdə, atalar da bu qadağaya aid edilir. Burada ananın xüsusi ilə vurğulanması, onun, valideynin qayğısına qalmaq xüsusunda atadan daha üstün olduğuna görədir (3-cü hədisə və onun qeydlərinə bax).

[3] Yəni qız uşağını öldürmək, hətta onun ölməsini təmənna etmək belə haramdır. Bu da, cahiliyyət dövründə yaşayanlara xas olan xüsusiyyətlərdəndir. Belə cahillər Quranda belə vəsf olunurlar: **"Onlardan birinə qızı olması ilə müjdə verildikdə hikkəsindən üzü qapqara qaralır. Verilən bəd xəbər ucbatından camaatdan gizlənir. *Bilmir nə etsin,* körpəni rüsvayçılıq içində saxlasın, yoxsa onu torpağa gömsün? Onların verdikləri qərar necə də pisdir! Yaramaz sifət axirətə inanmayanlara məxsusdur"** (ən-Nəhl, 58-60).

[4] 16-cı hədisin qeydlərinə bax.

[5] Digər hədisdə rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ rəhmli idi. Onun yanına gələn hər kəsə söz verər, sonra da imkan daxilində ona köməklik edərdi. *Bir dəfə* namaza iqamə verildiyi zaman bir bədəvi gəlib onun ətəyindən tutdu və dedi: "Mənim bir az ehtiyacım var, qorxuram sonra yadımdan çıxa." Peyğəmbər ﷺ gedib onun ehtiyacını ödədikdən sonra qayıdıb namazı qıldırdı" (əl-Ədəbul-Mufrad, 278).

[6] 279-cu hədisə və onun qeydlərinə bax.

## ١٤٠ – بَابُ الْمَالِ الصَّالِحُ لِلْمَرْءِ الصَّالِح

## 140-cı fəsil. Xeyirli mal-dövlət əməlisaleh adama aiddir[1]

٢٩٩ – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا مُوسَى بْنُ عَلِيٍّ قَالَ: سَمِعْتُ أَبِي يَقُولُ: سَمِعْتُ عَمْرَو بْنَ الْعَاصِ قَالَ: بَعَثَ إِلَيَّ النَّبِيُّ ﷺ فَأَمَرَنِي أَنْ آخُذَ عَلَيَّ ثِيَابِي وَسِلاَحِي، ثُمَّ آتِيهِ، فَفَعَلْتُ فَأَتَيْتُهُ وَهُوَ يَتَوَضَّأُ، فَصَعَّدَ إِلَيَّ الْبَصَرَ ثُمَّ طَأْطَأَ، ثُمَّ قَالَ: ((يَا عَمْرُو، إِنِّي أُرِيدُ أَنْ أَبْعَثَكَ عَلَى جَيْشٍ فَيُغْنِمُكَ اللَّهُ، وَأَرْغَبُ لَكَ رَغْبَةً مِنَ الْمَالِ صَالِحَةً))، قُلْتُ: إِنِّي لَمْ أُسْلِمْ رَغْبَةً فِي الْمَالِ، إِنَّمَا أَسْلَمْتُ رَغْبَةً فِي الْإِسْلاَمِ فَأَكُونُ مَعَ رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ: ((يَا عَمْرُو، نِعْمَ الْمَالُ الصَّالِحِ لِلْمَرْءِ الصَّالِحِ)).

**(299)** ........ Amr ibn As[2] ﵁ deyir ki, Peyğəmbər ﷺ bir adamla mənə xəbər göndərdi ki, döyüş paltarımı və silahımı götürüb onun yanına gəlim. Mən döyüş paltarımı və silahımı götürüb onun yanına gələndə, o, dəstəmaz alırdı. O mənə tərəf baxdı, sonra başını aşağı salıb (dəstəmazına da-

---

[1] Mal-dövlət yalnız əməlisaleh insanın əlində olduğu təqdirdə xeyirli hesab edilə bilər. Çünki yalnız əməlisaleh adam halal yolla qazanc əldə etməyə və qazandıqlarını yalnız xeyirxah işlərə sərf etməyə çalışır. Bunun üçün isə Quran və Sünnəni – bu xüsusda varid olmuş ayələri və hədisləri bilmək gərəkdir. Bunlarsız isə əməlisaleh olmaq qeyri-mümkündür. Odur ki, Peyğəmbər ﷺ hər səhər dua edib deyərdi: "Allahummə, inni əs-əlukə ilmən nafiən və rizqan tayyibən və amələn mutəqabbələn (Allahım! Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirəm!)" (Musnəd İmam Əhməd, 6/294; Sunən İbn Macə, 925; Səhih İbn Macə, 753). Belə əməlisaleh kimsələr barədə Peyğəmbər ﷺ demişdir: "Yalnız iki şəxsə həsəd aparmaq olar: O şəxsə ki, Allah ona Quranı öyrətmiş, o da, onu gecə-gündüz oxuyur. Qonşusu bunu eşidib deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim." Bir də o şəxsə ki, Allah ona var-dövlət bəxş etmiş, o da, onu Allah yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim" (Səhih əl-Buxari, 5026). Haram yolla əldə edilən və ya günah işlərə sərf olunan mal-dövlət isə xeyirli ola bilməz.

[2] Əbu Muhəmməd Abdullah ibn Amr ibn As ibn Vail əs-Səhmi ﵄ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 15-ci tərcümeyi hal).

vam edərək) buyurdu: "Ey Amr! Mən istəyirəm səni qoşuna başçı təyin edib (düşmənin üstünə) göndərim ki, Allah sənə qənimət nəsib etsin. İstəyirəm ki, sənin xeyirli mal-dövlətin olsun." Mən dedim: "Mən mal-dövlət əldə etmək üçün müsəlman olmamışam. Mən yalnız İslam dininə olan rəğbətimə görə və Rəsulullahın ﷺ yanında olmaqdan ötrü müsəlman olmuşam."[1] O buyurdu: "Ey Amr! Əməlisaleh adamın xeyirli mala sahib olması necə də gözəldir![2]"[3]

---

[1] Amr ibn Asın ﷺ bu sözü onun nə dərəcədə zahid insan olduğundan xəbər verir. Bu da, səhabənin fəzilətlinə dəlalət edir.

[2] Burada Peyğəmbər ﷺ öz səhabəsinə bildirmək istəyir ki, əgər xeyirli mal əməlisaleh insanın əlində olarsa, bu, həm onun özü üçün, həm də başqaları üçün xeyirli olar.

[3] Bu hədisi Əhməd (4/197) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ١٤١- بَابُ مَنْ أَصْبَحَ آمِنًا فِي سِرْبِهِ

## 141-ci fəsil. Əminlik içində səhərə çıxan adam

**٣٠٠-** حَدَّثَنَا بِشْرُ بْنُ مَرْحُومٍ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي شُمَيْلَةَ الأَنْصَارِيِّ الْقُبَائِيِّ، عَنْ سَلَمَةَ بْنِ عُبَيْدِ اللَّهِ بْنِ مِحْصَنٍ الأَنْصَارِيِّ، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ أَصْبَحَ آمِنًا فِي سِرْبِهِ، مُعَافًى فِي جَسَدِهِ، عِنْدَهُ طَعَامُ يَوْمِهِ، فَكَأَنَّمَا حِيزَتْ لَهُ الدُّنْيَا)).

**(300)** ........ Ubeydullah ibn Mihsan əl-Ənsari ﵁ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ demişdir: "Kim əmin-amanlıq içində,[2] canı sağlam,[3] yanında da

---

[1] Bu hədisi Buxari (Tarix 3/1/373), Tirmizi (2347), İbn Macə (2/525) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2318) onun "səhih" olduğunu demişdir.

[2] Burada adamın qəlbinin arxayınlığı, habelə, özünün və ailəsinin əmin-amanlıq içində olması qəsd edilir.

[3] Adamın canının sağlam olması, həqiqətən də, böyük nemətdir. Müdrik adamlar demişlər: "Sağlam adamların başında tac var, bunu yalnız xəstələr görür." Peyğəmbər ﷺ səhər və axşam dua edib deyərdi: "Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyətə fid-dunya vəl-axira. Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyətə fi dini və dunyayə və əhli və mali. Allahumməstur aurati və amin rauati. Allahumməhfəzni min bəyni yədeyyə və min xalfi və an yəmini və an şimali və min fəuqi və əuzu biazəmətikə ən uğtalə min təhti (Allahım, dünyada və Axirətdə Səndən əfv və salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən əfv və salamatlıq diləyirəm! Allahım, eyiblərimi ört və qorxularımdan məni xatircəm et! Allahım, məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından Sənin əzəmətinə sığınıram!)" (Sunən Əbu Davud, 5074; Səhih Tərğib vət-Tərhib, 659); həmçinin, hər səhər və hər axşam üç kərə dua edib deyərdi: "Allahummə, afini fi bədəni. Allahummə, afini fi səm'i. Allahummə, afini fi bəsari. Lə ilahə illə ənt. Allahummə, inni əuzu bikə minəl-kufri vəl-fəqri, və əuzu bikə min əzabil-qabri, lə ilahə illə ənt (Allahım, bədənimi salamat et! Allahım, qulağımı salamat et! Allahım, gözümü salamat et! Səndən başqa məbud yoxdur. Allahım, küfrdən və yoxsulluqdan Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram. Səndən başqa məbud yoxdur!)" (Əbu Davud 4/324; Əhməd 5/42; Səhih əl-Ədəbul-Mufrad, 542).

həmin günün yeməyi olduğu halda səhərə çıxmışsa, ona sanki dünya bəxş edilmişdir.[1]"

[1] Çünki dünyaya – çoxlu var-dövlətə sahib olan kimsə bu üçündən artıq bir şeydən istifadə edə bilmir. Və əgər varlının arxayınlığı yoxdursa və ya canı ağrıyırsa, bu var-dövlətin nə qiyməti ola bilər?! Əsl səadət isə var-dövlətdə yox, insanın qəlbinin islah olunmasındadır. Ağıllı adamlar bu üç nemətin – əmin-amanlığın, sağlamlığın və gündəlik əldə etdiyi ruzinin necə böyük nemət oldğunu dərk edir və bunlara görə gecə-gündüz Allaha şükür edirlər. Odur ki, səhərə sağ çıxacağına ümid etməyən adam, öz gələcəyini düşünərək nədənsə giley-güzar etməkdənsə, hazırkı günündə əlində olan nemətlərə görə Allaha şükür etməlidir. Nankor adamlar isə özündən yuxarı səviyyədə olanlara baxıb onlar kimi olmağı təmənna etməklə xam xəyallara dalır və Allahın onlara bəxş etdiyi nemətləri layiqincə dəyərləndirmirlər. Dünya malı Allahdan qorxmayan kimsəyə uğur qazandırmış olsaydı, Qarun uğur qazanardı. Lakin Allah onu var-dövləti ilə birlikdə yerləyeksan elədi. Quranda deyilir: **"Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də *başqalarına* yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir." *Qarun* dedi: "Bu mənə ancaq məndə olan biliyə görə verilmişdir." Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox *var-dövlət* yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz** (üzlərindən tanınarlar). ***Qarun*** **öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir." Elm verilmiş kəslər isə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar." Biz onu öz evi ilə birlikdə *yerə* batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də *yerə* batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!" Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. *Gözəl* aqibət müttəqilərindir"** (əl-Qəsəs, 76-83).

## ١٤٢- بَابُ طِيبِ النَّفْسِ

## 142-ci fəsil. Əhvali-ruhiyyənin yaxşı olması

٣٠١- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ بْنُ بِلَالٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ سُلَيْمَانَ بْنِ أَبِي سَلَمَةَ الأَسْلَمِيِّ، أَنَّهُ سَمِعَ مُعَاذَ بْنَ عَبْدِ اللَّهِ بْنِ خُبَيْبٍ الْجُهَنِيَّ يُحَدِّثُ، عَنْ أَبِيهِ، عَنْ عَمِّهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ خَرَجَ عَلَيْهِمْ وَعَلَيْهِ أَثَرُ غُسْلٍ، وَهُوَ طَيِّبُ النَّفْسِ، فَظَنَنَّا أَنَّهُ أَلَمَّ بِأَهْلِهِ، فَقُلْنَا: يَا رَسُولَ اللَّهِ، نَرَاكَ طَيِّبَ النَّفْسِ؟ قَالَ: ((أَجَلْ، وَالْحَمْدُ لِلَّهِ))، ثُمَّ ذُكِرَ الْغِنَى، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّهُ لاَ بَأْسَ بِالْغِنَى لِمَنِ اتَّقَى، وَالصِّحَّةُ لِمَنِ اتَّقَى خَيْرٌ مِنَ الْغِنَى، وَطِيبُ النَّفْسِ مِنَ النِّعَمِ)).

**(301)** ........ Muaz ibn Abdullah ibn Xubeyb əl-Cühəni öz atasından rəvayət edir ki, əmisi demişdir:[1] "(Bir gün) Rəsulullah ﷺ bizim yanımıza gəldi. Onun üzərində qüslün əlaməti var idi,[2] əhvalı-ruhiyyəsi də yaxşı idi. Biz onun zövcəsi ilə yaxınlıq etdiyini zənn edib dedik: "Ya Rəsulullah, biz səni yaxşı əhvalı-ruhiyyədə görürük."[3] Rəsulullah ﷺ dedi: "Elədir, həmd olsun Allaha!" Sonra *səhabələr* var-dövlət barədə söhbət açdılar. Rəsulullah ﷺ dedi: "Allahdan qorxan adamın var-dövlətli olması ayib deyil.[4] La-

---

[1] Bu hədisi İbn Macə (2141), Əhməd (5/272; 381) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (174) onun "səhih" olduğunu demişdir.

[2] Burada səhabə Peyğəmbərin ﷺ cənabət qüslü etdiyini xəbər verir.

[3] Bu, dəlildir ki, həyat yoldaşı ilə yaxınlıq etmək adamın əhval-ruhiyyəsini yaxşılaşdırır və onun nəfsini sakitləşdirir. Bu xüsusda, Uca Allah buyurur: **"Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Allahın dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır"** (ər-Rum, 21).

[4] Allahdan qorxmayan fasiq adamların varlı olması isə onlar üçün bir bəladır. Çünki belələri əlində olan var-dövlət sayəsində daha da azğınlaşırlar. Bu xüsusda, Uca Allah buyurur: **"Xeyr! İnsan, doğrudan da, özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə həddini aşır"** (əl-Ələq, 6-7).

kin Allahdan qorxan adam üçün sağlamlıq var-dövlətdən daha xeyirlidir.[1] Əhvalı-ruhiyyənin yaxşı olması isə nemətdir.[2]"

٣٠٢- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا مَعْنٌ، عَنْ مُعَاوِيَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ جُبَيْرِ بْنِ نُفَيْرٍ، عَنْ أَبِيهِ، عَنِ النَّوَّاسِ بْنِ سَمْعَانَ الأَنْصَارِيِّ، أَنَّهُ سَأَلَ رَسُولَ اللَّهِ ﷺ عَنِ الْبِرِّ وَالإِثْمِ؟ فَقَالَ: ((الْبِرُّ حُسْنُ الْخُلُقِ، وَالإِثْمُ مَا حَكَّ فِي نَفْسِكَ وَكَرِهْتَ أَنْ يَطَّلِعَ عَلَيْهِ النَّاسُ)).

**(302)** ........ Nəvvas ibn Səm'an əl-Ənsari ﷺ Peyğəmbərdən ﷺ yaxşılıq və günah barədə soruşdu. O, dedi: "Yaxşılıq gözəl əxlaqdır. Günah isə, o şeydir ki, o, sənin qəlbini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsunlar."[3]

٣٠٣- حَدَّثَنَا عَمْرُو بْنُ عَوْنٍ قَالَ: أَخْبَرَنَا حَمَّادٌ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ أَحْسَنَ النَّاسِ، وَأَجْوَدَ النَّاسِ، وَأَشْجَعَ النَّاسِ، وَلَقَدْ فَزِعَ أَهْلُ الْمَدِينَةِ ذَاتَ لَيْلَةٍ، فَانْطَلَقَ النَّاسُ قِبَلَ الصَّوْتِ، فَاسْتَقْبَلَهُمُ النَّبِيُّ ﷺ قَدْ سَبَقَ النَّاسَ إِلَى الصَّوْتِ وَهُوَ يَقُولُ: ((لَنْ تُرَاعُوا، لَنْ تُرَاعُوا))، وَهُوَ عَلَى فَرَسٍ لِأَبِي طَلْحَةَ عُرْيٍ، مَا عَلَيْهِ سَرْجٌ، وَفِي عُنُقِهِ السَّيْفُ، فَقَالَ: ((لَقَدْ وَجَدْتُهُ بَحْرًا، أَوْ إِنَّهُ لَبَحْرٌ)).

---

[1] Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, Allahdan qorxan mömin adam üçün sağlamlıq var-dövlətdən daha xeyirlidir. Çünki sağlam adamın ibadətləri yerinə yetirib savab qazanmaq imkanı, varlı olan xəstə və aciz adamdan daha çoxdur. Lakin qeyd etmək lazımdır ki, Allahdan qorxan möminin həm sağlam, həm də varlı olması bundan da xeyirlidir. Bu üçünə yiyələnmək – həm təqvalı, həm sağlam, həm də zəngin olmaq, həqiqətən də, böyük nemətdir.

[2] Burada Peyğəmbərin ﷺ, yaxşı əhvali-ruhiyyənin nemət olduğunu ayrıca qeyd etməsi, bunun sağlamlığa və zənginliyə aidiyyəti olmadığına dəlalət edir. Yəni ola bilər ki, adam həm sağlam, həm də zəngin olsun, lakin müəyyən səbəblərdən dolayı, əhval-ruhiyyəsi yaxşı olmasın. Qəlb rahatlığı isə hər adama nəsib olmur. Bu böyük nemət yalnız Allahı zikr edən möminlərə qismət olur. Bu xüsusda, Uca Allah buyurur: **"Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır"** (ər-Rəd, 28).

[3] 295-ci hədisə və onun qeydlərinə bax.

**(303)** ........ Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ insanlar arasında ən gözəl,[1] ən səxavətli və ən şücaətkar insan idi. Bir gecə Mədinə sakinləri təşvişə düşüb səs gələn tərəfə getdilər. Bu vaxt hamıdan qabaq səs gələn tərəfə getmiş Peyğəmbər ﷺ, Əbu Talhənin yəhərsiz atının üstündə, boynundan da qılınc asılmış halda: "Qorxmayın! Qorxmayın!"– deyərək onların qabağına çıxdı və dedi: "Mən bu atın itiqaçan (at) olduğunu gördüm.[2]"[3]

**٣٠٤–** حَدَّثَنَا قُتَيْبَةُ، حَدَّثَنَا ابْنُ الْمُنْكَدِرِ، عَنْ أَبِيهِ، عَنْ جَابِرٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ، إِنَّ مِنَ الْمَعْرُوفِ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلْقٍ، وَأَنْ تُفْرِغَ مِنْ دَلْوِكَ فِي إِنَاءِ أَخِيكَ)).

**(304)** ........ Cabir ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Hər bir yaxşılıq sədəqədir.[4] Gülərüzlə qardaşını qarşılamaq,[5] (həmçinin,) öz qabında olandan qardaşının qabına (yemək və s.) qoymaq yaxşılıqdır."[6]

---

[1] Burada "ən gözəl" deyildikdə, Peyğəmbərin ﷺ həm xilqətinin, həm də əxlaqının gözəl olduğu nəzərdə tutulur. Onun əhval-ruhiyyəsinin həmişə yaxşı olması da buna aiddir.

[2] İmam Buxarinin nəql etdiyi hədisdə (2857) Ənəs ibn Malik ﷺ demişdir: "*Bir dəfə* Mədinədə *insanları təşvişə salan* bir gurultu qopdu. Bu vaxt Peyğəmbər ﷺ bizim Məndub adlı atımızı borc aldı *və atı dördnala çapıb getdi. Geri qayıtdıqdan sonra* dedi: "Qorxulu bir şey yoxdur; ancaq bu *Məndub* olduqca itiqaçan bir atdır." İmam Buxarinin (2747) və Muslimin (6146) nəql etdikləri digər rəvayətdə deyilir ki, bu at ağırtərpənən bir at idi. Peyğəmbər ﷺ atı mindikdən sonra Allahın izni ilə bu atın iti qaçması onun peyğəmbərlik möcüzələrindəndir.

[3] Bu hədisi Buxari (2857) və Muslim (5886) rəvayət etmişdir.

[4] 115-ci və 117-ci fəsillərə bax.

[5] Hədisin bu hissəsi bu fəslin ünvanına dəlalət edir. Belə ki, əhval-ruhiyyəsi yaxşı olan adam qardaşını gülərüzlə qarşılayar. Bu xüsusda hamımıza örnək olan Peyğəmbərimiz ﷺ belə insanlardan olmuşdur. Abdullah ibn Haris ibn Cəz ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ daha çox təbəssüm edən bir kimsə görməmişəm" (Sunən Tirmizi, 3645); başqa bir hədisdə Cərir ﷺ demişdir: "Mən İslamı qəbul etdiyim gündən Rəsulullah ﷺ heç vaxt mənə öz məclisində iştirak etməyi qadağan etməz və həmişə məni təbəssümlə qarşılayardı" (Səhih əl-Buxari, 2881; Səhih Muslim, 2475).

[6] Bu hədisi Tirmizi (1970), Əhməd (3/360) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ١٤٣- بَابُ مَا يَجِبُ مِنْ عَوْنِ الْمَلْهُوفِ

## 143-cü fəsil. Çarəsiz adama köməklik göstərmək

٣٠٥- حَدَّثَنَا الْأُوَيْسِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ عُرْوَةَ، عَنْ أَبِي مُرَاوِحٍ، عَنْ أَبِي ذَرٍّ: سُئِلَ النَّبِيُّ ﷺ: أَيُّ الأَعْمَالِ خَيْرٌ؟ قَالَ: ((إِيمَانٌ بِاللَّهِ، وَجِهَادٌ فِي سَبِيلِهِ))، قَالَ: فَأَيُّ الرِّقَابِ أَفْضَلُ؟ قَالَ: ((أَغْلاَهَا ثَمَنًا، وَأَنْفَسُهَا عِنْدَ أَهْلِهَا))، قَالَ: أَرَأَيْتَ إِنْ لَمْ أَسْتَطِعْ بَعْضَ الْعَمَلِ؟ قَالَ: ((تُعِينُ ضَائِعًا، أَوْ تَصْنَعُ لِأَخْرَقَ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ ضَعُفْتُ؟ قَالَ: ((تَدَعُ النَّاسَ مِنَ الشَّرِّ، فَإِنَّهَا صَدَقَةٌ تَصَدَّقُهَا عَلَى نَفْسِكَ)).

**(305)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbərdən ﷺ soruşdular: "Hansı əməl ən yaxşı əməl sayılır?" O, dedi: "Allaha iman gətirmək, Onun yolunda cihad etmək!" Bir daha soruşdular: "Hansı köləni azad etmək daha yaxşıdır?" O, dedi: "Ən bahalı və sahibi üçün ən dəyərli olanı!" Yenə soruşdular: "Bir de görək, bəzi *yaxşı* əməlləri edə bilməsəm necə?" O, dedi: "Biçarə kimsəyə köməklik göstər və ya işi bacarmayan adamın işini gör!" Yenə soruşdular: "Bəs bacarmasam necə? O, dedi: "İnsanlara pislik etməkdən çəkin. Belə etsən, bu, sənin özünə verdiyin bir sədəqə olar."[1]

٣٠٦- حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: أَخْبَرَنِي سَعِيدُ بْنُ أَبِي بُرْدَةَ، سَمِعْتُ أَبِي يُحَدِّثُ، عَنْ جَدِّي، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((عَلَى كُلِّ مُسْلِمٍ صَدَقَةٌ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ لَمْ يَجِدْ؟ قَالَ: ((فَلْيَعْمَلْ، فَلْيَنْفَعْ نَفْسَهُ، وَلْيَتَصَدَّقْ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ لَمْ يَسْتَطِعْ، أَوْ لَمْ يَفْعَلْ؟ قَالَ: ((لِيُعِنْ ذَا الْحَاجَةِ الْمَلْهُوفَ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ لَمْ يَسْتَطِعْ، أَوْ لَمْ يَفْعَلْ؟ قَالَ: ((فَلْيَأْمُرْ بِالْمَعْرُوفِ))، قَالَ: أَفَرَأَيْتَ إِنْ لَمْ يَسْتَطِعْ، أَوْ لَمْ يَفْعَلْ؟ قَالَ: ((يُمْسِكُ عَنِ الشَّرِّ، فَإِنَّهَا لَهُ صَدَقَةٌ)).

**(306)** ........ Səid ibn Əbu Burdə demişdir: "Mən atamdan, o da babamdan[2] Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Hər bir müsəlman sədəqə

---

[1] 220-ci hədisə və onun qeydlərinə bax.

[2] Burada "babam" deyildikdə, məşhur səhabə Əbu Musa əl-Əşari ﷺ nəzərdə tutulur.

vermәlidir!" *Səhabələrdən biri* soruşdu: "Bir de görək, əgər *sədəqə verməyə bir şey* tapa bilməsə necə?" Peyğəmbər ﷺ buyurdu: "Qoy, işləyib həm özü üçün xeyir əldə etsin, həm də sədəqə versin." *Səhabə* soruşdu: "Bəs, bunu bacarmasa yaxud belə etməsə necə?" Peyğəmbər ﷺ buyurdu: "Ehtiyacı olan biçarə kimsəyə köməklik göstərsin." *Səhabə* soruşdu: "Bəs, bunu bacarmasa yaxud belə etməsə necə?" Peyğəmbər ﷺ buyurdu: "Qoy, *insanlara* yaxşılıq etməyi buyursun." *Səhabə* soruşdu: "Bəs, bunu bacarmasa yaxud belə etməsə necə?" Peyğəmbər ﷺ buyurdu: "Qoy, şər əməllərdən əl çəksin. Həqiqətən, bu, onun üçün sədəqə olar.[1]"[2]

---

[1] Burada Peyğəmbər ﷺ öz səhabələrinə yaxşılıq etməyin yollarını öyrədir. Yəni adam bəzən maddiyyatla, bəzən fiziki güclə, bəzən gözəl nəsihətlə, bəzən də şər əməllərdən çəkinməklə başqalarına yaxşılıq edə bilər.

[2] Bu hədisi Muslim (3/83), Nəsai (1/351) və Əhməd (4/395; 411) rəvayət etmişdir.

## ١٤٤- بَابُ مَنْ دَعَا اللَّهَ أَنْ يُحَسِّنَ خُلُقَهُ

## 144-cü fəsil. Əxlaqının gözəl olmasından ötrü Allaha dua edən kimsə

٣٠٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ الْفَزَارِيُّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ زِيَادِ بْنِ أَنْعُمَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ رَافِعٍ التَّنُوخِيِّ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يُكْثِرُ أَنْ يَدْعُوَ: ((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الصِّحَّةَ، وَالْعِفَّةَ، وَالأَمَانَةَ، وَحُسْنَ الْخُلُقِ، وَالرِّضَا بِالْقَدَرِ)).

**(307)** ........ Abdullah ibn Amr ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ çox vaxt belə dua edərdi: "Allahım, Səndən can sağlığı, iffətli olmağı, əmanətə xəyanət etməməyi, gözəl əxlaqlı olmağı və qədərdən razı qalmağı diləyirəm!"[1]

٣٠٨- حَدَّثَنَا عَبْدُ السَّلامِ قَالَ: حَدَّثَنَا جَعْفَرٌ، عَنْ أَبِي عِمْرَانَ، عَنْ يَزِيدَ بْنِ بَابَنُوسَ قَالَ: دَخَلْنَا عَلَى عَائِشَةَ فَقُلْنَا: يَا أُمَّ الْمُؤْمِنِينَ، مَا كَانَ خُلُقُ رَسُولِ اللَّهِ ﷺ؟ قَالَتْ: كَانَ خُلُقُهُ الْقُرْآنَ،

---

[1] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn İyad ibn Ənum və Abdur-Rəhman ibn Rafi ət-Tənnuxi – hər ikisi "zəif" ravidir. Elə bu səbəbdən də, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı zəif olsa da, Peyğəmbərimizin ﷺ Allahdan gözəl əxlaq diləməsi səhih hədislərdə öz təsdiqini tapmışdır. Peyğəmbər ﷺ dua edib deyərdi: "Allahummə əhsəntə xalqi, fə əhsin xuluqi! (Allahım, Sən məni gözəl biçimdə yaratdın. Əxlaqımı da gözəl et!)" (Səhih Tərğib vət-Tərhib, 2657); həmçinin, deyərdi: "Allahumməhdini li əhsənil-əxlaqi lə yəhdi li əhsəniha illə ənt, vəsrif anni seyyiəhə lə yəsrifu anni seyyiəhə illə ənt! (Allahım, mənə ən gözəl əxlaq nəsib et! Onun ən gözəlini ancaq Sən bəxş edə bilərsən. Onun pisindən məni uzaq et! Məni onun pisindən ancaq Sən uzaqlaşdıra bilərsən!)" (Səhih Muslim, 1/534); həmçinin, o, pis əxlaqdan Allaha sığınıb deyərdi: "Allahummə inni əuzu bikə min munkəratil-əxlaqi vəl-ə'mali vəl-əhva! (Allahım, pis əxlaqdan, yaramaz əməllərdən və pis fikirlərdən Sənə sığınıram!)" (Səhih ət-Tirmizi, 3/184); həmçinin, deyərdi: "Allahummə inni əuzu bikə ən ədıllə, əu udallə, əu əzillə, əu uzəllə, əu əzlimə, əu uzləmə, əu əchələ, əu yuchələ aleyyə! (Allahım, doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram) (Səhihu-t-Tirmizi», 3/152).

تَقْرَؤُونَ سُورَةَ الْمُؤْمِنِينَ؟ قَالَتِ: اقْرَأْ: ﴿قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ﴾، قَالَ يَزِيدُ: فَقَرَأْتُ: ﴿قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ
﴾ إِلَى ﴿لِفُرُوجِهِمْ حَافِظُونَ﴾، قَالَتْ: هَكَذَا كَانَ خُلُقُ رَسُولِ اللَّهِ.

**(308)** ........ Yezid ibn Babənus demişdir: "(Bir dəfə) biz Aişənin yanına gəlib soruşduq: "Ey möminlərin anası! Rəsulullahın ﷺ əxlaqı necə idi?" O, dedi: "Onun əxlaqı Quran idi.[1] "Möminlər" surəsini oxuyursunuzmu?! Oxu: **"Möminlər, həqiqətən də, nicat tapmışlar..."** Mən də oxudum: **"Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər, o kəslər ki, sözbazlıqdan qaçırlar, o kəslər ki, zəkat verirlər, o kəslər ki, öz cinsi orqanlarını *həmişə* qoruyurlar."[2]**

Aişə dedi: "Rəsulullahın ﷺ əxlaqı belə idi."[3]

---

[1] Aişə رضي الله عنها demək istəyir ki, Peyğəmbər ﷺ Quranda buyurulanlara əməl etməklə bütün gözəl əxlaqları özündə cəm etmişdir. Əxlaqın gözəl olmasını Allahdan diləməsi də, həmçinin, buna aiddir. Qeyd etmək lazımdır ki, Aişənin رضي الله عنها bu ayələri misal çəkməsi, ancaq bu ayədə deyilənlərlə kifayətlənməsi demək deyildir. Belə ki, Qurani Kərimdə möminə xas əxlaqla bağlı yüzlərlə belə ayələr vardır. Peyğəmbər ﷺ bunların hamısına əməl edərmiş. Elə buna görə də, Rəsulullah ﷺ, Allahın ən sevimli dostu, habelə, ən abid, ən əxlaqlı, ən həlim, Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan bir insan olmuşdur. Uca Allah buyurur: **"Allahın rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir"** (əl-Əhzab, 21). Elə isə, Peyğəmbərə ﷺ oxşamaq istəyən hər bir mömin Quranı oxuyub öyrənməli, sonra da öyrəndiklərinə əməl etməlidir. Həsən əl-Bəsri demişdir: "Quran nazil olmuşdur ki, içində buyurulanlara əməl edilsin. Lakin (bir çox) insanlar sadəcə onu oxumaqla kifayətlənirlər" (Təlbis İblis, 1/101). Halbuki, Quran oxumaq xüsusunda Uca Allah buyurur: **"Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar"** (əl-Bəqərə, 121). Quranı layiqincə oxuyanlardan sayılmaq üçün, ayələrdəki hərfləri düzgün tələffüz etmək, kəlmələrin mənasını başa düşmək və buyurulanlara əməl etmək – ona iman gətirmək, halal buyurulanları halal, haram buyurulanları da haram qəbul etmək gərəkdir.

[2] əl-Muminun, 1-5.

[3] Bu hədisin isnadında keçən Yezid ibn Babənus "məqbul" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, mətninin əvvəli "səhih" isnadlarla varid olmuşdur (Səhih Muslim, 1773; Sunən Əbu Davud, 1342; Musnəd Əhməd, 6/188).

## ١٤٥– بَابُ لَيْسَ الْمُؤْمِنُ بِالطَّعَّانِ

## 145-ci fəsil. Mömin tənə vuran[1] deyil

٣٠٩– حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ شَيْبَةَ قَالَ: أَخْبَرَنِي ابْنُ أَبِي الْفُدَيْكِ، عَنْ كَثِيرِ بْنِ زَيْدٍ، عَنْ سَالِمِ ابْنِ عَبْدِ اللَّهِ قَالَ: مَا سَمِعْتُ عَبْدَ اللَّهِ لاَعِنًا أَحَدًا قَطُّ، لَيْسَ إِنْسَانًا. وَكَانَ سَالِمٌ يَقُولُ: قَالَ عَبْدُ اللَّهِ ابْنُ عُمَرَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ يَنْبَغِي لِلْمُؤْمِنِ أَنْ يَكُونَ لَعَّانًا)).

**(309)** ........ Salim ibn Abdullah demişdir: "Mən Abdullah ibn Ömərin kiməsə lənət oxuduğunu heç vaxt eşitməmişəm. Yalnız bir nəfərdən başqa.[2] Abdullah ibn Ömər rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Möminə yaraşmaz ki, çox lənət oxuyan olsun."[3]

٣١٠– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا الْفَزَارِيُّ، عَنِ الْفَضْلِ بْنِ مُبَشِّرٍ الأَنْصَارِيِّ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ اللَّهَ لاَ يُحِبُّ الْفَاحِشَ الْمُتَفَحِّشَ، وَلاَ الصَّيَّاحَ فِي الاسْوَاقِ)).

**(310)** ........ Cabir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Allah ədəbsiz və kobud olan kimsəni,[4] habelə, bazarlarda qışqır-basalan[5] adamı sevmir."[6]

---

[1] Tənə vurmaq: birisinin gizli işini, nöqsanını, eyibini və s. xoşagəlməz cəhətlərini üzünə vurmaq və ya demək.

[2] İmam Beyhəqinin "Şoəbul-İman" əsərində nəql etdiyi hədisdə Salim rəvayət etmişdir ki, Abdullah ibn Ömər رضي الله عنه cəmi bir dəfə öz xidmətçisinə lənət oxumuşdur. Belə ki, xidmətçi onu qəzəbləndirmiş, Abdullah da onu lənətləmiş, sonra da onu azad etmişdir (Silsilətul-Əhadisis-Səhihə, 2636).

[3] Bu hədisi Tirmizi (2020), Hakim (Mustdrək, 1/47), Beyhəqi, (Şoəbul-İman, 2/91/2) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən-səhih" olduğunu demişdir.

[4] 271-ci hədisə və onun qeydlərinə bax.

[5] 246-cı hədisin qeydlərinə bax.

[6] Bu hədisin isnadında keçən Fədl ibn Mubəşşir əl-Ənsari "leyyin" ravi olduğuna görə Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində hədisin isnadı-

**٣١١-** وَعَنْ عَبْدِ الْوَهَّابِ، عَنْ أَيُّوبَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِي مُلَيْكَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، أَنَّ يَهُودًا أَتَوُا النَّبِيَّ ﷺ فَقَالُوا: السَّامُ عَلَيْكُمْ، فَقَالَتْ عَائِشَةُ: وَعَلَيْكُمْ، وَلَعَنَكُمُ اللَّهُ، وَغَضِبَ اللَّهُ عَلَيْكُمْ، قَالَ: ((مَهْلًا يَا عَائِشَةُ، عَلَيْكِ بِالرِّفْقِ، وَإِيَّاكِ وَالْعُنْفَ وَالْفُحْشَ))، قَالَتْ: أَوَ لَمْ تَسْمَعْ مَا قَالُوا؟ قَالَ: ((أَوَ لَمْ تَسْمَعِي مَا قُلْتُ؟ رَدَدْتُ عَلَيْهِمْ، فَيُسْتَجَابُ لِي فِيهِمْ، وَلاَ يُسْتَجَابُ لَهُمْ فِيَّ)).

**(311)** ........ Abdullah ibn Əbu Muleykə Aişədən ﵂ rəvayət etmişdir ki, (bir dəfə) yəhudilər[1] Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Ölüm olsun sizə!" Aişə dedi: "(Ölüm) sizə olsun! Allah sizə lənət eləsin! Allahın qəzəbinə düçar olasınız!" Peyğəmbər ﷺ buyurdu: "Tələsmə,[2] ey Aişə! Mülayim ol, sərtlik və kobudluq etməkdən çəkin!"[3] Aişə dedi: "Məgər, sən onların nə dediyini eşitmədinmi?" O, dedi: "Bəs sən mənim dediyimi eşitmədinmi? Onların cavabını verdim.[4] Mənim onlara etdiyim dua qəbul olunur. Onların mənə etdikləri dua isə qəbul olunmur.[5]"[6]

---

nın "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, Allahın, ədəbsiz və kobud olan kimsəni sevməməsi "səhih"dir. (Bu kitabda nəql edilmiş 464, 487 və 755 nömrəli hədislərə bax).

[1] Burada yəhudilərin hamısı deyil, onlardan bir dəstə nəzərdə tutulur.

[2] Deməli, adam qəzəbləndiyi an qərar çıxarmağa tələsməyib səbir edərsə, əlbəttə ki, düzgün mövqe tutmağa müvəffəq olar.

[3] Peyğəmbər ﷺ Aişəyə ﵂ bu məqamda onları lənətləməyi qadağan edir. Olsun ki, Peyğəmbər ﷺ onların müsəlman olacağına ümid edirmiş. Lakin Peyğəmbər ﷺ ümumi olaraq, bir çox məqamlarda onları lənətləmişdir. Məsələn, Aişə ﵂ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ vəfat etməsinə səbəb olan xəstəliyə tutulduğu zaman demişdir: "Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin qəbirlərini ibadətgaha çevirmişlər" (Səhih əl-Buxari, 435).

[4] Peyğəmbər ﷺ onlara "va aleykum (sizə olsun!)" deyə cavab vermişdir (Səhih əl-Buxari, 2935-ci və əl-Ədəbul-Mufrad, 1105-ci 1106-cı və 1110-cu hədislərə bax).

[5] Çünki bu məqamda Peyğəmbərin ﷺ etdiyi dua haqq, onlarınkı isə batil sayılır. Deməli, haqlı ikən bəddua etmək caizdir.

[6] İmam Buxari bu hədisi öz "Səhih"ində (2935 və 6030) rəvayət etmişdir.

٣١٢- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ عَيَّاشٍ، عَنِ الْحَسَنِ بْنِ عَمْرٍو، عَنْ مُحَمَّدِ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ يَزِيدَ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ الْمُؤْمِنُ بِالطَّعَّانِ، وَلاَ اللِّعَانِ، وَلاَ الْفَاحِشِ وَلاَ الْبَذِي)).

**(312)** ........ Abdullah (ibn Məsud) ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mömin[1] nə tənə vuran, nə lənət oxuyan, nə ədəbsiz, nə də təhqir edəndir."[2]

٣١٣- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ سَلْمَانَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَنْبَغِي لِذِي الْوَجْهَيْنِ أَنْ يَكُونَ أَمِينًا)).

**(313)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İkiüzlü adam[3] etibarlı şəxs hesab edilməz."[4]

٣١٤- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي الأَحْوَصِ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: أَلأَمُ أَخْلاَقِ الْمُؤْمِنِ الْفُحْشُ.

---

[1] Hədisdən aydın olur ki, bu yaramaz xislətlərə və ya bunlardan birinə yiyələnmiş möminin imanı kamil ola bilməz.

[2] Bu hədisi Tirmizi (1/357), Əhməd (1/404-405), Hakim (Mustədrək, 1/12) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (320) hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Peyğəmbər ﷺ demək istəyir ki, ikiüzlü olan kəs adamın üzünə gülsə də, arxasınca ona tənə vurur, onu gözdən salmağa çalışır. Belələri barədə Peyğəmbər ﷺ demişdir: "Bu dünyada ikiüzlü olan kimsənin Qiyamət günü oddan iki dili olacaqdır" (Sunən Əbu Davud, 2/298; Silsilətul-Əhadisis-Səhihə, 892); başqa bir hədisdə o, demişdir: "İnsanların ən pisinin bir topluma bir sifətlə, o biri topluma başqa bir sifətlə yaxınlaşan ikiüzlülər olduğunu görəcəksiniz" (Səhih əl-Buxari, 3494).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (3197) bu hədisin isnadının "həsən-səhih" olduğunu demişdir.

**(314)** ........ Abdullah (ibn Məsud) ﵁ demişdir: “Möminin ən yaramaz[1] əxlaqı kobudluq etməsidir.”[2]

**٣١٥-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ عُبَيْدٍ الْكِنْدِيُّ الْكُوفِيُّ، عَنْ أَبِيهِ قَالَ: سَمِعْتُ عَلِيَّ بْنَ أَبِي طَالِبٍ، يَقُولُ: لُعِنَ اللَّعَّانُونَ.

قَالَ مَرْوَانُ الَّذِينَ يَلْعَنُونَ النَّاسَ.

**(315)** ........ Muhəmməd ibn Ubeyd əl-Kindi atasından rəvayət edir ki, o, Əli ibn Əbu Talibin belə dediyini eşidib: “Lənət oxuyanlara lənət edildi!”

Mərvan dedi: “(Yəni) insanlara lənət oxuyanlara.”[3]

---

[1] Burada “ən yaramaz əxlaq” deyildikdə, ən çox qınanılanı nəzərdə tutulur. Burada da həmçinin, söhbət naqis imanlı mömindən gedir. Belə ki, kamil iman sahibi öz hərəkətində və danışığında əsla kobudluq və ədəbsizlik etməz.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[3] Bu hədisin isnadında keçən Muhəmməd ibn Ubeyd əl-Kufi “məchul” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

# ١٤٦- بَابُ اللِّعَانِ

## 146-cı fəsil. Lənət oxuyan kəs

٣١٦- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ قَالَ: أَخْبَرَنِي زَيْدُ بْنُ أَسْلَمَ، عَنْ أُمِّ الدَّرْدَاءِ، عَنْ أَبِي الدَّرْدَاءِ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ اللَّعَّانِينَ لاَ يَكُونُونَ يَوْمَ الْقِيَامَةِ شُهَدَاءَ، وَلاَ شُفَعَاءَ)).

**(316)** ........ Əbu Dərda ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Lənət oxuyanlar Qiyamət günü nə şahid olarlar, nə də şəfaətçi.[1]"[2]

٣١٧- حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنِ الْعَلاَءِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((لاَ يَنْبَغِي لِلصِّدِّيقِ أَنْ يَكُونَ لَعَّانًا)).

**(317)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Həmişə doğru danışan adam çox lənət oxuyan olmaz.[4]"

---

[1] Hədisdən aydın olur ki, Qiyamət günü möminlərin bir çoxu öz yaxınları üçün şəfaətçilik edəcəkləri zaman, çox lənət oxuyan kimsənin şəfaətçiliyi qəbul edilməyəcək. Habelə, peyğəmbərlərin risalələrini öz qövmlərinə təbliğ etdiklərinə şahidlik edə bilməyəcəklər (Subulus-Səlam, 4/201). Bu xüsusda İbn Qeyyim demişdir: "Tənə vuranlar və lənət oxuyanlar Qiyamət günü nə şahidlik, nə də şəfaətşilik edə biləcəklər. Belə ki, şahidlik etmək xəbər verməyə, şəfaətçilik etmək isə tələb etməyə aiddir. Odur ki, kim insanlara çox tənə vurmuşsa, yəni onların pis olduqlarına şahidlik etmişsə, habelə, insanlara çox lənət oxumuşsa, yəni onlar üçün pis bir şey tələb etmişsə, (Qiyamət günü) onlar üçün nə şahidlik edə biləcək, nə də şəfaətçilik. Çünki şahidlik etməyin təməli doğruluqdur. İnsanlara, ələlxüsus da Allahın və Rəsulullahın ﷺ dostlarına tənə vuran adam isə bu xislətə nail ola bilməz. Şəfaətçilik etməyin təməli isə rəhmət və xeyir tələb etməkdir. İnsanlara çox lənət oxuyan adam isə bu xislətə nail ola bilməz" (Səvaiqul-Mursələ, 4/1505).

[2] Bu hədisi Muslim (6777) və Əhməd (6/448) rəvayət etmişdir.

[3] Bu hədisi Muslim (6773) və Əhməd (2/337 və 366) rəvayət etmişdir.

[4] Lənət oxumağa vərdiş etmiş kimsə möminə xas olan gözəl xislətlərdən – doğru danışmaqdan, Qiyamət günü şahidlik və şəfaətçilik etməkdən məhrum olar. Çünki birisinə

٣١٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي ظَبْيَانَ، عَنْ حُذَيْفَةَ قَالَ: مَا تَلاَعَنَ قَوْمٌ قَطُّ إِلاَّ حُقَّ عَلَيْهِمُ اللَّعْنَةُ.

**(318)** ........ Huzeyfə ﷺ demişdir: "Bir-birini lənətləyən elə bir qövm yox-dur ki, onların hamısı lənətə düçar olmasın."[1]

---

lənət oxumaq, o kimsənin Allahın rəhmətindən qovulması üçün dua etmək deməkdir. Doğru danışan möminə isə belə dua etmək yaraşmaz.

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٤٧- بَابُ مَنْ لَعَنَ عَبْدَهُ فَأَعْتَقَهُ

## 147-ci fəsil. Köləsinə lənət oxuyan, sonra da onu azad edən kəs

**٣١٩-** حَدَّثَنَا أَحْمَدُ بْنُ يَعْقُوبَ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ الْمِقْدَامِ بْنِ شُرَيْحٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: أَخْبَرَتْنِي عَائِشَةُ، أَنَّ أَبَا بَكْرٍ لَعَنَ بَعْضَ رَقِيقِهِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((يَا أَبَا بَكْرٍ، اللَّعَّانِينَ وَالصِّدِّيقِينَ؟ كَلاَّ وَرَبِّ الْكَعْبَةِ))، مَرَّتَيْنِ أَوْ ثَلاثًا، فَأَعْتَقَ أَبُو بَكْرٍ يَوْمَئِذٍ بَعْضَ رَقِيقِهِ، ثُمَّ جَاءَ النَّبِيُّ ﷺ فَقَالَ: ((لا أَعُودُ)).

**(319)** ........ Aişə ﵂ rəvayət edir ki, (bir dəfə) Əbu Bəkr öz kölələrindən birini lənətlədi. Peyğəmbər ﷺ iki yaxud üç kərə dedi: "Ey Əbu Bəkr! Həm lənət edənlər, həm də doğru danışanlar?![1] Xeyr, Kəbənin Rəbbinə and olsun (ki, belə etmək sənə yaraşmaz)." Həmin gün Əbu Bəkr öz kölələrindən bir neçəsini azad etdi. Sonra da Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Mən bir də belə etməyəcəyəm."[2]

---

[1] Peyğəmbər ﷺ demək istəyir ki, mömin adamda bu iki xislət cəm ola bilməz. Əbu Bəkr ﵁ lənət oxuyan adam olmamışdır. Sadəcə olaraq bir dəfə bilmədən bunu etmiş, Peyğəmbər ﷺ onu bu əməldən çəkindirdikdə isə dərhal bu günahı yumaq məqsədilə bir neçə kölə azad etmiş və tövbə edərək bir daha bu yaramaz əmələ qayıtmayacağına söz vermişdir. Əbu Bəkrə ﵁ gəlincə, bu şəxsiyyət, peyğəmbərlər və elçilər müstəsna olmaqla, insanların ən fəzilətlisi hesab edilir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Əbu Bəkr və Ömər əvvəlki və sonrakı nəsillərdən Cənnətdə sakin olacaq yaşlılar arasında ən hörmətli kimsələr olacaqlar. Yalnız peyğəmbərlər və elçilər müstəsnadır" (Sunən ət-Tirmizi, 4/310; Sunən İbn Macə, 1/49; Silsilətul-Əhadisis-Səhihə, 824).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٤٨ – بَابُ التّلاعُنِ بِلَعْنَةِ اللَّهِ وَبِغَضَبِ اللَّهِ وَبِالنَّار

## 148-ci fəsil. Allahın lənəti ilə, Allahın qəzəbi ilə və Cəhənnəm odu ilə lənətləşmək olmaz

٣٢٠– حَدَّثَنَا مُسْلِمٌ قَالَ: حَدَّثَنَا هِشَامٌ، عَنْ قَتَادَةَ، عَنِ الْحَسَنِ، عَنْ سَمُرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((لاَ تَتَلاَعَنُوا بِلَعْنَةِ اللَّهِ، وَلاَ بِغَضَبِ اللَّهِ، وَلاَ بِالنَّارِ)).

**(320)** ........ Səmura رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Nə Allahın lənəti ilə, nə Allahın qəzəbi ilə, nə də Cəhənnəm odu ilə bir-birinizə lənət oxumayın![1]"[2]

---

[1] Burada "bir-birinizə" deyildikdə, möminlər nəzərdə tutulur. Yəni heç bir möminə yaraşmaz ki, başqa mömini Allahın lənəti ilə, Allahın qəzəbi ilə və Cəhənnəm odu ilə lənətləsin.

[2] Bu hədisi Əbu Davud (4906), Tirmizi (1/357), Hakim (1/48) və Əhməd (5/15) rəvayət etmişdir. Həsən əl-Bəsri bu hədisi Səmuradan "an (filankəsdən)" deyərək rəvayət etdiyinə görə Muhəmməd Nasirəddin əl-Albani bu hədisin isnadının "zəif" olduğunu demiş, sonra da İmam Bəğəvinin "Şərhus-Sünnə" əsərində (3/448) rəvayət etdiyi eynimətnli hədisin bu hədisi qüvvətləndirdiyini, son nəticədə bu hədisin "həsən" olduğunu bildirmişdir (Bax: Silsilətul-Əhadisis-Səhihə, 893-cü hədisin şərhi).

## ١٤٩- بَابُ لَعْنِ الْكَافِرِ

## 149-cu fəsil. Kafirə lənət oxumaq[1]

٣٢١- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: عَبْدُ اللَّهِ بْنُ محمد قال: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ، قال: حَدَّثَنَا يَزِيدُ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قِيلَ: يَا رَسُولَ اللَّهِ، ادْعُ اللَّهَ عَلَى الْمُشْرِكِينَ، قَالَ: ((إِنِّي لَمْ أُبْعَثْ لَعَّانًا، وَلَكِنْ بُعِثْتُ رَحْمَةً)).

**(321)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[2] (bir dəfə səhabələrdən biri) Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, müşriklərin əleyhinə Allaha dua et!"– dedi. Peyğəmbər ﷺ buyurdu: "Mən çox lənət oxumaq üçün göndərilməmişəm.[3] Əksinə, rəhmət olaraq göndərilmişəm."

---

[1] Kafir kimi bu dünyadan köçmüş kimsə, əlbəttə ki, Allahın lənətinə, Onun qəzəbinə və Cəhənnəm oduna düçar olacaqdır. Beləları barədə Uca Alah buyurur: **"Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölsə, onun əməlləri dünyada və axirətdə puça çıxar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar"** (əl-Bəqərə, 217); digər ayədə buyurur: **"İslamdan başqa bir din axtaran şəxsdən, o *din* heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar. İman gətirdikdən, Peyğəmbərin həqiqi *peyğəmbər* olduğuna şahid olduqdan və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər? Allah zalım adamları doğru yola yönəltməz. Onların cəzası, şübhəsiz ki, Allahın, mələklərin və bütün insanların onları lənətləməsidir. Onlar *bu lənətin içində* həmişəlik qalacaqlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir"** (Ali-İmran, 85-88).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Bu hədis dəlildir ki, bir kimsəyə tez-tez lənət oxumaq olmaz. Lakin xüsusilə qeyd etmək lazımdır ki, Peyğəmbərin ﷺ ümumi şəkildə lənətlədiklərinə ümumi olaraq lənət oxumaq, məsələn, "Allahdan qeyrisinə qurban kəsənə Allah lənət eləsin! Cinayətkara sığınacaq verənə Allah lənət eləsin! Yer üzündəki sərhədləri dəyişdirənə Allah lənət eləsin!", yaxud "Allah bədəni döyən və döydürən, qaş alan və aldıran, gözəllik üçün dişlərinin arasını yondurub Allahın yaratdığında dəyişiklik edən qadınlara lənət eləsin!", yaxud "Rüşvət verən və rüşvət alan şəxsə Allah lənət eləsin!", yaxud "sərxoşedici içkiyə,

onu düzəldənə və düzəltdirənə, onu içənə, onu daşıyana və daşıtdırana, onu satana və alana, onu süzənə və süzdürünə Allah lənət eləsin!", yaxud "səhabələri söyənə Allah lənət eləsin!", yaxud "sələm yeyənə və onu yedirdənə, bu işdə katiblik edənə və buna şahidlik edənlərə Allah lənət eləsin!" və s. demək caizdir. Həmçinin, qeyd edək ki, lazım gəldikdə müəyyən şəxsi lənətləmək olar. Yəni, əgər bu şəxs lənətə layiqdirsə, müəyyən şəxsi lənətləmək üçün qoyulmuş şərtlərin hamısı onda öz əksini tapmış və üstəlik, ona lənət etməyə əngəl olan maneələrin hamısı aradan qalxmışdırsa, beləsini lənətləmək olar. Məsələn, əgər adam bilərəkdən haram iş görmüş, bu haramı halal saymış, heç vaxt bu günaha görə tövbə etməmiş və kafir olaraq ölmüşdürsə, beləsini lənətləmək olar.

## ١٥٠- بَابُ النَّمَّامِ

## 150-ci fəsil. Sözgəzdirən[1]

**٣٢٢-** حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مَنْصُورٍ، عَنْ إِبْرَاهِيمَ، عَنْ هَمَّامٍ: كُنَّا مَعَ حُذَيْفَةَ، فَقِيلَ لَهُ: إِنَّ رَجُلا يَرْفَعُ الْحَدِيثَ إِلَى عُثْمَانَ، فَقَالَ حُذَيْفَةُ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((لا يَدْخُلُ الْجَنَّةَ قَتَّاتٌ)).

**(322)** ........ Həmmam demişdir:[2] "Biz Huzeyfə[3] ilə bir yerdə ikən *bir nəfər* ona dedi: "Bir nəfər Osmana[4] söz aparır." Huzeyfə dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Sözgəzdirən adam Cənnətə girməz![5]"

---

[1] Burada söz gəzdirmək deyildikdə, camaat arasında fəsad törətmək məqsədi ilə birinin sözünü digərinə çatdırmaq nəzərdə tutulur (Dibac alə Muslim, 1/118). Bunu edən adama sözgəzdirən, sözbaz, dedi-qoduçu, qeybətçi, xəbərçi, şayiə yayan, söz şişirdən də deyilir. Belələri barədə Yəhya ibn Əbu Kəsir əl-Yəmami demişdir: "Sözgəzdirən adam bir saat ərzində, sehrbazın bir ildə törətdiyi fəsaddan artıq fəsad törədir" (Fəthul-Məcid, 1/278). Bu fəsadçının fəsadının qabağını almaq üçün isə belələrini camaat arasında ifşa etmək, onun yaydığı şayiələrə inanmamaq, bu şayiələri yaymağı ona qadağan etmək və nəhayət, bu günahı işlədən kimsənin qəbirdə və Cəhənnəmdə şiddətli əzaba düçar olacağını ona bildirmək gərəkdir. Xüsusilə qeyd etmək lazımdır ki, başqalarına fayda vermək və ya islah etmək məqsədi ilə söz gəzdirmək, əksinə, bəyənilən əməllərdəndir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mənim sözümü eşidib əzbərləyən və onu eşitdiyi kimi başqalarına təbliğ edən kimsəyə Allah rövnəq verər (dünyada və Axirətdə onu üzləri parlayan kimsələrdən, səadətə qovuşanlardan, uğur qazananlardan edər)" (Musnəd İmam Əhməd, 5/183; Silsilətul-Əhadisis-Səhihə, 1/689).

[2] Bu hədisi Buxari (7/86), Muslim (1/71), Əbu Davud (2/297), Tirmizi (1/364) və Əhməd (5/382, 389, 392, 402, və 404) rəvayət etmişdir.

[3] Söhbət məşhur səhabə Huzeyfə ibn Yəmandan ﷺ gedir.

[4] Burada üçüncü xəlifə Osman ibn Əffan ﷺ qəsd edilir.

[5] Bu fəsildə varid olmuş hədislərə nəzər salsaq görərik ki, sözgəzdirən adama ərəbcə "nəmmam" və ya "qəttat" deyilir. İslam alimləri bu iki kəlmənin məna baxımından fərqli olduğunu söyləmişlər. Xəttabi demişdir: "Bir toplumun yanında oturub onların danışdıqlarına qulaq asan və eşitdiklərini orada-burada yayan kimsəyə nəmmam deyilir. Bir

**٣٢٣-** حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ ابْنُ عُثْمَانَ بْنِ خُثَيْمٍ، عَنْ شَهْرِ بْنِ حَوْشَبٍ، عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ قَالَتْ: قَالَ النَّبِيُّ ﷺ: ((أَلاَ أُخْبِرُكُمْ بِخِيَارِكُمْ؟)) قَالُوا: بَلَى، قَالَ: ((الَّذِينَ إِذَا رُؤُوا ذُكِرَ اللَّهُ، أَفَلاَ أُخْبِرُكُمْ بِشِرَارِكُمْ؟)) قَالُوا: بَلَى، قَالَ: ((الْمَشَّاؤُونَ بِالنَّمِيمَةِ، الْمُفْسِدُونَ بَيْنَ الأَحِبَّةِ، الْبَاغُونَ الْبُرَآءَ الْعَنَتَ)).

**(323)** ........ Əsma bint Yezid رضي الله عنها rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ (səhabələrinə): "Sizə ən xeyirliniz barədə xəbər verimmi?"– deyə buyurdu. (Səhabələr): "Bəli!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: "O kəslər ki, onları görəndə Allah yada düşər![1] Sizə ən pisiniz barədə xəbər verimmi?" Onlar: "Bəli!"– deyə cavab verdikdə, o, buyurdu: "Söz gəzdirənlər, dostların arasını vuranlar və təmiz adamları şərə salanlardır."[2]

---

toplumun xəbəri olmadan kənardan onlara qulaq asan (casusluq edən) və onlardan eşitdiyini başqalarına çatdıran kimsəyə qəttat deyilir" (Umdətul-Qari, 6056-cı hədisin şərhi). Bunların hər ikisi böyük günah hesab edilsə də, qəttatın günahı daha böyük, şəri daha çoxdur. Onu da qeyd edək ki, bu hədisdə "Cənnətə girməz" deyildikdə, əbədiyyət qəsd edilmir. Yəni nəmmamlıq edən adam əbədi olaraq Cəhənnəmdə qalmayacaqdır. Yalnız bunun halal olduğuna etiqad edən kimsələr istisnadır. Belə ki, Allahın və Onun Rəsulunun ﷺ haram buyurduğunu halal hesab edən hər kəs kafir sayılır və əbədi olaraq Cəhənnəmə giriftar olur.

[1] Belələrinin üzündəki nuru və heybəti, habelə, onların gözəl davranışını və rəftarını gördükdə ancaq xeyirxah işlər yada düşür. Onlar barədə Uca Allah buyurur: **"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər, namaz qılar və Bizim onlara verdiyimiz ruzidən *Allah yolunda* xərcləyərlər. Məhz onlar həqiqi möminlərdir. Onlar üçün Rəbbi yanında dərəcələr, bağışlanma və bolluca ruzi vardır"** (əl-Ənfal, 2-4); başqa bir ayədə O, buyurur: **"Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir"** (əl-Fəth, 29).

[2] Bu hədisi Əbu Nueym (Əxbaru-Əsbəhan, 1/231) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (1646) bu hədisin "həsən" olduğunu demişdir.

## ١٥١- بَابُ مَنْ سَمِعَ بِفَاحِشَةٍ فَأَفْشَاهَا

## 151-ci fəsil. Nalayiq söz eşitdikdən sonra onu yayan adam[1]

**٣٢٤-** حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا وَهْبُ بْنُ جَرِيرٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: سَمِعْتُ يَحْيَى بْنَ أَيُّوبَ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ مَرْثَدِ بْنِ عَبْدِ اللَّهِ، عَنْ حَسَّانَ بْنِ كُرَيْبٍ، عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: الْقَائِلُ الْفَاحِشَةَ، وَالَّذِي يُشِيعُ بِهَا، فِي الإِثْمِ سَوَاءٌ.

**(324)** ........ Əli ibn Əbu Talib ﷺ demişdir: "Nalayiq söz[2] danışanla onu (camaat arasında) yayan kimsə eyni dərəcədə günah qazanırlar."[3]

**٣٢٥-** حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي خَالِدٍ، عَنْ شُبَيْلِ بْنِ عَوْفٍ قَالَ: كَانَ يُقَالُ: مَنْ سَمِعَ بِفَاحِشَةٍ فَأَفْشَاهَا، فَهُوَ فِيهَا كَالَّذِي أَبْدَاهَا.

**(325)** ........ Şubeyl ibn Auf demişdir: "Bir vaxt deyərdilər:[4] "Nalayiq söz eşidib onu yayan kimsə, ilk əvvəl onu deyən kəs kimidir.[5]"[6]

---

[1] Belələri barədə Peyğəmbər ﷺ demişdir: "Hər eşitdiyini rəvayət etməsi kişinin yalançı olması üçün kifayətdir" (Səhih Muslim, 7).

[2] Nalayiq sözlərin ən pisi isə Peyğəmbərin ﷺ adından danışılan yalanlardır. Peyğəmbər ﷺ demişdir: "Axirətə yaxın (bir çox) gopçular və yalançılar meydana gələcək. Onlar sizə nə sizin, nə də atalarınızın eşitmədiyi (uydurma) hədisləri danışacaqlar. Onlardan uzaq olun, uzaq! Nəbadə-nəbadə sizi (haqq yoldan) sapdırıb fitnəyə məruz qoysunlar" (Səhih Muslim, 16); Abdullah (ibn Məsud) ﷺ demişdir: "Həqiqətən şeytan insan qiyafəsinə girib (hər hansı) bir toplumun yanına gəlir və onlara yalan hədislər danışır. Beləliklə də, onlar firqələrə bölünürlər. Sonra onlardan biri deyir: "Üzdən tanıdığım, lakin adını bilmədiyim bir adamın (filan) hədisi danışdığını eşitmişəm" (Səhih Muslim, 17).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[4] Yəni bu ümmətin sələfləri – İslam alimləri belə deyərlərmiş.

[5] Burada Şubeyl həmin adamın eyni günah qazandığını xəbər verir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**٣٢٦-** حَدَّثَنَا مُحَمَّدٍ قَالَ حَدَّثَنَا قَبِيصَةُ، قَالَ: حَدَّثَنَا حَجَّاجٌ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنْ عَطَاءٍ، أَنَّهُ كَانَ يَرَى النَّكَالَ عَلَى مَنْ أَشَاعَ الزِّنَا، يَقُولُ: أَشَاعَ الْفَاحِشَةَ.

**(326)** ........ İbn Cureyc rəvayət edir ki, Əta[1] zinanı[2] yayan adamın cəzalandırılmasını caiz hesab edər və deyərdi: "Bu adam fahişəliyi yaydı.[3]"[4]

---

[1] Yəni, ibn Əbu Rəbah.

[2] Zina etmək: qeyri-qanuni cinsi əlaqədə olmaq.

[3] Yəni zinanı təbliğ edən adam özü zina etməsə də, onun təbliğatına uyub bu günaha batmış zinakarların günahı qədər günah qazanır. Əta ibn Əbu Rəbah belələrinin cəzalandırılmasını məqsədəuyğun hesab etmişdir. Odur ki, zinakarlığı təbliğ edənlər islah olunmalı, əks halda isə cəzalandırılmalıdırlar ki, cəmiyyət pozulmasın. Allaha və Onun Rəsuluna ﷺ asi olub bilərəkdən haram işləri təbliğ etməklə yer üzündə fəsad törədənlər barədə Uca Allah buyurur: **"Allaha və Onun Rəsuluna qarşı müharibə edənlərin və yer üzündə fitnə-fəsad törətməyə səy göstərənlərin cəzası ancaq öldürülmək, və ya çarmıxa çəkilmək, ya əllərini və ayaqlarını çarpazvari kəsmək və yaxud da yaşadıqları yerdən sürgün edilməkdir. Bu, onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir"** (əl-Maidə, 33).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٥٢– بَابُ الْعَيَّابِ

## 152-ci fəsil. Eyib tutan adam

٣٢٧– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عِمْرَانَ بْنِ ظَبْيَانَ، عَنْ أَبِي يَحْيَى حَكِيمِ بْنِ سَعْدٍ قَالَ: سَمِعْتُ عَلِيًّا يَقُولُ: لاَ تَكُونُوا عُجُلًا مَذَايِيعَ بُذُرًا، فَإِنْ مِنْ وَرَائِكُمْ بَلاَءً مُبَرِّحًا مُكْلِحًا، وَأُمُورًا مُتَمَاحِلَةً رُدُحًا.

**(327)** ........ Həkim ibn Səd rəvayət edir ki, mən Əli (ibn Əbu Talibin ﷺ) belə dediyini eşitmişəm: "Tələskən,[1] şayiələr yayan[2] və sirr saxlamayan kimsələrdən olmayın! Yoxsa başınıza şiddətli, məyusedici bir bəla gələr və uzun sürən, böyük bir fitnəyə məruz qalarsınız."[3]

---

[1] Xeysəmə rəvayət edir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "*Vaxt gələcək* çoxlu fəsadlar və qarma-qarışıq işlər baş verəcək. Belə olduğu təqdirdə sən tələsmə! Beləliklə, xeyirli işə tabe olmaq sənin üçün şər əməlin başında durmaqdan daha xeyirli olar" (Musənnəf İbn Əbu Şeybə, 7/456).

[2] Uca Allah buyurur: **"Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki, bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, *hamınız* şeytana uyardınız"** (ən-Nisa, 83). Abdur-Rəhman əs-Sədi bu ayəni izah edərkən demişdir: "Bununla Uca Allah Öz bəndələrinə belə nalayiq işlərdən uzaq durmağı öyrədir və bildirmək istəyir ki, onlara möminlərin sevincinə səbəb olacaq bir müjdə və ya onları kədərləndirəcək qorxulu bir xəbər *və başqa bu* kimi mühüm məsələlər və hamının xeyrinə olan işlər barədə xəbər verildikdə, dilini dinc saxlayıb, bu xəbəri yaymağa tələsməməli, əksinə, bunu Allahın Rəsuluna ﷺ və özlərindən olan nüfuz sahiblərinə, habelə, yaxşını yamandan ayırd edə bilən alimlərə və düzgün qərar verən ağıl sahiblərinə bildirməlidirlər. Və əgər onlar bu xəbərin yayılmasında möminlər üçün xeyir və sevinc, habelə, onları düşməndən qoruyan bir vasitə olduğunu məsləhət bilsələr, bu xəbəri yayar, əks təqdirdə isə, bunu yaymaqdan çəkinərlər. Elə buna görə də Uca Allah: "**içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər**"– deyir. Yəni düzgün qərar verərdilər" (Təfsir əs-Sədi).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**٣٢٨-** حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ بْنُ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي يَحْيَى، عَنْ مُجَاهِدٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: إِذَا أَرَدْتَ أَنْ تَذْكُرَ عُيُوبَ صَاحِبِكَ، فَاذْكُرْ عُيُوبَ نَفْسِكَ.

**(328)** ........ İbn Abbas ﷺ demişdir: "Dostunun eyiblərini yada salmaq istəsən, öz eyiblərini xatırla.[1]"[2]

---

[1] Abdullah ibn Muhəmməd əl-Kəvva rəvayət edir ki, (bir dəfə) Rəbi ibn Xuseymə dedilər: "Biz sənin kiməsə eyib tutduğunu və kimisə pislədiyini görməmişik?!" O, dedi: "Mən hələ özümdən tam razı deyiləm ki, başqalarının eyibi ilə məşğul olam" (Hilyətul-Ovliya, 2/110); Yəhya ibn Muaz ər-Razi demişdir: "Üç şeylə möminə yaxşılıq etməyə çalış: ona fayda verə bilmirsənsə, heç olmasa, zərər vermə; onu sevindirə bilmirsənsə, heç olmasa, kədərləndirmə; onu tərifləmirsənsə, heç olmasa, pisləmə" (Zuhd vər-Rəqaiq, 1/114). Lakin qeyd etmək lazımdır ki, bəzən, məsləhət olduqda bunu etmək caizdir. Necə ki, mühəddislər yalançı, yaxud müdəllis və ya başqa bu kimi zəif raviləri ifşa etmiş, məqsədləri də kimisə alçaltmaq və biabır etmək yox, Peyğəmbərin ﷺ Sünnəsini qorumaq olmuşdur. Bəziləri də bu mövzuda ayrıca kitablar yazmışlar. Bələlərini ifşa etməyin caiz olduğuna dəlalət edən hədislərin birində Aişə ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ yanında ikən bir kişi onun yanına daxil olmaq üçün izin istədi. Rəsulullah ﷺ *onun haqqında*: "Əşirətin oğlu və ya aşirətin qardaşı necə də pis adamdır!"– dedi, sonra da onun içəri girməsinə izin verdi və *o, içəri daxil olduqda* onunla nəzakətlə danışdı. O çıxıb getdikdən sonra mən dedim: "Ya Rəsulullah, sən *əvvəlcə* belə dedin, sonra da onunla nəzakətlə danışdın?!" Rəsulullah ﷺ dedi: "Ey Aişə, insanların ən pisi o kəslərdir ki, onların yaramaz əxlaqına görə insanlar onları tərk edirlər" (Səhih əl-Buxari 5780, Səhih Muslim 2591; Sunən ət-Tirmizi, 1997). Burada Rəsulullah ﷺ "Filan qəbilədən olan filankəs nə pis adamdır"– deməklə, onun yaramaz adam olduğunu bildirmək istəmişdir ki, bu adamı tanımayanlar onu tanısınlar (Tohfətul-Əhvəzi). İmam Nəvəvi bu hədisi izah edərkən demişdir: "Rəsulullahın ﷺ onunla nəzakətlə danışmasının qəsdi o kişinin qəlbini ələ almaq və özünün gözəl əxlaqını ona göstərmək idi. Bu da fasiqin qeybətini etməyin caiz olduğuna dəlalət edir. Lakin bu qeybət açıq-aşkar günah işlər görən və ya bidət edənlərə aid edilir, yəni onların qeybətini etmək caizdir (Şərh ən-Nəvəvi).

[2] Bu hədisin isnadında keçən Əbu Yəhya əl-Qəttat "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

٣٢٩- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا أَبُو مَوْدُودٍ، عَنْ زَيْدٍ مَوْلَى قَيْسٍ الْحَذَّاءِ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، فِي قَوْلِهِ عَزَّ وَجَلَّ: ﴿وَلاَ تَلْمِزُوا أَنْفُسَكُمْ﴾، قَالَ: لاَ يَطْعَنْ بَعْضُكُمْ عَلَى بَعْضٍ.

**(329)** ........ İbn Abbas ﵄ Allahın ﷻ: **"Özünüzü məzəmmət etməyin"**[1] ayəsini izah edib demişdir:[2] "Biriniz digərinə tənə vurmasın![3]"

٣٣٠- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: أَخْبَرَنَا دَاوُدُ، عَنْ عَامِرٍ قَالَ: حَدَّثَنِي أَبُو جُبَيْرَةَ بْنُ الضَّحَّاكِ قَالَ: فِينَا نَزَلَتْ، فِي بَنِي سَلِمَةَ: ﴿وَلاَ تَنَابَزُوا بِالأَلْقَابِ﴾، قَالَ: قَدِمَ عَلَيْنَا رَسُولُ اللَّهِ ﷺ وَلَيْسَ مِنَّا رَجُلٌ إِلاَّ لَهُ اسْمَانِ، فَجَعَلَ النَّبِيُّ ﷺ يَقُولُ: يَا فُلاَنُ، فَيَقُولُونَ: يَا رَسُولَ اللَّهِ، إِنَّهُ يَغْضَبُ مِنْهُ.

**(330)** ........ Əbu Cubeyra ibn Dahhak[4] ﵁ demişdir: **"Bir-birinizi pis[5] ləqəblərlə çağırmayın"[6]** ayəsi bizim – Sələmə oğulları barəsində nazil ol-

---

[1] "əl-Hucurat" surəsi, 11.

[2] Bu hədisin isnadında keçən Əbu Movdud və Qeys əl-Həzzanın mövlası Zeyd – hər ikisi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Yəni, mömin möminin gizli işini, nöqsanını, eyibini və s. xoşagəlməz cəhətlərini üzünə deməməlidir. Bu ayədə Uca Allah möminlərə "özünüzü"– deyə xitab edir. Bundan da bizə möminlərin bir bədən kimi olduqları aydın olur. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda bir bədən kimi olduğunu görürsən. Belə ki, *bədənin* bir əzasına xəstəlik üz verdikdə bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir" (Səhih əl-Buxari, 6011). Bu ayə və hədisi dərk edən mömin öz mömin qardaşına əsla məzəmmət etməz. Lakin Allah rizasını qazanmaq və islah etmək məqsədi ilə möminin möminə nəsihət etməsi istisnadır və əksinə, bəyənilən əməllərdəndir.

[4] Əbu Cubeyra ibn Dəhhak ibn Xəlifə əl-Ənsari ﵁ Peyğəmbər ﷺ səhabəsi və Sabit ibn Dəhhakın ﵁ qardaşıdır.

[5] Ayədən aydın olur ki, bir kimsəni onun xoşuna gəldiyi ləqəblə çağırmaq olar.

[6] əl-Hucurat, 11.

muşdur. Rəsulullah ﷺ bizim yanımıza[1] hicrət etdiyi zaman bizlərdən hər birimizin iki adı var idi.[2] Peyğəmbər ﷺ: "Ey filankəs!"– deyə çağırdıqda, onlar deyərdilər: "Ya Rəsulullah, onun buna acığı tutur.[3]"[4]

٣٣١– حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: أخبرنا الْفَضْلُ بْنُ مُقَاتِلٍ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ أَبِي حَكِيمٍ، عَنِ الْحَكَمِ قَالَ: سَمِعْتُ عِكْرِمَةَ يَقُولُ: لاَ أَدْرِي أَيُّهُمَا جَعَلَ لِصَاحِبِهِ طَعَامًا، ابْنُ عَبَّاسٍ أَوِ ابْنُ عَمِّهِ، فَبَيْنَا الْجَارِيَةُ تَعْمَلُ بَيْنَ أَيْدِيهِمْ، إِذْ قَالَ أَحَدُهُمْ لَهَا: يَا زَانِيَةُ، فَقَالَ: مَهْ، إِنْ لَمْ تَحُدَّكَ فِي الدُّنْيَا تَحُدُّكَ فِي الْآخِرَةِ، قَالَ: أَفَرَأَيْتَ إِنْ كَانَ كَذَاكَ؟ قَالَ: إِنَّ اللَّهَ لاَ يُحِبُّ الْفَاحِشَ الْمُتَفَحِّشَ.

ابْنُ عَبَّاسٍ الَّذِي قَالَ: إِنَّ اللَّهَ لاَ يُحِبُّ الْفَاحِشَ الْمُتَفَحِّشَ.

**(331)** ........ Həkəm rəvayət edir ki, mən İkrimənin belə dediyini eşitdim: "Bilmirəm, ya İbn Abbas, ya da onun əmisi oğlu biri digərini yeməyə dəvət etdi. Kəniz onlara xidmət edərkən, onlardan biri[5] ona: "Ey zinakar!"– dedi. (İbn Abbas ona) dedi: "Sus! O, bu dünyada səndən qisas ala bilməsə də, Axirətdə səndən mütləq qisas alacaqdır."[6] Adam dedi: "Əgər dediyim doğrudursa, onda necə?!" O dedi: "Allah ədəbsiz və kobud olanı sevmir."

---

[1] Burada səhabə Peyğəmbərin ﷺ Mədinəyə hicrət etdiyini qəsd edir.

[2] Bəzi rəvayətlərdə "iki və ya üç adı var idi"– deyilir.

[3] İbn Macənin "Sunən" əsərində (3741) nəql etdiyi rəvayətdə: "və bu ayə nazil oldu" sözü əlavə edilmişdir.

[4] Bu hədisi Əbu Davud (4962), İbn Macə (3741), Əhməd (4/260) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[5] Burada ərəbcə ( أَحَدُهُمْ ) "onlardan biri" deyilir. Yəni məclisdə iştirak edənlərdən biri.

[6] İbn Abbasın رضي الله عنهما bu sözündən aydın olur ki, kiməsə "ey zinakar"– demək haramdır. Bundan o da aydın olur ki, bir kimsəni dəlil-sübut olmadan zinada ittiham edən adamdan qisas alınmalıdır. Uca Allah buyurur: **"İsmətli qadınları *zinada* günahlandırıb, sonra dörd şahid gətirməyən kəslərə səksən çubuq vurun və onların şahidliyini heç vaxt qəbul etməyin. Onlar əsl fasiqlərdir"** (ən-Nur, 4); digər ayədə O, buyurur: ***"Murdar əməldən*** **xəbəri olmayan ismətli mömin qadınları *zinada* günahlandıranlar dünyada və axirətdə lənətə düçar olarlar. Onları böyük bir əzab gözləyir – o gün ki, dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir. O gün Allah**

(Hədisin ravilərindən biri) demişdir: "Allah ədəbsiz və kobud olanı sevmir[1]" sözünü deyən adam İbn Abbasdır."

٣٣٢- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَابِقٍ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنِ الأَعْمَشِ، عَنْ إِبْرَاهِيمَ، عَنْ عَلْقَمَةَ، عَنْ عَبْدِ اللهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ الْمُؤْمِنُ بِالطَّعَّانِ، وَلاَ اللِّعَانِ، وَلاَ الْفَاحِشِ، وَلاَ الْبَذِي)).

**(332)** ........ Abdullah (ibn Məsud) ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mömin nə tənə vuran, nə lənət oxuyan, nə ədəbsiz, nə də təhqir edən deyil."[2]

---

**onlara özlərinə layiq cəzanı tam verəcək və onlar Allahın Aydın Haqq olduğunu biləcəklər"** (ən-Nur, 23-25). Kənizi zinada ittiham etməyə gəlincə, bu xüsusda varid olmuş hədisdə Əbu Hureyrə ﵁ demişdir: "Mən Əbul-Qasımın ﷺ belə dediyini eşitmişəm: "Kim zinadan uzaq olan bir köləsini *zinada* ittiham edərsə, Qiyamət günü onun özünə şallaq vurular. Yalnız sözündə həqiqət olan kimsələrdən başqa" (Səhih əl-Buxari, 6858).

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir. İbn Abbasın ﵄: "Allah ədəbsiz və kobud olanı sevmir" sözü isə əslində Peyğəmbərin ﷺ sözüdür (Bu kitabda nəql edilmiş 464, 487 və 755 nömrəli hədislərə bax).

[2] 312-ci hədisə və onun qeydlərinə bax.

## ١٥٣- بَابُ مَا جَاءَ فِي التَّمَادُحِ

## 153-cü fəsil. Bir-birini tərifləmək barədə varid olanlar

٣٣٣- حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ خَالِدٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي بَكْرَةَ، عَنْ أَبِيهِ، أَنَّ رَجُلًا ذُكِرَ عِنْدَ النَّبِيِّ ﷺ فَأَثْنَى عَلَيْهِ رَجُلٌ خَيْرًا، فَقَالَ النَّبِيُّ ﷺ: ((وَيْحَكَ قَطَعْتَ عُنُقَ صَاحِبِكَ))، يَقُولُهُ مِرَارًا، ((إِنْ كَانَ أَحَدُكُمْ مَادِحًا لَا مَحَالَةَ فَلْيَقُلْ: أَحْسَبُ كَذَا وَكَذَا، إِنْ كَانَ يَرَى أَنَّهُ كَذَلِكَ، وَحَسِيبُهُ اللَّهُ، وَلَا يُزَكِّي عَلَى اللَّهِ أَحَدًا)).

**(333)** ........ Əbu Bəkrə ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbərin ﷺ yanında bir nəfər barədə söhbət açıldı və (məclisdəkilərdən) biri onu gözəl sözlərlə təriflədi. Peyğəmbər ﷺ də (ona): "Vay sənin halına! Sən qardaşının boynunu qırdın[1]"– dedi və bunu bir neçə dəfə təkrar etdi. (Sonra buyurdu): "Sizdən biriniz öz qardaşını tərifləməyi lazım bilərsə, onun tərifə layiq olduğunu güman edərsə,[2] qoy desin: "(Filankəsi) filan cür adam hesab

---

[1] Yəni "onu həlak etdin." Çünki çox vaxt adam öz ünvanına deyilən tərifləri eşidəndə təkəbbür onu boğur, özündən razı qalır, azğınlaşır və beləliklə də, məhv olur. Hədisdən aydın olur ki, burada söhbət üzə tərif etməkdən gedir. Deməli, qaibi tərif etmək, onun ünvanına yaxşı sözlər demək caizdir. Onu da qeyd etmək lazımdır ki, imanında və təqvasında möhkəm olan adamı tərif etmək olar. Bu xüsusda varid olmuş hədisdə İbn Abbas ﷺ demişdir: "Peyğəmbər ﷺ vəfatı ilə nəticələnən xəstəliyə tutulduğu zaman başı sarıqlı halda *məscidə* gəlib minbərdə oturdu. Allaha həmd-sənalar deyib, mədh etdikdən sonra buyurdu: "Həqiqətən, insanlar arasında canını və malını *fəda etməkdə* mənə ən sadiq olanı Əbu Bəkr ibn Əbu Quhafədir. Əgər mən insanlar arasında özümə xəlil (ən əziz dost) seçməli olsaydım, hökmən Əbu Bəkri seçərdim. Lakin İslamda qardaşlıq *bundan* əfzəldir. *Elə isə,* bu məsciddə Əbu Bəkrin qapısından başqa *məscidə açılan* bütün qapıları bağlayın!" (Səhih əl-Buxari, 467); digər bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ Öməri ﷺ tərif edib demişdir: "Ey Xəttabın oğlu! Canım Əlində olan *Allaha* and olsun ki, şeytan hər dəfə yolda səninlə qarşı-qarşıya gəldikdə, yolunu dəyişib başqa yolla gedir" (Səhih əl-Buxari, 6085).

[2] Bu, dəlildir ki, lazım gəldikdə adamın yaxşı xüsusiyyətlərini sadalayıb onu tərif etmək olar. Bir şərtlə ki, sadalanan vəsflər tərif edilən adamda olmuş olsun. Yəni adamı ifrat dərəcədə mədh etmək olmaz.

edirəm. (Əslində) onun necə adam olduğunu isə Allah bilir. Və mən heç kəsi Allah yanında təmizə çıxartmıram.[1]"[2]

٣٣٤- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ زَكَرِيَّا قَالَ: حَدَّثَنِي بُرَيْدُ بْنُ عَبْدِ اللَّهِ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: سَمِعَ النَّبِيُّ ﷺ رَجُلًا يُثْنِي عَلَى رَجُلٍ وَيُطْرِيهِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((أَهْلَكْتُمْ، أَوْ قَطَعْتُمْ ظَهْرَ الرَّجُلِ)).

**(334)** ........ Əbu Musa ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ bir nəfərin başqa birisini təriflədiyini və (tərifdə) həddi aşdığını eşidib dedi: "Kişini məhv etdiniz yaxud onun belini qırdınız."[3]

٣٣٥- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عِمْرَانَ بْنِ مُسْلِمٍ، عَنْ إِبْرَاهِيمَ التَّيْمِيِّ، عَنْ أَبِيهِ قَالَ: كُنَّا جُلُوسًا عِنْدَ عُمَرَ، فَأَثْنَى رَجُلٌ عَلَى رَجُلٍ فِي وَجْهِهِ، فَقَالَ: عَقَرْتَ الرَّجُلَ، عَقَرَكَ اللَّهُ.

**(335)** ........ İbrahim ət-Teyminin atası demişdir: "*Bir dəfə* biz Ömərin yanında ikən bir adam başqa birisini üzünə tərifl
ədi. Ömər dedi: "Sən onun diz vətərini kəsdin, Allah sənin vətərini kəssin![4]"[5]

٣٣٦- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ السَّلَامِ قَالَ: حَدَّثَنَا حَفْصٌ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ أَبِيهِ قَالَ: سَمِعْتُ عُمَرَ يَقُولُ: الْمَدْحُ ذَبْحٌ، قَالَ مُحَمَّدٌ: يَعْنِي إِذَا قَبِلَهَا.

---

[1] Bu xüsusda, Uca Allah buyurur: "**Özünüzü təmizə çıxartmayın! Çünki Allah kimin *Allahdan* qorxduğunu yaxşı bilir**" (ən-Nəcm, 32).

[2] Bu hədisi Buxari (2662) Muslim (7693) və Əhməd (5/41) rəvayət etmişdir.

[3] Bu hədisi Buxari (2663), Muslim (5321) və Əhməd (4/412) rəvayət etmişdir.

[4] Burada Ömər ibn Xattab ﷺ bu tərifin mədh edilən o adamı məhv edəcəyini, onu ibadətdən, elmdən və başqa bu kimi yaxşı işlər görməkdən uzaqlaşdıracağını təxmin etdiyinə görə bu cür tərif etməyi qadağan edir.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

**(336)** ........ Zeyd ibn Əsləmin atası rəvayət edir ki, mən Ömərin belə dediyini eşitdim: "Tərif etmək baş kəsməkdir![1]"[2]

Muhəmməd dedi: "Yəni əgər bunu qəbul etsə.[3]"

---

[1] Yəni tərif olunan adamın başının kəsilməsi deməkdir. Qeyd edək ki, Ömər ibn Xattabın ﷺ söylədiyi bu ifadə, əslində Peyğəmbərin ﷺ sözüdür. Muaviyənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir-birinizi tərif etməkdən çəkinin! Çünki bu, baş kəsməkdir" (Sunən İbn Macə, 2407; Musnəd İmam Əhməd, 4/92, 93, 98 və 99; Silsilətul-Əhadisis-Səhihə, 1196 və 1284).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Bu Muhəmməd Buxarinin şeyxi Muhəmməd ibn Səllamdır. Buxarinin şeyxinin bu sözündən aydın olur ki, tərif olunan adam bundan razı qalarsa, bu tərif onu məhv edər. Bu xüsusda, Uca Allah buyurur: **"Törətdikləri əməllərdən fərəhlənən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlara acılı-ağrılı bir əzab hazırlanmışdır"** (Ali-İmran, 188). Bunu qəbul etməyən kimsə isə, əlbəttə ki, salamat qalar, hətta, bu onun üçün bir müjdə olar. Bu xüsusda varid olmuş hədisdə Əbu Zərr ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Rəsulullahdan ﷺ soruşdular: "*Ya Rəsulullah!* Söylə görək, əgər insanlar bir adamı etdiyi yaxşı əməllərinə görə tərifləsələr, *bu tərif onu həlak edərmi?*" Rəsulullah ﷺ buyurdu: "Bu, qabaqcadan möminə verilən bir müjdədir" (Səhih Muslim, 6891); digər hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "*Bir dəfə* cənazə aparılarkən biz onu xoş sözlərlə yad edib təriflədik. Peyğəmbər ﷺ: "Vacib oldu!"– deyə buyurdu. Sonra başqa bir cənazə aparılarkən biz onu xoşagəlməz sözlərlə yad edib pislədik. Peyğəmbər ﷺ *yenə*: "Vacib oldu!"– deyə buyurdu. Ömər ibn Xattab: "Nə vacib oldu?"– deyə soruşdu. Peyğəmbər ﷺ buyurdu: "Bunu xoş sözlərlə yad etdiniz, Cənnət ona vacib oldu. Bunu da xoşagəlməz sözlərlə yad etdiniz, Cəhənnəm ona vacib oldu. Siz Allahın yer üzündəki şahidlərisiniz!" (Səhih əl-Buxari, 1367).

## ١٥٤- بَابُ مَنْ أَثْنَى عَلَى صَاحِبِهِ إِنْ كَانَ آمِنًا بِهِ

## 154-cü fəsil. Dostundan arxayın olub onu tərifləyən kəs

٣٣٧- حَدَّثنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي حَازِمٍ، عَنْ سُهَيْلٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((نِعْمَ الرَّجُلُ أَبُو بَكْرٍ، نِعْمَ الرَّجُلُ عُمَرُ، نِعْمَ الرَّجُلُ أَبُو عُبَيْدَةَ، نِعْمَ الرَّجُلُ أُسَيْدُ بْنُ حُضَيْرٍ، نِعْمَ الرَّجُلُ ثَابِتُ بْنُ قَيْسِ بْنِ شَمَّاسٍ، نِعْمَ الرَّجُلُ مُعَاذُ بْنُ عَمْرِو بْنِ الْجَمُوحِ، نِعْمَ الرَّجُلُ مُعَاذُ بْنُ جَبَلٍ))، قَالَ: ((وَبِئْسَ الرَّجُلُ فُلاَنٌ، وَبِئْسَ الرَّجُلُ فُلاَنٌ)) حَتَّى عَدَّ سَبْعَةً.

**(337)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ demişdir: “Nə gözəl kişidir Əbu Bəkr. Nə gözəl kişidir Ömər. Nə gözəl kişidir Əbu Ubeydə. Nə gözəl kişidir Useyd ibn Hudeyr. Nə gözəl kişidir Sabit ibn Qeys ibn Şəmmas. Nə gözəl kişidir Muaz ibn Amr ibn əl-Cəmuh. Nə gözəl kişidir Muaz ibn Cəbəl.” Sonra da: “Nə pis kişidir filankəs. Nə pis kişidir filankəs”– deyərək yeddi nəfərin adını çəkdi.[2]”

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[2] Muhəmməd ibn Saleh ibn Useymin demişdir: “Əvvəlki fəsildəki hədislərlə bu fəsildəki hədislərə nəzər saldıqda meydana belə bir sual çıxır: “Adam öz qardaşını tərifləyə bilər ya yox?” Bu sualın cavabı belədir ki: adamın başqa birisini tərifləməyinin ayrı-ayrı halları vardır.

Birincisi, əgər bu tərif, tərif olunan adamı xeyirxah işlər görməyə və gözəl əxlaq nümayiş etdirməyə təşviq edərsə, onu tərifləmək olar. Sən bir adamın xeyirxah işlər gördüyünü, kimsəsizlərə yiyəlik etdiyini, ehtiyaclılara əl tutduğunu və s. yaxşılıqlar etdiyini gördüyün zaman onu həvəsləndirmək və davamlı olaraq yaxşı işlər görməyə təhrik etmək məqsədi ilə onu üzünə tərifləsən bu, onun xeyrinə olar. Bu xüsusda, Uca Allah buyurur: **“Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin”** (əl-Maidə, 2)

İkincisi, bir adamın digərlərindən üstün olduğunu bəyan etmək, üstəlik, insanlar arasında onun hörmətini ucaltmaq məqsədi ilə onu tərifləmək. Necə ki, Peyğəmbər ﷺ Əbu Bəkri, Ömərı (və digər səhabələrini) tərifləmişdir. Belə tərif etmək də həmçinin, caizdir.

٣٣٨- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُلَيْحٍ قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ عَبْدِ اللَّهِ ابْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي يُونُسَ مَوْلَى عَائِشَةَ، أَنَّ عَائِشَةَ قَالَتِ: اسْتَأْذَنَ رَجُلٌ عَلَى رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((بِئْسَ ابْنُ الْعَشِيرَةِ))، فَلَمَّا دَخَلَ هَشَّ لَهُ وَانْبَسَطَ إِلَيْهِ، فَلَمَّا خَرَجَ الرَّجُلُ اسْتَأْذَنَ آخَرُ، قَالَ: ((نِعْمَ ابْنُ الْعَشِيرَةِ))، فَلَمَّا دَخَلَ لَمْ يَنْبَسِطْ إِلَيْهِ كَمَا انْبَسَطَ إِلَى الْآخَرِ، وَلَمْ يَهِشَّ إِلَيْهِ كَمَا هَشَّ لِلْآخَرِ، فَلَمَّا خَرَجَ قُلْتُ: يَا رَسُولَ اللَّهِ، قُلْتُ لِفُلَانٍ مَا قُلْتَ ثُمَّ هَشَشْتَ إِلَيْهِ، وَقُلْتَ لِفُلَانٍ مَا قُلْتَ وَلَمْ أَرَكَ صَنَعْتَ مِثْلَهُ؟ قَالَ: ((يَا عَائِشَةُ، إِنَّ مِنْ شَرِّ النَّاسِ مَنِ اتُّقِيَ لِفُحْشِهِ)).

**(338)** ........ Aişə ﵂ rəvayət edir ki, bir kişi[1] Rəsulullahın ﷺ yanına daxil olmaq üçün izin istədi. Rəsulullah ﷺ (onun haqqında): "Əşirətin[2] oğlu necə də pis adamdır!"– dedi. Kişi içəri daxil olduqda isə gülərüzlə onu qarşılayıb qollarını ona tərəf açdı.[3] (Bu) kişi çıxıb getdikdən sonra başqa birisi

---

Üçüncüsü, bir adamı layiq olmadığı vəsflərlə ifrat dərəcədə tərif etmək. Belə tərif etmək haramdır. Çünki bu, yalan və aldatmadır. Üstəlik, bu tərifin tərif olunan adama böyük zərəri vardır.

Dördüncüsü, əgər tərif olunan adamın imanı və təqvası zəifdirsə, üstəlik, bu tərifdən qürrələnib, həddini aşacağı, azğınlaşacağı və təkəbbür göstərəcəyi ehtimal edilirsə, onu tərifləmək qadağandır. Bu xüsusda varid olmuş hədisdə deyilir ki, Peyğəmbər ﷺ bir nəfərin başqa birisini təriflədiyini və tərifdə həddi aşdığını eşidib demişdir: "Kişinin belini qırdınız"; digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir-birinizi tərif etməkdən çəkinin! Çünki bu, baş kəsməkdir" (Şərh Riyadus-Salihin, 1789-cu hədisin şərhi).

[1] Bəzi şərhçilər bu kişinin Uyeynə ibn Hisn əl-Fəzari, bəziləri də onun Məxrəmə ibn Nofəl olduğunu demişlər (Camul-Vəsail; Tohfətul-Əhvəzi).

[2] Əşirət: bir əsildən törəyib birlikdə yaşayan və köçəri (bədəvi) həyat sürən ailələr toplusudur. Buna qəbilə, oymaq da deyilir. Burada Rəsulullah ﷺ "filan qəbilədən olan filankəs nə pis adamdır"– deməklə, onun yaramaz adam olduğunu bildirmək istəmişdir ki, bu adamı tanımayanlar onu tanısınlar (Tohfətul-Əhvəzi).

[3] Digər rəvayətdə deyilir ki "onunla nəzakətlə danışdı." Nəvəvi bu hədisi izah edərkən demişdir: "Rəsulullahın ﷺ onunla nəzakətlə danışmasının qəsdi, o kişinin qəlbini ələ almaq və özünün gözəl əxlaqını ona göstərmək idi. Bu da, fasiqin qeybətini etməyin caiz olduğuna dəlalət edir. Lakin bu qeybət açıq-aşkar günah işlər görən və ya bidət edənlərə aid edilir, yəni onların qeybətini etmək caizdir (Şərh ən-Nəvəvi).

Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədi. Peyğəmbər ﷺ (onu görəndə): "Nə gözəl yoldaşdır!"– dedi. (Lakin) içəri daxil olduqda, əvvəlkini qarşıladığı kimi onu da güləruzlə qarşılamadı, əvvəlkini qucaqladığı kimi onu da qucaqlamadı. Kişi çıxıb getdikdən sonra dedim: "Ya Rəsulullah! Filankəs barədə filan söz dedin, sonra da onu qucaqladın. Filankəs barədə də filan söz dedin, amma əvvəlkinə göstərdiyin iltifatı heç buna göstərmədin." Rəsulullah ﷺ dedi: "Ey Aişə, insanların ən pisi o kəslərdir ki, onların yaramaz əxlaqına görə insanlar onları tərk edir."[1]

---

[1] Bu hədisin isnadında keçən Fuleyh "çoxlu xətalara yol vermiş səduq" ravidir. Elə bu səbəbdən də Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Sonra qeyd etmişdir ki, bu hədisdə zikr olunan birinci kişinin hekayəsi "səhih"dir (1311-ci hədisə bax).

## ١٥٥– بَابُ يُحْثَى فِي وُجُوهِ الْمَدَّاحِينَ

## 155-ci fəsil. Məddahların üzünə torpaq atmaq[1]

٣٣٩– حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ سَعِيدٍ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ، عَنْ مُجَاهِدٍ، عَنْ أَبِي مَعْمَرٍ قَالَ: قَامَ رَجُلٌ يُثْنِي عَلَى أَمِيرٍ مِنَ الْأُمَرَاءِ، فَجَعَلَ الْمِقْدَادُ يَحْثِي فِي وَجْهِهِ التُّرَابَ، وَقَالَ: أَمَرَنَا رَسُولُ اللَّهِ ﷺ أَنْ نَحْثِيَ فِي وُجُوهِ الْمَدَّاحِينَ التُّرَابَ.

**(339)** ........ Əbu Mə'mər demişdir: "(Bir dəfə) bir nəfər qalxıb ixtiyar sahiblərindən birinə tərif dedi. Miqdad onun üzünə torpaq atıb dedi: "Rəsulullah ﷺ bizə məddahların üzünə torpaq atmağı buyurmuşdur.[2]"[3]

٣٤٠– حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ عَلِيِّ بْنِ الْحَكَمِ، عَنْ عَطَاءِ بْنِ أَبِي رَبَاحٍ، أَنَّ رَجُلًا كَانَ يَمْدَحُ رَجُلًا عِنْدَ ابْنِ عُمَرَ فَجَعَلَ ابْنُ عُمَرَ يَحْثُو التُّرَابَ نَحْوَ فِيهِ، وَقَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا رَأَيْتُمُ الْمَدَّاحِينَ فَاحْثُوا فِي وُجُوهِهِمُ التُّرَابَ)).

**(340)** ........ Əta ibn Əbi Rəbah rəvayət edir ki, bir kişi İbn Ömərin yanında başqa birisini təriflədi. İbn Ömər onun üzünə torpaq atıb dedi: "Rəsulullah ﷺ demişdir:[4] "Məddahları görsəniz, onların üzünə torpaq atın!"[5]

---

[1] Mübaliğə ilə bir adamı və ya bir şeyi mədh və tərif edən.

[2] Bu, dəlildir ki, bir adamı ifrat dərəcədə tərif etmək qadağandır. Hədisdən o da aydın olur ki, Sünnəyə görə beləsinin üzünə torpaq atmaq gərəkdir.

[3] Bu hədisi Muslim (8/228), Əbu Davud (2/290), Tirmizi (3/284), İbn Macə (2/407) və Əhməd (6/5) rəvayət etmişdir.

[4] Bu fəsildə zikr olunan hədislərdə İbn Ömərin və Miqdadın رضي الله عنهما etdikləri bu əməli Peyğəmbərin ﷺ sözü ilə əsaslandırması, səhabələrin Sünnəyə bağlı olduqlarını və ibadətə aid hər bir işdə hədislərə istinad etdiklərini bildirir.

[5] Bu hədisi İbn Hibban (2008), Əbu Nueym (Hilyə, 6/127), Xətib əl-Bəğdadi (Tarix, 7/388), İbn Əsakir (Tarix, 17/448/1) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (912) bu hədisin "səhih" olduğunu demişdir.

**٣٤١**– حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ أَبِي بِشْرٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ شَقِيقٍ، عَنْ رَجَاءِ بْنِ أَبِي رَجَاءٍ، عَنْ مِحْجَنٍ الأَسْلَمِيِّ قَالَ، قَالَ رَجَاءٌ: أَقْبَلْتُ مَعَ مِحْجَنٍ ذَاتَ يَوْمٍ حَتَّى انْتَهَيْنَا إِلَى مَسْجِدِ أَهْلِ الْبَصْرَةِ، فَإِذَا بُرَيْدَةُ الأَسْلَمِيُّ عَلَى بَابٍ مِنْ أَبْوَابِ الْمَسْجِدِ جَالِسٌ، قَالَ: وَكَانَ فِي الْمَسْجِدِ رَجُلٌ يُقَالُ لَهُ: سَكْبَةُ، يُطِيلُ الصَّلاَةَ، فَلَمَّا انْتَهَيْنَا إِلَى بَابِ الْمَسْجِدِ، وَعَلَيْهِ بُرْدَةٌ، وَكَانَ بُرَيْدَةُ صَاحِبَ مُزَاحَاتٍ، فَقَالَ: يَا مِحْجَنُ أَتُصَلِّي كَمَا يُصَلِّي سَكْبَةُ؟ فَلَمْ يَرُدَّ عَلَيْهِ مِحْجَنٌ، وَرَجَعَ، قَالَ: قَالَ مِحْجَنٌ: إِنَّ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ بِيَدِي، فَانْطَلَقْنَا نَمْشِي حَتَّى صَعِدْنَا أُحُدًا، فَأَشْرَفَ عَلَى الْمَدِينَةِ فَقَالَ: وَيْلُ أُمِّهَا مِنْ قَرْيَةٍ، يَتْرُكُهَا أَهْلُهَا كَأَعْمَرَ مَا تَكُونُ، يَأْتِيهَا الدَّجَّالُ، فَيَجِدُ عَلَى كُلِّ بَابٍ مِنْ أَبْوَابِهَا مَلَكًا، فَلاَ يَدْخُلُهَا، ثُمَّ انْحَدَرَ حَتَّى إِذَا كُنَّا فِي الْمَسْجِدِ، رَأَى رَسُولُ اللَّهِ ﷺ رَجُلًا يُصَلِّي، وَيَسْجُدُ، وَيَرْكَعُ، فَقَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ هَذَا؟)) فَأَخَذْتُ أُطْرِيهِ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، هَذَا فُلاَنٌ، وَهَذَا. فَقَالَ ((أَمْسِكْ، لاَ تُسْمِعْهُ فَتُهْلِكَهُ))، قَالَ: فَانْطَلَقَ يَمْشِي، حَتَّى إِذَا كَانَ عِنْدَ حُجَرِهِ، لَكِنَّهُ نَفَضَ يَدَيْهِ ثُمَّ قَالَ: ((إِنَّ خَيْرَ دِينِكُمْ أَيْسَرُهُ، إِنَّ خَيْرَ دِينِكُمْ أَيْسَرُهُ)) ثَلاَثًا.

**(341)** ........ Rəca demişdir:[1] "Bir gün mən Mihcənlə[2] birgə bəsrəlilərin məscidinə getdim. Həmin vaxt Bureydə əl-Əsləmi[3] məscidin qapılarından birinin yanında oturmuşdu. Məsciddə Səkbə adlı bir kişi var idi. Bu kişi namazı uzun-uzadı qılardı. Biz məscidin qapısına yaxınlaşdıqda (Bureydə ilə rastlaşdıq). Onun əynində əba var idi. O, zarafatcıl adam idi. Odur ki,

---

[1] Bu hədisi Təyalisi (Musnəd, 1296), Əhməd (4/338 və 5/32) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[2] Mihcən ibn Ədrə əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabələrindəndir (Tarixul-İslam və Vəfəyatul-Məşahir vəl-Əlam, 85-ci tərcümeyi-hal).

[3] Əbu Abdullah Bureydə ibn Husayb ibn Abdullah əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. O, İslam dinini Peyğəmbər ﷺ hicrət etdiyi il qəbul etmişdir. Xeybər döyüşündə və Məkkənin fəthində iştirak etmiş, habelə, Peyğəmbərin ﷺ ölümqabağı Bəlqa diyarına göndərdiyi, Usamənin başçılıq etdiyi orduda bayraqdar olmuşdur. Hicrətin 62-ci ilində vəfat etmişdir. Peyğəmbərdən ﷺ yüz əlliyə yaxın hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 91-ci tərcümeyi-hal).

dedi: "Ey Mihcən, sən də Səkbə kimi namaz qılacaqsan?"[1] Mihcən ona cavab verməyib geri döndü.[2] *Sonra* Mihcən dedi: "*Bir gün* Rəsulullah ﷺ mənim əlimdən tutub apardı. Nəhayət, biz gəlib, Uhud dağına[3] qalxdıqda, o, Mədinəyə tərəf üz tutub dedi: "Heyif, şəhərlər anası bu şəhərə! Əhalisi onu indikindən daha abad olduğu vəziyyətdə tərk edəcəkdir. Dəccal[4] *bu*

---

[1] Ola bilsin ki, Bureydə ﷺ bu məsələdə yəni namazı uzun-uzadı qılmaq barədə Mihcənin ﷺ fikrini öyrənmək istəmişdir.

[2] Burada Mihcənin ﷺ ona cavab verməyib dönüb getməsi, heç də onun bu suala cavab vermək istəmədiyinə dəlalət etmir. Mihcən ﷺ namaz qılan o kişini üzünə tərif etmək istəmədiyi üçün oradan uzaqlaşır və başına gələn hadisəni danışmaqla Bureydənin sualına cavab verməməsinin səbəbini açıqlayır. Səbəbi də budur ki, Peyğəmbər ﷺ adamın üzünə tərif etməsini qadağan etmişdir.

[3] Uhud dağı barədə Peyğəmbər ﷺ demişdir: "Bu dağ bizi sevir, biz də onu sevirik" (Səhih əl-Buxari, 2889).

[4] Dəccal: Qiyamətə yaxın zühur edərək, insanları azdırıb, dindən uzaqlaşdıracaq, habelə, Allahlıq iddiasında olacaq bir məxluqdur. Əlamətləri isə belədir:

Peyğəmbər ﷺ *səhabələrinə* demişdir: "Mən dəccal barəsində sizə elə bir söz deyəcəyəm ki, *onu* heç bir peyğəmbər öz ümmətinə deməmişdir. Bilin ki, o, təkgözdür. Allah isə təkgöz deyildir" (Səhih əl-Buxari, 3057); həmçinin, o, demişdir: "Məsih dəccal alçaqboylu, əyriayaq, buruqsaç, təkgöz – gözü sürtülmüş, nə domba, nə də batıq olan bir kişidir. Əgər çaşbaş qalsanız, *onun kim olduğunu ayırd edə bilməsəniz,* bilin ki, Rəbbiniz təkgöz deyildir" (Sunən Əbu Davud, 3763; Səhih əl-Cami əs-Səğir, 2455); həmçinin, o, demişdir: "Sonra dönüb qarşımda qırmızıdərili, cüssəli, buruqsaç və sağ gözü kor olan birisini gördüm. Onun gözü sanki domba üzüm dənəsi idi. Mən soruşdum: "Bu kimdir?" Dedilər: "Bu, dəccaldır!.." (Səhih əl-Buxari, 3441); həmçinin, o, demişdir: "Dəccalın iki gözü arasında "kəf, fa, ra" yəni kafir *sözü* yazılıb. Oxumağı bacaran və bacarmayan hər bir müsəlman onu oxuyacaq" (Səhih Muslim, 2933 və 7549); həmçinin, o, demişdir: "Dəccal zühur edəcəyi zaman onun yanında su və od olacaq. İnsanlar nəyi od zənn edəcəklərsə, əslində, bu, sərin su olacaq. Nəyi sərin su zənn edəcəklərsə, o, yandırıb-yaxan bir od olacaq. Sizlərdən kim o vaxta qədər yaşasa, od zənn etdiyi şeyin içinə girsin. Həqiqətən də, o, şirin və sərin bir su olacaq" (Səhih əl-Buxari, 3450); həmçinin, o, demişdir: "Hər kim üç *böyük* fitnədən qurtularsa, üç kərə qurtulmuş olar: mənim ölümümdən *sonrakı fitnədən,* Dəccalın *fitnəsindən* və bir də haqq üzərində səbir edən *raşidi* xəlifənin qətlindən" (Musnəd Əhməd, 4/105; şeyx Albani "Zilalul-Cənnə" əsərinin təhqiqində (1177) bu hədisin "səhih" olduğunu demişdir).

**Dəccaldan qorunmağın yolları:**

Peyğəmbər ﷺ demişdir: "Məsihid-dəccalın zühur etdiyini eşitdiyiniz zaman ondan uzaq olun! Çünki həmin vaxt adam özünün mömin olduğuna arxayın olub, onun yanına

*şəhərə* gələcək və (şəhərin) hər qapısında bir mələk gördükdə ora daxil ola bilməyəcək."[1]

Sonra biz dağdan aşağı endik. Nəhayət, gəlib məscidə daxil olduqda, Rəsulullah ﷺ bir kişinin *uzun-uzadı* namaz qıldığını, səcdə və rüku etdiyini görüb məndən: "Bu kimdir?"– deyə soruşdu.[2] Mən onu olduqca tərif edib dedim: "Bu filankəsdir, ya Rəsulullah! Bu,..." Rəsulullah ﷺ *mənə*: "Sus, ona eşitdirmə, yoxsa onu məhv edərsən"– deyə buyurdu. Sonra Peyğəmbər ﷺ çıxıb getdi. Nəhayət, hücrələrinə çatdıqda əllərini buraxıb[3] üç dəfə: "Ən xeyirli dininiz ən asan olanıdır[4]"– dedi."

---

gələcək, sonra da onun şübhələrinə uyub, onun ardınca gedəcək" (Musnəd İmam Əhməd, 4/431; Sunən Əbu Davud, 2/519; Səhih əl-Cami, 6301).

Peyğəmbər ﷺ dua edib deyərdi: "Allahummə inni əuzu bikə min əzabil-qabri və min əzabin-nari və min fitnətil-məhyə vəl-məmati və min fitnətil-məsihid-dəccal (Allahım, qəbir əzabından, Cəhənnəm əzabından, həyatın və ölümün fitnəsindən və məsihid-dəccalın fitnəsindən Sənə sığınıram!)" (Səhih əl-Buxari, 1377).

Peyğəmbər ﷺ demişdir: "Kim "əl-Kəhf" surəsinin əvvəlindəki on ayəni əzbərləsə, bu, onu dəccalın fitnəsindən qoruyar" (Səhih Muslim, 1919); digər rəvayətdə isə belə demişdir: "Hər kim "əl-Kəhf" surəsinin axırındakı on ayəni oxuyarsa, bu, onu dəccalın fitnəsindən qoruyar" (Səhih Muslim, 1920).

[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Məsih dəccal qorxusu Mədinəyə girməyəcəkdir. Həmin gün Mədinənin yeddi qapısı olacaq və hər qapısında iki (gözətçi) mələk duracaq" (Səhih əl-Buxari, 1879); həmçinin, o, demişdir: "Elə bir şəhər qalmayacaq ki, Dəccal ora girməsin. Yalnız Məkkə və Mədinədən başqa. (Bu şəhərlərin) girişlərindən hər birində səf-səf düzülmüş halda keşik çəkən mələklər olacaq. Sonra Mədinə öz sakinlərini üç dəfə silkələyəcək və beləliklə də, Allah hər bir kafiri və münafiqi (oradan) çıxardacaqdır" (Səhih əl-Buxari, 1881); həmçinin, o, demişdir: "Məsih dəccal hər yeri gəzib-dolaşacaq. Yalnız dörd məsciddən başqa: Məscidulhəram, Mədinə-Məscidi, ət-Tur və Məsciduləqsa" (Musnəd İmam Əhməd, 5/434).

[2] Mihcənin ﷺ bu sözü Bureydənin ﷺ verdiyi sualın cavabıdır. Mihcən demək istəyir ki, Peyğəmbər ﷺ gündüz vaxtı belə uzun-uzadı namaz qılmazdı. Peyğəmbərin ﷺ: "Ən xeyirli din ən asan olanıdır" sözü buna dəlildir.

[3] Peyğəmbər ﷺ öz səhabəsinə lütf və mərhəmət göstərmək üçün yol boyu onun əlini buraxmamışdır.

[4] Bu, dini çətinləşdirməyin Sünnəyə zidd olmasına dəlalət edir. Digər rəvayətdə bu hədisin sonunda Peyğəmbər ﷺ demişdir: "Allah bu ümmət üçün çətinlik deyil, asanlıq istəyir. Bu adam isə asan olanı qoyub, çətin olanı götürüb" (Silsilətul-Əhadisis-Səhihə, 1635); hədislərin birində Peyğəmbər ﷺ İslam dininin asan bir din olduğunu xəbər verib

demişdir: "Həqiqətən, bu din asandır. Dini çətinləşdirən elə bir kimsə yoxdur ki, *din* onu üstələməsin. Elə isə, doğru yol tutun, *ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa, ona* yaxınlaşın, *qazandığınız savaba* sevinin, səhər, axşam və gecənin bir vaxtında *Allahdan* kömək diləyin" (Səhih əl-Buxari, 39), yəni, bu dini çətinləşdirən kimsə işini cəncələ salar və sonda etdiyi əməli ya tam olaraq, ya da bir qismini tərk edər. Başqa bir hədisdə Peyğəmbər ﷺ üç dəfə, təkrar-təkrar demişdir: "*Allahın asan buyurduğu bu dini* çətinləşdirən kimsələr həlak oldu!" (Səhih Muslim, 6955). Peyğəmbər ﷺ ibadəti sevə-sevə yerinə yetirmiş, ümmətinə də belə etməyi, özlərini daşıya bilməyəcəkləri bir yüklə yükləməməyi tövsiyə etmişdir. Hədislərin birində rəvayət edilir ki, Abdullah ibn Amr ﵄ demişdir: "*Bir zaman* atam məni zadəgan bir qadınla evləndirdi. Sonra o, mütəmadi olaraq gəlininin yanına gəlib ondan mənim barəmdə soruşur, qadın da hər dəfə ona deyərdi: "O, xoşxasiyyət adamdır, lakin mən ona ərə gəldiyim gündən bəri o, nə mənimlə bir yatağa baş qoymuş, nə də mənə toxunmuşdur." Bu hal o vaxta qədər davam etdi ki, axırda atam bu haqda Peyğəmbərə ﷺ xəbər verdi və Peyğəmbər ﷺ *ona*: "Qoy, *oğlun* mənim yanıma gəlsin!"– dedi. Bundan sonra mən Peyğəmbərin ﷺ yanına getdim və o, *məndən* soruşdu: "Sən necə oruc tutursan?" Dedim: "Hər gün." Soruşdu: "Quranı necə xətm edirsən?" Dedim: "Hər gecə." Onda o, belə buyurdu: "Hər ay üç gün oruc tut, Quranı da ayda bir dəfə xətm et!" Dedim: "Mənim bundan da çox *ibadət* etməyə gücüm çatar." Dedi: "Həftədə üç gün oruc tut!" Dedim: "Mənim bundan da artığına gücüm çatar." Dedi: "İki gündən bir oruc tut!" Dedim: "Mənim bundan da artığına gücüm çatar." Dedi: "*Elə isə,* ən əfzəl orucu – günaşırı oruc tutan Davudun orucunu tut və həftədə bir dəfə *gecələr Quranı başdan axıradək* oxu." (Abdullah ibn Amr ﵄ sonralar deyərmiş ki,) "Kaş, Peyğəmbərin ﷺ verdiyi rüsxəti qəbul edərdim. *İndi* mən artıq qocalıb əldən düşmüşəm" (Səhih əl-Buxari, 5052). Peyğəmbər ﷺ ibadəti sevə-sevə yerinə yetirmiş, ümmətinə də belə etməyi, özlərini daşıya bilməyəcəkləri bir yüklə yükləməməyi tövsiyə edib demişdir: "Siz bacardığınızı yerinə yetirməlisiniz. Vallahi ki, siz usanmadıqca, Allah usanmaz" (Səhih əl-Buxari, 43). Deməli, hər bir müsəlman bacardığından artıq ifrat dərəcədə yox, az da olsa, davamlı şəkildə ibadət etməyə çalışmalıdır. Elə Allaha sevimli olan ibadət də məhz belə ibadətlərdir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bilin ki, əməllərdən Allahın ən çox xoşuna gələni az da olsa, davamlı olanıdır" (Səhih əl-Buxari, 6465).

## ١٥٦- بَابُ مَنْ مَدَحَ فِي الشِّعْرِ

## 156-cı fəsil. Şeirlə tərif deyənlər

٣٤٢- حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ عَلِيِّ بْنِ زَيْدٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي بَكْرَةَ، عَنِ الأَسْوَدِ بْنِ سَرِيعٍ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، قَدْ مَدَحْتُ اللَّهَ بِمَحَامِدَ وَمِدَحٍ، وَإِيَّاكَ. فَقَالَ: ((أَمَا إِنَّ رَبَّكَ يُحِبُّ الْحَمْدَ))، فَجَعَلْتُ أُنْشِدُهُ، فَاسْتَأْذَنَ رَجُلٌ طُوَالٌ أَصْلَعُ، فَقَالَ لِي النَّبِيُّ ﷺ: ((اسْكُتْ))، فَدَخَلَ، فَتَكَلَّمَ سَاعَةً ثُمَّ خَرَجَ، فَأَنْشَدْتُهُ، ثُمَّ جَاءَ فَسَكَّتَنِي، ثُمَّ خَرَجَ، فَعَلَ ذَلِكَ مَرَّتَيْنِ أَوْ ثَلاَثًا، فَقُلْتُ: مَنْ هَذَا الَّذِي سَكَّتَّنِي لَهُ؟ قَالَ: ((هَذَا رَجُلٌ لاَ يُحِبُّ الْبَاطِلَ)).

**(342)** ........ Əsvəd ibn Səri ﷺ demişdir: "(Bir dəfə) mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ya Rəsulullah! Mən Allaha, həmçinin də, sənə çoxlu həmdlər və tariflər dedim."[1] O, buyurdu: "Rəbbin həmd edilməyi sevir!"[2]

Sonra mən şeir deməyə başladım. Bu vaxt hündürboylu keçəl bir adam içəri daxil olmaq üçün izin istədi. Peyğəmbər ﷺ mənə: "Sus!"– dedi. Adam içəri daxil olub bir saat söhbət etdikdən sonra çıxıb getdi. Mən şeir demə-

---

[1] Yəni şeirlə, Allahı və Onun Rəsulunu ﷺ tərifləmişdir.

[2] Xüsusilə qeyd etmək lazımdır ki, hər bir işdə olduğu kimi, mədh etdikdə də heç kəsi, hətta Rəsulullahı ﷺ belə Allaha tay tutmaq, Allaha xas olan xislətlə məxluqu vəsf etmək olmaz. Təəssüflər olsun ki, bəzi insanlar Rəsulullahı ﷺ ifrat dərəcədə tərif edir və beləliklə də, onu Allaha tay tuturlar. Rəsulullah ﷺ belə şeylər gördükdə, onları qadağan edərdi. Bu xüsusda varid olmuş hədisdə İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərə ﷺ: "Allah və sən istəsən (olar)"– dedi. Peyğəmbər ﷺ də ona belə buyurdu: "Sən məni Allaha tay tutdun?! *Əksinə, de ki,* ancaq Allah istəsə" (əl-Ədəbul-Mufrad, 783); digər hədisdə Rubeyyi bint Muəvviz رضي الله عنها demişdir: "Toyumun səhəri gün Peyğəmbər ﷺ mənim yanıma gəldi. Həmin vaxt mənim yanımda olan qız uşaqları dəf vura-vura Bədr döyüşündə öldürülmüş ataları barədə şeir deyirdilər. Birdən qızlardan biri dedi: "Aramızda sabah nə olacağını bilən bir peyğəmbər var!" *Bunu eşidəndə* Peyğəmbər ﷺ ona buyurdu: "Belə demə, bayaq dediklərini de!" (Səhih əl-Buxari, 4001).

yə davam etdim. Bu adam yenə qayıdıb gəldi. Peyğəmbər ﷺ bir daha mənə susmağı buyurdu. Bu, iki və ya üç dəfə təkrar oldu. Adam çıxıb getdikdən sonra dedim: "Bu kim idi ki, ona görə mənə susmağı buyurdun?" O buyurdu: "Bu, batil sözləri sevməyən bir adamdır."[1]

(...)- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ عَلِيٍّ، عَنْ عَبْدِ الرَّحْمَنِ ابْنِ أَبِي بَكْرَةَ، عَنِ الأَسْوَدِ بْنِ سَرِيعٍ قُلْتُ: لِلنَّبِيِّ ﷺ: مَدَحْتُكَ وَمَدَحْتُ اللَّهَ عَزَّ وَجَلَّ.

**(...)** ........ Əsvəd ibn Səri رضي الله عنه rəvayət edir ki, mən Peyğəmbərə ﷺ dedim: "Mən sənə də təriflər dedim, izzət və cəlal sahib olan Allaha da."

---

[1] Bu hədisin isnadında keçən Əli ibn Zeyd "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Silslətul-Əhadisid-Daifə" əsərində (2922) bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin hədisin əvvəli "səhih"dir (Bu kitabdakı 859-cu hədisə bax).

## ١٥٧- بَابُ إِعْطَاءِ الشَّاعِرِ إِذَا خَاف شَرَّهُ

## 157-ci fəsil. Şairin şərindən ehtiyat etdikdə, ona bəxşiş vermək

**٣٤٣-** حَدَّثَنَا يُوسُفُ بْنُ عَبْدِ اللَّهِ بْنِ نُجَيْدِ بْنِ عِمْرَانَ بْنِ حُصَيْنٍ الْخُزَاعِيُّ عَنْ أَبِيهِ قَالَ: حَدَّثَنِي أَبِي نُجَيْدٌ، أَنَّ شَاعِرًا جَاءَ إِلَى عِمْرَانَ بْنِ حُصَيْنٍ فَأَعْطَاهُ، فَقِيلَ لَهُ: تُعْطِي شَاعِرًا؟ فَقَالَ: أُبْقِي عَلَى عِرْضِي.

**(343)** ........ Əbu Nuceyd rəvayət edir ki, bir şair İmran ibn Husayn əl-Xuzainin yanına gəldi. İmran ona bəxşiş verdi. Ondan: "Şairə bəxşiş verirsən?"– deyə soruşduqda, o, dedi: "Mən öz ləyaqətimi qoruyuram."[1]

---

[1] Bu hədisin isnadında keçən Nuceyd ibn İmran "kimliyi bəlli olmayan" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı zəif olsa da, onun mənası, yəni yaramaz adamın şərindən qorunmaq üçün ona bəxşiş vermək, habelə, onunla nəzakətlə davranmaq, onun üzünə gülmək caizdir (338-ci hədisə və onun qeydlərinə bax).

# ١٥٨– بَابُ لا تُكْرِمْ صَدِيقَكَ بِمَا يَشُقُّ عَلَيْهِ

## 158-ci fəsil. Dostuna ağır gələn bir şeylə ona ehtiram göstərmə[1]

٣٤٤– حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا مُعَاذٌ قَالَ: حَدَّثَنَا ابْنُ عَوْنٍ، عَنْ مُحَمَّدٍ قَالَ: كَانُوا يَقُولُونَ: لاَ تُكْرِمْ صَدِيقَكَ بِمَا يَشُقُّ عَلَيْهِ.

**(344)** ........ Muhəmməd[2] demişdir: "(Alimlər) deyərdilər: "Dostuna ağır gələn bir şeylə ona ehtiram göstərmə.[3]"[4]

---

[1] İmam Buxari ziyarətlə bağlı (159, 160 və 161-ci) fəsillərdən qabaq gələn fəsilə belə ünvan verməklə bildirmək istəyir ki, adam evinə gəlmiş qonağa – onu ziyarət edən qardaşına diqqət yetirməli, ona ehtiram göstərməli və bu əsnada onun xətrinə dəyəcək nalayiq sözlərdən və hərəkətlərdən həzər etməlidir. Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və Axirət gününə iman gətirmişsə, qonağına yaxşı baxsın" (Səhih əl-Buxari, 6018). Lakin xüsusilə qeyd etmək lazımdır ki, adam evinə gəlmiş qonağına yalnız öz imkanı daxilində ehtiram göstərməlidir. Belə etməlidir ki, həm özünə ziyan dəyməsin, həm də qonaq sıxılmasın. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Heç kəs imkanı çatmadığı bir şeylə qonağına ehtiram göstərməyi öz öhdəsinə götürməsin" (Silsilətul-Əhadisis-Səhihə, 2440).

[2] Bu, Ənəs ibn Malikin رضي الله عنه azad etdiyi, məşhur tabiin Əbu Bəkr Muhəmməd ibn Sirin əl-Ənsaridir (Siyər Əlam ən-Nubələ, 246-cı tərcümeyi-hal).

[3] Ənəs ibn Malik رضي الله عنه demişdir: "(Bir dəfə) biz Ömər Xəttabın yanında ikən o, dedi: "Gücümüz yetməyən bir işə boyun olmaq bizə qadağan edilmişdir" (Səhih əl-Buxari, 7293); başqa bir hədisdə Şəqiq demişdir: "Bir dəfə mən dostumla birgə Salman *əl-Farisinin* evinə getdim. Salman süfrəyə çörək və duz qoyub dedi: "Əgər Peyğəmbər ﷺ gücümüz yetməyən bir işi öhdəmizə götürməyi bizə qadağan etmiş olmasaydı, mən sizə daha çox ehtiram göstərərdim." Dostum da ona: "Duzun içində kəkotu da olsaydı, yaxşı olardı"– dedi. Elə buna görə də Salman öz camını baqqala göndərdi ki, onu girov qoyub əvəzində kəkotu götürə bilsin. Salman kəkotunu gətirib duza qatdı. Biz yeməyimizi yedikdən sonra dostum dedi: "Bizə bəxş etdiyi ruzi ilə bizi razı salan Allaha həmd olsun!" Onda, Salman dedi: "Əgər sənə verilmiş ruziyə qane olsaydın, mənim camım baqqalın yanında girov qalmazdı" (Mustədrəkul-Hakim, 4/123; Silsilətul-Əhadisis-Səhihə, 2392).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٥٩- بَابُ الزِّيَارَةِ

## 159-cu fəsil. (Xəstəyə) baş çəkmək

٣٤٥- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عُثْمَانَ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ الْمُبَارَكِ، أَخْبَرَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ أَبِي سِنَانٍ الشَّامِيِّ، عَنْ عُثْمَانَ بْنِ أَبِي سَوْدَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا عَادَ الرَّجُلُ أَخَاهُ أَوْ زَارَهُ، قَالَ اللَّهُ لَهُ: طِبْتَ وَطَابَ مَمْشَاكَ، وَتَبَوَّأْتَ مَنْزِلًا فِي الْجَنَّةِ)).

**(345)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Adam öz dostuna baş çəkdikdə, yaxud onu ziyarət etdikdə[1] Allah ona belə buyurar: “Xoş gəldin, gəlişin də uğurlu oldu. Sən Cənnətdə özün üçün bir yer tutdun.[2]”[3]

٣٤٦- حَدَّثَنَا مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ الْمُبَارَكِ، عَنِ ابْنِ شَوْذَبٍ قَالَ: سَمِعْتُ مَالِكَ بْنَ دِينَارٍ يُحَدِّثُ، عَنْ أَبِي غَالِبٍ، عَنْ أُمِّ الدَّرْدَاءِ قَالَتْ: زَارَنَا سَلْمَانُ مِنَ الْمَدَائِنِ إِلَى الشَّامِ مَاشِيًا، وَعَلَيْهِ كِسَاءٌ وَانْدَرْوَرْدُ، قَالَ: يَعْنِي سَرَاوِيلَ مُشَمَّرَةً،

قَالَ ابْنُ شَوْذَبٍ: رُؤِيَ سَلْمَانُ وَعَلَيْهِ كِسَاءٌ مَطْمُومُ الرَّأْسِ سَاقِطُ الْأُذُنَيْنِ، يَعْنِي أَنَّهُ كَانَ أَرْفَشَ. فَقِيلَ لَهُ: شَوَّهْتَ نَفْسَكَ، قَالَ: إِنَّ الْخَيْرَ خَيْرُ الاخِرَةِ.

---

[1] Əslində, “baş çəkmək” və “ziyarət etmək” kəlmələri, eynimənalı kəlmələrdir. Lakin ərəbcə çox hallarda “baş çəkmək” xəstəyə, “ziyarət etmək” isə sağlam adama aid edilir, “xəstəyə baş çəkdi”, “dostunu ziyarət etdi” kimi ifadə edilir. Burada Peyğəmbər ﷺ “yaxud” deməklə, “baş çəkməyi” xəstəyə, “ziyarət etməyi” isə sağlam adama aid etmişdir.

[2] Uca Allahın bu sözündən aydın olur ki, möminin Allah rizasını qazanmaq məqsədi ilə mömin qardaşını ziyarət etməsi ona həm bu dünyada, həm də Axirətdə uğur qazandırar. Bu xüsusda, Uca Allah Öz Kitabında belə buyurur: “**Rəbbindən qorxanlar dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: “Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!”** (əz-Zumər, 73).

[3] Bu hədisi Tirmizi (2139), İbn Macə (1443), Əhməd (2/344) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

**(346)** ........ Əbu Ğalib rəvayət edir ki, Ummu Dərda ﵂ demişdir: "Salman şəhərləri piyada qət edib Şama – bizi ziyarət etməyə gəldi. Onun əynində bürüncək və əndərvard var idi."[1]

Yəni ətəyi dizdən bir qədər aşağı olan şalvar var idi.

İbn Şovzəb demişdir: "Salmanın əynində baş tərəfi olmayan, enli, uzun bir bürüncək var idi." Ona: "Sən özünü eybəcər hala salmısan"– dedilər. O isə: "Əsl xeyir, axirət xeyiridir"– deyə cavab verdi.[2]

---

[1] Bu görkəm onun nə dərəcədə zahid adam olduğundan xəbər verir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (3198) bu hədisin əvvəlinin "həsən", İbn Şovzəbin sözünün isə "mu'dal" (zəif rəvayət) olduğunu demişdir. Çünki İbn Şovzəb arada olan iki ravini, daha dəqiq desək, hədisin isnadında keçən Malik ibn Dinarı və Əbu Ğalibi zikr etməmişdir. Həmçinin, onu da qeyd etmək lazımdır ki, Salmanın: "Əsl xeyir, Axirət xeyiridir" sözü, əslində Peyğəmbərin ﷺ sözüdür. Ənəs ibn Malik ﵁ rəvayət edir ki, mühacirlər və ənsar Mədinənin ətrafında xəndək qazarkən, *xəndəkdən çıxan* torpağı çiyinlərində daşıya-daşıya deyirdilər:

*Bizik Muhəmmədə beyət edənlər,*
*Canımız sağ ikən, cihad edənlər.*

Peyğəmbər ﷺ də cavabında onlara deyərdi:

Allahım, xeyir Ancaq axirət xeyiridir,
Sən ənsara və mühacirlərə xeyir-bərəkət ver!"

(Səhih əl-Buxari, 2835)

Uca Allah Öz Kitabında Axirət nemətlərinin daha xeyirli olduğu barədə belə buyurur: **"Xeyr, siz dünya həyatını *olduqca* üstün tutursunuz; Axirət isə daha xeyirli və daha sürəklidir"** (əl-Əla, 16-17).

## ١٦٠ – بَابُ مَنْ زَارَ قَوْمًا فَطَعِمَ عِنْدَهُمْ

## 160-cı fəsil. Hər hansı bir camaatı ziyarət edib onlarla bərabər yemək yemək

٣٤٧– حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَهَّابِ، عَنْ خَالِدٍ الْحَذَّاءِ، عَنْ أَنَسِ بْنِ سِيرِينَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ زَارَ أَهْلَ بَيْتٍ مِنَ الأَنْصَارِ، فَطَعِمَ عِنْدَهُمْ طَعَامًا، فَلَمَّا خَرَجَ أَمَرَ بِمَكَانٍ مِنَ الْبَيْتِ، فَنُضِحَ لَهُ عَلَى بِسَاطٍ، فَصَلَّى عَلَيْهِ، وَدَعَا لَهُمْ.

**(347)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, *bir gün* Rəsulullah ﷺ ənsardan olan bir ailəni[1] ziyarət etdi və onlarla bərabər yemək yedi. *Nəhayət,* çıxıb getmək istədikdə əmr etdi ki, evin bir tərəfində onun üçün yer hazırlasınlar. Onun üçün *yerə sərilmiş* həsirin üstünə su çiləyib *onu* təmizlədilər. Sonra Peyğəmbər ﷺ bu həsirin üstündə namaz qıldı və onlar üçün dua etdi.[2]

٣٤٨ | ١– حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ قَالَ: حَدَّثَنَا صَالِحُ بْنُ عُمَرَ الْوَاسِطِيُّ، عَنْ أَبِي خَلْدَةَ قَالَ: جَاءَ عَبْدُ الْكَرِيمِ أَبُو أُمَيَّةَ إِلَى أَبِي الْعَالِيَةِ، وَعَلَيْهِ ثِيَابُ صُوفٍ، فَقَالَ أَبُو الْعَالِيَةِ: إِنَّمَا هَذِهِ ثِيَابُ الرُّهْبَانِ، إِنْ كَانَ الْمُسْلِمُونَ إِذَا تَزَاوَرُوا تَجَمَّلُوا.

**(348/1)** ........ Əbu Xəldə rəvayət edir ki, (bir gün) Abdul-Kərim Əbu Umeyyə, Əbul-Aliyənin yanına gəldi.[3] Onun əynində yun libas var idi. Əbul-Aliyə ona dedi: "Bu, rahiblərin libasıdır. Müsəlmanlar isə bir-birini ziyarət etdikləri zaman gözəl libas geyərlər.[4]"[5]

---

[1] Burada "ailə" deyildikdə, İtban ibn Malik əl-Ənsari ﷺ və onun ailəsi nəzərdə tutulur (Fəthul-Bari). Hədisdən aydın olur ki, möminlərin bir-birini ziyarət etməsi, barəbar yemək yeməsi, bir-biri üçün Allahdan xeyir-dua diləməsi, Sünnəyə aid olan əməllərdəndir. Bu da, möminlər arasında olan ülvi-məhəbbəti artıran amillərdən sayılır.

[2] Bu hədisi Buxari (6080) rəvayət etmişdir.

[3] Yəni, onu ziyarət etdi.

[4] Əbul-Aliyə ona demək istəyir ki, hər bir müsəlman imkanı daxilində gözəl libas geyinməli və gözəl görünməlidir.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "məqtu" (yəni isnadında bağlılıq olmadığını), lakin əsərin mətninin "səhih" olduğunu demişdir.

٣٤٨ | ٢- حَدَّثَنَا مُسَدَّدٌ، عَنْ يَحْيَى، عَنْ عَبْدِ الْمَلِكِ الْعَرْزَمِيِّ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ مَوْلَى أَسْمَاءَ قَالَ: أَخْرَجَتْ إِلَيَّ أَسْمَاءُ جُبَّةً مِنْ طَيَالِسَةٍ عَلَيْهَا لَبِنَةُ شِبْرٍ مِنْ دِيبَاجٍ، وَإِنَّ فَرْجَيْهَا مَكْفُوفَانِ بِهِ، فَقَالَتْ: هَذِهِ جُبَّةُ رَسُولِ اللَّهِ ﷺ، كَانَ يَلْبَسُهَا لِلْوُفُودِ، وَيَوْمَ الْجُمُعَةِ.

**(348/2)** ........ Əsmanın mövlası Abdullah rəvayət etmişdir ki, (bir dəfə) Əsma yundan qayrılmış, üzərinə[1] də (kiçik) kərpic enində ipək zolaq[2] (tikilmiş) cübbə[3] çıxardıb mənə göstərdi.[4] Cübbənin kənarları[5] ipəklə haşiyə-

---

[1] Burada “üzərinə” deyildikdə, cübbənin yaxası nəzərdə tutulur (Şərh ən-Nəvəvi).

[2] Bu zolaq dörd barmaqdan enli olmamamışdır (Avnul-Məbud).

[3] Cübbə: paltarın üstündən geyilən uzunətəkli, enli, düyməsiz geyim.

[4] Səhabələr təbərruk etmək məqsədilə Peyğəmbərə ﷺ xas olan bu kimi əşyaları saxlayardılar. Kimisi onun tükünü, kimisi cübbəsini, kimisi səndəlini və kimisi də başqa bu kimi ona məxsus şeyləri saxlayardı. Uca Allah məxsusi olaraq Peyğəmbərin ﷺ vücudunu mübarək etmişdir. İmam Buxari öz “Səhih”ində, Xums kitabında ayrıca fəsildə bu xüsusda varid olan hədisləri nəql etmiş və bu fəsilə belə bir ad qoymuşdur: “Peyğəmbərin ﷺ zirehi, əsası, qılıncı, qədəhi və üzüyü barəsində, habelə, ondan sonra gələn xəlifələrin bu bölüşdürülməmiş əşyalardan istifadə etməsi barədə, həmçinin, Peyğəmbərin ﷺ vəfatından sonra səhabələrinin və başqalarının onun saçı, səndəli və qabları vasitəsilə bərəkət diləməsi haqqında deyilənlər.” Demək, səhabələr onun dəstəmaz suyu, saçı, tüpürcəyi, cübbəsi, bürüncəyi, köynəyi, izarı, ridası, zirehi, əsası, qılıncı, qədəhi, üzüyü və s. Peyğəmbərə ﷺ xas olan şeyləri ilə Allahdan bərəkət diləyərdilər. Tabiinlər də, həmçinin, Peyğəmbərə ﷺ məxsus olan şeylərlə təbərruk edərdilər. Asim rəvayət edir ki, İbn Sirin demişdir: “*Bir dəfə* mən Abidəyə dedim: “Bizdə Peyğəmbərin ﷺ tükü var. Onu bizə Ənəs (yaxud Ənəsin ailəsi) verib.” Abidə dedi: “Peyğəmbərin ﷺ bir tükünün məndə olması mənim üçün dünya və onun üzərindəkilərdən daha sevimlidir” (Səhih əl-Buxari, 165). Bu da, ona dəlalət edir ki, səhabələr və onlardan sonra gələnlər Peyğəmbərə ﷺ xas olan şeylərlə təbərruk edərdilər. Onu da qeyd etmək lazımdır ki, Peyğəmbərdən ﷺ savayı, kimliyindən asılı olmayaraq heç bir kəsin nə vücudu ilə, nə də ona xas olan əşyalarla təbərruk etmək olmaz. Əgər buna izin verilmiş olsaydı, səhabələr raşidi xəlifələrin, Cənnətlə müjdələnmişlərin, habelə, tabiinlər də səhabələrin vücudu ilə təbərruk edərdilər. Bu dini ən yaxşı bilən insanların bunu etməməsi, Peyğəmbərdən ﷺ savayı, kimsənin vücudu ilə təbərruk etməyin qadağan olunmasına dəlalət edir.

[5] Yəni cübbənin ətəyi, boynu, yaxası və qolları.

lənmişdi.[1] Əsma dedi: "Bu, Rəsulullahın ﷺ cübbəsidir. O, bu cübbəni yanına nümayəndələr gəldikdə, habelə, cümə günlərində geyərdi.[2]"[3]

**٣٤٩-** حَدَّثَنَا الْمَكِّيُّ قَالَ: حَدَّثَنَا حَنْظَلَةُ، عَنْ سَالِمِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ قَالَ: وَجَدَ عُمَرُ حُلَّةَ إِسْتَبْرَقٍ، فَأَتَى بِهَا النَّبِيَّ ﷺ فَقَالَ: اشْتَرِ هَذِهِ، وَالْبَسْهَا عِنْدَ الْجُمُعَةِ، أَوْ حِينَ تَقْدِمُ عَلَيْكَ الْوُفُودُ، فَقَالَ عَلَيْهِ الصَّلاَةُ وَالسَّلاَمُ: ((إِنَّمَا يَلْبَسُهَا مَنْ لاَ خَلاَقَ لَهُ فِي الْآخِرَةِ))، وَأُتِيَ رَسُولُ اللَّهِ ﷺ بِحُلَلٍ، فَأَرْسَلَ إِلَى عُمَرَ بِحُلَّةٍ، وَإِلَى أُسَامَةَ بِحُلَّةٍ، وَإِلَى عَلِيٍّ بِحُلَّةٍ، فَقَالَ عُمَرُ: يَا رَسُولَ اللَّهِ، أَرْسَلْتَ بِهَا إِلَيَّ، لَقَدْ سَمِعْتُكَ تَقُولُ فِيهَا مَا قُلْتَ؟ فَقَالَ النَّبِيُّ ﷺ: ((تَبِيعُهَا، أَوْ تَقْضِي بِهَا حَاجَتَكَ)).

**(349)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, *bir dəfə* Ömər ipəkdən bir libas götürüb Peyğəmbərin ﷺ yanına gəldi və *ona*: "*Ya Rəsulullah,* bunu satın al ki, onu həm cümə günləri, həm də yanına nümayəndələr gələndə geyəsən." Peyğəmbər ﷺ buyurdu: "Bu paltarı Axirətdə heç bir payı olmayan kimsələr geyər!" *Bir müddət* sonra həmin bürüncəkdən bir neçəsini Peyğəmbərə ﷺ gətirdilər. O da bu bürüncəklərdən birini Ömərə, birini Usaməyə, birini də Əliyə göndərdi. Ömər dedi: "Ya Rəsulullah, mənə də ondan göndərmisən?! Axı mən sənin onun haqqında nə dediyini eşitmişəm?!" Peyğəmbər ﷺ dedi: "Onu *verdim ki,* satasan, yaxud ehtiyacın olan bir işdə istifadə edəsən."[4]

---

[1] Haşiyə: parçanın və s-nin kənarında rəngi və materialı cəhətdən ondan fərqlənən zolaq. Haşiyələmək: kənarlarına haşiyə tikmək, haşiyə ilə çevrələmək.

[2] Bundan aydın olur ki, qonaq qarşılamaq üçün, habelə, cümə günlərində gözəl libas geyinmək bəyənilən əməllərdəndir (Avnul-Məbud).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir. Bu əsər İmam Muslimin "Səhih"ində də (5530) rəvayət edilmişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir (26-cı hədisə və onun qeydlərinə bax).

# ١٦١- فَضْلِ الزِّيَارَةِ

## 161-ci fəsil. Ziyarət etməyin fəziləti

٣٥٠- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ، وَمُوسَى بْنُ إِسْمَاعِيلَ، قَالاَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَبِي رَافِعٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((زَارَ رَجُلٌ أَخًا لَهُ فِي قَرْيَةٍ، فَأَرْصَدَ اللَّهُ لَهُ مَلَكًا عَلَى مَدْرَجَتِهِ، فَقَالَ: أَيْنَ تُرِيدُ؟ قَالَ: أَخًا لِي فِي هَذِهِ الْقَرْيَةِ، فَقَالَ: هَلْ لَهُ عَلَيْكَ مِنْ نِعْمَةٍ تَرُبُّهَا؟ قَالَ: لاَ، إِنِّي أُحِبُّهُ فِي اللَّهِ، قَالَ: فَإِنِّي رَسُولُ اللَّهِ إِلَيْكَ، أَنَّ اللَّهَ أَحَبَّكَ كَمَا أَحْبَبْتَهُ)).

**(350)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir kişi (başqa) bir kənddə olan qardaşını ziyarət etdi. Allah onun keçəcəyi yolunun üstünə onu gözətləmək üçün bir mələk göndərdi. Mələk (ondan): "Hara gedirsən?"– deyə soruşdu. Adam: "Bu kənddəki qardaşımı (ziyarət etməyə gedirəm)"– dedi. Mələk soruşdu: "Sənin ona verəcəyinmi var?"[1] O, dedi: "Xeyr, mən onu ancaq Allah xatirinə sevirəm." Mələk dedi: "Mən, Allahın sənin yanına göndərdiyi elçisiyəm. Sən onu sevdiyin kimi, Allah da səni sevir.[2]"[3]

---

[1] Muslimin "Səhih"indəki (6714) rəvayətdə "sənin ondan alacağınmı var?" deyilir.

[2] Qüdsi hədisdə Uca Allah buyurur: **"Mənim xatirimə bir-birini sevənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-biri ilə əlaqə saxlayanlara Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birinə nəsihət edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birini ziyarət edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birinə yaxşılıq edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birini sevənlər Qiyamət günü nurdan olan minbərlər üzərində duracaqlar. Peyğəmbərlər, siddiqlər və şəhidlər onlara belə bir məqamda olduqlarına görə qibtə edəcəklər"** (Musnəd İmam Əhməd, 5/229; Səhih əl-Cami, 4321); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahın qulları arasında elə kimsələr vardır ki, özləri peyğəmbər olmasalar da, peyğəmbərlər və şəhidlər onlara qibtə edəcəklər." Səhabələr dedilər: "Onların kim olduğunu bizə bildir ki, biz də onları sevək." Peyğəmbər ﷺ dedi: "Onlar bir-birini qohumluq xatirinə yox, məhz Allah rizası üçün sevən kimsələrdir. Qiyamət günü onların üzləri nur saçacaq, özləri də nurdan olan minbərlər üzərində duracaqlar. İnsanlar nədənsə qorxduqları zaman onlar heç nədən qorxmaz, insanlar kədərləndikləri zaman, onlar heç nəyə görə kədərlənməzlər." Sonra Peyğəmbər ﷺ bu ayəni oxudu: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər"** (Sunən Əbu Davud, 3527; Səhih ət-Tərğib vət-Tərhib, 3026).

[3] Bu hədisi Muslim (8/12) rəvayət etmişdir.

## ١٦٢- بَابُ الرَّجُلِ يُحِبُّ قَوْمًا وَلَمَّا يَلْحَقْ بِهِمْ

## 162-ci fəsil. Bir camaatı sevən, lakin onların dərəcəsinə çata bilməyən adam

٣٥١- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مَسْلَمَةَ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ حُمَيْدِ بْنِ هِلاَلٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الصَّامِتِ، عَنْ أَبِي ذَرٍّ قَالَ، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، الرَّجُلُ يُحِبُّ الْقَوْمَ وَلاَ يَسْتَطِيعُ أَنْ يَلْحَقَ بِعَمَلِهِمْ؟ قَالَ: ((أَنْتَ يَا أَبَا ذَرٍّ مَعَ مَنْ أَحْبَبْتَ))، قُلْتُ: إِنِّي أُحِبُّ اللَّهَ وَرَسُولَهُ، قَالَ: ((أَنْتَ مَعَ مَنْ أَحْبَبْتَ يَا أَبَا ذَرٍّ)).

**(351)** ........ Əbu Zərr ﷺ demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə ﷺ) dedim: "Ya Rəsulullah! Adam bir toplumu sevir, lakin onların əməllərinin *dərəcəsinə* çata bilmir?"[1] O, dedi: "Ey Əbu Zərr, sən sevdiyin kimsənin yanında olacaqsan."[2] Dedim: "Mən Allahı və Onun rəsulunu sevirəm!" Yenə dedi: "Ey Əbu Zərr, sən sevdiyin kimsənin yanında olacaqsan."[3]

---

[1] Burada Əbu Zərr ﷺ möminlərin imanda və əməldə dərəcə baxımından birinin digərindən üstün olduğunu bildirir. Bu da, dəlildir ki, iman artır və azalır.

[2] Bu xüsusda varid olmuş digər hədisdə Aişə ﷺ rəvayət etmişdir ki, (bir gün) səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah! Həqiqətən, sən mənim üçün həm özümdən, həm ailəmdən, həm övladımdan sevimlisən. Mən evimdə olarkən, səni xatırlayıram və səni görməyənə qədər qəlbim rahatlıq tapmır. Hər ikimizin öləcəyini xatırlayanda isə düşünürəm ki, sən Cənnətə girəcək və peyğəmbərlərə xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə ora düşə bilsəm qorxuram bir daha səni görməyim." Peyğəmbər ﷺ ona cavab vermədi. Nəhayət, Cəbrail ﷺ bu ayəni (4/69) nazil etdi: **"Allaha və *Onun* Rəsuluna itaət edənlər, Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır!"** (Mocəmus-Səğir, 1/12; Silsilətul-Əhadisis-Səhihə, 2933).

[3] Bu hədisi Əbu Davud (5126), Əhməd (5/156) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**٣٥٢-** حَدَّثَنَا مُسْلِمُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا هِشَامٌ قَالَ: حَدَّثَنَا قَتَادَةُ، عَنْ أَنَسٍ، أَنَّ رَجُلًا سَأَلَ النَّبِيَّ ﷺ فَقَالَ: يَا نَبِيَّ اللَّهِ، مَتَى السَّاعَةُ؟ فَقَالَ: ((وَمَا أَعْدَدْتَ لَهَا؟)) قَالَ: مَا أَعْدَدْتُ مِنْ كَبِيرٍ، إِلاَّ أَنِّي أُحِبُّ اللَّهَ وَرَسُولَهُ، فَقَالَ: ((الْمَرْءُ مَعَ مَنْ أَحَبَّ)).

قَالَ أَنَسٌ: فَمَا رَأَيْتُ الْمُسْلِمِينَ فَرِحُوا بَعْدَ الإِسْلاَمِ أَشَدَّ مِمَّا فَرِحُوا يَوْمَئِذٍ.

**(352)** ........ Ənəs ﷛ rəvayət edir ki, bir kişi Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın peyğəmbəri, Qiyamət nə zaman qopacaq?" Peyğəmbər ﷺ soruşdu: "Sən o gün üçün nə hazırlamısan?"[1] Adam dedi: "Elə böyük bir şey hazırlamamışam.[2] Mən, sadəcə, Allahı və Onun rəsulunu sevirəm!" Peyğəmbər ﷺ buyurdu: "Adam sevdiyi kimsənin yanında olacaq."

Ənəs dedi: "Mən müsəlmanların İslam dinini qəbul etdikdən sonra, həmin gün sevindikləri qədər daha çox sevindiklərini görmədim.[3]"[4]

---

[1] Alimlər belə cavaba: "Müdrik adamın cavabı"– deyirlər. Yəni verilən suala daha geniş cavab vermək və sual verən adama daha çox fayda vermək üçün sualı başqa cür qoymaq, sonra da buna cavab vermək. Burada Peyğəmbər ﷺ həmin adama Qiyamətin qopacağı vaxta yox, Qiyamət gününə hazırladığı əməllərə diqqət yetirməyi buyurur.

[2] İmam Buxari və Muslimin "Səhih"lərində: "Mən elə də çox namaz, oruc və sədəqə tədarük görməmişəm" deyilir.

[3] İmam Buxarinin nəql etdiyi bu hədisin sonunda Ənəs ibn Malik ﷛ demişdir: "Mən Peyğəmbəri ﷺ, Əbu Bəkri, Öməri sevirəm və ümid edirəm ki, onlar qədər yaxşılıq etmiş olmasam da, bu sevgimə görə onlarla bir yerdə olacağam."

[4] Bu hədisi Buxari (3688), Muslim (6883), Tirmizi (2560) və Əhməd (3/255) rəvayət etmişdir.

## ١٦٣- بَابُ فَضْلِ الْكَبِيرِ

## 163-cü fəsil. Böyüyün fəziləti

**٣٥٣-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ، عَنْ أَبِي صَخْرٍ، عَنِ ابْنِ قُسَيْطٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لَمْ يَرْحَمْ صَغِيرَنَا، وَيَعْرِفْ حَقَّ كَبِيرِنَا، فَلَيْسَ مِنَّا)).

**(353)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kiçiyimizə rəhm etməyən[1] və böyüyümüzün haqqını tanımayan adam bizdən deyildir.[2]"[3]

**٣٥٤-** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، حَدَّثَنَا ابْنُ أَبِي جُرَيْجٍ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ عَامِرٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ، يَبْلُغُ بِهِ النَّبِيَّ ﷺ، قَالَ: ((مَنْ لَمْ يَرْحَمْ صَغِيرَنَا، وَيَعْرِفْ حَقَّ كَبِيرِنَا، فَلَيْسَ مِنَّا)).

---

[1] 49-cu, 50-ci, 52-ci və 53-cü fəsillərdəki hədislərə və onların qeydlərinə bax.

[2] Başda valideynlər olmaqla, babanın, nənənin, əminin, dayının, bibinin, xalanın, elm əhlinin və s. yaşlı insanların hörmətini saxlamaq, onları layiqincə qitmətləndirmək, onların üzünə ağ olmamaq, yanlarında ədəbsizlik etməmək və onların haqqına aid başqa bu kimi vacibləri və müstəhəbləri yerinə yetirməyən kimsə Peyğəmbərin ﷺ yolunu tutub gedən və onun Sünnəsinə sarılan müsəlmanlardan sayıla bilməz. Bu məsələdə, yəni "bizdən deyildir" sözünün izahında diqqətli olmaq gərəkdir. Yəni böyüyün haqqını tapdalamaq və başqa buna bənzər günah işlətmək, günahı edən kimsəni İslamdan çıxarmır və ya əksinə, bunu edən kimsəni Peyğəmbərin ﷺ dərəcəsinə qaldırmır. Bu xüsusda İbn Teymiyyə ؒ demişdir: "İmam Əhməd və bir çox alimlər Peyğəmbərin ﷺ "bizdən deyil" sözünü "bizim tayımız deyil" və ya "bizim xeyirlimiz deyil" kimi izah edənlərin bu izahını inkar etmiş və: "Bu, murciələrin izahıdır"– demişlər. (Onların batil izahına görə) bu, o deməkdir ki, əgər adam bu böyük günahı etməsə, Peyğəmbər ﷺ kimi ola bilər. Həmçinin, xəvariclərin və motəzililərin: "bu günahı edən kimsə İslamdan birdəfəlik çıxır və əbədi Cəhənnəmlik olur" izahı da batil izahdır" (İmanul-Ovsat, 34).

[3] Bu hədisi Hakim (Mustədrək, 4/178) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(354)** ........ Abdullah ibn Amr ibn As ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kiçiyimizə rəhm etməyən və böyüyümüzün haqqını tanımayan kəs bizdən deyildir."[1]

(...)– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنِ ابْنِ أَبِي نَجِيحٍ، سَمِعَ عُبَيْدَ اللَّهِ ابْنَ عَامِرٍ يُحَدِّثُ عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ يَبْلُغُ بِهِ النَّبِيَّ ﷺ مِثْلَهُ.

**(...)** ........ Bizə Muhəmməd ibn Səllam belə rəvayət etmişdir: "Bizə Süfyan ibn Uyeynə, İbn Əbu Cureycdən, o da Ubeydullah ibn Amirdən, o da Abdullah ibn Amr ibn Asdan ﵄, o da Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir.

**٣٥٥**– حَدَّثَنَا عَبْدَةُ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لَيْسَ مِنَّا مَنْ لَمْ يَعْرِفْ حَقَّ كَبِيرِنَا، وَيَرْحَمْ صَغِيرَنَا)).

**(355)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Böyüyümüzün haqqını tanımayan və kiçiyimizə rəhm etməyən kəs bizdən deyildir."[2]

**٣٥٦**– حَدَّثَنَا مَحْمُودٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ هَارُونَ، أَخْبَرَنَا الْوَلِيدُ بْنُ جَمِيلٍ، عَنِ الْقَاسِمِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي أُمَامَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((مَنْ لَمْ يَرْحَمْ صَغِيرَنَا، وَيُجِلَّ كَبِيرَنَا، فَلَيْسَ مِنَّا)).

**(356)** ........ Əbu Umamə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kiçiyimizə rəhm etməyən və böyüyümüzə hörmət göstərməyən kimsə bizdən deyildir."[3]

---

[1] "Səhih ət-Tərğib vət-Tərhib", 100.

[2] "Səhih ət-Tərğib vət-Tərhib", 103. Digər rəvayətdə: "...və alimlərimizə hörmət qoymayan..." sözü də əlavə edilmişdir (Musnəd İmam Əhməd, 5/323; Səhih əl-Cami, 5443).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

## ١٦٤- بَابُ إِجْلَالِ الْكَبِيرِ

## 164-cü fəsil. Böyüyə hörmət göstərmək

٣٥٧- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ، أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا عَوْفٌ، عَنْ زِيَادِ بْنِ مِخْرَاقٍ قَالَ: قَالَ أَبُو كِنَانَةَ، عَنِ الأَشْعَرِيِّ قَالَ: إِنَّ مِنْ إِجْلَالِ اللَّهِ إِكْرَامَ ذِي الشَّيْبَةِ الْمُسْلِمِ، وَحَامِلِ الْقُرْآنِ، غَيْرِ الْغَالِي فِيهِ، وَلاَ الْجَافِي عَنْهُ، وَإِكْرَامَ ذِي السُّلْطَانِ الْمُقْسِطِ.

**(357)** ........ Əşari[1] ﷺ demişdir:[2] "Ağsaqqal müsəlmana sayğı göstərmək,[3] habelə, Quranda ifrata varmadan və ona laqeyd yanaşmadan onu daşıyana[4] hörmət qoymaq və bir də ədalətli ixtiyar sahibinin hörmətini saxlamaq,[1] Allahı uca tutmaq deməkdir."

---

[1] Bu, Peyğəmbərin ﷺ məşhur səhabəsi Əbu Musa Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimidir ﷺ.

[2] İmam Əbu Davudun "Sunən" əsərində (4843) bu hədis Əbu Musa əl-Əşaridən ﷺ "mərfu" isnadla, yəni Peyğəmbərə ﷺ istinad edilərək rəvayət olunmuşdur. Muhəmməd Nasirəddin əl-Albani "əl-Ədəbul-Mufrad" əsərində olan bu rəvayətin "həsən", İmam Əbu Davudun rəvayətinin isə "həsən-səhih" olduğunu demişdir (Səhih əl-Cami, 2199).

[3] Hər bir işdə ağsaqqal müsəlmana sayğı göstərmək, ona qarşı ədəbsizlik etməmək, onunla mülayim rəftar etmək Allahı uca tutmaq deməkdir. Lakin elə müstəsna hallar da vardır ki, belə hallarda əvvəlcə cavan adama, sonra isə ağsaqqala sayğı göstərilir. Bu əməl kənardan baxan adamlara böyüyə hörmətsizlik kimi görünsə də, əslində şəriətin tələbini yerinə yetirmək sayılır. Peyğəmbərin ﷺ Sünnəsinə görə, adam sağında və solunda oturan camaata su və s. təqdim etdikdə sağdan başlamalıdır. Səhl ibn Sədin ﷺ rəvayət etdiyi hədisi buna misal çəkmək olar. O rəvayət edir ki, *bir dəfə* Peyğəmbərə ﷺ bir cam süd gətirdilər və o, bu süddən içdi. *Həmin vaxt* onun sağında *məclisdəkilərin* ən kiçiyi – yeniyetmə bir oğlan, solunda isə yaşlı adamlar oturmuşdu. Peyğəmbər ﷺ *yeniyetməyə* dedi: "Cavan oğlan! Mənə izin verirsənmi, bunu yaşlılara verim?" *Cavan oğlan cavabında* dedi: "Sənin artığını *birinci olaraq içmək* xüsusunda heç kəsə güzəştə gedən deyiləm, ya Rəsulullah." *Buna görə də*, Peyğəmbər ﷺ camı *əvvəlcə* o cavan oğlana verdi" (Səhih əl-Buxari, 2351).

[4] Burada "Quranı daşıyan" deyildikdə, onu əzbərləyən və düzgün qaydada oxuyan, habelə, mənasını başa düşən və öyrəndiklərinə əməl edən qarilər nəzərdə tutulur. Həsən əl-Bəsri demişdir: "Bu Quranı kölələr də oxuyur, uşaqlar da. Onlar nə ona layiqincə əməl

**٣٥٨-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا جَرِيرٌ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لَيْسَ مِنَّا مَنْ لَمْ يَرْحَمْ صَغِيرَنَا، وَيُوَقِّرْ كَبِيرَنَا)).

**(358)** ........ Abdullah ibn Amr ibn As ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kiçiyimizə rəhm etməyən, böyüyümüzün hörmətini saxlamayan kəs bizdən deyildir."[2]

---

edir, nə də onun mənasını başa düşürlər. Doğrusu, Quran əhlindən olmağa ancaq o kəs layiqdir ki, Quranda buyurulanlar onun əməlində öz əksini tapsın. Allah ﷻ Öz Kitabında belə buyurur: ***"Bu* mübarək Kitabı sənə nazil etdik ki, *insanlar* onun ayələrini düşünüb anlasınlar və ağıl sahibləri də ondan ibrət götürsünlər"** (Sad, 29). Quranın ayələrini anlayanlardan olmaq üçün isə ona əməl etmək gərəkdir. (Saxtakar qarilərdən) biri o birinə: "Gəl, sənə Quran oxuyum, dinlə"– deyir. Vallahi, əsl qarilər (Quranı daşıyanlar) belə etməzdilər. Vallahi ki, bunlar nə qari, nə də zahiddirlər. Allah camaat arasında belələrinin sayını artırmasın!" (Musənnəf Abdur-Rəzzaq, 5984; Şoəbul-İman, 2408). Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Quran sənin ya lehinə, ya da əleyhinə bir hüccətdir" (Səhih Muslim, 534), yəni mömin bəndə Quranın buyurduqlarına əməl edib, qadağan etdiklərindən çəkinərsə, bu adam qəbirdə sorğu-suala çəkilərkən, məhşər günü haqq-ədalət tərəziləri qoyularkən və Allahın hüzuruna gətirilərkən, Quran onun lehinə, əks halda isə əleyhinə şahidlik edər. Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah bu Kitab sayəsində insanların bir qismini ucaldar, digərilərini isə alçaldar" (Səhih Muslim, 1934).

[1] Peyğəmbər ﷺ demişdir: "Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Eləcə də, kim əmirə itaət etsə, mənə itaət etmiş olar, kim əmirə asi olsa, mənə asi olmuş olar. Əmir, həqiqətən, bir qalxandır. Onun rəhbərliyi altında vuruşulur və onun sayəsində *düşməndən* qorunmaq olur. Əgər o, *öz rəiyyətinə* Allahdan qorxmağı *və yaxşı işlər görməyi* əmr edərsə, özü də ədalətli olarsa, buna görə savab qazanar. Yox, əgər günah işlər görməyi əmr edərsə, günahı onun öz boynunda qalar" (Səhih əl-Buxari, 2957).

[2] Əvvəlki fəsilə bax.

## ١٦٥- بَابُ يَبْدَأُ الْكَبِيرُ بِالْكَلَامِ وَالسُّؤَالِ

## 165-ci fəsil. Danışmağa və sual verməyə böyüklər başlayar

**٣٥٩-** حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنْ بُشَيْرِ ابْنِ يَسَارٍ مَوْلَى الْأَنْصَارِ، عَنْ رَافِعِ بْنِ خَدِيجٍ، وَسَهْلِ بْنِ أَبِي حَثْمَةَ، أَنَّهُمَا حَدَثَا، أَوْ حَدَّثَاهُ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ سَهْلٍ، وَمُحَيِّصَةَ بْنَ مَسْعُودٍ، أَتَيَا خَيْبَرَ فَتَفَرَّقَا فِي النَّخْلِ، فَقُتِلَ عَبْدُ اللَّهِ بْنُ سَهْلٍ، فَجَاءَ عَبْدُ الرَّحْمَنِ بْنُ سَهْلٍ، وَحُوَيِّصَةُ وَمُحَيِّصَةُ ابْنَا مَسْعُودٍ إِلَى النَّبِيِّ ﷺ، فَتَكَلَّمُوا فِي أَمْرِ صَاحِبِهِمْ، فَبَدَأَ عَبْدُ الرَّحْمَنِ، وَكَانَ أَصْغَرَ الْقَوْمِ، فَقَالَ لَهُ النَّبِيُّ ﷺ: ((كَبِّرِ الْكُبْرَ))، قَالَ يَحْيَى: لِيَلِيَ الْكَلَامَ الْأَكْبَرُ، فَتَكَلَّمُوا فِي أَمْرِ صَاحِبِهِمْ. فَقَالَ النَّبِيُّ ﷺ: ((اسْتَحِقُّوا قَتِيلَكُمْ))، أَوْ قَالَ: ((صَاحِبَكُمْ، بِأَيْمَانِ خَمْسِينَ مِنْكُمْ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ، أَمْرٌ لَمْ نَرَهُ، قَالَ: ((فَتُبْرِئُكُمْ يَهُودُ بِأَيْمَانِ خَمْسِينَ مِنْهُمْ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ، قَوْمٌ كُفَّارٌ. فَفَدَاهُ رَسُولُ اللَّهِ ﷺ مِنْ قِبَلِهِ.

قَالَ سَهْلٌ: فَأَدْرَكْتُ نَاقَةً مِنْ تِلْكَ الْإِبِلِ، فَدَخَلْتُ مِرْبَدًا لَهُمْ، فَرَكَضَتْنِي بِرِجْلِهَا.

**(359)** ........ Rafi ibn Xədic və Səhl ibn Əbu Həsmə demişdir: (Bir gün[1]) Abdullah ibn Səhl və Muheyyisə ibn Məsud Xeybərə yollandı. Onlar Xurma baxçasında bir-birindən ayrıldılar. Bu əsnada Abdullah ibn Səhl öldürüldü.[2] Sonra Abdur-Rəhman ibn Səhl və Məsudun oğlanları – Huveyyisə və Muheyyisə[3] Peyğəmbərin ﷺ yanına gəldilər ki, yoldaşları barədə[4] ona xəbər versinlər. Onların ən kiçiyi – Abdur-Rəhman sözə başladıqda, Peyğəmbər ﷺ: "Qoy böyüyünüz danışsın!"– deyə buyurdu." Onlar yoldaşları

---

[1] Bu hadisə xeybərlilərlə müsəlmanlar arasında sülh müqaviləsi olduğu bir vaxtda baş vermişdir.

[2] İmam Buxarinin "Səhih"ində (3173) rəvayət edilir ki, "Muheyyisə onu dəfn etdi, sonra da Mədinəyə qayıtdı."

[3] Bunların üçü də həm səhabə, həm də əmiuşaqlarıdır.

[4] Yəni Abdullah ibn Səhlin ؓ öldürülməsi barədə.

barədə ona xəbər verdilər.[1] Peyğəmbər ﷺ *ölənin qardaşına*[2] buyurdu: "Ölünüzdən (yaxud yoldaşınızdan) ötrü əlli kişinin andı ilə iddia edə bilərsinizmi?" Onlar dedilər: "Ya Rəsulullah! Biz bunu görməmişik."[3] Peyğəmbər ﷺ buyurdu: "Elə isə, qoy, yəhudilərdən əlli nəfər (bu cinayəti etmədiklərinə dair) and içməklə sizin yanınızda özlərinə bəraət qazandırsınlar." Onlar dedilər: "Ya Rəsulullah! (Onlar) kafir tayfadır."[4] Onda Peyğəmbər ﷺ öz tərəfindən onlara qanbahası verdi.[5]"

Səhl demişdir: "Mən bu dəvələrdən bəzisini görmüşəm. (Bir dəfə) mən onların[6] xurma qurutmaq üçün ayırdıqları yerə daxil oldum və bu dəvələrdən bir dişi dəvə ayağı ilə məni vurdu."[7]

---

[1] Digər rəvayətdə deyilir: "Onda Abdur-Rəhman susdu və digər iki səhabə danışmağa başladı" (Səhih əl-Buxari, 3173).

[2] Burada "ölənin qardaşı" deyildikdə, Abdur-Rəhman ibn Səhl ؓ nəzərdə tutulur.

[3] İmam Buxarinin "Səhih"ində (3173) deyilir: "(Peyğəmbər ﷺ onları dinlədikdən) sonra dedi: "Qardaşınızın qanını yerdə qoymayasınız deyə, (onun yəhudilər tərəfindən öldürüldüyünə) and içə bilərsinizmi?" Onlar dedilər: "*Hadisənin* şahidi olmadığımız və *onu* görmədiyimiz halda, biz necə and içə bilərik?!" Ərəbcə buna "qəsamə (القَسَامَة)" deyilir.

Qəsamə: günahsız adamın öldürüldüyünə dair iddia edən tərəfin, habelə, ittiham olunan kimsələrin and içməsidir (Subulus-Səlam). Ümumiyyətlə, şəriətə görə iddia edən adam dəlil-sübut gətirməli, ittihamı inkar edən kimsə isə and içməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "İddia edən kəs dəlil-sübut gətirməli, ittiham olunan kəs isə and içməlidir" (Sunən ət-Tirmizi, 1392; Səhih əl-Cami, 2897). Və əgər qətldə ittiham olunan tərəfin qətlə yetirilmiş adamla açıq-aşkar ədavəti olduğu və ya buna bənzər başqa bir səbəbdən dolayı, onların bu qətli törətdiyi ehtimal edilərsə, ölənin varislərindən əlli nəfər bu iddianı sübuta yetirmək üçün and içməlidir. Və əgər onlar bundan imtina edərlərsə, o zaman ittiham olunan tərəfdən əlli nəfər özlərinə bəraət qazandırmaq üçün and içməlidirlər.

[4] Buxarinin nəql etdiyi rəvayətdə deyilir: "Kafir adamların andına biz necə inana bilərik?" (Səhih əl-Buxari, 3173).

[5] Digər rəvayətdə deyilir ki: "Peyğəmbər ﷺ sədəqə üçün ayrılmış dəvələrdən yüzünü onlara verdi" (Səhih əl-Buxari, 6898)

[6] Yəni Abdullah ibn Səhlin ؓ varislərinin.

[7] Bu hədisi Buxari (3173), Muslim (4435) və Əhməd (4/142) rəvayət etmişdir.

## ١٦٦- بَابُ إِذَا لَمْ يَتَكَلَّمِ الْكَبِيرُ هَلْ لِلأَصْغَرِ أَنْ يَتَكَلَّمَ؟

## 166-cı fəsil. Böyük susan yerdə kiçik danışa bilərmi?

٣٦٠- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي نَافِعٌ، عَنِ ابْنِ عُمَرَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَخْبِرُونِي بِشَجَرَةٍ مَثَلُهَا مَثَلُ الْمُسْلِمِ، تُؤْتِي أُكُلَهَا كُلَّ حِينٍ بِإِذْنِ رَبِّهَا، لاَ تَحُتُّ وَرَقَهَا))، فَوَقَعَ فِي نَفْسِي النَّخْلَةُ، فَكَرِهْتُ أَنْ أَتَكَلَّمَ، وَثَمَّ أَبُو بَكْرٍ وَعُمَرُ رَضِيَ اللَّهُ عَنْهُمَا، فَلَمَّا لَمْ يَتَكَلَّمَا قَالَ النَّبِيُّ ﷺ: ((هِيَ النَّخْلَةُ))، فَلَمَّا خَرَجْتُ مَعَ أَبِي قُلْتُ: يَا أَبَتِ، وَقَعَ فِي نَفْسِي النَّخْلَةُ، قَالَ: مَا مَنَعَكَ أَنْ تَقُولَهَا؟ لَوْ كُنْتَ قُلْتَهَا كَانَ أَحَبَّ إِلَيَّ مِنْ كَذَا وَكَذَا، قَالَ: مَا مَنَعَنِي إِلاَّ لَمْ أَرَكَ، وَلاَ أَبَا بَكْرٍ تَكَلَّمْتُمَا، فَكَرِهْتُ.

**(360)** ........ İbn Ömər ﷺ demişdir: “(Bir dəfə) Rəsulullah ﷺ (məclisdəkilərə) dedi: “Mənə elə bir ağac barədə xəbər verin ki, onun məsəli müsəlmanın məsəlinə bənzəsin. O *ağac* Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verər, yarpaqlarını da tökməz.”[1]

---

[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Möminin məsəli xurma ağacının məsəlinə bənzəyir. Bu ağacdan nə götürsən, o, sənə fayda verər” (Mocəmul-Kəbir, 3/204/1; Silsilətul-Əhadisis-Səhihə, 2285); digər bir hədisdə o, demişdir: “Ağaclar arasında elə bir ağac vardır ki, onun bərəkəti müsəlmanın bərəkətinə bənzəyir” (Səhih əl-Buxari, 5444); Başqa isnadla varid olmuş bu hədisdə Peyğəmbər ﷺ demişdir: “bu ağac nə yarpaqlarını tökər, nə..., nə..., nə...” (Səhih əl-Buxari, 4698). Burada, Peyğəmbər ﷺ xurma ağacının digər keyfiyyətlərini sadalayır.

Şueyb ibn Həbhab demişdir: “Bir gün biz Ənəs ibn Malikin yanında ikən, ona bir qab tər xurma gətirdilər. *Əbul-Aliyə də həmin məclisdə idi.* Ənəs ona: “Ye, ey Əbul-Aliyə! Bu, Uca Allahın Öz Kitabında (“İbrahim” surəsi, 24-25) zikr etdiyi *və möminə bənzətdiyi* ağacdandır: **“Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (lə ilahə illəllah) kökü *yerdə* möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O *ağac* Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar”** (Səhih və Daif Sunən ət-Tirmizi, 3119; Təfsir ət-Təbəri). Bu ayədə xurma ağacı ilə mömin arasında olan dörd oxşarlıq zikr edilir:

Birincisi, gözəl sözün gözəl ağac kimi olmasıdır. Yəni “lə ilahə illəllah” kəlməsini təsdiqləyən mömin görünüş, dözümlülük, fayda vermək və s. gözəl cəhətlər baxımından xurma ağacına bənzəyir.

Mən özlüyümdə (bunun) xurma ağacı olduğunu düşündüm, lakin (böyüklərin yanında) danışmaq istəmədim. Çünki Əbu Bəkr və Ömər – Allah hər ikisindən razı olsun! – orada idi.[1] Onlar cavab vermədikdə Peyğəmbər ﷺ

---

İkincisi, bu ağacın kökünün yerdə möhkəm olmasıdır. Yəni bu ağacın yerdə möhkəm kökü olduğu kimi, imanın da mömininin qəlbində möhkəm kökü vardır. Və necə ki, bu ağacın kökü möhkəmləndikcə o, daha çox fayda verir, eləcə də, mömininin qəlbindəki iman artıqca o, digərlərinə daha çox xeyir verir. Və əgər adamın qəlbi düzələrsə, bədən üzvlərinin hamısı düzələr. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Bədəndə bir ət parçası vardır. Əgər o, yaxşı olarsa, bütün bədən yaxşı olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, o *ət parçası* qəlbdir" (Səhih əl-Buxari, 52).

Üçüncüsü, budaqlarının göyə yüksəlməsidir. Xurma ağacının budaqları olduğu kimi, imanın da budaqları vardır. Gözəl əxlaq, saleh əməl, ədəb-ərkan, itaət və başqa bu kimi əməllər imanın budaqları hesab edilir.

Dördüncüsü, bu ağacın hər zaman bəhrə verməsidir. Yəni hər mövsümdə tər və ya qurudulmuş xurma tapmaq asan olduğu kimi, mömin də daim öz gözəl əxlaqı və xeyirxah əməlləri ilə başqalarına fayda verir.

Xurma ağacının möminə bənzəyən başqa oxşarlıqları da vardır. Məsələn, bu ağacın möhkəm olması üçün vaxtlı-vaxtında sulanması labüd olduğu kimi, imanın da Allahın zikri ilə sulanması labüddür. Bu xüsusda, Uca Allah belə buyurur: **"Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan *ayələr* üçün yumşalması, habelə, daha öncə özlərinə Kitab verilmiş, uzun müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxusu da fasiq olmuş kimsələr** (yəhudilər və xaçpərəstlər) **kimi olmamaları vaxtı gəlib çatmadımı? Bilin ki, Allah torpağı onun ölümündən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə anlayasınız"** (əl-Hədid, 16-17). Yəni Uca Allah ölü torpağı su ilə diriltdiyi kimi, ölü qəlbləri də vəhy ilə dirildir. Bu deyilənlərdən aydın olur ki, iman mübarək bir ağac, əkildiyi yer isə mömininin qəlbidir. Həmçinin, o da aydın olur ki, imanın kökü və budaqları vardır. Kökü: imanın altı şərtini qəbul etmək – Allaha, Onun mələklərinə, Onun kitablarına, Onun elçilərinə və Axirət gününə, habelə, qədərin xeyrinə və şərinə iman gətirməkdir. Budaqları isə ibadət, itaət və əxlaqla bağlı olan digər əməllərdir. Həmçinin, o da aydın olur ki, imanın səmərəsi vardır. Səmərəsi isə mömininin bu dünyada və Axriətdə qazandığı uğurlardır. Uca Allah buyurur: **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq"** (ən-Nəhl, 97).

[1] Digər rəvayətdə İbn Ömər رضي الله عنهما demişdir: "Mən: "Bu, xurma ağacıdır, ya Rəsulullah"– demək istədim. Amma baxdım ki, məclisdə on adam var, ən kiçiyi də mənəm.

buyurdu: "Bu, xurma ağacıdır!" Mən atamla birgə bayıra çıxdıqda dedim: "Atacan! Mən özlüyümdə (bunun) xurma ağacı olduğunu düşündüm." Atam dedi: "Bəs sənə bunu deməyə nə mane oldu? Əgər bunu demiş olsaydın, bu mənim üçün filan və filan şeydən daha əziz olardı."[1]

İbn Ömər dedi: "Mənə mane olan yalnız sənin və Əbu Bəkrin susmağı oldu. (Ancaq) buna görə (danışmağı) məsləhət bilmədim."[2]

---

Odur ki, susdum" (Səhih əl-Buxari, 5444); digər hədisdə rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما dedi: "Mən bunun xurma ağacı olduğunu demək istədim. Lakin məclisdəki yaşlıların yanında danışmaqdan çəkindim" (Səhih Muslim, 7277). İbn Ömərin رضي الله عنهما böyüklərə hörmət qoyması, onların yanında danışmaması onun necə gözəl əxlaq sahibi olduğundan xəbər verir.

[1] Bu, dəlildir ki, lazım gəldikdə uşaq böyüklərin yanında danışa bilər.

[2] Bu hədisi Buxari (61; 62; 72; 131; 5448), Muslim (5/137; 138), Tirmizi (2867) və Əhməd (2/12) rəvayət etmişdir.

## ١٦٧- بَابُ تَسْوِيدِ الأَكَابِرِ

## 167-ci fəsil. Böyükləri uca tutmaq

٣٦١- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ: سَمِعْتُ مُطَرِّفًا، عَنْ حَكِيمِ ابْنِ قَيْسِ بْنِ عَاصِمٍ، أَنَّ أَبَاهُ أَوْصَى عِنْدَ مَوْتِهِ بَنِيهِ فَقَالَ: اتَّقُوا اللَّهَ وَسَوِّدُوا أَكْبَرَكُمْ، فَإِنَّ الْقَوْمَ إِذَا سَوَّدُوا أَكْبَرَهُمْ خَلَفُوا أَبَاهُمْ، وَإِذَا سَوَّدُوا أَصْغَرَهُمْ أَزْرَى بِهِمْ ذَلِكَ فِي أَكْفَائِهِمْ. وَعَلَيْكُمْ بِالْمَالِ وَاصْطِنَاعِهِ، فَإِنَّهُ مَنْبَهَةٌ لِلْكَرِيمِ، وَيُسْتَغْنَى بِهِ عَنِ اللَّئِيمِ. وَإِيَّاكُمْ وَمَسْأَلَةَ النَّاسِ، فَإِنَّهَا مِنْ آخِرِ كَسْبِ الرَّجُلِ. وَإِذَا مُتُّ فَلاَ تَنُوحُوا، فَإِنَّهُ لَمْ يُنَحْ عَلَى رَسُولِ اللَّهِ ﷺ. وَإِذَا مُتُّ فَادْفِنُونِي بِأَرْضٍ لاَ يَشْعُرُ بِدَفْنِي بَكْرُ بْنُ وَائِلٍ، فَإِنِّي كُنْتُ أُغَافِلُهُمْ فِي الْجَاهِلِيَّةِ.

**(361)** ........ Həkim ibn Qeys ibn Asim rəvayət etmişdir ki,[1] onun atası[2] ölüm ayağında övladlarına belə tövsiyə etmişdir: "Allahdan qorxun və böyüklərinizi uca tutun! Çünki bir camaat öz böyüklərini uca tutduqca, (bu böyüklər) onların atalarını əvəz edər.[3] Kiçiklərini uca tutduqda isə,

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir (953-cü hədisə bax).

[2] Qeys ibn Asim əs-Sədi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ onun barəsində: "O, dəvə sahiblərinin ən hörmətlisidir"– demişdir (953-cü hədisə bax).

[3] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Bərəkət, böyüklərinizin yanındadır" (Səhih İbn Hibban, 1912; Silsilətul-Əhadisis-Səhihə, 1778). İbn Səd "Təbəqatul-Kubra" əsərində rəvayət edir ki, İbnul-Əşəs Həccac ibn Yusufa qarşı çıxdığı zaman, Uqbə ibn Abdul-Ğafir, Əbul-Covza, Abdullah ibn Ğalib və onlarla həmrəy olan bir neçə nəfər Həsən əl-Bəsrinin yanına gəlib dedilər: "Ey Əbu Səid, haqsız yerə camaatın qanını axıdan, onların mallarını qəsb edən, namazı buraxan və neçə-neçə haram işlər görən bu tağuta qarşı vuruşmaq barədə nə deyirsən?" Həsən əl-Bəsri onlara belə cavab verdi: "Mən sizə ona qarşı vuruşmağı məsləhət görmürəm. Çünki əgər bu, Allahın göndərdiyi bir bəladırsa, siz öz qılınclarınızla bu bəlanın qarşısını ala bilməyəcəksiniz. Yox əgər bu, bir sınaqdırsa, onda Allah Öz hökmünü verincəyədək (*zalımları cəzalandırıncayadək*) səbir edin! Allah hökm verənlərin ən yaxşısıdır!" İbnul-Əşəsin adamları Həsənin evindən çıxanda Həccacı

bu hərəkət onları həmyaşlıları arasında rəzil edər.[1] Var-dövlət qazanın və onu (yaxşı işlərə) sərf edin! Çünki var-dövlət səxavətli adam üçün bir şərəfdir. Üstəlik, onun sayəsində alçaq adama möhtac olmursan. İnsanlardan bir şey istəməkdən çəkinin.[2] Çünki bir şey istəmək insanın son qazancıdır.[3] Mən öləndə vay-şivən salmayın. Çünki *səhabələr* Rəsulullah ﷺ üçün vay-şivən salmamışlar.[4] Mən öləndə məni elə bir yerdə dəfn edin

---

qəsd edərək: "Biz bu kafirə itaət etməliyik?!"– dedilər, sonra gedib İbnul-Əşəsə qoşuldular və nəhayət, hamısı Həccac tərəfindən qətlə yetirildilər (ət-Təbəqat, 7/163-164).

[1] Qeys ibn Asim رضي الله عنه bu nəsihəti ilə övladlarına həmişə mehriban olmağı və parçalanmamağı, aralarında yaşca böyük olanlarına sayğı göstərməyi tövsiyə edir. Belə olduğu təqdirdə Allah bu topluma çoxlu xeyir-bərəkət əta edər. Bu da, camaatın birliyi üçün səbəb olan əsas amillərdən sayılır. Böyüklərə ehtiram göstərilmədiyi təqdirdə isə onlar gözdən düşər və son nəticədə həmin toplum başsız qalar.

[2] Bu xüsusda varid olmuş bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İffətli olmaq istəyəni Allah iffətli edər. *İnsanlara* möhtac olmaq istəməyən kimsəni Allah heç kəsə möhtac etməz" (Səhih əl-Buxari, 1469); digər hədisdə o, belə buyurmuşdur: "Birinizin ip götürüb bir şələ odun yığaraq belində *bazara* aparıb satması və bu səbəbdən Allahın köməyi ilə heç kəsə möhtac olmaması, onun üçün insanlara ağız açmaqdan daha xeyirlidir. Bir də ki, bilmək olmaz, *o adamlar* ona istədiyini verəcəklər, yoxsa imtina edəcəklər" (Səhih əl-Buxari, 1471); başqa bir hədisdə o, demişdir: "Uca əl alçaq əldən daha xeyirlidir. Uca əl *sədəqə* verən əldir; alçaq əl isə dilənən əldir" (Səhih əl-Buxari, 1429).

[3] Yəni çarəsiz qalmış kasıb adam həddi aşmamaq şərtilə imkanlı adamdan yardım istəyə bilər (278-ci hədisə və onun qeydlərinə bax).

[4] Ölü üçün vay-şivən salıb ağlamaq haramdır və böyük günahlardan sayılır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üz-gözünə döyən, paltarının yaxasını cıran və cahiliyyət dövründə deyilən sözləri deyən kimsə bizdən deyildir" (Səhih əl-Buxari, 1294); başqa bir hədisdə o, demişdir: "Ümmətimin etdiyi dörd (yaramaz) xislət vardır ki, onlar bu xislətləri tərk etməyəcəklər: əsil-nəcabətlə qürrələnmək, (birisinin) nəslinə tənə vurmaq, ulduzlardan yağış diləmək və vay-şivən salıb ağlamaq. Vay-şivən salıb ağlayan qadın ölümündən əvvəl tövbə etməzsə, Qiyamət günü əynində qatrandan şalvar və bədəni gicişdirən köynəkdə həşr ediləcək" (Səhih Muslim, 3/45); digər bir hədisdə o, demişdir: "Kimin üçün vay-şivən salıb ağlasalar, buna görə (qəbirdə) ona əzab verilər" (Səhih əl-Buxari, 1291). Başda səhabələr olmaqla sələflər öz vəsiyyətlərində yaxınlarına onlar üçün vay-şivən salıb ağlamağı qadağan edərdilər. Rəvayət edilir ki, *bir dəfə* Əbu

ki, Bəkr ibn Vail mənim harada dəfn edildiyimi bilməsin. Çünki mən cahiliyyət dövründə onlara özlərinin də xəbəri olmadan zərər vurmuşam.[1]"

Musa ﷺ ağır xəstələndi və başı zövcələrindən birinin qucağında ikən bayıldı. Bu vaxt zövcəsi *fəryad qoparıb* ağlamağa başladı və Əbu Musa ona heç nə deyə bilmədi. Ayıldıqda isə dedi: "Peyğəmbərin ﷺ uzaq olduğu kimsədən mən də uzağam. Həqiqətən, Peyğəmbər ﷺ *müsibət üz verdikdə* şivən salıb ağlayan, başını qırxdıran və paltarını cıran kimsədən uzaqdır!" (Səhih əl-Buxari, 1296).

[1] Bu hədis vəsiyyət etməyin bəyənilən əməllərdən olmasına dəlalət edir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Vəsiyyət etməyə bir şeyi olan müsəlmanın *başının altında* yazılı bir vəsiyyəti olmayınca, *ardıcıl* iki gecə keçirməyə haqqı yoxdur" (Səhih əl-Buxari, 2738). Ənəs ibn Malik demişdir: "Səhabələr vəsiyyətlərinin başında yazardılar:

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

Bunu filankəsin oğlu filankəs vəsiyyət edir. Vəsiyyət edir ki, o, Allahdan başqa *ibadətə layiq* məbudun olmadığına, Onun Tək və şəriksiz olduğuna, habelə, Muhəmmədin Onun qulu və elçisi olduğuna şahidlik edir. Həmçinin, şahidlik edir ki, *Qiyamət* Saatı gələcəkdir, onun gələcəyinə heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları diriləcəkdir. Habelə, vəsiyyət edir ki, əhli-əyalından həyatda qalmış kimsələr Allahdan qorxsunlar və aralarındakı münasibətləri düzəltsinlər. Əgər mömindirlərsə, Allaha və Onun rəsuluna ﷺ itaət etsinlər. Həmçinin, onlara İbrahimin ﷺ və Yəqubun ﷺ öz övladlarına etdiyi vəsiyyəti edir: "Ey övladlarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!" (Sunən Səid ibn Mənsur, 326; İrvaul-Ğəlil, 1647). Bundan sonra vəsiyyət edən adam vəsiyyət edəcəklərini qeyd edir.

## ١٦٨- بَابُ يُعْطَى الثَّمَرَةَ أَصْغَرُ مَنْ حَضَرَ مِنَ الْوِلْدَانِ

## 168-ci fəsil. Meyvə məclisdə olan uşaqların ən kiçiyinə verilir[1]

٣٦٢- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أُتِيَ بِالزَّهْوِ قَالَ: ((اللَّهُمَّ بَارِكْ لَنَا فِي مَدِينَتِنَا وَمُدِّنَا، وَصَاعِنَا، بَرَكَةً مَعَ بَرَكَةٍ))، ثُمَّ نَاوَلَهُ أَصْغَرَ مَنْ يَلِيهِ مِنَ الْوِلْدَانِ.

**(362)** ........ Əbu Hureyrə ﵁ demişdir:[2] "Rəsulullaha ﷺ novbar meyvə gətirildikdə:[3] "Allahım, bizim şəhərimizə, bir ovuc və dörd ovuc yeməyimizə bərəkət üstünə bərəkət ver!"[4]– deyər, sonra da onu yanındakı uşaqların ən kiçiyinə verərdi."

---

[1] Bundan aydın olur ki, bir toplum uşağa meyvə, şirniyyat və s. vermək istədikdə, onların azyaşlı olanından başlamalıdır.

[2] Bu hədisi Muslim (1373), Tirmizi (3450), İbn Macə (3329) və Əhməd (1/183-184; 2/330-331) rəvayət etmişdir.

[3] Başqa hədisdə rəvayət edilir ki, camaat *məhsul yığımı zamanı* dərdikləri novbar meyvələrdən Rəsulullaha ﷺ gətirər, o da, onları götürərkən, dua edib deyərdi: "Allahım, bizim meyvələrimizə bərəkət ver! Bizim şəhərimizə bərəkət ver! Bizim dörd ovuc və bir ovuc yeməyimizə bərəkət ver! Allahım, İbrahim Sənin qulun, Sənin ən aziz dostun və Sənin peyğəmbərin olmuşdur. Mən də Sənin qulun və peyğəmbərinəm. O, Səndən Məkkə üçün *xeyir-bərəkət* diləmişdir. Mən də Səndən Mədinə üçün onun Məkkə üçün dilədiyini və üstəlik, bir o qədərini də diləyirəm." Bundan sonra Rəsulullah ﷺ gördüyü ən azyaşlı uşağı yanına çağırar və həmin meyvələri ona verərdi" (Şəmaiulun-Nəbi, 201).

[4] Bu dua Mədinə şəhərinin mübarək bir şəhər olduğuna dəlalət edir. Rəsulullah ﷺ, həmçinin onun toxunulmazlığı üçün də dua etmişdir. Peyğəmbər ﷺ demişdir: "İbrahim Məkkəni müqəddəs yer elan etmiş və ora üçün dua etmişdir. İbrahimin Məkkəni müqəddəs yer elan etdiyi kimi mən də Mədinəni müqəddəs yer elan etdim və İbrahim əleyhissəlam Məkkə üçün dua etdiyi kimi mən də Mədinənin dörd ovuc və bir ovuc (ərzaqı) üçün dua etmişəm" (Səhih əl-Buxari, 2129); digər hədisdə o, demişdir: "Ayr dağı ilə Sövr dağı arası haram sayılan ərazidir. Kim *orada* günah iş görsə və ya günahkar adama sığı-

nacaq versə, ona Allahın, mələklərin və bütün insanların lənəti olar; ondan nə vacib əməllər, nə də nafilə ibadətləri qəbul olunar" (Səhih əl-Buxari, 1870); xüsusilə qeyd etmək lazımdır ki, bu torpaqların müqəddəs olması, orada yaşayanların müqəddəs insanlar olması demək deyil. Belə ki, Qiyamətə yaxın bu torpaqlarda yaşayan münafiqlər oradan çıxıb dəccala qoşulacaqlar. Bu xüsusda Salman Farisi gözəl söz söyləmişdir. O, demişdir: "Müqəddəs torpaq heç kəsi şərəfləndirmir. İnsanı şərəfləndirən onun əməlləridir" (Muvatta, 2/235; Silsilətul-Əhadisis-Səhihə, 5/302).

## ١٦٩- بَابُ رَحْمَةِ الصَّغِيرِ

## 169-cu fəsil. Kiçiyə rəhm etmək

**٣٦٣-** حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ، حَدَّثَنِي ابْنُ أَبِي الزِّنَادِ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ الْحَارِثِ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لَيْسَ مِنَّا مَنْ لَمْ يَرْحَمْ صَغِيرَنَا، وَيَعْرِفْ حَقَّ كَبِيرِنَا)).

**(363)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından ﵃ rəvayət edir ki, Rəsulullah ﷺ buyurmuşdur: "Kiçiyimizə rəhm etməyən və böyüyümüzün haqqını tanımayan kəs bizdən deyildir."[1]

[1] Bu hədisi Əbu Davud (4943), Əhməd (2/185) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. 353-cü hədisə və onun qeydlərinə bax.

## ١٧٠- بَابُ مُعَانَقَةِ الصَّبِيِّ

## 170-ci fəsil. Uşağı qucaqlamaq[1]

٣٦٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ صَالِحٍ، عَنْ رَاشِدِ بْنِ سَعْدٍ، عَنْ يَعْلَى بْنِ مُرَّةَ أَنَّهُ قَالَ: خَرَجْنَا مَعَ النَّبِيِّ ﷺ، وَدُعِينَا إِلَى طَعَامٍ فَإِذَا حُسَيْنٌ يَلْعَبُ فِي الطَّرِيقِ، فَأَسْرَعَ النَّبِيُّ ﷺ أَمَامَ الْقَوْمِ، ثُمَّ بَسَطَ يَدَيْهِ، فَجَعَلَ يَمُرُّ مَرَّةً هَا هُنَا وَمَرَّةً هَا هُنَا، يُضَاحِكُهُ حَتَّى أَخَذَهُ، فَجَعَلَ إِحْدَى يَدَيْهِ فِي ذَقْنِهِ وَالْأُخْرَى فِي رَأْسِهِ، ثُمَّ اعْتَنَقَهُ فَقَبَّلَهُ، ثُمَّ قَالَ النَّبِيُّ ﷺ: ((حُسَيْنٌ مِنِّي وَأَنَا مِنْهُ، أَحَبَّ اللَّهُ مَنْ أَحَبَّ الْحَسَنَ وَالْحُسَيْنَ، سِبطَانِ مِنَ الأَسْبَاطِ)).

**(364)** ........ Rəvayət edilir ki, Yə'la ibn Murra ﷺ demişdir:[2] "*Bir dəfə* biz Peyğəmbərlə ﷺ birgə yola çıxdıq və yemək süfrəsinə dəvət olunduq. Həmin vaxt Hüseyn yolda oynayırdı. Peyğəmbər ﷺ camaatın önündə yüyürərək əllərini Hüseynə tərəf açdı, gah o yana, gah da bu yana (sağa-sola) keçərək və uşağı güldürərək onu qucağına aldı. Peyğəmbər ﷺ bir əli ilə onun çənəsinin altından, o biri əli ilə də onun başından[3] tutub *yüngülcə* sıxaraq onu öpdü.[4] Sonra dedi: "Hüseyn məndəndir, mən də ondan![5] Həsən və Hüseyni sevən hər kəsi Allah sevər.[1] Onlar nəvələrin nəvəsidir."

---

[1] Uşağı qucaqlamaq Peyğəmbərin ﷺ bu ümmətə öyrətdiyi bəyənilən əməllərdəndir. Usamə ibn Zeyd ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ məni bir ayağının üstündə, Həsəni də digər ayağının üstündə oturdub, bizi qucaqlayar və (dua edib) deyərdi: "Allahım, mən bunlara rəhm edirəm, Sən də onlara rəhm et!" (Səhih əl-Buxari, 6003).

[2] Bu hədisi Tirmizi (3777), İbn Macə (144), İbn Hibban (2240), Hakim (3/177), Əhməd (4/172) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[3] İbn Macə (144) nəql etdiyi rəvayətdə: "başının arxasından"– deyilir.

[4] Hədisdən açıq-aydın görünür ki, Peyğəmbər ﷺ uşaqlara diqqət yetirər, onları əzizləyər, onların qəlbini ələ almaq və sevgisini qazanmaq, üstəlik, onları sevindirmək üçün əlindən gələni edərdi. Bu da, onun böyük əxlaq sahibi olduğunu bir daha sübuta yetirir (Bu kitabda keçən 86, 91, 269, 270, 362, 367, 524, 632, 838, 1043, 1152 və 1183-cü hədislərə bax).

[5] Peyğəmbərin ﷺ bu sözü Hüseynin ﷺ nə dərəcədə fəzilətli insan olduğuna dəlalət edir. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ Hüseyni göstərib demişdir: "Kim

Cənnətdəki cavanların ən hörmətlisini görmək istəyirsə, buna baxsın" (Müsnəd Əbu Yə'la, 1874; Səhih ibn Hibban, 237; Silsilətul-Əhadis əs-Səhihə, 4003); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Həsən və Hüseyn Cənnətdəki cavanların ən hörmətlisi olacaqlar" (Mustədrək əl-Hakim, 3/167; Silsilətul-Əhadis əs-Səhihə, 796; Səhih əl-Cami, 47).

[1] Peyğəmbər ﷺ onlar üçün dua edib demişdir: "Bunlar mənim nəvələrim, qızımın övladlarıdır! Allahım, mən onları sevirəm, Sən də həm onları, həm də onları sevən kəsləri sev!" (Sunən ət-Tirmizi, 4138; Səhih əl-Cami, 7003); başqa bir hədisdə rəvayət edilir ki, Əbu Hureyrə ؓ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ Həsən və Hüseyni götürüb bizim yanımıza gəldi. Uşaqlardan biri onun *sağ* çiynində, o biri isə *sol* çiynində oturmuşdu. Peyğəmbər ﷺ *növbə ilə* gah bunu, gah da onu öpürdü. Nəhayət, gəlib bizim yanımıza çatdıqda bir nəfər dedi: "Ya Rəsulullah, sən həqiqətən də, onları çox istəyirsən!" Onda, Peyğəmbər ﷺ dedi: "Kim onları sevərsə, məni sevmiş olar, kim də onlara nifrət edərsə, mənə nifrət etmiş olar" (Müsnəd imam Əhməd, 2/440; Mustədrək əl-Hakim, 3/166; Silsilətul Əhadis əs-Səhihə, 2895). Peyğəmbərin ﷺ bu sözü Allahın onun bu möhtərəm nəvələri sevdiyinə dəlalət edir. Odur ki, səhabələr və onlardan sonra gələnlər Peyğəmbərin ﷺ bu iki nəvəsini sevməklə Allaha yaxınlaşmaq və Onun sevgisini qazanmağa çalışardılar. Əlbəttə, hər bir mömin Həsən və Huseyni, onların ata-anasını, habelə, əhli-beytdən olanların hamısını və ümumiyyətlə, Peyğəmbərin ﷺ səhabələrini sevməlidir. Lakin qeyd etmək lazımdır ki, bu sevgi ifrat dərəcədə olmamalıdır, yəni Peyğəmbərin ﷺ sevdiyi insanları sevən mömin onları Allaha tay tutmamalı, Allaha məxsus olan sifətləri onlara aid etməməli və ibadətə aid əməlləri onlara yönəltməməlidir. Nəinki onları, heç peyğəmbərləri və mələkləri belə ifrat dərəcədə sevmək olmaz. Bu xüsusda, Uca Allah buyurur: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini *Ona* tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür"** (əl-Bəqərə, 165); Peyğəmbər ﷺ də belə buyurmuşdur: "Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi, siz də məni şişirtməyin! Mən, sadəcə, Allahın quluyam. Elə isə, *mənə*: "Allahın qulu və rəsulu!"– deyin" (Səhih əl-Buxari, 3445).

## ١٧١- بَابُ قُبْلَةِ الرَّجُلِ الْجَارِيَةَ الصَّغِيرَةَ

## 171-ci fəsil. Kişinin körpə qız uşağını öpməsi[1]

٣٦٥- حَدَّثَنَا أَصْبَغُ قَالَ: أَخْبَرَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي مَخْرَمَةُ بْنُ بُكَيْرٍ، عَنْ أَبِيهِ، أَنَّهُ رَأَى عَبْدَ اللَّهِ بْنَ جَعْفَرٍ يُقَبِّلُ زَيْنَبَ بِنْتَ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ، وَهِيَ ابْنَةُ سَنَتَيْنِ أَوْ نَحْوَهُ.

**(365)** ........ Məxrəmə ibn Bukeyr atasından belə rəvayət etmişdir: "Mən Abdullah ibn Cəfərin[2] Ömər ibn Əbu Sələmənin[3] qızı Zeynəbi öpdüyünü gördüm. (O vaxt bu) qızın iki yaxud buna yaxın yaşı var idi."[4]

٣٦٦- حَدَّثَنَا مُوسَى قَالَ: أَخْبَرَنَا الرَّبِيعُ بْنُ عَبْدِ اللَّهِ بْنِ خُطَّافٍ، عَنْ حَفْصٍ، عَنِ الْحَسَنِ قَالَ: إِنِ اسْتَطَعْتَ أَنْ لاَ تَنْظُرَ إِلَى شَعْرِ أَحَدٍ مِنْ أَهْلِكَ، إِلاَّ أَنْ يَكُونَ أَهْلَكَ أَوْ صَبِيَّةً، فَافْعَلْ.

**(366)** ........ Həsən[5] demişdir:[6] "Çalış, ailə üzvlərindən[7] – həyat yoldaşın və qız uşaqları istisna olmaqla – heç bir qadın xeylağının saçına baxmayasan![1]"

---

[1] Müəllif bununla körpə qız uşağını öpməyin caiz olduğunu bildirir. Bu məsələdə qız uşağının məhrəmlərdən olub-olmaması fərq etmir. Məhrəm: yaxın qohum olduqlarına görə izdivacları şərən haram və qadağan olan, buna görə də bir-birindən qaçınması lazım gəlməyən (qadın-qız və kişi).

[2] Əbu Cəfər Abdullah ibn Cəfər ibn Əbu Talib əl-Haşimi əl-Qurəşi ﷺ Peyğəmbərin ﷺ əmisi nəvəsi, onun azyaşlı səhabəsi və Təyyar ləqəbi ilə tanınmış məşhur səhabə Cəfər ibn Əbu Talibin ﷺ oğludur. Atası Mutə döyüşündə şəhid olduqdan sonra Peyğəmbər ﷺ onu öz himayəsinə götürmüşdür (Siyər Əlam ən-Nubələ, 93-cü tərcümeyi-hal).

[3] Əbu Həfs Ömər ibn Əbu Sələmə ibn Abdul-Əsəd əl-Qurəşi ﷺ Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir (Siyər Əlam ən-Nubələ, 63-cü tərcümeyi-hal).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[5] Yəni, Həsən əl-Bəsridən gedir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[7] Buna ana, qız, bacı, bibi, xala, qardaş qızı, bacı qızı, kişini əmizdirən süd anası, həmçinin, süd bacısı, kişinin arvadının anası, habelə, yaxınlıq etdiyi qadının himayəsində olan qızı, gəlin və digər məhrəmlər aid edilir.

[1] Bu, o deməkdir ki, qadına – əri istisna olmaqla – digər məhrəmləri yanında saçlarını və s. görünməsinə zərurət olmayan əzalarını göstərməsi məsləhət deyil. Yəni qadın xeylağının öz doğmaları yanında, hətta müsəlman qadınların məclisində belə abırlı geyimdə olması mömin qadına aid edilən sifətlərdəndir. Qadının öz məhrəmləri yanında sinəsini, belini, budunu və s. kişidə şəhvət hissini oyadacaq əzalarını göstərməsi möminə yaraşan sifətlərdən deyil.

## ١٧٢– بَابُ مَسْحِ رَأْسِ الصَّبِيِّ

## 172-ci fəsil. Uşağın başını sığallamaq

٣٦٧– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَبِي الْهَيْثَمِ الْعَطَّارُ قَالَ: حَدَّثَنِي يُوسُفُ بْنُ عَبْدِ اللَّهِ بْنِ سَلاَّمٍ قَالَ: سَمَّانِي رَسُولُ اللَّهِ ﷺ يُوسُفَ، وَأَقْعَدَنِي عَلَى حِجْرِهِ، وَمَسَحَ عَلَى رَأْسِي.

**(367)** ........ Yusuf ibn Abdullah ibn Səlam ﷺ demişdir: “Rəsulullah ﷺ mənə Yusuf adını verdi, məni dizinin üstünə oturtdu və mənim başımı sığalladı.[1]”[2]

٣٦٨– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ خَازِمٍ قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ قَالَتْ: كُنْتُ أَلْعَبُ بِالْبَنَاتِ عِنْدَ النَّبِيِّ ﷺ، وَكَانَ لِي صَوَاحِبُ يَلْعَبْنَ مَعِي، فَكَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا دَخَلَ يَنْقَمِعْنَ مِنْهُ، فَيُسَرِّبُهُنَّ إِلَيَّ، فَيَلْعَبْنَ مَعِي.

**(368)** ........ Aişə ﷺ demişdir: “(Bir zaman) mən Peyğəmbərin ﷺ evində gəlinciklərlə oynayardım.[3] Mənimlə oynayan rəfiqələrim də var idi. Rəsulullah ﷺ içəri daxil olduğu zaman rəfiqələrim ondan utandığından çölə

---

[1] Peyğəmbərin ﷺ uşaqla bu tərzdə rəftar etməsi, onun təvazökar insan olduğunu bir daha sübuta yetirir. Bu hədisdən və əvvəlki fəsildəki hədislərdən aydın olur ki, uşağı öpmək, qucaqlamaq, dizin üstə oturtmaq və başını sığallamaq, körpəyə göstərilən mərhəmətə aiddir.

[2] Bu hədisi Əhməd (4/35) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “səhih” olduğunu demişdir.

[3] Burada “gəlincik” deyildikdə, uşaq oyuncağı nəzərdə tutulur. Bu da, oyuncaqla oynamağın caiz olduğuna dəlalət edir. Lakin xüsusilə qeyd etmək lazımdır ki, zahiri görünüşü ilə uşaqlara mənfi təsir göstərən və onları yaramaz işlər görməyə təşviq edən, onların tərbiyəsini pozan oyuncaqlardan onları uzaq tutmaq gərəkdir. Belə ki, uşaq gördüyü şeydən ibrət götürür, ona oxşamağa çalışır və nəticədə, yaxşıdan yaxşı, pisdən də pis tərbiyə götürür. Odur ki, valideynlər belə işlərdə olduqca diqqətli olmalıdırlar.

çıxardılar. Rəsulullah ﷺ isə (gedib) onları mənim yanıma göndərər və onlar mənimlə oynayardılar."[1]

[1] Bu hədisi Buxari (6130), Muslim (2440) və Əhməd (6/234) rəvayət etmişdir. İmam Əbu Davudun "Sunən" əsərində (4932) nəql etdiyi hədisdə Əbu Salman ibn Abdur-Rəhman Aişədən رضي الله عنها belə rəvayət etmişdir: "Rəsulullah ﷺ Təbuk (və ya Xeybər) döyüşündən geri qayıtdıqda *gəlib onun hücrəsinə daxil oldu*. Bu vaxt külək hücrənin ön tərəfində asılmış pərdənin bir tərəfini qaldırdı və Rəsulullah ﷺ onun arxasındakı oyuncaqları görüb: "Bu nədir, ey Aişə?"– deyə soruşdu. Aişə: "Gəlinciklərimdir"– deyə cavab verdi. Rəsulullah ﷺ bunların arasında xirqədən düzəldilmiş bir at gördü və: "Bu nədir?"– deyə soruşdu. Aişə: "Atdır"– dedi. Rəsululah ﷺ: soruşdu: "Bəs bunun belindəki nədir?" Aişə: "Qanadlarıdır"– dedi. Rəsululah ﷺ dedi: "Atın da qanadı olur?" Aişə də ona belə cavab verdi: "Məgər Suleymanın qanadlı atları olduğunu eşitməmisən?!" *Bunu eşidəndə* Rəsululah ﷺ arxa dişləri görünənədək güldü" (Mişkatul-Məsabih, 3265).

## ١٧٣– بَابُ قَوْلِ الرَّجُلِ لِلصَّغِيرِ: ((يَا بُنَيَّ))

## 173-cü fəsil. Adamın uşağa: “Oğlum!”– deməsi

**٣٦٩–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ حُمَيْدِ بْنِ أَبِي غَنِيَّةَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي الْعَجْلَانِ الْمُحَارِبِيِّ قَالَ: كُنْتُ فِي جَيْشِ ابْنِ الزُّبَيْرِ، فَتُوُفِّيَ ابْنُ عَمٍّ لِي، وَأَوْصَى بِجَمَلٍ لَهُ فِي سَبِيلِ اللَّهِ، فَقُلْتُ لِابْنِهِ: ادْفَعْ إِلَيَّ الْجَمَلَ، فَإِنِّي فِي جَيْشِ ابْنِ الزُّبَيْرِ، فَقَالَ: اذْهَبْ بِنَا إِلَى ابْنِ عُمَرَ حَتَّى نَسْأَلَهُ، فَأَتَيْنَا ابْنَ عُمَرَ، فَقَالَ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ، إِنَّ وَالِدِي تُوُفِّيَ، وَأَوْصَى بِجَمَلٍ لَهُ فِي سَبِيلِ اللَّهِ، وَهَذَا ابْنُ عَمِّي، وَهُوَ فِي جَيْشِ ابْنِ الزُّبَيْرِ، أَفَأَدْفَعُ إِلَيْهِ الْجَمَلَ؟ قَالَ ابْنُ عُمَرَ: يَا بُنَيَّ، إِنَّ سَبِيلَ اللَّهِ كُلُّ عَمَلٍ صَالِحٍ، فَإِنْ كَانَ وَالِدُكَ إِنَّمَا أَوْصَى بِجَمَلِهِ فِي سَبِيلِ اللَّهِ عَزَّ وَجَلَّ، فَإِذَا رَأَيْتَ قَوْمًا مُسْلِمِينَ يَغْزُونَ قَوْمًا مِنَ الْمُشْرِكِينَ، فَادْفَعْ إِلَيْهِمُ الْجَمَلَ، فَإِنَّ هَذَا وَأَصْحَابَهُ فِي سَبِيلِ غِلْمَانِ قَوْمٍ أَيُّهُمْ يَضَعُ الطَّابَعَ.

**(369)** ........ Əbul-Əclan əl-Muharibi demişdir: “Mən İbn Zubeyrin[1] ordusunda idim. Mənim əmim oğlu vəfat edərkən dəvəsini Allah yolunda sədəqə verməyi vəsiyyət etdi. Mən onun oğluna dedim: “Dəvəni mənə ver, çünki mən İbn Zubeyrin ordusundayam.”[2] O, dedi: “Gedək, İbn Ömərdən bu haqda soruşaq.”[3] Biz İbn Ömərin yanına gəldik. O, dedi: “Ey Əbu

[1] Abdullah ibn Zubeyr ibn Əvvam əl-Əsədi ﷺ Peyğəmərin ﷺ səhabəsidir. Yezidin ölümündən sonra müsəlmanların bir qismi onu xəlifə seçmiş və beləliklə də, o, Hicaza, Yəmənə, Misirə, İraqa, Xorasana və Şamın bir hissəsinə hökmranlıq etmişdir. Nəhayət, hicrətin 73-cü ilində Həccac tərəfindən qətlə yetirilmişdir (Siyər Əlam ən-Nubələ, 53-cü tərcümeyi-hal).

[2] Bundan aydın olur ki, Əbul-Əclan, Abdullah ibn Zubeyrin ﷺ ordusunda vuruşmağı, Allah yolunda aparılan cihaddan hesab edir.

[3] Bu, dəlildir ki, adam bilmədiyini bilənlərdən soruşmalıdır. Həqiqətən də, belə məsələlərdə alimlərə müraciət etmək fitnə-fəsadın qarşısını alır. Bu rəvayətdən açıq-aydın görünür ki, Uca Allah bu adamı İbn Ömər ﷺ kimi alimdən bu məsələ barədə soruşmağa müvəffəq etmişdir.

Abdur-Rəhman![1] Atam vəfat edərkən, dəvəsini Allah yolunda sədəqə verməyi vəsiyyət etmişdir. Bu da, mənim əmim oğludur. O, İbn Zubeyrin ordusundadır. Dəvəni ona verimmi?"[2] İbn Ömər dedi: "Oğlum! Hər bir yaxşı əməl, Allah yolunda verilən sədəqədir. Atan öz dəvəsini Allah ﷻ yolunda sədəqə verməyi vəsiyyət etmişdirsə, bax, əgər müsəlmanlar müşriklərə qarşı vuruşursa, dəvəni müsəlmanlara ver. Lakin bu və bunun yoldaşları, qövmdən olan bir gəncin[3] yolundadırlar.[4] (Bunlar) hansı birinin daha tez möhür qoyacağına çalışırlar."[5]

---

[1] Əbu Abdur-Rəhman, Abdullah İbn Ömərin رضي الله عنهما kunyəsidir.

[2] Əbul-Əclanın əmisi nəvəsi İbn Ömərdən رضي الله عنهما həmin ordunun etdiyi əməlin Allah yolunda olub-olmadığını bilmək istəyir. Çünki atası o dəvəni məhz Allah yolunda sədəqə verməyi vəsiyyət etmişdir.

[3] Burada Abdullah ibn Ömər رضي الله عنهما İbn Zubeyri رضي الله عنهما qəsd edir.

[4] İbn Ömərin رضي الله عنهما sözündən aydın olur ki, müsəlmanın müsəlmanla vuruşması qadağan olan əməllərdəndir. Ümumiyyətlə belə fitnələrdə kənarda durmaq məsləhətdir. Abdullah ibn Zubeyr رضي الله عنهما ilə Yezid ibn Muaviyənin arasında baş vermiş döyüş də bu fitnələrdən biri olmuşdur. Lakin xüsusilə qeyd etmək lazımdır ki, fitnə baş qaldırdığı zaman fitnəni törədən tərəfin təcavüzkar olduğu, yəni Quran və Sünnəyə zidd hərəkət etdiyi bəlli olarsa, bu təcavüzkar dəstə Allahın əmrinə qayıdanadək, onlarla vuruşmaq gərəkdir. Əli ibn Əbu Talibin رضي الله عنه xəvariclərə qarşı vuruşmasını buna misal çəkmək olar. Bu xüsusda, Uca Allah buyurur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir"** (əl-Hucurat, 9). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcəklər. Onlar ən xeyirli sözləri danışacaq, *lakin* ox ovunu dəlib keçdiyi kimi onlar İslamdan çıxacaqlar. Onların imanı xirtdəklərindən o yana keçməyəcəkdir. Odur ki, onları harada görsəniz, öldürün! Şübhəsiz ki, onları öldürən kimsələrə Qiyamət günü bunun müqabilində mükafat veriləcəkdir" (Səhih əl-Buxari, 3611).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

٣٧٠- حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنِي زَيْدُ بْنُ وَهْبٍ قَالَ: سَمِعْتُ جَرِيرًا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لاَ يَرْحَمِ النَّاسَ لاَ يَرْحَمْهُ اللَّهُ عَزَّ وَجَلَّ)).

**(370)** ........ Cərir ﷺ rəvayər edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlara rəhm etməyən kimsəyə Allah ﷻ rəhm etməz.[1]"[2]

٣٧١- حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: أَخْبَرَنِي عَبْدُ الْمَلِكِ قَالَ: سَمِعْتُ قَبِيصَةَ بْنَ جَابِرٍ قَالَ: سَمِعْتُ عُمَرَ، أَنَّهُ قَالَ: مَنْ لاَ يَرْحَمِ لاَ يُرْحَمْ، وَلاَ يُغْفَرُ مَنْ لاَ يَغْفِرُ، وَلاَ يُعْفَ عَمَّنْ لَمْ يَعْفُ، وَلاَ يُوقَّ مَنْ لاَ يَتَوَقَّ.

**(371)** ........ Qəbisə ibn Cabir demişdir:[3] "Mən Ömərin belə dediyini eşitmişəm: "Rəhm etməyən kimsəyə rəhm edilməz, bağışlamayan kimsə bağışlanmaz, əfv etməyən kimsə əfv olunmaz[4] və (özünü günahlardan) qorumayan kimsə qorunmaz.[5]"

---

[1] Bu hədisin əks anlamından belə nəticə çıxır ki, insanlara mərhəmət göstərən kimsəyə Allah rəhm edər. İmam Buxarinin uşaqlara aid olan sonuncu fəslin axırında bu hədisi və bundan sonrakını varid etməsi, o deməkdir ki, əvvəlki hədislərdə qeyd olunanlar – uşağı öpmək, qucaqlamaq, güldürmək, dizin üstə oturtmaq, onun başını sığallamaq, ona "oğlum" deyə müraciət etmək mərhəmət əlamətlərindəndir. Yəni bunları etməklə Allahın mərhəmətinə yetişmək olar.

[2] Bu hədisi Buxari (6941), Muslim (2319), Tirmizi (1922) və Əhməd (3/40) rəvayət etmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir (380-ci hədisə və onun qeydlərinə bax).

[4] Demək, insanlara rəhm edən, onları bağışlayan və əvf edən kimsəyə Allah rəhm edər və onun günahlarını bağışlayar. Uca Allah buyurur: **"Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə *heç bir şey* verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir"** (ən-Nur, 22). Hədislərin birində Rəsulullah ﷺ belə buyurmuşdur: "(İnsanlarla) yumşaq davran ki, səninlə yumşaq davransınlar" (Musnəd İmam Əhməd, 1/248; Silsilətul-Əhadisis-Səhihə, 1456). İnsanlarla yumşaq davranan, onların təqsirindən keçən, onlara güzəşt edən kimsə barəsində Peyğəmbər ﷺ demişdir: "Satanda, alanda və haqqını tələb edəndə üzüyola olan kimsəyə Allah mərhəmət etsin!" (Səhih əl-Buxari, 2076).

[5] Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Kim şər əməldən çəkinərsə, ondan qorunar" (Silsilətul-Əhadisis-Səhihə, 342). Günaha batmaq istəməyən kimsə nəinki günahın özün-

dən, hətta bu günaha yaxınlaşdıracaq səbəblərdən də uzaq durmalıdır. Buna zina barədə nazil olmuş ayəni misal çəkmək olar. Həmin ayədə belə buyurulur: **"Zinaya yaxınlaşmayın!"** (əl-İsra, 32). Burada Uca Allah Öz bəndələrini zinadan və zinaya səbəb olan hər bir işdən – naməhrəm qadınla təklikdə qalmaqdan, onunla əl verib görüşməkdən və başqa bu qəbil işlərdən uzaq durmağı buyurur.

## ١٧٤ – بَابُ ارْحَمْ مَنْ فِي الأَرْضِ

## 174-cü fəsil. Yerdəkilərə rəhm et![1]

٣٧٢– حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ قَبِيصَةَ ابْنِ جَابِرٍ، عَنْ عُمَرَ قَالَ: لاَ يُرْحَمُ مَنْ لاَ يَرْحَمُ، وَلاَ يُغْفَرُ لِمَنْ لاَ يَغْفِرُ، وَلاَ يُتَابُ عَلَى مَنْ لاَ يَتُوبُ، وَلاَ يُوقَّ مَنْ لا يَتَوَقَّ.

**(372)** ........ Qəbisə ibn Cabir demişdir:[2] "Mən Ömərin belə dediyini eşitmişəm: "Rəhm etməyən kimsəyə rəhm edilməz, bağışlamayan kimsə bağışlanmaz, tövbə etməyən kimsənin tövbəsi qəbul olunmaz[3] və (özünü günahlardan) qorumayan kimsə qorunmaz."

---

[1] Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Rəhm edənlərə Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki *Allah* sizə rəhm etsin" (Sunən Əbu Davud, 4941; Sunən ət-Tirmizi, 1/350; Musnəd İmam Əhməd, 2/160; Silsilətul-Əhadisis-Səhihə, 925). Bu hədis Allahın göydə olduğuna dəlalət edir. Bu zatı-sifəti təsdiqləyən ayədə Uca Allah buyurur: **"Göydəki *Allahın* sizi yerə batırmayacağına əminsinizmi?"** (əl-Mulk, 16); Allahın göydə olması barədə Quranda neçə-neçə ayələr vardır (Bax: əl-Əraf, 54; Yunus, 3; ər-Rəd, 2; Ta ha, 5; əl-Furqan, 59; əs-Səcdə, 4-5; Fatir, 10; Ğafir, 2; əl-Hədid, 4; əl-Məaric, 4; əl-Əla, 1).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[3] Bu xüsusda İbn Qeyyim demişdir: "Görülən günaha görə dərhal tövbə etmək vacibdir. Bu tövbəni sonraya saxlamaq olmaz. Belə ki, adamın işlətdiyi günaha görə edəcəyi tövbəni təxirə salması özü də bir günahdır. Belə olduğu təqdirdə, həmin adam öz günahına görə tövbə etməsindən əlavə, onu təxirə saldığına görə də tövbə etməlidir. Çoxları isə bu həqiqətdən qafildirlər." (Mədaricus-Salikin, 1/272). Tövbəni təxirə salmağın özü böyük təhlükədir. Belə ki, ölüm insana hər an yetişə bilər. Ölüm yetişdiyi an ediləcək tövbənin isə heç bir faydası yoxdur. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Bəndənin canı boğazına yetişənədək Allah onun tövbəsini qəbul edər" (Sunən ət-Tirmizi, 3880; Musnəd İmam Əhməd, 2/132; Səhih əl-Cami, 1903). Yəni ölüm bihuşluğu gəldiyi zaman tövbə edən kimsənin tövbəsi qəbul olunmur. Həmçinin, Qiyamət günü – günəş batdığı yerdən doğduğu zaman peşmançılıq fayda verməyəcək. Bu xüsusda, Uca Allah buyurur: **"Yoxsa**

**٣٧٣**– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا زِيَادُ بْنُ مِخْرَاقٍ، عَنْ مُعَاوِيَةَ بْنِ قُرَّةَ، عَنْ أَبِيهِ قَالَ: قَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ، إِنِّي لَأَذْبَحُ الشَّاةَ فَأَرْحَمُهَا، أَوْ قَالَ: إِنِّي لَأَرْحَمُ الشَّاةَ أَنْ أَذْبَحَهَا، قَالَ: ((وَالشَّاةُ إِنْ رَحِمْتَهَا، رَحِمَكَ اللَّهُ)) مَرَّتَيْنِ.

**(373)** ........ Muaviyə ibn Qurra öz atasından[1] belə rəvayət etmişdir: "Bir nəfər Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah, mən qoç kəsdikdə, ona yazığım gəlir" (yaxud: "qoçu kəsməyə əlim gəlmir)." Peyğəmbər ﷺ iki dəfə təkrar buyurdu: "Sən qoça rəhm etsən,[2] Allah da sənə rəhm edər.[1]"[2]

---

**onlar ancaq ya mələklərin, yaxud Rəbbinin və yaxud da Rəbbinin bəzi əlamətlərinin gəlməsini gözləyirlər? Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir. De: "Gözləyin, şübhəsiz ki, Biz də gözləyirik"** (əl-Ənam, 158). Bu əlamət barədə Peyğəmbər ﷺ demişdir: "Günəş batdığı yerdən doğmayınca Qiyamət qopmayacaq. Günəş *məğribdən* doğduğu zaman insanlar onu görəcək, yəni hamısı *bu həqiqətə* inanacaq, *lakin artıq iş işdən keçmiş olacaq*. Həmin vaxt: **"....əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir"** (Səhih əl-Buxari, 7121). Odur ki, vaxtında tövbə etmək gərəkdir. Habelə, tövbənin qəbul olunması üçün olan fürsəti də əldən verməməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Cəbrail ﷺ yanıma gəlib: "Ramazana yetişib, günahları bağışlanmamış halda ondan ayrılan bəndə bədbəxt olsun!"– deyə dua etdi, mən də: "Amin!"– dedim" (əl-Ədəbul-Mufrad, 644); digər rəvayətdə: "Ramazana yetişib, günahları bağışlanmamış *halda ondan ayrılan* bəndə zəlil olsun!"– demişdir (əl-Ədəbul-Mufrad, 644).

[1] Əbu Muaviyə Qurra ibn İyas ibn Hilal əl-Muzəni ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Təhzib ət-Təhzib, 8/370).

[2] İbn Abbasdan ﷺ rəvayət edilir ki, bir nəfər (kəsəcəyi) qoçu yerə uzadıb onun gözü önündə bıçağını itiləyərkən, Rəsulullah ﷺ ona dedi: "Sən bu qoçu iki kərə öldürmək istəyirsən?! Bıçağını qabaqcadan itiləyə bilməzdin?!" (Mocəmul-Kəbir, 3/140/1; Silsilətul-Əhadisis-Səhihə, 24); digər hədisdə Rəsulullah ﷺ demişdir: "Allah (Öz qullarına) hər bir işdə gözəl davranmağı buyurmuşdur. Odur ki, (birisini) öldürəcəyiniz zaman gözəl tərzdə öldürün (ona işgəncə verməyin). Habelə, (heyvan) kəsəcəyiniz zaman gözəl tərzdə kəsin. Qoy sizlərdən biri bıçağını itiləyib kəsəcəyi heyvanı rahatlasın" (Səhih Muslim, 1955). Bu hədislərdən aydın olur ki, heyvanı kəsmək istədikdə, onu iti bıçaqla kəsmək və ya bıçağı qabaqcadan itiləmək, habelə, heyvanı kəsərkən ona əziyyət verməmək, heyvana

٣٧٤- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ مَنْصُورٍ، سَمِعْتُ أَبَا عُثْمَانَ مَوْلَى الْمُغِيرَةِ بْنِ شُعْبَةَ يَقُولُ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: سَمِعْتُ النَّبِيَّ ﷺ الصَّادِقَ الْمَصْدُوقَ أَبَا الْقَاسِمِ ﷺ يَقُولُ: ((لاَ تُنْزَعُ الرَّحْمَةُ إِلا مِنْ شَقِيٍّ)).

**(374)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Mən doğru danışan və doğruluğu təsdiq edilmiş Peyğəmbərin ﷺ – Əbul-Qasimin ﷺ belə dediyini eşitmişəm: "Rəhmət yalnız bədbəxt adamdan[3] götürülər."[4]

٣٧٥- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنْ إِسْمَاعِيلَ قَالَ: أَخْبَرَنِي قَيْسٌ قَالَ: أَخْبَرَنِي جَرِيرٌ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لا يَرْحَمِ النَّاسَ لا يَرْحَمْهُ اللَّهُ)).

**(375)** ........ Cərir ﷺ rəvayər edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim insanlara rəhm etməzsə, Allah da ona rəhm etməz."[5]

---

rəhm etmək deməkdir. Heyvanı rahat kəsmək istəyən adam onu sol böyrü üstə yerə uzatmalı, sonra ayağını heyvanın boynu üstə qoymalı, əllərini və ayaqlarını isə sərbəst buraxmalı, sonra da sol əl ilə onun başından tutub sağ əl ilə onu boğazlamalıdır. Bəzi avamların heyvan kəsərkən, onun əllərini və ayaqlarını tutaraq, ona əziyyət verməsi isə Peyğəmbərin ﷺ Sünnəsinə ziddir (Şərh Riyadus-Salihin).

[1] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim bir qurbanlıq heyvanına rəhm etsə, Qiyamət günü Allah ona rəhm edər" (Əl-Ədəbul-Mufrad, 381).

[2] Bu hədisi Əhməd (3/436) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Bu hədisdən aydın olur ki, yer üzündəkilərə rəhm etməyən kimsəyə Qiyamət günü rəhm edilməz və beləliklə də, o, bədbəxt olar.

[4] Bu hədisi Əbu Davud (4942), Tirmizi (2048), Əhməd (2/301) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[5] 97-ci hədisə bax.

## ١٧٥- بَابُ رَحْمَةِ الْعِيَالِ

## 175-ci fəsil. Əhli-əyala rəhm etmək[1]

٣٧٦- حَدَّثَنَا حَرَمِيُّ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ عَمْرِو بْنِ سَعِيدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ أَرْحَمَ النَّاسِ بِالْعِيَالِ، وَكَانَ لَهُ ابْنٌ مُسْتَرْضَعٌ فِي نَاحِيَةِ الْمَدِينَةِ، وَكَانَ ظِئْرُهُ قَيْنًا، وَكُنَّا نَأْتِيهِ، وَقَدْ دَخَنَ الْبَيْتُ بِإِذْخِرٍ، فَيُقَبِّلُهُ وَيَشُمُّهُ.

**(376)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ, ailəsinə rəhm edən insanların ən rəhmlisi idi. Onun Mədinənin kənarında, süd anasının yanında qalan bir oğlu var idi.[2] Süd verən bu qadının əri dəmirçi idi. Biz (vaxtaşırı) körpənin yanına gedərdik. Evdən ətirli qamış tüstüsünün iyi gələrdi. Peyğəmbər ﷺ körpəni öpüb iyləyərdi.[3]"[4]

٣٧٧- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مَرْوَانُ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ كَيْسَانَ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: أَتَى النَّبِيَّ ﷺ رَجُلٌ وَمَعَهُ صَبِيٌّ، فَجَعَلَ يَضُمُّهُ إِلَيْهِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((أَتَرْحَمُهُ؟)) قَالَ: نَعَمْ، قَالَ: ((فَاللَّهُ أَرْحَمُ بِكَ مِنْكَ بِهِ، وَهُوَ أَرْحَمُ الرَّاحِمِينَ)).

---

[1] Burada "rəhm etmək" deyildikdə, əhli-əyalı sevmək, onların qayğısına qalmaq, onları əzizləmək, onların ehtiyaclarını ödəmək və başqa bu kimi xeyirxahlıqlar nəzərdə tutulur.

[2] Burada söhbət Rəsulullahın ﷺ oğlu İbrahimə on altı və ya on yeddi ay süd vermiş Ummu Seyf Xovlə bint Munzir əl-Ənsariyyədən ﷺ gedir.

[3] Hədisin bu hissəsi fəslin ünvanına aid olan tərəfidir. Yəni körpəni öpmək və iyləmək əhli-əyala rəhm etməyə aiddir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir. Bu hədisi, həmçinin, İmam Muslim də öz "Səhih"ində (2316) rəvayət etmişdir. Həmin hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Mən əhli-əyala rəhm etmək xüsusunda Rəsulullahdan ﷺ daha rəhmli insan görməmişəm. (Onun oğlu) İbrahim Mədinənin yaxınlığında yerləşən bir kənddə, ona süd verən qadının yanında qalırdı."

**(377)** ........ Əbu Hureyrə ﷺ demişdir:[1] “Bir nəfər qucağındakı körpə Peyğəmbərin ﷺ yanına gəldi. O, körpəni bərk-bərk qucaqlamışdı. Peyğəmbər ﷺ dedi: “Ona rəhm edirsənmi?” Adam: “Bəli”– deyə cavab verdi. (Onda) Peyğəmbər ﷺ dedi: “Sən ona rəhm etdiyindən daha çox Allah sənə rəhm edir.[2] O, rəhmlilərin ən Rəhmlisidir.”

---

[1] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[2] Bundan aydın olur ki, insanın başqasına olan rəhmi nə qədər çox olsa da, Allahın insana olan rəhmi ondan qat-qat artıqdır. Hədislərin birində xəbər verilir ki, *bir dəfə döyüşdə götürülmüş* əsirləri Peyğəmbərin ﷺ yanına gətirdilər. Əsirlər arasında olan bir qadın döşündən süd sağıb *körpələrə* içirdirdi. Əsirlər arasında körpə uşaq tapan kimi onu qucağına alıb əmizdirirdi.” Onda Peyğəmbər ﷺ bizdən soruşdu: “Sizcə bu qadın öz körpəsini oda atarmı?” Biz dedik: “Əgər bu ixtiyar onun əlində olsa, xeyr, *atmaz*.” Peyğəmbər ﷺ dedi: “Allahın Öz qullarına olan mərhəməti bu qadının körpəsinə olan mərhəmətindən *qat-qat* çoxdur” (Səhih əl-Buxari, 5999).

## ١٧٦- بَابُ رَحْمَةِ الْبَهَائِمِ

## 176-cı fəsil. Heyvanlara rəhm etmək[1]

٣٧٨- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ سُمَيٍّ مَوْلَى أَبِي بَكْرٍ، عَنْ أَبِي صَالِحٍ السَّمَّانِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((بَيْنَمَا رَجُلٌ يَمْشِي بِطَرِيقٍ اشْتَدَّ بِهِ الْعَطَشُ، فَوَجَدَ بِئْرًا فَنَزَلَ فِيهَا، فَشَرِبَ ثُمَّ خَرَجَ، فَإِذَا كَلْبٌ يَلْهَثُ، يَأْكُلُ الثَّرَى مِنَ الْعَطَشِ، فَقَالَ الرَّجُلُ: لَقَدْ بَلَغَ هَذَا الْكَلْبَ مِنَ الْعَطَشِ مِثْلُ الَّذِي كَانَ بَلَغَنِي، فَنَزَلَ الْبِئْرَ فَمَلَأَ خُفَّهُ، ثُمَّ أَمْسَكَهَا بِفِيهِ، فَسَقَى الْكَلْبَ، فَشَكَرَ اللَّهُ لَهُ، فَغَفَرَ لَهُ))، قَالُوا : يَا رَسُولَ اللَّهِ، وَإِنَّ لَنَا فِي الْبَهَائِمِ أَجْرًا؟ قَالَ: ((فِي كُلِّ ذَاتِ كَبِدٍ رَطْبَةٍ أَجْرٌ)).

**(378)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[2] Rəsulullah ﷺ demişdir: "Bir nəfər yolla gedərkən bərk susadı və və nəhayət, bir su quyusuna rast gəldi və o quyuya enib su içdi. Sonra quyudan bayıra çıxdıqda, bir itin susuzluqdan ləhlədiyini və yaş torpaq yaladığını görüb *öz-özünə*: "Yəqin ki, mən susadığım kimi, bu it də susamışdır"– dedi və quyuya enib ayaqqabısını su ilə doldurdu. Sonra ayaqqabısını dişləri ilə tutub quyudan çıxdı və itə su verdi. Allah da buna görə ona təşəkkür etdi[3] və onu bağışladı.[4]" *Saha-*

---

[1] Burada "heyvanlara rəhm etmək" deyildikdə, ziyan verməyən heyvanlar nəzərdə tutulur. Belə ki, şəriət bəzi ziyanverici heyvanları öldürməyi istisna etmişdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Beş *növ* heyvan vardır ki, bunlar ziyanvericidirlər və onları haram sayılan ərazidə öldürmək olar: qarğa, çalağan, əqrəb, siçan və quduz it" (Səhih əl-Buxari, 1829); digər hədisdə o, demişdir: "Kərtənkələni bir zərbə ilə öldürən kimsə yüz savab qazanar..." (Səhih Muslim, 2240).

[2] Bu hədisi Buxari (2363), Muslim (7/44), Əbu Davud (2550) və Əhməd (2/375; 517) rəvayət etmişdir.

[3] Yəni bu əməlini qəbul etdi və buna görə ona savab yazdı.

[4] Buxarinin "Səhih"ində (173): "və Cənnətə daxil etdi" ifadəsi də əlavə edilmişdir. Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Susuzluqdan az qala öləcək bir köpək quyunun başına hərlənərkən, İsrail övladlarından olan pozğun bir qadın onu görmüş, sonra ayaqqabısını çıxardıb (onunla quyudan su çıxartmış və) o itə su vermişdir. Buna görə (onun günahı) bağışlanmışdır" (Səhih əl-Buxari, 3467). Hədislərdən aydın olur ki, Allah rizasını

*bələr* dedilər: "Ya Rəsulullah! Məgər, heyvanlara *etdiyimiz yaxşılıqlara* görə də bizə savab yazılır?"[1] O, buyurdu: "Hər bir canlıya *göstərdiyiniz qayğıya* görə savab vardır.[2]"

---

və savab qazanmaq məqsədilə heyvana rəhm etmək, günahın bağışlanması, habelə, Cənnətə daxil olmaq üçün bir səbəbdir. Bu xüsusda, Uca Allah buyurur: **"Kim Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar"** (əl-İsra, 19). Yəni mömin olan kəs etdiyi əməli Allah üçün və Peyğəmbər ﷺ öyrətdiyi kimi yerinə yetirsə, onun əməlləri qəbul olar.

[1] Səhabələrin Peyğəmbərə ﷺ belə sual verməsi, onların hər bir işdə Allahın rizasını qazanmağa və savablarını artırmağa həris olduqlarına dəlalət edir.

[2] Bu, Peyğəmbərin ﷺ bizə öyrətdiyi əzəmətli bir qaydadır. Əgər bu cümləyə diqqətlə nəzər salsaq bizə aydın olar ki, hər bir canlının həyatda qalması üçün su içməsi və ya su ilə suvarılması labüddür, başqa cür desək, su, hər bir canlının həyatda qalması üçün bir səbəbdir. Yəni heç bir canlı susuz yaşaya bilməz. Bu xüsusda, Uca Allah buyurur: **"Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi?"** (əl-Ənbiya, 30). Hədisdən o da aydın olur ki, canlıya su vermək ən əfzəl sədəqələrdəndir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Savabı ən böyük olan sədəqə, su verməkdir" (Səhih Tərğib vət-Tərhib, 960); başqa bir hədisdə Ənəs ibn Malik ؓ demişdir: "*Bir gün* Səd ibn Ubadə Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah! Mənim anam vəfat etmiş və *malından kasıblara sədəqə verməyi* vəsiyyət etməmişdir. Əgər mən onun adından sədəqə versəm bu, ona fayda verərmi?" Peyğəmbər ﷺ buyurdu: "Bəli, *verər*. Sənə *sədəqə olaraq* su verməyi məsləhət görürəm" (Səhih Tərğib vət-Tərhib, 961); digər rəvayətdə o: "Ya Rəsulullah, ən fəzilətli sədəqə hansıdır?"– deyə soruşmuş, Peyğəmbər ﷺ də ona: "Su verməkdir"– demişdir. Bundan sonra Səd bir su quyusu qazmış və: "Bu, Sədin anası üçündür"– demişdir" (Səhih Tərğib vət-Tərhib, 962). Həmçinin, xəstənin sədəqə verməklə müalicə olunmasını – Peyğəmbərin ﷺ: "Xəstələrinizi sədəqə ilə müalicə edin!" hədisini də (Səhih əl-Cami, 3358; Səhih Tərğib vət-Tərhib, 744) bu mövzuya aid etmək olar. Yəni Allahın rizasını qazanmaq məqsədilə hər hansı bir canlıya su verməklə xəstəliyi aradan qaldırmaq mümkündür. Bu xüsusda Beyhəqinin nəql etdiyi rəvayətdə Əli ibn Həsən ibn Şəqiq demişdir: "Bir nəfər Abdullah ibn Mubarəkə dedi: "Ey Əbu Abdur-Rəhman! Yeddi ildir ki, dizimdəki yaradan əziyyət çəkirəm. Cürbəcür dərmanlarla müalicə olunmuşam, bir çox həkimlərə müraciət etmişəm, lakin heç bir faydası olmayıb." Abdullah ibn Mubarək dedi: "Bax gör, harada insanların suya ehtiyacı varsa, orada su quyusu qazdır. Ümid edirəm ki, oradan su çıxacaq və *bu əməlinin əvəzi olaraq* sənin yaran sağalacaq." Adam onun dediyini etdi və şəfa tapdı."

**٣٧٩-** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ نَافِعٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((عُذِّبَتِ امْرَأَةٌ فِي هِرَّةٍ حَبَسَتْهَا حَتَّى مَاتَتْ جُوعًا، فَدَخَلَتِ فِيهَا النَّارَ، يُقَالُ، وَاللَّهُ أَعْلَمُ: لاَ أَنْتِ أَطْعَمْتِيهَا، وَلاَ سَقَيْتِيهَا حِينَ حَبَسْتِيهَا، وَلاَ أَنْتِ أَرْسَلْتِيهَا، فَأَكَلَتْ مِنْ خَشَاشِ الأَرْضِ)).

**(379)** ........ Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Pişiyə görə bir qadına əzab verildi. Qadın onu ölənə qədər ac saxlamışdı.[1] Elə buna görə də Cəhənnəmə girdi.[2] Allah daha yaxşı bilir, amma ona belə deyiləcək: "Sən o pişiyi tutub saxladığın zaman ona nə yemək, nə

---

Beyhəqi *davam edib* demişdir: "Şeyximiz Əbu Abdullah Hakimə – Allah ona rəhmət eləsin! – üz vermiş xəstəliyi də buna misal göstərmək olar. O vaxt onun üzündə yara əmələ gəlmişdi. O, bir ilə yaxın müxtəlif dərmanlarla bu yaranı müalicə etdi, lakin müalicənin ona heç bir faydası olmadı. Sonra o, öz ustadı İmam Əbu Osman əs-Sabunidən xahiş etdi ki, cümə günü öz məclisində onun üçün dua etsin. Əbu Osman onun üçün dua etdi, camaat da "Amin!"– dedi. Növbəti cümə bunu eşidən bir qadın evinə qayıdıb gecəni Hakim Əbu Abdullah üçün çoxlu dua etdi. Sonra yuxuda Rəsulullahı ﷺ gördü. Rəsulullah ﷺ ona dedi: "Əbu Abdullaha deyin ki, müsəlmanlara su sədəqə versin." Hakim bunu eşidəndə evinin yanında bir su quyusu qazmağı əmr etdi. Sonra da onu sədəqə etdi. Düz bir həftədən sonra onu üzü sağalıb gözəl görkəm aldı." (Şoəbul-İman, 3109). Xüsusilə qeyd etmək lazımdır ki, əgər adam bunu Allah üçün etməzsə, bu, ona fayda verməz. Möminlər yalnız Allahın rizasını qazanmaq məqsədilə: **"özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə (sədəqə) verər və *deyərlər*: "Biz sizi yalnız Allahın Üzü xatirinə (ixlasla, savabını Allahdan umaraq) yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!"** (əl-İnsan, 8-9).

[1] Digər rəvayətdə: "*evə salıb* ağzını kilidləmişdir"– deyilir (Səhih əl-Buxari, 3482; Səhih Muslim, 2242). Bundan aydın olur ki, qadın bunu biləfrəkdən etmişdir.

[2] Başqa bir hədisdə Əsma bint Əbu Bəkr ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ günəş tutulduğu zaman kusuf namazını qılmış və namazını bitirdikdən sonra demişdir: "Cənnət mənə o qədər yaxınlaşdı ki, əgər ona *əl uzatmağa* ixtiyarım olsaydı, oradakı salxımlardan birini sizə gətirərdim. Habelə, Cəhənnəm də mənə o qədər yaxınlaşdı ki, axırda mən dedim: "Ey Rəbbim, yoxsa məni də onlarla bir yerə salacaqsan?" Birdən mən bir qadın gördüm və soruşdum ki: "Bu qadının günahı nədir?" *Mənə* dedilər: "Bu qadın pişiyi acından ölənədək *evdə* həbs etmiş, ona nə yemək vermiş, nə də onu sərbəst buraxmışdır ki, gedib özünə yemək tapsın" (Səhih əl-Buxari, 745).

də su verdin. Nə də onu azad buraxdın ki, gedib yer üzündəki həşəratlardan yesin.[1]"[2]

٣٨٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُقْبَةَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُثْمَانَ الْقُرَشِيُّ قَالَ: حَدَّثَنَا حَرِيزٌ قَالَ: حَدَّثَنَا حِبَّانُ بْنُ زَيْدٍ الشَّرْعَبِيُّ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((ارْحَمُوا تُرْحَمُوا، وَاغْفِرُوا يَغْفِرِ اللَّهُ لَكُمْ، وَيْلٌ لِأَقْمَاعِ الْقَوْلِ، وَيْلٌ لِلْمُصِرِّينَ الَّذِينَ يُصِرُّونَ عَلَى مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ)).

**(380)** ........ Abdullah ibn Amr ibn As ﵄ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Rəhm edin ki, sizə də rəhm edilsin! Bağışlayın ki, Allah da sizi bağışlasın.[4] Söz qıflarının[5] vay halına. Bilərəkdən gördükləri işlərdə inad edən inadkarların vay halına.[6]"

٣٨١- حَدَّثَنَا مَحْمُودٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ قَالَ: أَخْبَرَنَا الْوَلِيدُ بْنُ جَمِيلٍ الْكِنْدِيُّ، عَنِ الْقَاسِمِ ابْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي أُمَامَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ رَحِمَ وَلَوْ ذَبِيحَةً، رَحِمَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ)).

**(381)** ........ Əbu Umamə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim qurbanlıq heyvanına belə rəhm etsə, Qiyamət günü Allah ona rəhm edər."[7]

---

[1] Bu, dəlildir ki, pişik, quş və s. saxlayan kimsə vaxtlı-vaxtında heyvanın yeməyini və suyunu verməli, üstəlik, ona əziyyət verməməlidir. Heyvana rəhm etməlidir ki, Allah da ona rəhm etsin!

[2] Bu hədisi Buxari (2365) və Muslim (2242) rəvayət etmişdir.

[3] Bu hədisi Əhməd (2/165, 219) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Bunun əks anlamından aydın olur ki, rəhm etməyən kimsəyə rəhm edilməz, bağışlamayan kimsə bağışlanmaz (371-ci və 372-ci rəvayətlərə bax).

[5] Burada "söz qıfları" deyildikdə, eşitdiyini bir qulağından alıb, o biri qulağından buraxan, Allahın və Onun peyğəmbərinin ﷺ buyuruqlarını qəbul edib İslam əxlaqına yiyələnmək istəməyən kimsələr nəzərdə tutulur. Beləələri barədə Quranda belə buyurulur: **"Əgər onlar özlərinə verilən öyüd-nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu, onlar üçün daha xeyirli və daha mükəmməl olardı"** (ən-Nisa, 66).

[6] Bunlar o kəslərdir ki, haqqı bilə-bilə bildiyinin əksini edir, yəni günah işlər görür və bunu davamlı şəkildə edirlər. Hədisdə keçən "vay halına" sözü, belələrinin aqibətinin çox pis olacağına dəlalət edir. Bu xüsusda, Uca Allah buyurur: **"Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!"– deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq"** (ən-Nisa, 18).

[7] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir (373-cü hədisə və onun qeydlərinə bax).

## ١٧٧- بَابُ أَخْذِ الْبَيْضِ مِنَ الْحُمَّرَةِ

## 177-ci fəsil. Sərçənin yumurtasını götürmək

٣٨٢- حَدَّثَنَا طَلْقُ بْنُ غَنَّامٍ قَالَ: حَدَّثَنَا الْمَسْعُودِيُّ، عَنِ الْحَسَنِ بْنِ سَعْدٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ ابْنِ عَبْدِ اللَّهِ، عَنْ عَبْدِ اللَّهِ، أَنَّ النَّبِيَّ ﷺ نَزَلَ مَنْزِلًا فَأَخَذَ رَجُلٌ بَيْضَ حُمَّرَةٍ، فَجَاءَتْ تَرِفُّ عَلَى رَأْسِ رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: ((أَيُّكُمْ فَجَعَ هَذِهِ بِبَيْضَتِهَا؟)) فَقَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ، أَنَا أَخَذْتُ بَيْضَتَهَا، فَقَالَ النَّبِيُّ ﷺ: ((ارْدُدْ، رَحْمَةً لَهَا)).

**(382)** ........ Abdullah *ibn Məsud* ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ *səfərdə ikən* bir yerdə dayandı.[1] *Bu vaxt* bir nəfər sərçənin *yuvasından* onun yumurtasını götürdü. Onda sərçə gəlib Rəsulullahın ﷺ başı üzərində qanad çalıb çırpınmağa başladı.[2] Peyğəmbər ﷺ soruşdu: "Hansınız bu quşun yumurtasını götürməklə ona əziyyət verib?" Adam dedi: "Ya Rəsulullah, onun yumurtasını mən götürmüşəm." Peyğəmbər ﷺ buyurdu: "Quşa rəhm etmək üçün *yumurtanı* yerinə qoy![3]"[4]

---

[1] Əbu Davudun "Sunən" əsərindəki bu hədisdə Abdullah ibn Məsud ﷺ demişdir: "Biz Peyğəmbərlə ﷺ birgə səfərdə ikən o, təbii ehtiyacını rəf etməyə getdi..."

[2] Bu, quşun öz balasına olan mərhəmətinə dəlalət edir (100-cü hədisə və onun qeydlərinə bax). Burada quş bu hərəkəti ilə öz dərdini Peyğəmbərə ﷺ şikayət edir. Buna bənzər başqa bir hədisdə rəvayət edilir ki, Abdullah ibn Cəfər ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ ənsardan olan bir kişinin xurma bağına gəldi. Onun bağında bir dəvə var idi. Dəvə Peyğəmbəri ﷺ görəndə inildəməyə başladı və gözləri yaşardı. Peyğəmbər ﷺ dəvəyə yaxınlaşıb onun hürgücünədək belini və bir də boynunu sığalladı. Beləliklə, dəvə sakitləşdi. Sonra o: "Kimdir bu dəvənin sahibi? Kimindir bu dəvə?"– deyə səsləndi. Bu vaxt ənsardan olan bir gənc gəlib dedi: "Mənimdir, ya Rəsulullah!" Peyğəmbər ﷺ buyurdu: "Allahın sənin ixtiyarına verdiyi bu heyvana görə Allahdan qorxmursan?! O, mənə şikayət etdi ki, sən onu ac saxlayırsan və onu çox yorursan" (Sunən Əbu Davud, 1/400; Mustədrək əl-Hakim, 2/99-100; Musnəd Əhməd, 1/204-205; Silsilətul-Əhadisis-Səhihə, 20).

[3] Quşun yumurtasına və ya balasına dəyməmək, ona əziyyət verməmək, quşa rəhm etməyə və beləliklə də, rəhm olunmağa aiddir. Yəni Allahın yaratdığına rəhm edən kimsəyə Allah rəhm edər.

[4] Bu hədisi Əbu Davud (2675), Əhməd (4/239) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ١٧٨- بَابُ الطَّيْرِ فِي الْقَفَصِ

## 178-ci fəsil. Qəfəsdə quş saxlamaq[1]

٣٨٣- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ قَالَ: كَانَ ابْنُ الزُّبَيْرِ بِمَكَّةَ وَأَصْحَابُ النَّبِيِّ ﷺ يَحْمِلُونَ الطَّيْرَ فِي الأَقْفَاصِ.

**(383)** ........ Hişam ibn Urva demişdir: "İbn Zubeyr[2] Məkkədə ikən Peyğəmbərin ﷺ səhabələri qəfəslərdə quş saxlayardılar."[3]

٣٨٤- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: دَخَلَ النَّبِيُّ ﷺ فَرَأَى ابْنًا لِأَبِي طَلْحَةَ يُقَالُ لَهُ: أَبُو عُمَيْرٍ، وَكَانَ لَهُ نُغَيْرٌ يَلْعَبُ بِهِ، فَقَالَ: ((يَا أَبَا عُمَيْرٍ، مَا فَعَلَ أَوْ، أَيْنَ، النُّغَيْرُ؟))

**(384)** ........ Ənəs رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ içəri daxil olub Əbu Talhənin oğlu Əbu Umeyri gördü. (Bu) uşağın oynatdığı bir quşcuğazı var idi. Peyğəmbər ﷺ (ona) dedi: "Ey Əbu Umeyr! Quşcuğaza nə oldu yaxud quşcuğaz haradadır?"[4]

---

[1] İmam Buxarinin bu fəsilə verdiyi ünvan qəfəsdə quş saxlamağın mübah olduğuna dəlalət edir. Lakin qeyd etmək lazımdır ki, quş saxlayan adam vaxtlı-vaxtında onun yeməyini və suyunu verməli, ona əziyyət verməkdən çəkinməlidir. Onu da qeyd edək ki, şəriətin qadağan etdiyi heyvanı evdə saxlamaq olmaz. Buna donuzu, iti və başqa bu kimi heyvanları misal göstərmək olar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "İt saxlayan adamın gündəlik olaraq savabından bir qirat azalar. Yalnız əkin sahəsini və mal-qaranı qoruyan itdən başqa"; digər rəvayətdə: "Yalnız, çoban itindən, bağ itindən və ov itindən başqa" (Səhih əl-Buxari, 2322).

[2] Bu, Peyğəmərin ﷺ məşhur səhabəsi Abdullah ibn Zubeyr ibn Əvvamdır رضي الله عنهما.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Çünki Hişam ibn Urva babası İbn Zubeyri görməmişdir. Hədis istilahında buna "munqəti" (isnadında bağlılıq olmayan hədis) deyilir. Lakin qeyd etmək lazımdır ki, mənası "səhih"dir. Yəni qəfəsdə quş saxlamaq caizdir.

[4] 269-cu hədisə və onun qeydlərinə bax.

## ١٧٩- بَابُ يُنْمِي خَيْرًا بَيْنَ النَّاسِ

## 179-cu fəsil. Xeyirli söz danışmaqla insanların arasını düzəltmək

٣٨٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي حُمَيْدُ بْنُ عَبْدِ الرَّحْمَنِ، أَنَّ أُمَّهُ أُمَّ كُلْثُومٍ ابْنَةَ عُقْبَةَ بْنِ أَبِي مُعَيْطٍ أَخْبَرَتْهُ، أَنَّهَا سَمِعَتْ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((لَيْسَ الْكَذَّابُ الَّذِي يُصْلِحُ بَيْنَ النَّاسِ، فَيَقُولُ خَيْرًا، أَوْ يُنْمِي خَيْرًا))، قَالَتْ: وَلَمْ أَسْمَعْهُ يُرَخِّصُ فِي شَيْءٍ مِمَّا يَقُولُ النَّاسُ مِنَ الْكَذِبِ إِلاَّ فِي ثَلاَثٍ: الإِصْلاَحِ بَيْنَ النَّاسِ، وَحَدِيثِ الرَّجُلِ امْرَأَتَهُ ، وَحَدِيثِ الْمَرْأَةِ زَوْجَهَا.

**(385)** ........ Uqbə ibn Əbu Muitin qızı Ummu Kulsum ﵂ Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: "İnsanların arasını düzəltmək məqsədilə xeyirli söz danışan[1] və ya yaxşılıq etmək istəyən adam yalançı deyildir."[2]

Ummu Kulsum demişdir: "Mən Rəsulullahın ﷺ insanların danışdıqları yalanlardan heç birinə icazə verdiyini eşitməmişəm. Yalnız üç şeydən başqa: insanların arasını düzəltmək (üçün deyilən), habelə, kişinin öz zövcəsinə dediyi və bir də qadının öz ərinə dediyi (yalan) söz.[3]"

---

[1] Yəni tərəflərin arasını düzəltmək məqsədilə birinin demədiyi sözü digərinə demək, zahirən yalan söz kimi görünsə də, əslində bu, xeyirli söz sayılır və bunu deyən adam yalançı hesab edilmir.

[2] Bu hədisi Buxari (2692) və Muslim (2605) rəvayət etmişdir. Digər rəvayətdə Ummu Kulsum ﵂ demişdir: "Rəsulullah ﷺ üç halda yalan danışmağa izin vermişdir: döyüşdə (düşmənə deyilən), habelə, insanların arasını düzəltmək üçün (deyilən) və bir də kişinin öz zövcəsinə dediyi (yalan)" (Musnəd İmam Əhməd, 6/404; Silsilətul-Əhadisis-Səhihə, 545).

[3] Buna ər-arvad arasındakı ülvi məhəbbətin artması üçün onlardan birinin digərini həddən ziyadə tərif etməsini misal göstərmək olar.

## ١٨٠- بَابُ لا يَصْلُحُ الْكَذِبُ

## 180-ci fəsil. (Adam) yalan danışmamalıdır

٣٨٦- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ دَاوُدَ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي وَائِلٍ، عَنْ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((عَلَيْكُمْ بِالصِّدْقِ، فَإِنَّ الصِّدْقَ يَهْدِي إِلَى الْبِرِّ، وَإِنَّ الْبِرَّ يَهْدِي إِلَى الْجَنَّةِ، وَإِنَّ الرَّجُلَ يَصْدُقُ حَتَّى يُكْتَبَ عِنْدَ اللَّهِ صِدِّيقًا، وَإِيَّاكُمْ وَالْكَذِبَ، فَإِنَّ الْكَذِبَ يَهْدِي إِلَى الْفُجُورِ، وَالْفُجُورَ يَهْدِي إِلَى النَّارِ، وَإِنَّ الرَّجُلَ لَيَكْذِبُ حَتَّى يُكْتَبَ عِنْدَ اللَّهِ كَذَّابًا)).

**(386)** ........ Abdullah (ibn Məsud) رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Doğru söz danışın! Çünki doğruluq (adamı) yaxşı işlər görməyə yönəldir. Yaxşı işlər isə (adamı) Cənnətə aparır.[1] Həqiqətən, adam o qədər doğru danışır ki, nəhayət, Allah yanında doğruçu sayılır.[2] Yalan danışmaqdan çəkinin![3] Çünki yalan (adamı) günah işlərə yönəldir. Günah işlər

---

[1] Burada "yaxşı işlər" deyildikdə, möminə buyurulan yaxşılıqlar nəzərdə tutulur. Bu xüsusda, Uca Allah buyurur: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır"** (əl-Bəqərə, 177). Allah rizasını qazanmaq məqsədilə yaxşılıq edən kimsələrin həm bu dünyada, həm qəbirdə, həm də Cənnətdə nemət içində olacaqları barədə Quranda belə buyurulur: **"Həqiqətən, itaətkarlar nemət içində olacaqlar"** (əl-İnfitar, 13).

[2] Doğru danışanların Cənnətlik olması barədə Quranda belə buyurulur: **"Allah dedi: "Bu, doğru danışanlara doğruluqlarının fayda verəcəyi gündür! Onlar üçün *ağacları* altından çaylar axan və içində əbədi qalacaqları Cənnət bağları hazırlanmışdır." Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu, böyük uğurdur"** (əl-Maidə, 119).

[3] Əbu Səid əl-Xudri رضي الله عنه Peyğəmbərdən ﷺ belə rəvayət etmişdir: "(Hər) səhər Adəm övladı yuxudan oyandığı zaman onun bütün əzaları dili qınayıb deyir: "Bizə olan münasibətində Allahdan qorx! Çünki biz səndən asılıyıq. Sən düz olsan, biz də düzələrik, yox əgər büdrəsən, biz də büdrəyərik" (Sunən ət-Tirmizi, 2407; Səhih əl-Cami, 351).

isə (adamı) Cəhənnəmə aparır.[1] Həqiqətən, adam o qədər yalan danışır ki, nəhayət, Allah yanında yalançı sayılır."[2]

٣٨٧– حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنِ الأَعْمَشِ، عَنْ مُجَاهِدٍ، عَنْ أَبِي مَعْمَرٍ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: لاَ يَصْلُحُ الْكَذِبُ فِي جِدٍّ وَلاَ هَزْلٍ، وَلاَ أَنْ يَعِدَ أَحَدُكُمْ وَلَدَهُ شَيْئًا ثُمَّ لاَ يُنْجِزُ لَهُ.

**(387)** ........ Abdullah (ibn Məsud) ﷺ demişdir: "*Heç kəs* istər ciddi olaraq, istərsə də zarafatla yalan danışmasın.[3] Eləcə də, biriniz öz övladına söz verdikdən sonra verdiyi sözə əməl etməkdən boyun qaçırmasın.[4]"[5]

---

[1] Bu xüsusda Quranda belə buyurulur: **"Göylərin və yerin hökmranlığı ancaq Allaha məxsusdur. O Saatın (Qiyamətin) gələcəyi gün – məhz o gün yalan danışanlar ziyana uğrayacaqlar"** (əl-Casiyə, 27).

[2] Bu hədisi Buxari öz "Səhih"ində də (6094) rəvayət etmişdir.

[3] Hədislərin birində Rəsulullah ﷺ belə buyurmuşdur: "Camaatı güldürmək məqsədilə yalan danışan kimsənin vay halına, vay halına, vay halına!" (Sunən Əbu Davud, 4990; Səhih əl-Cami, 7136); digər hədisdə Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, (bir dəfə səhabələr Peyğəmbərə ﷺ): "Ya Rəsulullah, sən bizimlə zarafat edirsən?"– dedilər. O buyurdu: "Mən yalnız haqqı deyirəm!" (Sunən ət-Tirmizi, 1/309). Yeri gəlmişkən, qeyd edək ki, qeyri-müsəlmanlar aprelin 1-ni "aldatma günü" elan etmişlər. Allaha və Onun rəsuluna ﷺ asi olub, onlara uyanların vay halına, vay halına, vay halına! Çünki kafirə oxşamağın özü də bir küfr sayılır. Peyğəmbər ﷺ hədislərin birində özlərini kafirlərə oxşadacaq müsəlmanları qınayıb demişdir: "Siz özünüzdən əvvəlkilərin yolunu tutub qarış-qarış, arəş-arəş gedəcəksiniz. Hətta, onlar kərtənkələ yuvasına girsələr belə, siz də ora girəcəksiniz" Biz dedik: "Ya Rəsulullah, yəhudiləri və xristianlarımı *qəsd edirsən*?" Dedi: "Başqa kim *ola bilər ki*?!" (Səhih əl-Buxari, 3456); digər hədisdə o, demişdir: "Hər kim özünü bir qövmə oxşadarsa, o kimsə onlardan sayılar" (Sunən Əbu Davud, 4031; Səhih əl-Cami, 2831).

[4] Bu, dəlildir ki, uşağı aldatmaq olmaz. Uşağı aldatmaq yalandır, yalan danışmaq da böyük günahdır. Bu xüsusda rəvayət edilmiş hədislərin birində Abdullah ibn Amir ibn Rəbiə ﷺ demişdir: "Mən uşaq ikən Rəsulullah ﷺ evimizə qonaq gəldi. Həmin vaxt mən *uşaqlarla* oynamaq üçün bayıra çıxmaq istədim. Anam isə *mənə*: "Ey Abdullah, gəl gör, sənə nə verirəm"– dedi. Rəsulullah ﷺ *anamdan*: "Sən ona nə vermək istəyirsən?"– deyə soruşdu. Anam: "Xurma verəcəm"– dedi. Onda, Rəsulullah ﷺ ona belə buyurdu: "Əgər ona heç nə verməsən, bu əməlin *günah olaraq* sənin əleyhinə yazılacaq" (Sunən Əbu Davud, 2/313; Musnəd İmam Əhməd, 3/447; Silsilətul-Əhadisis-Səhihə, 748). Bundan başqa, bu yalan uşağın tərbiyəsinə pis təsir edir, onu da yalançı olmağa təşviq edir. Nəinki insanı, hətta, heyvanı belə aldatmaqdan çəkinmək gərəkdir. Bəzi hədis alimləri heyvanı aldadan adamdan hədis götürməzdilər.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ١٨١- بَابُ الَّذِي يَصْبِرُ عَلَى أَذَى النَّاسِ

## 181-ci fəsil. İnsanların verdiyi əziyyətlərə səbir edən kimsə

٣٨٨- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الأَعْمَشِ، عَنْ يَحْيَى بْنِ وَثَّابٍ، عَنِ ابْنِ عُمَرَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْمُؤْمِنُ الَّذِي يُخَالِطُ النَّاسَ، وَيَصْبِرُ عَلَى أَذَاهُمْ، خَيْرٌ مِنَ الَّذِي لاَ يُخَالِطُ النَّاسَ، وَلاَ يَصْبِرُ عَلَى أَذَاهُمْ)).

**(388)** ........ İbn Ömər ﵄ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ demişdir: "İnsanlarla ünsiyyətdə olub onların əziyyətlərinə səbir edən mömin, insanlara qaynayıb-qarışmayan və onların əziyyətlərinə dözməyən kimsədən daha xeyirlidir.[2]"

---

[1] Bu hədisi Tirmizi (3/319), İbn Macə (4032), Əhməd (5/365) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Bu, dəlildir ki, möminin daim camaatla bir yerdə olması onun üçün təkliyə çəkilməkdən daha xeyirlidir. Başqa cür desək – müsəlmanlar arasına fitnə düşdüyü vaxt istisna olmaqla – heç bir zaman və heç bir halda camaatdan ayrılmaq olmaz. Bu xüsusda varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Kənddə və ya çöl-biyabanda olan üç nəfər camaat şəklində namaz qılmasalar, şeytan onlara hakim olar. Belə olmasın deyə camaat olun! Əlbəttə ki, canavar sürüdən ayrı düşmüş qoyunu *tez* yeyər" (Sunən Əbu Davud, 547; Sunən ən-Nəsai, 922; Musnəd İmam Əhməd, 6/446; Səhih əl-Cami, 5701); digər hədisdə o, demişdir: "Allahın Əli *haqq yolda olan* camaatın üzərindədir! Camaatdan ayrılan kimsənin yanında isə ancaq şeytan olar" (Səhihul-Camius-Səğir, 2729-cu hədis). Lakin bəzən təkliyə çəkilmək mömin üçün daha xeyirli olur. Hədislərin birində rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﵁ demişdir: "(Bir dəfə səhabələr Peyğəmbərdən ﷺ) soruşdular: "Ya Rəsulullah, insanların ən üstünü kimdir?" Peyğəmbər ﷺ dedi: "Allah yolunda malı və canı ilə cihad edən mömindir." Yenə soruşdular: "Sonra hansıdır?" O, dedi: "Dağ dərəsinə çəkilib Allahdan qorxan və insanlara pislik etməkdən çəkinən mömindir" (Səhih əl-Buxari, 2786). İmam Nəvəvi bu hədisi izah edərkən demişdir: "Bu, ibrətamiz bir məsəldir. Belə ki, möminin təkliyə çəkilib *Allaha ibadət etməklə məşğul*

*olub heç nəyə və heç kəsə qarışmamağı*, "dağ dərəsində" – insanlardan uzaq düşmüş bir adamın halına bənzəyir" (Şərh ən-Nəvəvi). Həmçinin, İbn Həcər demişdir: "Bu hədis təkliyə çəkilməyin fəzilətinə dəlalət edir. Çünki belə olduqda adam qeybətdən, boşboğazlıqdan və başqa bu kimi bihudə işlərdən uzaq olur" (Fəthul-Bari). Amir ibn Səd rəvayət etmişdir ki, bir vaxt Səd ibn Əbu Vəqqas ﷺ *fitnə-fəsaddan uzaq durmaq məqsədilə* çöldə dəvələrini otararkən oğlu Ömər onun yanına gəldi. Səd ibn Əbu Vəqqas onu görəndə: "Bu gələn atlının şərindən Allaha sığınıram!"– dedi. Oğlu onun yanına gəlib çatdı və atdan enib ona dedi: "Sən *burada* dəvə və qoyun otarırsan, camaat isə öz aralarında xilafət üstündə mübahisə edir." Onda Səd *yavaşca* onun sinəsindən vurub dedi: "Sus! Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Allah, Ondan qorxan, *aza* qane olan və xəlvətə çəkilib *öz işi ilə məşğul olan* qulunu sevər" (Səhih Muslim, 2965). Xüsusilə qeyd etmək lazımdır ki, hər bir mömin bu mövzuda olduqca diqqətli olmalıdır. Çünki şeytan adama vəsvəsə verib, onu elə yoldan çıxara bilər ki, özündən və özü ağılda olanlardan başqa heç kəsi bəyənməz, haqq yol üzərində olan camaatın zəlalətə düşdüyünü güman edər. Üstəlik, başqalarını da haqq yolda olan camaatdan ayrılıb ona qoşulmağa çağırar. Belələri tarix boyu məhv olub, olur və olacaq da. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: Bir adamın: "İnsanlar həlak oldu!"– dediyini eşitsən, *bil ki,* o özü *insanların* ən çox həlak olanıdır" (Səhih Muslim, 2623).

## ١٨٢– بَابُ الصَّبْرِ عَلَى الأَذَى

## 182-ci fəsil. Əziyyətlərə səbir etmək[1]

٣٨٩– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ سُفْيَانَ قَالَ: حَدَّثَنِي الأَعْمَشُ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ السُّلَمِيِّ، عَنْ أَبِي مُوسَى، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ أَحَدٌ، أَوْ لَيْسَ شَيْءٌ، أَصْبَرَ عَلَى أَذًى يَسْمَعُهُ مِنَ اللَّهِ عَزَّ وَجَلَّ، وَإِنَّهُمْ لَيَدَّعُونَ لَهُ وَلَدًا، وَإِنَّهُ لَيُعَافِيهِمْ وَيَرْزُقُهُمْ)).

**(389)** ........ Əbu Musa ﵁ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: "Eşitdiyi nalayiq sözlərə Allahdan ﷻ daha çox səbir[3] edən bir kimsə yaxud bir şey yoxdur. *Azmış qulları* Ona övlad isnad edirlər,[4] O isə onlara can sağlığı və ruzi verir."

---

[1] Burada İmam Buxari cahilin verdiyi əziyyətə dözməyin fəziləti olduğunu bildirir. Uca Allah Öz Kitabında bizə cahillərə baş qoşmamağı buyurur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər"** (əl-Əraf, 199); digər ayədə O, buyurur: "**Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara *xoşagəlməz* bir söz dedikdə: "Salam!"- deyərlər"** (əl-Furqan, 63).

[2] Bu hədisi Buxari (7378) və Muslim (2804) rəvayət etmişdir.

[3] Bu, Allahın zatı sifətlərinə aiddir və bunu olduğu kimi qəbul etmək gərəkdir. Ümumiyyətlə, Allaha aid ad və sifətləri nə başqa mənaya yozmaq, nə inkar etmək, nə necəliyini vəsf etmək, nə də ki yaradılanlara bənzətmək olar. **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir"** (əş-Şura, 11); **"O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur"** (əl-İxlas, 3-4); **"Heç Ona oxşarını tanıyırsanmı?!"** (Məryəm, 65); **"Heç kəsi Allaha oxşatmayın"** (ən-Nəhl, 74); ***"heç kəsi* Allaha tay tutmayın"** (əl-Bəqərə, 22).

[4] Din düşmənlərinin Allah barədə dedikləri nalayiq sözlərə aşağıdakı ayələri misal göstərmək olar:

– **"*Kafirlər:* "Mərhəmətli *Allah* özünə övlad götürmüşdür!"– dedilər." Siz olduqca pis bir iş tutdunuz. Bundan az qaldı göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun – Mərhəmətli *Allaha* övlad isnad etdiklərinə görə"** (Məryəm, 88-91).

– **"Yəhudilər dedilər: "Allahın Əli bağlıdır!" Onların öz əlləri bağlandı və dedikləri sözə görə lənətə gəldilər. Əksinə, *Allahın* hər iki Əli açıqdır və O, *Öz lütfündən* istədiyi kimi sərf edir. Əlbəttə, Rəbbindən sənə nazil edilən *Kitab* onlardan bir çoxunun azğınlığını və küfrünü artıracaqdır. Biz onların arasına Qiyamət gününə qədər ədavət**

**٣٩٠-** حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: سَمِعْتُ شَقِيقًا يَقُولُ: قَالَ عَبْدُ اللَّهِ: قَسَمَ النَّبِيُّ ﷺ قِسْمَةً، كَبَعْضِ مَا كَانَ يَقْسِمُ، فَقَالَ رَجُلٌ مِنَ الأَنْصَارِ: وَاللَّهِ، إِنَّهَا لَقِسْمَةٌ مَا أُرِيدَ بِهَا وَجْهُ اللَّهِ عَزَّ وَجَلَّ، قُلْتُ أَنَا: لَأَقُولَنَّ لِلنَّبِيِّ ﷺ، فَأَتَيْتُهُ، وَهُوَ فِي أَصْحَابِهِ، فَسَارَرْتُهُ، فَشَقَّ ذَلِكَ عَلَيْهِ ﷺ وَتَغَيَّرَ وَجْهُهُ، وَغَضِبَ، حَتَّى وَدِدْتُ أَنِّي لَمْ أَكُنْ أَخْبَرْتُهُ، ثُمَّ قَالَ: ((قَدْ أُوذِيَ مُوسَى بِأَكْثَرَ مِنْ ذَلِكَ فَصَبَرَ)).

**(390)** ........ Abdullah (ibn Məsud) ﷺ demişdir:[1] Peyğəmbər ﷺ qənimətləri əvvəl böldüyü kimi böldü.[2] Onda, ənsardan olan bir nəfər dedi: “Vallahi, bu, Allahın ﷻ Üzünü diləmək məqsədilə yerinə yetirilməyən bir bölgüdür.”[3] Mən: “(Bunu) mütləq Peyğəmbərə ﷺ söyləyəcəyəm”– dedim,

---

**və kin saldıq. Onlar hər dəfə müharibə alovunu yandırdıqda Allah onu söndürər. Onlar yer üzündə fitnəkarlıq törətməyə səy göstərirlər. Allah isə fitnəkarları sevmir!”** (əl-Maidə, 64).

– “**Həqiqətən, *kafirlər* yalan uydurub: “Allah doğmuşdur”– deyirlər. Şübhəsiz ki, onlar yalançıdırlar**” (əs-Saffat, 151-152).

– “**Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq üz vermədi**” (Qaf, 38). Yəhudilər: “Allah göyləri və yeri altı günə yaratdı. Əvvəlincisi bazar günü, axırıncısı isə cümə günüdür. Şənbə günü isə istirahət etdi.” Uca Allah da bu ayəni nazil etməklə onların dediyini təkzib etdi” (Fəthul-Qadir).

[1] Bu hədisi Buxari (3150), Muslim(1062) və Əhməd (1/411) rəvayət etmişdir.

[2] Digər rəvayətdə deyilir: “Huneyn döyüşündən sonra Peyğəmbər ﷺ qənimətləri bölüşdürərkən, bəzi adamlara üstünlük verdi. Belə ki, o, Əqra ibn Habisə yüz dəvə, Üyeynəyə də bir o qədərini, habelə, ərəblərin əyan-əşrafına (çoxlu hədiyyələr) verməklə, həmin gün onları (digərlərindən) üstün tutdu” (Səhih əl-Buxari, 3150).

[3] Digər rəvayətdə deyilir: “Peyğəmbər ﷺ Ciranədə qənimətləri bölüşdürərkən bir nəfər ona: “Ədalətlə *böl!*”– dedi. Peyğəmbər ﷺ də ona: “Mən ədalətli olmasaydım, sən bədbəxt olardın!”– dedi. (Səhih əl-Buxari, 3138); Ciranə: Məkkə ilə Taif arasında yerləşən vadidir. Başqa bir rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ: “Allah və Onun Rəsulu ədalətli olmasa, kim ədalətli ola bilər?”– demişdir. (Səhih əl-Buxari, 3150). Əslində bu söz – yəni Rəsulullahın ﷺ ədalətsiz olduğunu demək küfr sayılır. Şəkk yoxdur ki, Allahın Rəsulu ﷺ qənimətləri ədalətlə bölmüş və onları bu cür bölməkdə məqsədi qəbilə başçılarının qəlbini İslam dininə isinişdirmək olmuşdur. Lakin cahillik insanı nəfsinə uymağa və küfr

sonra da Peyğəmbərin ﷺ yanına gəldim. O, səhabələri ilə birgə oturmuşdu. Mən deyilənləri onun qulağına pıçıldadım.[1] Bu (sözlər) ona çox ağır gəldi, sifəti dəyişdi və qəzəbləndi. Mən təəssüf etdim ki, kaş, bunu ona bildirmiş olmayaydım. O, buyurdu: "Musaya bundan da artıq əziyyət verilmişdir, lakin o, səbir etmişdir.[2]"

---

sözlər danışmağa təşviq edir. Belələri barədə Uca Allah buyurur: **"Onlardan elələri də var ki, sədəqələrlə bağlı sənə nöqsan tuturlar. Bundan onlara bir şey çatsa, razı qalar, bir şey çatmasa, dərhal qəzəblənərlər"** (ət-Tovbə, 58-59).

[1] İbn Məsudun ﷺ bu hərəkəti, söz gəzdirmək və qeybət qırmaq kimi qadağan olunmuş əmələ aid deyil. Əksinə, bu, bəyənilən əməllərdən sayılır.

[2] Uca Allah buyurur: **"Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et!"** (əl-Əhqaf, 35) Bundan aydın olur ki, Allah Öz peyğəmbərlərini imtahana çəkmiş və onlar Allahın rizasını qazanmaq üçün bu əziyyətlərə səbir etmişlər. Əziyyətə səbir etmək, Allaha yaxınlaşmaq, həm də savab qazanmaq üçün bir səbəbdir. Bu isə hər adama nəsib olmur. Uca Allah buyurur: "***İnsanları* Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!"– deyən kəsdən daha gözəl söz deyən kim ola bilər? Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur**" (Fussilət, 33-35). Diqqət edin! Bu söz Peyğəmbərə ﷺ İslamın əvvəlində yox, hicrətdən səkkiz il sonra, yəni Muhəmmədə ﷺ peyğəmbərlik verildikdən iyirmi bir il sonra, artıq bu dinin qüvvətləndiyi, möminlərin sabitqədəm olduğu və saylarının artdığı bir dövrdə deyilmişdir. Bu da, dəlildir ki, peyğəmbərlər başda olmaqla mömin adamlar həmişə imtahana çəkilib və çəkiləcək də, habelə, belə narazı insanlar daim olub və olacaq da. Mömin adam bu hədislərdən ibrət götürməli, insanların ona verdiyi əziyyətlərə səbir etməli və düşünməlidir ki, Allah bir kimsəni sevdiyi və ona xeyir nəsib etmək istədiyi zaman onu imtahana çəkər. Habelə, bilməlidir ki, insanlar arasında ən çox imtahana çəkilən kəslər peyğəmbərlərdir. Sonra onlara oxşarlar və oxşarlar. Onu da bilməlidir ki, Allah rizasını qazanmaq üçün bu əziyyətlərə səbir etmək, günahların silinməsi və savabların artması üçün bir səbəbdir.

Peyğəmbərin ﷺ: "Musaya bundan da artıq əziyyət verilmişdir, lakin o, səbir etmişdir" sözünə diqqətlə nəzər salsaq, bundan faydalı nəticə çıxara bilərik, başqa cür desək, əziyyətə məruz qaldıqda səbir etməyin yolunu tapa bilərik. Belə halda səbir etmək üçün Quran və Sünnədə zikr olunmuş hadisələri – bizdən əvvəl yaşamış daha fəzilətli insanların başlarına gəlmiş daha böyük müsibətləri xatırlamaq gərəkdir. Quranda Uca Allah bu-

yurur: **"Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə kasıblıq və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: "Allahın köməyi nə vaxt** ***gələcək*****?"– dedilər. Həqiqətən, Allahın köməyi yaxındır"** (əl-Bəqərə, 214). Həmçinin, hədislərin birində Xəbbab ibn Ərat ﷺ demişdir: "Peyğəmbər ﷺ libasına bürünüb Kəbənin kölgəsində dincələrkən biz onun yanına gəldik və ona şikayət edib dedik: "Bizim üçün *Allahdan* kömək diləməyəcəksənmi? Bizim üçün Allaha dua etməyəcəksənmi?" O buyurdu: "Sizdən əvvəl yaşamış *möminlərdən* birisini tutub torpağa basdırardılar, sonra da mişar gətirib onun başının tən ortasına qoyar və onu iki hissəyə bölərdilər, lakin bu *işgəncə* onu dinindən döndərməzdi. Kimisini də dəmir daraqlarla başını ta sümüyədək və ya sinirinədək darayardılar, lakin bu *əzab* onu dinindən döndərməzdi. Vallahi ki, Allah bu dini tamamlayacaq, hətta iş o yerə gəlib çatacaq ki, atlı Sənadan Hədrəmovtə səfər edəcək və *yolda* Allahdan başqa heç kəsdən qorxmayacaqdır. Lakin siz tələsirsiniz" (Səhih əl-Buxari, 3612).

# ١٨٣- بَابُ إِصْلَاحِ ذَاتِ الْبَيْنِ

## 183-cü fəsil. Tərəflər arasını düzəltmək[1]

٣٩١- حَدَّثَنَا صَدَقَةُ قَالَ: حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الأَعْمَشِ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ سَالِمِ ابْنِ أَبِي الْجَعْدِ، عَنْ أُمِّ الدَّرْدَاءِ، عَنْ أَبِي الدَّرْدَاءِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَلَا أُنَبِّئُكُمْ بِدَرَجَةٍ أَفْضَلَ مِنَ الصَّلَاةِ وَالصِّيَامِ وَالصَّدَقَةِ؟)) قَالُوا: بَلَى، قَالَ: ((صَلَاحُ ذَاتِ الْبَيْنِ، وَفَسَادُ ذَاتِ الْبَيْنِ هِيَ الْحَالِقَةُ)).

**(391)** ........ Əbu Dərda ﷺ rəvayət edir ki,[2] (bir dəfə) Peyğəmbər ﷺ (səhabələrindən): "Sizə namazdan, orucdan və sədəqədən daha fəzilətli bir dərəcə[3] barədə xəbər verimmi?"– deyə soruşdu. (Səhabələr): "Bəli!"– deyə

---

[1] İnsanlar arasındakı münasibətləri düzəltməyin savabı böyükdür. Bu xüsusda, Uca Allah buyurur: **"Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin *pıçıldaması* isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik"** (ən-Nisa, 114); digər ayədə O, buyurur: **"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə, qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin"** (əl-Hucurat, 10). Xüsusilə qeyd etmək lazımdır ki, tərəflər arasını düzəltmək istəyən adam görəcəyi işi yaxşı bilməli, başqa cür desək, küsülülərin arasında baş vermiş inciklikdən xəbərdar olmalı və onları barışdırmaq üçün şəriətə zidd üslublara əl atmamalı, üstəlik, bunu ixlasla, yalnız Allah rizasını qazanmaq üçün yerinə yetirəcəyinə niyyət etməli, tərəflərin arasının düzəlməsi üçün Allaha dua etməli, səmimi-qəlbdən hər iki tərəfə nəsihət etməli və bunun mükafatını ancaq Allahdan ummalıdır. Belə etsə, Allah onu bu çətin işin öhdəsindən gəlməyə müvəffəq edər. Əks halda isə islah etmək əvəzinə, əksinə, fitnəni bir az da alovlandırar. Əlbəttə ki, dəlil-sübuta istinad etmədən, nəfsinin istəyinə uyaraq islah etmək istəyən adam, əksinə, fəsad törədər.

[2] Bu hədisi Əbu Davud (4919), Tirmizi (2698), Əhməd (6/444) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Burada namaz, oruc və sədəqə deyildikdə, vaciblər yox, nafilələr nəzərdə tutulur. Bu xüsusda, Uca Allah qüdsi hədisdə belə buyurur: "Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir" (Səhih əl-Buxari, 6502).

cavab verdikdə, o, buyurdu: “Tərəflər arasını düzəltməkdir! Dostların arasını vurmaq isə dəlləklikdir.[1]”

**٣٩٢-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبَّادُ بْنُ الْعَوَّامِ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ بْنُ الْحُسَيْنِ، عَنِ الْحَكَمِ، عَنْ مُجَاهِدٍ، عَنِ ابْنِ عَبَّاسٍ: ﴿فَاتَّقُوا اللَّهَ وَأَصْلِحُوا ذَاتَ بَيْنِكُمْ﴾، قَالَ: هَذَا تَحْرِيجٌ مِنَ اللَّهِ عَلَى الْمُؤْمِنِينَ أَنْ يَتَّقُوا اللَّهَ وَأَنْ يُصْلِحُوا ذَاتَ بَيْنِهِمْ.

**(392)** ........ Mücahid rəvayət edir ki, İbn Abbas ﵄: **“Elə isə, Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin”[2]** ayəsini izah edib demişdir: “Bu, Allahın möminlərə göstərdiyi təzyiqdir ki,[3] Allahdan qorxub aralarındakı ixtilaflara son qoysunlar!”[4]

---

[1] Dəllək ülgüclə saçları qırxdığı kimi, bu pis xislət də dinə xələl gətirir (260-cı hədisə və onun qeydlərinə bax).

[2] “əl-Ənfal” surəsi, 1.

[3] Yəni yerinə yetirilməsi lazım gələn əməldir. Bu əməlin Allah qorxusu ilə bağlı olması onun həm islah edən, həm də islah olunan tərəflər üçün nə dərəcədə əhəmiyyətli olduğuna dəlalət edir. Bu da, o deməkdir ki, möminlərin təqvası artdıqca aralarındakı münasibətlər də düzəlir. Belə ki, əsl müttəqilər həm özlərini, həm də başqalarını islah etməklə məşğul olar, başqalarının eyiblərini araşdırmaqdan, beləliklə də fəsad törətməkdən uzaq durarlar. Sələflərdən bəzisi demişdir: “Mən eyibləri (üzdə) olmayan bir toplum gördüm. Onlar insanların eyibləri barədə danışmağa başladılar, insanlar da onların eyiblərindən danışdılar. Həmçinin, eyibləri olan başqa bir toplum da gördüm. Onlar insanların eyiblərindən danışmadılar, nəticədə öz eyibləri unuduldu” (Tarix Corcan, 1/251).

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir. Bu rəvayət “mövquf”dur. Lakin buna bənzər rəvayət Ənəsdən ﵁ “mərfu” isnadla, yəni Peyğəmbərə ﷺ istinad edilərək rəvayət olunmuşdur (Səhih və Daif əl-Cami əs-Səğir, 1133).

## ١٨٤ – بَابُ إِذَا كَذَبْتَ لِرَجُلٍ هُوَ لَكَ مُصَدِّقٌ

## 184-cü fəsil. Sənə inanan adama yalan söyləmək[1]

٣٩٣– حَدَّثَنَا حَيْوَةُ بْنُ شُرَيْحٍ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ، عَنْ ضُبَارَةَ بْنِ مَالِكٍ الْحَضْرَمِيِّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ جُبَيْرِ بْنِ نُفَيْرٍ، أَنَّ أَبَاهُ حَدَّثَهُ، أَنَّ سُفْيَانَ بْنَ أُسَيْدٍ الْحَضْرَمِيَّ حَدَّثَهُ، أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((كَبُرَتْ خِيَانَةً أَنْ تُحَدِّثَ أَخَاكَ حَدِيثًا هُوَ لَكَ مُصَدِّقٌ، وَأَنْتَ لَهُ كَاذِبٌ)).

**(393)** ........ Sufyan ibn Useyd əl-Hədrəmi ﵁ rəvayət etmişdir ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Sənin dediklərinə inanan (mömin) qardaşına bir şey danışarkən ona yalan söyləməyin böyük xəyanətdir.[2]"[3]

---

[1] İmam Buxari bu fəsilə belə ünvan qoymaqla, yalan danışmağın günahının dərəcə baxımından fərqli olduğunu bildirir. Məsələn, oruclu ikən danışılan yalanın günahı, habelə, yalan danışmaqla yanaşı bu yalanı təsdiqləmək üçün and içməyin günahı adi halda danışılan yalandan daha böyük günah sayılır. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq və üzlərinə baxmayacaqdır: *müştəriyə* yalandan and içib, *guya* satdığı mala onun verdiyi puldan daha çox pul verildiyini deyən kimsə..." (Səhih əl-Buxari, 2369); digər hədisdə o, demişdir: "(Yalandan) and içmək malın satılmasına rəvac versə də, onun bərəkətini aparır" (əl-Buxari, 2087); başqa bir hədisdə o, demişdir: "Kim yalan danışmaqdan və bu yalana əməl etməkdən əl çəkməsə, yeməyini və içməyini tərk etməsinə Allahın ehtiyacı yoxdur" (Səhih əl-Buxari, 1903).

[2] Mömininin möminə olan inamı bir əmanətdir. Mömin qardaşının inamından istifadə edərək ona yalan danışıb, bu əmanətə xəyanət edən kimsə əlbəttə ki, xain sayılır.

[3] Bu hədisi Əbu Davud (4971) və Beyhəqi (10/199) rəvayət etmişdir. Hədisin isnadında keçən Dubarə ibn Malik əl-Hədrəmi "məchul" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (1251) bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, mənası "səhih"dir.

## ١٨٥ – بَابُ لا تَعِدْ أَخَاكَ شَيْئًا فَتُخْلِفَهُ

## 185-ci fəsil. Qardaşına söz verdikdən sonra vədinə xilaf çıxma!

**٣٩٤–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مُحَمَّدٍ الْمُحَارِبِيُّ، عَنْ لَيْثٍ، عَنْ عَبْدِ الْمَلِكِ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ تُمَارِ أَخَاكَ، وَلاَ تُمَازِحْهُ، وَلاَ تَعِدْهُ مَوْعِدًا فَتُخْلِفَهُ)).

**(394)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Qardaşınla höcətləşmə,[1] onunla *yersiz* zarafat etmə[2] və yerinə yetirməyəcəyin bir şeyi ona vəd vermə![3]”[4]

---

[1] Burada söhbət ədavətə gətirib çıxaran mübahisədən gedir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Mən, haqlı olduğu halda belə mübahisədən əl çəkən kimsənin Cənnətin guşəsində bir evi olacağına, habelə, zarafatla olsa belə yalan danışmayan kimsənin Cənnətin ortasında bir evi olacağına və bir də əxlaqı gözəl olan kimsənin Cənnətin ən yüksək təbəqəsində bir evi olacağına zəmanət verirəm” (Sunən Əbu Davud, 4800; Sunən ət-Tirmizi, 2124; Sisilətul-Əhadisis-Səhihə, 273). Qeyd etmək lazımdır ki, Allah rizasını qazanmaq üçün, haqqı çatdırmaq məqsədilə gözəl tərzdə mübahisə etmək, daha dəqiq desək, müzakirə etmək caizdir. Bu xüsusda, Uca Allah belə buyurur: **“*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et”** (ən-Nəhl, 125). Əks təqdirdə isə bu mübahisə insanı Cəhənnəm oduna sürükləyə bilər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Kim elmi, alimlərlə rəqabət aparmaq, yaxud səfehlərlə höcətləşmək və ya insanlara özünü göstərmək məqsədilə öyrənərsə, Cəhənnəm oduna giriftar olar” (Səhih əl-Cami, 6382).

[2] 121-ci fəsilə və onun qeydlərinə bax.

[3] Bilərəkdən verilən vədi yerinə yetirməmək münafiqlik əlamətidir. Peyğəmbər ﷺ demişdir: “Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar, vəd verdikdə *vədinə* xilaf çıxar və bir də ona əmanət verildikdə əmanətə xəyanət edər” (Səhih əl-Buxari, 33).

[4] Bu hədisi Tirmizi (1995) və Beyhəqi (Şoəbul-İman, 8073) rəvayət etmişdir. Hədisin isnadında keçən Leys ibn Suleym “sonradan hafizəsi qarışmış səduq” ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Hədisin isnadı “zəif” olsa da, mənası səhihdir.

# ١٨٦- بَابُ الطَّعْنِ فِي الأَنْسَابِ

## 186-cı fəsil. Əsil-nəcabətə tənə vurmaq

٣٩٥- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((شُعْبَتَانِ لاَ تَتْرُكُهُمَا أُمَّتِي: النِّيَاحَةُ وَالطَّعْنُ فِي الأَنْسَابِ)).

**(395)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İki *pis* xislət vardır ki, ümmətim onları heç vaxt tərk etməyəcəkdir: *ölüyə* vay-şivən salıb ağlamaq[1] və əsil-nəcabətə tənə vurmaq.[2]"[3]

---

[1] 361-ci hədisin qeydlərinə bax.

[2] Hər iki xislət cahiliyyət dövründən qalmış yaramaz əməllərdəndir. Lakin bu, ümmətin hamısına yox, bir qisminə aid edilir. Burada "iki xislət" deyildikdə, ancaq iki xislət qəsd edilmir. Peyğəmbər ﷺ bunu sadəcə misal olaraq söyləmişdir. Belə ki, cahilliyyət dövründən qalmış neçə-neçə yaramaz əməllər vardır ki, bu ümmətin bəzi avamları hələ də o əməlləri etməkdədirlər. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Ümmətimin etdiyi dörd *yaramaz* xislət vardır ki, onlar bu xislətləri tərk etməyəcəklər: əsil-nəcabətlə qürrələnmək, *birisinin* nəslinə tənə vurmaq, ulduzlardan yağış diləmək və vay-şivən salıb ağlamaq. Vay-şivən salıb ağlayan qadın ölümündən əvvəl tövbə etməzsə, Qiyamət günü əynində qatrandan şalvar və bədəni gicişdirən köynəkdə həşr ediləcək" (Səhih Muslim, 3/45). Onu da qeyd edək ki, bu xislətlər küfrə aiddir. Yəni bunu edən şəxs küfr etmiş olur, lakin bu küfr kiçik küfr sayıldığından sahibini İslamdan çıxartmır. Bu xislətlərin küfr olduğu barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "İnsanların etdiyi iki əməl vardır ki, bu əməllər onlar üçün küfr sayılır: əsil-nəcabətə tənə vurmaq və ölüyə vay-şivən salıb ağlamaq" (Musnəd Əbu Əvanə, 1/35; Fitnətut-Təkfir, səh: 14). Başqalarının əsil-nəcabətinə tənə vurmaq imanı azaldır, adama günah qazandırır, həm də insanlar arasında fitnə-fəsada yol açır.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ١٨٧- بَابُ حُبِّ الرَّجُلِ قَوْمَهُ

## 187-ci fəsil. Adamın öz qövmünü sevməsi[1]

٣٩٦- حَدَّثَنَا زَكَرِيَّا قَالَ: حَدَّثَنَا الْحَكَمُ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا زِيَادُ بْنُ الرَّبِيعِ قَالَ: حَدَّثَنِي عَبَّادٌ الرَّمْلِيُّ قَالَ: حَدَّثَتْنِي امْرَأَةٌ يُقَالُ لَهَا: فُسَيْلَةُ، قَالَتْ: سَمِعْتُ أَبِي يَقُولُ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَمِنَ الْعَصَبِيَّةِ أَنْ يُعِينَ الرَّجُلُ قَوْمَهُ عَلَى ظُلْمٍ؟ قَالَ: نَعَمْ.

**(396)** ........ Fuseylə demişdir: "Mən atamın belə dediyini eşitmişəm: "Mən (Rəsulullahdan ﷺ) soruşdum: "Ya Rəsulullah, adamın zülm hesab edilən işlərdə öz tayfasına yardım etməsi[2] tayfabazlıq sayılırmı?" O: "Bəli!"– deyə cavab verdi."[3]

---

[1] Yəni valideynləri, bacı-qardaşı, əhli-əyalı və digər qohum-əqrəbanı sevmək mübah əməllərdəndir. Lakin xüsusilə qeyd etmək lazımdır ki, onları Allahdan və Onun Rəsulundan ﷺ çox sevmək qadağandır. Bu xüsusda, Uca Allah belə buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Rəsulundan və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz"** (ət-Tovbə, 24).

[2] Digər rəvayətdə Fuseylə demişdir: "Mən atamın belə dediyini eşitmişəm: "Mən (Rəsulullahdan ﷺ) soruşdum: "Ya Rəsulullah, adamın öz qövmünü sevməsi tayfabazlıq sayılırmı?" O, dedi: "Xeyr, (sayılmır). Lakin adamın zülm sayılan işlərdə öz tayfasına yardım etməsi tayfabazlıq sayılır" (Musnəd İmam Əhməd, 4/107).

[3] Bu hədisi İbn Macə (3949) rəvayət etmişdir. Hədisin isnadında keçən Abbad ər-Rəmli "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı zəif olsa da, mətninin mənası "səhih"dir.

# ١٨٨ – بَابُ هِجْرَةِ الرَّجُلِ

## 188-ci fəsil. Adamla əlaqəni kəsmək[1]

٣٩٧ – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ خَالِدٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عَوْفِ بْنِ الْحَارِثِ بْنِ الطُّفَيْلِ، وَهُوَ ابْنُ أَخِي عَائِشَةَ لِأُمِّهَا، أَنَّ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا حُدِّثَتْ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ الزُّبَيْرِ قَالَ فِي بَيْعٍ، أَوْ عَطَاءٍ، أَعْطَتْهُ عَائِشَةُ: وَاللَّهِ لَتَنْتَهِيَنَّ عَائِشَةُ أَوْ لَأَحْجُرَنَّ عَلَيْهَا، فَقَالَتْ: أَهُوَ قَالَ هَذَا؟ قَالُوا: نَعَمْ، قَالَتْ عَائِشَةُ: فَهُوَ لِلَّهِ نَذْرٌ أَنْ لاَ أُكَلِّمَ ابْنَ الزُّبَيْرِ كَلِمَةً أَبَدًا، فَاسْتَشْفَعَ ابْنُ الزُّبَيْرِ بِالْمُهَاجِرِينَ حِينَ طَالَتْ هِجْرَتُهَا إِيَّاهُ، فَقَالَتْ: وَاللَّهِ، لاَ أُشَفِّعُ فِيهِ أَحَدًا أَبَدًا، وَلاَ أُحَنِّثُ نَذْرِي الَّذِي نَذَرْتُ أَبَدًا. فَلَمَّا طَالَ عَلَى ابْنِ الزُّبَيْرِ كَلَّمَ الْمِسْوَرَ بْنَ مَخْرَمَةَ وَعَبْدَ الرَّحْمَنِ بْنَ الأَسْوَدِ بْنِ عَبْدِ يَغُوثَ، وَهُمَا مِنْ بَنِي زُهْرَةَ، فَقَالَ لَهُمَا: أَنْشُدُكُمَا بِاللَّهِ إِلاَّ أَدْخَلْتُمَانِي عَلَى عَائِشَةَ، فَإِنَّهَا لاَ يَحِلُّ لَهَا أَنْ تَنْذِرَ قَطِيعَتِي، فَأَقْبَلَ بِهِ الْمِسْوَرُ وَعَبْدُ الرَّحْمَنِ مُشْتَمِلَيْنِ عَلَيْهِ بِأَرْدِيَتِهِمَا، حَتَّى اسْتَأْذَنَا عَلَى عَائِشَةَ فَقَالاَ: السَّلاَمُ عَلَيْكِ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، أَنَدْخُلُ؟ فَقَالَتْ

---

[1] Şəriətə görə möminin üç gündən artıq mömin qardaşı ilə əlaqəni kəsməsi caiz deyil. Bu xüsusda Quran və Sünnədə kifayət qədər dəlillər vardır. Uca Allah buyurur: **"Möminlər, həqiqətən də qardaşdırlar"** (əl-Hucurat, 10); digər ayədə O, buyurur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!"** (Ali-İmran, 103). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Kənddə və ya çöl-biyabanda olan üç nəfər camaat şəklində namaz qılmasalar, şeytan onlara hakim olar. Belə olmasın deyə, camaat olun! Əlbəttə ki, canavar sürüdən ayrı düşmüş qoyunu *tez* yeyər" (Sunən Əbu Davud, 547; Sunən ən-Nəsai, 922; Musnəd İmam Əhməd, 6/446; Səhih əl-Cami, 5701); digər hədisdə o, demişdir: "Allahın Əli *haqq yolda olan* camaatın üzərindədir! Camaatdan ayrılan kimsənin yanında isə ancaq şeytan olar" (Səhihul-Camius-Səğir, 2729-cu hədis). Lakin bəzi müstəsna hallar vardır ki, belə hallarda günahkar adamı islah etmək məqsədilə ondan əlaqəni kəsmək caizdir. Lakin qeyd etmək lazımdır ki, dünya işlərində baş vermiş müşküllərdən ötrü əlaqəni kəsmək olmaz. Dini məsələlərdə isə alimin məsləhəti ilə məsləhət görülən müddətdə günahkar adamdan əlaqəni kəsmək caizdir. Necə ki, Peyğəmbər ﷺ və onun səhabələri Kəb ibn Malikdən, Murara ibn Rəbi əl-Amridən və Hilal ibn Ümeyyə əl-Vaqifidən əlli gün əlaqəni kəsmişdilər. (Bax: Səhih əl-Buxari, 4418).

عَائِشَةُ: ادْخُلُوا، قَالاَ: كُلُّنَا يَا أُمَّ الْمُؤْمِنِينَ؟ قَالَتْ: نَعَمْ، ادْخُلُوا كُلُّكُمْ. وَلاَ تَعْلَمُ عَائِشَةُ أَنَّ مَعَهُمَا ابْنَ الزُّبَيْرِ، فَلَمَّا دَخَلُوا دَخَلَ ابْنُ الزُّبَيْرِ فِي الْحِجَابِ، وَاعْتَنَقَ عَائِشَةَ وَطَفِقَ يُنَاشِدُهَا يَبْكِي، وَطَفِقَ الْمِسْوَرُ وَعَبْدُ الرَّحْمَنِ يُنَاشِدَانِ عَائِشَةَ إِلاَّ كَلَّمَتْهُ وَقَبِلَتْ مِنْهُ، وَيَقُولاَنِ: قَدْ عَلِمْتِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَمَّا قَدْ عَلِمْتِ مِنَ الْهِجْرَةِ، وَأَنَّهُ لاَ يَحِلُّ لِلرَّجُلِ أَنْ يَهْجُرَ أَخَاهُ فَوْقَ ثَلاَثِ لَيَالٍ. قَالَ: فَلَمَّا أَكْثَرُوا التَّذْكِيرَ وَالتَّحْرِيجَ طَفِقَتْ تُذَكِّرُهُمْ وَتَبْكِي وَتَقُولُ: إِنِّي قَدْ نَذَرْتُ وَالنَّذْرُ شَدِيدٌ، فَلَمْ يَزَالُوا بِهَا حَتَّى كَلَّمَتِ ابْنَ الزُّبَيْرِ، ثُمَّ أَعْتَقَتْ بِنَذْرِهَا أَرْبَعِينَ رَقَبَةً، ثُمَّ كَانَتْ تَذْكُرُ بَعْدَ مَا أَعْتَقَتْ أَرْبَعِينَ رَقَبَةً فَتَبْكِي حَتَّى تَبُلَّ دُمُوعُهَا خِمَارَهَا.

**(397)** ........ Aişənin رضي الله عنها anabir qardaşı oğlu Auf ibn Haris ibn Tufeyl demişdir: "(Bir gün) Aişəyə xəbər verdilər ki, Abdullah ibn Zubeyr[1] Aişənin satdığı, yaxud bağışladığı[2] bir şey barədə: "Vallahi, Aişə ya bu işə son qoyacaq, ya da mən bunun qarşısını alacağam[3]"– dedi. Aişə soruşdu: "O, bu sözü deyibmi?"[4] Onlar: "Bəli!"– deyə cavab verdilər. Onda Aişə dedi: "Mən Allah üçün nəzir edirəm ki, heç vaxt İbn Zubeyrlə kəlmə kəsməyəcəyəm." İbn Zubeyr Aişənin uzun müddət onunla danışmadığını gördükdə, mühacirlər vasitəsilə ondan üzr dilədi.[5] Aişə dedi: "Vallahi, mən ona havadarlıq edən kimsənin (havadarlığını) heç vaxt qəbul etməyəcəyəm və

---

[1] Bu, Aişənin رضي الله عنها bacısı Əsmanın رضي الله عنها oğlu Abdullahdır رضي الله عنه.

[2] Təbaraninin "Mocəmul-Kəbir" əsərində Aişənin رضي الله عنها özünə məxsus olan bir evi satdığı xəbər verilir.

[3] Abdullah ibn Zubeyr رضي الله عنه öz ictihadına görə elə güman etmişdir ki, Aişənin رضي الله عنها o evi satıb pulunu sədəqə verməsi və ya onu sədəqə olaraq kasıba bağışlaması yanlışdır. Abdullah ibn Zubeyr رضي الله عنه burada xətaya yol verir, sonra da elədiyinə peşman olur.

[4] Bu, dəlildir ki, adam belə məsələlərdə düzgün qərar vermək üçün eşitdiyini dəqiqləşdirməlidir. Ələlxüsus da, fasiq adamın gətirdiyi xəbəri dəqiqləşdirmək vacibdir. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, *onu* araşdırın. Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da bunun peşmançılığını çəkərsiniz"** (əl-Hucurat, 6).

[5] İbn Zubeyr رضي الله عنه mühacirlərin bəzilərindən xahiş edir ki, gedib Aişədən رضي الله عنها onun üçün üzr diləsinlər.

dediyim nəzirdən əsla boyun qaçırmayacağam."[1] İbn Zubeyr Aişənin yenə bir müddət onunla danışmadığını gördükdə, Zuhra oğullarından[2] Misvar ibn Məxrəməyə və Abdur-Rəhman ibn Əsvəd ibn Abdu-Yəğusa müraciət edib dedi: "Sizdən Allah xatirinə xahiş edirəm ki, məni Aişə ilə görüşdürəsiniz. Onun mənimlə əlaqəni kəsməyinə dair nəzir deməsi ona halal sayılmır." Misvarla Abdur-Rəhman onu öz əbalarının altına alıb Aişənin yanına gəldilər[3] və ondan içəri daxil olmaq üçün izin istəyib dedilər: "Sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti sənə yetişsin! İçəri girə bilərikmi?"[4] Aişə: "Girin!"– dedi. Onlar soruşdular: "Hamımız *girək*, ey möminlərin anası?"[5] O: "Bəli, hamınız girin!"– deyə cavab verdi. Aişə İbn Zubeyrin onların yanında olduğunu bilmirdi. İbn Zubeyr onlarla bərabər içəri daxil oldu, sonra pərdənin arxasına keçib Aişəyə yaxınlaşdı və onu qucaqlayıb,[6] ağlaya-ağlaya ondan üzr diləməyə başladı. Həmçinin, Misvarla Abdur-Rəhman da Aişədən onunla barışmağı, onun üzrxahlığını qəbul etməyi xahiş etdilər və dedilər: "Axı sən bilirsən ki, Rəsulullah ﷺ sən bildiyin ayrılığı qadağan etmişdir.[7] (Onu da bilirsən ki,) heç kəsə üç gündən ar-

---

[1] Diqqət edin! Möminlərin anası رضي الله عنها əvvəlcə onunla danışmayacağına əhd edir, sonra da bu əhdini pozmayacağına and içir. Beləliklə də, bu məsələni Abdullah ibn Zubeyr رضي الله عنهما üçün bir az da qəlizləşdirir. Bundan aydın olur ki, həddini aşmış bir adamı islah etmək məqsədilə ondan əlaqəni kəsmək caizdir.

[2] Zuhra oğulları Peyğəmbərin ﷺ qohumlarından olduqları üçün İbn Zubeyr رضي الله عنهما onlara müraciət etmişdir.

[3] Misvarla Abdur-Rəhmanın bu cür kələk işlətməsi, əslində, yalan sayılır. Lakin qeyd etmək lazımdır ki, insanların arasını düzəltmək məqsədilə yalan danışmaq və ya kələk qurmaq caizdir (385-ci hədisə və onun qeydlərinə bax).

[4] Yad bir yerə daxil olmaq üçün əvvəlcə salam verib sonra içəri keçməyə izin istəmək Sünnədir.

[5] Uca Allah bu xüsusda buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır"** (əl-Əhzab, 6).

[6] O vaxt möminlərin anaları yanlarına gələn adamlarla pərdə arxasından danışardılar. Abdullah ibn Zubeyrin رضي الله عنهما pərdənin arxasına keçib onu qucaqlaması isə təbiidir. Belə ki, İbn Zubeyr onun bacısı oğludur. Qadının bacısı oğlu isə onun məhrəmi sayılır.

[7] Burada onlar mömінin öz mömin qardaşını uzun müddət tərk etməyi qəsd edirlər.

tıq *mömin* qardaşını tərk etməsi halal deyildir." Onlar ona çoxlu öyüd-nəsihət verdikdə və onu danladıqda,[1] Aişə *bacısı oğlunun dediyini* onlara xatırlatdı və ağlaya-ağlaya dedi: "Mən artıq nəzir etmişəm.[2] Nəzir isə çox məsuliyyətli işdir." Onlar Aişəyə o qədər nəsihət etdilər ki, nəhayət, o, İbn Zubeyrlə barışdı. Nəzirini pozduğuna görə isə qırx kölə azad etdi.[3] Aişə kölələri azad etdikdən sonra belə, bəzən *bunu* yada salıb o qədər ağlayardı ki, göz yaşları hicabını isladardı."[4]

---

[1] Bu, dəlildir ki, tərəflər arasını düzəltmək istəyən adam şəriətin buyurduqlarını – əfv etməyin və bağışlamağın fəzilətini, tərk etməyin və salamı kəsməyin təhlükəsini nəsihət edəcəyi adama xatırlatmalı və bunu təkrar-təkrar onun yadına salmalıdır.

[2] Yəni onunla danışmayacağıma söz vermişəm.

[3] Bu, Aişənin ﵂ öz əhdini və andını pozduğuna görə verdiyi kəffarədir – günahının bağışlanılması üçün şəriətin buyurduğu qaydada verdiyi sədəqədir. Kölə azad etməyin fəziləti barədə Peyğəmbər ﷺ demişdir: "Kim bir müsəlmanı köləlikdən azad edərsə, *azad olanın* hər bir əzasına görə Allah azad edən adamın bir əzasını Cəhənnəm odundan xilas edər" (Səhih əl-Buxari, 2517).

[4] Bu hədisi Buxari (6073) rəvayət etmişdir.

## ١٨٩– بَابُ هِجْرَةِ الْمُسْلِمِ

## 189-cu fəsil. Müsəlmanla əlaqəni kəsmək[1]

٣٩٨–حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ تَبَاغَضُوا، وَلاَ تَحَاسَدُوا، وَلاَ تَدَابَرُوا، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا، وَلاَ يَحِلُّ لِمُسْلِمٍ أَنْ يَهْجُرَ أَخَاهُ فَوْقَ ثَلاَثِ لَيَالٍ)).

**(398)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki,[2] Rəsulullah ﷺ belə buyurmuşdur: "Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd[3] aparmayın, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun! Heç bir müsəlmana üç gündən artıq qardaşı ilə küsülü qalması halal deyildir.[4]"

---

[1] İmam Buxari fəslə belə ünvan verməklə müsəlmanla əlaqəni kəsməyin qadağan olunduğunu bildirir.

[2] Bu hədisi Buxari (6076), Muslim (2558) Əbu Davud (4910) və Əhməd (3/199) rəvayət etmişdir.

[3] Həsəd: başqasının üstünlüyünə, xoşbəxtliyinə, rifahına, müvəffəqiyyətinə, qabağa getməsinə dözməmək, bundan dilxor olmaq, acıqlanmaq; gözügötürməməzlik, dargözlük. Sədi demişdir: "Paxıl o şəxsdir ki, həsəd apardığı insana verilən nemətin puç olmağını istəyir və bunun üçün də əlindən gələn imkanlardan istifadə edərək səy göstərir. Bədnəzərlər də buna aiddir. Belə ki, bədnəzərlik xəbis nəfsli, şər təbiətli paxılın əməlindəndir" (ət-Təfsir). Demək, paxıl adam əslində, Allahın başqasına nemət verməsinə nifrət edir və bunun qarşısının alınmasını arzulayır, beləliklə də, Allaha asilik etmiş olur.

[4] İslam şəriəti müsəlmanları həm bir-birinə nifrət etməkdən, bir-birinə həsəd aparmaqdan və bir- birinə arxa çevirməkdən, həm də bu yaramaz əməllərə təhrik edən hər bir səbəbdən uzaq durmağı buyurur. Belə ki, bir şeyin qadağan edilməsi, ona təhrik edən hər bir səbəbin də qadağan olunmasına dəlalət edir. Bu hədisdə ancaq üç yaramaz xislət qeyd edilmişdir. Lakin digər hədislərdə müsəlmanla rəqabət aparmağın, ona zülm etməyin, onu alçaltmağın, onu lağa qoymağın, onun alveri üstündən alver etməyin, onun malını mənimsəməyin və başqa bu kimi yaramaz əməllərin də qardaşlıq münasibətlərini pozan amillərə aid olduğu rəvayət edilmişdir. Hədisdən aydın olur ki, müsəlmanların bir-birinə nifrət etməsi, bir-birinə həsəd aparması və bir-birinə arxa çevirməsi, qardaşlıq münasibətlərinə xələl gətirən ən təhlükəli amillərdəndir. Qardaşlıq münasibətlərini qorumaq

**٣٩٩**– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عَطَاءِ بْنِ يَزِيدَ اللَّيْثِيِّ ثُمَّ الْجُنْدَعِيِّ، أَنَّ أَبَا أَيُّوبَ صَاحِبَ رَسُولِ اللَّهِ ﷺ أَخْبَرَهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَحِلُّ لِأَحَدٍ أَنْ يَهْجُرَ أَخَاهُ فَوْقَ ثَلاَثِ لَيَالٍ، يَلْتَقِيَانِ فَيَصُدُّ هَذَا وَيَصُدُّ هَذَا، وَخَيْرُهُمَا الَّذِي يَبْدَأُ بِالسَّلاَمِ)).

**(399)** ........ Əbu Əyyub əl-Ənsari ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Heç bir kəsə üç gündən artıq qardaşı ilə küsülü qalması, qarşı-qarşıya gəldikdə, bunun (ondan) üz çevirməsi, onun da, (bundan) üz çevirməsi halal deyildir. Onların ən xeyirlisi salamı birinci verib (sözə) başlayandır."[1]

---

üçün isə bu yaramaz xislətlərdən uzaq durmaq gərəkdir (260-cı hədisin qeydlərinə bax). Əgər biz "əl-Hucurat" surəsinin: **"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə, qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin"** ayəsindən sonrakı ayələrə diqqət yetirsək, qardaşlıq münasibətlərini pozan, araya ədavət salan və qəlblərdə nifrət oyadan amilləri görə bilərik: "**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları** ***lağa qoymasınlar*****. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır. Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir**" (əl-Hucurat, 11-12). Bu ayə və hədisdən aydın olur ki, hər bir mömin qardaşlıq münasibətlərini möhkəmləndirən hər bir amildən möhkəm yapışmalı, üstəlik, bu münasibətləri korlayan hər bir səbəbdən uzaq durmalıdır. Bu hədisdə həmçinin, müsəlmana üç gündən artıq öz qardaşı ilə küsülü qalması qadağan edilir. Bunun da əks anlamından aydın olur ki, üç gün və ya üç gündən az müddət ərzində küsülü qalmaq caizdir. İslam alimləri bunun hikmətini belə izah etmişlər: "Qəzəblənmək, ədəbsizlik etmək və başqa bu kimi yaramaz işlər insan təbiətinə aid olan xislətlərdəndir. Odur ki, bu xasiyyətlər insanda özünü büruzə verdikdə, onları aradan qaldırmaq məqsədilə üç gün ərzində həmin adamla küsülü qalmaq caizdir" (Şərh ən-Nəvəvi).

[1] Bu hədisi Buxari (6077), Muslim (2560) və Əhməd (3/225) rəvayət etmişdir.

**٤٠٠**– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا سُهَيْلٌ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ تَبَاغَضُوا، وَلاَ تَنَافَسُوا، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا)).

**(400)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir-birinizə nifrət etməyin, bir-birinizlə rəqabət aparmayın. Ey Allahın qulları, qardaş olun!"[1]

**٤٠١**– حَدَّثَنَا يَحْيَى بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي عَمْرٌو، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ سِنَانِ بْنِ سَعْدٍ، عَنْ أَنَسٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((مَا تَوَادَّ اثْنَانِ فِي اللَّهِ جَلَّ وَعَزَّ أَوْ فِي الإِسْلاَمِ، فَيُفَرِّقُ بَيْنَهُمَا إِلاَّ بِذَنْبٍ يُحْدِثُهُ أَحَدُهُمَا)).

**(401)** ........ Ənəs ibn Malik ﷛ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bir-birini Allah ﷻ xatirinə və ya İslam yolunda sevən elə iki nəfər yoxdur ki, ikisindən birinin etdiyi günah onların arasını vurmuş olmasın.[2]"[3]

**٤٠٢**– حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ يَزِيدَ قَالَ: قَالَتْ مُعَاذَةُ: سَمِعْتُ هِشَامَ ابْنَ عَامِرٍ الأَنْصَارِيَّ، ابْنَ عَمِّ أَنَسِ بْنِ مَالِكٍ، وَكَانَ قُتِلَ أَبُوهُ يَوْمَ أُحُدٍ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ قَالَ:

---

[1] Bu hədisi Muslim (2063) rəvayət etmişdir.

[2] Hədisdən aydın olur ki, İslam dini insanları bir-birinə qardaş edir, günah işlər isə onların arasına təfriqə salır. Xüsusilə qeyd etmək lazımdır ki, müsəlmanların arasını vuran və onları bir-birinə düşmən edən ən böyük amillərdən biri də bidətdir. İmam Əhmədin "Musnəd" əsərində (5/71) nəql edilmiş bu hədisdə "etdiyi günah" sözü əvəzinə "etdiyi bidət" sözü rəvayət edilmişdir. Bu da, bidətin İslam qardaşlığına böyük zərbə vurduğunu bir daha sübuta yetirir. Bidət xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizlərə eşidib itaət etməyi tövsiyə edirəm! Məndən sonra yaşayanlarınız bir çox ixtilaflar görəcəklər. Belə olduğu təqdirdə, mənim və raşidi xəlifələrimin yolundan arxa dişlərinizlə yapışın və *sonradan dinə əlavə edilmiş* yeniliklərdən çəkinin. Çünki hər bir bidət, zəlalətdir" (Musnəd İmam Əhməd, 4/126; Silsilətul-Əhadisis-Səhihə, 2735). Hədislərdən aydın olur ki, dinində sabitqədəm olan – yəni Kitab və Sünnəyə səhabələrin riayət etdiyi kimi riayət edən möminlərin aralarındakı qardaşlıq münasibəti mökəm olar, günah işlər görən və bidətlərə yol verən müsəlmanların isə isti münasibəti tezliklə soyuyar.

[3] Bu hədisi Əhməd (2/68) rəvayət etmiş və Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (637) onun "səhih" olduğunu demişdir.

((لاَ يَحِلُّ لِمُسْلِمٍ أَنْ يُصَارِمَ مُسْلِمًا فَوْقَ ثَلاَثٍ، فَإِنَّهُمَا نَاكِبَانِ عَنِ الْحَقِّ مَا دَامَا عَلَى صِرَامِهِمَا، وَإِنَّ أَوَّلَهُمَا فَيْئًا يَكُونُ كَفَّارَةً عَنْهُ سَبْقُهُ بِالْفَيْءِ، وَإِنْ مَاتَا عَلَى صِرَامِهِمَا لَمْ يَدْخُلاَ الْجَنَّةَ جَمِيعًا أَبَدًا، وَإِنْ سَلَّمَ عَلَيْهِ فَأَبَى أَنْ يَقْبَلَ تَسْلِيمَهُ وَسَلاَمَهُ، رَدَّ عَلَيْهِ الْمَلَكُ، وَرَدَّ عَلَى الآخَرِ الشَّيْطَانُ)).

**(402)** ........ Ənəs ibn Malikin əmisi oğlu, üstəlik atası Uhud şəhidlərindən olmuş Hişam ibn Amir əl-Ənsari[1] ﷺ Rəsulullahdan ﷺ eşitdiyini belə rəvayət etmişdir: "Heç bir müsəlmana üç gündən artıq başqa bir müsəlmanla əlaqələri kəsmək halal olmaz. Onlar küsülü qaldıqca, haqdan sapmış olarlar. Onlardan birinci barışanın ilk əvvəl barışığa gəlməsi onun üçün kəffarə[2] olar. Əgər küsülü olduqları halda ölsələr, heç vaxt bir yerdə Cənnətə girməzlər.[3] Onlardan biri digərinə salam verdiyi zaman o adam onun salamını almasa, salam verənin salamını mələk alar, salamı almayanı isə şeytan qarşılayar.[4]"

---

[1] Bu hədisi Əhməd (4/20), Beyhəqi (Şoəbul-İman, 2/287/2) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (1246) onun "səhih" olduğunu demişdir.

[2] 177-ci hədisin qeydlərinə bax.

[3] Burada "bir yerdə Cənnətə girməzlər" deyildikdə, Cənnətdə bir yerdə olmayacaqları qəsd edilir. Digər ləfzlə rəvayət edilmiş eynimənalı hədisdə: "Əgər küsülü olduqları halda ölsələr, Cənnətdə əsla bir yerdə olmazlar" deyilir (Musnəd İmam Əhməd 4/20; Səhih Tərğib vət-Tərhib, 2759). Bu fəsildəki hədislər, səbəbsiz olaraq küsülü qalmağın böyük günahlardan olduğuna dəlalət edir. Belə ki, bu günah adamı Cəhənnəm oduna giriftar edə bilər. Hədislərin birində Rəsulullah ﷺ demişdir: "Heç bir müsəlmana üç gündən artıq başqa bir müsəlmanla əlaqələri kəsmək halal olmaz. Hər kim üç gündən artıq qardaşı ilə küsülü qalar və belə halda ölərsə, Cəhənnəm oduna girər" (Sunən Əbu Davud, 4914; Səhih əl-Cami, 7659).

[4] Çünki salamı almayan adam öz hərəkəti ilə ancaq şeytanı razı salar və onun yanında hörmət qazanar. Əvəzində isə şeytan onu tovlayıb ona elə vəsvəsələr verər ki, axırda o, qardaşının salamını almadığına görə özündən razı qalar, özünü dartar və tutduğu bu işi günah yox, savab əməllərdən hesab edər, beləliklə də, şeytana yoldaş olmuş olar. Bu xüsusda, Uca Allah buyurur: **"Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşməni-**

**٤٠٣**- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنِّي لَأَعْرِفُ غَضَبَكِ وَرِضَاكِ))، قَالَتْ: قُلْتُ: وَكَيْفَ تَعْرِفُ ذَلِكَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((إِنَّكِ إِذَا كُنْتِ رَاضِيَةً قُلْتِ: بَلَى، وَرَبِّ مُحَمَّدٍ، وَإِذَا كُنْتِ سَاخِطَةً قُلْتِ: لاَ، وَرَبِّ إِبْرَاهِيمَ))، قَالَتْ: قُلْتُ: أَجَلْ، لَسْتُ أُهَاجِرُ إِلا اسْمَكَ.

**(403)** ........ Aişə رضي الله عنها demişdir: “(Bir gün) Rəsulullah ﷺ (mənə) dedi: “Mən sənin (nə vaxt) qəzəbli olduğunu[1] və (nə vaxt) razı qaldığını bilirəm.” Mən soruşdum: “Nədən bilirsən, ya Rəsulullah?” O, dedi: “Sən razı qaldıqda: “Bəli, Muhəmmədin Rəbbinə and olsun!”– deyirsən. Qəzəbli olduqda isə: “Xeyr, İbrahimin Rəbbinə and olsun!”– deyirsən. Mən dedim: “Elədir, mən, sadəcə sənin adını çəkmirəm.”[2]

---

**dir”** (əl-İsra, 53); digər ayədə O, buyurur: **“Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addımlarını təqib etməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir”** (əl-Bəqərə, 208).

[1] Bu qəzəb onda qısqanclıqdan irəli gəlirdi.

[2] Bu hədisi Buxari (5228), Muslim (2439) və Əhməd (6/61) rəvayət etmişdir.

## ١٩٠- بَابُ مَنْ هَجَرَ أَخَاهُ سَنَةً

## 190-cu fəsil. (Mömin) qardaşı ilə il boyu əlaqəni kəsmiş adam

٤٠٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا حَيْوَةُ قَالَ: حَدَّثَنِي أَبُو عُثْمَانَ الْوَلِيدُ بْنُ أَبِي الْوَلِيدِ الْمَدَنِيُّ، أَنَّ عِمْرَانَ بْنَ أَبِي أَنَسٍ حَدَّثَهُ، عَنْ أَبِي خِرَاشٍ السُّلَمِيِّ، أَنَّهُ سَمِعَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَنْ هَجَرَ أَخَاهُ سَنَةً، فَهُوَ كَسَفْكِ دَمِهِ)).

**(404)** ........ Əbu Xiraş əl-Əsləmi ﵁ rəvayət etmişdir ki, o, Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: "Bir il (mömin) qardaşı ilə əlaqəni kəsmiş[1] adam onun qanını axıtmış kimidir.[2]"[3]

٤٠٥- حَدَّثَنَا ابْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا يَحْيَى بْنُ أَيُّوبَ قَالَ: حَدَّثَنِي الْوَلِيدُ بْنُ أَبِي الْوَلِيدِ الْمَدَنِيُّ، أَنَّ عِمْرَانَ بْنَ أَبِي أَنَسٍ حَدَّثَهُ، أَنَّ رَجُلًا مِنْ أَسْلَمَ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ حَدَّثَهُ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((هِجْرَةُ الْمُسْلِمِ سَنَةً كَدَمِهِ)).

وَفِي الْمَجْلِسِ مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ ، وَعَبْدُ اللَّهِ بْنُ أَبِي عَتَّابٍ ، فَقَالاَ: قَدْ سَمِعْنَا هَذَا عَنْهُ.

**(405)** ........ Peyğəmbərin ﷺ Əsləm qəbiləsindən olan səhabələrindən biri rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlmanla bir il əlaqəni kəsmək, onu öldürmək kimidir."

Məclisdə olan Muhəmməd ibn Munkədir və Abdullah ibn Əbu Attab dedi: "Biz bu hədisi İmrandan eşitmişik."[4]

---

[1] Qeyd etmək lazımdır ki, şəriətin izin verdiyi hallarda nəinki bir il, hətta lazım gələrsə, bundan da artıq əlaqəni kəsməyə icazə verilir.

[2] Burada "kimidir" deyildikdə, müsəlmanın qanını tökmüş kimsə ilə müsəlman qardaşından il boyu əlaqəni kəsmiş kimsənin günahının dərəcəsinin tamamilə eyni olduğu yox, sadəcə buna bənzədiyi, yəni onun kimi günahkar olduğu qəsd edilir (Məsabihut-Tənvir, 6581-ci hədisin şərhi).

[3] Bu hədisi Əbu Davud (4915), Hakim (4/163), Əhməd (4/220) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ١٩١- بَابُ الْمُهْتَجِرَيْنِ

## 191-ci fəsil. Bir-birindən küsənlər

٤٠٦- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عَطَاءِ بْنِ يَزِيدَ اللَّيْثِيِّ، عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَحِلُّ لِمُسْلِمٍ أَنْ يَهْجُرَ أَخَاهُ فَوْقَ ثَلاَثَةِ أَيَّامٍ، يَلْتَقِيَانِ فَيُعْرِضُ هَذَا وَيُعْرِضُ هَذَا، وَخَيْرُهُمَا الَّذِي يَبْدَأُ بِالسَّلاَمِ)).

**(406)** ........ Əbu Əyyub əl-Ənsari ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Heç bir müsəlmana üç gündən artıq qardaşı ilə küsülü qalması, qarşı-qarşıya gəldikdə, bunun *ondan* üz döndərməsi, onun da, *bundan* üz döndərməsi halal deyildir. Onların ən xeyirlisi salamı birinci verib *sözə* başlayandır.[1]"[2]

٤٠٧- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ يَزِيدَ، عَنْ مُعَاذَةَ، أَنَّهَا سَمِعَتْ هِشَامَ بْنَ عَامِرٍ يَقُولُ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((لاَ يَحِلُّ لِمُسْلِمٍ أَنْ يُصَارِمَ مُسْلِمًا فَوْقَ ثَلاَثِ لَيَالٍ، فَإِنَّهُمَا مَا صَارَمَا فَوْقَ ثَلاَثِ لَيَالٍ، فَإِنَّهُمَا نَاكِبَانِ عَنِ الْحَقِّ مَا دَامَا عَلَى صِرَامِهِمَا، وَإِنَّ أَوَّلَهُمَا فَيْئًا يَكُونُ كَفَّارَةً لَهُ سَبْقُهُ بِالْفَيْءِ، وَإِنْ هُمَا مَاتَا عَلَى صِرَامِهِمَا لَمْ يَدْخُلاَ الْجَنَّةَ جَمِيعًا)).

**(407)** ........ Hişam ibn Amir əl-Ənsari ﵁ Rəsulullahın ﷺ belə dediyini eşitmişdir: "Heç bir müsəlmana üç gündən artıq başqa bir müsəlmanla əlaqələri kəsmək halal deyildir. Onlar üç gündən artıq küsülü qaldıqca, haqdan sapmış olarlar. Onlardan birinci barışanın ilk əvvəl barışığa gəlməsi ona (günahlarının bağışlanmasına) kəffarə olar. Əgər küsülü olduqları halda ölsələr, uzun müddət bir yerdə Cənnətə girə bilməzlər."[3]

---

[1] 127-ci, 398-ci, 402-ci və 414-cü hədislərin qeydlərinə bax.

[2] Bu hədisi Buxari (6077), Muslim (2560) və Əhməd (3/225) rəvayət etmişdir.

[3] 402-ci hədisin qeydlərinə bax.

## ١٩٢ – بَابُ الشَّحْنَاءِ

## 192-ci fəsil. Nifrət bəsləmək[1]

**٤٠٨–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا عَبْدَةُ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنَا أَبُو سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ تَبَاغَضُوا، وَلاَ تَحَاسَدُوا، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا)).

**(408)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Bir-birinizə nifrət etməyin, bir-birinizə həsəd aparmayın. Ey Allahın qulları, qardaş olun!”[2]

**٤٠٩–** حَدَّثَنَا مُحَمَّدٌ، قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا أَبُو صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((تَجِدُ مِنْ شَرِّ النَّاسِ يَوْمَ الْقِيَامَةِ عِنْدَ اللَّهِ ذَا الْوَجْهَيْنِ، الَّذِي يَأْتِي هَؤُلاَءِ بِوَجْهٍ، وَهَؤُلاَءِ بِوَجْهٍ)).

**(409)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: “İkiüzlü adamı Qiyamət günü Allah yanında insanların ən pisi görəcəksən.[4] O kimsə ki, bunlara bir üzlə yaxınlaşır, onlara da başqa bir üzlə.”

---

[1] Nifrət: bir adama qarşı dərin ikrah, kin, narazılıq hissi.

[2] 398-ci hədisin qeydlərinə bax.

[3] Bu hədisi Buxari (3494), Muslim (2526) və Əhməd (2/245; 455; 517) rəvayət etmişdir.

[4] İkiüzlülük əslində, münafiqlərə xas olan xislətlərdəndir. Bu xüsusda, Uca Allah buyurur: **“Onlar möminlərlə rastlaşdıqda: “Biz iman gətirdik!”– deyirlər, öz şeytanları** (azmış dostları) **ilə təklikdə qaldıqda isə: “Biz sizinləyik. Biz *möminlərə* ancaq istehza edirik!”– deyirlər”** (əl-Bəqərə, 14). İkiüzlülük böyük günahlardan sayılır. Çünki Peyğəmbər ﷺ bunu edən kimsənin insanların ən pisi olduğunu söyləyir. Belələri üzdə adama nəsihət edir, özünü İslama canyandıran mömin kimi göstərir, özü-özlüyündə Allahı və möminləri aldatmağa çalışır, lakin özləri də hiss etmədən ancaq özlərini aldadır, yalnız özlərinə pislik edirlər. Uca Allah onları belə vəsf edir: **“İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: “Allaha və Axirət gününə inanırıq”– deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, yalnız özlərini aldadır və *bunu* anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər”** (əl-Bəqərə, 8-10).

**٤١٠–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ، عَنْ هَمَّامٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِيَّاكُمْ وَ الظَّنَّ، فَإِنَّ الظَّنَّ أَكْذَبُ الْحَدِيثِ، وَلاَ تَنَاجَشُوا، وَلاَ تَحَاسَدُوا، وَلاَ تَبَاغَضُوا، وَلاَ تَنَافَسُوا، وَلاَ تَدَابَرُوا وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا)).

**(410)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Zənnə qapılmaqdan çəkinin![1] Çünki zənn ən yalan sözdür.[2] Bir-birinizə kələk gəlmək məqsədilə malın qiymətini qaldırmayın,[3] bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!"[4]

**٤١١–** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ سُهَيْلٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((تُفْتَحُ أَبْوَابُ الْجَنَّةِ يَوْمَ الاِثْنَيْنِ وَيَوْمَ الْخَمِيسِ، فَيُغْفَرُ لِكُلِّ عَبْدٍ لاَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا، إِلاَّ رَجُلٌ كَانَتْ بَيْنَهُ وَبَيْنَ أَخِيهِ شَحْنَاءُ، فَيُقَالُ: أَنْظِرُوا هَذَيْنِ حَتَّى يَصْطَلِحَا)).

---

İkiüzlü adamın günahının dərəcəsi onun ikiüzlülüyünün həcmindən asılıdır. Bunların ən pisi özünü mömin kimi göstərib, əslində kafir olanlarıdır. Onların yeri Cəhənnəmdir. **"Həqiqətən, münafiqlər Cəhənnəmin ən aşağı təbəqəsində olacaqlar"** (ən-Nisa, 145). Mömin ola-ola ikiüzlülük etmək isə böyük günahlardan sayılır. Beləlıəri əbədi olaraq Cəhənnəmlik olmasalar da, layiqli cəzalarını alacaqlar.

[1] Pis zənnə qapılmağın günah olması barədə Uca Allah buyurur: "**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır**" (əl-Hucurat, 12).

[2] Çünki insan zənnə qapıldığı zaman zənn etdiyi adamın barəsində əsassız olaraq danışır, beləliklə də, yalan danışmış olur.

[3] Müştəriyə zərər vermək yaxud mal satan adama xeyir vermək və ya hər ikisini etmək məqsədilə malın qiymətini qaldırmaq. Məsələn, adam bazarda öz malını satır, yanındakı dostu isə o malı almaq istəyən müştərinin yanında həmin mala daha çox pul təklif edir, məqsədi də o malı almaq yox, sadəcə malın qiymətini qaldırmaq və dostunun qazancını artırmaq olur. Beləliklə də, o, satıcı ilə əlbir olub müştəriyə kəf gəlmiş olur. Yaxud müştəri ilə arasında olan ədavətə görə mala daha çox pul təklif edir ki, onu ziyana salsın. Və ya mala daha çox pul təklif etməklə özündə olan eyni malın qiymətini qaldırmaq istəyir. Ya da malın qiymətini qaldırmaqda məqsədi bu olur ki, insanlar onun barəsində: "Filankəs malının qiymətini qaldırır, filankəs sərvət sahibidir, əsl tacirdir"– desinlər. (Şərhul-Mumti alə Zadil-Mustəqnə, 8/299).

[4] Bu hədisi Buxari (6066) və (Muslim 3563) rəvayət etmişdir.

**(411)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bazar ertəsi və cümə axşamı Cənnətin qapıları açılır[1] və Allaha heç nəyi şərik qoşmayan hər kəsin günahları bağışlanır.[2] Yalnız (mömin) qardaşına nifrət bəsləyən kimsədən başqa. (Onlar barədə) deyilir: "Bu ikisi öz aralarındakı münasibəti düzəldənədək, onların (bağışlanmasını) yubadın.[3]"[4]

---

[1] İmam Muslimin "Səhih"indəki (2565) bu hədisdə: "Bazar ertəsi və cümə axşamı əməllər *Allaha* ərz edilir"– deyilir. Bu da, həftənin bu iki gününün fəzilətli günlər olduğuna dəlalət edir. Hədislərin birində Rəsulullah ﷺ demişdir: "Bazar ertəsi və cümə axşamı əməllər *Allaha* ərz edilir. Mən də istəyirəm ki, əməlim mən oruc tutmuş ikən *Allaha* ərz edilsin" (Şəmailun-Nəbi, 305).

[2] Nəvəvi demişdir: "Bilin ki, sələflərdən və xələflərdən haqq yolda olan əhli Sünnə alimləri ittifaq etmişlər ki, tövhidi qəbul edərək ölən kimsə hökmən Cənnətə daxil olacaq. Əgər bu adam uşaq yaxud məcnun yaxud şirkdən və başqa günahlardan tövbə etmiş birisi kimi günahsızdırsa və tövbə etdikdən sonra günah etməyibsə, Cəhənnəmdən uzaq olub Cənnətə girəcək... Kim də böyük günah edər və tövbə etmədən dünyadan köçərsə, Allah Təalənin istəyi altında olar. İstəsə, onu bağışlayar və Cənnətə daxil edər. İstəsə də, ona Cəhənnəmdə istədiyi qədər əzab verər, sonra da onu Cənnətə daxil edər. Allah tövhid üzərində ölən heç bir kəsi – həmin adam nə qədər günah edirsə etsin – əbədi olaraq Cəhənnəmdə saxlamaz. Necə ki, kafir olaraq ölən kimsəni – həmin adam nə qədər yaxşılıqlar edirsə etsin – Cənnətə daxil etməz..." (Şərh ən-Nəvəvi). Suleyman ibn Abdullah Ali-Şeyx demişdir: "Hərçənd, "lə ilahə illəlah" demək Cənnətə daxil olmaq və Cəhənnəm əzabından qurtulmaq üçün səbəbdir, həm də tələb olunan bir şeydir, lakin tələb olunan (hər) bir iş özünəməxsus şərtlərə riayət etməklə və buna əngəl törədəcək maneələrdən çəkinməklə yerinə yetirilməlidir. Bu şərtlərdən hər hansı birinin yerinə yetirilmədiyi və ya əmması çıxdığı təqdirdə, (Cənnəti) qazanmaq mümkün deyildir. Odur ki, Həsən (əl-Bəsridən): "Bəzi adamlar deyirlər ki: "Kim: "lə ilahə illəllah"– desə, Cənnətə daxil olar?"– deyə soruşduqda, o, belə cavab vermişdir: "Kim: "lə ilahə illəllah"– desə, sonra da bu kəlmənin haqqını ödəsə və buna aid olan vacibləri yerinə yetirsə, Cənnətə daxil olar." Vəhb ibn Munəbbih isə ondan: "Məgər "lə ilahə illəllah" (kəlməsi) Cənnətin açarı deyilmi?"– deyə soruşan adama belə cavab vermişdir: "Elədir, lakin hər bir açarın dişləri vardır. Və əgər sən dişli bir açar gətirsən, o, sənin üçün (bu qapını) açar, yoxsa açmaz" ("Təysirul-Azizil-Həmid", 1/111).

[3] İmam Muslimin "Səhih"ində bu ləfz üç dəfə təkrar olunur. Peyğəmbərin ﷺ bu sözü üç dəfə təkrar etməsi, məsələnin ciddiliyindən xəbər verir. Cənnətin qapıları açıldığı və əməllərin Allaha ərz edildiyi günlərdə günahları bağışlanılmayan kimsələrin vay halına!

[4] Bu hədisi Muslim (2565), Əbu Davud (4916) və Əhməd (2/389; 465) rəvayət etmişdir.

٤١٢– حَدَّثَنَا بِشْرٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا يُونُسُ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي أَبُو إِدْرِيسَ، أَنَّهُ سَمِعَ أَبَا الدَّرْدَاءِ يَقُولُ: أَلاَ أُحَدِّثُكُمْ بِمَا هُوَ خَيْرٌ لَكُمْ مِنَ الصَّدَقَةِ وَالصِّيَامِ؟ صَلاَحُ ذَاتِ الْبَيْنِ، أَلاَ وَإِنَّ الْبُغْضَةَ هِيَ الْحَالِقَةُ.

**(412)** ........ Əbu İdris rəvayət edir ki, (bir gün) Əbu Dərda (yanındakılardan): "Sizə orucdan və sədəqədən daha fəzilətli bir dərəcə barədə xəbər verimmi?"– deyə soruşdu, (sonra sözünə davam edib dedi): "Tərəflər arasını düzəltməkdir! Diqqət edin! Həqiqətən, nifrət dəlləkdir."[1]

٤١٣– حَدَّثَنَا سَعِيدُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا أَبُو شِهَابٍ، عَنْ لَيْثٍ، عَنْ أَبِي فَزَارَةَ، عَنْ يَزِيدَ بْنِ الأَصَمِّ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((ثَلاَثٌ مَنْ لَمْ يَكُنَّ فِيهِ، غُفِرَ لَهُ مَا سِوَاهُ لِمَنْ شَاءَ، مَنْ مَاتَ لاَ يُشْرِكُ بِاللَّهِ شَيْئًا، وَلَمْ يَكُنْ سَاحِرًا يَتَّبِعُ السَّحَرَةَ، وَلَمْ يَحْقِدْ عَلَى أَخِيهِ)).

**(413)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: "Üç (həlakedici) xislət vardır ki, bunlar kimdə olmazsa, Allah dilədiyi kimsələrə bu üçündən başqa olan günahları bağışlayar: Allaha şərik qoşmayaraq ölən,[3] sehrbazlara uyan cadugərlərdən olmayan[4] və bir də (müsəlman) qardaşına nifrət bəsləməyən[1] kimsə."

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir. Əslində bu söz, Peyğəmbərin ﷺ sözüdür (260-cı və 391-ci hədislərə və onların qeydlərinə bax).

[2] Bu hədisi Beyhəqi (Şoəbul-İman, 5/268/6614) rəvayət etmişdir. Hədisin isnadında keçən Leys ibn Əbu Suleym "hafizəsi qarışmış zəif" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Allaha şərik qoşmaq günahların ən böyüyüdür. Yeganə günahdır ki, Allah onu sahibinə bağışlamır. Bu xüsusda, Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa *olan günahları* isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur"** (ən-Nisa, 48).

[4] Sehrbazın kafir olması barədə Uca Allah buyurur: **"Onlar Suleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Suleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir**

**oldular"** (əl-Bəqərə, 102). Belə ki, adam yalnız Allaha küfr edib kafir olmaqla bu dərəcəyə çata bilər. Bu ayədən əvvəlki ayəyə nəzər salsaq bunun həqiqət olduğunu görərik. Həmin ayədə Allah buyurur: **"Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir elçi gəldikdə Kitab verilənlərdən bir dəstə guya *həqiqəti* bilmirmiş kimi Allahın Kitabına arxa çevirdilər"**(əl-Bəqərə, 101). Bu, dəlildir ki, adam yalnız iki şeydən birini etməklə sehr elminə yiyələnə bilər: Allahın nazil etdiyi Kitabı inkar etməklə və ya şeytana uymaqla. Bunu edənlər isə əsl kafirlərdir. **"Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu Odun əzabı *onlar üçün* yüngülləşdirilər"** (Fatir, 36).

[1] Bu söz heç də mömin qardaşına nifrət bəsləyən kimsənin kafir olduğuna dəlalət etmir. Sadəcə bu əməlin böyük günah olduğuna, onların Cənnətdə bir yerdə olmamalarına və onların bağışlanmasının yubadılmasına dəlalət edir (402-ci və 411-ci hədislərin qeydlərinə bax). Möminə nifrət bəsləməyin haram olduğunu bilə-bilə bu yaramaz əməli halal sayan kimsə isə Allahın və Onun peyğəmbərinin ﷺ haram buyurduğunu halal saydığına görə, əlbəttə ki, kafir sayılır.

## ١٩٣- بَابُ إِنَّ السّلامَ يُجْزِئُ مِنَ الصَّرْمِ

## 193-cü fəsil. Salam vermək əlaqələri kəsməyin qarşısını alır

٤١٤- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ هِلاَلِ بْنِ أَبِي هِلاَلٍ مَوْلَى ابْنِ كَعْبٍ الْمَذْحِجِيِّ، عَنْ أَبِيهِ، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((لاَ يَحِلُّ لِرَجُلٍ أَنْ يَهْجُرَ مُؤْمِنًا فَوْقَ ثَلاَثَةِ أَيَّامٍ، فَإِذَا مَرَّتْ ثَلاَثَةُ أَيَّامٍ فَلْيَلْقَهُ فَلْيُسَلِّمْ عَلَيْهِ، فَإِنْ رَدَّ عَلَيْهِ السَّلاَمَ فَقَدِ اشْتَرَكَا فِي الأَجْرِ، وَإِنْ لَمْ يَرُدَّ عَلَيْهِ فَقَدْ بَرِئَ الْمُسَلِّمُ مِنَ الْهِجْرَةِ)).

**(414)** ........ Əbu Hureyrə ؓ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Heç bir *mömin* adama üç gündən artıq mömin qardaşı ilə küsülü qalması halal deyildir. Və əgər *bunun üstündən* üç gün keçmişdirsə, qoy onunla görüşüb ona salam versin.[1] Əgər *mömin qardaşı* onun salamını alsa, hər ikisi savaba şərik olar. Yox, salamı almazsa, salam verən müsəlman küsülü qalmaqdan uzaq olar.[2]"[3]

---

[1] 127, 398, 399, 402, 406 və 407-ci hədislərə bax.

[2] Yəni buna görə ona günah yazılmaz. Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Heç bir müsəlman üç gündən artıq müsəlman qardaşı ilə küsülü qalmamalıdır. Və əgər onunla görüşdüyü zaman ona üç kərə salam versə, o da bu salamların heç birini almazsa, buna görə *salamı almayan* günah qazanar" (Sunən Əbu Davud, 4913; Səhih əl-Cami, 7775).

[3] Bu hədisi Əbu Davud (4912) rəvayət etmişdir. Hədisin isnadında keçən Hilal "məchul" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ١٩٤- بَابُ التَّفْرِقَةِ بَيْنَ الاحْدَاثِ

## 194-cü fəsil. Gənclər arasında olan təfriqə

**٤١٥-** حَدَّثَنَا مَخْلَدُ بْنُ مَالِكٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَغْرَاءَ قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ مُبَشِّرٍ، عَنْ سَالِمِ بْنِ عَبْدِ اللَّهِ، عَنْ أَبِيهِ، كَانَ عُمَرُ يَقُولُ لِبَنِيهِ: إِذَا أَصْبَحْتُمْ فَتَبَدَّدُوا، وَلاَ تَجْتَمِعُوا فِي دَارٍ وَاحِدَةٍ، فَإِنِّي أَخَافُ عَلَيْكُمْ أَنْ تَقَاطَعُوا، أَوْ يَكُونَ بَيْنَكُمْ شَرٌّ.

**(415)** ........ Abdullah رضي الله عنهما rəvayət edir ki, Ömər öz övladlarına deyərdi: "Səhər açıldıqda hərəniz bir tərəfə gedin və bir evdə topalaşmayın. Mən qorxuram ki, bir-birinizdən küsəsiniz yaxud aranıza ədavət düşsün.[1]"[2]

---

[1] Yəni hərə öz işi ilə məşğul olsun. Çünki cavanların bir yerə toplaşıb bihudə işlərlə məşğul olması həmişə pis nəticələr verir və ən azı onların arasına ədavət salır.

[2] Bu hədisin isnadında keçən Fədl ibn Mubəşşir "zəif" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ١٩٥ – بَابُ مَنْ أَشَارَ عَلَى أَخِيهِ وَإِنْ لَمْ يَسْتَشِرْهُ

## **195-ci fəsil.** (Görəcəyi işdə) **məsləhət almayan qardaşına məsləhət verən kimsə**[1]

**٤١٦–** حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا بَكْرٌ، عَنِ ابْنِ عَجْلاَنَ، أَنَّ وَهْبَ بْنَ كَيْسَانَ أَخْبَرَهُ، وَكَانَ وَهْبٌ أَدْرَكَ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ، أَنَّ ابْنَ عُمَرَ رَأَى رَاعِيًا وَغَنَمًا فِي مَكَانٍ قَبِيحٍ وَرَأَى مَكَانًا أَمْثَلَ مِنْهُ، فَقَالَ لَهُ: وَيْحَكَ، يَا رَاعِي، حَوِّلْهَا، فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((كُلُّ رَاعٍ مَسْئُولٌ عَنْ رَعِيَّتِهِ)).

**(416)** ........ Vəhb rəvayət edir ki, (bir dəfə) İbn Ömər bir çobanın qoyunları suyu az olan bir suvatda[2] (suvardığını) gördü. Sonra (ətrafa nəzər saldı və) suyu daha çox olan bir yer görüb dedi: "Vay sənin halına, ay çoban! Qoyunları o tərəfə döndər. Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: "Hər bir himayəçi himayəsində olanlara cavabdehdir.[3]"[4]

---

[1] Bu ünvan Peyğəmbərin ﷺ bu hədisinə söykənir: "Din nəsihətdir, din nəsihətdir, din nəsihətdir." Səhabələr soruşdular: "Kimin üçün, ya Rəsulullah?" O buyurdu: "Allaha, Onun rəsuluna, Onun Kitabına, müsəlmanların rəhbərlərinə və sıravi müsəlmanlara" (Musnəd imam Əhməd, 4/102).

[2] Çaydan, arxdan və s.-dən su götürülən, habelə, mal-qaranın su içdikləri dayaz yer.

[3] Burada İbn Ömər رضي الله عنهما çobana bildirmək istəyir ki, o, himayəsinə verilmiş qoyunlara görə Qiyamət günü cavab verəcəkdir. Bu hədis həm də heyvana qayğı göstərməyin vacibliyinə dəlalət edir. Demək, hər bir müsəlman belə vəziyyətlərdə nəsihətə ehtiyacı olan kimsəyə nəsihət verməli və onu düzgün istiqamətləndirməlidir.

[4] Bu hədisi Əhməd (2/108) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ١٩٦- بَابُ مَنْ كَرِهَ أَمْثَالَ السَّوْءِ

## 196-cı fəsil. Pis məsəllər çəkməyi xoşlamayan kəs

٤١٧- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَيُّوبَ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ لَنَا مَثَلُ السَّوْءِ، الْعَائِدُ فِي هِبَتِهِ، كَالْكَلْبِ يَرْجِعُ فِي قَيْئِهِ)).

**(417)** ........ İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Pis məsəllər bizə aid deyil.[1] Verdiyi hədiyyəni[2] geri alan adam, qusduğunu yeyən itə bənzəyir."[3]

---

[1] Yəni pis məsəli möminə çəkmək qadağandır. Belə ki, pis məsəl kafirlərə və heyvanlara aiddir. Bu xüsusda, Uca Allah buyurur: **"Pis məsəl axirətə inanmayanlara aiddir"** (ən-Nəhl, 60); həmçinin, O, buyurur: **"Allah iman gətirib yaxşı işlər görənləri *ağacları* altından çaylar axan Cənnət bağlarında yerləşdirər. Kafirlər isə *müvəqqəti olaraq* kef çəkər, heyvan kimi yeyib-içərlər. Onların yeri Oddur!"** (Muhəmməd, 12); həmçinin, O, buyurur: **"Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır"** (əl-Əraf, 179); həmçinin, O, buyurur: **"Onlara ayələrimizi verdiyimiz kimsənin əhvalatını oxu. O, ayələrdən kənara çıxdı, şeytanın təqibinə məruz qaldı, axırda da azmışlardan oldu. Biz istəsəydik, bu *ayələrin* sayəsində onu ucaldardıq. Lakin o, dünyaya meyil saldı və öz istəyinə uydu. Onun məsəli itin məsəlinə bənzəyir; onu qovsan da dilini çıxardıb ləhləyər, qovmasan da. Ayələrimizi yalan hesab edənlərin məsəli belədir. Bu əhvalatları *onlara* danış ki, bəlkə düşünələr"** (əl-Əraf, 175-176). Həmçinin, rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: "Əziz dostum ﷺ mənə üç şeyi qadağan etmişdir: o, mənə xoruz kimi dənləməyi, it kimi dirsəklənməyi və tülkü kimi o yan-bu yana baxmağı qadağan etmişdir" (Musnəd İmam Əhməd, 2/311; Səhih Tərğib vət-Tərhib, 555). Burada söhbət namazda qadağan edilmiş hərəkətlərdən gedir. Peyğəmbər ﷺ, namazda tez-tez səcdə etməyi xoruzun dən dimdikləməsinə, səcdədə dirsəkləri yerə qoymağı it kimi dirsəklənməyə, habelə, qiyamda qiblədən çönməyi tülkü tək o yan-bu yana baxmağa bənzədir.

[2] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Verdiyi sədəqəni geri götürən adam, qusduğunu yeyən kimsəyə bənzəyir" (Səhih əl-Buxari, 1490). Deməк, verilən sədəqəni və ya hədiyyəni geri götürmək qadağandır. Lakin şəriətin buyurduğu bəzi müstəsna hallar vardır ki, bu halda hədiyyəni geri götürmək, əksinə, vacibdir (93-cü hədisin qeydlərinə bax).

[3] Bu hədisi Buxari (2589), Muslim (1622) və Əhməd (1/291) rəvayət etmişdir.

# ١٩٧- بَابُ مَا ذُكِرَ فِي الْمَكْرِ وَالْخَدِيعَةِ

## 197-ci fəsil. Hiylə qurmaq və aldatmaq barədə deyilənlər[1]

٤١٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ الْحَجَّاجِ قَالَ: حَدَّثَنَا حَاتِمُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو الأَسْبَاطِ الْحَارِثِيُّ وَاسْمُهُ بِشْرُ بْنُ رَافِعٍ، عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الْمُؤْمِنُ غِرٌّ كَرِيمٌ، وَالْفَاجِرُ خَبٌّ لَئِيمٌ)).

**(418)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Mömin adam sadəlövh[2] və alicənab, fasiq adam isə hiyləgər[3] və alçaq[4] bir kimsədir."[5]

---

[1] Bu iki yaramaz xislət möminlərə yox, kafirlərə, münafiqlərə və fasiqlərə xas olan xislətlərdəndir. Uca Allah buyurur: **"*Münafiqlər* Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, yalnız özlərini aldadır və *bunu* anlamırlar"** (əl-Bəqərə, 9); həmçinin, O, buyurur: **"Günahkarlar, qurduqları hiylələrə görə Allahın hüzurunda rəzil olacaq və şiddətli əzab çəkəcəklər"** (əl-Ənam, 124).

[2] Bu heç də möminin aciz, əfəl, key, fərasətsiz, zehni küt olması demək deyil. Sadəcə olaraq mömin adam hiyləbilməz, safürəkli, həlim xasiyyətli, səmimi, səxavətli və alicənab adam olduğuna, habelə, başqalarının barəsində gözəl zənn etdiyinə, ancaq öz işləri ilə məşğul olduğuna, şər əməllərdən uzaq durduğuna və fasiqlərin səviyyəsinə enmədiyinə görə hiyləgər adam onu aldatmağa nail olar.

[3] Bu yaramaz xislət, dünyapərəst, tamahkar və paxıl adamlara xas olan sifətlərdəndir. Belə alçaqların məqsədi ancaq dünyanı qazanmaq və nəyin bahasına olursa olsun, nəfsinin istəklərinə nail olmaqdır.

[4] Burada "alçaq" deyildikdə, şərəfsiz, rəzil, namərd, nakişi, nanəcib, əclaf, vicdansız, haqq-say itirən adamlar nəzərdə tutulur.

[5] Bu hədisi Əbu Davud (4790), Tirmizi (1/356), Hakim (1/43) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (935) onun "səhih" olduğunu demişdir.

# ١٩٨– بَابُ السِّبَابِ

## 198-ci fəsil. Söyüş söymək[1]

**٤١٩–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ أُمَيَّةَ قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ مُوسَى، عَنْ عَبْدِ اللَّهِ بْنِ كَيْسَانَ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: اسْتَبَّ رَجُلاَنِ عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ، فَسَبَّ أَحَدُهُمَا وَالْآخَرُ سَاكِتٌ، وَالنَّبِيُّ ﷺ جَالِسٌ، ثُمَّ رَدَّ الْآخَرُ. فَنَهَضَ النَّبِيُّ ﷺ، فَقِيلَ: نَهَضْتَ؟ قَالَ: ((نَهَضَتِ الْمَلاَئِكَةُ فَنَهَضْتُ مَعَهُمْ، إِنَّ هَذَا مَا كَانَ سَاكِتًا رَدَّتِ الْمَلاَئِكَةُ عَلَى الَّذِي سَبَّهُ، فَلَمَّا رَدَّ نَهَضَتِ الْمَلاَئِكَةُ)).

**(419)** ........ İbn Abbas ﷺ demişdir: "Rəsulullahın ﷺ vaxtında iki kişi söyüşdü. (Əvvəlcə) onlardan biri (o birini) söydü, o isə susdu. Rəsulullah ﷺ (onların yanında) oturmuşdu. Elə ki, söyülən adam cavab verdi, Rəsulullah ﷺ durub getdi. Ondan: "(Niyə) durub getdin?"– deyə soruşulduqda, o, dedi: "Mələklər durub getdilər deyə, mən də onlarla birgə durub getdim. Nə qədər ki, o susurdu, mələklər söyən adamın cavabını verirdilər. Elə ki, o cavab verdi, mələklər ondan uzaqlaşdılar."[2]

**٤٢٠–** حَدَّثَنَا هِشَامُ بْنُ عَمَّارٍ قَالَ: حَدَّثَنَا رُدَيْحُ بْنُ عَطِيَّةَ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ أَبِي عَبْلَةَ، عَنْ أُمِّ الدَّرْدَاءِ أَنَّ رَجُلاً أَتَاهَا فَقَالَ: إِنَّ رَجُلاً نَالَ مِنْكِ عِنْدَ عَبْدِ الْمَلِكِ، فَقَالَتْ: إِنْ نُؤْبَنَ بِمَا لَيْسَ فِينَا، فَطَالَمَا زُكِّينَا بِمَا لَيْسَ فِينَا.

**(420)** ........ İbrahim ibn Əbu Əblə rəvayət edir ki,[3] bir nəfər Ummu Dərdanın yanına gəlib dedi: "Bir nəfər Abdul Malikin yanında sənə böhtan atdı."

---

[1] Bu yaramaz xislət mömінə yaraşmayan sifətlərdəndir (200-ci, 201-ci və 202-ci fəsillərdəki hədislərə bax).

[2] İbn Həcər bu hədisin isnadında keçən Abdullah ibn Keysan əl-Mərvəzinin "çoxlu xətalara yol vermiş səduq" ravi olduğunu demiş və elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

Ummu Dərda dedi: "Bizdə olmayan şeyi bizə eyib tuturlar. Halbuki, bizdə olmayan vəsflərlə bizi o qədər tərifləyiblər ki.[1]"

**٤٢١**– حَدَّثَنَا شِهَابُ بْنُ عَبَّادٍ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ حُمَيْدٍ الرُّؤَاسِيُّ، عَنْ إِسْمَاعِيلَ، عَنْ قَيْسٍ قَالَ: قَالَ عَبْدُ اللَّهِ: إِذَا قَالَ الرَّجُلُ لِصَاحِبِهِ: أَنْتَ عَدُوِّي، فَقَدْ خَرَجَ أَحَدُهُمَا مِنَ الإِسْلَامِ، أَوْ بَرِئَ مِنْ صَاحِبِهِ.

قَالَ قَيْسٌ: وَأَخْبَرَنِي بَعْدُ أَبُو جُحَيْفَةَ، أَنَّ عَبْدَ اللَّهِ قَالَ: إِلا مَنْ تَابَ.

**(421)** ........ Qeys rəvayət edir ki, Abdullah *ibn Məsud* demişdir: "Adam öz dostuna: "Sən mənim düşmənimsən![2]"– desə, ikisindən biri ya İslamdan çıxar, ya da dostundan uzaqlaşmış olar."

Qeys dedi: "Əbu Cuheyfə mənə xəbər verdi ki, sonra Abdullah: "Tövbə edənlərdən başqa"– deyə istisna etdi."[3]

---

[1] Qadın demək istəyir ki, bir adamın başqa birisini ifrat dərəcədə tərif etməsi onun savabını artırmadığı kimi, birisinin başqa birisini haqsız yerə ittiham etməsi də onun savabını azaltmır. Yəni mömin adam heç vaxt insanların onun barəsində dedikləri tériflərə və tənqidlərə fikir verməz və öz əməlləri ilə yalnız Allahı razı salmağa çalışar. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "Hər kim insanların xoşuna gəlməsə də, Allahı razı salacaq əməllər edərsə, Allah elə edər ki, gec-tez həmin insanlar ondan razı qalarlar. Kim də insanların xoşuna gəlsin deyə, Allahı qəzəbə gətirəcək əməllər edərsə, Allah elə edər ki, gec-tez həmin insanlar ona qarşı çıxarlar" (Sunən ət-Tirmizi, 2/67; Silsilətul-Əhadisis-Səhihə, 2311).

[2] Burada söhbət din düşmənçiliyindən gedir. Yəni mömin adam öz mömin qardaşını kafirə bənzətməməli, kafirləri özünə düşmən saydığı kimi, onu da özünə düşmən saymamalıdır. Çünki haqsız yerə bunu deyərsə – əgər onun dediyi kimi deyilsə – bunun günahı onun özünə qayıdar" (433-cü, 439-cu və 440-cı hədislərə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ١٩٩- بَابُ سَقْيِ الْمَاءِ

## 199-cu fəsil. Su vermək

**٤٢٢-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا لَيْثٌ، عَنْ طَاوُسٍ، عَنِ ابْنِ عَبَّاسٍ، أَظُنُّهُ رَفَعَهُ، شَكَّ لَيْثٌ، قَالَ: فِي ابْنِ آدَمَ سِتُّونَ وَثَلاَثُمِئَةِ سُلاَمَى، أَوْ عَظْمٍ، أَوْ مَفْصِلٍ، عَلَى كُلِّ وَاحِدٍ فِي كُلِّ يَوْمٍ صَدَقَةٌ، كُلُّ كَلِمَةٍ طَيِّبَةٍ صَدَقَةٌ، وَعَوْنُ الرَّجُلِ أَخَاهُ صَدَقَةٌ، وَالشُّرْبَةُ مِنَ الْمَاءِ يَسْقِيهَا صَدَقَةٌ، وَإِمَاطَةُ الأَذَى عَنِ الطَّرِيقِ صَدَقَةٌ.

**(422)** ........ İbn Abbas ﵄ demişdir: “Adəm övladının bədənində üç yüz altmış əza, yaxud sümük və ya oynaq vardır. Bunlardan hər biri üçün hər gün bir sədəqə vardır: hər bir gözəl söz sədəqədir,[1] adamın öz (mömin) qardaşına yardım etməsi sədəqədir,[2] verdiyi bir içim su sədəqədir,[3] əziyyət verən şeyi yoldan kənar etmək sədəqədir.”[4]

---

[1] İmam Buxari söyüş söyməyə aid fəsillər arasında, bu başlıq altında həmən hədisi varid etməklə bildirmək istəyir ki, mömin adam nalayiq və təhqiramiz sözlər danışmaqdan çəkinməli və daim sədəqə verməyə, ələlxüsus da gözəl söz danışmağa səy göstərməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Sizlərdən hər biriniz hər gün əzaları sayəsində sədəqə verə bilər. Hər “subhanəllah” demək sədəqədir, hər “əlhəmdulillah” demək sədəqədir, hər “lə ilahə illəllah” demək sədəqədir, hər “Allahu Əkbər” demək sədəqədir, yaxşı işlər görməyi əmr etmək sədəqədir, pis əməllərdən çəkindirmək sədəqədir və duha çağında qılınan iki rükət namaz bütün bunları əvəz edir” (Səhih Muslim, 2/158).

[2] 225-ci hədisə və onun qeydlərinə bax.

[3] 378-ci hədisə və onun qeydlərinə bax.

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih li-ğeyrihi” olduğunu demişdir.

## ٢٠٠- بَابٌ الْمُسْتَبَّانِ مَا قَالا فَعَلَى الاوَّلِ

## 200-ci fəsil. Söyüşən iki nəfərin günahı birinci başlayanın üzərinə düşər

٤٢٣- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا الْعَلاَءُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْمُسْتَبَّانِ مَا قَالاَ فَعَلَى الْبَادِئِ، مَا لَمْ يَعْتَدِ الْمَظْلُومُ)).

**(423)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Söyüşən iki adamın günahı – məzlum həddi aşmayınca – birinci başlayanın üzərinə düşər.[1]"[2]

٤٢٤- حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي عَمْرُو بْنُ الْحَارِثِ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ سِنَانِ بْنِ سَعْدٍ، عَنْ أَنَسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْمُسْتَبَّانِ مَا قَالاَ، فَعَلَى الْبَادِئِ، حَتَّى يَعْتَدِيَ الْمَظْلُومُ)).

**(424)** ........ Ənəs (ibn Malik) ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Söyüşən iki adamın günahı – məzlum həddi aşmayınca – birinci başlayanın üzərinə düşər."[3]

٤٢٥- وَقَالَ النَّبِيُّ ﷺ: ((أَتَدْرُونَ مَا الْعَضْهُ؟)) قَالُوا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: ((نَقْلُ الْحَدِيثِ مِنْ بَعْضِ النَّاسِ إِلَى بَعْضٍ، لِيُفْسِدُوا بَيْنَهُمْ)).

---

[1] Yəni bu söyüşməyin səbəbkarı olduğuna görə bunun günahı ona yazılar, yaxud o, daha çox günah qazanar. Və əgər söyülən adam artıq cavab qaytararsa, bunun günahı özünə yazılar, yaxud o söyməyə başlayan adamdan daha çox günah qazanar. İmam Əhmədin (Musnəd) və Buxarinin "əl-Ədəbul-Mufrad" əsərində (427) İyad ibn Himardan rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdi: "Söyüşən iki nəfər, bir-birini təqsirləndirən və bir-birinə yalan söyləyən iki şeytandır" (Tohfətul-Əhvəzi).

[2] Bu hədisi Muslim (2587), Əbu Davud (4894), Tirmizi (1981) və Əhməd (2/235) rəvayət etmişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

**(425)** Peyğəmbər ﷺ (səhabələrindən): "Bilirsinizmi böhtan nədir?"– deyə soruşdu. Onlar: "Allah və Onun rəsulu daha yaxşı bilir"– dedilər. Peyğəmbər ﷺ dedi: "İnsanlar arasında fəsad törətmək məqsədilə insanlardan bir qisminin sözünü digərlərinə çatdırmaqdır.[1]"[2]

**٤٢٦**– وَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ أَوْحَى إِلَيَّ أَنْ تَوَاضَعُوا، وَلاَ يَبْغِ بَعْضُكُمْ عَلَى بَعْضٍ)).

**(426)** Peyğəmbər ﷺ demişdir: "Allah ﷻ mənə vəhy etdi ki, bir-birinizə qarşı təvazökar olasınız və bir-birinizə təcavüz etməyəsiniz.[3]"[4]

---

[1] Bunu edən adama xəbərçi, qeybətçi, dedi-qoduçu, sözgəzdirən, böhtançı, iftiraçı, fitnəkar deyirlər. Beləsinə ərəbcə "nəmmam" və ya "qəttat" deyilir. Lakin İslam alimləri bu iki kəlmənin məna baxımından fərqli olduğunu söyləmişlər. Xəttabi demişdir: "Bir toplumun yanında oturub onların danışdıqlarına qulaq asan və eşitdiklərini orada-burada yayan kimsəyə nəmmam deyilir. Bir toplumun xəbəri olmadan kənardan onlara qulaq asan (casusluq edən) və onlardan eşitdiyini başqalarına çatdıran kimsəyə qəttat deyilir" (Umdətul-Qari, 6056-cı hədisin şərhi). Bunların hər ikisi böyük günah hesab edilsə də, qəttatın günahı daha böyük və şəri daha çoxdur. Beləlı barədə Yəhya ibn Əbu Kəsir əl-Yəmami demişdir: "Sözgəzdirən adam bir saat ərzində sehrbazın bir ildə törətdiyi fəsaddan artıq fəsad törədir" (Fəthul-Məcid, 1/278). Fəsildəki hədisə diqqət yetirsək, bizə aydın olar ki, nəmmamlıq etmək, son nəticədə çox vaxt söyüşməyə gətirib çıxardır.

[2] Bu hədisi də həmçinin, Yezib ibn Əbu Həbib, Sinan ibn Səddən, o da, Ənəs ibn Malikdən rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, söyüş yiyəsi olmaq istəməyən kəs təvazökar olmalı və başqasının qeybətini qırmaqla ona təcavüz etməməlidir. Lakin qeyd edək ki, günahkarın layiqli cəzasını vermək olar. Bu xüsusda, Uca Allah buyurur: **"*Günahkarı* cəzalandırmaq istəsəniz, sizə nə cəza verilibsə, siz də *ona* eynilə cəza verin. Əgər səbir etsəniz, bu, səbir edənlər üçün daha xeyirlidir"** (ən-Nəhl, 126).

[4] Bu hədisi də, həmçinin Yezib ibn Əbu Həbib, Sinan ibn Səddən, o da, Ənəs ibn Malikdən rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٠١- بَابُ الْمُسْتَبَّانِ شَيْطَانَانِ يَتَهَاتَرَانِ وَيَتَكَاذَبَانِ

## 201-ci fəsil. Söyüşən iki nəfər, bir-birinə pis-pis sözlər deyən və bir-birinə yalan söyləyən iki şeytandır

٤٢٧- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا عِمْرَانُ، عَنْ قَتَادَةَ، عَنْ يَزِيدَ بْنِ عَبْدِ اللَّهِ بْنِ الشِّخِّيرِ، عَنْ عِيَاضِ بْنِ حِمَارٍ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللهِ، الرَّجُلُ يَسُبُّنِي؟ قَالَ النَّبِيُّ ﷺ: ((الْمُسْتَبَّانِ شَيْطَانَانِ يَتَهَاتَرَانِ وَيَتَكَاذَبَانِ)).

**(427)** ........ İyad ibn Himar ﷺ demişdir: "(Bir dəfə) mən (Peyğəmbərə ﷺ) dedim: "Ya Rəsulullah! Bir adam məni söyür, (mən də ona cavab qaytarıramsa, buna görə günah qazanarammı)?" Peyğəmbər ﷺ buyurdu: "Söyüşən iki nəfər bir-birinə pis-pis sözlər deyən və bir-birinə yalan söyləyən iki şeytandır.[1]"[2]

٤٢٨ | ١- حَدَّثَنَا أَحْمَدُ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنِي إِبْرَاهِيمُ ، عَنْ حَجَّاجِ بْنِ حَجَّاجٍ، عَنْ قَتَادَةَ، عَنْ يَزِيدَ بْنِ عَبْدِ اللَّهِ، عَنْ عِيَاضِ بْنِ حِمَارٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ اللَّهَ أَوْحَى إِلَيَّ أَنْ تَوَاضَعُوا حَتَّى لاَ يَبْغِيَ أَحَدٌ عَلَى أَحَدٍ، وَلاَ يَفْخَرَ أَحَدٌ عَلَى أَحَدٍ))، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَرَأَيْتَ لَوْ أَنَّ رَجُلًا سَبَّنِي فِي مَلَإٍ هُمْ أَنْقَصُ مِنِّي، فَرَدَدْتُ عَلَيْهِ، هَلْ عَلَيَّ فِي ذَلِكَ جُنَاحٌ؟ قَالَ: ((الْمُسْتَبَّانِ شَيْطَانَانِ يَتَهَاتَرَانِ وَيَتَكَاذَبَانِ)).

**(428/1)** ........ İyad ibn Himar ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Allah mənə vəhy etdi ki, bir-birinizə qarşı təvazökar olun, bir-birinizə tə-

---

[1] Burada səhabə onu söyən adamın cavabını verməyin caiz olub-olmadığını öyrənmək istəyir. Peyğəmbər ﷺ də bunu ona qadağan edir. Çünki mömin kəs şeytana uymuş sarsaq adama baş qoşmamalı və onun səviyyəsinə enməməlidir. Uca Allah buyurur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər"** (əl-Əraf, 199).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

cavüz etməyin və bir-birinizin yanında lovğalanmayın.[1]" Mən dedim: "Ya Rəsulullah! De görüm, əgər bir nəfər məni məndən də çox nöqsanı olan bir toplum içində söysə, mən də ona cavab qaytarsam, buna görə günah qazanarammı?" Peyğəmbər ﷺ buyurdu: "Söyüşən iki nəfər bir-birinə pis-pis sözlər deyən və bir-birinə yalan söyləyən iki şeytandır."[2]

**٤٢٨ | ٢-** قَالَ عِيَاضٌ: وَكُنْتُ حَرْبًا لِرَسُولِ اللَّهِ ﷺ فَأَهْدَيْتُ إِلَيْهِ نَاقَةً، قَبْلَ أَنْ أُسْلِمَ، فَلَمْ يَقْبَلْهَا وَقَالَ: ((إِنِّي أَكْرَهُ زَبْدَ الْمُشْرِكِينَ)).

**(428/2)** İyad ibn Himar ﷺ demişdir: "Mən Rəsulullaha ﷺ düşmən idim. İslam dinini qəbul etməmişdən əvvəl ona bir dişi dəvə hədiyyə vermək istədim, lakin o, bunu məndən qəbul etmədi və dedi: "Mən müşriklərdən hədiyyə götürməyi xoşlamıram.[3]"[4]

---

[1] Uca Allah buyurur: **"Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir"** (ən-Nisa, 36).

[2] Bu hədisi Əhməd (4/162) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Digər bir hədisdə Peyğəmbər ﷺ Amir ibn Malikə demişdir: "Mən müşrikdən hədiyyə götürmürəm" (Musnədul-Bəzzar, 138; Silsilətul-Əhadisis-Səhihə, 1727). Mubarəkfuri demişdir: "Əslində, müşriklərdən hədiyyə götürmək caiz deyildir. Lakin əgər onların hədiyyələrini götürmək hamı üçün və ya fərdi adamlar üçün məsləhətdirsə, bu hədiyyələri qəbul etmək olar. Allah daha yaxşı bilir" (Tohfətul-Əhvəzi, 1502-ci hədisin şərhi).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٠٢– بَابُ سِبَابِ الْمُسْلِمِ فُسُوقٌ

## 202-ci fəsil. Müsəlmanı söymək fasiqlikdir

٤٢٩– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: أَخْبَرَنِي يَحْيَى بْنُ زَكَرِيَّا بْنِ أَبِي زَائِدَةَ، عَنْ زَكَرِيَّا، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ مُحَمَّدِ بْنِ سَعْدِ بْنِ مَالِكٍ، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((سِبَابُ الْمُسْلِمِ فُسُوقٌ)).

**(429)** ........ Səd ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlmanı söymək fasiqlikdir.[1]"[2]

٤٣٠– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سِنَانٍ قَالَ: أَخْبَرَنَا فُلَيْحُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا هِلاَلُ بْنُ عَلِيٍّ، عَنْ أَنَسٍ قَالَ: لَمْ يَكُنْ رَسُولُ اللَّهِ ﷺ فَاحِشًا، وَلاَ لَعَّانًا، وَلاَ سَبَّابًا، كَانَ يَقُولُ عِنْدَ الْمَعْتَبَةِ: ((مَا لَهُ تَرِبَ جَبِينُهُ)).

**(430)** ........ Ənəs ﷺ demişdir:[3] "Rəsulullah ﷺ nə ədəbsizlik edən,[4] nə çox lənət oxuyan,[5] nə də söyüş söyən (adam) olmuşdur. Birimizi tənbeh edərkən deyərdi: "Ona nə olub?! Alnı yerə sürtülsün.[6]"

---

[1] Burada "fasiqlik" deyildikdə, Allahın və Onun peyğəmbərinin ﷺ itaətindən çıxmaq nəzərdə tutulur. İslam alimlərinin yekdil fikrinə əsasən müsəlmanı haqsız yerə söymək haram, bunu edən adam isə fasiq, yəni günahkar sayılır. Getdikcə belə möminin imanı zəifləyir, mütiliyi azalır və o, tədricən dindən uzaqlaşır. Bir çox alimlər bu hədisi imanın artıb-azalmasına dəlil göstərmişlər. Belə ki, dilini bu yaramaz xislətdən təmizləyən kimsənin imanı artar, onu buna vərdiş etdirən kimsənin isə, əksinə, imanı azalar. Yeri gəlmişkən qeyd edək ki, fasiqlik, günah baxımından asilikdən daha böyükdür. "əl-Hucurat" surəsinin 7-ci ayəsi buna dəlalət edir. Həmin ayədə Uca Allah buyurur: **"Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, üstəlik, sizdə küfrə, fasiqliyə və asi olmağa qarşı nifrət oyatmışdır."** Ayədən aydın görünür ki, günahın dərəcəsi baxımından küfr etmək, fasiqlikdən, fasiqlik də asilikdən daha böyükdür.

[2] Bu hədisi Buxari (48), Muslim (116), Tirmizi (2111), Nəsai (4036), İbn Macə (69) və Əhməd (1/433) rəvayət etmişdir.

[3] Bu hədisi Buxari (6031) və Əhməd (3/126; 144) rəvayət etmişdir.

[4] 151-ci fəslin və bu fəsildəki hədislərin qeydlərinə bax.

[5] 146-cı və 149-cu fəsillərdəki hədislərin qeydlərinə bax.

[6] Bu söz həqiqi mənası qəsd edilməyən, dilucu deyilən qınaqlara aiddir. Buna bənzər rəvayətlərdə Peyğəmbərin ﷺ səhabəsinə: "Əlləri torpağa bulaşsın bunun! Ona nə olub,

٤٣١- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ زُبَيْدٍ قَالَ: سَمِعْتُ أَبَا وَائِلٍ، عَنْ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((سِبَابُ الْمُسْلِمِ فُسُوقٌ، وَقِتَالُهُ كُفْرٌ)).

**(431)** ........ Abdullah (ibn Məsud) ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlmanı söymək fasiqlik, onunla vuruşmaq isə küfrdür.[1]"[2]

٤٣٢- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنِ الْحُسَيْنِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ بُرَيْدَةَ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ يَعْمَرَ، أَنَّ أَبَا الأَسْوَدِ الدِّيلِيَّ حَدَّثَهُ، أَنَّهُ سَمِعَ أَبَا ذَرٍّ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((لاَ يَرْمِي رَجُلٌ رَجُلًا بِالْفُسُوقِ، وَلاَ يَرْمِيهِ بِالْكُفْرِ، إِلاَّ ارْتَدَّتْ عَلَيْهِ، إِنْ لَمْ يَكُنْ صَاحِبُهُ كَذَلِكَ)).

**(432)** ........ Əbu Zərr ؓ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Adam başqa birisini fasiqlikdə və ya küfrdə ittiham edərsə[3] və ittiham edilən adam belə olmazsa, (bu ittiham) onun özünə qayıdar.[4]"[5]

---

niyə bizi tələsdirir?" (Şəmaiul-Nəbi, 166) yaxud "Anan vayına otursun" (Səhih əl-Buxari, 1632) və s. deməsi də, bu kimi həqiqi mənası qəsd edilməyərək deyilən sözlərə bənzəyir.

[1] Haqqı rəhbər tutan alimlərə görə nahaq yerə müsəlmanla vuruşan mömin kafir sayılmır. Çünki küfrün neçə-neçə şöbələri vardır ki, bunlardan bir qismi müsəlmanı İslamdan çıxardır, digəri isə sadəcə ona günah qazandırır. Bu hədisdə deyilən küfr də ikinciyə aiddir. Uca Allah Öz Kitabında onları mömin adlandırır: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın"** (əl-Hucurat, 9). Müsəlmanın qanını halal sayanlar isə müstəsnadır. Beləlləri haramı halal saydıqlarına görə kafir sayılırlar.

[2] Bu hədisi Buxari (48), Muslim (116), Tirmizi (2111), Nəsai (4036), İbn Macə (69) və Əhməd (1/433) rəvayət etmişdir.

[3] Demək, kiməsə "fasiq" və ya "kafir" demək söyüş hesab edilir.

[4] Yəni əgər bir adam başqa birisinə "sən fasiqsən" və ya "ey fasiq" desə və o, həqiqətən də, fasiq olmazsa, bunu deyən adamın özü fasiq sayılar. Habelə, adam başqa birisinə "sən kafirsən" və ya "ey kafir" desə və o, doğrudan da, kafir olmazsa, bunu deyən adamın özü kafir sayılar. Bu, dəlildir ki, bir kimsəni haqsız yerə fasiqlikdə və ya küfrdə ittiham etmək böyük günahlardandır. Çünki Peyğəmbər ﷺ bunu deyən adamın özünü, həmin vəsflə vəsf olunacağı ilə təhdid etmişdir. Odur ki, adamın haqsız yerə öz mömin qardaşına "ey fasiq" və ya "filankəs fasiqdir", habelə, "ey kafir" və ya "filankəs kafirdir" deməsi halal deyildir (Şərh Riyadus-Salihin, 1560-cı hədisin şərhi).

[5] Bu hədisi Buxari (6045) və Əhməd (5/181) rəvayət etmişdir.

٤٣٣- وَبِالسَّنَدِ، عَنْ أَبِي ذَرٍّ، سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنِ ادَّعَى لِغَيْرِ أَبِيهِ وَهُوَ يَعْلَمُ فَقَدْ كَفَرَ، وَمَنِ ادَّعَى قَوْمًا لَيْسَ هُوَ مِنْهُمْ فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ، وَمَنْ دَعَا رَجُلًا بِالْكُفْرِ، أَوْ قَالَ: عَدُوُّ اللَّهِ، وَلَيْسَ كَذَلِكَ إِلا حَارَتْ عَلَيْهِ)).

**(433)** ........ Əbu Zərr ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Hər kim bilərəkdən[1] doğma atasının deyil, başqa birisinin oğlu olduğunu iddia edərsə, küfr etmiş olar.[2] Kim özünün heç bir qohumluq əlaqəsi olmadığı bir qəbiləyə mənsub olduğunu iddia edərsə,[3] qoy Cəhənnəmdəki yerini tutsun.[4] Kim də bir adama: "Ey kafir!" yaxud "Ey Allahın düşməni" deyərsə, əgər belə deyilsə, (bu ittiham) onun özünə qayıdar."[5]

٤٣٤- حَدَّثَنَا عُمَرُ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا عَدِيُّ بْنُ ثَابِتٍ قَالَ: سَمِعْتُ سُلَيْمَانَ بْنَ صُرَدٍ، رَجُلًا مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ قَالَ: اسْتَبَّ رَجُلَانِ عِنْدَ النَّبِيِّ ﷺ فَغَضِبَ أَحَدُهُمَا، فَاشْتَدَّ غَضَبُهُ حَتَّى انْتَفَخَ وَجْهُهُ وَتَغَيَّرَ، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنِّي لَأَعْلَمُ كَلِمَةً لَوْ قَالَهَا لَذَهَبَ عَنْهُ الَّذِي يَجِدُ))، فَانْطَلَقَ إِلَيْهِ الرَّجُلُ، فَأَخْبَرَهُ بِقَوْلِ النَّبِيِّ ﷺ وَقَالَ: تَعَوَّذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ، وَقَالَ: أَتَرَى بِي بَأْسًا، أَمَجْنُونٌ أَنَا؟ اذْهَبْ.

---

[1] Deməki, bilmədən bunu edənlər üzürlü sayılırlar.

[2] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Kim müsəlman ola-ola, üstəlik, atalığının öz atası olmadığını bilə-bilə onun oğlu olduğunu iddia edərsə, Cənnət ona haram edilər" (Səhih Muslim, 115). Xüsusilə qeyd etmək lazımdır ki, bunun Tövhid əhlinə heç bir aidiyyəti yoxdur. Yəni tövhid üzərində ölən kimsə əbədi olaraq Cəhənnəmdə qalmayacaq (411-ci hədisin qeydlərinə bax).

[3] 39-cu və 40-cı fəsillərin qeydlərinə bax.

[4] İmam Muslimin "Səhih"ində (217) Peyğəmbər ﷺ demişdir: "Kim sahibi olmadığı bir şeyin *özününkü olduğunu* iddia etsə, o, bizdən deyildir və qoy o *adam* Oddan oturacağı yerə hazırlaşsın." Bu ləfz, daha geniş mənaları və yalandan nə isə iddia edən hər bir kəsi əhatə edir (Həmçinin, 353-cü hədisin qeydlərindəki "bizdən deyildir" sözünün izahına bax).

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(434)** ........ Peyğəmbərin ﷺ səhabələrindən olmuş Suleyman ibn Surad ﷺ belə rəvayət etmişdir: “İki nəfər Peyğəmbərin ﷺ yanında söyüşməyə başladı. Onlardan biri qəzəbləndi. Onun qəzəbi o qədər artdı ki, axırda o pörtdü və onun sifəti dəyişdi.[1] Peyğəmbər ﷺ dedi: “Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər!” Bir nəfər gedib Peyğəmbərin ﷺ dediyini ona bildirdi və: “Məlun şeytandan Allaha sığın![2]– dedi.[3] O isə, belə cavab verdi: “Yoxsa, mənə nə isə olduğunu güman edirsən?! Məgər, mən dəliyəm? Get (işinlə məşğul ol)![4]”[5]

---

[1] Adam qəzəbləndikdə özünü idarə edə bilmir, çox vaxt dili topuq vurur, əlləri və ayaqları əsir, gözləri az qalır hədəqəsindən çıxsın və başqa bu kimi artıq hərəkətlərə yol verir, sonra da elədiyinə peşman olur. Bəzi alimlər bu hissi vəsf edib demişlər: “Bu, əvvəli dəlilik, axırı isə peşmançılıq gətirən bir hisdir.” Həqiqətən də, adam qəzəbləndikdə sanki ağlı başından çıxır və nə danışdığını, nə etdiyini bilmir. Qəzəblənmək insanı pis işlər görməyə təhrik edir. Cəfər ibn Muhəmməd demişdir: “Qəzəblənmək hər bir şərin açarıdır.”

[2] İmam Əhmədin rəvayət etdiyi hədisdə deyilir ki, səhabə ona: “Əuzu billahi minəş-şeytanir-racim!”– deməyi tövsiyə etmişdir (əl-Musnəd, 6/394). Burada Peyğəmbər ﷺ bizə qəzəbləndiyimiz zaman nəfsimizi cilovlamağın yolunu öyrədir. Bundan başqa o, bizə qəzəbi soyutmağın başqa yollarını da öyrətmişdir. O, demişdir: “Qoy sizlərdən biri qəzəbləndiyi zaman sussun” (Musnəd İmam Əhməd, 1/239); digər hədisdə o, belə buyurmuşdur: “Qoy sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın” (Səhih əl-Cami, 694); həmçinin, o, bizə gözəl dua öyrətmişdir:

(( أسألك كَلِمَة الحقّ في الغضب والرِّضا ))

“Əsəlukə kəlimətəl-həqqi fil-ğadabi vər-rida! (Allahım, həm qəzəbli olduğum, həm də razı qaldığım halda haqq söz deməyi Səndən diləyirəm!)”

[3] Səhabənin bu hərəkəti, onların xeyirxah işlər görməyə nə qədər həris olduqlarını bir daha sübuta yetirir.

[4] Burada qəzəblənmək o adama haqqı qəbul etməyə mane olmuşdur. Çünki o, belə halda şeytandan Allaha sığınmağın ancaq dəliyə aid edildiyini güman etmiş və qəzəblənməyin şeytandan olduğunu anlamamışdır.

[5] Bu hədisi Buxari öz “Səhih”ində də (6048) rəvayət etmişdir.

**٤٣٥**– حَدَّثَنَا خَلاَّدُ بْنُ يَحْيَى قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ يَزِيدَ بْنِ أَبِي زِيَادٍ، عَنْ عَمْرِو بْنِ سَلَمَةَ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: مَا مِنْ مُسْلِمَيْنِ إِلاَّ بَيْنَهُمَا مِنَ اللَّهِ عَزَّ وَجَلَّ سِتْرٌ، فَإِذَا قَالَ أَحَدُهُمَا لِصَاحِبِهِ كَلِمَةَ هَجْرٍ فَقَدْ خَرَقَ سِتْرَ اللَّهِ، وَإِذَا قَالَ أَحَدُهُمَا لِلآخَرِ: أَنْتَ كَافِرٌ، فَقَدْ كَفَرَ أَحَدُهُمَا.

**(435)** ........ Abdullah *ibn Məsud* ﷺ demişdir: "Elə iki müsəlman yoxdur ki, onların arasında Allah ﷻ tərəfindən pərdə olmasın. Onlardan biri öz dostuna yaramaz söz söyləsə, Allahın pərdəsini yırtmış olar. Və əgər onlardan biri digərinə "sən kafirsən"– desə, ikisindən biri küfr etmiş olar.[1]"[2]

---

[1] 432-ci və 433-cü hədislərin qeydlərinə bax.

[2] Bu hədisin isnadında keçən Yezid ibn Əbu Ziyad "zəif" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٢٠٣- بَابُ مَنْ لَمْ يُوَاجِهِ النَّاسَ بِكَلامِهِ

## 203-cü fəsil. Adamın xətasını camaat arasında onun üzünə vurmayan kəs

**٤٣٦-** حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا مُسْلِمٌ، عَنْ مَسْرُوقٍ قَالَ: قَالَتْ عَائِشَةُ: صَنَعَ النَّبِيُّ ﷺ شَيْئًا، فَرَخَّصَ فِيهِ، فَتَنَزَّهَ عَنْهُ قَوْمٌ، فَبَلَغَ ذَلِكَ النَّبِيَّ ﷺ فَخَطَبَ، فَحَمِدَ اللَّهَ، ثُمَّ قَالَ: ((مَا بَالُ أَقْوَامٍ يَتَنَزَّهُونَ عَنِ الشَّيْءِ أَصْنَعُهُ؟ فَوَاللَّهِ إِنِّي لأَعْلَمُهُمْ بِاللَّهِ، وَأَشَدُّهُمْ لَهُ خَشْيَةً)).

**(436)** ........ Aişə ﵂ demişdir:[1] "*Bir dəfə* Peyğəmbər ﷺ bir iş gördü və bu işi görməyə rüsxət verdi.[2] Lakin bir dəstə adam bu işdən boyun qaçırdı.[3] Bu xəbər Peyğəmbərə ﷺ yetişdikdə, qalxıb xütbə verdi, Allahı tərif etdikdən sonra dedi: "Bəzi adamlara[4] nə olub ki, mən gördüyüm işdən boyun

---

[1] Bu hədisi Buxari öz "Səhih"ində də (6301 və 7301) rəvayət etmişdir.

[2] Rüsxət xüsusunda Peyğəmbər ﷺ demişdir: "Allah Özünün rüsxət verdiyi işlərin yerinə yetirilməsini sevir" (Musnəd Əhməd, 2/108; Səhih Tərğib vət-Tərhib, 1059).

[3] Buna aşağıdakı hədisi misal çəkmək olar:

Peyğəmbər ﷺ hər bir ibadəti yerinə yetirdikdə, nə ifrata varar, nə də ki, etdiyi ibadətə laqeyd yanaşar, əksinə, orta yol tutardı. Bu xüsusda varid olmuş hədislərin birində Ənəs ibn Malik ﵁ demişdir: "*Bir dəfə* üç nəfər Peyğəmbərin ﷺ evinə gəlib onun əhli-əyalından Peyğəmbərin ﷺ ibadəti barəsində soruşdu. Bu haqda onlara xəbər verildikdə, onlar *etdikləri ibadətin* az olduğunu güman edib belə dedilər: "Yəni biz Peyğəmbər ﷺ kimi ola bilərikmi? Üstəlik, Allah onun bütün keçmiş və gələcək xətalarını bağışlamışdır." Onlardan birisi dedi: "Mən bütün gecələri ibadət edəcəyəm, yatmayacağam." O birisi dedi: "Mən il boyu oruc tutacağam, *gündüzlər* yemək yeməyəcəyəm." Üçüncüsü dedi: "Mən qadınlara yaxın durmayacağam, heç vaxt evlənməyəcəyəm." Peyğəmbər ﷺ *bunu eşidəndən sonra* onların yanına gəlib dedi: "Filan, filan sözləri sizmi demisiniz?! Vallahi ki, aranızda Allahdan ən çox qorxanınız mənəm. Bununla belə mən bəzən oruc tutur, bəzən də tutmuram, gecənin bir vaxtını namaz qılır, digərində isə dincəlirəm və nəhayət, mən qadınlarla evlənirəm. Belə olduğu halda mənim yolumdan çıxan kimsələr məndən deyillər" (Səhih əl-Buxari, 5063).

[4] Diqqət edin! Burada Peyğəmbər ﷺ həmin adamların adlarını çəkmir. Bu da, adamın xətasını camaat arasında onun üzünə vurmamağa dəlalət edir.

qaçırırlar?![1] Vallahi ki, aralarında Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan mənəm![2]"

٤٣٧– حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ سَلْمٍ الْعَلَوِيِّ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ قَلَّ مَا يُوَاجِهُ الرَّجُلَ بِشَيْءٍ يَكْرَهُهُ، فَدَخَلَ عَلَيْهِ يَوْمًا رَجُلٌ، وَعَلَيْهِ أَثَرُ صُفْرَةٍ، فَلَمَّا قَامَ قَالَ لِأَصْحَابِهِ: ((لَوْ غَيَّرَ، أَوْ نَزَعَ، هَذِهِ الصُّفْرَةَ)).

**(437)** ........ Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ xoşuna gəlməyən bir şeyi çox vaxt adamın üzünə deməzdi.[3] Bir gün onun yanına bir adam gəldi. Onun paltarında sarı ləkə[4] var idi. Adam qalxıb getdikdən sonra Peyğəmbər ﷺ (yanındakılara) dedi: "Nə olaydı bu ləkəni təmizləyəydi, yaxud (paltarı) əynindən çıxaraydı![5]"[6]

---

[1] Yəni niyə onlar mən verdiyim rüsxətə əməl etməyib özlərini əziyyətə salırlar.

[2] Bu söz hər bir halda və hər yerdə ancaq Peyğəmbərin ﷺ Sünnəsinə riayət etməyin vacibliyinə dəlalət edir. Peyğəmbər ﷺ xütbə verərkən deyərmiş: "Ən xeyirli söz, Allahın Kitabı və ən xeyirli yol Muhəmmədin yoludur" (Səhih Tərğib vət-Tərhib, 1059).

[3] Rəsulullah ﷺ bir adamın yanlış söz danışdığını və ya səhv hərəkət etdiyini görəndə çox vaxt bu eyibi ümumi olaraq zikr edərdi. Məsələn, namaz əsnasında göyə baxanların əməlini pisləyib demişdir: "Namaz əsnasında göyə baxan adamlara nə olub ki, *belə edirlər*? Onlar ya buna son qoyacaqlar, ya da ki gözləri kor olacaq" (Səhih əl-Buxari, 750). Lakin qeyd edək ki, Rəsulullah ﷺ bəzən məsləhət bildikdə, adamın səhvini üzünə deyərdi. Əli ibn Əbu Talib ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ bir qövmün yanına gəldi. Onların arasında zəfərandan düzəldilmiş ətirlə ətirlənmiş bir kişi var idi. Peyğəmbər ﷺ onlara nəzər saldı. Sonra hamısına salam verib *ancaq* o kişidən üz döndərdi. Kişi dedi: "Nə üçün məndən üz döndərirsən?" Peyğəmbər ﷺ dedi: "Sənin gözlərinin arasında köz vardır" (əl-Ədəbul-Mufrad, 1020).

[4] Burada "sarı ləkə" deyildikdə, zəfərandan düzəldilmiş ətirin ləkəsi nəzərdə tutulur. Qeyd edək ki, bu, ancaq kişilərə qadağandır. Bu xüsusda varid olmuş hədisdə Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ kişilərə zəfərandan ətir kimi istifadə etməyi qadağan etmişdir" (Səhih əl-Buxari, 5846). Bu hədisi açıqlayan başqa bir hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: "Kişi ətri, iyisi çox olması və rəngi nəzərə çarpmaması ilə, qadın ətri isə rəngi nəzərə çarpması və qoxusunun az olması ilə seçilməlidir" (Bu hədisi Əbu Davud (2174), Nəsai (5117), Tirmizi (2788) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin səhih olduğunu demişdir.)

[5] Digər rəvayətdə Rəsulullah ﷺ: "Bəlkə ona deyəsiniz, bu ləkəni təmizləsin?!"– demişdir (Şəmailun-Nəbi, 346).

[6] Bu hədisi Əbu Davud (2174), Nəsai (5117), Tirmizi (2788) rəvayət etmişdir. Hədisin isnadında keçən Səlm əl-Ələvi "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir.

## ٢٠٤- بَابُ مَنْ قَالَ لآخَرَ: ((يَا مُنَافِقُ))، فِي تَأْوِيلٍ تَأَوَّلَهُ

## 204-cü fəsil. Dediyinin mənasını yozaraq başqasına: "Ey münafiq"– deyən kəs[1]

٤٣٨- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا حُصَيْنٌ، عَنْ سَعْدِ بْنِ عُبَيْدَةَ، عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ السُّلَمِيِّ قَالَ: سَمِعْتُ عَلِيًّا رَضِيَ اللَّهُ عَنْهُ يَقُولُ: بَعَثَنِي النَّبِيُّ ﷺ وَالزُّبَيْرَ بْنَ الْعَوَّامِ، وَكِلاَنَا فَارِسٌ، فَقَالَ: ((انْطَلِقُوا حَتَّى تَبْلُغُوا رَوْضَةَ كَذَا وَكَذَا، وَبِهَا امْرَأَةٌ مَعَهَا كِتَابٌ مِنْ حَاطِبٍ إِلَى الْمُشْرِكِينَ، فَأْتُونِي بِهَا))، فَوَافَيْنَاهَا تَسِيرُ عَلَى بَعِيرٍ لَهَا حَيْثُ وَصَفَ لَنَا النَّبِيُّ ﷺ، فَقُلْنَا: الْكِتَابُ الَّذِي مَعَكِ؟ قَالَتْ: مَا مَعِي كِتَابٌ، فَبَحَثْنَاهَا وَبَعِيرَهَا، فَقَالَ صَاحِبِي: مَا أَرَى، فَقُلْتُ: مَا كَذَبَ النَّبِيُّ ﷺ، وَالَّذِي نَفْسِي بِيَدِهِ لَأُجَرِّدَنَّكِ أَوْ لَتُخْرِجِنَّهُ، فَأَهْوَتْ بِيَدِهَا إِلَى حُجْزَتِهَا وَعَلَيْهَا إِزَارٌ صُوفٌ، فَأَخْرَجَتْ، فَأَتَيْنَا النَّبِيَّ ﷺ، فَقَالَ عُمَرُ: خَانَ اللَّهَ وَرَسُولَهُ وَالْمُؤْمِنِينَ، دَعْنِي أَضْرِبْ عُنُقَهُ، وَقَالَ: ((مَا حَمَلَكَ؟)) فَقَالَ: مَا بِي إِلاَّ أَنْ أَكُونَ مُؤْمِنًا بِاللَّهِ، وَأَرَدْتُ أَنْ يَكُونَ لِي عِنْدَ الْقَوْمِ يَدٌ، قَالَ: ((صَدَقَ يَا عُمَرُ، أَوَ لَيْسَ قَدْ شَهِدَ بَدْرًا، لَعَلَّ اللَّهَ اطَّلَعَ إِلَيْهِمْ فَقَالَ: اعْمَلُوا مَا شِئْتُمْ فَقَدْ وَجَبَتْ لَكُمُ الْجَنَّةُ))، فَدَمَعَتْ عَيْنَا عُمَرَ وَقَالَ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ.

**(438)** ........ Əbu Abdur-Rəhman əs-Suləmi deyir ki, mən Əli ibn Əbu Talibin ﷛ belə rəvayət etdiyini eşitmişəm: "(Bir dəfə) Peyğəmbər ﷺ mənə və Zubeyr ibn Əvvama atlanıb *Məkkəyə* yollanmağı buyurdu və: "Filan bağçaya yetişənədək gedin. Həmin bağçada bir qadın görəcəksiniz. O qadında Hatibin müşriklərə yazdığı məktubu var.[2] Onu yanıma gətirin!"– dedi.[3]

---

[1] Yəni bir kimsənin etiqadda münafiq olduğunu qəsd etməyərək ona "ey münafiq" demək.

[2] Peyğəmbərin ﷺ bu sözü onun peyğəmbərlik möcüzələrindəndir.

[3] Buxarinin "Səhih"ində (4890) Əli ibn Əbu Talib ﷛ demişdir: "Peyğəmbər ﷺ mənə, Zubeyrə və Miqdada dedi: "Rövdətü Xaxa (Mədinə ilə Məkkə arasında yerləşən bir yerə) gedin! Orada kəcavənin içində gedən, özü ilə məktub aparan bir qadına rast gələcəksiniz. Məktubu ondan götürün."

Biz Peyğəmbərin ﷺ vəsf etdiyi yerdə, həmin qadına dəvəsinin üstündə (kəcavənin[1] içində) gedərkən çatdıq və (ondan): "Apardığın məktub haradadır?"– deyə soruşduq. Qadın dedi: "Məndə məktub-zad yoxdur." Biz həm onu, həm də onun dəvəsini axtardıq.[2] Zubeyr dedi: "Mən heç nə görmürəm." Mən dedim: "Peyğəmbər ﷺ yalan danışmaz.[3] Canım Əlində olan *Allaha* and olsun ki, ya səni soyunduracağam, ya da məktubu (öz xoşunla) çıxaracaqsan." Qadın əlini əynindəki yun izarın[4] qurşağına salıb məktubu çıxartdı.[5] Biz (məktubu götürüb) Peyğəmbərin ﷺ yanına qayıtdıq. Ömər dedi: "Hatib Allaha, Onun rəsuluna ﷺ və möminlərə xəyanət etdi. Burax, onun boynunu vurum!"[6] Peyğəmbər ﷺ dedi: "(Bu işi görməyə) səni vadar edən nədir, (ey Hatib)?"[7] Hatib dedi: "Mən Allaha iman gətirmiş adamam. Lakin müşriklər (Məkkədə qalmış) yaxınlarıma dəyməsinlər deyə, belə

---

[1] Səfərə çıxan adam üçün minik heyvanlarının, adətən, dəvənin üstündə düzəldilən örtülü yer.

[2] Burada "onu axtardıq" deyildikdə, qadının zahiri – əli, ayaqqabısının içi və s. nəzərdə tutulur.

[3] Rəsulullah ﷺ heç vaxt yalan danışmayıb. Abdullah ibn Məsud ﵁, Əbu Hureyrə ﵁ və digərləri Rəsulullahdan ﷺ hədis rəvayət edərkən bəzən deyərdilər: "Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bizə belə rəvayət etmişdir:" Həmçinin, Rum imperatoru Herakl, Əbu Sufyandan: "*Peyğəmbərlik iddia edən bu adam* söylədiklərini deməzdən, *bu dinə dəvət etməzdən* əvvəl heç onu yalan danışmaqda ittiham etmişdinizmi?"– deyə soruşduqda, Əbu Sufyan ona: "Xeyr!"– deyə cavab vermişdir" (Səhih əl-Buxari, 7).

[4] İzar: qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanan parça; fitə.

[5] Bu məktubda Hatib ibn Əbu Bəltəə ﵁ Məkkə müşriklərindən olan bir dəstəyə Peyğəmbərin ﷺ onlara qarşı hazırladığı işlər barədə xəbər vermişdir. Onun bu əməli zahirən münafiqlərin əməlinə bənzəmiş olsa da, əsl məqsədi xəyanət etmək olmamışdır.

[6] Burada Ömər ibn Xattab ﵁ onun zahirinə hökm verir, onu Allaha, Onun rəsuluna ﷺ və möminlərə xəyanət etməkdə ittiham edir, dolayısıyla onun münafiq olduğunu bildirir və buna əsasən dərhal ona cəza tətbiq etmək istəyir. Bu da, Ömərin ﵁ Allaha və Onun rəsuluna ﷺ nə dərəcədə sadiq olduğunu bir daha sübuta yetirir.

[7] Rəsulullah ﷺ Hatibin ﵁ mömin olduğunu bilir deyə, dərhal qərar çıxarmağa tələsmir. Beləliklə də, o, İslam ümmətinə gələcək işlərində belə hallarda dərhal qərar çıxarmamağı, məsələni əməlli-başlı araşdırıb dəqiqləşdirdikdən sonra hökm verməyi öyrədir.

etdim."[1] Peyğəmbər ﷺ dedi: "O, doğru deyir, ey Ömər! Məgər o, Bədrdə iştirak etməyibmi?! Məlumun olsun ki, qüdrətli və əzəmətli Allah Bədrdə döyüşənlərə baxıb demişdir: **"İstədiyinizi edin! Artıq Cənnətə girmək sizə vacib edildi."**[2] Ömərin gözləri yaşla doldu və o: "Allah və Onun rəsulu ﷺ daha yaxşı bilir![3]"– dedi."[4]

---

[1] Buxarinin "Səhih"ində (4890) rəvayət edilir ki, Hatib demişdir: "Məni (qınamağa) tələsmə, ya Rəsulullah! Mən qureyşdən idim, lakin onların nəslindən deyildim. Səninlə birlikdə *hicrət etmiş* mühacirlərin qohum-əqrəbası onların Məkkədəki ailələrini və mallarını himayə edir. Onların arasında mənim qohumlarım yoxdur deyə, mən onları qorumaq üçün belə etmək istəyirdim. Mən bunu kafir olmaq və ya dindən dönmək məqsədilə etməmişəm."

[2] Bu, dəlildir ki, Allah yolunda aparılan ilk döyüşdə vuruşanlar fəzilət baxımından, sonrakı döyüşlərdə iştirak edənlərdən üstündürlər. Bu xüsusda, Uca Allah buyurur: **"Sizlərdən *Məkkənin* fəthindən əvvəl *malını* xərcləyib *Allah yolunda* vuruşanlar *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib vuruşanlardan daha üstündür. Lakin Allah onların hamısına ən gözəl olanı vəd etmişdir"** (əl-Hədid, 10).

[3] Bu cavab Ömər ibn Xattabın ؓ nə dərəcədə itaətkar olduğuna dəlalət edir.

[4] Bu hədisi Buxari (4890) rəvayət etmişdir. Həmin hədisin sonunda deyilir ki, Hatibin barəsində bu ayə nazil oldu: **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!"** (əl-Mumtəhənə, 1).

## ٢٠٥– بَابُ مَنْ قَالَ لِأَخِيهِ: ((يَا كَافِرُ))

## 205-ci fəsil. (Din) qardaşına: “Ey kafir”– deyən kəs

٤٣٩– حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((أَيُّمَا رَجُلٍ قَالَ لِأَخِيهِ: كَافِرٌ، فَقَدْ بَاءَ بِهَا أَحَدُهُمَا)).

**(439)** ........ Abdullah ibn Ömər ﷺ rəvayət edir ki,[1] Rəsulullah ﷺ belə buyurmuşdur: “Hər kim (din) qardaşına: “(Ey) kafir”– deyərsə, ikisindən biri həmin günahla geri dönər.[2]”

---

[1] Bu hədisi Buxari (6104), Muslim (111) və Əhməd (2/18) rəvayət etmişdir.

[2] Alimlər bu hədisin mənasında ixtilaf etmişlər. Belə ki, haqq əhlinin etiqadına görə, adam öldürmək, zina etmək və başqa bu kimi böyük günahlar işlətmiş müsəlman kafir sayılmır. Qardaşına “kafir” deyən kimsə də habelə. Elə bu səbəbdən də, alimlər hədisin izahına dair müxtəlif rəylər söyləmişlər. Bunlar aşağıdakılardır:

Birincisi: Bu, mömin adamın kafir olduğuna etiqad edən kimsəyə aiddir. Beləsi kafir sayılır, yəni dediyi söz onun özünə aid edilir.

İkincisi: Din qardaşına ünvanladığı ittiham və bunun günahı onun özünə qayıdır (Qeyd edək ki, bu ən doğru rəy sayılır).

Üçüncüsü: Bu, möminləri kafir sayan xəvariclərə aiddir... Bu isə zəif rəydir. Belə ki, əksər alimlərin və tədqiqatçıların fikrincə xəvariclər də, digər bidətçilər kimi kafir sayılmırlar.

Dördüncüsü: Bu, söz sahibini tədricən aparıb küfrə çıxarır...

Beşincisi: Burada küfrün özü yox, ancaq hökmü söz sahibinə qayıdır. Yəni qardaşına kafir deyən şəxs sanki özünü təkfir etmiş olur... (Nəvəvi).

İbn Useymin demişdir: “Müsəlmanın kafir və ya fasiq olduğuna hökm verməzdən əvvəl iki məsələyə diqqət yetirmək vacibdir:

a) Həmin şəxsin etdiyi əməlin küfr və ya günah olduğuna dair Quranda və ya hədisdə dəlil-sübut tapılmalı;

b) Müəyyən bir adamın kafir və ya fasiq olduğuna hökm vermək üçün buna dair qoyulmuş şərtlər bir araya gətirilməli (və maneələr aradan qalxmalıdır).

Həmin şərtlərdən ən mühüm sayılanı isə adamın bilərəkdən haqqı inkar edərək günah işlətməsidir. Uca Allah buyurur: **“Hər kəs özünə doğru yol bəlli olduqdan sonra**

**٤٤٠**– حَدَّثَنَا سَعِيدُ بْنُ دَاوُدَ قَالَ: حَدَّثَنَا مَالِكٌ، أَنَّ نَافِعًا حَدَّثَهُ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ أَخْبَرَهُ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا قَالَ لِلْآخَرِ: كَافِرٌ، فَقَدْ كَفَرَ أَحَدُهُمَا، إِنْ كَانَ الَّذِي قَالَ لَهُ كَافِرًا فَقَدْ صَدَقَ، وَإِنْ لَمْ يَكُنْ كَمَا قَالَ لَهُ فَقَدْ بَاءَ الَّذِي قَالَ لَهُ بِالْكُفْرِ)).

**(440)** ........ Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "(Bir adam) başqasına "kafir" deyərsə, ikisindən biri küfr etmiş olar. Əgər qəsd etdiyi adam kafirdirsə, demək, (bunu deyən adam) doğru söy-

---

**Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir"** (ən-Nisa, 115). O həmçinin, buyurur: **"Allah bir qövmü doğru yola yönəltdikdən sonra uzaqlaşmaları zəruri olan şeylərdən onları xəbərdar etməyincə, onları həmin yoldan azdırmaz. Həqiqətən, Allah hər şeyi bilir. Həqiqətən, göylərin və yerin mülkü Allaha məxsusdur. O həm dirildir, həm də öldürür. Sizin Allahdan başqa nə bir himayədarınız, nə də bir köməkçiniz vardır"** (ət-Tovbə, 115-116). Elə buna görə də alimlər demişlər ki: "İslamı yenicə qəbul etmiş şəxs vacib əməllərdən birini inkar etsə belə, haqq ona aydın olmayınca, onu kafir saymaq olmaz.

Habelə, küfr və fasiqlik edən adam bunu öz iradəsi ilə deyil, məcburiyyət qarşısında edərsə, deyək ki, təzyiq altında qəlbi ilə etiqad etmədiyi bir şeyi dilinə gətirərsə, kafir sayılmaz. Bu xüsusda, Uca Allah buyurur: **"Qəlbi imanla sabit qaldığı halda *haqqı danmağa* məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır"** (ən-Nəhl, 106). Və ya çox sevindiyindən yaxud kədərləndiyindən yaxud da qorxduğundan nə danışdığını bilmədən küfr etsə, yenə kafir sayılmaz. Buna İmam Muslimin "Səhih" əsərində Ənəs ibn Malikdən ﷺ rəvayət etdiyi hədisi dəlil göstərmək olar. Həmin hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allahın, bəndəsi Ona tövbə edərkən onun tövbəsinə sevinməsi, sizlərdən *səhrada dəvəsini tapmış* kimsənin sevincindən daha artıqdır. O kimsə ki dəvəsinə minib səhraya çıxdıqdan sonra dəvəsi ondan qaçmış, yeməyi və suyu da onun üstündə getmişdir. *Bundan sonra* həmin adam dəvəsindən əlini üzmüş və nəhayət, dəvəsini tapacağına ümidi qalmadığı halda gəlib bir ağacın kölgəsində uzanıb yatmışdır. O, bu vəziyyətdə ikən birdən dəvəsini öz yanında görmüş və dərhal onun ovsarından tutub sevincindən: "Allahım, Sən mənim qulumsan, mən də Sənin rəbbinəm!" – demişdir. Çox sevindiyindən belə bir xətaya yol vermişdir" ("Məcmu Fətavə və Rəsail", 3/255-257).

ləmişdir. Yox əgər onun dediyi kimi deyilsə, onda ona dediyi küfr sözü özünə qayıdır.[1]"[2]

---

[1] Hər iki hədis dəlildir ki, fərdi olaraq kiməsə kafir deməkdə son dərəcə ehtiyatlı olmaq gərəkdir. Adama yalnız o halda kafir demək olar ki, onun kafir sayılmasına dair şəriətin qoyduğu şərtlərin hamısı onda öz əksini tapsın, üstəlik, onun kafir sayılmasına əngəl olan maneələrin hamısı aradan qalxsın.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٠٦– بَابُ شَمَاتَةِ الاعْدَاءِ

## 206-cı fəsil. Düşmənlərin sevinməsi[1]

٤٤١– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ سُمَيٍّ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَعَوَّذُ مِنْ سُوءِ الْقَضَاءِ، وَشَمَاتَةِ الاعْدَاءِ.

**(441)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ acınacaqlı aqibətdən və düşmənlərin sevinməsindən[2] Allaha sığınardı.[3]"[4]

---

[1] Burada din düşmənlərinin müsəlmanın başına gəlmiş müsibətə görə sevinmələri nəzərdə tutulur.

[2] Diqqət edin! İmam Buxari bu fəsili, "(Din) qardaşına: "Ey kafir"– deyən kəs" adlı fəsildən sonra varid etmişdir. Ola bilsin ki, burada o, belə sözlərlə din düşmənlərini sevindirməməyi qəsd edir. Yəni mömin öz din qardaşına "ey kafir" yaxud "ey münafiq", "ey Allahın düşməni" və s. təhqiramiz sözlər deməklə düşmənləri sevindirməməlidir. Daha doğrusunu Allah bilir!

[3] Yəni dua edib deyərdi:

(( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ سُوءِ الْقَضَاءِ، وَشَمَاتَةِ الاعْدَاءِ ))

"Allahummə, inni əuzu bikə min suil-qadai və şəmatətil-ə'da (Allahım, acınacaqlı aqibətdən və düşmənlərin sevinməsindən Sənə sığınıram!)" Başqa bir hədisdə Peyğəmbərin ﷺ, həmçinin, dözülməz bəladan və bədbəxt olmaqdan da Allaha sığındığı xəbər verilmişdir (669-cu hədisə bax).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٠٧- بَابُ السَّرَفِ فِي الْمَالِ

## 207-ci fəsil. Malı israf etmək[1]

٤٤٢- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: أَخْبَرَنَا مَالِكٌ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِنَّ اللَّهَ يَرْضَى لَكُمْ ثَلاَثًا، وَيَسْخَطُ لَكُمْ ثَلاَثًا، يَرْضَى لَكُمْ: أَنْ تَعْبُدُوهُ وَلاَ تُشْرِكُوا بِهِ شَيْئًا، وَأَنْ تَعْتَصِمُوا بِحَبْلِ اللَّهِ جَمِيعًا، وَأَنْ تَنَاصَحُوا مَنْ وَلاَّهُ اللَّهُ أَمْرَكُمْ، وَيَكْرَهُ لَكُمْ: قِيلَ وَقَالَ، وَكَثْرَةَ السُّؤَالِ، وَإِضَاعَةَ الْمَالِ)).

**(442)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Allah sizin üç əməlinizdən razı qalır, üç[2] əməlinizə isə qəzəbi tutur:[3] sizin yalnız Ona ibadət edib, heç nəyi Ona şərik qoşmamağınızdan,[4] hamılıqla

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **“Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin *malını* lazım olmayan yerə sərf etmə. Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur”** (əl-İsra, 26-27).

[2] Burada “üç” deyildikdə, Allahın razı qaldığı və qəzəbi tutduğu əməllərin təkcə bu üçündən ibarət olduğu nəzərdə tutulmur. Sadəcə olaraq bu üçü bu qəbildən olan əməlləri özündə cəm edir.

[3] Allahın razı qalması və qəzəblənməsi, Onun feli sifətlərindəndir. Bu sifət neçə-neçə hədislərdə varid olmuşdur. Həmin hədislərdən birində rəvayət edilir ki, Peyğəmbər ﷺ dua edib deyərmiş: “Allahım, Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram!” (Səhih Əbu Davud, 1282). Hər bir mömin Allahın ad və sifətlərini olduğu kimi qəbul etməlidir. Yəni Quran və “səhih” hədislərdə varid olmuş ad və sifətlərdən heç birini inkar etməməli, habelə, bunları başqa mənaya yozmamalı, eləcə də, bunları təhrif etməməli və bir də bu ad və sifətlərdən heç birini kiməsə yaxud nəyəsə bənzətməməlidir.

[4] Bu xüsusda, Uca Allah buyurur: **“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!”** (ən-Nisa, 36). Bu fəsildəki hədisdən aydın olur ki, Allah, Ona şərik qoşan kimsədən razı qalmır. Belələrinin əməlləri puç olacaq və heç kəs, hətta şəfaət edənlər belə onlara yardım edə bilməyəcəklər. Bu xüsusda, Uca Allah buyurur: **“Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa, *heç kəsə* heç bir fayda verməz”** (ən-Nəcm, 26). Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, Əbu Hureyrə ﷺ (Peyğəmbərdən ﷺ): “Ya Rəsulullah! Qiyamət günü sənin şəfaətin sayəsində ən böyük səadətə çatan adam kim olacaq?”– deyə soruşmuş, Pey-

Allahın ipindən möhkəm yapışmağınızdan[1] və Allahın sizə nəsib etdiyi ixtiyar sahiblərinə nəsihət verməyinizdən razı qalır.[2] Dedi-qodu yaymağınıza,[1] çox sual verməyinizə[2] və malı israf etməyinizə isə qəzəbi tutur."[3]

---

ğəmbər ﷺ də ona belə buyurmuşdur: "Ey Əbu Hureyrə! Mən sənin hədis öyrənməyə olan hərisliyini görüb düşünürdüm ki, səndən əvvəl heç kəs bu hədis barəsində məndən soruşmayacaq. Qiyamət günü mənim şəfaətim sayəsində ən böyük səadətə çatanlar, səmimi-qəlblə "La ilahə illəllah"– deyən kimsələr olacaq (Səhih əl-Buxari, 99); digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər peyğəmbərin qəbul edilmiş bir duası olmuşdur. Onların hər biri *artıq öz duasından* istifadə etmişdir. Mən isə öz duamı Qiyamət günü ümmətimə şəfaət etmək üçün saxlamışam. Ümmətimdən Allaha şərik qoşmadığı halda ölən kimsələr inşaAllah bu şəfaətə nail olacaqlar" (Səhih Muslim, 491).

[1] Quranda belə buyurulur: **"Hamılıqla Allahın ipindən möhkəm yapışın və parçalanmayın!"** (Ali-İmran, 103). Uca Allah bu ayədə müsəlmanlara İslam dinindən möhkəm yapışmağı buyurur. Çünki Allahın dinindən savayı nə varsa, hamısı batil hesab olunur. Bu xüsusda, Uca Allah buyurur: **"Həqiqətən, Allah yanında *qəbul olunan* din, İslamdır!"** (Ali-İmran, 19); digər ayədə O, buyurur: **"İslamdan başqa bir din axtaran şəxsdən, o *din* heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar"** (Ali-İmran, 85).

[2] Hədislərin birində rəvayət edilir ki, (bir dəfə) Peyğəmbər ﷺ: "Din nəsihətdir!"– deyə buyurdu. Səhabələr: "Kimin üçün?"– deyə soruşdular. O buyurdu: "Allah üçün, Onun Kitabı üçün, Onun Rəsulu üçün, habelə, müsəlmanların rəhbərləri və bütün müsəlmanlar üçün" (Səhih Muslim, 55). İbn Həcər bu hədisi izah edərkən demişdir: "Burada "müsəlmanların rəhbərləri üçün nəsihət" deyildikdə, idarəçilikdə onlara dəstək vermək, bixəbər olduqları məsələlərdən onları agah etmək, səhvlərini gördükdə onlara yaltaqlanmamaq, əksinə, bu səhvi hikmətlə onlara başa salmaq, onların *şəriətə müvafiq olan* bir sözünü iki eləməmək, onları camaata sevdirmək və gözəl tərzdə onları zülm etməkdən çəkindirmək qəsd edilir. Qeyd etmək lazımdır ki, rəhbərlər deyildikdə bura alimlər də aid edilir və onlara nəsihət etmək deyildikdə elmlərinə ehtiram göstərmək, onların yaxşı əməlləri barədə danışmaq və barələrində yaxşı zənn etmək nəzərdə tutulur (Fəthul əl-Bari, 1/89). Əbu Muhəmməd əl-Bərbəhari demişdir: "Bir adamın ixtiyar sahiblərinə bəddua etdiyini görsən, bil ki, o, nəfsinin istəklərinə uymuş kimsələrdəndir. Habelə, bir kimsənin Allahdan ixtiyar sahiblərinin islah olunmasını dilədiyini görsən, bil ki, o, Sünnə əhlindəndir inşaAllah." Həmçinin, rəvayət edilir ki, Fudeyl ibn İyad demişdir: "Bilsəydim ki, mənim bir duam qəbul olacaq, onu ixtiyar sahibinin islah olunmasına yönəldərdim" (Şərhus-Sünnə, 116). Peyğəmbər ﷺ demişdir: "Üç xislət vardır ki, bunları özündə cəm edən möminin qəlbi əsla dönük çıxmaz: əməli səmimi-qəlbdən Allah üçün etmək, müsəlmanların rəhbərlə-

**٤٤٣-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ مَنْصُورٍ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ زَكَرِيَّا، عَنْ عَمْرِو بْنِ قَيْسٍ الْمُلَائِيِّ، عَنِ الْمِنْهَالِ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ، فِي قَوْلِهِ عَزَّ وَجَلَّ: ﴿وَمَا أَنْفَقْتُمْ مِنْ شَيْءٍ فَهُوَ يُخْلِفُهُ وَهُوَ خَيْرُ الرَّازِقِينَ﴾، قَالَ: فِي غَيْرِ إِسْرَافٍ، ولا تَقْتِيرٍ.

**(443)** ........ İbn Abbas ﵄ izzət və cəlal sahibi Allahın **"Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!"**[4] ayəsini (**"nə xərcləsəniz"** sözünü) izah edib demişdir: "İsrafçılıq və xəsislik etmədən (xərcləsəniz).[5]"[6]

---

rinə nəsihət etmək və müsəlman camaatdan ayrılmamaq" (Musnəd İmam Əhməd, 5/183; Silsilətul-Əhadisis-Səhihə, 404); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim öz rəhbərinin xoşagəlməz bir hərəkətini görsə, qoy buna səbir etsin. Çünki kim *müsəlman* camaatından bircə qarış kənara çıxıb ölərsə, cahilliyyət dövründə olduğu kimi ölmüş olar" (Səhih əl-Buxari, 7054); digər hədisdə o, demişdir: "Allahdan qorxun, beş vaxt namazlarınızı qılın, ramazan ayının orucunu tutun, malınızın zəkatını verin və (müsəlman) rəhbərinizə itaət edin, beləliklə də, Rəbbinizin Cənnətinə daxil olarsınız" (Sunən ət-Tirmizi, 2/516; Silsilətul-Əhadisis-Səhihə, 867).

[1] 322-ci və 425-ci hədislərin qeydlərinə bax.

[2] 16-cı hədisin qeydlərinə bax.

[3] Bu hədisi Muslim (5/130) və Əhməd (2/327, 360 və 367) rəvayət etmişdir.

[4] "Səba" surəsi, 39.

[5] Bu, möminə xas olan xislətlərdəndir. Uca Allah Quranda möminləri vəsf edərkən belə buyurur: **"Onlar *mallarını* xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar"** (əl-Furqan, 67)

[6] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٠٨- بَابُ الْمُبَذِّرِينَ

## 208-ci fəsil. İsrafçılar

**٤٤٤-** حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ سَلَمَةَ، عَنْ مُسْلِمٍ الْبَطِينِ، عَنْ أَبِي الْعُبَيْدَيْنِ قَالَ: سَأَلْتُ عَبْدَ اللَّهِ عَنِ الْمُبَذِّرِينَ، قَالَ: الَّذِينَ يُنْفِقُونَ فِي غَيْرِ حَقٍّ.

**(444)** ........ Əbul-Ubeydeyn[1] demişdir: “Mən Abdullahdan[2] israfçılar barədə soruşdum. O, dedi: “*Bunlar* malını haqsız yerə[3] xərcləyənlərdir.”[4]

**٤٤٥-** حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا هُشَيْمٌ قَالَ: حَدَّثَنَا حُصَيْنٌ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ: ﴿الْمُبَذِّرِينَ﴾، قَالَ: الْمُبَذِّرِينَ فِي غَيْرِ حَقٍّ.

**(445)** ........ İbn Abbas ﵄: **“İsrafçılar”**[5] kəlməsini izah edib demişdir: “*Yəni* malını haqsız yerə xərcləyənlər.”[6]

---

[1] Əbul-Ubeydeyn tabiindir – Abdullah ibn Məsudun ﵁ tələbələrindəndir.

[2] Bu, Peyğəmbərin ﷺ məşhur səhabəsi Abdullah ibn Məsuddur ﵁.

[3] Burada “haqsız yerə” deyildikdə, malını haram işlərə yaxud əbəs, heç bir ehtiyac olmadan, səmərəsiz və mənasız yerə sərf etmək qəsd edilir. Haqqı nahaqdan ayırd edən meyar isə İslam şəriətidir – başqa cür desək, Quran və Sünnədir.

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[5] “əl-İsra” surəsi, 27.

[6] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən” olduğunu demişdir.

## ٢٠٩- بَابُ إِصْلاحِ الْمَنَازِلِ

## 209-cu fəsil. Mənzilləri sahmana salmaq[1]

٤٤٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا اللَّيْثُ قَالَ: حَدَّثَنَا ابْنُ عَجْلانَ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ أَبِيهِ قَالَ: كَانَ عُمَرُ يَقُولُ عَلَى الْمِنْبَرِ: يَا أَيُّهَا النَّاسُ، أَصْلِحُوا عَلَيْكُمْ مَثَاوِيكُمْ، وَأَخِيفُوا هَذِهِ الْجِنَّانَ قَبْلَ أَنْ تُخِيفَكُمْ، فَإِنَّهُ لَنْ يَبْدُوَ لَكُمْ مُسْلِمُوهَا، وَإِنَّا وَاللَّهِ مَا سَالَمْنَاهُنَّ مُنْذُ عَادَيْنَاهُنَّ.

**(446)** ........ Ömər ﷛ minbərdə (xütbə verərkən) deyərdi:[2] "Ey insanlar, evlərinizi[3] sahmana salın! Cinlər sizi qorxutmazdan əvvəl siz onları qorxudun.[4] Onlardan müsəlman olanlar sizin qarşınıza çıxmazlar. Vallahi ki, biz onlarla düşmənçilik etdiyimiz gündən bəri onlarla aranı düzəltməmişik."

---

[1] Sahmana salmaq: yəni hər şeyi öz yerində düzgün yerləşdirmək.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demiş və bu hədisin son cümləsinin Peyğəmbərin ﷺ sözü olduğunu qeyd etmişdir. Əbu Hureyrənin ﷛ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Biz ilanlarla düşmənçilik etdiyimiz gündən bəri onlarla aranı düzəltməmişik. (Bu ilanlardan) çəkinib onları öldürməyən kimsə bizdən deyildir" (Sunən Əbu Davud, 5248; Musnəd Əhməd, 2/432; Səhih Tərğib vət-Tərhib, 2983).

[3] Hər bir müsəlman yaşadığı evin qədrini bilməli, onu viran qoymamalı və bu böyük nemətə görə Rəbbinə daim şükürlər etməlidir. Peyğəmbər ﷺ hər gecə yatağına girdiyi zaman dua edib deyərdi:

(( الْحَمْدُ لِلهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا، وَكَفَانَا، وَآوَانَا، فَكَمْ مِمَّنْ لاَ كَافِيَ لَهُ وَلاَ مُؤْوِيَ ))

"Əlhəmdulilləhil-ləzi ət'amənə və səqanə və kəfanə və əvanə, fəkəm mimmən lə kafiyə ləhu və lə muviyə! (Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə insanlar vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq verəni vardır!)" (Səhih Muslim, 2715).

[4] Burada "cinlər" deyildikdə, evə gələn ilanlar nəzərdə tutulur. Bununla Ömər ibn Xattab ﷛ insanlara ev ilanlarından qorxmamağı, əksinə, lazım gəldiyi təqdirdə onları öldürməyi tövsiyə edir. Buna dair varid olmuş hədisdə İbn Ömər ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ minbərdə xütbə verərkən belə byurmuşdur: "İlanları öldürün! Belində iki zolağı olan ilanları, habelə, quyruğukəsik ilanları öldürün! Çünki bu ikisi adamın gözləri-

ni kor edir və hamilə qadının bətnindəki uşağı salır." Abdullah ibn Ömər (rəvayətinə davam edib) dedi: "Mən öldürmək üçün bir ilanın dalınca düşdüyüm zaman Əbu Lubabə məni səsləyib dedi: "Onu öldürmə!" Dedim: "Axı Peyğəmbər ﷺ ilanları öldürməyi əmr etmişdir?!" Əbu Lubabə dedi: "Lakin bu əmrindən sonra o, ev ilanlarını öldürməyi qadağan etmişdir" (Səhih əl-Buxari, 3297-3298). Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mədinədə İslamı qəbul etmiş bir dəstə cin vardır. Kim bu ev ilanlarından birini görsə, qoy üç kərə (üç gün) ona möhlət versin. Və əgər bundan sonra yenə onun gözünə görünərsə, onu öldürsün. Çünki o, şeytandır" (Səhih, Muslim, 2236; SunənƏbu Davud, 5258). Abdul-Muhsin Abbad demişdir: "Yəni adam evə gələn ilana dəyməməli, üç gün ərzində üç kərə – hər gün bir kərə və ya bir gün ərzində üç kərə: "Çıxıb getməsən, səni öldürəcəm"– deməli, nəhayət, üç gün tamam olduqdan sonra yenə onun gözünə görünərsə, onu öldürməlidir (Şərh Sunən Əbu Davud).

## ٢١٠ – بَابُ النَّفَقَةِ فِي الْبِنَاءِ

## 210-cu fəsil. Binaya xərclənən vəsait

٤٤٧ – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُوسَى، عَنْ إِسْرَائِيلَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ حَارِثَةَ بْنِ مُضَرِّبٍ، عَنْ خَبَّابٍ قَالَ: إِنَّ الرَّجُلَ لَيُؤْجَرُ فِي كُلِّ شَيْءٍ، إِلا الْبِنَاءَ.

**(447)** ........ Xəbbab[1] ﷺ demişdir: "İnsan binaya xərclədiyindən[2] başqa, hər bir şeydə savab qazanır."[3]

---

[1] Əbu Yəhya Xəbbab ibn Ərat ibn Cəndələ ət-Təmimi ﷺ İslamı ilk əvvəl qəbul etmiş məşhur səhabələrdəndir.

[2] Səhabənin sözündən aydın olur ki, adam binaya qoyduğu xərcə görə savab qazanmır. Bəs günah necə, qazanırmı? Bu sualın cavabı belədir ki, əgər adam bunu özünü göstərmək və təkəbbürlük etmək məqsədilə edərsə, habelə, lüzumsuz yerə onu hündür edərsə və ya içində istifadə etməyəcəyi artıq otaqlar tikərsə, əlbəttə ki, həm niyyətinə, həm də israfa yol verdiyinə görə günah qazanar (116-cı hədisin qeydlərinə bax). Onu da qeyd etmək lazımdır ki, əgər adam özünün və ailəsinin rahatlağı üçün ev tikər və onu bina edərkən israfa yol verməzsə, savab qazanar. Həmçinin, adam Allahın rizasını qazanmaq məqsədilə ehtiyacı olan insanlar üçün – yetimlər, dul qadınlar, kimsəsiz qocalar, məcburi köçkünlər və s. üçün tikdiyi hər tikiliyə görə savab qazanır. Allah yolunda məscid tikmək də buna aiddir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Kim Allahın Üzünü diləyərək, bir məscid tiksə, Allah onun üçün Cənnətdə buna bənzər (bir ev) tikər" (Səhih əl-Buxari, 450).

[3] Bu əsəri Buxari (5672), Təbərani (Mocəmul-Kəbir, 4/70/3633) və Əbu Nueym (Hilyə, 1/146) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2831) demişdir: "Bu əsər "movquf" isnadla, yəni yalnız Xəbbaba ﷺ istinad edilərək rəvayət edilsə də, mən bunun "mərfu" hökmündə, yəni Peyğəmbərin ﷺ sözü olduğunu düşünürəm. Təbəraninin "Mocəmul-Kəbir" əsərində (4/73/3641) rəvayət etdiyi hədisdə Xəbbab ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Adam xərclədiyi hər bir şeyə görə savab qazanır. Yalnız binaya qoyduğu vəsaitdən başqa" (Səhih əl-Cami, 4566).

## ٢١١- بَابُ عَمَلِ الرَّجُلِ مَعَ عُمَّالِهِ

## 211-ci fəsil. Adamın öz işçiləri ilə birgə işləməsi[1]

٤٤٨- حَدَّثَنَا أَبُو حَفْصِ بْنُ عَلِيٍّ قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ وَهْبٍ الطَّائِفِيُّ قَالَ: حَدَّثَنَا غُطَيْفُ بْنُ أَبِي سُفْيَانَ، أَنَّ نَافِعَ بْنَ عَاصِمٍ أَخْبَرَهُ، أَنَّهُ سَمِعَ عَبْدَ اللَّهِ بْنَ عَمْرٍو قَالَ لِابْنِ أَخٍ لَهُ خَرَجَ مِنَ الْوَهْطِ: أَيَعْمَلُ عُمَّالُكَ؟ قَالَ: لَا أَدْرِي، قَالَ: أَمَا لَوْ كُنْتَ ثَقَفِيًّا لَعَلِمْتَ مَا يَعْمَلُ عُمَّالُكَ، ثُمَّ الْتَفَتَ إِلَيْنَا فَقَالَ: إِنَّ الرَّجُلَ إِذَا عَمِلَ مَعَ عُمَّالِهِ فِي دَارِهِ، وَقَالَ أَبُو عَاصِمٍ مَرَّةً: فِي مَالِهِ، كَانَ عَامِلًا مِنْ عُمَّالِ اللَّهِ عَزَّ وَجَلَّ.

**(448)** ........ Abdullah ibn Amr ﷺ qardaşı oğlunun bostandan çıxdığını görüb ondan: "İşçilərin işləyirmi?"– deyə soruşdu. O: "Bilmirəm!"– deyə cavab verdi. *Abdullah* dedi: "Səqəfli[2] olsaydın, işçilərinin nə işlə məşğul olduğunu bilərdin." Sonra o, bizə tərəf döndü və dedi: "Adam işçiləri ilə birgə öz evində[3] işlədiyi təqdirdə, Allahın ﷻ işçilərindən hesab olunar."[4]

---

[1] Adamın öz işçiləri ilə birgə işləməsi onun təvazökar insan olduğuna dəlalət edir. Burada "işləməsi" deyildikdə, işlə bağlı olan bütün işlər – fəhlələrə nəzarət etmək, onların yemək-içməyini təmin etmək, habelə, onlara kömək göstərmək və başqa bu kimi işlər nəzərdə tutulur.

[2] Burada "səqəfli" deyildikdə, məşhur Bənu-Səqif qəbiləsinə mənsub olan kimsələr nəzərdə tutulur. Bənu-Səqif qəbiləsindən olanlar başqalarına nisbətən əkinçiliklə daha çox məşğul olduqlarına görə Abdullah ibn Amr ibn As ﷺ onları misal çəkmişdir.

[3] Bu hədisin ravisi Əbu Asim: "öz mülkündə"– demişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢١٢- بَابُ التَّطَاوُلِ فِي الْبُنْيَانِ

## 212-ci fəsil. Hündür binalar tikməkdə rəqabət aparmaq[1]

٤٤٩- حَدَّثَنَا إِسْمَاعِيلُ، حَدَّثَنِي ابْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ الرَّحْمَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((لاَ تَقُومُ السَّاعَةُ حَتَّى يَتَطَاوَلَ النَّاسُ فِي الْبُنْيَانِ)).

**(449)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlar[2] hündür binalar tikməkdə bir-biri ilə rəqabət aparmayınca Qiyamət qopmayacaq."[3]

٤٥٠- أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا حُرَيْثُ بْنُ السَّائِبِ قَالَ: سَمِعْتُ الْحَسَنَ يَقُولُ: كُنْتُ أَدْخُلُ بُيُوتَ أَزْوَاجِ النَّبِيِّ ﷺ فِي خِلاَفَةِ عُثْمَانَ بْنِ عَفَّانَ فَأَتَنَاوَلُ سُقُفَهَا بِيَدِي.

**(450)** ........ Həsən (əl-Bəsri) demişdir: "Mən Osman ibn Əffanın xilafəti dövründə Peyğəmbərin ﷺ zövcələrinin hücrələrinə[4] daxil olar və əlimi bu hücrələrin tavanlarına sürtərdim.[5]"[6]

---

[1] Hündür binalar tikməkdə rəqabət aparan kimsələr əksər hallarda bunu özlərini göstərmək, ad-san qazanmaq və başqa bu kimi batil niyyətlərlə edirlər.

[2] Qeyd edək ki, bu əlamət Qiyamətin kiçik əlamətlərindən sayılır. İmam Buxarinin öz "Səhih"ində rəvayət etdiyi bu hədisin tam variantında Qiyamətin bəzi başqa əlamətləri də qeyd edilmişdir (Bax: Səhih əl-Buxari, 7121). Həmçinin, məşhur hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ Cəbrailin ﵇: "Mənə Qiyamətin əlamətləri haqqında xəbər ver" sualına belə cavab vermişdir: "Sən ayaqyalın, çılpaq və kasıb çobanların hündür binalar tikməkdə yarışdıqlarını görəcəksən" (Səhih Muslim, 93).

[3] Bu hədisi Buxari öz "Səhih"ində də (7121) rəvayət etmişdir.

[4] Hücrə: məscid, təkyə, karvansara və s. yanındakı kiçik otaqlardan hər biri.

[5] İmam Buxari bu rəvayəti varid etməklə Peyğəmbərin ﷺ dolanışığının nə cür olduğunu xəbər verir ki, Peyğəmbərin ﷺ yolunu gedən mömin adam bundan ibrət götürsün, onun kimi təvazökar olsun. Onu da qeyd edək ki, səhabənin bu hücrələrin tavanına əlini sürtməsi, Peyğəmbərin ﷺ evinin sadə olmasına dəlalət edir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**٤٥١**– وَبِالسَّنَدِ عَنْ عَبْدِ اللَّهِ قَالَ: أَخْبَرَنَا دَاوُدُ بْنُ قَيْسٍ قَالَ: رَأَيْتُ الْحُجُرَاتِ مِنْ جَرِيدِ النَّخْلِ مُغَشًّيًّا مِنْ خَارِجٍ بِمُسُوحِ الشَّعْرِ، وَأَظُنُّ عَرْضَ الْبَيْتِ مِنْ بَابِ الْحُجْرَةِ إِلَى بَابِ الْبَيْتِ نَحْوًا مِنْ سِتِّ أَوْ سَبْعِ أَذْرُعٍ، وَأَحْزُرُ الْبَيْتَ الدَّاخِلَ عَشْرَ أَذْرُعٍ، وَأَظُنُّ سَمْكَهُ بَيْنَ الثَّمَانِ وَالسَّبْعِ نَحْوَ ذَلِكَ، وَوَقَفْتُ عِنْدَ بَابِ عَائِشَةَ فَإِذَا هُوَ مُسْتَقْبِلٌ الْمَغْرِبَ.

**(451)** ........ Davud ibn Qeys demişdir: "Mən o hücrələri görmüşəm.[1] Bu hücrələrin divarı xurma ağaçının budaqlarından hörülmüş, çöl tərəfdən də içinə *heyvan* tükü qatışdırılmış palçıqla suvanmışdı. Güman edirəm ki, evin eni, hücrənin qapısından evin qapısına qədər təqribən altı və ya yeddi ərəş,[2] uzunu isə on ərəş idi. Və güman edirəm ki, hündürlüyü yeddi və səkkiz ərəş arasında, ya da buna yaxın hündürlükdə idi. Mən Aişənin *evinin* qapısında durdum və gördüm ki, bu qapı günbatan tərəfə açılır.[3]"[4]

**٤٥٢**– وَبِالسَّنَدِ عَنْ عَبْدِ اللَّهِ قَالَ: أَخْبَرَنَا عَلِيُّ بْنُ مَسْعَدَةَ، عَنْ عَبْدِ اللَّهِ الرُّومِيِّ قَالَ: دَخَلْتُ عَلَى أُمِّ طَلْقٍ فَقُلْتُ: مَا أَقْصَرَ سَقْفَ بَيْتِكِ هَذَا؟ قَالَتْ: يَا بُنَيَّ إِنَّ أَمِيرَ الْمُؤْمِنِينَ عُمَرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ كَتَبَ إِلَى عُمَّالِهِ: أَنْ لاَ تُطِيلُوا بِنَاءَكُمْ، فَإِنَّهُ مِنْ شَرِّ أَيَّامِكُمْ.

**(452)** ........ Abdullah ər-Rumi demişdir: "(Bir gün) mən Ummu Təlqin evinə daxil oldum və: "Sənin evinin tavanı necə də alçaqdır!"– dedim. O,

---

[1] Burada Peyğəmbərin ﷺ zövcələrinin hücrələri nəzərdə tutulur.

[2] Ərəş: dirsəkdən barmaqların ucuna qədər uzunluqda olan qədim ölçü.

[3] Məlumdur ki, bu hücrələr şərq tərəfdə yerləşirdi. Qapının günbatan tərəfə açılması, Peyğəmbərin ﷺ məscidinə açılması deməkdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir. Bu əsər Peyğəmbərin ﷺ evinin nə dərəcə balaca olduğundan xəbər verir. Buna dəlalət edən bir hədisdə Peyğəmbərin ﷺ zövcəsi Aişə رضي الله عنها demişdir: "Mən Peyğəmbərin ﷺ qarşısında ayaqlarımı onun qibləsinə tərəf *uzadıb* yatardım. O, səcdəyə getdikdə *əlini* mənə toxundurar və mən ayaqlarımı yığardım, *səcdədən* qalxdıqda isə onları uzadardım" (Səhih əl-Buxari, 382).

dedi: "Oğlum! Möminlərin əmiri Ömər ibn Xattab ﵁ öz işçilərinə[1] belə bir məktub yazmışdır: "Binalarınızı hündür tikməyin! Çünki bu, pis günlərinizdən sayılacaq.[2]"[3]

---

[1] Burada "işçilər" deyildikdə, valilər nəzərdə tutulur.

[2] Bu dünyada vaxtını bihudə işlərə sərf edən hər kəs Qiyamət günü peşman olacaq. Yəni adam bu həyatda əbəs yerə böyük ev tikməkdənsə, Axirəti üçün hazırlıq görsə bu, onun xeyrinə olar. Bu xüsusda neçə-neçə hədislər varid olmuşdur. Həmin hədislərin birində Rəsulullah ﷺ demişdir: "Kim Allah xatirinə bir məscid tikərsə, Allah onun üçün Cənnətdə buna bənzər bir ev tikər" (Səhih Muslim, 1190); başqa bir hədisdə o, demişdir: "Allah üçün hər gün fərz namazlarından əlavə on iki rükət nafilə namazı qılan elə bir müsəlman yoxdur ki, Allah onun üçün Cənnətdə bir ev bina etməsin" (Səhih Muslim, 1696); digər bir hədisdə o, demişdir: "Kim "əl-İxlas" surəsini on dəfə oxuyarsa, Allah onun üçün Cənnətdə bir qəsr bina edər" (Musnəd Əhməd, 5/437; Silsilətul-Əhadisis-Səhihə, 589).

[3] Bu hədisin isnadında keçən Abdullah ər-Rumi və Ummu Təlq "kimliyi bəlli olmayan" ravilərdir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٢١٣- بَابُ مَنْ بَنَى

## 213-cü fəsil. Ev tikən adam

**٤٥٣-** حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا جَرِيرُ بْنُ حَازِمٍ، عَنِ الأَعْمَشِ، عَنْ سَلاَّمِ بْنِ شَرَحْبِيلَ، عَنْ حَبَّةَ بْنِ خَالِدٍ، وَسَوَاءَ بْنِ خَالِدٍ، أَنَّهُمَا أَتَيَا النَّبِيَّ ﷺ وَهُوَ يُعَالِجُ حَائِطًا أَوْ بِنَاءً لَهُ، فَأَعَانَاهُ.

**(453)** ........ Səllam ibn Şərəhbil rəvayət etmişdir ki, Peyğəmbər ﷺ (evinin) divarını yaxud özünə aid olan bir tikilini düzəldərkən Həbbə ibn Xalid və Səva ibn Xalid onun yanına gəlib ona yardım etmişlər.[1]

**٤٥٤-** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ إِسْمَاعِيلَ بْنِ أَبِي خَالِدٍ، عَنْ قَيْسِ بْنِ أَبِي حَازِمٍ قَالَ: دَخَلْنَا عَلَى خَبَّابٍ نَعُودُهُ، وَقَدِ اكْتَوَى سَبْعَ كَيَّاتٍ، فَقَالَ: إِنَّ أَصْحَابَنَا الَّذِينَ سَلَفُوا مَضَوْا وَلَمْ تُنْقِصْهُمُ الدُّنْيَا، وَإِنَّا أَصَبْنَا مَا لاَ نَجِدُ لَهُ مَوْضِعًا إِلاَّ التُّرَابَ، وَلَوْلاَ أَنَّ النَّبِيَّ ﷺ نَهَانَا أَنْ نَدْعُوَ بِالْمَوْتِ لَدَعَوْتُ بِهِ.

**(454)** ........ Qeys ibn Əbu Hazim demişdir: "Biz Xəbbaba baş çəkmək üçün onun yanına gəldik. O, artıq yeddi dəfə öz bədəninə dağ basmışdı.[2] O, dedi: "Bizdən əvvəl həyatla vidalaşmış qardaşlarımıza gəlincə, bu dün-

---

[1] Bu hədisin isnadında keçən Səllam ibn Şərəhbil "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[2] Bədənə dağ basmaq xüsusunda İbn Qeyyim demişdir: "Bədənə dağ basmaq xüsusunda varid olmuş hədislər dörd qismə bölünür: birincisi, Peyğəmbərin ﷺ elədiyi; ikincisi, xoşlamadığı; üçüncüsü, bunu tərk edəni tərifləməsi və dördüncüsü, qadağan edilməsi barədə varid olanlar. Allaha həmd olsun ki, bu hədislər arasında heç bir ziddiyyət yoxdur. Peyğəmbərin ﷺ bunu etməsi bu əməlin caiz olmasına dəlalət edir. Bəyənilməməsi isə qadağan edilməsinə dəlalət etmir. Onun bu əməli tərk edəni tərifləməsi onu tərk etməyin daha əfzəl olması deməkdir. Qadağan edilməsi isə zərurət olmadıqda bunu etməyə aiddir" (Zadul-Məad, 4/65).

ya onların *Axirət savabından* heç bir şey əksiltməmişdir.[1] Biz isə əlimizdə olan imkanları torpağa xərcləməkdən başqa bir şey bilmirik. Əgər Peyğəmbər ﷺ bizə ölüm diləməyi qadağan etməsəydi,[2] özümə ölüm diləyərdim."[3]

---

[1] Xəbbab ibn Ərat ؓ demək istəyir ki, İslamın ilkin dövründə səhabələrin əksəriyyəti çox kasıb olmuş və onlardan bəziləri elə kasıb ikən dünyadan köçmüşlər. Məmləkətlər fəth edildikdən sonra isə onlar çoxlu qənimətlər əldə etmiş və bunların sayəsində onlar sərvət sahibləri olmuşlar. Əvvəlkilərin kasıb olması və belə halda dünyadan köçməsi onların savabını azaltmamışdır. Digər rəvayətdə Xəbbab ؓ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə Allahın Üzünü diləyərək *Məkkədən Mədinəyə* hicrət etdik və *buna görə də* Allah bizi mükafatlandırdı. Bizlərdən kimisi *bu dünyada* öz mükafatından dadmadan ölüb getdi. Musab ibn Umeyr o kimsələrdən idi. Kimisinin də mükafatı öz bəhrəsini vermiş və o, *indiyədək* onu yığmaqdadır. *Musab ibn Umeyr* Uhud döyüşündə şəhid oldu. Biz onu kəfənləmək üçün *onun əynindəki* libasdan başqa bir şey tapa bilmədik. Bu libasla onun baş tərəfini örtürdük, ayaqları açıq qalırdı, ayaqlarını örtürdük, başı açıq qalırdı. Onda Peyğəmbər ﷺ bizə *bu libasla* onun baş tərəfini örtməyi, ayaqlarının üstünə də ətirli qamış qoymağı əmr etdi" (Səhih əl-Buxari, 1276); başqa bir rəvayətdə İbrahim demişdir: "*Bir gün* Abdur-Rəhman ibn Auf ؓ oruc ikən ona yemək gətirdilər. Onda Abdur-Rəhman dedi: "*Qardaşım* Musab ibn Umeyr *Uhud döyüşündə* şəhid oldu. *Düşünürəm ki,* o məndən daha xeyirlidir. Onu elə bir bürüncəkdə dəfn etdilər ki, bu bürüncəyi onun ayaqlarına örtdükdə, başı açıq qalırdı, başını örtdükdə isə ayaqları açıq qalırdı. Həmçinin, Həmzə də *o döyüşdə* şəhid oldu. O da, məndən xeyirlidir. Sonra isə bizə bu gördüyünüz dünya malından əta edildi. Qorxuram, bu nemətlər bizə yalnız bu dünyada verilmiş olsun." Sonra Abdur-Rəhman ağlamağa başladı və bu yeməyi yemədi" (Səhih əl-Buxari, 1196). Bu rəvayətlərdən aydın olur ki, dünya malı artdıqca, insanın məşğuliyyəti də artır. Dünyaya həris olmaq isə adamı Axirəti yada salmaqdan yayındırır.

[2] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən heç kəs başına gəlmiş bir müsibətə görə özünə ölüm diləməsin! Əgər çıxılmaz vəziyyətdə qalarsa, qoy desin:

(( اللَّهُمَّ أَحْيِنِي مَا كَانَتْ الْحَيَاةُ خَيْرًا لِي وَتَوَفَّنِي إِذَا كَانَتْ الْوَفَاةُ خَيْرًا لِي ))

"Allahummə, əhyini mə kanətil-hayətu xeyran li və təvaffəni izə kanətil-vəfatu xeyran li! (Allahım, bu həyatda yaşamağım mənim üçün xeyirlidirsə, məni yaşat, yox, ölümüm mənim üçün xeyirlidirsə, onda, məni öldür!)" (Səhih əl-Buxari, 5671); digər hədisdə o, demişdir: "Sizdən heç kəs özünə ölüm diləməsin. Əgər o, (həyatda qalarsa,) əməlisaleh adamdırsa, yaxşı işlər görüb savabını artırar, yox, günahkar adamdırsa, ola bilər ki, tövbə etsin" (Səhih əl-Buxari, 5673).

[3] Bu hədisi Buxari öz "Səhih"ində də (5672) rəvayət etmişdir.

**٤٥٥-** ثُمَّ أَتَيْنَاهُ مَرَّةً أُخْرَى، وَهُوَ يَبْنِي حَائِطًا لَهُ، فَقَالَ: إِنَّ الْمُسْلِمَ يُؤْجَرُ فِي كُلِّ شَيْءٍ يُنْفِقُهُ إِلاَّ فِي شَيْءٍ يَجْعَلُهُ فِي التُّرَابِ.

**(455)** ........ Qeys demişdir: Bir müddətdən sonra biz yenə ona baş çəkməyə getdik və gəlib gördük ki, o, evinin divarını tikir. (Xəbbab bizi görəndə) dedi: "Müsəlman bəndə (ehtiyacından əlavə) torpağa qoyduğu xərcdən başqa xərclədiyi hər bir şeyə görə savab qazanır.[1]"[2]

**٤٥٦-** حَدَّثَنَا عُمَرُ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا أَبُو السَّفَرِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: مَرَّ النَّبِيُّ ﷺ، وَأَنَا أُصْلِحُ خُصًّا لَنَا، فَقَالَ: ((مَا هَذَا؟)) قُلْتُ: أُصْلِحُ خُصَّنَا يَا رَسُولَ اللَّهِ، فَقَالَ: ((الأَمْرُ أَسْرَعُ مِنْ ذَلِكَ)).

**(456)** ........ Abdullah ibn Amr ﷻ demişdir: "(Bir gün) mən komamızı düzəldərkən Peyğəmbər ﷺ gəlib yanımdan keçdi və: "Bu nədir?"– deyə soruşdu. Mən dedim: "Komamızı düzəldirəm, ya Rəsulullah!" O, dedi: "Əcəlin gəlişi bunun yıxılmasından daha tezdir![3]"[4]

---

[1] 447-ci hədisin qeydlərinə bax.

[2] Bu, əvvəlki hədisin davamıdır.

[3] Peyğəmbərin ﷺ bu sözləri o demək deyil ki, adam tərkidünya olmalı, dünya işləri ilə məşğul olmamalıdır. Əksinə, adam boynunda haqqı olan kimsənin haqqını ödəməlidir. Burada Peyğəmbər ﷺ öz səhabəsinə qəlbini belə işlərə bağlamamağı, dünyaya həris olmamağı, əksinə, Axirət yurdunu gözəlləşdirməyi tövsiyə edir. Hədislərin birində rəvayət edilir ki, Abdullah ibn Ömər ﷻ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ mənim çiynimdən tutub dedi: "Dünyada bir qərib yaxud bir müsafir kimi ol!"

İbn Ömər (bu hədisi danışandan sonra) deyərdi: "Axşama çıxdığın zaman səhərə sağ qalacağına, səhərə çıxdığın zaman da axşama sağ qalacağına arxayın olma! Xəstələnənədək sağlamlığından və ölənədək həyatından istifadə et!" (Səhih əl-Buxari, 6416).

[4] Bu hədisi Əbu Davud (5235) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢١٤- بَابُ الْمَسْكَنِ الْوَاسِعِ

### 214-cü fəsil. Geniş ev

**٤٥٧-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ وَقَبِيصَةُ قَالاَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ، عَنْ خَمِيلٍ، عَنْ نَافِعِ بْنِ عَبْدِ الْحَارِثِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مِنْ سَعَادَةِ الْمَرْءِ الْمَسْكَنُ الْوَاسِعُ، وَالْجَارُ الصَّالِحُ، وَالْمَرْكَبُ الْهَنِيءُ)).

**(457)** ........ Nafi ibn Abdul-Haris ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Geniş ev, əməlisaleh qonşu və rahat minik insanın səadətidir."[1]

---

[1] 116-cı hədisin qeydlərinə bax.

# ٢١٥- بَابُ مَنِ اتَّخَذَ الْغُرَفَ

## 215-ci fəsil. Otaqlar tikmək

٤٥٨- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا الضَّحَّاكُ بْنُ نِبْرَاسٍ أَبُو الْحَسَنِ، عَنْ ثَابِتٍ، أَنَّهُ كَانَ مَعَ أَنَسٍ بِالزَّاوِيَةِ فَوْقَ غُرْفَةٍ لَهُ، فَسَمِعَ الأَذَانَ، فَنَزَلَ وَنَزَلْتُ، فَقَارَبَ فِي الْخُطَا فَقَالَ: كُنْتُ مَعَ زَيْدِ بْنِ ثَابِتٍ فَمَشَى بِي هَذِهِ الْمِشْيَةَ وَقَالَ: أَتَدْرِي لِمَ فَعَلْتُ بِكَ؟ فَإِنَّ النَّبِيَّ ﷺ مَشَى بِي هَذِهِ الْمِشْيَةَ وَقَالَ: ((أَتَدْرِي لِمَ مَشَيْتُ بِكَ؟)) قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: ((لِيَكْثُرَ عَدَدُ خُطَانَا فِي طَلَبِ الصَّلاَةِ)).

**(458)** ........ Sabit[1] demişdir: "(Bir dəfə) mən Ənəslə birgə onun malikanəsindəki[2] evinin damında ikən Ənəs azanı eşitdi və aşağı endi, mən də (onunla birgə) aşağı endim. O, qısa addımlarla addımlamağa başladı və dedi: "(Bir vaxt) mən Zeyd ibn Sabitin[3] yanında ikən o da, bu cür addımlayıb demişdir: "Bilirsən, mən nə üçün belə etdim?! Çünki mən Peyğəmbərin ﷺ yanında ikən o, bu cür addımlamış və: "Bilirsən mən niyə belə addımladım?"– deyə soruşmuşdur. Mən: "Allah və Onun Rəsulu daha yaxşı

---

[1] Bu, məşhur tabiin Əbu Muhəmməd Sabit ibn Əsləm əl-Bunanidir ﵀. O, Muaviyənin ﵁ xilafəti dövründə dünyaya gəlmişdir. Qırx ilə yaxın Ənəs ibn Malikin ﵁ yanında olmuşdur. Ənəs ﵁ onu tərif edib demişdir: "*Bəzi* insanlar ancaq xeyirxah işlər görməklə məşğuldurlar. Bu Sabit də xeyir qapılarının açarıdır" (Siyər əlamun-Nubələ, 91). Peyğəmbər ﷺ belə insanları müjdələyib demişdir: "İnsanlar arasında elələri vardır ki, onlar xeyir *qapılarını* açan və şər *qapılarını* bağlayan açarlardır. Xeyir qapılarının açarları əlində olan kimsələrin xoş halına!" (Sunən İbn Macə, 237; Silsilətul-Əhadisis-Səhihə, 1332).

[2] İbn Həcər bu yerin Bəsrə yaxınlığında, onun iki fərsəxliyində yerləşdiyini demişdir (Fəthul-Bari, 1/128). Fərsəx: bir fərsəx 5760 metrə bərabərdir.

[3] Zeyd ibn Sabit ﵁ Peyğəmbərin ﷺ vəhy katiblərindən olmuşdur. Rəvayət edilir ki, Ənəs ibn Malik ﵁ demişdir: "Peyğəmbər ﷺ zamanında ənsardan olan dörd nəfər Quranı cəm etməklə məşğul idi: Ubeyy *ibn Kəb*, Muaz ibn Cəbəl, Əbu Zeyd və Zeyd ibn Sabit" (Səhih əl-Buxari, 3810); digər hədisdə rəvayət edilir ki, Zeyd ibn Sabit ﵁ demişdir: "Peyğəmbər ﷺ bu ayəni mənə yazdırmışdır: "Möminlərdən *evdə* oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar..." (Səhih əl-Buxari, 2832).

bilir!”– deyə cavab verdikdə, o, belə buyurmuşdur: “Belə etdim ki, namaza qədər atdığımız addımların sayı çox olsun.[1]”[2]

---

[1] Olsun ki, burada addımların qısa yox, çox olması nəzərdə tutulsun. Peyğəmbər ﷺ demişdir: “*Adamın* camaatla qıldığı namazı öz evində və ya bazarda *fərdi şəkildə* qıldığı namazdan iyirmi beş dəfə artıqdır. Çünki sizlərdən biri lazımi qaydada dəstəmaz alıb, ancaq namaz qılmaq məqsədilə məscidə gəlsə, məscidə daxil olanadək atdığı hər addıma görə Allah onu bir dərəcə yüksəldər və onun bir günahını silər” (Səhih əl-Buxari, 477).

[2] Bu hədisin isnadında keçən Dəhhak ibn Nibras “leyyin” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

## ٢١٦- بَابُ نَقْشِ الْبُنْيَانِ

## 216-cı fəsil. Binalar üzərində naxışlar açmaq

**٤٥٩-** حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي الْفُدَيْكِ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ أَبِي يَحْيَى، عَنِ ابْنِ أَبِي هِنْدَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ تَقُومُ السَّاعَةُ حَتَّى يَبْنِيَ النَّاسُ بُيُوتًا، يُشَبِّهُونَهَا بِالْمَرَاحِلِ)).

قَالَ إِبْرَاهِيمُ : يَعْنِي الثِّيَابَ الْمُخَطَّطَةَ.

**(459)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlar evlər tikib, onları bəzəkli qumaşlara oxşatmayınca, Qiyamət qopmaz."[1]

İbrahim dedi: "Qumaş, üstündə naxışlar olan paltardır."

**٤٦٠-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عُمَيْرٍ، عَنْ وَرَّادٍ كَاتِبِ الْمُغِيرَةِ قَالَ: كَتَبَ مُعَاوِيَةُ إِلَى الْمُغِيرَةِ: اكْتُبْ إِلَيَّ مَا سَمِعْتَ مِنْ رَسُولِ اللَّهِ ﷺ، فَكَتَبَ إِلَيْهِ: إِنَّ نَبِيَّ اللَّهِ ﷺ كَانَ يَقُولُ فِي دُبُرِ كُلِّ صَلاَةٍ: ((لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، اللَّهُمَّ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْكَ الْجَدُّ))، وَكَتَبَ إِلَيْهِ: إِنَّهُ كَانَ يَنْهَى عَنْ قِيلَ وَقَالَ، وَكَثْرَةِ السُّؤَالِ، وَإِضَاعَةِ الْمَالِ. وَكَانَ يَنْهَى عَنْ عُقُوقِ الْأُمَّهَاتِ، وَوَأْدِ الْبَنَاتِ، وَمَنْعٍ وَهَاتِ.

**(460)** ........ Muğiranın ﷺ katibi Vərrad rəvayət edir ki, *bir dəfə* Muaviyə Muğira ibn Şobəyə belə bir məktub yazdı: "Mənə Rəsulullahdan ﷺ eşitdiyin hədislərdən birini yaz." Muğira da ona belə yazdı: "Allahın Peyğəmbəri ﷺ hər *fərz* namazın sonunda[2] deyərdi: "Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləh. Ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir.

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Yəni salamları verib namazı bitirdikdən sonra.

Allahummə, lə maniə limə ə'taytə və lə mu'tiyə limə mənə'tə və lə yənfəu zəl-cəddi minkəl-cədd."[1]

Muğira *davam edib* yazdı: "Peyğəmbər ﷺ dedi-qodu yaymağı, çox sual verməyi, var-dövləti israf etməyi,[2] habelə, anaların üzünə ağ olmağı,[3] qız uşaqlarını diri-diri yerə gömməyi,[4] *yaxşılıq etməkdən* boyun qaçırmağı[5] və "ver"– deyərək *haqqınız olmayan bir şeyi* tələb etməyi qadağan edərdi."[6]

**٤٦١**– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((لَنْ يُنَجِّيَ أَحَدًا مِنْكُمْ عَمَلٌ))، قَالُوا: وَلاَ أَنْتَ يَا رَسُولَ اللَّهِ، قَالَ: ((وَلاَ أَنَا، إِلاَّ أَنْ يَتَغَمَّدَنِي اللَّهُ مِنْهُ بِرَحْمَةٍ، فَسَدِّدُوا وَقَارِبُوا وَاغْدُوا وَرُوحُوا، وَشَيْءٌ مِنَ الدُّلْجَةِ، وَالْقَصْدَ الْقَصْدَ تَبْلُغُوا)).

**(461)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən heç kəsin əməli onu *əzabdan* xilas etməyəcək.[7]" *Səhabələr* soruşdular: "Səni də, ya Rəsulullah?" Dedi: "*Bəli,* məni də. Yalnız, Allahın[8] mənə

---

[1] Tərcüməsi: Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Allahım, Sənin *nemət* verdiyinə mane olacaq, mane olduğuna da *nemət* verəcək *bir kəs* yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz.

[2] Qeyd etmək lazımdır ki, binanı naxışlarla bəzəmək malı israf etməyə aiddir (16-cı hədisin qeydlərinə bax).

[3] 7-ci fəsildəki hədislərə və onların qeydlərinə bax.

[4] 297-ci hədisin qeydlərinə bax.

[5] Yəni xəsislik etməyi.

[6] Bu hədisi Buxari (2408), Muslim (3238) və Əhməd (4/250) rəvayət etmişdir.

[7] Digər rəvayətdə Peyğəmbər ﷺ: "Sizlərdən heç kəsin əməli onu Cənnətə daxil etməyəcək"– demişdir (Səhih Muslim, 2816).

[8] Peyğəmbərin ﷺ bu sözü tövhidə işarədir. Yəni Allahdan başqa heş kəs heç kəsin Cənnətə və ya Cəhənnəmə girməsinə, bağışlanmasına və ya əzaba düçar olmasına hökm verə bilməz. Hökm yalnız Allaha məxsusdur. Bu xüsusda, Uca Allah buyurur: **"O, Öz qulları üzərində mütləq hakimiyyət sahibidir. O sizə gözətçi *mələklər* göndərir. Nəhayət, sizlərdən birinə ölüm gəldiyi zaman elçilərimiz *mələklər* onun canını alırlar və heç bir səhvə yol vermirlər. Sonra onlar özlərinin həqiqi Himayədarı olan Allaha qaytarılacaqlar. Hökm yalnız Ona məxsusdur və O, tez haqq-hesab çəkəndir"** (əl-Ənam, 61-62).

mərhəmət göstərməsi istisnadır.[1] Elə isə, doğru yol tutun, (ən kamil olanı yerinə yetirə bilməsəniz, heç olmasa, ona) yaxınlaşın,[2] səhər, axşam və gecənin bəzi saatlarında (yaxşı işlər görməyə) çalışın. Daim orta yol[3] tutun (ki, muradınıza) çatasınız."[4]

---

[1] Demək, Cənnətə düşmək üçün təkcə əməlisaleh olmaq kifayət etmir. Əməllər, Cənnətə girmək üçün sadəcə səbəbdir. Bundan aydın olur ki, mömin adam öz əməllərinə arxayın olmamalı və yalnız Allahın mərhəmətinə ümid bəsləməlidir. Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "İsrail oğulları arasında (işində) səy göstərən iki nəfər var idi. Onlardan biri günah işlər görür, digəri isə çoxlu ibadət edirdi. Abid adam hər dəfə o birisinin günah işlətdiyini görəndə *ona*: "Əl çək, (bu günahdan)!"– deyərdi. Bir gün onun günah işlətdiyini görüb yenə ona: "Əl çək, (bu günahdan)!"– dedi. O da belə cavab verdi: "Rəbbimlə məni yalnız burax. Olmaya, mənim üstümə nəzarətçi qoyulmusan?" Onda abid dedi: "Vallahi, Allah səni bağışlamayacaq yaxud Allah səni Cənnətə salmayacaq." Nəhayət, (ölüm mələyi) onların canını aldıqdan sonra hər ikisi aləmlərin Rəbbi *olan Allahın* hüzuruna gətirildi və Allah abidə: **"Sən Mənim nə qərar verəcəyimi bilirdinmi?! Yoxsa, Mənə mane ola biləcəyini düşünürdün?!"**– dedi. Günahkara isə: **"Get, Mənim mərhəmətim sayəsində Cənnətə daxil ol!"**– dedi. Sonra abid barədə belə buyurdu: **"Aparın bunu, Cəhənnəmə!"**

Əbu Hureyrə ﷺ dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, o, dediyi bir kəlmə ilə həm dünyasını, həm də Axirətini məhv elədi!" (Sunən Əbu Davud, 4901; Musnəd Əhməd, 2/323; Səhih əl-Cami, 4455).

[2] 254-cü hədisin qeydlərinə bax.

[3] Peyğəmbərin ﷺ bu sözünü bina üzərində naxış açmağa aid edib demək olar ki, bu xüsusda nə israfçılığa yol vetmək, nə də xəsislik etmək olar. Yəni adam özünün və ailəsinin rahatçılığı üçün ev tikməli, lakin bu işdə israfa yol verməməlidir. Quranda orta yol tutanlar belə vəsf olunurlar: **"Mərhəmətli *Allahın* qulları *mallarını* xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar"** (əl-Fuqan, 67).

[4] Bu hədisi Buxari (6463), Muslim (8/140), ən-Nəsai, (2/273), Beyhəqi (3/18) və Əhməd (2/514, 537) rəvayət etmişdir.

## ٢١٧- بَابُ الرِّفْقِ

## 217-ci fəsil. Mülayimlik

٤٦٢- حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُرْوَةَ بْنِ الزُّبَيْرِ، عَنْ عَائِشَةَ زَوْجِ النَّبِيِّ ﷺ قَالَتْ: دَخَلَ رَهْطٌ مِنَ الْيَهُودِ عَلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالُوا: السَّامُ عَلَيْكُمْ، قَالَتْ عَائِشَةُ: فَفَهِمْتُهَا فَقُلْتُ: عَلَيْكُمُ السَّامُ وَاللَّعْنَةُ، قَالَتْ: فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَهْلًا يَا عَائِشَةُ، إِنَّ اللَّهَ يُحِبُّ الرِّفْقَ فِي الأَمْرِ كُلِّهِ))، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَوَ لَمْ تَسْمَعْ مَا قَالُوا؟ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((قَدْ قُلْتُ: وَعَلَيْكُمْ)).

**(462)** ........ Peyğəmbərin ﷺ zövcəsi Aişə رضي الله عنها demişdir: "(Bir gün) bir dəstə yəhudi Rəsulullahın ﷺ yanına gəlib dedi: "Əssamu aleykum[1]" Mən onların nə dediyini başa düşdüm[2] və: "Sizə həm ölüm, həm də lənət olsun!"– dedim. Peyğəmbər ﷺ buyurdu: "Tələsmə, ey Aişə! Şübhəsiz ki, Allah hər bir işdə mülayimliyi sevir." Mən dedim: "Ya Rəsulullah, məgər sən onların nə dediyini eşitmədinmi?!" Rəsulullah ﷺ dedi: "Axı mən də onlara: "Sizə olsun!"– dedim."[3]

٤٦٣- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنِ الأَعْمَشِ، عَنْ تَمِيمِ بْنِ سَلَمَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ هِلَالٍ، عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ يُحْرَمُ الرِّفْقَ يُحْرَمُ الْخَيْرَ)).

**(463)** ........ Cərir ibn Abdullah[4] رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mülayimlikdən məhrum olan kimsə xeyirdən məhrum olar.[5]"

---

[1] Tərcüməsi: ölüm olsun sizə!

[2] Aişə رضي الله عنها demək istəyir ki, onlar "əssəlamu" sözündəki ləm hərfini deməməklə Peyğəmbərə ﷺ ölüm arzuladığını başa düşmüşdür.

[3] 311-ci hədisin qeydlərinə bax.

[4] Bu hədisi Muslim (2592), Əbu Davud (4809), İbn Macə (3687) və Əhməd (4/362) rəvayət etmişdir.

[5] Burada "xeyirdən" deyildikdə, həm bu dünyadakı, həm də Axirətdəki xeyir nəzərdə tutulur. Məsələn, əgər ən gözəl işlərdən biri ilə – dəvətlə məşğul olan kimsə öz işində

(...)– حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنِ الأَعْمَشِ، مِثْلَهُ.

**(...)** Muhəmməd ibn Kəsir demişdir: "Bizə Şobə, Aməşdən bu hədisin bənzərini rəvayət etmişdir."

**٤٦٤**– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ، عَنْ عَمْرٍو، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنْ يَعْلَى بْنِ مَمْلَكٍ، عَنْ أُمِّ الدَّرْدَاءِ، عَنْ أَبِي الدَّرْدَاءِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ أُعْطِيَ حَظَّهُ مِنَ الرِّفْقِ فَقَدْ أُعْطِيَ حَظَّهُ مِنَ الْخَيْرِ، وَمَنْ حُرِمَ حَظَّهُ مِنَ الرِّفْقِ، فَقَدْ حُرِمَ حَظَّهُ مِنَ الْخَيْرِ، أَثْقَلُ شَيْءٍ فِي مِيزَانِ الْمُؤْمِنِ يَوْمَ الْقِيَامَةِ حُسْنُ الْخُلُقِ، وَإِنَّ اللَّهَ لَيُبْغِضُ الْفَاحِشَ الْبَذِيَّ)).

**(464)** ........ Əbu Dərda رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kimə mülayimlikdən nəsibi verilmişsə, ona xeyirdən nəsibi verilmişdir. Kim də mülayimlikdən olan nəsibindən məhrum olmuşsa, xeyirdən olan nəsibindən məhrum olmuşdur."[1] Qiyamət günü möminin tərəzisində ən ağır gələn şey gözəl əxlaq olacaq.[2] Həqiqətən də, Allah kobudluq edən və təhqiramiz sözlər danışan adama nifrət edir.[3]"[4]

---

sərtlik göstərərsə, bunun xeyir-bərəkətindən məhrum olar və ətrafındakılar ondan üz döndərərlər. Quranda Uca Allah Öz Rəsuluna ﷺ belə buyurur: **"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar"** (Ali-İmran, 159); digər ayədə Allah Musaya عليه السلام və Haruna عليه السلام buyurur: **"Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!"** (Ta ha, 43-44).

[1] Yəni xeyir-bərəkət içində olmaq istəyən kimsə mülayim olmağa çalışmalıdır. Çünki kobudluq və tərbiyəsizlik etmək adamı hər cür xeyirdən məhrum edir. Sonrakı cümlədə gözəl əxlaqın xüsusilə vurğulanması o deməkdir ki, gözəl əxlaq sahibi olmaq istəyən kəs mülayim olmalıdır. Elə insana ən böyük xeyiri qazandıran da məhz gözəl əxlaqdır.

[2] 135-ci fəslin və bu fəsildəki hədislərin qeydlərinə bax.

[3] Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, mülayimlikdən qazanılan nəsibindən məhrum olan kəs həm hərəkətində, həm də danışığında ədəbsizliyə yol verər, beləliklə də, Allahın sevgisindən məhrum olar.

[4] Bu hədisi Tirmizi (1/362), Əhməd (6/451) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih li-ğeyrihi" olduğunu demişdir.

**٤٦٥-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عَبْدِ الْوَهَّابِ قَالَ: حَدَّثَنِي أَبُو بَكْرِ بْنُ نَافِعٍ وَاسْمُهُ أَبُو بَكْرٍ مَوْلَى زَيْدِ بْنِ الْخَطَّابِ قَالَ: سَمِعْتُ مُحَمَّدَ بْنَ أَبِي بَكْرِ بْنِ عَمْرِو بْنِ حَزْمٍ قَالَتْ عَمْرَةُ: قَالَتْ عَائِشَةُ: قَالَ النَّبِيُّ ﷺ: ((أَقِيلُوا ذَوِي الْهَيْئَاتِ عَثَرَاتِهِمْ)).

**(465)** ........ Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Fəzilətli şəxslərin[1] xətalarını əfv edin![2]"[3]

**٤٦٦-** حَدَّثَنَا الْغُدَانِيُّ أَحْمَدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا كَثِيرُ بْنُ أَبِي كَثِيرٍ قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَكُونُ الْخُرْقُ فِي شَيْءٍ إِلاَّ شَانَهُ، وَإِنَّ اللَّهَ رَفِيقٌ يُحِبُّ الرِّفْقَ)).

---

[1] Burada "fəzilətli şəxslər" deyildikdə, Allahdan qorxan, imanında və ibadətində sabitqədəm olan, əlindən pislik gəlməyən, heç kəsə əziyyət verməyən, yaxşı işlər görən və başqa bu kimi yüksək mənəvi keyfiyyətlərə malik olan alicənab adamlar nəzərdə tutulur.

[2] İmam Əbu Davudun və digərlərinin nəql etdiyi rəvayətlərdə hədisin sonunda Peyğəmbər ﷺ: "Yalnız şəriətin təyin etdiyi cəzalardan başqa"– demişdir (Silsilətul-Əhadisis-Səhihə, 638). Abdul-Muhsin Abbad bu hədisi izah edib demişdir: "Bu, dəlildir ki, adamın alicənab olması etdiyi cinayətə görə şəriətin təyin etdiyi cəzanı aradan qaldırmır və heç yüngülləşdirmir də. Bundan da aydın olur ki, hər bir cani kimliyindən asılı olmayaraq etdiyi cinayətin cəzasını çəkməlidir. Şəriətin cəza tətbiq etmədiyi qəbahətlərə gəlincə, bunlara yol verən salamat əqidəli, əməlisaleh şəxslərin nadir hallarda buraxdığı səhvlərini bağışlamaq gərəkdir. O ki qaldı səhlənkarlıq edib utanmadan bu qəbahətləri təkrar-təkrar edən kimsələrə, belələrini danlamaq lazımdır ki, bir də o səhvi eləməsinlər" (Şərh Sunən Əbu Davud). Bu məsələyə dair aşağıdakı hədisi misal göstərmək olar:

Aişə ﵂ rəvayət edir ki, Bənu-Məxzum qəbiləsindən olan *zadəgan* bir qadın oğurluq etmişdi. *Həmqəbilələri* dedilər: "Bu qadına görə Peyğəmbərlə ﷺ kim danışa bilər (ona veriləcək cəzanın yüngülləşdirilməsi xüsusunda kim havadarlıq edə bilər)?" Lakin heç kəs *bu haqda* onunla danışmağa cəsarət etmədi. *Belə olduqda,* Usamə ibn Zeyd Peyğəmbərə ﷺ müraciət etdi. Onda, Peyğəmbər ﷺ belə buyurdu: "Vaxtı ilə İsrail oğulları arasında zadəgan *ailəsindən olan* birisi oğurluq etsəydi, ona dəyməzdilər, amma kasıb oğurluq etsəydi, onun əlini kəsərdilər. Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, əgər Muhəmmədin qızı Fatimə oğurluq etmiş olsaydı, onun da əlini kəsərdim" (Səhih əl-Buxari, 4304)

[3] Bu hədisi Əbu Davud (4375), Təhavi (Muşkilul-Əsar, 3/129), Əhməd (6/181) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(466)** ........ Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Hansı) bir işdə cahillik edilərsə, onu ancaq alçaldar.[1] Həqiqətən, Allah mülayimdir[2] və mülayimliyi sevir.[3]"[4]

**٤٦٧-** حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ أَبِي عُتْبَةَ يُحَدِّثُ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ أَشَدَّ حَيَاءً مِنَ الْعَذْرَاءِ فِي خِدْرِهَا، وَكَانَ إِذَا كَرِهَ شَيْئًا عَرَفْنَاهُ فِي وَجْهِهِ.

**(467)** ........ Əbu Səid əl-Xudri ﷺ demişdir: "Rəsulullah ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi. Nə isə xoşuna gəlmədikdə, bunu onun üzündən anlayardıq.[5]"[6]

---

[1] Burada "cahillik" deyildikdə, nadanlıq, avamlıq, şüursuzluq və düşüncəsizlik qəsd edilir. Demək, əgər adam cahilliyi üzündən başqaları ilə kobud davranarsa, bu davranış onun özünə zərər verər.

[2] Mülayim – ərəbcə, "Rəfiq"; Allahın gözəl adlarından biridir.

[3] Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah bir bəndəsini sevdiyi zaman ona mülayim olmağı nəsib edər" (Səhih Tərğib vət-Tərhib, 2666).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[5] Burada "hücrəsinə çəkilmiş bakirə qız" deyildikdə, həddi-büluğa çatmış, hələ ərə getməmiş, nadir hallar istisna olmaqla heç vaxt hücrəsindən bayıra çıxmayan, nəinki kişilərdən, hətta qadınlardan belə həya edən ismətli qız nəzərdə tutulur. Səhabə bu məsəli çəkməklə Peyğəmbərin ﷺ nə dərəcədə həyalı olduğunu bildirmək istəyir. Peyğəmbərə ﷺ oxşamaq istəyən mömin də həmçinin, bu əxlaqa yiyələnməli, hər bir işdə həyalı olmalıdır. Yeganə hal dini öyrənməkdir ki, bu halda utanmaq olmaz. Bu xüsusda varid olmuş hədisdə Ummu Sələmə ﷺ rəvayət edir ki, bir gün Ummu Suleym Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Allah haqqı deməkdən həya etməz. Qadın pollyusiya halına düşdükdə (yəni yuxuda ikən məni axıtdıqda) qüsl etməlidirmi?" Peyğəmbər ﷺ buyurdu: "Bəli, əgər su görübsə (yəni məni axıdıbsa), etməlidir!" Ummu Sələmə (utandığından) üzünü yaşmaqla örtdü və: "Ya Rəsulullah, heç qadın da pollyusiya halına düşə bilərmi?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "Əlbəttə, (düşə bilər). Ay yazıq, belə olmasa, övladı ona necə oxşaya bilər?!" (Səhih əl-Buxari, 130). Həmçinin, Peyğəmbərin ﷺ nə isə xoşuna gəlmədikdə, tez özündən çıxıb kobudluq etməməsi, onun nə dərəcədə mülayim insan olduğuna dəlalət edir.

[6] Bu hədisi Buxari (5768), Muslim (2320) və Əhməd (3/79) rəvayət etmişdir.

٤٦٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ، عَنْ قَابُوسَ، أَنَّ أَبَاهُ حَدَّثَهُ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْهَدْيُ الصَّالِحُ، وَالسَّمْتُ، وَالِاقْتِصَادُ جُزْءٌ مِنْ سَبْعِينَ جُزْءًا مِنَ النُّبُوَّةِ)).

**(468)** ........ İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Doğru yolla getmək,[1] gözəl görünüşlü olmaq və orta yol tutmaq[2] peyğəmbərliyin yetmiş hissəsindən biridir.[3]"[4]

٤٦٩- حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الْمِقْدَامِ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كُنْتُ عَلَى بَعِيرٍ فِيهِ صُعُوبَةٌ، فَقَالَ النَّبِيُّ ﷺ: ((عَلَيْكِ بِالرِّفْقِ، فَإِنَّهُ لاَ يَكُونُ فِي شَيْءٍ إِلا زَانَهُ، وَلاَ يُنْزَعُ مِنْ شَيْءٍ إِلا شَانَهُ)).

**(469)** ........ Aişə ﷺ demişdir:[5] "Mən bir dəvənin üstündə ikən dəvə tərslik etdi (və mən onu vurmağa başladım). Onda Peyğəmbər ﷺ dedi: "(Onunla) yumşaq davran![6] Həqiqətən də, yumşaqlıq (hansı) bir işdə olarsa, onu ancaq gözəlləşdirər. Və nədən gedərsə, onu ancaq alçaldar."

---

[1] Doğru yol – məhz Allahın və Onun Rəsulunun ﷺ göstərdiyi yoldur. Bu xüsusda, Uca Allah Öz Kitabında belə buyurur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar"** (əl-Ənam, 153); O, həmçinin, buyurur: **"De: "Bu, mənim yolumdur. Mən və mənə tabe olanlar, mötəbər dəlillərə əsasən, *insanları* Allaha tərəf çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən də müşriklərdən deyiləm"** (Yusuf, 108).

[2] Bu xüsusda Abdullah ibn Məsud ﷺ demişdir: "Sünnə sayılan əməllərdə orta yol tutmaq, dindən olmayan yeniliklərdə canfəşanlıq göstərməkdən xeyirlidir" (Silslətul-Əhadisis-Səhihə, 5/11). Həmçinin, 461-ci hədisin son cümləsinin qeydlərinə bax.

[3] Yəni bu üç gözəl xislət peyğəmbərlərin xislətlərindəndir.

[4] Bu hədisin isnadında keçən Qabus "leyyin" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Qeyd edək ki, hədisin mətni bu kitabda başqa ləfzlə varid olmuş və şeyx Albani onun "həsən" olduğunu demişdir (791-ci hədisə bax).

[5] Bu hədisi Muslim (2594) və Əhməd (6/125) rəvayət etmişdir.

[6] İslam dini bizə nəinki insanlarla, hətta heyvanlarla belə mülayim rəftar etməyi buyurur (176-cı fəsildəki hədislərə və onların qeydlərinə bax). Bu dövrün böyük alimlərin-

**٤٧٠**– حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا الْوَلِيدُ بْنُ مُسْلِمٍ، عَنْ أَبِي رَافِعٍ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِيَّاكُمْ وَالشُّحَّ، فَإِنَّهُ أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ، سَفَكُوا دِمَاءَهُمْ، وَقَطَعُوا أَرْحَامَهُمْ، وَالظُّلْمُ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ)).

**(470)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Tamahkarlıqdan çəkinin![1] Çünki o, sizdən əvvəlkiləri məhv etmişdir.[2] Onlar bir-birilərinin qanını axıtdılar və qohumluq əlaqələrini kəsdilər.[3] Qiyamət günü zülm zülmətlərə çevriləcəkdir.[4]"[5]

---

dən olmuş Abdur-Rəhman əs-Sədi bir gün bədəvilərdən birinin yanından keçərkən baxır ki, adam öz eşşəyini bərk döyür. Yaxınlaşıb deyir:

– Ay kişi, bu heyvanı niyə vurursan, yazıq deyil?

– Bu qanmaz heyvan sözümə baxmır. Yerindən tərpənmir ki, tərpənmir.

– Heyvanla yumşaq davransan, sözünə baxar.

– Dəfələrlə cəhd etmişəm, heç nə alınmayıb.

– Çəkil qırağa, mən heyvanla necə rəftar etməyi sənə öyrədim.

Sonra şeyx uzunqulağa yaxınlaşıb onun başına sığal çəkir, onu tumarlayır və ovsarından tutub o kişinin yanına gətirir. Bunu görəndə, kişi deyir: "Şeyx, eşşək də bilir ki, sən şeyxsən!" (Abdur-Rəzzaqın şərhi).

[1] 137-ci fəsildəki hədislərin qeydlərinə bax.

[2] Bu xüsusda, Uca Allah buyurur: **"Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"** (əl-Həşr, 9). Bu ayənin əks anlamından belə başa düşülür ki, nəfsinin tamahından qorunmayan kimsələr nicat tapmayacaq və Cəhənnəmə giriftar olacaqlar. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Sizə Cəhənnəm sakinləri barədə xəbər verimmi?!" *Bu,* hər bir daşürəkli, tamahkar və yekəxana *adamdır*" (Səhih əl-Buxari, 4918).

[3] İnsanların tamahkarlıq üzündən bir-birinin qanlarını axıtması və qohumluq əlaqələrini kəsməsi, bu yaramaz xislətin, daha dəqiq desək, qəlb xəstəliyinin olduqca təhlükəli olmasına dəlalət edir.

[4] Qiyamət günü Allahın nur bəxş etdiyi kimsələrdən başqa, heç kəsdə nur olmayacaq. Müsəlman olan kəsin İslamda olan məqamına uyğun nuru olacaq. Yox, əgər adam zalım olarsa, onda etdiyi zülmə müvafiq miqdarda onun nuru azalacaq (Şərh Riyadus-Salihin, 203-cü hədisin şərhi).

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢١٨- بَابُ الرِّفْقِ فِي الْمَعِيشَةِ

## 218-ci fəsil. Dolanışıqda yumşaq davranmaq[1]

٤٧١- حَدَّثَنَا حَرَمِيُّ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ كَثِيرِ بْنِ عُبَيْدٍ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: دَخَلْتُ عَلَى عَائِشَةَ أُمِّ الْمُؤْمِنِينَ رَضِيَ اللَّهُ عَنْهَا، فَقَالَتْ: أَمْسِكْ حَتَّى أَخِيطَ نَقْبَتِي فَأَمْسَكْتُ فَقُلْتُ: يَا أُمَّ الْمُؤْمِنِينَ، لَوْ خَرَجْتُ فَأَخْبَرْتُهُمْ لَعَدُّوهُ مِنْكِ بُخْلًا، قَالَتْ: أَبْصِرْ شَأْنَكَ، إِنَّهُ لَا جَدِيدَ لِمَنْ لَا يَلْبَسُ الْخَلَقَ.

**(471)** ........ Kəsir ibn Ubeyd demişdir: "(Bir gün) mən möminlərin anası Aişənin yanına gəldim və o, (mənə): "Donumu tikənə qədər gözlə!"– dedi, mən də gözlədim. (Bu əsnada) mən dedim: "Ey möminlərin anası! Əgər bayıra çıxıb camaata (sənin köhnə paltarı yamadığını) desəm, onlar səni simic adam hesab edərlər." O, dedi: "Buna fikir vermə! Şübhəsiz ki, köhnəni geyinməyən adam təzənin qədrini bilməz.[2]"[3]

---

[1] Yəni bu işlərdə orta yol tutmaq – nə xəsilik etmək, nə də israfçılığa yol vermək.

[2] Bundan aydın olur ki, köhnə geyim geymək ayıb sayılmır. Peyğəmbərin ﷺ səhabələrindən biri təzə libas geydikdə, digərləri ona: "Tubli və yuxlifullahu təalə! (Köhnələnədək bunu geyəsən, sonra Allah sənə yenisini versin)"– deyərdilər." Hədislərin birində Ummu Xalid bint Xalid ibn Səd رضي الله عنها demişdir: "*Bir dəfə* mən atamla birlikdə Peyğəmbərin ﷺ yanına gəldim. Əynimdə sarı rəngli bir paltar var idi. Peyğəmbər ﷺ *paltarı görəndə*: "Sənəh, sənəh!"– dedi. Bu da, həbəş dilində: "Qəşəngdir, qəşəngdir!"– deməkdir. Sonra mən *əlimlə* onun peyğəmbərlik möhürünü qurdalamağa başladım. Atam üstümə qışqırıb məni kənara çəkdi. Peyğəmbər ﷺ: "Dəymə uşağa!"– deyə buyurdu, sonra da dua edib dedi: "*Bu paltarı* köhnələnədək və *Allah sənə* yenisini verənədək, (o da) köhnələnədək və *Allah sənə* yenisini verənədək, *o da* köhnələnədək və *Allah sənə* yenisini verənədək geyəsən!" (Səhih əl-Buxari, 3071).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٢١٩- بَابُ مَا يُعْطَى الْعَبْدُ عَلَى الرِّفْقِ

## 219-cu fəsil. Bəndəyə mülayimliyinə görə verilən mükafat

**٤٧٢-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ حُمَيْدٍ، عَنِ الْحَسَنِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ مُغَفَّلٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ اللَّهَ رَفِيقٌ يُحِبُّ الرِّفْقَ، وَيُعْطِي عَلَيْهِ مَا لاَ يُعْطِي عَلَى الْعُنْفِ)).

**(472)** ........ Abdullah ibn Muğəffəl[1] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah mülayimdir və mülayimliyi sevir.[2] Sərtliyə görə vermədiyini mülayimliyə görə verir.[3]"[4]

**(...)-** وَعَنْ يُونُسَ، عَنْ حُمَيْدٍ مِثْلَهُ.

**(...)** ........ Yunus Humeyddən bu hədisin bənzərini rəvayət etmişdir.

---

[1] Əbu Səid Abdullah ibn Muğəffəl əl-Müzəni ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Mədinədə yaşamış, sonra Bəsrəyə köçmüşdür. Hicrətin 60-cı ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 99-cu tərcümeyi-hal).

[2] 466-cı hədisin qeydlərinə bax.

[3] Allah mülayim olan kimsənin işlərini yoluna qoyar, onları gözəlləşdirər, onun savabını artırar və ona çoxlu xeyir əta edər, sərt rəftar edənin isə, əksinə, işlərini dolaşığa salar, onu alçaldar və onu bir çox xeyirlərdən məhrum edər. Qeyd etmək lazımdır ki, bu "sərtlik", nəfsinə görə sərtlik göstərən kimsələrə aiddir. Allah rizası üçün sərt olmaq isə, əksinə, şəriətin tələblərindəndir.

[4] Bu hədisi Muslim (2593), Əbu Davud (4807) və Əhməd (1/112) rəvayət etmişdir.

## ٢٢٠- بَابُ التَّسْكِينِ

## 220-ci fəsil. Rahatlaşdırmaq

٤٧٣- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي التَّيَّاحِ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((يَسِّرُوا وَلاَ تُعَسِّرُوا، وَسَكِّنُوا ولا تُنَفِّرُوا)).

**(473)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Asanlaşdırın, çətinləşdirməyin![1] Rahatlaşdırın, nifrət oyatmayın![2]”[3]

٤٧٤- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنْ عَطَاءٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: نَزَلَ ضَيْفٌ فِي بَنِي إِسْرَائِيلَ، وَفِي الدَّارِ كَلْبَةٌ لَهُمْ، فَقَالُوا: يَا كَلْبَةُ، لاَ تَنْبَحِي عَلَى ضَيْفِنَا فَصِحْنَ الْجِرَاءُ فِي بَطْنِهَا، فَذَكَرُوا لِنَبِيٍّ لَهُمْ فَقَالَ: إِنَّ مَثَلَ هَذَا كَمَثَلِ أُمَّةٍ تَكُونُ بَعْدَكُمْ، يَغْلِبُ سُفَهَاؤُهَا عُلَمَاءَهَا.

**(474)** ........ Abdullah ibn Amr ﷺ demişdir: “Bir nəfər İsrail oğullarının evinə qonaq gəldi. Həyətdə onların bir dişi iti var idi. Onlar: “Ay it, qonağımıza hürmə!”– dedilər, (it də səsini kəsdi). Lakin qarnındakı balalar çığırmağa başladılar. Onlar bunu öz peyğəmbərlərinə xəbər verdikdə o, dedi: “Bunun məsəli sizdən sonra gələcək bir ümmətin məsəlinə bənzəyir. O ümmətin səfehləri alimlərini üstələyəcəklər.[4]”[5]

---

[1] 245-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisdən aydın olur ki, insanları əziyyətə salmaq, ələlxüsus da dini məsələləri çətinləşdirmək qadağandır. Dini çətinləşdirən hər kəsin aqibətinin çox pis olacağı barədə Peyğəmbər ﷺ üç kərə təkrar-təkrar belə buyurmuşdur: “(Allahın asan buyurduğu bu dini) çətinləşdirən kimsələr həlak oldular!” (Səhih Muslim, 2670).

[3] Bu hədisi Buxari (6125), Muslim (1734) və Əhməd (3/131; 209) rəvayət etmişdir.

[4] Axır zamanda səfehlərin meydana gəlməsi həqiqətdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Axır zamanda yaşları az, beyinləri küt olan kimsələr gələcəklər”, “onlar Allahın Kitabını məlahətli səslə oxuyacaq, lakin oxuduqları xirtdəklərindən o yana keçməyəcəkdir. Ox öz ovunu dəlib keçdiyi kimi onlar da İslamdan çıxacaqlar”, “onlar bütpərəstləri qoyub müsəlmanları öldürəcəklər” (Səhih əl-Buxari, 3611, 4351 və 6880); digər hədisdə o, demişdir: “Xəvariclər Cəhənnəmin köpəkləridir” (Sunən İbn Macə, 176; Səhih əl-Cami, 3347).

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

# ٢٢١- بَابُ الْخُرْقِ

## 221-ci fəsil. Kobudluq

٤٧٥- حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الْمِقْدَامِ بْنِ شُرَيْحٍ قَالَ: سَمِعْتُ أَبِي قَالَ: سَمِعْتُ عَائِشَةَ تَقُولُ: كُنْتُ عَلَى بَعِيرٍ فِيهِ صُعُوبَةٌ، فَجَعَلْتُ أَضْرِبُهُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((عَلَيْكِ بِالرِّفْقِ، فَإِنَّ الرِّفْقَ لاَ يَكُونُ فِي شَيْءٍ إِلاَّ زَانَهُ، وَلاَ يُنْزَعُ مِنْ شَيْءٍ إِلا شَانَهُ)).

**(475)** ........ Aişə ﵂ demişdir: “Mən bir dəvənin üstündə ikən bu dəvə tərslik etdi və mən onu vurmağa başladım. Onda Peyğəmbər ﷺ dedi: “(Onunla) yumşaq davran! Həqiqətən də, yumşaqlıq (hansı) bir işdə olarsa, onu ancaq gözəlləşdirər. Və nədən gedərsə, onu ancaq alçaldar.”[1]

٤٧٦- حَدَّثَنَا صَدَقَةُ، قَالَ: أَخْبَرَنَا ابْنُ عُلَيَّةَ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي نَضْرَةَ: قَالَ رَجُلٌ مِنَّا يُقَالُ لَهُ: جَابِرٌ أَوْ جُوَيْبِرٌ: طَلَبْتُ حَاجَةً إِلَى عُمَرَ فِي خِلاَفَتِهِ، فَانْتَهَيْتُ إِلَى الْمَدِينَةِ لَيْلاً، فَغَدَوْتُ عَلَيْهِ، وَقَدْ أُعْطِيتُ فِطْنَةً وَلِسَانًا، أَوْ قَالَ: مِنْطَقًا، فَأَخَذْتُ فِي الدُّنْيَا فَصَغَّرْتُهَا، فَتَرَكْتُهَا لاَ تَسْوَى شَيْئًا، وَإِلَى جَنْبِهِ رَجُلٌ أَبْيَضُ الشَّعْرِ أَبْيَضُ الثِّيَابِ، فَقَالَ لَمَّا فَرَغْتُ: كُلُّ قَوْلِكَ كَانَ مُقَارِبًا، إِلاَّ وُقُوعَكَ فِي الدُّنْيَا، وَهَلْ تَدْرِي مَا الدُّنْيَا؟ إِنَّ الدُّنْيَا فِيهَا بَلاَغُنَا، أَوْ قَالَ: زَادُنَا، إِلَى الْآخِرَةِ، وَفِيهَا أَعْمَالُنَا الَّتِي نُجْزَى بِهَا فِي الْآخِرَةِ، قَالَ: فَأَخَذَ فِي الدُّنْيَا رَجُلٌ هُوَ أَعْلَمُ بِهَا مِنِّي، فَقُلْتُ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ، مَنْ هَذَا الرَّجُلُ الَّذِي إِلَى جَنْبِكَ؟ قَالَ: سَيِّدُ الْمُسْلِمِينَ أُبَيُّ بْنُ كَعْبٍ.

**(476)** ........ Əbu Nədra rəvayət edir ki, bizlərdən Cabir, yaxud Cuveybir adlı bir kişi dedi: “Mən Ömərin xilafəti dövründə ondan bir şey xahiş etmək üçün *onun yanına* yollandım. Nəhayət, gecə ikən gəlib Mədinəyə yetişdim. Səhər onun yanına getdim. Doğrudan da, mənə yaxşı başa düşmək və gözəl dil – danışıq qabiliyyəti verilmişdi. Mən dünya haqqında danışmağa başladım və onu kiçiltdim, onun dəyərsiz olduğunu söylədim. *Həmin vaxt* Ömərin yanında ağ saçlı və ağ paltarlı bir kişi oturmuşdu. Mən

---

[1] 469-cu hədisin qeydlərinə bax.

sözümü qurtardıqdan sonra kişi dedi: “Dediklərinin hamısı düzdür. Yalnız dünya haqqında dediklərindən başqa. Heç bilirsən dünya nədir?! Dünya o yerdir ki, orada bizim axirətə hazırladığımız tədarükümüz yaxud azuqəmiz vardır. Orada Axirətdə əvəzini alacağımız əməllərimiz də vardır.”

*Cabir* dedi: “Dünya barədə məndən daha savadlı olan adam danışmağa başladı. Mən dedim: “Ey möminlərin əmiri! Bu yanındakı adam kimdir?” O, dedi: “Müsəlmanların hörmətlisi Ubeyy ibn Kəbdir.”[1]

**٤٧٧–** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا مَرْوَانُ قَالَ: حَدَّثَنَا قِنَانُ بْنُ عَبْدِ اللهِ النَّهْمِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ عَوْسَجَةَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((الأَشَرَةُ شَرٌّ)).

**(477)** ........ Bəra ibn Azib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Dikbaşlıq[2] şərdir.”[3]

---

[1] Bu hədisin isnadında keçən Cabir və ya Cuveybir “məchul” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

[2] Dikbaşlıq: lovğalıq, təşəxxüslük, mütəkəbbirlik, təkəbbür, özünü çəkmə. Dikbaşlıq kobudluğa aid xislətlərdən olduğundan İmam Buxari bu hədisi bu fəsildə varid etmişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir. İmam Buxari bu hədisi başqa fəsildə tam olaraq nəql etmişdir (1266-cı hədisə bax).

## ٢٢٢- بَابُ اصْطِنَاعِ الْمَالِ

## 222-ci fəsil. Mal istehsal etmək[1]

٤٧٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا حَنَشُ بْنُ الْحَارِثِ، عَنْ أَبِيهِ قَالَ: كَانَ الرَّجُلُ مِنَّا تُنْتَجُ فَرَسُهُ فَيَنْحَرُهَا فَيَقُولُ: أَنَا أَعِيشُ حَتَّى أَرْكَبَ هَذَا؟ فَجَاءَنَا كِتَابُ عُمَرَ: أَنْ أَصْلِحُوا مَا رَزَقَكُمُ اللَّهُ، فَإِنَّ فِي الامْرِ تَنَفُّسًا.

**(478)** ........ Hənəş ibn əl-Haris atasından rəvayət edir ki, bizlərdən birinin atı balaladıqda, o, bu balanı kəsər və deyərdi: "Məgər bu *dayça* minilə-

---

[1] Bu fəsildəki hədislərdən aydın olur ki, insan bu həyatda yaşadığı müddət ərzində əlindən gəldikcə dünya işləri ilə – ticarətlə, maldarlıqla, əkinçiliklə, tikinti ilə və başqa bu kimi işlərlə məşğul olmalıdır. Bununla yanaşı, qəlbini bu işlərə bağlamamalı, dünyaya həris olmamalıdır, əksinə, dünyada bir qərib yaxud bir müsafir kimi olmalı, axşama çıxdığı zaman səhərə sağ qalacağına, səhərə çıxdığı zaman da axşama sağ qalacağına arxayın olmamalıdır, xəstələnənədək sağlamlığından və ölənədək, həyatından istifadə etməlidir. Həqiqətən də, bu dünya fani dünyadır. Dünya malını artırmağı məşğuliyyətə çevirmək möminə yaraşan sifətlərdən deyildir. Peyğəmbər ﷺ bu xüsusda belə buyurmuşdur: "Kimin məqsədi Axirəti qazanmaq olarsa, Allah onun varını qəlbinə yerləşdirər (o, hər şeyə qane olar), onun işlərini avand edər və (qədərinə yazılmış) dünya malı ram edilmiş halda gəlib onu tapar. Kimin də məqsədi dünyanı qazanmaq olarsa, Allah onun kasıblığını gözləri arasına gətirər, işlərini dolaşığa salar və dünya malından da yalnız qədərinə yazılmış olanı əldə edər" (Sunən ət-Tirmizi, 2/76; Silsilətul-Əhadisis-Səhihə, 949); digər hədisdə o, demişdir: "Allahı zikr etmək, Onun sevdiyi əməllər, habelə, elm öyrədən və elm öyrənən istisna olmaqla, dünya və onun üzərindəkilər lənətlənmişdir" (Sunən ət-Tirmizi, 2323; Sunən İbn Macə, 4112; Silsilətul-Əhadisis-Səhihə, 2797). Yəni bu həyatda Allaha yaxınlaşdıran əməllərdən başqa heç bir şeydə xeyir yoxdur. Xeyir, ancaq Axirət xeyiridir. Ənəs ibn Malik ؓ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah yolunda səhər və ya axşam *döyüşə* getmək dünya və onun içindəkilərdən xeyirlidir. Birinizin Cənnətdəki ox boyda yeri (və ya qamçısını qoyduğu yer), dünya və onun içindəkilərdən xeyirlidir. Əgər Cənnət qadınlarından biri yer sakinlərinə görünsəydi, göylə yer arasında olan hər tərəfi işıqlandırar və *onun gözəl* iyi hər yanı bürüyərdi. Onun baş örtüyü isə dünya və onun içindəkilərdən xeyirlidir" (Səhih əl-Buxari, 2796).

cək yaşa çatanadək mən yaşayacağam?" Həmin vaxt bizə Ömərin məktubu gəlib çatdı. (Məktubda yazılmışdı): "Allahın sizə verdiyi ruzinin qeydinə qalın. Çünki əcəlin gəlişi müəyyən edilmiş vaxtla bağlıdır.[1]"[2]

**٤٧٩–** حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ هِشَامِ بْنِ زَيْدِ بْنِ أَنَسِ بْنِ مَالِكٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنْ قَامَتِ السَّاعَةُ وَفِي يَدِ أَحَدِكُمْ فَسِيلَةٌ، فَإِنِ اسْتَطَاعَ أَنْ لاَ تَقُومَ حَتَّى يَغْرِسَهَا فَلْيَغْرِسْهَا)).

**(479)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Qiyamət qopduğu zaman sizdən birinizin əlində körpə xurma ağacı olarsa və Qiyamət qopmamış[4] onu əkməyə macal taparsa, qoy, onu əksin!"

---

[1] Ömər ibn Xattab ﷺ bildirmək istəyir ki, heç kəs ancaq bu gününü düşünərək gələcəyini zay etməsin, əlində olan imkanlardan ümmətin, ilk növbədə də ailəsinin xeyiri üçün istifadə etsin. Belə ki, onun quracağı işlər özünə qismət olmasa da, gələcək nəsli bundan istifadə edəcək və bunun savabı ona yazılacaqdır (38-ci hədisə və onun qeydlərinə bax).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Əhməd (3/183, 184 və 191), Təyalisi (2068) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Yəni Qiyamətin başladığını – böyük əlamətlərini görmüş olsa belə, əlindəki işi yarımçıq qoymasın. Şeyx Albani bu hədisi izah edərkən demişdir: "Bu hədis insanı öz həyatındakı son fürsətdən istifadə etməyə, ölüb getdikdən sonra belə insanlara fayda verməyə rəğbətləndirir. Çünki onun bu əməli Qiyamətədək ardı-arası kəsilməyən sədəqə olaraq ona savab qazandıracaq... İbn Cərir, Əmmara ibn Xuzeymə ibn Sabitin belə dediyini rəvayət etmişdir: "Mən, Ömər ibn Xattabın atama belə dediyini eşitdim: "Torpağını əkib-becərməyə sənə mane olan nədir?" Atam dedi: "Mən qoca kişiyəm, bu gün-sabah ölüb gedəcəyəm." Onda Ömər ona belə buyurdu: "Mən sənə torpağını əkib-becərməyi əmr edirəm." Sonra mən Ömər ibn Xattabın atamla birgə o torpağa *ağac* əkdiyini gördüm." Bu əsəri Suyuti "Camiul-Kəbir" əsərində (3/337/2) rəvayət etmişdir" (Silsilətul-Əhadisis-Səhihə, 1/11). Bu, dəlildir ki, səhabələr əkib-becərməyə, habelə, məişət işlərini görməyə və bunun sayəsində savab qazanmağa səy göstərirdilər. Rəvayət edilir ki, Amr ibn Dinar demişdir: "*Bir gün* mən Abdullah ibn Amrın Taifdəki bağına gəldim. Həmin bağda bir milyon qol-

٤٨٠- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ الْبَجَلِيُّ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ قَالَ: أَخْبَرَنِي يَحْيَى بْنُ سَعِيدٍ قَالَ: أَخْبَرَنِي مُحَمَّدُ بْنُ يَحْيَى بْنِ حِبَّانَ، عَنْ دَاوُدَ بْنِ أَبِي دَاوُدَ قَالَ: قَالَ لِي عَبْدُ اللَّهِ بْنُ سَلاَمٍ: إِنْ سَمِعْتَ بِالدَّجَّالِ قَدْ خَرَجَ، وَأَنْتَ عَلَى وَدِيَّةٍ تَغْرِسُهَا، فَلاَ تَعْجَلْ أَنْ تُصْلِحَهَا، فَإِنَّ لِلنَّاسِ بَعْدَ ذَلِكَ عَيْشًا.

**(480)** ........ Davud ibn Əbu Davud demişdir: "(Bir dəfə) Abdullah ibn Səlam mənə dedi: "Əgər Dəccalın[1] zühur etdiyini eşitsən və (həmin vaxt) əlində yerə əkəcəyin körpə xurma ağacı olarsa, onu əkməyi sonraya saxlama. Çünki insanlar bundan sonra hələ yaşayacaqlar."[2]

---

budağı vurulmuş ağac var idi. O, bu ağacların hər birini bir dirhəmə almışdı. Bu ağaclar vasitəsi ilə üzüm tənəklərini dikəldirdi" (Tarix İbn Əsakir, 13/264/2; Silsilətul-Əhadisis-Səhihə, 1/11). Abdullah ibn Amrın ﷺ: "Adam işçiləri ilə birgə öz evində işlədiyi təqdirdə, Allahın ﷻ işçilərindən hesab olunar" sözünə də diqqət yetirin (448-ci hədisə bax).

[1] 341-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisin isnadında keçən Davud ibn Əbu Davud "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٢٢٣– بَابُ دَعْوَةِ الْمَظْلُومِ

### 223-cü fəsil. Məzlumun duası[1]

٤٨١– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا شَيْبَانُ، عَنْ يَحْيَى، عَنْ أَبِي جَعْفَرٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((ثَلَاثُ دَعَوَاتٍ مُسْتَجَابَاتٍ: دَعْوَةُ الْمَظْلُومِ، وَدَعْوَةُ الْمُسَافِرِ، وَدَعْوَةُ الْوَالِدِ عَلَى وَلَدِهِ)).

**(481)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Üç dua vardır ki, onlar qəbul olunar: məzlumun duası, müsafirin duası və valideynin övladına etdiyi dua."[2]

---

[1] Peyğəmbər ﷺ demişdir: "Məzlum kafir olsa belə, onun duası ilə Allah arasında (bu duanın qarşısını ala biləcək) heç bir pərdə yoxdur" (Musnəd Əhməd, 3/153; şeyx əl-Albani Səhih Tərğib vət-Tərhib, (2231) əsərində bu hədisin "həsən li-ğeyrihi" olduğunu demişdir).

[2] 32-ci və 240-cı hədislərin qeydlərinə bax.

## ٢٢٤- بَابُ سُؤَالِ الْعَبْدِ الرِّزْقَ مِنَ اللَّهِ عَزَّ وَجَلَّ لِقَوْلِهِ: ﴿ ارْزُقْنَا وَأَنْتَ خَيْرُ الرَّازِقِينَ﴾

## 224-cü fəsil. Bəndənin Allahdan ﷻ Onun buyurduğu kimi ruzi diləməsi: "Bizə ruzi ver, Sən ruzi verənlərin ən yaxşısısan!"[1]

**٤٨٢-** حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي ابْنُ أَبِي الزِّنَادِ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ، أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ عَلَى الْمِنْبَرِ نَظَرَ نَحْوَ الْيَمَنِ فَقَالَ: ((اللَّهُمَّ أَقْبِلْ بِقُلُوبِهِمْ))، وَنَظَرَ نَحْوَ الْعِرَاقِ فَقَالَ: مِثْلَ ذَلِكَ، وَنَظَرَ نَحْوَ كُلِّ أُفُقٍ فَقَالَ مِثْلَ ذَلِكَ، وَقَالَ: ((اللَّهُمَّ ارْزُقْنَا مِنْ تُرَاثِ الأَرْضِ، وَبَارِكْ لَنَا فِي مُدِّنَا وَصَاعِنَا)).

**(482)** ........ Rəvayət edilir ki, Cabir رضي الله عنه Peyğəmbərin ﷺ minbərdə ikən Yəmənə tərəf baxıb belə dediyini eşitmişdir: "Allahım, onların qəlblərini *haqqa* yönəlt.[2] (Sonra) o, İraqa tərəf baxıb eyni sözü dedi. (Sonra da) bütün üfüqə doğru baxıb yenə həmin sözləri dedi. Sonra davam edib (belə dua etdi): "Allahım, yerdən çıxan sərvətlərdən bizə ruzi ver. Bizim bir ovuc və dörd ovuc yeməyimizə bərəkət ver!"[3]

---

[1] "əl-Maidə" surəsi, 114.

[2] Digər bir hədisdə Peyğəmbər ﷺ öz səhabələrinə yəmənliləri tərifləyib demişdir: "Sizin yanınıza Yəmən əhli gəlib. Onlar ən incə ürəkli, ən yumşaq qəlbli *insanlardır*. İman Yəməndədir, hikmət Yəməndədir" (Səhih əl-Buxari, 4388).

[3] Bu hədisin isnadında keçən Əbu Zubeyr onu "muan'ən" isnadla rəvayət etmişdir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin hədisin ilk və son cümləsi mötəbər isnadla rəvayət edilmiş hədisdə öz təsdiqini tapmışdır. Zeyd ibn Sabit رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Yəmənə tərəf baxıb demişdir: "Allahım, onların qəlblərini (haqqa) yönəlt. Bir ovuc və dörd ovuc yeməyimizə bərəkət ver!" (Sunən ət-Tirmizi, 3934; şeyx Albani İrvaul-Ğəlil, 4/176 əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir). Habelə, neçə-neçə səhih hədislərdə Peyğəmbərin ﷺ Allahdan ruzi diləməsi varid olmuşdur. Məsələn, Peyğəmbər ﷺ hər səhər dua edib deyərmiş:

(( اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ عِلْماً نَافِعاً، وَرِزْقاً طَيِّباً، وَعَمَلاً مُتَقَبَّلاً ))

"Allahummə, inni əs'əlukə ilmən nafiən və rizqan tayyibən və amələn mutəqabbələn! (Allahım, Səndən faydalı elm, təmiz ruzi və məqbul əməl diləyirəm!)" (Musnəd Əhməd, 6/294; Sunən İbn Macə, 925).

# ٢٢٥- بَابُ الظُّلْمِ ظُلُمَاتٌ

## 225-ci fəsil. Zülm zülmətlərdir

٤٨٣- حَدَّثَنَا بِشْرٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا دَاوُدُ بْنُ قَيْسٍ قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ ابْنُ مِقْسَمٍ قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((اتَّقُوا الظُّلْمَ، فَإِنَّ الظُّلْمَ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ، وَاتَّقُوا الشُّحَّ، فَإِنَّ الشُّحَّ أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ، وَحَمَلَهُمْ عَلَى أَنْ سَفَكُوا دِمَاءَهُمْ، وَاسْتَحَلُّوا مَحَارِمَهُمْ)).

**(483)** ........ Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Zülm etməkdən çəkinin![1] Çünki zülm Qiyamət günü zülmətlərə çevriləcəkdir. Tamahkarlıqdan da çəkinin! Çünki tamahkarlıq sizdən əvvəlki-

---

[1] İbn Useymin demişdir: "Zülm iki növdür: Allahın haqlarına aid olan və bir də insan hüquqlarına aid olan. Zülmlərin ən böyüyü isə Allahın hüdudlarını aşmaq və Ona şərik qoşmaqdır. Belə ki, Peyğəmbərdən ﷺ: "Hansı günah Allah yanında ən böyük günah sayılır?"– deyə soruşulduqda, o, belə cavab vermişdir: "Səni yaradan Allaha *başqa birisini* tay tutmaq!" (Səhih əl-Buxari, 4477). Bundan sonra zülm xüsusunda dərəcə etibarilə əvvəlcə böyük günahlar, sonra da kiçik günahlar gəlir. Allahın buyurduğu haqlar xüsusunda zülm əsas üç şeyi əhatə edir. Bunları Peyğəmbər ﷺ Vida həccindəki xütbəsində bəyan edib demişdir: "Sizin qanınız, malınız və namusunuz, bu ayınız da və bu şəhəriniz də bu gününüzün haramlığı kimi bir-birinizə haramdır" (Səhih əl-Buxari, 67). Nəfsə zülm etməyə gəlincə, buna başqa birisinin qanını axıtmaq yaxud onu yaralamaq və ya ona buna bənzər əziyyətlər vermək aid edilir. Mal-dövlətə edilən zülmə gəldikdə isə buna başqasının malını mənimsəmək və ya onun malını haram işlərə sərf etmək, habelə, malı yerinə yetirilməsi vacib olan işlərə sərf etməkdən imtina etmək və ya onun sayəsində haram işlər görmək aid edilir. Namusa olunan zülmə gəlincə, buna başqasının haqqına girmək – zina etmək, ismətli qadına böhtan atmaq və buna bənzər günahlar aid edilir. Zülmün bütün növləri haramdır. Zalımı isə Allah yanında heç kəs əzabdan qurtara bilməz. Uca Allah buyurur: **"*O gün* zalımların nə bir yaxın dostu, nə də sözü keçən bir şəfaətçisi olar"** (Ğafir, 40). Yəni Qiyamət günü zalım nə onu Allahın əzabından qurtaracaq bir dost, nə də ona havadarlıq edəcək bir şəfaətçi tapa biləcək. Həmçinin, Allah buyurur: **"Zalımların köməkçiləri olmayacaq"** (əl-Bəqərə, 270). Qiyamət günü onları Allahın əzabından xilas edəcək köməkçiləri olmayacaq (Şərh Riyadus-Salihin, 203-cü hədisin şərhi).

ləri məhv etmiş və onları (bir-birilərinin) qanını axıtmağa[1] və özlərinə haram buyurulanları halal qəbul etməyə vadar etmişdir."[2]

**٤٨٤-** حَدَّثَنَا حَاتِمٌ قَالَ: حَدَّثَنَا الْحَسَنُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا الْمُنْكَدِرُ بْنُ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ أَبِيهِ، عَنْ جَابِرٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((يَكُونُ فِي آخِرِ أُمَّتِي مَسْخٌ، وَقَذْفٌ، وَخَسْفٌ، وَيُبْدَأُ بِأَهْلِ الْمَظَالِمِ)).

**(484)** ........ Cabir ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Ümmətimin sonuncuları arasında[3] çevrilmə,[4] (göydən) daş yağma və yerə batma[5] olacaq. Öncə zalımlardan başlanılacaq."[6]

---

[1] 470-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisi Muslim (2578) rəvayət etmişdir.

[3] Burada Qiyamətə yaxın baş verəcək hadisələr nəzərdə tutulur.

[4] Çevrilmə: başqa şəklə salınmaq, döndərilmək. Burada söhbət Qiyamətə yaxın bəzi günahkar insanların heyvana çevrilməsindən gedir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən elə adamlar meydana çıxacaq ki, onlar zina etməyi, ipək *geyməyi*, şərab içməyi və musiqi alətlərindən istifadə etməyi halal sayacaqlar. Bəziləri də dağa yaxın *yerlərdə* yaşayacaqlar. *Çobanlar* bu adamların sürülərini sürüb onların yanına gətirəcək, habelə, fağır-füqəra gəlib onlardan yardım istəyəcək və onlar: "Sabah gələrsən"– deyəcəklər. Gecə ikən Allah dağı onlardan bəzilərinin başına uçurdacaq, bəzilərini də meymunlara və donuzlara döndərəcək və onlar Qiyamət gününə qədər bu görkəmdə qalacaqlar" (Səhih əl-Buxari, 5590).

[5] Burada söhbət bəzi diyarların yerə batmasından gedir (Feydul-Qədir).

[6] Bu hədisin isnadında keçən Munkədir ibn Muhəmməd "leyyin" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir. Qeyd edək ki, bu hədisin ilk cümləsi "səhih" isnadla varid olmuş hədislərdə öz təsdiqini tapmışdır. Aişənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "(Qiyamətə yaxın) bu ümmətin sonuncuları arasında çevrilmə, daş yağma və (yerə) batma olacaq." Soruşdular: "Ya Rəsulullah! Aramızda əməlisaleh insanlar olduğu halda biz həlakmı olacağıq?" O, buyurdu: "Bəli, murdar əməllər aşkara çıxdığı zaman (bunlar baş verəcək)" (Sunən İbn Macə, 4059; Silsilətul-Əhadisis-Səhihə, 4/392; Səhih əl-Cami, 8156).

٤٨٥- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ الْمَاجِشُونِ قَالَ: أَخْبَرَنِي عَبْدُ اللَّهِ ابْنُ دِينَارٍ، عَنِ ابْنِ عُمَرَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الظُّلْمُ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ)).

**(485)** ........ İbn Ömər ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Zülm Qiyamət günü zülmətlərə çevriləcəkdir."[1]

٤٨٦- حَدَّثَنَا مُسَدَّدٌ، وَإِسْحَاقُ قَالاَ: حَدَّثَنَا مُعَاذٌ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، عَنْ أَبِي الْمُتَوَكِّلِ النَّاجِيِّ، عَنْ أَبِي سَعِيدٍ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((إِذَا خَلَصَ الْمُؤْمِنُونَ مِنَ النَّارِ حُبِسُوا بِقَنْطَرَةٍ بَيْنَ الْجَنَّةِ وَالنَّارِ، فَيَتَقَاصُّونَ مَظَالِمَ بَيْنَهُمْ فِي الدُّنْيَا، حَتَّى إِذَا نُقُّوا وَهُذِّبُوا، أُذِنَ لَهُمْ بِدُخُولِ الْجَنَّةِ، فَوَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ، لَأَحَدُهُمْ بِمَنْزِلِهِ أَدَلُّ مِنْهُ فِي الدُّنْيَا)).

**(486)** ........ Əbu Səid (əl-Xudri) ﵁ rəvayət edir ki,[2] Rəsulullah ﷺ demişdir: "*Qiyamət günü* möminlər, Oddan xilas olduqdan sonra,[3] Cənnətlə Cəhənnəm arasındakı körpünün o biri başında dayandırılacaq və dünyada *bir-birilərinə qarşı* etdikləri haqsızlıqlara görə bir-birilərinin haqqını ödəyəcəklər.[4]

---

[1] 470-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisi Buxari öz "Səhih"ində də (2240) rəvayət etmişdir.

[3] Yəni Cəhənnəm üzərində qurulmuş körpüdən keçdikdən sonra. Bu xüsusda Quranda belə buyurulur: **"Sonra Biz müttəqiləri *Oddan* xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik"** (Məryəm, 72) Habelə, Peyğəmbər ﷺ məhşər günündən danışarkən demişdir: "Sonra Cəhənnəmin üzərində körpü qurulacaq və şəfaət etməyə izin veriləcəkdir. *Həmin vaxt peyğəmbərlər*: "Allahım, xilas et, xilas et!"– deyəcəklər. *Səhabələr* soruşdular: "Yə Rəsulullah! Nə körpüdür elə?" Dedi: "Sürüşkən və hamar bir şeydir. Orada çəngəllər, qarmaqlar və dəmir tikanlar vardır. Bunlar Nəcddə bitən, *üstü* tikanla *dolu*, sadan deyilən bir bitkiyə *bənzəyir*. Möminlərdən – *kimisi* bir göz qırpımında, *kimisi* şimşək tək, *kimisi* külək kimi, *kimisi* quş kimi, *kimisi də* ən bərk qaçan cins at və ya dəvə kimi *sürətlə həmin körpünün üstündən* keçəcək. *Kimisi* sağ-salamat qurtulacaq. Kimisi *tikanlara ilişib* didik-didik ediləcək, lakin axırda xilas olacaq. Bəziləri də Cəhənnəm odunda qalaqlanacaqlar" (Səhih Muslim, 454); digər rəvayətdə Əbu Səid əl-Xudri ﵁ demişdir: "O körpünün tükdən nazik və qılıncdan iti olduğu mənə xəbər verilmişdir" (Səhih Muslim, 455).

[4] 181-ci hədisin qeydlərinə bax.

Nəhayət, onlar təmizləndikdən və (günahlardan) azad olduqdan sonra onlara Cənnətə daxil olmağa izin veriləcək.[1] Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, onlardan hər biri Cənnətdəki yerini dünyadakı mənzilindən daha rahat tapacaq.[2]"

٤٨٧- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِيَّاكُمْ وَالظُّلْمَ، فَإِنَّ الظُّلْمَ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ، وَإِيَّاكُمْ وَالْفُحْشَ، فَإِنَّ اللَّهَ لاَ يُحِبُّ الْفَاحِشَ الْمُتَفَحِّشَ، وَإِيَّاكُمْ وَالشُّحَّ، فَإِنَّهُ دَعَا مَنْ كَانَ قَبْلَكُمْ فَقَطَعُوا أَرْحَامَهُمْ، وَدَعَاهُمْ فَاسْتَحَلُّوا مَحَارِمَهُمْ)).

**(487)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Zülm etməkdən çəkinin! Çünki zülm Qiyamət günü zülmətlərə çevriləcəkdir. Ədəbsiz olmaqdan çəkinin! Çünki Allah ədəbsiz və kobud olanı

---

[1] Bu, dəlildir ki, Cənnətə yalnız pak adamlar girəcəklər. Müşriklərin, kafirlərin və münafiqlərin murdarlığı isə həmin gün heç bir şeylə təmizlənməyəcək. Müşriklərin və kafirlərin bağışlanmayacaqları barədə Quranda belə buyurulur: **"Əgər yer üzündə olan hər şey, üstəlik, bir o qədəri də kafirlərə məxsus olsaydı və onlar bunu Qiyamət gününün əzabından qurtarmaq üçün fidyə versəydilər, onlardan qəbul olunmazdı. Onlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır"** (əl-Maidə, 36); münafiqlər barədə də belə buyurulur: **"Bu gün nə sizdən, nə də kafirlərdən heç bir fidyə qəbul olunmaz. Sığınacağınız yer də Oddur. Sizə layiq olan elə odur. Ora nə pis dönüş yeridir!"** (əl-Hədid, 15). Bəzi günahkarlar isə günahlarına görə Cəhənnəmə girəcək və nəhayət, günahlardan təmizləndikdən sonra oradan çıxıb Cənnətə daxil olacaqlar. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Cəhənnəm əhli olan cəhənnəmliklərə gəlincə, onlar orada nə ölüb *əzabdan qurtula biləcəklər*, nə də yaşayıb *həyatdan zövq ala biləcəklər*. Ancaq *orada* günahları *və ya xətaları* üzündən atəşə giriftar olmuş bir qrup insan olacaq ki, Allah *bu insanlara bir müddət əzab verdikdən sonra* onları öldürəcək. Nəhayət, kömür kimi olduqları zaman *onlara* şəfaət edilməsinə izin veriləcək və onlar dəstə-dəstə Cənnət çaylarının başına gətiriləcəklər. Sonra belə buyurulacaq: "Ey Cənnət əhli! Bunların üstünə *su* tökün". Beləliklə, onlar selin gətirdiyi *çör-çöp* içində olan toxumların cücərib yetişdiyi kimi diriləcəklər (Səhih Muslim, 459).

[2] Uca Allah Cənnət əhlini vəsf edərkən belə buyurur: **"*Allah* onları doğru yola yönəldəcək, onların halını yaxşılaşdıracaq və onları özlərinə tanıtmış olduğu Cənnətə daxil edəcəkdir"** (Muhəmməd, 5-6).

sevmir. Tamahkarlıqdan çəkinin! Çünki o sizdən əvvəlkiləri qohumluq əlaqələrini kəsməyə və özlərinə haram buyurulan şeyləri halal qəbul etməyə vadar etmişdir.”[1]

**٤٨٨-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مَسْلَمَةَ قَالَ: حَدَّثَنَا دَاوُدُ بْنُ قَيْسٍ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ مِقْسَمٍ، عَنْ جَابِرٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِيَّاكُمْ وَالظُّلْمَ، فَإِنَّ الظُّلْمَ ظُلُمَاتٌ يَوْمَ الْقِيَامَةِ، وَاتَّقُوا الشُّحَّ، فَإِنَّهُ أَهْلَكَ مَنْ كَانَ قَبْلَكُمْ، وَحَمَلَهُمْ عَلَى أَنْ سَفَكُوا دِمَاءَهُمْ، وَاسْتَحَلُّوا مَحَارِمَهُمْ)).

**(488)** ........ Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Zülm etməkdən çəkinin! Çünki zülm Qiyamət günü zülmətlərə çevriləcəkdir. Tamahkarlıqdan çəkinin! Çünki o, sizdən əvvəlkiləri məhv etmiş və onları (bir-birinin) qanlarını axıtmağa, özlərinə haram buyurulan şeyləri halal qəbul etməyə vadar etmişdir.”[2]

**٤٨٩-** حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ عَاصِمٍ، عَنْ أَبِي الضُّحَى قَالَ: اجْتَمَعَ مَسْرُوقٌ وَشُتَيْرُ بْنُ شَكَلٍ فِي الْمَسْجِدِ، فَتَقَوَّضَ إِلَيْهِمَا حِلَقُ الْمَسْجِدِ، فَقَالَ مَسْرُوقٌ: لاَ أَرَى هَؤُلاَءِ يَجْتَمِعُونَ إِلَيْنَا إِلاَّ لِيَسْتَمِعُوا مِنَّا خَيْرًا، فَإِمَّا أَنْ تُحَدِّثَ عَنْ عَبْدِ اللَّهِ فَأُصَدِّقَكَ أَنَا، وَإِمَّا أَنْ أُحَدِّثَ عَنْ عَبْدِ اللَّهِ فَتُصَدِّقَنِي؟ فَقَالَ: حَدِّثْ يَا أَبَا عَائِشَةَ، قَالَ: هَلْ سَمِعْتَ عَبْدَ اللَّهِ يَقُولُ: الْعَيْنَانِ يَزْنِيَانِ، وَالْيَدَانِ يَزْنِيَانِ، وَالرِّجْلاَنِ يَزْنِيَانِ، وَالْفَرْجُ يُصَدِّقُ ذَلِكَ أَوْ يُكَذِّبُهُ؟ فَقَالَ: نَعَمْ، قَالَ: وَأَنَا سَمِعْتُهُ، قَالَ: فَهَلْ سَمِعْتَ عَبْدَ اللَّهِ يَقُولُ: مَا فِي الْقُرْآنِ آيَةٌ أَجْمَعَ لِحَلاَلٍ وَحَرَامٍ وَأَمْرٍ وَنَهْيٍ، مِنْ هَذِهِ الْآيَةِ: ﴿إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالإِحْسَانِ وَإِيتَاءِ ذِي الْقُرْبَى﴾؟ قَالَ: نَعَمْ، قَالَ: وَأَنَا قَدْ سَمِعْتُهُ، قَالَ: فَهَلْ سَمِعْتَ عَبْدَ اللَّهِ يَقُولُ: مَا فِي الْقُرْآنِ آيَةٌ أَسْرَعَ فَرَجًا مِنْ قَوْلِهِ: ﴿وَمَنْ يَتَّقِ اللَّهَ يَجْعَلْ لَهُ مَخْرَجًا﴾؟ قَالَ: نَعَمْ، قَالَ: وَأَنَا قَدْ سَمِعْتُهُ، قَالَ: فَهَلْ سَمِعْتَ عَبْدَ اللَّهِ يَقُولُ: مَا فِي الْقُرْآنِ آيَةٌ أَشَدَّ تَفْوِيضًا مِنْ قَوْلِهِ: ﴿يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَى أَنْفُسِهِمْ لاَ تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ﴾؟ قَالَ: نَعَمْ، قَالَ: وَأَنَا سَمِعْتُهُ.

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[2] 483-cü hədisə və onun qeydlərinə bax.

**(489)** ........ Əbu Duha demişdir: "(Bir gün) Məsruq və Şuteyr ibn Şəkəl məsciddə bir yerdə oturdular. Məsciddə olan adamlar da qalxıb onların başına yığışdılar. Məsruq dedi: "Görürəm ki, ətrafımıza toplaşan bu adamlar bizdən xeyirli söz eşitmək istəyirlər.[1] Ya sən Abdullahdan hədis rəvayət et, mən onu təsdiq edim, ya da mən Abdullahdan hədis rəvayət edim, sən onu təsdiq et.[2] Şuteyr ibn Şəkəl dedi: "Danış, ey Əbu Aişə!" *Məsruq* dedi: "Abdullahın: "Gözlər zina edir, əllər zina edir, ayaqlar zina edir,[3] cinsiyyət üzvü isə bunları ya, təsdiqləyir,[4] ya da, təkzib edir"– dediyini eşitmisənmi?[5] *Şuteyr*: "Bəli!"– deyə cavab verdi. *Məsruq*: "Mən də bunu eşitmişəm"– dedi. *Yenə* soruşdu: "Abdullahın: "Quranda halal və haramı, əmr və qadağanı bir araya gətirən: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməl-**

---

[1] Bu, elm öyrənmək məqsədilə məsciddə alimin başına toplaşmağın müstəhəb əməllərdən olmasına dəlalət edir.

[2] Burada bir tabiinin dediyini başqa bir tabiinin təsdiqləməsi o deməkdir ki, bu məclisdə həmin hədisi eşidənlər onu iki isnadla – Məsruqdan və Şuteyrdən eşitmişlər.

[3] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah zinadan Adəm övladının payına düşəni əzəldən yazmışdır və o, istər-istəməz buna mübtəla olacaqdır. Gözün zinası – baxmaq, qulaqların zinası – qulaq asmaq, dilin zinası – danışmaq, əlin zinası – toxunmaq, ayağın zinası – addım atmaqdır. Qəlb istəyir və təmənna edir, cinsiyyət üzvü isə ya bütün bunları təsdiqləyir, ya da təkzib edir" (Səhih əl-Buxari, 6243; Səhih Muslim, 2567). Hədisdən aydın olur ki, şəhvətlə naməhrəm qadına baxmaq, onun səsini dinləmək, onunla danışmaq, ona toxunmaq, buna doğru addım atmaq zina sayılır. Naməhrəmə baxmağın qadağan olunması barədə Quranda buyurulur: **"Mömin kişilərə de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar"** (ən-Nur, 30-31). Qadına toxunmaq xüsusunda isə Peyğəmbər ﷺ demişdir: "Sizlərdən birinin başına dəmir iynənin sancılması, naməhrəm qadına toxunmaqdan xeyirlidir" (Silsilətul-Əhadisis-Səhihə, 226; Səhih əl-Cami, 5045).

[4] Bu, dəlildir ki, zahiri əməllər də təsdiq sayılır.

[5] Abdullah ibn Məsud ؓ bunu Peyğəmbərdən ﷺ rəvayət etmişdir (Musnəd Əhməd, 2/344; İrvaul-Ğəlil, 6/198).

**lər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız"**[1] ayəsindən daha əhatəli bir ayə yoxdur"– dediyini eşitmisənmi? *Şuteyr*: "Bəli!"– deyə cavab verdi. *Məsruq*: "Mən də bunu eşitmişəm"– dedi. *Yenə* soruşdu: "Abdullahın: "*İnsana* Qurandakı: **"Allahdan qorxana, *Allah* çıxış yolu göstərər"**[2] ayəsindən daha tez uğur gətirən ayə yoxdur"– dediyini eşitmisənmi? *Şuteyr*: "Bəli!"– deyə cavab verdi. *Məsruq*: "Mən də bunu eşitmişəm"– dedi. *Yenə* soruşdu: "Abdullahın: "Quranda: ***"Qullarıma mənim bu sözümü* de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"**[3] ayəsindən daha çox ümid verən ayə yoxdur"– dediyini eşitmisənmi? *Şuteyr*: "Bəli!"– deyə cavab verdi. *Məsruq*: "Mən də bunu eşitmişəm"– dedi."[4]

٤٩٠– حَدَّثَنَا عَبْدُ الأَعْلَى بْنُ مُسْهِرٍ، أَوْ بَلَغَنِي عَنْهُ، قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ عَبْدِ الْعَزِيزِ، عَنْ رَبِيعَةَ بْنِ يَزِيدَ، عَنْ أَبِي إِدْرِيسَ الْخَوْلاَنِيِّ، عَنْ أَبِي ذَرٍّ، عَنِ النَّبِيِّ ﷺ، عَنِ اللَّهِ تَبَارَكَ وَتَعَالَى قَالَ: يَا عِبَادِي، إِنِّي قَدْ حَرَّمْتُ الظُّلْمَ عَلَى نَفْسِي، وَجَعَلْتُهُ مُحَرَّمًا بَيْنَكُمْ فَلاَ تَظَالَمُوا. يَا عِبَادِي، إِنَّكُمُ الَّذِينَ تُخْطِئُونَ بِاللَّيْلِ وَالنَّهَارِ وَأَنَا أَغْفِرُ الذُّنُوبَ، وَلاَ أُبَالِي، فَاسْتَغْفِرُونِي أَغْفِرْ لَكُمْ. يَا عِبَادِي، كُلُّكُمْ جَائِعٌ إِلاَّ مَنْ أَطْعَمْتُهُ، فَاسْتَطْعِمُونِي أُطْعِمْكُمْ. يَا عِبَادِي، كُلُّكُمْ عَارٍ إِلاَّ مَنْ كَسَوْتُهُ، فَاسْتَكْسُونِي أَكْسُكُمْ.

---

[1] "ən-Nəhl" surəsi, 90.

[2] "ət-Talaq" surəsi, 2.

[3] "əz-Zumər" surəsi, 53. Rəvayət edilir ki, ibn Abbas ﵄ demişdir: "Müşriklərdən olan bir zümrə çox adam öldürmüş və dəfələrlə zina etmişdi. Sonra Muhəmmədin ﷺ yanına gəlib dedilər: "Sənin danışdıqların və dəvət etdiyin yol gözəldir... Bir de görək, bizim etdiyimiz *bu günahların* kəffarəsi varmı?" Onda bu ayə nazil oldu: **"Onlar Allahla yanaşı başqa tanrıya yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar"** (əl-Furqan, 68). *Sonra da* bu ayə nazil oldu: ***"Qullarıma mənim bu sözümü* de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin"** (əl-Buxari, 4810).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

يَا عِبَادِي، لَوْ أَنَّ أَوَّلَكُمْ وَآخِرَكُمْ، وَإِنْسَكُمْ وَجِنَّكُمْ، كَانُوا عَلَى أَتْقَى قَلْبِ عَبْدٍ مِنْكُمْ، لَمْ يَزِدْ ذَلِكَ فِي مُلْكِي شَيْئًا، وَلَوْ كَانُوا عَلَى أَفْجَرِ قَلْبِ رَجُلٍ، لَمْ يَنْقُصْ ذَلِكَ مِنْ مُلْكِي شَيْئًا، وَلَوِ اجْتَمَعُوا فِي صَعِيدٍ وَاحِدٍ فَسَأَلُونِي فَأَعْطَيْتُ كُلَّ إِنْسَانٍ مِنْهُمْ مَا سَأَلَ، لَمْ يَنْقُصْ ذَلِكَ مِنْ مُلْكِي شَيْئًا، إِلاَّ كَمَا يَنْقُصُ الْبَحْرُ أَنْ يُغْمَسَ فِيهِ الْخَيْطُ غَمْسَةً وَاحِدَةً. يَا عِبَادِي، إِنَّمَا هِيَ أَعْمَالُكُمْ أَجْعَلُهَا عَلَيْكُمْ، فَمَنْ وَجَدَ خَيْرًا فَلْيَحْمَدِ اللَّهَ، وَمَنْ وَجَدَ غَيْرَ ذَلِكَ فَلاَ يَلُومُ إِلاَّ نَفْسَهُ كَانَ أَبُو إِدْرِيسَ إِذَا حَدَّثَ بِهَذَا الْحَدِيثِ جَثَى عَلَى رُكْبَتَيْهِ.

**(490)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah belə buyurur:[1]

– Ey qullarım! Mən zülm etməyi Özümə haram etdim və sizin aranızda da onu haram buyurdum. Elə isə, bir-birinizə zülm etməyin.[2]

---

[1] Belə hədislər "qüdsi hədis" yaxud "ilahi hədis" adlanır. İbn Teymiyyə ﷺ bu hədis barədə demişdir: "Bilmək lazımdır ki, bu hədis olduqca dəyərli, dərəcəsi də çox yüksək olan bir hədisdir. Odur ki, İmam Əhməd deyərmiş: "Bu, şamlılar üçün ən şərəfli hədis hesab edilir." Əbu İdris əl-Xovlani hər dəfə bu hədisi danışarkən diz çökərmiş. Bu hədisi səma altında və yer üzündə ən doğru danışan kimsələrdən olmuş Əbu Zərr ﷺ rəvayət etmişdir. Bu, Rəsulullahın ﷺ Öz Rəbbindən rəvayət etdiyi ilahi hədislərdəndir. Bu hədis Quran ayəsi sayılmasa da, Peyğəmbər ﷺ onun Uca Allahın Kəlamı olduğunu xəbər vermişdir... Bu hədis İslam dininin, ayrı-ayrı elmlərə, əməllərə, əsaslara və ikincidərəcəli işlərə aid əzəmətli qaydalarını özündə cəm etmişdir (Məcmu əl-Fətavə, 18/157).

[2] Zülm: bir şeyi öz yerinə qoymamaqdır. Allahın zülmü Özünə haram etməsi Onun adilliyinin kamilliyinə dəlalət edir. Elm əhlinin qoyduğu qaydaya əsasən Kitab və Sünnədə varid olmuş, Allaha aid edilməyən hər bir naqis sifət onun əksinin kamilliyini isbat edir. Bu xüsusda, Uca Allah belə buyurur: **"Mən bəndələrə zülm edən deyiləm!"** (Qaf, 29); O, həmçinin, buyurur: **"Allah aləmlərə zülm etmək istəmir"** (Ali-İmran, 108); O, həmçinin, buyurur: **"Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz"** (ən-Nisa, 40). Bəndələrin etdiyi zülm iki növdür: Allahın haqlarına aid olan və bir də insan hüquqlarına aid olan. Zülmlərin ən böyüyü isə Allahın hüdudlarını aşmaq və Ona şərik qoşmaqdır. Bundan sonra zülm xüsusunda dərəcə etibarilə əvvəlcə böyük günahlar, sonra da kiçik günahlar gəlir. Allahın buyurduğu haqlar xüsusunda zülm, əsas üç şeyi əhatə edir. Bunları Peyğəmbər ﷺ Vida həccindəki xütbəsində bəyan edib demişdir: "Sizin qanınız, malınız və namusunuz, bu ayınız da və bu şəhəriniz də, bu gününüzün haramlığı kimi bir-birinizə haramdır" (181-ci və 483-cü hədislərin qeydlərinə bax). Hər kim başqa birisinin haqqına girsə, Qiyamət günü həmin haqq onun boynuna keçər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Kim *başqasının* torpağını haqsızcasına zəbt etsə, *Qiyamət günü* torpağın yeddi

– Ey qullarım! Siz gecə-gündüz günah işlər görürsünüz.[1] Mən isə günahları bağışlayıram və *buna* əhəmiyyət vermirəm.[2] Elə isə, Məndən bağışlanma diləyin, sizi bağışlayım.[3]

---

qatı onun boynuna keçər" (Səhih əl-Buxari, 2452). Ağıllı adam əcəli yetişməmişdən öncə zülm etdiyi adamların haqqını qaytarar və onlardan halallıq alar. Əks halda, Qiyamət günü peşman olar. Peyğəmbər ﷺ öz ümmətinə belə nəsihət etmişdir: "Qoy birisinin namusuna toxunmaqla və ya ona başqa bir pislik etməklə zülm etmiş adam, bu gün, dinar və dirhəmin *fayda verməyəcəyi gün* gəlməmişdən əvvəl ondan halallıq diləsin. Əgər *Qiyamət günü* onun savabı olarsa, etdiyi zülm qədər savabından götürülər *və zülm etdiyi adama verilər*; yox əgər savabı olmazsa, onda zülm etdiyi adamın günahlarından götürülüb onun boynuna qoyular" (Səhih əl-Buxari, 2449); digər hədisdə o, demişdir: "Zülm üç növdür: Allahın sərbəst buraxmadığı zülm, bağışladığı zülm və bir də bağışlamadığı zülm. Allahın bağışlamadığı zülmə gəlincə, bu, Allaha şərik qoşmaqdır. Allahın bağışladığı zülm isə bəndənin özü ilə öz Rəbbi arasında olan zülmləridir. Allahın sərbəst buraxmadığı zülm isə Onun qullarına edilən zülmdür. Buna görə onlar bir-birindən qisas alacaqlar (Musnəd ət-Təyalisi, 2/60-61; Hilyə, 6/309; Silsilətul-Əhadisis-Səhihə, 1927). Allaha şərik qoşanların əzabı xüsusunda Quranda keçən ən şiddətli ayədə belə buyurulur: **"Elə isə, dadın *əzabı!* Biz sizə əzabdan başqa bir şey artırmayacağıq!"** (ən-Nəbə, 30). Sərbəst buraxılmayan zülmə isə Allahın bu ayəsini dəlil göstərmək olar: **"Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. *Görülmüş iş* bir xardal dənəsi mislində olsa belə, onu gətirib *tərəziyə* qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik"** (əl-Ənbiya, 47). Üçüncü növ zülmü isə Allah dilədiyinə bağışlayacaq, dilədiyini də cəzalandıracaq, lakin cəzalandırdığı bəndəsini, müşriklər tək əbədi olaraq Cəhənnəmə giriftar etməyəcək.

[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Adəm övladlarının hamısı xəta edir. Xəta edənlərin ən xeyirlisi isə tövbə edənlərdir" (Sunən ət-Tirmizi, 2499; Səhih Tərğib vət-Tərhib, 3139).

[2] Yəni günahın böyüklüyü Allah üçün əhəmiyyət kəsb etmir. Peyğəmbərin ﷺ rəvayət etdiyi qüdsi hədislərin birində Uca Allah buyurur: **"Ey Adəm övladı! Nə qədər ki, Mənə dua edirsən və Mənim** (mərhəmətimə) **ümid bağlayırsan, Mən sənin günahlarının hamısını bağışlayıram və (günahın çoxluğuna və böyüklüyünə) əhəmiyyət vermirəm. Ey Adəm övladı! Əgər sənin günahların (yerdən) göyədək olsa, sonra da Məndən bağışlanma diləsən, Mən səni bağışlayaram və (günahın çoxluğuna və böyüklüyünə) əhəmiyyət vermərəm. Ey Adəm övladı! Əgər sən yer dolusu günahla Mənə tərəf gəlsən və heç bir şeyi Mənə şərik qoşmadan, Mənim hüzuruma çıxsan, Mən sənə yer dolusu məğfirət əta edərəm"** (Sunən ət-Tirmizi, 2/270; Silsilətul-Əhadisis-Səhihə, 127).

[3] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Vallahi, mən hər gün yetmiş dəfədən çox Allahdan həm bağışlanma diləyir, həm də Ona tövbə edirəm" (Səhih əl-Buxari, 6307). Bu

– Ey qullarım! Mən yedirdiyim kəslərdən başqa, hamınız acsınız. Elə isə, Məndən yemək istəyin, sizi yedirdim.[1]

– Ey qullarım! Mən geydirdiyim kəslərdən başqa, hamınız çılpaqsınız. Elə isə, Məndən geyim istəyin, sizi geyindirim.[2]

– Ey qullarım! Əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz aranızdakı ən təqvalı insan kimi olsalar, bu, Mənim mülkümdə heç bir şey artırmaz. Habelə, onlar aranızdakı ən günahkar bir kimsə kimi olsalar, bu, Mənim mülkümdən heç bir şey əksiltməz.[3] Və əgər hamısı bir

---

hədislər Allahın Tövbələri qəbul edən, Bağışlayan, Əfv edən, Rəhmli və Mərhəmətli Rəbb olduğunu bildirir.

[1] Bundan aydın olur ki, yaradılanların hamısı özlərinin dünya və din işlərində xeyir əldə etmək və zərəri dəf etmək xüsusunda Allaha möhtacdırlar. Bu haqda Quranda neçə-neçə ayələr vardır: **"Həqiqətən, Allah ruzi verəndir, Qüvvət sahibidir, Mətindir"** (əz-Zariyat, 58); **"Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə, ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin"** (əl-Ənkəbut, 17); **"Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin"** (Hud, 6). **"Allah insanlara Öz mərhəmətindən nəyi nəsib edərsə, heç kəs onun qarşısını ala bilməz. Onun göndərmədiyi bir şeyi də Ondan başqa heç kəs verə bilməz"** (Fatir, 2). Xüsusilə qeyd etmək lazımdır ki, pak və halal ruzi qazanmaq istəyən kəs Allahın layiqli mömin qulu olmalı – Allahdan qorxmalı, yalnız Ona ibadət etməli, yalnız Ondan mədəd diləməli, üstəlik, bu yolda səbəblərdən də tutmalıdır.

[2] Bu rəvayətə və İmam Muslimin nəql etdiyi rəvayətə diqqətlə nəzər salsaq görərik ki, burada Uca Allah Öz qullarına Ondan öncə hidayət, sonra yemək, sonra da geyim diləməyi buyurur. Bu da, o deməkdir ki, insanın hər şeydən çox hidayətə ehtiyacı var. Sonra yemək-içməyə, bundan sonra da geyimə.

[3] Yəni nə itaətkar bəndənin itaətinin Allaha bir faydası ola bilər, nə də asi adamın asiliyinin Allaha bir zərəri dəyə bilər. Hər kəsin etdiyi yaxşılıq və pislik ancaq onun özünə qayıdır. Bu xüsusda, Uca Allah buyurur: **"Kim doğru yolla getsə, xeyri onun özünə dəyər, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar"** (Yunus, 108); O, həmçinin, buyurur: **"Kim küfr edərsə, küfrü öz əleyhinə olar. Yaxşı iş görənlər isə özləri üçün *Cənnətdə yer* hazırlamış olarlar"** (ər-Rum, 44). Bəndənin ibadətinin və ya asiliyinin Allaha aidiyyəti olmasa da, Allahın mərhəmətindəndir ki, O, Öz bəndələrinin tövbə etməsinə sevinir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Allah Öz qulunun tövbəsinə üstündə yemək-içməyi yüklənmiş dəvəsi ilə birgə təhlükəli bir yerdə dayanan və başını yerə qoyub yatan, oyandıqda dəvəsinin qaçdığını görən, özü də bərk istiyə və susuzluğa məruz qaldıqdan sonra: "Yerimə qayıdım"– deyərək geri qayıdıb, bir qədər də yatan və nəhayət, oyanıb başını qaldırdıqda, dəvəsini yanında görən kimsədən daha çox sevinir" (Səhih əl-Buxari, 6308).

yerə toplanıb Məndən istəsələr, Mən də onların hər birinin istədiyini versəm, bu Mənim mülkümdən heç bir şey əksiltməz.[1] Yalnız bircə dəfə dənizə batırılan iynənin dənizdən əksiltdiyi qədər əksildər.

– Ey qullarım! Bu, sizin əməllərinizdir. Onları sizin üçün hesaba alacağam.[2] Odur ki, kim xeyir tapsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey tapsa, özündən başqa heç kəsi qınamasın.[3]"

---

[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahın Əli doludur. *Bu nemətlərin* səhər-axşam ardı-arası kəsilmədən xərclənməsi Onun Əlini boş qoya bilməz. Məgər Allahın göyü və yeri yaratdığı gündən bəri nə qədər xərclədiyini görmürsünüz?! Bu, Onun Əlindəkilərin azalmasına *zərrə qədər* təsir göstərməmişdir" (Səhih əl-Buxari, 4684). Allahın nemətlərinin tükənməz olduğu barədə Quranda belə buyurulur: **"Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır"** (ən-Nəhl, 96).

[2] Cənnət əhli Cənnətə daxil olduqda deyəcəklər: **"Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət etməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik"** (əl-Əraf, 43); günahkarlar isə Qiyamət günü həm özlərini, həm də öz böyüklərini qınayacaqlar: "**Həqiqətən, Allah kafirləri lənətləmiş və onlar üçün *yandırıb-yaxan* Od hazırlamışdır. Onlar orada əbədi qalacaq, *özlərinə* nə bir himayəçi, nə də bir yardımçı tapa biləcəklər. Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allaha ibadət edəydik, Onun rəsuluna itaətkar olaydıq!" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onları ikiqat əziyyətə sal və onları müdhiş bir lənətə məruz qoy!"** (əl-Əhzab, 64-68); **"Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr mənə çatdıqdan sonra o məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır"** (əl-Furqan, 27-29). Nəhayət: **"İş bitdikdə şeytan deyəcək: "Həqiqətən də, Allah sizə gerçək vəd vermişdi. Mən də sizə vəd vermişdim, lakin *vədimə* xilaf çıxdım. Mənim sizin üstünüzdə heç bir hökmranlığım yox idi. Mən sizi *azğınlığa* dəvət etdim, siz də *dəvətimi* qəbul etdiniz. Buna görə də məni yox, özünüzü qınayın"** (İbrahim, 22). Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Bu dünya gəldi-gedərdi və o, artıq geridə qalmışdır. Axirət isə qarşıda hər kəsi gözləməkdədir. İkisinin də öz övladları (yəni ona könül bağlayanları) vardır. Siz ey müsəlmanlar, dünya övladlarından yox, Axirət övladlarından olun! Bu gün bir iş görürsünüz, ancaq sorğu-sual olunmursunuz. Sabah isə sorğu-sual olunacaq və heç bir iş (yəni tövbə) edə bilməyəcəksiniz" (Səhih əl-Buxari, "*Qəlbi* yumşaldan *əməllər* kitabı", 3-cü fəsil: "Arzuların çox olması haqqında").

[3] Bu, dəlildir ki, insana bəxş edilən hər bir xeyir Allahın ona olan bir lütfüdür. Başına gələn hər bir şər isə nəfsinə uyaraq etdiyi əməlinin bəhrəsidir. Bu xüsusda Quranda belə buyurulur: **"Sənə gələn yaxşılıq Allahdandır, sənə üz vermiş bəla isə sənin özün-**

"Əbu İdris hər dəfə bu hədisi danışanda diz çökərdi.[1]"[2]

---

**dəndir"** (ən-Nisa, 79); Uca Allah həmçinin, buyurur: **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq"** (ən-Nəhl, 97).

[1] Şeyx Albani demişdir: "Əbu İdris əl-Xovlani bu hədisin möhtəşəmliyini təsdiq etmək üçün diz çökərmiş. Çünki bu, aləmlərin Rəbbinin Kəlamından olan qüdsi hədisdir. Bu hədis şamlıların rəvayətlərindəndir. (Yəni hədisin isnadında keçən ravilərin hamısı Şam əhlindəndir.) İbn Əsakir (8/836) Əbu Mushirin belə dediyini rəvayət etmişdir: "Şam əhli üçün Əbu Zərrin ﷺ bu hədisindən daha şərəfli hədis yoxdur."

[2] Bu hədisi Muslim (2577), Tirmizi (2495), İbn Macə (4257), Əhməd (5/154, 160 və 177), Bəzzar (4051 və 4052), İbn Hibban (619), Təyalisi (463), Hakim (4/241), Beyhəqi (Şoəbul-İman, 6/93), Əbu Nueym (Hilyə, 5/125-126), Xətib (Tarix, 7/203-204), Hənnad (Zuhd, 905) və Təbərani (Musnəduş-Şamiyyin, 338 və 2811) rəvayət etmişdir. İmam Buxarinin bu rəvayətindən fərqli olaraq İmam Muslim öz "Səhih"ində bu hədisi tam olaraq rəvayət etmişdir. Bu iki hədisə sadəcə nəzər saldıqda onların arasında olan fərq gözə çarpır. Belə ki, bu kitabdakı rəvayətdə Uca Allahın altı dəfə "Ey qullarım!"– deyə müraciət etdiyi, İmam Muslimin "Səhih"ində isə Allahın düz ona dəfə "Ey qullarım!"– deyə müraciət etdiyi xəbər verilir. Həmin hədisin mətni aşağıdakı kimidir:

Əbu İdris əl-Xovlanidən rəvayət edilir ki, Əbu Zərr ﷺ Peyğəmbərin ﷺ Uca Allahdan belə rəvayət etdiyini xəbər vermişdir:

– Ey qullarım! Mən zülm etməyi Özümə haram etdim və sizin aranızda da onu haram buyurdum. Elə isə, bir-birinizə zülm etməyin.

– Ey qullarım! Mən hidayət verdiyim kimsələrdən başqa hamınız zəlalətdəsiniz. Elə isə, Məndən hidayət diləyin, sizə hidayət bəxş edim.

– Ey qullarım! Mən yedirdiyim kəslərdən başqa hamınız acsınız. Elə isə, Məndən yemək istəyin, sizi yedirdim.

– Ey qullarım! Mən geydirdiyim kəslərdən başqa hamınız çılpaqsınız. Elə isə, Məndən geyim istəyin, sizi geyindirim.

– Ey qullarım! Siz gecə-gündüz günah işlər görürsünüz. Mən isə bütün günahları bağışlayıram. Elə isə, Məndən bağışlanma diləyin, sizi bağışlayım.

– Ey qullarım! Siz Mənə zərər yetirməyə qadir deyilsiniz ki, zərər yetirəsiniz. Eləcə də, Mənə fayda verməyə qadir deyilsiniz ki, fayda verəsiniz.

– Ey qullarım! Əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz aranızdakı ən təqvalı insan kimi olsalar belə, bu, Mənim mülkümdə heç bir şey artırmaz.

– Ey qullarım! Əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz aranızdakı ən günahkar bir kimsə kimi olsalar belə, bu, Mənim mülkümdən heç bir şey əksiltməz.

– Ey qullarım! Əgər əvvəlinciləriniz və axırıncılarınız – insanlarınız və cinləriniz bir yerə toplanıb Məndən istəsələr, Mən də hər kəsə istədiyini versəm, bu, Mənim mülkümdən heç bir şey əksiltməz. Yalnız dənizə batırılan iynənin *dənizdən* əksiltdiyi kimi əksildər.

– Ey qullarım! Bu sizin əməllərinizdir. Mən onları sizin üçün hesaba alacaq, sonra da sizə onların əvəzini verəcəyəm. Odur ki, kim xeyir taparsa, Allaha həmd etsin. Kim də xeyirdən başqa bir şey taparsa, özündən başqa heç kəsi qınamasın."

Səid demişdir: "Əbu İdris əl-Xovlani hər dəfə bu hədisi danışanda diz çökərdi."

## ٢٢٦- بَابُ كَفَّارَةِ الْمَرِيضِ

## 226-cı fəsil. Xəstənin kəffarəsi[1]

٤٩١- حَدَّثَنَا إِسْحَاقُ بْنُ الْعَلَاءِ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَالِمٍ، عَنْ مُحَمَّدٍ الزُّبَيْدِيِّ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ عَامِرٍ، أَنَّ غُطَيْفَ بْنَ الْحَارِثِ أَخْبَرَهُ، أَنَّ رَجُلًا أَتَى أَبَا عُبَيْدَةَ بْنَ الْجَرَّاحِ، وَهُوَ وَجِعٌ، فَقَالَ: كَيْفَ أَمْسَى أَجْرُ الْأَمِيرِ؟ فَقَالَ: هَلْ تَدْرُونَ فِيمَا تُؤْجَرُونَ بِهِ؟ فَقَالَ: بِمَا يُصِيبُنَا فِيمَا نَكْرَهُ، فَقَالَ: إِنَّمَا تُؤْجَرُونَ بِمَا أَنْفَقْتُمْ فِي سَبِيلِ اللَّهِ، وَاسْتُنْفِقَ لَكُمْ، ثُمَّ عَدَّ أَدَاةَ الرَّحْلِ كُلَّهَا حَتَّى بَلَغَ عِذَارَ الْبِرْذَوْنِ، وَلَكِنَّ هَذَا الْوَصَبَ الَّذِي يُصِيبُكُمْ فِي أَجْسَادِكُمْ يُكَفِّرُ اللَّهُ بِهِ مِنْ خَطَايَاكُمْ.

**(491)** ........ Ğuteyf ibn əl-Haris rəvayət edir ki, Əbu Ubeydə ibn Cərrah[2] xəstə ikən bir nəfər onun yanına gəlib dedi: “Əmirin savab qazandığı gecəsi necə keçib?” Əbu Ubeydə soruşdu: “Nədən savab qazandığınızı bilirsinizmi?” Adam: “Başımıza gələn xoşlamadığımız müsibətlərdən!”– deyə cavab verdi.[3]

---

[1] Yəni xəstəlik günahların bağışlanılması üçün səbəbdir.

[2] Əbu Ubeydə Amir ibn Abdullah ibn Cərrah ﷺ Peyğəmbərin ﷺ “əmin” ləqəbi verdiyi məşhur səhabəsi və Cənnətlə müjdələdiyi on nəfərdən biridir. Peyğəmbər ﷺ onu tərifləyib demişdir: “Hər bir ümmətin *içində* ən etibarlı bir adam vardır. Bizim ən çox etibar etdiyimiz isə, ey *müsəlman* ümməti, Əbu Ubeydə ibn Cərrahdır!” (Səhih əl-Buxari, 3744).

[3] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **“**Hansı bir müsəlmanın başına müsibət gəldikdə:

(( إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ، اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْرًا مِنْهَا ))

“Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq! Allahım, başıma gəlmiş bu müsibətə görə mənə savab yaz və mənə bundan xeyirlisini nəsib et!”– desə, Allah onun savabını artırar və ona bundan da xeyirlisini nəsib edər” (Səhih Muslim, 918); başqa bir hədisdə rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: “Peyğəmbər ﷺ *ağır* xəstələndiyi zaman mən onun yanına gəldim *və baxdım ki,* o, qızdırma içində yanır. Dedim: “*Ya Rəsulullah,* sən qızdırma içində yanırsan! Yəqin bu, sənin iki savab qazanmağın üçündür?” O, dedi: “Düzdür, başına müsibət gəlmiş elə bir müsəlman yoxdur ki, Allah, ağacın yarpaqları töküldüyü kimi, onu

Əbu Ubeydə dedi: “Siz Allah yolunda xərclədiklərinizdən və sizin üçün xərclənilənlərdən savab qazanırsınız.”[1] Sonra Əbu Ubeydə heyvanlara aid əşya və alətləri, hətta atın yüyəninə qədər sadaladı.[2] Sonra dedi: “Canınıza dəymiş naxoşluq sayəsində isə Allah günahlarınızı bağışlayır.[3]”[4]

**٤٩٢**– حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنَا زُهَيْرُ بْنُ مُحَمَّدٍ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرِو بْنِ حَلْحَلَةَ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، وَأَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا يُصِيبُ الْمُسْلِمَ مِنْ نَصَبٍ، وَلاَ وَصَبٍ، وَلاَهَمٍّ، وَلاَ حَزَنٍ، وَلاَ أَذًى، وَلاَ غَمٍّ، حَتَّى الشَّوْكَةُ يُشَاكُهَا، إِلاَّ كَفَّرَ اللَّهُ بِهَا مِنْ خَطَايَاهُ)).

**(492)** ........ Əbu Səid əl-Xudri ﷺ və Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd,[5] hətta

---

günahlardan təmizləmiş olmasın” (Səhih əl-Buxari, 5647). Bu hədislərdən aydın olur ki, möminin başına gələn hər bir imtahan savabının artması üçün bir səbəbdir. Əbu Ubeydə ﷺ sanki bildirmək istəyir ki, müsibətlərin özü adama savab qazandırmır, lakin başına müsibət gəlmiş adam bu müsibətə səbir etdiyinə görə savab qazanır və günahları bağışlanır.

[1] Bu xüsusda, Uca Allah belə buyurur: **“Xərclədiyiniz hər bir sədəqə özünüz üçündür. Siz onu ancaq Allahın Üzünü dilədiyinizə görə sərf edirsiniz. Malınızdan *Allah yolunda* nə xərcləsəniz, əvəzi sizə tam veriləcək və sizə zülm edilməz”** (əl-Bəqərə, 272).

[2] Yəni bunlara görə savab qazanıldığını bildirdi. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Qiyamət gününədək atların yüyənində xeyir qalacaqdır. *İnsanlar onların sayəsində çoxlu* savab və qənimətlər *əldə edəcəklər*” (Səhih əl-Buxari, 2852); digər hədisdə o, demişdir: “Kim Allaha iman gətirərək və Onun verdiyi vədi təsdiq edərək Allah yolunda *istifadə etmək məqsədilə* bir at saxlayarsa, bu atın yediyi və içdiyi, habelə, onun nəcisi və sidiyi Qiyamət günü onun *əməl* tərəzisinə qoyular, *beləliklə də, mükafatı üstünə mükafat artırılar*” (Səhih əl-Buxari, 2853).

[3] Növbəti hədislərə bax.

[4] Bu hədisin isnadında keçən İshaq ibn Əla ibn İbrahim ibn Əla “zəif” ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

[5] Hədisdə qeyd edilmiş kədər, üzüntü və dərd kəlmələrinin mənası arasındakı fərq ondadır ki, bunlardan biri gələcəyə, ikincisi keçmişə, üçüncüsü də hazırki zamana aid

(ayağına) batmış elə bir tikan yoxdur ki, onun sayəsində Allah (həmin) müsəlmanın günahlarını bağışlamasın.[1]"[2]

**٤٩٣**– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ سَعِيدٍ، عَنْ أَبِيهِ قَالَ: كُنْتُ مَعَ سَلْمَانَ، وَعَادَ مَرِيضًا فِي كِنْدَةَ، فَلَمَّا دَخَلَ عَلَيْهِ قَالَ: أَبْشِرْ، فَإِنَّ مَرَضَ الْمُؤْمِنِ يَجْعَلُهُ اللَّهُ لَهُ كَفَّارَةً وَمُسْتَعْتَبًا، وَإِنَّ مَرَضَ الْفَاجِرِ كَالْبَعِيرِ عَقَلَهُ أَهْلُهُ ثُمَّ أَرْسَلُوهُ، فَلاَ يَدْرِي لِمَ عُقِلَ وَلِمَ أُرْسِلَ.

**(493)** ........ Abdur-Rəhman ibn Səid[3] rəvayət edir ki, atası demişdir: "Mən Salmanla[4] birgə onun Kində qəbiləsindəki xəstə bir dostuna baş çəkdik. O, dostunun yanına daxil olduqda dedi: "Sənə müjdə olsun![5] Həqiqətən də, Allah möminin xəstələnməyini ona həm kəffarə, həm də (Allahın) rizasını qazanmaq üçün bir səbəb etmişdir. Günahkarın xəstələnməyi isə sahibləri tərəfindən (bir müddət) buxovda saxlanmış, sonra da sərbəst buraxılmış

---

edilir. Yəni adam gələcəkdə baş verə biləcək müsibətlərə görə kədərlənir, olub-keçmiş müsibətlərə görə üzülür, hazırki zamanda olan müsibətlərə görə isə dərd çəkir.

[1] Möminin başına gəlmiş müsibətlərin onun günahlarını silib aparması Allahın bəxş etdiyi nemətdir. Təbii ki, bu həyatda insanın işləri həmişə yaxşı ola bilməz. Bu işlər hərdən yaxşı gedir, hərdən də Allah Öz bəndəsini imtahan edir, başına müsibətlər gətirir (Şərh Riyadus-Salihin).

[2] İmam Buxari bu hədisi öz "Səhih"ində də (5642) rəvayət etmişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Söhbət Peyğəmbərin ﷺ məşhur səhabəsi Salman Farisidən ؓ gedir (168-ci hədisin qeydlərinə bax).

[5] Burada Salman Farisi ؓ öz dostuna mütləq şəkildə "Sənə müjdə olsun!"– deyir və bunu heç bir şeylə əlaqələndirmir. Bildirmək istəyir ki, başına gələn hər bir müsibətə görə sevinsin. Belə ki, mömininin başına gələn hər bir müsibətdə onun üçün xeyir vardır. Hədislərin birində Rəsulullah ﷺ mömini vəsf edib demişdir: "Möminin işi çox qəribədir! Həqiqətən də, onun hər bir işində xeyir vardır. Bu *xüsusiyyət də* yalnız möminə məxsusdur. *Belə ki,* ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da onun xeyrinə olar" (Səhih Muslim, 7692).

dəvənin halına bənzəyir.[1] Belə ki, o dəvə nəyə görə buxovlandığını və nə üçün sərbəst buraxıldığını dərk etmir.[2]"

**٤٩٤**– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ قَالَ: أَخْبَرَنَا عَدِيُّ بْنُ عَدِيٍّ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَزَالُ الْبَلاَءُ بِالْمُؤْمِنِ وَالْمُؤْمِنَةِ، فِي جَسَدِهِ وَأَهْلِهِ وَمَالِهِ، حَتَّى يَلْقَى اللَّهَ عَزَّ وَجَلَّ وَمَا عَلَيْهِ خَطِيئَةٌ)).

**(494)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mömin kişinin və (ya) mömin qadının bədəninə, ailəsinə və mal-dövlətinə müsibət üz verməsi ta o vaxtadək davam edər ki, axırda boynunda heç bir günah qalmadığı halda Allahın ﷻ qarşısında durar.[3]"[4]

**(...)**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدٍ قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ طَلْحَةَ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو مِثْلَهُ، وَزَادَ: فِي وَلَدِهِ.

**(...)** Muhəmməd ibn Ubeyd bizə belə rəvayət etmişdir: "Bizə Ömər ibn Talhə Muhəmməd ibn Amrdan bu hədisin bənzərini rəvayət etmiş və: "övladına" sözünü əlavə etmişdir.

**٤٩٥**– حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: جَاءَ أَعْرَابِيٌّ، فَقَالَ النَّبِيُّ ﷺ: ((هَلْ أَخَذَتْكَ أُمُّ مِلْدَمٍ؟)) قَالَ: وَمَا أُمُّ مِلْدَمٍ؟ قَالَ:

---

[1] Bu, pis məsəlin pis adama çəkilməsinə dəlalət edir.

[2] Bu hədisdən aydın olur ki, möminin xəstələnmiş mömin qardaşına baş çəkməsi, xəstə qardaşını müjdələməsi, habelə, onun yanında çox oturmaqla ona əziyyət verməməsi və naşükür adamın məsəlini çəkməklə mömin olduğunun qədrini bilməsini onun yadına salması, xəstəni ziyarət etmək ədəblərinə aiddir.

[3] Hədisdən aydın olur ki, mömin adamın ömrü boyu imtahanlara məruz qalması, günahları üçün kəffarədir. Bu xüsusda Quranda deyilir: **"Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır"** (əl-Bəqərə, 156).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

((حَرٌّ بَيْنَ الجِلْدِ وَاللَّحْمِ))، قَالَ: لاَ، قَالَ: ((فَهَلْ صُدِعْتَ؟)) قَالَ: وَمَا الصُّدَاعُ؟ قَالَ: ((رِيحٌ تَعْتَرِضُ فِي الرَّأْسِ، تَضْرِبُ الْعُرُوقَ))، قَالَ: لاَ، قَالَ: فَلَمَّا قَامَ قَالَ: ((مَنْ سَرَّهُ أَنْ يَنْظُرَ إِلَى رَجُلٍ مِنْ أَهْلِ النَّارِ أَيْ: فَلْيَنْظُرْهُ)).

**(495)** ........ Əbu Hureyrə ﵁ demişdir:[1] "(Bir dəfə) bir bədəvi Peyğəmbərin ﷺ yanına gəldi və o, (bu adamdan): "Heç səni qızdırma[2] tutubmu?"– deyə soruşdu. Bədəvi: "Qızdırma nədir?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: "(Bu,) dəri ilə ət arasında olan hərarətdir." Bədəvi: "Xeyr!"– deyə cavab verdi.[3] Peyğəmbər ﷺ yenə soruşdu: "Heç başın ağrıyıbmı?"[4] Bədəvi soruşdu: "Başağrısı nədir?" Peyğəmbər ﷺ dedi: "(Bu,) başa təsir edən və damarları titrədən havadır." Bədəvi: "Xeyr!"– deyə cavab verdi. O qalxıb getdikdən sonra Peyğəmbər ﷺ dedi: "Kim Cəhənnəm əhlindən olan bir adama baxmaq istəyirsə, qoy ona baxsın.[5]"

---

[1] Bu hədisi Əhməd (2/332), İbn Hiban (2916) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən-səhih" olduğunu demişdir.

[2] Qızdırmanın mömin üçün kəffarə olması barədə Peyğəmbər ﷺ demişdir: "Körük basmaq dəmirin pasını apardığı kimi, qızdırma da Adəm övladının günahlarını *silib* aparır" (Səhih əl-Cami, 2006).

[3] Qızdırmanın hərarəti bədənin hər yerini əhatə edir (503-cü hədisə bax). Bu da, o deməkdir ki, həmin bədəvi heç vaxt xəstələnməmişdir.

[4] Başağrısının möminə fayda verməsi barədə Peyğəmbər ﷺ demişdir: "Möminin başağrısına, ayağına batan tikana və ya ona əziyyət verən (hər) bir şeyə görə Qiyamət günü Allah onun dərəcəsini yüksəldər və bunun sayəsində onun günahlarını bağışlayar" (Şoəbul-İman, 9409; Səhih Tərğib vət-Tərhib, 3434).

[5] Hərçənd, bu hədisdə xəstələnən adamın günahlarının bağışlanması və heç vaxt xəstələnməyən kimsənin Cəhənnəmə düşəcəyi xəbər verilir, lakin bu o demək deyil ki, mömin buna əsasən özünə xəstəlik diləyə bilər. Əksinə, mömin həmişə Allahdan salamatlıq diləməli və bununla yanaşı sağlamlığı üçün əlindən gələni etməlidir. Peyğəmbər ﷺ öz ümmətinə səhər-axşam Allahdan salamatlıq diləməyi öyrətmişdir (300-cü hədisin qeydlərinə bax). O, həmçinin, demişdir: "Allahdan salamatlıq diləyin!" (Səhih əl-Buxari, 2965).

Hədislərin birində Abbas ibn Abdul-Muttəlib demişdir: "(Bir gün mən Peyğəmbərə ﷺ) dedim: "Ya Rəsulullah! Mənə bir dua öyrət ki, onunla Allaha yalvarım." O buyurdu: "Ey Abbas, Allahdan salamatlıq dilə!" Mən bir müddətdən sonra yenə onun yanına gəlib dedim: "Ya Rəsulullah! Mənə bir dua öyrət ki, onunla Allaha yalvarım." O buyurdu: "Ey Abbas, ey Rəsulullahın əmisi, Allahdan dünya və axirətdə salamatlıq dilə!" (Sunən ət-Tirmizi, 2/266; Musnəd Əhməd, 1/209; Silsilətul-Əhadisis-Səhihə, 1523).

## ٢٢٧- بَابُ الْعِيَادَةِ جَوْفَ اللَّيْلِ

## 227-ci fəsil. Gecə vaxtı xəstəyə baş çəkmək

٤٩٦- حَدَّثَنَا عِمْرَانُ بْنُ مَيْسَرَةَ قَالَ: حَدَّثَنَا ابْنُ فُضَيْلٍ قَالَ: حَدَّثَنَا حُصَيْنٌ، عَنْ شَقِيقِ بْنِ سَلَمَةَ، عَنْ خَالِدِ بْنِ الرَّبِيعِ قَالَ: لَمَّا ثَقُلَ حُذَيْفَةُ سَمِعَ بِذَلِكَ رَهْطُهُ وَالأَنْصَارُ، فَأَتَوْهُ فِي جَوْفِ اللَّيْلِ أَوْ عِنْدَ الصُّبْحِ، قَالَ: أَيُّ سَاعَةٍ هَذِهِ؟ قُلْنَا: جَوْفُ اللَّيْلِ أَوْ عِنْدَ الصُّبْحِ، قَالَ: أَعُوذُ بِاللَّهِ مِنْ صَبَاحِ النَّارِ، قَالَ: جِئْتُمْ بِمَا أُكَفَّنُ بِهِ؟ قُلْنَا: نَعَمْ، قَالَ: لاَ تُغَالُوا بِالأَكْفَانِ، فَإِنَّهُ إِنْ يَكُنْ لِي عِنْدَ اللَّهِ خَيْرٌ بُدِّلْتُ بِهِ خَيْرًا مِنْهُ، وَإِنْ كَانَتِ الأُخْرَى سُلِبْتُ سَلْبًا سَرِيعًا.

قَالَ ابْنُ إِدْرِيسَ: أَتَيْنَاهُ فِي بَعْضِ اللَّيْلِ.

**(496)** ........ Xalid ibn Rabi rəvayət edir ki, Huzeyfənin[1] xəstəliyi ağırlaşarkən onun əqrəbası və ənsardan olan bir neçə nəfər bundan xəbər tutdu və gecə vaxtı yaxud səhərə yaxın ona baş çəkməyə gəldi.[2] Huzeyfə *bizdən*: "İndi hansı vaxtdır?"– deyə soruşdu.[3] Biz dedik: "Gecə vaxtıdır, yaxud səhərə yaxındır." O: "Cəhənnəmin səhərindən Allaha sığınıram!"[4]– deyə dua

---

[1] Söhbət Peyğəmbərin ﷺ məşhur səhabəsi Huzeyfə ibn Yəməndən ؓ gedir.

[2] Bu, dəlildir ki, gecə vaxtı belə xəstəyə baş çəkmək olar. Lakin bir şərtlə ki, bu ziyarət onun rahatlığını pozmasın, xəsəliyinin şiddətini artırmasın. Demək, xəstəni ziyarət etdikdə onun rahatçılığını nəzərə almaq labüddür.

[3] Olsun ki, o, hərarətinə görə ətrafda baş verənlərdən xəbərsiz olmuşdur. Çünki hərarəti olan adamın çox vaxt huşu başında olmur və nələr baş verdiyini dərk etmir.

[4] Səhabələr və onlardan sonra haqq yolu tutub getmiş möminlər nə qədər yaxşı işlər görsələr də, yenə Allahdan qorxar, əməllərinin qəbul olunacağına heç vaxt arxayın olmaz, sadəcə buna ümid edərdilər. Uca Allah onları Quranda belə vəsf edir: **"Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər – məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər"** (əl-Muminun, 57-61). Buna dair rəvayət edilmiş hədisdə Aişə ؓ demişdir: "Mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah! *Bu ayədə* "Rəbbinə qayıdacaqlar deyə, yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər" deyildikdə, zinakar, oğru və əyyaşmı qəsd edilir?" O buyurdu: "Xeyr, ey Siddiqin qızı! Bunlar o kəslərdir ki, oruc

etdi, *sonra* dedi: “Məni kəfənləyəcəyiniz şeyi gətirmisinizmi?” Biz: “Bəli!”– deyə cavab verdik. Dedi: “Kəfənlərə çox pul xərcləməyin![1] Əgər Allah yanında mənim xeyrim olarsa, bundan daha xeyirlisi ilə əvəz olunar. Yox əgər başqa cür olarsa, bu məndən tezliklə götürülər.[2]”[3]

İbn İdris demişdir: “Biz onun yanına gecənin bir aləmində getmişdik.”

**٤٩٧–** حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ الْمُغِيرَةِ، عَنِ ابْنِ أَبِي ذِئْبٍ، عَنْ جُبَيْرِ بْنِ أَبِي صَالِحٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا اشْتَكَى الْمُؤْمِنُ أَخْلَصَهُ اللَّهُ كَمَا يُخَلِّصُ الْكِيرُ خَبَثَ الْحَدِيدِ)).

---

tutur, namaz qılır, sədəqə verir, lakin əməllərinin qəbul olunmayacağından qorxurlar. Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər” (Sunən ət-Tirmizi, 2/201; Musnəd Əhməd, 6/159 və 205; Silsilətul-Əhadisis-Səhihə, 162). Bu xüsusda Həsən əl-Bəsri demişdir: “Mömin yaxşı işlər görməyi və *Allahdan* qorxmağı, münafiq isə pis işlər görməyi və arxayın olmağı *özündə* cəm etmişdir” (Təfsir İbn Kəsir). İbn Əbu Muleykə demişdir: “Mən Peyğəmbərin ﷺ otuz səhabəsini görmüşəm. Onların hamısı münafiq olmaqdan qorxurdular” (Səhih əl-Buxari, İman Kitabı, 33-cü fəsil. Möminin özü də hiss etmədən əməlinin puç olmağından qorxması).

[1] Burada Huzeyfə رضي الله عنه onlara israfa yol verməməyi buyurur. Səhabə demək istəyir ki, kəfənin bahalı olmasının ölüyə heç bir xeyri yoxdur. Niyəsini də özü izah edir.

[2] Yəni, əgər qəbirə qoyulduqdan sonra Allah ona xeyir əta edərsə, bu kəfəndən daha xeyirli nemətlərə nail olar. Yox, əgər xeyir əta etməzsə, heç bir şeyə nail olmayacaq və bu qumaş da tezliklə çürüyüb əynindən çıxacaq. Bundan aydın olur ki, adam nə qədər çox sərvət sahibi olursa olsun, bu dünyadan köçüb getdikdə özü ilə ancaq bir parça kəfən aparır, bunun da ona heç bir faydası olmur. Ağıllı adam əlindəki sərvətləri əmələ, yəni savaba çevirər ki, onu özü ilə apara bilsin. Peyğəmbər ﷺ bunun yolunu bizə öyrədib demişdir: “Adəm övladı: “Var-dövlətim, var-dövlətim”– deyir. Ey insan! Məgər, sənin var-dövlətin yalnız yeyib həzm etdiyindən, geyib köhnəltdiyindən və bir də, sədəqə verib özün üçün yığdıqlarından ibarət deyilmi?”(Səhih Muslim, 2958). Demək, adam bu həyatdan yalnız əməllərini aparacaqdır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Üç şey ölünün arxasınca *qəbirədək* gedər. İkisi qayıdar, biri isə onun yanında qalar. Əhli-əyalı, var-dövləti və əməli onun arxasınca gedər. Əhli-əyalı və var-dövləti qayıdar, əməli onun yanında qalar” (Səhih əl-Buxari, 6514).

[3] Bu hədisin isnadında keçən Xalid ibn Rəbi “məchul” ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

**(497)** ........ Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Mömin xəstələndiyi zaman körük[1] dəmirin pasını apardığı kimi, Allah da onu lardan təmizləyir.”[2]

**٤٩٨-** حَدَّثَنَا بِشْرٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ قَالَ: أَخْبَرَنَا يُونُسُ، عَنِ الزُّهْرِيِّ قَالَ: حَدَّثَنِي عُرْوَةُ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا مِنْ مُسْلِمٍ يُصَابُ بِمُصِيبَةٍ، وَجَعٍ أَوْ مَرَضٍ، إِلاَّ كَانَ كَفَّارَةَ ذُنُوبِهِ، حَتَّى الشَّوْكَةُ يُشَاكُهَا، أَوِ النَّكْبَةُ)).

**(498)** ........ Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Hansı müsəlmana müsibət – bir dərd və ya bir xəstəlik üz verərsə, bu, onun günahlarının kəffarəsi olar. Hətta, ayağına batan bir tikan yaxud (yolda) büdrəməsi belə (onun üçün kəffarədir).”[3]

**٤٩٩-** حَدَّثَنَا الْمَكِّيُّ قَالَ: حَدَّثَنَا الْجُعَيْدُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ عَائِشَةَ بِنْتِ سَعْدٍ، أَنَّ أَبَاهَا قَالَ: اشْتَكَيْتُ بِمَكَّةَ شَكْوَى شَدِيدَةً، فَجَاءَ النَّبِيُّ ﷺ يَعُودُنِي، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنِّي أَتْرُكُ مَالاً، وَإِنِّي لَمْ أَتْرُكْ إِلاَّ ابْنَةً وَاحِدَةً، أَفَأُوصِي بِثُلُثَيْ مَالِي، وَأَتْرُكُ الثُّلُثَ؟ قَالَ: ((لاَ))، قَالَ: أُوصِي النِّصْفَ، وَأَتْرُكُ لَهَا النِّصْفَ؟ قَالَ: ((لاَ))، قَالَ: فَأَوْصِي بِالثُّلُثِ، وَأَتْرُكُ لَهَا الثُّلُثَيْنِ؟ قَالَ: ((الثُّلُثُ، وَالثُّلُثُ كَثِيرٌ))، ثُمَّ وَضَعَ يَدَهُ عَلَى جَبْهَتِي، ثُمَّ مَسَحَ وَجْهِي وَبَطْنِي، ثُمَّ قَالَ: ((اللَّهُمَّ اشْفِ سَعْدًا، وَأَتِمَّ لَهُ هِجْرَتَهُ))، فَمَا زِلْتُ أَجِدُ بَرْدَ يَدِهِ عَلَى كَبِدِي فِيمَا يُخَالُ إِلَيَّ حَتَّى السَّاعَةِ.

**(499)** ........ Səd ﵁ demişdir:[4] “Mən Məkkədə ikən bərk xəstələndim. (Bu əsnada) Peyğəmbər ﷺ mənə baş çəkməyə gəldi. Mən dedim: “Ya Rəsulullah! Mən özümdən sonra (çoxlu) mal-dövlət və bir qız uşağı (varis) qoyub

---

[1] Körük: kürədə odu qızartmaq və s. məqsədlər üçün yanları büküşlü dəri və taxtadan düzəldilmiş alət.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Bu hədisi Tirmizi (3312), Əhməd (6/167) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

[4] 24-cü hədisə və onun qeydlərinə bax.

gedirəm. Malımın üçdə ikisini (Allah yolunda) vəsiyyət edib, üçdə birini (varisimə) saxlaya bilərəmmi?" O: "Xeyr!"– dedi. Soruşdum: "Malımın yarısını vəsiyyət edib, yarısını da qızıma saxlaya bilərəmmi?" O: "Xeyr!"– dedi. Soruşdum: "Malımın üçdə birini vəsiyyət edib üçdə ikisini ona saxlaya bilərəmmi?" O, dedi: "Üçdə birini (verə bilərsən). Lakin üçdə biri də çoxdur."[1] Sonra Peyğəmbər ﷺ əlini mənim alnıma qoydu, üzümün və qarnımın (tərini) sildi. Sonra da dua edib[2] dedi: "Allahım, Sədə şəfa ver və onun hicrətini tamamla!" Mən indiyə qədər onun əlinin soyuqluğunu ciyərimin üstündə hiss edirəm."[3]

---

[1] Bundan aydın olur ki, malın üçdə birini varislərdən başqasına vəsiyyət etmək caiz olsa da, onun üçdə birini verməmək daha yaxşıdır. Bu xüsusda İbn Abbas رضي الله عنهما demişdir: "Nə olaydı, insanlar üçdə birdən dörddə birə azaldardılar (yəni qoyub getdikləri malın üçdə birini yox, dörddə birini vəsiyyət edərdilər). Çünki Rəsulullah ﷺ: "Üçdə birini (verə bilərsən). Lakin üçdə biri də çoxdur"– demişdir" (Səhih Muslim, 1629).

[2] Xəstəyə baş çəkdikdə Allahdan onun üçün şəfa diləmək Sünnədir. Başqa bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ xəstəni ziyarət etdikdə və ya onun yanına xəstə gətirildikdə *onun üçün dua edib* deyərdi:

(( أَذْهِبِ الْبَاسَ، رَبَّ النَّاسِ، وَاشْفِ أَنْتَ الشَّافِي، لَا شِفَاءَ إِلَّا شِفَاؤُكَ، شِفَاءً لَا يُغَادِرُ سَقَمًا ))

"Əzhibil-bəs, Rabbən-nas, vəşfi əntəş-Şafi, lə şifaə ilə şifaukə, şifaən lə yuğadiru səqəmən (Ey insanların Rəbbi, bu xəstəliyi aradan qaldır və şəfa ver. Sənsən Şəfa verən! Sənin verdiyin şəfadan başqa şəfa yoxdur. *Ona* elə bir şəfa ver ki, bundan sonra onda heç bir xəstəlik qalmasın)" (Səhih əl-Buxari, 5675; Səhih Muslim, 2191).

[3] Bu hədisi Nəsai (6318) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٢٢٨- بَابُ يُكْتَبُ لِلْمَرِيضِ مَا كَانَ يَعْمَلُ وَهُوَ صَحِيحٌ

## 228-ci fəsil. Xəstəyə sağlam ikən yerinə yetirdiyi ibadətin savabı yazılır

٥٠٠- حَدَّثَنَا قَبِيصَةُ بْنُ عُقْبَةَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَلْقَمَةَ بْنِ مَرْثَدٍ، عَنِ الْقَاسِمِ بْنِ مُخَيْمِرَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا مِنْ أَحَدٍ يَمْرَضُ، إِلاَّ كُتِبَ لَهُ مِثْلُ مَا كَانَ يَعْمَلُ وَهُوَ صَحِيحٌ)).

**(500)** ........ Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Xəstələnən elə bir adam yoxdur ki, ona sağlam ikən etdiyi əməllərin savabı qədər savab yazılmış olmasın.[1]"[2]

٥٠١- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ زَيْدٍ قَالَ: حَدَّثَنَا سِنَانٌ أَبُو رَبِيعَةَ قَالَ: حَدَّثَنَا أَنَسُ بْنُ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا مِنْ مُسْلِمٍ ابْتَلاَهُ اللَّهُ فِي جَسَدِهِ إِلاَّ كُتِبَ لَهُ مَا كَانَ يَعْمَلُ فِي صِحَّتِهِ، مَا كَانَ مَرِيضًا، فَإِنْ عَافَاهُ، أُرَاهُ قَالَ: غَسَّلَهُ، وَإِنْ قَبَضَهُ غَفَرَ لَهُ)).

---

[1] Təbii ki, burada söhbət mömin adamdan gedir. Başqa bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "*Mömin* bəndə xəstələndiyi və ya səfərdə olduğu zaman ona evində, həm də sağlam olarkən etdiyi əməllərin savabı qədər savab yazılır" (Səhih əl-Buxari, 2996). Bu iki hədisdən aydın olur ki, mömin adam xəstələndiyi zaman ona sağlam ikən etdiyi ibadətin, itaətin və digər yaxşı əməllərin savabı qədər savab yazılır. Bu da, Allahın Öz bəndəsinə olan lütfündəndir. Buna daim camaat namazına gələn yaxud mütamadi olaraq birinci və dördüncü günlərinin oruclarını tutan və ya gündəlik nafilə namazlarını qılan adamın xəstələndiyi və ya səfərə çıxdığı zaman bunları tərk etməsini misal çəkmək olar. Yəni mömin adam xəstələndiyi və ya səfərə çıxdığı zaman camaat namazını, habelə, nafilə namazlarını və oruclarını tərk etsə də, sağlam ikən buna görə qazandığı savab qədər savab qazanır. Həmçinin, davamlı olaraq gecə namazına qalxan kimsəni də bu məsələyə aid etmək olar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim yatağına girdiyi zaman, gecə qalxıb namaz qılacağına niyyət edərsə, sonra da yuxu ona qalib gələr və yatıb qalarsa, niyyət etdiyinin savabını qazanar və bu yuxu onun üçün Rəbbindən bir sədəqə olar" (Sunən İbn Macə, 1344; Səhih əl-Cami, 5941).

[2] Bu hədisi Buxari (2996), Əhməd (4/410) və Beyhəqi (6547) rəvayət etmişdir.

**(501)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Allahın xəstəliyə mübtəla etdiyi elə bir müsəlman yoxdur ki, xəstəliyi davam etdikcə sağlam ikən yerinə yetirdiyi əməllərin savabı ona yazılmasın. Əgər Allah onu sağaltsa, – güman edirəm ki, Peyğəmbər ﷺ dedi, – *Allah* onu təmizləyər.[1] Yox əgər canını alarsa, onu bağışlayar.”[2]

(...)– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ سِنَانٍ، عَنْ أَنَسٍ، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ، وَزَادَ قَالَ: ((فَإِنْ شَفَاهُ غَسَّلَهُ)).

**(...)** Musa bizə belə rəvayət etmişdir: “Bizə Həmmad ibn Sələmə, Sinandan, o da, Ənəsdən, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmiş və: “*Allah* ona şəfa versə, onu təmizləyər” sözünü əlavə etmişdir.

**٥٠٢**– حَدَّثَنَا قُرَّةُ بْنُ حَبِيبٍ قَالَ: حَدَّثَنَا إِيَاسُ بْنُ أَبِي تَمِيمَةَ، عَنْ عَطَاءِ بْنِ أَبِي رَبَاحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: جَاءَتِ الْحُمَّى إِلَى النَّبِيِّ ﷺ فَقَالَتِ: ابْعَثْنِي إِلَى آثَرِ أَهْلِكَ عِنْدَكَ، فَبَعَثَهَا إِلَى الأَنْصَارِ، فَبَقِيَتْ عَلَيْهِمْ سِتَّةَ أَيَّامٍ وَلَيَالِيهِنَّ، فَاشْتَدَّ ذَلِكَ عَلَيْهِمْ، فَأَتَاهُمْ فِي دِيَارِهِمْ، فَشَكَوْا ذَلِكَ إِلَيْهِ، فَجَعَلَ النَّبِيُّ ﷺ يَدْخُلُ دَارًا دَارًا، وَبَيْتًا بَيْتًا، يَدْعُو لَهُمْ بِالْعَافِيَةِ، فَلَمَّا رَجَعَ تَبِعَتْهُ امْرَأَةٌ مِنْهُمْ فَقَالَتْ: وَالَّذِي بَعَثَكَ بِالْحَقِّ إِنِّي لَمِنَ الأَنْصَارِ، وَإِنَّ أَبِي لَمِنَ الأَنْصَارِ، فَادْعُ اللَّهَ لِي كَمَا دَعَوْتَ لِلأَنْصَارِ، قَالَ: مَا شِئْتِ، إِنْ شِئْتِ دَعَوْتُ اللَّهَ أَنْ يُعَافِيَكِ، وَإِنْ شِئْتِ صَبَرْتِ وَلَكِ الْجَنَّةُ، قَالَتْ: بَلْ أَصْبِرُ، ولا أَجْعَلُ الْجَنَّةَ خَطَرًا.

---

[1] Bu hədisdəki ərəbcə “غَسَّلَهُ” sözünün hərfi tərcüməsi “onu yuyar” deməkdir. Yəni onun günahlarını yuyar. Bu xüsusda, Peyğəmbərimiz ﷺ bizə gözəl bir dua öyrətmişdir:

(( اللَّهُمَّ بَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ، اللَّهُمَّ نَقِّنِي مِنْ خَطَايَايَ كَمَا يُنَقَّى الثَّوْبُ الْأَبْيَضُ مِنَ الدَّنَسِ، اللَّهُمَّ اغْسِلْنِي مِنْ خَطَايَايَ بِالثَّلْجِ وَالْمَاءِ وَالْبَرَدِ ))

“Allahummə baid bəyni və bəynə xətayayə kəmə bə'adtə bəynəl-məşriqi vəl-məğribi, Allahummə nəqqini min xətayayə kəmə yunəqqas-səubul-əbyədu minəd-dənəsi. Allahummə-ğsilni min xətayayə bis-səlci vəl-mai vəl-bərədi (Allahım, məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi, məni də günahlarımdan uzaqlaşdır! Allahım, ağ paltar kirdən təmizləndiyi kimi, məni də günahlarımdan təmizlə! Allahım, mənim günahlarımı qar, su və dolu ilə yu!)” (Səhih əl-Buxari, 1/181; Səhih Muslim, 1/419).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən səhih” olduğunu demişdir.

**(502)** ........ Əbu Hureyrə ﷺ demişdir: "(Bir gün) qızdırma Peyğəmbərin ﷺ yanına gəlib dedi:[1] "Məni çox istədiyin yaxın adamlarının yanına göndər." Peyğəmbər ﷺ onu ənsarın yanına göndərdi.[2] O, altı gün, altı gecə onların canında qaldı. Qızdırmanın şiddəti artdıqda, Peyğəmbər ﷺ ənsarın yurduna gəldi və onlar qızdırmadan ona şikayət etdilər.[3] Peyğəmbər ﷺ qapı-qapı, evbəev gəzib onlar üçün salamatlıq diləməyə başladı.[4] Nəhayət, o

---

[1] Burada qızdırma həqiqi mənada Peyğəmbərlə ﷺ danışmışdır. Necə ki, bəzi daşlar ona salam vermiş, içinə zəhər qatılmış ət zəhərli olduğu barədə ona xəbər vermiş, kötük onun ayrılığına ağlamış, ovucuna götürmüş xırda daşlar Allahı zikr etmişdir. Bu, Allahın hər şeyə qadir olduğunu bir daha sübuta yetirir. Buna dair Quranda neçə-neçə ayələr vardır. Buna aşağıdakı ayələri misal göstərmək olar:

**"Yeddi göy, yer və onlarda olanlar Allaha təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız"** (əl-İsra, 44); **"Allaha düşmən kəsilənlər Cəhənnəmə *sürüklənib* toplanılacaqları günə qədər *bir yerdə* saxlanacaqlar. Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri *bu günakarların* etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir. Onlar öz dərilərinə: "Nə üçün əleyhimizə şahidlik edirsiniz?"– deyəcəklər. *Dəriləri* də onlara belə cavab verəcək: "Hər şeyi danışdıran Allah bizi danışdırdı"** (Fussilət, 19-21). Hər bir möminin bu mənada nazil olmuş ayələrə və varid olmuş hədislərə iman gətirməsi, necəliyini dərk etməsə də, bunun haqq olduğunu qəbul etməsi vacibdir.

[2] Bu, ənsarın fəzilətli insanlar olduğuna dəlalət edir. Ənsarın fəzilətinə dair varid olmuş hədislərin birində Ənəs ibn Malik ﷺ demişdir: "Ənsardan olan bir qadın uşağı ilə birlikdə Peyğəmbərin ﷺ yanına gəldi. Peyğəmbər ﷺ onunla danışdı və ona iki dəfə dedi: "Canım Əlində olan Allaha and olsun ki, siz, həqiqətən də, mənim ən çox sevdiyim insanlarsınız" (Səhih əl-Buxari, 3786); başqa bir hədisdə o, demişdir: "Əgər ənsar bir vadiyə və ya dərəyə üz tutsaydı, mən də ənsarın vadisinə gedərdim. Əgər hicrət olmasaydı, mən, əlbəttə ki, ənsardan olardım!" (Səhih əl-Buxari, 3779); digər hədisdə o, demişdir: "Ənsarı yalnız mömin sevər və onlara yalnız münafiq nifrət edər. Kim onları sevsə, Allah onu sevər. Kim onlara nifrət etsə, Allah da ona nifrət edər" (Səhih əl-Buxari, 3783).

[3] Bu, xəstəlikdən dolayı, şikayət etməyin caiz olmasına dəlalət edir. Bir şərtlə ki, məqsədi gileylənmək və Allahın qədərinə narazılıq etmək yox, sadəcə dərdini danışmaq və bunun əlacını öyrənmək olmalıdır.

[4] Peyğəmbərin ﷺ bu hərəkəti onun olduqca lütfkar insan olduğuna dəlalət edir. Belə ki, o, bu halda təkcə dua etməklə kifayətlənməmiş, üstəlik, evbəev onlara baş çəkmiş və onlardan hal-əhval tutmuşdur. Həmçinin, hədisdəki bu cümlədən o da aydın olur ki,

geri qayıtdıqda, ənsardan bir qadın onun arxasınca gəlib dedi: "Səni haqq ilə göndərən *Allaha* and olsun ki, mən ənsardanam. Həmçinin, atam da ənsardandır. Elə isə, ənsara dua etdiyin kimi, mənim üçün də dua et!" Peyğəmbər ﷺ dedi: "Necə istəyirsən. İstəyirsən, dua edim, Allah sənə can sağlığı versin, istəyirsənsə də, səbir et, Cənnət sənin olsun?" Qadın dedi: "Yox, səbir edəcəm və Cənnəti girov saxlamayacağam.[1]"[2]

**٥٠٣-** وَعَنْ عَطَاءٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: مَا مِنْ مَرَضٍ يُصِيبُنِي أَحَبَّ إِلَيَّ مِنَ الْحُمَّى، لِأَنَّهَا تَدْخُلُ فِي كُلِّ عُضْوٍ مِنِّي، وَإِنَّ اللهَ عَزَّ وَجَلَّ يُعْطِي كُلَّ عُضْوٍ قِسْطَهُ مِنَ الأَجْرِ.

**(503)** ........ Əbu Hureyrə ﷺ demişdir:[3] "Mübtəla olduğum xəstəliklər arasında mənim üçün qızdırmadan daha sevimli olanı yoxdur. Çünki o, mənim hər bir əzama daxil olur.[4] Və heç şübhəsiz ki, Allah ﷻ hər bir əzaya öz payına düşən savabını əta edir.[5]"

---

salamatlığı yalnız və yalnız Allahdan diləmək gərəkdir. Çünki Allahdan qeyrisindən şəfa diləmək şirkdir. Quranda İbrahim əleyhissəlamın belə dediyi xəbər verilir: **"Aləmlərin Rəbbindən başqa, *tapındıqlarınızın* hamısı mənim düşmənimdir. *O Rəbb ki,* məni yaratmış və məni doğru yola yönəltmişdir. *O Rəbb ki,* məni yedirdir və içirdir. *O Rəbb ki,* xəstələndiyim zaman mənə şəfa verir"** (əş-Şuəra, 77-80).

[1] Girov: borc alınan pul və s. müqabilində təminat üçün verilən şeydir. Burada qadının bu sözü, onun ağıllı-kamallı və dininə bağılı bir qadın olduğuna dəlalət edir. Hədisdən aydın görünür ki, o, aqibəti necə olacağı bilinməyən bir işə qol qoymaq istəmir, dolayısıyla desək, öz sağlamlığı müqabilində girov qoyacağı Cənnətin, sonradan özünə qayıdıb-qayıtmayacağına əmin olmadığından, Peyğəmbərin ﷺ duasından imtina edib səbir edəcəyinə söz verir və beləliklə də, Cənnəti qazanacağına ümid bəsləyir.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Əbu Hureyrənin ﷺ bu sözü heç də bu xəstəliyi arzulamaq demək deyildir (495-ci hədisin şərhinə bax).

[5] Bu xüsusda İbn Teymiyyə demişdir: "Başına müsibət gəlmiş mömin bu müsibətə səbir etdiyinə görə savab qazanır. Belə ki, adama savab və mükafat ancaq onun etdiyi əməlinə – yəni səbir etdiyinə görə verilir. Müsibətin özü isə insanın yox, Allahın etdiklərinə aiddir. Bu da, insanın günahına görə Allahın ona verdiyi cəzası ya da onun günahı-

٥٠٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي وَائِلٍ، عَنْ أَبِي نُخَيْلَةَ، قِيلَ لَهُ: ادْعُ اللَّهَ، قَالَ: اللَّهُمَّ انْقُصْ مِنَ الْمَرَضِ، وَلاَ تَنْقُصْ مِنَ الأَجْرِ، فَقِيلَ لَهُ: ادْعُ، ادْعُ. فَقَالَ: اللَّهُمَّ اجْعَلْنِي مِنَ الْمُقَرَّبِينَ، وَاجْعَلْ أُمِّي مِنَ الْحُورِ الْعِينِ.

**(504)** ........ Əbu Vail rəvayət edir ki,[1] (bir dəfə)[2] Əbu Nuxeyləyə: "Allaha dua et!"– dedilər. O da: "Allahım, xəstəliyi azalt,[3] mükafatını isə azaltma!"– deyə dua etdi. (Yenə): "Dua et, dua et!"– dedilər. O da belə dua etdi: "Allahım, məni Özünə yaxın olanlardan et![4] Anamı da qaragözlü hurilərdən et!"

---

nın təmizlənməsi üçün bir kəffarədir. *İmam Əhmədin* "Musnəd" əsərində rəvayət edilir ki, Əbu Ubeydə ibn Cərrah ﵁ xəstə ikən ona baş çəkmiş dostları ona bu xəstəliyə görə savab qazandığını söylədikləri zaman Əbu Ubeydə onlara belə demişdir: "Mən nə buna, nə də buna bənzər müsibətlərə görə savab qazanıram. Müsibətlər sadəcə günahların bağışlanması üçün bir səbəbdir." Əbu Ubeydə ﵁ onlara başa salmaq istəmişdir ki, xəstəliyin özünə görə savab qazanmır, sadəcə bunun sayəsində onun günahları silinir. Belə ki, "əcr" deyildikdə, çox vaxt günahların bağışlanması və (buna səbir edən adamın) bu qəbildən savaba nail olması nəzərdə tutulur. Bəzi adamlar deyirlər ki, bu müsibətin əvəzi və mükafatı olmalıdır. Çünki bəzən insan heç bir xeyirxah iş görmədən savab qazanır. Müsibətlərə səbir etməkdə də, həmçinin, böyük savab vardır. Bu xüsusda, Uca Allah buyurur: **"Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər. Onlara öz Rəbbi tərəfindən tériflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır"** (Məcmu əl-Fətavə, 30/363-364).

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Digər rəvayətdə deyilir: "Peyğəmbərin ﷺ səhabələrindən olmuş Əbu Nuxeylənin bədəninə ox batmışdı. Ona: "Oxu çıxart"– deyildi. O da: "Allahım, ağrılarımı azalt, mükafatını isə azaltma!"– deyə dua etdi. Ona: "Dua et!"– deyildi. O da belə dua etdi: "Allahım, məni Özünə yaxın olanlardan et! Anamı da qaragözlü hurilərdən et!" (Mocəmul-Kəbir, 18379).

[3] Əbu Nuxeylə burada Allahdan ona şəfa verməsini və bu müsibətə səbir etdiyinə görə savabını əskiltməməsini diləyir.

[4] Bu xüsusda, Uca Allah buyurur: **"Vaqiə qopacağı zaman, onun qopduğunu heç kəs dana bilməz. O, *bəzilərini* alçaldacaq, *bəzilərini də* ucaldacaqdır. Yer şiddətlə titrədiyi zaman, dağlar parça-parça olub ovxalandığı və *ətrafa* səpələnmiş toz-torpağa döndüyü zaman, siz üç dəstəyə ayrılacaqsınız. Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahib-**

٥٠٥- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنْ عِمْرَانَ بْنِ مُسْلِمٍ أَبِي بَكْرٍ قَالَ: حَدَّثَنِي عَطَاءُ بْنُ أَبِي رَبَاحٍ قَالَ: قَالَ لِيَ ابْنُ عَبَّاسٍ: أَلَا أُرِيكَ امْرَأَةً مِنْ أَهْلِ الْجَنَّةِ؟ قُلْتُ: بَلَى، قَالَ: هَذِهِ الْمَرْأَةُ السَّوْدَاءُ أَتَتِ النَّبِيَّ ﷺ فَقَالَتْ: إِنِّي أُصْرَعُ، وَإِنِّي أَتَكَشَّفُ، فَادْعُ اللَّهَ لِي، قَالَ: ((إِنْ شِئْتِ صَبَرْتِ وَلَكِ الْجَنَّةُ، وَإِنْ شِئْتِ دَعَوْتُ اللَّهَ أَنْ يُعَافِيَكِ))، فَقَالَتْ: أَصْبِرُ، فَقَالَتْ: إِنِّي أَتَكَشَّفُ، فَادْعُ اللَّهَ لِي أَنْ لا أَتَكَشَّفَ، فَدَعَا لَهَا.

**(505)** ........ Əta ibn Əbu Rəbah demişdir: “(Bir dəfə) İbn Abbas mənə dedi: “Sənə Cənnət əhlindən olan bir qadın göstərimmi?” Mən: “Göstər”– dedim. İbn Abbas dedi: “Bu zənci[1] qadın (bir vaxt) Peyğəmbərin ﷺ yanına gəlib demişdi: “*Ya Rəsulullah,* mən *bəzən* bayılıram və üstüm-başım açılır. Mənim üçün Allaha dua et!”[2] Peyğəmbər ﷺ buyurdu: “İstəyirsən səbir et, sənə Cənnət nəsib olsun, istəyirsənsə, dua edim, Allah sənə can sağlığı versin.” Qadın dedi: “Mən səbir edərəm, amma mənim üstüm açılır. Allaha dua et ki, üstüm açılmasın.”[3] Peyğəmbər ﷺ də onun üçün dua etdi.”[4]

٥٠٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: حَدَّثَنَا مَخْلَدٌ، عَنِ ابْنِ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي عَطَاءٌ، أَنَّهُ رَأَى أُمَّ زُفَرَ، تِلْكَ الْمَرْأَةُ، طَوِيلَةً سَوْدَاءَ عَلَى سُلَّمِ الْكَعْبَةِ.

قَالَ : وَأَخْبَرَنِي عَبْدُ اللَّهِ بْنُ أَبِي مُلَيْكَةَ، أَنَّ الْقَاسِمَ أَخْبَرَهُ، أَنَّ عَائِشَةَ أَخْبَرَتْهُ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: ((مَا أَصَابَ الْمُؤْمِنَ مِنْ شَوْكَةٍ فَمَا فَوْقَهَا، فَهُوَ كَفَّارَةٌ)).

---

**ləri! Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!** ***Xeyirxah işlərdə*** **öndə gedənlər,** ***Cənnətdə də*** **öndədirlər! Onlar** ***Allaha*** **yaxın olanlar, Nəim bağlarında** ***qalacaq kimsələrdir”*** (əl-Vaqiə, 7-12).

[1] İbn Abbasın ﵄ cür deməsi qadına eyib tutmaq yox, sadəcə olaraq onu tanıtmaq olmuşdur.

[2] Qadının bu sözləri onun nə dərəcədə Allahdan qorxan və abırlı-həyalı bir qadın olduğuna dələlət edir. Diqqət edin! Bu qadın bayıldığı zaman üst-başının açılmasına görə günah qazanmırdı, lakin yenə buna görə utanır və bunun qarşısını almaq istəyirdi.

[3] 502-ci hədisin qeydlərinə bax.

[4] Bu hədisi Buxari (5652), Muslim (2576) və Əhməd (1/346) rəvayət etmişdir.

**(506)** ........ İbn Cureyc demişdir: "Əta ibn Əbu Rəbah Ummu Zufəri – həmin hündürboy zənci qadını – Kəbənin pilləkəninin üstündə görmüşdür."

Abdullah ibn Əbu Muleykə mənə rəvayət etmişdir ki, Qasim ona Aişənin belə dediyini xəbər vermişdir: "Peyğəmbər ﷺ deyərdi: "Möminə üz vermiş hər bir müsibət – istər (ayağına) batan tikan olsun, istərsə bundan da böyük (müsibət) olsun, (onun üçün) kəffarədir."[1]

**٥٠٧-** حَدَّثَنَا بِشْرٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ عَبْدِ الرَّحْمَنِ بْنِ عَبْدِ اللَّهِ ابْنِ مَوْهَبٍ قَالَ: حَدَّثَنِي عَمِّي عُبَيْدُ اللَّهِ بْنُ عَبْدِ اللَّهِ بْنِ مَوْهَبٍ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا مِنْ مُسْلِمٍ يُشَاكُ شَوْكَةً فِي الدُّنْيَا يَحْتَسِبُهَا، إِلاَّ قُصَّ بِهَا مِنْ خَطَايَاهُ يَوْمَ الْقِيَامَةِ)).

**(507)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Dünyada ikən (ayağına) tikan batan və (Allahdan) bunun savabını uman elə bir müsəlman yoxdur ki, həmin müsibət sayəsində Qiyamət günü onun günahları bağışlanmasın."[2]

**٥٠٨-** حَدَّثَنَا عُمَرُ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنِي أَبُو سُفْيَانَ، عَنْ جَابِرٍ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَا مِنْ مُؤْمِنٍ وَلاَ مُؤْمِنَةٍ، وَلاَ مُسْلِمٍ وَلاَ مُسْلِمَةٍ، يَمْرَضُ مَرَضًا إِلاَّ قَصَّ اللَّهُ بِهِ عَنْهُ مِنْ خَطَايَاهُ)).

**(508)** ........ Cabir رضي الله عنه demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Xəstəliyə mübtəla olmuş elə bir mömin kişi və mömin qadın, eləcə də, müsəlman kişi və müsəlman qadın yoxdur ki, o xəstəlik sayəsində Allah onun günahlarını bağışlamasın."[3]

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٢٩- بَابُ هَلْ يَكُونُ قَوْلُ الْمَرِيضِ: ((إِنِّي وَجِعٌ، شِكَايَةً؟))

## 229-cu fəsil. Xəstənin: "Canım ağrıyır!"– deməsi şikayət sayıla bilərmi?

٥٠٩- حَدَّثَنَا زَكَرِيَّا قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ هِشَامٍ، عَنْ أَبِيهِ قَالَ: دَخَلْتُ أَنَا وَعَبْدُ اللَّهِ ابْنُ الزُّبَيْرِ عَلَى أَسْمَاءَ، قَبْلَ قَتْلِ عَبْدِ اللَّهِ بِعَشْرِ لَيَالٍ، وَأَسْمَاءُ وَجِعَةٌ، فَقَالَ لَهَا عَبْدُ اللَّهِ: كَيْفَ تَجِدِينَكِ؟ قَالَتْ: وَجِعَةٌ، قَالَ: إِنِّي فِي الْمَوْتِ، فَقَالَتْ: لَعَلَّكَ تَشْتَهِي مَوْتِي، فَلِذَلِكَ تَتَمَنَّاهُ؟ فَلاَ تَفْعَلْ، فَوَاللَّهِ مَا أَشْتَهِي أَنْ أَمُوتَ حَتَّى يَأْتِيَ عَلَيَّ أَحَدُ طَرَفَيْكَ، أَوْ تُقْتَلَ فَأَحْتَسِبَكَ، وَإِمَّا أَنْ تَظْفَرَ فَتَقَرَّ عَيْنِي، فَإِيَّاكَ أَنْ تُعْرَضَ عَلَيْكَ خُطَّةٌ، فَلاَ تُوَافِقُكَ، فَتَقْبَلُهَا كَرَاهِيَةَ الْمَوْتِ.

وَإِنَّمَا عَنَى ابْنُ الزُّبَيْرِ لِيُقْتَلَ فَيُحْزِنُهَا ذَلِكَ.

**(509)** ........ Hişamın atası[1] belə rəvayət etmişdir: "Mən Abdullah ibn Zubeyrlə birgə Əsmanın[2] yanına gəldim. Bu, Abdullahın şəhid edildiyindən on gün öncə baş verdi. Əsma naxoşlamışdı. Abdullah ondan: "Özünü necə hiss edirsən?"– deyə soruşdu. O: "Canım ağrıyır"– deyə cavab verdi.[3] Abdullah dedi: "Mən ölümə gedirəm."[4] O, dedi: "Deyəsən, sən mənim ölməyimi istəyirsən, ona görə də özünə ölüm arzulayırsan. Belə etmə. Vallahi, mənə sənin iki halından birinə aid xəbər gəlib çatmayınca, ölməyimi arzu etmərəm. Ya öldürüləcəksən, mən də bu müsibətə dözüb savab qazanacağam, ya da zəfər qazanacaqsan, gözüm aydın olacaq. Nəbadə ölümdən qorxaraq, sənə ərz ediləcək, doğru saymadığın bir işi qəbul edəsən."

Abdullah ibn Zubeyr öldürülməklə anasını kədərləndirəcəyini güman edirdi.[5]

---

[1] Burada "Hişamın atası" deyildikdə, Abdullahın qardaşı Urva ibn Zubeyr nəzərdə tutulur.

[2] Bu, Əbu Bəkr əs-Siddiqin ﷺ qızı, Zubeyr ibn Əvvamın ﷺ zövcəsi, Abdullahın və Urvanın رضي الله عنهما anası Əsmadır رضي الله عنها.

[3] Bu, dəlildir ki, xəstə adam öz halını bildirmək məqsədilə "canım ağrıyır" deyə bilər və bu cür demək şikayət sayılmır.

[4] Bəzi rəvayətlərdə onun: "Ölümdə rahatlıq vardır" (Mustədrək, 3/552), "Ölümdə salamatlıq vardır" (Musənnəf İbn Əbu Şeybə, 31319) dediyi xəbər verilmişdir.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**٥١٠-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي هِشَامُ بْنُ سَعْدٍ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، أَنَّهُ دَخَلَ عَلَى رَسُولِ اللَّهِ ﷺ وَهُوَ مَوْعُوكٌ، عَلَيْهِ قَطِيفَةٌ، فَوَضَعَ يَدَهُ عَلَيْهِ، فَوَجَدَ حَرَارَتَهَا فَوْقَ الْقَطِيفَةِ، فَقَالَ أَبُو سَعِيدٍ: مَا أَشَدَّ حُمَّاكَ يَا رَسُولَ اللَّهِ، قَالَ: ((إِنَّا كَذَلِكَ، يَشْتَدُّ عَلَيْنَا الْبَلاَءُ، وَيُضَاعَفُ لَنَا الأَجْرُ))، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، أَيُّ النَّاسِ أَشَدُّ بَلاَءً؟ قَالَ: ((الأَنْبِيَاءُ، ثُمَّ الصَّالِحُونَ، وَقَدْ كَانَ أَحَدُهُمْ يُبْتَلَى بِالْفَقْرِ حَتَّى مَا يَجِدُ إِلاَّ الْعَبَاءَةَ يَجُوبُهَا فَيَلْبَسُهَا، وَيُبْتَلَى بِالْقُمَّلِ حَتَّى يَقْتُلَهُ، وَلأَحَدُهُمْ كَانَ أَشَدَّ فَرَحًا بِالْبَلاَءِ مِنْ أَحَدِكُمْ بِالْعَطَاءِ)).

**(510)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, (bir dəfə) o, Rəsulullaha ﷺ baş çəkməyə gəldi. Rəsulullah ﷺ xəstələnmişdi,[1] üstünə də xovlu yun parça salmışdı. Əbu Səid əlini onun üstünə qoydu[2] və qızdırmanın istiliyini parçanın üstündən hiss etdi. O, dedi: "Hərarətin nə çoxdur, ya Rəsulullah!" Peyğəmbər ﷺ dedi: "Bizim[3] (halımız) belədir. Bizə gələn sınaqlar artır, beləliklə də,[4] savabımız qat-qat olur."[5] Əbu Səid dedi: "Ya Rəsulullah, ən çox sınağa çəkilən insanlar kimlərdir?" O, dedi: "Peyğəmbərlər, sonra da əmə-

---

[1] Bu, dəlildir ki, peyğəmbərlər də bəşərdirlər və hamı kimi onlar da xəstələnirlər.

[2] Hədisdən aydın olur ki, xəstəyə baş çəkən adamın öz əlinin onun üstünə qoyması, ondan hal-əhval tutması, beləliklə də, ona təsəlli verməsi bəyənilən əməllərdəndir.

[3] Burada Rəsulullah ﷺ peyğəmbərləri qəsd edir.

[4] Yəni bu imtahanlara səbir etməklə.

[5] Rəvayət edilir ki, İbn Məsud ﷺ demişdir: "Peyğəmbər ﷺ *ağır* xəstələndiyi zaman mən onun yanına gəldim və baxdım ki, o, qızdırma içində yanır. Dedim: "*Ya Rəsulullah,* sən qızdırma içində yanırsan! Yəqin bu, sənin iki savab qazanmağın üçündür?" O, dedi: "Düzdür, başına müsibət gəlmiş elə bir müsəlman yoxdur ki, Allah, ağacın yarpaqları töküldüyü kimi, onu günahlardan təmizləmiş olmasın" (Səhih əl-Buxari, 5647); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah bir qövmü sevdiyi zaman onları imtahana çəkər. Kim səbir edərsə, bu səbir onun lehinə, kim də gileylənərsə, bu giley onun əleyhinə olar" (Musnəd Əhməd, 5/428; Səhih əl-Cami, 1706); Əbu Əyyub əl-Ənsarinin ﷺ rəvayətində deyilir: "Müsibət artdıqca savab da artır. Allah bir qövmü sevdiyi zaman onları imtahana çəkər" (Səhih əl-Cami, 4013).

lisaleh insanlar.[1] Onlardan kimisi kasıblıqla sınağa çəkilər və iş o yerə gəlib çatardı ki, geyməyə bir şey tapmadığından əbanı kəsib geyərdi. Kimisi bitlərlə sınağa çəkilər və axırda bu bitlər onu öldürərdi. Kimisi də, sizlərdən birinin hədiyyəyə sevinməsindən daha çox müsibətə sevinərdi.[2]"[3]

---

[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "İnsanlar arasında ən çox sınağa çəkilən kəslər peyğəmbərlərdir. Sonra onlara oxşarlar və oxşarlar. Adam dininə görə sınağa çəkilir. Və əgər dinində möhkəm olarsa, müsibətləri artar. Yox əgər zəif olarsa, onda dininə uyğun sınağa çəkilər. (Mömin bəndənin) günahları silinənədək bu müsibətlərin ona üz verməsi davam edər" (Sunən ət-Tirmizi, 2/64; Silsilətul-Əhadisis-Səhihə, 143).

[2] Çünki onlar bu müsibətlərin nəyə görə baş verdiyini bilirdilər. Bilirdilər ki, Allah öz bəndəsini sevdiyi və ona xeyir nəsib etmək istədiyi zaman onu imtahana çəkir, habelə, adam peyğəmbərlərə oxşadıqca, onun imtahanı da artır, üstəlik, bu müsibətlər onun günahlarının silinməsi üçün kəffarə olur, bunlara səbir etmək onun savabını artırır, dərəcəsini yüksəldir və nəhayət, bu müsibətlərdən sonra onun üçün yollar açılır.

[3] Bu hədisi Əhməd (2/14), Hakim (3/372) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ٢٣٠- بَابُ عِيَادَةِ الْمُغْمَى عَلَيْهِ

## 230-cu fəsil. Bayılan adama baş çəkmək

٥١١- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ ابْنِ الْمُنْكَدِرِ، سَمِعَ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: مَرِضْتُ مَرَضًا، فَأَتَانِي النَّبِيُّ ﷺ يَعُودُنِي وَأَبُو بَكْرٍ وَهُمَا مَاشِيَانِ، فَوَجَدَانِي أُغْمِيَ عَلَيَّ، فَتَوَضَّأَ النَّبِيُّ ﷺ ثُمَّ صَبَّ وَضُوءَهُ عَلَيَّ، فَأَفَقْتُ فَإِذَا النَّبِيُّ ﷺ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، كَيْفَ أَصْنَعُ فِي مَالِي؟ كَيْفَ أَقْضِي فِي مَالِي؟ فَلَمْ يُجِبْنِي بِشَيْءٍ حَتَّى نَزَلَتْ آيَةُ الْمِيرَاثِ.

**(511)** ........ Cabir ibn Abdullah ﷺ demişdir: [1] "Mən *bərk* xəstələnmişdim. Peyğəmbər ﷺ və Əbu Bəkr piyada mənə baş çəkməyə gəldilər.[2] Onlar mənim bayıldığımı görəndə Peyğəmbər ﷺ dəstəmaz aldı, sonra da dəstəmaz suyundan mənim üzümə səpdi. [3] Mən ayılıb Peyğəmbəri ﷺ yanımda gördüm və (ondan): "Ya Rəsulullah, mən malımı necə sərf edim? Malımı necə bölüm?"[4]– deyə soruşdum. O, mənə cavab vermədi.[5] Nəhayət, miras ayəsi nazil oldu.[1]"

---

[1] Bu hədisi Buxari (194), Muslim (1616) və İbn Macə (2728) rəvayət etmişdir.

[2] Tirmizinin rəvayətində Ömər ibn Xattabın ﷺ da onlarla birgə Cabirə ﷺ baş çəkdiyi xəbər verilir (Sunən ət-Tirmizi, 2242).

[3] Bu, Peyğəmbərin ﷺ vücudunun bərəkətli olduğunu bir daha sübuta yetirir (348/2-ci hədisin qeydlərinə bax). Qeyd etmək lazımdır ki, insana bərəkəti verən Allahdır və O, bunu ancaq istədiyinə bəxş edir. Quranda İsa aleyhissəlam barədə belə buyurulur: **"Körpə dil** ***açıb*** **dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi..."** (Məryəm, 30-31).

[4] Digər rəvayətdə Cabir ibn Abdullah ﷺ demişdir: "Mən özümə gəldikdə soruşdum: "Mirasım kimə qalacaq, ya Rəsulullah? Mənim varislərim ancaq uzaq qohumlarımdır" (Səhih əl-Buxari, 194).

[5] Bu, dəlildir ki, Peyğəmbər ﷺ bilmədiyi suala cavab verməz, səhabələrinə özündən heç nə deməz və dediklərində həmişə vəhyə istinad edərdi. Bu xüsusda, Uca Allah buyurur: **"O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir"** (ən-Nəcm, 3-4); O, həmçinin, buyurur: **"De: "Mən sizi ancaq vəhy ilə** ***qabaqcadan*** **xəbərdar edirəm"** (əl-Ənbiya, 45). Hər

bir mömin də həmçinin, bu hədisdən ibrət götürməli və haqqında məlumatı olmadığı bir işin dalınca getməməlidir. Çünki qulaq, göz və qəlb, *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır.

[1] **"Səndən fitva istəyirlər. De: "Valideyni və övladı olmayan kəsin *mirası* barəsində fitvanı sizə Allah verir." Əgər övladı olmayan şəxs öldükdə onun bacısı varsa, qoyub getdiyinin yarısı bacıya çatır. Əgər onun övladı yoxdursa, qardaşı ona varis olur. Əgər *varislər* iki bacıdırsa, *ölən qardaşın* qoyub getdiyinin üçdə iki hissəsi onlara çatır. Əgər *varislər* qardaş və bacılardırsa, kişiyə iki qadının payı qədər *pay* düşür. Allah bunu sizə bəyan edir ki, *doğru* yoldan çıxmayasınız. Allah hər şeyi bilir"** (ən-Nisa, 176).

## ٢٣١- بَابُ عِيَادَةِ الصِّبْيَانِ

## 231-ci fəsil. Uşaqlara baş çəkmək[1]

٥١٢- حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ عَاصِمٍ الأَحْوَلِ، عَنْ أَبِي عُثْمَانَ النَّهْدِيِّ، عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ، أَنَّ صَبِيًّا لاَبْنَةِ رَسُولِ اللَّهِ ﷺ ثَقُلَ، فَبَعَثَتْ أُمُّهُ إِلَى النَّبِيِّ ﷺ، أَنَّ وَلَدِي فِي الْمَوْتِ، فَقَالَ لِلرَّسُولِ: ((اذْهَبْ فَقُلْ لَهَا: إِنَّ لِلَّهِ مَا أَخَذَ، وَلَهُ مَا أَعْطَى، وَكُلُّ شَيْءٍ عِنْدَهُ إِلَى أَجَلٍ مُسَمًّى، فَلْتَصْبِرْ وَلْتَحْتَسِبْ))، فَرَجَعَ الرَّسُولُ فَأَخْبَرَهَا، فَبَعَثَتْ إِلَيْهِ تُقْسِمُ عَلَيْهِ لَمَا جَاءَ، فَقَامَ النَّبِيُّ ﷺ فِي نَفَرٍ مِنْ أَصْحَابِهِ، مِنْهُمْ: سَعْدُ بْنُ عُبَادَةَ، فَأَخَذَ النَّبِيُّ ﷺ الصَّبِيَّ فَوَضَعَهُ بَيْنَ ثَنْدُوَتَيْهِ، وَلِصَدْرِهِ قَعْقَعَةٌ كَقَعْقَعَةِ الشَّنَّةِ، فَدَمَعَتْ عَيْنَا رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ سَعْدٌ: أَتَبْكِي وَأَنْتَ رَسُولُ اللَّهِ؟ فَقَالَ: ((إِنَّمَا أَبْكِي رَحْمَةً لَهَا، إِنَّ اللَّهَ لاَ يَرْحَمُ مِنْ عِبَادِهِ إِلاَّ الرُّحَمَاءَ)).

**(512)** ........ Usamə ibn Zeyd رضي الله عنه rəvayət edir ki,[2] Peyğəmbərin ﷺ qızının[3] uşağı ağır xəstələnmişdi. Uşağın anası Peyğəmbərə ﷺ xəbər göndərdi ki, uşağım ölüm ayağındadır. Peyğəmbər ﷺ xəbər gətirən adama dedi: "Get, ona de: "Şübhəsiz ki, Allahın aldığı da, verdiyi də Özünə aiddir. Onun yanında hər şeyin öz müəyyən əcəli var.[4] Səbir et və (bunun əvəzinə Allah yanında, mükafat qazanacağına) ümid bəslə!"[5] Xəbərçi (Zeynəbin) yanına qayıdıb bunu ona söylədi. (Zeynəb): "Peyğəmbər ﷺ mütləq gəlsin"– deyə, and verib xəbərçini (yenə) onun yanına göndərdi. Peyğəmbər ﷺ qalxıb səhabələrindən bir neçəsi ilə onun yanına gəldi.[6] Onların arasında Səd ibn

---

[1] Uşaqlara baş çəkmək təvazökarlıq əlamətidir. Xəstə uşağa baş çəkmək isə Peyğəmbərin ﷺ Sünnəsidir.

[2] Bu hədisi Buxari öz "Səhih"ində də (1284) rəvayət etmişdir.

[3] Söhbət Peyğəmbərin ﷺ böyük qızı Zeynəbdən رضي الله عنها gedir.

[4] Uca Allah buyurur: **"Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubada bilər"** (əl-Hicr, 5).

[5] Bu sözlər yaxınını itirmiş adama təsəlli vermək üçün deyilən ən gözəl sözlərdir.

[6] İmam Buxarinin "Səhih"indəki (1284) rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ qalxıb Səd ibn Ubadə, Muaz ibn Cəbəl, Ubeyy ibn Kəb, Zeyd ibn Sabit və başqa bir neçə səhabə ilə birgə qızının yanına getdi.

Ubadə[1] də var idi. Peyğəmbər ﷺ körpəni qucağına alıb bağrına basdı. Körpənin köksündən quru və boş su qabından çıxan səs kimi səs çıxırdı. Onda Peyğəmbərin ﷺ gözləri yaşla doldu. (Bunu görəndə) Səd dedi: "Sən də ağlayırsan, (ya Rəsulullah)?! Axı, sən Allahın Rəsulusan!"[2] Peyğəmbər ﷺ buyurdu: "Ona yazığım gəlir deyə ağlayıram. Həqiqətən, Allah Öz qullarından yalnız rəhmli olanlara rəhm edir.[3]"

---

[1] Bu, Peyğəmbərin ﷺ məşhur səhabəsi və Xəzrəc qəbiləsinin rəhbəri Əbu Qeys Səd ibn Ubadə ibn Duleym əl-Ənsari əl-Xəzrəcidir ؓ.

[2] Ölüyə ağlamaq xüsusunda Peyğəmbər ﷺ demişdir: "Ölən adam, bəzən ailəsinin ona ağlamağından dolayı, əzab çəkir" (1288). Olsun ki, bu səbəbdən Səd ibn Ubadə ؓ ölü üçün ağlamağın yanlış olduğunu güman etmişdir.

[3] Burada Peyğəmbər ﷺ ona ölü üçün ağlamağın və kədərlənməyin qəbahət olmadığını, bunun bir mərhəmət olduğunu bildirmək istəyir. Bu fikri təsdiqləyən bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah gözlərdən axan yaşa və qəlbin kədərlənməsinə görə *heç* kəsə əzab vermir." (Sonra Peyğəmbər ﷺ dilini göstərib dedi:) "O ancaq buna görə ya əzab verir, ya da rəhm edir. Həqiqətən, ölən adama ailəsinin onun üçün *fəryad edib* ağlamasından dolayı, əzab verilir" (Səhih əl-Buxari, 1304). Demək, ölü üçün vay-şivən salıb ağlamaq, xüsusən də Allaha və ya Onun əzəldən təyin etdiyi müqəddərata qarşı nalayiq sözlər demək, böyük günah, üstəlik, ölünün əzab çəkməsi üçün səbəbdir (361-ci hədisin qeydlərinə bax). İbn Qeyyim Peyğəmbərin ﷺ nə səbəbdən və nə cür ağladığı barədə demişdir: "Peyğəmbərin ﷺ ağlamağı da, gülməyi kimi olardı. Necə ki, gülərkən qəhqəhə çəkməz, eləcə də, ağlayarkən zar-zar ağlayıb səsini qaldırmaz, sadəcə gözləri yaşla dolar və ancaq hıçqırığı eşidilərdi. O, bəzən əzizinin ölümünə acıdığından, bəzən ümmətinin halına yandığından, bəzən Allah qorxusundan, bəzən də Quran ayələrini eşitdikdə ağlayardı. Bu, təqva ilə yanaşı ürək yanğısından, məhəbbətdən və şəfqətdən irəli gələn bir ağlamaqdır. Peyğəmbərin ﷺ oğlu İbrahim vəfat etdiyi gün onun gözləri yaşla dolmuş və o, körpəyə acıyaraq ağlaya-ağlaya demişdir: "Gözlər yaşla dolur, qəlb kədərlənir, lakin biz Rəbbimizin razı qaldığı sözdən başqa bir söz demirik: "Ey İbrahim, həqiqətən də, biz sənin ayrılığına kədərlənirik." O, həmçinin, öz qızlarından birinin can verdiyini görərkən ağlamışdır. Habelə, İbn Məsud ؓ ona "ən-Nisa" surəsini oxuyub **"Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?"** ayəsinə çatdıqda *onu dayandırıb* ağlamışdır. Bundan başqa Osman ibn Məzun ؓ vəfat etdikdə, habelə, günəşin üzü tutulduğu zaman kusuf namazını qıldıqda da ağlamışdır. Peyğəmbər ﷺ namazların birində ağlayıb içini çəkə-çəkə demişdir: "Ey Rəbbim, məgər Sən mənə söz verməmişdinmi ki, mən onların arasında ikən, üstəlik, həm onlar, həm də biz Səndən bağışlanma dilədiyimiz zaman onlara əzab verməyəcəksən?" O, həmçinin, qızlarından birinin qəbrinin başında oturduğu zaman ağlamış, habelə, hərdən gecə namazlarında da ağlamışdı" (Zadul-Məad fi Hədyi Xayril-İbad, 1/175).

## ٢٣٢- بَابُ

## 232-ci fəsil.

٥١٣- حَدَّثَنَا الْحَسَنُ بْنُ وَاقِعٍ قَالَ: حَدَّثَنَا ضَمْرَةُ، عَنْ إِبْرَاهِيمَ بْنِ أَبِي عَبْلَةَ قَالَ: مَرِضَتِ امْرَأَتِي، فَكُنْتُ أَجِيءُ إِلَى أُمِّ الدَّرْدَاءِ فَتَقُولُ لِي: كَيْفَ أَهْلُكَ؟ فَأَقُولُ لَهَا: مَرْضَى، فَتَدْعُو لِي بِطَعَامٍ، فَآكُلُ، ثُمَّ عُدْتُ فَفَعَلَتْ ذَلِكَ، فَجِئْتُهَا مَرَّةً فَقَالَتْ: كَيْفَ؟ قُلْتُ: قَدْ تَمَاثَلُوا، فَقَالَتْ: إِنَّمَا كُنْتُ أَدْعُو لَكَ الطَّعَامَ أَنْ كُنْتَ تُخْبِرُنَا عَنْ أَهْلِكَ أَنَّهُمْ مَرْضَى، فَأَمَّا أَنْ تَمَاثَلُوا فَلاَ نَدْعُو لَكَ بِشَيْءٍ.

**(513)** ........ İbrahim ibn Əbi Ablə deyir ki, həyat yoldaşım xəstələnmişdi. Mən Ummu Dərdanın yanına gedərdim. O, məndən: "Yoldaşının halı necədir?"– deyə soruşar, mən də ona: "Xəstədir"– deyə cavab verərdim. O, mənim üçün yemək gətizdirərdi.[1] Mən yeməyi yedikdən sonra geri qayıdardım. Beləcə, o, mənə yemək verərdi. Bir dəfə yenə onun yanına gəldikdə o *məndən*: "*Yoldaşının halı* necədir?"– deyə soruşdu. Dedim: "Yaxşılaşıb." O, dedi: "Nə qədər ki, ailənin xəstə olduğunu bizə bildirirdin, sənə yemək gətizdirirdim. İndi ki onun vəziyyəti düzəlib, daha sənə yemək gətizdirməyəcəyik."[2]

---

[1] Bu, dəlildir ki, xəstə adamın yaxınlarından onun barəsində hal-əhval tutmaq, habelə, evində xəstəsi olan adama yemək vermək bəyənilən əməllərdəndir.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٣٣– بَابُ عِيَادَةِ الاعْرَابِ

## 233-cü fəsil. Bədəvilərə[1] baş çəkmək

٥١٤– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَهَّابِ الثَّقَفِيُّ قَالَ: حَدَّثَنَا خَالِدٌ الْحَذَّاءُ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ عَلَى أَعْرَابِيٍّ يَعُودُهُ، فَقَالَ: ((لاَ بَأْسَ عَلَيْكَ، طَهُورٌ إِنْ شَاءَ اللَّهُ))، قَالَ: قَالَ الأَعْرَابِيُّ: بَلْ هِيَ حُمَّى تَفُورُ، عَلَى شَيْخٍ كَبِيرٍ، كَيْمَا تُزِيرُهُ الْقُبُورَ، قَالَ: ((فَنَعَمْ إِذًا)).

**(514)** ........ İbn Abbas ﷺ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ xəstə bir bədəviyə baş çəkmək üçün onun yanına gəlib[3] dedi: “Eybi yoxdur, inşaAllah, (günahların) təmizlənir!”[4] Bədəvi dedi: “Xeyr, bu, ixtiyar çağında olan qocanın bədənində od kimi yanan bir qızdırmadır ki, onu qəbirə aparsın.[5]” Peyğəmbər ﷺ dedi: “Yaxşı, qoy (sən deyən) olsun![1]”

---

[1] Bədəvi: köçəri, çöllü. Müəllif bu fəsilə belə ünvan qoymaqla bildirir ki, xəstəyə baş çəkmək istəyən adam onun kimliyinə baxmamalıdır. Xəstənin kimliyindən asılı olmayaraq, yəni onun doğma və ya yad adam, böyük və ya uşaq, şəhərli və ya bədəvi olmağına, habelə, xəstəliyinin yüngül və ya ağır olmağına baxmayaraq, ona baş çəkmək, ona təsəlli vermək və onun üçün dua etmək bəyənilən əməllərdəndir.

[2] Bu hədisi İmam Buxari öz “Səhih”ində də (3616) rəvayət etmişdir.

[3] Peyğəmbərin ﷺ bədəviyə baş çəkməsi onun olduqca təvazökar insan olduğunu bir daha sübuta yetirir.

[4] Peyğəmbərin ﷺ bu sözü burada dua yox, xəbər mənasında işlənir. Belə ki, bir qayda olaraq dua etdikdə “inşaAllah” deyib həmin duanı Allahın istəyinə bağlamaq olmaz. Bu xüsusda varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Sizlərdən heç kəs deməsin: “Allahım, əgər istəyirsənsə, məni bağışla, Allahım, əgər istəyirsənsə, mənə rəhm et!” Qoy hər kəs qətiyyətlə dua etsin. Çünki heç kəs Allahı nəyəsə vadar edə bilməz” (Səhih əl-Buxari, 6338). Qeyd edək ki, xəstəyə “Eybi yoxdur, inşaAllah, *günahların* təmizlənir!”– demək, həm Sünnə hesab edilir, həm də bu, ona təsəlli vermək, onun könlünü açmaq, habelə, xəstəliyin fəzilətini, insana nə qədər faydalı olduğunu – günahları təmizlədiyini, buna səbir etdiyinə görə ona savab qazandırdığını bildirməkdir.

[5] Bədəvi burada ölməyini nəzərdə tutur.

[1] İslam alimləri bu kəlməni belə izah etmişlər: "Peyğəmbər ﷺ bu sözü ya dua mənasında, ya da xəbər kimi işlədir, yəni "yaxşı, qoy, sən deyən olsun!" yaxud "yaxşı, sən deyən olacaq" deməkdir" (Fəthul-Bari, 10/147). Şeyx Albani demişdir: "Abdur-Rəzzaqın (11/197/20309) rəvayət etdiyi bu hədisin axırındakı "sonra o adam öldü" əlavəsi ikinci mənanın qəsd edildiyinə dəlalət edir. Abdur-Rəzzaqın istinad edərək Zeyd ibn Salimdən rəvayət etdiyi həmin hədisin isnadı "mursəl" olsa da, mətni "səhih"dir. Bu hədis həmçinin, "movsul" isnadla – "Məxləd ibn Uqbə ibn Abdur-Rəhman ibn Şurəhbil, o da, atasından, o da, Cəhddən"– deyə istinad edilərək rəvayət edilmişdir. Həmin rəvayətin sonunda deyilir ki: "Peyğəmbər ﷺ (o bədəviyə): "Etraz edirsənsə, sən deyən kimi olacaqdır. Allah nə qərar verərsə, o da olar"– dedi. Nəhayət, ertəsi gün həmin adam vəfat etdi." Bu hədisi Təbərani "Mocəmul-Kəbir" əsərində (7/366-367), Dolabi də "Kunə" əsərində (1/81) rəvayət etmişdir. Heysəmi öz kitabında (10/62) bu hədisi Təbəraniyə isnad etdikdən sonra demişdir: "Bu hədisin isnadında mənim tanımadığım ravilər vardır." Deyəsən, o, bununla Abdur-Rəhman ibn Şurəhbili və onun nəvəsi Məxləd ibn Uqbəni qəsd edirmiş. Lakin qeyd etmək lazımdır ki, Buxari və İbn Əbu Hatim bu hədisi onlara istinad edərək rəvayət etmiş və bu rəvayətdə onları nə pisləmiş, nə də tərif etmişdir. İbn Hibban isə bu iki ravini "əs-Siqat" əsərində (5/100 və 9/185) zikr etmişdir. Və ola bilsin ki, bu, "Zeydin mursəli" kimi tanınmış və elə buna görə də İbn Həcər (6/25) onun barəsində bir söz söyləməmişdir (Səhih əl-Ədəbul-Mufrad).

# ٢٣٤– بَابُ عِيَادَةِ الْمَرْضَى

## 234-cü fəsil. Xəstələrə baş çəkmək

**٥١٥–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ كَيْسَانَ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ أَصْبَحَ الْيَوْمَ مِنْكُمْ صَائِمًا؟)) قَالَ أَبُو بَكْرٍ: أَنَا، قَالَ: ((مَنْ عَادَ مِنْكُمُ الْيَوْمَ مَرِيضًا؟)) قَالَ أَبُو بَكْرٍ: أَنَا، قَالَ: ((مَنْ شَهِدَ مِنْكُمُ الْيَوْمَ جَنَازَةً؟)) قَالَ أَبُو بَكْرٍ: أَنَا، قَالَ: ((مَنْ أَطْعَمَ الْيَوْمَ مِسْكِينًا؟)) قَالَ أَبُو بَكْرٍ: أَنَا.

قَالَ مَرْوَانُ: بَلَغَنِي أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((مَا اجْتَمَعَ هَذِهِ الْخِصَالُ فِي رَجُلٍ فِي يَوْمٍ، إِلاَّ دَخَلَ الْجَنَّةَ)).

**(515)** ........ Əbu Hureyrə ﷺ demişdir:[1] "(Bir gün) Peyğəmbər ﷺ (səhabələrindən) soruşdu: "Sizlərdən kim bu gün oruc tutub?" Əbu Bəkr dedi: "Mən." Yenə soruşdu: "Sizlərdən kim bu gün xəstəyə baş çəkib?" Əbu Bəkr dedi: "Mən." Yenə soruşdu: "Sizlərdən kim bu gün dəfndə iştirak edib?" Əbu Bəkr dedi: "Mən." Yenə soruşdu: "Kim bu gün kasıba yemək verib?" Əbu Bəkr dedi: "Mən."[2]

Mərvan demişdir: "Mənə xəbər vermişlər ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir gün ərzində bu xislətlər (hansı) bir adamda cəm olarsa, o kimsə Cənnətə daxil olar.[3]"

---

[1] Bu hədisi Muslim (7/100) və İbn Əsakir (Tarix, 9/288/1) rəvayət etmişdir.

[2] Əbu Bəkr əs-Siddiqin ﷺ fəzilətinə dair varid olmuş başqa bir hədisdə rəvayət edilir ki, *bir dəfə* Peyğəmbər ﷺ dedi: "Kim *malından* Allah yolunda iki (eyni) şey xərcləsə, onu Cənnət qapılarının birindən çağırıb: "Ey Allahın qulu, bu bir xeyirdir"– deyəcəklər. Namaz qılanlar namaz qapısından, cihad edənlər cihad qapısından, oruc tutanlar Rəyyan adlı qapıdan, sədəqə verənlər də sədəqə qapısından *Cənnətə* çağırılacaqlar." *Bu vaxt* Əbu Bəkr dedi: "Atam-anam sənə fəda olsun, ya Rəsulullah! Bu qapılardan çağırılanların heç bir sıxıntı keçirməyəcəkləri bəllidir. Bəs bu qapıların hamısından çağırılan bir kimsə olacaqmı?" Peyğəmbər ﷺ dedi: "Bəli və mən ümid edirəm ki, sən onlardan olacaqsan" (Səhih əl-Buxari, 1897).

[3] Bu hədis mömin adamı fürsət tapdıqca gün ərzində oruc tutmağa, xəstəyə baş çəkməyə, dəfndə iştirak etməyə, kasıba yemək verməyə, beləliklə də, Cənnəti qazanmağa

**٥١٦-** حَدَّثَنَا أَحْمَدُ بْنُ أَيُّوبَ قَالَ: حَدَّثَنَا شَبَابَةُ قَالَ: حَدَّثَنِي الْمُغِيرَةُ بْنُ مُسْلِمٍ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: دَخَلَ النَّبِيُّ ﷺ عَلَى أُمِّ السَّائِبِ، وَهِيَ تُزَفْزِفُ، فَقَالَ: ((مَا لَكِ؟)) قَالَتِ: الْحُمَّى أَخْزَاهَا اللَّهُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((مَهْ، لاَ تَسُبِّيهَا، فَإِنَّهَا تُذْهِبُ خَطَايَا الْمُؤْمِنِ، كَمَا يُذْهِبُ الْكِيرُ خَبَثَ الْحَدِيدِ)).

**(516)** ........ Cabir ﷜ deyir ki, Peyğəmbər ﷺ Ummu Saib adlı (xəstə) bir qadına baş çəkdi. Qadın titrəyirdi. Peyğəmbər ﷺ soruşdu: “Sənə nə olub?” O, dedi: “Qızdırmam var. Allah onu zəlil etsin!”[1] Peyğəmbər ﷺ dedi: “Sus, onu söymə.[2] Çünki bu (xəstəlik), körük dəmirin pasını apardığı kimi, möminin günahlarını silib aparır.[3]”[4]

---

təşviq edir. Belə hədislərə rast gəldikdə, onlara heç olmasa, bir dəfə əməl etmək lazımdır ki, hədisdə zikr olunan xeyrə nail olasınız. Amr ibn Qeys demişdir: “Bir hədis eşitdiyin zaman ona, heç olmasa, bir dəfə əməl et ki, hədisə əməl edənlərdən sayılasan” (Nukət alə Muqəddimətu İbnus-Səlah, 1/52; Hilyətul-Ovliya, 5/102). İmam Muslimin rəvayət etdiyi hədisi və bu hədisin isnadındakı raviləri buna misal çəkmək olar. Həmin hədisdə Peyğəmbərin ﷺ zövcəsi Ummu Həbibə ﵂ demişdir: “Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: “Fərz namazlarından əlavə, gündəlik olaraq on iki rükət nafilə namazı qılan elə bir müsəlman bəndə yoxdur ki, Allah onun üçün Cənnətdə bir ev bina etmiş olmasın.” *Sonra* Ummu Həbibə dedi: “Mən bu sözü Rəsulullahdan ﷺ eşitdiyim gündən bəri bu namazları buraxmamışam.” Anbəsə demişdir: “Mən bu hədisi Ummu Həbibədən eşitdiyim gündən bəri bu namazları buraxmamışam.” Amr ibn Ovs demişdir: “Mən bu hədisi Anbəsədən eşitdiyim gündən bəri bu namazları buraxmamışam.” Nomən ibn Salim demişdir: “Mən bu hədisi Amrdan eşitdiyim gündən bəri bu namazları buraxmamışam.” (Səhih Muslim, 728). Bu da, sələflərin Peyğəmbərin ﷺ sözünə necə ehtiramla yanaşdığına və onu eşidən kimi davamlı olaraq yerinə yetirmələrinə dəlalət edir.

[1] İmam Muslimin “Səhih”ində (2575): “Allah ona bərəkət verməsin!”– deyilir.

[2] Bu, dəlildir ki, istənilən bir xəstəliyi söymək günah sayılır. Çünki xəstəlik öz iradəsi ilə insana yoluxmur, əksinə, adam ancaq Allahın istəyi ilə xəstələnir.

[3] 497-ci hədisin qeydlərinə bax.

[4] Bu hədisi Muslim (2575), İbn Hibban (2938) və Beyhəqi (6799) rəvayət etmişdir.

٥١٧- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا النَّضْرُ بْنُ شُمَيْلٍ قَالَ: أَخْبَرَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، عَنْ أَبِي رَافِعٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((يَقُولُ اللَّهُ: اسْتَطْعَمْتُكَ فَلَمْ تُطْعِمْنِي، قَالَ: فَيَقُولُ: يَا رَبِّ، وَكَيْفَ اسْتَطْعَمْتَنِي وَلَمْ أُطْعِمْكَ، وَأَنْتَ رَبُّ الْعَالَمِينَ؟ قَالَ: أَمَا عَلِمْتَ أَنَّ عَبْدِي فُلاَنًا اسْتَطْعَمَكَ فَلَمْ تُطْعِمْهُ؟ أَمَا عَلِمْتَ أَنَّكَ لَوْ كُنْتَ أَطْعَمْتَهُ لَوَجَدْتَ ذَلِكَ عِنْدِي؟ ابْنَ آدَمَ، اسْتَسْقَيْتُكَ فَلَمْ تَسْقِنِي، فَقَالَ: يَا رَبِّ، وَكَيْفَ أَسْقِيكَ وَأَنْتَ رَبُّ الْعَالَمِينَ؟ فَيَقُولُ: إِنَّ عَبْدِي فُلاَنًا اسْتَسْقَاكَ فَلَمْ تَسْقِهِ، أَمَا عَلِمْتَ أَنَّكَ لَوْ كُنْتَ سَقَيْتَهُ لَوَجَدْتَ ذَلِكَ عِنْدِي؟ يَا ابْنَ آدَمَ، مَرِضْتُ فَلَمْ تَعُدْنِي، قَالَ: يَا رَبِّ، كَيْفَ أَعُودُكَ، وَأَنْتَ رَبُّ الْعَالَمِينَ؟ قَالَ: أَمَا عَلِمْتَ أَنَّ عَبْدِي فُلاَنًا مَرِضَ، فَلَوْ كُنْتَ عُدْتَهُ لَوَجَدْتَ ذَلِكَ عِنْدِي أَوْ وَجَدْتَنِي عِنْدَهُ؟))

**(517)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki,[1] Rəsulullah ﷺ demişdir: "*Qiyamət günü* Allah *Öz quluna* belə buyuracaq: "Səndən yemək istədim, Mənə yemək vermədin." O, deyəcək: "Ey Rəbbim! Sən aləmlərin Rəbbi ola-ola necə ola bilər ki, məndən yemək istəyəsən, mən də Sənə yemək verməyim?" *Allah* buyuracaq: "Məgər bilmirsən ki, filan qulum səndən yemək istəmiş, sən də ona yemək verməmişdin?[2] Məgər bilmirdin ki, əgər onu yedirtsəydin, bunun mükafatını Mənim yanımda tapacaqdın?" Sonra *Allah* buyuracaq: "Ey Adəm oğlu, səndən su istədim, Mənə su vermədin." O deyəcək: "Ey Rəbbim! Sən aləmlərin Rəbbi ola-ola necə ola bilər ki, məndən su istəyəsən, mən də Sənə su verməyim?" *Allah* buyuracaq: "Filan

---

[1] Bu hədisi Muslim (2569) rəvayət etmişdir.

[2] Əslində, Uca Allahın yemək-içməyə ehtiyacı yoxdur. Yemək və içmək ancaq naqis məxluqata aid olan xislətlərdəndir. Bu xüsusda, Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, Qüvvət sahibidir, Mətindir"** (əz-Zariyat, 56-58); O, həmçinin, buyurur: **"Allah *hamını* yedirir, Özünü isə *heç kəs* yedirmir"** (əl-Ənam, 14). Qüdsi hədislərin birində Uca Allah buyurur: **"Ey qullarım! Siz Mənə zərər yetirməyə qadir deyilsiniz ki, zərər yetirəsiniz. Eləcə də, Mənə fayda verməyə qadir deyilsiniz ki, fayda verəsiniz"** (Səhih Muslim, 2577). Burada Allahın, yemək-içməyi, habelə, xəstəni ziyarət etməyi Özünə aid etməsi, mömin adamı sadəcə bu işə təşviq etməsi üçündür. Buna, Allahın bu ayəsini misal çəkmək olar: **"Kim Allaha gözəl borc versə, *Allah* onun üçün bunu qat-qat artırar"** (əl-Bəqərə, 245).

qulum səndən su istəmişdi, sən isə ona su verməmişdin? Məgər bilmirdin ki, əgər ona su versəydin, bunun mükafatını Mənim yanımda tapacaqdın?" Sonra *Allah* buyuracaq: "Ey Adəm oğlu! Mən xəstələndim,[1] sən isə Mənə baş çəkmədin." O, deyəcək: "Ey Rəbbim! Sən aləmlərin Rəbbi olduğun halda, mən Sənə necə baş çəkə bilərdim?" *Allah* buyuracaq: "Filan qulumun xəstələndiyini bilmirdinmi?! Əgər ona baş çəksəydin, bunun mükafatını Mənim yanımda tapardın yaxud[2] Məni onun yanında tapardın."

**٥١٨-** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبَانُ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا قَتَادَةُ قَالَ: حَدَّثَنِي أَبُو عِيسَى الْأُسْوَارِيُّ، عَنْ أَبِي سَعِيدٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((عُودُوا الْمَرِيضَ، وَاتَّبِعُوا الْجَنَائِزَ، تُذَكِّرُكُمُ الآخِرَةَ)).

**(518)** ........ Əbu Səid ؓ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Xəstələrə baş çəkin,[4] cənazələrin ardınca gedin.[1] (Bu,) sizə Axirəti xatırladacaq."

---

[1] Burada, "xəstələndim" deyildikdə, Allahın xəstələnməsi başa düşülməməlidir. Çünki xəstələnmək naqis sifətlərdəndir, pak və müqəddəs Allah isə bütün nöqsanlardan uzaqdır. Bu hədisdəki xəstələnmək əməlisaleh qullardan və ya Allah dostlarından birinə aiddir. Bu xüsusda varid olmuş qüdsi səhih hədisdə Uca Allah buyurur: **"Kim Mənim dostumla düşmənçilik edərsə, Mən ona hərb elan edərəm."** Yəni kim Allahın dostu ilə düşmənçilik edərsə, Allahla düşmənçilik etmək fikri olmasa da, Allahla düşmənçilik etmiş hesab edilər (Şərh Riyadus-Salihin, 896-cı hədisin şərhi).

[2] Bu, ravinin şəkkidir. İmam Muslimin "Səhih"ində bu hədis şəksiz olaraq rəvayət edilmiş və həmin rəvayətdə: "Məni onun yanında tapardın"– deyilir. İbn Useymin hədisin bu yerini izah edərkən demişdir: "Burada Uca Allah: yemək və içmək xüsusunda: "bunun mükafatını Mənim yanımda tapardın" yox, "Məni onun yanında tapardın" deyir. Bu da, xəstə adamın Allaha yaxın olduğuna dəlalət edir. Elə buna görə də alimlər demişlər: "Xəstə adam bir kimsənin lehinə və ya əleyhinə etdiyi duanın qəbul olunmasına haris olur." Hədis, həmçinin, xəstəni ziyarət etməyin müstəhəb əməl olmasına dəlalət edir. Hədisdən o da aydın olur ki, Allah subhanəhu və təalə həm xəstəyə, həm də xəstəni ziyarət edən adama yaxın olur" (Şərh Riyadus-Salihin, 896-cı hədisin şərhi).

[3] Bu hədisi Əhməd (3/31) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Peyğəmbər ﷺ xəstəni ziyarət edər və bunu səhabələrinə də əmr edərdi. Xəstəyə baş çəkməyin olduqca böyük fəzilətləri vardır. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Müsəlman qardaşına baş çəkən kimsə *onun yanında* oturanadək Cənnət xürfəsində gəzişmiş sayılar. Qardaşının yanında oturduğu zaman onu rəhmət bürüyər. *Xəstə qardaşını* gündüz vaxtı ziyarət edərsə, yetmiş min mələk axşamadək ona xeyir-dua diləyər, gecə

٥١٩- حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((ثَلاَثٌ كُلُّهُنَّ حَقٌّ عَلَى كُلِّ مُسْلِمٍ: عِيَادَةُ الْمَرِيضِ، وَشُهُودُ الْجَنَازَةِ، وَتَشْمِيتُ الْعَاطِسِ إِذَا حَمِدَ اللَّهَ عَزَّ وَجَلَّ)).

**(519)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Üç xislət var ki, bunların hamısı hər bir müsəlmanın boynuna düşən haqdır: xəstəyə baş çəkmək, dəfndə iştirak etmək və asqırıb Allaha ﷻ həmd edən[2] adama[3] "yərhəmukəllah"[4] demək."[5]

---

vaxtı ziyarət edərsə, yetmiş min mələk səhərədək ona xeyir-dua diləyər" (Sunən Əbu Davud, 3099; Musnəd Əhməd, 1/81; Silsilətul-Əhadisis-Səhihə, 1367).

[1] Cənazənin ardınca getməyin fəziləti barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim imanla, mükafatını *yalnız Allahdan* umaraq cənazənin ardınca getsə, namazını qılıb dəfn edilənədək yanında qalsa, iki qirat savabla geri qayıdar ki, qiratların hər biri Uhud dağı boyda olar. Kim cənazə namazını qılıb dəfn edilməmişdən əvvəl geri qayıtsa, bir qiratla geri qayıtmış olar" (Səhih əl-Buxari, 47).

[2] Yəni "əlhəmdulilləh" deyən adama.

[3] Burada söhbət müsəlmandan gedir. Belə ki, kafir adam asqırıb "əlhəmdulilləh" desə belə, ona "yərhəmukəllah" demək olmaz (940-cı hədisə və onun qeydlərinə bax).

[4] Tərcüməsi: Allah sənə rəhm etsin!

[5] Bu hədisi Əhməd (2/357) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٢٣٥– بَابُ دُعَاءِ الْعَائِدِ لِلْمَرِيضِ بِالشِّفَاءِ

## 235-ci fəsil. Xəstəyə baş çəkən adamın dua edib (Allahdan) onun üçün şəfa diləməsi

**٥٢٠–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَهَّابِ قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ عَمْرِو بْنِ سَعِيدٍ، عَنْ حُمَيْدِ بْنِ عَبْدِ الرَّحْمَنِ قَالَ: حَدَّثَنِي ثَلاَثَةٌ مِنْ بَنِي سَعْدٍ كُلُّهُمْ يُحَدِّثُ عَنْ أَبِيهِ أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ عَلَى سَعْدٍ يَعُودُهُ بِمَكَّةَ، فَبَكَى، فَقَالَ: ((مَا يُبْكِيكَ؟)) قَالَ: خَشِيتُ أَنْ أَمُوتَ بِالأَرْضِ الَّتِي هَاجَرْتُ مِنْهَا كَمَا مَاتَ سَعْدٌ، قَالَ: ((اللَّهُمَّ اشْفِ سَعْدًا ثَلاَثًا))، فَقَالَ: لِي مَالٌ كَثِيرٌ، يَرِثُنِي ابْنَتِي، أَفَأُوصِي بِمَالِي كُلِّهِ؟ قَالَ: ((لاَ))، قَالَ: فَبِالثُّلُثَيْنِ؟ قَالَ: ((لاَ))، قَالَ: فَالنِّصْفُ؟ قَالَ: ((لاَ))، قَالَ: فَالثُّلُثُ؟ قَالَ: ((الثُّلُثُ، وَالثُّلُثُ كَثِيرٌ، إِنَّ صَدَقَتَكَ مِنْ مَالِكَ صَدَقَةٌ، وَنَفَقَتَكَ عَلَى عِيَالِكَ صَدَقَةٌ، وَمَا تَأْكُلُ امْرَأَتُكَ مِنْ طَعَامِكَ لَكَ صَدَقَةٌ، وَإِنَّكَ أَنْ تَدَعَ أَهْلَكَ بِخَيْرٍ، أَوْ قَالَ: بِعَيْشٍ خَيْرٍ، خَيْرٌ مِنْ أَنْ تَدَعَهُمْ يَتَكَفَّفُونَ النَّاسَ))، وَقَالَ بِيَدِهِ.

**(520)** ........ Səd[1] oğullarından üç nəfər[2] atalarından rəvayət etmişdir ki, Məkkədə ikən Rəsulullah ﷺ Sədə baş çəkdi və Səd ağladı. Rəsulullah ﷺ soruşdu: "Səni ağladan nədir?" O, dedi: "Qorxuram ki, Səd[3] öldüyü kimi, mən də tərk etdiyim diyarda ölüm."[4] Peyğəmbər ﷺ (üç dəfə): "Allahım, Sədə şəfa ver!"– deyə dua etdi. Səd dedi: "Mənim çoxlu mal-dövlətim var.

---

[1] Yəni Səd ibn Əbu Vəqqas ﵁.

[2] Bunlar Amir ibn Səd, Musab ibn Səd və Aişə bint Səddir.

[3] Burada "Səd" deyildikdə, Peyğəmbərin ﷺ səhabəsi Səd ibn Xovlə ﵁ qəsd edilir.

[4] İmam Buxarinin "Səhih"indəki hədisdə (1295) Səd ﵁ demişdir: "Dedim: "Ya Rəsulullah, mən *burada ölüb* qardaşlarımdan geridəmi qalacağam?" O, dedi: "Sən əsla geridə qalmayacaqsan. Etdiyin *hər bir* yaxşı əməl sayəsində sənin dərəcən və hörmətin mütləq artacaq. Bundan başqa, bəlkə də sən elə bir uzun ömür yaşayacaqsan ki, sənin sayəndə bəziləri xeyir əldə edəcək, digərlərinə isə zərər dəyəcəkdir. Allahım, səhabələrimin hicrətini tamamla və onları geri döndərmə. Yazıq Səd ibn Xovlə!" Peyğəmbər ﷺ *bu sözü ilə* onun Məkkədə vəfat etməsinə acıyırdı."

Qızım ona varis olacaq. Mən malımın hamısını (Allah yolunda) vəsiyyət edə bilərəmmi?"[1] O: "Xeyr!"– deyə cavab verdi. Soruşdum: "Bəs üçdə ikisini necə?" O (yenə): "Xeyr!"– deyə cavab verdi. Soruşdum: "Bəs yarısını necə?" O (yenə): "Xeyr!"– deyə cavab verdi. Soruşdum: "Bəs üçdə birini necə?" O, dedi: "Üçdə birini (verə bilərsən), lakin üçdə biri də çoxdur. Sözsüz ki, malından verdiyin (hər bir şey) sədəqə sayılır. Ailən üçün xərclədiklərin də sədəqədir. Zövcənin sənin yeməyindən yediyi də sədəqədir. Sənin üçün varislərini zəngin qoyub getməyin, onları kasıb və dilənçi vəziyyətdə qoyub getməyindən daha xeyirlidir."

(Bunu deyəndə) Peyğəmbər ﷺ əlini uzatdı."[2]

---

[1] Səd ibn Əbu Vəqqas ؓ malını sədəqə vermək barədə soruşur.

[2] Bu hədisi Buxari öz "Səhih"ində də (1295) rəvayət etmişdir (24-cü və 499-cu hədislərə və onların qeydlərinə bax).

# ٢٣٦- بَابُ فَضْلِ عِيَادَةِ الْمَرِيضِ

## 236-cı fəsil. Xəstəyə baş çəkməyin fəziləti

٥٢١- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا عَاصِمٌ، عَنْ أَبِي قِلَابَةَ، عَنْ أَبِي الْأَشْعَثِ الصَّنْعَانِيِّ، عَنْ أَبِي أَسْمَاءَ قَالَ: مَنْ عَادَ أَخَاهُ كَانَ فِي خُرْفَةِ الْجَنَّةِ، قُلْتُ لِأَبِي قِلَابَةَ: مَا خُرْفَةُ الْجَنَّةِ؟ قَالَ: جَنَاهَا، قُلْتُ لِأَبِي قِلَابَةَ: عَنْ مَنْ حَدَّثَهُ أَبُو أَسْمَاءَ؟ قَالَ: عَنْ ثَوْبَانَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ.

**(521)** ........ Əbu Əsma demişdir:[1] "Xəstə qardaşına baş çəkən adam Cənnət xürfəsində olar."[2]

(Asim dedi): "Mən Əbu Qilabədən soruşdum: "Cənnət xürfəsi nədir?" Dedi: "Cənnətin bir yerə yığılmış meyvələridir." Əbu Qilabədən soruşdum: "Əbu Əsma bu hədisi kimdən rəvayət etmişdir?"[3] Dedi: "Sovbandan, o da Rəsulullahdan ﷺ.[4]"

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Müsəlmanların xəstə müsəlman qardaşlarına baş çəkməsi "fardu-kifayə"dir, yəni hamısına vacib olmasa da, bir qisminə vacibdir. Çünki bu, müsəlmanın öz müsəlman qardaşı üzərində olan haqlardandır. Xəstə qardaşına baş çəkmiş müsəlman onun yanında olduğu müddətcə Cənnət meyvələri arasında olmuş sayılar.

[3] Bu, sələflərin rəvayət edilən hədisin isnadının olub-olmamasına diqqət yetirməsinə dəlalət edir. Bu xüsusda Muhəmməd ibn Sirin demişdir: "Bu hədislər dindir. Elə isə, dininizi kimdən öyrəndiyinizə diqqət edin" (Muslimin Müqəddiməsi, 26); o, həmçinin, demişdir: "*Müsəlmanlar* isnad barəsində sual verməzdilər. Ara qarışdıqdan sonra isə onlar: "Ravilərinizin adlarını bizə söyləyin"– deməyə başladılar. Beləcə Sünnə əhlinə diqqət yetirilər və onların hədisləri qəbul edilər, habelə, bidət əhlinə diqqət yetirilər və onların hədisləri rədd edilərdi" (Muslimin Müqəddiməsi, 27); habelə, Abdullah ibn Mubarək demişdir: "İsnad dindəndir və əgər isnad olmasaydı, əlbəttə ki, *hər* istəyən istədiyi sözü danışardı" (Muslimin Müqəddiməsi, 32).

[4] Bu hədisin əslini İmam Muslim öz "Səhih"ində (4658, 4659, 4660) rəvayət etmişdir. Həmin hədisdə Peyğəmər demişdir: "Bir müsəlman öz xəstə müsəlman qardaşına baş

(...)– حَدَّثَنَا ابْنُ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنِ الْمُثَنَّى، أَظُنُّهُ، ابْنَ سَعِيدٍ قَالَ: حَدَّثَنَا أَبُو قِلاَبَةَ، عَنْ أَبِي الأَشْعَثِ، عَنْ أَبِي أَسْمَاءَ الرَّحَبِيِّ، عَنْ ثَوْبَانَ، عَنِ النَّبِيِّ ﷺ، نَحْوَهُ.

**(...)** İbn Həbib ibn Əbu Sabit bizə belə rəvayət etmişdir: "Əbu Usamə, Musənnədən, çox güman ki, İbn Səiddən belə xəbər vermişdir: "Bizə Əbu Qilabə Əbul-Əşəsdən, o da, Əbu Əsma ər-Rəhəbidən, o da, Sovbandan, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir.

---

çəkdiyi zaman *evinə* qayıdanadək Cənnət xürfəsində olar." Ondan: "Ya Rəsulullah, Cənnət xürfəsi nədir?"– deyə soruşdular. Dedi: "Cənnətin bir yerə yığılmış meyvələridir." Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Adam öz xəstə müsəlman qardaşına baş çəkdiyi zaman, onun yanında oturduğu müddətcə, Cənnət xürfəsində oturmuş sayılar. *Onun yanında* oturduğu zaman rəhmət onu bürüyər. Gündüz vaxtı ona baş çəkərsə, yetmiş min mələk axşamadək ona xeyir-dua diləyər. Gecə vaxtı ona baş çəkərsə, yetmiş min mələk səhərədək ona xeyir-dua diləyər" (Sunən Əbu Davud, 3099; Sunən ibn Macə, 1/440; Musnəd Əhməd, 1/81; Beyhəqi, 3/380; Silsilətul-Əhadisis-Səhihə, 1367).

## ٢٣٧- بَابُ الْحَدِيثِ لِلْمَرِيضِ وَالْعَائِدِ

## 237-ci fəsil. Xəstəyə və ona baş çəkənlərə hədis danışmaq

**٥٢٢-** حَدَّثَنَا قَيْسُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْحَمِيدِ بْنُ جَعْفَرٍ قَالَ: أَخْبَرَنِي أَبِي، أَنَّ أَبَا بَكْرِ بْنَ حَزْمٍ، وَمُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ، فِي نَاسٍ مِنْ أَهْلِ الْمَسْجِدِ، عَادُوا عُمَرَ بْنَ الْحَكَمِ بْنِ رَافِعٍ الأَنْصَارِيَّ، قَالُوا: يَا أَبَا حَفْصٍ، حَدِّثْنَا، قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنْ عَادَ مَرِيضًا خَاضَ فِي الرَّحْمَةِ، حَتَّى إِذَا قَعَدَ اسْتَقَرَّ فِيهَا)).

**(522)** ........ Cəfər rəvayət edir ki, *bir gün* Əbu Bəkr ibn Həzm və Muhəmməd ibn Munkədir məscid əhlindən bir dəstə adamla birgə Ömər ibn Həkəm ibn Rafi əl-Ənsariyə baş çəkdilər. Onlar dedilər: “Ey Əbu Həfs, bizə hədis danış.”[1] O, dedi: “Mən Cabir ibn Abdullahın belə dediyini eşitmişəm: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Kim bir xəstəyə baş çəksə, rəhmətə dalmış olar. Nəhayət, onun yanına oturduqda[2] rəhmətə qovuşar.”[3]

---

[1] Bu, dəlildir ki, xəstəni ziyarət edən adam onu yormamaq və ona əziyyət verməmək şərti ilə onunla faydalı söhbət edə bilər.

[2] Yəni oturduğu müddət ərzində.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

# ٢٣٨– بَابُ مَنْ صَلَّى عِنْدَ الْمَرِيضِ

## 238-ci fəsil. Xəstənin yanında namaz qılan kəs[1]

٥٢٣– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَمْرٍو، عَنْ عَطَاءٍ قَالَ: عَادَ ابْنُ عُمَرَ ابْنَ صَفْوَانَ، فَحَضَرَتِ الصَّلاَةُ، فَصَلَّى بِهِمُ ابْنُ عُمَرَ رَكْعَتَيْنِ، وَقَالَ: إِنَّا سَفْرٌ.

**(523)** ........ Əta demişdir: "(Bir gün) İbn Ömər, İbn Səfvana baş çəkdi. Namazın vaxtı gəlib çatdıqda İbn Ömər camaata iki rükət namaz qıldırdı və: "Biz müsafirik"– dedi."[2]

---

[1] İmam Buxarinin bu fəsilə belə ünvan qoyması, xəstənin yanında namaz qılmağın Sünnə olmasına dəlalət etmir. Bu fəsildə nəql olunmuş əsərdən aydın olur ki, xəstənin yanında ikən vaxtı girmiş namazı qılmaq caizdir. Hədisdən o da aydın olur ki, səfərdə olan adam camaata imamlıq etdiyi təqdirdə, namazın nə səbəbdən qəsr, yəni iki rükət qıldığını yanlış anlamasınlar deyə, ev əhlinə özünün müsafir olduğunu xəbər verə bilər.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٣٩- بَابُ عِيَادَةِ الْمُشْرِكِ

## 239-cu fəsil. Müşrikə[1] baş çəkmək

٥٢٤- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ، أَنَّ غُلاَمًا مِنَ الْيَهُودِ كَانَ يَخْدُمُ النَّبِيَّ ﷺ فَمَرِضَ، فَأَتَاهُ النَّبِيُّ ﷺ يَعُودُهُ، فَقَعَدَ عِنْدَ رَأْسِهِ فَقَالَ: ((أَسْلِمْ))، فَنَظَرَ إِلَى أَبِيهِ، وَهُوَ عِنْدَ رَأْسِهِ، فَقَالَ لَهُ: أَطِعْ أَبَا الْقَاسِمِ ﷺ، فَأَسْلَمَ، فَخَرَجَ النَّبِيُّ ﷺ وَهُوَ يَقُولُ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي أَنْقَذَهُ مِنَ النَّارِ)).

**(524)** ........ Ənəs ﷺ rəvayət edir ki, yəhudi bir uşaq Peyğəmbərə ﷺ xidmət edirdi. (Bir gün) uşaq xəstələndi və Peyğəmbər ﷺ ona baş çəkməyə getdi. O, uşağın baş tərəfində oturdu[2] və *ona*: "Müsəlman ol!"– dedi. Uşaq, baş tərəfində dayanmış atasının üzünə baxdı. Atası ona: "Əbul-Qasimə ﷺ itaət et!"– dedi və uşaq İslam dinini qəbul etdi. Sonra Peyğəmbər ﷺ onun yanından çıxdı və: "Onu Oddan xilas edən Allaha həmd olsun!"[3]– dedi.[4]

---

[1] Uca Allah buyurur: **"Yəhudilər: "Üzeyr Allahın oğludur"– dedilər"** (ət-Tovbə, 30); hədislərin birində Aişə ﷺ rəvayət etmişdir ki, Peyğəmbərin ﷺ vəfat etməsinə səbəb olan xəstəliyə tutulduğu zaman o, demişdir: "Allah yəhudilərə və xristianlara lənət eləsin! Onlar peyğəmbərlərinin qəbirlərini ibadətgaha çevirmişlər" (Səhih əl-Buxari, 135).

[2] Xəstəni ziyarət edən adamın baş tərəfində oturması müstəhəbdir. Belə olduğu təqdirdə adam xəstə ilə rahat danışa bilər, habelə, əlini onun başına qoyub onun üçün Allahdan şəfa diləyər.

[3] Bu hədisdən aşağıdakı nəticələri çıxartmaq olar:

– qeyri-müsəlmanı xidməçi tutmağın caiz olması;

– İslama dəvət məqsədi ilə xəstə yəhudini ziyarət etməyin caiz olması;

– xəstə adamı doğru yola yönəltməyin bəyənilən əməllərdən sayılması;

– ata İslama gəlməsə də övladın müsəlman olacağına ümid bəsləmək (Şərh Riyadus-Salihin). Bir kimsənin İslam dinini qəbul etməsinə səbəbkar olmaq Allahın öz bəndəsinə bəxş etdiyi ən böyük nemətlərdəndir ki, buna görə Rəsulullah ﷺ Allaha həmd edir. Peyğəmbər ﷺ Xeybər günü Əli ibn Əbu Talibə ﷺ belə buyurmuşdur: "Vallahi, əgər Allah sənin vasitənlə bir nəfəri doğru yola yönəltsə, bu, sənin üçün qırmızı dəvələrdən daha xeyirli olar" (Səhih əl-Buxari, 2942).

[4] Bu hədisi Buxari öz "Səhih"ində də (1356) rəvayət etmişdir.

## ٢٤٠- بَابُ مَا يَقُولُ لِلْمَرِيضِ

## 240-cı fəsil. Xəstəyə baş çəkən adam ona nə deyir

**٥٢٥-** حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ أَنَّهَا قَالَتْ: لَمَّا قَدِمَ رَسُولُ اللَّهِ ﷺ الْمَدِينَةَ وُعِكَ أَبُو بَكْرٍ وَبِلاَلٌ، قَالَتْ: فَدَخَلْتُ عَلَيْهِمَا، قُلْتُ: يَا أَبَتَاهُ، كَيْفَ تَجِدُكَ؟ وَيَا بِلاَلُ، كَيْفَ تَجِدُكَ؟ قَالَ: وَكَانَ أَبُو بَكْرٍ إِذَا أَخَذَتْهُ الْحُمَّى يَقُولُ:

كُلُّ امْرِئٍ مُصَبَّحٌ فِي أَهْلِهِ ... وَالْمَوْتُ أَدْنَى مِنْ شِرَاكِ نَعْلِهِ

وَكَانَ بِلاَلٌ إِذَا أُقْلِعَ عَنْهُ يَرْفَعُ عَقِيرَتَهُ فَيَقُولُ:

أَلاَ لَيْتَ شِعْرِي هَلْ أَبِيتَنَّ لَيْلَةً ... بِوَادٍ وَحَوْلِي إِذْخِرٌ وَجَلِيلُ

وَهَلْ أَرِدَنْ يَوْمًا مِيَاهَ مَجَنَّةٍ ... وَهَلْ يَبْدُوَنْ لِي شَامَةٌ وَطَفِيلُ

قَالَتْ عَائِشَةُ رَضِيَ اللَّهُ عَنْهَا: فَجِئْتُ رَسُولَ اللَّهِ ﷺ فَأَخْبَرْتُهُ، فَقَالَ: ((اللَّهُمَّ حَبِّبْ إِلَيْنَا الْمَدِينَةَ كَحُبِّنَا مَكَّةَ أَوْ أَشَدَّ، وَصَحِّحْهَا وَبَارِكْ لَنَا فِي صَاعِهَا وَمُدِّهَا، وَانْقُلْ حُمَّاهَا فَاجْعَلْهَا بِالْجُحْفَةِ.

**(525)** ........ Aişə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ Mədinəyə gəldikdə, Əbu Bəkr və Bilal xəstələnmişdi. Mən onlara baş çəkməyə getdim və dedim: "Atacan, özünü necə hiss edirsən? Ey Bilal, özünü necə hiss edirsən?"

Əbu Bəkrin qızdırması qalxanda deyərdi:

*Hər kəs səhər oyanar ailəsində yuxudan,*
*Ölüm ona yaxın olar çəkməsinin bağından.*[1]

Bilalın da qızdırması düşəndə səsini qaldırıb deyərdi:

*Nə olaydı biləydim bir gün qalacağammı?*
*Vadidə, ətrafımda izxir,*[2] *cəlil*[3] *olacaqmı?*

---

[1] Əbu Bəkr demək istəyir ki, əcəl adama çəkmənin bağını bağlamaqdan daha tez yetişə bilər. Bundan da aydın olur ki, xəstəlik və xəstəyə baş çəkmək insana ölümü yada salır (518-ci hədisə və onun qeydlərinə bax).

[2] İzxir – ətirli qamış.

[3] Cəlil – nazik gövdəli ev bitkisi.

*Micənnənin[1] sularına bir gün yetişəcəyəmmi?*
*Şama, Təfil[2] dağları gözümə görünəcəklərmi?*[3]

Aişə demişdir: "Mən Rəsulullahın ﷺ yanına gəlib bunu ona xəbər verdim. O, dedi: "Allahım, Məkkəni bizə sevdirdiyin kimi yaxud bundan artıq bir sevgi ilə Mədinəni də bizə sevdir. Onu xəstəliklərdən azad et. Bizim orada olan bir ovuc və dörd ovuc yeməyimizə bərəkət ver. Mədinədəki qızdırma xəstəliyini Cuhfəyə[4] yönəlt."[5]

**٥٢٦-** حَدَّثَنَا مُعَلًّى قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ الْمُخْتَارِ قَالَ: حَدَّثَنَا خَالِدٌ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ عَلَى أَعْرَابِيٍّ يَعُودُهُ، قَالَ: وَكَانَ النَّبِيُّ ﷺ إِذَا دَخَلَ عَلَى مَرِيضٍ يَعُودُهُ قَالَ: ((لاَ بَأْسَ طَهُورٌ إِنْ شَاءَ اللَّهُ))، قَالَ: ذَاكَ طَهُورٌ، كَلاَّ بَلْ هِيَ حُمَّى تَفُورُ، أَوْ تَثُورُ، عَلَى شَيْخٍ كَبِيرٍ، تُزِيرُهُ الْقُبُورَ، قَالَ النَّبِيُّ ﷺ: ((فَنَعَمْ، إِذًا)).

**(526)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ bir bədəviyə baş çəkmək üçün onun yanına daxil oldu. Peyğəmbər ﷺ xəstəyə baş çəkmək üçün onun yanına daxil olduqda deyərdi: "Eybi yoxdur, inşaAllah

---

[1] Micənnə – Məkkədən bir neçə mil aralıda yerləşən ərazi.

[2] Şama və Təfil – Məkkə yaxınlığında iki dağ.

[3] Burada Bilal رضي الله عنه Məkkədə keçirdiyi günləri yadına salır və bircə gün olsa da, Məkkədə olmağı, Məkkənin yaxınlığındakı sulardan dadmağı və oradakı dağlara baxmağı təmənna edir.

[4] Mədinə ilə Məkkə arasında olan bir yerdir. Həmin dövrdə Cuhfədə Peyğəmbərə ﷺ qarşı düşmənçilik edən kafirlər vardı. Elə bu səbəbdən də, Peyğəmbər ﷺ bu xəstəliyin onlara yoluxmasını istəyir. Bu da, dəlildir ki, müsəlmanlarla ədavət aparan kafirlərə bəddua etmək və onlara bəla diləmək caizdir. Müsəlmanlarla işi olmayan kafirlərə isə bəla yox, hidayət diləmək gərəkdir. Əgər biz 502-ci hədisə baxsaq sual meydana çıxa bilər ki: "Nə üçün qızdırma Peyğəmbərin ﷺ yanına gəldikdə o, qızdırmanı ənsarın yanına göndərdi?" Bu sualın cavabı belədir: qızdırmanın ənsara üz verməsi onlar üçün bir imtahan, yəni günahlarının silinməsi üçün bir kəffarə və bu imtahana səbir etdiklərinə görə savablarının artması üçün bir səbəb olmuşdur. Bu hədisdə qızdırmanın Cuhfəyə yönəldilməsi isə oranın sakinləri üçün bəla hesab edilir.

[5] Bu hədisi imam Buxari öz "Səhih"ində də (1889) rəvayət etmişdir.

*günahların* təmizlənir!" *Bədəvi* dedi: "Bu *xəstəlik günahları* təmizləyir?! Xeyr! Bu, ixtiyar çağında olan qocanın bədənində od kimi yanan yaxud alovlanan bir qızdırmadır ki, onu qəbirə aparsın." Peyğəmbər ﷺ dedi: "Yaxşı, qoy olsun!"[1]

**٥٢٧-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ، عَنْ حَرْمَلَةَ، عَنْ مُحَمَّدِ بْنِ عَلِيٍّ الْقُرَشِيِّ، عَنْ نَافِعٍ قَالَ: كَانَ ابْنُ عُمَرَ إِذَا دَخَلَ عَلَى مَرِيضٍ يَسْأَلُهُ: كَيْفَ هُوَ؟ فَإِذَا قَامَ مِنْ عِنْدِهِ قَالَ: خَارَ اللَّهُ لَكَ، وَلَمْ يَزِدْهُ عَلَيْهِ.

**(527)** ........ Nafi rəvayət edir ki, İbn Ömər xəstənin yanına gəldikdə soruşardı: "Onun halı necədir?" Qalxıb getdikdə isə: "Allah sənə xeyirlisini nəsib etsin!"– deyər və buna heç nə əlavə etməzdi.[2]

---

[1] 514-cü hədisin qeydlərinə bax.

[2] Bu hədisin isnadında keçən Muhəmməd ibn Əli əl-Qurəşi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٢٤١- بَابُ مَا يُجِيبُ الْمَرِيضُ

## 241-ci fəsil. Xəstə (ona baş çəkən adama) nə cavab verir

**٥٢٨-** حَدَّثَنَا أَحْمَدُ بْنُ يَعْقُوبَ قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ سَعِيدِ بْنِ عَمْرِو بْنِ سَعِيدٍ، عَنْ أَبِيهِ قَالَ: دَخَلَ الْحَجَّاجُ عَلَى ابْنِ عُمَرَ، وَأَنَا عِنْدَهُ، فَقَالَ: كَيْفَ هُوَ؟ قَالَ: صَالِحٌ، قَالَ: مَنْ أَصَابَكَ؟ قَالَ: أَصَابَنِي مَنْ أَمَرَ بِحَمْلِ السِّلاَحِ فِي يَوْمٍ لاَ يَحِلُّ فِيهِ حَمْلُهُ، يَعْنِي: الْحَجَّاجَ.

**(528)** ........ Səid ibn Amr demişdir: "Mən İbn Ömərin yanında ikən Həccac onun yanına gəldi. *Həccac* soruşdu: "Kefin necədir?" *İbn Ömər* dedi: "Yaxşıdır!" *Həccac* soruşdu: "Səni kim yaralayıb?"[1] *İbn Ömər* dedi: "Məni silah götürmək qadağan olduğu bir gündə silah götürməyə məcbur edən kəs yaralayıb." O, bu sözlə Həccacı nəzərdə tuturdu.[2]

---

[1] Digər rəvayətdə Səid ibn Cubeyr demişdir: "İbn Ömərin ayağının altına nizənin ucu girdiyi və ayağını üzəngiyə yapışdırdığı zaman mən onun yanında idim. Dərhal atdan enib nizəni onun ayağından çıxartdım. Bu hadisə Minada baş vermişdi. Həccac bu hadisədən xəbər tutduqda İbn Ömərə baş çəkməyə gəldi və: "Kaş səni yaralayan adamın kim olduğunu biləydik!"– dedi. İbn Ömər: "Məni sən yaralamısan"– dedi. Həccac: "Necə yəni?"– deyə təəccüb etdi. İbn Ömər dedi: "Sən silah götürülməsi qadağan olduğu bir gündə *bayram günündə* silah götürdün, habelə, içinə silah salınması qadağan edilmiş Məscidulhərama silah saldın" (Səhih əl-Buxari, 966).

[2] Bu əsəri imam Buxari öz "Səhih"ində də (967) rəvayət etmişdir.

## ٢٤٢- بَابُ عِيَادَةِ الْفَاسِقِ

## 242-ci fəsil. Fasiqə[1] baş çəkmək

٥٢٩- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا بَكْرُ بْنُ مُضَرَ قَالَ: حَدَّثَنِي عُبَيْدُ اللَّهِ بْنُ زَحْرٍ، عَنْ حِبَّانَ بْنِ أَبِي جَبَلَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: لاَ تَعُودُوا شُرَّابَ الْخَمْرِ إِذَا مَرِضُوا.

**(529)** ........ Abdullah ibn Amr ibn As رضي الله عنهما demişdir: "Şərab düşkünləri xəstələndiyi zaman onlara baş çəkməyin![2]"[3]

[1] Günah işlərlə məşğul olan adam. Günahkar adamı tərbiyələndirmək və yaramaz əməlindən çəkindirmək məqsədilə onu ziyarət etməmək, habelə, bu hərəkətlə qeyrilərinə dərs vermək bəyənilən əməllərdəndir. Yox əgər onu ziyarət etməkdə onun islah olunacağı, yaramaz əməlinə son qoyacağı umulursa, belə olduğu təqdirdə onu ziyarət etmək, əksinə, bəyənilən əməllərdən sayılır.

[2] Günahkar adama baş çəkməmək barədə neçə-neçə "səhih" hədislər varid olmuşdur. O hədislərdən birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qədərilər bu ümmətin məcusiləridir. Xəstələnsələr, onlara baş çəkməyin, ölsələr, onların cənazəsində iştirak etməyin!" (Sunən Əbu Davud, 4691; Səhih əl-Cami, 4442; Silsilətul-Əhadisis-Səhihə, 6/563).

[3] Bu hədisin isnadında keçən Ubeydullah "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٢٤٣- بَابُ عِيَادَةِ النِّسَاءِ الرَّجُلَ الْمَرِيضَ

## 243-cü fəsil. Qadınların xəstə kişiyə baş çəkməsi[1]

٥٣٠- حَدَّثَنَا زَكَرِيَّا بْنُ يَحْيَى قَالَ: حَدَّثَنَا الْحَكَمُ بْنُ الْمُبَارَكِ قَالَ: أَخْبَرَنِي الْوَلِيدُ هُوَ ابْنُ مُسْلِمٍ قَالَ: حَدَّثَنَا الْحَارِثُ بْنُ عُبَيْدِ اللَّهِ الأَنْصَارِيُّ قَالَ: رَأَيْتُ أُمَّ الدَّرْدَاءِ، عَلَى رِحَالِهَا أَعْوَادٌ لَيْسَ عَلَيْهَا غِشَاءٌ، عَائِدَةً لِرَجُلٍ مِنْ أَهْلِ الْمَسْجِدِ مِنَ الأَنْصَارِ.

**(530)** ........ Haris ibn Ubeydullah əl-Ənsari demişdir: "Mən Ummu Dərdanı üstündə örtük olmayan (kəcavədə) dəvəsinə minib məscid əhlindən olan ənsardan xəstə bir adama baş çəkdiyini gördüm."[2]

---

[1] Qeyd etmək lazımdır ki, qadının öz məhrəminə – atasına, qayınatasına, qardaşına, əmisinə, dayısına və s. baş çəkməsi caiz, yad kişini ziyarət etməsi isə qadağan olunan əməllərdəndir. Həmçinin, qadının öz məhrəminin yanında naməhrəmə baş çəkməsi də caizdir (525-ci hədisi buna dəlil göstərmək olar).

[2] Bu hədisin isnadında keçən Haris ibn Ubeydullah əl-Ənsari "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٢٤٤- بَابُ مَنْ كَرِهَ لِلْعَائِدِ أَنْ يَنْظُرَ إِلَى الْفُضُولِ مِنَ الْبَيْتِ

## 244-cü fəsil. (Xəstəyə) baş çəkən adamın (bu əsnada) evdə artıq şeylərə baxmasının bəyənilməməsi[1]

**٥٣١-** حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ قَالَ: أَخْبَرَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنِ الأَجْلَحِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِي الْهُذَيْلِ قَالَ: دَخَلَ عَبْدُ اللَّهِ بْنُ مَسْعُودٍ عَلَى مَرِيضٍ يَعُودُهُ، وَمَعَهُ قَوْمٌ ، وَفِي الْبَيْتِ امْرَأَةٌ، فَجَعَلَ رَجُلٌ مِنَ الْقَوْمِ يَنْظُرُ إِلَى الْمَرْأَةِ، فَقَالَ لَهُ عَبْدُ اللَّهِ: لَوْ انْفَقَأَتْ عَيْنُكَ كَانَ خَيْرًا لَكَ.

**(531)** ........ Abdullah ibn Əbu Huzeyl demişdir: “(Bir dəfə) Abdullah ibn Məsud bir dəstə adamla birgə xəstəyə baş çəkdi. (Gəldikləri) evdə qadın da var idi. Gələn adamlardan biri o qadına baxmağa başladı. (Bu vaxt) Abdullah ona dedi: “Gözün çıxarılsaydı, sənin üçün daha xeyirli olardı.[2]”[3]

---

[1] Burada “artıq şeylərə baxmaq” deyildikdə, haram buyurulanlara baxmaq, “bəyənilməməsi” deyildikdə, haram buyurulması nəzərdə tutulur. Qeyd edək ki, bu hökm təkcə xəstəyə baş çəkən adama və ancaq ziyarət əsnasına aid edilmir, əksinə, hər bir müsəlmana və hər bir zamana şamil edilir (1068-ci və 1069-cu hədislərə bax).

[2] Səhabənin bu sözündən aydın olur ki, insanın gözü Allaha qulluq etmək üçün yaradılmışdır. Və əgər adam bu gözü haram işlərə sərf edərsə, o anda onun olmaması, olmasından daha xeyirli olar. Uca Allah buyurur: **“Mömin kişilərə de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar. Bu onlar üçün daha təmiz olar”** (ən-Nur, 30).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

# ٢٤٥- بَابُ الْعِيَادَةِ مِنَ الرَّمَدِ

## 245-ci fəsil. Göz xəstəliyinə tutulan kimsəyə baş çəkmək

٥٣٢- حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا سَلْمُ بْنُ قُتَيْبَةَ قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي إِسْحَاقَ قَالَ: سَمِعْتُ زَيْدَ بْنَ أَرْقَمَ يَقُولُ: رَمِدَتْ عَيْنِي، فَعَادَنِي النَّبِيُّ ﷺ ثُمَّ قَالَ: ((يَا زَيْدُ، لَوْ أَنَّ عَيْنَكَ لَمَّا بِهَا كَيْفَ كُنْتَ تَصْنَعُ؟)) قَالَ: كُنْتُ أَصْبِرُ وَأَحْتَسِبُ، قَالَ: ((لَوْ أَنَّ عَيْنَكَ لَمَّا بِهَا، ثُمَّ صَبَرْتَ وَاحْتَسَبْتَ كَانَ ثَوَابُكَ الْجَنَّةَ)).

**(532)** ........ Zeyd ibn Ərqam ﷺ demişdir: “Mənim gözlərim ağrıyırdı. Peyğəmbər ﷺ mənə baş çəkdi[1] və dedi: “Ey Zeyd! Əgər gözünü tamamilə itirsən, nə edərsən?” Mən: “Səbir edib əvəzini (Allahdan) umaram”– dedim. O, dedi: “Əgər gözünü tamamilə itirsən, sonra da səbir edib əvəzini almağa ümid etsən, mükafatın Cənnət olar.”

٥٣٢- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ عَلِيِّ بْنِ زَيْدٍ، عَنِ الْقَاسِمِ بْنِ مُحَمَّدٍ، أَنَّ رَجُلًا مِنْ أَصْحَابِ مُحَمَّدٍ ذَهَبَ بَصَرُهُ، فَعَادُوهُ، فَقَالَ: كُنْتُ أُرِيدُهُمَا لأَنْظُرَ إِلَى النَّبِيِّ ﷺ، فَأَمَّا إِذْ قُبِضَ النَّبِيُّ ﷺ فَوَاللَّهِ مَا يَسُرُّنِي أَنَّ مَا بِهِمَا بِظَبْيٍ مِنْ ظِبَاءِ تَبَالَةَ.

**(533)** ........ Qasım ibn Muhəmməd rəvayət edir ki, Muhəmmədin ﷺ səhabələrindən bir kişinin gözləri tutuldu və səhabələr ona baş çəkdilər. O, dedi: “Gözlər mənə Peyğəmbərə ﷺ baxmaq üçün lazım idi. O vəfat etdikdən sonra isə, vallahi ki, Tibalə[2] ceyranlarından birinin gözləri məndə olsa belə, (bu) məni sevindirməz.”[3]

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində hədisin bu cümləsinə qədər “səhih li-ğeyrihi” olduğunu demişdir (Bax: Səhih Əbu Davud, 2716). Hədisin qalan hissəsi isə “zəif”dir (Daif əl-Ədəbul-Mufrad).

[2] Yəməndə yer adıdır.

[3] Bu hədisin isnadında keçən Əli ibn Zeyd “zəif” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

٥٣٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ، وَابْنُ يُوسُفَ، قَالاَ: حَدَّثَنَا اللَّيْثُ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ الْهَادِ، عَنْ عَمْرٍو مَوْلَى الْمُطَّلِبِ، عَنْ أَنَسٍ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: إِذَا ابْتَلَيْتُهُ بِحَبِيبَتَيْهِ، يُرِيدُ عَيْنَيْهِ، ثُمَّ صَبَرَ عَوَّضْتُهُ الْجَنَّةَ)).

**(534)** ........ Ənəs ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Allah ﷻ buyurur: **"Əgər Mən Öz qulumu onun sevdiyi iki şeylə imtahana çəkdiyim zaman o buna səbir edərsə, bunun əvəzində ona Cənnət bəxş edərəm.[1]"**[2]

O, ("sevdiyi iki şeylə" deyəndə) gözləri qəsd edirdi."

٥٣٥- حَدَّثَنَا خَطَّابٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ، عَنْ ثَابِتِ بْنِ عَجْلاَنَ، وَإِسْحَاقَ بْنِ يَزِيدَ، قَالاَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي ثَابِتٌ، عَنِ الْقَاسِمِ، عَنْ أَبِي أُمَامَةَ، عَنِ النَّبِيِّ ﷺ: يَقُولُ اللَّهُ: ((يَا ابْنَ آدَمَ، إِذَا أَخَذْتُ كَرِيمَتَيْكَ، فَصَبَرْتَ عِنْدَ الصَّدْمَةِ وَاحْتَسَبْتَ، لَمْ أَرْضَ لَكَ ثَوَابًا دُونَ الْجَنَّةِ)).

**(535)** ........ Əbu Umamə ﷺ Peyğəmbərdən ﷺ rəvayət edir ki, Allah ﷻ buyurdu: **"Ey Adəm oğlu! Sənin iki əzizini[3] əlindən aldığım zaman ilk anda səbir edib əvəzini *Məndən* umsan, sənə mükafat olaraq Cənnətdən başqa bir şey verməyə razı olmaram."**[4]

---

[1] Burada, Allah möminlərə xəbər verir ki, onlardan birini sınağa çəkib gözünü əlindən alacağı təqdirdə əvəzinə ona Cənnəti bəxş edəcəkdir. Bu ən xeyirli əvəzdir. Belə ki, insanın gözü fanidir, Cənnət nemətləri isə tükənməzdir. Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Uca Allah buyurur: **"Mən əməlisaleh qullarım üçün heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir *bəşərin* qəlbindən keçirmədiyi nemətlər hazırlamışam."** Sonra Əbu Hureyrə ﷺ dedi: "İstəyirsinizsə, *bu ayəni* oxuyun: **"Etdikləri əməllərin mükafatı kimi, onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir"** (Səhih əl-Buxari, 4780).

[2] Bu hədisi imam Buxari öz "Səhih"ində də (5653) rəvayət etmişdir.

[3] Yəni gözlərini.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

## ٢٤٦- بَابُ أَيْنَ يَقْعُدُ الْعَائِدُ؟

## 246-cı fəsil. Xəstəyə baş çəkən adam harada oturmalıdır?

**٥٣٦-** حَدَّثَنَا أَحْمَدُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي عَمْرٌو، عَنْ عَبْدِ رَبِّهِ بْنِ سَعِيدٍ قَالَ: حَدَّثَنِي الْمِنْهَالُ بْنُ عَمْرٍو، عَنْ عَبْدِ اللَّهِ بْنِ الْحَارِثِ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا عَادَ الْمَرِيضَ جَلَسَ عِنْدَ رَأْسِهِ، ثُمَّ قَالَ سَبْعَ مِرَارٍ: ((أَسْأَلُ اللَّهَ الْعَظِيمَ، رَبَّ الْعَرْشِ الْعَظِيمِ، أَنْ يَشْفِيكَ))، فَإِنْ كَانَ فِي أَجَلِهِ تَأْخِيرٌ عُوفِيَ مِنْ وَجَعِهِ.

**(536)** ........ İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ xəstəyə baş çəkdikdə, onun baş tərəfində oturub, yeddi dəfə deyərdi: "Əsəlullahəl-Azim, Rabbəl-arşil-azim ən yəşfiyəkə!"[1] Və əgər xəstənin əcəli təxirə salınacaqsa, onun ağrıları keçib gedər.[2]

**٥٣٧-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا الرَّبِيعُ بْنُ عَبْدِ اللَّهِ قَالَ: ذَهَبْتُ مَعَ الْحَسَنِ إِلَى قَتَادَةَ نَعُودُهُ، فَقَعَدَ عِنْدَ رَأْسِهِ، فَسَأَلَهُ ثُمَّ دَعَا لَهُ قَالَ: اللَّهُمَّ اشْفِ قَلْبَهُ، وَاشْفِ سَقَمَهُ.

**(537)** ........ Rabi ibn Abdullah demişdir: "(Bir dəfə) mən Həsən (əl-Bəsri) ilə birgə Qətadəyə baş çəkməyə getdik. Həsən onun baş tərəfində oturub ondan hal-əhval tutdu. Sonra onun üçün dua edib dedi: "Allahım, onun qəlbinə şəfa ver, xəstəliyini də sağalt!"[3]

---

[1] Tərcüməsi: Əzəmətli ərşin Rəbbi Böyük Allahdan diləyirəm ki, sənə şəfa versin!

[2] Bu hədisi Əbu Davud (3106) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. İmam Tirmizinin "Sunən" əsərində (2083) rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "(Hansı) bir müsəlman əcəli çatmamış bir xəstəni ziyarət edib yeddi dəfə: "Əsəlullahəl-Azim, Rabbəl-arşil-azim ən yəşfiyəkə!"– desə, o xəstə sağalar" (Səhih əl-Cami, 5766). Bu hədislərdən duanın xəstə adamın şəfa tapması üçün səbəb olduğu aydın olur.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٤٧- بَابُ مَا يَعْمَلُ الرَّجُلُ فِي بَيْتِهِ

## 247-ci fəsil. Kişinin öz evində gördüyü işlər

**٥٣٨-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ رَجَاءٍ، وَحَفْصُ بْنُ عُمَرَ، قَالاَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الْحَكَمِ، عَنْ إِبْرَاهِيمَ، عَنِ الأَسْوَدِ قَالَ: سَأَلْتُ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا: مَا كَانَ يَصْنَعُ النَّبِيُّ ﷺ فِي أَهْلِهِ؟ فَقَالَتْ: كَانَ يَكُونُ فِي مِهْنَةِ أَهْلِهِ، فَإِذَا حَضَرَتِ الصَّلاَةُ خَرَجَ.

**(538)** ........ Əsvəd deyir ki, mən Aişədən ﵂ soruşdum: "Peyğəmbər ﷺ evində nə iş görərdi?" (Aişə) dedi: "O, ev işlərində əhli-əyalına köməklik edər,[1] namaz vaxtı yetişdikdə isə (namaza) gedərdi."[2]

**٥٣٩-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مَهْدِيُّ بْنُ مَيْمُونٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ قَالَ: سَأَلْتُ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا: مَا كَانَ النَّبِيُّ ﷺ يَعْمَلُ فِي بَيْتِهِ؟ قَالَتْ: يَخْصِفُ نَعْلَهُ، وَيَعْمَلُ مَا يَعْمَلُ الرَّجُلُ فِي بَيْتِهِ.

**(539)** ........ Urva demişdir: "Mən Aişədən ﵂ soruşdum: "Peyğəmbər ﷺ evində nə iş görərdi?" (Aişə) dedi: "O, çəkməsini özü tikər və kişinin öz evində gördüyü işləri görərdi."[3]

**٥٤٠-** حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ الْوَلِيدِ، عَنْ سُفْيَانَ، عَنْ هِشَامٍ، عَنْ أَبِيهِ قَالَ: سَأَلْتُ عَائِشَةَ: مَا كَانَ النَّبِيُّ ﷺ يَصْنَعُ فِي بَيْتِهِ؟ قَالَتْ: مَا يَصْنَعُ أَحَدُكُمْ فِي بَيْتِهِ، يَخْصِفُ النَّعْلَ، وَيَرْقَعُ الثَّوْبَ، وَيَخِيطُ.

---

[1] Hədislərin birində Peyğəmbər ﷺ ailənin qayğısına qalmaq barədə demişdir: "Sizin ən xeyirliniz, öz əhli-əyalına yaxşılıq edəninizdir. Mən sizin aranızda öz əhli-əyalına ən çox yaxşılıq edəninizəm" (Sunən ət-Tirmizi, 2/323; Sunən əd-Darimi, 2/159; Silsilətul-Əhadisis-Səhihə, 285).

[2] Bu hədisi Buxari (676), Tirmizi (2677) və Əhməd (6/49) rəvayət etmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(540)** ........ Urva demişdir: "Mən Aişədən ﵂ soruşdum: "Peyğəmbər ﷺ evində nə iş görərdi?" (Aişə) dedi: "Sizlərdən hər birinizin öz evində etdiyini (edərdi). O, çəkməsini özü tikər, paltarını özü yamayar və tikərdi."[1]

**٥٤١–** حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ بْنُ صَالِحٍ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنْ عَمْرَةَ، قِيلَ لِعَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا: مَاذَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يَعْمَلُ فِي بَيْتِهِ؟ قَالَتْ: كَانَ بَشَرًا مِنَ الْبَشَرِ، يَفْلِي ثَوْبَهُ، وَيَحْلِبُ شَاتَهُ.

**(541)** ........ Amra rəvayət edir ki, *bir dəfə* Aişədən ﵂ soruşdular: "Rəsulullah ﷺ evində nə iş görərdi?" *Aişə* dedi: "O, hamı kimi bir insan idi.[2] Paltarını özü təmizləyər və qoyununu özü sağardı."[3]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Quranda Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Ona tərəf doğru yol tutun və Ondan bağışlanmağınızı diləyin"** (Fussilət, 6).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu fəsildəki hədislərin hamısı Peyğəmbərin ﷺ təkəbbürlükdən uzaq, habelə, olduqca təvazökar bir insan olduğuna dəlalət edir.

## ٢٤٨ – بَابُ إِذَا أَحَبَّ الرَّجُلُ أَخَاهُ فَلْيُعْلِمْهُ

## 248-ci fəsil. Adam öz (mömin) qardaşını sevirsə, bunu ona bildirməlidir[1]

٥٤٢ – حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ ثَوْرٍ قَالَ: حَدَّثَنِي حَبِيبُ بْنُ عُبَيْدٍ، عَنِ الْمِقْدَامِ بْنِ مَعْدِي كَرِبَ، وَكَانَ قَدْ أَدْرَكَهُ، قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِذَا أَحَبَّ أَحَدُكُمْ أَخَاهُ فَلْيُعْلِمْهُ أَنَّهُ أَحَبَّهُ)).

**(542)** ........ Miqdam ibn Mə'dikərib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən biriniz qardaşını sevdiyi zaman, qoy, onu sevdiyini ona bildirsin.[2]"[3]

---

[1] Möminlər arasındakı sevgi Allah rizası üçün olmalıdır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "İmanın ən möhkəm ipi, Allah üçün dostluq etmək, Allah üçün düşmənçilik etmək, Allah üçün sevmək və Allah üçün nifrət etməkdir" (Mocəmul-Kəbir, 11537; Silsilətul-Əhadisis-Səhihə, 998); digər hədisdə o, demişdir: "Kim Allah rizası üçün sevər, Allah rizası üçün nifrət edər, Allah rizası üçün verər və Allah rizası üçün alarsa, imanını kamilləşdirmiş olar" (Sunən Əbu Davud, 4681; Silsilətul-Əhadisis-Səhihə, 380); yenə bir hədisdə o, demişdir: "Üç xislət vardır ki, bunlar kimdə olsa, o kimsə bu xislətlər sayəsində imanın şirinliyini dadmış olar: Allahı və Onun rəsulunu başqalarından daha çox sevmək, sevdiyi kimsəni yalnız Allah üçün sevmək, Allah onu küfrdən qurtardıqdan sonra yenidən küfrə qayıtmağı, oda atılmağı xoşlamadığı kimi xoşlamamaq" (Səhih əl-Buxari, 16; Səhih Muslim, 165).

[2] Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən biriniz (mömin) qardaşını sevdiyi zaman qoy, onun evinə gedib, onu Allah üçün sevdiyini ona xəbər versin" (Zuhd İbn Mubarək, 1/188; Silsilətul-Əhadisis-Səhihə, 797); başqa bir hədisdə o bunun faydasını açıqlayıb demişdir: "Sizlərdən biri (mömin) qardaşını Allah üçün sevdiyi zaman, qoy, bunu ona bildirsin. Həqiqətən, bu, dostluq münasibətinin möhkəmlənməsi üçün daha xeyirli və mehriban davranışın sürəkli olması üçün daha münasibdir" (Zuhd Vəkiy, 2/67/2; Silsilətul-Əhadisis-Səhihə, 1199).

[3] Bu hədisi Əbu Davud (2/333), Tirmizi (2/63), İbn Hibban (2514), Hakim (4/171), Əhməd (4/130) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**٥٤٣–** حَدَّثَنَا يَحْيَى بْنُ بِشْرٍ قَالَ: حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ رَبَاحٍ، عَنْ أَبِي عُبَيْدِ اللَّهِ، عَنْ مُجَاهِدٍ قَالَ: لَقِيَنِي رَجُلٌ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ فَأَخَذَ بِمَنْكِبِي مِنْ وَرَائِي، قَالَ: أَمَا إِنِّي أُحِبُّكَ، قَالَ: أَحَبَّكَ الَّذِي أَحْبَبْتَنِي لَهُ، فَقَالَ: لَوْلاَ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا أَحَبَّ الرَّجُلُ الرَّجُلَ فَلْيُخْبِرْهُ أَنَّهُ أَحَبَّهُ مَا أَخْبَرْتُكَ))، قَالَ: ثُمَّ أَخَذَ يَعْرِضُ عَلَيَّ الْخِطْبَةَ قَالَ: أَمَا إِنَّ عِنْدَنَا جَارِيَةً، أَمَا إِنَّهَا عَوْرَاءُ.

**(543)** ........ Mucahid rəvayət edir ki, Peyğəmbərin ﷺ səhabələrindən biri ilə rastlaşdım. O, arxadan mənə çatıb çiynimdən tutdu və: "Mən səni sevirəm!"– dedi. Mən də *ona*: "Xatirinə sevdiyin Allah da səni sevsin!"– dedim. O, dedi: "Əgər Rəsulullah ﷺ: "Sizdən biriniz qardaşını sevdiyi zaman onu sevdiyini ona bildirsin"– deməsəydi, bunu sənə bildirməzdim."[1] Sonra o, mənə nişanlanmağımı təklif edib dedi: "Evimizdə bir qız var, lakin o çəpgözdür.[2]

**٥٤٤–** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مُبَارَكٌ قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((مَا تَحَابَّا الرَّجُلاَنِ إِلاَّ كَانَ أَفْضَلُهُمَا أَشَدَّهُمَا حُبًّا لِصَاحِبِهِ)).

**(544)** ........ Ənəs ﷺ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Bir-birini sevən iki (mömin) kişinin ən fəzilətlisi, əlbəttə ki, qardaşına sevgisi daha çox olanıdır.[4]"

---

[1] Səhabə bu hərəkəti ilə ona Peyğəmbərin ﷺ Sünnəsini tətbiq etdiyini bildirir. Bu xüsusda rəvayət edilmiş hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "*Bir gün* Peyğəmbərin ﷺ yanından bir nəfər gəlib keçdi. Onun yanında oturmuş başqa birisi bu kişini gördükdə: "Ya Rəsulullah, mən onu sevirəm"– dedi. Peyğəmbər ﷺ ondan: "Özünə demisənmi?"– deyə soruşdu. Adam: "Xeyr!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ: "(Bunu) ona bildir!"– deyə buyurdu. Adam o kişiyə çatıb ona: "Mən səni Allah rizası üçün sevirəm!"– dedi. O da ona: "Xatirinə sevdiyin Allah da səni sevsin!"– dedi" (Sunən Əbu Davud, 5125; Silsilətul-Əhadisis-Səhihə, 3253).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

[3] Bu hədisi İbn Hibban (2509), Hakim (4/171) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Bir-birini Allah rizası üçün sevən möminlərin fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Həmin hədislərdən birində Peyğəmbər ﷺ demişdir: "Uca Allah buyurur:

**"Mənim xatirimə bir-birini sevənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-biri ilə əlaqə saxlayanlara Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birinə nəsihət edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birini ziyarət edənlərə Mənim sevgim vacib oldu. Mənim xatirimə bir-birinə yaxşılıq edənlərə Mənim sevgim vacib oldu"** (Muvatta, 1748; Səhih əl-Cami, 4331); yenə qüdsi bir hədisdə Uca Allah buyurur: **"Mənim xatirimə bir-birini sevənlər Qiyamət günü nurdan olan minbərlər üzərində duracaqlar. Peyğəmbərlər və şəhidlər onlara belə bir məqamda olduqlarına görə qibtə edəcəklər"** (Sunən ət-Tirmizi, 2390; Səhih əl-Cami, 4332); yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü Uca Allah belə buyuracaq: **"Hanı Mənim xatirimə bir-birini sevənlər! Bu gün – Öz kölgəmdən başqa heç bir kölgənin olmadığı bir gündə Mən onları ərşin kölgəsi altında kölgələndirəcəyəm"** (Səhih Muslim, 2566).

Bu, dəlildir ki, möminlərin qəlbində olan məhəbbət fərqlidir. Və bu məhəbbət kimin qəlbində daha çox olarsa, o da Allah yanında daha hörmətli olar.

## ٢٤٩- بَابُ إِذَا أَحَبَّ رَجُلا فَلا يُمَارِهِ ولا يَسْأَلُ عَنْهُ

## 249-cu fəsil. Adam bir adamı sevsə, onunla münaqişə etməsin və onun barəsində sorğu-sual aparmasın

٥٤٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ، أَنَّ أَبَا الزَّاهِرِيَّةِ حَدَّثَهُ، عَنْ جُبَيْرِ بْنِ نُفَيْرٍ، عَنْ مُعَاذِ بْنِ جَبَلٍ أَنَّهُ قَالَ: إِذَا أَحْبَبْتَ أَخًا فَلاَ تُمَارِهِ، وَلاَ تُشَارِّهِ، وَلاَ تَسْأَلْ عَنْهُ، فَعَسَى أَنْ تُوَافِيَ لَهُ عَدُوًّا فَيُخْبِرَكَ بِمَا لَيْسَ فِيهِ، فَيُفَرِّقَ بَيْنَكَ وَبَيْنَهُ.

**(545)** ........ Muaz ibn Cəbəl ﵁ demişdir: "(Mömin) qardaşını sevirsənsə, onunla münaqişə etmə, ona yamanlıq etmə və onun barəsində sorğu-sual aparma.[1] Ola bilsin ki, onun düşməni ilə qarşılaşasan və onda olmayan bir şeyi sənə bildirsin, beləliklə də səninlə onun arasını vursun."[2]

٥٤٦- حَدَّثَنَا الْمُقْرِئُ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ يَزِيدَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ أَحَبَّ أَخًا لِلَّهِ، فِي اللَّهِ، قَالَ: إِنِّي أُحِبُّكَ لِلَّهِ، فَدَخَلاَ جَمِيعًا الْجَنَّةَ، كَانَ الَّذِي أَحَبَّ فِي اللَّهِ أَرْفَعَ دَرَجَةً لِحُبِّهِ، عَلَى الَّذِي أَحَبَّهُ لَهُ)).

**(546)** ........ Abdullah ibn Amr ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim *mömin* qardaşını Allah xatirinə,[3] Allah yolunda sevərsə və ona:

---

[1] Möminin mömin qardaşı ilə münaqişə etməsi, yaxud ona pislik etməsi və ya onun eyiblərini araşdırması – bütün bunlar son nəticədə onların arasına ədavət salır. Odur ki, hər bir möminə bu yaramaz xislətlərdən uzaq durmar gərəkdir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mən, haqlı olduğu halda belə mübahisədən əl çəkən kimsənin Cənnətin güşəsində bir evi olacağına, habelə, zarafatla olsa belə yalan danışmayan kimsənin Cənnətin ortasında bir evi olacağına və bir də əxlaqı gözəl olan kimsənin Cənnətin ən yüksək təbəqəsində bir evi olacağına zəmanət verirəm" (Sunən Əbu Davud, 4800; Sisilətul-Əhadisis-Səhihə, 273).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih-movquf" olduğunu demişdir.

[3] Yəni ixlasla, səmimi-qəlbdən.

“Mən səni Allah xatirinə sevirəm”– deyərsə, hər ikisi Cənnətə daxil olar. (Qardaşını) Allah üçün sevən kimsənin bu sevgiyə görə olan dərəcəsi onu özünə görə sevən kimsədən daha yüksək olar.”[1]

[1] Bu hədisin isnadında keçən Abdur-Rəhman əl-İfriqi “zəif” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “zəif” olduğunu demişdir. Lakin əvvəlki hədislər bu hədisin mənasının “səhih” olduğunu təsdiqləyir (543-cü və 544-cü hədislərə bax).

# ٢٥٠- بَابُ الْعَقْلُ فِي الْقَلْبِ

## 250-ci fəsil. Ağıl qəlbdədir[1]

٥٤٧- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ مُسْلِمٍ قَالَ: أَخْبَرَنِي عَمْرُو بْنُ دِينَارٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عِيَاضِ بْنِ خَلِيفَةَ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ، أَنَّهُ سَمِعَهُ بِصِفِّينَ يَقُولُ: إِنَّ الْعَقْلَ فِي الْقَلْبِ، وَالرَّحْمَةَ فِي الْكَبِدِ، وَالرَّأْفَةَ فِي الطِّحَالِ، وَالنَّفَسَ فِي الرِّئَةِ.

**(547)** ........ İyad ibn Xəlifə rəvayət edir ki,[2] o, Əlinin[3] Siffin döyüşündə[4] belə dediyini eşitdi: "Həqiqətən, ağıl qəlbdədir,[5] mərhəmət qara ciyərdədir, şəfqət dalaqdadır və nəfəs ağ ciyərdədir."

---

[1] İbn Useymin demişdir: "Uca Allah buyurur: **"*Allah* gözlərin xaincəsinə baxışını və kökslərin *nələr* gizlətdiyini bilir"** (Ğafir, 19). Allah kökslərin, yəni qəlblərin nələr gizlətdiyini bilir. Belə ki, qəlblər kökslərdə, ağıl, düşüncə və dərrakə isə bu qəlblərdə yerləşir. Bu xüsusda Allah buyurur: **"Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, *zalımların aqibətini* qəlbi ilə düşünüb, qulaqları ilə eşitsinlər? Çünki əslində *maddi* gözlər deyil, kökslərdəki qəlb kor olur"** (əl-Həcc, 46). Subhanəllah! Bu ayə xüsusilə sanki bugünkü gündə yaşayan insanlara, habelə, eyni fikirdə olmuş əvvəlki nəsillərə aiddir. Yəni ağıl başdadırmı, yoxsa qəlbdədirmi deyə mübahisə edənlərə aiddir. Bu məsələ Allahın və Onun Rəsulunun ﷺ kəlamlarına məhəl qoymayan, maddiyyata baxıb qərar verən bir çox insanları, ələlxüsus da, materialistləri çaşbaş qoymuşdur. Həqiqət isə budur ki, ağıl qəlbdə, qəlb isə köksdə yerləşir... Habelə, Peyğəmbərin ﷺ: "Bədəndə bir ət parçası vardır. Əgər o yaxşı olarsa, bütün bədən yaxşı olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, o *ət parçası* qəlbdir" hədisi də buna dəlildir (Şərh Riyadus-Salihin).

[2] Bu əsəri Beyhəqi (Şoəbul-İman, 4340) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən" olduğunu demişdir.

[3] Burada məşhur səhabə Əli ibn Əbu Talib ؓ nəzərdə tutulur.

[4] Əli ibn Əbu Talib ؓ belə bir məqamda bu sözü deməklə insanları qəlblərini islah etməyə və fitnə baş qaldırdığı zaman fitnədən uzaq durmağa, habelə, mərhəmətli və şəfqətli olmağa çağırır (327-ci əsərə və onun qeydlərinə bax).

[5] İbn Həcər əl-Əsqəlani Peyğəmbərin ﷺ: "Bədəndə bir ət parçası vardır. Əgər o, yaxşı olarsa, bütün bədən yaxşı olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, o *ət*

*parçası* qəlbdir" hədisini şərh edərkən demişdir: "Bu hədis qəlbin olduqca qiymətli olduğuna, onun islah olunmasının zəruriliyinə, üstəlik, insanın pak ruzi qazanmaqda böyük rolu olduğuna dəlalət edir. Bütün bunlar Allahın onun içinə yerləşdirdiyi ağıldan asılıdır. Bu da, dəlildir ki, ağıl qəlbdədir. Buna, Uca Allahın bu ayələrini də dəlil göstərmək olar: **"Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, *zalımların aqibətini* qəlbi ilə düşünüb, qulaqları ilə eşitsinlər? Çünki əslində *maddi* gözlər deyil, kökslərdəki qəlb kor olur"** (əl-Həcc, 46); "**Həqiqətən, bunda *dərk edən* qəlbi olan, hazır durub *diqqətlə* qulaq asan kimsə üçün ibrət vardır**" (Qaf, 37). Müfəssirlər ayədə keçən "dərk edən qəlbi"n ağıl olduğunu demişlər. Qəlb ağılın yerləşdiyi yer olduğu üçün ayədə o, qəlb sözü ilə ifadə edilir (Fəthul-Bari, 1/128-129). İmam Muslimin "Səhih"ində (6706) rəvayət edilmiş hədisdə Peyğəmbərin ﷺ qəlbinə işarə edərək üç kərə: "Təqva, bax buradadır"– deməsi də həmçinin, ağılın qəlbdə olmasına dəlalət edir.

## ٢٥١- بَابُ الْكِبْرِ

## 251-ci fəsil. Təkəbbürlük[1]

٥٤٨- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنِ الصَّقْعَبِ بْنِ زُهَيْرٍ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ قَالَ: لاَ أَعْلَمُهُ إِلاَّ عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: كُنَّا جُلُوسًا عِنْدَ رَسُولِ اللَّهِ ﷺ فَجَاءَ رَجُلٌ مِنْ أَهْلِ الْبَادِيَةِ عَلَيْهِ جُبَّةُ سِيجَانٍ، حَتَّى قَامَ عَلَى رَأْسِ النَّبِيِّ ﷺ فَقَالَ: إِنَّ صَاحِبَكُمْ قَدْ وَضَعَ كُلَّ فَارِسٍ، أَوْ قَالَ: يُرِيدُ أَنْ يَضَعَ كُلَّ فَارِسٍ، وَيَرْفَعَ كُلَّ رَاعٍ، فَأَخَذَ النَّبِيُّ ﷺ بِمَجَامِعِ جُبَّتِهِ فَقَالَ: ((أَلاَ أَرَى عَلَيْكَ لِبَاسَ مَنْ لاَ يَعْقِلُ))، ثُمَّ قَالَ: ((إِنَّ نَبِيَّ اللَّهِ نُوحًا ﷺ لَمَّا حَضَرَتْهُ الْوَفَاةُ قَالَ لِابْنِهِ: إِنِّي قَاصٌّ عَلَيْكَ الْوَصِيَّةَ، آمُرُكَ بِاثْنَتَيْنِ، وَأَنْهَاكَ عَنِ اثْنَتَيْنِ: آمُرُكَ بِلاَ إِلَهَ إِلاَّ اللَّهُ، فَإِنَّ السَّمَاوَاتِ السَّبْعَ وَالأَرَضِينَ السَّبْعَ، لَوْ وُضِعْنَ فِي كِفَّةٍ وَوُضِعَتْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ فِي كِفَّةٍ لَرَجَحَتْ بِهِنَّ، وَلَوْ أَنَّ السَّمَاوَاتِ السَّبْعَ وَالأَرَضِينَ السَّبْعَ كُنَّ حَلْقَةً مُبْهَمَةً لَقَصَمَتْهُنَّ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَسُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ، فَإِنَّهَا صَلاَةُ كُلِّ شَيْءٍ، وَبِهَا يُرْزَقُ كُلُّ شَيْءٍ، وَأَنْهَاكَ عَنِ الشِّرْكِ وَالْكِبْرِ))، فَقُلْتُ، أَوْ قِيلَ: يَا رَسُولَ اللَّهِ، هَذَا الشِّرْكُ قَدْ عَرَفْنَاهُ، فَمَا الْكِبْرُ؟ هُوَ أَنْ يَكُونَ لِأَحَدِنَا حُلَّةٌ يَلْبَسُهَا؟ قَالَ: ((لاَ))، قَالَ: فَهُوَ أَنْ يَكُونَ لِأَحَدِنَا نَعْلاَنِ حَسَنَتَانِ، لَهُمَا شِرَاكَانِ حَسَنَانِ؟ قَالَ:

---

[1] Təkəbbürlüyün olduqca pis və çox təhlükəli bir xislət olduğu barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qəlbində zərrə qədər təkəbbür olan kimsə Cənnətə girməz" (Səhih Muslim, 267). Belə ki, təkəbbür insanı haqqı, ələlxüsus da tövhidi danmağa vadar edir və beləliklə də, Cəhənnəmlik olur. Quranda onlar belə vəsf olunurlar: **"Onlara: "Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur!"– deyildikdə, təkəbbür göstərir və deyirdilər: "Məgər bir məcnun şairə görə məbudlarımızı tərk edəcəyik?"** (əs-Saffat, 35-36). Təkəbbürlük göstərməyin pis aqibəti barədə xəbər verən hədislərin birində Sələmə ibn Əkva ﷺ rəvayət etmişdir ki, bir kişi Peyğəmbərin ﷺ yanında sol əli ilə yemək yeyərkən Peyğəmbər ﷺ ona: "Sağ əlinlə ye!"– deyə buyurdu. Adam *istehza ilə*: "Bacarmıram"– dedi. Peyğəmbər ﷺ də: "Heç bacarmayasan!"– deyə ona bəddua etdikdən sonra dedi: "Bu adama sağ əli ilə yeməyə ancaq təkəbbürlüyü mane oldu." (Sələmə ibn Əkva ﷺ rəvayət edir ki,) bundan sonra həmin adam sağ əlini ağzına apara bilmədi (həmin əli iflic oldu)" (Səhih Muslim, 5387).

((لاَ))، قَالَ: فَهُوَ أَنْ يَكُونَ لِأَحَدِنَا دَابَّةٌ يَرْكَبُهَا؟ قَالَ: ((لاَ))، قَالَ: فَهُوَ أَنْ يَكُونَ لِأَحَدِنَا أَصْحَابٌ يَجْلِسُونَ إِلَيْهِ؟ قَالَ: ((لاَ))، قَالَ: يَا رَسُولَ اللَّهِ، فَمَا الْكِبْرُ؟ قَالَ: ((سَفَهُ الْحَقِّ، وَغَمْصُ النَّاسِ)).

**(548)** ........ Abdullah ibn Amr ﷺ demişdir: "*Bir gün* biz Rəsulullahın ﷺ yanında oturmuş ikən bədəvilərdən biri *yanımıza* gəldi. Onun əynində yaşıl atlasdan bir cübbə var idi.[1] Nəhayət, o gəlib Peyğəmbərin ﷺ başının üstə durdu və dedi: "Sizin dostunuz[2] hər bir cəsur adamı alçaldır (yaxud alçatmaq istəyir) və hər bir çobanı yüksək tutur."[3] Peyğəmbər ﷺ onun cübbəsinin ətəyindən tutub dedi: "Məgər mən sənin əynində ağılsız adamın geydiyi libasın olduğunu görmürəm?"[4] Sonra Peyğəmbər ﷺ *davam edib* dedi:

---

[1] Səhabə bu bədəvinin libasını vəsf etməklə onun təkəbbürlü olduğunu xəbər verir.

[2] Bədəvi "dostunuz" deyəndə, Peyğəmbəri ﷺ qəsd edirdi. Burada o, Peyğəmbərin ﷺ adlı-sanlı adamları bəyənmədiyini və çobanlara dəyər verdiyini iddia etməklə, həm haqqı danır, həm də insanlara xor baxır.

[3] Sanki demək istəyir ki, ona qulaq asmayın, onu saymayın.

[4] Belələrinin Axirətdə heç bir payı olmayacaq (26-cı hədisə və onun qeydlərinə bax). Bu, dəlildir ki, bəzi libaslar insanın qəlbinə pis təsir edir, onu korlayır və son nəticədə onu təkəbbür bürüyür. Qəlbi dəyişməklə hərəkətləri də dəyişir. Peyğəmbər ﷺ beləsinin pis aqibəti barədə demişdir: "Kim təkəbbürlüyündən paltarının ətəyini yerlə sürüyərsə, Qiyamət günü Allah onun üzünə baxmaz" (Səhih əl-Buxari, 3665); digər hədisdə o, demişdir: "Bir nəfər təkəbbürlüyündən izarının ətəyini yerlə sürüyərkən qəfildən yerə girdi. Bu adam Qiyamət gününədək yerin *ən aşağı* təbəqəsinə doğru girməyə davam edəcəkdir" (Səhih əl-Buxari 3485). Peyğəmbərin ﷺ yolunu gedən sələflər təkəbbürlü insan gördükdə, ona nəsihət edərdilər. Rəvayət edilir ki, bir gün Mutarrif ibn Abdullah ibn Şixxir Muhəlləb ibn Əbu Sufrənin ipək cübbə geydiyini, özünün də təkəbbürlə yeridiyini görüb dedi: "Bu, Allahın və Onun rəsulunun ﷺ nifrət etdiyi bir yerişdir." Muhəlləb ona: "Məgər sən bilmirsən, mən kiməm?"– deyərək özünü dartdı. Mutərrif də ona belə cavab verdi: "Bəli, bilirəm sən kimsən. Sənin əvvəlin dəyərsiz nütfə olmuş, axırın da çürümüş cəsəd olacaq. Üstəlik qarnında nəcis daşıyırsan." (Bu sözdən sonra) Muhəlləb öz yerişini düzəltdi (Təfsir əl-Qurtubi, "əl-Məaric" surəsinin, 39 ayəsinin təfsiri). Həsən əl-Bəsri demişdir: "Adəm övladının işi qəribədir! Hər gün bir və ya iki kərə (ayaqyolundan çıxıb) əlinə bulaşmış nəcisi yuyur, sonra da göyləri və yeri yaradan Qüdrətli Allah qarşısında təkəbbürlük göstərir" (əz-Zəvacir, 1/179).

"Allahın peyğəmbəri Nuh ﷺ ölüm ayağında ikən oğluna belə demişdi: "Mən sənə vəsiyyət etmək istəyirəm: sənə iki şeyi əmr edir və iki şeyi qadağan edirəm. Sənə "lə ilahə illəllah"ı əmr edirəm.[1] Əgər yeddi göy və yeddi yer tərəzinin bir gözünə və "lə ilahə illəllah" digər gözünə qoyulsa, bu kəlmə onlardan ağır gələrdi. Və əgər yeddi göy və yeddi yer ucsuz-bucaqsız bir halqa olsaydı, "lə ilahə illəllah" onu yarıb keçərdi.[2] "Sübhanəllah və bihəmdihi"[3] kəlməsini də (sənə əmr edirəm). Çünki bu kəlmə hər

---

[1] Burada Nuh aleyhissəlam öz oğluna Allahdan başqa ibadətə layiq məbudun olmadığını qəbul etməyi və onu təsdiqləməyi buyurur. Bu kəlməni təsdiqləmək üçün isə onun mənasını başa düşmək, ona yəqinliklə iman gətirmək, onu tərəddüdsüz qəbul etmək, onun tələblərini yerinə yetirmək, onu sidq-ürəkdən tələffüz etmək, bunu ixlasla yalnız Allah üçün etmək və nəhayət, bu kəlməni hər şeydən çox sevmək gərəkdir. Beləliklə də, aydın olur ki, tövhid əhlindən sayılmaq üçün bu kəlməni tələffüz etmək, ona etiqad etmək və onun tələblərini yerinə yetirmək gərəkdir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Lə ilahə illəllah" deyən və *qəlbən* bunu təsdiqləyərək ölən hər bir bəndə mütləq Cənnətə girəcəkdir" (Səhih Muslim, 273). Bu tövhid kəlməsini digər peyğəmbərlər də öz övladlarına və öz ümmətlərinə buyurmuşlar. Bu xüsusda, Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə*****, elçi göndərdik"** (ən-Nəhl, 36); **"Yoxsa siz Yaquba ölüm gəldikdə** ***onun*** **yanında idiniz? O zaman o, öz oğullarına dedi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, atalarının – İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!"** (əl-Bəqərə, 133); **"Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: "Oğlum!** ***Allaha*** **şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** (Loğman, 13).

[2] Peyğəmbərin ﷺ bu sözü "lə ilahə illəllah" kəlməsinin həm ağırlıq, həm də nüfuz etmə baxımından olduqca əzəmətli bir kəlmə olduğuna dəlalət edir.

[3] Tərcüməsi: "Allah pak və müqəddəsdir! Allaha həmd olsun!" Bu möhtəşəm kəlməni Muhəmməd ﷺ də öz ümmətinə tövsiyə etmişdir. Əbu Hureyrənin ؓ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Mərhəmətli Allaha sevimli, tələffüzü asan və tərəzidə ağır gələn iki kəlmə (vardır ki, bunlar): "Sübhanəllah və bihəmdihi, subhanəllahil-əzim!" (kəlmələridir)" (Səhih əl-Buxari, 7563); digər hədisdə o, demişdir: "Kim gün ərzində yüz dəfə: "Subhanəllah və bihəmdihi"– desə, günahları dəniz köpüyü qədər olsa belə, silinər" (Səhih əl-Buxari, 6405). Bu kəlməni deyən adam onun mənasını başa düşməli, buna etiqad etməli və buna uyğun əməl etməlidir.

bir şeyin duasıdır.[1] Bunun sayəsində hər şeyə ruzi verilir.[2] Habelə, iki şeyi[3] sənə qadağan edirəm: *Allaha* şərik qoşmağı və təkəbbürlü olmağı.[4]

Mən soruşdum (və ya soruşdular): "Ya Rəsulullah, bu şirki bilirik.[5] Bəs təkəbbürlük nədir? Məgər birimizin özündə olan (gözəl) əbanı geyməsi təkəbbürlükdürmü?" (Peyğəmbər ﷺ): "Xeyr"– dedi. *Yenə* soruşdular: "Məgər birimizdə gözəl qaytanlı yaraşıqlı ayaqqabıların olması təkəbbürlükdürmü?"[6] (Peyğəmbər ﷺ): "Xeyr"– dedi. *Yenə* soruşdular: "Məgər birimizin minəcəyi heyvana sahib olması təkəbbürlükdürmü?" (Peyğəmbər ﷺ):

---

[1] Yəni hər bir şey Allahın pak və müqəddəs olduğunu təsdiqləyir. Bu xüsusda, Uca Allah buyurur: **"Yeddi göy, yer və onlarda olanlar Allaha təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır"** (əl-İsra, 44). Ayədən aydın olur ki, hər bir məxluq Allahın pak və müqəddəs olduğunu təsdiqləyir.

[2] Mömin adam həqiqi mənada bu kəlmə sayəsində həm bu dünyada, həm də Axirətdə pak ruzi qazana bilər.

[3] Bu iki günahın bir yerdə qeyd edilməsi təkəbbürlüyün böyük günah olduğuna dəlalət edir.

[4] Bu hədisdən və ayələrdən belə nəticə çıxır ki, valideyn öz övladına yaxşı işləri buyurmalı və yaramaz əməllərdən onu çəkindirməlidir. Əlxüsus da ona Tək Allaha ibadət etməyi və Ona heç nəyi şərik qoşmamağı buyurmalıdır.

[5] Səhabənin bu sözünə diqqət yetirsəniz, başa düşərsiniz ki, səhabələrin hamısı şirkin nə olduğunu bilirdilər. Cəhənnəm əhlindən olmaq istəməyən kəs bundan necə qafil ola bilər?! Bu, dəlildir ki, şirkin nə olduğunu və ya nəyin şirk sayıldığını öyrənmək və ondan çəkinmək özünü müsəlman sayan hər kəsə vacibdir. Əks təqdirdə adam özünü müsəlman saysa da, şirk etdiyinə görə əməllərini puç edə bilər, beləliklə də, Cəhənnəmlik olar.

[6] Digər hədisdə rəvayət edilir ki, Peyğəmbərdən ﷺ: "Adam libasının və ayaqqabısının gözəl olmasını xoşlayır. (Bu, təkəbbürlükdürmü?)"– deyə soruşulduqda, o belə cavab vermişdir: "Allah gözəldir və gözəlliyi sevər. Təkəbbürlük isə haqqı danmaq və insanlara xor baxmaqdır" (Səhih Muslim, 265). Peyğəmbər ﷺ bu sözü ilə səhabələrinə gözəl geyinməyi və yaraşıqlı görünməyi məsləhət görür. Bu, dəlildir ki, adamın libası, ayaqqabısı və ümumiyyətlə, geyimə aid hər bir şeyi gözəl olmalıdır. Lakin bütün bunlar onu israf etməyə, təkəbbürlük göstərməyə və özünü dartmağa səbəb olmamalıdır. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "İsrafa yol vermədən və təkəbbürlük göstərmədən yeyin, için, sədəqə verin və (istədiyiniz geyimi) geyinin" (Sunən İbn Macə, 23; Səhih əl-Cami, 8634).

“Xeyr”– dedi. *Yenə* soruşdular: “Məgər birimizin oturub-durduğu dostlarının olması təkəbbürlükdürmü? (Peyğəmbər ﷺ): “Xeyr”– dedi. *Yenə* soruşdular: “Bəs, təkəbbürlük nədir, ya Rəsulullah?” (Peyğəmbər ﷺ) dedi: “Haqqı danmaq və insanlara xor baxmaqdır.”[1]

(...)– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مَسْلَمَةَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ، عَنْ زَيْدٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو أَنَّهُ قَالَ: يَا رَسُولَ اللَّهِ، أَمِنَ الْكِبْرِ؟ نَحْوَهُ.

**(...)** ........ Abdullah ibn Məsləmə bizə demişdir: “Abdul-Aziz, Zeyddən, o da, Abdullah ibn Amrdan: “Ya Rəsulullah, *birimizin gözəl libas geyməsi* təkəbbürlük sayılırmı?”– deyə bu hədisin bənzərini rəvayət etmişdir.

**٥٤٩**– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ الْقَاسِمِ أَبُو عُمَرَ الْيَمَامِيُّ قَالَ: حَدَّثَنَا عِكْرِمَةُ ابْنُ خَالِدٍ قَالَ: سَمِعْتُ ابْنَ عُمَرَ، عَنِ النَّبِيِّ ﷺ يَقُولُ: ((مَنْ تَعَظَّمَ فِي نَفْسِهِ، أَوِ اخْتَالَ فِي مِشْيَتِهِ، لَقِيَ اللَّهَ عَزَّ وَجَلَّ وَهُوَ عَلَيْهِ غَضْبَانُ)).

**(549)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim özünü dartarsa, yaxud lovğa-lovğa gəzərsə, Allahın ﷻ ona qəzəbi tutduğu halda Onun hüzuruna gələr.[2]”[3]

**٥٥٠**– حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ، عَنْ عَبْدِ الْعَزِيزِ بْنِ مُحَمَّدٍ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا اسْتَكْبَرَ مَنْ أَكَلَ مَعَهُ خَادِمُهُ، وَرَكِبَ الْحِمَارَ بِالْأَسْوَاقِ، وَاعْتَقَلَ الشَّاةَ فَحَلَبَهَا)).

---

[1] Bu hədisi Əhməd (2/169-170, 225) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

[2] Quranda Loğman əleyhissəlamın öz oğluna belə nəsihət elədiyi xəbər verilir: **“İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir”** (Loğman, 18).

[3] Bu hədisi Əhməd (2/118), Hakim (1/60) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

**(550)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Xidmətçisi ilə bərabər yemək yeyən,[1] ulağın üstə bazara gedən və qoyunu tutub sağan kimsə təkəbbürlü sayılmaz.[2]"[3]

**٥٥١-** حَدَّثَنَا مُوسَى بْنُ بَحْرٍ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ هَاشِمِ بْنِ الْبَرِيدِ قَالَ: حَدَّثَنَا صَالِحٌ بَيَّاعُ الأَكْسِيَةِ، عَنْ جَدَّتِهِ قَالَتْ: رَأَيْتُ عَلِيًّا رَضِيَ اللَّهُ عَنْهُ اشْتَرَى تَمْرًا بِدِرْهَمٍ، فَحَمَلَهُ فِي مِلْحَفَتِهِ، فَقُلْتُ لَهُ، أَوْ قَالَ لَهُ رَجُلٌ: أَحْمِلُ عَنْكَ يَا أَمِيرَ الْمُؤْمِنِينَ؟ قَالَ: لاَ، أَبُو الْعِيَالِ أَحَقُّ أَنْ يَحْمِلَ.

**(551)** ........ Salehin nənəsi demişdir: "Mən Əlinin[4] bir dirhəmə xurma alıb boxçasına qoyduğunu, sonra da onu çiyninə alıb apardığını gördüm. Mən ona dedim (yaxud bir adam ona dedi): "Yükünü daşımağa kömək edimmi, ey möminlərin əmiri!" O, dedi: "Xeyr, ailə başçısı yükü daşımağa daha çox layiqdir."[5]

**٥٥٢-** حَدَّثَنَا عُمَرُ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا أَبُو إِسْحَاقَ، عَنْ أَبِي مُسْلِمٍ الأَغَرِّ حَدَّثَهُ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، وَأَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْعِزُّ إِزَارِي، وَالْكِبْرِيَاءُ رِدَائِي، فَمَنْ نَازَعَنِي بِشَيْءٍ مِنْهُمَا عَذَّبْتُهُ)).

---

[1] 201-ci hədisə və onun qeydlərinə bax.

[2] Hədisdən aydın olur ki, kasıb adamlarla bir süfrədə oturmaq, uzunqulağa minmək və qoyun sağmaq kimi işlər adamın təkəbbürlüyünü boğur. Lakin bu, o demək deyil ki, adam təvazökar olmaq üçün varlılarla oturub-durmamalı, bahalı minik sürməməli və qoyun sağmaq kimi işlərlə məşğul olmalıdır. Xeyr, bunlar sadəcə insana təvazökar olmağa yardım edən işlərdir. Əlbəttə ki, lazım gəldikdə varlılarla oturub-durmaq, yaxud özünün və ailəsinin rahatlığı üçün bahalı minik sürmək və s. bu kimi işlər görmək caizdir.

[3] Bu hədisi Beyhəqi (Şoəbul-İman, 7839) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[4] Söhbət dördüncü xəlifə Əli ibn Əbu Talibdən ؓ gedir.

[5] Bu hədisin isnadında keçən Saleh və onun nənəsi – hər ikisi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin Əli ibn Əbu Talibin ؓ möminlərin əmiri olduğu dövrdə ailəsi üçün bazarlıq etdiyi və başqa bu kimi təvazökarlıq sayılan işlər gördüyü barədə neçə-neçə səhih rəvayətlər varid olmuşdur.

**(552)** ........ Əbu Səid əl-Xudri ﷺ və Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Uca Allah buyurur:) "İzzət Mənim izarım, təkəbbürlük isə Mənim ridamdır.[1] Hər kim bunlardan birinə şərik olmaq istəsə, Mən ona əzab verərəm."[2]

**٥٥٣**- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي أَبُو رَوَاحَةَ يَزِيدُ بْنُ أَيْهَمَ، عَنِ الْهَيْثَمِ بْنِ مَالِكٍ الطَّائِيِّ قَالَ: سَمِعْتُ النُّعْمَانَ بْنَ بَشِيرٍ يَقُولُ عَلَى الْمِنْبَرِ، قَالَ: إِنَّ لِلشَّيْطَانِ مَصَالِيًا وَفُخُوخًا، وَإِنَّ مَصَالِيَ الشَّيْطَانِ وَفُخُوخَهُ: الْبَطَرُ بِأَنْعُمِ اللَّهِ، وَالْفَخْرُ بِعَطَاءِ اللَّهِ، وَالْكِبْرِيَاءُ عَلَى عِبَادِ اللَّهِ، وَاتِّبَاعُ الْهَوَى فِي غَيْرِ ذَاتِ اللَّهِ.

**(553)** ........ "Nomən ibn Bəşir ﷺ minbərdə ikən demişdir:[3] "Şeytanın qurduğu torlar və tələlər vardır.[4] Onun torları və tələləri: Allahın nemətləri ilə azğınlıq etmək,[5] Allahın verdiyi şeylə lovğalanmaq,[6] Allah bəndələrinə tə-

---

[1] İzar: qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanan parça; fitə. Rida isə qurşaqdan yuxarı bədən əzalarını örtmək üçün çiyinə atılan parça. Lakin xüsusilə qeyd etmək lazımdır ki, Allaha xas olan bu sifətlərin necəliyi yalnız Allaha bəllidir. Burada "izzət" deyildikdə, qüdrət və qüvvət qəsd edilir. Kamil izzət isə yalnız Allaha məxsusdur. Bu xüsusda, Uca Allah buyurur: **"Həqiqətən də, qüvvət və əzəmət tamamilə Allaha məxsusdur"** (ən-Nisa, 139). Təkəbbürlük də həmçinin, ancaq Allaha məxsusdur. Odur ki, bu iki sifətdən birinin özündə olduğunu iddia edən hər kəsə Allah əzab verəcək.

[2] Bu hədisi Muslim (2620) rəvayət etmişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən-movquf" olduğunu demişdir.

[4] İblis Allahın qullarını azdırmaq üçün hər yola əl atır. Bu xüsusda Quranda deyilir: **"*İblis* dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub *insanları* tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən"** (əl-Əraf 16-17); digər ayədə deyilir: **"*Allah* buyurdu: "Çıx get! Onlardan kim sənə uysa, tam bir əvəz kimi cəzanız Cəhənnəm olacaqdır. Onlardan gücün çatdığı kimsələri səsinlə *günah*a təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər"** (əl-İsra, 63-64).

[5] Məsələn, Allah birisinə bol ruzi əta edir, o isə şeytana uyub bu nemətləri israf edir, həddini aşır, yaxud ona elm bəxş edir, o isə bunun sayəsində özünü dartır və s.

[6] Burada səhabə adamın öz əsil-nəsəbi ilə yaxud tutduğu vəzifəsi ilə və ya başqa bu kimi nemətlərlə lovğalanmasını qəsd edir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir:

kəbbür göstərmək və Allah rizasını qazanmağa aid olmayan işlərdə nəfsin istəyinə uymaqdır.[1]"

٥٥٤- حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((احْتَجَّتِ الْجَنَّةُ وَالنَّارُ، وَقَالَ سُفْيَانُ أَيْضًا: اخْتَصَمَتِ الْجَنَّةُ وَالنَّارُ، قَالَتِ النَّارُ: يَلِجُنِي الْجَبَّارُونَ، وَيَلِجُنِي الْمُتَكَبِّرُونَ، وَقَالَتِ الْجَنَّةُ: يَلِجُنِي الضُّعَفَاءُ، وَيَلِجُنِي الْفُقَرَاءُ. قَالَ اللَّهُ تَبَارَكَ وَتَعَالَى لِلْجَنَّةِ: أَنْتِ رَحْمَتِي أَرْحَمُ بِكِ مَنْ أَشَاءُ، ثُمَّ قَالَ لِلنَّارِ: أَنْتِ عَذَابِي أُعَذِّبُ بِكِ مَنْ أَشَاءُ، وَلِكُلِّ وَاحِدَةٍ مِنْكُمَا مِلْؤُهَا)).

**(554)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: "(Bir dəfə) Cənnətlə Cəhənnəm höcətləşdi.[3] Cəhənnəm dedi: "Mənim içimə inadkarlar və təkəbbürlülər daxil olacaq." Cənnət dedi: "Mənim içimə isə zəiflər və kasıblar daxil olacaq."[4] Onda ulu və uca Allah Cənnətə

---

"Ümmətimin etdiyi dörd (yaramaz) xislət vardır ki, onlar bu xislətləri tərk etməyəcəklər: əsil-nəcabətlə qürrələnmək, (birisinin) nəslinə tənə vurmaq, ulduzlardan yağış diləmək və vay-şivən salıb ağlamaq" (Səhih Muslim, 3/45).

[1] Bu hədisdə sadalanan hiylələr sadəcə misaldır. Yoxsa ki, şeytanın hiylələri saysız-hesabsızdır.

[2] Bu hədisi Buxari (4850), Muslim (2846) və Əhməd (2/59) rəvayət etmişdir. İmam Buxarinin "Səhih"indəki hədisin tamamında Peyğəmbər ﷺ demişdir: "Cəhənnəm ancaq o zaman dolacaq ki, Allah Öz Ayağını onun üstünə qoyacaq və o: "Yetər, yetər!"– deyəcək. Onda o, artıq dolacaq və *içindəkiləri* qaplayacaq. Qüdrətli və əzəmətli Allah qullarından heç kəsə zülm etməz. Cənnətə gəlincə, qüdrətli və əzəmətli Allah onun *dolması* üçün başqa varlıqlar yaradacaq."

[3] Sufyanın rəvayətində: "Cənnətlə Cəhənnəm mübahisə etdi"– deyilir. Bu iki əzəmətli məxluqun höcətləşməsi adama qəribə gəlsə də, buna iman gətirmək vacibdir. Allah, həqiqətən də, onları danışdırmağa qadirdir (502-ci hədisin qeydlərinə bax).

[4] Burada insanların gözündə zəif və kasıb olanlar, əslində isə qəlbləri zəngin və Allah yanında hörmətli olanlar qəsd edilir. Beləlri barədə Peyğəmbər ﷺ demişdir: "Ola bilsin ki, saçları dağınıq, üst-başı toz-torpaq içində olan və qapıdan qovulan bir kasıb Allaha and verib istəsin, Allah da ona istədiyini versin" (Səhih Muslim, 2854); digər rəvayətdə: "Allahdan Cənnəti istəsə, Allah ona istədiyini verər"– deyilir (Mocəmul-Ovsat, 2/177/2; Silsilətul-Əhadisis-Səhihə, 2643). Lakin bu o demək deyil ki, Cənnətə ancaq zəiflər və

buyurdu: "Sən Mənim rəhmətimsən, səninlə Mən dilədiyim kimsəyə rəhm edərəm.[1]" Sonra da Cəhənnəmə buyurdu: "Sən Mənim əzabımsan.[2] Səninlə dilədiyim kimsəyə əzab verərəm.[3] Hər birinizin içinə doldurulacaq (kəslər) vardır.[4]"

٥٥٥- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فَضْلٍ قَالَ: حَدَّثَنَا الْوَلِيدُ بْنُ جُمَيْعٍ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ قَالَ: لَمْ يَكُنْ أَصْحَابُ رَسُولِ اللَّهِ ﷺ مُتَحَزِّقِينَ، وَلاَ مُتَمَاوِتِينَ، وَكَانُوا يَتَنَاشَدُونَ الشِّعْرَ فِي مَجَالِسِهِمْ، وَيَذْكُرُونَ أَمْرَ جَاهِلِيَّتِهِمْ، فَإِذَا أُرِيدَ أَحَدٌ مِنْهُمْ عَلَى شَيْءٍ مِنْ أَمْرِ اللَّهِ، دَارَتْ حَمَالِيقُ عَيْنَيْهِ كَأَنَّهُ مَجْنُونٌ.

**(555)** ........ Əbu Sələmə ibn Abdur-Rəhman demişdir:[5] "Rəsulullahın ﷺ səhabələri nə özünüçəkən,[6] nə də ölüvay[7] idilər. Onlar öz məclislərində bir-birilərinə şeir deyər,[8] habelə, cahiliyyət dövründəki işləri yada salardılar.[1]

---

kasıblar girəcək, yox, zənginlər və güclülər də girəcək. Sadəcə olaraq, kasıblar onlardan daha tez Cənnətə daxil olacaqlar.

[1] 100-cü hədisin qeydlərinə bax.

[2] Burada da həmçinin, "Sən Mənim rəhmətimsən" sözündə olduğu kimi Allahın əzabının əsəri qəsd edilir.

[3] **"*Allah* istədiyinə əzab verir, istədiyinə də rəhm edir"** (əl-Ənkəbut, 21).

[4] Quranda Uca Allah İblisə belə buyurmuşdur: **"Mən Cəhənnəmi səninlə və sənə tabe olanların hamısı ilə dolduracağam!"** (Sad, 85).

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

[6] Yəni səhabələr heç vaxt özlərini başqalarından üstün tutmaz, özlərinin məxsusi dairələri olmaz, əksinə, həmişə camaata qaynayıb-qarışar və özlərini sadə aparardılar.

[7] Yəni aciz, key, bacarıqsız, yarıtmaz adam deyildilər. Əksinə, işgüzar, gözüaçıq, bacarıqlı və qabiliyyətli insanlar idilər.

[8] Onlar bir-birinin könlünü açmaq və arada olan mehribançılığı daha da möhkəmləndirmək üçün belə edərdilər.

Birisini Allahın hər hansı bir əmrinə qarşı çıxmağa təhrik etdikdə isə dəli kimi (hiddətindən) göz bəbəkləri çevrilərdi.[2]"

٥٥٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَهَّابِ قَالَ: حَدَّثَنَا هِشَامٌ، عَنْ مُحَمَّدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَجُلًا أَتَى النَّبِيَّ ﷺ، وَكَانَ جَمِيلًا، فَقَالَ: حُبِّبَ إِلَيَّ الْجَمَالُ، وَأُعْطِيتُ مَا تَرَى، حَتَّى مَا أُحِبُّ أَنْ يَفُوقَنِي أَحَدٌ، إِمَّا قَالَ: بِشِرَاكِ نَعْلٍ، وَإِمَّا قَالَ: بِشِسْعٍ أَحْمَرَ، الْكِبْرُ ذَاكَ؟ قَالَ: ((لَا، وَلَكِنَّ الْكِبْرَ مَنْ بَطَرَ الْحَقَّ، وَغَمِطَ النَّاسَ)).

**(556)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, (bir dəfə) yaraşıqlı bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Gözəllik mənə sevdirildi və gördüyün bu (yaraşıq) mənə verildi. Və mən istəmərəm ki, kiminsə ayaqqabısının bağı (yaxud da çəkməsinin qırmızı qaytanı) mənimkindən yaraşıqlı olsun. "Bu, təkəbbürlükdürmü?" [3] Peyğəmbər ﷺ dedi: "Xeyr! Təkəbbürlü o adamdır ki, haqqı danır və insanlara xor baxır.[4]"[5]

٥٥٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللهِ بْنُ الْمُبَارَكِ، عَنْ مُحَمَّدِ بْنِ عَجْلَانَ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((يُحْشَرُ الْمُتَكَبِّرُونَ يَوْمَ الْقِيَامَةِ أَمْثَالَ الذَّرِّ فِي صُورَةِ الرِّجَالِ، يَغْشَاهُمُ الذُّلُّ مِنْ كُلِّ مَكَانٍ، يُسَاقُونَ إِلَى سِجْنٍ مِنْ جَهَنَّمَ يُسَمَّى: بُولَسَ، تَعْلُوهُمْ نَارُ الْأَنْيَارِ، وَيُسْقَوْنَ مِنْ عُصَارَةِ أَهْلِ النَّارِ، طِينَةَ الْخَبَالِ)).

---

[1] Səhabələr Allahın onlara bəxş etdiyi İslam dininə layiqincə dəyər versinlər və buna görə Allaha şükürlər etsinlər deyə, cahiliyyət dövründəki batil işləri yada salardılar. Pisi görən adam, əlbəttə ki, yaxşının qədrini bilər.

[2] Bu, dəlildir ki, səhabələr yalnız Allah xatirinə qəzəblənərmişlər (266-cı hədisə və onun qeydlərinə bax).

[3] Səhabənin Peyğəmbərə ﷺ belə sual verməsi, onun təqvalı adam olduğuna dəlalət edir. Belə ki, o, Allahın ona bəxş etdiyi halal nemətlərdən düzgün istifadə etməyəcəyindən, beləliklə də, günah qazanacağından qorxur.

[4] 548-ci hədisə və onun qeydlərinə bax.

[5] Bu hədisi Əbu Davud (4094) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(557)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Təkəbbürlülər Qiyamət günü insan qiyafəsində, həm də qarışqa boyda olduqları halda[1] məhşərə toplanılacaqlar. Onları hər tərəfdən zillət bürüyəcək və onları Cəhənnəmdəki Buləs adlı zindana sürükləyəcəklər. Onları alovların alovu[2] qaplayacaq və onlara Cəhənnəm əhlinin bədənindən axan irindən içirdəcəklər.[3]”[4]

---

[1] Burada Peyğəmbər ﷺ onların alçalacaqlarını xəbər verir.

[2] Qazı İyad demişdir: “Burada “alovların alovu” deyildikdə, mübaliğə edilir, sanki bu alov öz şiddəti ilə digər alovları alovlandırır” (Tohfətul-Əhvəzi). Bu da, onları yandırıb-yaxan alovun olduqca şiddətli olduğunu göstərir.

[3] Uca Allah buyurur: **“Onlar orada nə bir sərinlik, nə də *sərinləşdirici* içki dadacaqlar. *İçdikləri* yalnız qaynar su və irin *olacaq*”** (ən-Nəbə, 24-25).

[4] Bu hədisi Tirmizi (2492), Əhməd (2/179) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

## ٢٥٢- بَابُ مَنِ انْتَصَرَ مِنْ ظُلْمِهِ

## 252-ci fəsil. Adamın özünə qarşı olan haqsızlığa görə əvəz çıxması[1]

٥٥٨- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: أَخْبَرَنِي ابْنُ أَبِي زَائِدَةَ قَالَ: أَخْبَرَنَا أَبِي، عَنْ خَالِدِ بْنِ سَلَمَةَ، عَنِ الْبَهِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهَا: ((دُونَكِ فَانْتَصِرِي)).

**(558)** ........ Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ ona: "(Sənə qarşı edilmiş haqsızlığın) əvəzini çıxa bilərsən!"[2]– demişdir.[3]

٥٥٩- حَدَّثَنَا الْحَكَمُ بْنُ نَافِعٍ قَالَ: أَخْبَرَنَا شُعَيْبُ بْنُ أَبِي حَمْزَةَ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي مُحَمَّدُ بْنُ عَبْدِ الرَّحْمَنِ بْنِ الْحَارِثِ بْنِ هِشَامٍ، أَنَّ عَائِشَةَ قَالَتْ: أَرْسَلَ أَزْوَاجُ النَّبِيِّ ﷺ فَاطِمَةَ إِلَى النَّبِيِّ ﷺ، فَاسْتَأْذَنَتْ وَالنَّبِيُّ ﷺ مَعَ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا فِي مِرْطِهَا، فَأَذِنَ لَهَا فَدَخَلَتْ، فَقَالَتْ: إِنَّ أَزْوَاجَكَ أَرْسَلْنَنِي يَسْأَلْنَكَ الْعَدْلَ فِي بِنْتِ أَبِي قُحَافَةَ، قَالَ: ((أَيْ بُنَيَّةُ، أَتُحِبِّينَ مَا أُحِبُّ؟)) قَالَتْ: بَلَى، قَالَ:

---

[1] İmam Buxari demək istəyir ki, özünə zülm edilmiş adamın zalımdan intiqam alması caizdir. Bu xüsusda, Uca Allah belə buyurur: **"*Zalımı* cəzalandırmaq istəsəniz, sizə nə cəza verilibsə, siz də *ona* eynilə cəza verin. Əgər səbir etsəniz, bu, səbir edənlər üçün daha xeyirlidir. Səbir et! Sənin səbrin ancaq Allahdandır"** (ən-Nəhl, 126-127). Qeyd etmək lazımdır ki, əvəz çıxan adam həddi aşmamalıdır (171-ci hədisin qeydlərinə bax).

[2] Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, adam onu təhqir edən adamın, yəni ona qarşı haqsızlıq etmiş kimsənin cavabını verə bilər. Lakin bunu etdikdə həddi aşmamalıdır.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Hədisin tam variantında rəvayət edilir ki, Aişə ﵂ demişdir: "(Bir gün) mənim xəbərim olmadan (Peyğəmbərin ﷺ zövcəsi) Zeynəb qəzəbli halda hücrəmə daxil olub dedi: "Ya Rəsulullah, deyəsən, Əbu Bəkrin qızının öz qollarını o tərəf-bu tərəfə çevirməsi sənə bəs edir?" Sonra o, mənə üz tutub (pis sözlər deməyə başladı). Mən ondan üz çevirdim. Nəhayət, Peyğəmbər ﷺ mənə: "Əvəzini çıxa bilərsən!"– dedi və mən dönüb onun cavabını verməyə başladım. Axırda onun boğazı qurudu və mənim cavabımı verə bilmədi. Bir də baxdım ki, Peyğəmbərin ﷺ üzü gülür (Sunən İbn Macə, 1/610-611; Musnəd Əhməd, 6/93; Silsilətul-Əhadisis-Səhihə, 1862).

((فَأَحِبِّي هَذِهِ))، فَقَامَتْ فَخَرَجَتْ فَحَدَّثَتْهُمْ، فَقُلْنَ: مَا أَغْنَيْتِ عَنَّا شَيْئًا فَارْجِعِي إِلَيْهِ، قَالَتْ: وَاللَّهِ لاَ أُكَلِّمُهُ فِيهَا أَبَدًا. فَأَرْسَلْنَ زَيْنَبَ زَوْجَ النَّبِيِّ ﷺ، فَاسْتَأْذَنَتْ، فَأَذِنَ لَهَا، فَقَالَتْ لَهُ ذَلِكَ، وَوَقَعَتْ فِيَّ زَيْنَبُ تَسُبُّنِي، فَطَفِقْتُ أَنْظُرُ: هَلْ يَأْذَنُ لِيَ النَّبِيُّ ﷺ، فَلَمْ أَزَلْ حَتَّى عَرَفْتُ أَنَّ النَّبِيَّ ﷺ لاَ يَكْرَهُ أَنْ أَنْتَصِرَ، فَوَقَعْتُ بِزَيْنَبَ، فَلَمْ أَنْشَبْ أَنْ أَثْخَنْتُهَا غَلَبَةً، فَتَبَسَّمَ رَسُولُ اللَّهِ ﷺ، ثُمَّ قَالَ: ((أَمَا إِنَّهَا ابْنَةُ أَبِي بَكْرٍ)).

**(559)** ........ Aişə رضي الله عنها demişdir: “*Bir gün* Peyğəmbərin ﷺ zövcələri Fatiməni onun yanına göndərdilər. Peyğəmbər ﷺ mənim bürüncəyimə bürünmüş, özü də mənim yanımda ikən, Fatimə içəri daxil olmaq üçün izin istədi, Peyğəmbər ﷺ də ona izin verdi. O, içəri daxil olub dedi: “Zövcələrin məni göndəriblər ki, onlarla, Əbu Quhafənin qızı[1] ilə davrandığın kimi davranmağını[2] səndən xahiş edim.” Peyğəmbər ﷺ soruşdu: “Qızım, mənim sevdiyimi sən də sevirsənmi?” Fatimə: “Əlbəttə, *sevirəm*!”– deyə cavab verdi. Peyğəmbər ﷺ buyurdu: “Elə isə, bunu[3] da sev!” *Sonra* Fatimə qalxıb getdi. O, (Peyğəmbərin ﷺ sözünü) onun zövcələrinə xəbər verdikdə onlar dedilər: “Sən bizə fayda vermədin. Odur ki, *yenə* onun yanına qayıt.” Fatimə dedi: “Vallahi ki, mən bir daha ona dair Peyğəmbərə ﷺ söz deməyəcəyəm.” Belə olduğu təqdirdə onlar Peyğəmbərin ﷺ zövcəsi Zeynəbi onun yanına göndərdilər.[4] O, içəri girmək üçün izin istədi və Peyğəmbər ﷺ ona

---

[1] Burada söhbət Əbu Bəkr Abdullah ibn Əbu Quhafənin qızı Aişədən رضي الله عنها gedir.

[2] Sual verilə bilər ki, qadınlar Peyğəmbərdən ﷺ hansı işdə onlarla eyni davranmağı tələb edirdilər? Məgər Peyğəmbər ﷺ onların maddi tələbatlarını və yataq haqlarını eyni dərəcədə ödəmirdimi? Əlbət ki, Peyğəmbər ﷺ onların haqlarını eyni dərəcədə ödəyirdi. Lakin Aişə رضي الله عنها Peyğəmbərin ﷺ ən sevimli zövcəsi olduğundan onlar istəyirdilər ki, Peyğəmbərin ﷺ onlara olan sevgisi eyni dərəcədə olsun. Bu isə, mümkün olan iş deyildir. Belə ki, o, öz qəlbində olan məhəbbəti eyni dərəcədə paylaşdırmağa sahib deyildir.

[3] Peyğəmbər ﷺ “bunu” deyəndə Aişəni رضي الله عنها qəsd edirdi.

[4] İmam Muslimin “Səhih”indəki bu hədisdə rəvayət edilir ki, Aişə رضي الله عنها Zeynəb bint Cəhşi رضي الله عنها tərifləyib demişdir: “Zeynəbin də Rəsulullahın ﷺ yanında mənim qədər hörməti var idi. Mən Zeynəb kimi İslam dininə fayda verən, Allahdan qorxan, doğru danı-

izin verdi. Zeynəb eyni sözləri ona dedi. Sonra da mənə *üz tutub* təhqiramiz sözlər deməyə başladı. Mən (Peyğəmbərin ﷺ üzünə) baxdım, görüm *ondan əvəz çıxmağa* mənə izin verəcəkmi. Mən bir qədər də gözlədim. Nəhayət, başa düşdüm ki, Peyğəmbər ﷺ ondan heyfimi almağa etiraz etməyəcək və Zeynəbin cavabını verməyə başladım və ona söz deməyə macal verməyib onu susdurdum. Peyğəmbər ﷺ gülümsəyib dedi: "O, həqiqətən də, Əbu Bəkrin qızıdır!"[1]

---

şan, qohumlarla əlaqə saxlayan, çoxlu sədəqə verən, Allaha yaxın olmaq məqsədilə yaxşı işlər görməkdə canfəşanlıq göstərən başqa bir qadın görmədim. O, tez hirslənib özündən çıxar, lakin tez də peşman olardı..."

[1] Bu hədisi Buxari (2581), Muslim (2442) və Əhməd (6/150) rəvayət etmişdir. Bu hədisin əvvəlində rəvayət edilir ki: "Peyğəmbərin ﷺ zövcələri iki dəstəyə ayrılmışdılar. Bir dəstədə Aişə, Həfsə, Səfiyyə, Səudə, o biri dəstədə isə Ummu Sələmə və Peyğəmbərin ﷺ digər zövcələri qərar tutmuşdu. Müsəlmanlar Peyğəmbərin ﷺ Aişəni çox sevdiyini bilirdilər. Odur ki, birisi Peyğəmbərə ﷺ hədiyyə vermək istədikdə, Peyğəmbər ﷺ Aişənin evində gecələyəcəyi gün yetişənədək gözləyər, nəhayət, Peyğəmbər ﷺ Aişənin evinə gəldikdə hədiyyəni ona göndərərdi. Onda Ummu Sələmənin dəstəsindəki qadınlar ona dedilər: "Peyğəmbərlə ﷺ danış, camaata desin ki, kim Peyğəmbərə ﷺ hədiyyə vermək istəyirsə, *bunu təxirə salmasın* – Peyğəmbər ﷺ zövcələrindən hansı birinin evində olursa olsun – *hədiyyəni ona* göndərsin." Ummu Sələmə onların dediyini Peyğəmbərə ﷺ bildirdi, lakin o heç nə demədi. Onlar Ummu Sələmədən *onun nə cavab verdiyini* soruşduqda o, dedi: "O, mənə heç nə demədi." Onlar Ummu Sələməyə: "Onunla *bir də* danış!"– dedilər. Peyğəmbər ﷺ Ummu Sələmənin yanına gəldikdə, o, yenə *bu haqda* onunla danışdı, lakin o, yenə heç nə demədi. Onlar Ummu Sələmədən *onun nə cavab verdiyini* soruşduqda o, dedi: "O, mənə heç nə demədi." Onlar dedilər: "O, sənə hə-yoxunu bildirənədək ondan əl çəkmə!" Peyğəmbər ﷺ Ummu Sələmənin yanına gəldikdə o, yenə *bu haqda* onunla danışdı. *Bu dəfə* Peyğəmbər ﷺ ona dedi: "Aişəyə görə mənə əziyyət verməyin! Həqiqətən, Aişədən başqa heç bir zövcəmin yanında mənə vəhy nazil olmamışdır." Onda Ummu Sələmə dedi: "Sənə əziyyət verdiyimə görə Allaha tövbə edirəm, ya Rəsulullah!" Sonra o qadınlar Fatiməni çağırıb onu Peyğəmbərin ﷺ yanına göndərdilər..."

## ٢٥٣- بَابُ الْمُوَاسَاةِ فِي السَّنَةِ وَالْمَجَاعَةِ

## 253-cü fəsil. Qıtlıq və aclıq dövründə bir-birinə əl tutmaq

٥٦٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ بَشِيرٍ الْجَهْضَمِيُّ قَالَ: حَدَّثَنَا عُمَارَةُ الْمَعْوَلِيُّ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ سِيرِينَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: يَكُونُ فِي آخِرِ الزَّمَانِ مَجَاعَةٌ، مَنْ أَدْرَكَتْهُ فَلاَ يَعْدِلَنَّ بِالأَكْبَادِ الْجَائِعَةِ.

**(560)** ........ Əbu Hureyrə ﵁ demişdir: “Axır zamanda aclıq olacaq. Kim bu aclıq dövrünə yetişsə, qarnı ac olanlardan üz çevirməsin.”[1]

٥٦١- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: حَدَّثَنَا شُعَيْبُ بْنُ أَبِي حَمْزَةَ قَالَ: حَدَّثَنَا أَبُو الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ الأَنْصَارَ قَالَتْ لِلنَّبِيِّ ﷺ: اقْسِمْ بَيْنَنَا وَبَيْنَ إِخْوَانِنَا النَّخِيلَ، قَالَ: ((لاَ))، فَقَالُوا: تَكْفُونَا الْمَؤُونَةَ، وَنُشْرِكُكُمْ فِي الثَّمَرَةِ؟ قَالُوا: سَمِعْنَا وَأَطَعْنَا.

**(561)** ........ Əbu Hureyrə ﵁ demişdir: “Ənsar Peyğəmbərə ﷺ: “Xurma ağaclarını bizimlə *mühacir* qardaşlarımız arasında paylaşdır”– dedi.[2] Peyğəmbərə ﷺ: “Yox!”– deyə cavab verdi. Onda onlar *mühacirlərə*: “Elə isə, siz bizim ağaclarımıza baxın, biz də götürəcəyimiz məhsulda sizi özümüzə şərik edək”– dedilər. Mühacirlər də *onlara*: “Eşidirik və itaət edirik”– dedilər.”[3]

---

[1] Bu hədisin isnadında keçən Həmmad ibn Bəşir “məchul” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, hər zaman hər bir canlıya yardım etməkdə böyük savab vardır (378-ci hədisə və onun qeydlərinə bax).

[2] Səhabələr Mədinəyə hicrət etdikləri zaman ənsar öz mallarını özləri ilə mömin qardaşları arasında bölüşdürməyi təklif etmişlər. Bu xüsusiyyətlərinə görə Uca Allah onları tərif edib demişdir: **“Mühacirlərdən** *əvvəl* **Mədinədə** *yurd salmış, sonra da* **iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır”** (əl-Həşr, 9).

[3] Bu hədisi imam Buxari öz “Səhih”ində də (2325) rəvayət etmişdir.

٥٦٢- حَدَّثَنَا أَصْبَغُ قَالَ: أَخْبَرَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ، أَنَّ سَالِمًا أَخْبَرَهُ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ أَخْبَرَهُ، أَنَّ عُمَرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ عَامَ الرَّمَادَةِ، وَكَانَتْ سَنَةً شَدِيدَةً مُلِمَّةً، بَعْدَمَا اجْتَهَدَ عُمَرُ فِي إِمْدَادِ الْأَعْرَابِ بِالْإِبِلِ وَالْقَمْحِ وَالزَّيْتِ مِنَ الْأَرْيَافِ كُلِّهَا، حَتَّى بَلَحَتِ الْأَرْيَافُ كُلُّهَا مِمَّا جَهَدَهَا ذَلِكَ، فَقَامَ عُمَرُ يَدْعُو فَقَالَ: اللَّهُمَّ اجْعَلْ رِزْقَهُمْ عَلَى رُؤُوسِ الْجِبَالِ، فَاسْتَجَابَ اللَّهُ لَهُ وَلِلْمُسْلِمِينَ، فَقَالَ حِينَ نَزَلَ بِهِ الْغَيْثُ: الْحَمْدُ لِلَّهِ، فَوَاللَّهِ لَوْ أَنَّ اللَّهَ لَمْ يُفْرِجْهَا مَا تَرَكْتُ بِأَهْلِ بَيْتٍ مِنَ الْمُسْلِمِينَ لَهُمْ سَعَةٌ إِلَّا أَدْخَلْتُ مَعَهُمْ أَعْدَادَهُمْ مِنَ الْفُقَرَاءِ، فَلَمْ يَكُنِ اثْنَانِ يَهْلِكَانِ مِنَ الطَّعَامِ عَلَى مَا يُقِيمُ وَاحِدًا.

**(562)** ........ Abdullah ibn Ömər ﵄ rəvayət edir ki, Ömər ibn Xattab Rəmadə ilində[1] – əziyyətli və şiddətli bir ildə – çox götürqoy etdikdən sonra ətraf kəndlərdən dəvə, buğda və yağ yığmaqla (ehtiyaclı) bədəvilərə çox yardım etdi[2] və nəhayət, bütün ətraf kəndlərdə də qıtlıq baş verdiyi zaman Ömər qalxıb belə dua etdi: "Allahım, onların ruzisini dağların başında yarat!"[3] Allah da onun və müsəlmanların duasını qəbul etdi. Nəhayət,

---

[1] "Rəmad" (رَمَادٌ) kül deməkdir. Rəmadə ili – hicrətin 18-ci ilində, quraqlıq və qıtlıq ilində il boyu yağış yağmadığından bir çox ərazilər günün istisində yanıb qapqara qaralmış və bu səbəbdən də, həmin il "Rəmadə ili" adlandırılmışdır (Şərh Buluğul-Məram). Bu quraqlıq doqquz ay davam etmişdir (Fəthul-Bari). Xüsusilə qeyd etmək lazımdır ki, bu quraqlıq və qıtlıq müsəlman diyarının hamısına yox, ancaq bir qisminə üz vermişdir. İslam ümmətinin hamısına birdən quraqlıq və qıtlıq üz verməsi mümkün deyil. Çünki Peyğəmbər ﷺ bu xüsusda Rəbbindən ümməti üçün dua etmiş, Rəbbi də onun duasını qəbul etmiş və ona belə buyurmuşdur: **"Ey Muhəmməd! Mən bir işin olmasını istədiyim zaman onun qarşısı alına bilməz. Mən sənin ümətini quraqlıq və qıtlıqla məhv etməyəcəyimə dair sənin istəyini qəbul etdim"** (Səhih Muslim, 2889). Bu hədisə əsasən qətiyyətlə deyə bilərik ki, heç bir zaman İslam ümmətinin hamısına birdən quraqlıq və qıtlıq üz verməmiş, heç üz verən də deyil.

[2] Bu, dəlildir ki, Ömər ibn Xattab ﵁ öz rəiyyətinin işləri ilə maraqlanar və onların qayğısına qalarmış.

[3] Ömər ibn Xattab ﵁ belə dua edir ki, Uca Allah dağların başına yağış yağdırsın, sonra da bu yağış suyu axıb vadilərə, əkinlərə, bağlara və bostanlara dolsun. İmam Buxarinin rəvayət etdiyi hədisdə deyilir ki, qıtlıq və quraqlıq üz verdikdə Ömər ibn Xattab ﵁

bu duanın sayəsində yağış yağdıqda Ömər dedi: "Həmd Allaha məxsusdur! Vallahi, əgər Allah bu sıxıntını aradan qaldırmasaydı, imkanlı müsəlman ailələrindən hər birinin evinə onların ailə üzvlərinin sayı qədər kasıblar yerləşdirərdim.[1] Beləliklə də, bir adamın yediyi yeməkdən iki adam yeməklə onlar həlak olmazdılar."[2]

**٥٦٣–** حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ يَزِيدَ بْنِ أَبِي عُبَيْدٍ، عَنْ سَلَمَةَ بْنِ الأَكْوَعِ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((ضَحَايَاكُمْ، لاَ يُصْبِحُ أَحَدُكُمْ بَعْدَ ثَالِثَةٍ، وَفِي بَيْتِهِ مِنْهُ شَيْءٌ)). فَلَمَّا كَانَ الْعَامُ الْمُقْبِلُ قَالُوا: يَا رَسُولَ اللَّهِ، نَفْعَلُ كَمَا فَعَلْنَا الْعَامَ الْمَاضِيَ؟ قَالَ: ((كُلُوا وَادَّخِرُوا، فَإِنَّ ذَلِكَ الْعَامَ كَانُوا فِي جَهْدٍ فَأَرَدْتُ أَنْ تُعِينُوا)).

**(563)** ........ Sələmə ibn Əkva[3] ﷺ demişdir: "*Qurban günü*[1] Peyğəmbər *səhabələrinə* dedi: "Qurbanlarınıza diqqət edin! Heç biriniz üç gündən artıq

---

Abbas ibn Abdul-Muttəlibin vasitəsilə *Allahdan* yağmur diləyib: "Allahım, biz Peyğəmbərimizin ﷺ *duası* vasitəsilə Səndən yağmur diləyərdik, Sən də bizə yağmur endirərdin. İndi isə biz Peyğəmbərimizin ﷺ əmisinin *duası* vasitəsilə Səndən yağmur diləyirik, bizə yağmur endir!"– demiş, *Allah da* onlara yağmur nazil etmişdir (Səhih əl-Buxari, 1010). Onun bu xahişindən sonra Abbas ﷺ demişdir: "Allahım, bəla yalnız günaha görə nazil olur və yalnız tövbə ilə aradan qalxır. Mən Sənin Peyğəmbərinin ﷺ yaxını olduğum üçün camaat mənim vasitəmlə Sənə üz tutmuşdur. Əllərimizi Sənə tərəf açıb, Səndən günahlarımızın bağışlanmasını diləyir, habelə, kəkilimizi Sənin ixtiyarına verib, Sənə tövbə edirik. Bizə yağmur endir!" Bundan sonra Allah onlara yağmur nazil etmiş və camaatın güzaranı yaxşılaşmışdır. (Fəthul-Bari, İstisqa kitabı, 3-cü fəsil. Quraqlıq vaxtı camaat imamdan xahiş edə bilər ki, o, yağışın yağması üçün *Allaha* dua etsin, 1010-cu hədisin şərhi; Albaninin "Təvəssül" kitabına bax: səh. 63).

[1] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir nəfərin yeməyi iki nəfərə, iki nəfərin yeməyi dörd nəfərə, dörd nəfərin yeməyi də səkkiz nəfərə bəs edər" (Səhih Muslim, 2059; Sunən ət-Tirmizi, 1934; Sunən İbn Macə 3254; Sunən əd-Darimi, 2/100; Musnəd Əhməd, 3/301).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Sələmə ibn Əkva Sinan ibn Abdullah əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Mutə döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Hicrətin 74-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 50-ci tərcümeyi-hal).

evində qurban ətindən bir şey saxlamasın."[2] Növbəti il gəldikdə *səhabələr* dedilər: "Ya Rəsulullah, keçən il etdiyimiz kimi edək?"[3] Peyğəmbər ﷺ buyurdu: "Yeyin və ehtiyatınızı da götürün. Keçən il *insanlar* qıtlıq içində idilər. Ona görə də mən istəyirdim ki, siz onlara kömək edəsiniz.[4]"[5]

---

[1] Yəni hicrətin 9-cu ilində.

[2] O vaxta qədər səhabələr heyvan kəsdikdə onun ətindən özləri üçün uzun müddətə azuqə saxlayardılar. Və həmin il qıtlıq olduğundan Peyğəmbər ﷺ onlara bu ətdən azuqə saxlamamağı, onu kasıblara paylamağı buyurmuşdur.

[3] Səhabələr bu sualı verməklə öyrənmək istəyirdilər ki, görəsən, bu hökm hər qurbanlığa şamil edilir, yoxsa ancaq keçən il kəsilənlərə aid idi.

[4] Bu, dəlildir ki, insanlar ehtiyac içində olduqları vaxt ehtiyat üçün ərzaq saxlamaq qadağandır.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٥٤- بَابُ التَّجَارِبِ

## 254-cü fəsil. Təcrübələr

٥٦٤- حَدَّثَنَا فَرْوَةُ بْنُ أَبِي الْمَغْرَاءِ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ قَالَ: كُنْتُ جَالِسًا عِنْدَ مُعَاوِيَةَ، فَحَدَّثَ نَفْسَهُ، ثُمَّ انْتَبَهَ فَقَالَ: لاَ حِلْمَ إِلاَّ تَجْرِبَةٌ، يُعِيدُهَا ثَلاثًا.

**(564)** ........ Urva demişdir: "Mən Muaviyənin yanında ikən o bir qədər öz-özü ilə danışdı, sonra (yanındakılara) nəzər salıb üç kərə təkrar-təkrar dedi: "Adam ancaq təcrübə ilə həlim ola bilər."[1]

٥٦٥ | ١- حَدَّثَنَا سَعِيدُ بْنُ عُفَيْرٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَيُّوبَ، عَنِ ابْنِ زَحْرٍ، عَنْ أَبِي الْهَيْثَمِ، عَنْ أَبِي سَعِيدٍ قَالَ: لاَ حَلِيمَ إِلاَّ ذُو عَثْرَةٍ، وَلاَ حَكِيمَ إِلاَّ ذُو تَجْرِبَةٍ.

**(565/1)** ........ Əbu Səid ﷺ demişdir: "Adam ancaq xəta etməklə həlim ola bilər[2] və ancaq təcrübə ilə müdrik ola bilər."[3]

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Elmə, yalnız onu öyrənməklə, həlimliyə də, yalnız mülayim davranmaqla yiyələnmək olar. Kim xeyir əldə etməyə səy göstərərsə, ona nail olar. Habelə, kim şər əməldən çəkinərsə, ondan qorunar" (Silsilətul-Əhadisis-Səhihə, 342). Xüsusilə qeyd etmək lazımdır ki, təcrübənin dinə aid olan əmrlərə və qadağalara heç bir aidiyyəti yoxdur. Yəni ibadətə aid olan işlərdə kiminsə təcrübəsini əsas götürmək və ona əsasən ibadət etmək qadağandır. Belə ki, ibadətə aid hər bir söz və əməl yalnız dəlilə – yəni Allahın və Onun rəsulunun ﷺ dediklərinə söykənməlidir.

[2] Yəni adam xəta etdikcə xətasını başa düşür və bir də o xətaya qayıtmır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Mömin bir yuvadan iki dəfə sancılmaz" (Səhih əl-Buxari, 6133).

[3] Bu hədisin isnadında keçən Ubeydullah ibn Zəhr "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Lakin qeyd edək ki, bu əsərdəki cümlənin sonu "səhih"dir. İmam Buxari öz "Səhih"ində Muaviyə ibn Əbu Sufyanın ﷺ belə dediyini rəvayət etmişdir: "Adam ancaq təcrübə ilə müdrik ola bilər" (Ədəb kitabı, "Mömin bir yuvadan iki dəfə sancılmaz" fəsli).

**٥٦٥ | ٢-** حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا ابْنُ وَهْبٍ، عَنْ عَمْرِو بْنِ الْحَارِثِ، عَنْ دَرَّاجٍ، عَنْ أَبِي الْهَيْثَمِ، عَنْ أَبِي سَعِيدٍ، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ.

**(565/2)** Quteybə bizə belə rəvayət etmişdir: "Bizə İbn Vəhb, Amr ibn Harisdən, o da, Dərracdan, o da, Əbul-Heysəmdən, o da, Əbu Səiddən bunun bənzərini Peyğəmbərdən ﷺ rəvayət etmişdir.[1]

[1] Həmin hədisi Tirmizi (2034), İbn Hibban (2078), Hakim (Mustədrək, 4/293), Əhməd (3/8 və 69) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisid-Daifə" əsərində (5646) onun "zəif" olduğunu demişdir.

## ٢٥٥- بَابُ مَنْ أَطْعَمَ أَخًا لَهُ فِي اللَّهِ

## 255-ci fəsil. Allah rizası üçün sevdiyi qardaşına yemək verən kimsə

**٥٦٦-** حَدَّثَنَا سُلَيْمَانُ أَبُو الرَّبِيعِ قَالَ: حَدَّثَنَا جَرِيرُ بْنُ عَبْدِ الْحَمِيدِ، عَنْ لَيْثٍ، عَنْ مُحَمَّدِ ابْنِ نَشْرٍ، عَنْ مُحَمَّدِ بْنِ الْحَنَفِيَّةِ، عَنْ عَلِيٍّ قَالَ: لِأَنْ أَجْمَعَ نَفَرًا مِنْ إِخْوَانِي عَلَى صَاعٍ أَوْ صَاعَيْنِ مِنْ طَعَامٍ، أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أَخْرُجَ إِلَى سُوقِكُمْ فَأُعْتِقَ رَقَبَةً.

**(566)** ........ Muhəmməd ibnul-Hənəfiyyə[1] rəvayət edir ki, Əli (ibn Əbu Talib) ﵁ demişdir: “Mənim üçün qardaşlarımdan bir dəstəni dörd ovuc, yaxud səkkiz ovuc yemək olan süfrənin başına yığmaq, bazarınıza gedib bir qul azad etməkdən daha xoşdur.”[2]

---

[1] 130-cu hədisin qeydlərinə bax.

[2] Bu hədisin isnadında keçən Leys ibn Əbu Suleym “zəif” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

## ٢٥٦- بَابُ حِلْفِ الْجَاهِلِيَّةِ

## 256-cı fəsil. Cahiliyyət dövründəki andlaşma[1]

٥٦٧- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدِ بْنِ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا ابْنُ عُلَيَّةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ إِسْحَاقَ، عَنِ الزُّهْرِيِّ، عَنْ مُحَمَّدِ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((شَهِدْتُ مَعَ عُمُومَتِي حِلْفَ الْمُطَيَّبِينَ، فَمَا أُحِبُّ أَنْ أَنْكُثَهُ، وَأَنَّ لِي حُمْرَ النَّعَمِ)).

**(567)** ........ Abdur-Rəhman ibn Auf ﵁ rəvayət edir ki,[2] Rəsulullah ﷺ demişdir: "Mən əmilərimlə birlikdə "Mutayyəbun" andlaşmasında iştirak etmişəm.[3] Odur ki, mənə qırmızı dəvələr verilsə belə, mən o əhdi pozmaram.[4]"

---

[1] Andlaşma: bir-birinə ürək qızdırıb inanmaq və bel bağlamaq haqqında bir-birinə təntənəli söz vermək, əhdləşmək. Cahiliyyət andlaşması iki cür olmuşdur:

– birincisi; batil işlər görmək, başqalarının haqqına girmək, düşmənçilik etmək, zəiflərin malını mənimsəmək və başqa bu kimi yaramaz işlər görməkdə əlbir olmaq. İslam dini bu andlaşmanı haram buyurmuşdur.

– ikincisi; qohumluq əlaqələrini möhkəmləndirmək, kasıblara əl tutmaq, düşmənçiliyin qarşısını almaq, məzluma yardım etmək və başqa bu kimi yaxşı işlər görməkdə əlbir olmaq. İslam dini bu andlaşmanı təsdiqləmişdir.

[2] Bu hədisi İbn Hibban (2062), Hakim (2/220), Əhməd (1/190 və 193), Təbəri (Təfsir, 9296), İbn Ədiy (2/233) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Ərəbcə "mutayyəb" ətirlənmiş deməkdir. Cahiliyyət dövründə Haşim oğulları, Zuhra oğulları və Teym oğulları (Məkkədə) İbn Cuzanın evində toplaşmış, sonra bir cam gətirib içinə ətir qoymuş, sonra da əllərini bu ətirə batırıb bir-birinə kömək edəcəklərinə və məzlumun haqqını zalımdan alacaqlarına dair and içmişlər. Və elə bu səbədən də onlar "Mutayyəbun" adlanmışlar (Səhih əl-Ədəbul-Mufrad).

[4] Burada Peyğəmbər ﷺ ən qiymətli şey müqabilində belə, bu əhdi pozmayacağını xəbər verir. Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, İslam dini belə andlaşmanın ancaq ciddiliyini artırır (570-ci hədisə bax). Ümumiyyətlə, İslam dini müsəlmanları ancaq yaxşı işlər görməkdə əlbir olmağa çağırır. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur:

"İstər zalım, istərsə məzlum olsun *din* qardaşına kömək et!" *Səhabələr* soruşdular: "Ya Rəsulullah, məzluma kömək etməyi başa düşdük. Bəs zalıma necə kömək etməliyik?" Peyğəmbər ﷺ buyurdu: "Əlindən tutub saxlamaqla!" (Səhih əl-Buxari, 2444).

## ٢٥٧- بَابُ الإِخَاءِ

## 257-ci fəsil. Qardaşlıq münasibəti qurmaq[1]

٥٦٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: آخَى النَّبِيُّ ﷺ بَيْنَ ابْنِ مَسْعُودٍ وَالزُّبَيْرِ.

**(568)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ İbn Məsudla Zubeyr arasında qardaşlıq münasibəti qurdu.[2]"[3]

٥٦٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا ابْنُ عُيَيْنَةَ قَالَ: حَدَّثَنَا عَاصِمٌ الأَحْوَلُ، عَنْ أَنَسِ ابْنِ مَالِكٍ قَالَ: حَالَفَ رَسُولُ اللَّهِ ﷺ بَيْنَ قُرَيْشٍ وَالأَنْصَارِ فِي دَارِي الَّتِي بِالْمَدِينَةِ.

**(569)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ mənim Mədinədəki evimdə Qureyşlə ənsar arasında qardaşlıq ittifaqı bağladı."[4]

---

[1] Burada "qardaşlıq" deyildikdə, din qardaşlığı qəsd edilir. Qeyd edək ki, bu qardaşlıq ən əzəmətli qardaşlıq hesab edilir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Sən möminlərin bir-birinə mərhəmət göstərməkdə, bir-birini sevməkdə və bir-birinə can yandırmaqda bir bədən kimi olduğunu görürsən. Belə ki, *bədənin* bir əzasına xəstəlik üz verdikdə bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir" (Səhih əl-Buxari, 6011).

[2] Əksər hədislərdə Peyğəmbərin ﷺ mühacirlərlə ənsar arasında qardaşlıq münasibəti qurduğu xəbər verilir. Belə ki, həmin vaxt mühacirlərin ənsarın himayəsinə ehtiyacları var idi. Bu hədisdə Peyğəmbərin ﷺ iki mühacir arasında qardaşlıq münasibəti qurmasını isə İbn Həcər əl-Əsqalani belə izah etmişdir: "Çünki mühacirlərin biri digərindən daha zəngin, daha qüvvətli, həm də çox arxalı idi. Elə buna görə də Peyğəmbər ﷺ qüvvəli ilə zəif arasında qardaşlıq münasibəti qurmuşdur ki, zəif olan qüvvəliyə söykənsin, qüvvəli də zəif olana əl tutsun" (Fəthul-Bari, 7/271).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Bu hədisi Buxari (2294), Muslim (2529) və Əhməd (3/281) rəvayət etmişdir. Bu mənbələrdə rəvayət edilmiş həmin hədisin əvvəlində rəvayət edilir ki, Ənəs ibn Malikdən ﷺ: "Sən Peyğəmbərin ﷺ: "İslamda əhdləşmə yoxdur"– dediyini eşitmisənmi?" – deyə, soruşulduqda, o, demişdir: "Peyğəmbər ﷺ mənim evimdə qureyşlilərlə ənsar arasında əhd bağlamışdır." Burada söhbət müşrik qəbilələrin öz məkrli məqsədlərini həyata keçirmək məqsədilə aralarında bağladıqları ittifaq yox, əksinə, Allahın rizasını qazanmaq məqsədilə mühacirlərlə ənsarın arasında olan qardaşlıq əhdindən gedir.

# ٢٥٨- بَابُ لا حِلْفَ فِي الإِسْلامِ

## 258-ci fəsil. İslamda andlaşma yoxdur[1]

٥٧٠- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ الْحَارِثِ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: جَلَسَ النَّبِيُّ ﷺ عَامَ الْفَتْحِ عَلَى دَرَجِ الْكَعْبَةِ، فَحَمِدَ اللَّهَ وَأَثْنَى عَلَيْهِ، ثُمَّ قَالَ: ((مَنْ كَانَ لَهُ حِلْفٌ فِي الْجَاهِلِيَّةِ، لَمْ يَزِدْهُ الإِسْلاَمُ إِلاَّ شِدَّةً، وَلاَ هِجْرَةَ بَعْدَ الْفَتْحِ)).

**(570)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından rəvayət etmişdir ki,[2] Peyğəmbər ﷺ Məkkənin fəthi ilində Kəbənin pillələri üstündə oturub Allaha həmd-sənalar etdikdən sonra dedi: “Kimin cahiliyyət dövründən qalma bir andlaşması varsa, (bilsin ki,) İslam ona təkiddən başqa bir şey artırmaz.[3] Bir də ki, Məkkənin fəthindən sonra hicrət yoxdur.[1]”

---

[1] Yəni fitnə-fəsad törətməyə yaxud digər qəbilələrlə döyüşməyə və ya başqa bu kimi günah işlər görməyə dair cahiliyyət dövründən qalmış əhdi yerinə yetirmək olmaz. Bu fəslin ünvanı, əslində Peyğəmbərin ﷺ sözüdür. Peyğəmbər ﷺ bunu qadağan edib demişdir: “İslamda andlaşma yoxdur!” (Səhih əl-Buxari, 2294; Səhih Muslim, 2529; Sunən Əbu Davud, 2926; Musnəd Əhməd, 3/281). Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, möminlərin arasındakı qardaşlıq münasibəti belə əhdləşmədən daha üstündür. Yəni şəriətin buyuruqlarını yerinə yetirmək və qadağalarından çəkinməklə Allahla olan əhdi yerinə yetirmək və qardaşlıq münasibətlərini möhkəmləndirmək daha fəzilətlidir. Peyğəmbər ﷺ hər gün səhər və axşam belə zikr edərmiş: “Allahım, Sən mənim Rəbbimsən. Səndən başqa *ibadətə layiq olan* məbud yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Bacardığım qədər Sənə verdiyim əhdə və vədə sadiq qalacağam. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan!” (Səhih əl-Buxari, 6306).

[2] Bu hədisi Muslim (2530), Əbu Davud (2925) və Əhməd (2/205) rəvayət etmişdir.

[3] Bu hədis dəlildir ki, cahiliyyət dövründən qalmış əhdi – əgər İslam şəriətinə zidd deyilsə – qorumaq və onu yerinə yetirmək vacibdir (Tohfətul-Əhvəzi; həmçinin, 567-ci hədisə və onun qeydlərinə bax). Əhdi yerinə yetirmək xüsusunda Uca Allah buyurur:

**"Ey iman gətirənlər! Əhdlərinizi yerinə yetirin"** (əl-Maidə, 1); O, həmçinin, buyurur: **"Əhdə vəfa edin. Çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaqdır"** (əl-İsra, 34).

[1] Belə ki, Məkkənin fəthindən əvvəl Məkkədən Mədinəyə hicrət etmək müsəlmanlara vacib buyurulmuşdu. Yalnız *zülmə qarşı* çarə tapmağa qadir olmayan və *hicrət etməyə* yol tapa bilməyən zəif kişilərə, qadınlara və uşaqlara bu hökm istisna edilmişdi. Məkkənin fəthindən sonra isə Məkkə müsəlman diyarına çevrildiyinə görə Peyğəmbər ﷺ oranı tərk etməyi qadağan etmişdir. Başqa küfr diyarından İslam olan diyara hicrət etmək isə Qiyamətədək caizdir.

## ٢٥٩- بَابُ مَنِ اسْتَمْطَرَ فِي أَوَّلِ الْمَطَرِ

## 259-cu fəsil. Yağış təzəcə yağmağa başladıqda, islanan kimsə

**٥٧١-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي الأَسْوَدِ قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ سُلَيْمَانَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: أَصَابَنَا مَعَ النَّبِيِّ ﷺ مَطَرٌ، فَحَسَرَ النَّبِيُّ ﷺ ثَوْبَهُ عَنْهُ حَتَّى أَصَابَهُ الْمَطَرُ، قُلْنَا: لِمَ فَعَلْتَ؟ قَالَ: ((لِأَنَّهُ حَدِيثُ عَهْدٍ بِرَبِّهِ)).

**(571)** ........ Ənəs ﷺ demişdir: "(Bir dəfə) biz Peyğəmbərlə ﷺ yağışa düşdük. Peyğəmbər ﷺ paltarının bir tərəfini açdı ki, bədəninə yağış dəysin. Biz soruşduq: "Niyə belə etdin, (ya Rəsulullah)?"[1] O, dedi: "Çünki bu yağış Rəbbindən yenicə nazil olmuşdur.[2]"[3]

---

[1] Səhabələr bu sualla onun bu hərəkətinin hikmətini öyrənmək istəyirdilər.

[2] 1228-ci hədisə bax.

[3] Bu hədisi Muslim (898), Əbu Davud (5100) və Əhməd (3/133) rəvayət etmişdir.

## ٢٦٠- بَابُ إِنَّ الْغَنَمَ بَرَكَةٌ

## 260-cı fəsil. Həqiqətən, qoyunda bərəkət vardır[1]

٥٧٢- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرِو بْنِ حَلْحَلَةَ، عَنْ حُمَيْدِ بْنِ مَالِكِ بْنِ خُثَيْمٍ أَنَّهُ قَالَ: كُنْتُ جَالِسًا مَعَ أَبِي هُرَيْرَةَ بِأَرْضِهِ بِالْعَقِيقِ، فَأَتَاهُ قَوْمٌ مِنْ أَهْلِ الْمَدِينَةِ عَلَى دَوَابَّ، فَنَزَلُوا، قَالَ حُمَيْدٌ: فَقَالَ أَبُو هُرَيْرَةَ: اذْهَبْ إِلَى أُمِّي وَقُلْ لَهَا: إِنَّ ابْنَكِ يُقْرِئُكِ السَّلاَمَ وَيَقُولُ: أَطْعِمِينَا شَيْئًا، قَالَ: فَوَضَعَتْ ثَلاَثَةَ أَقْرَاصٍ مِنْ شَعِيرٍ، وَشَيْئًا مِنْ زَيْتٍ وَمِلْحٍ فِي صَحْفَةٍ، فَوَضَعْتُهَا عَلَى رَأْسِي، فَحَمَلْتُهَا إِلَيْهِمْ، فَلَمَّا وَضَعْتُهُ بَيْنَ أَيْدِيهِمْ، كَبَّرَ أَبُو هُرَيْرَةَ وَقَالَ: الْحَمْدُ لِلَّهِ الَّذِي أَشْبَعَنَا مِنَ الْخُبْزِ بَعْدَ أَنْ لَمْ يَكُنْ طَعَامُنَا إِلاَّ الأَسْوَدَانِ: التَّمْرُ وَالْمَاءُ، فَلَمْ يُصِبِ الْقَوْمُ مِنَ الطَّعَامِ شَيْئًا، فَلَمَّا انْصَرَفُوا قَالَ: يَا ابْنَ أَخِي، أَحْسِنْ إِلَى غَنَمِكَ، وَامْسَحِ الرُّغَامَ عَنْهَا، وَأَطِبْ مَرَاحَهَا، وَصَلِّ فِي نَاحِيَتِهَا، فَإِنَّهَا مِنْ دَوَابِّ الْجَنَّةِ، وَالَّذِي نَفْسِي بِيَدِهِ لَيُوشِكُ أَنْ يَأْتِيَ عَلَى النَّاسِ زَمَانٌ تَكُونُ الثَّلَّةُ مِنَ الْغَنَمِ أَحَبَّ إِلَى صَاحِبِهَا مِنْ دَارِ مَرْوَانَ.

**(572)** ........ Humeyd ibn Malik ibn Xuseym demişdir: "*Bir dəfə* mən Əbu Hureyrə ilə birgə onun Əqiq vadisindəki ərazisində oturmuşduq. Mədinə sakinlərindən bir dəstə adam öz heyvanlarına minib onun yanına gəldi. *Ora gəlib çatdıqda* yerə endilər. Əbu Hureyrə mənə dedi: "Get anama de: "Oğlun sənə salam söyləyir və deyir ki, bizə yeməyə bir şey versin." Anası da siniyə üç arpa çörəyi, bir az yağ və bir az da duz qoydu. Mən sinini başıma qoyub onların yanına apardım. Sinini onların qarşısına qoyduqda, Əbu Hureyrə təkbir gətirib[2] dedi: "İki siyahdan – xurma və sudan başqa bir yeməyimiz yox ikən çörəklə bizi doyduran Allaha həmd olsun!"[3]

---

[1] Qoyunun tez bir zamanda artması, qoyun sürüsünə sahib olan kimsələrin vüqarlı, dinc və səbirli adamlar olmaları, qoyun tövlələrində namaz qılmağa izin verilməsi və s. qoyunda bərəkətin olmasına dələlət edir.

[2] Yəni "Allahu Əkbər"– dedi.

[3] Burada Əbu Hureyrə ﷺ yanındakılara bu yeməyin böyük bir nemət olduğunu bildirir. Səhabənin sözündən aydın olur ki, Allahın verdiyi nemətə şükür etmək üçün

Qonaqlar bu yeməkdən çox yemədilər. Onlar çıxıb getdikdən sonra Əbu Hureyrə (mənə) dedi: “Qardaş oğlu! Qoyunlarına yaxşı bax, onların toz-torpağını sil, tövlələrini təmizləyib sahmana sal və o tövlənin bir tərəfində namaz qıl.[1] Çünki onlar Cənnət heyvanlarındandır.[2] Canım Əlində Olan *Allaha* and olsun ki, insanlara elə bir zaman gələcək ki, (o zaman) bir dəstə qoyun onların sahibinə Mərvanın[3] qəsrindən daha sevimli olacaq.”[4]

**٥٧٣–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا وَكِيعٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ الأَزْرَقُ، عَنْ أَبِي عُمَرَ، عَنِ ابْنِ الْحَنَفِيَّةِ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((الشَّاةُ فِي الْبَيْتِ بَرَكَةٌ، وَالشَّاتَانِ بَرَكَتَانِ، وَالثَّلاَثُ بَرَكَاتٌ)).

**(573)** ........ Əli ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Evdəki bir qoyun bərəkətdir. İki qoyun iki bərəkətdir və üç qoyun bərəkətlərdir.”[5]

---

onu o nemətdən aşağı səviyyədə olanı ilə müqayisə etmək lazımdır. Bunu da onlara Peyğəmbər ﷺ öyrətmişdir. O, demişdir: “Özünüzdən yuxarı səviyyədə olanlara yox, aşağı səviyyədə olanlara baxın! Bu, Allahın sizə bəxş etdiyi nemətə nankorluq etməməniz üçün daha uyğundur” (Səhih Muslim, 7619).

[1] Əbu Hureyrənin ﷜ bu sözündən aydın olur ki, qoyun saxlanılan tövlədə namaz qılmaq caizdir. Bu xüsusda varid olmuş hədisdə Ənəs ﷜ rəvayət etmişdir ki, məscid tikilməmişdən əvvəl Peyğəmbər ﷺ qoyun ağıllarında namaz qılardı (Səhih əl-Buxari, 234).

[2] Əbu Hureyrə ﷜ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Qoyun tövləsində namaz qılın və onların toz-torpağını silin. Çünki onlar Cənnət heyvanlarındandır” (İbn Ədiy, 1/276; Beyhəqi, 2/449; Silsilətul-Əhadisis-Səhihə, 1228).

[3] Bu, əməvi padşahlarından olmuş Əbu Abdul-Məlik Mərvan ibn Həkəm ibn Əbul-As əl-Qurəşidir (Siyər Əlam ən-Nubələ, 5/475, 102-ci tərcümeyi-hal).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[5] Bu hədisin isnadında keçən İsmail ibn Salman “mətruk” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “daif-ciddən”, yəni “olduqca zəif” olduğunu demişdir. Sonra da hədisin mənasının “səhih” olduğunu qeyd etmiş və bunu İbn Macənin “Sunən” əsərində (2304) rəvayət etdiyi hədislə təsdiqləmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ Ummu Haniyə ﷞ belə buyurmuşdur: “Qoyun saxla! Həqiqətən, qoyunda bərəkət vardır” (Bax: Silsilətul-Əhadisis-Səhihə, 773).

## ٢٦١- بَابُ الإِبِلُ عِزٌّ لأَهْلِهَا

## 261-ci fəsil. Dəvə öz sahibi üçün izzətdir[1]

٥٧٤- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((رَأْسُ الْكُفْرِ نَحْوَ الْمَشْرِقِ، وَالْفَخْرُ وَالْخُيَلاَءُ فِي أَهْلِ الْخَيْلِ وَالإِبِلِ، الْفَدَّادِينَ أَهْلِ الْوَبَرِ، وَالسَّكِينَةُ فِي أَهْلِ الْغَنَمِ)).

**(574)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Küfrün başı[2] şərq istiqamətindədir. Lovğalıq və təkəbbürlük, (adətən), at ilxısına və dəvə sürüsünə sahib olan kimsələrdə, kobud danışığı olan bədəvilərdə özünü büruzə verir.[3] Qoyun sürüsünə sahib olan kimsələr isə dinc adam olurlar."[4]

٥٧٥- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ عُمَارَةَ بْنِ أَبِي حَفْصَةَ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: عَجِبْتُ لِلْكِلاَبِ وَالشَّاءِ، إِنَّ الشَّاءَ يُذْبَحُ مِنْهَا فِي السَّنَةِ كَذَا وَكَذَا، وَيُهْدَى كَذَا وَكَذَا، وَالْكَلْبُ تَضَعُ الْكَلْبَةُ الْوَاحِدَةُ كَذَا وَكَذَا وَالشَّاءُ أَكْثَرُ مِنْهَا.

**(575)** ........ İbn Abbas ﷺ demişdir: "Mən itlərin və qoyunların halına təəccüb edirəm. İl boyu neçə-neçə qoyunlar boğazlanır, neçə-neçə qoyun-

---

[1] Yəni sahibinin qüdrətli və güclü olması üçün bir səbəbdir. Lakin bəzən bu qüdrət dəvə sahibini lovğalanmağa və təkəbbürlü olmağa təşviq edir.

[2] Burada "küfrün başı" deyildikdə, onun mənbəyi, çıxacağı yer nəzərdə tutulur.

[3] Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Daşürəklilik və qabalıq kobud danışığı ilə seçilən, dəvələrinin quyruğundan yapışmış (başları dəvələrinə qarışmış və getdikcə kobudlaşan) bədəvilərə aiddir. *Bu xasiyyətlər* şeytanın iki buynuzu çıxan yerdə – Rəbiə və Mudər *qəbilələrində* özünü büruzə verir" (Səhih əl-Buxari, 3302). Bu iki hədisdən aydın olur ki, dəvənin çoxluğu elmdən uzaq, çöl həyatı yaşayan adamlara pis təsir göstərir, onlarda lovğalıq və təkəbbürlük yaradır. Yoxsa ki, lovğalığın və təkəbbürlüyün yaramaz xislət olduğunu bilən, həm də özünü bu pis əxlaqdan qoruyan mömin adamın çoxlu dəvəyə və ata sahib olması eyib deyil.

[4] Bu hədisi Buxari (3301) və Muslim (185) rəvayət etmişdir.

lar qurban kəsilir, bir dişi it də (il ərzində) filan qədər bala verir, lakin bununla belə yenə qoyunların sayı itlərin sayından çoxdur.[1]"[2]

٥٧٦– حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا وَهْبُ بْنُ إِسْمَاعِيلَ، عَنْ مُحَمَّدِ بْنِ قَيْسٍ، عَنْ أَبِي هِنْدَ الْهَمْدَانِيِّ، عَنْ أَبِي ظَبْيَانَ قَالَ: قَالَ لِي عُمَرُ بْنُ الْخَطَّابِ: يَا أَبَا ظَبْيَانَ، كَمْ عَطَاؤُكَ؟ قُلْتُ: أَلْفَانِ وَخَمْسُمِئَةٍ، قَالَ لَهُ: يَا أَبَا ظَبْيَانَ، اتَّخِذْ مِنَ الْحَرْثِ وَالسَّابْيَاءِ مِنْ قَبْلِ أَنْ تَلِيَكُمْ غِلْمَةُ قُرَيْشٍ، لاَ يُعَدُّ الْعَطَاءُ مَعَهُمْ مَالاً.

**(576)** ........ Əbu Zəbyan[3] demişdir: "(Bir dəfə) Ömər ibn Xattab məndən soruşdu: "Ey Əbu Zəbyan, sənin maaşın nə qədərdir?" Mən dedim: "İki min beş yüzdür." O, dedi: "Ey Əbu Zəbyan! Qureyşin balacaları[4] sizin üstünüzdə başçı olmazdan əvvəl əkinçiliklə və heyvandarlıqla məşğul ol. Onlara görə maaş maldan sayılmaz."[5]

٥٧٧– حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، سَمِعْتُ أَبَا إِسْحَاقَ، سَمِعْتُ عَبْدَةَ بْنَ حَزْنٍ يَقُولُ: تَفَاخَرَ أَهْلُ الإِبِلِ وَأَصْحَابُ الشَّاءِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((بُعِثَ مُوسَى وَهُوَ رَاعِي غَنَمٍ، وَبُعِثَ دَاوُدُ وَهُوَ رَاعٍ غَنَمٍ، وَبُعِثْتُ أَنَا وَأَنَا أَرْعَى غَنَمًا لِأَهْلِي بِأَجْيَادِ)).

**(577)** ........ Abdə ibn Həzn ﷺ demişdir: "*Bir gün* dəvə sahibləri ilə qoyun sahibləri bir-birinin yanında öyünməyə başladılar. Onda Peyğəmbər ﷺ dedi:

---

[1] Bu, qoyunun bərəkətli olduğunu bir daha sübuta yetirir.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Əbu Zəbyan Husayn ibn Cundəb əl-Cənbi əl-Kufi ﷺ. Kufənin alimlərindən olmuş, habelə, hicrətin 50-ci ilində Yezid ibn Muaviyənin ordusunda Konstantinopola edilən yürüşdə iştirak etmişdir. Hicrətin 89-cu və ya 90-cı ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 140-cı tərcümeyi-hal).

[4] 66-cı hədisə və onun qeydlərinə bax.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

"Musa qoyun otaran çoban ikən peyğəmbər göndərildi.[1] Habelə, Davud qoyun otaran çoban ikən ona peyğəmbərlik verildi. Eləcə də, mən Əcyadda ailəmin qoyunlarını otaran çoban ikən peyğəmbər göndərildim.[2]"[3]

---

[1] Musa aleyhissəlam barədə Quranda belə xəbər verilir: **"*Musa* dedi: "Bu mənim əsamdır. Ona söykənir və onunla qoyunlarıma yarpaq silkələyirəm. Bu, mənim üçün başqa işlərə də yarıyır"** (Ta ha, 18).

[2] Peyğəmbərlərin hamısının qoyun otardıqları barədə Rəsulullah ﷺ belə buyurmuşdur: "Allahın göndərdiyi peyğəmbərlərin hamısı qoyun otarmışlar." Səhabələr soruşdular: "Sən də, *ya Rəsulullah*?" O, dedi: "Bəli, mən bir neçə qirata məkkəlilərin qoyunlarını otarardım" (Səhih əl-Buxari, 2262).

[3] Bu hədisi Dolabi (əl-Kunə, 1/92) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ٢٦٢- بَابُ الأَعْرَابِيَّةِ

## 262-ci fəsil. Bədəvilik[1]

٥٧٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: الْكَبَائِرُ سَبْعٌ، أَوَّلُهُنَّ: الإِشْرَاكُ بِاللَّهِ، وَقَتْلُ النَّفْسِ، وَرَمْيُ الْمُحْصَنَاتِ، وَالأَعْرَابِيَّةُ بَعْدَ الْهِجْرَةِ.

**(578)** ........ Əbu Hureyrə ﷠ demişdir: "Böyük günahların sayı yeddidir: birincisi, Allaha şərik qoşmaq, (sonra) adam öldürmək, namuslu qadınları zinada ittiham etmək və hicrətdən sonra köçəri həyat sürmək.[2]"[3]

---

[1] Burada "bədəvilik" deyildikdə, şəhərdə böyümüş adamın sonradan çöl həyatına getməsi, köçəriliyi üstün tutması nəzərdə tutulur.

[2] Allaha şərik qoşmaq, adam öldürmək və namuslu qadınları zinada ittiham etmək barədə əvvəlki fəsillərdə danışmışıq (8-ci hədisin qeydlərinə bax). Hicrətdən sonrakı bədəviliyə gəlincə, bu, o vaxt günah sayılar ki, adam şəhərdə yaşayıb elm və mərifət, iman və təqva sahibi olduqdan sonra, səbəbsiz yerə bu həyatı tərk edib köçəri həyatı üstün tutsun, müsəlmanlardan uzaqlaşıb cəmiyyətə xeyir verməkdən boyun qaçıraraq təkliyə çəkilməyi düzgün hesab etsin. Bəzi alimlər bu məsələyə dair Allahın bu kəlamını dəlil gətirirlər: **"Hidayət yolunu tanıdıqdan sonra *haqdan dönüb* geriyə üz tutanlara şeytan *günah işləri* gözəl göstərdi və onlara uzun ömür vəd etdi"** (Muhəmməd, 25).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu əsərdə yeddi günahdan ancaq dördü sadalansa da, digər rəvayətdə bu günahların yeddisi də zikr edilmişdir. Əbu Səid əl-Xudrinin ﷠ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Böyük günahların sayı yeddidir: Allaha şərik qoşmaq, Allahın haram buyurduğu cana nahaq yerə qəsd etmək, ismətli qadına böhtan atmaq, döyüş meydanından qaçmaq, sələm yemək, yetimin malını yemək və hicrətdən sonra köçəri həyata qayıtmaq" (Mocəmul-Ovsat, 5709; Səhih əl-Cami, 4606). Hədisdən açıq-ayıdn görünür ki, Əbu Hureyrənin ﷠ sadaladığı bu böyük günahlar onun öz sözü yox, Peyğəmbərin ﷺ sözüdür.

## ٢٦٣- بَابُ سَاكِنِ الْقُرَى

## 263-cü fəsil. Kəndlərdə məskunlaşmaq[1]

٥٧٩- حَدَّثَنَا أَحْمَدُ بْنُ عَاصِمٍ قَالَ: حَدَّثَنَا حَيْوَةُ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ قَالَ: حَدَّثَنِي صَفْوَانُ قَالَ: سَمِعْتُ رَاشِدَ بْنَ سَعْدٍ يَقُولُ: سَمِعْتُ ثَوْبَانَ يَقُولُ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: ((لاَ تَسْكُنِ الْكُفُورَ، فَإِنَّ سَاكِنَ الْكُفُورِ كَسَاكِنِ الْقُبُورِ)).

قَالَ أَحْمَدُ: الْكُفُورُ: الْقُرَى.

---

[1] Ərəbcə ( قَرْيَة ) "kənd" deyildikdə həm şəhər, həm də əhalisi kənd təsərrüfatı ilə yaxud maldarlıqla məşğul olan yaşayış məntəqəsi qəsd edilir. Bu kəlmənin şəhər mənasında işlənməsinə bu ayəni misal göstərmək olar: **"Beləliklə, Biz sənə ərəbcə Quran vəhy etdik ki, şəhərlər anası *Məkkə əhlini* və onun ətrafındakıları xəbərdar edəsən və barəsində heç bir şübhə doğurmayan məhşər gününü onların yadına salasan"** (əş-Şura, 7). Bu fəsildəki hədisdə kənd deyildikdə isə şəhərdən uzaq, habelə, elmin olmadığı bir yaşayış yeri nəzərdə tutulur. Burada Peyğəmbər ﷺ elm və mərifətdən uzaq kənd həyatını qəbir həyatına bənzədir. Həqiqətən də, Allahın elmi insanlara həyat bəxş edir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "İçində Allah zikr olunan evlə zikr olunmayan evin misalı, diri ilə ölünün misalına bənzəyir" (Səhih Muslim, 1859); digər hədisdə o, belə buyurmuşdur: "Evlərinizi qəbiristanlığa çevirməyin! Heç şübhəsiz ki, şeytan "əl-Bəqərə" surəsi oxunan evdən qaçar" (Səhih Muslim, 1860). Deməli, ölüyə bəzəməmək üçün Allahın və Onun peyğəmbərinin ﷺ buyuruqlarına əməl etmək gərəkdir. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! *Peyğəmbər* sizi, həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Onun peyğəmbərinin çağırışına cavab verin"** (əl-Ənfal, 24); O, həmçinin, buyurur: **"Məgər ölü ikən *hidayət bəxş edib* diriltdiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi?"** (əl-Ənam, 122); O, həmçinin, buyurur: **"Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan *ayələr* üçün yumşalması, daha öncə özlərinə Kitab verilmiş, uzun müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxusu da fasiq olmuş kimsələr kimi olmaması vaxtı gəlib çatmadımı? Bilin ki, Allah torpağı onun ölümündən sonra dirildir. Biz ayələri sizə izah etdik ki, bəlkə anlayasınız"** (əl-Hədid, 16-17). Yəni necə ki, Allah ölü torpağı yağmurla canlandırır, eləcə də, ölü qəlbləri vəhylə dirildir. Deməli, insanın əsl həyatı Allahın nazil etdiyi vəhyə – Quran və Sünnəyə bağlıdır.

**(579)** ........ Sovban[1] ﷺ demişdir: "Peyğəmbər ﷺ mənə belə buyurmuşdur: "Kəfrlərdə[2] məskunlaşma! Çünki kəfrlərdə məskunlaşan adam qəbirlərdə məskunlaşan adama bənzəyir."[3]

Əhməd[4] demişdir: "Kəfrlər: *balaca və ucqar* kəndlər."

(...)– حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا بَقِيَّةُ قَالَ: حَدَّثَنِي صَفْوَانُ قَالَ: سَمِعْتُ رَاشِدَ بْنَ سَعْدٍ يَقُولُ: سَمِعْتُ ثَوْبَانَ قَالَ: قَالَ لِي النَّبِيُّ ﷺ: ((يَا ثَوْبَانُ، لاَ تَسْكُنِ الْكُفُورَ، فَإِنَّ سَاكِنَ الْكُفُورِ كَسَاكِنِ الْقُبُورِ)).

**(...)** ........ Sovban ﷺ demişdir: "Rəsulullah ﷺ mənə belə buyurmuşdur: "Ey Sovban, kəfrlərdə məskunlaşma! Çünki kəfrlərdə məskunlaşan adam qəbirlərdə məskunlaşan adama bənzəyir."[5]

---

[1] Əhməd ibn Asim İmam Buxarinin şeyxidir.

[2] Burada Peyğəmbər ﷺ ucqar və balaca kəndə "kəfr" deyir. İndiyədək Ərəbistan yarımadasının bəzi yerlərində belə kəndə "kəfr" deyirlər.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

[4] Bu, İmam Buxarinin şeyxi Əhməd ibn Asimdir.

[5] Adətən, mühəddislər hədisin bir və daha çox isnadla varid olduğuna rast gəldikdə, həmin hədisi bir neçə isnadla rəvayət edərdilər ki, hədisin isnadının hökmünü qüvvətləndirsin – onu bir dərəcə, yəni "zəif" dərəcəsindən "həsən" yaxud "həsən" dərəcəsindən "səhih" dərəcəsinə yüksəltsin.

## ٢٦٤- بَابُ الْبدو إِلَى التِّلاعِ

## 264-cü fəsil. Axar sular kənarındakı vadiyə çıxmaq

٥٨٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنِ الْمِقْدَامِ بْنِ شُرَيْحٍ، عَنْ أَبِيهِ قَالَ: سَأَلْتُ عَائِشَةَ عَنِ الْبدو قُلْتُ: وَهَلْ كَانَ النَّبِيُّ ﷺ يَبْدُو؟ فَقَالَتْ: نَعَمْ، كَانَ يَبْدُو إِلَى هَؤُلَاءِ التِّلاعِ.

**(580)** ........ Şureyh demişdir: "Mən Aişədən çölə[1] çıxmaq barədə soruşdum: "Heç Peyğəmbər ﷺ çölə çıxardımı?" O, dedi: "Bəli, Peyğəmbər ﷺ axar su kənarındakı vadiyə çıxıb oturardı.[2]"[3]

٥٨١- حَدَّثَنَا أَبُو حَفْصِ بْنُ عَلِيٍّ قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ عَمْرِو بْنِ وَهْبٍ قَالَ: رَأَيْتُ مُحَمَّدَ بْنَ عَبْدِ اللَّهِ بْنِ أُسَيْدٍ إِذَا رَكِبَ، وَهُوَ مُحْرِمٌ، وَضَعَ ثَوْبَهُ عَنْ مَنْكِبَيْهِ، وَوَضَعَهُ عَلَى فَخِذَيْهِ، فَقُلْتُ: مَا هَذَا؟ قَالَ: رَأَيْتُ عَبْدَ اللَّهِ يَفْعَلُ مِثْلَ هَذَا.

**(581)** ........ Amr ibn Vəhb rəvayət edir ki, Muhəmməd ibn Abdullah ibn Useyd ihramda[4] ikən heyvanına mindiyi zaman libasını[5] çiynindən götürüb budunun üstünə qoydu. Mən (ondan): "Bu (elədiyin) nədir!"– deyə soruşdum. O, dedi: "Mən Abdullahın[6] belə etdiyini görmüşəm."[7]

---

[1] Burada "çöl" deyildikdə, vadi, düzəngahlıq, dağ ətəyi, səhra və s. nəzərdə tutulur.

[2] Bu, dəlildir ki, gəzişmək və dincəlmək, habelə, düşünmək və ibrət almaq məqsədilə səhraya, düzəngaha, dağ ətəyinə və başqa bu kimi yerlərə getmək caizdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] İhrama girmək: həcc və ya ümrə ziyarətini yerinə yetirməyə niyyət etmək.

[5] Burada "libas" deyildikdə, ziyarət əsnasında geyilən iki parçadan biri, daha dəqiq desək, çiyinə atılanı nəzərdə tutulur.

[6] Burada söhbət Abdullah ibn Məsuddan ﵁ gedir.

[7] Bu hədisin isnadında keçən İbn Useyd "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٢٦٥- بَابُ مَنْ أَحَبَّ كِتْمَانَ السِّرِّ، وَأَنْ يُجَالِسَ كُلَّ قَوْمٍ فَيَعْرِفَ أَخْلاَقَهُمْ

## 265-ci fəsil. Sirr saxlamağı (xoşlayan), habelə, hər bir toplumun əxlaqını öyrənmək üçün onlarla oturmağı sevən kimsə[1]

٥٨٢- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ قَالَ: أَخْبَرَنِي مُحَمَّدُ بْنُ عَبْدِ اللَّهِ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ عَبْدٍ الْقَارِيِّ، عَنْ أَبِيهِ، أَنَّ عُمَرَ بْنَ الْخَطَّابِ وَرَجُلًا مِنَ الأَنْصَارِ كَانَا جَالِسَيْنِ، فَجَاءَ عَبْدُ الرَّحْمَنِ بْنُ عَبْدٍ الْقَارِيِّ فَجَلَسَ إِلَيْهِمَا، فَقَالَ عُمَرُ: إِنَّا لاَ نُحِبُّ مَنْ يَرْفَعُ حَدِيثَنَا، فَقَالَ لَهُ عَبْدُ الرَّحْمَنِ: لَسْتُ أُجَالِسُ أُولَئِكَ يَا أَمِيرَ الْمُؤْمِنِينَ، قَالَ عُمَرُ: بَلَى، فَجَالِسْ هَذَا وَهَذَا، وَلاَ تَرْفَعْ حَدِيثَنَا، ثُمَّ قَالَ لِلأَنْصَارِيِّ: مَنْ تَرَى النَّاسَ يَقُولُونَ يَكُونُ الْخَلِيفَةَ بَعْدِي؟ فَعَدَّدَ الأَنْصَارِيُّ رِجَالًا مِنَ الْمُهَاجِرِينَ، لَمْ يُسَمِّ عَلِيًّا، فَقَالَ عُمَرُ: فَمَا لَهُمْ عَنْ أَبِي الْحَسَنِ؟ فَوَاللَّهِ إِنَّهُ لَأَحْرَاهُمْ، إِنْ كَانَ عَلَيْهِمْ، أَنْ يُقِيمَهُمْ عَلَى طَرِيقَةٍ مِنَ الْحَقِّ.

**(582)** ........ Abdullah ibn Abdur-Rəhman rəvayət edir ki, (bir dəfə) Ömər ənsardan olan bir kişi ilə bir yerdə oturmuşdu. Elə bu vaxt Abdur-Rəhman ibn Abdul-Qari gəlib onların yanında oturdu. Ömər dedi: "Biz söhbətimizi orada-burada danışan adamı xoşlamırıq." Abdur-Rəhman dedi: "Ey möminlərin əmiri, mən sən dediyin adamlarla oturub-durmuram." Ömər dedi: "Əksinə, onlarla da otur-dur, bunlarla da. Lakin bizim söhbətimizi on-

---

[1] Sələflər həmişə özlərinə ancaq əməlisaleh insanı dost tutar və belələri ilə oturub-durardılar. Peyğəmbər ﷺ də öz ümmətinə bunu tövsiyə edib demişdir: "Adam dostunun dini üzərindədir. Hər biriniz kiminlə dostluq etdiyinə diqqət etsin!" (Sunən Əbu Davud, 2/293; Silsilətul-Əhadisis-Səhihə, 927). Habelə, sirr saxlamağın vacib olması barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam (birisinə) bir söz söylədiyi zaman o yan-bu yana baxarsa, bu artıq onun üçün əmanət sayılar" (Sunən Əbu Davud, 2/297; Sunən ət-Tirmizi, 1/355; Musnəd ima Əhməd, 3/324; Silsilətul-Əhadisis-Səhihə, 1090). Danışan adamın o yana-bu yana baxması, dediyi sözü heç kəsə eşitdirmək istəməməsi onun danışdığı sözün sirr olmasına dəlalət edir.

lara çatdırma." Sonra Ömər ənsardan olan kişidən soruşdu: "İnsanlar məndən sonra kimin xəlifə olacağını deyirlər?" Ənsardan olan bu adam mühacirlərdən bir neçəsinin adını sadaladı, lakin Əlinin adını çəkmədi. Ömər dedi: "Niyə Əbul-Həsəni də demirlər? Vallahi, Əli onların arasında haqq yoluna istiqamətləndirən ən münasib adamdır.[1]"[2]

---

[1] Ömər ibn Xattab ﷺ ölüm ayağında ikən müsəlmanlara altı nəfərdən birinin xəlifə seçilməsini təklif etmişdir ki, onlardan da biri Əli ibn Əbu Talib ﷺ olmuşdur.

[2] Bu hədisin isnadında keçən Muhəmməd ibn Abdullah "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٢٦٦- بَابُ التُّؤَدَةِ فِي الأُمُورِ

## 266-cı fəsil. İş görəndə tələsməmək[1]

٥٨٣- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو هِلاَلٍ قَالَ: حَدَّثَنَا الْحَسَنُ، أَنَّ رَجُلًا تُوُفِّيَ وَتَرَكَ ابْنًا لَهُ وَمَوْلًى لَهُ، فَأَوْصَى مَوْلاَهُ بِابْنِهِ، فَلَمْ يَأْلُوهُ حَتَّى أَدْرَكَ وَزَوَّجَهُ، فَقَالَ لَهُ: جَهِّزْنِي أَطْلُبِ الْعِلْمَ، فَجَهَّزَهُ، فَأَتَى عَالِمًا فَسَأَلَهُ، فَقَالَ: إِذَا أَرَدْتَ أَنْ تَنْطَلِقَ فَقُلْ لِي أُعَلِّمْكَ، فَقَالَ: حَضَرَ مِنِّي الْخُرُوجُ فَعَلِّمْنِي، فَقَالَ: اتَّقِ اللَّهَ وَاصْبِرْ، وَلاَ تَسْتَعْجِلْ. قَالَ الْحَسَنُ: فِي هَذَا الْخَيْرُ كُلُّهُ، فَجَاءَ وَلاَ يَكَادُ يَنْسَاهُنَّ، إِنَّمَا هُنَّ ثَلاَثٌ، فَلَمَّا جَاءَ أَهْلَهُ نَزَلَ عَنْ رَاحِلَتِهِ، فَلَمَّا نَزَلَ الدَّارَ إِذَا هُوَ بِرَجُلٍ نَائِمٍ مُتَرَاخٍ عَنِ الْمَرْأَةِ، وَإِذَا امْرَأَتُهُ نَائِمَةٌ، قَالَ: وَاللَّهِ مَا أُرِيدُ مَا أَنْتَظِرُ بِهَذَا؟ فَرَجَعَ إِلَى رَاحِلَتِهِ، فَلَمَّا أَرَادَ أَنْ يَأْخُذَ السَّيْفَ قَالَ: اتَّقِ اللَّهَ وَاصْبِرْ، وَلاَ تَسْتَعْجِلْ. فَرَجَعَ، فَلَمَّا قَامَ عَلَى رَأْسِهِ قَالَ: مَا أَنْتَظِرُ بِهَذَا شَيْئًا، فَرَجَعَ إِلَى رَاحِلَتِهِ، فَلَمَّا أَرَادَ أَنْ يَأْخُذَ سَيْفَهُ ذَكَرَهُ، فَرَجَعَ إِلَيْهِ، فَلَمَّا قَامَ عَلَى رَأْسِهِ اسْتَيْقَظَ الرَّجُلُ، فَلَمَّا رَآهُ وَثَبَ إِلَيْهِ فَعَانَقَهُ وَقَبَّلَهُ، وَسَاءَلَهُ قَالَ: مَا أَصَبْتَ بَعْدِي؟ قَالَ: أَصَبْتُ وَاللَّهِ بَعْدَكَ خَيْرًا كَثِيرًا، أَصَبْتُ وَاللَّهِ بَعْدَكَ: أَنِّي مَشَيْتُ اللَّيْلَةَ بَيْنَ السَّيْفِ وَبَيْنَ رَأْسِكَ ثَلاَثَ مِرَارٍ، فَحَجَزَنِي مَا أَصَبْتُ مِنَ الْعِلْمِ عَنْ قَتْلِكَ.

**(583)** ........ Həsən *əl-Bəsri* rəvayət edir ki,[2] bir kişi vəfat etdi və özündən sonra oğlunu və azad etdiyi köləsini qoyub getdi. Ölərkən azad etdiyi köləsinə oğluna baxmasını vəsiyyət etdi. Uşaq həddi-büluğa çatanadək kölə əlindən gələni əsirgəmədi – ona yaxşı baxdı, sonra da onu evləndirdi.[3] *Bir müddətdən sonra* o gənc həmin adama: "Mənim üçün hazırlıq gör, elm da-

---

[1] Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Tələsməmək və gözəl görünüşlü olmaq peyğəmbərliyin iyirmi dörd hissəsindən biridir" (Səhih əl-Cami, 3010); digər bir hədisdə o, demişdir: "Hövsələli olmaq Allahdan, tələsmək isə şeytandandır" (Musnəd Əbu Yə'la, 3/1054; Silsilətul-Əhadisis-Səhihə, 1795). Həmçinin, Abdullah ibn Məsud ﷺ demişdir: "*Vaxt gələcək* çoxlu fəsadlar və qarmaqarışıq işlər baş verəcək. Belə olduğu təqdirdə sən tələsmə! Beləliklə, xeyirli işə tabe olmaq sənin üçün şər əməlin başında durmaqdan daha xeyirli olar" (Musənnəf İbn Əbu Şeybə, 7/456).

[2] Diqqət edin! Sələflər hekayə danışdıqda buna etimad etmək və buna əsaslanmaq üçün yox, sadəcə, eşidənlər bundan ibrət alsınlar deyə danışardılar. Məlumdur ki, hər bir müsəlmanın istinad etdiyi mənbə yalnız Allahın Kitabı və Peyğəmbərinin ﷺ Sünnəsidir.

[3] Hekayənin ardını oxuyanda aydın olur ki, bu adam həmin gənci öz doğmalarından (öz qızı yaxud bacısı və s.) ilə evləndirmişdir.

lınca gedəcəyəm!"– dedi. O da onun üçün hazırlıq gördü. *Nəhayət,* o, alimin yanına gəlib ondan elm öyrənmək istədikdə, *alim* dedi: "Nə vaxt *evinə* qayıtmaq istəsən, mənə de, sənə *gözəl* nəsihət edəcəyəm." *Bir müddətdən sonra o, alimin yanına gəlib* dedi: "Mən *evə* getmək istəyirəm, mənə nəsihət et!" *Alim* dedi: "Allahdan qorx, səbirli ol və tələsmə!"[1]

Həsən *əl-Bəsri* dedi: "Elə bütün xeyir bunlardadır."

Nəhayət, o çıxıb getdi. O, bu nəsihətləri hələ unutmamışdı. Bunlar cəmi üç nəsihət idi. O gəlib yurduna çatdıqda miniyindən yerə endi. Evinə gəldikdə orada zövcəsindən ayrı yatmış bir adam gördü. Zövcəsi də yatmışdı. O, *öz-özünə* dedi: "Vallahi, *mən bilmirəm* bunu nə üçün gözləyirəm, nə istəyirəm?" Sonra miniyinin yanına qayıdıb qılıncı götürmək istədikdə *öz-özünə* dedi: "Allahdan qorx, səbirli ol və tələsmə!" O, geri qayıdıb həmin adamın başının üstə dayanıb *öz-özünə*: "Mən bunu gözləyən deyiləm"– dedi və yenidən miniyinin yanına döndü. Qılıncını götürmək istədikdə nəsihətləri xatırlayıb geri qayıtdı. Gəlib onun başının üstə dayandıqda, o adam yuxudan oyandı. *Oyanan kimi başının üstə duran adamı gördü və onun* üstünə atılıb onu qucaqlayıb öpdü və soruşdu: "Məndən *ayrıldıqdan* sonra nəyə nail oldun?"[2] O, dedi: "Vallahi, səndən sonra çoxlu xeyir əldə etdim. Mən bu gecə sənin başınla qılıncım arasında üç dəfə gedib gəldim və *səni öldürmək istədim*. Lakin öyrəndiyim elm səni öldürməyə mənə mane oldu.[3]"[4]

---

[1] Bu üç xislətin üçü də Quran və Sünnədə öz əksini tapmışdır. Uca Allah buyurur: "**Ey iman gətirənlər! Allahdan qorxun və Onun rəsuluna iman gətirin!**" (əl-Hədid, 28); **"Ey iman gətirənlər! Səbir edin"** (Ali-İmran, 200). Habelə, Peyğəmbər ﷺ Muaz ibn Cəbəli ؓ Yəmənə göndərərkən ona belə nəsihət etmişdir: "Harada olsan, Allahdan qorx!" (Sunən ət-Tirmizi, 1987; Səhih əl-Cami, 97); həmçinin, tələsməmək xüsusunda o belə buyurmuşdur: "Heç bir işdə tələsmək olmaz! Yalnız Axirətə aid işlərdən başqa" (Sunən Əbu Davud, 4810; Silsilətul-Əhadisis-Səhihə, 1794). Axirətə aid işlərdə öndə gedən möminləri Uca Allah Quranda belə vəsf edir: **"Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər – məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər"** (əl-Muminun, 57-61).

[2] Bu gənc zövcəsinin yanında olan adamın onun köləsi, həm də zövcəsinin məhrəmi olduğunu görəndə qəzəbi soyuyur və qəlbindəki şübhələr aradan qalxır.

[3] Bu da elm öyrənməyin olduqca fəzilətli bir əməl olduğuna dəlalət edir.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٢٦٧- بَابُ التُّؤَدَةِ فِي الأُمُورِ

## 267-ci fəsil. İş görəndə həlim olmaq

**٥٨٤-** حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا يُونُسُ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي بَكْرَةَ، عَنْ أَشَجِّ عَبْدِ الْقَيْسِ قَالَ: قَالَ لِي النَّبِيُّ ﷺ: ((إِنَّ فِيكَ لَخُلُقَيْنِ يُحِبُّهُمَا اللَّهُ))، قُلْتُ: وَمَا هُمَا يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((الْحِلْمُ وَالْحَيَاءُ))، قُلْتُ: قَدِيمًا كَانَ أَوْ حَدِيثًا؟ قَالَ: ((قَدِيمًا))، قُلْتُ: الْحَمْدُ لِلَّهِ الَّذِي جَبَلَنِي عَلَى خُلُقَيْنِ أَحَبَّهُمَا اللَّهُ.

**(584)** ........ Əşəc Abdulqeys[1] ؓ demişdir: “(Bir gün) Peyğəmbər ﷺ mənə dedi: “Səndə iki əxlaqi cəhət[2] vardır ki, Allah onları sevir.” Mən soruşdum: “Bunlar nələrdir, ya Rəsulullah?” O, buyurdu: “Həlimlik və həyalı olmaqdır.[3]” Mən soruşdum: “*Bunlar məndə* çoxdan var, yoxsa təzəlikcə baş vermişdir?”[4] O: “Çoxdan var!”– deyə cavab verdi. Mən dedim: “Allahın sevdiyi bu iki əxlaqi cəhəti məndə yaradan Allaha həmd olsun!”[5]

---

[1] Bu, sonralar Bəsrədə məskunlaşmış Peyğəmbərin ﷺ səhabəsi Munzir ibn Aiz ibn Munzirdir ؓ (Zilalul-Cənnə, 190).

[2] Əxlaqi cəhət: bir kimsəyə aid olan, onu səciyyələndirən keyfiyyət, xüsusiyyət.

[3] Həya barədə Peyğəmbər ﷺ belə demişdir: “Həya insana ancaq xeyir gətirər”; “Həya bütövlükdə xeyirdir”; “Həyanın hamısı xeyirdir” (Səhih Muslim, 156 və 157). Bəziləri həyanın bütövlükdə xeyir olub, yalnız xeyir gətirdiyini inkar edirlər. Səbəbi də budur ki, həyalı adam hərdən haqqı deməyə utanır – insanlara yaxşı işlər görməyi buyurmur və onları pis işlərdən çəkindirmir. Amr ibnus-Səlah bunu belə izah etmişdir: “Bu qeyd edilən naqis cəhətlər əsl həya sayıla bilməz, əksinə, bu acizlik, zəlillik və alçalmaqdır. Sadəcə, zahirən həyaya bənzədiyindən bəziləri onu həya adlandırmışlar. Əsl həya isə adamı pis iş tutmaqdan və haqsızlıq etməkdən çəkindirir” (Nəvəvinin şərhi).

[4] İstər həlimlik, istər həya, istərsə digər gözəl əxlaqi cəhətləri bəndələr arasında bölüşdürən, onu sevdiyinə bəxş edən – məhz Allahdır (275-ci hədisə və onun qeydlərinə bax). Bəzən də adam bu gözəl xislətləri təcrübə ilə əldə edir. (565/1-ci hədisə və onun qeydlərinə bax). Bütün bunların hamısı Allahın Öz bəndəsinə bəxş etdiyi nemətlərdir. Bu xüsusda, Uca Allah buyurur: **“Sizə verilən nemətlərin hamısı Allahdandır”** (ən-Nəhl, 53); **“O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz”** (İbrahim, 34).

[5] Bu hədisi Nəsai (8248), Əhməd (4/205) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

٥٨٥- حَدَّثَنَا عَلِيُّ بْنُ أَبِي هَاشِمٍ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي عَرُوبَةَ، عَنْ قَتَادَةَ قَالَ: حَدَّثَنَا مَنْ لَقِيَ الْوَفْدَ الَّذِينَ قَدِمُوا عَلَى النَّبِيِّ ﷺ مِنْ عَبْدِ الْقَيْسِ، وَذَكَرَ قَتَادَةُ أَبَا نَضْرَةَ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ قَالَ: قَالَ النَّبِيُّ ﷺ لِأَشَجِّ عَبْدِ الْقَيْسِ: ((إِنَّ فِيكَ لَخَصْلَتَيْنِ يُحِبُّهُمَا اللَّهُ: الْحِلْمُ وَالْأَنَاةُ)).

**(585)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Əşəc Abdulqeysə demişdir: "Səndə iki xislət vardır ki, Allah onları sevir. (Bunlar) həlimlik və təmkinli olmaqdır."[1]

٥٨٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عَبْدِ الْوَهَّابِ قَالَ: أَخْبَرَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ قَالَ: حَدَّثَنَا قُرَّةُ، عَنْ أَبِي جَمْرَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ لِلْأَشَجِّ أَشَجِّ عَبْدِ الْقَيْسِ: ((إِنَّ فِيكَ لَخَصْلَتَيْنِ يُحِبُّهُمَا اللَّهُ: الْحِلْمُ وَالْأَنَاةُ)).

**(586)** ........ İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Əşəc Abdulqeysə demişdir: "Səndə iki xislət vardır ki, Allah onları sevir. (Bunlar) mülayimlik və təmkinli olmaqdır."[2]

٥٨٧- حَدَّثَنَا قَيْسُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا طَالِبُ بْنُ حُجَيْرٍ الْعَبْدِيُّ قَالَ: حَدَّثَنِي هُودُ بْنُ عَبْدِ اللَّهِ بْنِ سَعْدٍ، سَمِعَ جَدَّهُ مَزِيدَةَ الْعَبْدِيَّ قَالَ: جَاءَ الْأَشَجُّ يَمْشِي حَتَّى أَخَذَ بِيَدِ النَّبِيِّ ﷺ فَقَبَّلَهَا، فَقَالَ لَهُ النَّبِيُّ ﷺ: ((أَمَا إِنَّ فِيكَ لَخُلُقَيْنِ يُحِبُّهُمَا اللَّهُ وَرَسُولُهُ))، قَالَ: جَبْلًا جُبِلْتُ عَلَيْهِ، أَوْ خُلُقًا مَعِي؟ قَالَ: ((لَا، بَلْ جَبْلًا جُبِلْتَ عَلَيْهِ))، قَالَ: الْحَمْدُ لِلَّهِ الَّذِي جَبَلَنِي عَلَى مَا يُحِبُّ اللَّهُ وَرَسُولُهُ.

**(587)** ........ Məzidə əl-Abdi ﷺ demişdir: "(Bir dəfə) Əşəc Abdulqeys Peyğəmbərin ﷺ yanına gəlib onun əlindən tutub öpdü.[3] Peyğəmbər ﷺ ona dedi: "Səndə iki əxlaqi cəhət vardır ki, Allah və Onun rəsulu bunları sevir." Əşəc soruşdu: "Allah məni belə yaradıb, yoxsa bu əxlaq mənimlə

---

[1] Bu hədisi Muslim (117), Tirmizi (2143) və Əhməd (3/23) rəvayət etmişdir.

[2] Bu isnad da "səhih"dir (Səhih əl-Ədəbul-Mufrad).

[3] 444-cü fəsildəki hədislərə bax.

birgə yaranıb?" Peyğəmbər ﷺ: "Xeyr, səninlə birgə yaranıb!"– deyə cavab verdi. Əşəc dedi: "Allahın və Onun rəsulunun sevdiyi bu iki əxlaqi cəhəti məndə yaradan Allaha həmd olsun!"[1]

---

[1] Bu hədisin isnadında "cəhalət", mətnində isə "nəkarət" olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Belə ki, hədisin isnadında adı keçən Hud ibn Abdullah ibn Səd "məchul" ravidir. Nəkarətə, yəni mətndə olan anlaşılmaz cümləyə gəlincə, bu, ravinin "Allah məni belə yaradıb, yoxsa bu əxlaq mənimlə birgə yaranıb?" sözüdür. Belə ki, bu sözlərin hər ikisi eyni mənanı ifadə edir. Qeyd edək ki, hədisin isnadı və mətni "zəif" olsa da, əvvəlki hədislər bu hədisin mənasını təsdiqləyir. Şeyx Albani demişdir: "Bəzi adamların Peyğəmbərin ﷺ əlini öpməsi "səhih" hədislərdə varid olmuşdur. Peyğəmbərin ﷺ onlara bu əməli qadağan etməməsi, elm əhlinin əlini öpməyin caiz olmasına dəlalət edir. Sələflərdən də bəziləri öz aralarındakı hörmətli şəxsiyyətlərin əlini öpmüşlər. Lakin bu, o demək deyil ki, alimlərin əlini öpməyi adətə çevirmək olar. Hazırda bəziləri əlinin öpülməsini adətə çevirmişlər ki, bu da qətiyyətlə Peyğəmbərin ﷺ Sünnəsinə ziddir. Belə ki, səhabələrdən çox azı Peyğəmbərin ﷺ əlini öpmüşdür. Bunu Peyğəmbərin ﷺ Sünnəsindən xəbəri olmayan, habelə, onun, sadəcə əl verib görüşməyi sevdiyini bilməyən kimsələr etmişlər. Odur ki, Əbu Bəkrin ؓ, Cənnətlə müjdələnmiş digər doqquz nəfərin və başqa bu kimi fəzilətli səhabələrin – Peyğəmbərə ﷺ yaxın olan kimsələrin onun əlini öpdüyü varid olmamışdır" (Silsilətul-Əhadisis-Daifə, 574-cü hədisin şərhi).

## ٢٦٨- بَابُ الْبَغْيِ

## 268-ci fəsil. Təcavüz etmək[1]

٥٨٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا فِطْرٌ، عَنْ أَبِي يَحْيَى قَالَ: سَمِعْتُ مُجَاهِدًا، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: لَوْ أَنَّ جَبَلًا بَغَى عَلَى جَبَلٍ لَدُكَّ الْبَاغِي.

**(588)** ........ İbn Abbas ﵄ demişdir: "Əgər bir dağ başqa bir dağa qarşı təcavüz etsəydi, təcavüz edən dağ parça-parça edilərdi.[2]"[3]

٥٨٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((احْتَجَّتِ النَّارُ وَالْجَنَّةُ، فَقَالَتِ النَّارُ: يَدْخُلُنِي الْمُتَكَبِّرُونَ وَالْمُتَجَبِّرُونَ. وَقَالَتِ الْجَنَّةُ: لاَ يَدْخُلُنِي إِلاَّ الضُّعَفَاءُ الْمَسَاكِينُ. فَقَالَ لِلنَّارِ: أَنْتِ عَذَابِي، أَنْتَقِمُ بِكِ مِمَّنْ شِئْتُ، وَقَالَ لِلْجَنَّةِ: أَنْتِ رَحْمَتِي أَرْحَمُ بِكِ مَنْ شِئْتُ)).

**(589)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "(Bir dəfə) Cənnətlə Cəhənnəm höcətləşdi. Cəhənnəm dedi: "Mənim içimə təkəbbürlülər və inadkarlar daxil olacaq." Cənnət dedi: "Mənim içimə isə zəiflər və kasıblar daxil olacaq." Onda *Allah* Cəhənnəmə buyurdu: "Sən

---

[1] Burada imam Buxari təcavüz etməyin qadağan edildiyini, bu yaramaz xislətdən uzaq durmağı və onun dünyada və axirətdə olan pis aqibətini qəsd edir. Təcavüz: birisi ilə düşmənçilik etmək, onunla ədavət aparmaq, onun əleyhinə təbliğat aparmaq, habelə, onun malını əlindən almaqla yaxud namusuna toxunmaqla yaxud da canına qəsd etməklə onun haqqına girmək deməkdir (Təfsir əs-Sədi, "ən-Nəhl" surəsi, 90cı ayənin təfsiri). Təcavüz etmək zülm hesab edilir. Uca Allah bu xüsusda belə buyurur: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və təcavüz etməyi isə qadağan edir"** (ən-Nəhl, 90).

[2] Təcavüz edənlərin cəzalandırılması xüsusunda Uca Allah belə buyurur: **"Rəbbin, haqsızlıq edən məmləkətləri yaxaladığı zaman belə yaxalayır. Onun yaxalaması həqiqətən də, üzücüdür, şiddətlidir"** (Hud, 102).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

Mənim əzabımsan. Səninlə dilədiyim kimsədən intiqam alaram."[1] Sonra Cənnətə buyurdu: "Sən Mənim rəhmətimsən. Səninlə dilədiyim kimsəyə rəhm edərəm."[2]

**٥٩٠-** حَدَّثَنَا عُثْمَانُ بْنُ صَالِحٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ قَالَ: حَدَّثَنَا أَبُو هَانِئٍ الْخَوْلَانِيُّ، عَنْ أَبِي عَلِيٍّ الْجَنْبِيِّ، عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((ثَلَاثَةٌ لَا تَسْأَلْ عَنْهُمْ: رَجُلٌ فَارَقَ الْجَمَاعَةَ وَعَصَى إِمَامَهُ فَمَاتَ عَاصِيًا، فَلَا تَسْأَلْ عَنْهُ، وَأَمَةٌ أَوْ عَبْدٌ أَبَقَ مِنْ سَيِّدِهِ، وَامْرَأَةٌ غَابَ زَوْجُهَا، وَكَفَاهَا مَؤُونَةَ الدُّنْيَا فَتَبَرَّجَتْ وَتَمَرَّجَتْ بَعْدَهُ. وَثَلَاثَةٌ لَا تَسْأَلْ عَنْهُمْ: رَجُلٌ نَازَعَ اللَّهَ رِدَاءَهُ، فَإِنَّ رِدَاءَهُ الْكِبْرِيَاءُ، وَإِزَارَهُ عِزُّهُ، وَرَجُلٌ شَكَّ فِي أَمْرِ اللَّهِ، وَالْقُنُوطُ مِنْ رَحْمَةِ اللَّهِ)).

**(590)** ........ Fədalə ibn Ubeyd ﷺ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Üç sinif (insan) vardır ki, onlar barədə heç soruşma:[4]

– Camaatdan[5] ayrılıb imamına asi olan və bu halda ölən kimsə.[6] Beləsi haqda heç soruşma;

– Ağasından qaçan kölə və ya kəniz;[7]

---

[1] Bu, dəlildir ki, Allah təcavüz edən kimsələrin layiqli cəzasını verəcəkdir.

[2] 554-cü hədisə və onun qeydlərinə bax.

[3] Bu hədisi Əhməd (6/19) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Yəni onlar həlak olacaqlar.

[5] Burada söhbət haqq yolda olan camaatdan gedir.

[6] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim öz əmirinin itaətindən (bircə qarış kənara) çıxsa, habelə, camaatdan ayrılsa və bu halda ölsə, cahilliyət dövründə olduğu kimi ölmüş olar" (Səhih Muslim, 1848).

[7] Bu xüsusda varid olmuş hədislərdə Peyğəmbər ﷺ demişdir: "Ağalarından qaçmış kölə onların yanına qayıdanadək küfr etmiş sayılar", "Hansı bir kölə *ağasından* qaçsa, *İslam* himayəsindən çıxmış olar", "Kölə *ağasından* qaçarsa, onun namazı qəbul olunmaz" (Səhih Muslim, 228, 229 və 230). Burada "küfr etmiş olar" deyildikdə, bu əməlin kafirlərin adətlərindən və cahillərin əxlaqından olması yaxud o kölənin nankorluq etməsi yaxud bu əməlin həmin köləni küfrə yönəltməsi yaxud da ağadan qaçmağı halal sayan kölənin həqiqi mənada kafir sayılması qəsd edilir (Şərh ən-Nəvəvi).

– O qadın ki, əri onu qoyub getmiş,[1] özünə də kifayət qədər azuqə saxlamışdır. O isə açıq-saçıq geyib çölə çıxmış və özbaşınalıq etmişdir.[2]

Üç nəfər də vardır ki, onların da (həlak olacaqları) barədə heç soruşma:

– Allahın libasına şərik olmaq istəyən kimsə. Çünki təkəbbürlük Onun ridası, izzət isə Onun izarıdır;[3]

– Allahın işinə şəkk edən kimsə;[4]

– Allahın rəhmətindən ümidini kəsən adam.[5]"

---

[1] Yəni səfərə çıxmış.

[2] Başqa bir hədisdə Peyğəmbər ﷺ qadınlar barədə belə buyurmuşdur: "Qadınlarınızın ən xeyirlisi – ərini sevən, ondan dünyaya uşaq gətirən, ona gözəl tərzdə təsəlli verən və Allahdan qorxan qadındır. Onların ən pisi isə açıq-saçıq geyinəni və özünü dartanıdır. Onlar münafiqdirlər. Belələrindən ancaq alaqarğa kimi olanları (yəni onların çox azı) Cənnətə girər" (Sunən əl-Beyhəqi, 7/82; Silsilətul-Əhadisis-Səhihə, 1849); başqa bir hədisdə Peyğəmbərdən ﷺ ən xeyirli qadın haqqında soruşulduqda, o, belə cavab vermişdir: "Ən xeyirli qadın o qadındır ki, əri ona nəzər saldıqda, onun üzü gülsün, əmr etdikdə, ona itaət etsin, ərinin xoşlamadığı işləri görməklə və onun malını israf etməklə, ona asi olmasın" (Sunən ən-Nəsai, 2/72 ; Mustədrək əl-Hakim, 2/161; Musnəd Əhməd, 2/251, 432 və 438; Silsilətul-Əhadisis-Səhihə, 1838). Asim əl-Əhvəl demişdir: "Biz Həfsə bint Sirinin yanına gəldiyimiz zaman o, çarşabına büründü, hətta, üzünü də örtdü. Biz dedik: "Allah səni bağışlasın! Axı, Uca Allah buyurur ki: **"Ərə getməkdən ümidini üzmüş yaşlı qadınlara ayıb yerlərini göstərmədən hicablarını soyunmasında günah yoxdur"** (ən-Nur, 60). Həfsə soruşdu: "Ayənin ardından nə gəlir?" Biz dedik: **"Lakin bunu etməmək onlar üçün daha xeyirlidir."** Həfsə dedi: "Budur, hicab geyməyin müstəhəb olmasına sübut" (Sunən əl-Beyhəqi, 13312; Cilbabul-Məratil-Muslimə, səh: 110).

[3] 552-ci hədisə və onun qeydlərinə bax.

[4] Bu xüsusda Quranda belə buyurulur: **"Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar?!"** (İbrahim, 10). Bu ayədə və hədisdə "şəkk" deyildikdə, Onun rübubiyyətində və uluhiyyətində, habelə, adlarında və sifətlərində şəkk etmək qəsd edilir, yəni Allaha aid olan hər bir işi əhatə edir.

[5] Allahın rəhmətindən ümidi üzməyin qadağan edilməsi barədə Quranda belə buyurulur: ***"Qullarıma mənim bu sözümü* de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"** (əz-Zumər, 53).

**٥٩١-** حَدَّثَنَا حَامِدُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا بَكَّارُ بْنُ عَبْدِ الْعَزِيزِ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((كُلُّ ذُنُوبٍ يُؤَخِّرُ اللَّهُ مِنْهَا مَا شَاءَ إِلَى يَوْمِ الْقِيَامَةِ، إِلاَّ الْبَغْيَ، وَعُقُوقَ الْوَالِدَيْنِ، أَوْ قَطِيعَةَ الرَّحِمِ، يُعَجِّلُ لِصَاحِبِهَا فِي الدُّنْيَا قَبْلَ الْمَوْتِ)).

**(591)** ........ Bəkkar ibn Abdulaziz öz atasından, o da, öz atasından rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Allah bütün günahların cəzasından dilədiyini Qiyamət gününə saxlayır. Yalnız təcavüz etmək və valideynlərin üzünə ağ olmaq yaxud qohumluq əlaqələrini kəsmək istisnadır. Bu günah sahibinin cəzasını isə dünyada ikən ölməmişdən əvvəl verir.[1]"[2]

**٥٩٢-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ بْنِ مَيْمُونٍ قَالَ: حَدَّثَنَا مِسْكِينُ بْنُ بُكَيْرٍ الْحَذَّاءُ الْحَرَّانِيُّ، عَنْ جَعْفَرِ بْنِ بُرْقَانَ، عَنْ يَزِيدَ بْنِ الأَصَمِّ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: يُبْصِرُ أَحَدُكُمُ الْقَذَاةَ فِي عَيْنِ أَخِيهِ، وَيَنْسَى الْجِذْلَ، أَوِ الْجِذْعَ، فِي عَيْنِ نَفْسِهِ.

قَالَ أَبُو عُبَيْدٍ : الْجِذْلُ: الْخَشَبَةُ الْعَالِيَةُ الْكَبِيرَةُ.

**(592)** ........ Əbu Hureyrə ﷺ demişdir:[3] "Sizdən biriniz qardaşının gözündə çöp görür, öz gözündəki tiri yaxud kötüyü isə unudur.[4]"

---

[1] Bu günahın cəzası ona həm bu dünyada verilir, həm də Axirətdə (29-cu hədisin qeydlərinə bax).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Burada bu hədisin mətni "movquf" isnadla rəvayət edilmiş olsa da, başqa hədis mənbələrində "mərfu" isnadla, yəni Əbu Hureyrədən, o da, Peyğəmbərdən ﷺ rəvayət edilmişdir (Səhih İbn Hibban, 1848; Hilyətul-Ovliya, 4/99; Silsilətul-Əhadisis-Səhihə, 33).

[4] Bu əməl başqasının haqqına girmək, fəslin ünvanına uyğun desək, təcavüz sayılır. Muhəmməd ibn Hibban əl-Busti demişdir: "Ağlı olan adam insanların eyiblərini araşdırmaz, əksinə, öz eyiblərini islah etməklə məşğul olar. Çünki kim başqalarının eyiblərini yox, öz eyiblərini islah etməklə məşğul olarsa, canını rahat edər, qəlbini də yormaz. Hər dəfə özünün bir eybi yadına düşdükdə qardaşının eybini yaddan çıxardar. Öz eyiblərini deyil, başqalarının eyiblərini arayıb araşdıranların isə qəlbi kor olar, canı təngə gələr və öz eyiblərindən yaxa qurtara bilməz" (Rovdətul-Uqəla və Nuzhətul-Fudəla, 1/125); o yenə demişdir: "Yaxşı zənn etmək imanın bir şöbəsi olduğu kimi, casusluq etmək də nifa-

Əbu Ubeyd demişdir: “Tir: yoğun və böyük bir ağac parçadır.”

**٥٩٣-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا الْخَلِيلُ بْنُ أَحْمَدَ قَالَ: حَدَّثَنَا الْمُسْتَنِيرُ بْنُ أَخْضَرَ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ بْنُ قُرَّةَ قَالَ: كُنْتُ مَعَ مَعْقِلٍ الْمُزَنِيِّ، فَأَمَاطَ أَذًى عَنِ الطَّرِيقِ، فَرَأَيْتُ شَيْئًا فَبَادَرْتُهُ، فَقَالَ: مَا حَمَلَكَ عَلَى مَا صَنَعْتَ يَا ابْنَ أَخِي؟ قَالَ: رَأَيْتُكَ تَصْنَعُ شَيْئًا فَصَنَعْتُهُ، فَقَالَ: أَحْسَنْتَ يَا ابْنَ أَخِي، سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنْ أَمَاطَ أَذًى عَنْ طَرِيقِ الْمُسْلِمِينَ كُتِبَ لَهُ حَسَنَةٌ، وَمَنْ تُقُبِّلَتْ لَهُ حَسَنَةٌ دَخَلَ الْجَنَّةَ)).

**(593)** ........ Muaviyə ibn Qurra demişdir: “(Bir dəfə) mən Mə'qil əl-Muzəni ilə bir yerdə yol gedərkən o, (insanlara) əziyyət verən bir şeyi yoldan kənarlaşdırdı.[1] Sonra mən də (yolda) bir şey gördüm və dərhal onu (götürüb) yoldan kənara atdım. (Mə'qil) soruşdu: “Belə etməyə səni vadar edən nədir, qardaş oğlu?” Mən dedim: “Sənin belə etdiyini gördüm deyə, mən də belə etdim.” O, dedi: “Yaxşı iş gördün, qardaş oğlu! Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: “Kim[2] müsəlmanların yolundan əziyyət verən bir şeyi kənar edərsə, ona bir savab yazılar. Kimin də savabı qəbul olunarsa, Cənnətə daxil olar.”[3]

---

qın bir şöbəsidir. Odur ki, ağıllı adam (mömin) qardaşları barədə ancaq yaxşı zənn edər, bununla yanaşı, öz səhvləri haqqında düşünər və kədərlənər. Cahil isə qardaşları barədə pis zənnə qapılar, üstəlik, özündəki nöqsanlar barədə əsla düşünməz və kədərlənməz” (Rovdətul-Uqəla və Nuzhətul-Fudəla, 1/126).

[1] İslam alimləri bunu “öz əməli ilə başqalarını yaxşı işlər görməyə dəvət etmək” adlandırırlar.

[2] Burada “kim” deyildikdə, tövhid əhli nəzərdə tutulur. Əziyyət verən şeyləri yoldan kənarlaşdırıb-kənarlaşdırmamaq xüsusunda insanlar üç sinifə bölünürlər (228-ci hədisin qeydlərinə bax).

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir.

## ٢٦٩- بَابُ قَبُولِ الْهَدِيَّةِ

## 269-cu fəsil. Hədiyyəni qəbul etmək

٥٩٤- حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا ضِمَامُ بْنُ إِسْمَاعِيلَ قَالَ: سَمِعْتُ مُوسَى بْنَ وَرْدَانَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ يَقُولُ: ((تَهَادُوا تَحَابُّوا)).

**(594)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir-birinizə hədiyyə verin ki, bir-birinizi sevəsiniz.[1]"[2]

٥٩٥- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ ثَابِتٍ قَالَ: كَانَ أَنَسٌ يَقُولُ: يَا بَنِيَّ، تَبَاذَلُوا بَيْنَكُمْ، فَإِنَّهُ أَوَدُّ لِمَا بَيْنَكُمْ.

**(595)** ........ Sabit rəvayət edir ki, Ənəs deyərdi: "Ey övladlarım, malınızdan bir-birinizə xərcləyin.[3] Çünki bu, aranızdakı məhəbbətin *artması üçün edilən işlərin* ən yaxşısıdır"[4]

---

[1] Hədiyyə vermək müsəlmanlar arasında olan məhəbbəti artırır və qardaşlıq münasibətlərini bir az da möhkəmləndirir. Elə buna görə də Peyğəmbər ﷺ həm hədiyyə verməyi, həm də hədiyyə qəbul etməyi xoşlayardı. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbərin ﷺ dövründə səhrada yaşayan Zahir adlı bir bədəvi var idi. Bu adam *vaxtaşırı* səhradan Peyğəmbərə ﷺ hədiyyələr gətirər, sonra da *öz işlərini görüb evinə* qayıtmaq istədiyi vaxt Peyğəmbər ﷺ *şəhərdəki şeylərdən* ona hədiyyələr verərdi. Peyğəmbər ﷺ deyərdi: "Zahir bizim səhramız, biz də onun şəhəriyik" (Şəmailun-Nəbi, 239). Səhabələr də hədiyyə verməyi xoşlayardılar. Hətta Peyğəmbərin ﷺ hədisini danışmağı belə hədiyyə hesab edərdilər. Rəvayət edilir ki, Abdur-Rəhman ibn Əbu Leyla demişdir: "*Bir dəfə* Kəb ibn Ucra mənə rast gəldi və dedi: "Sənə hədiyyə edimmi?! *Bir gün* Peyğəmbər ﷺ bizim yanımıza gəldi və biz *ondan*: "*Ya Rəsulullah,* Biz sənə salamı necə verməyi bilirik. Bəs, sənə salavatı necə gətirək?"– deyə soruşduq. Peyğəmbər ﷺ buyurdu: "Deyin: "Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə innəkə həmidun məcid!" (Səhih Buxari, 6357; Səhih Muslim, 908). Həmçinin, qeyd edək ki, yaxşılığın əvəzini vermək özü də bir yaxşılıqdır (215-ci və 216-cı hədislərə, habelə, bu hədislərin qeydlərinə bax).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

[3] Hədiyyə vermək də buna aiddir. Bundan aydın olur ki, valideyn övladlarının mehriban və əl-bir olması üçün daim onlara gözəl nəsihətlər etməlidir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٧٠- بَابُ مَنْ لَمْ يَقْبَلِ الْهَدِيَّةَ لَمَّا دَخَلَ الْبُغْضُ فِي النَّاسِ

## 270-ci fəsil. Qəzəbləndiyi kimsədən hədiyyəni qəbul etməyən kəs[1]

---

[1] Bəzi hədiyyələri qəbul etmək və ya vermək bəzən qadağan hesab olunur. Buna Peyğəmbərin ﷺ bu sözlərini misal göstərmək olar: "Məmurlara hədiyyə vermək, əmanətə xəyanətdir" (Musnəd Əhməd, 5/424; Səhih əl-Cami, 7021). Əmanətə xəyanət edən kəs Allahın hüzurunda buna görə cavab verəcək. Uca Allah buyurur: **"Əmanətə xəyanət edən kimsə Qiyamət günü xəyanət etdiyi şeylə gələr"** (Ali-İmran, 161). Həmçinin, hədislərin birində rəvayət edilir ki, Əbu Hureyrə ؓ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ bizim aramızda ayağa qalxıb əmanətə xəyanət etmək barəsində danışdı, bunun olduqca böyük günah olduğunu vurğulayıb dedi: "Qiyamət günü heç biriniz boynunda mələyən bir qoyunla və ya kişnəyən bir atla gəlib deməsin ki: "Ya Rəsulullah, mənə yardım et!" Mən *cavabımda ona*: "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən *Allahın hökmünü* sənə təbliğ etmişdim"– deyəcəyəm. Yaxud boynunda nərildəyən bir dəvə ilə gəlib deməsin ki: "Ya Rəsulullah, mənə yardım et!" Mən *cavabımda ona*: "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən sənə təbliğ etmişdim"– deyəcəyəm. Yaxud boynunda qızıl və gümüşlə gəlib deməsin ki: "Ya Rəsulullah, mənə yardım et!" Mən *cavabımda ona*: "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən sənə təbliğ etmişdim"– deyəcəyəm. Yaxud boynunda parıldayan bir paltarla gəlib deməsin ki: "Ya Rəsulullah, mənə yardım et!" Mən *cavabımda ona*: "Sənə heç bir şeylə yardım edə bilmərəm. Mən sənə təbliğ etmişdim"– deyəcəyəm" (Səhih əl-Buxari, 3073); başqa bir hədisdə Əbu Humeyd əs-Saidi ؓ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ Əsəd qəbiləsindən İbn Lutbiyyə deyilən birisini zəkat yığmağa göndərdi. O, *zəkat mallarını yığıb* geri qayıtdıqda dedi: "Bu, sizindir, bu da, mənim, bunu mənə hədiyyə ediblər." Onda, Rəsulullah ﷺ minbərə qalxıb Allaha həmd-sənalar etdikdən və Ona təriflər dedikdən sonra belə buyurdu: "*Zəkat mallarını yığmağa* göndərdiyim işçiyə nə olub ki, o: "Bu sizindir, bunu isə mənə hədiyyə veriblər"– deyir. Qoy o, atasının və ya anasının evində *işsiz* otursun və baxsın görsün, ona hədiyyə verəcəklər, ya yox?! Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, sizlərdən hansı biriniz bundan bir şey götürərsə, Qiyamət günü həmin şeylə – boynunda nərildəyən bir dəvə, yaxud böyürən bir inək, yaxud da mələyən bir qoyunla gələr." Sonra o, əllərini göyə qaldırdı, hətta biz onun qoltuğunun ağlığını gördük. Və iki kərə dedi: "Allahım, təbliğ etdimmi?" (Səhih Buxari, 6636; Səhih Muslim, 4843).

٥٩٦- حَدَّثَنَا أَحْمَدُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: أَهْدَى رَجُلٌ مِنْ بَنِي فَزَارَةَ لِلنَّبِيِّ ﷺ نَاقَةً، فَعَوَّضَهُ، فَتَسَخَّطَهُ، فَسَمِعْتُ النَّبِيَّ ﷺ عَلَى الْمِنْبَرِ يَقُولُ: ((يُهْدِي أَحَدُهُمْ فَأُعَوِّضُهُ بِقَدْرِ مَا عِنْدِي، ثُمَّ يَسْخَطُهُ وَايْمُ اللَّهِ، لاَ أَقْبَلُ بَعْدَ عَامِي هَذَا مِنَ الْعَرَبِ هَدِيَّةً إِلاَّ مِنْ قُرَشِيٍّ، أَوْ أَنْصَارِيٍّ، أَوْ ثَقَفِيٍّ، أَوْ دَوْسِيٍّ)).

**(596)** ........ Əbu Hureyrə ﷺ demişdir: “Fəzara qəbiləsindən olan bir kişi Peyğəmbərə ﷺ bir dişi dəvə hədiyyə verdi. Peyğəmbər ﷺ də ona bunun əvəzini verdi.[1] Lakin bu, o adamı qəzəbləndirdi.[2] Mən Peyğəmbərin ﷺ minbərə qalxıb belə dediyini eşitdim: “Sizdən biriniz mənə hədiyyə verdikdə, imkanım daxilində ona bunun əvəzini verirəm. (Lakin bu) onu qəzəbləndirir. Vallahi ki, bu ildən etibarən mən ərəblərdən hədiyyə qəbul etməyəcəyəm. Yalnız qureyşlilərdən, ənsardan, səqəflilərdən və dövslilərdən başqa.[3]”[4]

---

[1] Bəzi rəvayətlərdə deyilir: “Peyğəmbər ﷺ buna əvəz olaraq ona altı cavan dişi dəvə verdi” (Sunən ət-Tirmizi, 3945; Musnəd Əhməd, 2/292; Səhih ət-Tirmizi, 3091).

[2] Bundan aydın olur ki, adam bu hədiyyəni qardaşlıq sevgisindən dolayı, Allah rizasını qazanmaq üçün yox, daha çox əvəz almaq üçün etmişdir. Elə buna görə də, Peyğəmbərin ﷺ ona hədiyyə verdiyi dəvələr onu qane etməmişdir. Allah rizası üçün hədiyyə vermiş adam onun əvəzini almasa belə əsla qəzəblənməz.

[3] Peyğəmbər ﷺ qureyşlilərin, ənsarın, səqəflilərin və dövslilərin səxavətli insanlar olduğunu bilirdi deyə, onları istisna etdi.

[4] Bu hədisi Tirmizi (2/330) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٢٧١– بَابُ الْحَيَاءِ

## 271-ci fəsil. Həyalı olmaq[1]

٥٩٧– حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنَا مَنْصُورٌ، عَنْ رِبْعِيِّ بْنِ حِرَاشٍ قَالَ: حَدَّثَنَا أَبُو مَسْعُودٍ عُقْبَةُ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ مِمَّا أَدْرَكَ النَّاسَ مِنْ كَلَامِ النُّبُوَّةِ: إِذَا لَمْ تَسْتَحِ فَاصْنَعْ مَا شِئْتَ)).

**(597)** ........ Əbu Məsud ﷺ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: "İlk peyğəmbərlik kəlamından[3] insanların yadında qalan (və zamanımıza qədər gəlib çatan) söz (belədir): "Utanmırsansa, istədiyini et.[4]"

---

[1] Həya: abır, ar, ismət, namus, utanma hissidir. Həya insanı yaxşı işlər görməyə təşviq edən və pis əməllərdən çəkindirən əxlaqdır. Həyanın yeri qəlbdir və o, imandandır. Həya adamda ya əvvəlcədən yaranır, ya da o, bu gözəl xislətə təcrübə ilə yiyələnir (584-cü hədisə və onun qeydlərinə bax). Ən əzəmətli, ən vacib və ən əhəmiyyətli həya, aləmlərin Rəbbi olan, bütün məxluqatı və kainatı yaradan, hər şeyi Eşidən, hər şeyi Görən və hər şeyi Bilən, xain gözlərin və kökslərini gizlətdiklərindən Xəbəri olan Əzəmətli Allahdan utanmaqdır. Bu xüsusda rəvayət edilmiş hədisdə Abdullah ibn Məsud ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ bizə: "Allahdan layiqincə həya edin!"– deyə buyurdu. Biz dedik: "Ya Rəsulullah! Allaha həmd olsun ki, biz Ondan həya edirik." O, dedi: "Mən bunu qəsd etmirəm. Lakin Allahdan layiqincə həya etmək budur ki, başını və başında olanları (dilini, gözünü, qulağını, saqqalını, hicabını və s.) qoruyasan, habelə, bətnini və onun ətrafındakıları (qəlbini, əlini, ayağını, cinsiyyət üzvlərini və s. haramlardan) qoruyasan. Üstəlik, öləcəyini və *qəbirdə* çürüyəcəyini xatırlayasan. Axirəti (qazanmaq) istəyən adam dünyanın bər-bəzəyini tərk edər. Bunları edən kimsə Allahdan layiqincə həya etmiş olar" (Sunən ət-Tirmizi, 2458; Musnəd Əhməd, 1/387; Səhih əl-Cami, 937).

[2] Bu hədisi Buxari (6120) və Əhməd (4/121; 5/273 və 383) rəvayət etmişdir.

[3] Bu, o deməkdir ki, peyğəmbərlərin hamısının şəriətində həya, tərifəlayiq gözəl xislət hesab edilmişdir.

[4] Bu söz iki cür izah edilə bilər:

– birincisi budur ki, bu kəlmə əmr formasında işlənib təhdid mənasını ifadə edir və olduğu kimi qəbul olunmur. Necə ki, Quranda Uca Allah buyurur: **"Sözsüz ki, ayələrimizdən üz döndərənlər Bizdən gizli qalmazlar. Onda *deyin görək* oda atılan kimsə**

**٥٩٨-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ دِينَارٍ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الإِيمَانُ بِضْعٌ وَسِتُّونَ، أَوْ بِضْعٌ وَسَبْعُونَ شُعْبَةً، أَفْضَلُهَا لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَأَدْنَاهَا إِمَاطَةُ الأَذَى عَنِ الطَّرِيقِ، وَالْحَيَاءُ شُعْبَةٌ مِنَ الإِيمَانِ)).

**(598)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ demişdir: "İman altmış və bir neçə yaxud yetmiş və bir neçə şöbədən ibarətdir.[2]

---

**yaxşıdır, yoxsa Qiyamət gününə əmin-amanlıq içində gələn kimsə? İstədiyinizi edin! Həqiqətən, O, nə etdiklərinizi görür"** (Fussilət, 40). Bu ayədə "istədiyinizi edin" əmri təhdid mənasında işlənir. Çünki onlara pis əməllərinin aqibəti barədə artıq xəbərdarlıq edilmişdir.

– ikincisi də budur ki, həya ediləsi işdə həya etmirsənsə, istədiyini et, çünki həya imandandır. Bu izahların hər ikisi səhihdir (Şərh əl-Arbain).

[1] Bu hədisi Buxari (9), Muslim (152), Əbu Davud (4676), Nəsai (4918) və İbn Macə (57) rəvayət etmişdir.

[2] Bu hədis olduqca əzəmətli hədisdir. Bir çox alimlər bu hədisin şərhinə dair ayrıca kitablar yazmışlar. Bu kitabların ən böyüyü Beyhəqinin yazdığı "Şoəbul-İman" əsəridir ki, bu kitab doqquz cilddən ibarətdir. Bu hədisə layiqli xidmət göstərənlərdən biri də Əbu Hatim Muhəmməd ibn Hibban əl-Busti olmuşdur. O, demişdir: "Mən bu hədisi – "İman altmış və bir neçə yaxud yetmiş və bir neçə şöbədən ibarətdir" hədisini oxuduqdan sonra imanın şöbələrini toplamağa başladım. Mən hədis kitablarında olan itaətlə bağlı hədislərin hamısını bir yerə cəm etdim və baxdım ki, Allahın və Onun Rəsulunun ﷺ itaətlə bağlı buyuruqları yetmişdən çoxdur. Sonra Peyğəmbərin ﷺ hədislərini bir daha araşdırdım və bunların arasından itaətlə bağlı olan və Rəsulullahın ﷺ imandan saydığı hər bir hədisi ayırdım. Beləliklə də, cəm etdiyim hədislərin sayı yetmişdən az oldu. Bundan sonra mən Allahın kitabına nəzər saldım və Uca Allahın imandan saydığı itaətlə bağlı ayələri bir yerə toplamaq üçün Onun ayələrini ayəbaayə diqqətlə oxudum. Yenə topladığım bu dəlillərin sayı yetmişi keçmədi. Sonra mən Qurandan və Sünnədən topladığım dəlilləri bir yerə cəm etdim, sonra da təkrar olunanlarını sildim. Beləcə, bunların sayı yetmiş doqquzdan nə çox, nə də az oldu. İbn Hibban bunların hamısını "Vəsful-İman və Şoəbuhu" adlı kitabında zikr etmişdir" (Şərh ən-Nəvəvi). Qeyd edək ki, bu kitab sonralar it-bat olmuşdur. İbn Həcər əl-Əsqəlani bu hədisi izah edərkən demişdir: "Alimlərin bu xüsusda söylədiklərini bir araya gətirərək imanın şöbələrini aşağıdakı şəkildə açıqlayıram; bu şöbələr qəlbin, dilin və bədənin əməlləri olaraq üç qismə bölünür:

**I. Qəlbin əməlləri:** qəlbə aid olan əməllər etiqad və niyyətlə bağlı xüsusları əhatə edir. Bu qismə iyirmi dörd xislət aiddir:

1. Allaha iman gətirmək. Allahın zatına, sifətlərinə, Tək olduğuna, Onun heç bir bənzəri olmadığına, Ondan başqa hər bir şeyin yaradılmış olduğuna iman gətirmək də buna aiddir;

2. Mələklərə iman gətirmək;

3. (Allahın nazil etdiyi) kitablara iman gətirmək;

4. (Allahın göndərdiyi) peyğəmbərlərə iman gətirmək;

5. Qədərə – xeyir və şərin Allahdan olmasına iman gətirmək;

6. Axirət gününə iman gətirmək. Qəbirdə sorğu-sual olunmağa, öldükdən sonra dirilməyə, məhşərə toplanmağa, haqq-hesaba çəkilməyə, tərəziyə, qıl körpüsünə, Cənnət və Cəhənnəmə iman gətirmək də buna aiddir.

7. Allahı sevmək;

8. Allah üçün sevmək və Allah üçün qəzəblənmək;

9. Muhəmməd Peyğəmbəri ﷺ sevmək və onun böyüklüyünü qəbul etmək. Peyğəmbərə ﷺ salavat gətirmək və onun yolunu tutub getmək də buna aiddir;

10. İxlas. Riyanı və nifaqı tərk etmək də buna aiddir;

11. Tövbə etmək;

12. (Allahdan) qorxmaq;

13. (Allahın mərhəmətinə) ümid bəsləmək;

14. Şükür etmək;

15. Vəfalı olmaq;

16. Səbir etmək;

17. Qəzavü-qədərə razı qalmaq;

18. (Allaha) təvəkkül etmək;

19. Rəhmli olmaq;

20. Təvazökar olmaq. Böyüyə hörmət etmək və kiçiyə mərhəmət göstərmək də buna aiddir;

21. Təkəbbürlü olmaqdan və özünü bəyənməkdən çəkinmək;

22. Həsəd və paxıllıqdan həzər etmək;

23. Kin saxlamamaq;

24. Qəzəblənməmək.

**II. Dilin əməlləri.** İmanın bu qismi yeddi növdür:

1. Tövhid kəlməsini tələffüz etmək;

2. Quran oxumaq;

3. (Faydalı) elm öyrənmək;

4. (Faydalı) elm öyrətmək;

5. Dua etmək;

6. Zikr etmək. Allahdan bağışlanma diləmək də buna aiddir;

7. Boş sözlər danışmaqdan çəkinmək.

**III. Bədənin əməlləri.** İmanın bu qismi otuz səkkiz növdür:

a) Bunlardan on beşi insanın şəxsən özünə aiddir:

1. Zahirən və batinən təmizlənmək. Murdar şeylərdən təmizlənmək də buna aiddir;

2. Ayıb yerləri örtmək;

3. Fərz və nafilə namazlarını qılmaq;

4. Zəkat vermək;

5. Qul azad etmək;

6. Comərd olmaq (Allah yolunda) yemək vermək və qonağa hörmət etmək də buna aiddir;

7. Fərz və nafilə oruclarını tutmaq;

8. Həcc və ümrə ziyarətlərini yerinə yetirmək;

9. Kəbəni təvaf etmək;

10. Etikaf etmək (Ramazan ayının axırıncı on gününü məsciddə qalmaq);

11. Qədr gecəsini axtarmaq;

12. Dinini fitnələrdən qorumaq. Allaha şərik qoşulan diyardan hicrət etmək də buna aiddir.

13. Nəzir etdikdə, onu yerinə yetirmək;

14. Andları pozmamaq;

15. Kəffarələri (günahın bağışlanılması üçün şəriətin buyurduğu qaydada müəyyən edilmiş müəyyən cəriməni) ödəmək.

b) Bunlardan altısı isə insanın tabeçiliyində olanlara qarşı münasibətdə yerinə yetirməsi gərəkli olan əməllərdir:

16. Evlənmək vasitəsilə iffəti qorumaq;

17. Ailəni dolandırmaq;

18. Valideynlərin qayğısına qalmaq və onlara asi olmamaq;

19. Uşaqları tərbiyə etmək;

20. Qohumluq əlaqələrini möhkəmləndirmək;

(Bunların) ən əfzəli "lə ilahə illəllah",[1] ən aşağı dərəcədə olanı isə yoldan əziyyət verən şeyi götürməkdir. Həya da imanın şöbələrindəndir."

---

21. Ağaya itaət etmək, habelə, kölələrlə mülayim rəftar etmək.

c) Bunlardan on yeddisi isə topluma qarşı yerinə yetirilməsi gərəkli olan əməllərdir:

22. Ədalətlə hökm vermək;

23. İxtiyar sahiblərinə itaət etmək;

24. İnsanların arasını düzəltmək. Xəvariclərlə, habelə, yolunu azmış digər firqələrlə mübarizə aparmaq da buna aiddir;

25. Xeyirxah işlərdə bir-birinə yardım etmək. Yaxşılığı əmr etmək və pis işlərdən çəkindirmək də buna aiddir;

26. Şəriətin qoyduğu cəzaları yerinə yetirmək;

27. Cihad etmək (İslam ölkəsinin) sərhədlərini qorumaq da buna aiddir;

28. Əmanətə xəyanət etməmək. Əldə edilmiş qənimətlərin beşdə birini beytülmala qoymaq da buna aiddir;

29. Borc vermək, habelə, borc aldıqda onu qaytarmaq;

30. Qonşuya yaxşılıq etmək;

31. İnsanlarla gözəl rəftar etmək;

32. Halal yolla var-dövlət qazanmaq və bunu lazımi yerlərə, *faydalı işlərə* xərcləmək;

33. İsraf etməmək;

34. Verilən salamı almaq;

35. Asqırıb "əlhəmdulilləh" deyənə "yərhəmukəllah" demək;

36. İnsanlara əziyyət verməmək;

37. Boş söhbətlərdən və faydasız işlərdən qaçmaq;

38. Əziyyət verən bir şeyi yoldan kənar etmək.

Bunların cəmi altmış doqquz edir. Lakin yuxarıda iki-iki zikr edilmiş xislətləri tək-tək sadalamaqla onların sayını yetmiş doqquza çatdırmaq mümkündür (Fəthul-Bari, 1/73-74).

[1] Bu kəlməni qəlb ilə təsdiqləmək, dil ilə tələffüz etmək və bədən əzaları ilə onun tələblərini yerinə yetirmək imandandır. Yəni "Lə ilahə illəllah, Muhəmmədun Rəsulullah" deyən adam bunu təkcə dili ilə deyil, qəlbi ilə də Allahdan başqa ibadətə layiq məbudun olmadığına və Muhəmmədin ﷺ Onun rəsulu olduğuna etiqad etməli, Allahın və Onun rəsulunun buyuruqlarını yerinə yetirməli və qadağan etdikləri əməllərdən çəkinməlidir.

Bu hədisdən o da aydın olur ki, imanın ayrı-ayrı dərəcələri vardır. Peyğəmbərin ﷺ: "Bunların ən əfzəli "lə ilahə illəllah", ən aşağı dərəcədə olanı isə yoldan əziyyət verən şe-

**٥٩٩**- حَدَّثَنَا عَلِيُّ بْنُ الْجَعْدِ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُبَيْدِ اللَّهِ بْنِ أَبِي عُتْبَةَ مَوْلَى أَنَسٍ قَالَ: سَمِعْتُ أَبَا سَعِيدٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ أَشَدَّ حَيَاءً مِنَ الْعَذْرَاءِ فِي خِدْرِهَا، وَكَانَ إِذَا كَرِهَ شَيْئًا عَرَفْنَاهُ فِي وَجْهِهِ.

**(599)** ........ Əbu Səid əl-Xudri ﷠ demişdir: "Peyğəmbər ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi. Nə isə xoşuna gəlmədikdə, bunu onun üzündən anlayardıq.[1]

**(...)**- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا يَحْيَى، وَابْنُ مَهْدِيٍّ، قَالاَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِي عُتْبَةَ مَوْلَى أَنَسِ بْنِ مَالِكٍ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ مِثْلَهُ.

قَالَ أَبُو عَبْدِ اللَّهِ: وَقَالَ غُنْدَرٌ وَابْنُ أَبِي عَدِيٍّ: مَوْلَى أَنَسٍ.

**(...)** Muhəmməd ibn Bəşşar bizə demişdir: "Yəhya və İbn Məhdi bizə belə rəvayət etmişdir: "Bizə Şobə Qətadədən, o da, Ənəs ibn Malikin mövlası[2] Abdullah ibn Əbu Utbədən, o da, Əbu Səid əl-Xudridən bu hədisin bənzərini rəvayət etmişdir."

Əbu Abdullah demişdir: "Ğundər və İbn Əbu Ədiy: "Ənəsin mövlası"– demişlər.

---

yi götürməkdir" sözü buna dələlət edir. Məgər "lə ilahə illəllah"ı tərk edən kimsə ilə, yoldan əziyyət verən bir şeyi kənar etməyən kimsə eyni dərəcədədirmi?! Əlbəttə ki, yox. Odur ki, İslam alimləri imanı dərəcə və savab baxımından üç qismə bölürlər:

– birincisi budur ki, onu tərk etmək imanı tamamilə puç edir. Buna da "lə ilahə illəllah"ı tələffüz etməyi və onu qəlbən təsdiqləməyi tərk etməyi misal çəkmək olar.

– ikincisi budur ki, onu tərk etmək vacib imanın kamilliyini aparır. Buna tərk olunması şirk və küfr sayılmayan, vacib bir əməli tərk etməyi misal çəkmək olar.

– üçüncüsü budur ki, onu tərk etmək müstəhəb imanın kamilliyini aparır. Buna da yoldan əziyyət verən bir şeyi kənar etməməyi misal çəkmək olar.

Bundan da aydın olur ki, birinci qismi tərk edən adam kafir sayılır, ikincisini tərk edənin vacib imanı azalır, üçüncüsünü tərk edənin də müstəhəb imanı azalır.

[1] 467-ci hədisə və onun qeydlərinə bax.

[2] 39-cu fəslin qeydlərinə bax.

٦٠٠- حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنْ صَالِحٍ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي يَحْيَى بْنُ سَعِيدِ بْنِ الْعَاصِ، أَنَّ سَعِيدَ بْنَ الْعَاصِ أَخْبَرَهُ، أَنَّ عُثْمَانَ وَعَائِشَةَ، حَدَّثَاهُ، أَنَّ أَبَا بَكْرٍ اسْتَأْذَنَ عَلَى رَسُولِ اللَّهِ ﷺ، وَهُوَ مُضْطَجِعٌ عَلَى فِرَاشِ عَائِشَةَ لَابِسًا مِرْطَ عَائِشَةَ، فَأَذِنَ لِأَبِي بَكْرٍ وَهُوَ كَذَلِكَ، فَقَضَى إِلَيْهِ حَاجَتَهُ، ثُمَّ انْصَرَفَ. ثُمَّ اسْتَأْذَنَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ، فَأَذِنَ لَهُ وَهُوَ كَذَلِكَ، فَقَضَى إِلَيْهِ حَاجَتَهُ، ثُمَّ انْصَرَفَ. قَالَ عُثْمَانُ: ثُمَّ اسْتَأْذَنْتُ عَلَيْهِ، فَجَلَسَ وَقَالَ لِعَائِشَةَ: ((اجْمَعِي إِلَيْكِ ثِيَابَكِ))، قَالَ: فَقَضَيْتُ إِلَيْهِ حَاجَتِي، ثُمَّ انْصَرَفْتُ، قَالَ: فَقَالَتْ عَائِشَةُ: يَا رَسُولَ اللَّهِ، لَمْ أَرَكَ فَزِعْتَ لِأَبِي بَكْرٍ وَعُمَرَ رَضِيَ اللَّهُ عَنْهُمَا كَمَا فَزِعْتَ لِعُثْمَانَ؟ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ عُثْمَانَ رَجُلٌ حَيِيٌّ، وَإِنِّي خَشِيتُ إِنْ أَذِنْتُ لَهُ، وَأَنَا عَلَى تِلْكَ الْحَالِ، أَنْ لَا يَبْلُغَ إِلَيَّ فِي حَاجَتِهِ)).

**(600)** ........ Osman ﷺ və Aişə ﷺ belə rəvayət etmişlər: "Rəsulullah ﷺ Aişənin yatağında dirsəklənib, üstünə də Aişənin əbasını örtmüş olduğu halda Əbu Bəkr Rəsulullahın ﷺ yanına girmək üçün izin istədi. Rəsulullah ﷺ elə o vəziyyətdə də ona izin verdi. Əbu Bəkr sözünü deyib çıxıb getdi. Sonra Ömər ﷺ *içəri girmək üçün* izin istədi. Rəsulullah ﷺ həmin vəziyyətdə ona izin verdi. Ömər də sözünü deyib çıxıb getdi."

Osman dedi: "Sonra mən izin istədim. Onda o, qalxıb oturdu və Aişəyə: "Əbanı yığışdır"– dedi. Mən sözümü deyib çıxıb getdim." Aişə dedi: "Ya Rəsulullah, Osmandan ehtiyat etdiyin kimi, heç Əbu Bəkr və Ömərdən ﷺ ehtiyat etmədin?" Rəsulullah ﷺ dedi: "Osman çox həyalı adamdır.[1] Mən qorxdum ki, bu vəziyyətdə ona izin versəm, istədiyini mənə deməsin."[2]

---

[1] Bu hədis insanlarda olan həya dərəcəsinin fərqli olduğuna dəlalət edir. Xüsusilə qeyd etmək lazımdır ki, bu hədis Osmanın ﷺ Əbu Bəkr ﷺ və Ömərdən ﷺ daha fəzilətli olduğuna dəlalət etmir. Sadəcə olaraq onun bu əxlaqi cəhəti digər səhabələrdən üstün olmuşdur. Peyğəmbər ﷺ onun bu gözəl xislətini tərif edib demişdir: "Ümmətimin ən həyalısı Osmandır" (Səhih əl-Cami, 3198).

[2] Bu hədisi Muslim (2402) və Əhməd (1/71; 6/155) rəvayət etmişdir.

٦٠١– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، عَنْ مَعْمَرٍ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، عَنْ أَنَسِ ابْنِ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا كَانَ الْحَيَاءُ فِي شَيْءٍ إِلاَّ زَانَهُ، وَلاَ كَانَ الْفُحْشُ فِي شَيْءٍ إِلا شَانَهُ)).

**(601)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Hansı) bir şeydə[1] həya olarsa, onu ancaq gözəlləşdirər. Və (hansı) bir şeydə ədəbsizlik olarsa, onu ancaq alçaldar."[2]

٦٠٢– حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ سَالِمٍ، عَنْ أَبِيهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ بِرَجُلٍ يَعِظُ أَخَاهُ فِي الْحَيَاءِ، فَقَالَ: ((دَعْهُ، فَإِنَّ الْحَيَاءَ مِنَ الإِيمَانِ)).

**(602)** ........ Salimin atası[3] demişdir: "Rəsulullah ﷺ, (ənsardan olan) qardaşına (həddən ziyadə) həyalı olmamağı[4] nəsihət edən bir adamın (yanından keçərkən ona) demişdir: "Onunla işin olmasın! Həqiqətən, həya imandandır.[5]"[6]

(...)– حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ سَالِمٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: مَرَّ النَّبِيُّ ﷺ عَلَى رَجُلٍ يُعَاتِبُ أَخَاهُ فِي الْحَيَاءِ، كَأَنَّهُ يَقُولُ: أَضَرَّ بِكَ، فَقَالَ: ((دَعْهُ، فَإِنَّ الْحَيَاءَ مِنَ الإِيمَانِ)).

**(...)** ........ İbn Ömər ﷺ demişdir: "Peyğəmbər ﷺ, qardaşını (həddən ziyadə) həyalı olduğuna görə qınayıb: "Bu sənə xələl gətirir"– deyən bir

---

[1] Teybi demişdir: "Burada "hansı bir şey" deyilməsi mübaliğədir. Yəni, əgər həya və ya ədəbsizlik cansız əşyalara təsir edib onu gözəlləşdirər və ya alçaldarsa, bəs insanda olsa necə olar?!" (Tohfətul-Əhvəzi).

[2] Bu hədisi Tirmizi (1974) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Burada söhbət Abdullah ibn Ömərdən ﷺ gedir.

[4] Həmin vaxt o adam mömin qardaşına həddən ziyadə həyalı olmağın nə cür fəsadlar törədəcəyini başa salırdı.

[5] Peyğəmbər ﷺ ona mömin qardaşını bu gözəl tərifəlayiq əxlaqdan çəkindirməməyi buyurur (584-cü hədisin qeydlərinə bax).

[6] Bu hədisi Buxari (24) və Muslim (154) rəvayət etmişdir.

adamın yanından keçərkən dedi: “Onunla işin olmasın! Həqiqətən, həya imandandır.”[1]

**٦٠٣–** حَدَّثَنَا أَبُو الرَّبِيعِ قَالَ: حَدَّثَنِي إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ أَبِي حَرْمَلَةَ، عَنْ عَطَاءٍ وَسُلَيْمَانَ ابْنَيْ يَسَارٍ، وَأَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، أَنَّ عَائِشَةَ قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ مُضْطَجِعًا فِي بَيْتِي، كَاشِفًا عَنْ فَخِذِهِ أَوْ سَاقَيْهِ، فَاسْتَأْذَنَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ، فَأَذِنَ لَهُ كَذَلِكَ، فَتَحَدَّثَ. ثُمَّ اسْتَأْذَنَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ، فَأَذِنَ لَهُ كَذَلِكَ، ثُمَّ تَحَدَّثَ. ثُمَّ اسْتَأْذَنَ عُثْمَانُ رَضِيَ اللَّهُ عَنْهُ، فَجَلَسَ النَّبِيُّ ﷺ وَسَوَّى ثِيَابَهُ، قَالَ مُحَمَّدٌ: وَلاَ أَقُولُ فِي يَوْمٍ وَاحِدٍ، فَدَخَلَ فَتَحَدَّثَ، فَلَمَّا خَرَجَ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، دَخَلَ أَبُو بَكْرٍ فَلَمْ تَهَشَّ وَلَمْ تُبَالِهِ، ثُمَّ دَخَلَ عُمَرُ فَلَمْ تَهَشَّ وَلَمْ تُبَالِهِ، ثُمَّ دَخَلَ عُثْمَانُ فَجَلَسْتَ وَسَوَّيْتَ ثِيَابَكَ؟ قَالَ: ((أَلاَ أَسْتَحِي مِنْ رَجُلٍ تَسْتَحِي مِنْهُ الْمَلاَئِكَةُ؟))

**(603)** ........ Aişə ﵂ demişdir: “Peyğəmbər ﷺ evimdə ikən budunun[2] və ya baldırının üstünü açıb uzanmışdı. *Elə bu vaxt* Əbu Bəkr ﵁ *içəri girmək üçün* izin istədi. Peyğəmbər ﷺ olduğu vəziyyətdə ona izin verdi və o, *gəlib*

---

[1] Bu hədisi Buxari öz “Səhih”ində (6118) rəvayət etmişdir.

[2] Şeyx Albani demişdir: “Bil ki, Peyğəmbərdən ﷺ: “Bud, ayıb yerlərinə aiddir” hədisi “səhih” isnadla varid olmuşdur (Sunən Əbu Davud 4014; Səhih əl-Cami, 4157). Hədis “İrvaul-Ğəlil” əsərində (66) zikr olunub. Fəsildəki hədis bəzi adamları çaş-baş salmış və onlar bu hədisi (yəni ayıb yeri sayılan budu örtməyi) tərk etmişlər. Bu da, elm əhlinin vacib saydığı – zahirən bir-birinə zidd olan “səhih” hədisləri cəm etmək məsələsinə müxalifdir. Fəsildəki hədislə bu hədisi isə iki yöndən cəm etmək olar: əvvəla, demək olar ki, fəsildəki hədisdə zikr olunmuş hadisə, Peyğəmbər ﷺ: “Bud, ayıb yerlərinə aiddir” sözündən öncə baş vermişdir. İkinci yönü də budur ki, budun açılması Peyğəmbərə ﷺ xas əməllərdən hesab edilsin. Belə olduğu təqdirdə bu hədis o birisinə zidd sayılmayacaq. Şəriətin qoyduğu qayda da bunu təsdiqləyir: “(Peyğəmbərin ﷺ dediyi) söz, etdiyi əməldən öndə durur” yaxud “qadağan edən, izin verəndən öndə durur.” Daha doğrusunu Allah bilir! (Silsilətul-Əhadisis-Səhihə, 4\260). Bundan aydın olur ki, kişi xeylağının budu da ayıb yerlərinə aiddir. Ümumiyyətlə, kişi xeylağının ayıb yerləri xüsusunda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: “Göbəklə diz arasındakılar ayıb yerlər sayılır” (Mustədrək 6418; Mocəmul-Kəbir, 10520; Səhih əl-Cami, 5583).

sözünü ona dedi. Sonra Ömər ﷺ izin istədi. Peyğəmbər ﷺ elə o vəziyyətdə ona izin verdi və o, *gəlib* sözünü ona dedi. Sonra Osman ﷺ izin istədi. Onda Peyğəmbər ﷺ qalxıb oturdu və libasının ətəyini aşağı çəkdi."

Muhəmməd (ibn Əbu Hərmələ)[1] demişdir: "Bu hadisənin eyni gündə baş verdiyini deyə bilmərəm."

(Aişə ﷺ davam edib dedi:) "Osman içəri daxil olub sözünü dedi və çıxıb getdi. Mən dedim: "Ya Rəsulullah, Əbu Bəkr içəri daxil olduqda sən yerindən tərpənmədin, ona fikir vermədin. Ömər içəri daxil olduqda da sən yerindən tərpənmədin, ona fikir vermədin. Osman içəri girdikdə isə qalxıb oturdun, libasını da düzəltdin." Peyğəmbər ﷺ dedi: "Mələklərin utandığı[2] bir adamdan mən utanmayımmı?[3]"[4]

---

[1] Muhəmməd ibn Əbu Hərmələ İmam Buxarinin şeyxinin şeyxi İsmailin şeyxidir.

[2] Peyğəmbərin ﷺ bu sözü mələklərin həyalı olduqlarını isbat edir.

[3] 600-cü hədisin qeydlərinə bax.

[4] Bu hədisi Muslim (2401) rəvayət etmişdir.

## ٢٧٢- بَابُ مَا يَقُولُ إِذَا أَصْبَحَ

## 272-ci fəsil. Səhərə çıxanda nə deyilməlidir[1]

٦٠٤- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ قَالَ: حَدَّثَنَا عُمَرُ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَصْبَحَ قَالَ: ((أَصْبَحْنَا وَأَصْبَحَ الْحَمْدُ كُلُّهُ لِلَّهِ، لاَ شَرِيكَ لَهُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَإِلَيْهِ النُّشُورُ))، وَإِذَا أَمْسَى قَالَ: ((أَمْسَيْنَا وَأَمْسَى الْمُلْكُ لِلَّهِ، وَالْحَمْدُ كُلُّهُ لِلَّهِ، لاَ شَرِيكَ لَهُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَإِلَيْهِ الْمَصِيرُ)).

**(604)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ səhər olduqda deyərdi: “Səhərə çıxdıq, həmd də bütövlükdə Allaha məxsusdur. Onun şəriki yoxdur. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Qayıdış da Onadır!” Axşam olduqda isə deyərdi: “Axşama çıxdıq, həmd də bütövlükdə Allaha məxsusdur. Onun şəriki yoxdur. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Dönüş də Onadır!”[2]

---

[1] Peyğəmbər ﷺ bu ümmət üçün Allahdan xeyir-bərəkət diləyib demişdir: “Allahım, ümmətimin (hər) gününün əvvəlinə bərəkət ver!” (Sunən Əbu Davud 2606, Səhih Əbu Davud 2345); digər hədisdə o, demişdir: “Ümmətimin (hər) gününün əvvəlinə bərəkət verilmişdir!” (Səhih əl-Cami, 2841).

[2] Bu hədisin isnadında keçən Ömər ibn Əbu Sələmə əz-Zuhri “zəif” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin bu ləfz ilə “zəif” olduğunu demişdir. Lakin başqa isnadla Peyğəmbərin ﷺ səhərə çıxdıqda bu duanı etdiyi varid olmuşdur:

(( أَصْبَحْنَا وَ أَصْبَحَ الْمُلْكُ للهِ، وَالْحَمْدُ للهِ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذَا الْيَوْمِ وَخَيْرَ مَا بَعْدَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذَا الْيَوْمِ وَشَرِّ مَا بَعْدَهُ، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ ))

Transkripsiyası: Əsbəhnə və əsbəhəl-mulku lilləh, vəl-həmdulilləh. Lə ilahə illəllahu vəhdahu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Rabbi əs'əlukə xayra mə fi həzəl-yəumi və xayra mə bə'dəhu, və əuzu bikə min şərri mə fi həzəl-yəumi və şərri mə bə'dəhu. Rabbi əuzu bikə minəl-kəsəli və suil-kibəri. Rabbi əuzu bikə min əzabin fin-nari və əzabin fil-qabr.

Tərcüməsi: Səhərə çıxdıq! Mülk Allaha məxsusdur! Həmd də Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onun-

dur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir! Ey Rəbbim, Səndən bu günün xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu günün şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram!

Axşama çıxdıqda isə belə deyərdi:

(( أَمْسَيْنَا وَ أَمْسَى الْمُلْكُ لِلهِ، وَالْحَمْدُ لِلهِ، لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، رَبِّ أَسْأَلُكَ خَيْرَ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَخَيْرَ مَا بَعْدَهَا، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا فِي هَذِهِ اللَّيْلَةِ وَشَرِّ مَا بَعْدَهَا، رَبِّ أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَسُوءِ الْكِبَرِ، رَبِّ أَعُوذُ بِكَ مِنْ عَذَابٍ فِي النَّارِ وَعَذَابٍ فِي الْقَبْرِ ))

Transkripsiyası: Əmsəynə və əmsəl-mulku lilləh, vəl-həmdulilləh. Lə ilahə illəllahu vəhdahu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Rabbi əs'əlukə xayra mə fi həzihil-leylə və xayra mə bə'dəhə, və əuzu bikə min şərri mə fi həzihil-leylə və şərri mə bə'dəhə. Rabbi əuzu bikə minəl-kəsəli və suil-kibəri. Rabbi əuzu bikə min əzabin fin-nari və əzabin fil-qabr.

Tərcüməsi: Axşama çıxdıq, Mülk Allaha məxsusdur! Həmd də Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir! Ey Rəbbim, Səndən bu gecənin xeyrini və bundan sonrakı xeyri diləyirəm. Bu gecənin şərindən və bundan sonrakı şərdən Sənə sığınıram. Ey Rəbbim, tənbəllikdən və pis qocalıqdan Sənə sığınıram. Ey Rəbbim, Cəhənnəmdəki əzabdan və qəbirdəki əzabdan Sənə sığınıram! (Səhih Muslim, 4/2088).

Həmçinin, səhərə çıxdıqda deyərdi:

(( اللَّهُمَّ بِكَ أَصْبَحْنَا، وَبِكَ أَمْسَيْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ النُّشُورُ ))

Transkripsiyası: Allahummə, bikə əsbəhnə, və bikə əmsəynə, və bikə nəhyə, və bikə nəmutu, və ileykən-nuşur.

Tərcüməsi: Allahım! Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış Sənədir!

Axşama çıxdıqda isə belə deyərdi:

(( اللَّهُمَّ بِكَ أَمْسَيْنَا، وَبِكَ أَصْبَحْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ المَصِيرُ ))

Transkripsiyası: Allahummə, bikə əmsəynə, və bikə əsbəhnə, və bikə nəhyə, və bikə nəmutu, və ileykəl-məsir.

Tərcüməsi: Allahım! Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Dönüş Sənədir! (Sunən ət-Tirmizi, 5/466; Səhih ət-Tirmizi, 3/142).

# ٢٧٣– بَابُ مَنْ دَعَا فِي غَيْرِهِ مِنَ الدُّعَاءِ

## 273-cü fəsil. Başqa birisi üçün ayrıca dua edən kimsə

٦٠٥– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا عَبْدَةُ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنَا أَبُو سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ الْكَرِيمَ ابْنَ الْكَرِيمِ ابْنِ الْكَرِيمِ ابْنِ الْكَرِيمِ، يُوسُفُ بْنُ يَعْقُوبَ بْنِ إِسْحَاقَ بْنِ إِبْرَاهِيمَ خَلِيلِ الرَّحْمَنِ تَبَارَكَ وَتَعَالَى))، قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لَوْ لَبِثْتُ فِي السِّجْنِ مَا لَبِثَ يُوسُفُ، ثُمَّ جَاءَنِي الدَّاعِي لَأَجَبْتُ، إِذْ جَاءَهُ الرَّسُولُ فَقَالَ: ﴿ارْجِعْ إِلَى رَبِّكَ فَاسْأَلْهُ مَا بَالُ النِّسْوَةِ اللاَّتِي قَطَّعْنَ أَيْدِيَهُنَّ﴾، وَرَحْمَةُ اللَّهِ عَلَى لُوطٍ، إِنْ كَانَ لَيَأْوِي إِلَى رُكْنٍ شَدِيدٍ، إِذْ قَالَ لِقَوْمِهِ: ﴿لَوْ أَنَّ لِي بِكُمْ قُوَّةً أَوْ آوِي إِلَى رُكْنٍ شَدِيدٍ﴾، فَمَا بَعَثَ اللَّهُ بَعْدَهُ مِنْ نَبِيٍّ إِلاَّ فِي ثَرْوَةٍ مِنْ قَوْمِهِ)).

قَالَ مُحَمَّدٌ : الثَّرْوَةُ : الْكَثْرَةُ وَالْمَنَعَةُ.

**(605)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Ər-Rəhman təbarəkə və təalənin sevimli dostu İbrahimin oğlu İshaq, *İshaqın* oğlu Yəqub, *Yəqubun* oğlu Yusuf möhtərəm *peyğəmbərdir, həm də* möhtərəm *peyğəmbərin* oğludur, *atası da* möhtərəm *peyğəmbərin* oğludur, *babası da* möhtərəm *peyğəmbərin* oğludur."[1] Rəsulullah ﷺ davam edib dedi: "Əgər mən Yusuf qədər zindanda qalsaydım,[2] sonra da padşahın elçisi gəlib məni çağırmış olsaydı, mən *onun çağırışını* dərhal qəbul edərdim."[3] Lakin onun

---

[1] Yusuf ﵇ ibn Yəqub ﵇ ibn İshaq ﵇ ibn İbrahim ﵇ (896-cı hədisə bax).

[2] Bax: "Yusuf" surəsi, 32-42.

[3] Peyğəmbərimizin ﷺ bu sözü Yusuf peyğəmbərin ﵇ olduqca səbirli olduğuna dəlalət edir. "Yusuf" surəsini başdan ayağadək oxusanız səbrin bütün növlərinin Yusuf peyğəmbərdə ﵇ cəm edildiyini görə bilərsiniz. Belə ki, o, həm Allaha itaətdə, həm Allahın haram buyurduğundan çəkinməkdə, həm də Allahın əzəldən onun qədərinə yazdığı müsibətə səbir etmişdir. Yusuf ﵇ Tək Allaha ibadət etmiş, zadəgan qadınların onu dəvət etdiyi zinadan çəkinmiş, hətta: **"Ey Rəbbim! Mənim üçün zindan, bunların məni sövq etdikləri işi görməkdən daha xoşdur. Əgər bu qadınların hiyləsini məndən**

yanına elçi gəldiyi zaman belə demişdir: **"Ağanın yanına qayıt və soruş ki, əllərini kəsən qadınların məqsədi nə idi?"[1]** Luta da Allah rəhmət eləsin![2] O, möhkəm dayağa[3] söykənərdi. Bir zaman o, öz qövmünə belə demişdir: **"Kaş ki sizə çatan bir qüvvəm olaydı, yaxud möhkəm bir dayağa[4] söykənəydim."[5]** Allah Lutdan sonra göndərdiyi hər peyğəmbəri qövmündən olan sərvətlə göndərmişdir.[6]

Muhəmməd demişdir: "*Burada* "sərvət" *deyildikdə,* bir toplum və möhkəm dayaq *nəzərdə tutulur*."

---

**uzaq etməsən, mən onlara meyil edər və cahillərdən olaram"**– deyə dua etmiş və nəhayət, qədərinə yazılmış müsibətlərə – qardaşlarının ona verdikləri əziyyətlərə, daha sonra uzun müddət zindanda qalmağına səbir etmişdir. Peyğəmbərimiz ﷺ də burada onun səbrindən ibrət götürdüyünü xəbər verir. Uca Allah ona belə buyurur: **"Elçilərdən möhkəm iradə sahiblərinin səbir etdiyi kimi, sən də səbir et!"** (əl-Əhqaf, 35).

[1] "Yusuf" surəsi, 50.

[2] Peyğəmbərin ﷺ bu sözü fəslin ünvanına dəlalət edir.

[3] Burada "möhkəm dayaq" deyildikdə, Uca Allah qəsd edilir (Şərh ən-Nəvəvi, Fəthul-Bari və Tohfətul-Əhvəzi).

[4] Lut peyğəmbər عليه السلام burada "möhkəm bir dayaq" deyəndə, onlara mane ola biləcək bir qəbilənin və aşirətin olmasını təmənna edir. (Fəthul-Qədir).

[5] "Hud" surəsi, 80.

[6] Bu hədisi Tirmizi (4/128-129), Hakim (2/346-347 və 570-571), Əhməd (2/332 və 384) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən-səhih" olduğunu demişdir.

## ٢٧٤- بَابُ النَّاخِلَةِ مِنَ الدُّعَاءِ

## 274-cü fəsil. Yalnız səmimiyyətlə edilən dualar (qəbul olunur)[1]

٦٠٦- حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنِي مَالِكُ ابْنُ الْحَارِثِ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ يَزِيدَ قَالَ: كَانَ الرَّبِيعُ يَأْتِي عَلْقَمَةَ يَوْمَ الْجُمُعَةِ، فَإِذَا لَمْ أَكُنْ ثَمَّةَ أَرْسَلُوا إِلَيَّ، فَجَاءَ مَرَّةً وَلَسْتُ ثَمَّةَ، فَلَقِيَنِي عَلْقَمَةُ وَقَالَ لِي: أَلَمْ تَرَ مَا جَاءَ بِهِ الرَّبِيعُ؟ قَالَ: أَلَمْ تَرَ أَكْثَرَ مَا يَدْعُو النَّاسَ، وَمَا أَقَلَّ إِجَابَتَهُمْ؟ وَذَلِكَ أَنَّ اللَّهَ عَزَّ وَجَلَّ لاَ يَقْبَلُ إِلاَّ النَّاخِلَةَ مِنَ الدُّعَاءِ، قُلْتُ: أَوَ لَيْسَ قَدْ قَالَ ذَلِكَ عَبْدُ اللَّهِ؟ قَالَ: وَمَا قَالَ؟ قَالَ: قَالَ عَبْدُ اللَّهِ: لاَ يَسْمَعُ اللَّهُ مِنْ مُسْمِعٍ، وَلاَ مُرَاءٍ، وَلاَ لاعِبٍ، إِلا دَاعٍ دَعَا يَثْبُتُ مِنْ قَلْبِهِ، قَالَ: فَذَكَرَ عَلْقَمَةُ، قَالَ: نَعَمْ.

**(606)** ........ Abdur-Rəhman ibn Yezid demişdir: “Cümə günləri Rəbi[2] Əlqəmənin[3] yanına gələrdi. Mən orada olmadıqda dalımca adam göndərərdilər.[4] Yenə *bir gün* mən orada olmadıqda Rəbi *onun yanına* gəldi. Sonra Əlqəmə mənimlə görüşdü və mənə dedi: “Rəbinin nə danışdığından xəbərin varmı?! Deyir: “Məgər sən insanların nə qədər çox dua etdiklərini, lakin dualarının nə qədər az qəbul olduğunu görmürsənmi?! Bu ona görədir ki,

---

[1] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: “(Duanızın) qəbul olunacağına yəqin inandığınız halda Allaha dua edin! Və bilin ki, Allah, qafil və etinasız qəlbdən gələn duanı qəbul etmir” (Sunən ət-Tirmizi, 2/261; Mustədrək əl-Hakim, 1/493; Silsilətul-Əhadisis-Səhihə, 594).

[2] Əbu Yezid Rəbi ibn Xuseym ibn Aiz əs-Sovri məşhur tabiinlərdən və Kufənin alimlərindən olmuş, Abdullah ibn Məsud ﷺ və Əbu Əyyub əl-Ənsaridən ﷺ hədislər rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ).

[3] Əbu Şibl Əlqəmə ibn Qeys ibn Abdullah ən-Nəxəi, Abdullah ibn Məsuddan ﷺ elm almış məşhur tabiinlərdən və Kufənin alimlərindəndir (Siyər Əlam ən-Nubələ).

[4] Bu, alimlər arasında sıx əlaqənin olduğundan xəbər verir. Sələflər mütəmadi olaraq elmi məclislər qurub şəriət məsələlərini müzakirə edərdilər.

Allah ﷻ dualardan ancaq xalis[1] olanını qəbul edir." Mən dedim: "Məgər Abdullah[2] bunu deməyib?!" Əlqəmə dedi: "Abdullah nə deyib ki?" Mən dedim: "Abdullah demişdir: "Allah, nə *səsini başqasına* eşitdirən adamdan,[3] nə özünü göstərən riyakardan, nə də rişxənd edən adamdan *duanı* qəbul edər. O, yalnız səmimi qəlbdən dua edənin duasını qəbul edər."

Əlqəmə bunu xatırlayıb: "Bəli!"– dedi.[4]

---

[1] Burada "xalis" deyildikdə, duanın qəbul edilməsi üçün qoyulmuş bütün şərtləri özündə cəm edən dua qəsd edilir.

[2] Yəni Abdullah ibn Məsud ﷺ.

[3] Uca Allah buyurur: **"Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir"** (əl-Əraf, 55); digər ayədə O, buyurur: **"Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib dolananlar da *Allah üçün* eynidirlər"** (ər-Rəd, 10).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٢٧٥- بَابُ لِيَعْزِمِ الدُّعَاءَ، فَإِنَّ اللهَ لا مُكْرِهَ لَهُ

## 275-ci fəsil. İnsan qətiyyətlə dua etməlidir, çünki Allahı məcbur edən yoxdur

٦٠٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي حَازِمٍ، عَنِ الْعَلاَءِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا دَعَا أَحَدُكُمْ فَلاَ يَقُولُ: إِنْ شِئْتَ، وَلْيَعْزِمِ الْمَسْأَلَةَ، وَلْيُعَظِّمِ الرَّغْبَةَ، فَإِنَّ اللَّهَ لاَ يَعْظُمُ عَلَيْهِ شَيْءٌ أَعْطَاهُ)).

**(607)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sizdən biri dua edərkən: "İstəyirsənsə..."– deməsin.[1] Qoy, istədiyini qə-

[1] Məsələn, "Allahım, istəyirsənsə, məni bağışla", yaxud "Allahım, istəyirsənsə, mənə rəhm et!" yaxud "Allahım, istəyirsənsə, məni Cənnətə daxil et" yaxud "Allahım, istəyirsənsə, mənə ruzi ver!", yaxud "Allahım, istəyirsənsə, filankəsi bağışla!" və ya "Allahım, istəyirsənsə, filankəsə ruzi ver"– deyə dua etmək qadağandır. Məlumdur ki, insan xeyir əldə etmək və zərəri dəf etmək xüsusunda Allahdan başqasına sığına bilməz. Və əgər insanlar Ona möhtacdırlarsa, Ona sığınırlarsa və Ona arxayın olurlarsa, belə etməsi onlara haram sayılır. Çünki: "Allahım, istəyirsənsə, filan şeyi mənə ver!" deyən adam, sanki demək istəyir ki, "istəyirsənsə, filan şeyi mənə ver, yoxsa, mənim Sənə ehtiyacım yoxdur." (Şərh Riyadus-Salihin). Peyğəmbər ﷺ bunu qadağan edib demişdir: "Sizdən heç kəs deməsin, "Allahım, əgər istəyirsənsə, məni bağışla, Allahım, əgər istəyirsənsə, mənə rəhm et!" Qoy hər kəs qətiyyətlə dua etsin. Çünki heç kəs Allahı nəyəsə məcbur edə bilməz" (Səhih əl-Buxari, 6338). Bu hədislərdən aydın olur ki, belə dua etməyin qadağan olunmasının üç əmması var. Biri dua edən kimsəyə, ikisi isə onun üz tutduğu Rəbbinə aiddir. Dua edən kimsəyə gəlincə, bu onun zəifliyinə və iradəsizliyinə, habelə, əzm göstərmədiyinə, məsələyə etinasız yanaşdığına və buna qətiyyətlə inanmadığına görədir. Elə buna görə də bu hədisdə Peyğəmbər ﷺ: "Qoy istədiyini qətiyyətlə istəsin"– deyir. İkincisi isə onun, "...istədiyinə rəğbətini artırsın. Çünki Allahın verdiyi şey Ona böyük görünməz" sözünə aiddir. Bundan aydın olur ki, adam Rəbbindən dilədiyi şeyin böyük olduğunu düşünüb, Onun bu istəyi yerinə yetirə biləcəyinə şübhə ilə yanaşmasın və istəyində tərəddüd etməsin. Çünki: ***"Allah* bir şeyin olmasını istədikdə ona ancaq: "Ol"– deyir, o da olur"** (Ğafir, 68). Üçüncüsü isə o biri hədisdəki Peyğəmbərin ﷺ: "Çünki Allahı məcbur

tiyyətlə istəsin və (ona) rəğbətini artırsın. Çünki Allahın verdiyi şey Ona böyük görünməz."[1]

**٦٠٨-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا إِسْمَاعِيلُ ابْنُ عُلَيَّةَ، عَنْ عَبْدِ الْعَزِيزِ بْنِ صُهَيْبٍ، عَنْ أَنَسٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا دَعَا أَحَدُكُمْ فَلْيَعْزِمْ فِي الدُّعَاءِ، وَلاَ يَقُلِ: اللَّهُمَّ إِنْ شِئْتَ فَأَعْطِنِي، فَإِنَّ اللَّهَ لاَ مُسْتَكْرِهَ لَهُ)).

**(608)** ........ Ənəs رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sizdən biriniz dua etdikdə qətiyyətlə dua etsin və deməsin ki: "Allahım, istəyirsənsə, (filan şeyi) mənə ver!" Çünki Allahı məcbur edən yoxdur."[2]

---

edən yoxdur" sözünə aiddir. Yəni "istəyirsənsə,..."– deyə dua etdikdə, elə güman edilə bilər ki, guya Allah istəməsə, sanki kimsə Onu istəmədiyi işi görməyə məcbur edə bilər.

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Bu hədisi Buxari (6338), Muslim (2678) və Əhməd (3/101) rəvayət etmişdir.

# ٢٧٦– بَابُ رَفْعِ الأَيْدِي فِي الدُّعَاءِ

## 276-cı fəsil. Dua edərkən əlləri qaldırmaq[1]

٦٠٩– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُلَيْحٍ قَالَ: أَخْبَرَنِي أَبِي، عَنْ أَبِي نُعَيْمٍ وَهُوَ وَهْبٌ قَالَ: رَأَيْتُ ابْنَ عُمَرَ وَابْنَ الزُّبَيْرِ يَدْعُوَانِ، يُدِيرَانِ بِالرَّاحَتَيْنِ عَلَى الْوَجْهِ.

**(609)** ........ Əbu Nueym Vəhb demişdir: "Mən İbn Ömari və İbn Zubeyri görmüşəm. Onlar dua etdikdə ovuclarını üzlərinə doğru tutardılar."[2]

٦١٠– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ عِكْرِمَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، زَعَمَ أَنَّهُ سَمِعَهُ مِنْهَا، أَنَّهَا رَأَتِ النَّبِيَّ ﷺ يَدْعُو رَافِعًا يَدَيْهِ يَقُولُ: ((إِنَّمَا أَنَا بَشَرٌ فَلَا تُعَاقِبْنِي، أَيُّمَا رَجُلٌ مِنَ الْمُؤْمِنِينَ آذَيْتُهُ أَوْ شَتَمْتُهُ فَلَا تُعَاقِبْنِي فِيهِ)).

**(610)** ........ Aişə ؓ Peyğəmbərin ﷺ əllərini *göyə* qaldırıb belə dua etdiyini görmüşdür: "*Allahım,* mən də bir bəşərəm, məni cəzalandırma. Mö-

---

[1] Dua etdikdə əlləri göyə qaldırmaq müstəhəb əməllərə və duanın ədəblərinə aiddir. Hərçənd, dua etdikdə əlləri qaldırmaq şərt deyil, lakin onun qəbul olunmasına səbəb olan əməllərdəndir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Sizin Rəbbiniz Həyalı və Səxavətlidir. Əllərini Ona tərəf qaldırıb dua edən bəndəsinin əllərini boş qaytarmağa həya edir" (Sunən Əbu Davud, 1488; Səhih əl-Cami, 2070). Dua etdikdə əlləri göyə qaldırmağın mənası böyükdür. Bu, Allahın hər şeyə qadir olduğunu iqrar etmək, Onun qarşısında aciz olduğunu etiraf etmək, Allahın Səxavətli və Duaları qəbul edən, habelə, hər şeyi Görən, hər şeyi Eşidən və hər şeyi Bilən Tək İlah olduğuna iman gətirmək, həmçinin, Onun göydə olduğunu, yəni Ərşin üzərində yüksəldiyini təsdiqləmək deməkdir.

Dua əsnasında əlləri göyə qaldırmağın qaydası isə belədir:

– ovucları göyə tərəf, əllərin üstünü isə yerə tərəf tutmaq. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Allahdan istədiyiniz zaman əllərinizin üstü ilə yox, onların içi ilə istəyin!" (Sunən Əbu Davud, 1486; Silsilətul-Əhadisis-Səhihə, 595).

– əlləri çiyin bərabərinə və ya bundan da yuxarı qaldırmaq (612-ci hədisə bax).

[2] Bu hədisin isnadında keçən Muhəmməd ibn Fuleyh və onun atası – hər ikisi "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

minlərdən hansı birisinə əziyyət vermişəmsə yaxud ona pis söz demişəmsə, buna görə məni cəzalandırma![1]"[2]

**٦١١-** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنَا أَبُو الزِّنَادِ، عَنِ الْأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَدِمَ الطُّفَيْلُ بْنُ عَمْرٍو الدَّوْسِيُّ عَلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنَّ دَوْسًا قَدْ عَصَتْ وَأَبَتْ، فَادْعُ اللَّهَ عَلَيْهَا، فَاسْتَقْبَلَ رَسُولُ اللَّهِ ﷺ الْقِبْلَةَ وَرَفَعَ يَدَيْهِ، فَظَنَّ النَّاسُ أَنَّهُ يَدْعُو عَلَيْهِمْ، فَقَالَ: ((اللَّهُمَّ اهْدِ دَوْسًا، وَائْتِ بِهِمْ)).

**(611)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, (bir dəfə) Tufeyl ibn Amr əd-Dövsi[3] Rəsulullahın ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Dövs qəbiləsi asilik etmiş və (haqdan) üz çevirmişdir. Onların əleyhinə Allaha dua et!" Rəsulullah ﷺ üzünü qibləyə tutub əllərini (göyə) qaldırdı.[4] Camaat elə zənn etdi ki, Rəsulullah ﷺ onlara bəddua edəcək.[5] (O isə) dedi: "Allahım, Dövs qəbiləsini doğru yola yönəlt və onları (İslam dininə) gətir![6]"[7]

**٦١٢-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: أَخْبَرَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: قَحَطَ الْمَطَرُ عَامًا، فَقَامَ بَعْضُ الْمُسْلِمِينَ إِلَى النَّبِيِّ ﷺ يَوْمَ الْجُمُعَةِ، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، قَحَطَ الْمَطَرُ، وَأَجْدَبَتِ الْأَرْضُ، وَهَلَكَ الْمَالُ. فَرَفَعَ يَدَيْهِ، وَمَا يُرَى فِي السَّمَاءِ مِنْ سَحَابَةٍ، فَمَدَّ يَدَيْهِ حَتَّى رَأَيْتُ

---

[1] 234-cü hədisin qeydlərinə bax.

[2] Bu hədisi Əhməd (6/160) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih li-ğeyrihi" olduğunu demişdir.

[3] Tufeyl ibn Amr ibn Tətif əd-Dövsi ﷺ. Bu səhabə İslam dinini Mədinəyə hicrət etməmişdən qabaq qəbul etmişdir.

[4] Dua etdikdə qibləyə tərəf üz tutmaq və əlləri göyə qaldırmaq müstəhəb əməllərə və duanın ədəblərinə aid olsa da, onun qəbul olunması üçün şərt deyil. Bundan o da aydın olur ki, müsəlmanların dua əsnasındakı qibləsi – namazda olduğu kimi – Kəbədir.

[5] Hətta bəziləri: "Dövs qəbiləsi həlak oldu!"– dedilər (Səhih əl-Buxari, 2937).

[6] Bu, Muhəmməd peyğəmbərin ﷺ olduqca mərhəmətli və şəfqətli bir insan olduğunu bir daha sübuta yetirir.

[7] Bu hədisi Buxari (2937) Muslim (2524) və Əhməd (2/243) rəvayət etmişdir.

بَياضَ إِبْطَيْهِ يَسْتَسْقِي اللَّهَ، فَمَا صَلَّيْنَا الْجُمُعَةَ حَتَّى أَهَمَّ الشَّابُّ الْقَرِيبُ الدَّارِ الرُّجُوعَ إِلَى أَهْلِهِ، فَدَامَتْ جُمُعَةٌ، فَلَمَّا كَانَتِ الْجُمُعَةُ الَّتِي تَلِيهَا، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، تَهَدَّمَتِ الْبُيُوتُ، وَاحْتَبَسَ الرُّكْبَانُ. فَتَبَسَّمَ لِسُرْعَةِ مَلاَلِ ابْنِ آدَمَ وَقَالَ بِيَدِهِ: ((اللَّهُمَّ حَوَالَيْنَا، وَلاَ عَلَيْنَا، فَتَكَشَّطَتْ عَنِ الْمَدِينَةِ)).

**(612)** ........ Ənəs ﷺ demişdir: "(Peyğəmbər ﷺ yaşadığı) illərdən birində quraqlıq baş vermişdi. Müsəlmanlardan bəzisi cümə günü ayağa qalxıb Peyğəmbərə ﷺ dedi: "Ya Rəsulullah, *bizə* quraqlıq üz verdi, torpaqda çatlar əmələ gəldi, malımız da zay oldu." Peyğəmbər ﷺ əllərini *göyə* qaldırdı. Həmin vaxt göydə bir dənə də olsun bulud görünmürdü. Peyğəmbər ﷺ hər iki qoltuğunun ağlığı görünənədək əllərini qaldırıb Allahdan yağmur dilədi.[1] Biz cümə namazını təzəcə qılmışdıq ki, *leysan yağış yağmağa başladı*. İş o yerə gəlib çatdı ki, evləri yaxın olan gənclər *yağışın şiddətindən* ailələrinin yanına qayıtmağa belə qorxdular. *Bu yağış növbəti* cüməyədək yağdı.[2]

---

[1] Bu, Peyğəmbərin ﷺ əllərini olduqca yuxarı qaldırdığına dəlalət edir. Qeyd edək ki, dua əsnasında əlləri bu cür qaldırmaq yalnız "istisqa" duasına, yəni Allahdan yağış diləmək üçün əlləri qaldırmağa aiddir. Belə ki, başqa şey üçün dua etdikdə əlləri çiyin bərabərindən yuxarı qaldırmaq Sünnəyə ziddir. Bu xüsusda rəvayət olunmuş hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ, yağış diləmək üçün dua etməsi istisna olmaqla, heç bir duasında əllərini *çiyin bərabərindən yuxarı* qaldırmazdı. *Yağış dilədikdə isə* o, *əllərini* qoltuqlarının ağlığı görünənədək yuxarı qaldırardı (Səhih əl-Buxari, 1031). Yeri gəlmişkən qeyd edək ki, dua əsnasında əlləri qaldırmağın üç halı vardır. Bunların üçü də eyni əsərdə öz təsdiqini tapmışdır. Həmin əsərdə İbn Abbas ﷺ demişdir: "Dua etdikdə əllərini çiyinlərin bərabərinə və ya bunlara yaxın qaldırırsan. Bağışlanma dilədikdə bir barmaqla işarə edirsən. Yalvardıqda isə hər iki əlini qaldırıb (göyə doğru) uzadırsan" (Sunən Əbu Davud, 1489; Səhih əl-Cami, 6694). Demək, Sünnəyə görə adi dualarda əllər çiyin bərabərinə qalxmalı, bundan yuxarı qalxmamalı yaxud aşağı düşməməli, məğfirət dilədikdə tək işarə barmağı qaldırılmalı, yalvardıqda isə əllər hər iki qoltuğun ağlığı görünənədək göyə doğru uzanmalıdır.

[2] Digər rəvayətdə Ənəs ibn Malik ﷺ demişdir: "Canım Əlində olan Allaha and olsun ki, o, hələ əllərini aşağı salmamış (başımız üzərində) dağlar qədər buludlar topalaşdı və o, minbərdən yerə enməmiş mən onun saqqalından süzülən yağış damçılarını gördüm. Həmin gün, ertəsi gün, ondan sonrakı gün, daha sonrakı gün – növbəti cüməyədək yağış ara vermədən yağdı" (Səhih əl-Buxari, 933).

Nəhayət, növbəti cümədə *səhabə* dedi: “Ya Rəsulullah, evlər dağıldı, müsafirlər yolda qaldı.” Peyğəmbər ﷺ Adəm övladının bu tezliklə təngə gəlməsinə gülümsədi və əlini qaldırıb dua etdi: “Allahım, *yağışı* üstümüzə yox, ətrafımıza *yağdır*!”[1] Beləliklə, *buludlar* Mədinənin üzərindən çəkilib getdi.[2]”[3]

٦١٣- حَدَّثَنَا الصَّلْتُ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ سِمَاكٍ، عَنْ عِكْرِمَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، أَنَّهُ سَمِعَهُ مِنْهَا، أَنَّهَا رَأَتِ النَّبِيَّ ﷺ يَدْعُو رَافِعًا يَدَيْهِ يَقُولُ: ((اللَّهُمَّ إِنَّمَا أَنَا بَشَرٌ فَلاَ تُعَاقِبْنِي، أَيُّمَا رَجُلٌ مِنَ الْمُؤْمِنِينَ آذَيْتُهُ أَوْ شَتَمْتُهُ فَلاَ تُعَاقِبْنِي فِيهِ)).

**(613)** ........ Aişə رضي الله عنها Peyğəmbərin ﷺ əllərini (göyə) qaldırıb belə dua etdiyini görmüşdür: “(Allahım,) mən də bir bəşərəm, məni cəzalandırma. Möminlərdən hansı birisinə əziyyət vermişəmsə yaxud ona pis söz demişəmsə, buna görə məni cəzalandırma![4]

٦١٤- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ قَالَ: حَدَّثَنَا حَجَّاجٌ الصَّوَّافُ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ الطُّفَيْلَ بْنَ عَمْرٍو قَالَ لِلنَّبِيِّ ﷺ: هَلْ لَكَ فِي حِصْنٍ وَمَنَعَةٍ، حِصْنِ دَوْسٍ؟ قَالَ: فَأَبَى رَسُولُ اللَّهِ ﷺ، لِمَا ذَخَرَ اللَّهُ لِلأَنْصَارِ، فَهَاجَرَ الطُّفَيْلُ، وَهَاجَرَ مَعَهُ رَجُلٌ مِنْ قَوْمِهِ، فَمَرِضَ الرَّجُلُ فَضَجِرَ أَوْ كَلِمَةٌ شَبِيهَةٌ بِهَا، فَحَبَا إِلَى قَرْنٍ، فَأَخَذَ مِشْقَصًا فَقَطَعَ وَدَجَيْهِ فَمَاتَ، فَرَآهُ الطُّفَيْلُ فِي الْمَنَامِ قَالَ: مَا فُعِلَ بِكَ ؟ قَالَ: غُفِرَ لِي بِهِجْرَتِي إِلَى النَّبِيِّ ﷺ، قَالَ: مَا شَأْنُ يَدَيْكَ؟ قَالَ: فَقِيلَ: إِنَّا لاَ نُصْلِحُ مِنْكَ مَا أَفْسَدْتَ مِنْ يَدَيْكَ، قَالَ: فَقَصَّهَا الطُّفَيْلُ عَلَى النَّبِيِّ ﷺ، فَقَالَ: ((اللَّهُمَّ وَلِيَدَيْهِ فَاغْفِرْ))، وَرَفَعَ يَدَيْهِ.

---

[1] Digər rəvayətdə deyilir ki, o, belə dua etmişdir: “Allahım, *yağışı* üstümüzə yox, ətrafımıza yağdır. Allahım, *onu* təpələrə, dağlara, bağlara, yamaclara, vadilərə və ağac bitən yerlərə *yağdır*!” (Səhih əl-Buxari, 1013).

[2] Hədisin tamamında deyilir: “Sonra əli ilə hara işarə etdisə, oradakı bulud topası dağıldı və Mədinə *səması* çalaya bənzədi (yəni göyün üzü açıldı və Mədinənin ətrafı buludlarla əhatə olundu). Qənat vadisində bir ay sel axdı, kənardan *Mədinəyə* gələn hər kəs, bol yağışlar yağdığından danışırdı” (Səhih əl-Buxari, 933).

[3] Bu hədisi Buxari (933), Muslim (1493) və Əhməd (3/104) rəvayət etmişdir.

[4] İmam Buxari bu kitabda eyni hədisi ayrı-ayrı isnadlarla rəvayət etmişdir (610-cu hədisə və onun qeydlərinə bax).

**(614)** ........ Cabir ibn Abdullah ﷺ demişdir: "(Bir dəfə) Tufeyl ibn Amr Peyğəmbərin ﷺ yanına gəlib dedi: "*Ya Rəsulullah*, səni qoruyacaq Dövs qalası kimi bir qalanın və səni düşmənlərindən mühafizə edəcək bir camaatın yanında olmaq istəyirsənmi?" Allah Öz Peyğəmbərini ﷺ ənsarın yanına[1] (hicrət etməyə) hazırladığı üçün Peyğəmbər ﷺ onun bu təklifini qəbul etmədi. (Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra) Tufeyl öz tayfasından olan bir kişi ilə Mədinəyə hicrət etdi. Kişi yolda xəstələndi və çox iztirab çəkdi. O, diz üstə sürünərək[2] ox qabına yaxınlaşdı. Oradan öz oxunu götürüb onun tiyəsi ilə qollarının damarlarını kəsdi və öldü.[3] (Bir müddətdən sonra) Tufeyl ibn Amr yuxuda həmin adamı gördü və soruşdu: "(Öləndən sonra) sənə nə etdilər?"[4] O, dedi: "Peyğəmbərin ﷺ yanına hicrət etdiyimə görə (Rəbbim) məni bağışladı." Tufeyl soruşdu: "Qolların necədir?" O, dedi: "Mənə dedilər ki, "Sənin (öz vücudundan) korladığın qollarını biz düzəltməyəcəyik." Sonra Tufeyl yuxusunu Peyğəmbərə ﷺ danışdı və Peyğəmbər ﷺ əllərini (göyə) qaldırıb: "Allahım, onun qollarını da bağışla!"– deyə dua etdi.[5]"[6]

**٦١٥–** حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ صُهَيْبٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَتَعَوَّذُ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ، وَأَعُوذُ بِكَ مِنَ الْجُبْنِ، وَأَعُوذُ بِكَ مِنَ الْهَرَمِ، وَأَعُوذُ بِكَ مِنَ الْبُخْلِ)).

---

[1] Bu, ənsarın fəzilətinə dəlalət edir.

[2] Bu, həmin adamın ağrılarının olduqca şiddətli olduğuna dəlalət edir.

[3] İmam Muslimin "Səhih"ində deyilir: "Elə bu səbəbdən də, o, öz oxunu götürüb onun tiyəsi ilə barmağının buğumlarını kəsdi və kəsilmiş barmaqlarından qan fışqırmağa başladı. Nəhayət, o, *çoxlu qan itirib* öldü."

[4] İmam Muslimin "Səhih"ində deyilir: "Tufeyl onu gözəl görkəmdə, əllərinin isə sarıqlı olduğunu görüb ondan: "Rəbbin sənə nə etdi?"– deyə soruşdu."

[5] Bu hədis dəlildir ki, hər kim öz canına qəsd etsə və ya böyük bir günah işlədib tövbə etmədən ölsə, nə kafir sayılar, nə də əbədi Cəhənnəmlik olduğu iddia edilər. Əksinə, beləsi Allahın istəyi altındadır. İstəsə, onu bağışlar, istəsə də ona əzab verər. Bu da, böyük günah sahibinin bağışlanmayacağını, üstəlik, əbədi olaraq Cəhənnəmə giriftar olacağını iddia edən xəvariclərə cavabdır.

[6] Bu hədisi Muslim (311) rəvayət etmişdir.

**(615)** ........ Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ Allaha sığınıb deyərdi: "Allahım, tənbəllikdən Sənə sığınıram, cəsarətsizlikdən Sənə sığınıram, qocalıqdan[1] Sənə sığınıram, xəsislikdən Sənə sığınıram![2]"[3]

**٦١٦–** حَدَّثَنَا خَلِيفَةُ بْنُ خَيَّاطٍ قَالَ: حَدَّثَنَا كَثِيرُ بْنُ هِشَامٍ قَالَ: حَدَّثَنَا جَعْفَرٌ، عَنْ يَزِيدَ ابْنِ الأَصَمِّ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: أَنَا عِنْدَ ظَنِّ عَبْدِي، وَأَنَا مَعَهُ إِذَا دَعَانِي)).

**(616)** ........ Əbu Hureyrə ﷺ Rəsulullahdan ﷺ rəvayət edir ki,[4] Allah ﷻ buyurur: **"Mən qulumun barəmdəki zənni yanındayam. Mənə dua etdikdə, Mən onun yanında oluram.[1]"**

---

[1] Digər rəvayətdə Rəsulullah ﷺ: "Əuzu bikə min ən uraddə ilə ərzəlil-umri (qocalığın ən düşkün çağına çatmaqdan Sənə sığınıram)"– demişdir" (Səhih əl-Buxari, 6365). Belə ki, insan bu yaşa çatdıqda çox vaxt bildiklərini unudur, ağlı kəsmir, beli bükülür və ehtiyaclı olur.

[2] Transkripsiyası: Allahummə, inni əuzu bikə minəl-kəsəli, və əuzu bikə minəl-cubni, və əuzu bikə minəl-hərəmi, və əuzu bikə minəl-buxl.

Hərçənd, bu hədisdə Rəsulullahın ﷺ cəmi dörd şeydən Allaha sığındığı xəbər verilir, lakin başqa hədislərdə onun neçə-neçə yaramaz xislətlərdən və acınacaqlı aqibətlərdən Allaha sığındığı varid olmuşdur. İslam alimlərindən bəziləri Allaha sığınmaqla bağlı varid olmuş bu hədislərin hamısını bir yerə cəm etmişlər. Bunların ən əhatəlisi isə İmam Nəsainin öz "Sunən" əsərində, "əl-İstiazə" kitabında cəm etdikləridir. Lüğəti mənada "istiazə" sığınmaq deməkdir. İstilahi mənada isə bu, xoşagəlməz bir şeydən *qorunmaq üçün Allahdan* sığınacaq və himayə diləmək deməkdir (Usul əl-İman fi Dovil-Kitabi vəs-Sünnə, səh: 41).

[3] Bu hədisi İmam Buxari öz "Səhih"ində (6371) rəvayət etmişdir. Qeyd edək ki, Rəsulullahın ﷺ dua əsnasında əllərini qaldırıb-qaldırmaması xüsusunda varid olmuş hədislərin hamısını bir yerə cəm etdikdə aydın olur ki, Rəsulullah ﷺ dua edərkən bəzən əllərini qaldırmış, bəzən də qaldırmamışdır. İslam alimləri bu dəlillərdən belə nəticə çıxarmışlar ki, Peyğəmbərin ﷺ əllərini qaldırdığı hallarda, əlləri qaldırmaq Sünnə, qaldırmadığı hallarda qaldırmaq isə Sünnəyə ziddir. Əllərini qaldırmadığı və qaldırmağı qadağan etmədiyi hallarda isə bu işi hər kəsin öz istəyinə buraxmışdır. İmam Buxarinin də bu hədisi, "Dua edərkən əlləri qaldırmaq" fəslində varid etməsi, olsun ki, hədisdə zikr edilmiş bu dörd şeydən Allaha sığınarkən əlləri qaldırmağın müstəhəbliyinə işarədir.

[4] Bu hədisi Muslim (2675), Tirmizi (2388) və Əhməd (3/210 və 277) rəvayət etmişdir.

[1] Digər qüdsi hədisdə Uca Allah buyurur: **"Mən qulumun barəmdəki zənni yanındayam, Məni yad etdikcə onunlayam. O Məni öz-özlüyündə yad etsə, Mən də onu Öz-Özlüyümdə yad edərəm. O Məni camaatın yanında yad edərsə, Mən onu onlardan daha xeyirli bir toplumun (mələklərin) yanında yad edərəm. O Mənə bir qarış yaxınlaşsa, Mən ona bir ərəş yaxınlaşaram. O Mənə bir ərəş yaxınlaşsa, Mən ona bir qulac yaxınlaşaram. O Mənə doğru yeriyərək gəlsə, Mən ona doğru yüyürərək gələrəm"** (Səhih əl-Buxari, 7405); başqa bir qüdsi hədisdə Uca Allah buyurur: **"Mən qulumun barəmdəki zənni yanındayam. Odur ki, qoy barəmdə istədiyini zənn etsin"** (Əhməd, 3/491; 4/106; Səhih əl-Cami, 4316); yenə bir qüdsi hədisdə Uca Allah buyurur: **"Mən qulumun barəmdəki zənni yanındayam. Xeyirli olarsa, xeyri (onun lehinə) olar, şər olarsa, şəri (onun əleyhinə) olar"** (Mocəmul-Ovsat, 8115; Hilyətul-Ovliya, 9/306; Silsilətul-Əhadisis-Səhihə, 1663). Bu hədislərdən aydın olur ki, hər bir mömin Allah barədə gözəl zənn etməli, Onun mərhəmətinə, habelə, etdiyi əməllərinin qəbul olunacağına, Cəhənnəm əzabından qoruyacağına ümid bəsləməlidir, həmçinin, Onun hüzuruna qayıdacağına, hüzurunda sorğu-sual ediləcəyinə yəqinliklə inanmalıdır. Bu xüsusda, Uca Allah belə buyurur: **"Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın mərhəmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"** (əz-Zumər, 53); Peyğəmbər ﷺ də bu xüsusda belə buyurmuşdur: "Qoy, sizlərdən hər biri Allaha ancaq gözəl zənn etdiyi halda ölsün!" (Səhih Muslim, 2877).

Onu da bilmək lazımdır ki, yaxşı zənn ilə yaxşı əməl arasında, pis zənn ilə də pis əməl arasında bağlılıq vardır. Yəni adamın yaxşı əməlləri artdıqca Allaha olan zənni gözəlləşir, əks halda isə həmişə Allah barədə pis zəndə olur. Odur ki, möminlər, müttəqilər və muhsinlər həmişə Allah barədə yaxşı zəndə olur, müşriklər, kafirlər, münafiqlər və fasiqlər isə Onun barəsində pis zənnə qapılırlar.

Allahın Öz bəndəsinin yanında olması Onun elminə, görməsinə və eşitməsinə aiddir. Yəni Ona yalvaran bəndəsini eşidir və görür. Bu xüsusda, Uca Allah buyurur: **"Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!"** (Ta ha, 46).

# ٢٧٧- بَابُ سَيِّدِ الإِسْتِغْفَارِ

## 277-ci fəsil. İstiğfarın[1] ən fəzilətlisi

٦١٧- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ قَالَ: حَدَّثَنَا حُسَيْنٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ ابْنُ بُرَيْدَةَ، عَنْ بُشَيْرِ بْنِ كَعْبٍ، عَنْ شَدَّادِ بْنِ أَوْسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((سَيِّدُ الاِسْتِغْفَارِ: اللَّهُمَّ أَنْتَ رَبِّي لاَ إِلَهَ إِلاَّ أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ، وَأَبُوءُ لَكَ بِذَنْبِي، فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ. أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ. إِذَا قَالَ حِينَ يُمْسِي فَمَاتَ دَخَلَ الْجَنَّةَ، أَوْ: كَانَ مِنْ أَهْلِ الْجَنَّةِ، وَإِذَا قَالَ حِينَ يُصْبِحُ فَمَاتَ مِنْ يَوْمِهِ مِثْلَهُ)).

---

[1] İstiğfar: Allaha yalvarıb günahların bağışlanmasını diləmək. Qeyd edək ki, Allahdan bağışlanma diləməyə dair cürbəcür ləfzlərlə neçə-neçə "səhih" hədislər varid olmuşdur. Məsələn, "əstəğfirullah", yaxud "Rabbiğ-firli" və s. Lakin bunların ən möhtəşəmi, ən kamili və ən fəzilətlisi İmam Buxarinin bu fəsildə nəql etdiyi bu istiğfardır. Peyğəmbər ﷺ bunu "seyyidul-istiğfar (istiğfarların ən hörmətlisi)" adlandırmışdır. Səbəbi də budur ki, onun ləfzi olduqca möhtəşəm mənaları özündə əks etdirir. Adam bu zikri etməklə Allahın Tək İlah olduğunu təsdiqləyir, Allah qarşısında qul olduğunu etiraf edir, Ona itaət edəcəyinə söz verir, Onun ruzi verən və günahları bağışlayan Rəbb olduğunu iqrar edir və nəhayət, Ona sığınır. Xüsusilə qeyd etmək lazımdır ki, Allahdan bağışlanma diləmək ruzi-bərəkət qazanmaq üçün səbəbdir. İbn Səbih demişdir: "Bir nəfər Həsən *əl-Bəsriyə* quraqlıqdan şikayət etdi, o da ona: "Allahdan bağışlanma dilə!"– deyə buyurdu. Başqa birisi də gəlib ona kasıbçılıqdan şikayət etdi. Həsən ona da: "Allahdan bağışlanma dilə!"– deyə buyurdu. Yenə birisi gəlib ona: "Allaha dua et ki, mənə övlad bəxş etsin!"– dedi. Həsən ona da: "Allahdan bağışlanma dilə!"– deyə buyurdu. Biri də gəlib ona bostanının quruduğundan şikayət etdi. Həsən ona da: "Allahdan bağışlanma dilə!"– deyə buyurdu. Biz ondan nəyə görə belə dediyinin səbəbini soruşduqda o, belə cavab verdi: "Mən özümdən heç nə demirəm. Uca Allah "Nuh" surəsində (10-12) buyurur: ***"Nuh dedi*: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır! O, sizin üzərinizə bol-bol yağış göndərər, var-dövlət və oğul-uşaqla sizin imdadınıza çatar, sizin üçün bağlar salar və çaylar yaradar"** (Təfsir ət-Təbəri və Təfsir əl-Qurtubi).

**(617)** ........ Şəddad ibn Ovs[1] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ən fəzilətli istiğfar *budur*: "Allahummə, əntə Rabbi lə ilahə illə ənt, xələqtəni və ənə abdukə, və ənə alə ahdikə və və'dikə məs-tətə'tu, əbuu ləkə bini'mətikə, və əbu'u ləkə bizənbi. Fəğfir li fəinnəhu lə yəğfiruz-zunubə illə ənt. Əuzu bikə min şərri mə sanə't!"[2] *Hər kim bunu* axşam çağı oxuduqdan sonra ölərsə, Cənnətə girər, yaxud Cənnət əhlindən olar. Həmçinin, səhər oxuduqdan sonra ölərsə, Cənnətə girər, yaxud Cənnət əhlindən olar."[3]

**٦١٨**– حَدَّثَنَا أَحْمَدُ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا ابْنُ نُمَيْرٍ، عَنْ مَالِكِ بْنِ مِغْوَلٍ، عَنِ ابْنِ سُوقَةَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: إِنْ كُنَّا لَنَعُدُّ فِي الْمَجْلِسِ لِلنَّبِيِّ ﷺ: ((رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ)) مِئَةَ مَرَّةٍ.

**(618)** ........ İbn Ömər ﷺ demişdir:[4] "Peyğəmbərin ﷺ məclisində olanda onun yüz dəfə:[5] "Rabbiğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim[1]"– dediyini sayardıq."

---

[1] Əbu Yə'la Şəddad ibn Ovs ibn Munzir Sabitəl-Ənsari ən-Nəccari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ məşhur şairi Həssan ibn Sabitin ﷺ qardaşı oğludur (Siyər Əlam ən-Nubələ).

[2] Tərcüməsi: Allahım, Sən mənim Rəbbimsən! Səndən başqa *haqq* məbud yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan. Etdiklərimin şərindən Sənə sığınıram.

Qeyd edək ki, bu duanın sonundakı "Əuzu bikə min şərri mə sanə't" sözü əslində sonda yox, "xələqtəni və ənə abdukə, və ənə alə ahdikə və və'dikə məs-tətə'tu" cümləsindən sonra gəlir. Bu da, isnadda olan ravinin xətasıdır. Düzgün olanı İmam Buxarinin "Səhih"ində (6306) öz təsdiqini tapmışdır.

[3] Bu hədisi Buxari (6306), Tirmizi (4/229) və Əhməd (4/122 və 124) rəvayət etmişdir.

[4] Bu hədisi Əhməd (2/21) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[5] Peyğəmbər ﷺ məsum olmağına baxmayaraq hər gün Allahdan bağışlanma diləyərdi. Bu xüsusda rəvayət edilmiş başqa bir hədisdə Əbu Hureyrə ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ daha çox: "Allahdan bağışlanma diləyirəm və Ona tövbə edirəm!"– deyən bir kimsə görməmişəm" (Sunən ən-Nəsai, 10215; Səhih İbn Hibban, 928). Əgər biz Pey-

**٦١٩-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ عَبْدِ اللَّهِ، عَنْ حُصَيْنٍ، عَنْ هِلَالِ بْنِ يَسَافٍ، عَنْ زَاذَانَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: صَلَّى رَسُولُ اللَّهِ ﷺ الضُّحَى ثُمَّ قَالَ: ((اللَّهُمَّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ))، حَتَّى قَالَهَا مِئَةَ مَرَّةٍ.

**(619)** ........ Aişə ؓ demişdir: “Rəsulullah ﷺ duha[2] namazını qıldıqdan sonra yüz dəfə: “Allahumməğ-firli, və tub aleyyə, innəkə əntət-Təvvabur-Rəhim[3]”– demişdir.”[4]

---

ğəmbərin ﷺ həyatına nəzər salsaq görərik ki, o, namazını bitirdikdə, xütbə verdikdə, məclislərdəki söhbətin axırında və başqa bu kimi hallarda, hətta, son nəfəsində belə Allahdan bağışlanma diləmişdir. Peyğəmbərin ﷺ vəfat etdiyi an onun yanında olmuş möminlərin anası Aişə ؓ demişdir: “Rəsulullah ﷺ ölüm ayağında, başı da mənim sinəmin üstə ikən əlini qaldırıb: “Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!”– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əli yanına düşdü” (Səhih əl-Buxari, 4449 və 5674; Səhih Muslim, 2444).

[1] Tərcüməsi: Ey Rəbbim, məni bağışla, mənim tövbəmi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul Edənsən, Rəhmlisən!

Başqa isnadla rəvayət edilmiş bu hədisdə deyilir: “Sən tövbələri qəbul Edənsən, Bağışlayansan!” (Sunən ət-Tirmizi, 2/2254, Silsilətul-Əhadisis-Səhihə, 556). Yəni bu hədislərdən birində Allahın “ər-Rəhim”, digərində isə “əl-Ğafur” adı zikr edilmişdir. Məlumdur ki, Allaha Onun gözəl adları ilə təvəssül etmək olar. Bu xüsusda, Uca Allah buyurur: **“Ən gözəl adlar Allaha məxsusdur. Ona bu adlar vasitəsi ilə dua edin”** (əl-Əraf, 180). Allaha təvəssül edərkən istəyə uyğun adla Ona xitab etmək, məsələn, ruzi dilədikdə “Ya Rəzzaq,...”– demək duanın ədəblərindəndir. Həmçinin, Allahdan bağışlanma diləyən və Ona tövbə edən kimsə, Ona ət-Təvvab, ər-Rəhim, əl-Ğafur adları ilə dua etməsi münasib sayılır. Və əgər adam Allaha Onun dua ilə əlaqəsi olmayan adı ilə dua etsə, məsələn: “Ey Rəbbim, məni bağışla, mənim tövbəmi qəbul et! Həqiqətən, Sən şiddətli cəza verənsən!”– desə, əlbəttə ki, bu, duanın ədəbinə zidd olar.

[2] Duha vaxtı Allahdan yüz dəfə bağışlanma diləmək müstəhəb əməllərdən sayılır.

[3] Tərcüməsi: Allahım, məni bağışla, mənim tövbəmi qəbul et! Şübhəsiz ki, Sən tövbələri Qəbul Edənsən, Rəhmlisən!

[4] Bu hədisi Əhməd (2/21) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

٦٢٠- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا حُسَيْنٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ ابْنُ بُرَيْدَةَ قَالَ: حَدَّثَنِي بُشَيْرُ بْنُ كَعْبٍ الْعَدَوِيُّ قَالَ: حَدَّثَنِي شَدَّادُ بْنُ أَوْسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((سَيِّدُ الِاسْتِغْفَارِ أَنْ يَقُولَ: اللَّهُمَّ أَنْتَ رَبِّي، لاَ إِلَهَ إِلاَّ أَنْتَ، خَلَقْتَنِي وَأَنَا عَبْدُكَ، وَأَنَا عَلَى عَهْدِكَ وَوَعْدِكَ مَا اسْتَطَعْتُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ مَا صَنَعْتُ، أَبُوءُ لَكَ بِنِعْمَتِكَ، وَأَبُوءُ لَكَ بِذَنْبِي، فَاغْفِرْ لِي، فَإِنَّهُ لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ))، قَالَ: ((مَنْ قَالَهَا مِنَ النَّهَارِ مُوقِنًا بِهَا، فَمَاتَ مِنْ يَوْمِهِ قَبْلَ أَنْ يُمْسِيَ فَهُوَ مِنْ أَهْلِ الْجَنَّةِ، وَمَنْ قَالَهَا مِنَ اللَّيْلِ وَهُوَ مُوقِنٌ بِهَا، فَمَاتَ قَبْلَ أَنْ يُصْبِحَ فَهُوَ مِنْ أَهْلِ الْجَنَّةِ)).

**(620)** ........ Şəddad ibn Ovs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Ən fəzilətli istiğfar (budur): “Allahım, Sən mənim Rəbbimsən. Səndən başqa məbud yoxdur. Məni Sən yaratdın və mən Sənin qulunam. Gücüm çatan qədər Sənə verdiyim əhdə və vədə sadiqəm. Etdiklərimin şərindən Sənə sığınıram. Mənə verdiyin neməti etiraf edirəm və günahımı boynuma alıram. Məni bağışla! Şübhəsiz ki, günahları yalnız Sən bağışlayırsan.

Hər kim gündüzün (əvvəlində) yəqinliklə[1] bu duanı oxusa, sonra da həmin gün axşam düşənə qədər ölsə, Cənnət əhlindən olar. Həmçinin, kim axşam vaxtı yəqinliklə bu duanı oxusa, sonra da səhər açılana qədər ölsə, Cənnət əhlindən olar.[2]”[3]

---

[1] Hədisdən aydın olur ki, bu duanı oxuyan adamın Cənnət əhlindən olması üçün dediyinə yəqinliklə etiqad etməsi və ona iman gətirməsi, habelə, buna şəkk etməməsi, dediyinə etinasız yanaşmaması şərtdir.

[2] 617-ci hədisə və onun qeydlərinə bax.

[3] İbn Teymiyyə demişdir: “Bəzən hədislərdə tövhidlə istiğfar bir yerdə zikr edilir. Buna bənzər, Quran ayəsində Uca Allah buyurur: “**Bil ki, Allahdan başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə**” (Muhəmməd, 19); O, həmçinin, buyurur: **“Sizin məbudunuz Tək olan İlahdır. Ona tərəf doğru yol tutun və Ondan bağışlanmağınızı diləyin”** (Fussilət, 6). Tövhid, dinin hamısını – əsaslarını, ikinci dərəcəli məsələləri və özəyini özündə cəm edir. Bu da, xeyirin hamısı deməkdir. İstiğfar isə şərə aid hər bir şeyi aradan qaldırır, silib aparır (Sunən ət-Tirmizi, 3577; Səhih Sunən ət-Tirmizi, 2831).

٦٢١- حَدَّثَنَا حَفْصٌ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ أَبِي بُرْدَةَ، سَمِعْتُ الأَغَرَّ، رَجُلٌ مِنْ جُهَيْنَةَ، يُحَدِّثُ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((تُوبُوا إِلَى اللَّهِ، فَإِنِّي أَتُوبُ إِلَيْهِ كُلَّ يَوْمٍ مِئَةَ مَرَّةٍ)).

**(621)** ........ Abdullah ibn Ömər ﵄ demişdir: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Allaha tövbə edin! Çünki mən hər gün Ona yüz dəfə tövbə edirəm.”[1]

٦٢٢- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنَا مَنْصُورٌ، عَنِ الْحَكَمِ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي لَيْلَى، عَنْ كَعْبِ بْنِ عُجْرَةَ قَالَ: مُعَقِّبَاتٌ لاَ يَخِيبُ قَائِلُهُنَّ: سُبْحَانَ اللَّهِ، وَالْحَمْدُ لِلَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، مِئَةَ مَرَّةٍ.

رَفَعَهُ ابْنُ أَبِي أُنَيْسَةَ وَعَمْرُو بْنُ قَيْسٍ.

**(622)** ........ Kəb ibn Ucra ﵁ demişdir:[2] “(Fərz namazını bitirdikdən[3]) sonra oxunan zikr vardır ki, hər kim bunları yüz dəfə desə, ziyana uğramaz:[4] Subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər.[5]”

---

[1] Bu hədisi Muslim (2702) rəvayət etmişdir.

[2] Bu hədisi Muslim (2/98), Tirmizi (2/249), Nəsai (1/198), Əbu Əvanə (2/247, 248), Beyhəqi (2/187) və Təyalisi (1060) rəvayət etmişdir.

[3] Bu ləfz Muslimin “Səhih”ində (2/98) varid olmuşdur.

[4] Yəni xeyir qazanar. Ən böyük xeyir isə Allahın rəhmətinə qovuşub Cənnəti qazanmaqdır. Hədisin burası bu fəslin ünvanına aid olan tərəfidir. Yəni bu kəlmələri deyən adama Allah məğfirət əta edər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər” (sözü), ağac öz yarpağını tökdüyü kimi, günahları silib aparır” (əl-Ədəbul-Mufrad, 634; Silsilətul-Əhadisis-Səhihə, 3168).

[5] Tərcüməsi: Allah pak və müqəddəsdir! Həmd Allaha məxsusdur! Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur! Allah ən böyükdür!

Bu kəlmənin fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur:

1. Peyğəmbər ﷺ demişdir: “Allah üçün ən sevimli kəlam dörddür, hansından başlasan, sənə zərər verməz: “Subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər” (Səhih Muslim, 2137).

2. Həmçinin, o, demişdir: "Mənim üçün "subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər"– demək, dünya və onun içindəkilərdən daha əzizdir" (Səhih Muslim, 2695).

3. Əli ibn Əbu Talibin ﷺ bacısı Ummu Hani ﷺ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ mənə baş çəkməyə gəldi və mən ona dedim: "Mən artıq yaşa dolmuşam, qocalıq məni əldən salıb. Mənə elə bir əməl öyrət ki, mən oturduğum yerdə ona əməl edim *və savab qazanım*." Peyğəmbər ﷺ buyurdu: "Yüz dəfə "subhanəllah" de, bu, sənin üçün İsmayıl ﷺ nəslindən yüz kölə azad etməyə bərabər olacaq. "Yüz dəfə "əlhəmdulilləh" de, bu, sənin üçün Allah yolunda vuruşan mücahidlərin mindiyi, yəhərlənmiş və yüyənlənmiş yüz ata bərabər olacaq. Yüz dəfə "Allahu əkbər" de, bu, sənin üçün qurban kəsilmiş və Allah tərəfindən qəbul edilmiş yüz dəvəyə bərabər olacaq. Yüz dəfə "Lə ilahə illəllah" de, bu, sənin üçün yerlə göy arasını savabla dolduracaq. Və bu zikri etdiyin gün – həmin zikri edən kimsə istisna olmaqla – heç kəsin savabı səninkindən çox olmayacaq" (Musnəd Əhməd, 6/344; Şoəbul-İman, 1/379-380; Silsilətul-Əhadisis-Səhihə, 1316).

4. Peyğəmbər ﷺ demişdir: "Yer üzündə: "Lə ilahə illəllahu, vəllahu əkbəru, və subhanəllahi, vəl-həmdulilləhi, və lə hovlə və lə quvvətə illə billəh"– deyən elə bir mömin yoxdur ki, onun günahları – dənizdəki köpüklərdən çox olsa belə, bağışlanmasın" (Musnəd Əhməd, 2/211; Sunən ət-Tirmizi, 3460; Səhih əl-Cami, 5636).

5. Həmçinin, o, demişdir: "Merac gecəsində mən İbrahim aleyhissəlamı gördüm. O, dedi: "Ey Muhəmməd! Məndən ümmətinə salam söylə və onlara bildir ki, Cənnətin torpağı ətirli, suyu da olduqca şirindir. Yeri dümdüzdür, üzərinə əkilənlər isə: "Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər" kəlmələridir" (Sunən ət-Tirmizi, 3462; şeyx Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (105) bu hədisin "həsən" olduğunu demişdir).

6. Abdullah ibn Şəddad ﷺ rəvayət etmişdir ki, Bənu Uzra qəbiləsindən üç nəfər Peyğəmbərin ﷺ yanına gəlib İslam dinini qəbul etdilər. Sonra Peyğəmbər ﷺ: "Kim bunları öz himayəsinə götürə bilər?"– dedi və Talhə ibn Ubeydullah bu işi öz boynuna çəkdi. Bir müddət sonra Peyğəmbər ﷺ ordu hazırlayıb döyüşə göndərdi. Həmin üç nəfərdən biri onlara qoşuldu və döyüşdə şəhid oldu. Daha sonra Peyğəmbər ﷺ yenə ordu hazırlayıb döyüşə göndərdi. Yenə onlardan biri orduya qoşuldu və döyüşdə şəhid oldu. Üçüncüsü isə yataqda vəfat etdi. Talhə dedi: "Mən yuxuda bu üç nəfərin Cənnətə girdiyini gördüm. Mən yataqda vəfat edənin öndə durduğunu, ikinci şəhid olanın onun arxasında durduğunu, ilk şəhid olanın isə onların arxasında durduğunu gördüm. Bu yuxu mənə qəribə gəldi və mən onu Peyğəmbərə ﷺ danışdım" Peyğəmbər ﷺ dedi: "Səni təəccübləndirən

nədir?! Allah yanında, daim çoxlu təkbir, təsbih, təhlil və təhmid gətirərək yaşayan kimsədən daha fəzilətli bir kimsə ola bilməz" (Musnəd Əhməd, 1/163; Sunən ən-Nəsai əl-Kubra, 10606; Şeyx Albani bu hədisin "həsən-səhih" olduğunu demşdir. Bax: "Silsilətul-Əhadisis-Səhihə", 654 və Səhih əl-Cami, 5371).

7. Peyğəmbər ﷺ demişdir: "Allah (Öz qulları üçün) dörd kəlmə seçmişdir: "Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər." Kim "subhanəllah"– desə, ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər, "Allahu əkbər"– desə, yenə ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər, "lə ilahə illəllah"– desə, yenə ona iyirmi savab yazılar və onun iyirmi günahı silinər və nəhayət, ürəkdən "əlhəmduliləh Rabbil-aləmin"– desə, ona otuz savab yazılar və onun otuz günahı silinər" (Musnəd Əhməd, 2/302; Mustədrək, 1/512; Səhih əl-Cami, 1718).

8. Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, bir dəfə Peyğəmbər ﷺ bizə: "Qalxanınızı götürün!"– deyə buyurdu. Biz dedik: "Ya Rəsulullah! Üstümüzə düşmənmi gəlir?" O, buyurdu: "Yox, əksinə, Oddan qoruyacaq qalxanınızı götürün: Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər. Bu kəlmələr, sahibini Cəhənnəm odundan qoruyan və onu öndə aparan, habelə, savabı əbədi qalacaq yaxşı əməllərdəndir" (Mustədrək, 1/541; Səhih əl-Cami, 3214).

9. Peyğəmbər ﷺ demişdir: "Allahı tərif edərək zikr etdiyiniz təsbihlər, təkbirlər, təhlillər və təhmidlər Ərşin ətrafında dövr edirlər. Həmin vaxt onlardan arıların vızıltısı kimi bir səs gəlir. Onlar öz sahibini zikr edirlər (yəni onları zikr edən kimsənin adını çəkir, Allah yanında onun üçün şahidlik edirlər). İstəmirsiniz ki, davamlı şəkildə sizin adınızı zikr edənlər olsun?!" (Musnəd Əhməd, 4/271; Sunən İbn Macə, 3809; Mustədrək, 1/503; Silsilətul-Əhadisis-Səhihə, 3358).

10. Həmçinin, o, beş şeyə işarə edərək demişdir: "Bəh, bəh! Tərəzidə ən ağır gələnlər necə də gözəldir: Subhanəllah, vəl-həmdulillah, və lə ilahə illəllah, vəllahu əkbər (kəlmələridir). Və bir də müsəlmanın vəfat etmiş əməlisaleh övladıdır. (Belə ki,) o bu itkinin savabını Allahdan umur" (Səhih İbn Hibban, 2328; Mustədrək, 1/511-512; Silsilətul-Əhadisis-Səhihə, 1204).

11. Əbu Zərr ﷺ rəvayət edir ki, bir dəfə kasıb mühacirlər Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Ya Rəsulullah, var-dövlət sahibləri (bizdən çox) savab qazanırlar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və üstəlik, ən gözəl mallarını (Allah yolunda) sədəqə verirlər." O buyurdu: "Məgər, Allah sizin üçün sədəqə verəcəyiniz şeylər hazırlamayıb?! Həqiqətən, hər bir təsbih sədəqədir, hər bir təkbir sədəqədir, hər bir təhmid sədəqədir, hər bir təhlil sədəqədir, yaxşı əməlləri buyurmaq sədəqədir, pis işlərdən

İbn Əbu Uneysə və Amr ibn Qeys bu hədisi "mərfu" isnadla rəvayət etmişlər.

---

çəkindirmək sədəqədir, habelə, (həyat yoldaşı ilə) yaxınlıq etmək də sədəqədir." Səhabələr soruşdular: "Ya Rəsulullah! Birimiz zövcəsi ilə yaxınlıq edir və buna görə də savab qazanır?" O, dedi: "Məgər haram yolla yaxınlıq etdikdə, buna görə günah qazanmır?! Eləcə də, halalı ilə yaxınlıq etdikdə, savab qazanır" (Səhih Muslim, 1006).

12. İbn Əbu Əufə ﷺ demişdir: "Bədəvilərdən biri Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mən Quranı öyrənə bilmirəm. Mənə bunu əvəz edəcək xeyirli sözlər öyrət!" Peyğəmbər ﷺ buyurdu: "De: "Subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllahu, vəllahu əkbər və lə hovlə və lə quvvətə illə billəh." Bədəvi barmaqları ilə *bu kəlmələri* sayıb əlini yumdu və dedi: "Bunlar Allaha aiddir. Bəs mənə aid olanı nədir?" Peyğəmbər ﷺ buyurdu: "De: "Allahumməğfirli, vərhəmni, və afini, vərzuqni, vəhdini (Allahım, məni bağışla, mənə rəhm et, mənə salamatlıq əta et, mənə ruzi ver, mənə hidayət ver!)" Bədəvi barmaqları ilə (bu kəlmələri də) sayıb əlini yumdu. Onda, Peyğəmbər ﷺ buyurdu: "Bu adam hər iki əlini xeyirlə doldurdu!" (Sunən Əbu Davud, 1/133; Sunən ən-Nəsai, 1/146; Sunən əd-Daraqutni, 1/313-314; şeyx Albani "Səhih Tərğib vət-Tərhib" əsərində (1561) bu hədisin "həsən" olduğunu demişdir).

## ٢٧٨- بَابُ دُعَاءِ الأَخِ بِظَهْرِ الْغَيْبِ

## 278-ci fəsil. (Adamın) yanında olmayan (mömin) qardaşı (üçün) dua etməsi

٦٢٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ زِيَادٍ قَالَ لِي عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ عَمْرٍو، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَسْرَعُ الدُّعَاءِ إِجَابَةً دُعَاءُ غَائِبٍ لِغَائِبٍ)).

**(623)** ........ Abdullah ibn Amr ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ən tez qəbul olunan dua qaibin[1] qaib üçün etdiyi duadır.[2]"[3]

٦٢٤- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا حَيْوَةُ قَالَ: أَخْبَرَنَا شُرَحْبِيلُ ابْنُ شَرِيكٍ الْمَعَافِرِيُّ، أَنَّهُ سَمِعَ أَبَا عَبْدِ الرَّحْمَنِ الْحُبُلِيَّ، أَنَّهُ سَمِعَ الصُّنَابِحِيَّ، أَنَّهُ سَمِعَ أَبَا بَكْرٍ الصِّدِّيقَ رَضِيَ اللَّهُ عَنْهُ: إِنَّ دَعْوَةَ الأَخِ فِي اللَّهِ تُسْتَجَابُ.

---

[1] Qaib: gözdən uzaqda olan, hazır olmayan, gəlməmiş yaxud üçüncü şəxs.

[2] Aşağıdakı ayələri və hədisləri bu qəbildən olan duaya dəlil göstərmək olar:

**"Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və *bütün* mömin kişi və qadınları bağışla!"** (Nuh, 28);

**"Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10).

"Allahım, dirimizi və ölümüzü, burada olanımızı və olmayanımızı, kiçiyimizi və böyüyümüzü, kişimizi və qadınımızı bağışla! Allahım, bizdən kimi yaşatsan müsəlman kimi yaşat! Bizdən kimi öldürsən mömin kimi öldür! Allahım, onun əcrindən bizi məhrum etmə və ondan sonra bizi azdırma!" (Sunən İbn Macə 1/480; Səhih İbn Macə, 1/251).

"Allahım, həyat, məhz Axirət həyatıdır, Sən ənsarı və mühacirləri bağışla!" (Səhih əl-Buxari, 2834);

"Allahım, ənsarı və onların ovladlarını bağışla!" (Səhih əl-Buxari, 4906).

[3] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Ziyad əl-İfriqi "zəif" ravi olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Bu hədisin isnadı "zəif" olsa da, mömininin qaib mömin üçün etdiyi duanın qəbul olması "səhih"dir (625-ci və 626-cı hədislərə bax).

**(624)** ........ Əbu Bəkr ﷺ demişdir: “Allah (rizasını qazanmaq) üçün qardaş olan kimsənin (mömin qardaşı üçün) etdiyi dua qəbuldur.”[1]

**٦٢٥-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَبِي غَنِيَّةَ قَالَ: أَخْبَرَنَا عَبْدُ الْمَلِكِ بْنُ أَبِي سُلَيْمَانَ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ صَفْوَانَ بْنِ عَبْدِ اللَّهِ بْنِ صَفْوَانَ، وَكَانَتْ تَحْتَهُ الدَّرْدَاءُ بِنْتُ أَبِي الدَّرْدَاءِ، قَالَ: قَدِمْتُ عَلَيْهِمُ الشَّامَ، فَوَجَدْتُ أُمَّ الدَّرْدَاءِ فِي الْبَيْتِ، وَلَمْ أَجِدْ أَبَا الدَّرْدَاءِ، قَالَتْ: أَتُرِيدُ الْحَجَّ الْعَامَ؟ قُلْتُ: نَعَمْ، قَالَتْ: فَادْعُ اللَّهَ لَنَا بِخَيْرٍ، فَإِنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: ((إِنَّ دَعْوَةَ الْمَرْءِ الْمُسْلِمِ مُسْتَجَابَةٌ لِأَخِيهِ بِظَهْرِ الْغَيْبِ، عِنْدَ رَأْسِهِ مَلَكٌ مُوَكَّلٌ، كُلَّمَا دَعَا لِأَخِيهِ بِخَيْرٍ قَالَ: آمِينَ، وَلَكَ بِمِثْلٍ)). قَالَ: فَلَقِيتُ أَبَا الدَّرْدَاءِ فِي السُّوقِ فَقَالَ مِثْلَ ذَلِكَ، يَأْثُرُ عَنِ النَّبِيِّ ﷺ.

**(625)** ........ Əbu Dərdanın ﷺ kürəkəni Səfvan ibn Abdullah ibn Səfvan demişdir: “Mən Şama yoldaşımın ailəsinə baş çəkməyə gəldikdə Ummu Dərdanın[2] evdə olduğunu gördüm. Əbu Dərda isə evdə yox idi. Ummu Dərda *məndən*: “Bu il həcc ziyarətinə getmək fikrin varmı?”– deyə soruşdu. Mən: “Bəli!”– deyə cavab verdim. O buyurdu: “Elə isə, bizim üçün Allaha xeyirli dualar et!”[3] Çünki Peyğəmbər ﷺ deyərdi: “Müsəlman bəndənin yanında olmayan qardaşı üçün etdiyi dua qəbuldur. Belə ki, dua edən adamın başı üzərində təyin olunmuş bir mələk vardır. Adam hər dəfə qardaşı üçün dua edib xeyir dilədikdə mələk: “Amin, sənə də onun misli qədər yetişsin!”– deyər.”

Sonra mən bazarda Əbu Dərda ilə rastlaşdım. O da bunu mənə Peyğəmbərdən ﷺ eynilə rəvayət etdi.”[4]

**٦٢٦-** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ، وَشِهَابٌ، قَالاَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ عَطَاءِ بْنِ السَّائِبِ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: قَالَ رَجُلٌ: اللَّهُمَّ اغْفِرْ لِي وَلِمُحَمَّدٍ وَحْدَنَا، فَقَالَ النَّبِيُّ ﷺ: ((لَقَدْ حَجَبْتَهَا عَنْ نَاسٍ كَثِيرٍ)).

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

[2] Bu, Dərdanın anası, yəni Səfvanın qaynanasıdır.

[3] Bu, dəlildir ki, həyatda olan əməlisaleh insandan dua etməyi xahiş etmək caizdir.

[4] Bu hədisi İmam Əhməd (6/452) rəvayət etmiş və şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

**(626)** ........ Abdullah ibn Amr ﷺ demişdir: "Bir nəfər: "Allahım, ancaq məni və Muhəmmədi bağışla"– deyə dua etdi. Peyğəmbər ﷺ də ona: "Sən bir çox insanları bu məğfirətdən məhrum etdin[1]"– dedi."[2]

**٦٢٧–** حَدَّثَنَا جَنْدَلُ بْنُ وَالِقٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ يَعْلَى، عَنْ يُونُسَ بْنِ خَبَّابٍ، عَنْ مُجَاهِدٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَسْتَغْفِرُ اللَّهَ فِي الْمَجْلِسِ مِئَةَ مَرَّةٍ: ((رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، وَارْحَمْنِي، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ)).

**(627)** ........ Abdullah ibn Ömər ﷺ demişdir: "Peyğəmbər ﷺ məclisdə yüz dəfə: "Ey Rəbbim! Məni bağışla, mənim tövbəmi qəbul et, mənə rəhm et! Şübhəsiz ki, Sən tövbələri Qəbul Edənsən, Bağışlayansan!"– deyərək Allahdan bağışlanma diləyərdi."[3]

---

[1] Peyğəmbərin ﷺ bu etirazı dəlildir ki, mömin adam təkcə özü üçün yox, əksinə, mömin qardaş və bacılarının hamısı, ələlxüsus da valideynləri üçün də dua etməlidir. Belə olduğu halda o, olduqca böyük savaba nail olar. Bu xüsusda Rəsulullah ﷺ demişdir: "Kim mömin kişilər və mömin qadınlar üçün *Allahdan* bağışlanma diləyərsə, hər bir möminə görə ona bir savab yazılar" (Mocəm ət-Təbərani, 10970; Səhih əl-Cami, 6026).

[2] Bu hədisi imam Əhməd (2/196, 221) rəvayət etmiş və şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] 618-ci, 619-cu və 621-ci hədisin qeydlərinə bax.

## ٢٧٩- بَابُ

## 279-cu fəsil.

٦٢٨- حَدَّثَنَا عُبَيْدُ بْنُ يَعِيشَ قَالَ: حَدَّثَنَا يُونُسُ، عَنِ ابْنِ إِسْحَاقَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: إِنِّي لَأَدْعُو فِي كُلِّ شَيْءٍ مِنْ أَمْرِي حَتَّى أَنْ يُفْسِحَ اللَّهُ فِي مَشْيِ دَابَّتِي، حَتَّى أَرَى مِنْ ذَلِكَ مَا يَسُرُّنِي.

**(628)** ........ İbn Ömər ﷺ demişdir: "Mən bütün işlərim üçün,[1] hətta heyvanımın yerişinin yaxşılaşması üçün Allaha dua edirəm. Nəhayət, onun *qəbul olduğunu və* məni sevindirdiyini görürəm."[2]

٦٢٩- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عَبْدِ اللَّهِ أَبُو مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا مُهَاجِرٌ أَبُو الْحَسَنِ، عَنْ عَمْرِو بْنِ مَيْمُونٍ الْأَوْدِيِّ، عَنْ عُمَرَ أَنَّهُ كَانَ فِيمَا يَدْعُو: اللَّهُمَّ تَوَفَّنِي مَعَ الْأَبْرَارِ، وَلَا تُخَلِّفْنِي فِي الْأَشْرَارِ، وَأَلْحِقْنِي بِالْأَخْيَارِ.

**(629)** ........ Amr ibn Məymun əl-Ovdi demişdir:[3] "Ömər belə dua edərdi: "Allahım, mənim canımı itaətkarlarla birlikdə al,[4] məni pis insanların arasında buraxma və məni xeyirxah insanlara qovuşdur.[1]"

---

[1] Bu, o deməkdir ki, hər bir işin düzəlməsi yalnız Allahın istəyinə bağlıdır. Uca Allah buyurur: **"Allah göydən yerə qədər olan bütün işləri idarə edir"** (əs-Səcdə, 5). Ömər ibn Xattab ﷺ deyərdi: "Mən duanın necə qəbul olunacağından narahat deyiləm, mən ancaq dua etməyə müvəffəq olacağımdan narahatam. Və əgər dua etməyə müvəffəq olaramsa, onun nəticəsini görməyə də müvəffəq olaram" (Məcmu əl-Fətavə, 8/193). Çünki Uca Allah duanı qəbul edəcəyinə zəmanət vermişdir. Bu xüsusda, Uca Allah buyurur: **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən *onlara* yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm"** (əl-Bəqərə 186); O, həmçinin, buyurur: "**Rəbbiniz buyurur: "Mənə dua edin, Mən də sizə cavab verim**" (Ğafir, 60).

[2] Bu hədisin isnadında keçən İbn İshaq "mudəllis" ravi olduğundan və bu hədisi "muan'ən" isnadla rəvayət etdiyindən şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Ömər ibn Xattab ﷺ bu dua ilə Allahdan əməllərinin islah olunmasını, ömrünün sonunadək Ona itaətkar olmağını və nəhayət, itaətkarlara qovuşmağı diləyir. Quranda mö-

٦٣٠- حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا شَقِيقٌ قَالَ كَانَ عَبْدُ اللَّهِ يُكْثِرُ أَنْ يَدْعُوَ بِهَؤُلاَءِ الدَّعَوَاتِ: رَبَّنَا أَصْلِحْ بَيْنَنَا، وَاهْدِنَا سُبُلَ الإِسْلاَمِ، وَنَجِّنَا مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ، وَاصْرِفْ عَنَّا الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ، وَبَارِكْ لَنَا فِي أَسْمَاعِنَا وَأَبْصَارِنَا وَقُلُوبِنَا وَأَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا، وَتُبْ عَلَيْنَا إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ، وَاجْعَلْنَا شَاكِرِينَ لِنِعْمَتِكَ، مُثْنِينَ بِهَا، قَائِلِينَ بِهَا، وَأَتْمِمْهَا عَلَيْنَا.

**(630)** ........ Şəqiq rəvayət edir ki, Abdullah (ibn Məsud) çox vaxt bu duaları edərdi:[2] "Ey Rəbbimiz! Bizim aramızdakı münasibətləri düzəlt, bizi İslam yollarına yönəlt,[3] bizi zülmətlərdən qurtarıb nura çıxart.[4] Aşkara çıxan və gizlin qalan yaramaz əməlləri (və pis sözləri) bizdən uzaq et. Qulaqlarımıza, gözlərimizə, qəlbimizə, zövcələrimizə və nəslimizə bərəkət

---

minlərin belə dua etdiyi bizə xəbər verilir: **"Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al!"** (Ali-İmran, 193); **"Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur"** (Yusuf, 101).

[1] Sələflər həmişə özlərinə ancaq əməlisaleh insanı dost tutardılar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam dostunun dini üzərindədir. Hər biriniz kiminlə dostluq etdiyinə baxsın!" (Sunən Əbu Davud, 2/293; Sunən ət-Tirmizi, 2/278; Silsilətul-Əhadisis-Səhihə, 927). Bundan aydın olur ki, mömin adam pis insanlarla oturub durmaqdan çəkinməli və xeyirxah insanlarla dostluq etməyə həris olmalıdır (138-ci və 159-cu hədislərə və onların qeydlərinə bax).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Əbu Davudun "Sunən" əsərində bu hədis: "Bizi əmin-amanlıq yollarına yönəlt" ləfzi ilə varid olmuşdur. Hər iki ləfz eyni mənanı verir. Bu xüsusda, Uca Allah buyurur: **"Allah, Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir"** (əl-Maidə, 16).

[4] Uca Allah buyurur: **"Allah iman gətirənlərin Himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətlərə salarlar"** (əl-Bəqərə, 257). Burada zülmətlər deyildikdə, şirkin zülmətləri, küfrün zülmətləri, nifaqın zülmətləri, bidətlərin zülmətləri, asiliklərin zülmətləri, nəfsin istəyinin zülmətləri və digər zülmətlər, nur deyildikdə isə tövhidin nuru, "lə ilahə illəllah"ın nuru, itaətin nuru, namazın nuru, sədəqənin nuru, orucun nuru, həccin nuru və digər nurlar qəsd edilir.

ver.[1] Bizim tövbələrimizi qəbul et. Həqiqətən, Sən tövbələri qəbul Edənsən, Rəhmlisən! Bizləri Sənin nemətinə şükür edən,[2] onları tərifləyən,[3] onlar barədə danışan kimsələrdən et[1] və bizə Öz nemətlərini tamamla.[2]"[3]

---

[1] Burada zikr olunan "bərəkət ver" sözü iki mənanı özündə cəm edir: mövcud olan bərəkətin davamlı qalması və bir də bu bərəkətin artması. Bundan aydın olur ki, qulaqlar, gözlər və qəlb üçün bərəkət diləmək, bu əzaların həm salamat qalmasını, həm də yalnız Allahı razı salacaq əməllərə xidmət etməsini diləmək deməkdir. Həyat yoldaşı və övlad üçün bərəkət diləmək də həmçinin, onların son nəfəsədək əməlisaleh qalmasını, üstəlik, daha da itaətkar insan olmasını diləmək deməkdir. Əlbəttə ki, insanın Allahın ona bəxş etdiyi əzalarla günah işlər görməsi, bu əzaların bərəkətsiz olduğuna dəlalət edir. Məsələn, adamın musiqiyə aludə olması, qulağının bərəkətsiz olmasına, pis niyyətlə naməhrəmə baxması, gözünün bərəkətsiz olmasına və nəhayət, küfrə yol verməsi, münafiqlik etməsi, şübhələrə dalması, qəlbinin bərəkətsiz olmasına dəlalət edir. Səhabələr daim belə haramlardan uzaq olmağa çalışardılar. Rəvayətlərin birində Nafi demişdir: "Bir dəfə İbn Ömər *yol gedərkən* çobanın çaldığı tütək səsini eşidib barmaqlarını qulaqlarına tıxadı və dəvəsini yoldan qırağa sürdü. Sonra *məndən*: "Ey Nafi, tütəyin səsi eşidilirmi?"– deyə soruşdu. Mən: "Bəli!"– dedim. O, yoluna davam etdi. Nəhayət, mən: "Səsi kəsildi"– dedim. Onda o, barmaqlarını qulağından çıxardıb yola qayıtdı və dedi: "Mən Rəsulullahın ﷺ çobanın çaldığı tütək səsini eşitdiyini və bu cür hərəkət etdiyini görmüşəm" (Musnəd Əhməd, 2/8 və 38; Sunən Əbu Davud, 4/163; şeyx Albani "Təhrim Alətut-Tərb" əsərində bu rəvayətin "səhih" olduğunu demişdir). Bu əzalara görə sorğu-sual olunacağımız barədə Uca Allah buyurur: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır"** (əl-İsra, 36).

[2] Burada "nemət" deyildikdə, Allahın insana bəxş etdiyi bütün nemətlər – İslam dininin gəlişi, Muhəmmədin ﷺ peyğəmbər göndərilməsi, Quranın nazil olması, habelə, sağlamlıq, itaətkar zövcə, əməlisaleh övlad və s. nemətlər nəzərdə tutulur. Qulaq, göz və qəlb də bu nemətlərdən sayılır. Bu xüsusda, Uca Allah buyurur: **"Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz"** (ən-Nəhl, 78).

[3] Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "Allah, yemək yedikdən və ya su içdikdən sonra Ona həmd edən bəndəsindən razı qalır" (Səhih Muslim, 2734). Bu şəriəti bizim üçün bu qədər asanlaşdıran və bu nemətləri bizə əta edən Rəbbimizə həmd-sənalar olsun! Uca Allah buyurur: **"Əgər şükür etsəniz, *Allah* buna görə sizdən razı qalar"** (əz-Zumər, 7). Əgər biz Allahın bizə əta etdiyi nemətlərə şükür etsək, Allah bu nemətləri həm artırar, həm də bərəkətli edər. Uca Allah buyurur: **"Əgər şükür etsəniz, sizə *olan***

٦٣١- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ ثَابِتٍ قَالَ: كَانَ أَنَسٌ إِذَا دَعَا لِأَخِيهِ يَقُولُ: جَعَلَ اللَّهُ عَلَيْهِ صَلاَةَ قَوْمٍ أَبْرَارٍ لَيْسُوا بِظَلَمَةٍ وَلاَ فُجَّارٍ، يَقُومُونَ اللَّيْلَ، وَيَصُومُونَ النَّهَارَ.

**(631)** ........ Sabit rəvayət edir ki, Ənəs ibn Malik ﷺ (mömin) qardaşı üçün dua edib deyərdi: "Zalımlardan və günahkarlardan olmayan, gecələri namaz qılıb gündüzləri oruc[4] tutan itaətkar bir camaatın duasını[5] Allah onun üzərinə eləsin![6]"[7]

---

***nemətimi* artıraram, yox əgər nankorluq etsəniz, *bilin ki,* Mənim əzabım şiddətlidir"** (İbrahim, 7). Bu xüsusda Suleyman aleyhissəlamı da misal çəkmək olar. Bir zaman o, dua edib demişdir: **"Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməli etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"** (ən-Nəml, 19).

[1] Bu xüsusda, Uca Allah buyurur: **"Və Rəbbinin nemətindən danış"** (əd-Duha, 11).

[2] Burada "tamamla" deyildikdə, bu nemətlərin qorunması, davamlı və salamat qalması nəzərdə tutulur. Bunların hamısının tamamı isə Qiyamət günü Cənnətə daxil olmaqdır. Allah bizləri Firdovs cənnətinin sakinlərindən etsin!

[3] Transkripsiyası: Rabbənə əslih beynənə, vəhdinə subuləl-İslam, və nəccina minəzzulumati ilən-nur, vəsrif annəl-fəvahişə mə zahərə minhə və mə bətan, və barik lənə fi əsmainə və əbsarinə və qulubinə və əzvacinə və zurriyyatinə, və tub aleynə innəkə əntət-Təvvabur-Rəhim, vəc-alnə şakirinə li nimətikə, musninə bihə, qailinə bihə və ətmimhə aleynə.

[4] Burada "gecələri namaz qılıb gündüzləri oruc tutan" deyildikdə, Sünnəyə uyğun olan namaz və oruc, yəni bütün gecəni yox, sadəcə bir qismini, həmçinin, ayın bütün günlərini deyil, ancaq həftənin 1-ci və 4-cü günləri yaxud ayın üç gününü və s. Sünnəyə müvafiq olan orucları tutmaq qəsd edilir.

[5] Bir zaman Peyğəmbər ﷺ öz səhabəsinə belə demişdir: "Məgər sizə aranızdakı zəiflərin *duaları sayəsində* zəfər və ruzi bəxş edilmirmi?!" (Səhih əl-Buxari, 2896).

[6] Transkripsiyası: Cəaləllahu aleyhi salətə qovmin əbrar, leysu bi zaləmətin və lə fuccar, yəqumunəl-leylə və yəsumunən-nəhar.

[7] Bu əsər "mövquf" isnadla varid olsa da, əslində, bu, Peyğəmbərin ﷺ duasıdır. Digər hədisdə Ənəs ibn Malik ﷺ Peyğəmbərin ﷺ belə dua etdiyini rəvayət etmişdir (Muntəxəb minəl-Musnəd, 2/147; əl-Muxtarə, 1/34; Silsilətul-Əhadisis-Səhihə, 1810).

**٦٣٢–** حَدَّثَنَا ابْنُ نُمَيْرٍ قَالَ: حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي خَالِدٍ قَالَ: سَمِعْتُ عَمْرَو بْنَ حُرَيْثٍ يَقُولُ: ذَهَبَتْ بِي أُمِّي إِلَى النَّبِيِّ ﷺ، فَمَسَحَ عَلَى رَأْسِي، وَدَعَا لِي بِالرِّزْقِ.

**(632)** ........ Amr ibn Hureys[1] ﷺ demişdir: "(Bir gün) anam məni Peyğəmbərin ﷺ yanına apardı və o mənim başımı sığallayıb[2] ruzimin[3] artması üçün dua etdi."[4]

**٦٣٣–** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ عَبْدِ اللَّهِ الرُّومِيُّ قَالَ: أَخْبَرَنِي أَبِي، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: قِيلَ لَهُ: إِنَّ إِخْوَانَكَ أَتَوْكَ مِنَ الْبَصْرَةِ، وَهُوَ يَوْمَئِذٍ بِالزَّاوِيَةِ، لِتَدْعُوَ اللَّهَ لَهُمْ، قَالَ: اللَّهُمَّ اغْفِرْ لَنَا، وَارْحَمْنَا، وَآتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الْآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ، فَاسْتَزَادُوهُ، فَقَالَ مِثْلَهَا، فَقَالَ: إِنْ أُوتِيتُمْ هَذَا، فَقَدْ أُوتِيتُمْ خَيْرَ الدُّنْيَا وَالآخِرَةِ.

**(633)** ........ Rəvayət edilir ki, (bir gün) Ənəs ibn Malikə ﷺ dedilər: "Qardaşların Bəsrədən sənin yanına gəliblər ki, onlar üçün Allaha dua edəsən."[5] Həmin gün Ənəs öz malikanəsində idi.[6] O, dedi: "Allahım, bizi ba-

---

[1] Amr ibn Hureys ibn Amr ibn Osman əl-Məxzumi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ vəfat etdiyi zaman on iki yaşı var idi. Amr ibn Hureys ﷺ Kufə əhlinin ən zəngin sakini olmuşdur. Hicrətin 85-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 70-ci tərcümeyi-hal).

[2] Peyğəmbər ﷺ uşaqları əzizləyərkən onların başını sığallayardı. Peyğəmbərin ﷺ uşaqla bu tərzdə rəftar etməsi, onun təvazökar insan olduğunu bir daha sübuta yetirir. Bu hədisdən və bu mənada olan hədislərdən aydın olur ki, uşağı öpmək, qucaqlamaq, ayağın üstə oturtmaq və başını sığallamaq körpəyə göstərilən mərhəmətə aiddir.

[3] Burada "ruzi" deyildikdə, həm bu dünyaya, həm dinə aid olan ruzi nəzərdə tutulur.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[5] Bu, dəlildir ki, həyatda olan əməlisaleh insandan dua etməyi xahiş etmək, hətta bunun üçün uzaq məsafəni qət etmək caizdir.

[6] 458-ci hədisin qeydlərinə bax.

ğışla və bizə rəhm et.[1] Bizə həm *bu* dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru![2]"[3] Onlar ondan bir qədər çox dua etməsini xahiş etdilər. O, yenə həmin duanı etdi.[4] Sonra dedi: "Əgər bunlar sizə verilsə, dünya və Axirətdə olan xeyirə[5] nail olarsınız."[1]

---

[1] Ənəs ibn Malik ﷺ bu duanı on il xidmət göstərdiyi Peyğəmbərdən ﷺ öyrənmişdir. Peyğəmbər ﷺ məsum olmağına baxmayaraq hər gün yüz dəfə Allahdan bağışlanma diləmiş, onun qədər Allahdan bağışlanma diləyən başqa birisi olmamış, hətta, son nəfəsində belə Allahdan məğfirət diləyərək bu dünyadan köçmüşdür. Peyğəmbərin ﷺ vəfat etdiyi an onun yanında olmuş möminlərin anası Aişə ﷺ demişdir: "Rəsulullah ﷺ ölüm ayağında, başı da mənim sinəmin üstə ikən əlini qaldırıb: "Allahım, məni bağışla, mənə rəhm et və məni uca dostlara qovuşdur!"– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əli yanına düşdü" (Səhih əl-Buxari, 4449; Səhih Muslim, 2444).

[2] Bu möhtəşəm duanın bu hissəsi Qurani Kərimdə öz təsdiqini tapmışdır. **"Ey Rəbbimiz! Bizə həm *bu* dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru!"** (əl-Bəqərə, 201). Habelə, bu xüsusda varid olmuş hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ ən çox bu duanı edərdi: "Allahummə, Rabbənə atinə fid-dunya həsənə, və fil-axirəti həsənə, və qina əzabən-nar (Allahım, ey Rəbbimiz, bizə həm *bu* dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru!)" (Səhih əl-Buxari, 6389; Səhih Muslim, 2690).

[3] Transkripsiyası: Allahumməğ-fir lənə, vər-həmnə, və atinə fid-dunya həsənə, və fil-axirəti həsənə, və qina əzabən-nar.

[4] Ənəs ibn Malik ﷺ bununla bildirmək istəyir ki, xeyrə nail olmaq üçün duadakı kəlmələrin çox olması əhəmiyyət kəsb eləmir, əhəmiyyət kəsb edən duanın mənasının əhatəli olmasıdır (647-ci hədisə və onun qeydlərinə bax).

[5] Buradakı "xeyir" kəlməsi dünya və Axirətdə olan xeyirlərin hamısına şamil edilir. Bu xeyirlərin ən əzəmətlisi isə Qiyamət günü Allahı görməkdir. Bu xüsusda, Uca Allah buyurur: **"Yaxşı iş görənlər üçün ən yaxşısı və bundan da üstünü** (Cənnət, üstəlik, də Allahı görmək) **vardır"** (Yunus, 26); **"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı – *Allahı görmək* vardır"** (Qaf, 35). Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Cənnət əhli Cənnətə daxil olduğu zaman Allah Təbarəkə və Təalə belə buyuracaq: "İstəyirsinizmi sizə nə isə artırım?" Onlar deyəcəklər: "Sən bizim üzümüzü ağ etmədinmi?! Bizi atəşdən qurtarıb, Cənnətə daxil etmədinmi?!" Bunun ardından Allah hicabı qaldıracaq. Artıq onlara özlərinin İzzətli və Qüdrətli Rəbbinə baxmaqdan daha əziz bir şey verilməyəcəkdir" (Səhih Muslim, 449).

**٦٣٤-** حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا أَبُو رَبِيعَةَ سِنَانٌ قَالَ: حَدَّثَنَا أَنَسُ ابْنُ مَالِكٍ قَالَ: أَخَذَ النَّبِيُّ ﷺ غُصْنًا فَنَفَضَهُ فَلَمْ يَنْتَفِضْ، ثُمَّ نَفَضَهُ فَلَمْ يَنْتَفِضْ، ثُمَّ نَفَضَهُ فَانْتَفَضَ، قَالَ: ((إِنَّ سُبْحَانَ اللَّهِ، وَالْحَمْدَ لِلَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، يَنْفُضْنَ الْخَطَايَا كَمَا تَنْفُضُ الشَّجَرَةُ وَرَقَهَا)).

**(634)** ........ Ənəs ibn Malik ﷺ demişdir: “(Bir dəfə) Peyğəmbər ﷺ bir (ağacın) budağını tutub onu silkələdi,[2] lakin onun yarpaqları tökülmədi. Bir də silkələdi, yenə onun yarpaqları tökülmədi. Bir də silkələdi (və bu dəfə onun yarpaqları) töküldü. Onda o belə buyurdu: “Subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllah”[3] (sözləri), ağac öz yarpaqlarını tökdüyü kimi günahları[4] silib aparır.[5]”[6]

**٦٣٥-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سَلَمَةُ قَالَ: سَمِعْتُ أَنَسًا يَقُولُ: أَتَتِ امْرَأَةٌ النَّبِيَّ ﷺ تَشْكُو إِلَيْهِ الْحَاجَةَ، أَوْ بَعْضَ الْحَاجَةِ، فَقَالَ: ((أَلاَ أَدُلُّكِ عَلَى خَيْرٍ مِنْ ذَلِكَ؟ تُهَلِّلِينَ اللَّهَ ثَلاَثًا وَثَلاَثِينَ عِنْدَ مَنَامِكِ، وَتُسَبِّحِينَ ثَلاَثًا وَثَلاَثِينَ، وَتَحْمَدِينَ أَرْبَعًا وَثَلاَثِينَ، فَتِلْكَ مِئَةٌ خَيْرٌ مِنَ الدُّنْيَا وَمَا فِيهَا)).

**(635)** ........ Ənəs ﷺ demişdir: “Bir qadın Peyğəmbərin ﷺ yanına gəlib öz işlərindən, yaxud bəzi işlərindən ona şikayət etdi. Peyğəmbər ﷺ də *ona* belə buyurdu: “Sənə bundan da xeyirlisini göstərimmi? Yatmaq istədikdə,

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[2] İmam Tirmizinin (3533) rəvayətində deyilir ki, “Peyğəmbər ﷺ yarpaqları qurumuş bir ağacın yanından keçərkən *əlindəki* əsa ilə ağacın budağına vurdu....”

[3] 622-cı-hədisə və onun qeydlərinə bax.

[4] Burada “günahlar” deyildikdə, kiçik günahlar və qəbahətlər nəzərdə tutulur. Belə ki, böyük günahların silinməsi üçün tövbə etmək gərəkdir. Uca Allah bu xüsusda buyurur: **“Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçər və sizi şərəfli bir keçidə – *Cənnətə* daxil edərik”** (ən-Nisa, 31).

[5] Burada Peyğəmbər ﷺ səhabələrinə deyəcəklərini daha yaxşı anlaması üçün ağacın yarpaqlarının tökülməsini misal çəkir. Deməki, hər dəfə “Subhanəllahi, vəl-həmdulillahi, və lə ilahə illəllah, vəllahu əkbər” dedikdə, günahlar həqiqi mənada ağac yarpağı töküldüyü kimi tökülür.

[6] Bu hədisi imam Əhməd (3/152) rəvayət etmişdir. Bu isnadla varid olmuş hədisdə “vəllahu əkbər” zikri də rəvayət edilmişdir (Silsilətul-Əhadisis-Səhihə, 3168). Şeyx Muhəmməd Nasirəddin əl-Albani bu hədisin “həsən” olduğunu demişdir.

Allaha otuz üç dəfə təhlil[1], otuz üç dəfə təsbih[2] və otuz dörd dəfə təhmid[3] et. Bu yüz dua *sənin üçün* dünya və içindəkilərdən daha xeyirlidir."[4]

**٦٣٦-** وَقَالَ النَّبِيُّ ﷺ: ((مَنْ هَلَّلَ مِئَةً، وَسَبَّحَ مِئَةً، وَكَبَّرَ مِئَةً، خَيْرٌ لَهُ مِنْ عَشْرِ رِقَابٍ يُعْتِقُهَا، وَسَبْعِ بَدَنَاتٍ يَنْحَرُهَا)).

**(636)** ........ Peyğəmbər ﷺ demişdir: "Bir kimsənin yüz dəfə "lə ilahə illəllah", yüz dəfə "subhanəllah" və yüz dəfə "Allahu əkbər" deməsi, onun üçün on nəfər qulu azad etməkdən və yeddi dəvəni qurban kəsməkdən daha xeyirlidir."[5]

**٦٣٧-** فَأَتَى النَّبِيَّ ﷺ رَجُلٌ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، أَيُّ الدُّعَاءِ أَفْضَلُ؟ قَالَ: ((سَلِ اللَّهَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ))، ثُمَّ أَتَاهُ الْغَدَ فَقَالَ: يَا نَبِيَّ اللَّهِ، أَيُّ الدُّعَاءِ أَفْضَلُ؟ قَالَ: ((سَلِ اللَّهَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ، فَإِذَا أُعْطِيتَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ فَقَدْ أَفْلَحْتَ)).

**(637)** ........ Bir nəfər[6] Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, hansı dua daha fəzilətlidir?" O buyurdu: "Allahdan dünyada və Axirətdə bağışlanmağını və salamat olmağını dilə!"[7] Adam ertəsi gün yenə gəlib so-

---

[1] "Lə ilahə illəllah" demək.

[2] "Subhanəllah" demək.

[3] "Əlhəmdulilləh" demək.

[4] Bu hədisin isnadında keçən Sələmə ibn Vərdan "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir. Bu mənada varid olmuş digər bir hədisdə Əli ibn Əbu Talib ﷺ demişdir: "*Bir dəfə* Fatimə Peyğəmbərin ﷺ yanına gəlib *ev* işlərindən yorulduğundan ona şikayət etdi və ondan xidmətçi istədi. Peyğəmbər ﷺ də *ona* belə buyurdu: "Bizdə xidmətçi tapa bilməyəcəksən. İstəyirsən səni xidmətçidən xeyirlisinə yönəldim?! Yatmaq istədikdə, otuz üç dəfə "subhanəllah", otuz üç dəfə "əlhəmdulilləh" və otuz dörd dəfə "Allahu əkbər" de" (Səhih Muslim, 8/84; Sunən ət-Tirmizi, 4005; Musnəd Əhməd, 1/136).

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[6] Digər rəvayətdə bu adamın Abbas ibn Abdulmuttəlib ﷺ olduğu xəbər verilmişdir (726-cı hədisə bax).

[7] Peyğəmbər ﷺ hər səhər və axşam Allahdan bağışlanma və salamatlıq diləyər və səhabələrinə də belə etməyi buyurardı (300-cü hədisin qeydlərinə bax).

ruşdu: “Ey Allahın peyğəmbəri, hansı dua daha fəzilətlidir?” O buyurdu: “Allahdan dünyada və axirətdə bağışlanmağını və salamat olmağını dilə. Əgər dünyada və axirətdə sənə salamatlıq nəsib olsa, nicat tapmış olarsan.[1]”[2]

**٦٣٨**– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي عَبْدِ اللَّهِ الْعَنَزِيِّ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ الصَّامِتِ، عَنْ أَبِي ذَرٍّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَحَبُّ الْكَلاَمِ إِلَى اللَّهِ: سُبْحَانَ اللَّهِ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ، سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ)).

**(638)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Allaha ən sevimli olan sözlər: “Allah pak və müqəddəsdir. Onun heç bir şəriki yoxdur. Mülk Ona aiddir, həmd Ona məxsusdur və O, hər şeyə qadirdir. Qüdrət və Qüvvət yalnız Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Ona həmd olsun”[3] (sözləridir).”[4]

**٦٣٩**– حَدَّثَنَا الصَّلْتُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مَهْدِيُّ بْنُ مَيْمُونٍ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ جَبْرِ بْنِ حَبِيبٍ، عَنْ أُمِّ كُلْثُومِ ابْنَةِ أَبِي بَكْرٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: دَخَلَ عَلَيَّ النَّبِيُّ ﷺ وَأَنَا أُصَلِّي، وَلَهُ حَاجَةٌ، فَأَبْطَأْتُ عَلَيْهِ، قَالَ: يَا عَائِشَةُ، عَلَيْكِ بِجُمَلِ الدُّعَاءِ وَجَوَامِعِهِ، فَلَمَّا انْصَرَفْتُ قُلْتُ: يَا رَسُولَ اللَّهِ، وَمَا جُمَلُ الدُّعَاءِ وَجَوَامِعُهُ؟ قَالَ: ((قُولِي: اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنَ الْخَيْرِ كُلِّهِ، عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ. وَأَعُوذُ بِكَ مِنَ الشَّرِّ كُلِّهِ عَاجِلِهِ وَآجِلِهِ، مَا عَلِمْتُ مِنْهُ وَمَا لَمْ أَعْلَمْ. وَأَسْأَلُكَ الْجَنَّةَ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ قَوْلٍ أَوْ عَمَلٍ، وَأَعُوذُ بِكَ مِنَ النَّارِ وَمَا قَرَّبَ إِلَيْهَا مِنْ

---

[1] Əbu Bəkrin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: “Allahdan salamatlıq diləyin. Çünki *kimsəyə* yəqinlikdən sonra salamatlıqdan daha xeyirli bir şey verilməmişdir (əl-Ədəbul-Mufrad, 724).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Transkripsiyası: Subhanəllahi lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə aləkulli şeyin qadir, lə hovlə və lə quvvətə illə billəh, subhanəllahi və bihəmdih.

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

قَوْلٍ أَوْ عَمَلٍ. وَأَسْأَلُكَ مِمَّا سَأَلَكَ بِهِ مُحَمَّدٌ ﷺ، وَأَعُوذُ بِكَ مِمَّا تَعَوَّذَ مِنْهُ مُحَمَّدٌ ﷺ، وَمَا قَضَيْتَ لِي مِنْ قَضَاءٍ فَاجْعَلْ عَاقِبَتَهُ رُشْدًا)).

**(639)** ........ Aişə رضي الله عنها demişdir:[1] "(Bir dəfə) mən namaz qılarkən Peyğəmbər ﷺ bir işdən ötrü yanıma gəldi. Mən ləng tərpəndim. Peyğəmbər ﷺ dedi: "Ey Aişə, çalış yığcam və çoxmənalı dualar edəsən!" Mən namazı bitirdikdən sonra dedim: "Ya Rəsulullah, yığcam və çoxmənalı dualar nədir?"[2] O buyurdu: "De: "Allahım, xeyrin hamısını – həm bu dünyadakını, həm də Axirətdəkini, bildiklərimi və bilmədiklərimi Səndən diləyirəm. Şərin də hamısından – həm bu dünyadakından, həm də Axirətdəkindən, bildiklərimdən və bilmədiklərimdən Sənə sığınıram. (Habelə,) Cənnəti və ona yaxınlaşdıran hər bir sözü və əməli Səndən diləyir, Cəhənnəmdən və ona yaxınlaşdıran hər bir sözdən və əməldən Sənə sığınıram. Muhəmmədin ﷺ Səndən istədiyini mən də Səndən istəyir, həmçinin, Muhəmmədin ﷺ Sənə sığındığı şeydən mən də Sənə sığınıram. Mənim üçün qəzavü-qədərdən nə hazırlamısansa, onun aqibətini gözəl et![3]"[4]

---

[1] Bu hədisi İbn Macə (3836), Əhməd (6/146) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Aişənin رضي الله عنها bu əməli onun xeyrə nail olmaq üçün olduqca həris olduğunu göstərir.

[3] Qəzavü-qədərin aqibəti o vaxt yaxşı ola bilər ki, adam özünə verilən nemətlərə şükür etmiş, habelə, başına gələn müsibətlərə səbir etmiş olsun. Bu xüsusda Rəsulullah ﷺ demişdir: "Mömininin işi çox qəribədir! Həqiqətən də, onun hər bir işində xeyir vardır. Bu *xüsusiyyət də* yalnız möminə məxsusdur. *Belə ki,* ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da, onun xeyrinə olar" (Səhih Muslim, 7692).

[4] Transkripsiyası: Allahummə, inni əsəlukə minəl-xayri kullihi acilihi və əcilih, mə alimtu minhu və mə ləm ələm, və əuzu bikə minəş-şərri kullihi acilihi və əcilih, mə alimtu minhu və mə ləm ələm, və əsəlukəl-cənnətə və mə qarrəbə ileyhi min qovlin əv aməl, və əuzu bikə minən-nari və mə qarrəbə ileyhi min qovlin əv aməl, və əsəlukə mimmə səələkə bihi Muhəmmədun ﷺ və əuzu bikə mimmə təavvəzə minhu Muhəmmədun ﷺ və mə qədaytə li min qədain fəc-al aqibətəhu ruşdə.

## ٢٨٠- بَابُ الصَّلاةِ عَلَى النَّبِيِّ ﷺ

## 280-ci fəsil. Peyğəmbərə ﷺ salavat vermək[1]

**٦٤٠-** حَدَّثَنَا يَحْيَى بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي عَمْرُو بْنُ الْحَارِثِ، عَنْ دَرَّاجٍ، أَنَّ أَبَا الْهَيْثَمِ حَدَّثَهُ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَيُّمَا رَجُلٍ مُسْلِمٍ لَمْ يَكُنْ عِنْدَهُ صَدَقَةٌ، فَلْيَقُلْ فِي دُعَائِهِ: اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ، عَبْدِكَ وَرَسُولِكَ، وَصَلِّ عَلَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ، وَالْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ))، فَإِنَّهَا لَهُ زَكَاةٌ.

**(640)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ demişdir: “Hansı bir müsəlmanın verməyə bir sədəqəsi yoxdursa, qoy dua edərkən

---

[1] Bu xüsusda, Uca Allah belə buyurur: **“Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər. Ey iman gətirənlər! Siz də ona salavat deyib *onu* kamil ədəb-ərkanla salamlayın”** (əl-Əhzab, 56). Burada Allahın Peyğəmbərə ﷺ salavat deməsi, onu ali toplumun, yəni mələklərin yanında tərifləməsi və onu uca tutması, mələklərin və möminlərin ona salavat deməsi isə ona Allahdan xeyir-dua diləməsi deməkdir. Salavat xüsusunda, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Hər kim mənə bir salavat oxuyarsa, Allah ona bunun sayəsində onunu yetirər” (Səhih Muslim, 849); digər hədisdə o, demişdir: “Xəsis o kimsədir ki, mənim adım çəkildikdə mənə salavat gətirməz” (Şoəbul-İman, 1466; Fədlus-Səlati alən-Nəbi, 35). Rəvayət edilir ki, Abdur-Rəhman ibn Əbu Leyla demişdir: “*Bir dəfə* Kəb ibn Ucra mənə rast gəldi və dedi: “Sənə hədiyyə verimmi?! *Bir gün* Peyğəmbər ﷺ bizim yanımıza gəldi və biz *ondan*: “*Ya Rəsulullah,* biz sənə salamı necə verməyi bilirik. Bəs salavatı sənə necə gətirək?”– deyə soruşduq. Peyğəmbər ﷺ buyurdu: “Deyin: “Allahummə salli alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə salleytə alə İbrahimə innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin və alə ali Muhəmməd, kəmə barəktə alə İbrahimə innəkə həmidun məcid! (Allahım, İbrahimə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım, İbrahimə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Həqiqətən, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!)” (Səhih Buxari, 6357; Səhih Muslim, 908).

[2] Bu hədisin isnadında keçən Dərrac Əbu Səmh “zəif” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Bu hədisin isnadı “zəif” olsa da, Allahdan Peyğəmbərə ﷺ və möminlə-

desin: “Allahım, qulun və rəsulun Muhəmmədə xeyir-dua ver! Mömin kişilərə və mömin qadınlara, müsəlman kişilərə və müsəlman qadınlara da xeyir-dua ver!”[1] Belə ki, bu dua, dua edən adam üçün bir zəkatdır.”

٦٤١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلاءِ قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ سُلَيْمَانَ، عَنْ سَعِيدِ بْنِ عَبْدِ الرَّحْمَنِ، مَوْلَى سَعِيدِ بْنِ الْعَاصِ قَالَ: حَدَّثَنَا حَنْظَلَةُ بْنُ عَلِيٍّ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ قَالَ: اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ، وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَآلِ إِبْرَاهِيمَ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ، وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَآلِ إِبْرَاهِيمَ، وَتَرَحَّمْ عَلَى مُحَمَّدٍ، وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا تَرَحَّمْتَ عَلَى إِبْرَاهِيمَ وَآلِ إِبْرَاهِيمَ، شَهِدْتُ لَهُ يَوْمَ الْقِيَامَةِ بِالشَّهَادَةِ، وَشَفَعْتُ لَهُ)).

**(641)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim: “Allahım, İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi,[2] Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! İbrahimə və İbrahimin ailəsinə mərhəmət göstərdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də mərhəmət göstər!”– desə, Qiyamət günü onun şəhadət verdiyinə şahidlik edərəm və ona şəfaətçi olaram.”[3]

---

rə xeyir-dua diləməyin sədəqə olması səhihdir (115-ci fəslin və bu fəsildəki hədislərin qeydlərinə bax).

[1] Transkripsiyası: Allahummə, salli alə Muhəmmədin abdikə və rəsulik, və salli aləl-mumininə vəl-muminət, vəl-musliminə vəl-muslimət.

[2] Burada “kimi” deyildikdə, salavatın qədəri yox, sadəcə özü nəzərdə tutulur. Belə ki, Muhəmmədə ﷺ verilən xeyir-dua daha böyük və daha çoxdur. Bu məsələyə dair Allahın bu ayəsini misal çəkmək olar: **“Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik”** (ən-Nisa, 163). Burada da, həmçinin “kimi” deyildikdə, vəhyin qədəri və təfsilatı deyil, sadəcə özü nəzərdə tutulur.

[3] Bu hədisin isnadında keçən Səid ibn Abdur-Rəhman “məchul” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

٦٤٢- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سَلَمَةُ بْنُ وَرْدَانَ قَالَ: سَمِعْتُ أَنَسًا، وَمَالِكَ بْنَ أَوْسِ بْنِ الْحَدَثَانِ، أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ يَتَبَرَّزُ فَلَمْ يَجِدْ أَحَدًا يَتْبَعُهُ، فَخَرَجَ عُمَرُ فَاتَّبَعَهُ بِفَخَّارَةٍ أَوْ مِطْهَرَةٍ، فَوَجَدَهُ سَاجِدًا فِي مِسْرَبٍ، فَتَنَحَّى فَجَلَسَ وَرَاءَهُ، حَتَّى رَفَعَ النَّبِيُّ ﷺ رَأْسَهُ فَقَالَ: ((أَحْسَنْتَ يَا عُمَرُ حِينَ وَجَدْتَنِي سَاجِدًا فَتَنَحَّيْتَ عَنِّي، إِنَّ جِبْرِيلَ جَاءَنِي فَقَالَ: مَنْ صَلَّى عَلَيْكَ وَاحِدَةً صَلَّى اللَّهُ عَلَيْهِ عَشْرًا ، وَرَفَعَ لَهُ عَشْرَ دَرَجَاتٍ)).

**(642)** ........ Ənəs və Malik ibn Ovs əl-Hədəsan ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ subaşına çıxdı və kimsənin onu təqib etdiyini görmədi.[1] Bu əsnada Ömər cürdək yaxud aftafa götürüb onun arxasınca getdi. Ömər onu su hovuzunun yanında səcdəyə qapanmış gördü. Ömər geri çəkilib, onun arxa tərəfində oturdu. Nəhayət, o, başını səcdədən qaldırıb dedi: "Əhsən sənə, ey Ömər! Mənim səcdəyə qapandığımı görüb məndən aralandın. Cəbrail ﷺ yanıma gəlib dedi: "Kim bir dəfə sənə salavat desə, Allah ona on salavat yetirər və onun üçün on dərəcə yüksəldər."[2]

٦٤٣- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ أَبِي إِسْحَاقَ، عَنْ بُرَيْدِ بْنِ أَبِي مَرْيَمَ، سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ صَلَّى عَلَيَّ وَاحِدَةً صَلَّى اللَّهُ عَلَيْهِ عَشْرًا، وَحَطَّ عَنْهُ عَشْرَ خَطِيئَاتٍ)).

**(643)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim mənə bir salavat oxuyarsa, Allah ona (bunun sayəsində) onunu yetirər və onun on günahından keçər."[3]

---

[1] Belə ki, Peyğəmbər ﷺ ayaqyoluna getdikdə, səhabələr ona su aparardılar.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[3] Bu hədisi Nəsai (9808), Əhməd (3/102 və 261) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٢٨١– بَابُ مَنْ ذُكِرَ عِنْدَهُ النَّبِيُّ ﷺ فَلَمْ يُصَلِّ عَلَيْهِ

## 281-ci fəsil. Peyğəmbər ﷺ yada salındıqda (bunu eşidib) ona salavat gətirməyən kimsə

**٦٤٤–** حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ شَيْبَةَ قَالَ: أَخْبَرَنِي عَبْدُ اللَّهِ بْنُ نَافِعٍ الصَّائِغُ، عَنْ عِصَامِ بْنِ زَيْدٍ، وَأَثْنَى عَلَيْهِ ابْنُ شَيْبَةَ خَيْرًا، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ النَّبِيَّ ﷺ رَقَى الْمِنبَرَ، فَلَمَّا رَقَى الدَّرَجَةَ الْأُولَى قَالَ: ((آمِينَ))، ثُمَّ رَقَى الثَّانِيَةَ فَقَالَ: ((آمِينَ))، ثُمَّ رَقَى الثَّالِثَةَ فَقَالَ: ((آمِينَ))، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ، سَمِعْنَاكَ تَقُولُ: آمِينَ ثَلَاثَ مَرَّاتٍ؟ قَالَ: ((لَمَّا رَقِيتُ الدَّرَجَةَ الْأُولَى جَاءَنِي جِبْرِيلُ ﷺ فَقَالَ: شَقِيَ عَبْدٌ أَدْرَكَ رَمَضَانَ، فَانْسَلَخَ)) َدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ شَيْبَةَ قَالَ: أَخْبَرَنِي عَبْدُ اللَّهِ بْنُ نَافِعٍ الصَّائِغُ، عَنْ عِصَامِ بْنِ زَيْدٍ، وَأَثْنَى عَلَيْهِ ابْنُ شَيْبَةَ خَيْرًا، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ النَّبِيَّ ﷺ رَقَى الْمِنبَرَ، فَلَمَّا رَقَى الدَّرَجَةَ الْأُولَى قَالَ: ((آمِينَ))، ثُمَّ رَقَى الثَّانِيَةَ فَقَالَ: ((آمِينَ))، ثُمَّ رَقَى الثَّالِثَةَ فَقَالَ: ((آمِينَ))، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ، سَمِعْنَاكَ تَقُولُ: آمِينَ ثَلَاثَ مَرَّاتٍ؟ قَالَ: ((لَمَّا رَقِيتُ الدَّرَجَةَ الْأُولَى جَاءَنِي جِبْرِيلُ ﷺ فَقَالَ: شَقِيَ عَبْدٌ أَدْرَكَ رَمَضَانَ، فَانْسَلَخَ مِنْهُ وَلَمْ يُغْفَرْ لَهُ، فَقُلْتُ: آمِينَ. ثُمَّ قَالَ: شَقِيَ عَبْدٌ أَدْرَكَ وَالِدَيْهِ أَوْ أَحَدَهُمَا فَلَمْ يُدْخِلَاهُ الْجَنَّةَ، فَقُلْتُ: آمِينَ. ثُمَّ قَالَ: شَقِيَ عَبْدٌ ذُكِرْتَ عِنْدَهُ وَلَمْ يُصَلِّ عَلَيْكَ، فَقُلْتُ: آمِينَ)).

**(644)** ........ Cabir ibn Abdullah رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ minbərə qalxaraq minbərin birinci pilləsində dayanıb: "Amin!"– dedi. Sonra ikinci pilləsinə qalxıb: "Amin!"– dedi. Sonra da üçüncü pilləsinə qalxıb: "Amin!"– dedi. Səhabələr dedilər: "Ya Rəsulullah, biz sənin üç dəfə: "Amin!"– dediyini eşitdik."[1] Peyğəmbər ﷺ dedi: "Birinci pilləyə qalxdıqda Cəbrail ﷺ yanıma gəlib dedi: "Ramazana yetişdikdən sonra günahları bağış-

---

[1] Burada səhabələr Peyğəmbərin ﷺ ilk dəfə belə etdiyini gördüklərinə görə bunun səbəbini və hikmətini öyrənmək istəyirlər. Bu da səhabələrin xeyrə nail olmağa və şərdən çəkinməyə, beləliklə də, hər bir işdə Peyğəmbərin ﷺ yolunu getməyə həris olduqlarını bir daha sübuta yetirir.

lanmamış halda ondan ayrılan bəndə bədbəxt olsun!"[1] Mən də: "Amin!"– dedim. Sonra o, dedi: "Valideynlərinin hər ikisi, yaxud biri qocalanadək onlarla (bərabər) yaşayan, sonra da (onların üzünə ağ olub buna görə də) Cənnətə daxil olmayan bəndə bədbəxt olsun!"[2] Mən də: "Amin!"– dedim. Sonra o, dedi: "Sən yad edildiyin zaman (bunu eşidib) sənə salavat gətirməyən bəndə bədbəxt olsun!" Mən də: "Amin!"– dedim."[3]

٦٤٥– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ قَالَ: أَخْبَرَنِي الْعَلاَءُ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((مَنْ صَلَّى عَلَيَّ وَاحِدَةً صلى الله عليه عَشْرًا)).

**(645)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim mənə bir dəfə salavat gətirsə, Allah ona on (salavatın savabını) verər.[4]"[5]

٦٤٦– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي حَازِمٍ، عَنْ كَثِيرٍ يَرْوِيهِ، عَنِ الْوَلِيدِ بْنِ رَبَاحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ رَقَى الْمِنْبَرَ فَقَالَ: ((آمِينَ، آمِينَ، آمِينَ))، قِيلَ لَهُ: يَا رَسُولَ اللَّهِ، مَا كُنْتَ تَصْنَعُ هَذَا؟ فَقَالَ: ((قَالَ لِي جِبْرِيلُ: رَغِمَ أَنْفُ عَبْدٍ أَدْرَكَ أَبَوَيْهِ أَوْ أَحَدَهُمَا لَمْ يُدْخِلْهُ الْجَنَّةَ، قُلْتُ: آمِينَ. ثُمَّ قَالَ: رَغِمَ أَنْفُ عَبْدٍ دَخَلَ عَلَيْهِ رَمَضَانُ لَمْ يُغْفَرْ لَهُ، فَقُلْتُ: آمِينَ. ثُمَّ قَالَ: رَغِمَ أَنْفُ امْرِئٍ ذُكِرْتَ عِنْدَهُ فَلَمْ يُصَلِّ عَلَيْكَ، فَقُلْتُ: آمِينَ)).

---

[1] Peyğəmbər ﷺ bu ayda ibadəti artırardı (292-ci hədisə və onun qeydlərinə bax). Ramazan ayı barəsində Peyğəmbər ﷺ demişdir: "Ramazan ayının birinci gecəsi yetişdiyi zaman şeytanlar və azğın cinlər zəncirlənir, üstəlik, Cəhənnəmin qapıları bağlanır və heç bir qapısı açıq qalmır, həmçinin, Cənnətin qapıları açılır və heç bir qapısı bağlı qalmır. Həmin vaxt carçı səsləyib deyir: "Ey xeyir istəyən kəs, (Allaha daha çox ibadət etməyə) tələs! Və ey şərə meyilli olan kəs, (tövbə et, haqq yola) qayıt! Allahın Cəhənnəm odundan xilas etdiyi kimsələr vardır. Bu da, (ramazanın) hər gecəsinə aiddir" (Sunən ət-Tirmizi, 682; Səhih əl-Cami, 759).

[2] 21-ci hədisə və onun qeydlərinə bax.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih li-ğeyrihi" olduğunu demişdir.

[4] Qazı İyad demişdir: "Uca Allah bu xüsusda belə buyurur: **"Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər..."** (əl-Ənam, 160).

[5] Bu hədisi Muslim (912), Əbu Davud (1530) və Əhməd (2/372) rəvayət etmişdir.

**(646)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ minbərə qalxıb: "Amin, amin, amin!"– dedi. (Səhabələr) soruşdular: "Ya Rəsulullah, nə üçün belə etdin?" Peyğəmbər ﷺ buyurdu: "(Mən minbərə qalxdıqda) Cəbrail عليه السلام mənə: "Valideynlərinin hər ikisi, yaxud biri qocalanadək onlarla (bərabər) yaşayan, sonra da (onların üzünə ağ olub buna görə də) Cənnətə daxil olmayan bəndə zəlil olsun!"– dedi, mən də: "Amin!"– dedim. Sonra o: "Ramazana yetişdikdən sonra günahları bağışlanmamış halda ondan ayrılan bəndə zəlil olsun!"– dedi, mən də: "Amin!"– dedim. Sonra o: "Sən yad edildiyin zaman (bunu eşidib) sənə salavat gətirməyən şəxs zəlil olsun!"– dedi, mən də: "Amin!"– dedim."[1]

**٦٤٧-** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الرَّحْمَنِ مَوْلَى آلِ طَلْحَةَ قَالَ: سَمِعْتُ كُرَيْبًا أَبَا رِشْدِينَ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنْ جُوَيْرِيَةَ بِنْتِ الْحَارِثِ بْنِ أَبِي ضِرَارٍ، أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ مِنْ عِنْدِهَا، وَكَانَ اسْمُهَا بَرَّةَ، فَحَوَّلَ النَّبِيُّ ﷺ اسْمَهَا، فَسَمَّاهَا جُوَيْرِيَةَ، فَخَرَجَ وَكَرِهَ أَنْ يَدْخُلَ وَاسْمُهَا بَرَّةُ، ثُمَّ رَجَعَ إِلَيْهَا بَعْدَمَا تَعَالَى النَّهَارُ، وَهِيَ فِي مَجْلِسِهَا، فَقَالَ: ((مَا زِلْتِ فِي مَجْلِسِكِ؟ لَقَدْ قُلْتُ بَعْدَكِ أَرْبَعَ كَلِمَاتٍ ثَلَاثَ مَرَّاتٍ، لَوْ وُزِنَتْ بِكَلِمَاتِكِ وَزَنَتْهُنَّ: سُبْحَانَ اللَّهِ وَبِحَمْدِهِ عَدَدَ خَلْقِهِ، وَرِضَا نَفْسِهِ، وَزِنَةَ عَرْشِهِ، وَمِدَادَ، أَوْ مَدَدَ، كَلِمَاتِهِ)).

**(647)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Cuveyriya[2] bint Haris ibn Dirar Peyğəmbərin ﷺ onun yanından çıxdığını xəbər vermişdir. Cuveyriyanın adı Bərra idi. Sonra Peyğəmbər ﷺ ona Cuveyriya adını verdi. Peyğəmbər ﷺ onun yanından çıxdı və o, Bərra adını daşıdığı müddətdə onun yanına qayıtmaq istəmədi.[3] Nəhayət, gün qalxdıqdan sonra Peyğəmbər ﷺ

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

[2] Cuveyriya bint Haris ibn Əbu Dirar əl-Mustəliqiyyə رضي الله عنها Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anasıdır (Siyər Əlamu ən-Nubələ, 39-cu tərcümeyi hal).

[3] Cuveyriya رضي الله عنها İslam dinini qəbul etməmişdən əvvəl adı Bərra olmuşdur. Nəhayət, Mureysi döyüşündə o, iyirmi yaşında ikən əsir düşmüş, sonra Peyğəmbər ﷺ onu azad etmiş və onunla evlənmişdir. Daha sonra Peyğəmbər ﷺ onun adını dəyişdirib, ona Cuvey-

onun yanına qayıtdı. Cuveyriya hələ də oturduğu yerdə idi. Peyğəmbər ﷺ dedi: "Sən indiyə qədər yerində oturmusan?[1] Lakin mən səndən ayrılandan sonra üç kərə elə dörd kəlmə demişəm ki, əgər onlar tərəzidə çəkilsə, sənin dediklərindən ağır gələr:[2] "Yaratdıqlarının sayı,[3] Özündən razı olduğu, Ərşinin ağırlığı[4] və kəlmələrinin çoxluğu[5] qədər həmd edərək Allaha təriflər deyirik![6]"[7]

---

riya adını vermişdir. Cuveyriya – təqsirkar, Bərra isə – zahid, dindar, mömin deməkdir. Peyğəmbərin ﷺ nə səbəbdən bu adı dəyişdirdiyinə dair 821-ci hədisə və onun qeydlərinə bax.

[1] Demək istəyir ki: "Hələ də zikr edirsən?"

[2] Allahın yaratdığı məxluqların sayı qədər, habelə, Onun Özündən razı qaldığı, ərşinin ağırlığı və nəhayət, kəlmələrinin çoxluğu qədər Ona həmd-sənalar deyib tərifləddikdən sonra qazanılan savabın miqdarı, həqiqətən də, təsəvvürolunmazdır. Əlbəttə ki, belə bir zikri bizə öyrədən Peyğəmbər ﷺ xatırlandığı zaman ona salavat gətirməyən kəs, həqiqətən də, zəlil və bədbəxt olar.

[3] Allahın yaratdığı məxluqatın sayını Onun Özündən və mələklərindən başqa heç kəs bilmir (Şərh Riyadus-Salihin, 1433-cü hədisin şərhi).

[4] Ərş: Allahın yaratdığı məxluqatın ən əzəmətlisi, ən böyüyü və ən genişidir. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **"O, böyük Ərşin Rəbbidir!"** (ət-Tovbə, 129); **"Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?"** (əl-Muminun, 86). Peyğəmbər ﷺ demişdir: "Cənnətdə Allahın, Onun yolunda cihad edənlər üçün hazırladığı yüz mərtəbə vardır. *Bu mərtəbələrdən* hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir. Allahdan *nə isə* dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs, Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir. Onun üstündə isə ər-Rəhmanın Ərşi yerləşir. Cənnət çayları da oradan qaynayıb axır" ("Səhih əl-Buxari", 2790). Digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Yeddi göy Kürsünün yanında, səhraya atılmış bir həlqəyə bənzəyir. Habelə, Ərşin Kürsüdən böyüklüyü, o səhranın o həlqədən böyüklüyü kimidir" ("Silsilətul-Əhadisis-Səhihə", 109).

[5] Bu xüsusda, Uca Allah buyurur: **"Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də *mürəkkəb olub* ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı"** (Loğman, 27); O, həmçinin, buyurur: **"De: "Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin *suyu* qurtarardı"** (əl-Kəhf, 109).

[6] Transkripsiyası: Subhanəllahi və bihəmdihi, adədə xalqihi, və rida nəfsihi, və zinətə arşihi və midadə (yaxud mədədə) kəlimatih.

[7] Bu hədisi Muslim (8/83) rəvayət etmişdir.

(...)– قَالَ مُحَمَّدٌ: حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا بِهِ سُفْيَانُ غَيْرَ مَرَّةٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدٌ، عَنْ كُرَيْبٍ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ مِنْ عِنْدِ جُوَيْرِيَةَ، وَلَمْ يَقُلْ: عَنْ جُوَيْرِيَةَ إِلا مَرَّةً.

**(...)**........ Muhəmməd demişdir: "Bizə Əli belə rəvayət etmişdir: "Süfyan dəfələrlə bizə: "Muhəmməd ibn Kureyb, İbn Abbasdan ﷠ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Cuveyriyanın yanından çıxdı...."– deyə rəvayət etmişdir. O: "(İbn Abbas rəvayət edir ki,) Cuveyriya (bint Haris ibn Əbu Dirar Peyğəmbərin ﷺ onun yanından çıxdığını) xəbər vermişdir" yalnız bir kərə zikr etmişdir."

**٦٤٨–** حَدَّثَنَا ابْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((اسْتَعِيذُوا بِاللَّهِ مِنْ جَهَنَّمَ، اسْتَعِيذُوا بِاللَّهِ مِنْ عَذَابِ الْقَبْرِ، اسْتَعِيذُوا بِاللَّهِ مِنْ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ، اسْتَعِيذُوا بِاللَّهِ مِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ)).

**(648)** Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Cəhənnəmdən Allaha sığının! Qəbir əzabından Allaha sığının! Məsihi Dəccalın fitnəsindən Allaha sığının! Həyatın və ölümün fitnəsindən Allaha sığının![1]"[2]

[1] 694-cü hədisə bax.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٨٢- بَابُ دُعَاءِ الرَّجُلِ عَلَى مَنْ ظَلَمَهُ

## 282-ci fəsil. Məzlumun, ona zülm etmiş zalımın əleyhinə dua etməsi[1]

٦٤٩- حَدَّثَنَا الْحَسَنُ بْنُ الرَّبِيعِ قَالَ: حَدَّثَنَا ابْنُ إِدْرِيسَ، عَنْ لَيْثٍ، عَنْ مُحَارِبِ بْنِ دِثَارٍ، عَنْ جَابِرٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَقُولُ: ((اللَّهُمَّ أَصْلِحْ لِي سَمْعِي وَبَصَرِي، وَاجْعَلْهُمَا الْوَارِثَيْنِ مِنِّي، وَانْصُرْنِي عَلَى مَنْ ظَلَمَنِي، وَأَرِنِي مِنْهُ ثَأْرِي)).

**(649)** ........ Cabir ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ deyərdi: "Allahım, mənim eşitmə və görmə qabiliyyətimi yaxşılaşdır, onları mənə varis et.[2] Mənə zülm edənə qarşı mənə kömək ol və ondan (aldığın) intiqamımı mənə göstər.[3]"[4]

---

[1] Zalımın əleyhinə dua etməyə icazə verilsə də həmin duada həddi aşmaq caiz deyil. Bu xüsusda, Uca Allah buyurur: **"*Günahkarı* cəzalandırmaq istəsəniz, sizə nə cəza verilibsə, siz də *ona* eynilə cəza verin. Əgər səbir etsəniz, bu, səbir edənlər üçün daha xeyirlidir. Səbir et! Sənin səbrin ancaq Allahdandır"** (ən-Nəhl, 126-127); digər ayədə O, buyurur: **"Rəbbinizə acizanə, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir"** (əl-Əraf, 55). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "*Vaxt gələcək,* bu ümmətdən duada həddi aşan kimsələr olacaq" (Sunən Əbu Davud, 1480; Musnəd Əhməd, 1/172; Səhih əl-Cami, 2396). Duada həddi aşan adam ancaq ziyana uğrayar. Əvvəla, duası qəbul olmaz, ikincisi də buna görə o, günah qazanar.

[2] Yəni ömrümün sonunadək onları salamat et, onlara xeyir-bərəkət ver və onların sayəsində savab qazanmağı mənə müvəffəq et.

[3] Transkripsiyası: Allahummə əslih li səm'i və bəsari, vəc'alhuməl-variseyni minni, vənsurni alə mən zaləməni, və ərini minhu səri.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Sonra bəyan etmişdir ki, bu rəvayətdə varid olmuş "əslih li səmi" ləfzi "zəif"dir. Çünki bu isnadda keçən Leys ibn Əbu Suleym "zəif" ravidir. Səhih olanı isə Bəzzarın "Musnəd" əsərində varid olmuş və digər "səhih" hədislərə müvafiq olanıdır ki, həmin rəvayətdə Peyğəmbər ﷺ: "Allahummə mətti'ni bisəm'i"– demişdir (Növbəti hədisə bax).

٦٥٠– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ مَتِّعْنِي بِسَمْعِي وَبَصَرِي، وَاجْعَلْهُمَا الْوَارِثَ مِنِّي، وَانْصُرْنِي عَلَى عَدُوِّي، وَأَرِنِي مِنْهُ ثَأْرِي)).

**(650)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allahım, eşitmə və görmə hissiyyatlarımla mənə fayda ver, onları mənə varis et. Düşmənimə qarşı mənə kömək ol və ondan (aldığın) intiqamımı mənə göstər."[1]

٦٥١– حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا سَعْدُ بْنُ طَارِقِ ابْنِ أَشْيَمَ الأَشْجَعِيُّ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: كُنَّا نَغْدُو إِلَى النَّبِيِّ ﷺ، فَيَجِيءُ الرَّجُلُ وَتَجِيءُ الْمَرْأَةُ فَيَقُولُ: يَا رَسُولَ اللَّهِ، كَيْفَ أَقُولُ إِذَا صَلَّيْتُ؟ فَيَقُولُ: ((قُلِ: اللَّهُمَّ اغْفِرْ لِي، وَارْحَمْنِي، وَاهْدِنِي، وَارْزُقْنِي))، فَقَدْ جَمَعْنَ لَكَ دُنْيَاكَ وَآخِرَتَكَ.

**(651)** ........ Tariq ibn Əşyəm əl-Əşcəi ﷺ demişdir: "Biz səhərlər Peyğəmbərin ﷺ yanına gedərdik.[2] *Onun yanına* həm kişi, həm qadın *gəlib* soruşardı: "Ya Rəsulullah, mən namaz qılarkən[3] nə deməliyəm?" O da buyurardı: "De: "Allahım, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt və mənə ruzi ver."[4] Bu sözlər sənin üçün dünyanı və axirətini cəm etdi."[5]

---

[1] Bu hədisi Tirmizi (3606) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Peyğəmbər ﷺ bu ümmət üçün Allahdan xeyir-bərəkət diləyib demişdir: "Allahım, ümmətimin (hər) gününün əvvəlinə bərəkət ver!" (Sunən Əbu Davud 2606, Səhih Əbu Davud 2345;); digər hədisdə o, demişdir: "Ümmətimin (hər) gününün əvvəlinə bərəkət verilmişdir!" (Səhih əl-Cami, 2841).

[3] Bu duanı təşəhhüddən sonra və salamdan əvvəl, habelə, səcdədə demək olar. Bu dua Peyğəmbərin ﷺ etdiyi duaların yığcam və geniş mənalı olduğunu bir daha sübuta yetirir.

[4] Transkripsiyası: Allahumməğ'firli, vərhəmni, vəhdini, vərzuqni.

[5] Bu hədisi Əhməd (3/472) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

(...)– حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَيَّانَ قَالَ: حَدَّثَنَا أَبُو مَالِكٍ قَالَ: سَمِعْتُ أَبِي وَلَمْ يَذْكُرْ: إِذَا صَلَّيْتَ. وَتَابَعَهُ عَبْدُ الْوَاحِدِ، وَيَزِيدُ بْنُ هَارُونَ.

**(...)** Bizə Əli belə xəbər vermişdir: "Suleyman ibn Heyyan bizə demişdir: "Əbu Malik bizə belə rəvayət etmişdir: "Mən (bu hədisi) atamdan eşitmişəm. Lakin o: "namaz qılarkən" sözünü zikr etməmişdir. Abdul-Vahid və Yezid ibn Harun da, həmçinin, belə rəvayət etmişlər.

## ٢٨٣- بَابُ مَنْ دَعَا بِطُولِ الْعُمُرِ

## 283-cü fəsil. Ömrünün uzadılması üçün dua edən kimsə

٦٥٢- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ أَبِي الْحَسَنِ مَوْلَى أُمِّ قَيْسٍ ابْنَةِ مِحْصَنٍ، عَنْ أُمِّ قَيْسٍ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهَا: ((مَا قَالَتْ؟ طَالَ عُمْرُهَا!))، وَلاَ نَعْلَمُ امْرَأَةً عُمِّرَتْ مَا عُمِّرَتْ.

**(652)** ........ Ummu Qeys[1] ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ ona belə demişdir: "(Xanım) nə dedi? Onun ömrü uzun olsun!"

(Əbul-Həsən demişdir): "Biz Ummu Qeys qədər uzun ömür sürən başqa bir qadın tanımırıq."[2]

٦٥٣- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ زَيْدٍ، عَنْ سِنَانٍ قَالَ: حَدَّثَنَا أَنَسٌ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَدْخُلُ عَلَيْنَا، أَهْلَ الْبَيْتِ، فَدَخَلَ عَلَيْنَا يَوْمًا فَدَعَا لَنَا، فَقَالَتْ أُمُّ سُلَيْمٍ خُوَيْدِمُكَ أَلاَ تَدْعُو لَهُ؟ قَالَ: ((اللَّهُمَّ، أَكْثِرْ مَالَهُ وَوَلَدَهُ، وَأَطِلْ حَيَاتَهُ، وَاغْفِرْ لَهُ)).

فَدَعَا لِي بِثَلاَثٍ، فَدَفَنْتُ مِئَةً وَثَلاَثَةً، وَإِنَّ ثَمَرَتِي لَتُطْعِمُ فِي السَّنَةِ مَرَّتَيْنِ، وَطَالَتْ حَيَاتِي حَتَّى اسْتَحْيَيْتُ مِنَ النَّاسِ، وَأَرْجُو الْمَغْفِرَةَ.

**(653)** ........ Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ bizim yanımıza – ailəmizə gələrdi. Bir gün yenə o bizə gəldi və bizim üçün dua etdi. Onda Ummu Suleym[3]

---

[1] Ummu Qeys bint Mihsan ﵂ Peyğəmərin ﷺ səhabəsi və Ukkaşə ibn Mihsanın ﵁ bacısıdır. Məkkədə ikən İslam dinini qəbul etmiş, sonra da Mədinəyə hicrət etmişdir (Təhzib əl-Kəmal, 8000-ci tərcümeyi-hal).

[2] Bu hədisin isnadında keçən Əbul-Həsən "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin bir kimsəyə ömrünün uzun olmasını diləməyin caiz olması başqa "səhih" hədislərdə öz təsdiqini tapmışdır (653-cü hədisə bax).

[3] Ummu Suleym Rumeysə bint Milhan ibn Xalid əl-Ənsariyyə ﵂. Bu qadın Rəsulullahın ﷺ xidmətçisi Ənəs ibn Malikin ﵁ anasıdır (149-cu hədisin qeydlərinə bax).

dedi: "Bu balaca xidmətçin üçün dua etməyəcəksənmi?" Peyğəmbər ﷺ dua edib dedi: "Allahım, onun malının və övladının sayını çoxalt, onun ömrünü uzat və onu bağışla."

(Ənəs dedi): "Peyğəmbər ﷺ mənim üçün (Allahdan) üç şey dilədi. (Mən artıq nəslimdən) yüz üç adam dəfn etmişəm. Ağaclarım ildə iki dəfə məhsul verir.[1] Ömrüm də o qədər uzanıbdır ki, artıq insanlardan utanıram.[2] Bağışlanmağa da ümid edirəm.[3]"[4]

---

[1] Rəvayət edilir ki, Əbul-Aliyə demişdir: "Ənəs ibn Malikin ؓ bağındakı ağaclar ildə iki dəfə bar verirdi. Onun bağında elə reyhanlar var idi ki, onlardan müşk iyi gəlirdi" (Sunən ət-Tirmizi, 3833; Silsilətul-Əhadisis-Səhihə, 5/284). Təbarinin "Mocəmul-Ovsat" əsərində (1/31 və 1/503) Ənəsin ؓ üzüm bağları olduğu xəbər verilmişdir (Bax: Silsilətul-Əhadisis-Səhihə, 5/284). Bütün bunlar Peyğəmbərin ﷺ duasının bərəkətidir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Xeyirli malın əməlisaleh adama məxsus olması necə də gözəldir!" (əl-Ədəbul-Mufrad, 299).

[2] Ənəs ibn Malik ؓ hicrətin 93-cü ilində yüz üç yaşında vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 62-ci tərcümeyi-hal). Ənəsin ؓ yaşıdlarının əksəriyyəti bu dünyadan köçüb getmişdi deyə, sonrakı nəsildən olan azyaşlıların arasında qalmaq ona ağır gəlirdi.

[3] Digər rəvayətdə Ənəs ؓ demişdir: "Peyğəmbər ﷺ mənim üçün *Allahdan* üç şey dilədi. Mən artıq bunlardan ikisini bu dünyada görmüşəm. Üçüncüsünə də Axirətdə nail olacağıma ümid bəsləyirəm" (Səhih Muslim, 2481).

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu hədis bu fəsildəki hədisə yaxın ləfz ilə Buxarinin (1982) və Muslimin (2481) "Səhih"lərində də rəvayət edilmişdir. Həmçinin, bu kitabda keçən 88-ci hədisə bax.

## ٢٨٤- بَابُ مَنْ قَالَ: ((يُسْتَجَابُ لِلْعَبْدِ مَا لَمْ يَعْجَلْ))

## 284-cü fəsil. "Tələsməyən bəndənin duası qəbul olunar"– deyən kəs

٦٥٤- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: حَدَّثَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي ابْنُ عُبَيْدٍ مَوْلَى عَبْدِ الرَّحْمَنِ، وَكَانَ مِنَ الْقُرَّاءِ وَأَهْلِ الْفِقْهِ، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((يُسْتَجَابُ لِأَحَدِكُمْ مَا لَمْ يَعْجَلْ، يَقُولُ: دَعَوْتُ فَلَمْ يُسْتَجَبْ لِي)).

**(654)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sizlərdən kim tələsməsə, duası qəbul olunar." (Tələsməsi belədir ki, o): "Dua etdim, duam qəbul olunmadı"[1] (– deyir)."[2]

٦٥٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ، أَنَّ رَبِيعَةَ بْنَ يَزِيدَ حَدَّثَهُ، عَنْ أَبِي إِدْرِيسَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((يُسْتَجَابُ لِأَحَدِكُمْ مَا لَمْ يَدْعُ بِإِثْمٍ أَوْ قَطِيعَةِ رَحِمٍ، أَوْ يَسْتَعْجِلْ فَيَقُولُ: دَعَوْتُ فَلاَ أَرَى يَسْتَجِيبُ لِي، فَيَدَعُ الدُّعَاءَ)).

**(655)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən kim günah olan şeyi və yaxud qohumluq əlaqələrinin kəsilməsini dua etmədikcə və ya: "Dua etdim, duam qəbul olmadı"– deyib, duanı tərk etməyə tələsməyincə, duası qəbul olunar.[3]"[4]

---

[1] Demək, duanın qəbul olunacağından ümidi kəsməmək, "dua edirəm, duam qəbul olmur" və s. buna bənzər sözlər deməmək duanın qəbul olunması üçün şərtdir.

[2] Bu hədisi Buxari (6340), Muslim (7110), Əbu Davud (1484) və Tirmizi (3958) rəvayət etmişdir.

[3] Bu hədisdə qeyd edilən amillər – günah sayılan bir şeyi istəmək yaxud qohumluq əlaqələrinin kəsilməsini diləmək və ya: "Dua etdim, duam qəbul olmadı"– demək duanın qəbul olunmasına əngəl olan maneələrdir.

[4] Bu hədisi Muslim (2735) rəvayət etmişdir.

## ٢٨٥- بَابُ مَنْ تَعَوَّذَ بِاللَّهِ مِنَ الْكَسَلِ

## 285-ci fəsil. Tənbəllikdən[1] Allaha sığınan kimsə

٦٥٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي ابْنُ الْهَادِ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ وَالْمَغْرَمِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ النَّارِ)).

**(656)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: “Allahım, tənbəllikdən və borclu olmaqdan[2] Sənə sığınıram! Dəccal məsihin[3] fitnəsindən Sənə sığınıram! Cəhənnəm əzabından Sənə sığınıram![4]”[5]

٦٥٧- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ زِيَادٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَتَعَوَّذُ بِاللَّهِ مِنْ شَرِّ الْمَحْيَا وَالْمَمَاتِ، وَعَذَابِ الْقَبْرِ، وَشَرِّ الْمَسِيحِ الدَّجَّالِ.

**(657)** ........ Əbu Hureyrə ؓ demişdir: “Peyğəmbər ﷺ həyatın və ölümün şərindən, qəbir əzabından və məsihi Dəccalın şərindən Allaha sığınardı.”[6]

---

[1] Tənbəllik: zəhmətdən və işdən qaçmaq. Zəhmətdən qaçmaq isə insanı həm dünya işlərindən, həm də Axirət işlərindən qoyur, beləliklə, adam bir çox dünya və Axirət xeyirlərindən məhrum olur.

[2] Digər rəvayətdə deyilir ki, bir nəfər Peyğəmbərdən ﷺ: “Sən nə üçün tez-tez borcdan ötrü Allaha sığınırsan?”– deyə soruşduqda, o, belə buyurmuşdur: “Borca girən adam danışanda yalan danışır, söz verəndə sözünün üstündə durmur” (Səhih əl-Buxari, 832).

[3] 341-ci hədisin qeydlərinə bax.

[4] Transkripsiyası: Allahummə, inni əuzu bikə minəl-kəsəli vəl-məğram, və əuzu bikə min fitnətil-məsihid-dəccal, və əuzu bikə min əzabin-nar.

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən-səhih” olduğunu demişdir.

[6] Bu hədisi Buxari (1377), Muslim (2/93-94), İbn Hibban (2/179-180) və Nəsai (2/319) rəvayət etmişdir.

## ٢٨٦– بَابُ مَنْ لَمْ يَسْأَلِ اللَّهَ يَغْضَبْ عَلَيْهِ

## 286-cı fəsil. Allahdan istəməyən kimsəyə Allah qəzəblənər

**٦٥٨**– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا أَبُو الْمَلِيحِ صَبِيحٌ قَالَ: حَدَّثَنَا أَبُو صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لَمْ يَسْأَلِ اللَّهَ غَضِبَ اللَّهُ عَلَيْهِ)).

**(658)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Allahdan istəməyən kimsəyə Allah qəzəblənər.[1]”[2]

**(...)**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي حَاتِمُ بْنُ إِسْمَاعِيلَ، عَنْ أَبِي الْمَلِيحِ، عَنْ أَبِي صَالِحٍ الْخُوزِيِّ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ لَمْ يَسْأَلْهُ يَغْضَبْ عَلَيْهِ)).

**(...)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Ondan istəməyən kimsəyə O qəzəblənər.”

**٦٥٩**– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ عَبْدِ الْعَزِيزِ، عَنْ أَنَسٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا دَعَوْتُمُ اللَّهَ فَاعْزِمُوا فِي الدُّعَاءِ، وَلاَ يَقُولَنَّ أَحَدُكُمْ: إِنْ شِئْتَ فَأَعْطِنِي، فَإِنَّ اللَّهَ لاَ مُسْتَكْرِهَ لَهُ)).

**(659)** ........ Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Allaha dua etdiyiniz zaman, qətiyyətlə dua edin. Sizdən heç biriniz: “İstəyirsənsə, mənə (filan şeyi) ver”– deməsin.[3] Çünki Allahı məcbur edən yoxdur.”[4]

---

[1] Peyğəmbərin ﷺ bu sözünün əks anlamından belə aydın olur ki, Allahdan istəyən kimsəni Allah sevir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Allah yanında duadan daha gözəl şey yoxdur” (əl-Ədəbul-Mufrad, 712). Allaha dua etməyən kimsəyə isə Onun qəzəbi tutar. Allahın qəzəbi tutduğu kimsə isə həm bu dünyada, həm də Axirətdə ziyana uğrayar.

[2] Bu hədisi Tirmizi (2/342), İbn Macə (3827), Hakim (1/491), Əhməd (2/442 və 477), İbn Əbu Şeybə (10/200), Təbərani (Mocəmul-Ovsat, 3/216/2452), İbn Adiy (əl-Kamil, 7/295) Beyhəqi (Şoəbul-İman, 1/35/1099) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

[3] 607-ci hədisin qeydlərinə bax.

[4] Bu hədisi Buxari (7464), Muslim (2678) və Əhməd (3/101) rəvayət etmişdir.

٦٦٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ أَبَانَ بْنِ عُثْمَانَ قَالَ: سَمِعْتُ عُثْمَانَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنْ قَالَ صَبَاحَ كُلِّ يَوْمٍ، وَمَسَاءَ كُلِّ لَيْلَةٍ، ثَلاَثًا ثَلاَثًا: بِسْمِ اللَّهِ الَّذِي لاَ يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاءِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ، لَمْ يَضُرَّهُ شَيْءٌ)).

وَكَانَ أَصَابَهُ طَرَفٌ مِنَ الْفَالِجِ، فَجَعَلَ يَنْظُرُ إِلَيْهِ، فَفَطِنَ لَهُ فَقَالَ: إِنَّ الْحَدِيثَ كَمَا حَدَّثْتُكَ، وَلَكِنِّي لَمْ أَقُلْهُ ذَلِكَ الْيَوْمَ، لِيَمْضِيَ قَدَرُ اللَّهِ.

**(660)** ........ Əban ibn Osman rəvayət edir ki, Osman[1] demişdir: "Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Kim hər səhər üç kərə və hər axşam üç kərə: "Allahın Adı ilə![2] O Allah ki, adı çəkildikdə,[3] yerdə və göydə (olan) heç bir şey zərər verə bilməz. O, Eşidəndir, Biləndir![4]"– desə, heç bir şey ona zərər verə bilməz."

Həmin vaxt Əban ibn Osman iflic olmuşdu. Hədisi dinləyən adam (təəccüblə) onun üzünə baxmağa başladı.[5] Əban bu adamın (baxışlarından onun) məqsədini təxmin edib dedi: "Bu hədis sənə danışdığım kimidir.[6] Lakin Allahın qədəri yerinə yetsin deyə, mənə həmin gün bu duanı oxumaq qismət olmamışdır."[7]

---

[1] Burada söhbət üçüncü xəlifə olmuş Osman ibn Əffandan ؓ gedir.

[2] Yəni Allahın adı ilə Ondan kömək diləyirəm ki, məni hər bir əziyyət verəndən qorusun (Tohfətul-Əhvəzi).

[3] Burada "adı çəkildikdə" deyildikdə, sadəcə dilucu "bismilləh" demək yox, bu kəlməni səmimi-qəlbdən və gözəl niyyətlə çəkmək nəzərdə tutulur (Tohfətul-Əhvəzi).

[4] Transkripsiyası: Bismilləhilləzi lə yədurru məa ismihi şeyun fil-ərdi və lə fis-səma, və huvəs-səmiul-alim.

[5] Bu adam sanki Əbana demək istəyir ki, "əgər sən hər səhər və hər axşam bu zikri oxumusansa, niyə sənə zərər toxunub?"

[6] Əbu Davudun "Sunən" əsərindəki hədisdə rəvayət edilir ki, Əban o adama demişdir: "Niyə mənə *təəccüblə* baxırsan. Vallahi ki, nə mən Osmanın adından yalan danışır, nə də Osman Peyğəmbərin ﷺ adından yalan danışmışdır. Sadəcə olaraq bu fəlakət mənim başıma gəldiyi gün qəzəbli olduğumdan bu duanı deməmişdim."

Bu rəvayətə diqqətlə nəzər salsaq görərik ki, sələflər Peyğəmbərin ﷺ hədislərinə yəqinliklə iman gətirər və bunlara zərrə qədər şübhə etməzdilər.

[7] Bu hədisi Əbu Davud (5088), Tirmizi (3388), İbn Macə (3859) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən-səhih" olduğunu demişdir.

## ٢٨٧- بَابُ الدُّعَاءِ عِنْدَ الصَّفِّ فِي سَبِيلِ اللَّهِ

## 287-ci fəsil. Allah yolundakı (cihad zamanı) səflərdə edilən dua

٦٦١- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي حَازِمٍ، عَنْ سَهْلِ بْنِ سَعْدٍ قَالَ: سَاعَتَانِ تُفْتَحُ لَهُمَا أَبْوَابُ السَّمَاءِ، وَقَلَّ دَاعٍ تُرَدُّ عَلَيْهِ دَعْوَتُهُ: حِينَ يَحْضُرُ النِّدَاءُ، وَالصَّفُّ فِي سَبِيلِ اللَّهِ.

**(661)** ........ Səhl ibn Səd ﷺ demişdir: “İki vaxt vardır[1] ki, bu vaxtlarda göy qapıları açılır və çox az adam istisna olmaqla, dua edən hər kəsin duası qəbul olunur: azan oxunduqda[2] və bir də Allah yolunda (cihad edərkən) səflərdə yer tutduqda.”[3]

---

[1] Burada Peyğəmbər ﷺ duanın qəbul olunması üçün yalnız iki vaxtın olmasını qəsd etmir. Belə ki, neçə-neçə hədislərdə, gecənin son üçdə birində, yağış yağdıqda, səfərdə və s. vaxtlarda duaların qəbul edilməsi rəvayət olunmuşdur.

[2] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: “Azanla iqamə arasındakı dua rədd edilmir” (Sunən Əbu Davud, 521; Mişkatul-Məsabih, 671).

[3] Burada bu əsər “movquf” isnadla, yəni səhabənin sözü kimi varid olsa da, başqa hədisdə “mərfu” isnadla Peyğəmbərdən ﷺ rəvayət edilmişdir (Səhih Əbu Davud, 2290).

## ٢٨٨- بَابُ دَعَوَاتِ النَّبِيِّ ﷺ

## 288-ci fəsil. Peyğəmbərin ﷺ duaları[1]

٦٦٢- حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ عَنْ مُحَمَّدِ بْنِ يَحْيَى بْنِ حِبَّانَ، عَنْ لُؤْلُؤَةَ، عَنْ أَبِي صِرْمَةَ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ غِنَايَ وَغِنَى مَوْلَايَ)).

**(662)** ........ Əbu Sirmə  rəvayət edir ki, Rəsulullah ﷺ belə dua edərdi: "Allahım, Səndən həm özümün, həm də mövlamın zəngin olmasını diləyirəm."[2]

(...)- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنِي يَحْيَى، عَنْ مُحَمَّدِ بْنِ يَحْيَى، عَنْ مَوْلًى لَهُمْ، عَنْ أَبِي صِرْمَةَ، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ.

**(...)** Bizə Əhməd ibn Yunus belə xəbər vermişdir: "Zuheyr bizə belə rəvayət etmişdir: "Yəhya mənə Muhəmməd ibn Yəhyadan, o da, onların mövlasından, o da, Əbu Sirmədən, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir.

٦٦٣- حَدَّثَنَا يَحْيَى بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا وَكِيعٌ قَالَ: حَدَّثَنَا سَعْدُ بْنُ أَوْسٍ، عَنْ بِلَالِ بْنِ يَحْيَى، عَنْ شُتَيْرِ بْنِ شَكَلِ بْنِ حُمَيْدٍ، عَنْ أَبِيهِ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، عَلِّمْنِي دُعَاءً أَنْتَفِعُ بِهِ، قَالَ: ((قُلِ: اللَّهُمَّ عَافِنِي مِنْ شَرِّ سَمْعِي، وَبَصَرِي، وَلِسَانِي، وَقَلْبِي، وَشَرِّ مَنِيِّي)).

قَالَ وَكِيعٌ: مَنِيِّي يَعْنِي الزِّنَا وَالْفُجُورَ.

---

[1] Burada "duaları" deyildikdə, bəzi duaları qəsd edilir.

[2] Bu hədisi Əhməd (3/453) və Təbərani (22/329/828) rəvayət etmişdir. Hədisin isnadında keçən Luluə "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Bu hədis "zəif" olsa da, Peyğəmbərin ﷺ Allahdan zəngin olmağı diləməsi "səhih" hədislərdə varid olmuşdur (674-cü hədisə bax).

**(663)** ........ Şəkəl ibn Humeyd ﷺ demişdir: "(Bir dəfə) mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah, mənə elə bir dua öyrət ki, onunla faydalanım." Peyğəmbər ﷺ buyurdu: "De: "Allahım, qulağımın, gözümün, dilimin, qəlbimin şərindən, habelə, toxumamın şərindən məni salamat et![1]"[2]

Vəki demişdir: *Burada* "toxuma" deyildikdə, "zina və günah işlər" qəsd edilir.

**٦٦٤**– حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الْحَارِثِ، عَنْ طُلَيقِ بْنِ قَيْسٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَبَّاسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَيَسِّرِ الْهُدَى لِي)).

**(664)** ........ İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ (dua edib) deyərdi: "Allahım, mənə yardım et, əleyhimə olan işlərdə isə (heç kəsə) yardım etmə. Mənə qələbə bəxş et, (heç kəsə) mənim üzərimdə qələbə qazandırma. Mənim üçün doğru yola yönəlməyi asanlaşdır.[3]"[4]

**٦٦٥**– حَدَّثَنَا أَبُو حَفْصٍ قَالَ: حَدَّثَنَا يَحْيَى قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: سَمِعْتُ عَمْرَو بْنَ مُرَّةَ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ الْحَارِثِ قَالَ: سَمِعْتُ طُلَيقَ بْنَ قَيْسٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَدْعُو بِهَذَا: ((رَبِّ أَعِنِّي وَلاَ تُعِنْ عَلَيَّ، وَانْصُرْنِي وَلاَ تَنْصُرْ عَلَيَّ، وَامْكُرْ لِي وَلاَ تَمْكُرْ عَلَيَّ، وَيَسِّرْ لِي

---

[1] Transkripsiyası: Allahummə, afini min şərri səmi və bəsəri və lisani və qalbi və şərri məniyyi. Digər isnadla rəvayət edilmiş eyni mənada olan hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "De:

(( اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ شَرِّ سَمْعِي، وَمِنْ شَرِّ بَصَرِي، وَمِنْ شَرِّ لِسَانِي، وَمِنْ شَرِّ قَلْبِي، وَمِنْ شَرِّ مَنِيِّي ))

"Allahumə, inni əuzu bikə min şərri səmi, və min şərri bəsəri, və min şərri lisani, və min şərri qalbi, və min şərri məniyyi" (Sunən Əbu Davud, 1551; Sunən ət-Tirmizi, 3492; Musnəd Əhməd 3/429; Səhih Sunən Əbu Davud, 1387).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Transkripsiyası: Allahummə, əinni və lə tuin aley, vən-surni və lə tənsur aley, və yəssiril-hudə li.

[4] İmam Buxari bu hədisi müxtəsər olaraq rəvayət etmişdir (665-ci hədisə bax).

الْهُدَى، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ. رَبِّ اجْعَلْنِي شَكَّارًا لَكَ، ذَكَّارًا لَكَ، رَاهِبًا لَكَ، مِطْوَاعًا لَكَ، مُخْبِتًا لَكَ، أَوَّاهًا مُنِيبًا، تَقَبَّلْ تَوْبَتِي، وَاغْسِلْ حَوْبَتِي، وَأَجِبْ دَعْوَتِي، وَثَبِّتْ حُجَّتِي، وَاهْدِ قَلْبِي، وَسَدِّدْ لِسَانِي، وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي)).

**(665)** ........ İbn Abbas ﵄ demişdir:[1] "Mən Peyğəmbərin ﷺ bu sözlərlə dua etdiyini eşitmişəm: "Ey Rəbbim, mənə kömək et,[2] əleyhimə olan işlərdə *heç kəsə*[3] kömək etmə. Mənə qələbə bəxş et, *heç kəsə* mənim üzərimdə qələbə qazandırma. Mənə *düşmənlərimə* hiylə qurmağa kömək ol, *başqasının* mənə hiylə qurmasına yol vermə. Mənim üçün doğru yola yönəlməyi asanlaşdır.[4] Mənə təcavüz edənə qalib gəlməyimə yardım et.[5] Ey Rəbbim,

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Peyğəmbərin ﷺ Rəbbindən ümumi şəkildə kömək diləməsi bütün köməkləri ehtiva edir. Bu da, köməyi yalnız Allahdan diləməyə dəlalət edir. Bu xüsusda Quranda belə buyurulur: **"Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik"** (əl-Fatihə, 5); **"Allah sizin Himayədarınızdır. O, kömək edənlərin ən yaxşısıdır"** (Ali-İmran, 150).

[3] Burada insana vəsvəsə verən şeytan və pis şeyləri əmr edən nəfs, habelə, adama pislik etmək istəyən pis dost, düşmən, zalım və s. nəzərdə tutulur.

[4] Bu, hər bir müsəlmanın gündəlik ibadəti əsnasında ən azı on yeddi kərə təkrarladığı Quran ayəsinə bənzəyir: **"Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların *yoluna* yox!"** (əl-Fatihə, 6-7). Yəni ömrümüzün sonunadək bu yolda sabitqədəm olmağı bizə müvəffəq et.

[5] Bundan aydın olur ki, təcavüz etməyən kimsələrə qarşı vuruşmaq İslam şəriətinə zidd olan əməllərdəndir. Əksinə, onlarla ədalətlə rəftar etmək gərəkdir. Uca Allah qeyri-müsəlmanlarla ədalətlə davranmaq xüsusunda belə buyurur: **"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir"** (əl-Mumtəhənə, 8). Təcavüz edən kimsə isə müsəlman olsa belə onu cəzalandırmaq və ona qalib gəlməyi Allahdan diləmək caizdir. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə, o, Allahın əmrini *yerinə yetirməyə* qayıdanadək, vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir"** (əl-Hucurat, 9).

məni Sənə çoxlu-çoxlu şükür edən,[1] Səni tez-tez zikr edən,[2] Səndən qorxan, Sənə çox itaət edən, Sənə boyun əyən, (Sənə) çox yalvaran və (Sənə) üz tutan bir bəndə et.[3] Mənim tövbəmi qəbul et,[4] günahlarımı yu,[5] duamı qəbul et, dəlilimi möhkəmləndir,[6] qəlbimi haqqa yönəlt,[7] dilimi doğruluğa öyrət[8] və qəlbimin qara ləkəsini[9] yox et.[1]"

---

[1] Burada "şükür edən" deyildikdə, təkcə dildə və qəlbdə deyil, həmçinin, əməldə də Allaha şükür etmək qəsd edilir. Bu xüsusda varid olmuş hədislərin birində Muğira ibn Şobə ﷺ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ *gecə* namazını qıldı *və o qədər ayaq üstə durdu ki,* hətta ayaqları şişdi. *Sonra* ona: "Nə üçün özünü bu ağır yüklə yükləyirsən?! Axı Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır"– deyildi. O, belə cavab verdi: "Şükür edən bir qul olmayımmı?!" (Səhih əl-Buxari, 1078; Səhih Muslim, 2819; Sunən ət-Tirmizi, 412; Sunən İbn Macə, 1419; Musnəd Əhməd, 4/251).

[2] Muaz ibn Cəbəlin ﷺ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ ona belə dua etməyi buyurmuşdur: "De: "Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et!" (əl-Ədəbul-Mufrad, 690). Allahı çox zikr etmək xüsusunda Quranda belə buyurulur: **"Ey iman gətirənlər! Allahı çox-çox yada salın!"** (əl-Əhzab, 41); "**Allahı çox zikr edin ki, bəlkə nicat tapasınız**" (əl-Cumuə, 10); **"Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır"** (əl-Əhzab, 35).

[3] Quranda İbrahim aleyhissəlam barədə belə buyurulur: **"Həqiqətən, İbrahim həlim, *Allaha* çox yalvaran və Ona üz tutan bir bəndə idi"** (Hud, 75).

[4] Yəni "məni tövbə etməyə müvəffəq et, sonra da onu məndən qəbul et!"

[5] Başqa bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ dua edib deyərmiş: "Allahım, mənim günahlarımı qarla, dolu ilə və su ilə yu, ağ paltarı kirdən təmizlədiyin kimi qəlbimi də günahlardan təmizlə!" (Səhih əl-Buxari, 6368).

[6] Peyğəmbər ﷺ Allahdan həm bu dünyada, həm də Axirətdə tutarlı dəlillər göstərməyi, həmçinin, dediyi sözlərin bu dünyada qəbul olunmasını, üstəlik, qəbirdə verilən suallara cavab verməyə müvəffəq olmasını diləyir (Tohfətul-Əhvəzi, 3474-cü hədisin şərhi).

[7] Ummu Sələmə ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ dua edib deyərmiş: "Ey qəlbləri çevirən Allahım, qəlbimi dinin üzərində sabit et!" (Sunən ət-Tirmizi, 3517; Silsilətul-Əhadisis-Səhihə, 2091).

[8] Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın"** (əl-Əhzab, 70-71). Burada "doğru söz" deyildikdə, haqqı demək, Allahı zikr etmək, Quran oxumaq, faydalı elm öyrənmək və öyrətmək, insanlara yaxşı işlər görməyi əmr etmək və onları pis işlərdən çəkindirmək, habelə, pis sözlərdən çəkinmək, qeybət etməmək və s. qəsd edilir.

[9] Burada "qara ləkə" deyildikdə, qəlbdə olan nifaq, həsəd, paxıllıq, ədavət, kin-küdurət, nifrət və başqa bu kimi qəlb xəstəlikləri nəzərdə tutulur.

[1] Transkripsiyası: Rabbi, əinni və lə tuin aley, vən-surni və lə tənsur aley, vəm-kur li və lə təmkur aley, və yəssir liyəl-hudə, vən-surni alə mən bəğa aley. Rabbic-alni şəkkarən lək, zəkkarən lək, rahibən lək, mitvaən lək, muxbitən lək, əvvahən munibən, təqabbəl tovbəti, vəğsil hovbəti, və əcib dəvəti, və səbbit huccəti, vəhdi qalbi, və səddid lisani, vəslul səximətə qalbi.

Qeyd edək ki, digər mənbələrdə varid olmuş bu duadakı ərəbcə (لَكَ) "Sənə" şəxs əvəzliyi isimlərin əvvəlində gəlir. Yəni "Rabbic-alni şəkkarən lək, zəkkarən lək, rahibən lək, mitvaən lək, muxbitən lək, əvvahən munibən" əvəzinə "rabbic-alni ləkə şəkkarən, ləkə zəkkarən, ləkə rahhabən, ləkə mitvaən, ileykə muxbitən, ləkə əvvahən munibən" deyilir. Yəni "Ey Rəbbim, məni yalnız Sənə çoxlu-çoxlu şükür edən, yalnız Səni tez-tez zikr edən, yalnız Səndən çox qorxan, yalnız Sənə çox itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə çox yalvaran və yalnız Sənə üz tutan bir bəndə et." Buna da ərəbcə "həsr" deyilir. Bu ləfz, məna baxımından daha dəqiq, daha əhatəli və daha üstün hesab olunur. Bu duanın tam variantı aşağıdakı kimidir:

((رَبِّ أَعِنِّي وَلا تُعِنْ عَلَيَّ ، وَانْصُرْنِي وَلا تَنْصُرْ عَلَيَّ ، وَامْكُرْ لِي وَلا تَمْكُرْ عَلَيَّ ، وَاهْدِنِي وَيَسِّرِ الْهُدَى إِلَيَّ ، وَانْصُرْنِي عَلَى مَنْ بَغَى عَلَيَّ ، رَبِّ اجْعَلْنِي لَكَ شَكَّارًا ، لَكَ ذَكَّارًا ، لَكَ رَهَّابًا ، لَكَ مِطْوَاعًا ، إِلَيْكَ مُخْبِتًا ، لَكَ أَوَّاهًا مُنِيبًا ، رَبِّ تَقَبَّلْ تَوْبَتِي ، وَاغْسِلْ حَوْبَتِي ، وَأَجِبْ دَعْوَتِي ، وَثَبِّتْ حُجَّتِي ، وَاهْدِ قَلْبِي وَسَدِّدْ لِسَانِي ، وَاسْلُلْ سَخِيمَةَ قَلْبِي))

Transkripsiyası: Rabbi, əinni və lə tuin aley, vənsurni və lə tənsur aley, vəmkur li və lə təmkur aley, vəhdini və yəssiril-hudə iley, vənsurni alə mən bəğa aley. Rabbic-alni ləkə şəkkarən, ləkə zəkkarən, ləkə rahhabən, ləkə mitvaən, ileykə muxbitən, ləkə əvvahən munibən. Rabbi təqabbəl tovbəti, vəğsil hovbəti, və əcib dəvəti, və səbbit huccəti, vəhdi qalbi, və səddid lisani, vəslul səximətə qalbi.

Tərcüməsi: "Ey Rəbbim, mənə kömək et, əleyhimə olan işlərdə (heç kəsə) kömək etmə. Mənə qələbə bəxş et, (heç kəsə) mənim üzərimdə qələbə qazandırma. Mənə (düşmənlərimə) hiylə qurmağa kömək ol, (başqasının) mənə hiylə qurmasına yol vermə. Mənə hidayət ver və mənim üçün doğru yola yönəlməyi asanlaşdır. Mənə təcavüz edənə qalib gəlməyimə yardım et. Ey Rəbbim, məni yalnız Sənə çoxlu-çoxlu şükür edən, yalnız Səni tez-tez zikr edən, yalnız Səndən çox qorxan, yalnız Sənə çox itaət edən, yalnız Sənə boyun əyən, yalnız Sənə çox yalvaran və (yalnız Sənə) üz tutan bir bəndə et. Ey Rəbbim, mənim tövbəmi qəbul et, günahlarımı yu, duamı qəbul et, dəlilimi möhkəmləndir, qəlbimi haqqa yönəlt, dilimi doğruluğa öyrət və qəlbimin qara ləkəsini yox et" (Bu hədisi Tirmizi (3551), İbn Macə (3830), Əhməd (1/227) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih ət-Tirmizi" əsərində onun "səhih" olduğunu demişdir.)

٦٦٦– حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ يَزِيدَ بْنِ زِيَادٍ، عَنْ مُحَمَّدِ بْنِ كَعْبٍ الْقُرَظِيِّ، قَالَ مُعَاوِيَةُ بْنُ أَبِي سُفْيَانَ عَلَى الْمِنْبَرِ: إِنَّهُ لاَ مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعَ اللَّهُ، وَلاَ يَنْفَعُ ذَا الْجَدِّ مِنْهُ الْجَدُّ. وَمَنْ يُرِدِ اللَّهُ بِهِ خَيْرًا يُفَقِّهْهُ فِي الدِّينِ، سَمِعْتُ هَؤُلاَءِ الْكَلِمَاتِ مِنَ النَّبِيِّ ﷺ عَلَى هَذِهِ الأَعْوَادِ.

**(666)** ........ Muaviyə ibn Əbu Sufyan ﷺ minbərdə ikən demişdir:[1] "Həqiqətən də, Allahın verdiyinə mane olacaq bir kimsə yoxdur. Allahın mane olduğunu da verəcək bir kimsə yoxdur. Heç bir hörmət sahibinə Onun yanında hörməti fayda verməz.[2] Allah kimə xeyir nəsib etmək istəsə, ona dini[3] başa düşməyi müyəssər edər.[1] Mən bu sözləri Peyğəmbərdən ﷺ bu minbərin üzərində durub deyərkən eşitmişəm."

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] İmam Buxarinin öz "Səhih"ində (844) Muğira ibn Şobədən ﷺ nəql etdiyi hədisdə Peyğəmbər ﷺ hər bir vacib namazdan sonra deyərdi: "Lə ilahə illəllahu vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, Allahummə, lə maniə limə ə'taytə və lə mu'tiyə limə mənə'tə və lə yənfəu zəl-cəddi minkəl-cədd (Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. O, təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O, hər şeyə Qadirdir! Allahım, Sənin *nemət* verdiyinə mane olacaq, mane olduğuna da *nemət* verəcək *bir kəs* yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz)." Bu duanın mənasını təsdiqləyən Quran ayəsində Uca Allah buyurur: **"Allahın insanlara əta etdiyi mərhəmətin (nemətin, ruzinin) qarşısını heç kəs ala bilməz. Onun göndərmədiyi bir şeyi də Ondan başqa heç kəs verə bilməz"** (Fatir, 2); O, həmçinin, buyurur: **"De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülk verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir *yalnız* Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən"** (Ali-İmran, 26). Hədislərin birində İbn Abbas ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə. Bil ki, bütün ümmət sənə xeyir vermək üçün əlbir olsa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz. Həmçinin, onlar sənə zərər vurmaq üçün əlbir olsalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur" (Sunən ət-Tirmizi, 2516; Musnəd Əhməd, 1/293; Səhih əl-Cami, 7957).

[3] Əlbəttə ki, burada söhbət İslam dinindən gedir. Belə ki, Allah yanında qəbul olan din yalnız İslam dinidir. Bu xüsusda, Uca Allah buyurur: **"Həqiqətən, Allah yanında *qəbul olunan* din, İslamdır!"** (Ali-İmran, 19); O, həmçinin, buyurur: **"İslamdan başqa bir din axtaran şəxsdən, o *din* heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan**

(...)- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا عُثْمَانُ بْنُ حَكِيمٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ ابْنُ كَعْبٍ قَالَ: سَمِعْتُ مُعَاوِيَةَ نَحْوَهُ.

**(...)** Musa bizə belə demişdir: "Abdul-Vahid bizə belə demişdir: "Osman ibn Həkim bizə belə demişdir: "Muhəmməd ibn Kəb bizə belə rəvayət etmişdir: "Mən Muaviyədən bu hədisin bənzərini eşitmişəm."

(...)- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ مُحَمَّدِ بْنِ كَعْبٍ، سَمِعْتُ مُعَاوِيَةَ نَحْوَهُ.

**(...)** Muhəmməd ibn Musənnə bizə belə demişdir: "Yəhya bizə İbn Əclandan, o da, Muhəmməd ibn Kəbin belə dediyini rəvayət etmişdir: "Mən Muaviyədən bu hədisin bənzərini eşitmişəm."

٦٦٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا الْهَيْثَمُ بْنُ جَمِيلٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ مُسْلِمٍ، عَنِ ابْنِ أَبِي حُسَيْنٍ قَالَ: أَخْبَرَنِي عَمْرُو بْنُ أَبِي سُفْيَانَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ أَوْثَقَ الدُّعَاءِ أَنْ تَقُولَ: اللَّهُمَّ أَنْتَ رَبِّي، وَأَنَا عَبْدُكَ، ظَلَمْتُ نَفْسِي، وَاعْتَرَفْتُ بِذَنْبِي، لاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ، رَبِّ اغْفِرْ لِي)).

**(667)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Duaların ən möhkəmi[2] belə dua etməyindir: "Allahım, Sən mənim Rəbbimsən, mən Sənin qulunam.[3] Mən nəfsimə zülm etdim və günahımı etiraf

---

**olar"** (Ali-İmran, 85). Peyğəmbərin ﷺ bu sözünün əks anlamından aydın olur ki, Allah bir kimsəyə xeyir nəsib etmək istəmədikdə, ona dini başa düşməyi müvəffəq etmir. Elə isə, qoy Allahın verdiyi xeyrə nail olmaq istəyən kimsə İslam dinini öyrənməyə çalışsın.

[1] Səhih əl-Buxari, 71. Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, İslam dinini öyrənməyə can atan və onu başa düşüb tələblərini yerinə yetirən kimsəyə Allah xeyir nəsib etmək istəyir.

[2] Yəni ən çox etimad edilən, ən çox fayda verən dualardan biri.

[3] Məxluqatın hamısının Allahın qulu olması barədə Quranda belə buyurulur: **"Göylərdə və yerdə olanların hamısı Mərhəmətli *Allahın* hüzuruna ancaq bir qul kimi gələcək"** (Məryəm, 93). Burada "mən sənin qulunam" deyildikdə, "mən yalnız Sənə ibadət edirəm" qəsd edilir.

edirəm. Günahları Səndən başqa heç kəs bağışlaya bilməz.[1] Ey Rəbbim, məni bağışla.[2]”[3]

**٦٦٨-** حَدَّثَنَا يَحْيَى بْنُ بِشْرٍ قَالَ: حَدَّثَنَا أَبُو قَطَنٍ، عَنِ ابْنِ أَبِي سَلَمَةَ يَعْنِي عَبْدَ الْعَزِيزِ، عَنْ قُدَامَةَ بْنِ مُوسَى، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَدْعُو: ((اللَّهُمَّ أَصْلِحْ لِي دِينِي الَّذِي هُوَ عِصْمَةُ أَمْرِي، وَأَصْلِحْ لِي دُنْيَايَ الَّتِي فِيهَا مَعَاشِي، وَاجْعَلِ الْمَوْتَ رَحْمَةً لِي مِنْ كُلِّ سُوءٍ))، أَوْ كَمَا قَالَ.

**(668)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[4] Rəsulullah ﷺ deyərdi: “Allahım, işimin isməti olan dinimi mənim üçün yaxşılaşdır. İçində yaşayışım olan dünyamı mənim üçün yaxşılaşdır.[5] Ölümü mənim üçün hər cür pislikdən uzaq edən bir rəhmət et.[6]”

---

[1] Rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “*Bir dəfə Allahın qullarından* biri günah iş gördü və: “Ey Rəbbim, mən günah iş gördüm, məni bağışla!”– dedi.” Rəbbi də belə buyurdu: “Mənim qulum bilir ki, onun günahları bağışlayan və onlara görə cəza verən Rəbbi vardır. Odur ki, Mən onu bağışlayıram” (Səhih əl-Buxari, 7507).

[2] Transkripsiyası: Allahummə, əntə Rabbi, və ənə abduk, zaləmtu nəfsi, və'təraftu bizənbi, lə yəğfiruz-zunubə illə ənt, Rabbiğ-firli.

[3] Bu hədisin isnadında keçən Muhəmməd ibn Muslim “xətalara yol vermiş səduq” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Silsilətul-Əhadisis-Səhihə” əsərində (3339) bu hədisin “zəif” olduğunu demişdir. Qeyd edək ki, bu hədisin isnadı “zəif” olsa da, mənası “səhih”dir (617-ci hədisə bax).

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[5] Peyğəmbər ﷺ dininə, dünyasına və axirətinə aid olan və ümumiyyətlə, hər bir işinə görə ancaq Allaha güvənər və ancaq Allahdan yardım diləyərmiş. Başqa bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ deyərmiş: “Mənim bütün işlərimi yoluna qoy! Məni bir göz qırpımı belə başlı-başına buraxma!” (701-ci hədisin qeydlərinə bax.) Fəsildəki bu duaya diqqətlə nəzər salsaq görərik ki, Peyğəmbər ﷺ dünya işlərindən daha çox, dininin islah olunmasını istəyir. Bu da, o deməkdir ki, adamın dini olmazsa, dünyasını da itirər, axirətini də. Beləsinin gördüyü işlər səmərəsiz olar. Bu xüsusda, Uca Allah buyurur: **“Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!”** (əl-Kəhf, 28).

[6] Transkripsiyası: Allahummə, əslih li diyniyəlləzi huvə ismətu əmri, və əslih li dunyayəlləti fihə məaşi, vəc-alil-movtə rahmətən li min kulli su.

Yaxud Peyğəmbərin ﷺ dediyi kimidir.[1]

**٦٦٩-** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنَا سُمَيٌّ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَتَعَوَّذُ مِنْ جَهْدِ الْبَلاَءِ، وَدَرَكِ الشَّقَاءِ، وَسُوءِ الْقَضَاءِ، وَشَمَاتَةِ الأَعْدَاءِ.

قَالَ سُفْيَانُ: فِي الْحَدِيثِ ثَلاَثٌ، زِدْتُ أَنَا وَاحِدَةً، لا أَدْرِي أَيَّتُهُنَّ.

**(669)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki,[2] Peyğəmbər ﷺ dözülməz bəladan, bədbəxt olmaqdan, acınacaqlı aqibətdən və düşmənlərin sevinməsindən Allaha sığınardı.[3]"

Süfyan demişdir: "Hədisdə yalnız üç şey qeyd olunmuşdur, dördüncüsünü isə mən özümdən əlavə etmişəm. Amma hansı sözü əlavə etdiyim yadımda deyil.[4]"

---

[1] Burada hədisin ravilərindən biri bu duanı müxtəsər olaraq nəql etmiş, sonra da "yaxud Peyğəmbərin ﷺ dediyi kimidir" demişdir. Tam variantını isə imam Muslim öz "Səhih"ində (2720) nəql etmişdir. Əbu Hureyrənin ؓ rəvayət etdiyi həmin hədisdə Peyğəmbər ﷺ demişdir:

((اللهُمَّ أَصْلِحْ لِي دِينِي الَّذِي هُوَ عِصْمَةُ أَمْرِي، وَأَصْلِحْ لِي دُنْيَايَ الَّتِي فِيهَا مَعَاشِي، وَأَصْلِحْ لِي آخِرَتِي الَّتِي فِيهَا مَعَادِي، وَاجْعَلِ الْحَيَاةَ زِيَادَةً لِي فِي كُلِّ خَيْرٍ، وَاجْعَلِ الْمَوْتَ رَاحَةً لِي مِنْ كُلِّ شَرٍّ))

Transkripsiyası: Allahummə, əslih li diyniyəlləzi huvə ismətu əmri, və əslih li dunyayəlləti fihə məaşi, və əslih li axirətilləti fihə məadi, vəc'alil-həyatə ziyadətən li fi kulli xeyr, vəc'alil-movtə rahətən li min kulli şərr.

Tərcüməsi: Allahım, işimin isməti olan dinimi, içində yaşadığım dünyamı və qayıdacağım axirətimi mənim üçün yaxşılaşdır! Hər bir xeyirli iş üçün ömrümü artır, ölümümü isə hər bir şər əməldən qurtarmaq üçün rahatlıq vasitəsi et!

[2] Bu hədisi Buxari (6347) və Muslim (2707) rəvayət etmişdir.

[3] 441-ci hədisə bax.

[4] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu əlavə "düşmənlərin sevinməsindən" sözüdür. Bu da, İsmailinin "Mustəxrəc"ində Şücaə ibn Muxəlləddin, bu sözü deyən Sufyandan rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Hafiz (İbn Həcər) də "Fəthul-Bari" əsərində (11/148) bunu təsbit etmişdir. Bu rəvayətdə söhbət Sufyan ibn Uyeynədən gedir..."

(Şeyx Albani davam edib) demişdir: "Burada iki məsələyə toxunmaq yerinə düşərdi:

٦٧٠- حَدَّثَنَا عُبَيْدُ اللهِ، عَنْ إِسْرَائِيلَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَمْرِو بْنِ مَيْمُونٍ، عَنْ عُمَرَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَتَعَوَّذُ مِنَ الْخَمْسِ: مِنَ الْكَسَلِ، وَالْبُخْلِ، وَسُوءِ الْكِبَرِ، وَفِتْنَةِ الصَّدْرِ، وَعَذَابِ الْقَبْرِ.

**(670)** ........ Ömər ﵁ demişdir: "Peyğəmbər ﷺ beş şeydən: tənbəllikdən, xəsislikdən, pis qocalıqdan, qəlbin fitnəsindən və qəbir əzabından Allaha sığınardı."[1]

٦٧١- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ قَالَ: سَمِعْتُ أَبِي قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْعَجْزِ وَالْكَسَلِ، وَالْجُبْنِ وَالْهَرَمِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ)).

---

Birincisi budur ki, "düşmənlərin sevinməsindən" Allaha sığınmaq məsələsi İbn Amrın "mərfu" isnadla rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir:

((اللَّهُمَّ أَعوذُ بِكَ مِنْ غَلَبَةِ الدَّيْنِ، وَغَلَبَةِ الْعَدُوِّ، وَشَمَاتَةِ الأَعْدَاءِ))

Allahummə, əuzu bikə min ğaləbətid-deyn, və ğaləbətil-aduv, və şəmatətil-ədai.

Allahım, borcun (məni) üstələməsindən, düşmənin (mənə) qalib gəlməsindən və düşmənlərin sevinməsindən Sənə sığınıram!"

Bu hədis "Silsilətul-Əhadisis-Səhihə" əsərində (1541) nəql olunub. Ola bilsin ki, Sufyan (Allah ona rəhmət etsin!) bu hədisdən və ya buna bənzər hədisdən bildiyi bu kəlmənin Əbu Hureyrənin ﵁ rəvayətinə əlavə edilməsini caiz görürmüş. Belə güman etmək isə Sufyanın bu kəlməni (fəsildəki hədisə) özündən əlavə etdiyini zənn etməkdən daha yaxşıdı. Beləliklə də, Hafizin nəql etdiyi məsələdəki anlaşılmazlıq aradan qalxmış və ya yüngülləşmiş olur. Daha doğrusunu Allah bilir!

İkincisi isə budur ki, bu fəsildəki hədis bir neçə isnadla varid olmuşdur..... İmam Buxarinin öz "Səhih"ində (6616) nəql etdiyi Musəddədin Sufyandan rəvayət etdiyi hədisdə isə dörd kəlmənin dördü də varid olmuşdur. Lakin həmin hədisdə Peyğəmbər ﷺ əmr edib demişdir: "Dözülməz bəladan, bədbəxt olmaqdan, acınacaqlı aqibətdən və düşmənlərin sevinməsindən Allaha sığının!" (Səhih əl-Ədəbul-Mufrad, səh: 249).

[1] Bu hədisi Əhməd (1/22) rəvayət etmiş və Şueyb əl-Ərnavut onun isnadının "səhih" olduğunu demişdir.

**(671)** ........ Ənəs ibn Malik ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ dua edib deyərdi: "Allahım, acizlikdən, tənbəllikdən, qorxaqlıqdan və qocalıqdan Sənə sığınıram. Həyatın və ölümün fitnəsindən Sənə sığınıram. Qəbir əzabından Sənə sığınıram.[1]"[2]

**٦٧٢-** حَدَّثَنَا الْمَكِّيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَعِيدِ بْنِ أَبِي هِنْدَ، عَنْ عَمْرِو بْنِ أَبِي عَمْرٍو، عَنْ أَنَسٍ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْهَمِّ وَالْحَزَنِ، وَالْعَجْزِ وَالْكَسَلِ، وَالْجُبْنِ وَالْبُخْلِ، وَضَلَعِ الدَّيْنِ، وَغَلَبَةِ الرِّجَالِ)).

**(672)** ........ Ənəs ibn Malik ﵁ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dua etdiyini eşitmişəm: "Allahım, üzüntüdən[3] və kədərdən,[4] acizlikdən[5] və tənbəllikdən,[6] qorxaqlıqdan[7] və xəsislikdən,[8] borc altında qalmaqdan və insanların (məni) sıxışdırmasından Sənə sığınıram![9]"[10]

**٦٧٣-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عَبْدِ الْوَهَّابِ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ الْمَسْعُودِيُّ، عَنْ عَلْقَمَةَ بْنِ مَرْثَدٍ، عَنْ أَبِي الرَّبِيعِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ مِنْ دُعَاءِ النَّبِيِّ ﷺ: ((اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، إِنَّكَ أَنْتَ الْمُقَدِّمُ وَالْمُؤَخِّرُ، لا إِلَهَ إِلا أَنْتَ)).

---

[1] Transkripsiyası: Allahummə, inni əuzu bikə minəl-aczi vəl-kəsəli vəl-cubni vəl-hərəm, və əuzu bikə fitnətil-məhya vəl-məmat, və əuzu bikə min əzabil-qabr.

[2] Bu hədisi Buxari (6367), Muslim (2706), Əbu Davud (1540) və Əhməd (3/113, 117, 208 və 214) rəvayət etmişdir.

[3] Üzüntü: adamı üzən qəm, dərd, iztirab.

[4] Kədər: qəm qüssə, dərd. Üzüntü ilə kədər arasındakı fərq budur ki, üzüntü, gələcək işlərə, kədər isə keçmiş işlərə aid edilir.

[5] Acizlik: bacarıqsızlıq, iqtidarsızlıq, zəiflik, cəsarətsizlik, qətiyyətsizlik. Aciz: əlindən iş gəlməyən, bacarıqsız, zəif.

[6] Tənbəllik: tənbəl adamın hal və keyfiyyəti. Tənbəl: işdən, zəhmətdən qaçan; işləməyi, zəhməti sevməyən adam; işdə ağır tərpənən.

[7] Qorxaqlıq: cəsarətsizlik, ürəksizlik, ağciyərlik.

[8] Xəsislik: simiclik etmək, qıymamaq, əsirgəmək.

[9] Transkripsiyası: Allahummə, inni əuzu bikə minəl-həmmi vəl-həzən, vəl-aczi vəl-kəsəl, vəl-cubni vəl-buxl, və daləid-dini və ğaləbətir-rical.

[10] Bu hədisi Buxari (2893) və Əhməd (3/220) rəvayət etmişdir.

**(673)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Peyğəmbər ﷺ belə dua edərdi: "Allahım, əvvəl etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxartdığım məndən daha yaxşı bildiyin (pis) əməllərimi bağışla! Əvvələ çəkən də, təxirə salan da Sənsən.[1] Səndən başqa (haqq) məbud yoxdur.[2]"[3]

**٦٧٤-** حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي الأَحْوَصِ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَدْعُو: ((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْهُدَى، وَالْعَفَافَ، وَالْغِنَى)).

وَقَالَ أَصْحَابُنَا، عَنْ عَمْرٍو: ((وَالتُّقَى)).

**(674)** ........ Abdullah *ibn Məsud* ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: "Allahım, Səndən hidayət, ismətli olmağı və zənginlik diləyirəm.[4]"

Dostlarımız demişlər ki, Amr[5] buna "və təqva[6]"[7] ifadəsini də əlavə etmişdir.[8]

---

[1] Burada Peyğəmbər ﷺ Allahın iki gözəl adı ilə – "əl-Muqəddim" və "əl-Muəxxir" adlarıyla Ona təvəssül edir.

[2] Transkripsiyası: Allahumməğ-firli mə qaddəmtu və mə əxxart, və mə əsrartu və mə ə'lənt, və mə əntə ə'ləmu bihi minni, innəkə əntəl-Muqəddimu vəl-Muəxxiru lə ilahə illə ənt.

[3] Bu hədisi Əbu Davud (760), İbn Xuzeymə (743) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Transkripsiyası: Allahummə, inni əsəlukəl-hudə vəl-əfafə vəl-ğinə.

[5] İmam Buxari burada "dostlarımız" deyəndə, hədisi rəvayət etmiş digər mühəddisləri, "Amr" deyəndə isə öz şeyxi Amr ibn Mərzuqu nəzərdə tutur.

[6] Tabiinlərdən olmuş Talq ibn Həbib "təqva" (qorxmaq) kəlməsinə belə tərif vermişdir: "Təqva: Allahın nuru üzərində (Kitab və Sünnəyə uyğun), savabını da Allahdan umaraq Allaha itaət etmək və Allahın nuru üzərində, Allahın əzabından qorxaraq Allaha asi olan işlərdən çəkinməkdir" (Musənnəf ibn Əbu Şeybə, 30993).

[7] Duanın tam variantı belədir: Allahummə, inni əsəlukəl-hudə vəl-əfafə vəl-ğinə vət-tuqə (Allahım, Səndən hidayət, ismətli olmağı, habelə, zənginlik və təqva diləyirəm). Bunu da İmam Muslim öz "Səhih"ində (2721) rəvayət etmişdir.

[8] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**٦٧٥-** حَدَّثَنَا بَيَانٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ قَالَ: حَدَّثَنَا الْجُرَيْرِيُّ، عَنْ ثُمَامَةَ بْنِ حَزْنٍ قَالَ: سَمِعْتُ شَيْخًا يُنَادِي بِأَعْلَى صَوْتِهِ: اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الشَّرِّ لاَ يَخْلِطُهُ شَيْءٌ، قُلْتُ: مَنْ هَذَا الشَّيْخُ؟ قِيلَ: أَبُو الدَّرْدَاءِ.

**(675)** ........ Cəriri rəvayət edir ki, Sumamə ibn Həzn demişdir: "Mən bir şeyxin uca səslə belə dua etdiyini eşitdim: "Allahım, özünə heç bir şey qarışmayan şərdən Sənə sığınıram."[1] Mən soruşdum: "Bu şeyx kim idi?" Dedilər ki, "Bu, Əbu Dərda[2] idi."[3]

**٦٧٦-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو عَامِرٍ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ مَجْزَأَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِي أَوْفَى، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَقُولُ: ((اللَّهُمَّ طَهِّرْنِي بِالثَّلْجِ وَالْبَرَدِ وَالْمَاءِ الْبَارِدِ، كَمَا يُطَهَّرُ الثَّوْبُ الدَّنِسُ مِنَ الْوَسَخِ))، ثُمَّ يَقُولُ: ((اللَّهُمَّ رَبَّنَا لَكَ الْحَمْدُ مِلْءَ السَّمَاءِ وَمِلْءَ الأَرْضِ، وَمِلْءَ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ)).

**(676)** ........ Abdullah ibn Əbu Aufə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: "Allahım, kirli paltar kirdən təmizləndiyi kimi,[4] məni də qarla, dolu ilə və soyuq su ilə təmizlə.[5]" Sonra da deyərdi: "Allahım, ey

---

[1] Transkripsiyası: Allahummə, inni əuzu bikə minəş-şərri lə yəxlituhu şey.

[2] Burada söhbət məşhur səhabə Əbu Dərdadan ﷺ gedir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Burada Peyğəmbər ﷺ dini paltara bənzədir. Yəni paltar kirdən təmizləndiyi kimi, qəlbimi günahlardan təmizlə, dinimi saflaşdır və əməllərimi islah et! Dinin paltara bənzəməsi isə "səhih" hədisdə öz əksini tapmışdır. Əbu Səid əl-Xudrinin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən yuxuda ikən insanlar mənə göstərildi. Onların əynində köynəklər var idi. Bu köynəklərin bəzisi sinəyə çatırdı, bəzisi isə bundan aşağı idi. Ömər ibn Xattabı da mənə göstərdilər. Onun əynində *ətəyi yerlə* sürünən bir köynək var idi." *Səhabələr* soruşdular: "Bu köynəkləri nəyə yozdun, ya Rəsulullah?" O: "Dinə *yozdum*!"– dedi" (Səhih əl-Buxari, 23). Bu da, Ömər ibn Xattabın ﷺ bu dinə möhkəm sarıldığına, imanının da olduqca çox olduğuna dəlalət edir.

[5] Transkripsiyası: Allahummə, tahhirni bis-sədci vəl-bərədi vəl-mail-baridi, kəmə yutahhərus-sovbud-dənisu minəl-vəsəx.

Rəbbimiz, göy dolusu, yer dolusu və bundan sonra dilədiyin şeylər dolusu Sənə həmd olsun.[1]"[2]

٦٧٧- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يُكْثِرُ أَنْ يَدْعُوَ بِهَذَا الدُّعَاءِ: ((اللَّهُمَّ آتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الْآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ)).
قَالَ شُعْبَةُ: فَذَكَرْتُهُ لِقَتَادَةَ، فَقَالَ: كَانَ أَنَسٌ يَدْعُو بِهِ، وَلَمْ يَرْفَعْهُ.

**(677)** ........ Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ tez-tez belə dua edərdi: "Allahım,[3] bizə həm *bu* dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru![4]"

Şobə demişdir: "Mən bunu Qətadəyə danışdım. O, dedi: "Bu duanı Ənəs edərdi. O bunu "mərfu" isnadla rəvayət etməmişdir.[5]"

---

[1] Transkripsiyası: Allahummə, Rabbənə ləkəl-həmdu mil'əs-səmai və mil'əl-ərdi və mil'ə mə şi'tə min şeyin bə'd.

[2] Bu hədisi Muslim öz "Səhih"ində (1096) rəvayət etmişdir. Həmin hədisdə Abdullah ibn Əbu Əufə ﷺ demişdir: "Rəsulullah ﷺ *rükudan qalxdıqdan sonra* deyərdi: "Allahummə, ləkəl həmdu, mil'us-səmavati və mil'ul-ardı və mil'u mə şi'tə min şeyin bə'd. Allahummə, tahhirni bis-səlci vəl-bərədi vəl-mail-baridi. Allahummə, tahhirni minəz-zunubi vəl-xətaya kəmə yunəqqas-səubul-əbyədu minəl-vəsəxi. (Allahım, göylər dolusu, yer dolusu və bundan sonra dilədiyin şeylər dolusu Sənə həmd olsun! Allahım, mənim günahlarımı qarla, dolu ilə və soyuq su ilə yu! Allahım, ağ paltar kirdən təmizləndiyi kimi, məni də günahlarımdan və xətalarımdan təmizlə!)"

[3] Şeyx Albani demişdir: "Quranda nazil olmuş bu dua "Rabbənə atinə..." ilə başlayır. Bəzi rəvayətlərdə isə bu iki kəlmə – "Allahummə" və "Rabbənə" kəlmələri cəm edilmişdir. Rəvayət edilir ki, Qətadə Ənəsdən ﷺ: "Peyğəmbər ﷺ çox vaxt hansı duanı edərdi?"– deyə soruşmuş, o da ona belə cavab vermişdir: "Peyğəmbər ﷺ çox vaxt dua edib deyərdi: "Allahummə, Rabbənə atinə fid-dunya həsənətən və fil-axirəti həsənə, və qinə əzabən-nar (Ey Allahım, Ey Rəbbimiz, bizə həm bu dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru!)" Ənəs də, həmçinin, dua etmək istədikdə, bu duanı edərdi" (Sunən Əbu Davud, 1519; Musnəd Əhməd, 3/101; Səhih Əbu Davud 1359).

[4] Transkripsiyası: Allahummə, atinə fid-dunya həsənətən və fil-axirəti həsənə, və qinə əzabən-nar (633-cü hədisin qeydlərinə bax).

[5] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu hədisi müəllifin şeyxi Amr ibn Mərzuq, Şobədən belə rəvayət etmiş və axırında bu sözü demişdir. Həmçinin, Təyalisi də

**٦٧٨-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ يَعْنِي ابْنَ سَلَمَةَ، عَنْ إِسْحَاقَ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي طَلْحَةَ، عَنْ سَعِيدِ بْنِ يَسَارٍ، عَنْ أَبِي هُرَيْرَةَ، كَانَ النَّبِيُّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْفَقْرِ وَالْقِلَّةِ وَالذِّلَّةِ، وَأَعُوذُ بِكَ أَنْ أَظْلِمَ أَوْ أُظْلَمَ)).

**(678)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ deyərdi: "Allahım, yoxsulluqdan, azlıqdan və zillətdən[1] Sənə sığınıram! Habelə, zülm etməkdən və ya zülmə məruz qalmaqdan Sənə sığınıram![2]"[3]

**٦٧٩-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي بَكْرٍ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ، عَنْ لَيْثٍ، عَنْ ثَابِتِ بْنِ عَجْلاَنَ، عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي أُمَامَةَ قَالَ: كُنَّا عِنْدَ النَّبِيِّ فَدَعَا بِدُعَاءٍ كَثِيرٍ لاَ نَحْفَظُهُ، فَقُلْنَا: دَعَوْتَ بِدُعَاءٍ لاَ نَحْفَظُهُ؟ فَقَالَ: ((سَأُنَبِّئُكُمْ بِشَيْءٍ يَجْمَعُ ذَلِكَ كُلَّهُ لَكُمْ: اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ مِمَّا سَأَلَكَ نَبِيُّكَ مُحَمَّدٌ ﷺ، وَنَسْتَعِيذُكَ مِمَّا اسْتَعَاذَكَ مِنْهُ نَبِيُّكَ مُحَمَّدٌ ﷺ، اللَّهُمَّ أَنْتَ الْمُسْتَعَانُ وَعَلَيْكَ الْبَلاَغُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ))، أَوْ كَمَا قَالَ.

---

öz "Musnəd" əsərində (2036) bunu eynilə Şobədən rəvayət etmişdir. Habelə, İbn Hibban öz "Səhih"ində (2/144-145) və Əhməd (3/277) bu hədisi Təyalisinin istinad etdiyi eyni isnadla rəvayət etmişdir. Lakin bu rəvayətlərdə (Qətadə) fəqət: "Ənəs bu duanı edərdi" demiş və "o bunu "mərfu" isnadla rəvayət etməmişdir" sözünü zikr etməmişdir. Doğru olanı da elə budur. Çünki Şobə bu hədisi Qətadədən "mərfu" isnadla rəvayət etmişdir (yəni Ənəs ibn Malikin ؓ bu duanı Peyğəmbərdən ﷺ eşitdiyini demişdir). Heç ağıla sığa bilərmi ki, Şobə (bu hədisi "mərfu" isnadla rəvayət etdikdən sonra): "O bunu "mərfu" isnadla rəvayət etməmişdir" deyə öz sözünə zidd olan bir sözü nəql etsin..." (Səhih əl-Ədəbul-Mufrad, səh: 252-253).

[1] Burada "yoxsulluq" deyildikdə, həm mənəvi, həm də maddi yoxsulluq, "azlıq" deyildikdə, var-dövlətin azlığı, "zillət" deyildikdə də, alçalmaq nəzərdə tutulur.

[2] Transkripsiyası: Allahummə, inni əuzu bikə minəl-fəqri vəl-qilləti vəz-zillə, və əuzu bikə ən əzlimə əu uzləm.

[3] Bu hədisi Əbu Davud (1544), Əhməd (2/305, 325, 354) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(679)** ........ Əbu Umamə ﷺ demişdir: "Biz Peyğəmbərin ﷺ yanında ikən o, yadda qalmayan cox uzun dua etdi. Biz dedik: "(Ya Rəsulullah!) Sən elə dua etdin ki, biz onu yadda saxlaya bilmədik?" Peyğəmbər ﷺ dedi: "Mən sizə bütün bunları özündə cəm edən bir duanı öyrədəcəyəm: "Allahım, Sənin Peyğəmbərin Muhəmmədin ﷺ Səndən dilədiyini biz də Səndən diləyir və Sənin Peyğəmbərin Muhəmmədin ﷺ Sənə sığındığı şeydən biz də Sənə sığınırıq.[1] Allahım, kömək dilənilləsi kimsə yalnız Sənsən və Sənə (yalvarmaq) kifayətdir![2] Qüdrət və qüvvət yalnız Allaha məxsusdur.[3]"[4]

Yaxud Peyğəmbərin ﷺ dediyi kimidir.[5]

**٦٨٠-** حَدَّثَنَا يَحْيَى بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ يَزِيدَ بْنِ الْهَادِ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ النَّارِ)).

**(680)** ........ Amr ibn Şueyb atasından, o da öz atasından rəvayət etmişdir ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Allahım, dəccal məsihin fitnəsindən Sənə sığınıram! Eləcə də, Cəhənnəmin fitnəsindən Sənə sığınıram![6]"[7]

---

[1] Bu dua 639-cu hədisdə öz təsdiqini tapmışdır.

[2] Bu xüsusda, Uca Allah buyurur: **"Məgər Allah Öz quluna** (onun istəyini yerinə yetirmək üçün) **kifayət etmirmi?"** (əz-Zumər, 36).

[3] Rəvayət edilir ki, Əbu Musa əl-Əşari ﷺ demişdir: "Peyğəmbərin ﷺ Xeybərə yürüşü zamanı mən Peyğəmbərin ﷺ dəvəsinin arxa tərəfində olarkən o, dedi: "Ey Abdullah ibn Qeys!" Dedim: "Hüzurundayam, ya Rəsulullah!" O, dedi: "Cənnət xəzinələrindən sayılan bir kəlməni sənə öyrədimmi?" Dedim: "Öyrət, ya Rəsulullah, atam-anam sənə qurban!" Peyğəmbər ﷺ buyurdu: "Lə hovlə və lə quvvətə illə billəh!" (Səhih əl-Buxari, 4205).

[4] Transkripsiyası: Allahummə, innə nəsəlukə mimmə səələkə nəbiyyukə Muhəmmədun səllallahu aleyhi və səlləm, və nəstəizukə mimməs-təazəkə minhu nəbiyyukə Muhəmmədun səllallahu aleyhi və səlləm, Allahummə, əntəl-mustəanu və aleykəl-bəlağ, və lə hovlə və lə quvvətə illə billəh.

[5] Bu hədisin isnadında keçən Leys ibn Əbu Suleym "hafizəsi qarışmış" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisid-Daifə" əsərində (3356) bu hədisin "zəif" olduğunu demişdir. Bu hədisin isnadı "zəif" olsa da, mənası "səhih"dir.

[6] Transkripsiyası: Allahummə, inni əuzu bikə min fitnətil-məsihid-dəccal, və əuzu bikə min fitnətin-nar.

[7] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

٦٨١– حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ، عَنْ نُصَيْرِ بْنِ أَبِي الأَشْعَثِ، عَنْ عَطَاءِ ابْنِ السَّائِبِ، عَنْ سَعِيدٍ قَالَ: كَانَ ابْنُ عَبَّاسٍ يَقُولُ: اللَّهُمَّ قَنِّعْنِي بِمَا رَزَقْتَنِي، وَبَارِكْ لِي فِيهِ، وَاخْلُفْ عَلَيَّ كُلَّ غَائِبَةٍ بِخَيْرٍ.

**(681)** ........ Səid rəvayət edir ki, ibn Abbas ﷺ belə dua edərdi: “Allahım, verdiyin ruzi ilə məni məmnun et, onda mənə bərəkət ver və itirdiyim hər bir şeyin əvəzinə xeyirli olanı ver.[1]”[2]

٦٨٢– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ عَبْدِ الْعَزِيزِ، عَنْ أَنَسٍ قَالَ: كَانَ أَكْثَرُ دُعَاءِ النَّبِيِّ ﷺ: ((اللَّهُمَّ آتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الْآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ)).

**(682)** ........ Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ çox vaxt belə dua edərdi: “Allahım, bizə həm *bu* dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru!”[3]

٦٨٣– حَدَّثَنَا الْحَسَنُ بْنُ الرَّبِيعِ قَالَ: حَدَّثَنَا أَبُو الأَحْوَصِ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي سُفْيَانَ، وَيَزِيدَ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يُكْثِرُ أَنْ يَقُولَ: ((اللَّهُمَّ يَا مُقَلِّبَ الْقُلُوبِ، ثَبِّتْ قَلْبِي عَلَى دِينِكَ)).

**(683)** ........ Ənəs ﷺ rəvayət edir ki,[4] Peyğəmbər ﷺ çox vaxt belə dua edərdi: “Ey qəlbləri çevirən Allahım, qəlbimi dinin üzərində sabit et.[5]”

---

[1] Transkripsiyası: Allahummə, qannə'ni bimə razəqtəni, və barik li fih, vəx-luf aleyyə kullə ğaibətin bixeyr.

[2] Bu hədisin isnadında keçən Əta ibn Saib “hafizəsi qarışmış” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Silsilətul-Əhadisid-Daifə” əsərində (6042) bu hədisin “zəif” olduğunu demişdir. Bu hədisin isnadı “zəif” olsa da, mənası “səhih”dir.

[3] 633-cü və 677-ci hədislərin qeydlərinə bax.

[4] Bu hədisi Tirmizi (3517), Əhməd (6/302, 315) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Silsilətul-Əhadisis-Səhihə” əsərində (2091) onun “səhih” olduğunu demişdir.

[5] Transkripsiyası: Allahummə, ya muqallibəl-qulub, səbbit qalbi alə dinik.

Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: “Adəm övladlarının qəlbi ər-Rəhmanın Barmaqlarından iki Barmağının arasında bir qəlb kimidir. O onu istədiyi tərəfə çevirir.” Sonra Peyğəmbər ﷺ dua edib dedi: “Allahummə, musarrifəl-qulub, sarrif qu-

٦٨٤– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا رَجُلٌ مِنْ أَسْلَمَ يُقَالُ لَهُ: مَجْزَأَةُ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ أَبِي أَوْفَى، عَنِ النَّبِيِّ ﷺ، أَنَّهُ كَانَ يَدْعُو: ((اللَّهُمَّ لَكَ الْحَمْدُ مِلْءَ السَّمَاوَاتِ وَمِلْءَ الأَرْضِ، وَمِلْءَ مَا شِئْتَ مِنْ شَيْءٍ بَعْدُ، اللَّهُمَّ طَهِّرْنِي بِالْبَرْدِ وَالثَّلْجِ وَالْمَاءِ الْبَارِدِ، اللَّهُمَّ طَهِّرْنِي مِنَ الذُّنُوبِ، وَنَقِّنِي كَمَا يُنَقَّى الثَّوْبُ الأَبْيَضُ مِنَ الدَّنَسِ)).

**(684)** ........ Abdullah ibn Əbi Əufə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: “Allahım, göylər dolusu, yer dolusu və bundan sonra dilədiyin şeylər dolusu Sənə həmd olsun. Allahım, məni buzla, qarla və soyuq su ilə təmizlə. Allahım, ağ paltar kirdən təmizləndiyi kimi, məni də günahlardan təmizlə.”[1]

٦٨٥– حَدَّثَنَا عَبْدُ الْغَفَّارِ بْنُ دَاوُدَ قَالَ: حَدَّثَنَا يَعْقُوبُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ قَالَ: كَانَ مِنْ دُعَاءِ رَسُولِ اللَّهِ ﷺ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ زَوَالِ نِعْمَتِكَ، وَتَحَوُّلِ عَافِيَتِكَ، وَفُجْأَةِ نِقْمَتِكَ، وَجَمِيعِ سَخَطِكَ)).

**(685)** ........ Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: “Allahım, mənə əta etdiyin nemətin aradan qalxmasından, ver-

---

lubənə alə taətik (Ey qəlbləri yönəldən Allahım, qəlbimizi Öz itaətinə yönəlt)” (Səhih Muslim, 8/51). Qurani Kərimdə də, həmçinin, qəlblərin çevrilməsi xüsusunda neçə-neçə ayələr vardır. Həmin ayələrin birində Uca Allah buyurur: **“Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik”** (əl-Ənam, 110). Allahdan qorxan kimsələr dua edib deyərlər: **“Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən”** (Ali-İmran, 8). Bu mənada varid olmuş hədislərdən aydın olur ki, Peyğəmbər ﷺ başda olmaqla, möminlər qəlblərinin sabit qalmasını Allahdan diləyər və haqq yoldan sapmaqdan Allaha sığınardılar. Həsən əl-Bəsri demişdir: “Mömin, özündə yaxşılıqla qorxunu, münafiq isə özündə pisliklə arxayınlığı cəm etmişdir” (Təfsir İbn Kəsir, “əl-Muminun” surəsinin, 57-ci ayəsinin şərhi). Yəni mömin adam yaxşılıq etdikdə belə qəlbi qorxu içində olur. Qorxur ki, birdən etdiyi yaxşılıqlar qəbul olmaz. Münafiq isə günah işlər görür və bu əməlinin bağışlanacağına arxayın olur.

[1] 676-cı hədisin qeydlərinə bax.

diyin sağlamlığın dəyişməsindən,[1] əzabın qəfil gəlməsindən və Səni qəzəbləndirəcək hər bir işdən Sənə sığınıram![2]”[3]

[1] Peyğəmbərin ﷺ bu duasından aydın olur ki, istədiyi vaxt bəndəsinə nemət verən, istədikdə də onu bəndəsindən alan, habelə, istədiyi zaman ona salamatlıq bəxş edən, istədikdə də onu xəstəliyə mübtəla edən Allahdır. Allahın verdiyi nemətlərin artması üçün isə bu nemətlərə görə Allaha şükürlər etmək gərəkdir. Uca Allah buyurur: **“Əgər şükür etsəniz, sizə** ***olan nemətimi*** **artıraram, yox əgər nankorluq etsəniz,** ***bilin ki,*** **Mənim əzabım şiddətlidir”** (İbrahim, 7). Lakin qeyd etmək lazımdır ki, şükür etməklə yanaşı, səbəbləri də götürmək lazımdır. Yəni Allahın verdiyi nemətləri itirməmək üçün Onu qəzəbə gətirəcək əməllərdən həzər etmək gərəkdir. Çünki Allahı qəzəbləndirəcək əməllər nemətin aradan qalxması üçün səbəbdir. Quranda deyilir: **“Allah təhlükəsizlik və əmin-amanlıq içində olan bir diyarı (Məkkəni) məsəl çəkir. Ona öz ruzisi hər yerdən bol-bol gəlirdi. Lakin o** ***diyarın əhalisi*** **Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü”** (ən-Nəhl, 112); digər ayədə deyilir: **“İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki,** ***Allah*** **onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar** ***haqqa*** **qayıdalar”** (ər-Rum, 41).

[2] Transkripsiyası: Allahummə, inni əuzu bikə min zəvali nimətik, və təhəvvuli afiyətik, və fuc'əti niqmətik, və cəmi'i səxətik.

[3] Bu hədisi Muslim (2739) rəvayət etmişdir.

## ٢٨٩– بَابُ الدُّعَاءِ عِنْدَ الْغَيْثِ وَالْمَطَرِ

## 289-cu fəsil. Yağış yağanda edilən dua

٦٨٦– حَدَّثَنَا خَلاَّدُ بْنُ يَحْيَى قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الْمِقْدَامِ بْنِ شُرَيْحِ بْنِ هَانِئٍ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا رَأَى نَاشِئًا فِي أُفُقٍ مِنْ آفَاقِ السَّمَاءِ، تَرَكَ عَمَلَهُ، وَإِنْ كَانَ فِي صَلاَةٍ، ثُمَّ أَقْبَلَ عَلَيْهِ، فَإِنْ كَشَفَهُ اللَّهُ حَمِدَ اللَّهَ، وَإِنْ مَطَرَتْ قَالَ: ((اللَّهُمَّ صَيِّبًا نَافِعًا)).

**(686)** ........ Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ göy üfüqlərindən birində bulud gördüyü zaman, hətta namazda olsa belə, əlindəki işi buraxar və buluda tərəf üz tutardı.[1] Allah onu ətrafa dağıtdıqda, Allaha həmd edər, yağış yağdıqda isə: "Allahım, *bu yağışı* bol, faydalı et!"[2]– deyə dua edərdi."[3]

---

[1] Başqa bir hədisdə Aişə ﵂ rəvayət etmişdir ki, Rəsulullah ﷺ göydə bulud gördüyü zaman əlindəki işi buraxar və buluda tərəf üz tutub: "Allahummə, inni əuzu bikə min şərri mə fih (Allahım, bu buluddakı şərdən Sənə sığınıram!)"– deyər, Allah onu ətrafa dağıtdıqda, Allaha həmd edər, yağış yağdıqda isə "Allahım, (bu yağışı) bol, faydalı et!"– deyə dua edərdi" (Musnəd Əhməd, 6/190; Mişkatul-Məsabih, 1520). Peyğəmbərin ﷺ belə etməsi və Allahdan yağışın faydalı olmasını diləməsi dəlildir ki, buludun gətirdiyi yağışda xeyir də ola bilər, şər də. **"Nəhayət o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu bizə yağış yağdıracaq buluddur!"– dedilər. *Hud dedi:* "Xeyr! Bu sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir! O öz Rəbbinin əmri ilə hər şeyi yerlə-yeksan edəcəkdir!" Onlar elə *məhv* oldular ki, evlərindən başqa heç bir şey görünmədi. Biz günahkar adamları belə cəzalandırırıq"** (əl-Əhqaf, 24-25). Xüsusilə qeyd etmək lazımdır ki, yağışın yağması adamın iman gətirməsinə və ya kafir olmasına səbəb olur. Rəvayət edilir ki, Zeyd ibn Xalid əl-Cuhəni ﵁ demişdir: "Peyğəmbər ﷺ Hudeybiyədə gecə ikən yağmış yağışdan sonra bizə sübh namazını qıldırdı və namazı bitirdikdən sonra üzünü camaata çevirib soruşdu: "Bilirsinizmi, Rəbbiniz nə buyurdu?" *Səhabələr:* "Allah və Rəsulu daha yaxşı bilir"– dedilər. Peyğəmbər ﷺ dedi: "*Allah buyurdu*: "Qullarımdan bir qismi mömin, digər qismi isə kafir oldu. "Bizə Allahın lütfü və mərhəməti sayəsində yağış göndərilmişdir"– deyənlərə gəlincə, onlar Mənə iman gətirmiş və ulduzları inkar etmişlər. "Yağış bizə filan və filan ulduza görə nazil olmuşdur"– deyənlərə gəldikdə isə onlar Mənə küfr etmiş və ulduzlara iman gətirmişlər" (Səhih əl-Buxari, 846).

[2] Transkripsiyası: Allahummə, sayyibən nafiə.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٩٠- بَابُ الدُّعَاءِ بِالْمَوْتِ

## 290-cı fəsil. Ölüm diləmək

**٦٨٧-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنْ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنِي قَيْسٌ: أَتَيْتُ خَبَّابًا، وَقَدِ اكْتَوَى سَبْعًا، وَقَالَ: لَوْلاَ أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَانَا أَنْ نَدْعُوَ بِالْمَوْتِ لَدَعَوْتُ بِهِ.

**(687)** ........ Qeys demişdir: "Mən Xəbbaba ﵁ baş çəkmək üçün onun yanına gəldim. O, artıq yeddi dəfə öz bədəninə dağ basmışdı. O, dedi: "Əgər Peyğəmbər ﷺ bizə ölüm diləməyi qadağan etməsəydi, özümə ölüm arzulayardım.[1]"[2]

---

[1] 454-cü və 455-ci hədislərin qeydlərinə bax.

[2] Bu hədisi Buxari öz "Səhih"ində (5672) rəvayət etmişdir.

## Mündəricat

Müqəddimə ........................................................................................ 5
İmam Buxarinin tərcümeyi-halı ........................................................ 26
1-ci fəsil. Uca Allahın **"Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq"** ayəsi ................................................................................. 32
2-ci fəsil. Ananın qayğısına qalmaq ........................................................ 36
3-cü fəsil. Atanın qayğısına qalmaq ........................................................ 40
4-cü fəsil. Valideynlər zülm etsələr belə onların qayğısına qalmaq ..... 42
5-ci fəsil. Valideynlərlə mülayim danışmaq ........................................... 43
6-cı fəsil. Valideynlərə etdiklərinin əvəzini vermək .............................. 48
7-ci fəsil. Valideynlərin üzünə ağ olmaq ................................................. 53
8-ci fəsil. Valideynlərinə lənət oxuyana Allah lənət edər ...................... 56
9-cu fəsil. Günah işlərdən başqa (hər bir işdə) valideynlərin qayğısına qalmaq ................................................................................... 59
10-cu fəsil. Valideynləri qocalanadək onların yanında yaşayan, sonra da Cənnətə daxil olmayan kimsə ........................................................ 63
11-ci fəsil. Kim valideynlərinin qayğısına qalarsa, Allah onun ömrünü uzadar ................................................................................... 64
12-ci fəsil. Müşrik ata üçün bağışlanma diləməmək ............................. 65
13-cü fəsil. Müşrik valideynin qayğısına qalmaq .................................. 67
14-cü fəsil. Valideynləri söyməmək ........................................................ 72
15-ci fəsil. Valideynlərin üzünə ağ olmağın cəzası ................................ 73
16-cı fəsil. Valideynlərin ağlaması .......................................................... 75
17-ci fəsil. Valideynlərin duası ................................................................ 76
18-ci fəsil. Xristian anaya İslam dinini bəyan etmək ............................. 81
19-cu fəsil. Valideynlərin vəfatından sonra belə, onların qeydinə qalmaq ................................................................................................... 83
20-ci fəsil. Atanın dostluq etdiyi kimsələrlə əlaqə saxlamaq ................ 87
21-ci fəsil. Atanın dostları ilə əlaqəni kəsmə ki, nurun sönməsin ........ 89
22-ci fəsil. Sevgi irsən (övlada) keçir ....................................................... 90

23-cü fəsil. Atanı adı ilə çağırmamaq, ondan qabaq oturmamaq və onun önündə getməmək....91
24-cü fəsil. Atanı kunyə ilə çağırmaq olarmı?....92
25-ci fəsil. Qohumlarla əlaqə saxlamağın vacibliyi....93
26-cı fəsil. Qohumlarla əlaqə saxlamaq....96
27-ci fəsil. Qohumlarla əlaqə saxlamağın fəziləti....100
28-ci fəsil. Qohumluq əlaqələrini möhkəmləndirmək ömrü uzadır....103
29-cu fəsil. Kim qohumluq əlaqələrini möhkəmləndirsə, əhli onu sevər....105
30-cu fəsil. Ən yaxın və ən yaxın olanların qeydinə qalmaq....106
31-ci fəsil. Aralarında qohumluq əlaqəsini kəsən bir kimsə olan camaata rəhmət nazil olmur....108
32-ci fəsil. Qohumluq əlaqələrini kəsənin günahı....109
33-cü fəsil. Qohumluq əlaqələrini kəsənin dünyadakı aqibəti....111
34-cü fəsil. Qarşılığını vermək məqsədi ilə qohumluq əlaqəsini saxlayan kəs əlaqə saxlayan adam sayıla bilməz....112
35-ci fəsil. Zalım qohumla əlaqə saxlamağın fəziləti....113
36-cı fəsil. Cahiliyyət dövründə qohumları ilə əlaqə saxlayan, sonra da müsəlman olan kəs....115
37-ci fəsil. Müşrik qohumla əlaqə saxlamaq və ona hədiyyə vermək....116
38-ci fəsil. Qohumlarınızla əlaqə saxlamaq üçün əsil-nəsəbinizi öyrənin....117
39-cu fəsil. Mövla: "Mən filankəslərdənəm!"– deyə bilərmi?....119
40-cı fəsil. Qövmün mövlası onlardandır....120
41-ci fəsil. İki, yaxud bir qız uşağına baxan kimsə....123
42-ci fəsil. Üç bacıya baxan kimsə....125
43-cü fəsil. Himayəsində qalmış qızına baxan kimsənin fəziləti....126
44-cü fəsil. Qız uşaqlarının ölümünü arzulamağı məkruh sayan kimsə....128
45-ci fəsil. Övlad xəsislik və qorxaqlıq üçün bir bəhanədir....129
46-cı fəsil. Körpəni çiynində oturtmaq....131

47-ci fəsil. Övlad (ata-ananın) göz bəbəyidir ........ 132
48-ci fəsil. Dostunun mal-dövləti və övladı çoxalsın deyə, onun üçün dua etmək ........ 137
49-cu fəsil. Analar rəhmlidirlər ........ 139
50-ci fəsil. Körpələri öpmək ........ 140
51-ci fəsil. Valideynin övladla ədəblə davranması və onun qayğısına qalması ........ 142
52-ci fəsil. Atanın övlada qayğı göstərməsi ........ 145
53-cü fəsil. Rəhm etməyən kimsəyə rəhm edilməz ........ 146
54-cü fəsil. Rəhmət yüz hissədir ........ 148
55-ci fəsil. Qonşuya yaxşılıq etmək barədə tövsiyə ........ 149
56-cı fəsil. Qonşunun haqqı ........ 151
57-ci fəsil. Qonşudan başlamaq ........ 153
58-ci fəsil. Qapısı ən yaxın olan qonşuya hədiyyə vermək ........ 155
59-cu fəsil. Ən yaxın və ən yaxın qonşular ........ 156
60-cı fəsil. Qapını qonşunun üzünə bağlayan kəs ........ 157
61-ci fəsil. *Adam* qonşusu ac ola-ola öz qarnını doydurmamalıdır ........ 159
62-ci fəsil. Xörəyin suyunu çox edib qonşulara da pay vermək ........ 160
63-cü fəsil. Ən xeyirli qonşu ........ 162
64-cü fəsil. Əməlisaleh qonşu ........ 163
65-ci fəsil. Pis qonşu ........ 165
66-cı fəsil. Qonşuya əziyyət verməmək ........ 167
67-ci fəsil. Qadın öz qadın qonşusuna qoç dırnağı verməyi özü üçün əskiklik hesab etməməlidir ........ 172
68-ci fəsil. Qonşunun şikayəti ........ 174
69-cu fəsil. Qonşusu (mənzilini) tərk edənədək ona əziyyət verən kəs ........ 177
70-ci fəsil. Yəhudi qonşu ........ 178
71-ci fəsil. Hörmətli olmaq ........ 179
72-ci fəsil. Həm itaətkara, həm də günahkara yaxşılıq etmək ........ 181
73-cü fəsil. Yetimə baxan kimsənin fəziləti ........ 182
74-cü fəsil. Öz yetiminə baxan kimsənin fəziləti ........ 183

75-ci fəsil. Hər iki valideynini itirmiş yetimə baxan kimsənin fəziləti ... 184
76-cı fəsil. Ən xeyirli ev, içində yetimə yaxşılıq edilən evdir ... 187
77-ci fəsil. Yetimə rəhmli ata kimi ol ... 188
78-ci fəsil. Ərə getməyib (səbir edərək) övladına baxan qadının fəziləti ... 192
79-cu fəsil. Yetimə tərbiyə vermək ... 194
80-cı fəsil. Övladı ölmüş kimsənin fəziləti ... 195
81-ci fəsil. Övladı ana bətnində ölmüş kimsə ... 201
82-ci fəsil. Kölələrlə yaxşı rəftar etmək ... 203
83-cü fəsil. Kölələrlə pis rəftar etmək ... 206
84-cü fəsil. Bədəvi xadimi satmaq ... 208
85-ci fəsil. Xidmətçini əfv etmək ... 210
86-cı fəsil. Kölə oğurluq edərsə, (nə etməli?) ... 213
87-ci fəsil. Günah işlətmiş xidmətçi ... 214
88-ci fəsil. Pis zənnə qapılmamaq üçün xidmətçisini yoxlayan kimsə ... 216
89-cu fəsil. Pis zənnə qapılmamaq üçün xidmətçisinə (verdiklərini) sayan kimsə ... 217
90-cı fəsil. Xidmətçiyə tərbiyə vermək ... 218
91-ci fəsil. "Allah onun üzünü qəbih eləsin!"– demə ... 221
92-ci fəsil. Vurduqda üzə vurmaqdan çəkinmək ... 223
93-cü fəsil. Kim kölənsinin üzünə vurubsa, qoy könüllü olaraq onu azad etsin ... 224
94-cü fəsil. Kölənin qisası ... 227
95-ci fəsil. Özünüz nə geyirsinizsə, kölə və kənizlərinizə də ondan geyindirin ... 230
96-cı fəsil. Köləni söymək ... 232
97-ci fəsil. Köləyə yardım etmək lazımdırmı? ... 233
98-ci fəsil. Köləni gücü çatmadığı bir işlə yükləməmək ... 235
99-cu fəsil. Kişinin öz kölənsinə və xidmətçisinə xərclədiyi (mal) sədəqədir ... 237

100-cü fəsil. Adam öz köləsi ilə birlikdə yemək yeməyi bəyənmirsə (nə etməli?) ..... 240
101-ci fəsil. Öz yediyindən köləyə də yedirtmək ..... 242
102-ci fəsil. Adam yemək zamanı xidmətçisini də yanında oturtmalıdırmı? ..... 243
103-cü fəsil. Kölə öz ağasına nəsihət etdikdə (savab qazanırmı?) ..... 245
104-cü fəsil. Kölə himayəçidir ..... 249
105-ci fəsil. Kölə olmağı arzulayan kimsə ..... 252
106-cı fəsil. (Ağa öz köləsinə) "Qulum!" deməməlidir ..... 253
107-ci fəsil. (Kölə): "Seyidim!" deyə bilərmi? ..... 254
108-ci fəsil. Kişi öz ailəsinin hamisidir ..... 258
109-cu fəsil. Qadın himayəçidir ..... 260
110-cu fəsil. Kimə yaxşılıq edilmişsə, qoy onun əvəzini versin ..... 261
111-ci fəsil. Kim (özünə yaxşılıq etmiş adama) əvəz verməyə bir şey tapmasa, onun üçün dua etsin ..... 263
112-ci fəsil. İnsanlara təşəkkür etməyən kəs ..... 265
113-ü fəsil. Kişinin öz qardaşına köməklik etməsi ..... 267
114-cü fəsil. Dünyada yaxşı əməl sahibləri olmuş kəslər, Axirətdə də yaxşı əməl sahibləri olacaqlar ..... 269
115-ci fəsil. Hər bir yaxşılıq sədəqədir ..... 273
116-cı fəsil. Əziyyət verən şeyi (yoldan) kənar etmək ..... 277
117-ci fəsil. Məruf söz ..... 279
118-ci fəsil. (Kişinin) bostana gedib ailəsi üçün zənbillə çiynində bir şey gətirməsi ..... 282
119-cu fəsil. Məhsuldar yerə getmək ..... 287
120-ci fəsil. Müsəlman öz qardaşının güzgüsüdür ..... 290
121-ci fəsil. Qadağan olunan oyun və zarafat ..... 293
122-ci fəsil. Yaxşı iş görməyə yol göstərən adam ..... 295
123-cü fəsil. İnsanları əfv etmək və qınamamaq ..... 297
124-cü fəsil. İnsanların qeydinə qalmaq ..... 301
125-ci fəsil. Gülümsəmək ..... 308
126-cı fəsil. Gülmək ..... 311

127-ci fəsil. Yönəldikdə tam yönəlmək, üz çevirdikdə tam çevrilmək....314
128-ci fəsil. Məsləhətçi etibar qazanmış adamdır ....315
129-cu fəsil. Məşvərət etmək....318
130-cu fəsil. Qardaşını səhv yola yönəldən kimsənin günahı....319
131-ci fəsil. İnsanların bir-birini sevməsi....321
132-ci fəsil. Ülfət....323
133-cü fəsil. Zarafat etmək....325
134-cü fəsil. Uşaqla zarafat etmək....328
135-ci fəsil. Gözəl əxlaq....329
136-cı fəsil. Nəfsin səxavətli olması....334
137-ci fəsil. Tamahkarlıq....338
138-ci fəsil. Şəriəti anlayan gözəl əxlaq sahibləri....340
139-cu fəsil. Xəsislik....350
140-cı fəsil. Xeyirli mal-dövlət əməlisaleh adama aiddir....352
141-ci fəsil. Əminlik içində səhərə çıxan adam ....354
142-ci fəsil. Əhvali-ruhiyyənin yaxşı olması....356
143-cü fəsil. Çarəsiz adama köməklik göstərmək....359
144-cü fəsil. Əxlaqının gözəl olmasından ötrü Allaha dua edən kimsə....361
145-ci fəsil. Mömin tənə vuran deyil....363
146-cı fəsil. Lənət oxuyan kəs....367
147-ci fəsil. Köləsinə lənət oxuyan, sonra da onu azad edən kəs ....369
148-ci fəsil. Allahın lənəti ilə, Allahın qəzəbi ilə və Cəhənnəm odu ilə lənətləşmək olmaz....370
149-cu fəsil. Kafirə lənət oxumaq ....371
150-ci fəsil. Sözgəzdirən....373
151-ci fəsil. Nalayiq söz eşitdikdən sonra onu yayan adam....375
152-ci fəsil. Eyib tutan adam ....377
153-cü fəsil. Bir-birini təriflmək barədə varid olanlar....382
154-cü fəsil. Dostundan arxayın olub onu tərifləyən kəs ....385
155-ci fəsil. Məddahların üzünə torpaq atmaq....388

156-cı fəsil. Şeirlə tərif deyənlər ........ 393
157-ci fəsil. Şairin şərindən ehtiyat etdikdə, ona bəxşiş vermək ........ 395
158-ci fəsil. Dostuna ağır gələn bir şeylə ona ehtiram göstərmə ........ 396
159-cu fəsil. (Xəstəyə) baş çəkmək ........ 397
160-cı fəsil. Hər hansı bir camaatı ziyarət edib onlarla bərabər yemək yemək ........ 399
161-ci fəsil. Ziyarət etməyin fəziləti ........ 402
162-ci fəsil. Bir camaatı sevən, lakin onların dərəcəsinə çata bilməyən adam ........ 403
163-cü fəsil. Böyüyün fəziləti ........ 405
164-cü fəsil. Böyüyə hörmət göstərmək ........ 407
165-ci fəsil. Danışmağa və sual verməyə böyüklər başlayar ........ 409
166-cı fəsil. Böyük susan yerdə kiçik danışa bilərmi? ........ 411
167-ci fəsil. Böyükləri uca tutmaq ........ 414
168-ci fəsil. Meyvə məclisdə olan uşaqların ən kiçiyinə verilir ........ 417
169-cu fəsil. Kiçiyə rəhm etmək ........ 419
170-ci fəsil. Uşağı qucaqlamaq ........ 420
171-ci fəsil. Kişinin körpə qız uşağını öpməsi ........ 422
172-ci fəsil. Uşağın başını sığallamaq ........ 424
173-cü fəsil. Adamın uşağa: "Oğlum!"– deməsi ........ 426
174-cü fəsil. Yerdəkilərə rəhm et! ........ 430
175-ci fəsil. Əhli-əyala rəhm etmək ........ 433
176-cı fəsil. Heyvanlara rəhm etmək ........ 435
177-ci fəsil. Sərçənin yumurtasını götürmək ........ 439
178-ci fəsil. Qəfəsdə quş saxlamaq ........ 440
179-cu fəsil. Xeyirli söz danışmaqla insanların arasını düzəltmək ........ 441
180-ci fəsil. (Adam) yalan danışmamalıdır ........ 442
181-ci fəsil. İnsanların verdiyi əziyyətlərə səbir edən kimsə ........ 444
182-ci fəsil. Əziyyətlərə səbir etmək ........ 446
183-cü fəsil. Tərəflər arasını düzəltmək ........ 450
184-cü fəsil. Sənə inanan adama yalan söyləmək ........ 452
185-ci fəsil. Qardaşına söz verdikdən sonra vədinə xilaf çıxma! ........ 453

186-cı fəsil. Əsil-nəcabətə tənə vurmaq ... 454
187-ci fəsil. Adamın öz qövmünü sevməsi ... 455
188-ci fəsil. Adamla əlaqəni kəsmək ... 456
189-cu fəsil. Müsəlmanla əlaqəni kəsmək ... 460
190-cu fəsil. (Mömin) qardaşı ilə il boyu əlaqəni kəsmiş adam ... 465
191-ci fəsil. Bir-birindən küsənlər ... 466
192-ci fəsil. Nifrət bəsləmək ... 467
193-cü fəsil. Salam vermək əlaqələri kəsməyin qarşısını alır ... 472
194-cü fəsil. Gənclər arasında olan təfriqə ... 473
195-ci fəsil. (Görəcəyi işdə) məsləhət almayan qardaşına məsləhət verən kimsə ... 474
196-cı fəsil. Pis məsəllər çəkməyi xoşlamayan kəs ... 475
197-ci fəsil. Hiylə qurmaq və aldatmaq barədə deyilənlər ... 476
198-ci fəsil. Söyüş söymək ... 477
199-cu fəsil. Su vermək ... 479
200-ci fəsil. Söyüşən iki nəfərin günahı birinci başlayanın üzərinə düşər ... 480
201-ci fəsil. Söyüşən iki nəfər, bir-birinə pis-pis sözlər deyən və bir-birinə yalan söyləyən iki şeytandır ... 482
202-ci fəsil. Müsəlmanı söymək fasiqlikdir ... 484
203-cü fəsil. Adamın xətasını camaat arasında onun üzünə vurmayan kəs ... 489
204-cü fəsil. Dediyinin mənasını yozaraq başqasına: "Ey münafiq"– deyən kəs ... 491
205-ci fəsil. (Din) qardaşına: "Ey kafir"– deyən kəs ... 494
206-cı fəsil. Düşmənlərin sevinməsi ... 497
207-ci fəsil. Malı israf etmək ... 498
208-ci fəsil. İsrafçılar ... 501
209-cu fəsil. Mənzilləri sahmana salmaq ... 502
210-cu fəsil. Binaya xərclənən vəsait ... 504
211-ci fəsil. Adamın öz işçiləri ilə birgə işləməsi ... 505
212-ci fəsil. Hündür binalar tikməkdə rəqabət aparmaq ... 506

213-cü fəsil. Ev tikən adam ........ 509
214-cü fəsil. Geniş ev ........ 512
215-ci fəsil. Otaqlar tikmək ........ 513
216-cı fəsil. Binalar üzərində naxışlar açmaq ........ 515
217-ci fəsil. Mülayimlik ........ 518
218-ci fəsil. Dolanışıqda yumşaq davranmaq ........ 524
219-cu fəsil. Bəndəyə mülayimliyinə görə verilən mükafat ........ 525
220-ci fəsil. Rahatlaşdırmaq ........ 526
221-ci fəsil. Kobudluq ........ 527
222-ci fəsil. Mal istehsal etmək ........ 529
223-cü fəsil. Məzlumun duası ........ 532
224-cü fəsil. Bəndənin Allahdan ﷻ Onun buyurduğu kimi ruzi diləməsi: "Bizə ruzi ver, Sən ruzi verənlərin ən yaxşısısan!" ........ 533
225-ci fəsil. Zülm zülmətlərdir ........ 534
226-cı fəsil. Xəstənin kəffarəsi ........ 547
227-ci fəsil. Gecə vaxtı xəstəyə baş çəkmək ........ 553
228-ci fəsil. Xəstəyə sağlam ikən yerinə yetirdiyi ibadətin savabı yazılır ........ 557
229-cu fəsil. Xəstənin: "Canım ağrıyır!"– deməsi şikayət sayıla bilərmi? ........ 564
230-cu fəsil. Bayılan adama baş çəkmək ........ 567
231-ci fəsil. Uşaqlara baş çəkmək ........ 569
232-ci fəsil. ........ 571
233-cü fəsil. Bədəvilərə baş çəkmək ........ 572
234-cü fəsil. Xəstələrə baş çəkmək ........ 574
235-ci fəsil. Xəstəyə baş çəkən adamın dua edib (Allahdan) onun üçün şəfa diləməsi ........ 579
236-cı fəsil. Xəstəyə baş çəkməyin fəziləti ........ 581
237-ci fəsil. Xəstəyə və ona baş çəkənlərə hədis danışmaq ........ 583
238-ci fəsil. Xəstənin yanında namaz qılan kəs ........ 584
239-cu fəsil. Müşrikə baş çəkmək ........ 585
240-cı fəsil. Xəstəyə baş çəkən adam ona nə deyir ........ 586

241-ci fəsil. Xəstə (ona baş çəkən adama) nə cavab verir ..... 589
242-ci fəsil. Fasiqə baş çəkmək ..... 590
243-cü fəsil. Qadınların xəstə kişiyə baş çəkməsi ..... 591
244-cü fəsil. (Xəstəyə) baş çəkən adamın (bu əsnada) evdə artıq şeylərə baxmasının bəyənilməməsi ..... 592
245-ci fəsil. Göz xəstəliyinə tutulan kimsəyə baş çəkmək ..... 593
246-cı fəsil. Xəstəyə baş çəkən adam harada oturmalıdır? ..... 595
247-ci fəsil. Kişinin öz evində gördüyü işlər ..... 596
248-ci fəsil. Adam öz (mömin) qardaşını sevirsə, bunu ona bildirməlidir ..... 598
249-cu fəsil. Adam bir adamı sevsə, onunla münaqişə etməsin və onun barəsində sorğu-sual aparmasın ..... 601
250-ci fəsil. Ağıl qəlbdədir ..... 603
251-ci fəsil. Təkəbbürlük ..... 605
252-ci fəsil. Adamın özünə qarşı olan haqsızlığa görə əvəz çıxması ..... 616
253-cü fəsil. Qıtlıq və aclıq dövründə bir-birinə əl tutmaq ..... 619
254-cü fəsil. Təcrübələr ..... 623
255-ci fəsil. Allah rizası üçün sevdiyi qardaşına yemək verən kimsə ..... 625
256-cı fəsil. Cahiliyyət dövründəki andlaşma ..... 626
257-ci fəsil. Qardaşlıq münasibəti qurmaq ..... 628
258-ci fəsil. İslamda andlaşma yoxdur ..... 629
259-cu fəsil. Yağış təzəcə yağmağa başladıqda, islanan kimsə ..... 631
260-cı fəsil. Həqiqətən, qoyunda bərəkət vardır ..... 632
261-ci fəsil. Dəvə öz sahibi üçün izzətdir ..... 634
262-ci fəsil. Bədəvilik ..... 637
263-cü fəsil. Kəndlərdə məskunlaşmaq ..... 638
264-cü fəsil. Axar sular kənarındakı vadiyə çıxmaq ..... 640
265-ci fəsil. Sirr saxlamağı (xoşlayan), habelə, hər bir toplumun əxlaqını öyrənmək üçün onlarla oturmağı sevən kimsə ..... 641
266-cı fəsil. İş görəndə tələsməmək ..... 643

267-ci fəsil. İş görəndə həlim olmaq ... 645
268-ci fəsil. Təcavüz etmək ... 648
269-cu fəsil. Hədiyyəni qəbul etmək ... 653
270-ci fəsil. Qəzəbləndiyi kimsədən hədiyyəni qəbul etməyən kəs ... 654
271-ci fəsil. Həyalı olmaq ... 656
272-ci fəsil. Səhərə çıxanda nə deyilməlidir ... 666
273-cü fəsil. Başqa birisi üçün ayrıca dua edən kimsə ... 668
274-cü fəsil. Yalnız səmimiyyətlə edilən dualar (qəbul olunur) ... 670
275-ci fəsil. İnsan qətiyyətlə dua etməlidir, çünki Allahı məcbur edən yoxdur ... 672
276-cı fəsil. Dua edərkən əlləri qaldırmaq ... 674
277-ci fəsil. İstiğfarın ən fəzilətlisi ... 681
278-ci fəsil. (Adamın) yanında olmayan (mömin) qardaşı (üçün) dua etməsi ... 689
279-cu fəsil. ... 692
280-ci fəsil. Peyğəmbərə ﷺ salavat vermək ... 702
281-ci fəsil. Peyğəmbər ﷺ yada salındıqda (bunu eşidib) ona salavat gətirməyən kimsə ... 705
282-ci fəsil. Məzlumun, ona zülm etmiş zalımın əleyhinə dua etməsi ... 710
283-cü fəsil. Ömrünün uzadılması üçün dua edən kimsə ... 713
284-cü fəsil. "Tələsməyən bəndənin duası qəbul olunar"– deyən kəs ... 715
285-ci fəsil. Tənbəllikdən Allaha sığınan kimsə ... 716
286-cı fəsil. Allahdan istəməyən kimsəyə Allah qəzəblənər ... 717
287-ci fəsil. Allah yolundakı (cihad zamanı) səflərdə edilən dua ... 719
288-ci fəsil. Peyğəmbərin ﷺ duaları ... 720
289-cu fəsil. Yağış yağanda edilən dua ... 739
290-cı fəsil. Ölüm diləmək ... 740